AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASI

KƏRİMOV CƏLİL
ORUCOV AYAZ
İSRAFİLOV HƏSƏN

DÜNYA İQTİSADİYYATI

Dərslik

(İkinci nəşri)

Təkmilləşdirilmiş və
əlavə mövzular daxil edilmişdir

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
06.11.2001-ci il tarixli
1091 saylı əmri ilə təsdiq edilmişdir

BAKI – 2009

Kitabın nəşrinə köməklik göstərdiyinə görə Orucov Akif İsmayıl oğluna öz təşəkkürümüzü bildiririk.

Müəlliflər

Redaktorlar: **Səfərov Səttar İsmayıl oğlu**, i.e.d., prof.
Gənciyev Gəncəli Əziz oğlu, i.e.d., prof.

Rəyçilər: **Atakişiyev Müşviq Cəmil oğlu**, i.e.d., prof.
Süleymanov Qəzənfər, i.e.d., prof.

Kərimov Cəlil,, i.e.n.; Orucov Ayaz, i.e.n.; İsrafilov Həsən, i.e.n. (IV, V, VIII fəsillər – Kərimova Tahirə; XXXV fəsil – Məhərrəmova V.T., i.e.n.). Dünya iqtisadiyyatı. Dərslik, Bakı, «Nurlan», 2009, 728 s.

$C\frac{46030000-62}{N-098-2009}$ Qrifli nəşr

© "Nurlan" nəşriyyatı, 2001
© C.Kərimov, 2007
© C.Kərimov, 2009

ÖN SÖZ

Hazırda bir çox ali təhsil ocaqlarında «Dünya iqtisadiyyatı» fənni tədris olunur. Lakin bu barədə kifayət qədər nə dərs vəsaiti, nə də lazımi səviyyədə proqram, metodiki göstəriş yoxdur. Çox qanunauyğun haldır ki, ayrı-ayrı tədris ocaqları əvvəlki vahid-şablonçuluqdan azad olaraq özlərinin istiqamətlərini, dərs yükünün həcmini əsas götürmək imkanı əldə etmislər. Bu əsasda da müəyyən fənnlər üzrə mühazirə toplusu, dərslik, dərs vəsaiti, proqram və s. hazırlamaq təşəbbüsü genişlənmişdir.

Bu mənada ADNA-nın «nəzəri iqtisad» kafedrası ilə Azərbaycan Dövlət İqtisad Universitetinin «Beynəlxalq iqtisadi münasibətlər» kafedrasının birlikdə hazırladığı «Dünya iqtisadiyyatı» fənni üzrə dərslik böyük əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, müasir şəraitdə «Dünya iqtisadiyyatı» fənninin ayrıca öyrənilməsi, tələblərin ictimai-iqtisadi biliklərinin artırılmasında böyük rol oynaya bilər.

Burada vahid dünya təsərrüfatı anlayışının, dünya təsərrüfatı yaranması qanunauyğunluqlarının, dünyanın ayrı-ayrı yarım sistemlərə ayrılması prinsiplərinin, müxtəlif iqtisadi inkişaf modellərinin, dünya təsərrüfatının inkişaf qanunauyğunluqlarının, hər hansı bir ölkənin müvəffəqiyyətlərinin və yaxud böhrandan çıxma yollarının öyrənilməsi gənclərin dünya haqqındakı biliklərini artırmaqla yanaşı, onların gələcək praktiki işində də əsas götürülə bilər.

Dərsliyin müəllifləri uzun illər (30 ildən artıqdır) «nəzəri iqtisad»ın tədrisi ilə məşğul olduğu üçün hər bir problemin şərhində rəkkəb müddəalar əsas yer tutur.
mından ***Müəlliflər səmimiyyətlə etiraf edir ki, dərsliyin hazırlanma***iqtis***sında adları sadalanan ədəbiyyatlardan geniş istifadə edilmişdir.***

Dərslik bütün oxucular, iqtiadçılar, tələbələr, aspirant və müəllimlər üçün çox faydalıdır.

I FƏSİL
VAHİD DÜNYA TƏSƏRRÜFATI SİSTEMİ

1. *Vahid dünya təsərrüfatı anlayışı. Dünya təsərrüfatının subyektləri.*
2. *Dünya iqtisadiyyatı fənninin predmeti və metodu.*
3. *Dünya təsərrüfatının yarımsistemlərə ayrılması meyarı.*
4. *Dünya təsərrüfatı inkişafının əsas göstəriciləri.*

1. Vahid dünya təsərrüfatı anlayışı. Dünya təsərrüfatının subyektləri

2005-ci ilin məlumatına görə

Yer kürəsinin səthi	510 mln. kv. km
O cümlədən:	
dəniz və dəryalar	361 mln. kv. km
quru sahə	149 mln. kv. km
dünyanın ümumi torpaq fondu	134 mln. kv. km
Cəmi kənd təsərrüfatına yararlı torpaq sahəsi	51 mln.kv. km
Cəmi meşə örtüyü	40,1 mln. kv. km
Dünya üzrə müstəqil dövlətlərin sayı	
1900-cü ilə	57
1947-ci ilə	76
2000-ci ilə	192

Hazırda dünyada (əhalisi 10 min nəfərdən artıq) 210 dövlət vardır. Başqa böyük dövlətlərin tabeçiliyində də 40-adək ərazi və dövlət mövcuddur.

Dünya dövlətlərinin ərazisi	135,8 mln. kv. km
O cümlədən:	
Avropa	10,5 mln.kv.km
Asiya	44,4 mln.kv.km
Amerika	42,1 mln.kv.km
Afrika	30,3 mln.kv.km
Avstraliya	8,5 mln.kv.km
Dünya üzrə ÜDM-in həcmi	
1-ci min illikdə	17 mrd.dol.
2000-ci ildə	32 trl.dol.
2005-ci ildə	44454,8 mlrd.dol.
Dünya üzrə əhalinin sayı	6464,8 mln.nəf.
Orta hesabla hər nəfərə düşən ÜDM	6876,4 dol.

Ümumdünya Bankının statistik məlumatına görə, müasir dünya özündə 210 dövlət və ərazini birləşdirir. Hər bir ölkə özünün müxtəlif cəhətləri ilə fərqlənir. Bu müxtəliflik tarixi inkişafın gedişində ayrı-ayrı ölkələrin coğrafi vəziyyəti, ərazisinin həcmi, əhalisinin miqdarı, iqlim şəraiti, təsərrüfatçılıq ənənəsi və bu kimi amillərin təsiri altında yaranmışdır. Lakin bununla yanaşı bütün dövlətlər üçün ümumi cəhət ondan ibarətdir ki, onların bərqərar olmasının əsasında təsərrüfatçılıq fəaliyyəti, təbiət qüvvələrinin uyğunlaşdırılması, səfərbər edilməsi və s. dayanır.

Bu milli ölkələr öz miqyasına, aparıcı, qabaqcıl sahələrinə, sosial-iqtisadi quruluşuna, iqtisadiyyatın effektivliyinə görə də fərqlənirlər.

Onlar biri-birindən heç də təcrid edilmiş şəkildə deyil, **məcmu halında, qarşılıqlı şəkildə mövcuddurlar**. Odur ki, **dünya iqtisadiyyatı milli təsərrüfatların sadəcə cəmini deyil, onların qarşılıqlı, əlaqəli fəaliyyətini, əməkdaşlığını, beynəlxalq əmək bölgüsü əsasında inkişafını, beynəlmiləlləşmə prosesinin məcmusunu nəzərdə tutur**.

İqtisadi ədəbiyyatlarda, eləcə də gündəlik mətbuatda "Dünya iqtisadiyyatı" və yaxud "dünya təsərrüfatı" anlayışları çox geniş istifadə olunur. Bu da onu göstərir ki, dünya öz mürəkkəbliyi və ziddiyyətliyi ilə yanaşı iqtisadi münasibətlər baxımından müəyyən vahidliyə, bütövlüyə malikdir. Ümumiyyətlə iqtisadi ədəbiyyatlarda "Dünya iqtisadiyyatı" və yaxud "Dünya təsərrüfatı" anlayışı barədə vahid fikir formalaşmamışdır. Bu anlayış daha geniş əhatə dairəsinə malikdir. Odur ki, bu sahədə məşğul olan tədqiqatçılar bir neçə cəhəti əsas götürürlər.

Daha doğrusu "Dünya iqtisadiyyatı" anlayışının şərhinə müxtəlif səpgidə yanaşırlar. Bunlardan:

1. **Dünya təsərrüfatı bir-biri ilə beynəlxalq əmək bölgüsü sistemi əsasında yaranan** milli təsərrüfatların iqtisadi və siyasi münasibətlərinin məcmusu kimi ifadə edilir.

"Dünya təsərrüfatı" anlayışına olan bu yanaşmada milli ölkə (təsərrüfat) əsas götürülür. Həmin ölkənin məhsulunun daxili və yaxud xarici bazara çıxarılması vurğulanmır. Belə olduqda dünya təsərrüfatının gələcək inkişafı, qarşılıqlı əlaqələri və s. o qədər də açıqlanmır.

2. **Digər yanaşmaya görə "Dünya iqtisadiyyatı" milli təsərrüfatlar arasında hərtərəfli əlaqəyə əsaslanan «beynəlxalq iqtisadi qarşılıqlı münasibətlər sistemi» kimi şərh olunur**. Belə bir fikri bir çox qərb tədqiqatçıları da müdafiə edirlər. Çünki Beynəlxalq İqtisadi Sistem - ticarəti, maliyyə münasibətlərini, kapital ehtiyatlarının və işçi qüvvəsinin qeyri bərabər bölgüsünü də özündə əks etdirir. Milli təsərrüfatlar arasında hərtərəfli əlaqə əks olunur

3. **Dünya təsərrüfatı anlayışına daha geniş mənada** yanaşmaqla ona məhsuldar qüvvələr, istehsal münasibətləri və eləcə də üstqurum münasibətlərinin özü-özünü təkrar istehsal etməsi iqtisadi sistemi kimi baxırlar. **Bütün bu qeyd edilənlərdən görünür ki, "Dünya təsərrüfatı" qlobal bir iqtisadi orqanizm kimi bir-biri ilə qarşılıqlı fəaliyyətdə və asılılıqda olan milli iqtisadiyyatların məcmusundan ibarətdir.** Burada hər cür maddi bazanın, müxtəlif mülkiyyət formalarının fəaliyyətindəki təkrar istehsal proseslərini əks etdirən təsərrüfatların əsas tərkib hissələri ifadə olunur. Məhz bu vahid - bütöv sistemin mövcudluğunun əsasını həmin tərkib hissələrinin iqtisadi qarşılıqlı əlaqələri təşkil edir. Ancaq bu cür qarşılıqlı əlaqə nəticəsində qlobal miqyasda təkrar istehsalın və vahid sistemin fəaliyyəti mümkündür. Dünya təsərrüfatının bu cür vahidliyi, bütövlüyü təkrar istehsalın dinamikliyi, əmtəə-pul münasibətlərinə və müxtəlif qiymətlərə əsaslanan milli və beynəlxalq bazarlarla təmin edilmiş olur. Ən geniş mənada bazar əmtəə və xidmətlərin mübadiləsi prosesində yaranan iqtisadi, sosial və siyasi münasibətlərin məcmusundan ibarətdir.

Dünya iqtisadiyyatının formalaşması qanunauyğunluqlarının təsiri altında bazar, ayrıca müstəqil bir kateqoriya kimi çıxış edir. Beləliklə bazar, təkrar istehsalın bir mərhələsi olmaqla, onun digər ünsürləri (fazaları) olan istehsal, bölgü və istehlakla qarşılıqlı fəaliyyət göstərir. Dünya iqtisadiyyatı bir çox ünsürləri, cəhətləri, xüsusiyyətləri özündə cəmləşdirdiyinə görə mürəkkəb sistem hesab olunur. Burada iyerarxiya, çox səviyyəlik, struktur baxımından daxili ünsürlər mövcuddur:

- Məlumdur ki, dünyada iqtisadi qüvvələr çox qeyri-bərabər bölünübdür. Bölünübdür dedikdə, aydındır ki, bu qüvvə elə belə bölünüb verilmir, təbii sərvətlərin olması ilə yanaşı bu qüvvə əsasən qazanılır, əldə edilir. Hazırda ABŞ, Yaponiya və Almaniya dünya əhalisinin təqribən 9-%-nə malik olduğu halda, dünya üzrə olan gəlirin 50%-ni öz əlində cəmləşdirirlər. Bütün dünyanın cəmi alıcılıq qabiliyyətinin 33%-nə sahibdirlər.

- Sistemin əsasını beynəlxalq və ayrı-ayrı milli dövlətlərin maddi və mənəvi nemətlərinin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı təşkil edir. Dünya üzrə olan bu təkrar istehsal prosesinin hər bir fazası qlobal miqyasda və eləcə də milli çərçivədə öz yerləşdiyi yerdən və rolundan asılı olaraq dünya təsərrüfatının gedişinə, fəaliyyətinə təsir göstərir. Dünya təsərrüfatı özünə məxsus inkişaf xəttinə malik olsa da, hər halda o, milli təsərrüfatların inkişafından kənarda qala bilməz. Beləliklə, dünya sisteminin inkişaf xəttinə bir mənalı yanaşmaq olmaz. Müəyyən mənada burada ümumi məqsəd nəzərdə tutulur. Bu ümumi məqsəd dünya sisteminin inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir. Bu sistemin daxilində xüsusiləşmiş bölmələr, yarımsistemlər mövcud ola bilər. Bunlar spesifik xarakter daşısalar da, bütövlükdə sistemin məqsədinə tabe olurlar. **Digər mənada yanaşdıqda isə dünya sisteminə müxtəlif məqsəd nəzərdə tutan yarımsistemlərin məcmusu kimi də baxmaq olar.** Lakin bu yarımsistemlər bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla bir-birinə təsir edə bilirlər. Bu cür sturuktura malik olan sistem müvəqqəti və keçici xarakter daşıyır. Ayrı-ayrı yarımsistemlərin məqsədinin hakim olmasına əsaslanan vahid sistem çox yaşaya bilməz.

MDB sistemini buna misal çəkmək çox yerinə düşər. Bu sistemdə vahid məqsəd deyil. Rusiyanın müəyyən məqsədləri ön planda nəzərdə tutulduğuna görə, məhz həmin sistem formalaşa bilmir.

- Dünya iqtisadiyyatı vahid sistem kimi ümumi məqsəd nəzərdə tutur. O, öz fəaliyyətinin əsas istiqamətini insan tələbatının ödənilməsinə yönəldir. Lakin hər bir yarımsistemdə bu məqsəd müxtəlif sosial-iqtisadi şəraitin təsiri altında müxtəlif cür formalaşa bilər. Hər bir yerdə yeni müəssisələr yaradılması məqsəd ola bilməz, onlar insanların həyat şəraitinin yaxşılaşmasına yönəldilməlidir.

- Dünya iqtisadiyyatı vahid sistem kimi müəyyən qaydaya, nizama əsaslanmalıdır. Burada beynəlxalq və əlahiddə hüquqlar əsas götürülür. Bu hüquqlar dövlətlərarası, iqtisadi birliklərarası, hüquqi və fiziki şəxslərarası iqtisadi münasibətləri tənzimləməlidir. Beynəlxalq sazişlərə və adi qaydalara riayət olunması ilə, hər bir milli dövlət və eləcə də bu sahədə yaranan beynəlxalq təşkilatlar tərəfindən təmin edilir.

- **Dünya təsərrüfatı tarixi və siyasi-iqtisadi bir kateqoriyadır**. Bu mənada qeyd etmək olar ki, hər bir konkret tarixi mərhələyə xas olaraq istehsalın, təsərrüfat həyatının beynəlmiləlləşməsinin səviyyəsi, miqyası və eləcə də sosial iqtisadi quruluşu mövcuddur.

- Dünya təsərrüfatının ayrı-ayrı ünsürləri arasındakı münasibətlər müəyyən səviyyədə (iyerarxiya) baş verə bilər. Dövlətlər arasındakı münasibətlər beynəlxalq səviyyə təşkil edir. Bu səviyyə beynəlxalq hüquq və normalar ilə tənzim edilir. Milli sərhədləri keçən, fəaliyyət dairələrini genişləndirənlər - trans-milli səviyyə üzrə yaranmış münasibətə əsaslanırlar. Bura bir çox qeyri-formal fəaliyyətdə narkotik maddələr, gizli silah satışı, gizli miqrasiya və s.-də daxildir. Dünya təsərrüfatının bir çox bu kimi ünsürləri eyni vaxtda fəaliyyət göstərirlər. Bunların arasında istər-istəməz müəyyən toqquşmalar, razılaşmalar, birləşmələr mövcud olur. Onlar müəyyən sahədə istehsalın və satışın az əllərdə cəmləşməsinə nail ola bilirlər.

- **Sosial-iqtisadi planda da dünya təsərrüfatı eyni mənalı deyildir**. Burada əsas yeri sənayecə inkişaf etmiş qərb dövlətləri tutur. Buna birinci dünya deyirlər. İnkişaf etməkdə olan ölkələr xüsusi yerə malik olub - üçüncü dünya adlanırlar. Bu ölkələrin iqtisadiyyatı sənaye ölkələrindən asılı vəziyyətdə olaraq qalırlar. Keçid iqtisadiyyatında olan Şərqi Avropa ölkələri və bir çox dövlətlər də spesifik xarakterə malikdirlər.

Beləliklə bütünlükdə dünya təsərrüfatı mürəkkəb sosial-iqtisadi bir varlıqdan ibarətdir. **Dünya təsərrüfatı beynəlxalq iqtisadi münasibətlərin obyektiv əsasını təşkil edir və onun əsas komponenti hesab edilir.** Dünya təsərrüfatı çərçivəsində beynəlxalq əmək bölgüsü - ticarəti, istehsalı, maliyyəsi, elmi-texniki əlaqələri vahid şəkildə birləşdirir.

Bütün bu qeyd etdiklərimizdən aydın olur ki dünya təsərrüfatının quruluşu öz mürəkkəbliyi ilə də səciyyələnir. Dünya təsərrüfatının quruluşu dedikdə elə onun iqtisadi subyektləri nəzərdə tutulur. Burada əsas subyekt milli dövlətlə hesab edilir. Eləcə də hər cürə təsərrüfat birlikləri,- səhmdar cəmiyyətləri, istehsal kooperativləri, dövlət və bələdiyyə müəssisələri, qarışıq kapitala əsaslanan müəssisələr, qeyri-kommersiya təşkilatı olan istehlak kooperativləri də subyekt kimi çıxış edirlər.

Dünya təsərrüfatının subyektlərindən TMK-lar, TMB-lar, transmilli investisiya institutları – sığorta kompaniyaları, qeyri-dövlət pensiya fondları, kollektiv investisiya həyata keçirən kompaniyalar, transmilli maliyyə-sənaye qrupları (TMMSQ), Dünya maliyyə mərkəzləri. Böyük Birjalar və s. daha böyük əhəmiyyətə malikdirlər. Nisbətən daha geniş şərh etdikdə bu subyektlərin sayını istənilən qədər artırmaq olar. Belə ki, məsələn:

- ölkə daxilində olan (müstəqil dövlət sayılmayan) ərazilər. Məs.: Hon-Konq;
- dünya bazarına daxil ola bilən ərazi və yerli orqanlar;
- müxtəlif maliyyə və qiymətli kağızlar bazarlarını tənzimləyən peşəkar təşkilatlar (müştərilərin mənafeyinin müdafiə edilməsi, peşəkar etika qaydalarına riayət edilməsi və s.);
- Sahibkarlar İttifaqları;

- ticarət palataları;
- Həmkarlar İttifaqları;
- beynəlxalq iqtisadi və maliyyə institutları (beynəlxalq təşkilatlar);
- regional inteqrasiya birlikləri;
- qeyri-dövlət beynəlxalq təşkilatları və s. Qeyd etməliyik ki, bu qeyri-dövlət təşkilatları beynəlxalq iqtisadi hüquq normalarının yaradılması prosesində fəal iştirak edirlər.

Beləliklə, təsərrüfatçılıq subyektlərinin çoxluğu bütün iqtisadi aləmi dəyişdirir, təzələyir. Bu təsərrüfat subyektləri arasındakı qarşılıqlı münasibətlərin xarakterində keyfiyyət dəyişiklikləri artır.

2. Dünya iqtisadiyyatı fənninin predmeti və metodu

Vahid dünya təsərrüfatı sistemi haqqında tam təsəvvür əldə etdikdən sonra, bu elmin predmeti və metodunun iqtisadi məzmununu daha hərtərəfli araşdırmaq zərurət təşkil edir.

«Dünya iqtisadiyyatı» elminin tədqiqat obyekti milli təsərrüfat bazasına əsaslanan dünya iqtisadiyyatından ibarətdir.

Bu elmin predmeti dünya iqtisadiyyatını təşkil edən milli iqtisadi sistemlərin məcmusundan ibarət olub, bütün iqtisadi proseslərin qarşılıqlı əlaqə və asılılığını, təsərrüfat subyektlərinin qanunauyğun fəaliyyətini əks etdirir. Deməli **bu elmin predmeti dünya təsərrüfatı proseslərinin iqtisadi inkişaf meyllərinin, onların qarşılıqlı əlaqə və asılılıqlarının, bu proseslərin qanunauyğun və dinamik olmasının nəzəri inhikasıdır – nəzəri ifadəsidir.**

Buradan da aydın olur ki, dünya iqtisadiyyatı barədə nəzəri müddəalar və yaxud nəzəriyyə nəzəri iqtisadın tərkib hissəsidir. Nəzəri iqtisad cəmiyyətin inkişafında maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı baxımından iqtisadi münasibətləri öyrənirsə, dünya iqtisadiyyatı da istehsal, bölgü, mübadilə və istehlak baxımından ölkələr arasındakı münasibətləri öyrənir.

Burada ayrı-ayrı ölkələr arasında yaranan böyük inteqrasiya birlikləri, ticarət əlaqələri, maliyyə münasibətləri, istehsal amillərinin hərəkəti,təsərrüfat subyektlərinin qarşılıqlı fəaliyyəti və s. proseslər milli çərçivədən beynəlxalq miqyasa yüksəlir və beynəlxalq münasibətləri əks etdirir.

«Dünya iqtisadiyyatı» elminin predmeti BİM-in öyrəndiyi predmetlə daha yaxındır.

Çünki hər iki elm sahəsi dünya ölkələri və dünya iqtisadiyyatı sistemində yaranan qarşılıqlı əlaqə və asılılıqlara, münasibətlərə əsaslanır.

Bununla yanaşı biz dünya iqtisadiyyatına milli iqtisadi sistemlərin mürəkkəb bir məcmusu kimi baxdığımız halda, beynəlxalq iqtisadi münasibətlər anlayışına başqa cür yanaşırıq.

BİM – bütövlükdə dünya iqtisadiyyatının və onun ayrı-ayrı ünsürlərinin fəaliyyəti prosesində baş verən qarşılıqlı əlaqə və asılılıqları öyrənir.

Daha doğrusu burada ayrı-ayrı **milli dövlətlər arasındakı elmi-texniki, istehsalın idarə edilməsi, kommersiya, valyuta-maliyyə və pul-kredit əlaqələri, eləcə də beynəlxalq təşkilatların fəaliyyəti BİM-in predmetini təşkil edir.** BİM-in predmetində Beynəlxalq iqtisadiyyat – TMK-ın fəaliyyəti də böyük rola malikdir.

Onu da qeyd etməliyik ki, müəyyən mənada **Dünya təsərrüfatı özlüyündə BİM barədəki nəzəriyyənin obyektidir. BİM-in təkamül inkişafı dünya iqtisadiyyatının formalaşmasında böyük rol oynamışdır.**

Dünya iqtisadiyyatının vahid şəkildə formalaşması isə BİM-in müstəqil bir iqtisadi sistem kimi inkişafına yol açmışdır.

Beləliklə, BİM – dünya iqtisadiyyatı inkişafının ilkin şərti, tərkib hissəsi və nəticəsi hesab edilir.

Dünya iqtisadiyyatının öyrənilməsi metodu.

Dünya iqtisadiyyatı və eləcə də BİM-in inkişafı barədəki nəzəri müddəalar nəzəri iqtisadın ümumi müddəalarının tərkib hissəsidir. Odur ki, dünya iqtisadiyyatının öyrənilməsi nəzəri iqtisadda olduğu kimi «elmi abstraksiya», «təhlil və sintez»,

«məntiqi və tarixi», «induksiya[1] və deduksiya[2]», «dialektik-materialist» metodlara əsaslanır.

Qeyd etməliyik ki, metod fəaliyyət üsulu olmaqla yanaşı, həm də biliyin xüsusi formasıdır.

Metod elmi tədqiqatın praktikasına doğru istiqamətləndirilmiş nəzəriyyədir. Metod və nəzəriyyə biri-birindən ayrılıqda deyil, birlikdə formalaşıb inkişaf edir.

Dünya iqtisadiyyatının öyrənilməsi də metodologiyanın ən ümumi dialektik prinsiplərinə əsaslanır və nəzəri müddəalarla işıqlandırılır.

Bu prinsiplər aşağıdakılardır: obyektivlik, sistemlik, ardıcıllıq, tarixilik, məntiqlik, ziddiyyətlilik, inkar etmək, qarşılıqlı əlaqə və qarşılıqlı təsir, nisbi sabitlik, varislik, zərurətin qarşısı alınmazlığı, idrakın mücərrəddən konkretə, sadədən mürəkkəbə, asandan çətinə, adidən aliyə yüksəlməsi və s. və i.a.

Beləliklə, tam qətiyyətlə deyə bilərik ki, hər bir elmin – o cümlədən «Dünya iqtisadiyyatı» elminin də predmeti onun metodu ilə bir vəhdəd təşkil edir.

Belə ki, «Dünya iqtisadiyyatı» fənninin tədqiqat və şərh etmə metodunu dərindən bilmədən, onun predmetini (nəyi öyrənməsini) bir sistem halında müəyyən etmək və eləcə də, ölkələr arasındakı inkişaf qanunauyğunluqlarını və ziddiyyətləri aşkara çıxarmaq olmaz.

Bu fənnin araşdırılmasında bütövlükdə iqtisad elminin nəzəri əsası olan **«nəzəri iqtisad»** elminin müddəaları əsas götürülmüşdür.

Bu müddəalar və ümumi metodologiya əsasında bir çox hallarda ümumi problemlərin şərhindən xüsusi hallara doğru, eləcə də ayrı-ayrı subyektlərin şərhindən ümumi nəticələr çıxarılmasına doğru yanaşma müşahidə olunur.

[1] İnduksiya – lat. «yönəltmə».

[2] Deduksiya – lat. «hasil etmə».

3. Dünya təsərrüfatının yarımsistemlərə ayrılması meyarı

Dünya təsərrüfatının yarımsistemləri və yaxud yarımqrup ölkələri dedikdə ilk növbədə ümumi şəkildə: 1) iqtisadi cəhətdən inkişaf etmiş ölkələr (İEÖ); 2) inkişaf etməkdə olan ölkələr (İEOÖ); 3) keçid iqtisadiyyatı ölkələri nəzərdə tutulur.

Bu yarımqrup ölkələrin geniş izahı ayrılıqda verildiyinə görə burada açıqlama verilmir.

Aydındır ki, ictimai-iqtisadi inkişafın bu və ya digər mərhələsində, müəyyən qanunauyğunluqların təsiri və yaxud tələbləri ilə yuxarıdakı yarımqrupların özündə yeni qruplaşmalar da yaranır. Məsələn, İEOÖ-dən «yeni sənaye ölkələri» ayrılır və yaxud neft ixrac edən ölkələr və s.

Deməli, biz dünya iqtisadiyyatını milli ölkələr səviyyəsində, milli dövlətlərin birliyi səviyyəsində və eləcə də yarımqrup (qrup-qrup) ölkələr səviyyəsində öyrənirik.

Beləliklə, dünya təsərrüfatı vahid (bütöv) bir sistem olmaqla müxtəlif hissələrdən, yarımsistemlərdən ibarətdir. Bu yarımsistemlər müəyyən ümumi və fərqli cəhətlərə malik olub öz inkişaflarında həm ümumi qlobal sistemin ümumi məqsədini izləməli olurlar, həm də özlərinə xas olan vəzifəni həll etməli olurlar. Bu mənada onlara həm daxili, həm də xarici qanunauyğunluqlar təsir etmiş olur.

Dünya təsərrüfatında müəyyən yarımsistemlər ayırmaq üçün bir çox meyarlar tətbiq edilir. Bunlardan:

- iqtisadi inkişaf səviyyəsi;
- iqtisadiyyatın sosial quruluşu;
- iqtisadi artımın tipləri;
- xarici iqtisadi əlaqələrin vəziyyəti və s.

Aydındır ki, bu dörd qrup meyarın hər biri özündə kifayət qədər göstəricini, müxtəlif amilləri birləşdirir.

1. Yarımsistemin müəyyən edilməsində istifadə olunan əsas meyarlardan daha çox yayılanı iqtisadi inkişaf səviyyəsidir.

Bu meyar ümumiyyətlə əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun - (ÜDM) həcmi ilə müəyyən edilir. Bununla yanaşı hər bir ölkənin inkişafının sənayeləşməsi səviyyəsi, istehsalın quruluşu, sənayeləşdirmənin müasir mərhələsi olan informasiya texnikası və texnologiyasının istifadəsi dərəcəsi, sənayedə emal sənayesinin xüsusi çəkisi, elmi-tədqiqat təcrübə konstruksiya işlərinə çəkilən xərclərin xüsusi çəkisi və bu kimi göstəricilər ilə də səciyyələnir. Qeyd etmək lazımdır ki, sənayeləşdirmə və informasiya dairəsi ancaq sənaye sahələrini deyil, kənd təsərrüfatı və xidmət sahəsini də əhatə edir. Aydındır ki, quruluş baxımından sənaye istehsalı, istehsal vasitələrindən və istehlak şeylərindən ibarətdir. Həmçinin iqtisadi inkişafın səviyyəsi hər məhsul vahidinə sərf edilən xammal və enerjinin miqdarına görə də xarakterizə edilir. İqtisadi inkişaf səviyyəsi artdıqca məhsul vahidinə düşən xammal və enerji sərfi azalır, kimya mənşəli məhsulların istifadəsi artır.

Hər nəfərə düşən ÜDM və yaxud milli gəlirin həcminə görə ayrı-ayrı dövlətlər arasında kəskin fərq vardır. Belə ki, məsələn 2005-ci ildə həmin göstərici dünya üzrə orta hesabla 6876,4 dollar olduğu halda, Aİ-də 27800 dollar təşkil etmişdir. Bütövlükdə İEOƏ-də həmin göstərici təqribən 1300-1500 dollardan artıq deyildir (əslində bu da yeni sənaye ölkələri ilə neft ixrac edən ölkələr hesabınadır).

Aşağıdakı cədvəldə bir neçə ölkənin timsalında nümayiş etdirilən müqayisə, elə inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı real mənzərəni əks etdirir.

Cədvəl

Hər nəfərə düşən ÜDM-in həcmi, dollar (2005)

	Ölkələr	
1.	Lüksemburq	66600
2.	İsveçrə	47866
3.	Yaponiya	36290
4.	Norveç	54391
5.	Danimarka	45000
6.	Almaniya	33090

7.	ABŞ	39045
8.	Avstraliya	31413
9.	Sinqapur	36545
10.	İslandiya	41333
11.	Mozambik	263
12.	Həbəşistan	111
13.	Tanzaniya	295
14.	Burundi	90
15.	Malavi	150

Cədvəldən göründüyü kimi inkişaf etmiş ölkələrdə bu göstərici kasıb ölkələrdəkindən 100 dəfələrlə artıqdır. Bütün bunlar əlbəttə insanların həyat şəraitinə, orta ömür müddətinə, onların yaşayış tərzinə güclü amil kimi təsir edir.

2. Hər bir cəmiyyətdə məhsuldar qüvvələr müəyyən iqtisadi münasibətlər sistemində fəaliyyət göstərir. Bu da sosial iqtisadi inkişafın ümumi tipini müəyyən etmiş olur. Buna görə də dünya təsərrüfatında müəyyən yarımsistemləri ayırdıqda iqtisadiyyatın **sosial quruluşundan istifadə edilir. Bu meyarın əsasını mülkiyyətin xarakteri və onun reallaşdırılması və eləcə də bununla əlaqədar olaraq əhalinin sahəvi quruluşu təşkil edir.** Mülkiyyətin müxtəlif formaları əmək bölgüsündəki müxtəlif mərhələləri əks etdirir, ayrı-ayrı fərdlərin əmək vasitələrinə olan münasibətləri - onların biri-birinə olan münasibətlərini ifadə edir. Mülkiyyət istehsalın şəxsi amili olan insanın hansı mövqedə olduğunu göstərir. Deməli burada müxtəlif mülkiyyət formalarına əsaslanan konkret təsərrüfat (istehsal) sahələrinin fəaliyyəti, kiçik müəssisələrdə, iri kompaniyalarda, fərdi sahələrdə, dövlət mülkiyyəti və digər sahələrdə çalışan qrup təsərrüfatçılar da əks olunurlar.

3. Qeyd etdik ki, dünya təsərrüfatının yarımsisteminin müəyyən edilməsində iqtisadi artımın tipi də az əhəmiyyət kəsb etmir. Bu göstərici istehsalda müəyyən kəmiyyət və keyfiyyət dəyişikliklərini özündə əks etdirir. Burada, əsasən, ekstensiv və intensiv artım tipi nəzərdə tutulur. **Ekstensiv inkişafda artım, əsasən, istehsal** amillərinin kəmiyyət baxımından coxalması ilə

baş verir. Texniki səviyyə dəyişməz qalır. Burada praktiki olaraq istehsalın effektivliyi dəyişmir.

İqtisadi artımın intensiv tipi dedikdə, istehsal amilləri keyfiyyətcə təkmilləşdirilir. İstehsal vasitələri və əmək cisimləri təkmilləşdirilir. İşçilərin ixtisası artırılır, istehsalın təşkili yaxşılaşdırılır və beləliklə ictimai əmək məhsuldarlığı yüksəlir, məhsul artımı baş verir.

Bütün bunlara baxmayaraq, real gerçəklikdə "xalis" şəkildə iqtisadi inkişafın ekstensiv və yaxud intensiv növü mövcud ola bilməz. Bu hər iki növ inkişaf nisbi mənada ayrılsa da bir çox hallarda bir-biri ilə qovuşmuş şəkildə mövcuddur, birbirini tamamlayır. Ancaq onların hansı birinə daha çox üstünlük verilməsi nəzərdə tutula bilər.

Belə ki, dünya təsərrüfatının inkişaf etmiş sənaye ölkələri 1960-cı illərin ortalarınadək iqtisadi inkişafın ekstensiv növünə, son illərdə isə intensiv növünə üstünlük vermişlər.

4. Həmçinin göstərmək lazımdır ki, hər bir yarım sistemin, yarımqrupun dünya təsərrüfatındakı tutduğu yeri səciyyələndirdikdə həmin yarımsistemə daxil olan **ölkələrin xarici ticarətinin, (idxal və ixracın) xidmətin, kapitalın hərəkətinin, daha doğrusu bütünlükdə xarici bölmənin vəziyyəti də öyrənilir.** Bütün bunlar ölkələrin beynəlxalq əmək bölgüsündəki iştirakı formasını və istiqamətini göstərirlər.

Məhsuldar qüvvələrin inkişafı səviyyəsi və istehsalın beynəlmiləlləşməsi şəraitində qapalı şəraitdə yüksək effektivli təsərrüfatçılıq etmək qeyri mümkündür. Beynəlxalq mübadilənin varlığı çatışmayan və yaxud daha ucuz istehlak mallarının və digər malların, xidmətlərin kənardan gətirilməsinə şərait yaradır.

Xarici iqtisadi əlaqələrin rolunu xarakterizə edən əsas göstəricilərə əmtəə və xidmətlərin idxal-ixrac faizini, əmtəələrin xarici ticarətinin quruluşunu, kapitalın, texnologiyanın, işçi qüvvəsinin beynəlxalq hərəkətində iştirakını, təsərrüfatın açıqlığı səviyyəsini və sairini aid etmək olar.

Bəzi iqtisadçıların hesablamalarına görə hər hansı bir ölkənin xarici ticarət dövriyyəsinin həcmi, ÜDM-in təqribən 20-

25%-i həddində olduqda o, ölkənin ümumi inkişafına real zəmin yarana bilər ki, bu da onun açıq iqtisadiyyata malik olduğunu göstərir. Burada ixrac və idxal kvotası adlanan göstəricilərdən istifadə edilir. İxrac kvotası ixracın cəmi məhsula olan nisbəti, idxal kvotası isə idxalın cəmi məhsula olan nisbəti kimi hesablanır. Xarici ticarət kvotası isə cəmi xarici ticarət dövriyyəsinin ÜDM-ə nisbəti kimi hesablanır. Məsələn 2004-cü ildə aşağıdakı ölkələrdə xarici ticarət kvotası belə olmuşdur:

İngiltərədə - 33,8 %
Almaniyada - 44,3 %
ABŞ-da - 16,7 %
Yaponiyada - 17,4 %

Açıq iqtisadiyyatı səciyyələndirən digər meyar xarici ticarət **dövriyyəsinin ÜDM-ə elastiklik nisbətidir.** İdxal məhsullarına olan tələbin artması ÜDM-in 1% artması ilə müqayisə edilir və bu idxala olan tələb elastikliyini göstərir.

İxraca olan tələb elastikliyi faizi isə hər hansı bir ölkənin ixracının artması tempini göstərir. Burada ixrac artımı ilə həmin məhsulları idxal edən ölkənin ÜDM-nin artım sürəti müqayisə edilir.

Aydındır ki, bütövlükdə dünyada ixraca olan tələbin artması ixrac edən ölkələrin iqtisadiyyatına güclü təsir edir.

İdxal və yaxud ixrac elastikliyi əmsalı vahiddən artıq olduqda iqtisadiyyatın açıqlıq dərəcəsinin yüksəldiyi vahiddən az olduqda isə açıq iqtisadiyyatın aşağı düşməsi özünü göstərir.

Hər hansı bir ölkənin beynəlxalq əmək bölgüsündəki iştirakı, onun açıq iqtisadiyyata malik olmasına və istehsalın quruluşunun formalaşmasına daha çox zəmin yaradır. Az və ya çox dərəcədə qapalı təsərrüfatlarda istehsalın quruluşu bir tərəfdən ölkədəki ehtiyatlardan, digər tərəfdən isə daxili tələbin quruluşundan asılıdır. Açıq iqtisadiyyatda isə beynəlxalq əmək bölgüsü istehsalın daxili quruluşunun formalaşmasına təsir edir.

5. Yarımsistemlərin ayrılmasının əsas əlamətlərindən biri də onların iqtisadi ehtiyatlarının həcmidir. Bu iqtisadi potensial məhsuldar qüvvələrin miqyası, ərazisinin həcmi, əhalinin sayı, ehtiyatların bölgüsü və s. ilə izah olunur. Ona görə də Çin və

Hindistan kimi ölkələr bəzi tədqiqatçılar tərəfindən ayrıca yarımsistem kimi şərh edilirlər.

Beləliklə, dünya təsərrüfatındakı yarımsistemlərin müəyyən edilməsindəki meyarlara əsasən aşağıdakı daha böyük qrup dövlətlər ayrılırlar:

- inkişaf etmiş sənaye ölkələri;
- keçid iqtisadiyyatı ölkələri (keçmiş sosialist dövlətləri);
- inkişaf etməkdə olan ölkələr.

Bu yarımsistemlər də özlüyündə bir neçə yarımqruplara, ərazi üzrə qrup dövlətlərə bölünürlər. Bütün qeyd etdiklərimizlə yanaşı göstərməliyik ki, dövlətlərin bu cür təsnifatı dəyişməz deyildir. Vaxt keçdikcə ayrı-ayrı ölkələrin siyasi və iqtisadi sistemində güclü dəyişikliklər baş verir. Məsələn, hazırda bir çox iqtisadi göstəricilərə görə neft ixrac edən ölkələr, yeni sənaye ölkələri fərqlənirlər. Keçid iqtisadiyyatı ölkələrindən 8 ölkə Aİ kimi böyük inteqrasiya birliyinə daxil olublar (Bolqarıstan ilə Rumıniya da 2007-ci ildə bura daxil olmuşlar).

4. Dünya təsərrüfatı inkişafının əsas göstəriciləri

Aydındır ki, dünya təsərrüfatının yaranması ilə bu anlayışı əks etdirən iqtisadi kateqoriyalar, göstəricilər də yaranır. Bu göstəricilər dünya iqtisadiyyatının inkişaf dinamikasını və vəziyyətini xarakterizə edir.

Bu göstəricilərdən:

1. **Dünya üzrə ümumi məhsuldur - DÜÜM**. Bu göstərici müəyyən dövrdə bütün dünya ölkələrində istehsal olunan son məhsul və xidmətlərin ümumi həcmini əks etdirir. Son məhsulun hesablanmasında bir çox təkrar hesaba almalar (xammal, yarımfabrikatlar, yanacaq, elektrik enerjisi və s. üzrə) aradan qaldırılır.

2. Ayrıca götürülmüş hər bir ölkədə Ümumi Daxili Məhsul - ÜDM.

Bu göstərici milli hesab sistemi ilə hesablanır və hər bir milli təsərrüfatın daxili və xarici bölməsinin əsas makroiqtisadi əlaqələrini əks etdirir.

Hər bir ölkədə istehsal olunan məhsul və xidmətlərin cəmi, daxili, eləcə də beynəlxalq qiymətlərlə hesablanır.

ÜDM üç metodla hesablanır:

1. Gəlirlərə görə; burada bütün gəlirlər cəmlənir (xüsusi şəxslərin gəliri, səhmdar cəmiyyətlərinin gəliri, xüsusi müəssisələrin gəliri, sahibkarlıq fəaliyyətindən dövlətin gəliri və s.).

2. Xərclər üzrə; şəxsi istehlak xərcləri, dövlət alışı (dövlət istehlakı) xərcləri, kapital qoyuluşu xərcləri, xarici ticarətdən olan fərq.

3. Əlavə dəyər vergisi üzrə; bu metodda iqtisadiyyatın bütün dairələrinin xalis məhsulunun dəyəri hesablanıb toplanır.

Əsas makroiqtisadi göstəricilərdən biri də **Ümumi Milli Məhsul - ÜMM anlayışıdır.**

ÜMM, ÜDM-dən fərqli olaraq, ancaq ölkə daxilində deyil, ölkədən kənarda da işgüzar fəaliyyətlə məşğul olanların əmək haqqısını, faizləri, dividentləri əks etdirir.

Əslində, Ümumi Daxili Məhsul anlayışı Ümumi Milli Məhsul anlayışının özünəməxsus dəyişilmiş bir forma almasıdır. Qabaqcıl qərb dövlətlərinin misalında bu iki göstərici arasındakı fərq ÜDM-in ± 1%-ni təşkil edir.

ÜDM-in hesablanmasında Milli Gəlir Göstəricisi də ifadə olunur. Burada ÜDM-dan əsas fondların köhnəlmə dəyəri və dolayı vergilər çıxılır. Hər halda bu anlayışlar (göstəricilər) kəmiyyət baxımından biri-birindən az-çox fərqlənsələr də, məzmun baxımından iqtisadi inkişafı əks etdirirlər.

İstehsal olunmuş Milli Gəlirin dinamikası (uzun müddətə) tamamilə Ümumi Daxili Məhsulun dinamikasına uyğun gəlir. Ona görə də əsasən ÜDM və Dünya üzrə Ümumi Məhsul - DÜM göstəricilərindən istifadə edilir.

DÜM - göstəricisi dünya üzrə və eləcə də ayrı-ayrı ölkələrdə olan iqtisadi fəallığı əks etdirir.

Hər iki göstərici cari və sabit qiymətlərlə hesablanır. Kəmiyyət baxımından ÜDM və DÜM cari qiymətlərlə hesablandıqda sabit qiymətlərə nisbətən daha sürətlə artır. Bu da qiymətlərin dəyişilməsi ilə bağlıdır.

ÜDM - milli hesablama sistemi ilə hesablanır.

DÜM isə vahid valyuta - ABŞ dolları ilə hesablanır.

Ayrı-ayrı ölkələrin ümumi məhsulunun həcmi də ümumi pul vahidi, (məsələn ABŞ dolları) ilə hesablanıb, müqayisə edilir. Aydındır ki, az inkişaf etmiş ölkələrdə Əmtəəlik məhsulun xüsusi çəkisi az olur (ev təsərrüfatı, özləri üçün istehsal edilmiş məhsul, qeydiyyata alınmayan qeyri-formal bölmə və s.). Bu kimi sahələrin məhsulu ÜDM-in 40%-ə qədərini təşkil edə bilər.

BMT-nin layihəsi əsasında aparılmış tədqiqatlar göstərir ki, beynəlxalq müqayisəyə əsaslandıqda cari valyuta məzənnəsi ilə zəif inkişaf etmiş ölkələrdə ÜDM-in həcmi üç dəfədən çox azaldılmış olur. Məhz elə bununla da DÜM-də inkişaf etməkdə olan ölkələrin payının azalması müşahidə olunur.

DÜM-ün hesablanmasında alternativ variantlardan biri hər ölkənin valyutasının alıcılıq qabiliyyətinin müqayisə edilməsi əmsalıdır. Burada insanların istehlakı üçün lazım olan bir neçə eyni adlı məhsul (istehlak səbəti) götürülür və vahid valyuta ilə hesablanıb müqayisə edilir.

BMT-nin statistikasında, əsasən ÜDM və DÜM-ün hesablanmasında valyuta məzənnəsindən (qiymətlərin dəyişilməsini nəzərə almadan) istifadə edilir. Buradan da hər bir valyutanın alıcılıq qabiliyyəti müəyyənləşdirilir.

ÜDM-in valyutanın alıcılıq qabiliyyəti əsasında hesablanması metodu, Beynəlxalq valyuta fondu (BVF) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏ və İT) tərəfindən geniş istifadə olunur.

II FƏSİL
DÜNYA TƏSƏRRÜFATININ YARANMASI VƏ İNKİŞAFI

1. *Qədim dünya təsərrüfatçılığı.*
2. *Qərbi Avropanın inkişafı və dünya bazarının yaranması.*
3. *Dünya təsərrüfatının formalaşması və onun inkişaf dövrləri.*

1. Qədim dünya təsərrüfatçılığı

Dünya təsərrüfatının yaranmasından çox-çox əvvəllər də qədim məhdud təsərrüfatçılıq sistemləri mövcud olmuşdur. Belə ki, Nil, Tiqra, Evrat, Qanq vadilərində və sonralar Yunanıstan, İtaliya, Latın Amerikası ərazilərində təsərrüfatçılıqlar yayılmışdır. Bu kimi mərkəzləşdirilmiş təsərrüfat sistemlərində istehsalın əsas sahəsi əkinçilik və heyvandarlıqdan ibarət idi. Eləcə də həmin yerlərdə filiz çıxarılması, metal əridilməsi, əmək alətləri və silah düzəldilməsi, parça hazırlanması da mövcud idi. Aydındır ki, bu iqtisadi zonalar biri-biri ilə o qədər də qarşılıqlı əlaqədə deyildilər.

Köçəri və əkinçilik tayfaları arasında çox hallarda toqquşmalar baş verirdi ki, bu da o dövr üçün mövcud olan iqtisadi quruluşun, sosial əlaqələrin, siyasi sistemin dağılmasına səbəb olmuşdur. Bütün bu kimi qədim təsərrüfatçılıq formaları müxtəlif xalqlarda - regionlarda özünəməxsus xüsusiyyət kəsb etmişdir.

Asiya istehsal üsulu

Qədim təsərrüfatçılıq sistemlərində (Çindən başqa) əsas yeri çar və ibadətxanaların təsərrüfatları, vəzifəli şəxslərin, xüsusi adamların (vərəsəlik əsasında) təsərrüfatları tuturdu. Bütün iri təsərrüfatlar eyni növlü idi. Torpağın ömürlük istifadə edilməsi prinsipi mövcud idi. Ona görə də İdarəçilik təbəqələri-

nin dəyişilməsi çətinləşirdi. Ailə icmaları kök sala bilmir, xüsusi səviyyədə yığım yaranmırdı.

Bir çox yerlərdə və xüsusilə Hindistanda torpağın birgə becərilməsi icması əsas idi. Hər bir icma üzvü məhsuldan öz payını alırdı. Bu əsasda da icma daxilində sənətkarlıq və əkinçilik əməyi fərqlənirdi. Bu icmalar biri-digərini zəruri məhsullarla təmin edirdi. Onların arasındakı daxili əlaqələrin möhkəmliyi xarici aləmdən asılılığı aradan qaldırırdı.

Bu cür şərq icmaçılığı şəhərlə kənd arasındakı əmək bölgüsünün və əmtəə-pul münasibətlərinin inkişafına maneəçilik törədirdi.

Az-çox Çində və Hindistanda müəyyən dövlətçilik sistemi özünü göstərirdi. Torpaq vergisi (qismən də pul formasında) dövlətlə xüsusi və icma əkinçiliyi arasındakı münasibətlərin əsasını təşkil edirdi. İri torpaq sahiblərinin ödədikləri renta əmtəə forması kimi şəhər əhalisini təchiz edirdi. Osman imperiyasında, İranda şəhərlə kənd arasındakı mübadilə münasibətləri genişlənirdi. Burada ticarət-sələm kapitalı müəyyən rol oynayırdı. Lakin əmtəə-pul münasibətləri o qədər də sistemli deyildi. Torpaqların icarəyə verilməsi sahibkarlıq xarakteri daşımırdı. Ona görə də vahid təsərrüfat mexanizmi yarana bilmirdi.

Natural təsərrüfatı üstünlük təşkil edirdi. Bəzi ölkələrdə ticarət və sənətkarlıqla olan məşğuliyyətə çox laqeyd baxılırdı. Hindistanda sənətkarlar aşağı təbəqəyə aid edilirdi. Mərkəzi hakimiyyətin himayədarlığı olmadığına görə sənətkarlıq inkişaf edə bilmirdi.

Əsrlərdən-əsrlərə eyni tipli əmək alətləri hazırlanması davam edirdi. Əməyə qənaət edə biləcək yeni alətlər hazırlanmırdı.

Beləliklə, şərq cəmiyyətlərində olan bu kimi şərait sosial-iqtisadi inkişafa zəmin yarada bilmirdi.

Şərqdə və Qərbdə iqtisadi inkişaf səviyyəsi

Müəyyən geriliklərə baxmayaraq ən qədim iqtisadi sistem uzun müddətə zəncirvari ardıcıllıqla inkişaf edirdi. Yeni ideyalar yaranır, istifadə edilir, texnologiya az-çox təkmilləşirdi. Hazırkı vaxtadək qalmış bəzi möhtəşəm dövlət qurğuları, ibadətxanalar o dövrün yüksək tikinti texnikasından xəbər verir. Bunlardan "dünyanın yeddi möcüzəsi"ni misal çəkmək olar, o cümlədən Misir piramidaları. B.e.ə. 280-ci ildə İskəndəriyyədə yaradılmış 120 m hündürlüyündə dəniz fənəri (məşəli) və s. o dövrün çox böyük nailiyyətlərindən xəbər verir. Möhtəşəm su kanalları çəkilmişdi, su anbarları, bəndlər düzəldilmişdir. Suyun verilməsi xüsusi qurğu (mancanaq) vasitəsi ilə həyata keçirilirdi. Riyaziyyat, fizika, astronomiya sahələrində böyük nailiyyətlər vardı. Hətta bir çox ideyalar vaxtı-zamanı qabaqlayırdı. Bir çox ideyalar isə sosial-iqtisadi şəraitin geriliyi üzündən həyatda tətbiq oluna bilmirdi. Hər halda ən qədim və qədim təsərrüfatçılıq sistemi uzun bir tarixi dövr keçsə də əsasən natural və qapalı xarakter daşıyırdı.

Belə bir tarixi dövrü Avropa dövlətçiliyi keçməmişdi. Onlar Şərq dövlətləri üçün ucqar hesab edilirdilər.

Birinci min illiyin ilk dövrlərində Şərq ölkələrinin iqtisadi inkişaf səviyyəsi Qərbi Avropa ölkələrindən 1,5-2 dəfə artıq idi. XI - əsrdə (1980-ci ilin qiymətləri ilə) hər nəfərə düşən ÜDM Çində 600-700 dol., Hindistanda 550-650 dol., Misirdə 470-530 dol. təşkil edirdi. Başqa bir göstərici də maraqlıdır. Çində o dövrdə əhalisi 2 min nəfərdən çox olan şəhərlərdə cəmi əhalinin 20%-i, müsəlman ölkələrində isə 15-20%-i yaşadığı halda, Qərbi Avropa dövlətlərində bu göstərici 11-13%-dən artıq deyildi. Bu da onu göstərir ki, həmin dövrlərdə Şərq ölkələrində şəhərlərin sayı və inkişafı Qərb dünyasından çox-çox irəlidə olmuşdur.

İstehsalın inkişaf səviyyəsinə görə Çinin o vaxtkı nailiyyətlərini Avropa dövlətlərinin orta əsrin son dövrləri ilə müqayisə etmək olar. Belə ki, XII əsrin əvvəllərinə Çində dəmir əridilməsi 1640-cı ildə İngiltərədəkindən 2,5-5 dəfə. XVIII əsrin əvvəllərinə bütün Avropadan yenə bir o qədər artıq olmuşdur. Şərqin Qərbə nisbətən üstünlüyü intellektual səviyyə cəhətdən də gözə çarpırdı. **Savadlılıq səviyyəsinə görə Şərq Avropadan 8-20 dəfə irəlidə idi.** Avropa b.e.ə. VIII əsrdəki klassik Roma imperiyasının səviyyəsindən aşağı idi.

2. Qərbi Avropanın inkişafı və dünya bazarının yaranması

V əsrin axırlarına Roma imperiyasının süqutundan sonra Qərbi Avropada tam aqrar və natural təsərrüfatçılıq baş vermişdir. Kənd icması təsərrüfatçılığın əsasını təşkil edirdi. Şərq icmalarından fərqli olaraq sənətkarlıq hər ailə çərçivəsində inkişaf edirdi. Bu da müəyyən dərəcədə icmalar arasındakı daxili əlaqənin zəifləməsinə səbəb olurdu. Qərbi Avropada iqtisadi fəaliyyətin canlanması üçün çoxlu yüz illiklər lazım gəlirdi.

Şərq sivilizasiyasının inkişaf etdiyi rayonlarla müqayisədə Qərbi Avropa daha az təbii imkanlara malik olduğu halda, **coğrafi vəziyyətinə görə daha əlverişli şəraitdə idi.** Köçəri tayfaçılıqdan uzaq idi. VII-VIII əsrlərdə iqlim şəraiti dəyişirdi, istiləşmə baş verirdi. Bu şərait müəyyən epidemiyaların yayılmasını azaltmış, təsərrüfatçılıq və demoqrafik inkişafa zəmin yaratmışdır.

Bu kimi irəliləyişlər sosial irəliləyişlərə də imkan verirdi. İcma əkinçiliyi dağılırdı. VIII-əsrdə aqrar və hərbi islahat nəticəsində o vaxt mövcud Frank imperiyasında kəndlilərin çoxu kral hərbiçilərindən şəxsi asılılığa məruz qalmışlar. Bu hərbiçilər sonralar torpaq vərəsəçiliyi ilə feodallara çevrilirdilər.

Sənətkarlığın inkişafı XI əsrdə sənətkarlığın əkinçilikdən ayrılmasına, feodal şəhərlərinin yaranmasına səbəb olmuşdur. Bu da əmtəə istehsalını gücləndirmişdir. Texnikada müəyyən təkmilləşdirmələr baş verirdi. Toxuculuq dəzgahlarının təkmilləşdirilməsi nəticəsində o vaxt mövcud olan Flandriyada[1] VI əsrdə əmək məhsuldarlığı 3-5 dəfə artmışdır. Kənd təsərrüfatındakı (VI əsr) iki sahəli sistemdən üç sahəli sistemə keçilməsi genişlənmişdir.

XII əsrdə Şimali-Qərbi Avropada kənd təsərrüfatında ağır kotan tətbiq edilirdi ki, bu da torpağın bir neçə dəfə təkrar şumlanmasına son qoymuşdur. Yenə XII əsrdə (əvvəllər romalılar tərəfindən düzəldilmiş) su dəyirmanları yayılmışdır.

[1] Flandriya. O vaxt Qərbi Avropada vilayət, sonralar Fransaya, Niderlanda və Belçikaya birləşibdir.

Deməli, mülayim qurşaq şəraiti avropalıları müəyyən təcrübələr (eksperimentlər) keçirməyə vadar etmişdir. Tropik və təbii münbitlik şəraitinə malik olan Şərq və Latın Amerikası isə təşəbbüskarlıqdan qalmışlar.

Beləliklə XI-XIII-əsrlərdə Qərbi Avropada əməyin enerji ilə silahlanması 2 dəfə artmış və Çini ötmüşdür. Kapital yığımı prosesi həyata keçirilməyə başlamış, kənd təsərrüfatı məhsulu 1,5-2,6 dəfə, sənaye istehsalı 1,1-2,8 dəfə artmışdır.

Əmtəə-pul münasibətlərinin yaranması

XI-XIII əsrlərdəki əlverişli şərait və inkişaf XIV əsrdə ekoloji, sosial-iqtisadi və siyasi böhranla əvəzlənmişdir. İqlim şəraiti dəyişmiş - daha soyuq və rütubətli olmuşdur ki, bu da taxılın məhsuldarlığını azaltmışdır. Aclıqlar, yoluxucu xəstəliklər, müharibələr, üsyanlar, dini cəzalar artmışdır, əhali təqribən 30% azalmışdır.

XV əsrin ikinci yarısından iqlim şəraitinin nisbətən yaxşılaşması ilə bəzi ölkələrdə iqtisadi inkişaf artırdı. Zəif də olsa, hər halda ardıcıl olaraq müəyyən təkmilləşmələr baş verirdi. XIV əsrdə kəşf olunmuş silah təkmilləşir, comərd atlılar, rəiyyət piyadaları və s. yaranırdı, dəniz işi təşkil olunurdu.

XIII əsrdə Flandriyada sənət şəhərləri yaranırdı. Orada demək olar ki, bütün Avropa üçün yun parça istehsal olunurdu. Yun İngiltərədən gətirilirdi.

XIV əsrdə İtaliyanın şimalında Venesiya, Genuya, Florensiya sənaye və ticarət mərkəzinə çevrilmişlər. Bu mərkəzlərdə istehsal olunmuş Mahud və ipək parçalar, şüşə, silah və s. bütün Avropaya satılır və Şərq ölkələrinə də tələbat oyadırdı. Venesiya tacirləri öz bazarlarında Şərq malları da satırdılar.

Beləliklə, bazar münasibətləri genişlənirdi. Bazar münasibətlərinin inkişafında XV-XVII əsrlərdəki bir çox coğrafi

kəşflər[1] daha böyük rol oynamışdır. Bu həmçinin ticarət yollarının, ticarət kapitalının da artımına yol açmışdır. Şərq mallarının istehlakçıları ərəb, türk və italyan inhisarlarının Avropaya mal gətirməsi vasitəçiliyindən azad olmağa çalışırdı. Bu həmçinin Avropada (XV əsr) sürətlə artan sənaye və ticarətin müqabilində qızıl və gümüşün az olması tələbindən də irəli gəlirdi. O vaxt **artıq metal pullara olan sitayiş artırdı.**

Böyük coğrafi kəşflər həmçinin müstəmləkə hökmranlığı sisteminə də zəmin yaratmışdır. XVI əsrdə okeanın arxasındakı torpaqlarda ilk müstəmləkə imperiyaları yarandı. **Portuqaliya və İspaniya 1494-cü ildə onların arasındakı müqaviləyə əsasən okeanın o tayındakı torpaqları öz müstəmləkəsi hesab etmişdilər.** Müstəmləkə bölgüsü meridian xətti ilə Atlantik okeanından keçirdi. Qərb tərəfə olan müstəmləkələrin hamısı İspaniyanın, Şərq tərəfə olanlar isə Portuqaliyanın hesab edilmişdir (Rim papası bu müqaviləyə təminat vermişdi).

Beləliklə dünyanın kəşfi və dəniz yollarının intensivləşməsi, Qərbi Avropanın inkişafına geniş vüsət verirdi. Beləki, o vaxt quru yollarla daşınan yükdaşımalar 2 dəfə artdığı halda, dəniz daşımaları 5-10 dəfə çoxalmışdır. 1500-1700-cü illərdə xarici ticarətin həcmi 3-5 dəfə, o cümlədən Şərq və Qərb ölkələri ilə 15 dəfə artmışdır.

Bütün bunlara baxmayaraq yuxarıda qeyd etdiyimiz kimi Avropada qiymətli metallar - qızıl və gümüş (ticarəti genişləndirmək üçün) kifayət etmirdi. Ona görə də Asiya bazarlarına rəqabət qabiliyyətli mallar çıxara bilmirdilər. Şərq ölkələrində işçi qüvvəsi ehtiyatı da güclü idi. Demoqrafiya amilinin üstün olması fərdi ustalığın - qabiliyyətin inkişafına zərurət yaradırdı.

Geniş coğrafi kəşflər və müstəmləkə siyasətinin artması, nəticə etibarilə beynəlxalq əmək bölgüsünə və dünya bazarının yaranmasına səbəb olmuşdur. Belə ki, **dənizçilikdən istifadə** dünyanın ayrı-ayrı hissələri ilə əlaqə saxlamağa imkan verirdi. **Müstəmləkə sahibkarlığı** isə həmin uçqar yerlərdən təsərrüfatçılıq kimi istifadə etməyə zəmin yaradırdı. Beləliklə bu iki cəhət beynəlxalq mübadilənin genişləndirilməsi üçün əsas təşkil edirdi.

Elə həmin dövrlərdə dünya təsərrüfat əlaqələrinin artması beynəlxalq kreditin meydana gəlməsinə səbəb olmuşdur.

Kəşf olunmuş torpaqlardan Avropaya küllü miqdarda qızıl və gümüş gətirilmişdir. XVI əsrdə Avropada qızıl ehtiyatı təqribən 550 tondan - **1192 tona**, gümüş ehtiyatı isə **7 min tondan 214 min tona çatmışdır**. Cəmi sərvətin və məhsuldar kapitalın quruluşunda da dəyişikliklər baş verirdi. XI-XIII əsrlərdə canlı əmək əsas götürüldüyü halda, XVI əsrdə o, əsas kapitalla əvəzlənirdi, nəqliyyat vasitələrinin, energetikanın inkişafına üstünlük verilirdi. Bütün bunlar məhsuldar qüvvələrin inkişafına zəmin yaradırdı.

Şimali-Qərbi Avropada hər nəfərə düşən ÜDM 1000-1300-cü illərdə 50-60%, 1300-1500-cü illərdə 5-10%, 1500-1800-cü illərdə isə 45-55% artmışdır. Qeyd etmək lazımdı ki, bunlara baxmayaraq hələ XV əsrdə də hər nəfərə düşən ÜDM-in həcminə görə Avropa dövlətləri qabaqcıl Şərq dövlətlərindən (xüsusilə Çindən) geri qalırdı. **Müəyyən mülahizələrə görə 1500-cü illərdə, digər mülahizələrə görə isə XVI əsrin ikinci yarısından Qərb iqtisadi inkişaf baxımından Şərqə çatmış və onu qabaqlamışdır. O vaxtdan da üstün mövqeyi öz əlində saxlayır.**

Kapitalist istehsal üsulunun bərqərar olması

XVI əsr Qərbi Avropanın iqtisadi tarixində dönüş dövrü olmuşdur, ilkin kapital yığımı əsri başlanmışdır. Kəndlilər torpaqlardan qovulur, müstəmləkə talançılığı güclənir, sənayenin inkişafında gözə çarpacaq nailiyyətlər əldə edilirdi. Sənayenin inkişafı toxuculuq sənayesində özünü daha çox büruzə verirdi. Əvvəllər Florensiyada, sonra İngiltərədə manufaktura əsasında yun parça istehsalı artırdı. Bu əmək bölgüsünə və əl ilə işləyən texnikaya əsaslanan müəssisələr (manufaktura) adi sənətkarlığa nisbətən əmək məhsuldarlığını xeyli artıra bilmişdilər. İri isteh-

[1] 1498-ci ildə Vasko de Qamanın ekspedisiyası Hindistan sahilinə çıxmışdı. 1492-ci ildə Xristofor Kolumbun ekspedisiyası Amerika sahilinə çıxmışdı. 1519-1521-ci illərdə Fernando Maqellan ilk çox geniş səyahətə çıxmışdı və s.

sal yaratmaq üçün çoxlu işçi qüvvəsi lazım gəlirdi (xırda sənət sexləri, emalatxanaları öz müstəqilliklərini saxlamağa çalışırdı).

Ona görə də kəndli torpaqları onların əlindən zorla alınırdı. Bundan əlavə onlar müharibələr, müstəmləkəçilik, qul ticarətindən istifadə, dəniz quldurluğu və s. vasitəsi ilə öz iqtisadi vəziyyətlərini gücləndirirdilər.

İspan müstəmləkəçiləri Latın Amerikasını zəbt edərək yerli əhalini pis günə salırdılar. **Eyni ilə Şimali Amerika** müstəmləkəçiləri də XVII əsrdə orada yaşayan 2 milyonadək hinduları var-yoxdan çıxarırdı. Hindu tayfalarını məhv etdikdən sonra Afrikaya üz tutmuşlar. XVI əsrdə kapitalist istehsalı üçün böyük əhəmiyyət kəsb edən qul ticarəti başlamışdı. Qullardan istifadə etməklə plantasiya (tarla) təsərrüfatları yaradılırdı. 1870-ci ilin məlumatına görə Afrikadan Amerikaya 10 mln. qul gətirilmişdir. 1680-1775-ci illərdə britaniyalılar Afrikadan Vest-Hind ticarət kompaniyasına 3 mln. qul gətirmişdilər.

Qərbin bəzi ölkələri (Britaniya, İspaniya, Fransa, Hollandiya və s.) üçün o dövrdə **dəniz quldurluğu** da böyük əhəmiyyət kəsb etmişdir. Əsasən müstəmləkə ölkələri talan edilirdi.

İlkin kapital yığımı ilə bağlı tədbirlərdə himayədarlıq siyasəti də diqqəti cəlb etməyə bilməz. Burada xüsusilə qeyd etmək lazımdır ki, İngiltərə heç də azad bazarla ticarət ağalığına nail olmamışdı. A.Smitin sonralar yaranan Fritrederçilik ideyası Britaniya sənaye kapitallarını və iqtisadi siyasətçilərini o qədər də maraqlandırmamışdı. Rəqabətdə qalib çıxmaq üçün hər cür vasitələrdən istifadə edilmişdi.

Beləki, XVI-XVII əsrlərdə xaricdən gələn hazır məmulatlara çox yüksək gömrük haqqı müəyyən edilirdi. Ərzaq məhsulları xammalının ixracı qadağan edilmişdi. Bu tədbirlər 1820-ci illərədək qüvvədə qalmışdır. Məsələn, pambıq parçadan olan mallara tətbiq edilən kömrük rüsümu - onun dəyərinin 75 %-i, kətan parçaya isə 183 %-ə qədər tətbiq edilirdi.

Beləliklə yığılmış müəyyən vəsait Qərbin bəzi ölkələrində xarici ticarətin inhisarlaşmasına zəmin yaradırdı. Britaniyada Ost-Hin-

din[1] Afrika və Yaxın Şərq ilə olan bütün ticarəti Ost-Hindin, Türkiyənin və Afrika ticarət kampaniyalarının əlində cəmlənmişdir.

Həmin Ost-Hind kampaniyası XVII əsrdən 813-cü ilədək əsasən Hindistan və Çin ilə ticarət etmək hüququna malik idi. Bütün XVIII əsr ərzində Hindistanın bəzi torpaq sahələrini zəbt etmişdir. Aydındır ki, əlavə gəlir əldə etmək üçün vəsait xərcləmək də lazım gəlirdi. Odur ki, XVI-XVIII əsrlər məhsuldar xərclərin artırılması ilə də səciyyələnə bilər. Hərnin vaxtlardan bayram günlərinin sayı azaldılmış, illik iş saatlarının sayı artırılaraq 2700-2800 saata çatdırılmışdır (XII-XIII əsrlərdəki 2400-2600 saata qarşı).

XVIII əsrin axırlarına Qərb ölkələri iqtisadi inkişaf səviyyəsinə görə **artıq Şərqi 1,6-1,8 dəfə ötmüşdür**. Bəzi mülahizələrə görə isə, hər nəfərə düşən **məhsulun həcminə görə Qərb, ancaq XIX əsrin** əvvəllərinə Şərqə çata bilmişdir.

Deməli belə qənaətə gəlmək olur ki, Şərqin inkişaf etmiş ölkələrində hərtərəfli istehsal sahələri mövcud olmuşdur. Alqı-satqı, muzdlu əmək münasibətlərini bilirdilər. XIX əsrin əvvəllərinədək Avropa bazarına ancaq ədviyyat, bəzək əşyaları deyil, hazır məhsul da göndərirdilər. Avropanın pambıq parça məhsulları Hindistan və Çin məhsulları ilə rəqabətə girə bilmirdi.

Sənaye inqilabı və dünya bazarının yaranması

XVIII əsrdə Britaniyada manufakturadan maşın texnikasına əsaslanan fabrik sisteminə keçməklə, qüvvələr nisbətində daha kəskin fərq yaranmağa başlamışdı.

Məhz bu dövr sənaye çevrilişi və yaxud sənaye inqilabı dövrü adlanır. İlk fabriklər pambıq parça sənayesi üzrə yaranmışdır. Mahud manufakturası dövlətin nəzarətində olduğu üçün yeni texnologiya tətbiq etməkdə müəyyən maneəçiliklər vardı. Gənc

[1] Ost-Hind kamp. İngilis (1600-1858) Hind və Asiyanın bəzi cənub, cənub-şərq ölkələri ərazisi. 2. Ost-Hind Niderland tic.kamp. (1602-1798) dənizçilik üzrə tic.inhis. Hind körfəsi və Sakit okean.

pambıq parça sənayesi isə bu maneəçilikdən azad idi. Sənaye inqilabı digər sahələri də əhatə edirdi. Metallurgiya sahəsində mexanikləşmə artırdı. Dəmir və çuqundan polad alınması sürətlənirdi. 1784-cü ildə (C.Uatt) buxar maşınının kəşfi, sənaye və nəqliyyatda geniş tətbiqi böyük əhəmiyyət kəsb edirdi.

Texniki çevriliş təsərrüfatlarda köklü dəyişikliklər yaradırdı. Britaniyada olduğu kimi Şimali Amerikada da fabrika istehsalına keçilirdi. Avropanın kontinental hissəsində isə aqrar iqtisadiyyat üstünlük təşkil edirdi.

Maşın və buxarın tətbiqi əmək bölgüsünü milli çərçivədən kənara çıxarırdı. İri sənaye artıq daxili bazardan deyil, beynəlxalq bazardan asılı olurdu. Qapalı, yerli bazarın əvəzinə beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi ilə bir millətin digərindən asılılığı meydana gəlirdi. Xarici ticarət sürətlə artırdı. 1720-1820-ci illərdə dünya üzrə ixracın həcmi 2,4 dəfə artmışdır.

Qərbi Avropanın və Şimali Amerikanın nisbətən sürətli inkişafı Qərb ilə Şərq arasındakı qarşılıqlı münasibətlərdə öz əksini tapmışdır. **XIX əsrdə Şərq artıq Qərblə üz-üzə dayana bilmirdi.**

Beləliklə, XVI əsrdən XVIII əsrin ortalarınadək manufaktura sənayesi daha kütləvi əmtəə istehsalına zəmin yaratmışdır. Milli bazarlar, şəhər bazarları yarmarkalar genişlənərək ərazi, dövlət, dövlətlərarası və nəhayət dünya miqyasında beynəlxalq bazarlara çevrilirdi.

XIX əsrin birinci yarısından iri fabrik-zavod sənayesinə keçilməsi ilə istehsal olunan məhsullar daxili bazarda reallaşa bilmirdi. Daha geniş bazar tələb olunurdu. Vahid dünya bazarı yaranırdı. Beləliklə XIX əsrin ikinci yarısı ilə XX əsrin birinci yarısında dünya bazarı formalaşmışdır.

Dünya bazarının aşağıdakı cəhətlərini qeyd etmək olar:

1. Dünya bazarı da əmtəə istehsalı kateqoriyası kimi sosiyyələnir.

2. Burada əmtəələrin dövlətlərarası hərəkəti [illegible] tələblə yanaşı xarici tələb və təklifin təsiri altında baş verir.

3. Dünya bazarı istehsal amillərindən [illegible] istifadə edilməsinə zəmin yaradır.

4. Dünya bazarı rəqabət qiymətlərinə uyğun olan, beynəlxalq tələblərə cavab verən məhsullar istehsalına zəmin yaradır.

5. Dünya bazarının inkişafı həmin dövrdə beynəlxalq iqtisadi əlaqələrin (ünsiyyətin) intensivləşməsinə səbəb olmuşdur. Bu əlaqələr dövlətlərarası əmtəə mübadiləsi çərçivəsindən kənara çıxırdı.

Məhsuldar qüvvələrin sürətli inkişafı və maliyyə kapitalının kücünün daha da artması dünya təsərrüfatının yaranmasına gətirib çıxarırdı. **Beləliklə, əmtəə istehsalı dünya bazarı mərhələsindən dünya təsərrüfatı mərhələsinə keçirdi. Ancaq əmtəələrin beynəlxalq hərəkəti deyil, istehsal amillərinin beynəlxalq hərəkəti də genişlənirdi.**

3. Dünya təsərrüfatının formalaşması və onun inkişaf dövrləri

Qeyd etdiklərimizdən aydın olur ki, hətta bizim eradan əvvəl də belə, ayrı-ayrı xalqlar, dövlətlər arasında müəyyən yaxınlıq, əlaqə, qarşılıqlı münasibətlər mövcud olmuşdur. O vaxtdan çox uzun tarixi bir dövr keçmişdir. Həmin dövrdə ayrı-ayrı milli təsərrüfatlar arasındakı qarşılıqlı əlaqələr artır, istehsalın beynəlmiləl xarakteri genişlənir, məhsuldar qüvvələrin inkişafına zəmin yaranırdı.

Bu kimi hadisə və proseslərin qarşılıqlı, qanunauyğun və məntiqi inkişafında **müstəmləkəçiliyin də rolu az qala bir amil kimi vurğulanır.** Çünki, müstəmləkəçilik olmasa idi ayrı-ayrı ucqar və uzaq xalqların könüllü, qarşılıqlı əlaqələri, yaxınlaşmaları bəlkə də heç mümkün deyildi. Əlbəttə burada məqsəd heç də müstəmləkəçiliyə mütərəqqi bir hal kimi, ictimai inkişafın amili kimi yanaşmaq deyil. Hər halda müstəmləkəçiliyin genişləndirilməsi dünya bazarının yaranmasını sürətləndirmişdir.

XVI-XVIII əsrlərdəki sənaye çevrilişinədək müstəmləkəçilik siyasətində yerli sərvətləri, işçi qüvvəsini talan etmək, qeyri ekvivalent mübadiləyə üstünlük vermək halları daha əsas götürülürdü, müstəmləkəçilərin hər hansı bir yaradıcılıq fəaliyyəti hiss olunmurdu. Hətta irriqasiya işləri belə aparılmırdı, kənd təsərrü-

fatı dağıdılırdı, yerli əhali incidilir, aclıq və ölüm halları artırdı. Lakin vaxt keçdikcə müstəmləkəçilərlə müstəmləkə xalqları arasındakı əlaqələr daha ardıcıl, planlı nəzarətlə həyata keçirilməyə başlamışdı. Bütün bunlar istismarın təşkilatı formasını dəyişirdi.

XIX əsrin axırlarınadək xalis merkantilist ənənəsi (ticarətə, ancaq gəlir mənbəyi kimi baxmaq) üstünlük təşkil edirdi.

Maşınlı sənayenin inkişafı ilə tədricən müstəmləkəçilər müstəmləkə ərazilərini öz əmtəələrinin satış bazarına çevirmişlər. Məsələn Britaniyanın Hindistana olan pambıq parça ixracı 1618-1835-ci illərdə 65 dəfə artmış, XIX əsrin ortalarında bütün ixrac olunan parçaların 25 %-i ora göndərilirdi. Beləliklə XIX əsrin ikinci yarısına müstəmləkəçilik daha da genişlənmişdi. 1914-cü ilə cəmi müstəmləkə ərazisi **65 mln.kv.km, əhalisi isə 523 mln. nəfər təşkil edirdi.** Artıq Britaniya, Fransa, İspaniya, Portuqaliya, Niderlanddan başqa, Almaniya, ABŞ, Belçika, Yaponiya da iri müstəmləkəçi dövlətlərə çevrilmişlər. Praktiki olaraq bütün dünya iri dövlətlər arasında iqtisadi və siyasi cəhətdən bölüşdürülmüşdür.

Kapital ixracı. XIX əsrin ortalarından Avropa ölkələrindən olan kapital ixracı daha da genişlənməyə başlanmışdı. Bütün ixrac olunan vəsaitin yarıdan çoxu Şimal ölkələrinə, (bu vəsaitin təqribən 24 %-i Şimali Amerikaya yönəldilmişdi) yarısı isə Asiya, Latın Amerikası və Afrika ölkələrinə göndərilirdi.

Kapitalın bu cür yerləşdirilməsi və yerdəyişməsi həmin dövrdə qızıl standartına keçilməsinə zəmin yaratmışdır. Daha doğrusu sərbəst olaraq qızıl sikkələr kəsilir, istər ölkə daxilində və istərsə də kənarda valyutanın dönərliyi - qızıla dəyişdirilməsi təmin olunur, qızıl sərbəst idxal və ixrac edilir və s. Müstəmləkə ölkələrinə olan kapital ixracı heç də həmişə məhsuldar işlərə sərf edilmirdi. Çox hallarda yerli hakim orqanların, inzibati işçilərin saxlanılmasına xidmət edirdi. Artıq sonralar məhsuldar kapitalın xüsusi çəkisi artmışdır. Cəmi kapital qoyuluşunun 30%-ə qədəri ixraca gedirdi. 1875-ci illərdən sonra xaricə birbaşa kapital qoyuluşu sistemli-ardıcıl xarakter almışdır. Birbaşa kapital qoyuluşunun təqribən 55%-i hazırkı inkişaf etməkdə olan ölkələrə göndərilirdi. Bunu aşağıdakı cədvəldən də aydın görmək olar:

Cədvəl

Xarici ölkələrə olan birbaşa kapital ixracı (mlrd.dol)

	1914	1938	1960
Sənaye ölkələrinə	5,2	8,3	36,7
İnkişaf etməkdə olan ölkələrə	8,9	16,0	17,6
Cəmi	14,1	24,3	54,5

Həmin birbaşa kapital qoyuluşunun 55 %-ə qədəri - xammal sahələrinə, 20 %-i dəmir yolunun inkişafına, 10 %-i ticarət və bölgü şəbəkələrinə, 15%-i emal sənayesinə yönəldilmişdir. Emal sənayesinə qoyulan investisiya Avropada və Şimali Amerikada cəmləşdirilmişdir.

Dağ mədən sənayesi və kənd təsərrüfatı (xüsusilə tarla işlərinə) sahələrinə kapital qoyuluşları daha çox diqqəti cəlb edirdi (o dövr tarla işlərinin "bal" dövrü adlanırdı). Beləliklə, məhsuldar kapitalın ixrac edilməsi beynəlxalq istehsalın yaranmasına (istehsalın beynəlmiləlləşməsinə) səbəb olmuşdur. Deməli beynəlxalq mübadilə münasibətləri istehsal dairəsinin də beynəlmiləlləşməsi ilə tamamlanırdı. İqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsi başlamış olurdu. Nəticədə əvvəlcə ayrı-ayrı ölkələrin özünəməxsus şəraitdə təkbaşına ayrılması, xüsusiləşməsi pozulur, ayrı-ayrı sahələr səviyyəsində beynəlxalq əmək bölgüsü güclənirdi. Beləliklə **müstəmləkəçilik sistemi borc və məhsuldar kapitalının ixracı bir-biri ilə kəskin** fərqlənən müxtəlif ölkələri və əraziləri vahid - bütöv təsərrüfat şəklində birləşdirə bilmişdi. Bu müstəmləkə və yarım müstəmləkə ölkələrində spesifik iqtisadi strukturlar yaradıldığına görə, məzh onlar müstəmləkəçilərin iqtisadi gəlir mənbəyinə çevrilmişdilər.

Bütünlükdə isə həmin ölkələrdəki təkrar istehsal prosesi, inkişaf etmiş müstəmləkəçi ölkələrdəki təkrar istehsal prosesinin analoji davamı idi.

Beynəlxalq mübadilə

Məhsuldar (sahibkar) kapitalın beynəlxalq miqyasda hərəkəti genişləndikcə əmtəə mübadiləsi də artırdı. Dünya üzrə ixracın həcmi 1840-1870-ci və eləcə də, 1870-1913-cü illərdə hər iki dövrdə dörd dəfə artmışdır. ÜDM-də ixracın xüsusi çəkisi 1913-cü ildə Qərbi Avropada 18 %, ABŞ-da 6,4 % təşkil etmişdir. Sənaye inqilabının nisbətən sonralar baş verdiyi ölkələrdə xarici ticarət dövriyyəsi daha çox artmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində sənaye ölkələri əsas ixracat bazarları hesab olunurdu. Avropa ölkələri cəmi xarici ticarətin 66,7 %-ini özünə cəlb edirdi (1870), 1913-cü ildə bu göstərici 62 %-ə enmişdi. İnkişaf etməkdə olan ölkələr isə 20 % təşkil edirdi. Qərb ölkələrinin cəmi ixracının 15 %-i müstəmləkə ölkələri ilə həyata keçirilirdi. Britaniya öz ixracının 60 %-ni inkişaf etməkdə olan ölkələrə yeridirdi. Həmçinin qeyd etmək lazımdır ki, o dövrdə (1890) cəmi dünya ticarətinin 68%-i, 1913-cü ildə isə 62,5 %-i xammaldan ibarət olmuşdur.

XIX əsrin əvvəllərində ticarət siyasətində himayədarlıq daha üstünlük təşkil edirdi. Dünya sənayesində müəyyən üstünlük əldə etdikdən sonra Britaniya ticarət azadlığı və yüksək kömrük rüsumlarının dəyişdirilməsinə səy göstərirdi. 1860-cı ildə İngiltərə ilə Fransa arasındakı ticarət üzrə müqavilə bağlandıqdan sonra Qərbi Avropada ticarət üzrə olan müəyyən qadağalar - məhdudiyyətlər azaldılmışdır.

Məşhur ingilis iqtisadçısı **A.Smit hələ 1776-cı ildə yazdığı** "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində bir çox problemlərlə yanaşı ticarət azadlığı məsələsinə də çox yer vermişdir. O, İngiltərənin o dövrdəki bütün xarici ticarət siyasətini tənqid etmiş və xarici ticarət azadlığı üçün proqram işləyib hazırlamışdı. XIX əsrdə ingilis sənaye burjuaziyasının bayrağına çevrilmiş olan "**fritrederçilik**"[1] belə yaranmışdır. Lakin aydındır ki, bu bir nəzəri müddəadır. Hər bir nəzəri müddəa real gerçəklikdə öz əksini tapmaya da bilər.

[1] Fritrederçilik - ing. azad ticarət.

İqtisadi siyasətdə ABŞ 1861-1865-ci illərdəki vətəndaş müharibəsindən sonra **xarici malların əvəzlənməsi siyasətinə keçmişdir.** Daha doğrusu xaricdən alınan məhsulların yerli məhsullarla əvəz olunması siyasəti yeridilirdi (məsələn tutaq ki, yanacaq üçün alınan neftin yerli daş kömür ilə əvəz edilməsi). Belə ki, 1866-1883-cü illərdə yenidən emal olunmuş bəzi əmtəələr üzrə orta tarif dərəcəsi 45 % təşkil edirdi. Həmin illərdən Avropa dövlətləri ilə olan ticarətdə himayədarlıq tədbirləri güclənirdi. Daha doğrusu yerli bazarı qorumaq üçün xaricdən gətirilən məhsulları azaltmaqda yüksək kömrük dərəcələri müəyyən edilirdi.

Deməli, bəzi sənaye ölkəsindəki xarici ticarət siyasəti 1913-cü illərdə himayədarlıq dənizində azadlıq (liberallaşma) adası kimi görünürdü. İnkişaf etməkdə olan ölkələrdə vəziyyət ayrı cür idi. Həmin müstəmləkə ölkələrinə müstəmləkəçi dövlətlərinin məhsulları sərbəst gətirilirdi. Başqa dövlətlərlə qərb ölkələri üçün sərbəst ticarət, çox vaxt silah gücünə əldə edilirdi. Məsələn Britaniya tacirləri 1767-ci illərdə Banqladeşdən (o vaxt Benqaliya) Çinə 1000-1200 kisələrlə tiryək aparırdılar. 1839-1842-ci illərdə bu məsələ üstündə Britaniya ilə Çin arasında hərbi toqquşma olmuşdur.

İqtisadi artım. XIX əsrin axırlarında iqtisadi inkişaf dünya miqyasında sürətlə artırdı. Qərb ölkələrində elm və texnikanın yüksəlişi məhsuldar qüvvələrdə xeyli dəyişiklik yaradırdı. Hər şeydən əvvəl istehsalın enerji bazası dəyişirdi. Hər nəfərə düşən dünya üzrə ümumi məhsulun (DÜM-ün) artım sürəti 1830-1870-ci illərdəki 0,1 %-dən 1890-1913-cü illərdə 1,4 %-ə çatmışdır. İqtisadi artımın əsas hərəkətverici qüvvəsi sənaye istehsalı idi. 1870-1913-cü illərdə sənaye məhsulunun həcmi dörd dəfə artmışdır. XX əsrin əvvəllərinə ağır sənayenin artım sürəti yüngül sənayenin artımına çatmışdır.

Dünya üzrə iqtisadi inkişaf vahid plana - qaydaya əsaslana bilməzdi. Məsələn, 1830-1870-ci illərdə cənub ölkələrində hər nəfərə düşən məhsul istehsalı azalmışdı. Sənayenin inkişafına olan fəallıq da zəifləmişdir. 1913-cü ildə sənaye ölkələrində ÜDM-in həcmi inkişaf etməkdə olan ölkələrdəki ÜDM-in həcmindən 2 dəfə, hər nəfərə düşən məhsuldan isə 3,5 dəfə artıq olmuşdur.

Şəhər əhalisinin sayında da kəskin dəyişiklik özünü göstərirdi. Beləki, orta əsrin ərəfələrində Hindistanda, İranda. Misirdə cəmi əhalinin təqribən 20 %-i şəhərlərdə yaşadığı halda XX əsrin əvvəllərində şəhər əhalisinin xüsusi çəkisi Hindistanda 10,8 %, Misirdə 15 %, İranda isə elə əvvəlki qədər – 21 % olmuşdur.

Şərqdə şəhərləşmənin əvəzinə yenidən kəndə olan meylin səbəbi yerli tacirlərin - sənayeçilərin fəaliyyətinin pozulması idi. Müstəmləkəçi ölkələrdən buralara çoxlu xarici mal axdığına görə yerli xırda istehsalçılar xaric üçün kənd təsərrüfatı məhsulları istehsalına keçməli olurdular. Əhalidə aqrarlaşma gedirdi. İstehsalın ənənəvi yüksək forması olan manufaktura - sənətkarlıq fəaliyyəti deyil, aşağı forması olan aqrar - xammal dairəsində cəmlənirdilər. Bu cəhəti bir çox ölkələrin və o cümlədən Hindistanın misalında da görmək olar. Aşağıdakı cədvəldə XIX əsrdə Hindistanın əmtəə ixracının qurluşu verilir və orada hansı məhsulun xüsusi çəkisinin artması aydın nümayiş etdirilir.

Cədvəl

1814-1857-ci illərdə Hindistanda əmtəə ixracının quruluşu – %-lə

	xam ipək	xam pambıq	tiryək	şəkər	indiqo	pambıq parça
1814	13,3	8,0	-	3,0	20,0	14,3
1857	2,9	15,6	32,7	4,3	6,0	2,9

Beləliklə XVIII əsrin axırlarından Hindistanda tiryək və pambıq ixracı artmışdır. ABŞ-da (1861-1865-ci illər) vətəndaş müharibəsi ilə bağlı olaraq Amerikadan Britaniya adasına pambıq aparılması yolu bağlanmışdır. 1860-cı illərin axırlarına Hindistan İngiltərəyə olan pambıq idxalının 42 %-ni verirdi.

Beləliklə, Qərb dövlətlərinin inkişaf qanunauyğunluqlarının məcmusu bütün dünya təsərrüfatı münasibətlərinin əsas istiqamətlərini müəyyən edirdi. Həmin ölkələr daha həlledici, hegemon vəziyyəti almışlar. **Beləliklə bütöv - tam bir sistem olmaqla dünya təsərrüfatı XIX əsrin sonu və XX əsrin əvvəllərinə formalaşmışdır.**

Qeyd etdiklərimizdən aydın olur ki, dünya təsərrüfatının yaranması uzun tarixi bir prosesdir.

Bu proses müəyyən qanunauyğunluqların məhsulu kimi bütövlük təşkil etməklə yanaşı həm də ayrı-ayrı dövrlərdən ibarətdir.

Aydındır ki, müəyyən dövrlər – mərhələlər daha yadda qalan, böyük əhəmiyyət kəsb edən, keyfiyyət cəhətləri ilə fərqlənən hadisə və prosesləri özündə əks etdirirlər.

Hər halda bu mərhələlər bütöv, vahid bir varlığın, prosesin müəyyən hissələridir. Bu mərhələləri daha uzun və yaxud qısa dövr üçün fərqləndirmək o qədər də nəzəri əhəmiyyət kəsb etmir.

1. Qeyd etməliyik ki, bir çox tədqiqatçılar dünya təsərrüfatının yaranmasının ilk mərhələsini Roma imperiyası (bizim eradan əvvəl 8-6-cı əsrlər) dövrünə aid edirlər. O vaxt Roma imperiyası bütün Apenin yarım adasını (İtaliyanın yarısı qədərdir), İtaliyanı, Avropanın bir çox hissəsini, Şimali Afrika sahillərini, Misiri, Kiçik Asiyanı, Suriya və s. əraziləri əhatə edirdi. Həmin mərhələdə ölkələr arasında ticarət əlaqələri yaranırdı.

2. İkinci mərhələ XV-XVI əsrlərdəki coğrafi kəşflərlə əlaqələndirilir. Bu kəşflər nəticəsində beynəlxalq ticarətin inkişafına zəmin yaranırdı. Natural təsərrüfatı əvəz edən beynəlxalq ticarət daha böyük əhəmiyyət kəsb edirdi.

Lakin həmin dövrün dünya iqtisadiyyatı yenicə yaranırdı, məhdud idi, anacaq tacir kapitalının hərəkəti dairəsində idi.

3. Üçüncü mərhələ XIX əsrin sonu ilə XX əsrin əvvəllərini əhatə edir.

Bu mərhələdə sənaye çevrilişindən sonra kapitalizmdən inhisarçı kapitalizmə keçilməsi baş vermişdir.

XX əsrin əvvəllərində kütləvi istehsalın inkişafı **dünya bazarından dünya təsərrüfatına** keçilməsinə zəmin yaratmışdır. Bu mərhələdə işçi qüvvəsinin hərəkəti və əmtəə mübadiləsi ilə yanaşı, kapitalın hərəkəti də artırdı. Bu isə beynəlxalq istehsal əlaqələrini genişləndirirdi.

4. Dördüncü mərhələ XX əsrin başlanğıcı ilə XXI əsrin başlanğıcı arasındakı dövrü əhatə edir.

Dünya təsərrüfatının inkişafındakı bu mərhələ müasir dövr kimi səciyyələnir.

Müasir dünya təsərrüfatı sistemi daha çox sənaye çevriliş-ləri ilə xarakterizə edilir. Bir çox iqtisadçılar dünya təsərrüfatının inkişafında XX əsrin özünü də müəyyən dövrlərə ayırırlar. Bunlar aşağıdakılardır:

1. **1920-1930-cu illər.** Həmin dövrdə dünya təsərrüfatında böhranlar müşahidə olunmuşdur. Ayrı-ayrı ölkələr, regionlar arasında iqtisadi əlaqələr qeyri sabit olmuş, inteqrasiya əlaqələri zəifləmişdir. Bu dövr öz başlanğıcını birinci dünya müharibəsi və Rusiyada sosialist inqilabının dalğalarından götürmüşdür. Milli iqtisadiyyatlar əsasən hərbiləşdirməyə yönəldilirdi, işğal olunmuş torpaqlar talan edilirdi.

1913-1929-cu illərdə DÜÜM-in həcmi 1,1 dəfə artmışdır. Rusiyada 1922-ci ildə sənaye məhsulunun həcmi 1913-cü ildəkinin 13 %-inə, kənd təsərrüfatı məhsulu isə 55 %-nə bərabər olmuşdur.

1920-1930-cu illərdəki iqtisadi böhranlar nəticəsində inkişaf etmiş sənaye ölkələrində istehsalın həcmi 18 % azalmışdır. 1929-1932-ci illərdə ABŞ-da ümumi məhsul 28 %, sənaye məhsulu 44,7 %, Fransada 25,6 %, Almaniyada 40,8 %, Britaniyada 11,4 % azalmışdır. Aydındır ki, belə şəraitdə ixracın həcmi də azalmışdır.

2. **İkinci dünya müharibəsindən sonra «dünya sosialist təsərrüfat sistemi»»** yarandı. Dünya təsərrüfatının sosial strukturunda dəyişiklik baş verirdi. Bu sistemin ölkələri tamam başqa sosial - iqtisadi əsasda inkişaf edir, istehsalın kollektivləşdirilməsi, mərkəzdən idarəçilik, sənayenin dövlətləşdirilməsi və s. hökmran olurdu. Xarici iqtisadi münasibətlərin əlaqələndirilməsinə sinfi baxımdan yanaşma vahid dünya təsərrüfatı dairəsini daraldırdı. Müxtəlif ictimai sistemə malik olan dövlətlər arasındakı təsərrüfat əlaqələrində qarşıdurmalar, yarışlar özünü göstərirdi. Belə bir şəraitdə qeyri-sosialist sistemi ölkələrinin qarşılıqlı əlaqələri güclənirdi.

İkinci dünya müharibəsi illərində ABŞ Qərbi Avropanın dirçəlməsinə kömək edirdi. «Marşal planı» deyilən plan hazırlanırdı (1944-cü ildə ordu generalı, 1947-1949-cu illərdə ABŞ-

ın dövlət katibi C.K.Marşal (1880-1959) ikinci dünya müharibəsindən sonra Avropanın dirçəlməsi və inkişafı üçün Amerikanın iqtisadi köməkliyi barədə təşəbbüs irəli sürmüşdür). Bu planın həyata keçirilməsində 17 dövlət (o cümlədən Qərbi Almaniya) iştirak etmişdir. Onlar həmçinin Qərb Avropada ABŞ-ın hökmranlığının möhkəmləndirilməsi məsələsini də qoyurdular. **1951-ci ildə bu planı dəyişərək "təhlükəsizliyin qarşılıqlı təmin edilməsi"** adlandırmışlar. Burada artıq iqtisadi və hərbi köməklik edilməsi nəzərdə tutulurdu.

Bütün bunlara baxmayaraq sosializm sisteminin təsiri altında müstəmləkə sistemi dağılmağa başlayırdı. 1960-cı illərin ortalarına müstəmləkə sisteminin ləğv olması ilə böyük bir qrupdan ibarət olan inkişaf etməkdə olan ölkələr beynəlxalq həyata müstəmləkə kimi deyil, müstəqil dövlətlər kimi daxil oldular. Bu şərait dövlətlərarası əlaqələrin xarakterini dəyişirdi. Hər halda həmin inkişaf etməkdə olan dövlətlərin daxili problemləri, iqtisadi gerilikləri onları öz "köhnə ağalarından" asılı vəziyyətdə saxlamaqdadır. Həmin ölkələrə çoxlu kapital ixracı həyata keçirilir və çoxtərəfli köməkliklər göstərilir.

3. **1950-1980-ci illərdə ABŞ və digər sənaye ölkələrinin** iqtisadi inkişaf səviyyəsində yaxınlaşma müşahidə olunmağa başlamışdır. 1955-ci ildə sənayecə inkişaf etmiş altı ölkənin ümumdaxili məhsulu ABŞ-ın ÜDM-nun 74 %-nə, 1970-ci ildə isə 114 %-inə bərabər olmuşdur.

4. **XX əsrin son on illiklərini dünya təsərrüfatının** inkişafında yeni dövr hesab etmək olar. Həmin dövrdə Şərqi Avropa ölkələri və keçmiş Sovet İttifaqının sosial quruluşunda köklü dəyişikliklər baş vermişdir. Qərb dövlətlərinin iqtisadi və siyasi quruluşuna yaxın sistem yaranması formalaşır. Dünya təsərrüfatı yeni inkişaf mərhələsinə daxil olur, daha vahid, bütöv bir xüsusiyyət kəsb edir. Burada sənayecə inkişaf etmiş ölkələrin, inkişaf etməkdə olan ölkələrin milli iqtisadiyyatları və hazırda keçid xarakterinə malik iqtisadi sistem ölkələri əks olunur və qlobal dünya təsərrüfatı formalaşır.

Hazırki müasir dünya təsərrüfatı əsasən özünün qlobal miqyasına görə; bazar iqtisadiyyatının prinsiplərinə əsaslanmasına görə; obyektiv iqtisadi beynəlxalq əmək bölgüsünə və istehsalın daha çox beynəlmiləl xarakterinə görə fərqlənir. Bütün iqtisadi proseslərin beynəlmiləlləşməsi nəticəsində dünya təsərrüfatının aşağıdakı strukturları formalaşmışdır:

1. Əmtəə və xidmətlərin dünya bazarı:
2. Dünya kapital bazarı;
3. Dünya iş qüvvəsi bazarı;
4. Beynəlxalq valyuta sistemi;
5. Beynəlxalq kredit-maliyyə sistemi və s.

Qeyd etmək lazımdır ki, bundan əlavə beynəlmiləlləşmə informasiya sahəsində mədəniyyət, elmi-tədqiqat konstruktor işləri sahəsində də inkişaf etdirilir. Vahid elmi-informasiya məkanı formalaşır.

Beləliklə, dünya təsərrüfatının yaranması heç də sakit, ictimai tərəqqinin nəticəsi kimi meydana gəlməmişdir. Burada XVI əsrdəki coğrafi kəşflər, qul ticarəti, zorakılıq, milyonlarla adamların fiziki məhv edilməsi, lokal və dünya müharibələri və bu kimi proseslər də xarakterik olmuşdur.

Onu da qeyd etməliyik ki, dünya təsərrüfatının müasir şəraitində bir çox qlobal problemlərin həllində dünya dövlətlərinin ümumi gücünün səfərbər edilməsi, beynəlxalq həyatın qlobal prinsiplərlə tənzim edilməsi daha geniş xarakter alır.

Dünya təsərrüfatındakı bu bütövlük və vahidliklə yanaşı müəyyən daxili ziddiyyətlər də mövcuddur. Bunlardan: 1.İqtisadi inkişafdakı üç mərkəz və dünyanın üç regionu arasında olan ziddiyyət. Burada Qərbi Avropa, ABŞ və Yaponiya və eləcə də NAFTA (Şimali Amerika Azad Ticarət zonası), Aİ və Asiya-Sakit okean iqtisadi əməkdaşlıq (1989-cu ildə yaradılıb, 19 ölkəni özündə birləşdirir) ölkələrinin dünya bazarı uğrunda gedən rəqabət mübarizəsi nəzərdə tutulur.

2. İkinci qrup ziddiyyət «Şimal» və «Cənub» ölkələri arasında olan ziddiyyətdir.

«Şimal» dedikdə inkişaf etmiş sənaye ölkələri «Cənub» adı altında isə inkişaf etməkdə olan ölkələr nəzərdə tutulur. Burada olan ziddiyyətlərin əsas məzmunu ondan ibarətdir ki, inkişaf etməkdə olan ölkələrin bəziləri (ilk növbədə yeni sənaye ölkələri) bir çox iqtisadi göstəricilərə görə inkişaf etmiş ölkələrin səviyyəsinə çatmışlar və bununla da dünya təsərrüfatında müəyyən mövqe tutmağa çalışırlar.

3. Üçüncü qrup ziddiyyətlər «Qərb» və «Şərq» ölkələri arasında olan ziddiyyətlərdir.

«Qərb» ölkələri dedikdə yenə də inkişaf etmiş sənaye ölkələri, «Şərq» dedikdə isə keçmiş sosializm sistemi ölkələri nəzərdə tutulur.

Bu ziddiyyətin əsas məzmunu ondan ibarətdir ki, dünya sosialist sisteminin dağılmasınadək həmin ölkələr nisbətən qapalı həyat tərzi keçirdikləri halda, hazırda fəal surətdə dünya bazarına çıxmağa çalışırlar, Aİ-yə daxil olurlar. Sənayecə inkişaf etmiş ölkələr isə bu kimi ölkələrin rəqabətə qoşulmasına maneəçilik göstərirlər.

4. Dördüncü qrup ziddiyyətlər yeni sənaye ölkələri ilə inkişaf etmiş ölkələr arasında olan münasibətlərə aiddir. Bəzi yeni sənaye ölkələri dünya bazarında öz nüfuz dairələrini artırmağa çalışırlar. Həmin ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında da müəyyən ziddiyyətlər mövcuddur.

Onu da qeyd etməliyik ki, bütün bu kimi ziddiyyətlər heç də dünya təsərrüfatının bütövlüyünü pozmur, əksinə daha yeni nailiyyətlərə gətirib çıxarır:

- daha böyük – ümümdünya korporasiyaların yaranması baş verir. TMK və TMB-lar ümumdünya təsərrüfatının əsas quruluş elementlərinə çevrilirlər;
- rəqabətlərin kəskinləşməsi ümumdünya ərnəkdaşlığına çevrilir;
- ümumdünya təsərrüfatı keyfiyyətcə yeni beynəlmiləlləşmə səviyyəsinə qalxa bilir. Bu da əsasən iki istiqamətdə baş verir:

a) vahid qlobal bazarın yaranması;

b) regional iqtisadi inteqrasiya blokunun yaranması.

III FƏSİL
DÜNYA İQTİSADİYYATI VƏ TƏBİİ EHTİYATLAR

1. *Dünya iqtisadiyyatı və təbii (mineral) ehtiyatlar.*
2. *İstehsal və təbii ehtiyatlardan istifadə edilməsi səviyyəsi.*
3. *Mineral xammalın qiymətlərinin formalaşdırılması. Təbii ehtiyatlardan istifadənin sosial-iqtisadi cəhətləri.*

1. Dünya iqtisadiyyatı və təbii (mineral) ehtiyatlar

Hər bir milli iqtisadiyyatın və eləcə də dünya iqtisadiyyatının inkişafı iqtisadi ehtiyatlardan - istehsal amillərindən asılıdır. Dünya iqtisadiyyatının təbii ehtiyatları müxtəlif və rəngarəngdir. Bura enerji, torpaq, su, meşə, bioloji (bitki və heyvan aləmi), mineral (faydalı qazıntılar), iqlim və s. ehtiyatlar aiddir.

Hazırda 200 növdən artıq minerallardan, yanacaq və xammaldan is tifadə edilir. Bunların müxtəlif səpgidə təsnifatı aparılır. Daha çox yayılan təsnifat texniki istifadə baxımındandır. Burada yanacaq (istilik), metal ehtiyatları, texniki ehtiyatlar və inşaat materialları bir-birindən fərqləndirilir.

Dünya iqtisadiyyatının inkişafında bütün bu ehtiyatlardan istifadə edilməsi problemləri böyük rola malikdir. Mineral ehtiyatların istehsalı və istehlakı beynəlxalq əmək bölgüsü vasitəsi ilə bütün dünya ölkələrini əhatə edir. Sənayenin inkişafı ilə məhsuldar qüvvələrin inkişafında təbii ehtiyatlar və yerin təkindəki faydalı qazıntılar daha böyük rola malikdirlər. Yerin təkində və bəzən də yerin üst qatında güclü yanacaq ehtiyatı - kömür, neft, qaz, uran filizi, müxtəlif metal fizilzləri, inşaat materialları istehsalı üçün xammal mövcuddur. Bütün bunlar bərk, maye və qaz şəklindədir. Bu ehtiyatlar iqtisadi inkişafın ən zəruri şərti hesab edilir. Bununla yanaşı nəzərə almaq lazımdır ki, elmi-texniki tərəqqinin nailiyyətləri nəticəsində bir çox süni, kimyəvi, texniki yeniliklər bu mineral ehtiyatların əvəzlənməsinə zəmin yaradır. Son onilliklərdə bu sahədə Yaponiya, Cənubi Koreya, Sinqapur bir çox nailiyyətlər əldə etmişdir. Bütün bu ehtiyatların hesablanmasında müxtəlif metodlardan istifadə edilir: kəşf edilmiş, proqnozlaşdırılmış ehtiyatlar və s.

Bu ehtiyatlardan yanacaq ehtiyatları daha çox diqqəti cəlb edirlər. Burada əsasən kömür, neft və qaz nəzərdə tutulur. Son illərin məlumatına görə bu ehtiyatlara görə MDB ölkələri və Avstraliya əvvəlinci yerləri tutur. Sonra Şimali Amerika, Yaxın və Orta Şərq, daha sonra Qərbi Avropa, Afrika və Latın Amerikası fərqlənirlər.

Bütünlükdə dünya üzrə yanacaq ehtiyatının 70-75 %-i kömürün, 25-30 %-i isə neft ilə qazın payına düşür. Aydındır ki, ayrı-ayrı ərazilərdə bu nisbət müxtəlifdir. Məsələn, Avropada kömür 90 %, yaxın və orta şərqdə neft 100 % təşkil edir.

Faydalı qazıntılardan istifadə edilməsinin tarixinə dair

Hazırda 250-yə qədər faydalı qazıntı növü və 200 növdə cilalanmış və qiymətli daş məlumdur. Aydındır ki, insan cəmiyyətinin inkişafı tarixində insanlar bunlardan qismən istifadə etmiş və faydalanmışdır.

Bu faydalı qazıntılardan ilk dəfə insanlara məlum olanı **misdir**. Misdən istifadə demək olar ki, daş dövrünə – b.e.ə. 12-11-ci əsrlərə təsadüf etmişdir.

Vaxt keçdikcə əvvəlcə Yaxın Şərqdə, sonralar Avropada, Orta Asiyada, Cənubi Qafqazda, Rusiyada və Ukraynada misdən istifadə genişlənmiş və mis əsri yaranmışdır. Qədim dünyada – Suriyada, Fələstində, Kiprdə, İspaniyada, Serbiyada, Bolqarıstanda, Qafqazda, Hindistanda mis çıxarılmasına başlamışlar.

Min illər boyu misdən əmək alətləri, müxtəlif ləvazimatlar[1], bəzək əşyaları düzəltmişlər. Sonralar isə sikkə kəsilməsində istifadə edilmişdir.

[1] Belə güman edilir ki, latın sözü olan «küpyur» Kipr adasının adı ilə bağlıdır.

Sonralar bizim eradan təqribən 4 min il əvvəl **bürünc**[2] **əsri başlanmışdır**. İnsanlar mis və qalay əritməyi öyrənmişlər. Bu da ilk əvvəllər yaxın şərqdə, sonralar isə Avropada (Britaniyada) baş vermişdir.

Mis kimi, bürüncdən də müxtəlif əmək alətləri düzəldilməsində istifadə edilmişdir. Konstruksiya materialları kimi də bürüncdən geniş istifadə edilmişdir.

Bütün bunlarla yanaşı bir çox digər metal və daş növlərindən də geniş istifadə edilirdi.

Mis kimi, qızıl da qədimdən məlumdur. Bizim eradan əvvəl kiçik Asiyada, hindistanda, Qədim Romada bəzək işlərində, pərəstiş əşyaları kimi, sikkələr kəsilməsində istifadə edilirdi.

Beləliklə, Qədim Yunanıstanda, Romada və digər yerlər də **qurğuşun, civə, kükürd, cilalanmış daşlar (mərmər və s.)** kimi qiymətli minerallar çıxarılırdı. Bizim eradan əvvəl 3-cü minillikdə artıq almaz (Cənubi Hindistanda) çıxarılmağa başlanmışdır.

Tədricən bürünc əsri dəmir əsri ilə əvəz olunurdu (bu da 3,5 min il davam etmişdir). Aydındır ki, cəmiyyətin inkişafında dəmirin böyük əhəmiyyəti olmuşdur.

İlk dəmir filizi əridilməsi bizim eradan əvvəl ikinci minilliyə təsadüf etmişdir (Misir, Mesopotamiya). Artıq sonralar Avropa, Cənubi Rusiya, Qafqaz və digər ərazilərdə də dəmir filizindən istifadə artmışdır.

Beləliklə, XVIII-XIX əsrlərdə ki, sənaye inqilabına qədər mineral-xammal bazası əsasən qeyd etdiyimiz mis, dəmir, qızıl, gümüş, qalay, qurğuşun, civə və s. kimi metallardan ibarət olmuşdur. Lakin XIX əsrin ikinci yarısından və XX əsrin birinci yarısından bu mineral qazıntıları bazasının tərkibi kökündən dəyişmişdir. Faydalı yanacaq ehtiyatları sahələri meydana gəlmişdir. Kömür, neft çıxarılmasına başlamışlar. XIX əsrin ikinci yarısından Polşa, Rumıniya, Rusiya və ABŞ-da sənaye üsulu ilə neft çıxarılması artmışdır. Sonra uran filizi çıxarılması, metal uran alınması, alüminium, boksit[1] ehtiyatlarının tapılması və nəhayət qeyri-filiz qazıntılarının (fosforitlər, kalium duzları, asbest, almaz və s.) kobalt, berillium, litium, niobi kəşfi, XX əsrin ortalarından titan və s. kimi sahələr kəşf edilmişdir. Bütün bunlar əlbəttə dünya iqtisadiyyatının inkişafında əsas amil kimi böyük əhəmiyyət kəsb edirlər.

Bəzi ehtiyatlar haqqında qismən məlumat verək.

[2] Bürünc (rusca «bronza») Cənubi İtaliyada Brindizi (Brundizi) limanının adından götürülübdür.

Mineral xammal və yanacaq ehtiyatları

Geoloji proqnoza görə mineral yanacağın həcmi 12,5 trln. ton təşkil edir. Bu 1000 ilə kifayət edə bilər. Bu ehtiyatlar kömür (70%), neft və qaz (27%) və eləcə də yarpar şest və torfdan ibarətdir.

Kömür

Yanacaq enerji ehtiyatlarından kömürün xüsusi çəkisi daha artıqdır. Yer qabığında kömür daha çox yayılmışdır. 3600-dən çox kömür hövzəsi və şaxtası mövcuddur. Bunları cəmi quru sahənin 15 %-ni əhatə edir. Kömürün ümumi ehtiyatı və kəşfi məlum olan ehtiyatı neft və qaz ehtiyatından artıqdır. Dünya miqyasında daş kömürün və boz kömürün ehtiyatı 5 trln. ton (daha dəqiq 4,8 trln. ton) təşkil edir. Kömür ehtiyatı kəşfiyyatı 83 ölkədə aparılmışdır. Bunlardan ən çox kömür olan ölkə ABŞ (445 mlrd. ton), Çin (272 mlrd. ton), Rusiya (200 mlrd. ton), CAR (130 mlrd. ton), Almaniya (100 mlrd. ton), Avstraliya (90 mlrd. ton), Böyük Britaniya (50 mlrd. ton), Kanada (50 mlrd. ton), Hindistan (29 mlrd. ton) və Polşadır (25 mlrd. ton). Hazırda dünyada ildə 4,5 mlrd. ton kömür çıxarılır.

Neft

Dünya üzrə Yer qabığında neft daha çox yayılmışdır. 600-dən artıq neft-qaz hövzəsindən 400-də hərtərəfli tədqiqat

[1] Boksit – XIX əsrin əvvəllərində Fransanın cənubunda Boks adlanan yerdə ilk boksid ehtiyatları tapılmışdır. Boksid sözü də bu yerin Adı ilə bağlıdır.

aparılıbdır. real olaraq neft və qaz ehtiyatlarının ərazisi 15-50 mln. km² qiymətləndirilir. Lakin dünya üzrə neft ehtiyatları kömürdən azdır. 2000-ci ilin əvvəllərinə kəşfi məlum olan neft ehtiyatı 140-150 mlrd. ton həcmindədir.

Dünya miqyasında 35-40 min neft yataqları mövcuddur ki, bunlar da 102 ölkənin ərazisində yerləşir.

Kəşf olunmuş neft ehtiyatına görə 10 qabaqcıl ölkə, mlrd. t (2000)

	Ölkələr	Ehtiyat
1	Səüdiyyə Ərəbistanı	35,8
2	İraq	15,1
3	Küveyt	13,3
4	İran	12,3
5	BƏƏ	12,6

	Ölkələr	Ehtiyat
6	Venesuela	11,1
7	Rusiya	6,7
8	Meksika	4,0
9	Liviya	3,0
10	ABŞ	3,7

Dünya miqyasında kəşfi məlum olan neft ehtiyatı 2000-ci illərdə 250-500 mlrd. ton (proqnoza görə isə 800 mlrd. ton) qiymətləndirilir. Ən çox neft ehtiyatları Səüdiyyə Ərəbistanı – 35,8 %, İraq – 15,1 %, BƏƏ – 12,6 %, Küveyt - 13,3 %, İran – 12,3 %, Venesuela- 11,1 %, Rusiya – 6,7 %, Çin - 2,4%, ABŞ – 3,7 % (2000) kimi ölkələrdədir.

İldə orta hesabla 3,6 mlrd. ton neft çıxarılır. Xəzər dənizi ərazisində olan neft ehtiyatı cəmi ehtiyatların 3-4 %-dən artıq deyildir. Dünya üzrə neft və qaz çıxarılmasının 40 %-ə qədəri (OPEK) neft ixrac edən ölkələrin payına düşür.

Hazırda bura daxildir:

Əlcəzair	Qatar
Venesuela	Küveyt
Qabon	Liviya
İndoneziya	Nigeriya
İraq	Səüdiyyə Ərəbistanı
İran	BƏƏ

Bu təşkilat 1960-cı ildə yaranıbdır (iqamətgahı Vyanadadır).

Gələcəkdə bu təşkilatın buraxılması və daha effektiv alyans olan yeni tərkibli təşkilat yaradılması gözlənilir. Buraya aşağıdakı dövlətlər daxil olmalıdır.

Səüdiyyə Ərəbistanı	Venesuela
Rusiya	BƏƏ
İran	Küveyt
Çin	Nigeriya
Meksika	

Təbii qaz

Faydalı qazıntılar arasında təbii qaz ehtiyatları da böyük rola malikdir. Təbii qazın ümumi geoloji ehtiyatları müxtəlif mənbələrdə 300 trln. m³-dən 600 trln.m³-dək qiymətləndirilir. Burada daha çox yayılmış göstərici 400 trln.m³-dir.

2000-ci ilin məlumatına görə kəşfi məlum olan təbii qaz ehtiyatı 150 trln. m³-dir. Bu göstəriciyə görə daha qabaqcıl ölkələr aşağıdakılardır.

	Ölkələr	Qaz ehtiyatı, trln.m³
1	Rusiya	48,1
2	İran	22,0
3	Qatar	8,5
4	BƏƏ	5,8
5	Səüdiyyə Ərəbistanı	5,4
6	ABŞ	4,6
7	Venesuela	4,1
8	Əlcəzair	3,7

	Ölkələr	Qaz ehtiyatı, trln. m³
9	Nigeriya	3,3
10	İraq	3,1
11	Norveç	3,8
12	Türkmənistan	2,6
13	Qazaxıstan	1,7
14	Niderland	1,7
15	Liviya	1,2

Hazırda ildə 2,2 trln. kub metr qaz çıxarılır. Deməli təbii qaz ehtiyatı 54 ilə kifayət edə bilər.

Hidroenergetika

Hidroenergetika mineral ehtiyatları faydalı qazıntı hesab edilməsə də böyük təbii sərvət olmaqla təbii yanacaq ehtiyatları ilə bir sırada dayanır. Dünya üzrə hidroenergetika ehtiyatı 9,7 - 9,8 trln. kvt. saatdır.

Metal filizləri

Kəşf edilmiş dəmir filizi 260, proqnoz üzrə isə 600 mlrd. tona bərabərdir. Ən çox dəmir filizi yataqları Braziliya, Avstraliya, Kanada, Rusiya, Çin, ABŞ, Hindistan və İsveçdədir. İldə 0,9 - 1 mlrd. ton dəmir filizi çıxarılır. Bu xammalın ehtiyatı 250 ilə kifayət edər.

Kəşfi məlum olan dəmir filizi ehtiyatı üzrə qabaqcıl ölkələr

	Ölkələr	mlrd. ton		Ölkələr	mlrd. ton
1	Rusiya	57,8	6	Kanada	11,7
2	Ukrayna	20,0	7	Hindistan	11,5
3	Braziliya	17,6	8	Çin	9,0
4	Avstraliya	16,0	9	Qazaxıstan	8,0
5	ABŞ	15,9	10	CAR	4,0

Əlvan metal istehsalında istifadə edilən xammallarda boksidlər əsas yeri tuturlar. Boksitlərin ehtiyatı proqnoza görə - 250 mlrd. ton, o cümlədən kəşf olunmuşu – 20-30 mlrd. tondur. Ən böyük boksit yataqları - Avstraliya, Qvineya, Braziliya, Venesuela, Hindistan, Çin, Qayana, Surinam və Yamaykadadır. Boksit çıxarılması ildə 80 mln. ton təşkil edir.

Mis filizinin geoloji ehtiyatları - 860 mln. ton, kəşfi məlum olan isə 450 mln.tona bərabərdir (əsasən Hindistan, Zinbabve, Zambiya, Konqo, ABŞ, Rusiya, Kanada nəzərdə tutulur). İldə 8 mln. ton çıxarılır.

Torpaq, su və meşə ehtiyatları

Yer kürəsinin səthi 510 mln. kvadrat km. təşkil edir. Bunun 149 mln. kvadrat km -i quru sahə, 361 mln. kvadrat km -i isə dəniz və dəryalardır. Ümumi quru sahədən Arktika və Antarktikanın buzlu sahələrini çıxdıqdan sonra qalan torpaq sahəsi 134 mln. kvadrat km təşkil edir. Torpaq sahəsinin 11 %-i becərilən torpaq, 23 %-i çəmənlik və biçənəklər, 33 %-i az məhsuldar torpaqlar, 3 %-i yaşayış məntəqələri, sənaye zonası, nəqliyyat xəttləri və s. ibarətdir.

Hazırda cəmi kənd təsərrüfatına yararlı torpaq sahəsi 48,1 mln. kvadrat km-dir (4810 mln. hektardır). Bununda 1340 mln. hektarı becərilən (əkin) torpaq sahəsi 3365 mln. hektar isə çəmənlik və otlaqlardan ibarətdir. Cəmi torpaq fondunda əkinə yararlı sahənin xüsusi çəkisi - Hindistanda - 57, %; Polşada - 46,9 %; İtaliyada - 40,3 %; Fransada - 35,3 %; Almaniyada - 33,9 %; ABŞ-da 19,6 %; Çində - 10,3 %; Rusiyada - 7,8 %; Avstraliyada – 6 %; Kanadada - 4,9 %; Misirdə - 2,8 %-dir.

Azərbaycanın ümumi torpaq sahəsi 8700 min hektardır. Bundan 4 mln. hektarı kənd təsərrüfatına yararlı torpaq sahəsidir. Bunun da 32 %-i əkin yeridir, 2 mln. hektarı otlaqlardır.

Dünyada ildə orta hesabla 6-7 mln. hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi erroziyaya uğrayır, 1,5 mln hektaradək şorlaşmaya məruz qalır. Sənaye və nəqliyyat tikintisi altında da xeyli torpaq qalaraq kənd təsərrüfatı dövriyyəsindən çıxır.

Su ehtiyatları

Cəmi su ehtiyatı 1386 mln. km^3-dir. Su ehtiyatının 96,5 %-i duzlu sudur, yalnız 2,5 %-i içməli sudur. İçməli suyun əsasını çaylar təşkil edir - 47 min km^3. Bunun da 50 faizi ancaq istifadə edilir. Cəmi istifadə edilən suyun 69 %-i kənd təsərrüfatının, 21 %-i sənaye sahələrinin, 6 %-i kommunal təsərrüfatı və su ambarlarının payına düşür.

Su ehtiyatlarından istifadə edilməsi səviyyəsi: Misirdə - 97,1 %; İsraildə - 84,4 %; Ukraynada – 40 %; İtaliyada - 33,7 %; Almaniyada - 27,1 %; Polşada - 21,9 %; ABŞ-da - 18,9 %; Türkiyədə - 17,3 %; Rusiyada - 2,7 %-dir.

Meşə ehtiyatları

Dünya üzrə olan meşə örtüyü 40,1 mln. kvadrat km-dir. Bunun 8,1 mln. kvadrat km-i Rusiyanın; 3,2 mln. kvadrat km-i Braziliyanın; 2,6 mln. kvadrat km-i Kanadanın; 2,0 mln. kvadrat km-i isə ABŞ ərazisindədir. Son 200 ildə meşə sahəsi iki dəfə azalmışdır.

2. İstehsal və mineral ehtiyatlardan istifadə edilməsi

Deməli mineral ehtiyatların istehsalı və istifadə edilməsi beynəlxalq əmək bölgüsü əsasında bütün ölkələr üçün qlobal bir problemə çevrilmişdir. Mineral xammalları hər bir istehsal prosesinin başlanmasının əsasını təşkil edir. Hər bir məhsul növündən asılı olaraq onun dəyərinin müəyyən hissəsi (maşınqayırmada - 10-12 %, əsas kimya sintezində - 80-90 %) xammaldan ibarətdir.

Aydındır ki, dünya miqyasında istehsalın həcminin artması, öz növbəsində hər cür mineral ehtiyatların istifadəsinin (istehlakının) artması deməkdir. Onu qeyd etmək kifayətdir ki, təkcə 1945-1975-ci illər ərzində istifadə edilən mineral xammalın həcmi özündən əvvəlki bütün tarix boyu istifadə edilən xammalın həcminə bərabər olmuşdur. Həmin 1945-1975-ci illərdə sənaye məhsulunun həcmi 3,5 dəfə artmışdır. Orta illik metal istehlakı iki dəfə, dağ kimyası xammalı 3,5 dəfə, neft, qaz, kömür, uran istehlakı 2,6 dəfə çoxalmışdır.

Beləliklə, istehsalın artması ilə mineral xammal növlərinin istehlakının artması arasında birbaşa qarşılıqlı asılılıq vardır.

ETT-nin təsiri altında iqtisadiyyatın quruluşunda olan dəyişikliklər də tələbatın dəyişilməsinə təsir edir. Hətta bir çox məhsulların istehlakı iqtisadi inkişaf sürətini qabaqlayır.

Lakin onu da qeyd etmək lazımdır ki, mineral xammal ehtiyatlarının az-çox olması heç də bütün problemləri həll edə bilmir. **Belə ki, qeyri-yanacaq mineral ehtiyatlarının təqribən 36 %-i, neftin isə 5 %-i inkişaf etmiş sənaye ölkələrinin payına düşdüyü halda, həmin ölkələr emal sənayesinin 81 %-ni öz əllərində**

cəmləşdirmişdir. Bu ölkələrdə xromit, qurğuşun, sink, kalium duzları, uran xammalı, civə, boksit, uran, dəmir filizi və s. ibarət mineral xammal cəmləşdirilmişdir. İnkişaf etmiş sənaye ölkələrindən ən çox mineral ehtiyatları **Avstraliya (uran, dəmir və marqans filizləri, mis, boksitlər, qurğuşun, sink, titan, qızıl, almaz), CAR (marqans və xrom filizləri, vanadium, qızıl, platin, almaz, uran), Kanada (uran, qurğuşun, sink, volfram, nikel, kobalt, molibden, qızıl, kalium duzları) və ABŞ-dadır (mis, molibden, fosfat xammalı və s.).** Qeyri-yanacaq mənşəli mineral ehtiyatların təqribən 50 %-i, neft ehtiyatının 60 %-dən çoxu, təbii qazın 50 %-ə qədəri inkişaf etməkdə olan ölkələrin ərazilərində cəmləşmişdir. Bütün bunlara baxmayaraq emal sənayesi məhsulunun cəmi 20 %-i bu ölkələrdə istehsal edilir. Həmin yarımsistemdə dünya üzrə sənayenin fosfat ehtiyatının 90 %-i, qalayın 86 %-i, kobaltın 88 %-i, eləcə də mis və nikel filizi ehtiyatının yarıdan çoxu cəmlənmişdir.

Faydalı qazıntıların mövcudluğuna görə inkişaf etməkdə olan ölkələr arasında kəskin diferensiallaşma da xarakterikdir. Belə ki, inkişaf etməkdə olan 160 ölkənin 30-da bu mineral ehtiyatlar daha çoxdur. Dünya neft ehtiyatının 60 %-dən çoxu İran körfəzi ölkələrinin payına düşür.

Braziliya - dəmir və marqans filizi, boksitlər, qalay, titan, qızıl, tantal; **Meksika** - neft, mis, gümüş; **Çili** - mis, molibden; **Qvineya** - boksitlər; **Zair** - mis, kobalt, almaz; **Zambiya** - mis, kobalt ehtiyatlarına görə fərqlənirlər. Bunlara baxmayaraq üçüncü dünyanın müasir ölkələri mineral ehtiyatları ilə təmin olunma dərəcəsinə görə inkişaf etmiş sənaye ölkələrinin əvvəlki inkişaf dövrləri səviyyəsindən geri qalırlar.

Şərqi Avropa ölkələri də zəngin mineral xammal ehtiyatlarına malikdirlər. Həmin ərazidən Rusiya dünya neft ehtiyatının 13 %-nə, təbii qaz və kömürün 39 %-nə, dəmir filizinin 30 %-nə, apatit filizinin 70 %-nə malikdir. Rusiyada mineral ehtiyatları ABŞ-dan 3 dəfə, Çindən isə 4,4 dəfə artıqdır.

Ayrı-ayrı yarımsistemlərdə istehsal ilə istehlakın həcmini təhlil etdikdə nəinki onların iqtisadi inkişaf fərqi hətta texniki

imkanları da açıq-aşkar duyulur. Onu qeyd etmək kifayətdir ki, inkişaf etmiş sənaye ölkələri qeyri-yanacaq mənşəli mineral xammalın cəmisi 30 %-ə qədərini istehsal etdiyi halda, həmin xammalın 60 %-ni istehlak edir. Eləcə də neftin 58 %-ni, təbii qazın 50 %-ni istehlak edirlər. Odur ki, bu ölkələrdə istehsal ilə istehlak arasında kəskin fərq özünü göstərir. Məsələn, Aİ ölkələri öz tələbatlarının yalnız 60 %-ni ödəyə bilərlər. Yaponiyada öz xammalları ilə özünü təmin etmək səviyyəsi daha aşağıdır. Qərbi Avropa ölkələrində və ABŞ-da neft ilə təmin olunma səviyyəsi daha aşağıdır. 1990-cı illərdə Qərbi Avropa ölkələrində özləri istehsal etdiyi neftdən 2,5, ABŞ isə 1,9 dəfə artıq neft istehlak etmişdir. Yaponiya demək olar ki, neft sahəsində tamamilə idxaldan asılıdır. İnkişaf etməkdə olan ölkələr isə sənaye inkişafının zəifliyi üzündən mineral xammalın 16 %-ə qədərini istehlak edirlər.

Aşağıdakı cədvəldə ayrı-ayrı yarımsistemlərdə bəzi mineral xammalın istehsalı və istehlakı faizlə göstərilmişdir.

Cədvəl

Xammal	*İnkişaf etmiş ölkələr*		*İnkişaf etməkdə olan ölkələr*	
	İstehsal 2000	*İstehlak 2000*	*İstehsal 2000*	*İstehlak 2000*
1	2	3	4	5
Neft	30,0	71,7	70,0	28,3
Təbii qaz	61,3	77,3	38,7	22,7
Kömür	83,7	80,9	16,3	18,5
Uran	75,0	92,6	25,0	7,4
Dəmir filizi	49,7	73,3	50,3	26,7
Marqans filizi	46,1	72,2	53,9	27,8
Xrom filizi	63,1	80,1	36,9	19,9
Boksitlər	46,1	85,8	53,9	14,2
Mis	45,2	82,4	54,8	17,6
Qurğuşun	72,6	81,8	27,4	18,2
Sink	70,1	74,7	29,9	25,6
Nikel	57,2	88,3	42,8	11,7

Kobalt	24,8	93,6	75,2	6,4
Qalay	10,2	78,6	89,0	21,6
Volfram	48,1	85,1	57,9	14,9
Molibden	78,5	94,5	21,5	5,5
Niobi	17,9	92,8	82,1	7,2
Qızıl	78,8	65,5	21,2	34,5
Gümüş	49,0	93,2	51,0	6,8
Platin	93,3	94,9	6,7	5,1
Almaz	50,7	77,5	49,3	22,5
Fosfat	51,5	68,8	48,5	31,2
Kalium duzları	95,0	81,1	5,0	18,9

3. Mineral xammalın qiymətlərinin formalaşdırılması. Təbii ehtiyatlardan istifadənin sosial-iqtisadi cəhətləri

Hər bir ölkənin iqtisadi vəziyyəti onun özündə təbii ehtiyatlara malik olub-olmamasından asılı deyildir. Burada həmçinin əsas istehsalçılar və istehlak edən ölkələrdəki vəziyyət də böyük əhəmiyyət kəsb edir.

Mineral xammallar hər şeydən əvvəl beynəlxalq ticarətin inkişafında böyük rol oynayırlar. Onu qeyd etmək kifayətdir ki, bütün ixracın 19 %-ni mineral xammal təşkil edir. Bunun isə ancaq 53 %-i yanacaqdan ibarətdir. Sənaye gücü olmayan inkişaf etməkdə olan ölkələrin bir çoxu təbii ehtiyatların istifadəyə verilməsini əsas gəlir mənbəyi hesab edirlər ki, bununla da öz sosial-iqtisadi problemlərini həll etməyə çalışırlar.

Bu mineral məhsulların bəziləri ixracdan olan gəlirin əsasını təşkil edir. Məsələn, Zambiya və Zair ixracdan olan gəlirin müvafiq olaraq 90 % və 69 %-ni misdən, Mavritaniya 70 %-ini dəmir filizi satışından, Qvineya 70 %-ini boksit satışından əldə edirlər.

Beləliklə, sənaye ölkələrinin və üçüncü dünya ölkələrinin iqtisadiyyatı xarici ticarətdən asılı olduğu üçün beynəlxalq ticarətdə mineralların həcmi sürətlə genişlənir. Deməli, mineral ehtiyatlardan istifadə edilməsi mexanizmi daha da yaxşılaşma-

lıdır. Belə ki, bəzi mineral ehtiyatlar mənbəyinin axtarışı, kəşfi və istifadəyə verilməsi müddəti 10-20 ilə başa gəlir və yaxud bəzən böyük axtarış işləri yüksək (1 mlrd. ABŞ dolları) vəsait tələb edir. Beləliklə, tələbatın artması ilə istehsalla - istehlak arasında mütənasiblik pozulur. Odur ki, bu prosesdə anbar (saxlama) ehtiyatlarından istifadə edilməsi işinin yaxşılaşdırılması da zərurət təşkil edir.

Mineral xammal bazarının sosial quruluşu

Mineral ehtiyatların istifadə edilməsi sahəsindəki beynəlxalq münasibətlərin əsas subyektləri xüsusi kapitallardır. İri TMK-lar bir çox hallarda mineral xammalların çıxarılmasını və istifadəsini öz əllərində cəmləşdirmişlər.

Bu sahədə 60-70-ci illərdə müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, inkişaf etməkdə olan ölkələr müstəqillik əldə etdikdən sonra öz mineral ehtiyatlarından istifadənin xarakteri də qismən dəyişmişdi. Dövlət və qarışıq kompaniyalar yaranmışdır.

Aydındır ki, mineral ehtiyatların istehsalı və istifadəsi sahəsində ayrı-ayrı yarımsistem ölkələrin siyasəti biri-birindən fərqlənir. Daxili planda xammal siyasətində xammala qənaət rejimi, istehsalın material və enerji tutumunun azaldılması, yeni sahələrin inkişafına üstünlük verilməsi, bəzi mineral xammallar üzrə ehtiyat yaradılması əsas götürülür. Bir çox ölkələrdə təkrar emaldan istifadə artırılmışdır. Bu da istehsalın material və enerji tutumunun azaldılmasına zəmin yaratmışdır. Beləliklə, bəzi sahələrdə 1960-1986-cı illərdə istehsalın enerji tutumu 25 % azalmışdır.

Alternativ enerji materialları və mənbələrindən istifadəyə diqqət artmışdır. Belə ki, hazırda AES-də istehsal olunan elektrik enerjisi ümumdünya enerji istehsalının 24 %-nə çatmışdır.

İnkişaf etmiş sənaye ölkələri özlərini mineral xammalla təmin etmək tədbirləri həyata keçirirlər. Məsələn, 1961-ci illərdə Qərbi Avropanın böyük kompaniyaları inkişaf etməkdə olan ölkələrdəki axtarış - kəşfiyyat işlərinə qoyulan cəmi xərcin 57 %-nə sahib olduqları halda, 1975-ci ildə bu xərc 12,5 % təşkil etmişdir.

1978-ci ildə bütün geoloji - axtarış işlərinin 80 %-ə qədəri dörd ölkə - Avstraliya, Kanada, ABŞ və CAR tərəfindən həyata keçirilmişdir. Kanada, Avstraliya və CAR-da faydalı qazıntılar çıxarılmasının inkişafının istiqamət götürməsi həmin ölkələrin xammal istehsalçısı və ixrac edəni kimi mövqeyini artırmışdır. 1973-cü ildən sonra Şimal dənizi və Alyaska daha böyük yeni neft çıxarılması rayonu olmuşlar.

Qabaqcıl Qərb dövlətləri xarici mənbələr hesabına uzun müddətə müxtəlif növ xammalla təmin olunmaq üçün dövlətlərarası proqram işləyib hazırlamışlar. Müxtəlif növ mineral xammalla zəngin olan inkişaf etməkdə olan ölkələrlə daha yaxın əlaqələr yaradırlar. Məsələn, ABŞ dünyanın bir çox rayonunu özünün xüsusi maraq zonası elan edir.

Xammal bazarının müasir vəziyyəti

Son illərdə dağ-mədən sənayesində Qərbin TMK-nın rolu artmışdır. Borc böhranının təsiri altında inkişaf etməkdə olan ölkələrdə dövlət kompaniyalarının rolu azalmışdır.

Hazırda qeyri-yanacaq mənşəli olmayan mineral ehtiyatları istehsalının 30 %-nə (Şərqi Avropadan başqa) on böyük kompaniya nəzarət edir. 80-ci illərin əvvəlində 3-6 TMK ixrac olunan neftin 75 %-nə, misin 80-85 %-nə, dəmir filizinin 90-95 %-nə, qalayın 75-80 %-nə, fosfatın 50-60 %-nə, boksitlərin 80-85 %-nə nəzarət edirdilər. Keçmiş SSRİ-dən metal ixracı artdığına görə vəziyyət dəyişmişdir. 1992-ci ildə buradan dünya üzrə olan ixracın 8,3%-i qədər alüminium, 5 %-i qədər mis, 2,2 %-i qədər sink ixrac edilmişdir.

Mineral ehtiyatların istehsalı və eləcə də istifadəsinin ayrı-ayrı kompaniyaların əlində mərkəzləşməsi istər-istəməz qiymətlərin yaranmasına da təsir edir. Xüsusilə onlar minerallarının istehsalı və satışı barədə uzunmüddətli müqavilələr bağladıqda qiymətlərin qanunauyğunluğuna daha çox təsir edirlər (burada kartel razılaşmaları mövcuddur). Onu qeyd etmək kifayətdir ki, məsələn, dünya üzrə 1900-cü ildə cəmisi 20 mln. ton, 1960-

cı ildə 1 mlrd. ton, 1969-cu ildə iki dəfə çox, 1977-ci ildə 3 dəfə artıq neft istehsal edildiyi halda, qiymətlərə o qədər də təsir etməmişdir. Aydındır ki, istehsaldakı bu artım əsasən inkişaf etməkdə olan ölkələrin hesabına baş vermişdir. Bu isə Qərb ölkələrinin və ABŞ-ın özü-özünü təmin etmək faizini azaltmışdır. Dünya üzrə neft çıxarılmasında həmin ölkələrin xüsusi çəkisi (1950-1970-ci illər) 53 %-dən 25 %-ə, ABŞ-ın xüsusi çəkisi isə 51 %-dən 21 %-ə enmişdir. Beləliklə Qərbi Avropa ölkələri tamamilə, ABŞ isə 50 % neft idxalından asılı olmuşlar.

Neft çıxaran ölkələr əsas təbii sərvətin talan edilməsindən narahat olmaya bilməzdilər. 1960-cı ildə təşkil edilmiş "Neft ixrac edən ölkələr təşkilatı" (OPEK) neft karteli tərəfindən qiymətlərin azaldılmasını dayandıra bilmişdir. 1973-cü ilin oktyabrında əsas neft çıxarılması milliləşdirilmişdir. OPEK ölkələri yeni qiymət müəyyən etmişdilər. 1972-1981-ci illərdə neftin qiyməti 14,5 dəfə, yanacağın qiyməti 13,5 dəfə, bütün mineral xammalların qiyməti isə 12,5 dəfə artmışdır.

Mineral xammallara olan qiymətlərin kəskin artması dünya təsərrüfatında təkrar istehsal şəraitini dəyişdirmişdir. Mineral xammalın qiymətlərinin formalaşmasının xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, burada renta münasibətləri mövcuddur. Dağ-mədən sənayesində istehsal qiymətləri pis şəraitdə çıxarılan məhsulların qiyməti ilə müəyyən edilir. Bunlarda isə istehsal xərcləri yüksək olur. Bu vəziyyət digər istehsalçılara dağ rentası götürmək imkanı verir. Bu sahədə istehsal xərclərinin yüksək olmasının əsas səbəbi mineral çıxarılmasındakı dağ şəraitinin geoloji çətinlikləri ilə bağlıdır. Eləcə də misdəki faydalı komponentin tərkibindən asılıdır.

Müəyyən hesablamalara görə ABŞ-da mineral xammalın hər vahidinə düşən kapital və əmək sərfi 1870-1957-ci illərdə 4,4 dəfə azalmışdır.

Müasir ETT-nin nailiyyətlərindən istifadə edilməsi bir çox hallarda faydalı komponentin az olduğu mədənlərdə kəşfiyyat işləri aparılmasına imkan verir.

Bir çox mineral xammalın dünya qiymətləri müxtəlifliyi ilə də xarakterizə edilir. Burada qiymət yaranmasının öz spesifik xüsusiyyətləri vardır. Əvvəla, müxtəlif valyutalardan istifadə edilir. Müxtəlif valyutanın isə qiymətinin artıb azalması sürəti fərqli olur. Dünya qiymətlərinin dinamikasını araşdırdıqda məlum olur ki, məsələn, İkinci Dünya müharibəsi illərində xammalın çatışmaması üzündən və inflyasiya proseslərinin təsiri ilə qiymətlər 2 dəfə artmışdır. 40-cı illərin sonundan qiymətlər aşağı düşməyə başlamışdır. 1960-cı ildə qiymətlərin səviyyəsi 1950-ci illərin səviyyəsindən 10 % az olmuşdur. 60-cı illərdən qiymətlər artmağa başlamışdır.

1970-1980-ci illərdə xammalların qiyməti 7 dəfə, ərzağın qiyməti 3,3 dəfə, emal sənayesi məhsulu üzrə isə 3 dəfə artmışdır.

"Mis ixrac edən ölkələr təşkilatı"nın (SİPEK yaranması ilə 1963-1965-ci illərdə misin qiyməti iki dəfədən artıq yüksəlmişdir.

Bəzi minerallar üzrə dünya qiymətləri aşağıdakı kimi dəyişmişdir (1980-ci ilə nisbətən %-lə):

Cədvəl

	1995	**1996**
Faydalı qazıntılar	58	67
Neft	54	63
Təbii qaz	76	75
Kömür	100	105
Əlvan metallar	114	96

Cədvəldəki göstəricilərdən aydın görünür ki, 1980-ci illərdən başlayaraq bir çox xammal məhsullarının qiymətləri azalmışdır. Bu isə xammal ixrac edən ölkələrin iqtisadi inkşafına pis təsir etmişdir.

IV FƏSİL
AZAD İQTİSADİ ZONA ÜMUMDÜNYA TƏSƏRRÜFATININ ELEMENTİDİR

1. *Azad iqtisadi zonaların mahiyyəti və yaranma səbəbləri.*
2. *Azad iqtisadi zonaların növləri.*
3. *Müxtəlif ölkələrdə və regionlarda azad iqtisadi zonaların yaradılması.*
4. *Azad iqtisadi zonaların ümumi cəhətləri.*

1. Azad iqtisadi zonaların mahiyyəti və yaranma səbəbləri

İqtisadi ədəbiyyatlarda azad iqtisadi zona və yaxud xüsusi iqtisadi zona çox hallarda eyni mənada işlədilir. Sadəcə olaraq xüsusi iqtisadi zonada iqtisadi fəaliyyətin bütün tərəfləri tənzim edilə bilmir. Azad iqtisadi zonada isə adından göründüyü kimi xalis azad-sərbəst fəaliyyət nəzərdə tutulur.

İqtisadi siyasət daxili bazarı əsas götürdükdə, ona istiqamətləndikdə xüsusi iqtisadi zona ciddi tənzim edilir, tam sərbəst olmur, investisiya sahəsində müəyyən məhdudiyyət yaranır. İqtisadi fəaliyyət nisbətən müəyyən çərçivədə olur. Ölkənin iqtisadi siyasəti xarici bazara daha çox əsaslandıqda, xüsusi iqtisadi zonanın idarəçilik işinə az qarışıldıqda, xarici investisiyanın axınına daha əlverişli şərait yaranır ki, bu da ona azad zona xarakteri verir. Əslində daha geniş mənada "azad iqtisadi zona" özü də "xüsusi, əlahiddə iqtisadi zona" anlayışına daxildir. "Azad" olmaq özü də xüsusi bir haldır. Odur ki, "xüsusi" və yaxud "azad" anlayışlırının işlədilməsi az əhəmiyyət kəsb edir.

Beləliklə xüsusi iqtisadi zona milli iqtisadi məkanın bir hissəsi olub, ölkənin ayrı-ayrı hissələrində tətbiq olunmayan xüsusi güzəşt və stimullar sisteminə əsaslanır. Deməli, xüsusi iqtisadi zona bu və ya digər dərəcədə xüsusiləşmiş coğrafi ərazidir.

İlk dəfə rəsmi olaraq 1973-cü ildə (18 may) Yaponiyanın Kiot şəhərində beynəlxalq sazişdə azad iqtisadi zonanın konkret tərifi açıqlanmışdır. **Orada deyilir ki, azad iqtisadi zona ölkənin ərazisinin bir hissəsi olub, xüsusiləşmiş, müəyyən güzəştlərə əsaslanan xarici ticarət məkanıdır.**

Onu da qeyd etməliyik ki, BİM-in inkişafında azad iqtisadi zonaların yaradılması xüsusi bir mərhələ təşkil edir. Bu mərhələ əsasən XX əsrin ikinci yarısından genişlənməyə başlamışdır. Lakin Cəbəlüttariq boğazında ingilislər XIX əsrdə azad iqtisadi zona yaratmışlar. Rusiyada XX əsrin əvvəllərində Batumi və Odessada azad gömrük zonası yaradılmışdır.

Beləliklə, azad iqtisadi zonalarda ixtisaslaşdırılmanın yüksək səviyyədə olması nəticəsində mənfəət norması 30-35 %, Asiya ölkələrində isə 40 % təşkil edir. Belə zonalarda kapital qoyuluşunun qaytarılması müddəti 2-3 dəfə azalır.

Xüsusi və yaxud azad iqtisadi zona yaradılması, açıq iqtisadiyyat prinsiplərinin həyata keçirilməsinin əsas cəhətlərindən biridir. Bu kimi zonaların mövcud olması xarici iqtisadi fəaliyyətin genişlənməsinə zəmin yaradır, liberallaşmanı artırır. Xüsusi iqtisadi zonanın iqtisadiyyatı xarici aləm üçün yüksək səviyyədə açıq olur. Xarici və daxili investorlar üçün münasib gömrük, vergi qoyma, investisiya qaydaları tətbiq edilir. Faktiki olaraq xüsusi iqtisadi zona onu yaradan ölkəyə xarici kapitalı cəlb edilməsi üçün istifadə olunan bir tədbirdir, "tələdir". Başqa ölkələr və sahibkarlar üçün isə öz kapitallarını yerləşdirmək imkanıdır.

Burada kimin daha çox mənfəət əldə etməsi isə, əlbəttə, tərəflərin fəaliyyətindən, hesablamalarından, qarşıya qoyduqları məqsəd və s. asılıdır. Hər halda nəzərə alsaq ki, hər yaradılan ölkə daxilində qalır və onun sərvətinə çevrilir, onda bu məntiqə əsasən deməli xüsusi iqtisadi zona yaradılan ölkələr daha çox qazanmış olurlar.

Xüsusi iqtisadi zona yaradıldıqda həmin məkanın ölkənin digər bölgələrindən ayrılması problemi də əsas götürülür. Bu cür ayrılma Çində olduğu kimi sərhəd tikintiləri vasitəsilə də həyata keçirilə bilər, çünki xüsusi iqtisadi zona yaradıldıqda isteh-

salın quruluşunu dəyişmək olar və digər sərbəst dəyişikliklər edilə bilər. Əmək haqqı, həyat səviyyəsi yüksək ola bilər. Belə olduqda aydındır ki, ölkənin digər bölgələrindən buraya axın, alverçilik və s. daxil ola bilər. Ona görə də xüsusi zona yaradıldıqda bunun tənzim edilməsi üçün bir çox hüquq normaları da hazırlanmalıdır.

Xarici kapitalın cəlb edilməsi və ölkə daxilində iqtisadi proseslərin fəallaşmasında onun təsirindən başqa, xüsusi iqtisadi zona yaradılması aşağıdakı səbəblərdən də irəli gəlir:

- sənaye ixracına maraq yaratmaq və bunun əsasında valyuta vəsaiti əldə etmək;
- məşğulluğun artmasına nail olmaq;
- həmin zonadan yeni təsərrüfatçılıq metodları təcrübəsini yaymaqda istifadə etmək. Həmçinin, xüsusi iqtisadi zona yaradılmasının əsas səbəblərindən biri də ondan ibarətdir ki, hər bir ölkə bütün hallarda öz iqtisadiyyatını xarici fəaliyyət üçün tam açıq elan etmək istəmir. Xüsusi iqtisadi zona yaradılmasında Çinin və başqa dövlətlərin təcrübəsi əsasında aşağıdakı ümumi cəhətlərin zəruri olması əsas götürülür:
- əlverişli coğrafi vəziyyət;
- daha əlverişli infrastruktura olması;
- infrastruktura ilə bağlı torpaq, su, enerji, müxtəlif xammal növləri, nəqliyyat şəbəkəsi, telekommunikasiya və s.;
- əlverişli sosial infrastruktura, o cümlədən zəruri standartlara uyğun yaşayış binaları, uşaq bağçaları, məktəblər, xəstəxanalar, gündəlik tələbat mallarının təmini və s.;
- nisbətən ucuz, lakin yüksək ixtisaslı işçi qüvvəsi;
- yüksək maliyyə xidmətləri göstərilməsi və beynəlxalq maliyyə bazarı ilə əlaqə;
- avadanlıqların təmiri üzrə yüksək xidmət;
- XİZ-də idarəçilik üzrə normativ qanunlar aydınlığı;
- vergi qoymada güzəşt və digər hüquqi normalar;
- ümumi siyasi sabitlik və s.

2. Azad iqtisadi zonaların növləri

Xüsusi iqtisadi zona yaradılması hazırda bir çox ölkələrdə geniş vüsət almışdır. 90-cı ilin ortalarına dünyada 4 min-dən çox müxtəlif növdə xüsusi iqtisadi zona mövcuddur.

Bunlardan 1200-ü azad iqtisadi zonadır ki, bununda 400-ü azad ticarət zonası, 430-u elmi-sənaye parkı, 300-dən artığı ixrac-istehsalat zonası, 100 ədəd xüsusi təyinatlı zonalardan ibarətdir (offşor mərkəzləri, bərpa zonaları, ekoloji-iqtisadi ərazilər, turizm mərkəzləri və s.).

Qərb mütəxəssislərinin hesablamalarına görə 2000-ci ilə dünya ticarətinin 30 %-ə qədəri bu cür müxtəlif azad iqtisadi zonalarla bağlı olmuşdur. Bütün beynəlxalq şirkətlər xüsusi iqtisadi zonaya öz fəaliyyətində əlverişli güzəştlər və yüksək mənfəət imkanı kimi baxırlar. Həmçinin böyük beynəlxalq şirkətlər bu cür zonalarda öz xüsusi istehsallarını genişləndirməklə bu prosesə öz iqtisadi və siyasi nüfuzlarını artırmaq istiqaməti kimi baxırlar.

Azad iqtisadi zona yaradılması və fəaliyyət göstərməsi üzrə dünya təcrübəsi göstərir ki, dünya bazarı ilə inteqrasiya əlaqələrini artırmaq məqsədi ilə yaradılan zonalardan başqa xüsusi rejimlə maraqlandırılan fəaliyyət dairələri də mövcuddur.

Odur ki, hər bir konkret vəziyyətdə azad iqtisadi zona yaradılması səbəbləri və məqsədi bir-birindən fərqlənə bilər.

Belə ki, inkişaf etmiş sənaye ölkələrində - ABŞ-da, Böyük Britaniyada azad iqtisadi zona yaradılması regional siyasətlərin reallaşması məqsədi daşıyır. Tənəzzüldə, durğunluqda olan rayonlarda isə kiçik və orta bizneslərin canlanmasına kömək nəzərdə tutulur.

Bu məqsədlə həmin rayonlarda fəaliyyətdə olan kiçik və orta sahibkarlara daha geniş imkanlar verilir, maliyyə güzəştləri edilir. İnkişaf etməkdə olan ölkələrdə də bu məqsədlə azad iqtisadi zonalar yaradılmışdır. Bunlar geridə qalan rayonların dinamik inkişaf xəttinə düşməsinə zəmin yaratmışdır. Lakin bunların arasında fərq ondan ibarətdir ki, azad iqtisadi zona yaradılmasında inkişaf etməkdə olan ölkələr xarici kapitalın cəlb edilməsinə daha çox ümid edirlər, daha çox arxalanırlar.

Azad iqtisadi zonalar öz təşkilati-funksional quruluşu baxımından da fərqlənirlər. Lakin bir çox hallarda bu və ya digər azad iqtisadi zonanı təsnifləşdirmək olmur. Bu zonalar çox xüsusiyyət kəsb etdiyi üçün onlara birmənalı yanaşmaq çətindir. Rusiya mütəxəssisləri bu zonaları təsərrüfat ixtisaslaşmasına görə, buradakı müəssisələrin əksəriyyətinin fəaliyyət istiqamətinə görə təqribən bir təsnifat hazırlamışlar. Burada ən mərkəzi yeri sənaye emalı üzrə ixtisaslaşan iqtisadi zonalar tutur.

Həmin təsnifata görə azad iqtisadi zonaları aşağıdakı kimi fərqləndirmək olar (bax sxemə).

Azad iqtisadi zonaların təşkilində əsasən iki cəhətə üstünlük verilir. Ərazi baxımından və funksional (fəaliyyət) baxımından.

Ərazi baxımından dedikdə - xüsusiləşmiş-ayrılmış ərazi nəzərdə tutulur. Burada bütün müəssisələr güzəştli təsərrüfat fəaliyyətinə malik olurlar.

İkinci yanaşmada müəssisənin hansı ərazidə yerləşməsindən asılı olmayaraq müəyyən fəaliyyət növü ilə məşğul olan sahibkarlar xüsusi güzəşt rejimindən istifadə etmək hüququna malik olurlar.

Ərazi prinsipi üzrə fərqlənən azad iqtisadi zonaya Çində yaranmış zonaları, Braziliyada "Manaus" zonasını və eləcə də inkişaf etməkdə olan ölkələrdə yaradılan ixrac-istehsal zonalarını misal çəkmək olar.

İkinci yanaşmaya (mülahizəyə) xas olan zonalara isə ayrı-ayrı müəssisələri-offşor müəssisələri, "Dyut fri" dükanlarını aid etmək olar.

Azad iqtisadi zonanın ən sadə formalarından biri (rüsumsuz) azad gömrük zonasıdır. Bu zona azad ticarət zonası kimi birinci nəslə aiddir. Bu kimi zonalar XVII-XVIII əsrlərdən mövcuddur.

Azad iqtisadi zonanın müxtəlif görünüşü aşağıdakı kimidir:

Cədvəl

I. Ticarət Üzrə	II. Sənaye-istehsal	III. Texniki-tətbiq olma	IV. Servis
1. Azad Gömrük	1. İdxalı əvəzləyən	1. Texnopolis	1. Offşor zonası
2. Bağlama anbarları	2. İxrac üzrə istehsalın inkişafı	2. Texniki park	2. Maliyyə mərkəzləri
3. Azad liman	3. Sənaye parkları	3. Yeni və yüksək texnoloji inkişaf zonası	3. Bank xidmətləri
4. Azad ticarət zonasıdır	4. Elmi-sənaye parkları		4. Turist xidmətləri
	5. Makiladoras (Meksika)		5. Ekoloji parkları

V. Комплекс	VI. Бейнәлхал

Bu zonalar xaricə tranzit (birbaşa) mallar göndərilməsi və məhsulun saxlanılması anbarları, malların qablaşdırılması, bağlanması, az da olsa emal edilməsi və s. həyata keçirir.

Belə zonaları bir çox hallarda azad gömrük ərazisi də adlandırırlar. Bu kimi zonalar idxal və ixrac olunan mallar üçün gömrük rüsumundan azad edilir. Belə zonalar bir çox ölkələrdə mövcuddur.

Azad ticarət zonası da dünyada çox yayılmışdır. Əvvəla qeyd etmək yerinə düşər ki, bu kimi zonaları azad ticarət birliyi (AATB) ilə qarışdırmaq olmaz.

Belə zonalar ABŞ-da daha çox inkişaf tapmışdır. Bu zonaların yaranması ABŞ-da 1934-cü ildə xüsusi qanunda nəzərdə tutulmuşdur. Burada ticarətin genişlənməsi, ticarət əməliyyatlarının sürətləndirilməsi, ticarət xərclərinin azaldılması əsas məqsəd götürülürdü.

Qanunda nəzərdə tutulduğuna görə hər bir limanda bir xarici azad ticarət zonası yaradıla bilər. ABŞ-da olan qanuna əsasən hər hansı bir ölkənin ərazisində olan azad ticarət zonası ümumi təyinatlı və xüsusiləşmiş zonalara bölünür. Ümumi təyinatlı zonalar nisbətən kiçik məkana malik olur, milli gömrük ərazisindən kənarda yerləşir. Orada xaricə göndərilən məhsulların ambarlaşdırılması, emalı (qablaşdırılma, sortlaşdırılma, markalanma, emalın tamamlanması və s.) həyata keçirilir.

Belə zonalar ayrı-ayrı iri kompaniyalar üçün yaradılır. Bunların fəaliyyəti ümumi təyinatdan kənara çıxmır. Bu cür tabeçiliyə əsaslanan zonalarda ixrac üçün və idxalı əvəzləyən məhsullar istehsal olunur.

90-cı illərin ortalarına ABŞ-da 500-ə qədər azad ticarət zonası vardır.

Böyük beynəlxalq təyyarə limanlarında olan xüsusi dükanları da, azad iqtisadi zonaların sadə forması olan azad ticarətə aid etmək olar. Qaydaya görə onlar dövlət sərhədlərindən kənarda hesab edilirlər. **Azad ticarət zonasına həmçinin xüsusi güzəşt tətbiq edilən ənənəvi ticarəti də aid etmək olar.**

Sənaye-istehsalat zonası. Bunlar ikinci nəsl zonası hesab edilirlər. Onlar əsasən ticarət zonasının təkamülü nəticəsində meydana gəlmişlər. Həmin ticarət zonalarına vaxt keçdikcə ancaq əmtəə deyil, kapital da gəlir, bununla da istehsal fəaliyyəti özünü göstərir.

Sənaye-istehsal ixrac üçün və idxalı əvəzləyən məhsullar istehsalı üçün ayrılan xüsusi gömrük rejimi (qaydası) ərazilərində yaradılır. Bu kimi zonalar əhəmiyyətli dərəcədə vergi və maliyyə güzəştlərindən istifadə edirlər.

İxrac-istehsal zonaları daha çox inkişaf tapmışdır (xüsusi ilə inkişaf etməkdə olan ölkələrdə). Belə zonalar ixrac üçün məhsul istehsalı üzrə ixtisaslaşırlar.

Belə zonaların müasir modeli öz başlanğıcını 1959-cu ildə İrlandiyanın təyyarə limanı olan Şennon kimi zona strukturlarından götürmüşlər. Bu kimi zonalar yaradılmasından "yeni sənaye ölkələri" daha çox faydalanırlar.

İnkişaf etməkdə olan ölkələrdə 60-cı illərdə xaric üçün sənaye məhsulları istehsalına stimul yaratmaq zərurəti özünü göstərmişdir. Bunun xarici kapital hesabına həyata keçirilməsi qanunauyğun olaraq ixrac-istehsal zonasının yaradılmasını şərtləndirir.

Texniki-tətbiq-zonaları-üçüncü nəsl zonaları hesab olurlar. Bu nəsl 70-80-ci illəri əhatə edir. Bu kimi zonalar kortəbii meydana gəlir və yaxud dövlətin köməkliyi ilə böyük elmi mərkəzlərin məkanında yaradılır.

Bu zonalarda milli və xarici tədqiqatçılar, layihəçilər, elm-istehsal firmaları cəmləşir. Bunların hamısı vahid vergi-maliyyə güzəştlərindən istifadə edirlər.

Texniki-tətbiq zonaları - ən çox ABŞ, Yaponiya və Çində fəaliyyət göstərir. ABŞ-da bunları texnikaparkı, Yaponiyada-texnopolis, Çində isə yeni və yüksək texnologiya inkişafı zonası adlandırırlar.

Dünyada ən məşhur və ABŞ-da ən böyük texnikaparkı "Silikon Velli"[2]-dir. Bu dünya üzrə hesablama texnikası vasitəsilə və kompüter istehsalının 20 faizini özündə cəmləşdirir. 20 min işçisi vardır. Bütün ABŞ-da bu cür 80 zona mövcuddur.

Yaponiyada hökumətin xüsusi proqramına əsasən, qabaqcıl elmi təşkilatın bazası əsasında 20 texnopolis yaradılıbdır. ÇXR-də də bu cür zonalar elm və texnikanın inkişafına dair dövlət planına əsasən yaradılır. 90-cı illərin ortalarında Çində 50-dən çox yeni və yüksək texnologiyanın inkişafı zonası vardır.

Servis[3] zonaları dedikdə, müxtəlif maliyyə-iqtisadi, sığorta və s. xidmətləri göstərən firma və təşkilatların sahibkarlıq fəaliyyəti üçün xüsusi güzəştli rejimə əsaslanan ərazi nəzərdə tutulur.

Servis zonalarına - offşor[4] zonalarını və vergi güzəştlərini aid etmək olar. Xeyirxahlığa, valyuta-maliyyə, fiskal rejiminə, yüksək səviyyədə bank və kommersiya sirrinə malik olan sahibkarların cəlb edilməsini nəzərdə tutur.

Vergi güzəştləri adını daşıyan zonaların offşor zonalardan fərqi ondan ibarətdir ki, onlarda bütün müəssisələrin (yerli və eləcə də xarici) demək olar bütün fəaliyyət növləri vergi güzəştlərinə aid edilir.

Hazırda dünyada 300-dən çox offşor zonası mərkəzi mövcuddur. Bunlardan vergi güzəştləri adını daşıyanı 70-ə qədərdir.

---

[2] Silisium kimyəvi elementdir. Daşın, qumun, kərpicin, şüşənin və s. tərkib hissəsidir.

[3] Sevris-ing. xidmət deməkdir.

[4] Offşor – güzəştli vergi rejiminə əsaslanan xarici firmaların yerləşdirilməsi.

3. Müxtəlif ölkələrdə azad iqtisad zonaların və regional zonaların yaradılması

Bir çox ölkələrdə artıq xeyli vaxtdır ki, offşor kompaniyaları fəaliyyət göstərir. Bunlardan - Lixtenşteyn, Panama, Normand adaları, Britaniyada Men adası, Antil adaları, Honkonq, Madeyra, Liberiya, İrlandiya, İsveçrə və s. göstərmək olar. Son onilliklərdə offşor zonaları Maltada, Mavrikidə, Qərbi Samoa, İsrail, Malayziya və s. ölkələrdə də yaranmışdır.

Sənaye, ticarət, bank, sığorta və s. kompaniyaları offşor zonalarda ya bütövlükdə heç bir vergiyə cəlb edilmirlər (İrlandiya, Liberiya), yaxud bütövlükdə az vergiyə cəlb edilirlər (Lixtenşteyn, Antil adaları, Panama, Men adası və s.).

Ona görə də offşor zonaları yaradılan ölkələrdə xarici kapitalın axmasına zəmin yaranır. Bəzi məlumatlara görə offşor zonalarında istifadə edilən kapital **500 mlrd. dollar** təşkil edir. Bunların üzvləri (fiziki və hüquqi şəxslər) 2 mln. nəfərə qədərdir.

Kompleks zonalar - ayrı-ayrı inzibati yerlərdə ümumi rejimə deyil, daha əlahiddə-xüsusi güzəştlərə əsaslanaraq yaradılır.

Bunlara Çində yaranmış 5 xüsusi (əlahiddə) iqtisadi zonanı misal çəkmək olar (ÇXR-ın açıq rayonları). Eləcə də "Manaus" Braziliya zonası, Argentinada "Odlar Yurdu" və s. göstərmək olar.

90-cı illərdə beynəlxalq azad iqtisadi zonaların formalaşması prosesi daha da fəallaşmışdır.

Belə ki, Tumanqan (Çində) xüsusi iqtisadi zonasının yaradılması layihəsi hazırlanmışdır.

Bu zona Rusiyanın, Çinin və Koreyanın sərhəddində yaradılacaqdır. Həmin layihə 20 ilə nəzərdə tutulubdur. Onun yaradılmasının birinci mərhələsi 90-110 mlrd. dollara başa gələcəkdir.

Bu azad iqtisadi zonada Yaponiya, Cənubi Koreya, Monqolustan, Çin, KXDR və Rusiya iştirak edir. Zonanın yaradılmasında Çinin və Koreyanın işçi qüvvəsindən istifadə edilir. Burada böyük liman və çoxlu sənaye müəssisələri yaradılacaqdır. Rusiya bu müəssisələrə emal üçün xammal göndərəcək-

dir. **Dövlət səviyyəsində deyil, regional səviyyədə işgüzar əlaqələrin artması Yevroregion deyilən anlayışın meydana gəlməsinə səbəb olmuşdur.** Yevroregion xarici iqtisadi əlaqələrin təşkili olub, müxtəlif dövlətlərin sərhəd vilayətlərinin könüllü birləşməsidir. Hazırda Yevroregion yaradılmasında Polşa, Slovakiya, Çexiya, Macarıstan və eləcə də Ukrayna və Belarusiya fəal rol oynayır. 90-cı illərin ortalarına "Karpat", "Buq" (çay), "Pomereniya" (Polşada) Yevroregionları yaradılıbdır. Çinin Suyfenxe şəhərində çin-rus sərhəd ticarət zonası yaradılması barədə 1994-cü ildə razılıq imzalanmışdır.

4. Azad iqtisadi zonaların ümumi cəhətləri

Azad iqtisadi zonaların harada yaradılmasından asılı olmayaraq onlar üçün ümumi cəhətlər xarakterikdir. Burada hər şeydən əvvəl onlara əlverişli investisiya şəraiti yaradılması əsas götürülür. Bununla yanaşı gömrük, maliyyə, vergi güzəştləri həyata keçirilir. Bu göstərilən güzəştlər ümumi rejim əsasında fəaliyyət göstərən sahibkarlara tətbiq edilən şərtlərdən qat-qat üstündür.

Bu kimi müxtəlif cür güzəştlər məzmun baxımından biribirinə çox yaxındırlar, lakin kəmiyyət cəhətdən fərqlənirlər.

Bu güzəştləri dörd qrupa ayırmaq olar.

Birinci qrupa xarici ticarət güzəştləri daxildir. Burada gömrük tarif dərəcələri rejimi nəzərdə tutulur. İdxal, ixrac üçün gömrük haqqının azaldılması və yaxud tamam ləğv edilməsi həyata keçirilir. Xarici ticarət əməliyyatlarının sadələşdirilməsinə üstünlük verilir.

İkinci qrupa vergi güzəştləri aid edilir: burada sahibkarların davranışı və konkret fəaliyyət növlərinin vergi güzəştlərinə aid edilməsi əks olunur. Bu güzəştlər vergi üçün mənbə hesab olan mənfəəti, əmlakların dəyərini, onu təşkil edən amortizasiya ayırmalarını, əmək haqqı xərclərini, nəqliyyatı, vergi dərəcəsinin səviyyəsini, həmişəlik və yaxud müvəqqəti vergiyə cəlbolmadan azad edilmə məsələlərini əhatə edir.

Üçüncü qrupa maliyyə güzəştləri daxildir. Bura müxtəlif formalarda maliyyə yardımı aiddir. Bu yardımlar nisbətən aşağı qiymətlərlə kommunal xidmətlərinə verilir. Torpaq sahəsindən, istehsalat binalarından istifadə edilməsi müqabilində icarə haqqı azaldılır, güzəştli kreditlər verilir və s.

Dördüncü qrup güzəştlərə inzibati güzəştlər aiddir. Bu güzəştlər inzibati rəhbərlik tərəfindən zonalara təqdim edilir. Bununla da müəssisələrin qeydiyyatdan keçirilməsi, xarici vətəndaşların gedib-gəlmə rejiminin asanlaşdırılması və eləcə də müəyyən xidmətlər göstərilməsi həyata keçirilir.

Göstərilən güzəştlər çox müxtəlif dərəcələrdə, müəyyən məqsəd naminə tətbiq edilir. Bununla yanaşı qeyd etmək lazımdır ki, azad iqtisadi zonalara təqdim edilən güzəştlər ölkəyə xarici kapitalın axınına stimul yaradan əsas amil ola bilməz. Burada əsas həlledici amillər - siyasi sabitlik, investisiya təminatı, infrastrukturanın keyfiyyəti, işçi qüvvəsinin ixtisası, inzibati tələbkarlığın azaldılması və s. hesab edilir. Bütün bunlarla yanaşı, digər şərtlər zəminində iqtisadi zona üçün ayrılan məkanın da böyük əhəmiyyəti vardır.

Azad iqtisadi zonaların yaradılması və fəaliyyət göstərməsi sahəsində formalaşan dünya təcrübəsinə əsaslanaraq onların nailiyyətləri, ümumi cəhətləri və inkişaf xüsusiyyətləri barədə yetkin nəticə çıxarmaq olar.

Azad iqtisadi zonaların inkişaf etmiş ölkələrdə fəaliyyəti göstərir ki, onların nailiyyətlərinin əsasını bir tərəfdən ilkin mərhələlərdə **yaxşı planlaşdırılma,** digər tərəfdən isə zonada **çevik idarəçilik təşkil** edir. Dünya təsərrüfatında vəziyyətin dəyişməsi (ETT, transmilli korporasiyalar arasında rəqabət, valyuta kursunun dəyişməsi, beynəlxalq mübadilə sistemində dəyişiklik və s.) azad iqtisadi zonaların inkişafına təsir etməyə bilməz.

İnkişaf etmiş ölkələrdə azad iqtisadi zonanın fəaliyyətinin əsas cəhətlərindən biri də ondan ibarətdir ki, bu zonalar yalnız dünya bazarı üçün deyil, daxili bazar üçün də işləyirlər.

İnkişaf etməkdə olan ölkələrdə azad iqtisadi zonaların fəaliyyətində bir çox ümumi inkişaf cəhətləri mövcuddur.

Əvvəlan bu ölkələrdə ixrac-istehsalat zonaları daha geniş inkişaf tapmışdır. Bu cür zonanın yaradılması müəyyən iqtisadi səbəblərdən irəli gəlir. Burada sənaye məhsulunа olan tələb və onun ixrac edilməsi, ölkəyə xarici kapitalın cəlb edilməsi, qabaqcıl elm və texnologiyaya yiyələnmək, müasir texniki informasiya və bu kimi tələbləri qeyd etmək olar.

İkincisi, azad iqtisadi zonalarda təsərrüfatçılıqdakı xüsusi rejim xarici sahibkarlar üçün daha sərbəst və güzəştli olur.

Üçüncüsü, azad iqtisadi zonanın fəaliyyəti prosesində ticarət-sənaye sahələrinin müdaxilə dairəsi genişlənir. Müasir ETİ azad iqtisadi zonalarda elmtutumlu istehsal sahələrini mərkəzləşdirir.

İnkişaf etməkdə olan ölkələr içərisində güzəştli təsərrüfatçılıq rejimi (azad iqtisadi zonalar) xüsusi iqtisadi zona adı ilə Çində daha çox inkişaf tapmışdır. 80-ci illərdə orada o qədər də böyük olmayan ərazidə xüsusi zonalar yaratmaqla Çin rəhbərliyi 90-cı illərdə onların rejimini yüzlərlə kvadrat kilometr əraziyə yaymışdır. Bunlardan "Şençjen", "Syament", "Şan Tou", "Xaynan" və s. göstərmək olar.

İnamla demək olar ki, Çinin xüsusi iqtisadi zonaları bütövlükdə dövlət mülkiyyətinin üstün olduğu şəraitdə bazar münasibətlərindən istifadə edilməsində eksperiment rolu oynayır.

Açıq iqtisadiyyatın hər bir ölkənin ictimai-iqtisadi inkişafına böyük təsiri vardır. Bu baxımdan Yaponiyanın, iqtisadi ədəbiyyatlarda Asiya "dördlüyü" adlanan Honqonq, Sinqapur, Tayvan və Cənubi Koreyanın bəzi nailiyyətlərini göstərmək olar.

Az bir müddətdə həmin ölkələr himayəçilik siyasətindən imtina etmiş, xarici ticarətə geniş yer vermişlər.

"Yeni sənaye ölkələri" adlanan həmin ölkələrdə ixrac üçün istehsal edən rentabelli sənaye sahələri yaradılır.

İkinci dünya müharibəsində uduzmuş Yaponiya sənaye müəssisələrinin, infrastruktura obyektlərinin, mənzil fondunun 25 %-ə qədərini itirmişdir. Sənaye istehsalı müharibəyə qədərki səviyyənin 60 %-nə qədər azalmışdır.

50-60-cı illərdə Yaponiya ABŞ-dan bir çox məhsul istehsalı üzrə sifarişlər alırdı. Göstərilən Asiya ölkələrində ucuz iş qüvvəsinin olması ixrac üçün istehsal olunan məhsulların az xərclə başa gəlməsinə səbəb olmuş və beləliklə, onların ixrac üçün istiqamət götürməsinə zəmin yaranmışdır. Yüksək gömrük haqqı tətbiq etməklə Yaponiya poladtökmə sənayesini, Cənubi Koreya sement istehsalını, Tayvan toxuculuq sənayesini xarici rəqabətdən qorumuşdu. Yerli əhalinin alıcılıq qabiliyyəti aşağı olduğu üçün Yaponiya və Cənubi Koreya ixrac üçün televizor, Tayvan soyuducu və kondisioner istehsalını artırmışlar. Yaponiya və YSÖ timsalında aydın görünür ki, bu ölkələrin belə rəqabət qabiliyyətli məhsullar istehsal edə bilmələrində istehsalçıların xarici texnologiyanı mənimsəmələri böyük rol oynayır.

Bütün istehsal sahələrini ixrac üstdə "kökləmək" istiqamətləndirmək olmaz. Odur ki, həmin ölkələr xarici məhsulları əvəz edən məhsullar, sahələr yaradılmasına da üstünlük vermişlər. Bu siyasətdə İndoneziya çox düzgün yol seçmişdir. Odur ki, bəzi beynəlxalq təşkilatlar İndoneziyanı həmin yeni sənaye ölkələri cərgəsinə aid edirlər.

Bu ölkələr müəyyən mənada sabit və çevik "Gömrük qanunu" tarif və qeyri-tarif dərəcələri tətbiq etmişlər. 80-ci illərin əvvəllərində xaricdən alınan məhsullara xüsusi gömrük dərəcələri müəyyən edilmişdir. Burada 200 %-ədək dəyişkənlik vardır.

Cənubi Koreyada 1979-cu ildə "açıq bazar" siyasətinin bəyan edilməsi ilə bir çox məhdudiyyətlər ləğv edilməyə başlamışdır. 90-cı illərin əvvəlinə Koreya xaricdən alınan kimya məhsullarını, maşınqayırma məhsullarını, elektron və elektrotexnika məhsullarını, xammal, yanacaq, toxuculuq, dəri məmulatları və s. məhsullarını gömrük məhdudiyyətlərindən azad etmişdir.

Bütün bunlara baxmayaraq bu azad iqtisadi zonalara bütövlükdə iqtisadiyyatın modernləşdirilməsinin universal üsulu kimi baxmaq olmaz.

V FƏSİL
BEYNƏLXALQ ŞİRKƏTLƏR DÜNYA İQTİSADİYYATI VƏ BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN HƏRƏKƏTVERİCİ QÜVVƏSİDİR

1. *Beynəlxalq şirkətlərin yaranması (tarixi və məntiqi baxış).*
2. *Transmilli şirkətlərin (TMŞ) iqtisadi məzmunu və onların təsnifatı.*
3. *Transmilli şirkətlər beynəlxalq iqtisadiyyatın maddi əsasıdır.*
4. *Bank kapitalının təmərküzləşməsi və transmilli bankların yaranması.*
5. *TMŞ-lər və kapital ixracı problemi.*
6. *İnkişaf etmiş ölkələrdə transmilli maliyyə-sənaye qruplarının yaranması.*
7. *Müasir şəraitdə TMŞ-lərin fəaliyyətinin xüsusiyyətləri.*
8. *TMŞ-lər və innovasiya prosesinin inkişafı.*
9. *Azərbaycanda transmilli şirkətlərin fəaliyyəti.*

1. Beynəlxalq şirkətlərin yaranması (tarixi və məntiqi baxış)

Dünya iqtisadiyyatının inkişafında və eləcə də beynəlxalq iqtisadi münasibətlər sistemində beynəlxalq şirkətlər çox böyük əhəmiyyət kəsb edirlər. Hazırda bu şirkətlər «dünya iqtisadiyyatının hərəkətverici qüvvəsi» hesab edilirlər. BMT-nin transmilli korporasiya haqqındakı məruzələrindən biri elə belə də adlanmışdır.

Lakin etiraf etməliyik ki, bukünki TMŞ-lər eyni zamanda iri inhisar birlikləridir. Odur ki, onların açıqlanmasını tarixi-məntiqi və mənşə baxımından vermək daha düzgün olardı. Məlumdur ki, 1860-1870-ci illərdən kapitalın və istehsalın təmərküzləşməsi prosesi daha da artmışdır.

Məhsuldar qüvvələrin inkişafı əsasən aşağıdakı istiqamətlərdə baş verirdi:

1. İstehsal prosesinə yeni maşın tətbiqinin artması.
2. Energetika sahəsində daha köklü dəyişikliklərin baş verməsi.
3. İstehsalın texnologiyasında əsaslı dəyişikliklər edilməsi.
4. Sənayenin yeni sahələrinin inkişafı və quruluş dəyişikliyinin genişlənməsi.

Həmin dövrdə mühərrik növləri, generatorlar, təkmilləşdirilmiş iki və üç silindrli buxar maşınları (1874), buxar turbinləri (1884), dizel motoru (1893) və s. yüzlərlə yeni istehsal növləri baş verirdi. Ağır sənaye üstünlük təşkil etməyə başlamışdır. 1870-1900-cu illərdə dünya üzrə sənaye məhsulunun həcmi 3 dəfə, polad əridilməsi isə 56 dəfə artmışdır. XIX əsrin sonu, XX əsrin əvvəllərinə sənayenin yeni sahələri olan kimya, neft, alüminium, avtomobil sənayesi sahələri daha sürətlə artırdı.

Sənaye ilə yanaşı nəqliyyat və rabitə sahəsində əsaslı yeniliklər özünü göstərirdi. Tramvay, avtomobil, teplovoz, təyyarə, təkmilləşdirilmiş teleqraf aparatları, telefon, radioteleqraf və s. kimi yeni sahələr yaranırdı.

Kapitalın və istehsalın mərkəzləşməsi və təmərküzləşməsi getdikcə genişlənirdi.

Beləliklə, böyük müəssisələr bir çox üstünlüklər əldə edirdi. Bunlardan:

1. Texniki üstünlüklər.
2. Ümumi xərclərə qənaət etmək imkanlarının artması.
3. İstehsal prosesinin daha yaxşı təşkili.
4. Satış sahəsində yaranan üstünlüklər.
5. Kredit sistemindən istifadə edilməsi imkanlarının artması və s. göstərmək olar.

Beləliklə, nəticə etibarilə böyük müəssisələrin artması kiçik müəssisələrin sayının azalmasına səbəb olmuşdur. Səhmdar cəmiyyətlərinin yaranması prosesi baş verirdi. Bütün bu prosesin nəzəri və əməli əhəmiyyətini görən K.Marks göstərmişdir ki, səhmdar cəmiyyətləri yaradılması yolu ilə kapitalın təmərküzləşməsi olmasa idi, indii dünya dəmiryolsuz qala bilərdi.

Tarixi baxımdan göstərməliyik ki, müəyyən birliklər, idtifaqlar ticarət sahəsində daha əvvəllər yaranırdı. Bu baxımdan Qanza idtifaqını, Ost-Hind şirkətlərini misal çəkmək olar.

Qanza (alman dilində «Hanse» - yoldaşlıq, ittifaq) şimali alman şəhərləri arasında yaranan ticarət-siyasi ittifaqıdır. Orada ayrı-ayrı şəhərlər hələ 13-cü əsrdə birləşirdi. Bu birləşmə 1387-ci ildə formalaşmışdır. 15-ci əsrdə bu ittifaqa 160 şəhər daxil idi. Qanzanın ticarət həyətləri və idarələri güclü iqtisadi və siyasi qüvvəyə çevrilərək İngiltərə, Fransa, Niderland, Skandinaviya ölkələri və Rusiyaya (Novqorod şəhəri) da nüfuz etmişdir. Qanza Şimali Avropada özünün ticarət inhisarını yaratmağa çalışırdı. Bu İttifaq ümumi xəzinə və ümumi hərbi dəniz qüvvələrinə malik idi. Şimal dənizində hökmranlıq etmək üçün Skandinaviya ölkələri ilə müharibələr aparırdı.

15-ci əsrin ortalarından Qanzaya daxil olan şəhərlərlə Şimali Avropa ölkələri arasında sənayenin və ticarətin artımı uğrunda mübarizə güclənirdi. Bu vəziyyət onun mövqelərinin zəifləməsinə səbəb olmuşdur. 16-cı əsrdə ticarət yollarının Atlantik okeanına keçməsi ilə Qanza şəhərlərinin dünya ticarətindəki vasitəçilik rolu öz mövqeyini itirmişdir. Qanzanın son qurultayı 1669-cu ildə olmuşdur.

Sonra ilk səhmdar cəmiyyəti 1600-cü ildə Beynəlxalq ticarət sahəsində İngiltərənin Ost-Hind[1] şirkəti Adı ilə yaradılmışdır. 1602-ci ildə isə Niderlandın Ost-Hind[2] Şirkəti meydana gəlmişdir. Deməli ilk inhisar birlikləri satış sahəsində yaranırdı. Tacirlər öz əhatə dairəsini genişləndirmək, müəyyən soy-

[1] Ost-Hind Səhmdar Cəmiyyəti (almanca «ost», ingiliscə «east»- şərq deməkdir) ingilis tacirlərinin səhmdar cəmiyyəti (1600- 858). Hindistan, Cənubi və Cənub-şərqi Asiyanın bəzi ölkələrində ərazi. Bu cəmiyyət tədricən dövlət təşkilatına çevrilmişdir. Hindistanın işğal olunmuş ərazilərini idarə etmək üçün ordusu və idarəçilik orqanları da vardı.

[2] Niderlandın Ost-Hind ticarət şirkəti (1602-1798) Hind hövzəsi və Sakit okeanda üzmək və ticarət hüququ vardı. Cənub-şərqi Asiyada (Yava adası da daxil olmaqla) və Cənubi Afrikada çoxlu ərazi tutmuşdur. Niderland müstəmləkə imperiyası yaradırdı.

günçuluqlardan qorunmaq, əlavə vergilərdən azad olmaq üçün təminat yarada biləcək müqavilələrə üstünlük verirdilər. Bu müqvilələrdən ən birincisi hələ 14-cü əsrdə Almaniyanın şimal torpaqları (şəhərləri arasında yaradılmış Qanza) ticarət-siyasi ittifaqı olmuşdur (16-cı əsrdə tam sənədləşdirilmişdir). Avropanın bir çox əraziləri arasında ticarətə vasitəçilik edirdi.

Vaxt keçdikcə bank işində, nəqliyyat sahəsində, sənayedə də belə səhmdar cəmiyyətləri yaradılırdı. Beləliklə, kapitalın və istehsalın daha çox hissəsi az əllərdə cəmləşirdi. **Buna inhisar deyilir.**

İnhisar (monopoliya[1]) kapitalın və istehsalın təmərküzləşməsi nəticəsində istehsalın və satışın (eləcə də bütün digər fəaliyyət növlərinin) ən çox hissəsini öz əllərində cəmləşdirən iri təsərrüfatçılıq (sahibkarların) birliyinə deyilir (məs., neft satışı, spirtli içkilər satışı üzərində dövlət inhisarı və s. kimi sahibkarlıq da inhisar adlanır).

İqtisadi ədəbiyyatlarda tarixi baxımdan inhisarların yaradılmasını üç böyük mərhələyə ayırmaq olar:

1. **Birinci mərhələ** 1860-1870-ci illəri əhatə edir. Bu mərhələdə inhisar birlikləri yenicə yaranırdılar. Məsələn, 1865-ci ildə Almaniyada 4 kartel, ABŞ-da 1870-ci ildə ilk trest («Standart oyl Kompani») neft tresti yaradılmışdır.

2. **İkinci mərhələ** 1873-cü illərdən XIX əsrin sonunadək olan dövrü əhatə edir. Həmin illərdə dünya iqtisadi böhran keçirirdi. Bu vəziyyət minlərlə xırda müəssisələrin sıradan çıxmasına və eyni zamanda təmərküzləşmənin artmasına səbəb olmuşdur. Buradan da inhisarlaşma prosesi genişlənmişdir. Məsələn, Almaniyada 1887-ci ildə kartel birliklərinin sayı 70-ə çatmışdır.

3. **İnhisarlaşma prosesində** üçüncü mərhələ 1900-cu illərdən sonrakı dövrü özündə əks etdirir. 1900-1903-cü illərdəki böhranlardan sonra təmərküzləşmə prosesi və inhisarçı birlik-

[1] Monopoliya – yunanca «mono» -tək, «polco» - satıram deməkdir. Aydındır ki, vaxt ketdikcə belə birliklər digər sahələrdə də yaranır və ancaq satışı deyil, hər hansı bir sahədə olan vahidliyi, hökmranlığı ifadə edir. Deməli, inhisar istehsalın və satışın, bütün maliyyə ehtiyatlarının ən çox hissəsini öz əllərində gəmləşdirən iri təsərrüfat birliklərinə deyilir.

lərin artması daha həlledici amilə çevrilmişdir. Almaniyada kartellərin sayı 1887-ci ildəki 70-dən 1896-cı ildə 250-yə, 1911-ci ildə 600-ə çatmışdır. ABŞ-da isə trestlər 1900-cü ildə 185, 1907-ci ildə isə 250 olmuşdur.

Demək olar ki, həmin dövrdən kapitalizm dünyasının təsərrüfat həyatında inhisarların rolu daha çox üstünlük təşkil etməyə başlamışdır. Müxtəlif formalarda, müxtəlif adlar altında iri birliklərin yaradılması artırdı. Daha sadə formalarda vahid qiymətlər barədə müvəqqəti razılıqlar əldə edilirdi.

Konvensiya, rinq, pul, korner[1] kimi sadə birliklərdən sonra daha iri birliklər yaranırdı. Bunlardan kartel, sindikat, trest, konsern[2] və digər inhisarçı birlikləri göstərmək olar. Qeyd etməliyik ki, bu birliklər müxtəlif ad altında səslənsələr də məzmun baxımından öz qüvvələrinin birləşdirilməsi barədə beynəlxalq razılaşmalardan başqa bir şey deyildir. Aydındır ki, bu inhisarçı birliklər fəaliyyət mexanizmi baxımından fərqlənirlər.

Beləki:

I. **Kartellər sənayenin müəyyən sahələri** üzrə müəssisələr birliyi olub, istehsal və satış üzrə öz müstəqilliklərini saxlayırlar. Kartel müqaviləsində:

1. **Vahid qiymətlər** müəyyən edilir.

2. **Kartel üzvləri** üçün müəyyən satış bazarları ayrılıqda göstərilir.

3. **Kartel razılaşmalarında** qiymətləri müəyyən səviyyədə saxlamaq üçün onun üzvlərinə «kvotalar» (məhdudiyyətlər) qoyulur.

4. **Durğunluq hallarına** qarşı müəyyən fond yaradılması və fəhlə hərəkatının təşkil olunmasına yol verilməməsi xüsusi maddədə qeyd edilir.

II. **Sindikat** – sənayenin müəyyən sahələrinin birliyi kimi yaradılırdı. Onun üzvləri istehsal müstəqilliyini saxlamaqla,

[1] Konvensiya –lat. «beynəlxalq müqavilə»; rinq – ing.»qısa müddətli müqavilə»; pul – ing. «ümumi fond, ümumi birlik»; korner – ing. «qısa müddətli müqavilə».

[2] Kartel (frans., ital.): trest (ing.); sindikat (yunan); konsern (ing.).

satış müstəqilliyini itirirlər. Burada satış birliyin xüsusi təşkilatları tərəfindən həyata keçirilir.

İnhisar birliklərinin bu forması Rusiyada (1917-ci ilədək) daha çox yayılmışdır. Burada kömür satışı üzrə («Продуголь»), metal satışı üzrə («Продамет») və digər məhsulların satışı üzrə sindikatlar fəaliyyət göstərmişdir.

III. **Trestlər**. İnhisar birliklərinin bir forması kimi trestlər sənayenin bir və yaxud bir neçə sahəsinin mülkiyyət və idarəçilik baxımından birləşdirilməsini əks etdirir. Bu birliyin iştirakçıları istehsal və satış üzrə müstəqilliyi itirirlər. Bura daxil olan bütün müəssisələr trestin mülkiyyətinə keçirlər. Onların öz kapitalının həcmi müqabilində səhm alırlar. Bura daxil olan müəssisələrin məhsullarının satışını trest həyata keçirir (məsələn, neft, şəkər, tütün trestləri və s.).

IV. **Kombinatlar.** Sənayenin eyni sahələrinin müəssisələrini birləşdirən trestlərlə yanaşı sənayenin müxtəlif sahələrini birləşdirən kombinatlar da mövcuddur.

Burada daşkömür, metallurgiya, maşınqayırma sahələri üzrə yaradılan böyük kombinatları misal çəkmək olar. Kombinatlar müxtəlif sahələrin müəssisələrini özündə birləşdirdiyi üçün sabit gəlir əldə edə bilirlər. Bu mənada onlar digər birliklərdən fərqlənirlər.

V. **Konsernlər.** Konsernlər də müxtəlif makroiqtisadi sahələrin müəssisələrinin birliyindən ibarətdir. Burada daxil olan müəssisələrin səhmləri konsern tərəfindən alınır və onların üzərində vahid maliyyə nəzarəti həyata keçirilir.

Qeyd etməliyik ki, konsernlər inhisar birliklərinin daha yüksək forması hesab edilirlər. Burada iki əsas cəhəti qeyd etmək olar.

1. Bu birliklər ancaq sənayenin müxtəlif sahələrini deyil, nəqliyyat və ticarət müəssisələrini, bank və maliyyə təşkilatlarını da özündə birləşdirirlər.

2. Konsernlərin yaradılmasında ayrı-ayrı müəssisələrin müstəqilliyinin məhdudlaşdırılması və yaxud itirilməsi əsas götürülmür. Bu proses bura daxil olan müəssisələrin səhmlərinin maliyyə sahibkarları tərəfindən alınması yolu həyata keçirilir.

Nəticədə həmin müəssisələr hüquqi baxımdan öz müstəqilliyini saxlasalar da, iqtisadi cəhətdən bu iri sahibkarların nəzarəti altına düşürlər.

Məsələn, Almaniyanın «Reynişe Ştalverke» konserni 1950-ci illərdə metallurgiya, metalemalı, maşınqayırma, gəmiqayırma, kimya sənayesi və s. sahələr üzrə 113 kompaniyaya nəzarət edirdi (bu konsernin cəmi kapitalı 848 mln. marka təşkil edirdi).

İtaliyanın «Fiat» konserni 150 iri kompaniyanı (avtomobil, aviasiya, maşınqayırma və digər sahələr) özündə birləşdirir. Onun aktiv vəsaiti 1964-cü ildə 1.3 mlrd. dollar, burada işləyənlərin sayı isə 124 min nəfər olmuşdur.

2000-ci ildə isə «Fiat»-ın cəmi aktiv vəsaiti 70,0 mlrd. dollardan və burada işləyənlərin sayı isə 242 min nəfərdən artıq olmuşdur. Beləliklə, kapitalın və istehsalın təmərküzləşməsi ilə yaranan inhisarlar öz növbəsində istehsalın təmərküzləşdirilməsini daha da gücləndirmişlər.

İnhisarlar daha çox kapitala malik olduqları üçün ən qabaqcıl texnologiyadan istifadə etmək imkanı əldə etmişdilər. Beləliklə, inhisarlaşma prosesi eyni zamanda inhisara daxil olmayan müəssisələrin və kiçik müəssisələrin iqtisadiyyatdan sıxışdırılması prosesidir. Əgər iri inhisar birliklərinin yaranması prosesinin əksini çəkib təsvir etsək bütün xüsusi kapitalist təsərüfatının dövlət və xüsusi inhisar birliklərinin vahidliyindən ibarət olması özünü göstərəcəkdir.

Vaxt keçdikcə bu iri birliklərin elmlə əlaqəsi, elmin istehsalata tətbiqindəki üstünlükləri daha müasir xarakter almışdır. Elmi araşdırmalara ayrılan xərclər artırılmış, istehsalat kompleksləri elmi laboratoriyalar əsasında işləməyə üstünlük vermişlər.

Sahələr üzrə yaradılan iri birliklərlə yanaşı sahələrarası birliklərin yaranması genişlənmişdir.

Məsələn, 1900-cü illərin əvvəllərində ABŞ-da 78 iri konsern fəaliyyət göstərirdi. Onlar öz sahələrinin məhsulunun 50 %-nə nəzarət edirdi. Bunlardan 8 konsern öz sahələrinin 100 % məhsuluna nəzarət edirdilər. 1950-ci illərə bir ədəddə belə bir sahəli iri müəssisə qalmamışdır.

Müxtəlif sahələri özündə birləşdirən müasir növ konsernlər və kombinələşdirilmiş birliklərin yaranması üstünlük təşkil edirdi. Müasir konsernlər çoxsahəli olmaları ilə fərqlənirlər. Buradan da **konqlomeratların** yaradılmasına zəmin artmışdır.


Konsernlərarası yeni əlaqələr yaranmışdır. İri konsernlərdə idarəçilik aparatları meydana gəlmişdir. Müasir şəraitdə bütün iri kompaniyalar təşkilatı-hüquqi baxımdan korporasiya, səhmdar cəmiyyətləri, konsernlər və s. kimi fəaliyyət göstərməyə başlamışlar.

2. Transmilli şirkətlərin iqtisadi məzmunu və onların təsnifatı

Bütün qeyd etdiklərimizdən aydın olur ki, dünya iqtisadiyyatında inhisarlar təzə hadisə olmayıb uzun bir dövrün məhsuludur. Kapitalın və istehsalın təmərküzləşdirilməsinin nəticəsi kimi yaranan bu inhisar birlikləri eyni zamanda dünya iqtisadiyyatının beynəlmiləl xarakterinin artmasına güclü təsir edirlər. **Bununla yanaşı həmin birliklər beynəlxalq iqtisadi münasibətlərin inkişafının da əsas amilinə çevrilmişlər. Deməli iri inhisar birlikləri ölkə daxilində fəaliyyət göstərməklə yanaşı Milli dövlət çərçivəsindən kənarda da öz fəaliyyətlərini genişləndirirlər. Beləliklə, beynəlxalq xarakter kəsb edirlər. Beynəlxalq kompaniyalar dedikdə öz təsərrüfatçılıq fəaliyyətində milli çərçivədən kənara çıxan, istehsal, ticarət, elmi-texnoloji proseslər, maliyyə, xidmət** və digər sahələrin beynəlxalq baxımdan kompleks inkişafının formalaşmasını həyata keçirən iri birliklər nəzərdə tutulur.

Əməli baxımdan bu iri kompaniyaları dörd növə ayırmaq olar: milli, transmilli, çoxmilli və qlobal kompaniyalar. Lakin, son illərin təcrübəsi göstərir ki, bu birliklər bir qayda olaraq transmilli kompaniya kimi ümumi ad altında fəaliyyət göstərirlər. Beləliklə, iri milli inhisar birlikləri beynəlxalq birliklərə çevrilmişlər.

«Marketinqin əsasları» dərsliyində həmin şirkətlərin təsnifatı aşağıdakı şəkildə verilir:



Müəyyən mənada beynəlxalq olmaq baxımından bu şirkətlər bir-birindən o qədər də fərqlənmirlər. Ancaq müxtəlif ad daşımaqla fərqlənirlər.

Transmilli şirkətlər dedikdə, xarici ölkələrdə aktiv vəsaiti olan milli inhisarlar nəzərdə tutulur.

Çoxmilli şirkətlər dedikdə, müxtəlif ölkələrin milli şirkətlərini birləşdirən cəmiyyətlər nəzərdə tutulur.

Qlobal cəmiyyətlər də beynəlxalq cəmiyyətlərdən yaranır. Ümumi mənada bu şirkətlərin yaranma səbəbini istehsalın və kapitalın beynəlmiləlləşməsi və məhsuldar qüvvələrin inkişafı ilə xarakterizə etmək olar.

BMT-də ardıcıl və ənənəvi olaraq bu şirkətlərin fəaliyyətini öyrənirlər.

BMT-nin analitik mərkəzi uzunmüddət belə hesab etmişdir ki, 1 mlrd. dollardan artıq illik dövriyyəsi olan və ən azı 6 ölkədə filialları olan müəssisələri, transmilli şirkət hesab etmək olar. Əlbəttə, belə tərif mütləq və dəyişməz deyildi. Son vaxtlar müəyyən dəqiqləşmələr, araşdırmalar edilmişdir. Onun yerləşdiyi ölkədən kənara satdıqı məhsulun həcmi 25-30 % müəyyən göstərici kimi əsas götürülür. Belə bir göstəriciyə görə İsveçrənin «Nestle» firması dünya lideri hesab olunur, cəmi məhsulun 98 %-ni kənara satır.

BMT-nin metodologiyası baxımından aktiv vəsaitin quruluşuna görə də beynəlxalq şirkətlər müəyyən edilir. Bu mənada ən çox xarici aktivi olan transmilli şirkət (maliyyə bölməsindən başqa) İngilis-Holland transmilli bankı hesab olur. Bu

«Royal-Datç Şell» konsernidir. Sonra ABŞ-dan «Ford», «General Motors», «Ekson» və «İBM» müəssisələrini qeyd etmək olar. Daha dəqiq desək TMŞ hesab edilən hər hansı bir korporasiya üçün aşağıdakı meyarlar əsas götürülür:

- korporasiyanın fəaliyyət göstərdiyi ölkələrin sayı (azı 2-6 ölkə);
- hər bir korporasiyanın istehsal ehtiyatların yerləşdirildiyi müəyyən ölkələrin sayı;
- korporasiyanın özünün müəyyən nailiyyətlərinin həcmi (mövqeyi);
- gəlirlərdə və satışda xarici əməliyyatların xüsusi çəkisi (azı 25 %);
- korporasiya idarə heyətinin və ali rəhbərliyinin beynəlmiləl tərkibi və s.

ABŞ-da bu şirkətlər, əsasən «səhmdar cəmiyyətləri» adlanırlar. Müasir beynəlxalq transmilli şirkətlərin çoxu Amerika işgüzar kompaniyalarının beynəlxalq miqyasda öz nüfuz dairələrini genişləndirmək siyasəti nəticəsində yaranmışlır və bu anlayış onların lüqətinə daxil edilmişdir.

Əslində bu transmilli şirkətlər mənsub olduğu kapitala görə millidirlər. Ölkə sərhəddindən kənarda fəaliyyət göstərdikləri baxımından isə beynəlxalq hesab edilirlər.

1990-cı illərdə dünya üzrə cəmi 40 min TMŞ və onların 270 min xarici filialı mövcud olmuşdur. Qanunauyğun olaraq onların sayı sürətlə artmaqda davam edir.

Beləki, son illərin məlumatına görə dünyada 70 mindən artıq TMŞ fəaliyyət göstərir. Bunlar ana cəmiyyət adlanırlar. Bu ana cəmiyyətlərin 900 mindən artıq filialı mövcuddur ki, onların da əksəriyyəti xarici ölkələrdə fəaliyyət göstərir. Onlardan 270 min filial inkişaf etmiş ölkələrə, 490 min filial inkişaf etməkdə olan ölkələrə, 170 min filial keçid iqtisadiyyatı ölkələrinə məxsusdurlar.

Əgər ikinci dünya müharibəsindən sonrakı illərdə ildə təqribən 100 xarici filial yaranırdısa, son dövrlərdə ondan 100 dəfələrlə artıq filial yaranır.

Deməli, həmin dövrdə ana cəmiyyətlərin sayı 1,7 dəfə artdığı halda filialların sayı 3,3 dəfə çoxalmışdır.

Bu TMŞ-rin fəaliyyət dairəsi yalnız onların sayının artması hesabına deyil, mövcud şirkətlərin iqtisadi gücünün artması hesabına da genişlənir. Əvvəllər əsasən əmtəə və xidmətlərin mübadiləsi sahəsində fəaliyyət göstərən beynəlxalq TMŞ-lar müasir şəraitdə bununla yanaşı beynəlxalq səviyyədə istehsal yarada bilmişlər. Bu beynəlxalq istehsala müvafiq olan beynəlxalq xidmətlər və beynəlxalq maliyyə dairəsi yaradılmışdır. Buradan da lokal (ölkələrarası, regional) beynəlxalq iqtisadi münasibətlərdən daha qlobal iqtisadi münasibətlərə keçid baş vermişdir.

Bütünlükdə hazırda TMŞ-ların 60 %-i istehsal sahələri ilə, 37 %-i xidmət sahələri ilə, 3 %-i isə hasilat sənayesi və kənd təsərrüfatı ilə məşğuldurlar. 1990-cı illərdən sahəvi baxımından TMŞ-ların tərkibi o qədər də dəyişməmişdir.

Beləki, 100 böyük TMŞ-ların 65 %-ə qədəri ancaq avtomobil, elektronika və elektron avadanlığı, neft, eləcə də kimya və əczaçılıq kimi 4 sahənin payına düşür. Elektron və elektron avadanlıqları sahəsi ilə təqribən 18, avtomobil sənayesi ilə 14, neftçıxarılması və emalı ilə 13 böyük TMŞ məşğuldur. Spirtli içkilər və ərzaq sahəsində daha böyük – 9 TMŞ ixtisaslaşmışdır.

Coğrafi baxımdan 100 daha böyük TMŞ-ların 90 %-ə qədəri ABŞ, Qərbi Avropa və Yaponiyanın payına düşür.

TMK-rın bu təkamül inkişafında bir neçə cəhəti qeyd etmək olar. XIX əsrin axırlarından (1860-1870-ci illər) Birinci dünya müharibəsinədək olan dövrü **birinci nəsl** adlandırsaq, bu dövrdə TMK-rın fəaliyyəti əsasən keçmiş müstəmləkələrdən olan **xammal ehtiyatlarının axtarışı – işlənməsi ilə bağlı olmuşdur.**

Odur ki, onları müstəmləkə - xammal TMŞ-ları adlandırmaq olar. Öz təşkilati-iqtisadi formasına və fəaliyyət mexanizminə görə bu TMŞ-lar – kartellər, sindikatlar və ilk trestlərdən ibarət idi.

İkinci nəsl TMŞ-lar xalis trestlərdən ibarət olmuşdur. Bu TMŞ-lar əsasən I və II dünya müharibələri arasındakı dövrü əhatə edir. **Onlar əsasən hərbi-texniki məhsullar istehsalı ilə bağlı**

idilər. Bu TMŞ-rın bəziləri II dünya müharibəsindən sonra da dünya iqtisadiyyatında öz mövqelərini saxlaya bilmişlər. Bu mərhələdəki, TMŞ-lar dünya iqtisadiyyatının inkişafına və dünya iqtisadi əlaqələri sisteminə o qədər də təsir göstərə bilməmişlər (1940-cı illərin əvvəllərinə cəmisi 300 TMŞ mövcud idi).

Üçüncü nəsl TMŞ-lar 1960-1980-ci illərə təsadüf edir. Bu dövrdə fəaliyyət göstərən TMŞ-lar dünya iqtisadiyyatında və BİM-in genişlənməsində daha həlledici rol oynamışlar. **Onlar ETİ-in nailiyyətlərindən daha geniş istifadə edirdilər**. Bu TMŞ-lar təşkilati-iqtisadi forma baxımından **konsern və konqlomerat** kimi çıxış edirdilər. Onların fəaliyyətində milli və xarici istehsalın elementləri üzvi surətdə birləşirdi. Beləki, əmtəələrin satışı, işçi heyətinin təşkili və idarəçilik, elmi-tədqiqat işləri, marketinq və satışdan sonrakı xidmət və digər problemlər əlaqələndirilirdi.

Bu nəsl TMŞ-lar dünya təsərrüfatındakı kənar zonalara ETT-nin nailiyyətlərinin yayılmasına da köməklik göstərmişlər.

1980-ci illər TMŞ-rın **dördüncü nəslinin** yaradılması dövrü hesab edilir. Bu mərhələdə qlobal TMŞ-rın yaradılması qərarlaşmışdır. Bu TMŞ-rın əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir: TMŞ-lar arasında dünya bazarının bölünməsi; yeni informasiya texnologiyası əsasında öz filiallarının fəaliyyətinin əlaqələndirilməsi; hər bir istehsal özəyinin dəqiq təşkili; mühasibat uçotunun və auditin vahid şəkildə təşkili; öz filiallarının, zavod və birgə müəssisələrinin vahid idarəçilik şəbəkəsində birləşdirilməsi; TMŞ-rın fəaliyyət göstərdiyi dövlətə müəyyən iqtisadi və siyasi təsir göstərməsi və s.

Beşinci nəsl XXI əsrin başlanğıcını əhatə edir. Bu mərhələdə Avropada (Aİ), Şimali və Cənubi Amerikada (NAFTA), Asiyada (ASEAN və ATES) və s. kimi ərazi üzrə inteqrasiya birliklərinin yaradılması, prosesi güclənirdi. Bu proses TMK-rın fəaliyyətini daha da artırmışdır.

TMŞ-rın fəaliyyətində onların rəqabət üstünlüyü və yaxud rəqabət strategiyasının şərhi də böyük əhəmiyyət kəsb edir. Əmtəələrin xarici ölkələrə ixracında əsas amillərdən biri kimi ölkənin müqayisəli üstünlük məsələsi ön plana çəkilir.

TMŞ-ların rəqabət strategiyasında firmaların (müəssisələrin) rəqabət üstünlüyü əsas götürür.

Müəssisələrin rəqabət üstünlüyü iki növdə şərh edilir:

İstehsal xərclərinin aşağı olması və **əmtəələrin** differensiallaşması (qruplaşdırılması) səviyyəsi.

Aydındır ki, **aşağı istehsal xərcləri** imkan verir ki, müəssisə öz əmtəələrini daha tez reallaşdıra bilsin.

Differensiallaşma səviyyəsinin yüksək olması ilə müəssisələr daha nadir, yüksək dəyərli yeni keyfiyyətdə əmtəələr istehsal etmək imkanına malik olurlar. Belə əmtəələr xüsusi – fərqli istehlak xüsusiyətləri kəsb edir. Satışdan sonra müəyyən xidmət göstərilməsi tələb olunur və s. nəticədə müəssisələr hər vahid məhsul üçün nisbətən yüksək mənfəət əldə edir. Beləliklə, hər bir müəssisə bu iki cəhəti qarşılıqlı üzvü surətdə əlaqələndirir.

Deməli TMŞ-lar bir tərəfdən özlərinin ayrı-ayrı müəssisələrinin üstünlüyü ilə, digər tərəfdən isə yüksək səviyyədə beynəlmiləlləşmə ilə rəqabət üstünlüyü əldə edirlər. «Beynəlmiləlləşmə» problemi Amerika alimləri – Bakli və Kesson (1976) və Raqmanın (1981) əsərlərində daha geniş şərh edilmişdir. Burada hər bir müəssisə mülkiyyətinin genişlənməsi, yeni bazarlar, xammal mənbələri və istehsal prosesləri mərhələlərinin genişlənməsi nəzərdə tutulur. **Beynəlmilləşmə** müəyyən mənada **üfüqi və şaquli** inteqrasiyaya bənzəyir. Hətta bu anlayış inteqrasiyadan geniş məzmun kəsb edir. 1980-ci illərdən sonra bir çox TMŞ-lar həddindən artıq beynəlmiləlləşmənin əleyhinə olmuşlar. Daha həlledici fəaliyyət növlərinə keçilməsinə üstünlük verilmişdir. Yarımfabrikatlarla təchiz olunma və bir çox xidmət növləri isə müstəqil xarici firmalara həvalə edilmişdir.

Bu problemdə Amerika iqtisadçısı, Harvard biznes məktəbinin professoru M.Porterin 1985-ci ildə nəşr edi miş «rəqabət üstünlüyü» əsərinin bəzi müddəalarının şərhi zərurə tələb edir.

Porter göstərmişdir ki, rəqabət üstünlüyür ün müəyyən edilməsində müəssisənin bütün fəaliyyətini təhlil etməyə ehtiyac yoxdur. Burada çoxlu miqdarda fəaliyyət növləri zəncirvari proses kimi davam etdirilir (dizayn, istehsal, marketinq, mal

göndərilməsi, məhsullara xidmət göstərilməsi və s.). Bu proseslərin hər biri ayrılıqda müəssisənin rəqabət üstünlüyünə nisbi olaraq təsir edə bilər. Ona görə də hər bir proses sistemləşdirilmiş şəkildə təhlil edilməlidir. Porter bu məsələni «dəyər zəncirvariliyi» adlandırmışdır. Deməli, «mal göndərənlərin» özünün «dəyər zəncirvariliyi» (və yaxud zəncivari dəyər) və s. mövcuddur. Bunların hamısı «dəyər sistemini» təşkil edir.

Bu mənada hər bir müasir qlobal TMŞ-rın əsas strategiyası «dəyər zəncirvariliyi» nə əsaslanır.

3. Transmilli kompaniyalar beynəlxalq iqtisadiyyatın maddi əsasıdır

Müasir dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər sistemi sürətlə inkişaf edən transmilliləşmə prosesi ilə xarakterizə olunur. Bu prosesin əsas özəyini transmilli kompaniyalar təşkil edir.

Beləki, XX-XXI əsrlərdə dünya ölkələri arasında beynəlxalq iqtisadi əlaqələrin geniş vüsət alması müasir dövrün ən qanunauyğun bir inkişaf dinamikasına çevrilmişdir. Bu prosesdə TMŞ-lar investor kimi, ticarətçi kimi, müasir texnologiyanın yaradılmasında və yayılmasında, beynəlxalq əmək miqrasiyasına maraq yaradılması və s. problemlərin həllində əsas sima kimi çıxış edirlər.

İstehsalın və kapitalın transmilliləşdirilməsi yalnız TMŞ-rın fəaliyyətinə zəmin yaradan bir amil kimi deyil, qeyd etdiyimiz kimi bütün dünya təsərrüfatı sistemi inkişafının artımını və nisbətini müəyyən edir. Şərqi Avropa və Sovet iqtisadi məkanının açılması: maliyyə bazarının qloballaşmasının sürətlənməsi; özəlləşdirmə prosesinin intensivləşdirilməsi; ayrı-ayrı ölkələrin və milli iqtisadiyyatların qarşılıqlı əlaqələrinin və asılılıqlarının dəyişməsi; iqtisadi rəqabətin kəskinləşməsi; ərazi inteqrasiya prosesləri; rabitə, telekommunikasiya, kosmos, biotexnologiya və digər sahələrdə yeni texnologiyaların yaranması kimi proseslər TMŞ-rın fəaliyyət dairəsini daha da genişləndirmişlər.

Bu gün TMŞ-lar bir çox hallarda dünya bazarında əmtəə və xidmətlərin dinamikası və quruluşunu, rəqabətqabiliyyəti səviyyəsini, kapitalın beynəlxalq hərəkəti və texnologiya ötürülməsinin vəziyyətini müəyyən edirlər. Beynəlxalq miqyasda ayrı-ayrı müəssisələr arasındakı iqtisadi əlaqələrin gerişləndirilməsi ilə istehsalın beynəlmiləlləşməsində həlledici rol oynayırlar.

Hazırda dünya sənaye məhsulunun 50 %-ə qədəri, xarici ticarətin isə 60 %-ə qədəri TMŞ-rın payına düşür. TMŞ-lar yeni ixtiralara, yeni texnologiyalara, «nou-xau»ya olan patent və lisenziyaların 80 %-ə qədərinə nəzarət edirlər. Bir çox məhsulların beynəlxalq bazarı əsasən TMŞ-rın nəzarəti altındadır. Beləki, buğda, qəhvə, qarğıdalı, meşə materialları, tütün, hind kəndiri və dəmir filizi dünya bazarının 90 %-i, miss və boksidlər bazarının 80 %-i, çay və qalay bazarının 80 %-i, xam neftin, təbii kauçuk və banan bazarının 75 %-i TMŞ-rın nəzarəti altındadır.

ABŞ-ın cəmi ixrac əməliyyatlarının 50 %-ə qədəri Amerika TMŞ-ları və xarici TMŞ-lar tərəfindən həyata keçirilir. Böyük Britaniyada bu cür müvafiq əməliyyatların 80 %-i, Sinqapurda 90 %-i TMK-rın payına düşür.

Bu gün TMŞ-rın müəssisələrində 70 mln. nəfərdən artıq işçi çalışır və onlar 1 ildə 1 trl. dollardan artıq məhsul yaradırlar. Bütünlükdə TMŞ-larla bağlı olaraq (müəyyən infrastruktura və əlaqəli sahələrlə) 150 mln. nəfər Adam işlə təmin olunur.

ÜDM-də TMŞ-ların xüsusi çəkisi son 30 ildə 17 %-dən 30 %-dək artmışdır.

TMŞ-ların sayı son 25 ildə 5 dəfə çoxalmışdır. hazırda 500 ən böyük TMŞ cəmi elektronika və kimya sahəsi məhsulunun 80 %-ni, əczaçılığın 95 %-ni, maşınqayırma sahəsi məhsulunun 76 %-ni reallaşdırır. Bu TMŞ-lardar 85-i bütün xarici investisiyanın 70 %-nə nəzarət edir.

2000-ci ilin məlumatına görə 500 ən böyük TMŞ 25 trl. dollar dəyərində məhsul istehsal etmişdir (ABŞ istisnadır). Bu kompaniyalarda çalışanların sayı 19 mln. nəfər olmuşdur. Öz növbəsində ABŞ-ın 500 ən böyük TMŞ-sı həmin ildə 14,5 trl.

dollar dəyərində məhsul istehsal etmişdir. Burada işləyənlərin sayı 20 mln. nəfər təşkil etmişdir.

Beləliklə, TMŞ-ların fəaliyyəti ilə beynəlxalq istehsalın artması beynəlxalq ticarətin yüksəlməsinə güclü təsir etmişdir. Belə ki, artıq 1980-ci illərin axırlarından TMŞ-lar dünya əmtəə və xidmətlər bazarının təchiz edilməsinin əsas kanalına çevrilmişdir.

2000-ci ilə TMŞ-ların xarici filialları tərəfindən həyata keçirilən əmtəə və xidmətlər satışının həcmi 14,7 trl. dollara bərabər olmuşdur (dünya üzrə ixrac isə 7,6 trl. dollar təşkil etmişdir).

2005-ci ildə dünya üzrə xarici ticarətin həcmi 9,7 trl. dollar təşkil etmişdir. bu isə TMŞ-ların 2000-ci ildəki səviyyəsindən 5 trl. dollar azdır.

Qeyd etməliyik ki, BMT-nin «Ticarət və inkişaf konfransı»nın (YUNKTAT) sənədlərində TMŞ-ların fəaliyyəti barədə xüsusi bənd vardır.

Bu təşkilatın məlumatına görə TMŞ-ların həyata keçirdiyi cəmi beynəlxalq ticarətin 30 %-dən artığı müəssisələr daxili ticarət şəklində baş verir. bu isə BİM-in daha dərininə genişlənməsinə zəmin yaradır.

Beynəlxalq ticarətin inkişafında TMŞ-ların rolunun artması ilə bağlı olaraq BMT-nin «Ticarət və inkişaf konfransı» 1990-cı ildən TMŞ-lar üçün «Transmilliləşmə indeksi» işləyib hazırlamışdır. Burada üç göstərici əsas götürülür (xarici aktivlərin, satışın və məşğulluğun xüsusi çəkisi). 1990-2000-ci illərdə bu transmilliləşmə indeksi 51 %-dən 60 %-dək artmışdır. Bu göstərici Kanada və bəzi inkişaf etmiş kiçik ölkələrin TMŞ-larında daha yüksək olmuşdur.

Belə ki, Kanada, Niderland və Belçikanın TMŞ-ları orta hesabla 92-98 %; Aİ ölkələri 63 %; təşkil etmişlər. İnformasiya vasitələri, ərzaq və spirtli içkilər, inşaat, kimya və əczaçılıq, elektronika və elektron avadanlığı sahələri üzrə ixtisaslaşmış TMŞ-lar daha yüksək «Transmilliləşmə indeksi[1]»nə malikdirlər.

[1] «Transmilliləşmə indeksi» - xarici aktivin cəmi aktiv vəsaitə olan nisbəti; xarici ticarətin cəmi satışa olan nisbəti; xarici filiallarda işləyənlərin cəmi işçilərə olan nisbəti kimi hesablanır. Bu üç göstəricinin orta həddi müəyyən edilir.

Bu transmilliləşmə indeksini riyazi düsturla aşağıdakı kimi ifadə etmək olar:

$$I_T = \frac{\frac{A_1}{A} + \frac{R_1}{R} + \frac{S_1}{S}}{3}$$

burada: I_T – transmilliləşmə indeksi;

A_1 – xarici aktivlərin həcmi;

A – cəmi aktiv vəsaitin həcmi;

R_1- xarici filialların satdığı əmtəə və xidmət ərin həcmi;

R - cəmi satılan əmtəə və xidmətlərin həcmi

S_1 – xarici işçilərin sayı;

S – kompaniyanın cəmi işçilərinin sayı.

Oxucuya daha aydın olmaq üçün aşağıdakı cədvəldə bəzi TMŞ-lar nümayiş etdirilir.

Transmilliləşmə indeksi (2000)

	Korporasiya (TMK)	Aktiv vəsaiti mlrd. dol.		Satış, mlrd. dol.		Məşğul uq, min nəfər		Transm. İndeksi
		cəmi	o cüml. xarici	cəmi	o cüml. xarici	cəmi	o cüml. xarici	
1	İsveçrə elektron avadanlığı. TMŞ	30	-	31,3	30,4	213,1	200,6	95,7
2	İsveçrə ərzaq məhsulları. TMŞ Nestle SA	37,7	31,6	48,3	47,6	225,8	219,4	93,2
3	Kanada. Spirtli içkilər üzrə. Seagram Komp.	22,1	21,8	9,7	9,4	31,0	-	97,1
4	ABŞ. Elektronika üzrə. General Elektrik	304,0	97,4	91,0	24,5	276,0	111,0	33,1
5	ABŞ. Avtomobil üzrə Ford Motor	275,4	72,5	53,6	48,0	363,9	174,1	35,2

Cədvəldən göründüyü kimi burada hər hansı bir TMŞ-nın böyüklüyü deyil, nəzərədə tutulan meyarlar əsas rol oynayır. Odur ki, qeyd etdiyimiz meyarlar vəhdət halında götürülməlidir.

«Ticarət və inkişaf konfransı» 1995-ci ildən inkişaf etməkdə olan ölkələrdə yaradılmış 50 daha böyük TMŞ-ların fəaliyyəti barədə məlumat dərc edir. Bu 50 TMŞ-dan 2-si «Petroleus de Venesuela» və «Deu Korp» (C.Koreya) dünyanın ən böyük 100 TMŞ-sına daxildirlər.

4. Bank kapitalının təmərküzləşməsi və transmilli bankların yaranması

Kapitalın və istehsalın təmərküzləşməsi istehsal sahələrində inhisarların, sonra isə beynəlxalq inhisarların yaranmasına səbəb olmuşdur. Aydındır ki, istehsal sahəsində yaranan bu böyük inhisar birlikləri kiçik banklarla əməliyyat apara bilməzdilər. odur ki, istehsal sahələrində yaranan böyük inhisar birlikləri ilə yanaşı bank işində də təmərküzləşmə baş verirdi. Böyük banklar kiçik bankları sıxışdırıb aradan çıxarırdı.

Böyük birliklər öz vəsaitlərini böyük banklarda yerləşdirməyə üstünlük verirdilər. Eləcə də lazım gəldikdə ancaq böyük banklardan maliyyə vəsaiti götürə bilərdilər.

Sənayedə olduğu kimi bank işində də böyük banklar bir çox üstünlüyə malik idilər. Belə ki:

1. Böyük banklar daha etibarlı idilər.

2. Böyük bankların filialları, şöbələri, agentlikləri olduğu üçün ayrı-ayrı yerlərdə vəsait qəbul etmək imkanları geniş idi.

3. Böyük bankların texniki imkanları, sənədləşmə işləri də geniş olmuşdur.

Beləliklə, təkcə ABŞ-da 1929-1933-cü illərdəki böhran zamanı 10 min kiçik bank müflisləşmişdir. 1953-1964-cü illərdə 2 min bank birləşmişdir. 1921-1964-cü illərdə bankların sayı 31 mindən 14 minədək azalmışdır. İngiltərədə isə 1890-1962-ci illərdə səhmdar bankların sayı 104-dən 13-dək azalmışdır.

Beləliklə, istehsalda olan bütün qanunauyğunluqlar bank işində də baş verirdi.

Deməli, bank sahəsində inhisar dedikdə – bankların birləşməsi, iri bankların yaradılması, yüksək inhisar mənfəəti əldə edilməsi nəzərdə tutulur. sənayedə olduğu kimi burada da banklar üzrə kartel, sindikat, trestlər, konsernlər yaranırdı. Transmilli banklar da öz inkişafında bir neçə mərhələ keçmişlər:

1. XIX əsrin sonu XX əsrin əvvəlləri.

2. Birinci dünya müharibəsi ilə İkinci dünya müharibəsinin arasındakı dövr.

3. İkinci dünya müharibəsinin axırlarından 1970-ci illərədək olan dövr.

4. 1980-1990-cı illər.

5. XXI əsrin əvvəlləri.

XXI əsrin əvvəllərinə böyük transmilli bankların qruplaşması əsasında üç əsas maliyyə mərkəzi formalaşmışdır: **ABŞ, Qərbi Avropa və Yaponiya**.

Məhz elə həmin ərazidə olan böyük banklar və onların əməliyyat apardıqları TMŞ-lar arasında gedən gərgin rəqabət nəticəsində müəyyən beynəlxalq maliyyə mərkəzləri yaranmışdır. Bunlardan:

- ABŞ-da – Nyu-York;
- Qərbi Avropada – London (Böyük Britaniya);
- Fransada – Paris;
- İsveçrədə – Surix;
- Almaniyada – Frankfurt-na-Mayne;
- Lüksemburq;
- Yaponiyada – Tokio və s.

Bunlardan əlavə yenə də aşağıdakı beynəlxalq dərəcəli maliyyə mərkəzləri fəaliyyət göstərir: Çikaqo (ABŞ), Bazel (İsveçrə), Amsterdam (Niderland), Vyana (Avstriya), Honkonq (Çin), Tayvanda, Sinqapurda, Seul (C.Koreya), Sidney (Avstraliya), Keyptaun (CAR), San-Paulo (Braziliya), Er-Riad (Səudiyyə Ərəbistanı) və s.

XXI əsrin əvvəllərinə dünyada 20-dən artıq bu cür böyük maliyyə mərkəzləri fəaliyyət göstərir, bunlarında transmilli banklardan ibarət 1000-dən artıq filialları və şöbələri vardır.

100 ən böyük TMB-nın coğrafi yerləşməsi (ədədlə)

	Ölkələr	Bankların sayı, ədəd	Cəmi aktiv vəsaiti, mlrd. dol.
1	Yaponiya	24	5635
2	Almaniya	12	1604
3	Fransa	11	1932
4	ABŞ	10	1987
5	İtaliya	8	848
6	Böyük Britaniya	7	1002
7	İspaniya	5	379
8	Belçika	4	290
9	İsveç	4	284
10	Avstraliya	4	266
11	Niderland	3	476
12	İsveçrə	3	447
13	Çin XR (Honkonqla)	2	323
14	Kanada	2	212
15	Danimarka	1	61
	Cəmi	100	15746

Qeyd etməliyik ki, bütövlükdə TMB-lar:

- maliyyə ehtiyatlarının sahibləri ilə investorlar arasında əsas vasitəçi rolu oynayır;
- TMB-lar maliyyə vəsaitlərinin hərəkətinin əsas forma və bölgüsünü həyata keçirir;
- TMB-lar universal maliyyə qurumu olub çox böyük beynəlxalq ödəmələrdə fəaliyyət göstərə bilir;
- TMB-lar böyük həcmli investisiya vəsaitinə malikdirlər.

5. TMŞ-lər və kapital ixracı problemi

TMŞ-ların dünya iqtisadiyyatındakı rolundan danışarkən, onların həyata keçirdiyi kapital ixracı və onun yerləşdirilməsinin faydalılığı məsələləri ön plana çəkilir. Qeyd etməliyik ki, hazırda bütün TMŞ-lar tərəfindən həyata keçirilən xarici investisiya bütövlükdə və BİM sistemində ticarətə nisbətən daha çox əhəmiyyət kəsb edir.

Aydındır ki, xarici ölkələrdə TMŞ-ların filiallarının sürətlə artması istehsalın böyük bir qisminin xaricdə yaranması deməkdir. Bu isə TMŞ-lara imkan verir ki, maddi vəsaitin (istər pul şəklində və istərsə də texnologiya, avadanlıq, ixtisaslı əmək və s.) böyük qismini həmin ölkələrə yönəltsin.

Buradan da belə bir nəticəyə gəlmək olur ki, birbaşa investisiyanın xarici ölkələrə daha çox axması dünya iqtisadiyyatının bütövlüyünün vahidliyini təsdiq edən əsas cəhətlərdən biridir. **Bu cəhət bir daha onu göstərir ki, dünya iqtisadiyyatının formalaşması dünya bazarı mərhələsindən dünya istehsalı (beynəlxalq istehsal) mərhələsinə keçmişdir.**

Hazırda birbaşa xarici investisiyalar əsasən TMŞ-lar tərəfindən həyata keçirilir. **Odur ki, xarici ölkələrin iqtisadiyyatına yönəldilmiş birbaşa investisiyanın 90 %-nə TMŞ-lar nəzarət edirlər.**

Bu gün dünya təsərrüfat əlaqələrindən və onlardan xarici investisiyanın üstünlüklərindən istifadə etmədən sabit inkişafa nail olmaq qeyri-mümkündür. 1990-cı illərin axırlarına bu proses daha da güclənmişdir. **Belə ki, 1993-1997-ci illərdə birbaşa xarici investisiyanın həcmi orta hesabla 20,2 % artdığı halda 1997-2000-ci illərdə bu artım 31,4 %-ə bərabər olmuşdur.**

Mütləq göstəricilərlə ifadə etdikdə xarici investisiyanın həcmi barədə daha aydın təsəvvür yaranır. **Belə ki, 1990-cı illərin ortalarına birbaşa xarici investisiyanın cəmi 3 trl. dollar orta illik həcmi 350 mlrd. dollar olduğu halda, 1998-ci ildə 644 mlrd. dollar, 1999-cu ildə 865 mlrd. dollar, 2003-cü ildə isə 1 trl. dollardan artıq olmuşdur.**

Beləliklə birbaşa xarici investisiya bütövlükdə investisiyaya nisbətən 3 dəfə sürətlə artmışdır.

Bütün bunlara baxmayaraq son dövrlərin məlumatına görə inkişaf etmiş ölkələrdə birbaşa investisiya cəmi investisiyanın **6-10 %-indən artıq deyildir**. Ayrı-ayrı qrup dövlətlər üzrə xarici investisiyadan istifadə edilməsində istər idxal və istərsə də ixracda inkişaf etmiş ölkələr daha irəlidədirlər. Məsələn, 2000-ci ildə dünya üzrə cəmi idxal edilmiş 865 mlrd. dollar birbaşa investisiyanın **636 mlrd. dolları** inkişaf etmiş sənaye ölkələrinin, **208 mlrd. dolları** isə inkişaf etməkdə olan ölkələrin payına düşmüşdür. Həmin ildə birbaşa xarici investisiya idxalına görə ABŞ liderlik edir (baxmayaraq ki, özünün kifayət qədər vəsaiti vardır).

ABŞ-ın iqtisadiyyatına cəlb edilən birbaşa xarici investisiya **2000-ci ildə 175.5 mlrd. dollar təşkil etmişdir**.

ABŞ TMŞ-larının birbaşa xarici investisiyası isə **142,6 mlrd. dollara** bərabər olmuşdur (2002-ci ildə bu göstərici nisbətən azalaraq 119,7 mlrd. dollar olmuşdur).

Qeyd etməliyik ki, son on ildə (1993-2002-ci illər) ABŞ-ın xaricdə olan cəmi investisiyasının həcmi 2,7 dəfə artaraq 1521,0 mlrd. dollar təşkil etmişdir. Bu bütün dünya üzrə xaricdə toplanan birbaşa investisiyanın 22,2 %-nə bərabərdir. Müqayisə üçün qeyd etməliyik ki, həmin göstərici Böyük Britaniyada –15; Fransada –9,5; Almaniyada –8,4; Niderlandda – 5,2; Yaponiyada – 4,8 %-ə bərabərdir.

Böyük Britaniya şərkətləri təərfindən həyata keçirilən birbaşa xarici investisiya 2000-ci ildə 199,3 mlrd. dollar, bura idxal olunan birbaşa xarici investisiya isə 82,2 mlrd. dollar təşkil etmişdir.

İnkişaf etməkdə olan ölkələrdə isə birbaşa xarici investisiya sistemi hələ ki, o qədər də qənaətbəxş deyildir.

6. İnkişaf etmiş ölkələrdə maliyyə sənaye qruplarının (MSQ) yaranması

Nəzəri iqtisad elmini öyrənən hər bir iqtisadçı bilir ki, inhisarların yarandığı dövrədək sənaye kapitalı və bank kapi-

talı ayrılıqda fəaliyyət göstərmişlər. Beləki, sənaye üzrə ixtisaslaşmış sahibkarlar bank işi ilə məşğul olmamışlar. Öz növbəsində banklar da sənaye məüssisələri yaratmaqla məşğul deyildir (lakin sənaye müəssisələri ilə yaxından əlaqə saxlayardılar, kredit verirdilər və s.).

Lakin kapitalizmin (yaxud bazar iqtisadiyyatın inkişafının müəyyən mərhələsində) inkişafının 1860-1870-ci illərindən sonrakı dövrü üçün demək olar ki, hər bir inkişaf etmiş ölkənin iqtisadiyatında aşağıdakı dəyişikliklər özünü göstərirdi:

1. İstehsalın təmərküzləşməsi əsasında sənaye inhisarlarının yaranması və inkişaf etməsi.

2. Bank işində təmərküzləşmənin artması nəticəsində bank inhisarlarının yaranması və inkişafı.

3. Sənaye və bank inhisarlarının qovuşması.

Beləliklə, bu məntiqi və tarixi prosesdə sənaye və bank kapitalının birgə mülkiyyəti iri inhisarların əlində birləşmiş olurdu. Burada sənaye kapitalı ilə bank kapitalı anlayışlarının iqtisadi məzmunu daha geniş məna kəsb edir. **K.Marks dəfələrlə göstərirdi ki, sənaye kapitalı dedikdə o, yalnız emal və yaxud hasilat sənayesinə qoyulan kapitalı nəzərdə tutmur. Maddi istehsalın digər sahələri olan kənd təsərrüfatı, nəqliyyat, rabitə və s. sahələri də bura aid edir.**

Eləcə də o, **bank kapitalı anlayışının** iqtisadi məzmununa da dar mənada deyil, daha geniş mənada baxırdı. Burada borc kapitalının müxtəlif formalarda hərəkəti, sığorta cəmiyyətləri, investisiya bankları, əmanət kassaları və s. məcmu halında nəzərdə tutulur.

Deməli mülkiyyətin bu cür birləşməsi paralel (yanaşı) baş verən iki prosesin nəticəsi kimi təzahür edir. İnhisarçı bank kapitalının sənayenin inkişafına tətbiqi və inhisarçı sənaye kapitalının bank işinə tətbiqi.

Burada belə bir faktı çəkmək yerinə düşərdi. XX əsrin əvvəlində amerikalı bankir Con Pirpont Morqan bank evi yaratmışdır. O, 1902-ci ildə bəzi dəmiryolu kompaniyalarının səhmlərini almış və 90 min km uzunluğunda dəmiryolu şəbə-

kəsinə sahib olmuşdur. Bununla yanaşı o, bəzi metallurgiya kompaniyaları səhmlərinin nəzarət paketinə sahib olmuşdur. Beləliklə 1901-ci ildə o, «Yunayted Steyt stil korporeyşn» polad trestini yaratmışdır.

Morqan bankir evinin sahibi olmaqla yanaşı, eyni zamanda bir çox sənaye kompaniyalarının səhmlərinin də sahibi kimi çıxış edirdi. Tarixi baxımdan 1912-ci ildə yaradılmış İsveçin «Elektrolüks» TMŞ-nın da böyük əməli əhəmiyyətini qeyd etmək olar.

Sənaye inhisarları da öz növbəsində müəyyən banklarla yaxından bağlı olaraq onlardan güclü kredit götürərək, bankların köməkliyi ilə öz səhmlərini yerləşdirməyi həyata keçirirdilər.

Beləliklə inhisarçı sənaye kapitalının bank işinə qarışması müdaxiləsi iki yolla baş vermişdir.

1. **Sənaye inhisarları bankların səhmlərini almaqla onların şərikçisinə çevrilmişlər.**

2. **Sənaye inhisarları yeni banklar təsis etməklə bank sahibkarına çevrilə bilmişlər.**

Beləliklə, sənaye kapitalı ilə bank kapitalının qovuşması nəticəsində maliyyə kapitalı yaranmışdır.

Bank kapitalı ilə sənaye kapitalının qovuşması keyfiyyətcə yeni hadisənin yaranması deməkdir. Bu müxtəlif inhisarların vahid inhisarda inhikası formasıdır.

Deməli inkişaf etmiş ölkələrin iqtisadiyyatında müxtəlif formalarda koprorasiyalararası birləşmə mexanizmləri yaranmışdır. Bu birliklər böyük sənaye korporasiyalarının başçılıq etdiyi konsernlərdən, universal – çoxsahəli maliyyə sənaye birlikləri və s. ibarətdir.

Bu cür maliyyə-sənaye birlikləri inkişaf etmiş ölkələrdə daha geniş fəaliyyət göstərirlər.

ABŞ-ın maliyyə-sənaye qrupları (MSQ)

ABŞ sənayesinin əsas simasını demək olar ki, 100 çoxsahəli korporasiya müəyyən edir. Bu korporasiyalar yüksək səviyyədə

inteqrasiya əlaqələri ilə bağlı olan maliyyə-sənaye qruplarından ibarətdirlər. Rəsmi məlumatlara görə hazırda ABŞ-da ÜDM-in 55-60 %-i həmin korporasiyaların payına düşür. Cəmi işçilərin 45 %-i, **investisiya qoyuluşlarının 60 %-i bu maliyyə-sənaye qruplarında cəmləşdirilmişdir. Bu 100 kompaniyanın hər biri özündə orta hesabla 25 sahə üzrə ixtisaslaşmış müəssisələri birləşdirir. 35 müəssisənin hər biri 32 sənaye sahəsi üzrə, 10 müəssisənin hər biri 50 sahə üzrə təsərrüfatçılıq edir.**

ABŞ-da fəaliyyət göstərən «Çeyz», «Morqan», «Melon», «Limen-Qoldmen», «Saks» və s. kimi maliyyə-sənaye qrupları oxşar yaranma tarixinə malik olmaqla güclü maliyyə institutları hesab edilirlər. **«Çeyz» maliyyə qrupu 1996-cı ildə aprel ayının 1-də «Çeyz Manxetten benk» ilə «Kemikl benk»in, eləcə də 2 şəxsi sığorta kompaniyasının («Metropoliten Layf İnşuren K» ilə «Ekviteb Layf») birləşdirilməsi ilə yaradılmışdır.**

«Çeyz Manxetten benk» (eləcə də onun sələfi olan «Çeyz neşnl benk») 1920-ci illərdən C.F.Rokfellerin (böyük Rokfeller - 1839-1937) ailəsinin adı ilə bağlıdır. 1962-ci ildən D.Rokfeller bu kompaniyanın prezidenti (və yaxud direktorlar Şurasının sədri) olmuşdur.

Burada fəaliyyət göstərən 21 qeyri-maliyyə korporasiyaları (sənaye qrupları) da «Shase» və «Shase Manhattan Korp.» bankının nəzarətindədirlər (bu sənaye qrupları – 5 nəqliyyat kompaniyasını, 3 təyyarə kompaniyalarını, 2 dəmiryolu kompaniyası və 2 təyyarə qurculuğu kompaniyası, 2 kimya kompaniyasını və iki pərakəndə satış üzrə kompaniyanı özündə birləşdirir).

Hazırda «Shase Manhattan Sorp.» ABŞ-nın ən qabaqcıl banklarından biri hesab edilir və **300 mlrd. dollar** aktiv vəsaitə malikdir.

«Shase» qrupundan fərqli olaraq **«Morqan»** qrupu əsasən sənaye sahələri üzrə ixtisaslaşmışdır.

Onu da qeyd etməliyik ki, ABŞ-da bir çox sənaye korporasiyaları uzun müddətdir ki, güclü maliyyə-investisiya qurumları yaratmışlar. Bunlardan **«General Motors – General Motors Acceptance Corp., General Elektric - General Elektric**

Capital Services, Ford Motor – Credit Corp., IBM Credit Corp.» və s. kimi məlum maliyyə qurumlarını göstərmək olar. Bu maliyyə institutları müstəqil fəaliyyət mexanizminə malikdirlər. Onlar qrup daxilində deyil, öz hüdudlarından kənarda da maliyyə əməliyyatları aparırlar. Məsələn, «General Elektric Capital Services» xidmət dairəsində 20-dən artıq istiqamətdə iş aparır. Bu korporasiyada yaradılan birgə gəlirin 35 %-i «GE» payına düşür.

«General Motors Acceptance Corp.» ABŞ-da ən böyük kommersiya krediti verən maliyyə institutu olmaqla bir çox ştatlarda əmanət və kredit kompaniyalarının sahibi kiim çıxış edir.

Bütün qeyd etdiyimiz koprorasiyalar transmilli xarakterə malikdirlər. Məsələn, «General Motors» qrupu ABŞ-dan –200; Kanadadan – 12 və digər ölkələrdən 32 müəssisəni özündə birləşdirir. Bu kompaniya dünya üzrə cəmi avtomobilin 20 %-ni istehsal edir. Bu qrupun əsasını dünya üzrə məlum avtomobilqayırma konserni təşkil edir.

«General Elektric» ABŞ-nın 173 zavodunda və dünyanın 25 ölkəsnin (Rusiya da daxil olmaqla) 100-dən artıq müəssisəsində sənayenin elmtutumlu sahələrinin inkişafına köməklik göstərir.

Yaponiyanın maliyyə-sənaye qrupları (Syudanlar)

Yaponiyada bu sənaye birlikləri 6 iqtisadi kompleks şəklində mövcuddurlar – «Misubisi», «Misui», «Sumito-mo», «Dançi Kanqin», «Fuye», «Sanba».

Yaponiyanın cəmi ÜDM-in 14-15 % bu 6 qrupa daxil olan birliklərin payına düşür. Bu sənaye-maliyyə qrupları üzrə sənayedəki cəmi aktiv vəsaitin 50-75 %-nə nəzarət edirlər. Onların kommersiya və trast[1] bank qrupları ölkənin bütün

[1] Trast – ing. «etibar, inanmaq». Mülkiyyətin başqa şəxs tərəfindən idarə edilməsi barədə müqavilə.

bank sistemi kapitalının 40 %-nə, sığorta kompaniyaları isə cəmi sığorta kapitalının 55 %-nə nəzarət edirlər.

Bu birliklər (syudanlar) çoxsahəli universal iqtisadi komplekslərdən ibarətdir. Onlar öz təşkilatı qurluşuna görə maliyyə müəssisələrini (banklar, sığorta və trast kompaniyaları) ticarət firmalarını, bir çox istehsal müəssisələri toplusunu özündə cəmləşdirirlər.

Məsələn, «Sumito-mo» qrupu 21 birliyi, «Dançi-Kanti» 50 birliyi əks etdirir. «Sumito-mo» əsasən avtomobil satışı ilə məşğuldur. Aktiv vəsaiti 46 mlrd. dollar, satışın həcmi ildə 100 mlrd. dollar təşkil edir.

Bu maliyyə-sənaye qruplarının hər biri Yaponiyanın iqtisadiyyatında çox həlledici rola malikdir. Məsələn, «Misui» qrupu 29 böyük birliyi özündə cəmləşdirir. Çox böyük sənaye-maliyyə kompaniyasıdır. «Sakura» bankı da bura daxildir. Bu bank dünyanın ən böyük bankları sırasında 6-cı yeri tutur.

Mərkəzi ticarət firmaları qrupu – «Misui Busan» birliyi də Misui qrupuna daxildir. Bu birlik 27 istehsal müəssisəsini özündə cəmləşdirmişdir.

Böyük istehsal birliklərindən biri də **«Tayota»**dır. «Tayota» da «Misui» maliyyə-sənaye qrupuna daxildir. 15 kompaniyanı birləşdirir. «Tayota» böyük tonnajlı yük maşınları, avtobuslar, avtomaşın kuzovları (gövdəsi), hazır məmulatlar istehsal etməklə yanaşı əsaslı tədqiqat işləri aparır, xam məhsulların idxal və ixracını həyata keçirir. Bunlarla yanaşı «Tayota» polad, dəqiq dəzgahlar, parça, istehlak malları istehsal edir, inşaat xidmətləri göstərir.

Yaponiya maliyyə-sənaye qrupları yeni sənaye ölkələrinin əksəriyyətinə kifayət qədər köməklik göstərmişdir.

«Tayota» qrupunun illik dövriyyəsi 70 mlrd. dollar təşkil edir (2000 il). 2000-ci ilə cəmi aktiv vəsaiti 107 mlrd. dollar olmuşdur.

Beləliklə bütövlükdə Yaponiyada MSQ-nin Syudanın səmərəli fəaliyyəti üçün böyük bankların, kredit-maliyyə institutlarının bura daxil olması həlledici rol oynayır. Buradan da bütün filialların bank şəbəkəsinə nəzarət həyata keçirilir.

Beləliklə sığorta və investisiya kompaniyaları, trast banklar kompleks şəkildə işləyə bilirlər.

Syudanın fəaliyyətində universal ticarət firması da həlledici rol oynayır. Ümumiyyətlə öz ticarət və informasiya şəbəkələrinə və işgüzar əməliyyatların həcminə görə ticarət firmaları satışda, təchizatda, xarici əlaqələrdə yeni fəaliyyət növlərinin mənimsənilməsində böyük əhəmiyyət kəsb edir.

Almaniyanın transmilli maliyyə-sənaye qrupları (MSQ)

Digər inkişaf etmiş ölkələrdə olduğu kimi Almaniyada da bank kapitalı ilə sənaye kapitalının qovuşması prosesi mövcud olmuş və maliyyə-sənaye qrupları yaranmışdır. Almaniyada banklarla sənaye arasındakı əlaqə daha dərin olmuşdur.

Səhmdar birlikləri və maliyyə qurumları vasitəsilə, müəyyən işgüzarlıq əlaqələri yolu ilə sənaye konsernləri maliyyə institutları ilə sahələrarası inteqrasiya yarada bilmişlər. Orada banklar investisiya layihələrinin maliyyələşdirilməsində iştirak etməklə yanaşı, həm də müəssisələrin idarə edilməsində yaxından iştirak edirlər.

Odur ki, Almaniyada MSQ-nin yaradılmasının əsasında banklar dayanır. Deməli Almaniyada sənaye və bank kapitalının inteqrasiyasında banklar aparıcı rola malikdirlər. Almaniyada ümumi təsərrüfat əhəmiyyətli MSQ-rin ümumi sayı təqribən **10-na qədərdir**. Burada **üç böyük bank** əsasında yaradılmış MSQ-rin özəyini bir neçə bank, sənaye, ticarət, sığorta və nəqliyyat inhisarları təşkil edir.

Məsələn, **Bosch, Simens** kimi məşhur sənaye konsernləri **Deutsche Bank AG** ətrafında, **Hochst, Grundiq, Krupp** kompaniyaları isə **Dresdner Bank AG** ətrafında birləşmişlər.

Bu MSQ-nin baş xoldinqləri **150-yə** qədər kompaniyanın səhmlərinə nəzarət edirlər.

Almaniyada fəaliyyət göstərən ən böyük Alman **(Deutsche Bank AG), Drezden (Dresdner Bank AG) və Kommersiya**

(Kommerzbank AG) bankları üç aparıcı MSQ-nin əsasını təşkil edir. Ölkənin cəmi səhmdar kapitalının **30 %-i; 25 %-i və 13 %-i** müvafiq olaraq həmin bankların payına düşür. Bu banklar universal kredit-maliyyə kompleksləri olub geniş xidmət dairəsinə malikdirlər.

Bu üç MSQ-dən başqa digər MSQ-də fəaliyyət göstərir. Bunlardan **«İQ Farbenindustri»**, «Flika», «Tissen Oppenqeym», «Daymler-Bens», eləcə də bəzi regional MSQ-i göstərmək olar.

Məsələn, **«Flika»** MSQ-nə 49 kompaniya daxildir, bunlardan 17-si maliyyə üzrədir.

«Tissen-Oppenqeym» MSQ-nin əsas bankı Oppenqeymin xüsusi bankir evi hesab edilir.

Avropada ən böyük çox sahəli konqlomeratlardan biri olan **«Daymler-Bens»** Avropada **16-cı**, dünyada **74-cü yeri tutur**. Nəqliyyat maşınqayırması üzrə ixtisaslaşmışdır. 2000-ci ilə cəmi aktiv vəsaiti 77 mlrd dollar olmuşdur. 300 min nəfər işçisi var.

Almaniyadakı sənaye qrupları aşağıdakı kompaniyaları özündə birləşdirir:

- **«Mersedes-Bens AQ»** (avtomobilqayırma)
- **«Daymler-Bens Aerospeys»** (təyyarəqayırma, kosmik sistemdə hərbi və mülki təyinatlı perspektiv proqramlar hazırlamaq və s.);
- maliyyə üzrə **«Daymler-Bens İnterservis»** («Debis»).

Bu **«Debis»** kompaniyası (maliyyə və telekommunikasiya sahəsi üzrə ixtisaslaşmışdır) Avropada yeganə qurumdur ki, böyük TMŞ-nın tərkibində fəaliyyət göstərir və tam proqram çərçivəsində xidmət edir.

Almaniyada MSQ-də əlaqələndirmə prosesinin özünəməxsus xüsusiyyətləri də vardır. Beləki:

1. Müəyyən vəzifəli şəxslər eyni zamanda bu qrupa daxil olan müxtəlif kompaniya və firmaların idarə heyətinin üzvü kimi çıxış edirlər. Məsələn, Almaniyanın 100 ən böyük kompaniyasından 80-də müşahidə şurasının hər bir üzvü eyni zamanda başqa kompaniyanın da idarə heyətinin üzvüdür.

2. Almaniyada MSQ-də əlaqələndirmə işləri maliyyə-kredit institutları tərəfindən həyata keçirilir. Hazırda Almaniyanın ən böyük 25 sənaye müəssisəsinin səhmlərinin 30 %-i məhz bankların əlində cəmləşdirilmişdir. Bu da əlaqələndirmə işlərini yüngülləşdirir.

3. Qrup şəklində yaradılan inteqrasiyada sabit üzvlərindən başqa, kapitalda qarşılıqlı iştirak etmək kimi xüsusiyyətlər də mövcuddur.

Beləliklə Almaniyada MSQ-lər heç də sərt bir mexanizm olmayıb, elastik çevik fəaliyyət göstərmək qabiliyyətinə malikdirlər.

Cənubi Koreya maliyyə-sənaye qrupları (Çebol)

Cənubi Koreya yeni sənaye ölkələri arasında ən sürətlə inkişaf edən dövlətlərdən biridir. Hətta bir çox iqtisadi göstəricilərə görə inkişaf etmiş ölkələri qabaqlaya da bilir.

Cənubi Koreya üçün istehsalın və kapitalın yüksək təmərküzləşməsi xarakterikdir, inhisarlaşma yüksəkdir. Demək olar ki, bütün iri və orta müəssisələr müxtəlif qruplara məxsusdur. Böyük Çebollar Yaponiyanın qabaqcıl TMŞ-rına bənzəyirlər.

Lakin Koreya MSQ-ri demək olar ki, ailə kapitalına əsaslanırlar. Ona görə də Koreya alimləri bu Çebolları formal məstəqil qrup adlandırırlar.

Deməli Çebolların idarəçiliyi real olaraq ailə-qəbilə tərəfindən həyata keçirilir. Lakin real gerçəklikdə bu qrupların səhmdar kapitalında onların payı 50 %-dən o qədər də artıq olmur. Bunu aşağıdakı cədvəldən də görmək olar.

Bəzi qabaqcıl Çebollarda səhmlərin bölgüsü, %-lə

Çebol qrupları	Təsisçi	Təsisçinin qohumları	Qız cəmiyyətləri	Cəmi
«Xende»	3,7	12,1	44,6	60,4
«Samsunq»	1,5	1,3	46,3	49,3
«El ci»	0,1	5,6	33,0	39,7
«DEU»	3,9	2,8	34,6	41,4
«Es Ka Qlobal»	10,9	6,5	33,5	51,2
«Sanyen»	2,9	1,3	28,9	33,1
«Xancin»	7,5	12,6	18,2	40,3
«Kia»	17,1	0,4	4,2	21,9

1970-ci illərədək bu Çebollarda nəzarət əsasən aparıcı mülkiyyətçilər, onların ailə üzvləri tərəfindən həyata keçirilirdi. Sonralar belə nəzarət tədricən bu qruplardakı komitələrə həvalə edilmişdir.

Cədvəldə nümayiş etdirilən Çebollarda yüksək çoxsahəlilik xarakterikdir. Demək olar ki, bunların hər birində qabaqcıl sənaye sahələri təmsil olunur. Bu isə müəssisələrarasındakı rəqabəti artırır. Məsələn, hələ 1980-ci illərdən üç ən böyük Çebola daxil olan sənaye müəssisələrində 33-dən 57-dək sahə təmsil olunurdu.

Cənubi Koreyada Çebolların yaradılması və təkamülünün də özünəməxsus xüsusiyyətləri vardır.

Bir çox hallarda qabaqcıl Çebollar ixtisaslaşma baxımından o qədər də uyğun olmayan müəssisələri də özlərinə birləşdirirlər. Lakin sonradan çox qanunauyğun bir əlaqə yaradırlar. Məsələn, «LG» («Laki Qolstar») kimi böyük bir konqlomerat (elektronika və elektrik avadanlıqları), bizneslə məşğul olan bir sahəni özünə birləşdirmişdir. Sonra həmin firma plastmas istehsalı ilə bütün birliyi təmin etmişdir. Elektrotexnika və elektronika məhsulları sahəsində və eləcədə neft emalında plastmasdan geniş istifadə edilir. Sonra həmin firma duru məhsullar daşımaq üçün tankerlər düzəldilməsnə və daha sonra sığorta biznesinə keçmişdir.

Cənubi Koreyada Çebolların yaradılması tarixi və fəaliyyəti barədə müəyyən təsəvvür yaratmaq üçün «Samsunq» Çebolunun yaranmasına nəzər salaq.

«Samsunq» ilk əvvəllər 1938-ci ildə 40 nəfərdən ibarət kollektivlə işə başlamışdır. Ölkə daxilində, eləcə də Çin ilə Yaponiyaya ərzaq satmaqla məşğul olmuşdur. Bu kompaniya tədricən inkişaf edərək konqlomerata çevrilmiş (sadədən-

mürəkkəbə), əmək tutumlu istehsaldan kapitaltutumlu istehsala, sonra isə elmtutumlu istehsala keçmişdir. Deməli ərzaq və paltar, sonra inşaat, kimya, metallar və ağır sənaye.

1970-1980-ci illərdən maşınqayırma və yüksək texnologiyanın, elektronika və aviasiyanın mənimsənilməsi, bir çox digər atributlar qazanmış və müasir iqtisadiyyatda sanki imperiya yaratmışdır. Hazırda maliyyə qrupları, elmi-tədqiqat və təhsil mərkəzləri yaradılır, qəzet və jurnallar buraxılır və s. **Hazırda «Samsunq» 20-dən artıq sənaye sahəsində iş aparır:** müxtəlif sahələrdə layihələşdirmə və inşaat işləri aparır; sənaye quruculuğu; gübrə və digər kimya məhsulları istehsalı; sintetik liflər, kauçuk istehsalı; kimya sənayesi; cihazqayırma və elektronika; maşınqayırma; neftemalı; təyyarəqayırma; yüngül və yük avtoşınları istehsalı; avtomobil sənayesi və s.

Beləliklə, bu gün «Samsunq» kompaniyası baş ticarət evi vəzifəsi yerinə yetirir.

Hazırda «Samsunq» qrupunun fəaliyyətini Koreyanın milli iqtisadi göstəriciləri ilə müqayisə etmək olar. Bu korporasiyanın cəmi ixracı ÜDM-in 12 %-nə bərabərdir. 2004-cü ilin məlumatına görə «Samsunq»-un illik dövriyyəsi 37,6 mlrd. dollar, cəmi kapitalı 75,1 mlrd. dollara bərabərdir. 60,0 min nəfər işçisi vardır.

«Samsunq»un elə bölmələri var ki, bütün dünyaya yayılıbdırlar – Avropada, Şimali Amerikada, Yaponiyada, Çin və Sinqapurda, Cənub-şərqi Asiyada və s. Bütün bunlarda idarəçiliyi həyata keçirmək üçün 1995-ci ildə «İkinci Samsunq» adlı xüsusi regional qrum yaranmışdır.

Rusiyanın maliyyə-sənaye qrupları

Rusiya dünyanın ən böyük dövlətlərindən biri olmaqla 1990-91-ci illərdən yeni ictimai-iqtisadi sistemə daxil olmuşdur. Hazırda açıq bazar iqtisadiyyatı istiqamətinə üstünlük verir. Odur ki, bazar iqtisadiyyatı sisteminə xas olan iqtisadi qurumların yaranması da qanunauyğunluq təşkil edir.

Bu baxımdan MDB-yə daxil olan ölkələr arasında Rusiyada MSQ və TMŞ-ların yaranması prosesi daha nəzərə çarpacaq dərəcədədir.

Qeyd etməliyik ki, hazırda Rusiya iqtisadiyyatının yenidən qurulmasında və islahat aparılmasında məhz MSQ-lar ən perspektivli rol oynaya bilərlər. Bu problemin böyük rolunu nəzərə alaraq Rusiya prezidenti «Rusiya federasiyasında maliyyə-sənaye qrupları» yaradılmasına dair 1993-cü ildə fərman imzalamışdır. Elə həmin ildə – 1993-cü ilin axırlarında ilk **MSQ – «Ural zavodları» qeydə alınmışdır.**

Aydındır ki, həmin vaxtdan ardıcıl olaraq MSQ-rın artırılması, fəaliyyət mexanizmi, dövlət yardımı və s. barədə rəsmi sənədlər qəbul edilmişdir.

Bu sənədlərdə MSQ-rın iqtisadi məzmunu – tərifi də ifadə edilmişdir. Orada göstərilmişdir ki, **MSQ-lər müqavilə əsasında öz maddi və qeyri-maddi vəsaitlərini birləşdirən əsas və qız cəmiyyətləri kimi hüquqi şəxslərin məcmusundan ibarətdir.**

Beləliklə Rusiyada MSQ-rin inkişafı prosesi sürətlənir və rəsmi qeydtyyatdan keçən MSQ-rin sayı artır. Qeyd etdiyimiz kimi, əgər 1993-cü ildə bir qrup olduğu halda (bura 20 sənaye müəssisəsi və bir kredit-maliyyə müəssisəsi daxil idi), 1994-cü ildə 150 sənaye və 14 maliyyə müəssisəsini birləşdirən 7 MSQ; 1995-ci ildə 273 sənaye müəssisəsini və 51 maliyyə-kredit müəssisəsini birləşdirən 27 MSQ; 1996-cı ildə 710 sənaye müəssisəsini və 95 maliyyə-kredit müəssisəsini birləşdirən 46 MSQ yaradılmışdır. 2000-ci ilə 100-dən artıq bu cür MSQ fəaliyyət göstərir. Onlar 150-dən artıq sənaye müəssisəsini və 160-dan artıq maliyyə-kredit institutlarını özündə birləşdirirlər.

Hər MSQ-də işləyənlərin sayı 5 mindən 300 minədəkdir. Bu qruplarda dövlət mülkiyyətinin xüsusi çəkisi 10 %-dən artıq deyildir.

Hazırda 200 daha böyük kompaniyadan 130-u rəsmi qeydiyyatdan keçmiş MSQ-in iştirakçısına çevrilmişdir.

Rusiyada fəaliyyət göstərən 100 ən böyük bankdan 48-i bu cür MSQ-lərə daxil olmuşdur. MSQ-lərə daxil olan daha böyük

müəssisələr aşağıdakılardır: Maqnitoqorski, Qərbi Sibir, Orsk-Xalilovsk metallurgiya kombinatı, Krasnoyarsk alüminium zavodu, AO «AvtoVAZ», «KamAZ», Çelyabinsk boru-prokat zavodu və eləcə də «ONEKSİM bank», «MENATEP», «Promstroybank», «RusiyaKredit», «Avtobank», «İnkombank» və s.

Bütövlükdə məcmu halında MSQ-lər öz çoxsahəli olmaları ilə fərqlənirlər. Hər bir MSQ yüzlərlə istiqamətdə fəaliyyət göstərməklə Rusiya iqtisadiyyatının canlanmasına güclü zəmin yaradırlar.

MSQ-in sahəvi quruluşu aşağıdakı kimidir: **kimya və neft-kimya sənayesi sahəsində – 11; inşaat sahəsində –5; kənd təsərrüfatı məhsulları istehsalı sahəsində –8; qara və əlvan metallurgiya sənayesi sahəsində – 5; avtomobilqayırma sahəsində – 12; ümumi maşınqayırma sənaye sahəsində –5; yeyinti və yüngül sənaye sahəsində –6; cihazqayırma və radioelektronika sahəsində –5; neft çıxarılması və emalı üzrə – 2 MSQ təmsil olunur.**

Hərbi-müdafiə istehsalı əsasında «Dəqiq» və «Xüsusi nəqliyyat maşınqayırması» adı altında MSQ də yaradılmışdır.

Qeyd etməliyik ki, MSQ-rin əksəriyyəti sahəvi prinsip əsasında yaradılır və konkret ixtisaslaşmaya üstünlük verir.

«Voljsko-Kamskaya» avtomobilqayırma MSQ-də 10 %; kimya istehsalı üzrə «Rusxim» MSQ-də 4 %; qara metallurgiyada «Nosta-trubı-qaz» MSQ-də 6 % əsas istehsal sahələrinin payına düşür.

Bir çox MSQ-lər ixrac yönümlü fəaliyyət göstərirlər. Bəziləri isə xarici tərəfdaşlarla əməkdaşlıq edirlər.

Məsələn, «Uralskie zavodı» Almaniyanın «Simens» konserni ilə yaxından əməkdaşlıq edir.

Hazırda Rusiyada MSQ-rin inkişafı bir neçə istiqamətdə özünü göstərir. Bunlardan:

1. **Bank xoldinqlərinin[1] və alyanslarının** meydana gəlməsi. Bunlar bir çox **maliyyə, ticarət, sığorta, sənaye qurumlarını** özündə birləşdirirlər.

[1] Xoldinq – ing. Başqa kompaniyanın səhm paketinə sahib olan kompaniya.

2. **İstehsal qurumlarının fəaliyyəti** əsas götürülür. Məs.: **RAO «Qazprom», AO «Lukoyl», MAK «Vımpel»** və s.

3. **Ticarət kapitalının sənaye sahələrinə nüfuz etməsi istiqaməti** və s.

7. Müasir şəraitdə TMŞ-lərin fəaliyyətinin xüsusiyyətləri

Yuxarıdakı başlıqlarda verdiyimiz araşdırmalardan aydın olur ki, müasir şəraitdə dünya təsərrüfatındakı və beynəlxalq iqtisadi münasibətlərdəki obyektiv iqtisadi proseslərlə bağlı olaraq TMŞ-lar müəyyən cəhətlər kəsb edirlər.

Onlar çox asanlıqla güclü investisiya və ixtisaslı əmək tələb edən yüksək texnoloji və elmtutumlu sahələrə nüfuz edə bilirlər. Bu isə həmin sahələrdə TMŞ-ların inhisarlaşma meylini artırır. **Son vaxtlar bu beynəlxalq kompaniyaların fəaliyyətindəki əsas cəhətlərdən biri də onların çoxsahəli olmağa üstünlük verməsidir.** Məsələn, İsveçin «Volvo» avtomobil konserni ancaq avtomobil buraxmaqla məşğul deyildir. Öz ölkəsində onun 30-dan çox qız cəmiyyəti (müxtəlif sahələrdə) fəaliyyət göstərir. Bununla yanaşı xarici ölkələrdə də onlarla filialı vardır. Onlar gəmi üçün motorlar, təyyarə mühərrikləri, ərzaq məhsulları, hətta pivə («Pripps») istehsal edirlər.

ABŞ-ın 500 ən böyük TMŞ-sının hər biri orta hesabla 11 sahəni özündə birləşdirir.

Böyük Britaniyanın 100 qabaqcıl sənaye firmasından 96-sı, Almaniyada 78-i, Fransada 84-ü, İtaliyada 90-nı çoxsahəlidir.

Müasir şəraitdə TMŞ-ların fəaliyyətində müqavilə münasibətləri ilə əməliyyatlar aparılması və nüfuz dairəsinin genişlənməsi də artmışdır.

Bunlardan:

1. **Lisenziya**[1] əsasında ticarətin aparılması. Xarici ticarətdə sərbəst idxal və ixrac üçün dövlət tərəfindən TMŞ-lara

[1] Lisenziya – lat. icazə, hüquq. Müəyyən fəaliyyət üçün dövlət orqanlarının xüsusi icazəsi.

xüsusi icazə verilməsi nəzərdə tutulur. 1970-ci illərə nisbətən 1990-cı illərin axırlarına TMŞ-ların lisenziya əsasında həyata keçirdikləri əməliyyatlar 10 dəfə artmışdır.

2. **Françayzinq**[1] müqaviləsi əsasında nisbətən kiçik firmalar böyük nüfuzlu TMŞ-ların adı altında (müqavilə əsasında) alqı-satqı və digər əməliyyatlar həyata keçirirlər.

3. **İdarəçilik və xidmət edilməsi üzrə** də xüsusi müqavilələr bağlanılması mövcuddur. Burada istehsala idarəçilik edilməsi, texniki və mühəndis işlərində məsuliyyət daşımaq, kadrların idarə edilməsi, xaricilərin qəbul edilməsi və işdən azad edilməsi, yerli işçilərin hazırlanması, texnika və xammal alınması, marketinq və maliyyə sistemi üzrə idarəçilik və s. kimi problemlərdə TMŞ-lar hər hansı bir digər sahəyə köməklik edirlər.

4. TMŞ-lar bir çox hallarda hər hansı bir obyektin inşa edilməsini (tam və yaxud müəyyən qismini) öz üzərinə götürür və şərtləndirilmiş vaxtda hazır şəkildə qarşı tərəfə təhvil verirlər.

5. Beynəlxalq bazarın ələ keçirilməsində həyata keçirilən ən yeni formalardan biri də **xaricdə xüsusi investisiya kompaniyaları yaratmaqdan ibarətdir**. TMŞ-lar investisiya kompaniyaları vasitəsi ilə öz qız cəmiyyətlərini və tərəfdaşlarını maliyyələşdirir. Məhz bu cür yanaşma ilə beynəlxalq kompaniyalar Afrikada «Pepsi-Kola» və «Koka-kola» satışını həyata keçirirlər.

6. **TMŞ-lar beynəlxalq əmək bölgüsü** əsasında özlərinin firmadaxili beynəlxalq istehsalını yaratmışdır. Firmadaxili beynəlxalq istehsalın yaradılması TMŞ-lara bir çox üstünlük verir. Bunlardan:

1. İstehsalın beynəlxalq ixtisaslaşması ilə ayrı-ayrı ölkələrin müəyyən güzəştlərindən istifadə edirlər.

2. Xarici investrlər üçün nəzərdə tutulan vergilər və investisiya qoyuluşu sahəsindəki güzəştlərdən səmərəli istifadə etmək imkanı artır.

[1] Françayzinq – müəyyən sahələrdə nüfuzlu firmaların adı altında (fabrik markasında müqavilə əsasında) fəaliyyət göstərmək.

3. Dünya bazarının vəziyyətinə (konyunkturasına) uyğun olaraq öz istehsal proqramını qurmaq və istehsal gücündən səmərəli istifadə etmək imkanı qazanırlar.

4. İnkişaf etməkdə olan ölkələrdə öz nüfuz dairəsini artırmaq üçün qız cəmiyyətlərinin fəaliyyətindən istifadə edirlər. TMŞ-lar öz xarici filialları vasitəsi ilə dünya ixracını artırırlar.

5. TMŞ yerləşən ölkədə mənəvi cəhətdən köhnələn texnologiya və yaxud hər hansı bir məhsulun istifadə dövrünü artırmaq üçün xarici filiallarda həmin məhsulların istehsalı davam etdirilir.

8. TMŞ-lər və innovasiya prosesinin inkişafı

İnnovasiya anlayışı ilk dəfə iqtisadi ədəbiyyata Avstriya və Amerikanın tanınmış iqtisadçısı Yozef Aloiz Şumpeter tərəfindən (1883-1950) gətirilmişdir.

İnnovasiya (ing. -yenilik) dedikdə sadəcə olaraq yenilik deyil, yeni ideyanın yaranmasından, yeni kəşfin, texnoloji yeniliyin yaradılması, onun tətbiqi və səmərəliliyinədək olan bütün proseslərin məcmusu nəzərdə tutulur.

Hər bir yenilik mütləq, nisbi və qismən mənada ifadə olunur.

Mütləq yenilik – konkret olaraq yeniliyi əks etdirir, oxşarı olmayan yenilikdir.

Nisbi yenilik dedikdə hər hansı bir yeniliyin müəyyən müəssisədən sonra digər müəssisədə yeni tətbiq olunması nəzərdə tutulur.

Qismən yenilikdə isə müəyyən texnologiyanın bəzi hissələrinin yeniləşməsi nəzərdə tutulur.

Onu da qeyd etməliyik ki, innovasiya analyışı hər bir sahədə yaradılan yeniliyə aid edilir (istehsalda, elmi-tədqiqat işində, tədris və idarəçilikdə, təşkilatçılıq işində, xərclərə qənaət edilməsinə zəmin yaradan hər bir təkmilləşdirmə işində və s.).

İnnovasiya hər şeydən əvvəl intellektual fəaliyyətin nəticəsi kimi təzahür edir. Ancaq intellektual fəaliyyət tədqiqatın nəticə-

lərini və kəşfləri yeniliyə çevirir. Məhz bu yenilik özündən əvvəlki nümunələrə nisbətən daha yüksək texniki və iqtisadi keyfiyyətlərə, yeni istehlak xüsusiyyətlərinə malik olur. Bu zəncirvari proses bir neçə mərhələdən keçir.

Birinci mərhələ fundamental tədqiqat adlanır. Nəzərdə tutulan problemə dair məlumat toplanması və sistemləşdirilməsi, tələbatın və inkişaf istisqamətinin, perspektiv ideyanın reallaşdırılması məsələləri dəqiqləşdirilir.

Fundamental tədqiqat **nəzəri və əməli hissədən** ibarətdir. Nəzəri tədqiqatda nəzərdə tutulan problem barədə ümumi baxışlar, təsəvvürlər, kəşfiyyat-axtarış işləri aparılır.

Əməli-tətbiqi hissədə isə əvvəlki mərhələnin nəticələrinin dəqiqləşdirilməsi, tətəbiq edilməsi üsullarının seçilməsi və s. cəhətlər müəyyənləşdirilir.

Bu mərhələnin son nəticəsi texniki tapşırıq, təkliflər, təcrübə nümunəsi və s.-dən ibarətdir. İnnovasiya fəaliyyətinin elmi axtarış dövrü (sikl) təcrübə-konstruksiya araşdırma mərhələsi çərçivəsində başa çatır. Məhz bu mərhələdə yeni yaranmış nümunənin, innovasiyanın ilkin maddiləşməsi baş verir. İnnovasiya prosesinin son mərhələsində yeni nümunənin məlumatın mənimsənilməsi və istehlakçılar arasında yayılması həyata keçirilir.

Aydındır ki, müəyyən dövrlər dəyişdikcə daha mürəkkəb yeni texnikalar yaranır. Bu isə elmi-tədqiqat, təcrübə-konstruksiya işlərinin daha da bahalaşmasına səbəb olur. Bu baxımdan TMŞ-ların maliyyə imkanları güclü olduğuna görə dünya iqtisadiyyatındakı innovasiya proseslərinə daha çox təsir edə bilirlər. TMŞ-lar qanunauyğun olaraq elmi-tədqiqat təcrübə konstruksiya işlərinə olan xərcləri artırırlar. Öz növbəsində onların filialları da xaricdə bu sahədə olan fəaliyyətlərini artırırlar.

Ona görə də TMŞ-ların bu sahədə olan strategiyaları **«texnoloji aktivliyin yeni qloballaşması»** adlandırılır.

TMŞ-ların elmi sahədəki əsas fəaliyyətləri aşağıdakı formalarda həyata keçirilir:

- dünya bazarının tələblərinə uyğun olaraq mövcud ənənəvi məmulat növlərinin təkmilləşdirilməsi. Burada materialtutumu, iqtisadiyyat cəhəti, təhlükəsizliyi, davamlılıq və bu kimi keyfiyyət cəhətləri əsas götürülür;

- tamamilə yeni əmtəələrin işlənib yaradılması.
- mövcud texnologiyaların təkmilləşdirilməsi və yeni texnologiyaların yaradılması.

TMK-lardan əlavə elmi-tədqiqat və təcrübə konstruksiya işləri ilə elmtutumlu sahələrdə («riskli» texnologiya sahəsində) kiçik ixtisaslaşdırılmış firmalar (min nəfərədək işçisi olan vençur firmalar) da fəaliyyət göstərirlər. Belə müəssisələr məhdud adda əmtəələr buraxılması üzrə ixtisaslaşırlar.

Məhz polyaroid, kseroks, tranzistor və s. kimi müasir növ məhsullar belə kompaniyalar tərəfindən yaradılmışdır. Belə «vençur» kompaniyalar daha yüksək mənfəət əldə etmək üçün bir çox hallarda öz sirrlərini xarici kompaniyalara satırlar. Bu onlar üçün texnoloji biliklərin satılmasına nisbətən daha az risk tələb edir. Bu firmalar öz gücləri ilə istehsalı tam dəyişlirmək iqtidarında olmadıqları üçün borc kapitalına və yaxud xarici kompaniyalarla şərikli müəssisələr yaradılmasına üstünlük verirlər.

Nisbətən uzunmüddətli tərəfdaşlar tapmağa, məlumat kanallarını genişləndirməyə, elmi-texniki bazanı gücləndirməyə çatışırlar. Bütün bunları maliyyələşdirən hər hansı bir kompaniya onlar üzərində müəyyən nəzarət hüququ qazanır.

Beynəlxalq təcrübədən məlumdur ki, innovasiya fəaliyyətinin təşkilində **innovasiya-texnoloji mərkəzi (İTM) əsas rol oynayır**. İTM-də bir çox kiçik və orta müəssisələri birləşirlər. Bəzən elmi-istehsal servis (xidmət göstərmə) azad iqtisadi zonaları çərçivəsində öz yeni texnologiyalarını yoxlamaq, sınaqdan keçirmək işində dövlət onlara köməklik göstərir.

Elmi, maliyyə və maddi ehtiyatların birləşdirilməsi yolu ilə elmi-tədqiqat-təcrübə-konstruktor üzrə birgə proqram hazırlanır. Bu beynəlxalq elmi-texniki əməkdaşlıq innovasiya texnoloji mərkəzində (İTM) həyata keçirilir.

Beynəlxalq elmi-texniki əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilə bilər:

- yeni texniki ideyanın reallaşdırılması üçün ümumi elmi-tədqiqat mərkəzləri, büro, laboratoriyalar yaradılması, marketinq tədqiqatı, texniki-iqtisadi hesablar aparmaq üçün mütəxəssislər qrupunun təşkili;

- mövcud texnika və texnologiyanın təkmilləşdirilməsi sahəsində birgə təcrübə aparılması;

- istehsalın və əməyin təşkili üzrə dünya təcrübəsinin birgə öyrənilməsi;

- elmi-texniki siyasətin və onun reallaşdırılması üzrə məsləhətlərin əlaqələndirilməsi;

- yüksək ixtisaslaşdırılmış kadrların-heyətin təşkili və s.

Aydındır ki, dünya üzrə innovasiya fəaliyyətinin genişlənməsi ilk növbədə elmtutumlu sahələrin inkişafı ilə bağlıdır. Məhz bu sahələr yeni kəşflərə, ehtiyatlara qənaət edən texnoloji proseslərin tətbiqinə, məmulatların istehlak xüsusiyyətlərinin yaxşılaşmasına əsaslanır.

Ona görə də dünyanın daha qabaqcıl ölkələri elmi-tədqiqat-təcrübə-konstruktor işlərinin inkişafına daha çox vəsait ayırırlar.

Məsələn, son illərin məlumatına görə bu sahəyə büdcədən ayırmalar Yaponiyada – 3 %, ABŞ-da –2,54 %; Fransada –2,34 %; Almaniyada –2,26 %; Böyük Britaniyada –2,05%; Rusiyada – 1 % olmuşdur.

Elmi-tədqiqat bölmələrində yaradılan müəyyən yeniliklər ilk növbədə TMŞ-lar tərəfindən tətbiq edilir. Müəyyən vaxtdan sonra bu yeniliyi inkişaf etməkdə olan ölkələrə satırlar (bu onlar üçün nisbi yenilik adlanır).

Bununla yanaşı bir çox hallarda kiçik müəssisələrin müəyyən ixtiralarını böyük TMŞ-lar alaraq onları kütləvi istehsala tətbiq edirlər. Beləliklə TMŞ-lar yeniliklərin yaradılmasında fəal iştirak etməklə, onların satıcısı kimi də çıxış edirlər.

Qeyd etməliyik ki, ilk təcrübə elmi-tədqiqat laboratoriyası Almaniya və Amerikanın sənayesində XIX əsrin axırlarında yaranmışdır. Almaniyanın BASF firması **1877-ci ildə** sənayedə elmi-tədqiqat laboratoriyası yaratmışdır.

1900-cü ildə isə ABŞ-ın «Ceneral elektrik» şirkəti belə bir laboratoriya yaratmışdır.

Odur ki, hazırda da elmi-tədqiqat işlərinin maliyyələşdirilməsində bu ölkələrdə həmin sahənin inkişafına ayrılan vəsaitin tərkibində xüsusi bölmənin payı artıqdır.

Bəzi ölkələrdə elmi-tədqiqat işlərinin maliyyələşməsində xüsusi bölmənin kompaniyalarının payı (2001)

1	Böyük Britaniya	46,1
2	Almaniya	66,0
3	Kanada	41,9
4	ABŞ	68,3
5	Yaponiya	73,0

TMK-ların elmtutumlu sahələrə və xüsusilə elmi-tədqiqat işlərinə daha çox diqqət verməsi ayrı-ayrı ölkələrin misalında daha aydın gözə çarpır. Bu baxımdan ABŞ-ın bəzi TMŞ-nın iqtisadi göstəricilərini nümayiş etdirmək olar.

ABŞ-ın bəzi TMŞ-larında elmi-tədqiqat işlərinə ayrılan vəsait, mlrd. dollar (2003)

1	Ford Motor Co. Avtomobilqayırma	6,3
2	General Motors Corp. Avtomobilqayırma	6,5
3	IBM İnformasiya texnologiyası (İT)	5,43
4	Pfizer Əczaçılıq	5,7
5	Motorola Elektronika və İT	3,6
6	Intel Elektronika	4,9
7	Cisko İnformasiya texnologiyaları	2,9

Bütövlükdə böyük TMŞ-lar daha çox xərc tələb edən layihələr həyata keçirmək, müxtəlif sahələrin alimlərindən istifadə etmək, eyni vaxtda bir neçə sahədə elmi işlər aparmaq imkanlarına malikdirlər.

9. Azərbaycanda transmilli kompaniyaların fəaliyyəti

1990-cı illərdən sonra Azərbaycan yeni ictimai-iqtisadi sistemə qədəm qoymuşdur. Ölkədə bazar iqtisadiyyatının, açıq iqtisadiyyatın inkişafına zəmin yaranmışdır. Odur ki, Azərbaycanın dünya iqtisadi əlaqələri genişlənmişdir. Ölkənin xarici iqtisadi siyasətində xarici ölkələrin böyük kompaniyalarının xidmətindən istifadə edilməsinə geniş yer verilmişdir.

Beynəlxalq əmək bölgüsündə Azərbaycan neft hasilatı və emalı, kimya sənayesi, elektronika sahəsi, neft maşınqayırma sənayesi, qara və əlvan metallurgiya, tikinti materiallarının istehsalı, meşə və yeyinti sənayesi, kənd təsərrüfatı və digər sahələrinin inkişaf etdiyi bir ərazi kimi mövcuddur.

Azərbaycanda neft və qaz ehtiyatlarından başqa dəmir, sink, molibden filizləri, daş duzu, gips, mərmər, bitum, gil, qızıl, mineral su ehtiyatları və s. mövcuddur.

Aydındır ki, yeni sosial-iqtisadi sistemə keçidlə bağlı olaraq köhnə sistemə xas olan minlərlə müxtəlif müəssisələr öz fəaliyyətini dayandırılmışdır.

Cəmiyyətin artan və dəyişən tələbatını ödəmək üçün bütün sahələrdə və o cümlədən, iqtisadiyyatda əsaslı islahatlar aparılması və iqtisadi ehtiyatların hərəkətə gətirilməsi güclü maliyyə vəsaiti tələb edirdi.

Ona görə də respublikaya xarici kompaniyaların investisiya qoymasına real şərait yaradılmışdır.

Son illərin məlumatına görə Azərbaycanda xarici kapitalı olan 3 mindən artıq şirkət qeydə alınıbdır. Bunlardan 1486 şirkət Türkiyəyə, 190 şirkət ABŞ-a, 273 şirkət Böyük Britaniyaya, 112 şirkət Almaniyaya məxsuslar.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə bu şirkətlərdən 1974-ü 100 % xarici investisiya əsasında fəaliyyət göstərir. 974 şirkət müştərək vəziyyətdə işləyir. Bu şirkətlər Almaniya, Avstriya, Rusiya, Polşa, İran, ABŞ, Böyük Britaniya, İspaniya, İtaliya, Belçika, BƏƏ, Ukrayna, Belarus, İsveç, Danimarka, İsveçrə, Lüksemburq və s. ölkələrin filiallarından ibarətdirlər.

Qeyd etməliyik ki, bütövlükdə Azərbaycanda TMK-ların fəaliyyəti çox geniş bir mövzudur. Ona görə də bu problemin bəzi məqamlarını verməli olacayıq.

Xarici şirkətlərin Azərbaycana gəlməsi əsasən 1994-cü ildən güclənmişdir. Aydındır ki, neft sənayesinin inkişafı ilə bağlı cəlb edilən şirkətlər daha çox olmuşdur. **Bu baxımdan 1994-cü il sentyabr ayının 20-də «Azəri-Çıraq» və «Günəşli» neft yataqlarında** neft çıxarılmasına dair müqavilə imzalanmışdır. Bu müqavilə tarixə «Əsrin müqaviləsi» kimi daxil olmuşdur. Müqavilənin dəyəri 7,4 mlrd. dollar həcmində qiymətləndirilir və 30 il üçün nəzərdə tutulub. Nəzərdə tutulmuş 5 1 mln. ton neftin 49,5 %-i, eləcə də bütün qaz və qaz kondensatları (təxminən 55 mlrd. kub metr) Azərbaycanın payına düşəcəkdir.

İlkin kapital qoyuluşlarında şirkətlərin pay aşağıdakı kimi nəzərdə tutulmuşdur:

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – 20 % və ya 1480 mln. dollar.
2. British Petroleum (Böyük Britaniya) 17,12 % və ya 1267 min dollar.
3. Amoso (ABŞ) – 17,01 % və ya 1258 mln. dollar.
4. Unocal (ABŞ) – 11,2 % və ya 828 mln. dollar.
5. LukOyl (Rusiya) – 10 % və ya 740 mln. dollar.
6. Pennzoil (ABŞ) – 9,82 % və ya 726 mln. dollar.
7. Statoil (Norveç) – 8,563 % və ya 633 mln. dollar.
8. McDermott Internasional (ABŞ) – 2,45 % və ya 181 mln. dollar.
9. Ramco (Şotlandiya) – 2,08 % və ya 154 mln. dollar.
10. Turkish State Oil Company (və ya TRAO Türkiyə) – 1,75 % və ya 129 mln. dollar.

Sonralar Delta-Nimir (Səudiyyə Ərəbistanı) Unocal şirkətinin payının 15 %-ni almaqla bu konsorsiuma qoşuldu. Halhazırda Unocal-ın payı 9,52 % və ya 704 mln. dollar, Delta-Nimir şirkətinin payı isə 1.68 % və ya 124 mln. dollar təşkil edir.

Bundan əlavə Azərbaycan Dövlət Neft Şirkəti öz payının 5 %-ni Exxon (ABŞ) şirkətinə və 5 %-ni isə Turkish State Oil Company (Türkiyə) TMK-na, Pennzoil isə öz payının 5 %-ni Yaponiyanın «Itochu» şirkətinə satmışdır.

1995-ci ilin 10 noyabrında «Qarabağ» yatağının istismarına dair müqavilə imzalanmışdır. Burada Pennzoil (ABŞ), LukOyl (Rusiya), AGIP (İtaliya) və ARDTŞ TMK-ları iştirak etmişlər. Kapital qoyuluşu: **1,7 mlrd. dollar**. Proqnozlaşdırılan neft ehtiyatları 52 mln. tondan 85 mln. tonadək, qaz ehtiyatı 30 mlrd. kub metr nəzərdə tutulmuşdur.

1996-cı ilin 4 iyun tarixində «Şahdəniz» yatağının istismarına dair BP/Statoil, LukOyl, Elf Aciten, İran Neft Şirkəti (OIEK) və ARDNŞ arasında müqavilə imzalanmışdır. Bu layihədə isə 4 mlrd. dollar investisiya qoyulması nəzərdə tutulubdur. Həmin ildə yenə «Dan ulduzu» və «Əşrəfi» yataqlarının istismarı üzrə 2 mlrd. dollar həcmində kapital qoyuluşunu nəzərdə tutan Amoco, Unocal, Itochu, Delta-Nimir və ARDNŞ arasında müqavilə imzalanmışdır. **1997-ci ildə «Lənkəran-dəniz»** və «Talış-dəniz» yataqlarının istismarı üzrə 2 mlrd. dollar həcmində investisiya qoyuluşu planlaşdırılan Elf-Aciten, Total və ARDNŞ arasında müqavilə imzalanmışdır.

Neft yataqlarının istismarı ilə yanaşı hasil olunan neftin dünya bazarına çıxarılması üçün iri neft boru kəmərinin tikilməsinə də ehtiyac var idi. Bu baxımdan bu sahəyə də investisiya qoyuluşunu təmin etmək məqsədilə Azərbaycan hökuməti iri şirkətlərin respublikaya gəlməsinə şərait yaratmışdır.

Ən iri transmilli şirkətlərin investisiya qoyacaqları əsas layihələrdən biri də **Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkiliş** proyekti olmuşdur. bu kəmərin çəkilişinə dair deklarasiya **1998-ci** ilin oktyabrında Ankarada 3 dövlət arasında imzalanmışdır. Bu əsas boru kəmərinin tikintisini həyata keçirmək

üçün BTS şirkəti yaradılmışdır. Bu şirkətin əsas səhmdarları aşağıdakı iri şirkətlərdir:

ARDNŞ - 25 %;
VR - 30, 1 %;
Unocal – 8,9 %;
Statoil – 8,71 %;
TRAO – 6,53;
Eni – 5 %;
Total – 5 %;
Itochu – 3,4 %;
Inpex – 2,5 %;
Conoko Philips – 2,5 %;
Amerada Hess – 2,36 %.

2004-cü il fevralın 3-də 1,760 km-lik Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi üzrə 2,6 mlrd dollarlıq 4 əsas sənəd imzalanmışdır. Bu layihənin əsas borc verənlərinin siyahısı aşağıdakı kimidir:

British Petroleum	566 mln. dollar
Avropa Yenidənqurma və İnkişaf Bankı	125 mln. dollar
Beynəlxalq Maliyyə Korporasiyası	125 mln. dollar
Statoil	197 mln. dollar
Conoko Philips	50 mln. dollar
Total	110 mln. dollar
CBIC (Yaponiya)	480 mln. dollar
Bank sindikatları, ixrac və risk sığorta şirkətləri	936 mln. dollar

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmər nin tikintisində 3 ölkə ərazisində 21000 nəfərdən çox insan işləyir. Bunun 4000 nəfəri Azərbaycan ərazisinin payına düşür ki, onun da 80 %-ni azərbaycanlılar təşkil edir.

Neft sahəsində Azərbaycan iqtisadiyyatında ən çox investisiya payı olan transmilli şirkətlərdən biri British Petroleum (VR) şirkətidir. O, Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərir.

Onun məqsədi və maraq dairəsi Xəzər dənizindəki neft və qaz yataqlarının istismara verilməsi, hasilat və emal sahələrini inkişaf etdirmək və ixrac boru kəmərlərinin tikintisini və inkişafını təşkil etməkdən ibarətdir. «Azəri-Çıraq-Günəşli» və «Şahdəniz» hasilat razılaşmasından əlavə VR «İnam» və «Alov» hasilat yataqlarının istismarında da öz investisiya payı ilə çıxış edir. «İnam» yatağında VR-nin payı 25 % (Shell 25 %, ARDNŞ 50 %), «Alov» (buraya «Araz», «Alov» və «Şərq» yataqları daxildir) yatağının istismarında payı 15 %-dir (ARDNŞ 40 %, Exxon Mobil 15 %, Statoil 15 %, TRAO 10 %, EnCana 5 %).

VR-nin yerinə yetirdikləri öhdəliklər yalnız Azərbaycanda 4 yataq üzrə investisiya qoyuluşunu təmin etməkdən ibarət deyil. Bunlarla yanaşı VR Xırdalan ərazisində 3 istixanın və tikiş emalatxanasının inşasına 72407 dollar həcmində vəsait ayrılıb. Həmçinin Naxçıvan ərazisində məktəb tikintisinə də investisiya ayırıb. Bununla yanaşı, VR hər il işçi yığımı elan edir. Bütün bunlar iri transmilli şirkət olan «British Petroleum»un Azərbaycandakı fəaliyyətinin üstün cəhətlərini əks etdirir.

Azərbaycan iqtisadiyyatında ən vacib yerlərdən birini Türkiyənin şirkətləri tutur. Belə ki, 2000-ci ilin sonuna Azərbaycan iqtisadiyyatına 1327 Türkiyə şirkəti tərəfindən 1,5 mlrd. dollar həcmində investisiya qoyulub. «Atilla Doğan Petrol», «Pet Holdinq», «Efes Senaye Yatırım», «Teletaş», «Türksell», «Bay Holdinq», «DHT İnşaat», «Ahsel İnşaat», «TML-Borova», «Rumeli Holdinq», «Ram Diş Ticaret», «Azersun Holdinq», «Turan Hazinedaroğlu-Öztaş» və s. bu kimi türk şirkətləri inşaat, neft, nəqliyyat, rabitə və telekommunikasiya və s. sahələrdə fəaliyyət göstərirlər.

Respublikamızın inşaat sahəsinə Transmilli şirkətlər daha çox investisiya qoyurlar. Bu sahədə öndə gedən şirkətlərdən biri «Qaradağ» Sement ATSC-dir. O, Azərbaycanda sement və klinker istehsal edən yeganə müəssisədir. Şirkət yerli və beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli məhsulları ilə ölkədaxili tələbatın əksər hissəsini ödəyir. 1999-cu ildə İsveçrənin iri «Holsim» transmilli şirkəti tərəfindən özəlləşdirilmiş və Qarabağ Sement zavodunun bazasında yaradılmış şirkət Azərbaycan bazarında özünəməxsus yer tutmuşdur. Hal-hazırda şirkətin istehsal etdiyi sementdən irimiqyaslı inşaat işlərində, habelə böyük enerji layihələrində istifadə olunur.

Plastmass borular, lambrin istehsalı ilə məşğul olan NST-2000 şirkətinin fəaliyyəti türk-alman şirkəti «R-Plast»-ın investisiyaları əsasında həyata keçirilir. Bu şirkətə əki avadanlıqlar Almaniya, Türkiyə və Böyük Britaniyadan gətirilibdir. xammal isə Sinqapur, Malayziya, Cənubi Koreya, Rusiya, Türkiyə və İrandan tədarük edilir. Bu şirkətin məhsulları nəinki daxili bazara, həmçinin xarici bazara, yəni Rusiya (xüsusən Moskva və Ufa), Qazaxıstan, Özbəkistan, Gürcüstan və Türkiyəyə də çıxarılır.

Azərbaycan hökumətinin məlumatına görə ölkə ərazisində Rusiya kapitalının iştirakı ilə 350-dən çox müəssisə və təşkilat fəaliyyət göstərir ki, onun 116-sı iri Rusiya TMŞ-nın filial və nümayəndəlikləridir.

Fransanın neft şirkəti olan «Total» və pivə istehsalı ilə məşğul olan transmilli şirkəti «Pierre Castel» şirkətləri də Azərbaycanda çox yaxşı tanınırlar. Bunlardan əlavə Fransanın Azərbaycanın digər sənaye sahələri, xüsusən Gəncə maşınqayırma zavodunu bərpa edib orada «Renault» markalı kiçik tonnajlı yük maşınları istehsal etmək məqsədi ilə «Renault» TMŞ-nın investisiya qoyması nəzərdə tutulmuşdur.

Bundan əlavə Almaniyanın «Vokswagen» şirkəti də Gəncə avtomobil zavoduna investisiya qoymaq marağındadır. Bu zavoda Yaponiyanın «Toyota» şirkətinin də marağı vardır.

Xaçmaz rayonunda İtaliyanın «Ticelat» şirkəti makaron fabriki açmaq niyyətindədirlər. Bu proyektin dəyəri 2, 250 mln. avro həcmində qiymətləndirilibdir.

Ayrı-ayrı neft yataqlarının işlənməsinə dair 1994-2000-ci illər arasında xarici şirkətlərlə bağlanmış müqavilələr barədə qısa məlumat verək:

1. **Azəri-Çıraq-Günəşli neft yataqlarının** işlənməsi barədə müqavilə (29.09.1994-cü il). Proqnoza görə cəmi investisiya

qoyuluşu – 11,5 mlrd. dollar. **Proqnoza görə neft ehtiyatı** – 630 mln. tondur.

2. **Qarabağ neft yatağının** işlənməsi üzrə müqavilə (10.11.1995-ci il). Proqnoza görə neft ehtiyatı – 50-100 mln. tondur.

3. **Şah-dəniz yatağının** işlənməsi üzrə müqavilə (4.06.1996-cı il). Proqnoza görə 4,0 mlrd. dollar investisiya nəzərdə tutulmuşdur. Proqnoza görə 100 mln. ton neft, 750 mlrd. kub metr qaz çıxarılmalıdır.

4. **Dan Ulduzu, Əşrəfi neft yataqlarının** işlənməsi üzrə müqavilə (14.12.1996-cı il). Proqnoza görə 100 mln. ton neft ehtiyatı vardır.

5. **Lənkəran-dəniz, Talış-dəniz yataqlarının** işlənməsi üzrə müqavilə (13.01.1997-ci il). Proqnozlaşdırılmış investisiya qoyuluşu 1,54 mlrd. dollar, proqnozlaşdırılmış neft ehtiyatı – 100 mln. tondur.

6. **Yalama (D-222)** neft yatağının işlənməsi üzrə müqavilə (3.07.1997-ci il). Proqnoza görə investisiya qoyuluşu – 1,5 mlrd. dollar, neft ehtiyatı 100 mln. tondur.

7. **Oğuz neft yatağının** işlənməsinə dair müqavilə (1.08.1997-ci il). Proqnoza görə investisiya qoyuluşu – 800 mln. dollar, neft ehtiyatı – 75 mln. tondur.

8. **Abşeron neft yatağının** işlənməsi üzrə müqavilə (1.08.1997-ci il). Proqnoza görə investisiya qoyuluşu - 3,5 mlrd. dollar, neft ehtiyatı – 150-300 mln. tondur.

9. **Naxçıvan neft yatağının** işlənməsinə dair müqavilə (1.08.1997-ci il). Proqnoza görə investisiya qoyuluşu – 5,0 mlrd. dollar, neft ehtiyatı – 75 mln. tondur.

10. **Kürdaşı neft yatağının** işlənməsinə dair müqavilə (2.06.1998-ci il). Proqnoza görə investisiya qoyuluşu – 2,0 mlrd. dollar, neft ehtiyatı – 90-120 mln. tondur.

11. **Cənubi-Qərbi Qobustan neft yatağının** işlənməsinə dair müqavilə (2.06.1998-ci il). Proqnoza görə investisiya qoyuluşu – 250,0 mln. dollar, neft ehtiyatı – 30-60 mln. tondur.

12. **İnam neft yatağının** işlənməsinə dair müqavilə (21.07.1998-ci il). Proqnoza görə investisiya qoyuluşu – 3,75 mlrd. dollar, neft ehtiyatı – 150-250 mln. tondur.

13. **Muradxanlı neft yatağının** işlənməsinə dair müqavilə (21.07.1998-ci il). Proqnoza görə investisiya qoyuluşu – 700 mln. dollar, neft ehtiyatı – 50-80 mln. tondur.

14. **Alov, Araz, Şərq neft yataqlarının** işlənməsinə dair müqavilə (21.07.1998-ci il). Proqnoza görə investisiya qoyuluşu – 9,0 mlrd. dollar, neft ehtiyatı – 300 mln. tondur.

15. **Kürsəngi, Qarabağlı neft yataqlarının** işlənməsinə dair müqavilə (15.12.1998-ci il). Proqnoza görə investisiya qoyuluşu – 800 mln. dollar, neft ehtiyatı – 30-80 mln tondur.

16. **Yanan-Tava, Atəşgah, Muğan-dəniz neft yatağının** işlənməsinə dair müqavilə (25.12.1998-ci il). Proqnoza görə investisiya qoyuluşu – 2,3 mlrd. dollar, neft ehtiyatı – 100 mln. tondur.

17. **Savalan, Dalğa, Lerik-dəniz, Cənub neft yataqlarının** işlənməsi üzrə müqavilə (27.04.1999-cu il). Proqnoza görə investisiya qoyuluşu – 4,5 mlrd. dollar, neft ehtiyatı – 100-200 mln. tondur.

18. **Zəfər, Məşəl neft yataqlarının** işlənməsi üzrə müqavilə (27.04.1999-cu il). Proqnoza görə investisiya qoyuluşu – 5,0 mlrd. dollar, neft ehtiyatı – 120-150 mln. tondur.

19. **Padar neft yatağının** işlənməsi üzrə müqavilə (27.04.1999-cu il). Proqnoza görə investisiya qoyuluşu – 400 mln. dollar, neft ehtiyatı – 120-150 mln. tondur.

20. **Mişovdağ-Kələməddin neft yatağının** işlənməsi üzrə müqavilə (12.09.2000-ci il).

Qeyd etməliyik ki, bu müqavilələr üzrə göstərilən neft yataqlarının işlənməsində müəyyən problemlər də yarana bilir, bəzi ləngimə halları, yeni yanaşma meylləri də baş verə bilir. Lakin bütövlükdə Azərbaycanın iqtisadi inkişafında xarici TMŞ-lar çox güclü rol oynayırlar.

Yuxarıda qeyd etdiyimiz kimi xarici TMŞ-lar bütün digər sahələrdə də fəaliyyət göstərirlər.

Ümumi gəlirin həcminə görə 50 ən böyük TMŞ və TMB-lar (2004)

Sıra №-si	Şirkət	Ölkə	İxtisaslaşma sahəsi	Bazar qiymətləri ilə cəmi kapitalı, mlrd.dol.
1	General Elektric	ABŞ	Sənaye konqlomeratı	299,3
2	Microsoft	ABŞ	Proqram təminatı və xidmət	271,9
3	Exxon-Mobil	ABŞ	Neft-qaz	263,9
4	Pfizer	ABŞ	Əczaçılıq və biotexnologiya	261,6
5	Citigroup	ABŞ	Banklar	259,2
6	Wal Mart Stores	ABŞ	Pərakəndə satış	258,9
7	American International Group	ABŞ	Sığorta işi	183,7
8	Intel	ABŞ	Kompüter, İT avadanlıq	180,0
9	BP	Britaniya	Neft-qaz	174,6
10	HSBC	Britaniya	Banklar	163,6
11	Cisco Systems	ABŞ	Kompüter, İT avadanlıq	162,1
12	Vodafone Group	Britaniya	Rabitə xidməti	159,2
13	Royal Dutch /Shell	Niderland/ Britaniya	Neft-qaz	158,8
14	International Business Machines	ABŞ	Proqram təminatı və xidmət	157,0
15	Johnson & Johnson	ABŞ	Əczaçılıq və biotexnologiya	149,0
16	Berkshire Hathway	ABŞ	Sığorta işi	140,1
17	Procter & Gamble	ABŞ	Gigiyena məhsulu	135,1

18	Toyota Motor	Yaponiya	Atomobilqayırma və komplektləşdirmə	128,7
19	Coca Cola	ABŞ	Spirtli içkilər	119,2
20	Bank of America	ABŞ	Banklar	118,5
21	Novartis	İsveçrə	Əczaçılıq və biotexnologiya	115,8
22	Glaxo-Smithkline	Britaniya	Əczaçılıq və biotexnologiya	115,5
23	Total	Fransa	Neft-qaz	115,4
24	Altria	ABŞ	Tütün məlumatı	109,3
25	NTT Docomo	Yaponiya	Rabitə xidməti	102,7
26	Verizon Communications	ABŞ	Rabitə xidməti	101,9
27	Nestle	İsveçrə	Ərzaq istehsalı və emalı	101,0
28	Merck	ABŞ	Əczaçılıq və biotexnologiya	97,2
29	Wells Fargo	ABŞ	Banklar	97,1
30	Nokia	Finlyandiya	Kompüter, İT avadanlığı	96,4
31	Chevron Texaco	ABŞ	Neft-qaz	90,6
32	Roche	İsveçrə	Əczaçılıq və biotexnologiya	89,6
33	Nippon Telegraph & Telephone	Yaponiya	Rabitə xidməti	89,4
34	Royal Bank of Scotland	Britaniya	Banklar	88,8
35	PepsiCo	ABŞ	Spirtli içkilər	87,7
36	Dell	ABŞ	Kompüter, İT avdanlığı	86,4

37	UBS	İsveçrə	Banklar	86,0
38	JP Morgan Chase	ABŞ	Banklar	85,4
39	Home Depot	ABŞ	Pərakəndə satış	84,5
40	Deutche Telecom	Almaniya	Rabitə xidməti	79,8
41	SBC Communications	ABŞ	Rabitə xidməti	79,6
42	Eni	İtaliya	Neft-qaz	77,0
43	AstraZeneca	Britaniya	Əczaçılıq və biotexnologiya	76,9
44	Amgen	ABŞ	Əczaçılıq və biotexnologiya	75,6
45	Samsung Electronics	C.Koreya	Elektron və elektrik avadanlıqları	75,1
46	Time Warner	ABŞ	Kütləvi informasiya vəsaitləri və məşquliyyət	74,1
47	Telefonica	İspaniya	Rabitə xidməti	74,0
48	Lilly (Eli)	ABŞ	Əczaçılıq və biotexnologiya	73,6
49	Fannie Mae	ABŞ	İxtisaslaş. mal. xidməti	72,6
50	Hewlett-Packard		Kompüter, İT avadanlığı	64,3

VI FƏSİL
DÜNYA İQTİSADİYYATI VƏ BEYNƏLXALQ İQTİSADİ İNTEQRASİYA BİRLİKLƏRİNİN YARANMASI

1. *İqtisadi inteqrasiyanın mahiyyəti. Ərazi üzrə iqtisadi inteqrasiya yaradılmasının obyektiv əsasları.*
2. *İnteqrasiya proseslərinin təkamülü. Regional inteqrasiyanın əsas formaları.*
3. *Avropa dövlətləri arasında iqtisadi inteqrasiya birliyi yaradılmasının əsas tarixi, siyasi və iqtisadi tərəfləri.*
4. *Avropa iqtisadi birliyi üzrə Roma müqaviləs..*
5. *Aİ-nin inkişaf mərhələləri.*
6. *Aİ-nin təşkilati quruluşu.*
7. *Aİ-nin maliyyə sistemi.*
8. *Şimali Amerika azad ticarət zonası (NAFTA).*
9. *Cənubi Amerika ölkələrinin iqtisadi inteqrasiyası.*
10. *Cənub-şərqi Asiya ölkələri Birliyi (ASEAN).*
11. *Asiya-Sakit okean iqtisadi əməkdaşlığı (ATES).*
12. *Afrikada inteqrasiya prosesinin inkişafı.*

1. İqtisadi inteqrasiyanın mahiyyəti. Ərazi üzrə iqtisadi inteqrasiya yaradılmasının obyektiv əsasları

XX əsrin ikinci yarısından sənaye ölkələrinin sürətli inkişafı nəticəsində beynəlxalq nəqliyyat və kommunikasiya vasitələrinin təkmilləşdirilməsi ilə beynəlxalq ticarətin inkişafında güclü keyfiyyət dəyişiklikləri baş vermişdir. Daha doğrusu beynəlxalq ticarət müxtəlif istehsal amillərinin (kapital, işçi qüvvəsi, texnologiya və s.) beynəlxalq hərəkəti ilə daha da tamamlanırdı. Nəticədə hazır əmtəələrin ixracı ilə yanaşı bütün istehsal amillərinin xaricə axması imkanı və yerləşdirilməsi genişlənmiş və ölkələrarası fəaliyyət artmışdır.

Bu iqtisadi fəaliyyət birliyi hər şeydən əvvəl müxtəlif ərazilərin deyil, ancaq eyni ərazinin dövlətləri arasında yaranır. Burada «Regional» və yaxud ərazi anlayışı sadəcə olaraq coğrafi sərhəddi göstərmir. Eyni ərazinin dövlətləri istər-istəməz sərhəd yaxınlığı ilə yanaşı müəyyən tarixi ümumilik, oxşarlıq, ənənəvilik, təsərrüfat-mədəni eyniliyi, demoqrafik quruluş və s. kimi ümumi cəhətlərlə səciyyələnirlər. Bununla yanaşı:

1. İqtisadi birliyə qoşulan dövlətlər hər şeydən əvvəl iqtisadi inkişaf baxımından yaxın olmalıdırlar.

2. Bu ölkələr ümumi sərhəddə malik olmaqla tarixən onların arasında sağlam iqtisadi münasibətlər mövcud olmalıdır.

3. Hər bir qrup ölkələrdə yaranan iqtisadi problem ümumi birliyin gücü ilə həll olunmalıdır və s.

Beləliklə vaxt keçdikcə beynəlxalq miqyasda təsərrüfat həyatında beynəlmiləlləşmə prosesi güclənmişdir.

Təsərrüfat həyatının beynəlmiləlləşməsində əsas mərhələlərdən biri də **inteqrasiya prosesidir. İnteqrasiya latın sözü olub «qovuşma», «çulğaşma», «birləşmə» deməkdir**. Lakin aydırdır ki, burada sadəcə birləşmə deyil, **iqtisadi fəaliyyətlərin qarşılıqlı, razılaşdırılmış birləşdirilməsi nəzərdə tutulur. Ərazi üzrə iqtisadi inteqrasiya dedikdə ən ümumi mənada** ayrı-ayrı **ölkələrin** təsərrüfat həyatının **tədricən birləşməsi prosesi** nəzərdə tutulur. Bu cür birləşmə nəticəsində yeni bütöv təsərrüfat mexanizmi formalaşır və beynəlxalq regional kompleks yaranır. Bu regional komplekslər dünya iqtisadiyyatının və eləcə də BİM-in real subyektinə çevrilirlər. Qeyd etməliyik ki, istər dünya iqtisadiyyatının inkişafında və istərsə də BİM-in genişlənməsində inteqrasiya prosesi daha hərtərəfli və keyfiyyət cəhətləri ilə fərqlənir. Burada sadəcə olaraq məhsulun artması deyil, xalqlar arasındakı hərtərəfli mübadilə münəsibətləri, geniş ünsiyyət, vahid məkan psixologiyası yaranır. **İqtisadi birlik, mədəni birlik, siyasi birlik fəlsəfəsi aşılanır**.

Dünya iqtisadiyyatında qloballaşma genişləndikcə təsərrüfat həyatında baş verən qarşılıqlı proseslər də artır. Belə şəraitdə milli dövlətlər bir çox hallarda öz mənafelərinin ödənilməsini dünya bazarı vasitəsilə həyata keçirməyə üstünlük verirlər.

Ayrı-ayrı müəssisə və dövlətlər məhsul satış və xammal mənbələri uğrunda gedən rəqabətdə bir-biri ilə maddi və maliyyə baxımından öz qüvvələrini birləşdirməklə bir çox əlavə xərclərdən azad olur və birgə qüvvə ilə rəqabətə girmək imkanı əldə edirlər. **Beləliklə milli dövlət mənafei regional mənafeyə çevrilir. Buradan da dünya təsərrüfatındakı qloballaşma prosesi regionlaşma prosesi ilə tamamlanmış olur.** Adətən inteqrasiya prosesi az və ya çox mənada qarşılıqlı ticarətin liberallaşdırılması ilə başlanır. Bu hal əmtəələrin, xidmətlərin və kapitalın hərəkətinin məhdudlaşdırılmasını aradan qaldırır. Tədricən vahid iqtisadi, hüquqi, informasiya məkanı yaranır. Buradan da yeni keyfiyyətli beynəlxalq iqtisadi münasibətlər əmələ gəlir. Qeyd etməliyik ki, regional inteqrasiya bir çox əlamətləri ilə dövlətlərarası digər əlaqə və formalardan fərqlənir.

Beləki: 1. İnteqrasiyaya daxil olan hər bir ölkə öz iqtisadi siyasətlərində müəyyən razılığa gəlirlər.

2. Onlar öz milli qanunvericiliklərini, norma və standartlarını uyğunlaşdırırlar, vahid hala salırlar.

3. Region daxilində istehsal prosesində vahid texnologiya mövcud olur.

4. İstehsalda, elm və texnikada beynəlxalq ixtisaslaşdırma və kooperasiyanın inkişafına zəmin yaranır.

5. İnteqrasiya prosesinin tənzimlənməsi məqsədilə vahid idarəçilik orqanları yaradılır.

Beləliklə inteqrasiya əmtəə istehsalçılarına bir tərəfdən daha təminatlı xammal, maliyyə, əmək və elmi ehtiyatlardan istifadə etmək imkanı verir, digər tərəfdən isə daha böyük bazar üçün əmtəə istehsal etməyə zəmin yaradır.

Bir çox alimlər 1990-cı illəri inteqrasiya prosesinin yüksək həddi, BİM-də isə regionlaşmanın intensivləşməsi dövrü adlandırırlar. Bu inteqrasiyalaşma 2 formada təzahür edir: **kəmiyyət və keyfiyyət baxımından**.

Kəmiyyət baxımından son onilliklərdə makroregionçuluğun daha geniş xarakter alması, əvvəlki müvafiq razılaşmaların təzələnməsi və sairəni qeyd etmək olar.

Keyfiyyət baxımından dərininə regional təsərrüfatçılığın artması, inteqrasiyanın daha yetkin formalarından istifadə edilməsi cəhətləri diqqəti cəlb edir.

Onu da qeyd etməliyik ki, son onilliyin əsas cəhətlərindən biri də ondan ibarətdir ki, iri inteqrasiya birlikləri arasında da əməkdaşlıq barədə müəyyən razılaşmalar, müqavilələr həyata keçirilir. Məsələn, Avropa İttifaqı ilə Latın Amerikası ümumi bazarı ölkələri (Cənub konusu - Merkosur) arasındakı razılığa əsasən tədricən Cənub-Transatlantik azad ticarət zonası formalaşması nəzərdə tutulur. Bu artıq **meqaregional** inteqrasiya hesab edilir. ABŞ bu razılığa xüsusi maraq göstərir.

1995-ci ildən başlayaraq yeni transatlantik bazarı yaradılması istiqamətində ABŞ ilə Aİ arasında bir çox rəsmi sənədlər imzalanmışdır.

Hazırda Elmi-Texniki İnqilabın transatlantik azad ticarət zonasına (TAFTA) çevrilməsi barədə rəsmi söhbətlər gedir (yəni transatlantik azad ticarət zonası dedikdə məhz elmi-texniki inqilab nəzərdə tutulmalıdır). Odur ki, hətta **İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı** ölkələrinin də TAFTA-nın tərkibinə daxil olması və eləcə də TAFTA-nın Asiya-Sakit okean əməkdaşlığı ilə (ATES) birləşdirilməsi ideyası da gündəlikdə dayanır.

Bütün bunlarla yanaşı ümumamerika azad ticarət zonası yaradılması, Şimali və Cənubi Afrikanın birləşdirilməsi ideyası da inteqrasiya proseslərinin dərinləşməsinin bariz nümunəsi kimi diqqəti cəlb edir.

Buradan da **qloballaşma** və yaxud **regional** inteqrasiya probleminin hansının qəbul edilməsi iqtisadçıları və siyasətçiləri düşündürməyə bilməz. **Beləliklə regional iqtisadi inteqrasiya kompleksləri qloballaşmanın çox zəruri bir elementi kimi çıxış edirlər.**

Odur ki, hazırda regional inteqrasiya prosesi demək olar ki, bütün qitələr üçün ən xarakterik bir cəhət olmuşdur. Çoxlu sayda ticarət-iqtisadi qruplaşmaları yaranır. Ümumdünya

Ticarət Təşkilatının məlumatına görə hazırda 134-dən artıq regional ticarət-iqtisadi razılaşması real olaraq fəaliyyət göstərir ki, bunun da 90-nı 1995-ci ildən sonra yaradılmışdır.

Belə nəticəyə gəlmək olur ki, milli təsərrüfatların iqtisadi əlaqələrinin və əmək bölgüsünün inkişafında inteqrasiya obyektiv zəruri bir prosesdir. İnteqrasiya yolu ilə xarici iqtisadi mübadilədən tutmuş istehsal dairəsi də daxil olmaqla milli təsərrüfatların yaxından qovuşması və ərazilər üzrə təsərrüfat proseslərinin əmələ gəlməsinə imkan yaranır.

İqtisadi inteqrasiya yaranması prosesi mürəkkəb və ziddiyyətli xarakterə malikdir. Çünki, o bir çox iqtisadi və siyasi səbəblərdən irəli gəlir.

Məhsuldar qüvvələrin sürətli inkişafı onun milli təsərrüfat çərçivəsindən kənara çıxması, iqtisadi və siyasi amillərin nisbətinin tez-tez dəyişməsi inteqrasiya prosesini artırmışdır. **Beynəlxalq iqtisadi inteqrasiya ərazi üzrə yaranır və bir neçə formada təzahür edir.** İnkişaf etmiş sənaye ölkələrində bu proses dövlətlərarası və mikrosəviyyə olan müəssisələrarası (xarici şirkətlərin investisiyası əsasında) səviyyədə yaranır.

İnteqrasiya prosesi bura daxil olan hər bir ölkə üçün əlverişli şərtlər yaradır. Bunlardan:

1. İnteqrasiya əməkdaşlığı bu qruplaşma daxilində maliyyə, material, əmək, yeni texnologiya və digər ehtiyatların hərəkətinə zəmin yaradır.
2. Bütün istiqamətlərdə əməkdaşlığı genişləndirir.
3. İqtisadi rəqabətdə müəyyən üstünlüyə nail olmaq imkanı verir.

2. İnteqrasiya proseslərinin təkamülü. Regional inteqrasiyanın əsas formaları

Başqa iqtisadi hadisə və proseslər kimi iqtisadi inteqrasiya da daimi hərəkətdə və dəyişilməkdədir. Hər bir inteqrasiya qruplaşmasının iqtisadi modeli uzun tarixi bir prosesin süzgəcindən keçir. Təsərrüfat kompleksini formalaşdıran ayrı-ayrı

ünsürlərin nisbəti və onların qarşılıqlı əlaqələri müəyyənləşdirilir. Odur ki, hər bir regional inteqrasiya öz növbəsində **unikaldır** və onun təcrübəsinin mexaniki qəbul edilməsi düzgün deyildir. Bütün bunlarla yanaşı bir çox ticarət-iqtisadi qruplaşmalarının fəaliyyətinin müqayisəli təhlili göstərir ki, regional iqtisadi inteqrasiyaların inkişafı müəyyən qanunauyğunluqlara əsaslanır.

Hər bir inteqrasiya prosesi müəyyən mərhələlərdən keçir, hər mərhələnin özünəməxsus səciyyəvi cəhətləri, intensivlik dərəcəsi, dərinliyi, miqyası və s. vardır.

İnteqrasiya prosesi də digər proseslər kimi sadədən daha mürəkkəbə doğru inkişaf edir. İnteqrasiya prosesinin klassik təsnifatını Amerika alimi B.Balaşi vermişdir. Balaşi ilk əvvəl əmkdaşlıqla inteqrasiyanı bir-birindən fərqləndirmişdir. O, göstərirdi ki, **əməkdaşlıq fəaliyyətində müxtəlif ayrı-seçkiliklər azaldılır. İnteqrasiya prosesində isə ümumiyyətlə hər cür ayrı-seçkilik aradan qaldırılır.** B.Balaşi inteqrasiyanın 5 formasını (və yaxud beş mərhələ təşkil etməsini) fərqləndirmişdir. Hər bir forma haqqında ayrıca müqavilə-razılaşma aparılır.

Bunlar aşağıdakılardır:

- Azad ticarət zonası;
- Gömrük ittifaqı;
- Ümumi bazar;
- İqtisadi və valyuta ittifaqı;
- Tam iqtisadi (siyasi) inteqrasiya. Hər bir formanı nisbətən təfsilatı ilə şərh edək.

1. **İqtisadi inteqrasiyanın ən sadə forması «azad ticarət zonası» hesab edilir.** Bu birliyin üzvü olan ölkələr gömrük tariflərini, ticarət məhdudiyyətlərini ləğv edirlər. Bura daxil olmayan üçüncü dövlət üçün özləri müstəqil siyasət yeridirlər. İnteqrasiyanın belə forması Avropa Azad Ticarət Birliyi (AATB), Şimali Amerika Azad Ticarət Zonası (NAFTA), Cənub-şərqi Asiya (ASEAN) qruplaşması çərçivəsində həyata keçirilir.

2. **İqtisadi inteqrasiyanın ikinci əsas forması «Gömrük İdtifaqı» hesab olur**. Azad ticarət zonasından fərqi ondan ibarətdir ki, burada ancaq tarif dərəcələri və məhdudiyyətlər ləğv edilmir.

Həm də üçüncü ölkəyə münasibətdə vahid siyasət aparırlar. ÜTT-nin XXIV-cü bəndinə əsasən kömrük ittifaqı gömrük ərazilərini birləşdirir –azaldır. Daxildə gömrük xidməti ləğv edilir, onların vəzifəsi vahid gömrük ərazisinə verilir. Məsələn Aİ-də 1968-ci ildən belə qayda tətbiq edilir. Eləcə də Cənub konusu ümumi bazarında (Latın Amerikasında - MERKOSUR), MDB-nin beş ölkəsində (Rusiya, Belorusiya, Qazaxıstan Qırğızıstan, Tacikistan) yaranan Gömrük İttifaqını buna misal çəkmək olar.

İnteqrasiyanın bu formasında əmtəə axını dəyişir, idxal məhsullarına olan istiqamət artır, istehsalın və istehlakın həcmi dəyişir.

Gömrük İttifaqı iqtisadi baxımdan sanki tamamlanmış, başa çatmış formadır. Bu prosesə ancaq beynəlxalq ticarət kimi baxsaq o, daxili ziddiyətləri özündə həzm etmiş olur.

3. Sonra **İqtisadi inteqrasiyanın üçüncü nisbətən mürəkkəb forması olan «ümumi bazar» yaranır.** Burada azad ticarət və vahid tarif dərəcələri ilə yanaşı kapitalın və işçi qüvvəsinin azad hərəkətinə yol açılır. Bir çox hüquqi, iqtisadi və texniki şərtlər vahid hala salınır. Burada üzv olan ölkələrin qanunvericilik sistemində standartlarda müəyyən yaxınlaşma – eynilik olması vahid idarəçilik orqanları yaradılması zərurət təşkil edir. İstehsal amillərinin sərbəst hərəkəti ümumi ehtiyatlardan səmərəli istifadə edilməsinə zəmin yaradır və istehsalın ixtisaslaşmasını sürətləndirir.

4. **Dövlətlərarası iqtisadi inteqrasiyanın daha mürəkkəb forması olan «İqtisadi və valyuta ittifaqı» yuxarıdakı formaların bütün cəhətləri ilə yanaşı ümumi iqtisadi və valyuta-məliyyə siyasəti keçirilməsini nəzərdə tutur**. Burada inteqrasiya əməkdaşlığının həyata keçirilməsi üçün idarəçilik institutlarının yaradılmasına – dövlət başçıları şurası, nazirlər şurası, mərkəzi bank və s. yaradılmasına zəmin hazırlanır. Eləcə də müəyyən mərhələlərdə vahid valyutaya keçirilməsi məsələləri müzakirə edilir.

Beynəlxalq inteqrasiyanın bu kimi formalarının gələcək inkişafı ola bilər ki, siyasi ittifaqlara da çevrilə bilər.

5. **Tam iqtisadi və siyasi inteqrasiya forması.** Bu mərhələdə vahid bazar məkanından iqtisadi və siyasi məkana çevrilmə

prosesi gedir. Burada ancaq müəyyən razılaşma deyil, iqtisadi siyasətlərdə eynilik, qanunvericilik bazalarında yaxınlaşma baş verir. Bu mərhələdə beynəlxalq iqtisadi və siyasi münasibətlərin yeni çoxmilli subyekti formalaşır, vahid federativ (konfederasiya) dövlət yaradılmasına doğru hərəkət baş verir.

Beləliklə bu sahədə B.Balaşi, C.Mid, R.Lips, C.Vaynerin fikirləri regional iqtisadi inteqrasiya siyasətinin nəzəri əsası olmuşdur. Lakin təcrübə göstərir ki, real şəkildə inteqrasiya prosesi heç də düz xətt şəklində inkişaf edə bilməz.

Şimali Amerikada, Latın Amerikasında, Asiya – Sakit okean regionunda, Afrikada, Yaxın Şərqdə bir çox inteqrasiya modelinin mövcudluğu, ölkələrin differensiallaşması, təkrar istehsal mexanizminin müxtəlifliyi göstərir ki, regional iqtisadi inteqrasiya eyni sxem ilə inkişaf etmir. Beynəlxalq iqtisadi münasibətlərin konkret vəziyyəti, hər bir ölkənin iqtisadi-siyasi mənafei əlbəttə inteqrasiya prosesinə təsir edir. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində mikroiqtisadi səviyyədə inteqrasiyaya (xüsusi korporasiyalararası inteqrasiya) üstünlük verilir. Bu cür xüsusi korporasiya səviyyəli inteqrasiyadan dövlətlərarası (makrosəviyyə) inteqrasiyaya keçid, dövlətlərarası iqtisadi birliklər yaradılmasına səbəb olmuşdur.

İnkişaf etmiş ölkələrdə məhsuldar qüvvələrin inkişafı özlüyündə iqtisadi inteqrasiyaya zərurət yaratmışdır.

İnkişaf etməkdə olan ölkələr isə iqtisadi inkişafa, sənayeləşməyə nail olmaq üçün iqtisadi inteqrasiya birlikləri yaratmağa can atırlar.

Ərazi çərçivəsində ölkələrin iqtisadi yaxınlaşması hər bir birliyin müəssisələrinin üçüncü ölkələrin müəssisələrinin rəqabətindən qorunmasına kömək edir.

İnteqrasiya əlaqələri onların iştirakçılarına imkan verir ki, daha zəruri sosial məsələləri həll edə bilsin. Nisbətən geridə qalmış rayonların inkişafının bərabərləşdirilməsi üçün şərait yaradılır. Əmək bazarında nisbi yaxınlaşma özünü göstərir, əhalinin az təminatlı təbəqəsinə, səhiyyə sisteminin gələcək inkişafına, əməyin mühafizəsi və sosial təminatına zəmin yaranır.

Təsərrüfat həyatının beynəlmiləl xarakter alması XX əsrin ikinci yarısında dünya təsərrüfatının inkişafının əsas meylinə çevrilmişdir. Nisbətən inkişaf etmiş ölkələrin bir və ya digər formada qruplaşdırılması onların təsir dairəsini artırır. Bu isə dünya təsərrüfatının daha qlobal miqyasda beynəlmiləlləşməsinə zəmin yaradır.

Bu kimi dövlətlər və ya qrup dövlətlər müəyyən mənada inteqrasiya mərkəzinə çevrilirlər. Başqa dövlətlər bunların ətrafında qruplaşmaqla dünya təsərrüfatı əlaqələri okeanında özünəməxsus qitə yaradırlar.

İqtisadi inteqrasiya da öz növbəsində bu prosesin iştirakçısı olan ölkələr arasında istehsalın və kapitalın beynəlmiləlləşməsinin sürətlənməsinə zəmin yaradır.

Bütün bu proses zəncirvari şəkildə bir-biri ilə sıx bağlıdır.

Deməli, **məhsuldar qüvvələrin inkişafı → beynəlxalq əmək bölgüsü → istehsalın və kapitalın beynəlmiləlləşməsi→iqtisadi inteqrasiya.**

Beləliklə dünya təsərrüfatında ayrı-ayrı ölkələrin milli təsərrüfatlarının yaxınlaşması və bir-birinə qovuşması prosesi vahid təsərrüfat orqanizm yaranmasına yol açır ki, bu da inteqrasiya adlanır.

İnteqrasiya təsərrüfat həyatının beynəlmiləlləşməsinin ən yüksək təzahür formasıdır. O çox yüksək beynəlxalq əmək bölgüsünün və kooperasiya əlaqələrinin qanunauyğun nəticəsidir.

3. Avropa dövlətləri arasında iqtisadi inteqrasiya birliyi yaradılmasının əsas tarixi, siyasi və iqtisadi tərəfləri

Avropa dövlətləri arasında iqtisadi inteqrasiya birliyi yaradılmasının siyasi və iqtisadi cəhətlərinin şərhindən əvvəl bu sahədə yaranan ideyalara tarixi səyahət etmək oxucular üçün daha maraqlı ola bilər.

Qeyd etməliyik ki, hələ 1305-1307-ci illərdə Fransa krallığının prokuroru Pyer Dyuba «Müqəddəs torpağın qaytarılması»

barədə əsər yazaraq Avropa Xristian Monarxlarının Birliyini yaratmağı təklif edirdi. Üç yüz ildən sonra 1589-1598-ci illərdə **Fransa kralı IV Henri** də (1553-1610) o vaxtkı Avropa dövlətlərini birləşdirən «Xristian Respublikası» yaratmaq planı irəli sürürdü. 1690-cı ildə Şimali Amerikada ingilis müstəmləkəçiliyinin əsasını qoyan A.Peni (1644-1718) Avropada Ümümavropa parlamenti çağırılmasını təklif edirdi. 1713-cü ildə Utrext (Niderlandda şəhər) beynəlxalq konqresinə Rusiya da daxil olmaqla qitə dövlətlərinin birliyini yaratmaq layihəsi təqdim edilmişdir.

Ümumiyyətlə o vaxtlar Avropa Birliyi ideyası çox geniş vüsət almışdır. Bu ideya Rusiya inqilabi hərəkatında da yayılmışdır. Belə ki, bolşeviklər hesab edirdi ki, respublikalardan ibarət Birləşmiş Ştatlar yaratmaqla Almaniya, Avstriya, Macarıstan və Rusiyada monarxiyanın dağılmasına zəmin artar. Nəhayət 1876-cı ildə Parisdə həftəlik «Avropa Birləşmiş Ştatları» qəzeti nəşr edilməyə başlamışdır. Həftəlik qəzetdə Avropa dövlətlərinin federasiya halında birləşməsi geniş təbliğ olunurdu. Sosialist ideyasının bir çox nümayəndələri, o cümlədən Rusiya da Avropa federasiyası planını, ümümavropa evi ideyasını dəstəkləyirdilər. Moskva Universitetinin professoru (hüquqşünas) A.Komarovski Avropa Birləşmiş Ştatları beynəlxalq təşkilatının yaradılmasını təbliğ edirdi.

Peterburq Universitetinin professoru (hüquqşünas) F.F.Martens Avropa dövlətlərinin birləşməsinə müharibənin qarşısını alan bir vasitə kimi baxırdı.

Bütün bu çağırışlarla bağlı olaraq V.İ.Lenin (1870-1924) 1915-ci ildə «Avropa Birləşmiş Ştatları» şüarı haqqında kiçik məqalə yazaraq bu ideyanı tənqid etmişdir. Birinci Dünya müharibəsindən sonra ümumavropa evi yaradılması ideyası Avropa hərəkatına çevrilmişdir. 1926-cı ildə bu məsələyə dair ilk konqress də keçirilmişdir. 1919-cu ildə yaradılmış millətlər birliyində Avropa İttifaqı üzrə ekspertlər komitəsi də təşkil edilmişdir.

Beləliklə, 1930-cu illərdə Avropa dövlətlərinin birləşməsi ilə sülhün təmin edilməsi fikri müdafiə olunurdu. 1942-ci ildə İngiltərənin baş naziri Uinston Leonard Çerçil (1874-1965) bəyanat verərək Avropa iqtisadiyyatına vahid bir tam halında baxmağı təklif edirdi. Sonralar bu kimi ideyalar daha da genişlənirdi, bir çox cərəyanlar yaranırdı. Bunlardan Avropa Federalistlər İttifaqı, Avropa İqtisadi Əməkdaşlıq Cəmiyyəti, Avropa Birliyinin Müdafiəsi üzrə Fransa Şurası, Böyük Britaniya Hərəkatı, Xristian Demokratların Beynəlxalq İttifaqı və s. göstərmək olar. Beləliklə 1947-ci ildə bu hərəkatları əlaqələndirmək üçün beynəlxalq komitə yaradılmışdır. Həmin komitə 1948-ci ilin may ayında Haaqada (Niderlandda) Avropanın inteqrasiyasına həsr olunmuş konqress çağırmışdır. Buradakı təkliflər araşdırmaq üçün 1948-ci ildə daimi komitə də yaradılmışdır.

Nəhayət 1949-cu ildə həmin komitənin qərarı ilə əlaqələndirmə xarakterinə malik olan bir təşkilat – Avropa Şurası yaradılmışdır. Bu proses Avropa ölkələrinin iqtisadi birliyinin, inteqrasiya əlaqələrinin yaranmasına da güclü təsir etmişdir.

Aydındır ki, bu günkü Avropa İttifaqı məlum Avropa dövlətləri arasında yaradılmış iqtisadi inteqrasiya birliyidir.

Lakin bu birliyin özünü bu gün iqtisadi inteqrasiya adlandırmaq o qədər də düzgün deyildir. Çünki bu birlik həm valyuta, həm siyasi, həm də mədəni birlikdir. **Hazırda Aİ-nin əsas rəsmi sənədlərində açıq yazılır ki, Aİ üzv olan ölkələrdə sabit, balanslaşdırılmış iqtisadi və siyasi tərəqqiyə nail olmağa kömək edir. Bu ölkələr arasında heç bir daxili sərhəd olmayan məkan yaranır. Burada əsas məqsəd ümumi xarici siyasət yeritmək, təhlükəsizliyə nail olmaq, bütün bələdiyyə sahəsində və daxili işlərdə əməkdaşlıq etməkdən ibarətdir. Doğrudan da söhbət yeni Avropa, sərhədsiz Avropa yaratmaqdan gedir.**

Lakin aydındır ki, 1950-ci illərdə Avropa ölkələri arasında iqtisadi inteqrasiya birliyi yaradılması ideyası nisbətən başqa cəhətləri əsas götürürdü.

Məlumdur ki, hər bir siyasət bu və ya digər mənada iqtisadiyyatla bağlıdır. Ona görə də **«siyasət iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir»** müddəasını birbaşa Avropa ölkələri arasında yaradılan iqtisadi inteqrasiyaya aid etmək olar. Bu o

deməkdir ki, bu iqtisadi birliyin yaradılması ilk növbədə müəyyən siyasi səbəblərlə izah olunur.

Belə ki, İkinci Dünya müharibəsi qurtardıqdan sonra Avropa ölkələrinin mövqeyi, hərbi vəziyyəti əsasən SSRİ ilə ABŞ-ın baxışlarından asılı idi. Burada müxtəlif fikirlər mövcud idi. Odur ki, Avropanın gələcək taleyi mütərəqqi ictimaiyyəti çox narahat edirdi. Onlar elə Avropa yaratmaq istəyirdilər ki, burada SSRİ və ABŞ-ın maraqları deyil, Avropanın maraqları təmin edilmiş olsun.

1949-cu ildə Almaniya Federativ Respublikasının statusu qəbul edildikdən sonra (o öz daxili işlərini özü həll edə bilməsi barədə), Almaniyada Rur və Saar rayonlarında sənayenin inkişafına Fransanın qoyduğu qadağanın da qismən götürülməsi tələb olunurdu. Eləcə də ABŞ «Marşal planı» vasitəsilə Almaniyanın iqtisadi cəhətdən dirçəldilməsinə köməklik göstərirdi. Bütün bunlar Fransanı narahat edirdi. Odur ki, Fransa hər hansı bir formada Almaniya ilə Avropa ölkələri arasında əlaqə yaratmağa (bir-birinə bağlanmağa) çalışırdı.

Belə bir birlik yaradılmasının iqtisadi zəruriliyi ondan ibarət idi ki, Amerikanın «Marşal planı» Avropa ölkələrinin iqtisadi cəhətdən az-çox dirçəlməsinə köməklik göstərsədə, onların tam çiçəklənməsinə nail ola bilməmişdi.

Hitler tərəfindən iqtisadi cəhətdən birləşdirilmiş Avropa parçalanmışdır. Ayrı-ayrı dövlət subyektləri beynəlxalq əmək bölgüsü prinsipi əsasında əlaqə yarada bilmirdilər. Onların əksəriyyəti böhran vəziyyətində idilər. Köhnə, geridə qalmış istehsal aparatı, istehsalın ənənəvi quruluşu texniki innovasiyaya zəmin yarada bilmirdi. Bütün bunlar Avropanın ABŞ-ın güclü korporasiyalarının tabeçiliyinə çevrilməsi qorxusu yaradırdı.

Milli iqtisadiyyatın bərpa edilməsi işində açıq-aşkar qeyri-tarazlıq yaranmışdır. Məsələn, poladtökmə sənayesi bütün Avropanın iqtisadi inkişafında əsas götürüldüyü halda, həmin sahədə istehsal istehlakının aşağı səviyyədə olması, tam bərpa edilə bilməməsi böhran vəziyyəti yaratmışdır.

İşsizlik artırdı, uzun müddətli qıtlıq, alverçilik, xəlvəti iqtisadiyyat qorxusu yaranırdı. Bütün bunlar Avropanı tam dəyərli bazar iqtisadiyyatı yolundan kənarlaşdıra bilərdi.

Beləliklə Avropanın iqtisadi inkişafı üçün elə bir yeni inkişaf xətti yaratmaq lazım gəlirdi ki, bu bütün Avropanın birliyi üçün zəmin hazırlaya bilsin.

Belə bir həyati məsələnin həlli üçün müəyyən addımlar atılırdı. Məsələn, 1948-ci ildə Böyük Britaniyanın himayəsi ilə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı yaradılmışdır. Lakin bu təşkilat ancaq ümumi təkliflər verməklə öz vəzifəsini yerinə yetirirdi. Eləcə də **1949-cu il may ayının 5-də Avropa Şurası** yaradılmışdır, bu da bir çox məsləhət xarakterli vəzifələrlə kifayətlənirdi.

Beləliklə 1950-ci ilin mart ayında qərb birliklərinin rəhbərliyi (Fransanın və ABŞ-ın prezidentləri və Böyük Britaniyanın baş naziri) Fransanın xarici işlər naziri Rober Şumana Fransa ilə Qərbi Almaniya arasında bərabər hüquqlu inteqrasiya yaradılmasına dair plan hazırlanması barədə tapşırıq vermişlər.

Bu günkü Aİ-nin yaradılması planının hazırlanmasında (55-56 il bundan əvvəl) çox böyük rolu olan iki şəxs haqqında oxucuya geniş məlumat vermək istərdik.

Xarici işlər naziri Rober Şuman Fransa ilə Almaniyanın iqtisadi cəhətdən birləşdirilməsi üçün layihə hazır anması işinə o vaxt Fransada planlaşdırılma məsələləri üzrə Baş Komissar işləyən tanınmış **iqtisadçı professor Jan Monneni** cəlb etmişdir.

Jan Monne hələ Birinci Dünya müharibəsi dövründə müharibə edən müttəfiqlərin mərkəzləşdirilmiş təchizatına rəhbərlik edirdi. **İkinci Dünya müharibəsi dövründə** ABŞ-ın prezidenti Ruzveltin məsləhətçisi olmuşdur. «Almaniya üzərində qalib gəlmək planının» müəllifi olmuşdur.

1945-ci ildə Fransanın prezidenti general de Qollun tapşırığı ilə Fransanın iqtisadi və sənaye nazirliyinin işlərinə rəhbərlik etmişdir və s. Beləliklə Monne Şumandan tapşırıq aldıqdan sonra işlək-tədqiqatçı qrupu yaratmışdır. Bura Etyen Xirş, Pol Reyter və Pyer Uri kimi tanınmış alimləri daxil etmişdir. **Monne** parçalanmış Avropaya gələcəkdə «Soyuq müharibə» nəticəsi kimi

baxırdı. Burada da Almaniya əsas rol oynayırdı. Eləcə də hesab edirdi ki, parçalanmış Avropanın saxlanılmasında Almaniya məsələsi ABŞ siyasətinin əsasını təşkil edir. Beləliklə, bütün Avropa siyasəti Amerika siyasətinə tabe edilirdi. Odur ki, **Monne** aşağıdakı cəhətləri daha zəruri hesab edirdi:

1. Siyasi inteqrasiya məsələsini gələcəyə saxlayaraq bütün qüvvələri iqtisadi inteqrasiya yaradılmasına yönəltmək.

2. Qərbi Avropanın qabaqcıl ölkələrinə xas olan bəzi daha böyük və konkret iqtisadi problemləri ayırmaq və bu problemlərin həlli üçün milli çərçivədən üstün olan mexanizm işləyib hazırlamaq (burada ilk növbədə Fransa və Qərbi Almaniya nəzərdə tutulurdu).

3. Bu problemin həlli ilə yanaşı eyni zamanda gələcək birlik üçün vahid gömrük qaydası işləyib hazırlamaq və bunların qanunla sənədləşdirilməsini həyata keçirmək.

4. Bu problemlərin həllinin ümumi dövlətlərarası razılıq əsasında həyata keçirilməsinə nail olmaq. Nəzərə almaq lazımdır ki, bu problem Avropa xalqları üçün yalnız iqtisadi cəhətdən deyil, siyasi-psixoloji cəhətdən də böyük əhəmiyyət kəsb edir. Beləliklə, inteqrasiya yaradılması ehtiyatları və bura digər ölkələrin qoşulması ehtimalı genişlənəcəkdir.

Beləliklə Monne Fransa ilə Qərbi Almaniya arasında konkret sahələr üzrə iqtisadi əməkdaşlıqdan daha üstün olan inteqrasiya əlaqələri yaradılması planını işləyib 1950-ci ilin aprel ayının axırında Şumana təqdim etmişdir.

Şuman bu sənədləri çox məxfi saxlayaraq may ayının 9-da Fransa hökuməti qarşısında məruzə etmişdir. Sonra bu sənədi Almaniyanın kansleri Adenauerə təqdim etmişdilər.

Əslində Fransa məğlub olmuş Almaniyaya öz köməklik əlini uzadırdı. Bu barədə Şumanın məruzəsi artıq xalqa məlum olmuşdur. Odur ki, kansler layihəni bəyənmişdir.

Burada konkret olaraq kömür və poladtökmə sənayesinin birlikdə idarə edilməsi məsələsi nəzərdə tutulurdu.

Rober Şumanın bəyannaməsində birləşmiş Avropa quruculuğunun əsas prinsipləri aşağıdakılardan ibarət idi.

1. Birləşmiş Avropa quruculuğu birdəfəlik bir proses olmayıb uzun bir dövrü əhatə edir. Bu dövrdə hamı üçün vacib olan ayrı-ayrı konkret vəzifələr həyata keçiriləcəkdir.

2. Fransa ilə Almaniya arasındakı bu uzun müddətli əməkdaşlıq iqtisadiyyat, maliyyə, texnologiya və bütün digər sahələri də əhatə etməlidir.

3. Bu əməkdaşlıqda əsas mərkəz Fransa-Alman kömür-polad istehsalı üzərində qurulur. Burada rəhbərlik Avropa kömür və polad birliyi üzrə ali rəhbər orqana həvalə edilir.

4. Bu birliyin rəhbər orqanlarının qəbul etdiyi qərarlar məcburi qüvvəyə malikdir. Bu birliyə digər ölkələrin daxil olması ümumi razılıqlara əsaslanmalıdır.

5. İqtisadi mənafelərin birləşdirilməsində əsas məqsəd həyat səviyyəsinin artırılması, məşğulluğun yüksəldilməsi, bu birlik daxilində vətəndaşların sərbəst hərəkətinin və iqtisadi azadlığının təmin edilməsindən ibarətdir. Beləliklə Avropada tam böyük əhəmiyyətə malik iqtisadi birlik yaradılmasının yolları daha da genişlənmiş olacaqdır.

Odur ki, gələcəkdə Avropanın birləşdirilməsi işində bu iki ölkə arasında olan razılaşmalar, prinsiplər və nailiyyətlər bütün iqtisadi və siyasi müvəffəqiyyətlərin əsasını təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, bütün bu danışıqlar o qədər də mülayim, sözsüz-söhbətsiz keçinə bilməzdi. Həmin vaxtlar Avropa müharibədən sonrakı demokratiya dövrünü yaşayırdı. Çox partiyalılıq, fikir müxtəlifliyi, reklam və təbliğat xarakterli çıxışlar, yeni fikrə inam və s. kimi çətinliklər də mövcud idi. Onu göstərmək kifayətdir ki, **Monne** 1951-ci il, aprel ayının 4-də və sonralar da bir neçə dəfə Almaniyanın kansleri Adenauerlə görüşmüş və onun razılığını almışdır. Avropada iqtisadi inteqrasiya ideyası bütün siyasi qüvvələr və xalq kütləsi arasında geniş müzakirə predmetinə çevrilmişdir.

Daha aydın olmaq üçün buna misal olaraq Azərbaycanda «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarının birgə işlənilməsi və pay bölgüsü barədə bağlanmış «Əsrin müqaviləsi» 1994-cü il və eləcə də 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan

(Türkiyə) əsas ixrac boru kəmərinin çəkilişi məsələləri üzrə yaranmış fikir müxtəlifliklərini göstərmək olar.

Beləliklə 1950-ci il iyun ayının 20-də Monnenin sədriliyi ilə dövlətlərarası komissiya öz işinə başlamışdır. Fransa və Almaniyadan başqa bu birliyin yaradılmasında Belçika, Niderland, Lüksemburq (Benilüks dövlətləri) və İtaliya da fəal iştirak etmişlər. Odur ki, uzun bir müddət bu birliyi «altılar» adlandırırdılar. Nəhayət 1951-ci il aprel ayının 18-də Avropa kömür və polad birliyi (AKvəPB) barədə müqavilə imzalanmışdır. Artıq 1952-ci il avqust ayının 10-da Monnenin sədrliyi ilə ali rəhbər orqanlar işləməyə başlamışlar (iqamətgahı Lüksemburqdadır).

4. Avropa iqtisadi birliyi üzrə Roma müqaviləsi

Qeyd etdiyimiz kimi Monne və Şumanın bu «birliyin» genişlənməsi barədəki uzaqgörənliyi çox çəkmədən reallaşdı. Onların işləyib hazırladıqları prinsiplərə Benilüks dövlətlərinin rəhbərləri çox nikbinliklə baxırdılar. Odur ki, görkəmli dövlət xadimləri – xarici işlər nazirləri P.A.Spaak, J.Beyer və C.Bexin təşəbbüsü ilə 1955-ci ildə İtaliyada Beynəlxalq konfrans çağırılmışdır. Burada əsas məqsəd «Birliyin» genişlənməsi idi. Həmin dövrdə Avropada atom enerjisi sürətlə inkişaf etdirilirdi. Odur ki, Avropa kömür-polad birliyinin (AKPB) prinsipləri əsasında «Atom enerjisi birliyi» yaradılması da təklif olunurdu.

1957-ci il mart ayının 25-də bu 6 dövlətin nümayəndələri yenə həmin prinsiplər əsasında Avropa iqtisadi Birliyi – AİB və Avropa Atom enerjisi Birliyi (Avroatom) yaradılması barədə müqavilə imzaladılar. Beləliklə bu hər iki qurum Avropa iqtisadi birliyinin sanki birinci mərtəbəsi hesab edilir. Müqavilə 1958-ci il yanvar ayının 1-dən qüvvəyə minmişdir.

Roma müqaviləsinin sənədlərində göstərilirdi ki, AİB orqanlarının fəaliyyət dairəsi getdikcə genişlənəcəkdir. Burada ilk növbədə kənd təsərrüfatı, ticarət, gömrük qaydalarının tənzimlənməsi, sosial məsələlər, elmi-texniki tədqiqatlar və təhsil sahəsindəki ümumi siyasət və eləcə də ətraf mühit

sahəsində, üçüncü dünya ölkələri ilə əməkdaşlıq sahəsindəki siyasətlər əsas götürülmüşdür.

Beləliklə bu künkü Avropa İttifaqının əsası 1950-ci il may ayının 9-dan Avropa ölkələri arasında iqtisadi inteqrasiya birliyinin yaradılması barədəki ilk razılıq ilə qoyulmuşdur.

Bu müqavilələr 1957-ci il Roma müqaviləsi ilə daha da zənginləşmişdir. Beləki, 1957-ci ildə Roma müqaviləsinə əsasən Avropa iqtisadi birliyi və Avropa Atom enerjisi birliyi yaranmış və Avropa kömür polad birliyi ilə vahid iqtisadi blok təşkil etmişdilər. Bu **birlik 1992-ci ilədək Avropa iqtisadi birliyi, sonra isə Avropa İttifaqı adı daşımışdır. Avropa İttifaqı çox nadir, qabaqcıl inteqrasiya qruplaşdırılmasından biri olub ABŞ və Yaponiya ilə birlikdə qlobal bazar iqtisadiyyatı sistemində üç mərkəzdən (üçlük)** birini təşkil edir.

Hazırda Aİ özündə 27 dövləti birləşdirir. 2006-cı ilə ərazisi 4342,6 min kv. km, əhalisi isə 486 mln. nəfərdir. Həmin ilə Aİ-nin cəmi ÜDM-i 13628,0 mlrd. dollara bərabər olmuşdur. Bü dünya üzrə ÜDM-in 30,6 %-i qədərdir.

5. Aİ-nin inkişaf mərhələləri

Hazırki Qərbi Avropa ölkələrinin inteqrasiya birliyi öz inkişafında aşağıdakı mərhələlərdən keçmişdir.

Birinci mərhələ – 1951-1957-ci illəri əhatə edir. Qeyd etdiyimiz kimi bu mərhələdə əsasən bir çox hazırlıq və təşkilati işləri aparılmışdır. Belə ki, qanunvericilik orqanı olan Nazirlər Soveti, icra edici orqan olan – komissiya, ali məhkəmə orqanı və s. yaradılmışdır. Bu sahədə heç bir dünya görüşünə malik olmayan siyasətçilərin və mütərəqqi ictimaiyyətin psixologiyasında müəyyən dəyişikliklər yaratmaq, milli dövlətin bəzi hüquqlarını iqtisadi birliyin müəyyən qurumlarına vermək, iqtisadi inkişafda inteqrasiyanın üstünlüklərini real həyatda sübut etmək kimi gündəlik məsələlər bu mərhələnin üzərinə düşürdü. Avropa kömür və polad birliyi çərçivəsində kömürün, dəmir filizi və poladın ticarəti üzrə idxal və ixrac rüsumları ləğv

edilmiş və müəyyən məhdudiyyətlər aradan qaldırılmışdır. Kömür və polad üzrə ümumi bazara daxil olmayan ölkələr üçün həmin məhsullar üzrə vahid rüsum normaları müəyyən edilmişdir. Bu birliyin ali orqanları (üzv olan ölkələrin nümayəndələri) kömür və poladın istehsalı sahəsində ardıcıl olaraq tənzimləmə, modernləşmə və yenidənqurma işləri aparmağa başlamışlar. Onu da qeyd etməliyik ki, burada hər bir üzv müəyyən məsələnin həllində veto (qadağa – ləğv etmək) hüququna malikdirlər. Odur ki, Paris müqaviləsi çox ehtiyatlı, ardıcıl, tədricən, mərhələlərlə və s. kimi cəhətləri ilə fərqlənirdi.

Bütün bu kimi ziddiyyətlər və məhdudiyyətlərə baxmayaraq AK və PB sözsüz ki, inteqrasiya əlaqələrinin sürətli inkişafına zəmin yaradırdı.

Çox keçmədən Rur hövzəsində, Saar rayonunda, Limburq, Valloniya, Lüksemburq və Lotarinqiyada mərkəzləşdirilmiş Avropa ağır sənayesi münaqişə və müharibələr mənbəyindən əməkdaşlıq və tərəqqinin inkişafı amilinə çevrilmişdir.

İkinci mərhələ. İkinci mərhələ 50-ci illərin axırları ilə 70-ci illərin əvvəllərini əhatə edir. Bu mərhələ Avropa İqtisadi Birliyi tarixinin qızıl əsri adlanır. Belə ki, 1957-ci ilin mart ayında həmin 6 ölkə – Fransa, Almaniya, İtaliya, Belçika, Niderland və Lüksemburq Romada iki müqavilə bağlamışlar: «Avropa İqtisadi Birliyi» (ümumi bazar) yaradılması barədə və «Avropa Atom Enerjisi Birliyi» yaradılması barədə. Bu Atom Enerjisi Birliyi də AK və PB-də olduğu kimi sahəvi xarakter daşıyır. Bütün digər tərəfləri ilə yanaşı atom energetikası üzrə elmi-tədqiqat, təcrübə-konstruksiya işləri və birgə istehsal kooperasiyasının həyata keçirilməsi nəzərdə tutulurdu.

Avropa İqtisadi Birliyi və yaxud «Ümumi bazar» çərçivəsində «hər cür əmtəələrin, şəxslərin, xidmətlər və kapitalın» sərbəst hərəkəti nəzərdə tutulurdu. AİB barədəki müqavilə hərtərəfli işlənmişdir. Müxtəlif bölmələrdən və fəsillərdən ibarət 275 sənəd və əlavə təkliflər hazırlanmışdır.

«Ümumi bazarın» əsas məqsədində aşağıdakılar nəzərdə tutulmuşdur:

- üzv olan ölkələr arasındakı ticarətdə bütün məhdudiyyətlərin tədricən ləğv edilməsi;
- üçüncü ölkələrlə ümumi gömrük dərəcələri müəyyən edilməsi;
- kapitalın, insanların və xidmətlərin ölkə ərazisindəki sərbəst hərəkətindəki məhdudiyyətlərin ləğv edilməsi;
- kənd təsərrüfatı və nəqliyyat sahəsində ümumi siyasət yeridilməsi;
- vergi sisteminin eyniləşdirilməsi;
- «ümumi bazar» çərçivəsində rəqabət qaydalarının müəyyənləşdirilməsi;
- üzv olan ölkələrin iqtisadi qanunvericiliklərinin yaxınlaşdırılması;
- iqtisadi siyasət sahəsindəki razılaşdırılmaların prinsiplərinin işlənib hazırlanması və s.

Roma müqaviləsində bu yeni birliyin yaranması ilə bağlı olaraq bəzi sahələrdə milli dövlət hüquqlarının həmin birliyin ali orqanlarına verilməsi də nəzərdə tutulmuşdur.

Lakin Böyük Britaniyanın nümayəndələri bu kimi müddəalarla razılaşmadıqlarını bildirmişlər.

Odur ki, 1956-cı ilin oktyabr ayında Birləşmiş Krallıq azad iqtisadi zona yaradılmasına üstünlük verdiyini bildirmişdir. Beləliklə, 1960-cı il may ayının 4-də İsveçin paytaxtı Stokholmda bəyannamə qəbul edilmişdir.

Avropanın 7 ölkəsi – Böyük Britaniya, Avstriya, Danimarka, Norveç, Portuqaliya, İsveç və İsveçrə öz aralarında **Avropa Azad Ticarət Birliyi yaratmışlır. Deməli Qərbi Avropada paralel olaraq iki növ inteqrasiya birliyi** fəaliyyət göstərməyə başlamışdır. Aydındır ki, əməkdaşlıq və iqtisadi münasibətlərin modeli barədə bu iki birliyin təsəvvürləri fərqlənirdi.

Bütün bunlara baxmayaraq Roma müqaviləsinin müddəaları çox müvəffəqiyyətlə razılaşdırılmış şəkildə, heç bir çətinlik olmadan həyata keçirilirdi. Artıq nəzərdə tutulduğundan 1,5 ilə əvvəl 1968-ci il iyul ayının 1-də AİB ölkələri arasında **Gömrük İttifaqı** yaradılmışdır.

Gömrük İttifaqının müddəalarına əsasən sənaye məhsulları üzrə olan qarşılıqlı ticarətdə məhdudiyyətlər aradan qaldırılmış və digər ölkələr üçün vahid gömrük dərəcələri müəyyən edilmişdir. Standartlaşma və texniki normalar üzrə (xüsusilə səhmdar cəmiyyətlərində) müəyyən razılaşmalar, təsərrüfatçılıq qaydalarının əlaqələndirilməsi həyata keçirilirdi. Sənayenin inkişafı siyasətində də yaxınlaşma artırdı. AİB ölkələrinin milli inhisarlarının TMK-ra çevrilməsi prosesi sürətlənmişdir. AİB çərçivəsində kapitalın və işçi qüvvəsinin hərəkətinin liberallaşmasında artmışdır. Bütün bunlar öz növbəsində iqtisadi münasibətlərin xarakterini və əhatə dairəsini dəyişirdi.

Bu mərhələdə – ən böyük nailiyyətlərdən biri də AİB çərçivəsində **«Vahid kənd təsərrüfatı siyasətinin»** (VKTS) qəbul edilməsidir.

1950-ci illərdə AİB-in kənd təsərrüfatı texniki səviyyəsinə və faydalılıq səviyyəsinə görə iqtisadiyyatın digər sahələrindən geri qalırdı. Lakin «Ümumi bazarın» yaranması ilə kənd təsərrüfatının modernləşdirilməsi ön plana çəkilmişdir. Kənd təsərrüfatının inteqrasiya proseslərinə daxil edilməsi, bu sahənin tənzimlənməsi üçün milli çərçivədən üstün mexanizmlər yaradılması, aqrar sahələrdəki milli himayədarlığın vahid ümumavropa sistemi ilə əvəz edilməsi nəzərdə tutulurdu. 1957-ci il Roma müqaviləsi VKTS-i həyata keçirilməsinin prinsiplərini, məqsəd və vəzifələrini, maliyyələşdirilməsi yollarını çox dəqiqliklə işləyib hazırlamışdır.

VKTS-də üç əsas fundamental prinsip fərqləndirilirdi:

1. Vahid bazarın olması. Hazırda bütün kənd təsərrüfatı məhsullarının 98 %-i vahid aqrar siyasətinin norma və tələblərinə tabe edilmişdir.

2. AİB çərçivəsində istehsal edilən əmtəələrə üstünlük verilməsi prinsipi. Vahid Aqrar siyasətinin bu prinsipi daha böyük əhəmiyyət kəsb edir. Çünki, bu prinsip kənd təsərrüfatı məhsullarının ümumi bazarını ucuz idxaldan qoruyur və fermerlərə təminat yaradır.

3. Vahid kənd təsərrüfatı siyasətinin üçüncü prinsipi **maliyyə həmrəyliyidir**. Bu prinsipə uyğun olaraq AİB-in bütün ölkələri (həm ixrac edənlər və həm də idxal edənlər) vahid aqrar siyasətinə tabe edilirlər. Bu prinsiplə əlaqədar olaraq **1962-ci ildə Kənd təsərrüfatı inkişafının istiqamətləndirilməsi və təminatı üzrə Avropa Fondu yaradılmışdır.**

Kənd təsərrüfatının inteqrasiya prosesinə qoşulması onun maliyyələşdirilməsi üçün dövlətlərarası fondun yaradılmasını tələb edirdi.

Bu fondun vəsaitinin bölgüsü iki səpkidə həyata keçirilir:

- təminat üzrə;
- istehsalın istiqamətləndirilməsi üzrə.

Təminat və istiqamətləndirmə fondu AİB-in ümumi büdcəsi hesabına formalaşdırılır. Vahid aqrar siyasətinin maliyyələşdirilməsi müxtəlif vaxtlarda birliyin ümumi büdcəsinin 54 %-dən 76 %-dək təşkil etmişdir.

AİB inkişafının üçüncü mərhələsi 70-ci illərin başlanğıcı ilə 80-ci illərin ortalarını əhatə edir. Bu mərhələ həmin birliyin tarixinə durğunluq dövrü kimi daxil olmuşdur. Bu mərhələdə müəyyən çətinliklər, işsizlik halları müşahidə olunurdu. Avropanın digər ölkələri ilə müqayisədə iqtisadi artım sürəti azalmışdır. Üzv olan ölkələr arasında ticarət çəkişmələri özünü göstərirdi. Bir sözlə «avropessimizm» (inamsızlıq, bədbinlik) və «avroskleroz» əlamətləri yaranmışdır.

Bununla yanaşı həmin mərhələdə inteqrasiya tədbirləri sistemində də müəyyən irəliləyişlər olmuşdur.

Beləki:

1. Birliyin tərkibi dəyişilmişdir. **1973-cü ilin yanvar ayından** Böyük Britaniya, Danimarka və İrlandiya Birliyə daxil olumşlar.

2. 1975-ci ildən Birliyə daxil olan ölkələr xarici ticarət siyasəti sahəsindəki səlahiyyətlərini tamamilə AİB-in müvafiq qurumlarına vermişlər. Artıq bu ölkələrin hər biri üçüncü ölkələrlə ikitərəfli müqavilələr bağlamaq hüququnu itirmişlər. Bu isə o dövr üçün SSRİ-nin və Qarşılıqlı İqtisadi Yardım

Şurasının (QİYŞ) işini çətiləşdirirdi. Çünki, o vaxt SSRİ AİB-in yüksək səlahiyyət hüquqlarını tanımaq istəmirdi.

3. 1979-cu ildə Avropa valyuta sistemi (AVS) yaradılmışdır. Avropa valyuta sistemi üzvlərinin «istehlak səbəbti» əsasında hesablaşma vahidi olan – **ekyü** formalaşmışdır.

Bu ölkələrin ekyü-də xüsusi çəkisi aşağıdakı kimi müəyyənləşmişdir (faizlə):

Fransa frankı – 19,3
AFR markası – 30,0
B.Britaniya funt sterlinqi – 12,6
İtaliya lirası – 9,9
Holland quldeni – 9,5
Belçika frankı – 7,8
İspaniya pesetosu – 5,2
Danimarka kronası – 2,5
Portuqaliya eskudosu – 0,8
Yunanıstan draxması – 0,7
Lüksemburq frankı – 0,3

1 ekyü 1,3 Amerika dollarına bərabər götürülürdü. Ekyünün üzvü olan ölkələrin milli valyutalarının dəyəri bu orta kursdan ± 2,25 % fərqlənə bilərlər. Bu fərqlənmənin özündə də bəzi ölkələrə istisna güzəştlər nəzərdə tutulmuşdur. Məsələn, İtaliya üçün bu güzəşt ± 6 % olmuşdur.

Dördüncü mərhələ 80-ci ilin ortalarından 90-cı illərin başlanğıcına olan dövrü əhatə edir. AİB-nin fəaliyyətində bir çox irəliləyişlər yenidən özünü göstərirdi.

Bu mərhələ inteqrasiyanın inkişafında keyfiyyətcə yeni mərhələ hesab edilir. Həmin mərhələdə inteqrasiya fəaliyyətində daha köklü islahatlar keçirilmişdir. Bu mərhələ AİB çərçivəsində **vahid daxili bazar** yaradılmasının başa çatması ilə daha çox fərqlənir.

1981-ci ildə Yunanıstan AİB-ə daxil olmuşdur.

1985-ci ilin axırlarında **Vahid Avropa Aktı** (VAA) qəbul edilməsi qərara alınmış və 1987-ci il iyul ayının 1-dən qüvvəyə minmişdir. Vahid Avropa Aktında 1992-ci ilin axırlarına **Vahid**

daxili bazar (VDB) yaradılmasının başa çatdırılması qərara alınmışdır.

1985-ci ildə Avropa Komissiyası «Ağ kitab» adında rəsmi sənəd yaymağa başlamışdır. Orada göstərilirdi ki, 1957-ci il Roma müqaviləsindən sonra Gömrük rüsumlarının ləğv edilməsinə baxmayaraq Avropa Birliyində istər vətəndaşlar və istərsə də iqtisadi qurumlar üçün heç də lazımi vahidlik – vəhdət istənilən səviyyədə formalaşmamışdır. Hələ də üzv olan ölkələr arasında sərhədlər və bir çox ticarət məhdudiyyətləri qalmaqdadır. Milli çərçivədə olduğu kimi, AİB çərçivəsində də inzibati formalizm, gömrük nəzarəti, ayrı-ayrı ölkələrdə texniki xüsusiyyətlər və normalar, himayədarlıq, məhdudiyyətlər və s. iqtisadiyyatın inkişafına zərər vurmuşdur. Avropa Komissiyası ekspertlərinin hesablamalarına görə ancaq bu sərhəd işi ilə bağlı formal yanaşma nəticəsində AİB 9 mlrd. ekyü həcmində vəsait itirmişdir. Bu üzv olan ölkələr arasındakı cəmi ticarət əməliyyatlarının 1,8 %-nə bərabərdir.

Bütün sənaye sahələri üzrə bu kimi formal yanaşma, vahid normativlər sisteminin olmaması və digər ticarət məhdudiyyətlərindən dəyən illik zərər **40 mlrd. dollar təşkil etmişdir**.

Bütün bunlar beynəlxalq miqyasda AİB-in rəqabətqabiliyyətini azaltmış və iqtisadiyyatda quruluş dəyişikliyi aparılmasını, texnoloji və təşkilatı yeniliklər edilməsini çətinləşdirmişdir.

Vahid daxili bazar üzv olan ölkələrarasında sərhədsiz məkan nəzərdə tuturdu. Bu məkanda hər cür əmtəələrin, kapitalın, xidmət və vətəndaşların sərbəst hərəkətinin təmin edilməsi nəzərdə tutulurdu. AİB məkanında hər cürə fiziki, texniki sahədə, vergi sistemi üzrə və digər maneəçiliklərin aradan qaldırılması, milli sərhədlərin ləğv edilməsi, eyni tipli iqtisadi məkan yaradılması nəzərdə tutulmuşdur. Bütün bunlar, yəni tam mənada vahid daxili bazarın formalaşması 1992-ci ilin axırlarına demək olar ki, qurtarmışdır. Energetika, nəqliyyat, sosial və regional inkişaf və bir çox digər sahələrin inkişafında vahid siyasət əsas götürülürdü. Belə klə, inteqrasiya prosesi daha yenilməz olmuşdur.

Bu mərhələdə 1986-cı ildə İspaniya və Portuqaliya AİB-in tərkibinə daxil olmuşlar. Lakin onların bir çox göstəriciləri orta səviyyədən aşağı idi, hər nəfərə düşən ÜDM az idi, kənd təsərrüfatında işləyənlərin sayı çox idi və s.

Bu mərhələdə Vahid Avropa Bazarının tamamlanması ilə AİB vahid valyuta – iqtisadi və siyasi ittifaqının formalaşmasına daha da yaxınlaşmışdır.

Beşinci mərhələ AİB-in vahid təsərrüfat sisteminin formalaşması mərhələsi və yaxud iqtisadi, valyuta və siyasi ittifaqın formalaşmasına keçid mərhələsi adlanır.

Bu mərhələ 1990-cı illərdən sonrakı dövrü özündə əks etdirir. Bu mərhələdə 1991-ci ilin dekabr ayında Hollandiyanın Maastrixt şəhərində Avropa Şurasının sessiyası olmuşdur. Sessiyada Avropa İqtisadi Birliyinin Avropa İttifaqı adlandırılması barədəki müqavilənin mətni bəyənilmiş və 1992-ci il fevral ayının 7-də həmin şəhərdə üzv olan ölkələrin nümayəndələri tərəfindən təsdiq edilmişdir. Bu müqavilə 1993-cü il noyabr ayının 1-dən qüvvəyə minmişdir (bəzi ədəbiyyatlarda 1994-cü il yanvar ayının 1-i göstərilir).

Deməli (şərti olaraq 2 ay nəzərə alınmasa) AİB 1994-cü il yanvar ayının 1-dən Avropa İttifaqı Aİ adlanmışdır. Maastrixt müqaviləsi inteqrasiya proseslərinin daha da dərinləşməsinə güclü təkan vermişdir.

Aİ öz fəaliyyətində ilk növbədə üç problemi ön plana çəkmişdir.

1. **1993-cü ildən Aİ-də vahid vətəndaşlığın qəbul edilməsi.**

2. **Siyasi ittifaqın formalaşdırılması. Burada daxili siyasətlərin** yaxından əlaqələndirilməsi, inteqrasiyaya əsaslanan xarici siyasət yeridilməsi, hüquqi sistemlərin yaxınlaşdırılması və Aİ parlamenti rolunun artırılması nəzərdə tutulur.

3. **İqtisadi və valyuta ittifaqının formalaşdırılması. Burada üç mərhələ ayırmaq olar:**

- 1990-1993-cü illərdə valyuta məhdudiyyətləri aradan qaldırılmışdır. Ayrı-ayrı ölkələrin valyutaları Avropa valyuta sisteminə daxil edilmişlər;

- 1994-1998-ci illərdə Avropa valyuta institutu yaradılmış və makroiqtisadi siyasətlərin əlaqələndirilməsi gücləndirilmişdir;
- 1999-cu ildən vahid valyutanın tətbiq edilməsi. Vahid avropa mərkəzi bankının (AMB) yaradılması.

Bir çox başqa problemlərdə olduğu kimi Aİ-nin valyuta vahidi olan Avro-nun da dövriyyəyə buraxılması və istifadə edilməsinin hüquqi əsası Maastrixt müqaviləsidir. Burada hər bir ölkənin Avro-da iştirakı meyarı müəyyən əşdirilmiş və müəyyən uyğunlaşdırılma – eyniləşdirilmə aparılmışdır.

Hər bir ölkənin Avro-da təmsil olunması üçün:

1. Qiymətlərin sabitliyinə və inflyasiyanın aşağı səviyyədə qalmasına nail olmaq. Burada qiymət fərqinin və inflyasiya həddinin digər üç ölkənin orta səviyyəsindən 1,5 %-dən artıq olmaması nəzərdə tutulur.

2. Hökumətdə maliyyə sabitliyinin olması. Büdcə kəsirinin ÜDM-in 3 %-dən və xarici borcun isə 60 %-dən artıq olmaması nəzərdə tutulur.

3. Valyuta kursunda ciddi dəyişikliyin yaranmaması və s. kimi şərtlər əsas götürülmüşdür. Beləliklə Maastrixt müqaviləsinə əsasən 1999-cu ilin yanvar ayının 1-dən Aİ tədricən, mərhələ-mərhələ vahid valyuta olan Avro sisteminə keçməyə başlamışdır. Bir müddət ayrı-ayrı dövlətlərin milli valyutaları da paralel olaraq fəaliyyət göstərmişdir. Lakin 2002-ci ildən Avro-nun fəaliyyəti genişlənmişdir.

Vahid valyuta ittifaqının müddəalarına uyğun olaraq müstəqil Avropa sistemi çərçivəsində Aİ dövlətlərinin mərkəzi bankları üçün (başda Avropa mərkəzi bankı olmaqla) müəyyən edilmiş həcmdə ancaq Avro emissiyası hüququ nəzərdə tutulmuşdur. Beləliklə, son dövrlərdə milli valyutaların emissiyası getdikcə azaldılır.

İnamla qeyd etməliyik ki, hazırda Avro dünyanın ən güclü valyutalarından birinə çevrilmişdir.

Bu mərhələdə 1995-ci ildə Aİ-nin üzvlərinin sayı yenidən artmışdır. Finlandiya, Avstriya və İsveç dövlətləri Aİ-nin tərkibinə daxil olmuşlar.

Nəhayət 2004-cü ilin may ayında Aİ ölkələrinin sayı yenidən artmışdır. Polşa, Macarıstan, Latviya, Litva, Estoniya, Çexiya, Slovakiya, Malta və Kipr Aİ-yə daxil olmuşlar.

Avropa İttifaqının genişlənməsi mənzərəsi

Birinci genişlənmə – 1973
Böyük Britaniya, Danimarka, İrlandiya.
İkinci genişlənmə – 1981
Yunanıstan.
Üçüncü genişlənmə – 1986
İspaniya, Portuqaliya.
Dördüncü genişlənmə – 1995
Avstriya, İsveç, Finlandiya.
Beşinci genişlənmə – 2004
Polşa, Macarıstan, latviya, Litva, estoniya, Çexiya, Slovakiya, Sloveniya, Malta, Kipr.
Altıncı genişlənmə – 2007
Rumıniya, Bolqarıstan.
Beləliklə, 2007-ci ilə Aİ özündə 27 ölkəni birləşdirir.

Hələki, Azərbaycanın Aİ tərkibinə daxil olması barədə müəyyən mülahizələr yeritmək vaxtından çox tezdir. Lakin Aİ-nin fəaliyyət proqramında Azərbaycanın iştirakı barədə 2006-cı ildə geniş söhbət aparılmışdır.

6. Aİ-nin təşkilati quruluşu

Aİ öz təşkilati quruluşuna görə demək olar ki, ənənəvi olaraq Qərbin siyasi sisteminə çox yaxındır. Belə ki, burada qanunvericilik, icraedici və məhkəmə funksiyaları ayrılır. Odur ki, Aİ-nin dövlətlərarası idarəçilik orqanları onun fəaliyyət mexanizmini təşkil edirlər.

Bu institutlar aşağıdakılardan ibarətdir:

1. **Avropa Şurası.** Avropa Şurası Aİ-nin direktiv orqanı olub dövlət başçılarından və Aİ-nin Komissiyasının sədrindən

ibarətdir. 1974-cü ildən ardıcıl olaraq fəaliyyət göstərir. 1986-cı ildə rəsmi hüquqi status alıbdır.

Avropa parlamentinə seçkilər, yeni üzvlər qəbul edilməsi, avropa valyuta sistemi yaradılması, vahid kənd təsərrüfatı siyasətində islahat aparılması və bu kimi inteqrasiyanın daha həlledici məsələləri üzrə qərarlar qəbul edir.

2. **Avropa parlamenti** 1957-ci ildə yaradılıbdır. Hər bir ölkənin ÜDM-in xüsusi çəkisinə görə deputatların sayı müəyyənləşdirilir (aydındır ki, əhalinin sayı da nəzərə alınır). Avroparlamenti çox səlahiyyətli və məsləhətverici bir orqandır. Bura 26 deputat daxildir. Parlamentin katibliyi Luksemburqda, komitələr iclası Brüsseldə (Belçika) aparırlar Sessiya isə Strasburqda (Fransa) keçirilir. Parlament Avropa Şurası ilə birlikdə qərar qəbul edir.

Burada yeni üzvlər qəbul edilməsi, inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatı ölkələri ilə müəyyən əməkdaşlıqlar edilməsi, daxili bazar, Aİ-nin büdcəsi və s. kimi məsələlər nəzərdə tutulur. Hazırda 626 deputat vardır.

3. **Nazirlər Soveti**. Aİ-nin Nazirlər Soveti (buna bəzən Aİ-nin Soveti də deyirlər) üzv olan ölkələrin sahəvi nazirlərindən təşkil olunur: xarici işlər naziri, maliyyə, iqtisadiyyat, kənd təsərrüfatı, nəqliyyat nazirləri və s. Burada ayrı-ayrı sahələr üzrə olan məsələlər müzakirə olunur.

4. **Avropa Komissiyası**. Avropa Komissiyası əsas icraedici səlahiyyətli orqandır. Hətta buna Aİ-nin hökuməti də demək olar. 20 nəfərdən ibarət üzvü vardır. İqamətgahı – Brüsseldədir.

Komissiya müqavilələrin yerinə yetirilməsinə nəzarət edir. Maliyyə fəaliyyətində Aİ-nin büdcə layihəsini hazırlayır, büdcənin və ayrı-ayrı fondların idarə edilməsini həyata keçirir. Komissiyanın üzvləri öz ölkələrindən heç bir göstəriş ala bilməzlər. Komissiya Aİ-nin gündəlik fəaliyyətini idarə edir.

5. **Avropa məhkəməsi**. Aİ-nin məhkəməsi 13 nəfərdən ibarət olub hüquqi sənədləşmələri həyata keçirir Aİ-nin ayrı-ayrı orqanları arasında, Aİ üzvləri ilə Aİ arasında yaranan hüquqi məsələləri tənzimləyir. Eləcə də Aİ qanunvericilik akt-

ları çərçivəsində müəyyən fiziki və hüquqi şəxslərin müraciətlərinə də baxmaq hüququna malikdir. Bunlarla yanaşı bir çox işlək qurumlar da fəaliyyət göstərir.

Aİ başqa ölkələrlə də qarşılıqlı əlaqə saxlamağa üstünlük verir. 1964-cü ildən Afrika, Karib və Sakit okean hövzəsi ölkələri (AKS) ilə beynəlxalq sazişlər əsasında imtiyazlı şərtlərlə əməkdaşlıq edir. 1989-cu ildə 70-ədək inkişaf etməkdə olan ölkə ilə beynəlxalq saziş bağlayıbdır. Həmin sazişə əsasən AKS ölkələri öz məhsullarını Aİ bazarına rüsumsuz və miqdar məhdudiyyəti qoyulmadan çıxarmaq hüququna malikdirlər. Aİ həmin ölkələrdən ildə 1,3 mln. ton şəkər almağa təminat vermişdir. Həmin ölkələrlə əməkdaşlığın idarəedilməsi üçün birgə üç institut yaradılıbdır: Aİ-AKS–nazirlər soveti; səfirlər səviyyəsində Aİ-AKS-komitəsi və Aİ-AKS-birgə assambleyası. 2006-cı ildə Azərbaycan da Aİ-nin fəaliyyət planına qoşulmuşdur.

Aİ-nin ABŞ ilə çox geniş, qarşılıqlı əlaqələri vardır. Məsələn, ildə iki dəfə ABŞ-ın prezidenti ilə Aİ Şurasının sədri və Aİ Komissiyasının sədri arasında məsləhətləşmələr apırılır. Eləcə də ildə iki dəfə ABŞ-ın dövlət katibi ilə Aİ ölkələrinin xarici işlər nazirləri və Aİ Komissiyası üzvləri arasında, ildə 2 dəfə nazirlərarası səviyyədə məsləhətləşmələr aparılır.

Atom enerjisindən istifadə edilməsi, ətraf mühitin mühafizəsi, balıq tutulması, biotexnologiya, rəqabət siyasəti, inhisar əleyhinə siyasət və bir çox digər sahələr üzrə ABŞ ilə Aİ arasında razılaşmalar vardır. Bütün bunlarla yanaşı ABŞ belə hesab edir ki, Aİ-nin başqa ölkələrlə apardığı kənd təsərrüfatı siyasəti Amerikanın Aİ-yə olan rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixracına qarşı yönəldilmiş siyasətdir.

1989-1990-cı illərdə Aİ- Polşa, Çexiya, Slovakiya, Macarıstan, Bolqarıstan və Rumıniya ilə razılaşma əldə etmişlər (Avropa razılaşması). Burada yüksək səviyyədə dialoqlar aparılması, siyasətlərin əlaqələndirilməsi, azad ticarət zonaları yaradılması, əmtəə və xidmətlərin, insanların, kapitalın sərbəst hərəkəti məsələlərinin inkişafı nəzərdə tutulmuşdur (hazırda bu ölkələrin əksəriyyəti Aİ-nin üzvüdürlər). Digər ölkələrlə də Aİ-nin əlaqələri genişlənir.

7. Aİ-nin maliyyə sistemi

1957-ci il Roma müqaviləsinin müddəalarına əsasən Aİ-nin normal fəaliyyəti üçün onun maliyyə vəsaiti də formalaşmalıdır. Aİ-nin maliyyə vəsaiti ilk növbədə üzv olan ölkələrin ÜDM-nin 1,2-1,3 %-i hesabına yaradılır. Aydındır ki, hazırda Aİ güclənmiş, güclü idxal-ixrac əməliyyatları yaranmış, xüsusi maliyyə vəsaiti artmışdır. 2005-ci ilin məlumatına görə Aİ-nin cəmi büdcəsi 106,3 mlrd. avroya bərabərdir. Bu Aİ üzrə cəmi ÜDM-in təqribən 1 %-ni təşkil edir. Bundan əvvə Aİ üzrə idxal-ixrac əməliyyatlarından olan ayırmalar, əlavə dəyər vergisindən, gömrük sistemindən olan gəlirlər də mövcuddur.

Aİ-nin fəaliyyətində maliyyə təminatını həyata keçirmək üçün aşağıdakı qurumların böyük rolu vardır:

- **Regional inkişaf fondu** (RİF). Bu fond geridə qalmış rayonlara və eləcə də sənayedə quruluş böhranlarından zərər çəkən rayonlara köməklik göstərir.
- **Sosial fond** – işçilərin ixtisaslaşdırılmasını və gənclərin peşə təhsili olmasını maliyyələşdirir.
- **Kənd təsərrüfatı sahəsində istiqamət və təminat fondu** – Vahid aqrar siyasətini maliyyələşdirir.
- **Dövlətlərin iqtisadi cəhətdən yaxınlaşmasına kömək fondu** (Həmrəylik fondu). Maastrixt müqaviləsinə əsasən yaradılıbdır. Hər nəfərə düşən ÜDM-in həcmi az olan ölkələrə köməklik göstərir.

Bunlardan əlavə Aİ çərçivəsində kredit müəssisələri də mövcuddur.

Avropa İttifaqına daxil olan ölkələrin bəzi göstəriciləri (2005)

		Ərazisi, min kv. km	Əhalisi, mln. nəfər	ÜDM, mlrd. dollar
1	2	3	4	5
1	Avstriya	84,0	8,2	305,3
2	Belçika	30,5	10,4	370,8

3	Böyük Britaniya	245,0	60,4	2229,5
4	Almaniya	357,0	82,4	2791,7
5	Macarıstan	93,0	10,0	109,2
6	Danimarka	43,0	5,4	259,6
7	İrlandiya	70,4	4,0	200,8
8	İspaniya	506	40,3	1126,6
9	İtaliya	301	58,2	1765,5
10	Latviya	64,5	2,3	15,8
11	Litva	65,2	3,6	25,5
12	Estoniya	45,0	1,3	13,1
13	Malta	0,316	0,400	5,4
14	Lüksemburq	2,6	0,470	36,5
15	Niderland	41,8	16,4	629,9
16	Polşa	323	39,0	303,2
17	Portuqaliya	92	10,6	183,6
18	Slovakiya	49	5,4	47,5
19	Sloveniya	20	2,0	34,0
20	Finlandiya	338	5,2	196,1
21	Fransa	552	60,7	2126,6
22	Çexiya	79	10,2	124,3
23	İsveç	450	9,0	358,8
24	Kipr	9,3	0,780	16,7
25	Yunanıstan	132	10,7	225,6
26	Rumıniya	238	22,3	98,6
27	Bolqarıstan	111	8,0	26,7
	Cəmi	4342,6	487,4	13628

8. Şimali Amerika azad ticarət zonası (NAFTA)

Şimali Amerika Azad Ticarət Birliyi (ŞAATB) 1992-cü ilin dekabr ayında ABŞ, Kanada və Meksika arasında Şimali Amerika Azad Ticarət zonası haqqında saziş ilə yaranmışdır. Bu üç dövlət arasında yaranan ticarət-iqtisadi münasibətləri

Şimali Amerika təsərrüfat kompleksinin formalaşmasına güclü təsir etmişdir.

Qeyd etməliyik ki, Şimali Amerikada inteqrasiya prosesinin güclənməsində 1947-ci ildə «Ebbota planı» deyilən plan böyük rol oynamışdır. Bu plana əsasən Kanadanın aparıcı sahələrinə ABŞ çoxlu investisiya qoymaq imkanı qazanmışdır. Sonralar 1959-cu ildə ABŞ ilə Kanada arasında hərbi sahənin birgə inkişafına dair razılıq da əldə edilmişdir. Bu razılığa əsasən Kanadanın hərbi texnikası Amerika standartlarına əsaslanırdı.

ABŞ ilə Kanada arasındakı inteqrasiya xarakterli əlaqələrin artması ilə 1965-ci ildə yeni bir razılıq əldə edilmişdir. Avtomaşınqayırma məhsulları satışının liberallaşdırılması həyata keçirilmişdir. Bu proses avtomaşın istehsalı ilə bağlı olan bir çox digər sahələrin də inteqrasiya əlaqələrini artırmışdır.

Beləliklə ABŞ, Kanada və Meksikanın ticarət və siyasi cəhətdən birləşdirilməsinin təşkili məsələləri 1970-ci illərdən Vaşinqtonun gündəliyində araşdırılırdı. Əvvəllər bu üç ölkənin energetika idtifaqı yaradılması planlaşdırılırdı. 979-cu ildə Konqress «Şimali Amerikada azad ticarət zonası yaradılması perspektivinin öyrənilməsi barədə» qanun qəbul etmişdir.

Qeyd etdiklərimizdən aydın olur ki, 1988-ci ilə qədər Şimali Amerika ərazisində inteqrasiya prosesləri uzun müddət ayrı-ayrı müəssisə və sahələr səviyyəsində baş verirdi. 1988-ci ilin sentyabr ayında üç illik danışıqdan sonra Amerika ilə Kanada arasında azad ticarət zonası yaradılması barədə razılıq əldə edilmişdir. Bu razılığa əsasən 10 il ərzində ABŞ ilə Kanada arasında azad ticarət zonasının formalaşdırılması nəzərdə tutulmuşdur.

1980-ci illərin axırlarına dünyada baş verən müəyyən siyasi və iqtisadi dəyişikliklər, Avropada və Sakit okean regionunda inteqrasiya proseslərinin artması, Yaponiya ilə rəqabət, Latın Amerikası ölkələrində sosial-siyasi islahatlar və s. k mi proseslər bir daha ABŞ, Kanada və Meksika arasındakı qarşılıqlı iqtisadi əlaqələrin təzələnməsini tələb edirdi. Amerika biznesinin qərb yarımkürəsinə yönəldilməsinə obyektiv zəmin yaranırdı. Amerikada bu kimi birlikilərin daha perspektiv əhəmiyyətə malik

olduğunu görən keçmiş prezident **C.Buş (ata Buş)** göstərirdiki, bu kimi dinamik qruplaşmalar «ümumamerika azad ticarət zonası yaradılmasının əsasını qoya bilərlər». Sonra bu fikri B.Klinton da təkrar etmişdir. ABŞ-ın o vaxtkı prezidenti **B.Klinton** bu məsələnin əhəmiyyətini qeyd edərək göstərirdiki, Şimali Amerika Azad Ticarət zonası (ŞATZ) 700 milyonluq bütün Latın Amerikasının birləşməsinin əsasını qoyacaqdır.

Beləliklə 1992-ci ilin dekabr ayında ABŞ, Kanada və Meksika arasında Şimali Amerika Azad Ticarət Zonası yaradılması barədə razılıq imzalanmışdır. Bu müqavilə 1994-cü il yanvar ayının 1-dən qüvvəyə minmişdir. Şimali Amerika Azad Ticarət Zonası –ŞAATZ (NAFTA) adlanan bu inteqrasiyanın əsas fərqli cəhəti ondan ibarətdir ki, iki inkişaf etmiş ölkə bir çox iqtisadi göstəricilərə görən özündən qat-qat geri qalan bir ölkə ilə birliyə daxil olubdur (Aİ-də bütün ölkələr üçün az fərqli eyni standartlar mövcuddur).

Məlumdur ki, öz iqtisadi potensialına görə ABŞ dünyada birinci yeri tutur. 2005-ci ilin məlumatına görə üç ölkənin ÜDM-i 14356,0 mlrd. dollar təşkil edir ki, bununda 12455,8 mlrd. dolları ABŞ-ın, 1132,4 mlrd. dolları Kanadanın, 768,4 mlrd. dolları isə Meksikanın payına düşür. Həmin göstəricinin həcminə görə ABŞ 1-ci, Kanada 8-ci, Meksika isə 13-cü yeri tutur. Aydındır ki, ABŞ, Kanada və Meksikanın bu birliyə olan baxışları müxtəlif idi.

ABŞ üçün burada məqsəd ancaq iqtisadi cəhətdən deyil, geosiyasi cəhətdən də öz gücünü artırmaq idi. Burada çox geniş miqyaslı məqsəd nəzərdə tutulmuşdur. Amerika məhsulu və xidmətlərinin azad hərəkəti, sərbəst investisiya yeritmək, intellektual mülkiyyət hüququnun müdafiəsi, rəqabətqabiliyyətinin artırılması, regional miqyasda müqayisəli üstünlükdən istifadə edilməsi, Meksikanın ucuz işçi qüvvəsindən və hər iki ölkənin təbii ehtiyatlarından faydalanmaq və sairədən ibarət idi.

Burada Kanadanın marağı nəinki birliyin üstünlüklərini saxlamaq, hətta bəzi müddəaları dəyişdirmək, təkminləşdirmək, Meksika bazarına girişi təmin etmək, gələcəkdə isə Latın Amerikası ölkələrinin bazarına yol açmaqdan ibarət olmuşdur.

Meksikanın mövqeyinə gəlincə göstərməliyik ki, Meksika bu birliyə daxil olmaqla iqtisadi islahatların həyata keçirilməsini və iqtisadiyyatın modernləşdirilməsini sürətləndirə bilir. Keçmişdə Meksika neft ixracından çox asılı idi, bu gün Meksika sənaye məhsulları ixrac edir. Bu isə sabit iqtisadi artıma zəmin yaradır.

Danışıq nəticəsində Meksika Amerika bazarına daxil olmaq imkanı əldə edibdir. Müqavilənin bağlandığı vaxtlar ÜDM-in həcminə görə Meksika 20-ci yerlərdə idi.

ŞAATZ ölkələrinin bəzi göstəriciləri

Ölkələr	Əhalisi, mln. nəfər		ÜDM, mlrd. dollar	
	1992-ci il	2005-ci il	1992-ci il	2005-ci il
ABŞ	255,0	298,0	5920,2	12455,8
Kanada	27,4	32,8	493,6	1132,4
Meksika	89,5	107,0	329,0	768,4
Cəmi	371,9	437,8	6742,8	14356,6

Cədvəldəki göstəricilərdən aydın olur ki, bu üç ölkə üzrə cəmi ÜDM-in hər iki dövrdə 87 %-i ABŞ-ın payına düşür. Bütün bunlara baxmayaraq inteqrasiya proseslərinin həyata keçirilməsi üçün zəruri olan prinsiplər işlənib hazırlanmış və ayrı-ayrı tarixi mərhələlərə bölünmüşdü. Burada aşağıdakı müddəaları qeyd etmək olar:

1) 2010-cu ilədək ölkələrarasında olan ticarətin gömrük haqqının dəyişdirilməsi, əmtəə və xidmətlərin sərbəst hərəkətinə zəmin yaradılması;

2) Azad Ticarət zonası çərçivəsində rəqabət üçün əlverişli şərait yaradılması;

3) Şimali Amerika bazarını Asiya və Avropa şirkətlərinin müdaxiləsindən mühafizə etmək;

4) bu zona çərçivəsində xarici investisiya imkanlarını artırmaq xarici investisiyaya milli rejimin tətbiq edilməsi;

5) hər bir ölkədə intellektual mülki hüququnun qorunub saxlanılması;

6) ticarət üzrə yaranan hər hansı bir münaqişənin ədalətli tənzimlənməsi;

7) ətraf mühitin mühafizəsi işində birgə fəaliyyət göstərmək və s.

Aydındır ki, bu proses uzun bir dövrü əhatə edir və bir dəfəlik akt ola bilməzdi. Burada ticarət sahəsində olan maneəçiliklərin aradan qaldırılması işi dörd mərhələdə nəzərdə tutulmuşdur.

Birinci mərhələdə bir çox məhsullar üzrə tarif dərəcələri ilk növbədə ləğv edilmişdir.

İkinci mərhələdə bu proses bəzi məhsullar üzrə 5 il nəzərdə tutulmuşdur.

Üçüncü mərhələ – 10 ili nəzərdə tutur.

Dördüncü mərhələ isə 15 ili nəzərdə tutmuşdur.

İlk mərhələdə ABŞ Meksikanın ixrac məhsullarının (neft istisna olmaqla) 84 %-nin, Kanada ixracının isə 79 %-nin rüsumlarını ləğv etmişdir. Meksika da öz növbəsində Amerikadan aldığı məhsulların 43 %-ni, Kanada məhsullarının isə 41 %-ni rüsumlardan azad etmişdir (bunların da demək olar ki, 80 %-i əsas kapitaldan ibarət olmuşdur – maşınlar, avadanlıqlar, elektron komponentləri, nəqliyyat vasitələri, kimya məhsulları və s.).

İkinci mərhələdə ABŞ və Kanada Meksikadan alınan 1200 adda əmtəələrin tarif dərəcələrini ləğv etmişdir. Bunlar Meksika ixracının 80 %-ni təşkil edirdi. Meksika da öz növbəsində ABŞ və Kanadadan alınan 2500 növ əmtəənin (müvafiq olaraq cəmi ixracın 18 və 19 %-ni) ticarət dərəcələrini ləğv etmişdir.

Üçüncü mərhələdə ABŞ və Kanadaya olan ixracın 12 və 7 %-nin və Meksikaya olan ixracın isə 48 %-nin tarif dərəcələrinin ləğvi həyata keçirilmişdir.

Nəhayət **dördüncü mərhələdə** bütün qalan məhsullar üçün hər üç ölkədə tarif dərəcələri ləğv edilmişdir.

ŞAATZ-nın ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, ABŞ və Kanada bazarında Meksika məhsullarına heç bir ayrı seçkilik qoyulmamışdır.

Öz növbəsində Meksika da xarici ölkələrin lisenziyaları əsasında məhsul istehsalına imkan verməmiş və xarici lisenziyalardan istifadə dayandırılmışdır. Bu isə Amerikanın və Kanadanın Meksikaya olan ixracının artmasına real zəmin yaratmışdır.

ŞAATZ çərçivəsində bu regionda istehsal olunan məhsulların hansı ölkəyə mənsub olması qaydaları da müəyyən edilmişdir. Bunun üçün istehsalda köklü təkmilləşdirilmə aparılması və istehsal olunmuş məhsulun dəyərində istifadə edilmiş komponentlərin (tərkib hissəsinin) 50-60 %-nin kimə məxsus olması əsas götürülür.

Azad ticarət zonasının əsas xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, ölkələrarasındakı ticarətin tam liberallaşdırılması nəzərdə tutulduğu halda, bəzi istisna hallarına da yol verilmişdir. Belə ki, müqavilə prosesinin gedişində ABŞ dəniz daşımalarını, Meksika isə neft sənayesini bu Azad ticarət zonası fəaliyyətinə daxil etməmişlər. Çünki, Meksika üçün neft sənayesi daha strateji sahə hesab edilir. Dövlət həmin sahəyə investisiya qoymaq hüququnu öz üzərində saxlamışdır. ABŞ isə ancaq neft sənayesinin müəyyən sahələrinə kapital qoymaq razılığı əldə etmişdir.

Azad zona çərçivəsində ayrı-ayrı sahələr üzrə də əlavə razılıqlar həyata keçirilmişdir. Məsələn, xidmət üzrə olan ticarət, kapitalın hərəkəti, intellektual mülkiyyətin qorunması kimi məsələlərə ayrılıqda baxılmışdır. Xidmət ticarəti Meksikanın iqtisadiyyatı üçün daha böyük əhəmiyyət kəsb edir. 80-ci illərdən sonra burada ÜDM-in 50 %-dən artığı xidmət sahəsində yaradılır. Əmək qabiliyyətli əhalinin 60 %-dən çoxu həmin sahədə çalışır. Xidmətlərin bütün növləri demək olar ki, müqavilə çərçivəsində həyata keçirilir – maliyyə xidmətləri (ancaq aviasiya və dəniz daşımalarından başqa), mühasibat uçotu işi, arxitektura sahəsi, nəqliyyat daşımaları, nəşriyyat işi və kommersiya təhsili, reklam, radioeverilişləri, inşaat sahəsi, turizm, səhiyyə, hüquq xidmətləri və s.

Razılaşmaların daha müvəffəqiyyətlə aparılması üçün 30-dan artıq işçi qrupu, komitə və köməkçi orqanlar yaradılmışdır.

Azad ticarət üzrə Komissiya bu birliyin daha mərkəzi qurumu hesab edilir. Bu Komissiya bütün komitələrin fəaliyyətinə nəzarət edir.

Aİ-dən fərqli olaraq ŞAATZ-da hər hansı bir milli çərçivədən üstün tənzimləyici qurum yoxdur.

Bu birlik çərçivəsində ABŞ, Kanada və Meksika öz milli xarici ticarət qanunçuluğunu saxlayırlar. Hələki, gömrük ittifaqı yaradılmışdır. Bütün bunlara baxmayaraq bu birliyin yaradılması ilə hər üç ölkədə iqtisadi ehtiyatlardan daha səmərəli istifadə edilməsi ilə qiymətlərin azaldılması, ətraf mühitin və işlə təmin olunmanın yaxşılaşdırılması, kapital qoyuluşunun intensivləşdirilməsi, texniki tərəqqinin yüksəldilməsi və s. kimi problemlər müvəffəqiyyətlə həyata keçirilir.

Meksika mütəxəssislərinin hesablamalarına görə müqavilənin ilk üç ilində ABŞ – 3,6 mlrd. dollar, Meksika -2,4 mlrd. dollar, Kanada – 1,6 mlrd. dollar fayda əldə etmişlər. 2000-ci illərədək ABŞ, Kanada və Meksika arasında ticarətin həcmi 190 % artmışdır. 2000-ci ildə 1992-ci ilə nisbətən Meksikadan ABŞ-a olan ixrac 2,5 dəfə, Amerikadan Meksikaya olan ixrac isə 2 dəfə artmışdır. Həmin dövrdə ABŞ-ın Kanadaya olan ixracı 1,6 dəfə, Kanadadan ABŞ-a olan ixrac 80 %, Meksikaya olan ixrac 34 %, Kanadaya olan ixrac isə 2,5 dəfə artmışdır.

Bu üç ölkə qarşılıqlı vəziyyətdə iqtisadiyyatın inkişafına 200 mlrd. dollardan artıq vəsait qoyubdurlar. Bütövlükdə isə cəmi sərf edilmiş birbaşa investisiyanın həcmi 864 mlrd. dollara bərabərdir.

ABŞ-ın işgüzar dairələri ŞAATZ-ın fəaliyyətinə çox ümidlə baxırlar. Belə ki, Amerikanın ixracının əhəmiyyətli dərəcədə artması gözlənilir ki, bu da:

1. Əlavə iş yerinin artmasına zəmin yaradacaqdır. Beləliklə yaxın 10-15 ilə Meksika öz iqtisadi inkişafını qabaqcıl sənaye ölkələrinə yaxınlaşdıra biləcəkdir.

2. Əməktutumlu, materialtutumlu və ekoloji cəhətdən baha başa gələn istehsalın ABŞ-dan Meksikaya keçirilməsi imkanı istehsal xərclərinin azalmasına və Amerikanın bir çox sənaye məhsullarının rəqabət qabiliyyətinin artmasına səbəb olacaqdır.

Perspektiv planda isə ŞAATZ-ın TMK-rı Latın Amerikası ölkələrində öz təsərrüfatçılıq fəaliyyətlərini daha da artırmaq

imkanı əldə edəcəklər. 2010-cu ilədək həmin inteqrasiya birliyinin iştirakçıları Şimali Amerika ümumi bazarı yaratmaq sahəsində öz fəaliyyətlərini genişləndirirlər.

9. Cənubi Amerika ölkələrinin iqtisadi inteqrasiyası

Cənubi Amerika ölkələrinin ümumi adı Latın Amerikası adlanır. Bu ərazi özündə 34 müstəqil dövləti və təqribən 12-13 başqa tabeçilikdə olan ərazini birləşdirir. Bu ölkələrə Latın Amerikası və Karib hövzəsi ölkələri də deyirlər.

Bu ölkələrin iqtisadiyyatı tarixən müstəmləkə metropoliyaların tələbatlarının ödənilməsi üzrə uyğunlaşdırılmışlar. Odur ki, onların arasında ərazidaxili əlaqələr yarana bilməmişdir. Ona görə də bu ərazidə ölkələrarası yaxşı nəqliyyat əlaqələrinin olmaması da inteqrasiya birliyinin yaradılmasına maneəçilik törədən amillərdən biri kimi vurğulanır.

Ölkələrarası əlaqələrin zəif olması, Avropa ölkələrindəki kimi ərazi baxımından yaxın – birgə yaşayışın olmaması, milli iqtisadiyyatların biri-birini tamamlaya bilməməsi halları da inteqrasiya birliyi yaradılmasına mane olmuşdur. Bir çox mənada öz ixrac məhsulları hesabına iqtisadiyyat yaratmağa istiqamətlənmişlər.

Bu ölkələrin çoxu açıq iqtisadiyyat modeli ilə iqtisadi böhrandan çıxmaq və yeni dünya təsərrüfatı şəraitinə uyğunlaşmağa çalışmışlar. Lakin xammalların qiyməti aşağı olduğu üçün ixracdan o qədər də valyuta gəlirləri əldə edə bilməmişlər.

Bu ölkələr inteqrasiya birliyi yaradılmasına müxtəlif səpkidə yanaşmışlar. İlk növbədə daxili bazar çərçivəsində idxalı əvəz etməyi qarşıya məqsəd qoymuşlar. Sonra «ərazi açıqlığı» modeli irəli sürmüşlər. Burada aşağı gömrük dərəcələri ilə dünya bazarına çıxışı nəzərdə tuturdular. Onu da qeyd etməliyik ki, bu ərazidə vahid deyil, bir neçə kiçik qruplaşmalar yaranmışdır.

Beləliklə, hələ 1960-cı illərdə Latın Amerikasının bəzi ölkələri öz iqtisadiyyatlarının dirçəldilməsi məqsədi ilə müəyyən

qruplaşdırılmalar yaratmağa səy göstərirdilər. Odur ki, **1960-cı ilin əvvəllərində 6 ölkənin iştirakı ilə mərkəzi Amerika ümumi bazarı yaradılması barədə müqavilə imzalamışlar**. Lakin onlar öz inteqrasiya planlarını həyata keçirə bilməmişlər.

Yenə 1960-cı ildə Uruqvayın paytaxtı Montevideoda müqaviləyə əsasən Latın Amerikası Azad Ticarət Birliyi (LAATB) yaradılmışdır. Bura 10 ölkə daxil olmuşdur – Argentina, Boliviya, Braziliya, Venesuela, Kolumbiya, Meksika, Paraqvay, Peru, Çili, Ekvador. Bu birlik qarşılıqlı ticarətin liberallaşdırılmasını, üçüncü ölkələrə münasibətdə gömrük dərəcələrinin müəyyənləşdirilməsini, daxili bazarın genişləndirilməsini ön plana çəkirdi.

1980-ci ildə yenə Montevideoda keçirilmiş danışıqlara əsasən bu birlik Latın Amerikası inteqrasiya Birliyinə (LAİB) çevrilmişdir. Həmin ildə Uruqvay da bura daxil olmuşdur.

Beləliklə, tədricən Latın Amerikasında böyük birliklər yaradılması praktikasından kiçik qruplaşdırılmalar yaradılmasına keçid başlanmışdır.

Zəif ölkələrdən biri olan Çili, Kolumbiya, Ekvador, Peru və Boliviya öz aralarında eləcə də Braziliya, Meksika və Argentina arasında olan ziddiyyətləri aradan qaldırmaq məqsədi ilə **1966-cı ildə yarım qrup (Aid qrupu) yaratmışlar**.

Həmin ölkələr arasında inteqrasiya prinsiplərinin həyata keçirilməsi üçün 1969-cu ildə Kartaxendə (Kolumbiyada) müqavilə bağlanmışdır. 1973-cü ildə Venesuela bura daxil olmuş, Çili isə 1976-cı ildə bu birlikdən çıxmışdır. 1968-ci ildə Karib Azad Ticarət Birliyi yaranmış, sonra 1973-cü ildə Karib birliyi kimi Karib **Ümumi Bazarına daxil olmuşdur**. Bu Bazar – Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Qayana, Qrenada, Dominika, Sent-Vinsent, Sent-Lyusiya, Trinidad və Tobaqo və Yamaykanı özündə birləşdirir.

Bu kiçik birliklər qeyri-real şəkildə 1990-cı illərədək And qrupu, Mərkəzi Amerika Ümumi Bazarı, Karib birliyi və Karib Ümumi Bazarı (Karikom) kimi mövcud olmuşlar. Lakin istər xarici ticarət əlaqələrində və istərsə də sənaye-maliyyə əmkdaşlığında müəyyən nailiyyət əldə edə bilməmişlər.

Amerika qitəsində inteqrasiya proseslərinin real şəkildə canlanması məhz ŞAATZ-in və Cənubi Konusu ölkələrinin ümumi Bazarının yaradılması ilə başlanmışdır.

Beləliklə, 1990-cı illərdə Mərkəzi və Cənubi Amerikada inteqrasiya prosesləri yenə də canlanmağa başlamışdır. **1991-ci ildə Argentina, Braziliya, Paraqvay və Uruqvay arasında ticarət müqaviləsi bağlanmışdır. Buna Cənubi Amerika Ümumi Bazarı və yaxud Cənub Konusu (Merkosur) deyilir**. Bu müqavilə 1995-ci ilin yanvar ayının 1-dən qüvvəyə minmişdir. Çili və Boliviya da bu birliyin fəaliyyətində iştirak edirlər.

Cənubi Amerika Ümumi Bazarı Latın Amerikasında yaradılan ən böyük birlikdir. Belə ki, 2350 mln. nəfərdən çox əhalini özündə birləşdirən bu qurumda ÜDM-in həcmi 1 trl. dollardan artıqdır. Latın Amerikası üzrə olan cəmi ÜDM-in 50 %-dən artığı, birbaşa xarici investisiyanın 40 %-dən artığı, əmtəə dövriyyəsinin 60 %-dən çoxu bu birliyin payına düşür.

Cənub Bazarı yarandığı vaxtdan (1991-ci ildən) bütün gömrük rüsumlarının və tarif məhdudiyyətlərinin aradan qaldırılmasını planlaşdırmışdır. İşçi qüvvəsinin və kapitalın sərbəst hərəkəti, sənaye, kənd təsərrüfatı, nəqliyyat və rabitə sahələri üzrə inkişaf siyasətinin əlaqələndirilməsi, valyuta-maliyyə sahələrində strateji razılaşmalar ön plana çəkilmişdir.

1994-cü ildən 2000-ci ilədək vahid gömrük ittifaqı yaradılmasına nail olmaq proqramı həyata keçirilmişdir. Bu birlik üzrə ümumi ticarət dövriyyəsinin həcmi 1991-2000-ci illərdə dörd dəfədən çox artmışdır. Bu qruplaşma daxilində olan iqtisadi əlaqələrin artması üçüncü ölkələrdən olan investisiya axınına da zəmin yaradır. Məsələn, Yaponiyanın «Toyota Motor» korporasiyası Argentinada avtomobil zavodu tikilməsinə 100 mln. dollar vəsait qoyubdur. İldə 20 min ədəd yük maşını istehsalı nəzərdə tutulubdur. Bu maşınların 10 min ədədinin Braziliyaya verilməsi və onun müqabilində Braziliya müəssisələrində istehsal olunan komplektləşdirmə məmulatları alınması nəzərdə tutulubdur.

Bu birlik üzrə ÜDM-in 96 %-dən artığı Argentina ilə Braziliyanın payına düşür. Odur ki, məhz bu ölkələr bir çox məhsulların istehsalını xarici rəqabətdən qoruyurlar.

Cənub konusunun idarə edilməsi Şura tərəfindən həyata keçirilir (Şura üzv olan dövlətlərin xarici işlər nazirlərindən ibarətdir). Daimi fəaliyyət göstərən işçi qrupları, komitələr, texniki komissiyalar fəaliyyət göstərir. İqamətgahı Montevideodadır.

Latın Amerikası Cənub konusu ümumi Bazarı ölkələrinin bəzi göstəriciləri (2005)

	Ərazisi, min kv. km	Əhalisi, mln.nəfər	ÜDM, mlrd. dollar
Argentina	2780	40	181,5
Braziliya	8547,8	186	795,7
Paraqvay	407	6,3	7,5
Uruqvay	177	3.4	16,9
	11911,8	235,7	1001,6

10. Cənub-şərqi Asiya ölkələri birliyi (ASEAN)

Asiya Sakit okean ərazisində iki böyük iqtisadi inteqrasiya birliyi mövcuddur:

1. Cənub-şərqi Asiya ölkələri Birliyi (ASEAN).
2. Asiya –Sakit okean iqtisadi əməkdaşlığı – ASOİƏ (ATES).

Başqa ərazilərdə olduğu kimi Asiya ölkələri arasında da iqtisadi əməkdaşlıq formalarından geniş istifadə edilir. Burada inteqrasiya xarakterli əməkdaşlıq formaları da yayılmışdır. Belə ki, **1967-ci ildə avqust ayının 8-də Tailandın paytaxtı Banqkokda** İndoneziya, Malayziya, Sinqapur, Tailand və Filippinin iştirakı ilə cənub-şərqi Asiya ölkələrinin Birliyi (ASEAN) yaradılmışdır. Sonra Bruney – Darüssalam, Vyetnam, Laos, Myanma, Kamboca da bu birliyə daxil olmuşlar (10 ölkə). Papua-Yeni Qvineya da müəyyən proseslərdə iştirak edir. Bu birlik dünyada ən böyük inteqrasiya qruplaşmasının biridir. Bu ölkələrin əhalisi 580 mln. nəfərdən artıqdır. ÜDM-in həcmi təqribən 1 trln. dollardır.

Bu birliyin rəhbərlərinin ilk yığıncağı 1976-cı ildə olmuşdur. Yığıncaqda dostluq və əməkdaşlıq barədə bəyannamə imzalanmışdır.

Deklarasiyada əsas problemlər üzrə bu birliyin üzvlərinin birgə fəaliyyəti, ərazi üzrə və dünya iqtisadi münasibətləri sistemində ümumi mövqedən çıxış etmələri yolları göstərilmişdir.

Banqkok bəyannaməsində sosial-iqtisadi və mədəni əməkdaşlıq, Asiya-Sakit okean ərazisində sülhün və sabitliyin möhkəmləndirilməsi Nizamnamə kimi qeyd edilmişdir. Bu birliyin siyasi və iqtisadi bir mərkəzə çevrilməsi vəzifəsi əsas götürülmüşdür. Azad ticarət və investisiya zonasının formalaşdırılması (2008-ci il), vahid valyutaya keçilməsi və hərtərəfli iqtisadi infrastruktura yaradılması, xarici fəaliyyətin idarə edilməsi üçün xüsusi qurumların formalaşdırılması ön plana çəkilmişdir.

Bu birliyin ali orqanı dövlət başçıları və hökumətin konfransı hesab edilir. Konfrans 3 ildə bir dəfə çağrılır. Xarici işlər nazirləri isə hər il görüşlər keçirirlər. İqtisadiyyat nazirləri isə müntəzəm görüşərək iqtisadi əməkdaşlığa dair gündəlik problemləri müzakirə edirlər.

Daimi katiblik (başda Baş Katib olmaqla) fəaliyyət göstərir. 11 İxtisaslaşdırılmış Komitə mövcuddur. İldə 300-dən artıq məsləhətləşmələr və tədbirlər keçirirlər.

Hazırki dövrə bir çox tədbirlərlə yanaşı bu əraziyə daxil olmayan dövlətlərin bu birliyə qoşulması mexanizmi də işlənmişdir. Birlik çərçivəsində Azad ticarət zonası, investisiya zonası barədə çərçivə müqaviləsi, sənaye üzrə əməkdaşlıq barədə baza müqaviləsi həyata keçirilmişdir.

Dövlətlərin bank sisteminin, silahlı qüvvələrin və milis sisteminin, xarici-siyasi və elmi-texnoloji idarəçiliyin tam birləşdirilməsini nəzərdə tuturlar. Bu mənada birlik özünü hətta Aİ-dən üstün hesab edir. Avstraliya, Kanada, Aİ Yaponiya, Cənubi Koreya, ABŞ və digər ölkələrlə əməkdaşlığın artırılmasına üstünlük verirlər.

Cənubi-şərqi Asiya Birliyi ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

		Ərazisi, min kv.km	Əhalisi, mln. nəfər	ÜDM, mlrd. dollar
1	İndoneziya	1905	242	281,3
2	Malayziya	330	25	131,0
3	Sinqapur	0,640	4,5	117,0
4	Tailand	513	64,2	173,1
5	Filippin	300	88	98,4
6	Bruney	5,8	0,372	9,5
7	Vyetnam	332	83,5	51,4
8	Laos	237	6,2	3,0
9	Myanma (Birma)	677	53	12,2
10	Kamboca	181	14	6,1
	Cəmi	4481	580,8	882,8

11. Asiya – Sakit okean iqtisadi əməkdaşlığı (ASOİƏ) (ATEC)

Bu birlik Asiya-Sakit okean ərazisində yaradılmış ikinci, daha böyük inteqrasiya qurumudur. Qeyd etməliyik ki, bu ərazidə hələ 1967-ci ildə qeyri-dövlət təşkilatı olan Sakit okean iqtisadi Şurası və 1980-ci ildə Sakit okean İqtisadi Əməkdaşlıq Şurası yaradılmışdır. Hər iki qurum öz milli hökumətlərindən hərtərəfli dəstək də alırdılar. Bu əməkdaşlıq 1989-cu ilin noyabr ayında yaradılmışdır və 21 dövləti özündə birləşdirir.

Bu birlik Avstraliyanın təşəbbüsü ilə yaradılmışdır. Əsas məqsəd Sakit okean hövzəsində iqtisadi əməkdaşlığın inkişafından ibarət olmuşdur. Əvvəlcə bura daxil olan ölkələrin sayı 12, sonra 18 və daha sonra 21 olmuşdur. Əvvəlcə ACoİƏ nazirlərin görüşü səviyyəsində fəaliyyət göstərmişdir. 1993-cü ildən isə dövlət başçılarının və hökumətin müntəzəm görüşləri həyata keçirilir.

1993-cü ildə bu əməkdaşlığa daxil olan ölkələrin dövlət başçılarının ilk görüşü olmuşdur (ABŞ-ın Sietl şəhərində).

Bu birlik bütün digər birliklərdən köklü surətdə fərqlənir. Belə ki, bu ölkələr bir çox cəhətlərinə görə biri-birindən kəskin fərqlənirlər. Ona görə də müəyyən problemlərin həllində o qədər də qarşılıqlı razılaşmalar yarana bilmir.

Birliyin əsas cəhətləri aşağıdakılardan ibarətdir:

1. Bu birlikdə inteqrasiya prosesləri əsasən TMK-rın aparıcı rolu ilə həyata keçirilir. Bu isə dövlətlərarası əməkdaşlığa daha çox zəmin yaradır.

2. İnteqrasiya prosesləri iqtisadi, mədəni, sosial-siyasi cəhətdən fərqlənən ölkələr arasında aparılır.

Bu birlikdə iki daha böyük dövlət – ABŞ və Yaponiya və eləcə də Çin iştirak edir.

Onu da qeyd etməliyik ki, ASoİƏ yeganə beynəlxalq inteqrasiya birliyidir ki, Yaponiya orada iştirak edir.

3. Asiya - Sakit okean ərazisisi çərçivəsində olan bu inteqrasiya yarım regional ittifaqlardan ibarət cənub-şərqi Asiya və Şimali Amerika Azad Ticarət zonasını, Cənub-Sakit okean forumunu da əhatə edir, xarici ticarət üzrə inteqrasiya əlaqələri də yarada bilir.

Hər halda müasir şəraitdə bu birlikdə inteqrasiya prosesləri aşağıdakı cəhətləri özündə əks etdirir:

1. 1994-cü ildə İndoneziyanın Baqor şəhərində yüksək səviyyədə keçirilən yığıncaqda qərara alınmışdı ki, inkişaf etmiş ölkələr üçün 2010-cu ilə, digər ölkələr üçün isə 2020-ci ilə azad ticarət zonaları yaradılması və investisiya dairəsində liberallaşdırılma prosesi başa çatdırılmalıdır. Ümumdünya Ticarət Təşkilatının razılaşmalarına uyğun olaraq gömrük dərəcələrinin azaldılması həyata keçirilməlidir.

2. Mütəxəssislərin mülahizələrinə görə ASoİƏ bu regionda ticarət üzrə olan problemlərin müzakirəsi mərkəzinə çevrilə bilər.

3. ABŞ-da və Aİ-də müəyyən himayədarlıq meyllərinin artması dünya ticarətinin sürətlə liberallaşdırılmasında və bu qurumun Asiya ölkələri ilə olan inteqrasiya proseslərində məhdudiyyətliklər yarada bilər.

Hazırda inteqrasiya proseslərinin nəticəsidir ki, bu qruplaşmaya daxil olan bəzi ölkələrdə xüsusən Asiya ölkələrində iqtisadi artım daha dinamik olmuşdur. Odur ki, dünya üzrə ÜDM-də onların payı xeyli artmışdır.

Hazırda dünya üzrə ÜDM-in 60 %-dən artığı ASOİƏ ölkələrinin payına düşür.

Asiya- Sakit okean İqtisadi Əməkdaşlıq ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Dövlətlərin adı	Ərazisi, min kv. km	Əhalisi, mln. nəfər	ÜDM, mlrd. dollar
1	2	3	4	5
1	ABŞ	9364	296	12455,8
2	Yaponiya	372	127,4	4567,4
3	Avstraliya	7741,0	20,1	708
4	İndoneziya	1905	242	281,3
5	Malayziya	330	24,0	131,0
6	Tailand	513	64,2	173,1
7	Filippin	300	88	98,4
8	Çin	9597	1306,5	2234,1
9	Honkonq	1,1	7,0	177,7
10	Bruney	5,8	0,372	9,5
11	Vyetnam	332	83,5	51.4
12	Kanada	9971	33	1132,4
13	Koreya Respublikası	99	48,6	787,6
14	Meksika	1958	106	768,4
15	Yeni Zelandiya	271,0	4,1	108,5
16	Papua-Yeni Qvineya	0,463	5,1	3,9
17	Peru	1285	28	79,4
18	Rusiya	17075	143,6	763,3
19	Sinqapur	0,640	4,4	116,8
20	Tayvan		23,0	
21	Çili	758	16,0	115,3
	Cəmi	61879	2671,0	24763

12. Afrikada inteqrasiya prosesinin inkisafı

Dünyada inteqrasiya proseslərinin inkişafı və beynəlxalq iqtisadi münasibətlərin inkişafına onun təsiri Afrika ölkələrinin də diqqətini cəlb edirdi. Odur ki, 1960-cı illərdən bu ərazidə də iqtisadi əlaqələrin formaları artırdı.

Bir çox başqa ərazilərdə olduğu kimi buradı da ayrı-ayrı ölkələr arasında iqtisadi inkişaf baxımından müəyyən fərqlər vardır. Bu ərazinin ölkələrinin iqtisadi vəziyyəti ümumdünyanın orta səviyyəsindən xeyli aşağıdır. Əvvəllər elə, hazırda da gəlirlərin səviyyəsi, maliyyə potensialı, nəqliyyat imkanları və s. kimi amillərə görə bu ərazi fərqlənir.

Bu kimi xüsusiyyətlərə baxmayaraq 1960-cı illərdən sonra bu qitədə iqtisadi və maliyyə istiqamətlərində 40-a qədər müxtəlif beynəlxalq təşkilatlar yaradılmışdır. Bu təşkilatlar ayrı-ayrı sahələr üzrə və eləcə də dövlət çərçivəsində inteqrasiya əlaqələrini özündə əks etdirir.

Onu da qeyd etməliyik ki, Afrikada inteqrasiya proseslərinin inkişafına keçmiş metropoliyalar da dəstək vermişlər. Lakin aydındır ki, burada əsas məqsəd Afrika dövlətlərini öz təsir dairəsində saxlamaqdan ibarət olmuşdur. Məsələn, fransız dilli, ingilis dilli ölkələrin qruplaşdırılması və s.

Afrika ölkələri uzun müddət müstəmləkəçilikdə olduğuna görə bu ölkələrin daxili bazarı da birtərəfli quruluşa malik olmuşdur. İstehlak səviyyəsi çox aşağıdır. Beləki, bu qitənin cəmi alıcılıq qabiliyyəti təkcə İtaliyanın alıcılıq qabiliyyətindən geri qalır. Hansı ki, Afrikanın əhalisi İtaliyanın əhalisindən 10 dəfədən və ərazisi isə 100 dəfədən artıqdır.

Bütün bu kimi cəhətlərə baxmayaraq Afrika qitəsində müəyyən inteqrasiya qruplaşdırmaları yaranmışdır.

Bunlardan:

1. Qərbi Afrika ölkələrinin iqtisadi Birliyi – QAÖİB (EKOVAS).

2. Şərqi və Cənubi Afrika ölkələrində imtiyazlı (üstünlük verilməsi nəzərdə tutulan əmtəələr üzrə) ticarət zonası – ŞCAÖİTZ (PTA).

3. Cənubi Afrikanın inkişafı Birliyi – CAİB (SADK).
4. Qərbi Afrika iqtisadi və valyuta İttifaqı – QAİvəVİ (ÖMOA).
5. Cənubi Afrika Gömrük İttifaqı – CAGİ (SAKU) və s.

İqtisadi münasibətlərin inkişafı baxımından hər bir yarımqrupun özünəməxsus yeri vardır.

Bu birliklərdən bəzilərinə aydınlıq gətirmək olar.

I. **Məsələn, «Qərbi Afrika ölkələrinin iqtisadi Birliyi» - AÖİB** (EKOVAS) 1975-ci ildə yaradılıbdır və 16 ölkəni özündə birləşdirir. Bunlar:

1. Benin
2. Burkina-Faso
3. Kabo-Verde
4. Kot-d-İvuar
5. Qambiya
6. Qana
7. Qvineya
8. Qvineya-Bisau
9. Liberiya
10. Mali
11. Mavritaniya
12. Niger
13. Nigeriya
14. Seneqal
15. Syerra-Leone
16. Toqo

Bu birliyin üzvləri ticarət, infrastruktura, elm və texnika sahəsində əməkdaşlığın inkişafını ön plana çəkmişlər.

Burada:

- milli siyasətlərin əlaqələndirilməsi və inteqrasiya proqramlarına dəstək verilməsi;
- iqtisadi və valyuta ittifaqı üzrə ümumi bazar yaradılması;
- valyuta əməkdaşlığı proqramının həyata keçirilməsi;
- ərazi üzrə ticarətin liberallaşdırılması proqrammı;
- milli investisiya üzrə olan qanunçuluğun uyğunlaşdırılması;
- birgə istehsal, müəssisələr, kiçik və orta kampaniyalar yaradılması yolu ilə balanslaşdırılmış regional inkişafa nail olmaq;
- texniki komissiya çərçivəsində aşağıdakı sahələr üzrə layihə və proqramlar hazırlamaq – sənaye üzrə; elm, texnika və energetika üzrə; ərzaq və kənd təsərrüfatı üzrə; nəqliyyat, rabitə və turizm üzrə; ticarət, gömrük və vergi qoyulması üzrə; ətraf mühit və təbii ehtiyatlar üzrə; valyuta-pul məsələləri və öhdəliklər üzrə; siyasi, hüquqi və səlahiyyət məsələləri üzrə; maliyyə və inzibati məsələlər

üzrə; sosial və mədəniyyət məsələləri üzrə. Onu da qeyd etməliyik ki, bu qurum çərçivəsində əməkdaşlıq fondu da yaradılmışdır.

II. Qeyd etdiyimiz kimi Afrikada yaranan iqtisadi qurumlardan biri də **«Şərqi və Cənubi Afrika ölkələrində imtiyazlı ticarət zonasıdır».** Bu birlik özündə 18 dövləti birləşdirir: Anqola, Burundi, Komor adaları, Cibuti, Həbəşistan, Keniya, Lesoto, Malavi, Mavrikiy, Mozambik, Ruanda, Somali, Sudan, Svazilend, Tanzaniya, Uqanda, Zambiya və Zimbabve. Bu qurum azad ticarət zonası mərhələsindədir. Bu birlik 1993-cü ildə Uqandanın Kampala şəhərindəki müqaviləyə əsasən «Şərqi və Cənubi Afrikanın ümumi bazarı» - ŞvəCAÜB (KOMESA) adlandırılmışdır.

Burada 2000-ci ilə ümumi bazarın formalaşdırılması, 2020-ci ilə isə Valyuta İttifaqı yaradılması, iqtisadi, hüquqi və inzibati sahələrdə əməkdaşlığın inkişafı nəzərdə tutulmuşdur.

III. **«Afrikanın cənubunun inkişafı Birliyi» (SADK)** 1973-cü ildə yaradılmışdır. 10 ölkəni özündə birləşdirir – Anqola, Botsvana, Lesoto, Malavi, Mozambik, Namibiya, Svazilend, Tanzaniya, Zambiya və Zimbabve.

Bu birlik siyasi-iqtisadi bir regional qurumdur.

IV. **Qərbi Afrika iqtisadi və valyuta İttifaqı (ÖMOA)** 1994-cü ildə yaradılıb, 7 dövləti özündə birləşdirir. Bunlar: Benin, Burkina-Faso, Kot-d-İvuar, Mali, Niger, Seneqal, Toqo. Bu qurum 1973-cü ildə yaradılmış qərbi Afrika valyuta İttifaqı əsasında formalaşmışdır.

Əsas məqsəd iqtisadi inteqrasiyanın inkişafı, ümumi bazar yaradılması, Milli iqtisadi siyasətlərin əlaqələndirilməsi, müəyyən qanunvericiliklərin uyğunlaşdırılması və s. problemlər nəzərdə tutulmuşdur.

V. **Cənubi Afrika Gömrük İttifaqı (SAKU)** 4 ölkəni özündə birləşdirir: Botsvana, Lesoto, CAR və Svazilend. Bütün qeyd etdiklərimizdən görünür ki, Afrika dövlətlərinin demək olar ki, hamısı eyni zamanda müxtəlif birliklərə qoşulmaqla öz ölkələrinin sosial-iqtisadi inkişafına yol açmağa çalışırlar.

VII FƏSİL
DÜNYA İQTİSADİYYATI VƏ NƏQLİYYAT SİSTEMİ

1. *İqtisadi inkişafda nəqliyyat amilinin rolu.*
2. *Dünya dəmir yolu nəqliyyatı sistemi.*
3. *Dünya avtomobil yollarının inkişafı.*
4. *Dünya üzrə dəniz gəmiçiliyi nəqliyyatı.*
5. *Dünya üzrə dəniz limanları və iqtisadi inkişafda onların rolu.*
6. *Beynəlxalq dəniz kanalları və beynəlxalq yükdaşımalarda onların rolu.*
7. *Dünya boru kəmərləri nəqliyyatı və beynəlxalq yükdaşımalarda onların rolu.*
8. *Dünya hava nəqliyyatı.*

1. İqtisadi inkişafda nəqliyyat amilinin rolu

Nəqliyyat özlüyündə infrastruktur bölməyə aid olmaqla sənayeləşmə prosesinin tərkib hissəsidir. Bu amil istər məhsuldar qüvvələrin inkişafında və yerləşdirilməsində və istərsə də BİM-in hərtərəfli dərinləşməsində klassik bir amil kimi böyük əhəmiyyət kəsb edir. Haqlı olaraq qeyd edirlər ki, nəqliyyat cəmiyyətin inkişafında **«körpü» rolu oynayır**.

Cəmiyyətin inkişafında nəqliyyatın, xüsusilə dəmir yollarının çəkilməsinin zəruriliyini və bunun üçün güclü kapitalın olmasını nəzərdə tutan **K.Marks hələ o** dövrdə göstərirdi ki, kapitalın təmərküzləşməsi olmasa idi dünya dəmir yolsuz qalardı.

Hələ müstəmləkəçilik dövründə o ölkələrdə yeni xammal növlərinin axtarılıb tapılması, daşınması, sənayeləşmə dövründə emal sənayesinin yanacaq, enerji, xammal sahələrinə yaxın uzaq olması, hazır məhsulun istehlakçılara çatdırılması və bu kimi yüzlərlə problemlər nəqliyyatın inkişayını tələb edirdi.

Nəqliyyatın inkişafı dedikdə yalnız yük və sərnişin daşınması prosesi nəzərdə tutulmur. Nəqliyyat özlüyündə demək olar ki, tamamilə ağır sənaye sahələrinin məhsulu olub digər sahələrin inkişafını da şərtləndirir.

Məhz elə nəqliyyat amilinin inkişafı nəticəsində böyük əraziyə malik olan ölkələrdə istehsalın mütəşəkkilliyi mümkün olmuşdur. Kanada, ABŞ, Braziliya, Avstraliya, Rusiya və s. kimi ölkələrdə yeni ehtiyatların mənimsənilməsi ancaq nəqliyyatın inkişafı nəticəsində həyata keçirilmişdir.

Məhz nəqliyyatın inkişafı nəticəsində yüzlərlə, bəlkə də min kilometrlərlə uzaq məsafədən gətirilən xammalın, ayrı-ayrı hissələrin hesabına ixtisaslaşdırılmış emal sənayesi müəssisələri yaradılmışdır.

Beləliklə əsas infrastruktura sahəsi olan nəqliyyat, dünya təsərrüfatının inkişafı və dəyişilməsində istehsalçıların, satıcıların və alıcıların qarşılıqlı əlaqələrində, coğrafi baxımdan əmək bölgüsünün dəyişilməsində demək olar ki, barometr rolu oynayır. ETİ-in təsiri altında elə nəqliyyatda da köklü dəyişikliklər olmuşdur.

Nəqliyyat sisteminin araşdırılmasında adətən üç göstərici əsas götürülür:

1. Bütövlükdə nəqliyyat şəbəkəsi.
2. Nəqliyyatın işləməsi.
3. Əsas yük və sərnişin daşımaları.

Dünya nəqliyyat şəbəkəsi (qovşağı) dedikdə bütövlükdə nəqliyyatın inkişafı, onun ayrı-ayrı növlərinin müasir vəziyyəti nəzərdə tutulur.

Burada bir tərəfdən nəqliyyatın inkişaf dinamikası, digər tərfdən isə nəqliyyat şəbəkəsinin ayrı-ayrı növlərinin müasir vəziyyəti araşdırılır.

Bu mənada aşağıdakı cədvəldə dünya nəqliyyat şəbəkəsinin vəziyyətini əks etdirən göstəricilərə nəzər salaq (1950-2000-ci illər).

Nəqliyyat şəbəkəsinin növləri	Uzunluğu, min km		
	1950	1980	2000
Dəmir yolu	1320	1248	1250
Avtomobil yolu	15540	22300	28000
Gəmiçilik çayları və kanalları	560	540	550

Neftboru kəmərləri	175	520	760
Magistral qaz kəmərləri	1860	760	1200
Hava yolları	3300	6900	10500

Nümayiş etdirilən göstəricilərdən aydın olur ki, vahid nəqliyyat şəbəkəsinin ayrı-ayrı növlərinin uzunluğunun dəyişilməsində kəskin fərq vardır. Belə ki, ən köhnə nəqliyyat növü olan dəmir yolları və gəmiçilik çayları və kanallarının uzunluğu demək olar ki, sabit qalmışdır.

Nəqliyyat şəbəkəsinin daha yeni növləri hesab edilən avtomobil yolları. Boru nəqli, hava yolları isə əsaslı sürətdə artmışdır.

Dünya nəqliyyatı sistemində ikinci əsas cəhət **nəqliyyatın işidir**. Nəqliyyatın işində həlledici amil yükdaşıma ilə sərnişin daşımanın həcmi və quruluşu əsas götürülür.

Yükdaşımanın həcmi də iki cür hesablana bilər:

- **daşınan yükün ümumi kütləsi ilə**. 1990-cı illərin əvvələrində bu göstərici 100 mlrd. tondan artıq idi;

- **daşınan yükün dövriyyəsi ilə**. Məsələn, ola bilər ki, daşınan yükün həcmi çox olar, lakin məsafəsi qısa və yaxud əksinə olar.

Burada yalnız yükün həcmi deyil, daşımanın məsafəsi də nəzərə alınır ki, bu da ton/kilometrlərlə hesablanır. Bu göstərici 1950-ci illərdə 7 trl.t/km, 2000-ci ildə isə 50 trl.t/km olmuşdur.

Aydındır ki, yükdaşımanın quruluşunda da (hansı nəqliyyatla daşınmasında) ciddi dəyişikliklər baş vermişdir.

Yükdaşımanın quruluşu, %-lə (1950-2000-ci illər)

	1950	2000
Dəmir yolu ilə	31	14
Avtomobil yolu ilə	7,5	10,0
Daxili su yolları ilə	5,5	3,0
Dəniz yolları ilə	52	61,0
Boru nəqli ilə	4	12

Nümayiş etdirilən göstəricilərdən aydın olur ki, son dövrlərdə dəmir yolu və daxili su yolları ilə daşımaların xüsusi çəkisi azalmış, avtomobil və dəniz ilə daşımalar isə artmışdır.

Beynəlxalq daşımalarda, xüsusilə qitələrarası daşımalar da dəniz nəqliyyatının xüsusi çəkisi daha artıqdır (təqribən 80 %).

Son dövrlərdə duru yanacaq və qaz yanacağının, xammalın rolu artdığı üçün boru ilə nəqletmənin də xüsusi çəkisi artmışdır.

Başqa bir cəhəti də qeyd etməliyik ki, ümumiyyətlə yükdaşımalarda avtomobil nəqliyyatının öhdəsinə daha çox yük düşür. Lakin avtomobil ilə daşıma orta hesabla 30 km, dəniz ilə daşıma isə orta hesabla 7-8 min km təşkil edir. Odur ki, dəniz ilə olan yük dövriyyəsi daha artıq olur və nisbətən ucuz başa gəlir.

Sərnişin daşınması da öz növbəsində sərnişin ərin sayı və sərnişin dövriyyəsi ilə müəyyən edilir. Hazırda ildə bütün nəqliyyat növləri ilə **1 trl. nəfərdən artıq** sərnişin daşınır. Sərnişin dövriyyəsi isə 1950-ci illərdə **2,5 trl. sərnişin kilometrdən artaraq** 2000-ci ildə 19 trl. sərnişin kilometr təşkil etmişdir.

Burada əsas yeri avtomobil ilə daşımalar tutur. Xüsusilə yüngül minik maşınları ilə daha çox sərnişin daşınır (60 %).

Bütünlükdə yükdaşımalar və sərnişin daşımaları qitələrarası və qitələr daxili formada həyata keçirilir. Qitələrarası daşımalarda əsas yeri dəniz nəqliyyatı tutur. Burada neft, durulaşdırılmış təbii qaz, kömür, dəmir filizi, boksidlər, avtomobillərin daşınması və s. kimi kütləvi şəkildə olan məhsullar əsas yer tutur.

Qitələrdaxili daşımalarda isə (istər yük və istərsə də sərnişin) əsas yeri avtomobil və dəmir yolu nəqliyyatı tutur.

Neft və təbii qaz isə əsasən boru nəqli ilə həyata keçirilir. Aydındır ki, dünya nəqliyyatının perspektiv inkişafı hər şeydən əvvəl dünya üzrə iqtisadiyyatın və ticarətin ink şafından və eləcə də dünyada və regionlarda baş verən geosiyasi vəziyyətdən asılıdır.

Bütün başqa problemlərdə olduğu kimi burada da ayrı-ayrı yarımsistem ölkələr fərqləndirirlər.

Belə ki, ümumi nəqliyyat şəbəkəsi uzunluğunun **80 %-ə** qədəri, cəmi yükdaşıma dövriyyəsinin **70 %-i** (dəyər göstəricisi ilə **80 %-i**) sərnişin daşınmasının daha çox hissəsi inkişaf etmiş ölkələrin payına düşür.

Dünya üzrə avtomobil parkının 80 %-ə qədəri, bütün növ limanların (dəniz, təyyarə) 60 %-ə qədəri bu ölkələrə məxsusdur.

Bu yarımsistem ölkələrdə cəmi yükdaşımanın 40 %-i avtomobil, 25 %-i dəmir yolu, 35 %-i isə digər növ nəqliyyatla həyata keçirilir.

İEOÖ-də isə nəqliyyat sisteminin inkişafı daha fərqli cəhətlərlə xarakterizə edilir.

Cəmi nəqliyyat şəbəkəsi uzunluğunun 20 %-i, yükdaşımanın isə 20 %-ə qədəri (dəyər ifadəsi ilə) bu ölkələrin payına düşür.

Dünya üzrə yüngül minik maşınları parkının 40 %-i, yük avtomobilləri və avtobus parkının isə 20 %-i bu ölkələrə məxsusdur. Nəqliyyatın texniki səviyyəsi və əhalinin hərəkəti İEOÖ-rə nisbətən burada çox geridir. Bu yarımsistemlərdə olan cəhətlərlə yanaşı bütövlükdə nəqliyyat sisteminin formalaşmasında da regional fərqlər az deyildir.

Regional xüsusiyyətlərdə məhsuldar qüvvələrin inkişaf səviyyəsi, iqtisadiyyatın sahəvi və ərazi quruluşu, əhalinin yerləşməsi xarakteri və sıxlığı, ictimai əmək bölgüsünün vəziyyəti müəyyənləşdirilir. İqtisadi rayonların formalaşması, hər bir ölkənin və regionun beynəlxalq iqtisadi münasibətlərdə iştirakı səviyyəsi, tarixi inkişafın xüsusiyyətləri, təbii şərait, nəqliyyatın inkişafı siyasəti və digər cəhətlər həlledici rol oynayır.

Bu baxımdan regional nəqliyyat sistemi Şimali Amerikada daha yüksək inkişaf tapmışdır.

Dünya üzrə cəmi yollar uzunluğunun 30 %-i, avtomobil yollarının və qaz kəmərlərinin isə daha çox hissəsi bu regionun payına düşür.

Şimali Amerika regionu bir çox nəqliyyat növləri üzrə cəmi yük dövriyyəsinin həcminə görə dünyada birinci yeri tutur.

Bu regionda daxili yükdaşımanın quruluşunda 26 % avtomobil yollarının; 28 % dəmir yollarının; 18 % su yollarının; 28 % boru kəmərlərinin payına düşür.

Sərnişin daşınmasında isə ayrı-ayrı nəqliyyat növləri arasında daha kəskin fərq vardır. Bu sahədə yüngül minik maşın-

ları ilə daşımalar 81 %, hava yolları 16 %, avtobuslarla daşımalar 2 %, dəmir yolları ilə olan daşımalar isə 1 % təşkil edir.

Avropada regional nəqliyyat sistemi, xüsusilə daşımaların uzunluğuna görə Şimali Amerikadan fərqlənir (geri qalır). Lakin hər 1000 km²-ə düşən yolun uzunluğuna və hərəkətin çoxluğuna görə Şimali Amerikanı qabaqlayır. Hər iki regionda avtomobilləşmə, boru nəqli, hava nəqliyyatı daha geniş inkişaf tapmışdır. Dəmir yolu və daxili su yollarının rolu isə azalmışdır.

Regiondaxili yükdaşımaların 67 %-i avtomobil, 19 %-i dəmiryolu, 8 %-i su yolu, 6 %-i boru nəqli vasitəsi ilə həyata keçirilmişdir.

Sərnişin daşımalarda isə avtomobil yolu ilə daşımaların xüsusi çəkisi 54 %, dəmir yolu – 21 %, avtobuslar – 17 %, hava yolları isə 8 % təşkil etmişdir.

Nəqliyyat sisteminin araşdırılmasında əsas göstəricilərdən biri də yolun sıxlığıdır. Yəni hər 1000 km²-ə düşən yolun uzunluğudur. Aydındır ki, bu göstərici hər bir ölkənin yol tələ təmin olunma dərəcəsini göstərir. Ərazisi böyük olan ölkələrdə yol ilə təmin olunmanın daha böyük əhəmiyyəti vardır.

Bu sahədə Avropa dünyada birinci yeri tutur. Almaniya, Fransa, Böyük Britaniya, Benilüks ölkələrində, İsveç və Danimarkada hər 1000 km²-ə düşən yolun uzunluğu 50-100 km təşkil etdiyi halda, ABŞ-da 30, Kanadada 2-3, bir çox ölkələrdə hətta 1 km-ə də çatmır.

Digər regionların da özünəməxsus nəqliyyat sistemləri formalaşıbdır. Bəzilərində dəmir yoluna, bəzi yerlərdə isə digər növ yollara üstünlük verilir.

Keçmiş SSRİ-də olan vahid nəqliyyat sistemi MDB ölkələrində də hələki qalmaqdadır. Dünya nəqliyyat sisteminin cəmi 10 %-ə qədəri bu ölkələrin payına düşür. Ümumi yükdaşımalarda da (xüsusilə dəmir yolu ilə) bu region əsas yerlərdən birini tutur.

Rusiya ümumi yükdaşımaların həcminə görə (3,3 mlrd. t/km) ancaq ABŞ və Çindən geri qalır. Burada ümumi yük dövriyyəsində boru kəməri – 57 %, dəmiryolu – 34 %, avtomo-

bil nəqliyyatı 1 % təşkil edir. Yük daşımada isə (yəni yükün həcmi baxımından) dəmiryolunun xüsusi çəkisi – 37 %, boru kəməri – 34 %, avtomobil yolu – 25 %-ə bərabərdir.

Rusiyada sərnişin daşınması dövriyyəsinin 30-35 %-i avtomobil və dəmiryolunun payına düşür.

Azərbaycanda bütün növ nəqliyyat vasitələri ilə 2005-ci ildə 128 mln. ton yük daşınmışdır (bu rəqəm 1995-ci ildə 3 dəfə az – 42 mln. ton olmuşdur). 2005-ci ildə cəmi yük daşımaların 24 %-i dəmiryolunun, 12 %-i dəniz, 64 %-i avtomobil nəqliyyatının payına düşmüşdür.

2. Dünya dəmiryolu nəqliyyatı sistemi

Dəmir yolu nəqliyyatının tarixi o qədər də qədim deyildir. Bu nəqliyyatın yaranması sənaye inqilabı dövründən başlanmışdır. İlk dəmiryolu **1830-cu ildə** İngiltərədə **Liverpul-Mançester** xəttinin açılışı olmuşdur.

Elə həmin ildə ABŞ-da ilk dəmiryolu çəkilmişdir. Bu yol Çarlston və Oqasta şəhərlərini birləşdirmişdir. Fransada ilk dəmir yolu 1833-cü ildə, Almaniyada və Belçikada 1835-ci ildə, Rusiyada 1837-ci ildə (Peterburq – Üarskoe Selo arasında 26 km) çəkilmişdir.

Azərbaycanda ilk dəmiryolu 1878-1879-cu illərdə Bakı və Balaxanı arasında çəkilmişdir. 1880-ci ildə isə həmin yolun neft sahələrinə gedən hissəsi işə salınmışdır (Bakı - Balaxanı – Sabunçu – Suraxanı). Həmin dövrdə Bakı neftinin Qara dəniz limanlarına çıxarılması zərurəti artırdı. Ona görə də neft sənayesi sahibkarlarının vəsaiti ilə Bakı – Tiflis dəmir yolu çəkilməsinə başlanmış və 1883-cü ildə işə salınmışdır.

Beləliklə 1900-cu ildə Bakı – Dərbənd xətti birləşdirilmişdir. 1908-ci ildə Tiflis – Yerevan- Uluxanlı – Noraşen – Culfa dəmiryolunun, 1941-ci ildə Ələt – Culfa xətti, sonralar digər yollar da çəkilmişdir. Hazırda Azərbaycanda dəmiryolunun uzunluğu 2008 km (o cümlədən elektrikləşdirilmiş yollar 1111 km) təşkil edir.

Beləliklə həmin illərdə gərgin dəmiryolu tikintisi başlanmışdır. 1850-1900-cu illər arasında dünyada 800 min km dəmiryolu istifadəyə verilmişdir. 1920-ci ildə dəmiryolunun uzunluğu 1,2 mln. km-rə çatmışdır. Əlbəttə bütün bunlar dünya təsərrüfatının formalaşmasına güclü təsir edirdi.

Lakin digər nəqliyyat növləri də inkişaf etdiyi üçün 1920-ci illərdən 1970-ci illərədək dəmiryolu nəqliyyatının inkişafı zəifləmişdir. Nəticədə dünya üzrə yük və sərnişın daşımalarında onun xüsusi çəkisi azalmışdır. Bununla yanaşı dəmiryolu şəbəkəsində genişlənmə, yeni texnologiyaya keçilməsi, elektrikləşdirmə, mexanikləşdirmə və avtomatlaşdırılma sisteminə keçilməsi, hesablama texnikasından istifadə edilməs , sürətli qatarlara keçid və s. artmışdır.

Beləliklə, 1990-cı illərin ikinci yarısına dəmiryolu nəqliyyatındakı vəziyyət sabitləşmişdir. 2000-ci ilə dünya üzrə dəmiryolunun uzunluğu 67 ölkənin misalında təqribən 900 min km-dir. Bu kimi sabitləşməyə baxmayaraq bəzi ölkələrdə dəmir yolu tikintisi aparıldığı halda, bəzilərində əksinə mövcud dəmir yolunun sökülməsi və azaldılması müşahidə olunur.

Məsələn, 1950-1995-ci illərdə ABŞ-da dəmiryolunun uzunluğu 360 min km-dən 195 min km-dək, Böyük Britaniyada 34 min km-dən 17 min km-dək, Fransada 45 min km-dən 32 min km-dək azalmışdır. Bununla yanaşı həmin dövrdə keçmiş SSRİ-də, Çində, Kanadada, Hindistan və bəzi digər ölkələrdə əlavə yollar çəkilmişdir.

Aşağıdakı cədvəldə dəmiryolunun uzunluğu 0 min km-dən artıq olan 21 ölkənin göstəriciləri nümayiş etdirilmişdir.

1990-cı illərin axırları

	Ölkələr	min km
1	ABŞ	195
2	Rusiya	86
3	Kanada	80
4	Hindistan	59
5	Çin	58

	Ölkələr	min km
11	Polşa	23
12	Ukrayna	23
13	CAR	23
14	Braziliya	22
15	Yaponiya	20

6	Almaniya	38
7	Avstraliya	33
8	Argentina	33
9	Fransa	32
10	Meksika	27

16	Böyük Britaniya	17
17	İtaliya	16
18	Qazaxıstan	14
19	İspaniya	14
20	Rumıniya	11
21	İsveç	11

Onu da qeyd etməliyik ki, burada bəzi tabeçilikdə olan yollar nəzərə alınmır. Məsələn ABŞ-da bundan əlavə 45 min km, Rusiyada – 68 min km, Çində – 8 min km tabeçilikdə dəmiryolu vardır. Dünya üzrə dəmiryolu ilə yükdaşıma dövriyyəsi 1990-cı illərdə 5,6-5,7 trl. ton/km, 2000-ci illərdə isə 4 trl. ton/km təşkil etmişdir.

Dəmir yolu ilə ən çox yük dövriyyəsi olan ölkələr (2000-ci illərin əvvəli)

	Ölkələr	mlrd. t/km
1	ABŞ	2230
2	Çin	1225
3	Rusiya	1200
4	Hindistan	285
5	Ukrayna	160

	Ölkələr	mlrd. t/km
6	CAR	105
7	Qazaxıstan	100
8	Almaniya	74
9	Polşa	60
10	Fransa	53

Son on illiklərdə dəmiryolu ilə sərnişin daşınması da nisbətən azalmışdır. 2000-ci illərin əvvəllərinə bu göstərici 1850-1900 mlrd. sərnişin km olmuşdur.

Dünya dəmiryolu şəbəkəsində və onun işləməsində əsas məsələlərdən biri də bu yolların elektrikləşdirilmə səviyyəsidir. Bu göstərici 17 ölkənin misalında aşağıdakı kimidir (%-lə).

İsveçrə -	95	İspaniya -	54	Rumıniya -	35
İsveç -	69	Almaniya -	50	Böyük Britaniya -	31
İtaliya -	65	Polşa -	50	Qazaxıstan -	27
Avstriya -	61	CAR -	50	Çin -	23

Yaponiya -	60	Rusiya -	47	Hindistan -	23
		Fransa -	45		
		Ukrayna -	40		

Bunlardan əlavə bütövlükdə dəmiryolu o qədər də uzun olmayan, lakin elektrikləşdirmə səviyyəsi daha yüksək olan bəzi ölkələri də qeyd etmək olar: məsələn, Gürcüstan – 100 %, Lüksemburq – 95 %, Belçika – 74%, Niderland – 73 %, Bolqarıstan – 63 %, Norveç – 62 % və s.

Kanada və Avstraliya kimi inkişaf etmiş ölkələrdə elektrikləşdirilmiş yol yoxdur. ABŞ-da bu göstərici 1 %-dir. Bu ölkələr dizel yanacağından istifadəyə daha çox üstünlük verirlər.

Rusiya kimi böyük əraziyə malik olan ölkədə 1970-1980-ci illərdə dəmiryolunun uzunluğu 225 min km olduğu halda hazırda 160 min km-dir. Bununda 70 min km-ri yeraltı və digər xətlərdən ibarətdir. Rusiyada cəmi yük dövriyyəsi 1,2 trln. t/km təşkil edir.

Son dövrlərdə dəmiryolu quruculuğunda həyata keçirilən ən mütərəqqi istiqamətlərdən biri yüksək sürətli magistral xətlərə keçilməsidir. Saatda 200-300 km sürətlə gedən ekspress sərnişin qatarlarından istifadə artmışdır. Belə yolların ilk təşkilatçısı Yaponiya və Fransa olmuşdur. Sonra belə yolların çəkilişini Almaniya, İtaliya, ABŞ (Vaşinqton - Nyu-York, Los-Anceles – Las-Veqas arasında), Koreya Respublikası (Seul-Pusan arasında) və Çin həyata keçirmişlər.

3. Dünya avtomobil yollarının inkişafı

Dünya nəqliyyat sistemi şəbəkəsində avtomobil yolu nəqliyyatının özünəməxsus yeri vardır. Belə ki, bu nəqliyyat sistemi əhalinin daha çox hissəsi tərəfindən istifadə oluna bilir və nisbətən orta istifadə olunma məsafəsi qısadır. Bu nəqliyyat növü ayrı-ayrı rayon, şəhər, ölkə və regionların əlaqələndirilməsində daha əlverişlidir. Bu nəqliyyat növünün əsas xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, o, milli daşıma-

larda daha çox üstünlük təşkil edir. Lakin beynəlxalq daşımalarda da az rol oynamır. Bu nəqliyyat iqtisadi inkişafda istifadə olunan ən çevik amillərdən biridir. Onu da qeyd etməliyik ki, ilk avtomobil XIX əsrin axırlarında yaradılmışdır.

XX əsrdə isə nəqliyyatın bu növü geniş inkişaf yüsəti almışdır. 1900-cu ildə bütün dünyada cəmisi təqribən 6 min avtomobil vardır. 1950-ci illərdə onların sayı 62,3 mln, 60-cı illərdə 103 mln., 70-ci illərdə 246, 4 mln., **2000-ci illərdə isə yük maşınlarının sayı 140 mln., yüngül minik maşınları isə 460 mln. ədəd olmuşdur**.

Beləliklə avtomobilin gündəlik insan həyatına daxil olması bütünlükdə iqtisadiyyatda, sosial sahələrdə və ekologiyada güclü dəyişikliyə səbəb olmuşdur. Onu da qeyd etmək kifayətdir ki, bütün digər nəqliyyat növlərinin heç birisi avtomobillərin birbaşa iştirakı olmadan keçinə öilməz. Ona görə də bütövlükdə nəqliyyat sisteminin inteqrasiyası avtomobil nəqliyyatı vasitəsilə baş verir.

Nəqliyyatın bu növünü xarakterizə edən əsas göstəriçilərdən biri avtomobil **yollarının uzunluğudur**. Aydındır ki, burada da inkişaf etmiş ölkələr daha çox üstünlüyə malikdirlər. Belə ki, dünya üzrə cəmi avtomobil nəqliyyatı uzunluğunun **təqribən 85 %** bu ölkələrə məxsusdur.

2000-ci ilə dünyada yaxşılaşdırılmış örtüklə mövcud olan cəmi avtomobil yolunun uzunluğu **12,7 mln. km olmuşdur**. Bu yollarla daşınan cəmi yük ildə 20 mlrd. tona bərabərdir. 29 qabaqcıl ölkənin misalında cəmi daşınan yük dövriyyəsi 3247 mlrd. t/km-ə bərabərdir. Cəmi yolların uzunluğunda və yük daşımalarda olduğu kimi, möhkəm öotüklü yollarda da əsas yeri inkişaf etmiş ölkələr tutur.

Avtomobil nəqliyatı yolu daha uzun olan 20 ölkə (2000-ci ilin əvvəli)

	Ölkələr	min km
1	ABŞ	6300
2	Hindistan	3350
3	Braziliya	2000
4	Çin	1300
5	Yaponiya	1150
6	Rusiya	900
7	Kanada	900
8	Fransa	900
9	Avstraliya	800
10	Almaniya	650
11	CAR	530
12	Türkiyə	380
13	Polşa	380
14	Böyük Britaniya	370
15	İspaniya	350
16	İndoneziya	350
17	İtaliya	310
18	Meksika	250
19	Pakistan	230
20	Argentina	220

Son dövrlərdə avtomobil yollarının uzunluğu o qədər də sürətlə artmamışdır.

Lakin yolların təkmilləşdirilməsi bərk öotüklər salınması kimi keyfiyyət dəyişiklikləri artmışdır. Belə ki, 1950-ci illərdə cəmi avtomobil yollarının təqribən 50 %-i bərk örtüklü olduğu halda, hazırda bu rəqəm 90 %-ə bərabərdir. Burada da avtostradın (ikitərəfli avtomobil yollarının) xüsusi çəkisi artır. Belə yol ilk dəfə ABŞ-da 1914-cü ildə, Almaniyada 1921-ci ildə, İtaliyada 1924-cü ildə tikilmişdir. Hazırda belə yollar çox ölkələrdə vardır.

Bundan əlavə burada da yolun sıxlığı deyilən göstəricidən də istifadə edilir. Yəni hər 1000 km² -ə düşən yolun uzunluğu göstəricisi də avtomobil yolu nəqliyyatının inkişafını əks etdirir. Bu göstəriciyə görə Belçika (4700 km); Yaponiya (3000 km); Niderland (3350 km); Almaniya (1800 km); İsveçrə (1800 km) daha irəlidədirlər. Böyük əraziyə malik olan ölkələrdə isə bu göstərici aşağıdır.

Başqa nəqliyyat növlərində olduğu kimi burada da adətən yük və sərnişin daşıma dövriyyəsindən istifadə edilir.

2000-ci ilin məlumatına görə avtomobil nəqliyyatı ilə daşınan cəmi yük dövriyyəsi 3500 mlrd. t/km (dəmir yoluna nisbətən az) olmuşdur.

Avtomobil nəqliyyatı ilə daşınan yük dövriyyəsinin həcmi çox olan ölkələr (2000-ci illərin əvvəli)

	Ölkələr	Yük dövriyyəsi, mlrd. t/km
1	ABŞ	1450
2	Yaponiya	310

3	Almaniya	280
4	İtaliya	200
5	İspaniya	190
6	Meksika	165
7	Fransa	160
8	Böyük Britaniya	155
9	Türkiyə	140
10	Polşa	95

Sərnişin daşınması dövriyyəsi isə 10000-11000 mlrd. sərnişin km təşkil etmişdir. Bu göstəriciyə görə avtomobil nəqliyyatı birinci yeri tutur.

Avtomobil nəqliyyatının inkişafı məsələsində avtomobil parklarının həcmi də böyük əhəmiyyət kəsb edir. Ona görə də bu göstəricilərinin də nümayiş etdirilməsi zərurət təşkil edir.

Belə ki, Birinci Dünya Müharibəsi ərəfəsində dünya üzrə avtomobil parklarında 350 min, İkinci Dünya müharibəsində 46 mln, 1975-ci ildə 300 mln., 1997-ci ildə 600 mln. avtomaşın olmuşdur. Burada əsas yeri yüngül minik maşınları, ikinci yeri yük maşınları, üçüncü yeri isə avtobuslar tutur.

Dünya təsərrüfatındakı ümumi qanunauyğunluqları bir daha nümayiş etdirmək üçün 10 mln. maşından artıq olan avtomobil parkına malik bəzi ölkələri veririk (2000-ci illərin əvvəli).

	Ölkələr	Avtomobil parkı, mln. maşın		
		cəmi	O cümlədən	
			Yüngül minik maşınları	Yük maşınları və avtobuslar
1	2	3	4	5
1	ABŞ	215	207	8
2	Yaponiya	70	50	20
3	Almaniya	45	42	3
4	İtaliya	33	31	2
5	Fransa	32	27	5
6	Böyük Britaniya	24	21	3

1	2	3	4	5
7	Rusiya	22	17	4
8	Kanada	20	13	7
9	İspaniya	18	15	3
10	Braziliya	16	13	3
11	Meksika	13	9	4
12	Çin	13	7	6
13	Avstraliya	11	9	2
14	Polşa	11	9	2
15	Koreya Respublikası	10	8	2

Nümayiş etdirilən göstəricilərdən aydın olur ki, ilk 7 yeri yenə də qabaqcıl ölkələr tutur. Çin, Hindistan, Braziliya və Meksika kimi inkişaf etməkdə olan ölkələr bəzi digər sahələrdə olduğu kimi burada da fərqlənirlər. Son dövrlərdə ABŞ-ın mövqeyi dəyişilmişdir. Belə ki, 1950-ci illərdə dünya avtomobil parkının 60 %-dən artığına malik olduğu halda hazırda bu rəqəm təqribən 30 % təşkil edir. Əlbəttə bu göstəricilər ölkənin avtomobilləşmə səviyyəsini göstərir.

Bununla yanaşı bu sahədə əhalinin hər 1000 nəfərinə düşən yüngül minik avtomobillərinin sayı kimi göstəricilərdən də istifadə edilir. Bu amil Qərbi Avropa ölkələrində 300-500; ABŞ-da – 520; Kanadada – 460; Yaponiyada – 370; Avstraliyada – 490; Yeni Zelandiyada – 470 ədəddir.

Neft ixrac edən ölkələrdən Bruneydə bu göstərici 575; Küveytdə – 360; Livanda – 730; Bəhreyndə – 240; Qətərdə – 220 ədəddir.

Afrikanın və Asiyanın bəzi ölkələrində isə bu göstərici çox aşağıdır. Belə ki, MAR, Somali və Tanzaniyada hər 1000 nəfər əhaliyə 0,1; Mozambikdə 0,3; Banqladeşdə – 0,5; Həbəşistanda - 0.9 ədəd minik maşın düşür. Avtomobilləşmə səviyyəsini xarakterizə etmək üçün bir yüngül minik maşınına düşən adamların sayı kimi göstəricidən də istifadə etmək olar.

ABŞ-da bu göstərici 1,7; Kanada, Almaniya, Fransa, Böyük Britaniya və Yaponiyada – 2-3; Braziliyada -12; Hindistanda – 250; Çində isə 300 nəfərdir.

Azərbaycanda avtomobil yollarının uzunluğu təqribən 27 min km-dir. İpək yolunun çəkilişi ilə ümumi yolların uzunluğu və onların yaxşılaşdırılması artacaqdır.

4. Dünya üzrə dəniz gəmiçiliyi nəqliyyatı

Gəmiçilik və yaxud dəniz nəqliyyatı dəmiryolu və avtomobil nəqliyyatına nisbətən daha qədimdir. Hazırda da dünya nəqliyyatı sistemində və bütövlükdə iqtisadiyyatda onun çox böyük rolu vardır.

XX əsrin ikinci yarısından bir çox inkişaf etmiş ölkələrin ucqar ölkələrdən yanacaq və xammal alması asılılığı daha çox artmışdır. Bu ölkələrin məhsulunun böyük bir qismi istehsaldan uzaqlarda istehlak olunurdu. Bütün bunlar öz növbəsində dəniz nəqliyyatının daha da inkişafını tələb edirdi. Dünya iqtisadiyyatındakı qloballaşma prosesi də dəniz nəqliyyatının inkişafına güclü təsir etmişdir.

Onu qeyd etmək kifayətdir ki, Böyük Britaniya və Yaponiyada cəmi xarici ticarət daşımalarının 98 %-i, ABŞ-da isə 90 %-i dəniz nəqliyyatının birbaşa iştirakı ilə həyata keçirilir. Tam inamla göstərmək olar ki, dünya miqyasında baş verən beynəlxalq iqtisadi əlaqələrin 80 %-ə qədərinə gəmiçilik nəqliyyatı xidmət göstərir.

Dəyər göstəricisi ilə dünya yük dövriyyəsində dəniz nəqliyyatının payı 60-62 % təşkil edir.

Dəniz nəqliyyatı ilə yük dövriyyəsi və daşınan yükün həcmi

İllər	Yük dövriyyəsi, mlrd. t/km	Daşınan yükün həcmi, mln. t
1950	3750	550
1970	18145	2480
1990	28100	4000
2000	31000	5100

Göstərilən məlumatlardan aydın olur ki, son 50 ildə dəniz ilə olan cəmi yük dövriyyəsi və eləcə də yük daşınmasının təqribən 9 dəfəyədək artmışdır. Burada müəyyən məhsulların daşınması məsafəsi dəyişdiyinə görə yük dövriyyəsi (t/km) çox artmamışdır. Lakin dəniz yük daşımalarının quruluşunda ciddi dəyişiklik baş vermişdir.

1950-1970-ci illərdə məhlul (neft və s.) şəklində olan yüklər 41-55% təşkil etdiyi halda, 1990-cı illərdən sonra daş kömür, dəmir filizi, boksidlər, taxıl, ərzaq, maşınlar və s. daşınmasının xüsusi çəkisi artmışdır.

Coğrafi baxımdan dəniz ilə yük daşımaların 45 %-i inkişaf etmiş ölkələrin, 51 %-i inkişaf etməkdə olan ölkələrin, 4 %-i isə keçid iqtisadiyyatı ölkələrinin payına düşür. Göründüyü kimi son dövrlərdə İEOÖ-rin, xüsusilə yeni sənaye ölkələrinin rolu xeyli artmışdır.

Dünya dəniz gəmiçilik nəqliyyatında ayrı-ayrı okeanların roluna gəldikdə qısa da olsa qeyd etməliyik ki, hələ böyük coğrafi kəşflərdən indiyədək 5 əsrdir ki, **Atlantik** okeanı daha yüksək xüsusi çəkiyə malikdir. Bu da bir çox təbii, iqtisadi, tarixi amillərlə şərtlənir. Eləcə də burada dəniz sahilinin **morfologiyası**, körfəz və limanların çox olması kimi amillərin təsiri az deyildir.

Bir çox dəniz sahili ölkələrdə, ərazilərdə şəhərləşmə səviyyəsinin yüksək olması, əhalinin çox olması, sosial-iqtisadi inkişafın yüksək olması bu okeanın sahillərində dəniz limanlarının artmasına zəmin yaratmışdır. Məhz Atlantik okeanında bir neçə istiqamətdə dəniz gəmiçiliyi formalaşmışdır.

ABŞ ilə Qərbi Avropa arasında, Aralıq dənizi ilə, Şimal və Norveç dənizləri arasında olan istiqamətlər çox böyük yükdaşımalar həyata keçirirlər.

Maraqlıdır ki, XIX əsrin əvvələrindən bu okeanda üzən gəmi kompaniyaları arasında «Atlantikanın mavi lenti» adı altında yarış gedir (daha qısa müddətə okeanı keçmək uğrunda). İlk dəfə 1819-cu ildə Amerikanın «Savanna» gəmisi 28 sutkaya, 1838-ci ildə İngiltərənin «Qreyt Vestern» gəmisi Avropa ilə Amerika arasında olan məsafəni 14,5 sutkaya qət etmişdir. 1938-

ci ildə İngiltərənin «Luzitaniya» gəmisi 4 sutka 20 saata, 1938-ci ildə Fransanın böyük sərnişin gəmisi «Normandiya» 4 sutka 3 saata, 1948-ci ildə İngiltərənin «Kuin Meri» gəmisi 3 sutka 12 saata, nəhayət 1952-ci ildə Amerikanın «Yunayted Steyts» gəmisi 3 sutka 10 saata keçmişlər. Bütün bunlarla yanaşı Atlantik okeanında – Cənubiatlantik (Avropa – Cənubi Amerika), Qərbiatlantik (Afrika - Avropa), Asiyadan Avropa və ABŞ-a olan istiqamətlərdəki, yükdaşımalar da böyük əhəmiyyət kəsb edirlər.

Dəniz yükdaşımalarında ikinci yeri **Sakit** okean tutur. Təqribən 25 %, hələki, bu okean Atlantik okeanından çox-çox geri qalır. Lakin nəzərə almaq lazımdır ki, bu okeanın sahillərində təqribən 2,5 milyard nəfər əhali yaşayan 30 ölkə yerləşibdir. Burada da dünyanın bir çox böyük limanları yaradılıbdır və onlar güclü yükqaldırma imkanlarına malikdirlər.

Burada ABŞ və Kanadanı Şərqi və Cənub-şərqi Asiya ilə birləşdirən şimal Sakit okean istiqamətini, ABŞ-ın Atlantik okean sahillərini **Havay** adaları ilə və **Panama kanalı ilə** Yaponiyanı birləşdirən istiqamətlərini, **Avstraliya ilə** Yaponiyanı və **Şərqi Asiyanın digər** ölkələrini birləşdirən **Transokean** istiqamətlərini qeyd etmək olar.

Dəniz gəmiçiliyi ilə yük daşımalarda üçüncü yeri Hind okeanı tutur – təqribən 15 %. Bu okeanın sahillərində təqribən 1,5 mlrd. nəfər əhaliyə malik 30 ölkə yerləşir. Bu okeanda **Süveyş kanalı** vasitəsi ilə **Avropadan Asiya və Avstraliyaya** olan yükdaşımalar əsas yeri tutur.

Yükdaşımaların intensivliyinə görə Hind okeanı Atlantik və Sakit okeandan geri qalsa da, neft daşımalarına görə onlardan irəlidədir.

Şimal Buzlu okeanı dünya dəniz gəmiçiliyində o qədər də geniş rola malik deyildir.

5. Dünya üzrə dəniz limanları və iqtisadi inkişafda onların rolu

Dünya dəniz nəqliyyatının və yaxud dəniz gəmiçiliyinin inkişafı əsasən dəniz limanlarının sayı, onların vəziyyəti, təkmilləşdirilməsi, yük dövriyyəsi, gəmilərin sayı, onların yük tutumu və yükqaldırma qabiliyyəti və digər göstəricilərlə xarakterizə edilir.

Qeyd etməliyik ki, limanların sayı barədə müxtəlif fikirlər mövcuddur. Belə ki, bəzi ədəbiyyatlarda yerli kiçik limanlar da nəzərə alındığı üçün onların sayının 25-30 min, bəzi ədəbiyyatlarda isə 10 min olduğu göstərilir.

Lakin daha böyük, beynəlxalq yükdaşımalarda iştirak edən limanların sayının 2200 olduğu da göstərilmişdir. Bunlardan 900 ədəd Avropada, 500 ədəd Amerikada, 400 ədəd Asiyada, qalanları isə digər ərazilərdədirlər.

Dəniz limanlarının işində əsas göstəricilərdən biri onların yük dövriyyəsidir. Məsələn, illik yük dövriyyəsi 1 mln. tondan artıq limanlar yüzlərlədir. 10-30 mln. ton yük dövriyyəsi olan limanlar da az deyildir. Yük dövriyyəsi ildə 50-100 mln. ton olan limanlar **«dünya limanları»** adlanırlar. Belə limanların sayı təqribən 40-a qədərdir ki, bunlar da dünya iqtisadiyyatının və beynəlxalq əlaqələrin genişlənməsində daha böyük rol oynayırlar.

Bütün dəniz limanları **universal və ixtisaslaşdırılmış** limanlara bölünürlər.

Adından da məlum olduğu kimi universal limanlar hər cürə müxtəlif yükləri qəbul edir, yerləşdirir, qruplaşdırır və sortlaşdırırlar və s. Belə limanlar inkişaf etmiş ölkələrə daha çox xasdır.

Aşağıdakı cədvəldə illik yük dövriyyəsi 75 mln. tondan artıq olan bəzi universal dəniz limanları verilmişdir(2000-ci ilin əvvəlləri).

İllik yük dövriyyəsi 75 mln. tondan artıq olan bəzi limanlar

	Limanların adı	Ölkənin adı	Yük dövriyyəsi, mln. t
1	Sinqapur	Sinqapur	325
2	Rotterdam	Niderland	320
3	Yeni Orlean	ABŞ	225
4	Şanxay	Çin	185

5	Syanqan	Çin	175
6	Tiba	Yaponiya	170
7	Xyuston	ABŞ	160
8	Naqoya	Yaponiya	155
9	Ulsan	Koreya Respublikası	150
10	Antverpen	Belçika	130
11	Long-Biç	ABŞ	125
12	İnçxon	Koreya Respublikası	120
13	Pusan	Koreya Respublikası	115
14	İokoqama	Yaponiya	115
15	Qaosyun	Tayvan	115
16	Los-Anceles	ABŞ	115
17	Quançjou	Çin	100
18	Sinxuandao	Çin	95
19	Ninbo	Çin	95
20	Marsel	Fransa	95
21	Osako	Yaponiya	90
22	Riçarde-Bey	CAR	90

Buradan bir neçə istiqamətdə nəticə çıxartmaq olar. Əvvəla onu qeyd etmək olar ki, bu limanların çoxu Asiya ölkələrinə məxsusdur. Bu isə iqtisadiyyatda Asiya – Sakit okean regionunun rolunun artdığına bir sübutdur. Eləcə də qeyd etməliyik ki, ən böyük limanların sayına görə Çin (5), Yaponiya (4), sonra isə ABŞ (4), Koreya Respublikası (3) üstünlük təşkil edirlər

İllik yük dövriyyəsi 20-50 mln. ton olan universal limanlar isə təqribən 50 ədəddir. Bu cür limanlar ABŞ və İtaliyada daha çoxdur (hər birində 6 ədəd), sonra isə Böyük Britaniya, Fransa və Yaponiya (hər birində 3 ədəd) fərqlənirlər.

İxtisaslaşdırılmış limanlar isə müəyyən məhsul növləri (duru məhsul) üzrə xidmət göstərirlər. Belə limanlar inkişaf etməkdə olan ölkələrə daha çox xasdırlar. Bu sahədə daha

böyük limanlar neft ixracı ilə bağlı olaraq yaranmışlır (Fars körfəzindədirlər) – Səudiyyə Ərəbistanında Ras-Tannura, Küveytdə – Mina-Əl-Ahmədi, İranda – Hark və s.

Neft ixracı üzrə ixtisaslaşdırılmış ən böyük limanlardan Nigeriyada – Bonni, Meksikada – Tampiko, Liviyada – Es-Sider, İndoneziyada – Dumay, Alyaskada – Valdiz və s. qeyd etmək olar. Ən böyük limanlardan biri də Braziliyada dəmir filizi ixracı üzrə ixtisaslaşdırılmış Tubaran limanıdır (250 min ton yük).

Onu da qeyd etməliyik ki, son dövrlərdə bir çox hallarda ayrı-ayrı limanlar deyil, limanlar kompleksinin (liman – sənaye kompleksi) inkişafı prosesi genişlənmişdir. Bu komplekslər sadəcə olaraq 2-3 limanın birliyi deyil, onların qovuşması, biri-birinin işini tamamlaması deməkdir.

Məsələn, Tokio körfəzində Keyxin Yaponiya limanları kompleksi – Tiba, İokoqama, Tokio və Kavasaki limanlarını özündə birləşdirir. Belə komplekslərdən Qərbi Avropadada, ABŞ-da da (Delavər körfəzində) vardır.

Bir çox hallarda limanlar və limanlar kompleksi quru ilə dənizin qovuşduğu zonalarda birləşdirici zəncirvari mərkəz yarada bilirlər. Bu isə bütövlükdə bu komplekslərin işinə yüksək sürət verir. Hazırda Rusiya ərazisində 40-a qədər dəniz limanı vardır ki, bu da keçmiş SSRİ-də olan cəmi dəniz limanlarının 75 %-ə qədərinə bərabərdir. Lakin ancaq Novorossiysk limanının illik yük dövriyyəsi 50 mln. tona çata bilir. Ona görə də Rusiyanın xarici ticarət dövriyyəsinin 30 %-dən artığı Baltikyanı ölkələrin, Ukraynanın, Finlandiyanın limanları vasitəsilə daşınır.

Dəniz limanlarının işinin xarakterizə edilməsində əsas cəhətlərdən biri də istifadədə olunan gəmilərin sayı, onların yüktutumu və yükqaldırma qabiliyyətidir. 2000-ci illərin əvvəllərinə olan məlumata görə dünya dəniz limanlarının istifadəsində təqribən 80 min gəmi var idi (1950-ci ildə 31 min olmuşdur). Lakin yükqaldırma qabiliyyəti 300 tondan yuxarı götürülərsə, onda bu gəmilərin sayı təqribən 40 min təşkil edir.

Dünya üzrə ticarət gəmilərinin cəmi yükqaldırma qabiliyyəti 800 mln. ton dedveyt təşkil edir.

Dəniz gəmiçiliyinin əsas göstəricilərindən biri kimi dəniz limanlarının inkişafı da dünya iqtisadiyyatının real vəziyyətini əks etdirir.

1950-ci ildə dəniz limanlarının yükqaldırma qabiliyyəti – 135 mln. ton dvt-dən 6 dəfə artaraq 800 mln. ton dvt-yə çatmışdır. Bu göstərici 2006-cı ildə 900 mln. dvt. olacaqdır.

XX əsrin ikinci yarısından beynəlxalq ticarətin qurulu-şunda köklü dəyişikliklər baş verdiyi üçün dünya dəniz limanlarının tərkibində də dəyişiklik olmuşdur.

Belə ki, 1970-ci illərədək dünya dəniz limanlarında neft daşınması üstünlük təşkil edirdi. Sonrakı onilliklərdə (balker limanlar)[5] limanların tərkibində universal gəmilərdən ixtisaslaşdırılmış gəmilərə keçilmişdir (kömür, filiz, meşəmaterialı, banan, avtomobildaşıyan və s.). Konteynerdaşıyan gəmilərin xüsusi çəkisi artmışdır.

Eləcə də kombinələşmiş gəmilərin sayı artırılır (taxıldaşıyan, taxıl və avtomobil daşıyan, durulaşdırılmış təbii qaz, metaldaşıyan və s.). Nəticədə 2000-ci illərin əvvəllərinə dünya dəniz limanlarının tərkibi başqa cür formalaşmışdır, konteynerdaşıyan gəmilərin sayı artmışdır.

40 mindən ibarət cəmi gəmilərin təqribən 17,5 min ədədi maşınlar, sənaye məhsulları, yarım fabrikatlar daşıyan; 6,9 min ədədi neft tankerləri; 5,9 min ədədi balkerlər; 3,5 min ədədi sərnişin gəmiləri; 2,2 min ədədi konteynerdaşıyan; 1 min ədəd metaldaşıyan tankerlər; 3 min ədəd digər gəmilərdən (balıqtutan gəmilər bura daxil deyil) ibarətdirlər. Son dövrlərdə kütləvi yükdaşıyan gəmilərin sayı daha çox artmışdır.

Sərnişin daşıyan gəmilərin sayı və tonnajı isə azalmışdır. Bu heçdə o demək deyildir ki, dəniz sərnişinləri azalmışdır. Bir çox hallarda sərnişin gəmiləri vaxtaşırı – ardıcıl yola çıxmaq deyil, turist gəzintilərinə xidmət edirlər. Ona görə də XX əsrin birinci yarısında mövcud olan «Kuin Elizabet», «Kuin Meri», «Normandiya», «Yunayted Steyts» və s. kimi iri nəhəng gəmilərə nisbətən yeni gəmilərin tonnajı azalmışdır.

[5] Balker (ingilis sözü – səpmək, tökmək) – açıq məhsul daşıyan gəmilər.

Məlumat üçün qeyd etməliyik ki, nəhəng ingilis layneri «Kuin Elizabet» 1938-ci ildə yaradılmışdır (2002-ci ildə 102 yaşında dünyasını dəyişmiş ana kraliçanın adı şərəfinə belə adlandırılmışdır). Böyük tankerlər yaradılana qədər bu layner yalnız sərnişin üzrə deyil, bütünlükdə dünya dəniz limanının ən böyük gəmisi hesab edilirdi. «Kuin Elizabet»in 14 göyərtəsi vardı (idman üçün, günəş üçün, gəzinti üçün). Bunların hamısı yuxarı hissədə yerləşmişdir. Bu göyərtələri 35 lift birləşdirirdi. Laynerin rulu – 140 ton idi. Tüstü çıxan borunun diametri o qədər böyük idi ki, paralel gələn üç dəmir yol qatarı birlikdə ora yerləşə bilərdi.

İkinci dünya müharibəsi dövründə «Kuin E izabet» hərbi nəqliyyat gəmisi kimi istifadə edilirdi. 1944-cü ildə sərnişin daşıyırdı. 15200 hərbi qulluqçu götürürdü. Müharibədən sonra Amerika hərbiçilərini Avropadan öz vətənlərinə daşımışdı. Sonra bu nəhəng gəminin taleyi gətirməmişdi. Əvvəlcə bu gəmini bir Amerika şirkəti almışdır. Sonra Honqonqun bir milyonçusu hərracda onu 3,1 mln. dollara almışdır. O həmin gəmini «üzən universitet» kimi avadanlıqlarla təchiz etmişdir. Elə həmin vaxt birinci yola düşməsi də elan edilmişdir. Lakin 1972-ci ildə (yanvarda) «Kuin Elizabet» yanmışdır. Beləcə ingilis gəmiqayırmasının şah əsəri olan dünyada ən böyük sərnişin gəmisi sıradan çıxmış oldu.

Ancaq Amerika firmasının sifarişi ilə İtaliyada 101 min tonluq böyük sərnişin gəmisi düzəldilmiş və 1990-cı ildə suya buraxılmışdır. Bu gəmi Karib dənizində turistləri gəzdirmək üçün istifadə edilir.

Beləliklə dünya üzrə dəniz limanlarının inkişafı və təkmilləşdirilməsi prosesi ardıcıl olaraq davam etdirilir.

Mütəxəssislərin hesablamalarına görə 2006-cı ilə ümumi yükqaldırmanın həcmi 900 mln. ton dvt.-yə çatdırılacaqdır.

Azərbaycanda ən böyük liman Bakıdır. Buradan Həştərxana, Maxaçqalaya, Mərkəzi Asiyaya, İrana, eləcə də Volqa-Baltik su sistemi vasitəsilə dünyanın bir sıra limanlarına keçmək mümkündür.

Dünya dəniz limanlarında olan gəmilərin sayı (2000-ci ilə)

	Ölkələr	Gəmilərin sayı, ədədlə
1	Yaponiya	8640
2	Panama	6140
3	ABŞ	5640
4	Rusiya	4700
5	Çin	3280
6	Sent-Vinsent və Qrenadin	2440
7	Koreya Respublikası	2420
8	Norveç	2350
9	Filippin	1900
10	Sinqapur	1730
11	Liberiya	1630
12	Malta	1570
13	Kipr	1560
14	Yunanıstan	1500
15	İtaliya	1400
16	Baham adaları	1300
17	Türkiyə	1150
18	Danimarka	1050
19	Almaniya	1030
20	Hindistan	970
21	Tayvan	680
22	Malayziya	630

Cədvəldəki məlumatlardan aydın olur ki, bir çox digər göstəricilərdə olduğu kimi burada, inkişaf etməkdə olan ölkələr o qədər də geridə qalmırlar. Hətta bir çox inkişaf etmiş ölkələri yükqaldırma gücünə görə qabaqlayırlar. Məsələn, Yunanıstan, Yaponiya, Böyük Britaniya, Almaniya, Fransa, Danimarka və İsveçdə son dövrlərdə dəniz gəmilərinin sayında azalma meyli olduğu halda, Çin, Hindistan və Braziliyada, eləcə də Asiya və Latın Amerikasının digər ölkələrində dəniz flo-

tunun sayı artmışdır. Bu isə onların iqtisadi inkişafının artmasını və beynəlxalq əmək bölgüsünə qoşulma səviyyəsinin yüksəlməsini göstərir.

6. Beynəlxalq dəniz kanalları və beynəlxalq yükdaşımalarda onların rolu

Dəniz nəqliyyatı sistemində dəniz kanalları və körfəzləri də böyük rola malikdir. Bu kanallardan ən çox diqqəti cəlb edəni **Süveyş kanalı** ilə **Panama kanalıdır**.

Süveyş kanalı Misirdə eyni adlı boğazdan başlayaraq (Afrika ilə Asiyanı birləşdirir) şimaldan cənuba Port-Səiddən Qırmızı dənizdə Süveyşə qədər uzanır.

Aralıq dənizi ilə Qırmızı dənizin birləşdirilməsi ideyası hələ orta əsrlərdə ərəblərdə yaranmışdır. Sonra belə fikir XIV Lüdovikin (1638-1715-ci illərdə Fransa kralı) vaxtında, sonralar Napoleonun vaxtında da mövcud olmuşdur.

Nəhayət XIX əsrin ortalarında Fransız mühəndisi və diplomatı Ferdinand Lesseps bu kanalın çəkilməsi barədə Misir valisindən razılıq almışdır. Bu iş 10 ildən artıq davam etmişdir. Nəhayət 1869-cu ildə (17 noyabr) kanalın açılışı olmuşdur. Kanalın uzunluğu 161 km, dərinliyi 17 m, eni – 120-150 metrdir. Aralıq dənizi ilə Qırmızı dəniz eyni səviyyədə olduğu üçün (cəmi 23 sm fərq var) su axını üçün xüsusi şlyüz tikilməsinə də ehtiyac olmamışdır.

Əvvəllər nisbətən kanala yüngül gəmilər buraxılırdı. Sonralar isə kanal bir neçə dəfə dərinləşdirilmiş, onun yük və gəmi buraxma gücü xeyli artmışdır.

XX əsrin əvvəllərində kanaldan gedən gəmilərin illik sayı 4 min ədəd və yükün həcmi 20-30 mln. ton olduğu halda, hazırda gəmilərin sayı 20 min, yükün həcmi isə 250 mln. tona bərabərdir. Buradan da aydın olur ki, Süveyş kanalı Avropa ilə Asiya ölkələrini bir-birinə bağlayan ən böyük dəniz yoluna çevrilmişdir. Bu kanal ilə daşınan yüklərin əsas hissəsini Fars körfəzindən Avropaya aparılan neft təşkil edir. Ona görə də

kanal ilə cənubdan şimala aparılan yükün həcmi əks istiqamətdəkindən (yəni şimaldan cənuba) 4 dəfə artıqdır.

Süveyş kanalının iqtisadi əhəmiyyətini göstərmək üçün yükdaşımalarda yollara nə qədər qənaət edildiyinin bəzi məqamlarını vermək kifayətdir.

Yollara qənaət edilməsi

	Limanlar	Yolun uzunluğu, dəniz mili[1] ilə		Yolun qısaldılması	
		kanal vasitəsi ilə	Afrika ölkələrini keçməklə	dəniz mili	%-lə
1	Odessa – Bombey	4198	11878	7680	65
2	Genuya – Bombey	4478	10576	6098	53
3	Marsel – Bombey	4573	9824	5251	54
4	London – Bombey	6260	10721	4461	41
5	Hamburq – Bombey	6567	11028	4461	40
6	London – Kalkutta	7945	11598	3652	33
7	Liverpul– Iokoqama	11113	14438	3323	24
	Cəmi	45134	80062	34926	

Müqayisə etdirilən göstəricilərdən aydın olur ki, yalnız bu bir neçə liman arasında nə qədər yola qənaət etmək olur.

Bütün bunlarla yanaşı kanaldan istifadə edilməsində müəyyən problemlər də yaranmışdır.

Belə ki, hələ 1950-1970-ci illərdə kanal ilə daşımaların işi 2 dəfə pozulmuşdur.

Birinci dəfə Fransa ilə Böyük Britaniyaya məxsus olan «Süveyş Kanalı Kompaniyası»nın 1956-1957-ci illərdə Misir tərəfindən millilləşdirilməsi uğrunda kəskin mübarizə getdiyi dövr idi. Ona görə də kanalda gəmiçiliyin işinə həmin ölkələrin çox mənfi təsiri olurdu. Bu isə aydındır ki, kanalın işini tamam iflic vəziyyətinə salmışdı.

[1] 1 dəniz mili – 1852 metrdir.

Sonralar 1967-1975-ci illərdə ərəblərlə İsrail arasında gedən müharibə nəticəsində kanalda gəmilərin hərəkəti dayandırılmışdır.

1975-ci ildə kanalda gəmiçiliyin işi yenidən bərpa edilmişdir. Həmin vaxtdan kanalda yük daşınması sürətlə artmışdır. 2000-ci illərin əvvəllərinə kanala daxil olan gəmilərin sayı ildə 20 minə, yükdaşımanın həcmi isə 350 mln. tona çatmışdır. Bu, dəniz ilə olan bütün yükdaşımaların təqribən 10 %-nə bərabərdir.

Son dövrlərdə kanalın genişlənməsi və dərinləşməsi işi daha ardıcıl aparılmış və eni 365 metrə, dərinliyi isə 21 metrə çatdırılmışdır. Bu isə kanalın tam güclə işləməsinə zəmin yaratmış və daha böyük gəmilərin işləməsi imkanı artmışdır.

Əlbəttə bütün bunlar kanalın istifadə edilməsində müəyyən çətinliklər də yaratmışdır. **Belə ki, birinci** kanalın işinin dayandırıldığı vaxtlar Fars körfəzindən neft daşıyan böyük tankerlər Avropaya başqa yollarla hərəkət etməyə başlamışlar. **İkincisi neft** yükləri ümumiyyətlə azalmışdır. **Üçüncü** Süveyş kanalında Süveyş –İskəndəriyyə kimi ikixətli rəqib yaradılmışdır (bu xətt 1979-cu ildə inşa edilmiş və ildə 100 mln. tondan artıq neft buraxmağa qadirdir).

Beləliklə Süveyş kanalı ilə yükdaşımaların quruluşu da, əsaslı sürətdə dəyişilmişdir (hər halda qərbdən şimala olan neft yükləri artıq üstünlük təşkil edə bilmir).

Qeyd etdiklərimizdən aydın olur ki, bütünlükdə dünya iqtisadi əlaqələrinin inkişafında və Misirin iqtisadi inkişafında Süveyş kanalının böyük rolunu nəzərə alaraq Misir hökuməti əsas valyuta mənbəi olan bu su yolunun inkişafı üçün hər cür tədbirlər həyata keçirməyə çalışır. Bir çox yüklərin daşınmasında rüsum haqqları azaldılmışdır.

İkinci əsas beynəlxalq kanal Panama kanalıdır. Panama kanalı Panama boğazından çəkilmiş süni su yoludur. Atlantik okeanı ilə Sakit okeanı birləşdirir. Panama boğazının kəşfi XVI əsrdə baş vermişdir. Bu boğazdan kanal çəkilməsi ideyası da bir neçə dəfə (xüsusilə İspaniyada) qaldırılmışdır.

Lakin kanalın çəkilməsi 1880-ci illərdə başlanmışdır. Bu işi də Süveyş kanalının çəkilişindəki Ferdinand Lessepsin rəh-

bərlik etdiyi Fransa kompaniyası öz üzərinə götürmüşdür. Lakin 10 ildən sonra bu kompaniya bankrot olmuşdur. Odur ki, 1904-1914-cü illərdə kanalın tikilişi ABŞ tərəfindən həyata keçirilmişdir. Uzunluğu 82 km, eni – 105-305 m; ən dayaz yeri -12 m; yük dövriyyəsi 200 mln. t; gündəlik gəmi dövriyyəsi (65-70 min tonluq gəmi 40 ədəddir) 9 saatlıq yoldur.

Əlbəttə bir çox cəhətlərə görə Panama kanalı Süveyş kanalından fərqlənir. Bu kanal uzunluğuna görə Süveyş kanalından qısadır. Bu xəttin bir qismi də Qatun dənizindən keçir. Kanalın dərinliyi nisbətən azdır, üç şlüzu vardır. Süveyş kanalına nisbətən gəmi tutumu və yük dövriyyəsi də azdır. 1989-cu ildə kanalın işə düşməsinin 75 illiyində 700 min, 2000-ci ildə isə 800 min gəmi keçməsi qeyd edilmişdir.

İllik yük dövriyyəsi 200 mln. tondan artıqdır.

Məlumdur ki, yük daşınması əsasən Atlantik okeanından Sakit okeana və əksinə həyata keçirilir.

Sakit okeanı əsasən neft və neft məhsulları (Venesuela və Şimali Afrikadan), kömür, koks, metal və metal filizi, fosforitlər, taxıl, maşınlar və s. aparılır. Əks istiqamətdə isə yenə neft və neft məhsulları, metal filizi və metal məmulatları, meşə və meşə materialları, banan və digər məhsullar aparılır. Bu kanal ilə sərnişin daşınması isə ildə təqribən 250 min nəfər təşkil edir.

Bütövlükdə Panama kanalından istifadə edilməsinin iqtisadi əhəmiyyətini göstərmək üçün kanal vasitəsi ilə olan yükdaşımalarda yolun uzunluğunda yaranan qənaətin həcmini müqayisə etmək kifayətdir.

Panama kanalından istifadə edilməsində yola qənaət

Limanlar	Məsafə, mil		Yola qənaət	
	kanal ilə	başqa yolla	mil	%
Nyu-York – San-Fransisko	5263	13107 M	7844	60
Nyu-York – Vankuver	6050	13907 M	7857	56
Nyu-York – Valparaiso	4627	8337 M	3710	45
Liverpul – San-Fransisko	7930	13507 M	5577	41

Liverpul - Vankuver	8717	14317 M	5600	39
Nyu-York – İokoqama	9700	13042 M	3342	26
Nyu-York – Sidney	9692	13051 M	3359	26
Nyu-York – Şanxay	10584	12324 S	1740	14
Nyu-York – Sinqapur	8885	10141 S	1256	12

M – Maqellan boğazından keçməklə; S – Süveyş kanalından keçməklə.

Müqayisə etdirilən göstəricilərdən aydın olur ki, ABŞ üçün bu beynəlxalq kanalın əhəmiyyəti daha böyükdür. Belə ki, bu kanalda hərəkət edən gəmilərin təqribən 45 %-i ABŞ-ın şərq və qərb sahillərinin əlaqələndirilməsinə xidmət edir, 6-7 % ABŞ-ın şərq sahilləri ilə Cənubi Amerikanın Sakit okean sahillərini əlaqələndirir. Təqribən 10 %-i Avropa ilə ABŞ-ın Sakit okean sahilləri arasındakı əlaqələrə xidmət edir.

Bütünlükdə ABŞ öz ticarətinin 14 %-ni, Çili – 33 %-ni, Ekvador – 66 %-ni Panama kanalı vasitəsi ilə həyata keçirirlər.

Onu da qeyd etməliyik ki, Misir Süveyş kanalı üzərindəki nəzarət hüququnu çox tezliklə müəyyən etdiyi halda, Panama kanalı uzun müddət ABŞ-ın nəzarətində qalmışdır.

1903-cü ildə Panama Kolumbiyadan ayrılmaq iddiasını qaldırdıqda Amerika bu tələbi dəstəkləyirdi. Bu dəstəyə görə kanaldan gələcəkdə istifadə üçün ABŞ Panamadan 1432 km^2 inşaat zonası da almışdır. Bu zona üzərində ABŞ tam siyasi, iqtisadi və hərbi nəzarət hüququ qazanmışdır. Bundan əlavə kanalın işlək hala salınması müqabilində Amerika sahibkarlığı ildə 100 mln. dollardan artıq gəlir götürmüşlər (istifadə üçün isə ildə cəmi 250 min dollar icarə haqqı verirdi). Bu zonanın qaytarılması uğrunda Panamalılar uzun müddət mübarizə aparmalı olmuşlar.

Nəhayət 1977-ci ildə (1903-cü ildəkindən fərqli olaraq) yeni müqavilə bağlanmış və kanalın tamamilə Panamanın hakimiyyətinə keçməsi qərara alınmışdır.

Beləliklə 1999-cu il dekabr ayının 31-də Panama kanalı tamamilə Panamanın mülkiyyətinə keçmişdir. Panama kanalı zonası

məsələsi də aradan qaldırılmışdır. Beləliklə kanal dövlət müəssisəsi statusu alaraq hazırda xüsusi şura tərəfindən idarə edilir.

Öz əhəmiyyətinə görə Beynəlxalq kanallarda üçüncü yeri Kil kanalı tutur. Bu kanal **Almaniyada gəmiçilik kanalıdır**. Baltik və Şimal dənizləri arasında (Danimarka ilə Almaniya arasında olan Yutlandiya yarımadasından) çəkilmişdir.

Kanal Baltik dənizində Kil buxtası ilə Elba çayının aşağı sahilini birləşdirir (ilk növbədə Kil və Hamburq limanlarını birləşdirir). Bu kanal gəmilərin hərəkəti üçün 1896-cı ildə açılmışdır. Uzunluğu 99 km, dərinliyi 11 m, eni 100-160 metrdir. Kanalda 25 min dvt. Ton həcmində olan gəmilər üzə bilirlər.

Kanal ilə olan yükdaşımaların çoxu şərq ilə qərb və əks istiqamətdə həyata keçirilir.

Lakin son dövrlərdə həmin kanal ilə işləyən gəmilərin sayı və yük dövriyyəsi xeyli azalmışdır. Belə ki, məsələn, 1970-ci illərdə kanalda ildə təqribən 70 min gəmi üzdüyü halda, hazırda onların sayı 40 mindən azdır.

Daxili su nəqliyyatı

Bütövlükdə daxili su yolları da nəqliyyat sistemində böyük rol oynayırlar. Hazırda bu yolların uzunluğu 550 min km-dən artıqdır. 1990-cı illərədək bu sahədə keçmiş SSRİ birinci yeri tuturdu (123 min km), ikinci yeri ÇİN (110 min km), üçüncü yeri ABŞ (41 min km), dördüncü yeri – Braziliya (31 min km) tutur.

Sonra isə Venesuela, Hindistan, Pakistan, Banqladeş, Zair, Fransa, Almaniya, Nigeriya, Finlandiya və s. ölkələr fərqlənirlər. Müəyyən mənada daxili su yollarının inkişafı da özlüyündə bütövlükdə dəniz su yollarının inkişafını tamamlayır. Burada da inkişaf etmiş ölkələr daha çox seçilirlər. Məsələn, cəmi yükdaşımalarda bu növ nəqliyyat ilə yükdaşımaların xüsusi çəkisi ABŞ, Çin, Rusiya, Almaniya, Kanada, Niderland, Fransa və Belçikada daha artıqdır.

Təkcə Avropada və Şimali Amerikada daxili su yollarının uzunluğu 175 min km, yükdaşımaların həcmi isə 1250 mln. ton

təşkil edir (bunun da 850 mln. tonu xarici yükdaşımalardan ibarətdir).

Daxili su nəqliyyatının inkişafında **iki** əsas cəhəti də qeyd etmək olar. Burada əvvəla **beynəlxalq çaylar** və yaxud beynəlxalq çay hövzələrinin istifadə edilməsi fərqləndirilir.

BMT-nin son dövrlərdəki məlumatına görə belə hövzələrin sayı **214** ədəddir. Bu çay hövzələrinin **155**-i demək olar ki, **2 ölkəyə**, **36-sı üç ölkəyə**, qalanları isə bir neçə ölkəyə məxsusdurlar.

Məsələn, Reyn, Amazon, Zambezi çay hövzələrində hər birində 7 ölkə; Nil, Konqo və Nigera çay hövzələrində hər birində 9 ölkə, Dunay çay hövzəsində 12 ölkə yerləşir.

Onu da qeyd etməliyik ki, dünyada 13 daha böyük çay hövzəsi mövcuddur ki, onların da ümumi sahəsi 1 mln. km^2 –rə bərabərdir.

İkinci cəhət ondan ibarətdir ki, son vaxtlar böyük gəmiləri yükləyib boşaltmaq üçün yastı dibli kiçik gəmilərdən (bunlara lixter deyilir) geniş istifadə edilir. Bu isə «çay-dəniz» qarışıq daşımalardan istifadə edilməsini artırmışdır. Bu sistem 1960-cı illərdən inkişaf etdirilməyə başlamışdır. Bir çox çaylarla qonşu ölkələrin limanları arasında əlaqə yaranması genişlənmişdir.

Beləliklə iqtisadi cəhətdən inkişaf etmiş ərazilərdə beynəlxalq çay hövzələrindən istifadənin genişlənməsi bütövlükdə iqtisadi inkişafa təkan verir.

7. Dünya boru nəqliyyatı və beynəlxalq yükdaşımalarda onun rolu

Dəmiryolu və avtomobil yolu ilə yanaşı boru nəqli də quru nəqliyyat növü hesab edilir. Lakin aydındır ki, boru nəqli ilə məhlul və qaz kimi məhsullar nəql edilir (neft nəqli, neft məhsulu nəqli və qaz nəqli).

Odur ki, boru nəqlinin inkişafı birbaşa neft və qaz sənayesinin inkişafı ilə bağlıdır. Boru ilə neft və neft məhsulları nəqli tanker daşımaları ilə yanaşı bu məhsulların orta və uzaq məsafələrə daşınmasında əsas vasitə hesab edilir. Qaz səna-

yesinin və qaz nəqlinin inkişafı da elə həmin vəzifəni yerinə yetirməklə bu məhsulların çıxarılması ilə istehlakı arasındakı ərazini (məsafəni) yaxınlaşdırmış olur.

Boru çəkilişi nəqliyyatının tarixi neft sənayesinin tarixi kimi XIX əsrin ortalarına təsadüf edir. Belə ki, ilk neft kəməri 1865-ci ildə ABŞ-da (6 km uzunluğunda) çəkilmişdir. On ildən sonra Pensilvaniyada 100 km uzunluğunda neft kəməri çəkilmişdir. Bu kəmər sənaye mərkəzi olan Pitsburqu neft mədənləri ilə birləşdirirdi.

Azərbaycanda ilk boru kəməri 1878-ci ildə Balaxanı ilə «Qara şəhər»dəki neftayırma zavodları arasında çəkilmişdir.

Latın Amerikasında (Kolumbiyada) ilk neft kəməri 1926-cı ildə, Asiyada (İranda) 1934-cü ildə, Fransada – 1948-ci ildə çəkilmişdir.

Rusiya İmperiyasında ilk neftməhsulları kəməri 1907-ci ildə Bakı-Batumi arasında inşa edilmişdir. Kəmərin uzunluğu 885 km-dir.

Azərbaycanda neftçıxarma sənayesinin coğrafiyası genişləndikcə yeni-yeni neft kəmərləri də meydana gəlmişdir. 1960-cı illərdən sonra Əli-Bayramlı-Bakı, Neft daşları – Bakı, Siyəzən – Bakı kəmərləri çəkilmişdir. Rusiyadan xam neft nəql edən Qroznı-Bakı neft kəmərinin də keçmiş dövr üçün böyük əhəmiyyəti vardır.

Çoxlu miqdarda qaz kəmərləri çəkilmişdir. Zirə – Bakı, Neft daşları – Bakı qaz kəməri daha çox fərqlənir (xaricdən gələn kəmərlər hələki işləmir). 1997-ci ildə işə düşmüş Bakı (Sanqaçal) – Qroznı – Novorossiysk və 1999-cu ildə işə salınan Bakı – Tbilisi – Poti (Supsa – 1999-cu ildə bu kəmər təkmilləşdirilərək Supsa istiqamətində işə salınmışdır) neft kəmərləri Azərbaycan, Qazaxıstan, Türkmənistan neftinin dünya bazarına çıxarılmasında böyük rol oynayırlar. Hazırda çəkilişi davam etdirilən Bakı – Tbilisi – Ceyhan neft kəməri (Azərbaycanda – 443 km, Gürcüstanda – 249 km, Türkiyədə – 1076 km, cəmi – 1768 km) çox böyük tarixi əhəmiyyətə malikdir.

Ümumilikdə isə Neft kəmərlərinin çəkilişi Birinci Dünya müharibəsindən sonra, qaz kəmərlərinin çəkilişi isə ikinci dünya müharibəsindən sonra genişlənmişdir.

Beləliklə XX əsrin ortalarına dünya üzrə boru kəmərlərinin çəkilişi 350 min km, 2000-ci ilə isə 1,9 mln. km təşkil etmişdir.

Aydındır ki, burada da ayrı-ayrı ölkələr biri-birindən fərqlənirlər. Bunu aşağıdakı cədvəldən də görmək olar.

Boru kəməri daha uzun olan 10 ölkə (2000-ci illər)

	Ölkələr	Neft və neft məhsulları kəməri, min km	Qaz kəmərləri, min km	Cəmisi, min km
1	ABŞ	276,0	331,0	607,0
2	Rusiya	63,0	150,0	213,0
3	Almaniya	7,5	97,6	105,1
4	Kanada	23,5	75,0	98,5
5	Meksika	39,7	13,2	52,9
6	Fransa	7,5	24,7	32,2
7	İtaliya	3,8	19,4	23,2
8	Çin	10,8	6,2	17,0
9	Argentina	7,0	9,9	16,9
10	Böyük Britaniya	3,9	12,8	16,7

Cədvəldə göstərilən ölkələrdən əlavə Cənubi-qərbi, Cənubi-şərqi Asiya, Şimali Afrika, Latın Amerikası ölkələrində və MDB ölkələrində də kifayət qədər boru kəmərləri vardır.

Magistral neft kəmərlərinin uzunluğuna görə MDB ölkələri, ABŞ, Kanada, Səudiyyə Ərəbistanı fərqlənirlər. Qaz kəmərlərinin uzunluğuna görə isə cədvəldən də göründüyü kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələr daha irəlidədirlər. Bu da onunla izah edilməlidir ki, əvvəla Çin kimi böyük bir ölkədə qaz kəmərlərinin tikintisi son dövrlərdə başlanmışdır. Digər tərəfdən inkişaf etməkdə olan ölkələrin çoxu ixrac etdiyi qazı məhlullaşdırılmış halda dəniz yolu ilə həyata keçirirlər. Qaz kəmərlərinin uzunluğuna görə də MDB ölkələri, Kanada, ABŞ fərqlənirlər.

Neft və neft məhsullarının yerləşdirilməsi məsələlərinin təhlilindən aydın olur ki, bu sahədə daha güclü sistem yaradılması aşağıdakı amillərlə bağlıdır:

birinci – çoxlu neft çıxarılması, onun daxili istehlaka yönəldilməsi və qismən də ixracın nəzərdə tutulması (məsələn, ABŞ, Rusiya, Kanada, Meksika, Qazaxıstan, Azərbaycan və s.);

ikinci – neft sənayesinin inkişafında ixraca istiqamətlənən ölkələrdə yaranan sistem (Səudiyyə Ərəbistanı, İran, İraq, Liviya, Əlcəzair, Venesuela və s.);

üçüncü – neft idxalına istiqamətlənən ölkələrdə neft təsərrüfatı üzrə sistem yaradılması (Almaniya, Fransa, İtaliya, İspaniya, Ukrayna, Belorusiya və digər ölkələr bu qəbildəndirlər).

İqtisadi ədəbiyyatlarda boru kəmərlərinin sıxlığı (1000 km^2 əraziyə düşən kəmərlərin uzunluğu) göstəricisi o qədər də istifadə edilmir. Lakin hər halda qeyd etməliyik ki, bu göstərici Niderland, Belçika, Almaniya, İtaliya, Böyük Britaniya, ABŞ, neft çıxaran və ixrac edən bəzi kiçik ölkələr (Trinidad və Tobaqo, Bruney və Bəhreyn) fərqlənirlər. Qaz kəmərlərinin sıxlığına görə Niderland və Almaniya liderlik edirlər (275 km).

Aydındır ki, neft və qaz kəmərlərinin işində də əsas göstərici kimi yük dövriyyəsinin həcmindən istifadə edilir.

Əgər nəzərə alsaq ki, hazırda neft kəmərləri ilə 2 mlrd. tondan artıq neft və neft məhsulları daşınır, onda cəmi yük dövriyyəsi barədə də aydın təsəvvür yaratmaq olar.

Beləliklə, 2000-ci illərin əvvəllərinə boru kəmərləri ilə daşınan neft və neft məhsullarının həcmi 4 trln. t/km-dən artıq olmuşdur. Qaz kəmərlərinin yük dövriyyəsi isə 2,5 trl. t/km təşkil etmişdir.

Son dövrlərdə neft və qaz istehlakına olan tələbin artması ilə əlaqədar olaraq boru kəmərlərinin perspektiv əhəmiyyətə malik olduğunu qeyd etmək olar.

Bu mənada Xəzər regionu ölkələri də perspektivli bir mərkəzə çevrilmişdir.

2001-ci ilin məlumatına görə dünya üzrə 85 min km təzə boru kəməri çəkilmişdir.

XXI əsrin əvvəllərinə magistral neft kəmərlərinin uzunluğu 500 min km-rə çatmışdır.

8. Dünya hava nəqliyyatı

Cəmiyyətin hərtərəfli inkişafı, aviasiya texnikasının sürətli artımı daha qiymətli yüklərin, poçt və sərnişinlərin yerlərə tez çatdırılması tələbi Birinci Dünya müharibəsindən sonra hava nəqliyyatının formalaşmasına zəmin yaratmışdır.

Aviasiyanın inkişafı çox sürətli vüsət almışdır. Belə ki, hələ 1939-cu ildə bu nəqliyyatla daşınan sərnişinlərin sayı 2 mlrd. sərnişin km təşkil etmişdir.

1970-ci illərdə ümumi aviasiya xətti 6250 min km-rə çatmışdır. Həmin illərdə sərnişin daşınması 800 mln; 1995-ci ildə 2250 mln. nəfər olmuşdur. Müəyyən marşrut ilə uçan təyyarələrin sayı 1970-ci ildəki 4,5 mindən artaraq **2000-ci illərin** əvvələrinə 20 min ədəd təşkil etmişdir. Sərnişin **daşınması** 2250 milyard sərnişin kilometrdən artıq olmuşdur.

Ümumi yük dövriyyəsi isə 300 mlrd. t/km təşkil etmişdir. İqtisadçıların hesablamalarına görə aviasiyanın inkişafı nəticəsində **2010-cu ildə** bu sahədən iqtisadiyyat **1,5 trln. dollar** gəlir əldə edə biləcəkdir. Bu isə **30 mln. yeni iş** yerlərinin açılmasına zəmin yaradacaqdır. Onu da qeyd etməliyik ki, hazırda sərnişin daşımalarının artması ilə yanaşı təcili yük daşımaların həcmi də sürətlə çoxalır. Bu isə sərnişin və yük daşıyan təyyarə parklarının artması və daha sürətli təyyarələrin sayının çoxalması deməkdir.

Sərnişin daşımalarının coğrafiyasına gəldikdə isə göstərməliyik ki, 1960-cı illərdə demək olar ki, cəmi sərnişin daşımalarının 90 %-ə qədəri Şimali Amerika ilə Avropanın payına düşürdü. 2000-ci illərin əvvələrinə isə bu göstərici təqribən 60 %-ə enmişdi. Odur ki, digər regionların xüsusi çəkisi artmışdır.

Bu göstəriciləri daha aydın müşahidə etmək üçün sərnişin daşınmasının sayı çox olan on ölkə nümayiş etdirilir.

Ölkələr	Sərnişin daşınması, mln. nəfər
ABŞ	570
Yaponiya	96
Böyük Britaniya	65

Çin	55
Fransa	42
Almaniya	40
Koreya Respublikası	35
Avstraliya	30
İspaniya	28
İtaliya	26

Onu da qeyd etməliyik ki, dünya hava nəqliyyatının coğrafiyası özlüyündə dünya nəqliyyatı sistemində daha böyük rola malik olan təyyarə limanları şəbəkəsini müəyyən etmiş olur.

Hazırda dünyada təqribən 15 min təyyarə limanı mövcuddur. **Bunlardan 1100 ədədi beynəlxalq limandır. Onların da 114 ədədi** daha həlledici rola malikdirlər. Oxucuya daha aydın olmaq üçün aşağıdakı cədvəldə illik sərnişin daşınması 25 mln. nəfərdən artıq olan 27 təyyarə limanının göstəriciləri verilir.

Dünyanın ən böyük təyyarə limanları (1998-ci il)

№	Limanın adı	Ölkələr	1 ildə sərnişin qəbul edir və göndərir, mln. nəfər
1	Atlanta (Xartfild)	ABŞ	80
2	Çikaqo (Oxara)	ABŞ	73
3	Los-Anceles	ABŞ	66
4	London (Xitrou)	B.Britaniya	65
5	Dallas	ABŞ	61
6	Tokio (Xaneda)	Yaponiya	56
7	Frankfrut (Reyn-Mayn)	Almaniya	49
8	Paris (Şarl De Qoll)	Fransa	48
9	San-Fransisko	ABŞ	41
10	Amsterdam (Sxipxol)	Niderland	40
11	Denver	ABŞ	39
12	Las-Veqas	ABŞ	37
13	Minnevpolis (Sent-Pol)	ABŞ	37
14	Seul (Kimpo)	Koreya	37

		Respub.	
15	Finiks	ABŞ	36
16	Detroyt	ABŞ	36
17	Xyuston	ABŞ	35
18	Nyu-York (Nyuark)	ABŞ	34
19	Mayami	ABŞ	34
20	Syanqan	Çin	33
21	Madrid	İspaniya	33
22	London (Qetvik)	Böyük Britaniya	32
23	Nyu-York (Kennedi)	ABŞ	31
24	Sent-Luis	ABŞ	31
25	Orlando	ABŞ	31
26	Toronto	Kanada	29
27	Sinqapur (Çanqi)	Sinqapur	29

Cədvəldən aydın görünür ki, 27 təyyarə limanından 16-sı ABŞ-a məxsusdur.

Rusiya kimi böyük əraziyə malik olan ölkədə 1990-cı illərin ortalarından aviakompaniyaların həcmi nisbətən böyüyür. Burada təqribən 8000 təyyarədən istifadə edilir.

VIII FƏSİL
AQRAR SƏNAYE KOMPLEKSİ

Dünya kənd təsərrüfatı iqtisadiyyatı

1. *Kənd təsərrüfatı iqtisadiyyatının ümumi xarakteritikası.*
2. *Aqrar-sənaye kompleksi.*
3. *Kənd təsərrüfatının quruluşu.*
4. *İEOÖ-rin kənd təsərrüfatının inkişaf xüsusiyyətləri («yaşıl inqilab»).*
5. *Müasir şəraitdə kənd təsərrüfatının inkişafında yeni meyllər.*

1. Kənd təsərrüfatı iqtisadiyyatının ümumi xarakteristikası

Kənd təsərrüfatı öz əhəmiyyətinə görə sənayedən sonra ikinci əsas maddi istehsal sahəsidir. 2000-ci ilin məlumatına görə xalis kənd təsərrüfatında çalışanların sayı təqribən 1,3-1,4 mlrd. nəfərdir. Xalis kənd təsərrüfatı məhsulunun həcmi 1,4 trln. dollardır. Bütövlükdə aqrar sənaye kompleksi isə ÜDM-in 20-25 %-nə bərabərdir.

On min illərdir ki, faktiki olaraq kənd təsərrüfatı maddi nemətlər əldə etməyin başlıca mənbəyi kimi fəaliyyət göstərir. Bütün bu müddətdə kənd təsərrüfatı öz inkişafında bir çox mərhələlərdən keç-mişdir. Bitkiçiliklə heyvandarlığın nisbəti, onların inkişafı sistemi, kənd təsərrüfatında əmtəəlik məhsulun inkişafına keçid və s. Kənd təsərrüfatının inkişafı istiqaməti üzrə müxtəlif fikirlər mövcuddur.

Belə ki, məsələn:

1. **İxtisaslaşma** baxımından yanaşdıqda kənd təsərrüfatında bitkiçilik və onun yarımsahələri olan taxılçılıq, digər ərzaq və qeyri-ərzaq bitkilərinin inkişafı nəzərdə tutulur. Heyvandarlıqda isə maldarlıq, qoyunçuluq, donuzçuluq və eləcə də qarışıq bitkiçilik-heyvandarlıq təsərrüfatı nəzərdə tutulur.

2. **Əmtəəlik** baxımından kənd təsərrüfatının inkişafı. Bu müddəada istehlak – bir ailənin istehlakının təmin edilməsi, istehlak-əmtəəlik istiqaməti, xalis əmtəəlik istiqaməti.

3. **Kənd təsərrüfatının intensiv inkişafı** baxımından – yüksək, orta və aşağı səviyyəli intensivləşmə nəzərdə tutulur.

Hər halda kənd təsərrüfatının kompleks inkişafı daha xarakterik inkişaf kimi formalaşmışdır. İqtisadi cəhətdən inkişaf etmiş qərb ölkələrinin kənd təsərrüfatı üçün kapitalist istehsal münasibətləri xarakterikdir.

Bu ölkələrdə kənd təsərrüfatı ailə fermerçiliyinə əsaslanır. Hər bir ailə fermerçiliyinin həcmi yerli vəziyyətdən, sosial və təbii şəraitdən asılıdır. Məsələn, Avstraliyada hər bir ailə fermerinin orta həcmi 1,8 hektar, ABŞ və Kanadada 200 hektar, Qərbi Avropada – 17 hektar, Yaponiyada 2 hektar təşkil edir. Aydındır ki, bu ölkələrdə inkişaf etmiş əmtəəlik təsərrüfatları mövcuddur.

İnkişaf etməkdə olan ölkələrdə isə kənd təsərrüfatının inkişafı ənənəvi və müasir inkişaf yoluna əsaslanır. Bu ölkələrdə əhalinin çox hissəsi kənd təsərrüfatı ilə məşğuldur. Belə ki, Latın Amerikasında ən azı 100 mln. nəfər, Afrikada – 300 mln. nəfər, Asiyada – 800 mln. nəfər adam kənd təsərrüfatı işləri ilə məşğuldurlar. Burada çox xırda təsərrüfatlar texnikadan, mineral gübrələrdən istifadə etmədiyi üçün yüksək məhsul götürə bilmirlər. Həmin ölkələrin kənd təsərrüfatında müasir bölmə də yaradılmışdır. İri kapitalist təsərrüfatları, yaranmış plantasiyalar, süni suvarmalar, muzdlu əməkdən istifadə, maşın və texnika tətbiqi, gübrə verilməsi və s. kimi mütərəqqi cəhətlər artmışdır. Odur ki, son on illiklərdə dünya üzrə kənd təsərrüfatı istehsalı 15 % artdığı halda, Afrikada – 20 %, Cənubi Amerikada – 25 %, Asiyada – 35 % çoxalmışdır.

Kənd təsərrüfatında torpaq əsas istehsal amili hesab edilir. Hələ vaxtilə tanınmış ingilis iqtisadçısı **Vilyam Petti** göstərirdi ki, **əmək sərvətin atası, torpaq isə anasıdır**.

Dünya üzrə cəmi mövcud olan 13,43 mlrd. hektar quru sahənin 5 mlrd. hektarı kənd təsərrüfatı dövriyyəsinə daxildir. Bunun da 1,5 mlrd. hektarı bağ-bağça və əkin yeridir.

Dünya üzrə əkinə yararlı torpaq sahəsi (mln. ha)

Ərazilər	1970-ci il	2001-ci il
Dünya üzrə	1326	1402
Afrika	153	182
Asiya	419	509
Avropa	202	288
Okeaniya	43	52
Şimali və Mərkəzi Amerika	261	258
Cənubi Amerika	91	113

2. Aqrar sənaye kompleksi (ASK)

Aqrar sənaye kompleksinin əsasını xalis kənd təsərrüfatı təşkil etdiyi üçün bu sahə dünya iqtisadiyyatının ən zəruri sahələrindən biri hesab olur. 1960-cı illərdən dünya üzrə kənd təsərrüfatında (xüsusilə inkişaf etmiş ölkələrdə – ABŞ-da) texnoloji yüksəliş baş verirdi. Bu texnoloji yüksəliş **«Aqrar sənaye kompleksi» adı almışdı**. Burada xalis kənd təsərrüfatı ilə sənayenin birləşməsi – qovuşması nəzərdə tutulur. Bütövlükdə ASK-in tərkibinə üç əsas sahə daxildir:

1. Kənd təsərrüfatını istehsal vəsaitləri ilə təmin edən sənaye sahələri və eləcə də kənd təsərrüfatına istehsal-texniki xidmət göstərən sahələr.
2. Kənd təsərrüfatının özü.
3. Kənd təsərrüfatı məhsullarını istehlakçılara çatdıran sahələr (tədarük, emal, saxlama, daşınma, satış və s.).

Kənd təsərrüfatı daha çox canlı əmək tələb edən sahədir. Dünya üzrə kənd təsərrüfatında 1,4 mlrd. nəfərdən çox adam çalışır, o cümlədən inkişaf etmiş sənaye ölkələrində cəmisi 22 mln., keçid iqtisadiyyatı ölkələrində 32 mln., Çində 450 mln., inkişaf etməkdə olan ölkələrdə isə 600 mln. nəfər kənd təsərrüfatında çalışır. İnkişaf etmiş sənaye ölkələrində ASK-da 3-cü bölmənin xüsusi çəkisi daha çoxdur. ABŞ-da həmin bölmədə ərzaq məhsullarının dəyərinin 75 %-i formalaşır, 2-ci bölmənin xüsusi çəkisi isə azalır.

ABŞ-da ÜDM-in 18 %-i, işçilərin isə 20 %-i ASK-nın payına düşdüyü halda, xalis kənd təsərrüfatı (2-ci bölmə) ÜDM-in 2 %-i, işçilərin isə 2,5 %-ni təşkil edir. Keçid iqtisadiyyatı ölkələrində isə ASK-nın tərkibində xalis kənd təsərrüfatının xüsusi çəkisi yüksəkdir, bu da kənd təsərrüfatı məhsullarının emalının zəif olması ilə izah edilir.

Kənd təsərrüfatı əmək tutumlu sahə hesab edilir, lakin 40-60-cı illərdə kapital tutumlu sahəyə çevrilmişdir. Hazırda isə inkişaf etmiş ölkələrdə elm tutumlu sahə kimi fəaliyyət göstərir.

Beləliklə XX əsrin ikinci yarısından kənd təsərrüfatının inkişafında elmin və elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə edilməsi imkanları artmışdır. Kənd təsərrüfatının mexanikləşdirilməsi, kimyalaşdırılması, elektrikləşdirilməsi – intensivləşmə prosesi genişlənmişdir.

3. Kənd təsərrüfatının quruluşu

Kənd təsərrüfatı iki böyük bölmədən ibarətdir: **bitkiçilik və heyvandarlıq**.

Bitkiçilik bölməsinə bütün əkin yerləri, taxılçılıq, texniki bitkilər, paxlalılar, biçənəklər, çoxillik əkmələr və s. daxildir.

Heyvandarlıq sahəsinə iribuynuzlu mal-qara, qoyunçuluq, quşçuluq, arıcılıq, ipəkçilik və digər sahələr aid edilir. Qeyd etməliyik ki, kənd təsərrüfatı üzrə olan ümumi məhsulun təqribən 84 %-i bitkiçilik sahələrinin, 16 %-i isə heyvandarlığın payına düşür.

Bitkiçilikdə taxılçılıq daha böyük xüsusi çəkiyə malikdir. Taxıl demək olar ki, dünyanın hər bir yerində əkilir. Taxılın 55 %-i insanların ərzaqla təmin olunmasına, 45 %-i isə müəyyən fondlarla yanaşı quşçuluğun, mal-qaranın (dənli yem bitkisi kimi) yemlənməsinə sərf edilir.

Taxılçılıq 4 əsas cəhəti vəhdət halında birləşdirir:

1. Əkin sahəsinin həcmi.
2. Cəmi məhsulun həcmi.
3. Taxılın beynəlxalq ticarəti.
4. Taxılın istehlak edilməsi.

Hazırda cəmi taxılın əkin sahəsi təqribən 650 mln. hektar təşkil edir. Bu cəmi becərilən sahənin 45 %-nə bərabərdir. Bəzi ölkələrdə bu faiz daha yüksəkdir. Məsələn Rusiya, Böyük Britaniya, Fransa, İtaliya və ABŞ-da taxılçılıq cəmi əkin sahəsinin 50-60 %-ni, Polşa və Rumıniyada 60-65, Almaniyada – 70, Vyetnamda – 80, Yaponiyada – 90 %-ni təşkil edir. Taxılçılıqda əsas yeri buğda (215 mln. hektar), qarğıdalı (140 mln. hektar), düyü (155 mln. hektar) tutur.

2000-ci ilə dünya üzrə 580 mln. ton buğda, 600 mln. ton düyü və 600 mln. ton qarğıdalı istehsal edilmişdir. Cəmi taxıl istehsalı isə 2050 mln. ton olmuşdur. Taxıl ticarətinin də özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, 1970-ci illərdə dünya bazarında cəmisi 80 mln. ton, 1995-ci ildə 205 mln. ton, son vaxtlar isə 210 mln. ton həcmində taxıl satışa qərarlaşmışdır. Buğda ixracı əsasən ABŞ, Kanada, Avstraliya, Fransa; qarğıdalı ixracı – ABŞ, Fransa və Argentina; düyü ixracı – Tailand, ABŞ, Hindistan, Pakistan və Vyetnam tərəfindən həyata keçirilir. Lakin istehsal edilmiş buğdanın təqribən 14-15 %-i ixrac edildiyi halda, düyünün 2-3 %-i ixrac edilir.

Taxıl idxal edən ölkələrin sayı daha çoxdur (1 mln. tondan 30 mln. tonadək idxal edən ölkələr) – Yaponiya, Rusiya, Tayvan, Koreya, Çin, Misir, Braziliya, İran, İndoneziya, Pakistan, Banqladeş, Filippin, Əlcəzair, Venesuela, Mərakeş, Kuba, Səudiyyə Ərəbistanı və s. Bunlardan başqa 110 ölkə də az miqdarda taxıl idxal edirlər.

Aydındır ki, taxılın beynəlxalq ticarəti onun daxildəki istehlakının həcminə də təsir edir. Bu göstərici hər nəfərə düşən taxılın həcmi ilə ölçülür. Bu baxımdan Kanada və Avstraliya da hər nəfər hesabı ilə istehlak edilən taxıl, təqribən 1000 kq-dır. ABŞ və Fransada da bu göstərici artıqdır. Qərbi Avropanın əksər ölkələrində – 300-600 kq, İEOÖ-də isə – 250 kq, Afrikada – 150 kq-dır.

Taxıl istehsalı üzrə qabaqcıl ölkələr (2000-ci il)

Ölkələr	Taxıl, mln.ton	Ölkələr	Taxıl, mln. ton
Çin	450	Meksika	28
ABŞ	350	Polşa	25
Hindistan	225	Böyük Britaniya	25
Rusiya	85	Pakistan	25
Fransa	65	Tailand	25
İndoneziya	55	Nigeriya	22
Kanada	50	İtaliya	20
Almaniya	45	İspaniya	20
Braziliya	45	Rumıniya	20
Argentina	35	Myanma	17
Ukrayna	30	Misir	17
Türkiyə	30	İran	15
Banqladeş	30	Filippin	15
Avstraliya	30	Macarıstan	14
Vyetnam	30	Yaponiya	13

Daha çox buğda və düyü istehsal edən bəzi ölkələr (2000-ci il)

Ölkələr	Buğda, mln. ton	Ölkələr	Düyü, mln.ton
Çin	100	Çin	182
Hindistan	76	Hindistan	132
ABŞ	61	İndoneziya	49
Rusiya	35	Banqladeş	34
Fransa	35	Vyetnam	32
Kanada	27	Myanma	30
Avstraliya	22	Tailand	25
Almaniya	20	Filippin	13
Türkiyə	20	Yaponiya	11
Pakistan	20	Braziliya	10

Dünya miqyasında taxılçılığın böyük roluna baxmayaraq cəmiyyətdə digər ərzaq məhsulları istehsalına da xüsusi fikir verilir. Belə ki, dünya üzrə bütün becərilən torpaq sahəsinin 50 %-dən artığı digər məhsullar, xüsusən ərzaq bitkiləri məhsulları istehsalına cəlb edilmişdir. Bir çox hallarda bunlar texniki bitkilər adlandırılır. Bəzən bunları aşağıdakı kimi qruplaşdırırlar: yağlı bitkilər, şəkər bitkilər, kökü meyvəlilər, meyvə bitkiləri və s.

2000-ci ilə cəmi yağlı bitkilər (soya, günəbaxan, fıstıq, güncüd, pambıq-çiyid, zeytun, palma yağı və s.) istehsalı ildə 330 mln. ton təşkil edir. Məsələn, təkcə soya-paxla istehsalı 150-160 mln. tona bərabər olmuşdur (ABŞ – 70-75 mln. ton, Braziliya – 30 mln. ton, Argentina – 15-18 mln. ton, Çin – 14-15 mln.ton). 35 mln. tondan artıq günəbaxan, 35-40 mln. ton fıstıq və çiyid yağı, 14-15 mln. ton kətan və palma yağı, 5-6 mln. ton digər yağlı bitkilər istehsal edilmişdir. Bunlarla yanaşı 1,2 mlrd. ton şəkər qamışı, 270 mln. ton şəkər çuğunduru, 135 mln. ton qənd, 300 mln. ton kartof, 6,5-7 mln. ton qəhvə, 3 mln. ton çay və kakao istehsal edilmişdir. İldə 400 mln. ton meyvə, 60 mln. ton üzüm istehsal edilmişdir.

Qeyri-ərzaq məhsulları içərisində pambıq daha çox xüsusi çəkiyə malikdir. Belə ki, pambıq əkini sahəsi – 30-35 mln. hektar, cəmi məhsul isə 20 mln. ton təşkil etmişdir.

Dünya kənd təsərrüfatının ikinci bölməsi heyvandarlıqdır. Bir çox ölkələrdə, xüsusilə inkişaf etmiş ölkələrdə heyvandarlıq hətta üstünlük təşkil edir. Bundan əlavə bitkiçiliyin özü bir çox hallarda heyvandarlığın tələblərini ödəməyə yönəldilir. Bitkiçilik heyvandarlıq üçün dənli yem bitkiləri (qarğıdalı, arpa, vələmir və s.), ot, yonca, kökümeyvəlilər, yem üçün çuğundur, kartof və s. istehsal edir. Qeyd etməliyik ki, ABŞ-da bütün kənd təsərrüfatına yararlı torpaq sahəsinin 50 %-i, Qərbi Avropada isə hətta 80 %-i heyvandarlıqla bağlıdır.

Son vaxtlar heyvandarlıq sahəsində mexanikləşmə, elektrikləşdirmə və avtomatlaşdırma sistemi əsaslı sürətdə artmışdır. Məhz ona görə də Qərb ölkələrində heyvandarlıqda sabit,

dinamik inkişaf özünü göstərir. Bu da öz tələbatlarının ödənilməsinə və ixracın artmasına zamin yaradır.

Heyvandarlıqda əsas miqdar (kəmiyyət) göstəricilərindən biri baş hesabı ilə heyvandarlığın sayıdır.

Məsələn, dünya üzrə iri buynuzlu mal-qaranın sayı 4,5 mlrd. başdır. Qoyun və keçilər 1800 mln., camış – 170 mln., at – 65 mln., dəvə 20 mln, qatır – 15 mln., ev quşları – 13-14 mlrd., donuzlar – 950 mln. başdır.

Daha çox iri buynuzlu mal-qarası olan bəzi ölkələr (2000-ci il)

Ölkələr	Mln. baş	Ölkələr	Mln. baş
Hindistan	300	Həbəşistan	35
Braziliya	165	Sudan	35
Çin	105	Rusiya	30
ABŞ	100	Meksika	30
Argentina	55	Avstraliya	27

İnkişaf etməkdə olan ölkələrdə heyvandarlıq ikinci dərəcəli rola malikdir, bitkiçiliklə o qədər də bağlı deyil. Ekstensiv inkişaf xarakterikdir, əmtəəlik məhsulları azdır (Avstraliyada da qoyunçuluq ekstensiv inkişaf etdirilir).

Ən ümumi şəkildə heyvandarlığın inkişafında əsasən dörd istiqamət fərqləndirilir:

1. **Əhalisi nisbətən sıx olan**, mal-qaranın sayı da sıx olan (hər 100 hektar kənd təsərrüfatına yararlı torpağa 100-200 baş mal-qara hesabı ilə) ölkələr.

Burada yüksək məhsuldarlıq, intensiv inkişaf – südçülük, donuzçuluq, quşçuluq xarakterikdir (Danimarka, Niderland, Böyük Britaniya, İsveçrə, ABŞ və s. Bu ölkələrdə kənd təsərrüfatının əmtəəlik məhsulunun 60-80 %-i heyvandarlığın hesabındadır).

2. **Orta intensivlik** və məhsuldarlıq istiqaməti (hər 100 hektara – 30-60 baş. Cənubi və Şərqi Avropa, ABŞ-ın mərkəzi ştatları və s.).

3. **Aşağı sıxlıqda əhalisi və mal-qarası olan istiqamət** (hər 100 hektara 5-10 baş mal-qara).

4. **Yüksək sıxlıqda əhalisi və mal-qarası olan** (100 hektara 60-200 baş), lakin az məhsuldar və az intensiv istiqamət (Hindistan, Şri-Lanka, Cənub-şərq Asiya ölkələri və s.).

Heyvandarlıq məhsulları istehsalı və istehlakı

Heyvandarlıq məhsulları – ət, süd, yağ, pendir, yumurta, yun və səirədən ibarətdir. Yundan başqa bütün bu məhsullar ərzaq məhsulları səbətinin əsasını təşkil edirlər. Yun isə toxuculuq sənayesi üçün ən qiymətli xammallardan biridir.

2003-cü ildə dünya üzrə ət kəsilmiş şəkildə 250 mln. tondan artıq olmuşdur. O cümlədən Çin – 64,0; ABŞ -35,0; Rusiya – 12,0; Braziliya – 11,0; Almaniya – 10,0; Fransa – 7,0 mln. ton ət istehsal etmişdirlər. Həmin ildə süd istehsalı – 601 mln. ton (o cümlədən ABŞ – 72,0; Hindistan – 57,0; Rusiya – 55,0; Almaniya – 34,0; Fransa – 30,0 mln. ton) olmuşdur.

Dünya üzrə ildə orta hesabla 700 mlrd. ədəd yumurta istehsal edilir (Çin – 390 mlrd.; ABŞ – 90 mlrd.; Yaponiya – 50 mlrd.; Rusiya – 35 mlrd. ədəd və s.).

4. İnkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatının inkişaf xüsusiyyətləri («yaşıl inqilab»)

1960-1970-ci illərdən beynəlxalq leksikonda **«yaşıl inqilab»** anlayışı işlədilməyə başlanmışdır. Bu anlayış birbaşa olaraq inkişaf etməkdə olan ölkələrə aid edilir. Bu anlayış özündə bir çox amilləri birləşdirir. Burada ilk növbədə genetika, seleksiya, bitkilərin fizioloji cəhətdən dəyişdirilməsi, yeni bitki növlərinin əkilməsi, sortlaşdırılması, kənd təsərrüfatında kimyalaşmadan geniş istifadə edilməsi və s. məcmu halında nəzərdə tutulur. Əslində burada elə bir inqilabi dəyişiklik yoxdur. Belə bir dəyişikliyi bir çox alimlər təkamül adlandırırlar. Çünki belə bir təkamül əvvəllər (XX əsrin 30-cü illərndən) ABŞ, Kanada, Böyük Britaniya, 50-ci illərdən Qərbi Avropa, Yaponiya, Yeni Zelandiya üçün də xarakterik olmuşdur. Lakin bu kimi dəyişikliyi o vaxtlar kənd təsərrüfatının sənayeləşdirilməsi adlandırırdılar.

Hazırda inkişaf etməkdə olan ölkələrdə olan **«yaşıl inqilab»** əsasən üç komponenti özündə əks etdirir.

Birinci, kənd təsərrüfatında yeni sort bitki növlərinin yetişdirilməsi. Bu məqsədlə 1940-1990-cı illərdə 18 beynəlxalq elmi-tədqiqat mərkəzi yaradılmışdır. Bu mərkəzlər bilavasitə İEOÖ-də müxtəlif aqrosistemi araşdırmaqla məşğul olurlar. **Bu mərkəzlərin iqamətgahı Meksikada** (qarğıdalı və buğda üzrə); **Filippində** (düyü üzrə); **Kolumbiyada** (tropik ərzaq bitkiləri üzrə); **Nigeriyada** (müəyyən ərzaq bitkiləri üzrə); **Kot-d'İvuarda** (Qərbi Afrikada düyüçülük üzrə); **Peruda** (kartofçuluq üzrə); **Hindistanda** (tropik rayonların quraqlıq yerlərində ərzaq bitkiləri üzrə) və s. yerləşir.

Lakin birinci iki mərkəz barədə oxucularda ümumi təsəvvür yaratmaq istərdik.

Məsələn, buğda və qarğıdalı sortunun yaxşılaşdırılması üzrə **Meksikada yerləşən mərkəz 1944-cü ildə** yaradılmışdır. Bu mərkəzə gənc Amerika seleksiyaçısı Norman Borlauq rəhbərlik edirdi. 1950-ci ildə burada yüksək məhsuldar buğda sortu yetişdirmişlər. 1960-cı ildə həmin sort Meksikada genişləndirilmişdir. Məhsuldarlıq 8-10 sentnerdən 25-35 sentnerə çatdırılmışdır. Beləliklə məhz ilk növbədə Meksika **«yaşıl inqilab»ın** vətəni olmuşdur. **Norman Borlauq Nobel mükafatı almışdır**. Bir ildən sonra elə bu əsasda Pakistanda və Hindistanda yeni buğda sortu alınmışdır. İlk əvvəllər Hindistanda məhsuldarlıq 8 sentnerdən 15 sentnerə çatdırılmışdır. Bəzi kəndlilər isə 40-50 sentner məhsul götürməyə nail olmuşlar.

Filippində yerləşən düyü üzrə mərkəz yüksək nailiyyət əldə etmişdir. Orada tez yetişən, zərərvericilərə qarşı davamlı, yüksək məhsuldar düyü sortu yetişdirmişlər. Köhnə düyü sortu 180 günə, yeni sort isə 150 günə yetişdirilir. Sonra 120 günə yetişən sort yaradılmışdır. Hər iki sort **«düyü möcüzəsi»** adlandırılmışdır. 1990-cı ildə daha bir yeni sort yetişdirilmişdir. Beləliklə yeni düyü sortları cənub və cənub-şərq Asiya ölkələrində geniş yayılmışdır.

«Yaşıl inqilab»ın ikinci komponenti irriqasiyadır. Deməli yeni sortlar ancaq yaxşı suvarma sisteminin yaranması ilə nəticə verə bilər. Ona görə də Asiya ölkələrində suvarma işlərinə diqqət artırılmışdır.

Bütünlüklə dünya üzrə suvarılan torpaqlar əkinə yararlı torpaqların 19 %-ni təşkil edir. **«Yaşıl inqilab»ın** yayıldığı ölkələrdə bu faiz xeyli yüksəkdir. Məsələn, Cənubi Asiyada – 40 %, Şərqi Asiyada və Yaxın Şərq ölkələrində – 35 % təşkil edir.

Bu baxımdan daha yaxşı vəziyyətdə olan Misirdə bu göstərici – 100 %, Türkmənistanda – 88 %, Tacikistanda – 81 %, Pakistanda – 80 % təşkil etdiyi halda, Çində – 37 %, Hindistanda – 32 %, Meksikada – 23 %, Filippin, İndoneziya və Türkiyədə – 15-17 % təşkil edir.

«Yaşıl inqilab»ın üçüncü komponenti kənd təsərrüfatının sənayeləşdirilməsi hesab edilir. Burada əsasən maşın və texnikanın tətbiqi, gübrələrdən, bitkilərin mühafizəsi vasitələrindən geniş istifadə edilməsi nəzərdə tutulur. Etiraf etməliyik ki, bu sahədə istər bütünlükdə İEOÖ və istərsə də «yaşıl inqilab» ölkələrində vəziyyət o qədər də qənaətbəxş deyildir.

Məlumat üçün qeyd edək ki, ABŞ-da bütün fermerlərin becərdikləri sahə 400 mln. hektardır. Bu sahə Hindistanın, Çinin, Pakistanın və Banqladeşin birlikdə becərilən torpaqları qədərdir (müvafiq olaraq – 165, 166, 22 və 10 mln. hektar). Lakin ABŞ-da həmin torpaq sahəsinin becərilməsinə 3,4 mln. nəfər adam cəlb edildiyi halda, bu ölkələrdə 600 mln. nəfər adam cəlb edilmişdir (mexanikləşmə zəif olduğu üçün əl əməyi çoxdur).

Hər halda son on illiklərdə Hindistan və Çində traktor parkı bir neçə dəfə, Latın Amerikasında isə 2 dəfə artmışdır. İEOÖ bütövlükdə kimyalaşma səviyyəsinə görə geri qalırlar. Belə ki, həmin ölkələrdə hər hektar əkin yerinə verilən gübrələr orta hesabla 60-65 kq olduğu halda Asiya, Afrika və Latın Amerikasının bəzi ölkələrində bu göstərici yüksək olmuşdur (Misirdə – 420 kq, Çində – 400 kq, Çilidə – 183 kq, Banqladeşdə – 160 kq, İndoneziyada –150 kq, Filippində –125 kq).

5. Müasir şəraitdə kənd təsərrüfatının inkişafında yeni meyllər

Biotexnoloji inqilab

Yuxarıda qeyd etdiyimiz kimi inkişaf etmiş ölkələrdə **«yaşıl inqilab»** artıq 30-50-ci illərdə baş vermişdir. 70-80-ci illərdə bu ölkələr çox yüksək nailiyyətlər əldə etmişdir. Traktor parkları genişlənmişdir. Kimyəvi vasitələrdən istifadə azaldılırdı, bəzi gübrə, dərman növlərindən istifadə qadağan edilmişdir.

Bütün bu kimi tədbirlər **«yaşıl inqilabdan»** biotexnoloji inqilaba keçidi göstərirdi.

Biotexnoloji inqilab kənd təsərrüfatının inkişafında keyfiyyətcə yeni mərhələdir. Bu inqilab yeni sortlardan istifadə etməyə, gübrələrdən istifadənin faydalılığını artırmağa, yeni texnologiyalardan istifadənin sərhəddini genişləndirməyə üstünlük verir.

Biotexnoloji inqilabın şərhini 2 istiqamətdə açıqlamaq olar.

Birinci mərhələ 1980-ci illərdən sonrakı dövrü əhatə edir. Bu mərhələdə süni gübrələrdən istifadə edilməsi qadağan olunurdu. Torpağın kimyəvi yemlənməsi dayandırılırdı. **«Orqanik» kənd təsərrüfatı** növbəli əkin dövriyyəsini, bitki tullantılarından istifadə edilməsini, peyin verilməsini, paxlalı bitkilər əkilməsini, torpağın mexaniki kultivizasiya edilməsini, zərərvericilərə qarşı mübarizədə bioloji metodlardan istifadə edilməsini nəzərdə tuturdu.

Bütün bunlar **«orqanik»** kənd təsərrüfatı adlanır. 1990-cı illərdə **«orqanik»** kənd təsərrüfatı anlayışı ilə yanaşı, ilk dəfə ABŞ-da **«Alternativ kənd təsərrüfatı»** və yaxud **«davamlı-möhkəm kənd təsərrüfatı»** anlayışı da yaranmışdır.

Orqanik kənd təsərrüfatı 1990-cı illərdə tam formalaşmışdır. Hazırda bu bioloji məhsulların artırılmasına dövlət yardımı göstərilir və Qərbi Avropa, Şimali Amerika və Yaponiyada dövlət tərəfindən tənzimlənir. Belə təmiz məhsulların keyfiyyətinin müəyyən edilməsi və istehsal metodları təkmilləşdirilir. Bu məqsədlə 1999-cu ildə bu sahədə komissiya da yaradılmışdır.

Həmçinin qeyd etməliyik ki, bu «Orqanik» (üzvi) kənd təsərrüfatında əmək məsrəfləri daha yüksəkdir. Məhsuldarlıq aşağıdır. Ekoloji cəhətdən təmiz məhsulların qiymətləri çox yüksəkdir. Odur ki, iqtisadi cəhətdən varlı olan ölkələrdə belə məhsullara tələb daha artıqdır.

2000-ci ilin məlumatına görə Avropada «Orqanik» təmiz məhsul istehsalı ilə 11 min fermer təsərrüfatı məşğuldur. Onların cəmi əkin sahəsi 3 mln. hektara bərabərdir ki, bu da cəmi kənd təsərrüfatı məhsulları əkini sahəsinin 1,8 %-ni təşkil edir.

Bu cür təmiz məhsul istehsalının artım sürəti Almaniyada 5-10%, Danimarka, İsveç və İsveçrədə 30-40 %-ə çatır. İsveçrə, İtaliya, Almaniya, İngiltərə, Avstriya, Fransa, Çexiya və Skandinaviya ölkələrində belə məhsulların istehsalı və istehlakı daha artıqdır.

2000-ci ildə bu cür bioloji təmiz məhsulun pərakəndə satışı Avropada cəmisi 20 mlrd. dollar olmuşdur ki, bu da cəmi ərzaq məhsulları satışının az bir hissəsini – 1-4 %-ni təşkil edir. Bu cür məhsulların satışı İsveçrədə cəmi ərzaq məhsulları satışının 4 %-ni, Danimarkada 4,5 %-ni təşkil edir. Hazırda İspaniya, İtaliya, Yunanıstan bioloji cəhətdən təmiz məhsul satışı istiqamətini daha əsas götürürlər. ABŞ, Kanada və Meksikada bu cür məhsullar istehsalı 10-12 mlrd. dollara bərabər olmuşdur. Avstraliyada belə məhsulların əkin sahəsi 1,7 mln. hektar təşkil edir.

Bu sahədə ikinci istiqamət – müasir şəraitdə daha yeni və sürətlə dəyişən bir istiqamətdir. Burada genetik cəhətdən dəyişdirilmiş – gibridləşdirilmiş məhsullar istehsalı nəzərdə tutulur. Ayrı-ayrı bitkilərin, heyvanların genləri dəyişdirilir, beləliklə yeni orqanizm alırlar. İlk dəfə bu cür məhsul ABŞ-da 1983-cü ildə sonralar genetik cəhətdən dəyişidirilmiş tomat, soya, qarğıdalı, xiyar, pambıq, raps, kartof, boranı, papaya və s. almışlar. İlk dəfə genetik cəhətdən dəyişdirilmiş məhsullar 1994-cü ildə açıq satışa buraxılmışdır. ABŞ uzun müddətə xarab olmayan, yaxşı qalan bu cür tomat satışı həyata keçirmişdir.

Belə gibridləşdirilmiş məhsulların əkin sahəsi son vaxtlar 34 dəfə artaraq 2002-ci ildə 58,7 mln. hektar olmuşdur. 2002-ci ilin

məlumatına görə dünya üzrə cəmi genetik məhsul istehsalının 99 %-i ABŞ, Argentina, Kanada və Çinin payına düşmüşdür.

Son illərdə Avstraliyada, CAR-da, Meksikada, Uruqvayda, Bolqarıstanda, Rumıniya və Ukraynada belə məhsulların istehsalı ardıcıl olaraq artırılır. Asiya ölkələrində (Yaponiyadan başqa) bu sahə o qədər də inkişaf tapmamışdır.

Bu məhsullar hər cürə xəstəliklərə, viruslara, zərərvericilərə qarşı çox davamlı olurlar, saxlanma qabiliyyətləri yüksəkdir.

Onu da qeyd etməliyik ki, bu cür məhsulların istehsalının artırılmasına ayrı-ayrı ölkələrdə münasibət heç də eyni deyildir. ABŞ, Yaponiya, inkişaf etməkdə olan ölkələrin əksəriyyəti bu məhsulların artırılmasına tərəfdar olduqları halda, Avropa ölkələrində bu məhsulların xoşagəlməz nəticələri kəskin pisləşilir. Odur ki, son vaxtlar bu problemə həsr olunmuş çoxlu diskussiyalar, konfranslar keçirilir.

Avropa ölkələrində, xüsusilə Aİ-də belə məhsulların istehsalı və idxalının qəti əleyhinədirlər.

Dünya iqtisadiyyatında ASK-nin spesifik xüsusiyyəti ilə bağlı olaraq burada bütün mülkiyyət formaları çıxış etmiş olur. Belə ki, natural və xırda əmtəə təsərrüfatları, transmilli korporasiyalar ASK-nın əsas məhsul istehsalçısı kimi çıxış edirlər. Son onilliklərdə ASK-nın quruluşunda onun inkişaf xətti dəqiq müəyyən edilmişdir. İstər milli və istərsə dünya miqyasında ərzaq təhlükəsizliyinin təmin edilməsi iqtisadi, sosial və eləcə də siyasi problem kimi ASK-nın quruluş dəyişikliyində öz əksini tapır.

ASK-nın məlum üç tərkib hissəsində özünəməxsus firma quruluşu formalaşmışdır.

Məsələn, kənd təsərrüfatı istehsalçıları iri maşınqayırma və kimya şirkətləri tərəfindən təchiz olunurlar.

Kiçik və orta sahibkarlar firmalar şəklində fəaliyyət göstərirlər.

Kənd təsərrüfatı məhsullarının emalı sahəsində ailə təsərrüfatından tutmuş TMK-ra və aqrarsənaye birliklərinə qədər olan təsərrüfatçılıq – mülkiyyət növləri təmsil olunur.

İEOÖ-də kənd təsərrüfatında mövcud olan bütün fəaliyyət növləri – patriarxal icma əkinçiliyindən başlanmış müasir kapitalizm təsərrüfatçılığı, plantasiya (tarlaçılıq) təsərrüfatçılığı formalarına qədər təmsil olunurlar.

Dünya iqtisadiyyatında kənd təsərrüfatının təmərküzləşməsi prosesi bir çox hallarda «yaşıl inqilab»la da şərtləndirilir. Odur ki, kənd təsərrüfatı üzrə də TMK-lar yaradılır, istehsal, emal, saxlanma, daşınma, satış və s. proseslərdə inteqrasiya əlaqələri genişlənir.

Onu da qeyd etməliyik ki, bütövlükdə iqtisadiyyatda olduğu kimi ASK-də də müxtəlif formalarda dövlət tənzimlənməsi həyata keçirilir.

Aİ-yə daxil olan ölkələr üçün vahid kənd təsərrüfatı siyasəti hazırlanmasını buna misal çəkmək olar.

IX FƏSİL
DÜNYA ÜZRƏ SƏNAYE İQTİSADİYYATININ İNKİŞAFI VƏ ONUN QURULUŞU

1. Sənaye iqtisadiyyatının ümumi xarakteristikası.
2. Maşınqayırma sənayesinin inkişafı.
3. Dünya üzrə metallurgiya kompleksi.
4. Neft sənayesinin inkişafı.
5. Dünya qaz sənayesinin inkişafı.
6. Kömür sənayesinin inkişafı.
7. Dünya üzrə elektrik enerjisi istehsalı.
8. Kimya sənayesinin inkişafı.

1. Sənaye iqtisadiyyatının ümumi xarakteristikası

Bu günki oxucu üçün bəlkə də sənayenin əhəmiyyəti barədə yazmağa o qədər ehtiyac yoxdur. Amma hər halda qeyd etməliyik ki, sənaye sahəsi maddi istehsalın əsas sahələrindən biridir. Hər bir ölkənin ümumi cəhətdən səciyyələndirilməsində ilk növbədə onun sənayeləşmə səviyyəsi nəzərdən keçirilir. Sənayeləşmə səviyyəsi yalnız iqtisadiyyata deyil, ictimai həyatın bütün digər tərəflərinə təsir edir. Sənayeləşmə səviyyəsi birbaşa olaraq insanların inkişaf səviyyəsini göstərir. Sənayeləşmənin ərazi quruluşu məhz bütün dünya təsərrüfatının ərazi quruluşunu müəyyən edir. Ona görə də bir çox hallarda sənayeni iqtisadi inkişafın matoru adlandırırlar.

Son vaxtlar sənayenin artım sürətinin azalmasına baxmayaraq (1960-cı ildəki 6 % əvəzinə 1,5 % təşkil edir) yenə də ÜDM-də öz yüksək xüsusi çəkisini saxlayır.

Belə ki, 2000-ci ilin məlumatına görə dünya üzrə cəmi sənaye məhsulu 10 trl. dollar qiymətləndirilir.

Hazırda ÜDM-də sənyaenin xüsusi çəkisi 30 %-dən artıqdır. Sənaye sahələrində 500 mln. nəfər adam çalışır (1960-cı ildə 180 mln. nəfər idi). Onu da qeyd etməliyik ki, istər həcminə görə və istərsə də dəyər baxımından dünya ticarətinin 80-90 %-i sənaye məhsullarından ibarətdir.

Sənaye sahəsini ilkin istehsal baxımından ümumi şəkildə iki böyük bölməyə ayırmaq olar:

1. Hasilat sənayesi.
2. Emal sənayesi.

Hasilat sənayesinin özü də bir çox sahələrdən və yarımsahələrdən ibarətdir. Bura hər şeydən əvvəl dağmədən, meşəemalı sənayesi, dəniz mədənləri, su təchizatı, ovçuluq-mədən təsərrüfatı, bir sözlə xammal və yanacaq çıxarılması və s. aid edilir. Bu sahənin məhsulunun 75 %-ə qədəri ən böyük yarımsahə olan dağmədən sənayesinin payına düşür. Bu yarımsahədə isə əsas yeri neft-qaz sənayesi (60 %) tutur. Qalan hissə isə kömür və filiz çıxarılması sahələrinin payına düşür.

Emal sənayesi – daha mürəkkəb bir kompleks olub özündə 300-dən artıq sahə və yarımsahəni birləşdirir.

Emal sənayesini qruplaşdırılmış şəkildə 4 bölməyə ayırmaq olar:

1. Konstruksiya materialları və kimyəvi məhsullar istehsalı.
2. Maşınqayırma və metalemalı.
3. Yüngül sənaye.
4. Yeyinti sənayesi.

Emal sənayesinin quruluşunda ağır və yüngül sənaye sahələri kimi bölgü də aparılır.

1960-cı illərdə bu sahələrin nisbəti 60:40-a, 1990-cı illərdə isə 70:30-a olmuşdur.

Dünya üzrə emal sənayesinin quruluşunda maşınqayırma sənayesi – 40 %, kimya sənayesi – 15 %, yeyinti sənayesi – 14 %, yüngül sənaye sahələri – 9 %, metallurgiya – 7 % təşkil edir. Vaxt keçdikcə bu sahələr arasındakı nisbət az-çox dəyişsə də bütövlükdə demək olar ki, nisbi sabitlik özünü göstərir. Hər halda hər bir yarımsahənin quruluşunda müəyyən dəyişikliklər baş verir. Maşınqayırma sənayesində daha dinamik dəyişiklik özünü göstərir.

Məsələn, uzun müddətdir ki, maşınqayırma sənayesinin tərkibində elektron və elektrotexnika sənayesi daha sürətlə artmaqda davam edir. Emal sənayesi sahəsində bu sahənin xüsusi çəkisi 10 %-ə bərabərdir.

Ümumi maşınqayırmada da dinamik artım xarakterikdir. Bununla yanaşı kənd təsərrüfatı maşınları, toxuculuq sənayesi maşınları və avadanlıqları azalır, yol-nəqliyyat maşınları, robotlar, idarə avadanlıqları istehsalı artır. Nəqliyyat maşınlarının xüsusi çəkisidə dəyişilməz qalır.

Dünya sənayesinin quruluşunda yaranan dəyişikliklər istər-istəməz həmin sahənin ərazi nisbətində də müəyyən dəyişiklik yaradır.

Belə ki, bu mənada son dövrlərdə inkişaf etmiş ölkələrlə (İEÖ) inkişaf etməkdə olan ölkələr (İEOÖ) arasında da ciddi nisbət dəyişikliyi müşahidə olunur (bəzən buna şimal və cənub arasındakı dəyişiklik də deyirlər).

Cənub ölkələrində sənayeləşdirilmənin sürətlə artması sənaye istehsalı sahəsində də onların xüsusi çəkisini artırmışdır. Belə ki, sənaye istehsalında onların xüsusi çəkisi 1950-ci ildəki (Çin istisna olmaqla) 4 %-dən artaraq 1975-ci ildə 11 %, 1995-ci ildə 19 %-ə çatmış, son illərdə isə daha yüksək olmuşdur. Hazırda Çin də daxil olmaqla bu ölkələrin xüsusi çəkisi 35-40 % təşkil edir. Aydındır ki, bu hal həmin ölkələrin ÜDM-in tərkibində sənaye məhsullarının xüsusi çəkisinin artmasına zəmin yaratmışdı (1960-cı ildə 25 %, 1990-cı illərin axırlarında 35 % olmuşdur).

Bundan əlavə cənub ölkələri sənaye istehsalının quruluşuna görə də Şimal ölkələrinə çatmaqdadır. Hazırda həmin ölkələrin əsl siması dağmədən sənayesinə görə deyil, emal sənayesinə görə müəyyən edilir.

Belə ki, 1950-2000-ci illərdə şimal ölkələrində emal sənayesi 5 dəfə artdığı halda bu ölkələrdə emal sənayesi məhsulları 16-17 dəfə artmışdır.

Artıq 1990-cı illərdə İEOÖ-lər yüngül sənaye məhsulları istehsalına görə İEÖ-ri ötüb keçmiş, hazırda isə ağır sənaye məhsulları istehsalına görə həmin ölkələrə yaxınlaşırlar.

Bütün bunlara baxmayaraq İEOÖ şimal ölkələrinə nisbətən uzun müddət geri qalır. Belə ki, qeyd etməliyik ki, əvvəla şimal yenə də elmtutumlu məhsullar istehsalına görə çox irəlidədir.

2000-ci illərin əvvəllərinə cəmi elmtutumlu məhsul istehsalı **2,5-3 trl.** dollar təşkil etmişdir. Burada böyük «yeddilər» həmin sahənin 80 %-nə, bütün İEÖ isə 90 %-nə nəzarət edirlər. ABŞ, Yaponiya, Almaniya və Böyük Britaniyada sənayenin tərkibində elmtutumlu məhsullar 20-25 %, ixracda isə 30-35 % təşkil edir.

2. İEOÖ-də sənaye istehsalındakı üstünlüklər onların hamısında deyil, Çin, Hindistan, Braziliiya, Meksika və yeni sənaye ölkələrinin hesabına əldə edilmişdir.

3. Bu nailiyyətlər yalnız onların sənayeləşdirilməsi ilə bağlı deyil, xaricdən nisbətən ucuz, ekoloji cəhətdən o qədər də təmiz olmayan əməktutumlu məhsulların alınması hesabına əldə edilmişdir.

Ahağıdakı cədvəldə daha qabaqcıl sənaye ölkələri verilmişdir.

Sənaye məhsulunun həcmi

Ölkələrin adı	mlrd.dol. (2000)	Ölkələrin adı	mlrd.dol. (2000)
1. ABŞ	2025	11. Braziliya	200
2. Çin	1115	12. Meksika	150
3. Yaponiya	800	13. Tayvan	150
4. Almaniya	625	14. İndoneziya	145
5. Rusiya	435	15. Səudiyə Ərəbistanı	145
6. Fransa	355	16. C.Koreya	140
7. Böyük Britaniya	335	17. İspaniya	130
8. İtaliya	330	18. Avstraliya	95
9. Kanada	225	19. Tailand	80
10. Hindistan	205	20. Malayziya	70

Cədvəldəki göstəricilərdən aydın olur ki, məhz bu qabaqcıl sənaye ölkələri dünya üzrə sənayenin yerləşməsinin əsas rayonlarını müəyyən edə bilirlər.

Sənayenin hər bir sahəsinin iqtisadiyyatdakı rolunu azaltmadan müəyyən sahələrin inkişafı barədə az-çox məlumat vermək istərdik. Onu da qeyd etməyilik ki, sənaye sahələrinin inkişafına texnoloji baxımdan deyil, ancaq ümumi iqtisadi inkişaf baxımından yanaşmağı üstün tuturuq.

2. Maşınqayırma sənayesinin inkişafı

Maşınqayırma sənayesi ilk əvvəl XIX əsrin birinci yarısında İngiltərədə yaranmışdır.

Sonralar isə ETT-nin sürətli inkişafı ilə bu sahə digər inkişaf etmiş ölkələrdə də tərəqqi tapmışdır. Hazırda da maşınqayırma sənayesi məhsullarının 90 %-ə qədəri inkişaf etmiş sənaye ölkələrində istehsal edilir.

Müasir şəraitdə dünya üzrə maşınqayırma sənayesinin inkişafında əsasən dörd mərkəz fərqləndirilir:

1. Şimali Amerika – burada demək olar ki, maşınqayırma məhsullarının bütün çeşidləri istehsal olunur.

2. Qərbi Avropa. Burada kütləvi maşınqayırma məhsulları istehsalı ilə yanaşı bir çox yeni sahələrdə meydana gəlmişdi.

3. Cənubi-şərqi Asiya (burada Yaponiya liderlik edir). Bu regionda kütləvi maşınqayırma məhsulları istehsalı yüksək texnoloji məmulatlarla qarşılıqlı inkişaf etdirilir.

4. MDB ölkələri. Bu bölgədə maşınqayırma sənayesi kifayət qədər tərəqqi tapmışdır. Lakin elmtutumlu sahələr zəif olması ilə seçilir.

Hazırda dünya üzrə maşınqayırma sənayesində ABŞ, Yaponiya, Almaniya və eləcə də Fransa, Böyük Britaniya, İtaliya, İspaniya, Cənubi-şərqi Asiyada – əsasən Çin, Cənubi Amerikada – Braziliya, Argentina fərqlənirlər.

Bəzi qabaqcıl ölkələrdə maşınqayırma sənaye məhsullarının həcmi (mlrd. dollar, 1950-2000-ci il)

	Ölkələr	1950	2000
1	ABŞ	81,3	883,5
2	Qərbi Avropa	45,4	283,5
3	O cümlədən: Böyük Britaniya	19,2	40,8
4	Almaniya	7,4	69,4
5	Fransa	6,8	59,6
6	İtaliya	3,4	35,2

7	Avropanın digər ölkələri	8,6	78,4
8	Yaponiya	1,6	205,0
9	Bütün digər ölkələr	15,1	103,0
	Dünya üzrə cəmi	143,4	1475,4

Beləliklə, iqtisadi inkişafın bütün mərhələlərində maşınqayırma sənayesi sənayenin əsas sahəsi kimi böyük əhəmiyyət kəsb etmişdir. İstər işçilərin sayına görə və istərsə də məhsulun həcminə görə ümumi sənayedə bu sahənin xüsusi çəkisi daha artıqdır. Məhz maşınqayırma sənayesi bütün digər təsərrüfat sahələrini maşın, avadanlıq, cihazlarla və əhalini çox işlənən mallarla təmin edir.

Maşınqayırma sənayesi metal emalı ilə birlikdə 200-ə qədər yarımsahələri əhatə edir. Bunları bir neçə səpkidə qruplaşdırmaq olar:

1. Yaranma vaxtına görə (köhnə, yeni və ən yeni sahələr).
2. Təyinatına görə (ümumi maşınqayırma, nəqliyyat maşınqayırma sahələri, elektronika və elektrotexnika maşınqayırma, dəzgahqayırma və s.).
3. Texnoloji xüsusiyyətinə görə (məs. metaltutumlu, əməktutumlu, elmtutumlu maşınqayırma və s.).

Maşınqayırma sənayesi çox mürəkkəb bir sahə olmaqla beş böyük qrupa bölünür:

1. Metal məmulatları istehsalı və metalemalı;
2. Ümumi maşınqayırma;
3. Nəqliyyat maşınqayırması (avtomobilqayırma, gəmiqayırma, aviasiya və raket-kosmik sənayesi);
4. Elektrotexnika və elektronika (elektrotexnika və elektron maşınqayırması).
5. Cihazqayırma.

Ümumi maşınqayırma sənayesində əsas yeri dəzgahqayırma sahəsi tutur. Dəzgahqayırma sahəsi əsasən metal emal edən sahələri və eləcə də sənaye robotlarını özündə birləşdirir. Bu sahə ümumi maşınqayırma sənayesinin ən qabaqcıl sahələrindən biridir. Son illərdə həmin sahənin cəmi məhsulu 30 mlrd. dollara bərabər olmuşdur. İxrac isə 17 mlrd. dollar təşkil

edir. Hazırda həmin sahənin məhsulunun 80 %-i Şimali Amerikanın, Qərbi Avropanın, Yaponiya və Çinin payına düşür.

2002-ci ildə cəmi dəzgahqayırmada Almaniyanın payı - 6,7; Yaponiyanın payı – 6,4; İtaliyanın payı – 3,8; Çinin payı 3,02; ABŞ-ın payı – 1,9 mlrd. dollar olmuşdur.

Dəzgahqayırma sənayesi daha tez-tez artıma və istehsalın azalması hallarına məruz qalır. 1990-cı illərdə bu sahədə daha kəskin azalmalar olmuşdur.

Dünya üzrə maşınqayırma kompleksində kənd təsərrüfatı maşınqayırmasının xüsusi çəkisi çox aşağıdır.

Nəqliyyat maşınqayırması sənayesi. Nəqliyyat maşınqayırma sənayesi avtomobilqayırma, gəmiqayırma, aviasiya və raket-kosmik sənayesi sahələrini öz tərkibində birləşdirir. Burada avtomobilqayırma sahəsi daha böyük üstünlüyə malikdir. Ona görə də bu sahəni bir çox hallarda **lokomotiv, iqtisadiyyatın barometri adlandırırlar**. İnkişaf etmiş sənaye ölkələrində ÜDM-in artımının 5-10 %-i bilavasitə həmin sahənin hesabına təmin edilir.

Avtomobil insanların çevikliyini və ictimai əməyin effektli olmasını təmin edir, insanların müasir həyat tərzini müəyyən edir.

Hazırda inkişaf etmiş sənaye ölkələrində əhalinin istehlak mallarına ayrılan xərclərinin tərkibində avtomobil alınmasına və istismarına ayrılan xərclər cəmi istehlak büdcəsinin 15 %-nə qədərdir. **Bu gün avtomobil müasir sivilizasiyanın texnoloji və sosial** rəmzinə çevrilibdir. Elə ona görə də XX əsrin bütün mərhələlərində dünya üzrə avtomobil istehsalı ardıcıl olaraq artırılır. Belə ki, ikinci dünya müharibəsindən əvvəl dünya üzrə ildə 4 mln. ədəd avtomobil buraxıldığı halda 1960-cı ildə bu göstərici 20 mln., 1980-ci ildə 40 mln., 2000-ci ildə isə 52 mln. ədəd olmuşdur. Bu sahənin cəmi məhsulu 2002-ci ildə 1,5 trln. dollara bərabərdir. Bunun da 500 mlrd. dollara qədəri ABŞ-ın, 342 mlrd. dolları Yaponiyanın, 172 mlrd. dolları Almaniyanın payına düşür. Qeyd etmək lazımdır ki, avtomobil sənayesi daha çox inhisarlaşmış sahələrdən biridir. Belə ki, beş qabaqcıl ölkənin 10 avtomobil kampaniyası bu sahədə istehsalın 80 %-nə nəzarət edirlər.

Dünya üzrə maşınqayırma kompleksində TMK-lar (2002)

	TMK-lar	Ölkələr	İstehsal sahəsi	Dövriyyənin həcmi, mln. dol.
1	General Motors Corp.	ABŞ	Avtomobilqayırma	186,8
2	Ford Motor Corp.	ABŞ	Avtomobilqayırma	162,6
3	Daimler Chryzler	Almaniya	Avtomobilqayırma	156,1
4	General Elektrik Cor.	ABŞ	Elektrotexnika, Elektronika	131,7
5	Toyota Motor Corp.	Yaponiya	Avtomobilqayırma	126,0
6	Wolkswagen Group	Almaniya	Avtomobilqayırma	118,7
7	Simens AG	Almaniya	Elektrotexnika, elektronika	89,1
8	JBM Corp.	ABŞ	Elektr. hesabl. maşınları	81,2
9	Hitachi Co.Ltd.	Yaponiya	Elektr. hesabl. maşınları	66,7
10	Fiat SpA	İtaliya	Avtomobilqayırma	64,0

Onu da qeyd etməliyik ki, bu TMK-ların çoxu yalnız maşınqayırma ilə deyil, bir çox digər sahələri də əhatə edirlər – çox sahəlidirlər.

Dünya üzrə avtomobilqayırma sahəsində ABŞ-la yanaşı Avropa liderlik edən əsas ərazilərdən biridir.

Belə ki, 2003-cü ildə Qərbi Avropa ərazisi üzrə 19,1 mln. ədəd, ABŞ, Kanada və Meksikada isə 15,8 mln. ədəd avtomobil istehsal edilmişdir. Yaponiya və Cənubi Koreyada bu göstərici 12,3 mln. ədəd olmuşdur. Eləcə də həmin ildə Rusiyada 1,1 mln., Çində 2,8 mln., Tailandda 768 min, Türkiyədə 421 min, Braziliya və Argentinada isə 1,7 mln. ədəd avtomobil istehsal edilmişdir. Avtomobilqayırma məhsullarının 40 %-ə qədəri ixrac edilir.

Gəmiqayırma sənayesi

Nəqliyyat maşınqayırma sistemində gəmiqayırma sənayesi də böyük əhəmiyyətə malikdir. Son 30 ildə dünya üzrə gəmiqayırma sənayesi öz coğrafiyasını əsaslı sürətdə dəyişmişdi. Hazırda gəmiqayırmanın daha çox inkişaf tapdığı ölkələr Yaponiya, Cənubi Koreya, Fransa, Almaniya, İtaliya, Danimarka, Finlandiya, İspaniya, Niderland, Polşa və Çin fərqlənirlər.

Gəmiqayırma bazarında Yaponiya və Cənubi Koreya liderlik edirlər. Bu sahədə dünya bazarının 60 %-i həmin ölkələrin payına düşür. Yaponiyanın gəmiqayırma sahəsində məhsuldarlıq Avropa ölkələrindən 20-30 % artıqdır.

Cənubi Koreyada gəmiqayırma birliyinə daxil olan 10 tərsanə həmin ölkənin bütün gəmiqayırma məhsulunun 95 %-ni istehsal edir. Yaponiya və Cənubi Koreyadan sonra Çin üçüncü yeri tutur.

Dünya üzrə gəmiqayırma sahəsində Aİ-nin xüsusi çəkisi 20 %-ə bərabərdir (yükqaldırma baxımından). Gəmiqayırma sahəsində Almaniya Çindən sonra 4-cü, Avropada isə 1-ci yeri tutur.

XXI əsrin əvvəllərindən gəmiqayırma ilə məşğul olan qabaqcıl ölkələr bu sahənin inkişafı üçün bir çox tədbirlər həyata keçirirlər. Məsələn, Danimarka sifarişçilərə aşağı faizlə kredit verir. Cənubi Koreya da sifarişçilərə güzəştli şərtlərlə kredit verir. ABŞ-da gəmiçiliyə lizinq xidməti üçün xüsusi fond yaradılıbdır. Burada 20 illiyə kredit verilir.

Rusiyada 2010-cu ilə 266 gəmi istehsalı nəzərdə tutulubdur (6,8 mlrd. dollar dəyərində).

İƏ və İT ölkələri 2005-ci ildə bu sahədə öz istehsal güclərini 40 % artırmağa nail olmuşlar.

Aviasiya və raket-kosmik sənayesi

Nəqliyyat maşınqayırma sistemində aviasiya və raket-kosmik sənayesi özünəməxsus xüsusi əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, əvvəla bu sahə daha yeni sahə hesab edilir. Bu sahənin ən fərqləndirici cəhəti ondan ibarətdir ki, o daha yüksək elmtutumlu olub ETTKİ-yə ayrılan xərclərin daha çox hissəsini əhatə edir. Bu sahədə kifayət qədər yüksək ixtisaslı kadrlar, mühəndis-texniki heyət, ali təhsilli ixtisaslı fəhlələr

çalışır. Odur ki, həmin sahə eyni zamanda həm elmtutumlu və həmdə kapitaltutumlu sahə hesab edilir. Aviasiya və raket-kosmik sənayesinin ümumi məhsulunun həcmi 150 mlrd. dollardan artıqdır.

Aviasiya və raket-kosmik texnikası sahəsində ən böyük istehsalçılar:

ABŞ (Xyusten, Sietle, Atlant, Nyu-York);

Rusiya (Moskva şəhəri, Moskva vilayəti, Voronej, Ulyanovsk, Novosibirsk);

Fransa (Paris, Tuluza);

Almaniya (Ştutqart, Münhen);

Böyük Britaniya (London);

İtaliya (Turin) hesab edilir.

Braziliya, Argentina, Hindistan və Paksitan da fərqlənirlər.

Hazırda dünyada ildə orta hesabla 1000 ədəd avialəyner, 600-1000 ədəd vertolyot istehsal edilir. Təqribən 20 ölkə təyyarə və vertolyot buraxır.

Dünya elektron sənayesi

Elektrotexnika və elektron maşınqayırma sənayesi sənayenin ən dinamik inkişaf edən sahələrindən biridir. Maşınqayırma sənayesinin digər sahələri ilə müqayisədə bu sahə öz inkişaf sürətinə görə 1980-ci ildən birinci yerə çıxmışdır.

Müasir maşınqayırma sənayesində ümumi maşınqayırma sənayesinin xüsusi çəkisi 35-37 %, nəqliyyat maşınqayırmasının xüsusi çəkisi 33-35 %, elektron sənayesinin xüsusi çəkisi isə 30-32 % təşkil edir.

Elektron sənayesini çox vaxt ETQ-nin tərkib hissəsi kimi nəzərdən keçirirlər. Doğrudanda əvvəllər elektron sənayesi elektrotexnikanın tərkib hissəsi kimi mövcud olmuşdur. Sonralar isə bu sahə müstəqil bir sahə kimi formalaşmışdı. 1990-cı illərin ortalarına bu sahənin məhsulu **1,6 trln.** dollara bərabər olmuşdur. Bu göstəriciyə görə həmin sahə neft sahəsini, avtomobilqayırmanı və hətta kimya sənayesini qabaqlayaraq birinci

yerə çıxmışdır. Bu sahə ən yüksək elmtutumlu və innovasiyaya əsaslanan sənaye sahəsidir. Elektron sənayesi yarandığı vaxtdan ciddi böhranlara məruz qalmayan çox az sahələrdən biridir.

Bütün bu sahələrin çox böyük əhəmiyyəti ondan ibarətdir ki, onlar ETT-nin maddi əsasının inkişafına zəmin yaratmışlır. Elektronika və elektrotexnika əmək alətlərinin və istehsal vasitələrinin təkmilləşdirilməsinə birbaşa zəmin yaradır. Bu isə əmək məhsuldarlığının intensiv artımına və bütünlükdə ETT-nin sürətləndirilməsinə gətirib çıxarır.

Onu da qeyd etməliyik ki, maşınqayırma sənayesinin elektron və elektrotexnika maşınqayırma sahəsi o rayonlarda yerləşdirilə bilir ki, **orada yüksək texniki mədəniyyət, yüksək ixtisaslı kadrlar, texniki cəhətdən yaxşı təchiz edilmiş təcrübə bazası, elmi-tədqiqat mərkəzləri, institut və laboratoriyaları mövcud olsun.**

Hazırda elektron maşınqayırma sahəsi ildə 100 min addan çox məmulat buraxır.

Burada ənənəvi sənaye elektrotexnikası, avtomobil elektrik avadanlıqları, rabitə vasitələri və s. istehsalına görə Almaniya fərqlənir. Bəzi kiçik ölkələr üçün isə nisbətən dar ixtisaslaşma xarakterikdir. Məsələn, Danimarka kiçik (əl) radiotelefon aparatları, gəmi mühərriklərinin elektron idarəetmə sistemi, eşitmə aparatları üzrə, Finlandiya mobil rabitə vasitələri üzrə ixtisaslaşmışlar. Son dövrlərdə Cənubi-şərqi Asiya və Uzaq Şərq ərazisində Yaponiya, Cənubi Koreya, Honqkok, Syanqan, Malayziya, Sinqapur və Tayvan ənənəvi elektrotexnika və elektron sənayesi müəssisələrinin təmərküzləşməsi mərkəzinə çevrilmişdir. Bu rayonlarda məişət elektronikası avadanlıqları intensiv inkişaf etdirilir (ucuz işçi qüvvəsinə əsaslanır).

Malayziya, Cənubi Koreya və Tayvan kimi yeni sənaye ölkələrində eletkrotexnika və elektron sənayesi əsasən TMK-rın birbaşa investisiyası əsasında inkişaf etdirilir və onların istehsal proqramına uyğun məhsul buraxır.

Cənubi-şərqi Asiya ölkələrində istehsal olunan elektron məhsullarının 80-90 %-i ixrac edilir.

Kompüter texnikasının istehsalına görə ABŞ liderlik edir. Məsələn, ancaq server satışında 2002-ci ildə Amerika korporasiyalarından «Newfett-Packard» -30,1 %, «Delli» -18,5 % və «IBM» -14,3 % təşkil etmişlər. Server istehsal edən digər ölkələrinin payı isə 29 %-ə bərabər olmuşdur.

Bütövlükdə elektrotexnika və elektronika istehsalında aparıcı rol aşağıdakı kompaniyalara məxsusdur.

Dünya üzrə elektron və elektrotexnika məhsulları istehsal edən ən böyük kompaniyalar

Kompüter və kompüter texnikası	Elektrotexnika və elektron avadanlıqları	Məişət texnikası	Yarımkeçiricilər və rabitə avadanlıqları

İnkişaf etmiş sənaye ölkələrində bu sahənin artım sürəti ÜDM-in artım sürətini 5-10 dəfəyədək qabaqlayır. Bu sahəyə ayrılan kapital qoyuluşu rentabellik dərəcəsinə görə sənayenin digər sahələrindəki analoji göstəricidən 3-4 dəfə artıq olur.

Sahəvi quruluşuna görə elektron sənayesini 4 qrupa ayırmaq olar:

1. İnformasiyaları araşdıran (işləyən) elektron vasitələri istehsalı.
2. Rabitə vasitələri istehsalı.
3. Məişət aparatları istehsalı.
4. Elektron komponentləri istehsalı.

1. İnformasiyaları araşdıran (işləyən) elektron vasitələri sahəsində əsas yeri kompüterlər və yaxud elektron hesablama maşınları (EHM) tutur. Əsasən bu maşınlar ikinci dünya müharibəsindən sonra ABŞ-da buraxılmağa başlanmışdır. Hazırda da bir çox EHM-rı istehsalına görə **ABŞ liderlik edir**. 1990-cı illərin ortalarında ABŞ-da belə maşınlar istehsalının həcmi 100 mlrd. dollardan artıq olmuşdur. ABŞ-da kompüter

istehsal edən firmalarda İBM daha qabaqcıl mövqeyə malikdir. Bu kompaniya dünya üzrə cəmi kompüter istehsalının 50 %-dən artığını istehsal edir.

Bu sahədə **Yaponiya ikinci yeri** tutur – 60 mlrd. dollar. Aydındır ki, Yaponiya dünya kompüter bazarına 1970-ci illərdən sonra gəlmişdir. Lakin qısa müddətdə yüksək texnoloji dəyişiklik edərək Qərbi Avropanı ötmüş və ABŞ-a yaxınlaşmışdı. Hazırda Yaponiyanın «Fuüziüu» şirkəti kompüter satışına görə ancaq İBM-dən geri qalır.

Üçüncü yerdə Qərbi Avropa dayanır – 25 mlrd. dollar. Son on illiklərdə şəxsi istifadə üçün olan kompüter istehsalı daha sürətlə artır. Bu cür kompüterlər 1975-ci ildə ABŞ-da meydana gəlmiş və çox tez də yayılmışdır. Sonralar Yaponiyada, Asiyanın yeni sənaye ölkələrində, Qərbi Avropada, Çində həmin maşınların kütləvi istehsalı başlanmışdır. Hazırda ildə 100 mln. ədəd belə maşınlar buraxılır. Proqramlaşdırma aparan kompüterlər də bu sahəyə daxildir.

2. Rabitə vasitələri istehsalı və yaxud telekommunikasiya sahəsində telefon və telefon rabitəsi, videorabitə, elektron poçtları, sputnikdən istifadə və s. sahələr nəzərdə tutulur. Hazırda bu sahə demək olar ki, bütün dünyada yayılıbdır. Bununla yanaşı qeyd etməliyik ki, bu sahənin məhsullarının təqribən 75 %-i inkişaf etmiş 10 ölkədə cəmləşdirilibdir (ABŞ, Yaponiya və Almaniya fərqlənirlər). 2000-ci ilə dünya üzrə telefon apparatlarının sayı təqribən 1 mlrd. ədəddir. Bunlardan 350 mln. ədəd Avropanın, 300 mln. ədəd Amerikanın, 300 mln. ədəd Asiyanın, 13 mln. ədəd Avstraliya və Okeaniyanın payına düşür.

3. Məişət elektron aparatları həmin sahələr üzrə daha kütləvi məhsul istehsalını təmin edir. 1990-cı illərdən bu sahədə videoaparatlar, qara-ağ, sonra isə rəngli televizorlar, videomaqnitofonlar, videokameralar istehsalına üstünlük verilmişdir. Bütün bunlar hazırda məişət elektron məhsullarının 50 %-ə qədərini təşkil edir.

1960-cı illərdə dünya üzrə radioqəbuledicilərə və televizorlara olan tələbin 95 %-ni inkişaf etmiş ölkələr ödədikləri

halda hazırda vəziyyət dəyişmişdi. Son dövrlərdə radioqəbuledicilər istehsalında cənubi və cənub-şərqi Asiyanın payı 70 %, televizor istehsalında isə 60 % təşkil edir.

Hazırda ildə təqribən 145-150 mln. ədəd televizor istehsal edilir. Bunun 35 mln. ədədi Çinin, 22 mln. ədədi Koreya Respublikasının, 8 mln. ədədi Malayziyanın, 7,5 mln. ədədi Yaponiyanın payına düşür.

4. Elektron komponentləri (tranzistorlar, yarımkeçiricilər və s.) daha sürətlə artır.

3. Dünya üzrə metallurgiya kompleksi

Metallurgiya kompleksi əsasən qara və əlvan metallurgiya sahələrini özündə birləşdirir. Bu sahə sənayenin kompleks sahələrindən biri olub hasilat sənayesi ilə son istehlak arasında bağlayıcı bir vəziyyət təşkil edir.

Dəmir filizi və bir çox digər filizlər qara və əlvan metallurgiya sahəsində istifadə edildiyi üçün çox hallarda elə həmin sahə də metallurgiya sahəsində tədqiq edilir.

Metallurgiya kompleksinin məhsulları investisiya layihələrinin həyata keçirilməsində və investisiya proseslərinin inkişafında böyük rol oynayır. Odur ki, müəyyən quruluş dəyişikliyi nəticəsində metallurgiya sənaye sahəsinə çevrilmiş və iqtisadi mənafe baxımından tamamilə istehlak bölməsinə tabe edilmişdir. Ona görə də hər iki sahənin iqtisadi vəziyyəti son istehlak üçün işləyən sahələrin dinamikasından asılıdır.

Qara metallurgiya – sənayenin əsas ənənəvi sahələrindən biridir. Qara metallurgiya dedikdə əsasən polad və çuğun nəzərdə tutulur. Bu məhsulların istehsalının əhəmiyyəti ondan ibarətdir ki, polad prokat hələ də sənaye üçün əsas konstruksiya materialı olaraq qalır. Ona görə də istehsalın genişlənməsinə, plastmass və əlvan metallardan istifadənin artmasına baxmayaraq qara metallar yenə də öz əhəmiyyətini saxlayır.

Metallurgiyanın inkişafının təqribən 4000 illərzində 11 mlrd. ton qara metal istehsal edilmişdir. Bunun 80 %-i XX əsrin 70 ili ərzində istehsal edilmişdir.

Beynəlxalq çuğun və polad institutunun məlumatına görə 1900-2000-ci illərdə polad istehsalı 28 mln. tondan 830 mln. tonadək artmışdı. İkinci dünya müharibəsindən sonra dünya üzrə xalq təsərrüfatının bərpası üçün də qara metallurgiyanın böyük əhəmiyyəti olmuşdur.

1950-1970-ci illərdə dünya üzrə polad əridilməsi 3 dəfə artmışdı. Orta illik artım 5,9 % olmuşdur. Hazırda polad əridilməsi sənayesində təqribən 7 mln. nəfər adam çalışır. 2005-ci ilin məlumatına görə ildə 830-850 mln. ton polad əridilir. O cümlədən; Çin – 127; Yaponiya – 108; ABŞ – 101; Rusiya – 55; Almaniya – 46; Koreya Respublikası -43; Ukrayna – 31; Braziliya-28; İtaliya – 27; Hindistan – 27 mln. ton polad əritmişdir. Gələcəkdə bu sahədə istehsalın artırılması gözlənilmir.

2000-ci ildə 1060 mln. ton dəmir filizi istehsal edilmişdir. Burada qabaqcıl ölkələr: Braziliya – 195; Çin – 224; Avstraliya – 168; Rusiya – 87; Ukrayna – 77; Hindistan – 75; ABŞ- 63; CAR – 34 mln. ton fərqlənirlər.

Əlvan metallurgiya sənayesi

Əlvan metallurgiya da qara metallurgiya kimi sənayenin ən köhnə sahələrindən biridir. Hər iki sahə sənaye inqilabı dövründən yaranmışlar. Bu sahəyə 70-dən artıq metal növü daxildir – alüminium, mis, sink, qurğuşun, qalay, volfram, molibden, kobalt, qızıl, gümüş, platin və s.

2000-ci ildə əsas əlvan metallar istehsalı: alüminium – 24,5; mis – 14,8; qurğuşun – 6,7; sink – 9,2; qalay – 0,3; nikel – 1,1 mln. ton olmuşdur.

XX əsrdə əlvan metalların inkişaf tarixinin öyrənilməsində 3 mərhələ ayırmaq olar:

I mərhələ- XX əsrin birinci yarısını əhatə edir. Bu mərhələdə ağır əlvan metallar – mis, qurğuşun, sink, qalay və s. istehsalı üstünlük təşkil edirdi.

II mərhələ – 1950-1970-ci illəri əhatə edir. Bu mərhələdə yüngül əlvan metalların əridilməsi genişlənirdi (alüminium, maqnezium, titan və s.). Nəticədə alüminium sənayesi bütün digər sahələri qabaqlayaraq birinci yerə çıxmışdır.

III mərhələ – 1970-ci illərdən sonrakı dövrü əhatə edir. Bu mərhələdə dünya miqyasında enerji və xammal böhranı ilə səciyyələnir. Həmin mərhələdə ətraf mühitin mühafizəsinin güclənməsi ön plana çəkilmişdir. Bu mərhələdə XX əsrin metalları hesab edilən ..... (volfram, molibden, vanadiy, tantal, niobiy) və eləcə də bismut, kobalt, germanium, selen, sirkoniy və bir çox digər metal növlərinin istehsalı diqqəti cəlb edirdi, qızıl, gümüş, platin istehsalına olan maraq artırdı.

Aydındır ki, bu metalların hər birinin özünəməxsus texnologiyası və əhəmiyyəti vardır.

Alüminium ən çox yayılmış metallardan biridir. Metallurgiya sahəsində dəmirdən sonra alüminium ikinci yeri tutur. İstehsal olunan alüminiumun həcmi bütün əlvan metalların (birlikdə) həcmindən artıqdır.

Məhz ona görə də alüminium sənayesi əlvan metallurgiyanın ən aparıcı sahəsi hesab edilir. Alüminium filizi XIX əsrin ortalarından çıxarılmağa başlanmışdır (Fransanın Boks adlı yerində – «boksid» sözü də buradan götürülüb).

Sonra bu istehsalın həcmi ardıcıl olaraq artırılmışdır. 1913-cü ildə 540 min ton, 1960-cı ildə 25 mln. ton, 1990-cı illərin axırlarında 125 mln. ton alüminium istehsal edilmişdir. 2000-ci ilə alüminium boksidi çıxarılması Avstraliya və Okeaniyada – 38 %, Latın Amerikasında – 27 %, Afrikada – 14 %, Asiyada – 13 %, qalan digər ərazilərdə isə 8 % təşkil edir.

Dünya üzrə əsas əlvan metallar istehsalı, mln. ton (2000-ci il)

Alüminium	24,5
Mis	14,8
Qurğuşun	6,7
Sink	9,2
Qalay	0,3
Nikel	1,1

4. Neft sənayesinin inkişafı

Neft sənayesi yanacaq-energetika sənayesinin ən aparıcı sahələrindən biri olub bütün dünya təsərrüfatının inkişafına zəmin yaradır və hətta dünya siyasətinə təsir edir.

Sənaye üsulu ilə neft çıxarılması XIX əsrin ortalarında demək olar ki, eyni vaxtda üç ölkədə – Rusiya, Rumıniya və ABŞ-da başlanmışdır.

XX əsrin əvvəllərində neft artıq 20 ölkədə, 1940-cı illərdə 40 ölkədə neft çıxarılırdı. Belə ölkələrin sayı 1970-ci ildə 60, 1990-cı ildə 95 olmuşdur.

Həmin dövrlərə müavfiq olaraq dünya üzrə neft istehsalı da artmışdır. Belə ki, neft çıxarılması 1950-ci ildə 525 mln. ton, 1970-ci ildə 2270 mln. ton, 1990-cı ildə 3100 mln. ton, 2000-ci ildə 3590 mln. ton təşkil etmişdir.

Daha geniş məlumat əldə etmək üçün aşağıdakı cədvəldə geoloji neft ehtiyatı və çıxarılması üzrə qabaqcıl ölkələr nümayiş etdirilmişdir (bax cədvəl .....).

Neft ehtiyatı və çıxarılması üzrə qabaqcıl ölkələr (2002-ci il)

	Ölkələr	Geoloji ehtiyat, mlrd. ton	Xüsusi çəkisi, %-lə	Neft istehsalı, mln. ton	Xüsusi çəkisi, %-lə
1	2	3	4	5	6
	Şimali Amerika	**6,4**	**4,8**	**664,4**	**18,7**
1	ABŞ	3,8	2,9	350,4	9,9

2	Meksika	1,8	1,2	178,4	5,0
3	Kanada	0,9	0,7	135,6	3,8
4	**Mərkəzi və Cənubi Amerika** Venesuela	**14,1** 11,2	**9,4** 7,4	**335,7** 151,4	**9,4** 4,3
5	Braziliya	1,1	0,8	74,4	2,1
6	**Avropa və MDB dövlətləri** Rusiya	**13,3** 8,2	**9,3** 5,7	**784,2** 379,6	**22,0** 10,7
7	Norveç	1,4	1,0	157,4	4,4
8	Qazaxıstan	1,2	0,9	47,2	1,3
9	Azərbaycan	1,0	0,7	15,3	0,4
10	Böyük Britaniya	0,6	0,5	115,9	3,3
11	**Yaxın Şərq ölkələri** Səudiyyə Ərəbistanı	**93,4** 36,0	**69,4** 25,0	**1014,6** 418,1	**28,5** 11,8
12	İran	15,2	0,7	99,7	2,8
13	Küveyt	13,3	9,2	91,8	2,6
14	BƏƏ	13,0	9,1	105,6	3,0
15	Qatar	2,0	1,5	34,7	1,0
16	Oman	0,7	0,5	44,6	1,3
17	**Afrika** Liviya	**10,3** 3,8	**7,4** 2,8	**376,47** 64,7	**10,6** 1,8
18	Nigeriya	3,2	2,3	98,6	2,8
19	Əlcəzair	1,2	0,9	70,2	2,0
20	Anqola	0,7	0,5	44,6	1,3
21	Misir	0,5	0,4	37,0	1,0
22	**Asiya, Avstraliya, Okeaniya** Çin	**5,2** 2,5	**3,7** 1,7	**381,0** 168,9	**10,7** 4.8
23	Hindistan	0,7	0,5	36,7	1,0
24	Malayziya	0,4	0,3	37,0	1,0
	Dünya üzrə	**142,7**	**100,0**	**3556,8**	**100,0**
	O cümlədən OPEK ölkələri	111,9	78,2	1364	38,4

Cədvəldəki materiallardan aydın olur ki, ən çox neft ehtiyatları proqnoz üzrə Səudiyyə Ərəbistanı, Küveyt, BƏƏ, Venesuela və Rusiyada müşahidə olunur. Neft çıxarılmasına görə isə Səudiyyə Ərəbistanı – 418, 1 mln. ton, Rusiya – 379,6 mln. ton, ABŞ – 350,4 mln. ton, Meksika – 178 mln. ton, Çin – 169 mln. ton, Norveç – 157,4 mln. ton daha irəlidədirlər.

Onu da qeyd etməliyik ki, geoloji ehtiyata görə OPEK ölkələri cəmi ehtiyatların 78,2 %-nə, neft hasilatına görə isə 38,4 %-nə sahibdirlər.

Aydındır ki, vaxt keçdikcə ayrı-ayrı ərazilərin və ölkələrin yeri də dəyişir.

Neft sənayesi ilə birlikdə adətən onun yarımsahəsi olan (nisbi də olsa müstəqil olan) neftemalı sənayesi də araşdırılır. Bu mənada qeyd etməliyik ki, 2000-ci illərin sonuna dünyada təqribən 700 neft emal edən zavod vardır. Onların ilkin emal gücü 3,7 mlrd. tondur.

Hər bir neft çıxaran ölkə ilk növbədə öz tələbatını nəzərdə tutur. Odur ki, zavodların çoxu elə həmin ölkələrdə yaradılmışdır.

Beləliklə, Şimali Amerikada yaradılan zavodlar 940 mln. ton, Qərbi Avropada – 700 mln. ton, Yaponiyada – 250 mln. ton, Şərqi Avropa və MDB-də 650 mln. ton emal gücünə malikdirlər.

Latın Amerikasının zavodları 300 mln. ton, Yaxın və Orta Şərq ölkələrinin zavodları 300 mln. ton, Afrika ölkələrinin zavodları 150 mln. ton emal gücünə malikdirlər. Hazırda İEOÖ-rin emal zavodlarının gücü cəmi dünya üzrə olan emal gücünün 30 %-nə bərabərdir. Bu göstərici artmaqda davam edir.

Bir məsələni də qeyd etməliyik ki, neft istehsalının 60 %-i inkişaf etməkdə olan ölkələrin payına düşdüyü halda, istehlakda onların payı – 25 % təşkil edir. İnkişaf etmiş ölkələr isə əksinə istehsalın 24 %-nə, istehlakın isə 60 %-nə malikdirlər.

Beləliklə idxal-ixrac yolu ilə ayrı-ayrı ölkələrin tələbatı ödənilir.

Onu da göstərməliyik ki, dünya üzrə ilkin enerji daşıyıcıları bazarı içərisində neft bazarı daha böyük və formalaşmış bazar hesab olunur.

Son dövrlərin məlumatına görə dünya üzrə gündəlik neft istehsalının 50-55 %-i dünya neft bazarında reallaşdırılır. 2002-ci ildə cəmi neft satışı 413 mlrd. dollar (idxal – 207 mlrd. dollar, ixrac – 205,8 mlrd dollar) olmuşdur. Xam neft ixracının 45 %-ə qədəri Yaxın və Orta Şərq ölkələrinin payına düşür.

Neft idxalı və ixracının dinamikası (mln. ton)

Ölkələr	2000	2001	2002	2003
1	2	3	4	5
İDXAL				
ABŞ	555	581	605	611
Avropa	554	577	564	567
Yaponiya	266	260	246	260
Sair ölkələr	746	770	747	752
İXRAC				
ABŞ	45	46	47	47
Kanada	85	90	91	92
Meksika	91	94	94	94
Mərkəzi və Cənubi Amerika	154	157	139	140
O cümlədən Venesuela	100	98	78	79
Avropa	235	235	245	257
O cümlədən Norveç	145	149	156	157
Böyük Britaniya	87	82	87	87
Rusiya	153	155	158	170
Yaxın Şərq	847	955	870	920
o cümlədən İran	125	122	117	120
İraq	102	87	76	64
Səudiyyə Ərəbistanı	313	302	266	286
BƏƏ	91	89	81	84
Afrika	137	136	127	132

Bütün inkişaf etməkdə olan ölkələrin cəmi ixracının 20 %-i neftin hesabına formalaşır. Lakin bir çox ölkələrdə isə cəmi ixracda neftin xüsusi çəkisi daha artıqdır. Məsələn, 2002-ci ildə bu göstərici Nigeriyada – 96 %, Anqolada – 91 %, İran və Omanda – 90 %, BƏƏ-də – 78 %, Səudiyyə Ərəbistanında – 73 %, Liviyada -77 %, Venesuelada – 65 %, Meksikada – 33%, İndoneziyada – 24 % təşkil etmişdir.

2002-ci ildə ayrı-ayrı ərazilər üzrə neft idxalı aşağıdakı kimi olmuşdur : Avropa – 36,0 %, Asiya – 32 %, Şimali və Mərkəzi Amerika – 26,5, Cənubi Amerika – 2,3 %, Afrika – 2,2 %, Okeaniya – 1,1 %.

Hazırda 118-dən artıq ölkə və ərazi neft alır. Bunlardan 70 ölkənin hər biri ildə 1 mln. tondan artıq neft idxal edir. 30 ölkə isə hər biri ildə 10 mln. tondan artıq neft idxal edir.

Beləliklə Şimali Amerika ildə təqribən **600 mln.** tondan artıq, Qərbi Avropa **600 mln.** tonadək neft və neft məhsulları alır. Yaxın və Orta Şərq ölkələri isə ildə 1 mlrd. tonadək neft satır.

5. Dünya qaz sənayesinin inkişafı

Dünya iqtisadiyyatının inkişafında qaz sənayesinin də özünəməxsus yeri vardır. Sənayenin əsas sahələrindən biri kimi qaz sənayesi ilkin enerji daşıyıcıları arasında neftdən sonra kömür ilə eyni xüsusi çəkiyə malikdirlər.

Təbii qaz yanacaq kimi bir çox müsbət fərqli cəhətlərə malikdir: yaxşı daşınır, yüksək istilik vermə qabiliyyəti var, neft və kömürə nisbətən ekoloji cəhətdən daha təmizdir. Bu kimi üstün cəhətlərinə görə kommunal təsərrüfatında, sənayedə, elektroenergetikada, nəqliyyat və bir çox digər sahələrdə qazdan geniş istifadə edilir.

Qaz sənayesinin inkişaf tarixi 100 ildən artıqdır. Bu dövrü iki mərhələyə ayırmaq olar.

Birinci mərhələ XX əsrin 50-60-cı illərinədək olan dövrü əhatə edir. Həmin mərhələdə təbii qaz çıxarılmasında ABŞ liderlik edirdi (1950-ci ildə – 90 %).

İkinci mərhələ 1960-cı illərdən sonrakı dövrü əhatə edir. Bu mərhələdə qazın çıxarılması və istehlakı sürətlə genişlənmişdir. Asiya ölkələrində daha sürətli, Avropada, Şimali Amerikada və Afrikada isə nisbətən mülayim inkişaf müşahidə olunurdu.

Həmin mərhələdə təbii qaz üzrə beynəlxalq bazar da formalaşmışdır. Tarixən dünya qaz bazarı əvvəlcə ərazi üzrə yaranmışdır. Belə ki, **Əlcəzairdən əvvəlcə yanar qaz**, sonra isə adi qaz Qərbi Avropa ərazisinə verilirdi. Eləcədə Şimali Amerikaya da qaz verilirdi. Təbii qaz bazarının beynəlmiləlləşməsi nəticəsində beynəlxalq kapital sahəsində də əməkdaşlıq edilməsinə zəmin yaranmışdır. İri qaz yataqlarının işlənməsi sahəsində millətlərarası kompaniyalar yaradılmışdır.

Beləliklə qaz çıxarılması 1950-ci ildəki 200 mlrd. m^3 -dən 1980-ci ildə 1500 mlrd. m^3 –ə, 2000-ci ildə isə 2420 mlrd. m^3 –ə çatmışdır. 2010-cu ildə bu göstəricinin 4 trln. m^3 olması gözlənilir.-

Qaz çıxarılmasında Qərbin inkişaf etmiş ölkələri – 45 %, keçid iqtisadiyyatı ölkələri – 35 %, inkişaf etməkdə olan ölkələr isə 20 % xüsusi çəkiyə malikdirlər. İnkişaf etməkdə olan ölkələrdə qaz çıxarılmasına gec başlanıldığına görə bu ölkələr nisbətən öz xüsusi çəkiyə malikdirlər. Hazırda bu ərazidə qaz çıxarılması genişlənir.

Ərazi və ölkələr üzrə qaz çıxarılması (mlrd m^3)
2000-ci il

	Ölkələr	Çıxarılmış qazın həcmi
	Şimali Amerika	766,0
1	o cümlədən ABŞ	547,0
2	Kanada	183,5
3	Meksika	34,8
	Cənubi və Mərkəzi Amerika	103,0
4	o cümlədən Argentina	36,1
5	Venesuela	27,3
6	Trinidad və TObaqo	16,8
	Avropa və MDB ölkələri	988,1

7	o cümlədən Rusiya	555,0
8	Böyük Britaniya	103,0
9	Norveç	65,4
10	Niderland	60,0
11	Özbəkistan	54,0
12	Türkmənistan	50,0
	Yaxın Şərq ölkələri	235,6
13	o cümlədən İran	64,5
14	Səudiyyə Ərəbistanı	56,4
15	BƏƏ	46,0
16	Qatar	29,3
	Afrika	133,2
17	o cümlədən Əlcəzair	80,4
18	Nigeriya	17,7
	Asiya, Avstraliya və Okeaniya	301,7
19	o cümlədən İndoneziya	70,6
20	Malayziya	50,3
21	Avstraliya	34,5
22	Çin	32,6
23	Hindistan	28,4
	Dünya üzrə	527,6

Cədvəldəki materiallardan görünür ki, təbii qaz çıxarılmasına görə Rusiya daha qabaqcıl mövqeyə malikdir (22 %),. İkinci yerdə isə ABŞ dayanır (az fərqlə – 21,7 %). Lakin ABŞ-da qaz ehtiyatları azalmaqdadır. Böyük Britaniyada, İranda, Norveç və Əlcəzairdə kifayət qədər qaz çıxarılır.

Neft sahəsində olduğu kimi qazın istifadəsində də inkişaf etmiş ölkələr daha çox xüsusi çəkiyə malikdirlər. Belə ki, hazırda təbii qaz istehlakının 50 %-i Qərb ölkələrinin, 33 %-i keçid iqtisadiyyatı ölkələrinin, 17 %-i isə inkişaf etməkdə olan ölkələrin payına düşür.

6. Kömür sənayesinin inkişafı

Kömür sənayesi dünya energetikasının əsas sahələrindən biridir. Dünya üzrə enerji istehlakında 2-ci yeri tutur. XX əsrin son on illiklərində neft və qaz sənayesinin sürətlə inkişaf etdirilməsi nəticə etibarı ilə kömürün əhəmiyyətini azaltmışdır. Ümumiyyətlə 1970-ci illərdən bəri dünya üzrə enerji istehlakında kömürün xüsusi çəkisi azalmaqda davam edir. Belə ki, cəmi ilkin enerji daşıyıcılarında kömürün xüsusi çəkisi 1970-ci ildə – 25 %, 2003-2004-cü illərdə – 24 % təşkil etmiş, 2020-ci ildə isə 20 % olacaqdır. Bu da onu göstərir ki, kömür ekoloji cəhətdən o qədərdə etibarlı olmadığına görə ondan daha geniş istifadə edilməsi nəzərdə tutulmur.

Bu sahənin inkişafı neftə nisbətən daha sabitdir. Çünki kömür çıxarılması lazımi ehtiyatlarla daha yaxşı təchiz edilibdir. Eləcə də ilk növbədə elektroenergetika və metallurgiya tərəfindən həmişə sabit tələbat vardır. Lakin kömür şaxtalarının ekoloji vəziyyəti neft və qaz sənayesinə nisbətən daha pisdir. Kömürün hər tonunun maya dəyəri 12-15 dollar təşkil edir. Bu xərcləri nisbətən azaltmaq üçün müəyyən təkmilləşdirmələr həyata keçirilir, ilk növbədə açıq üsulla kömür çıxarılması artırılır. ABŞ-da bu üsulun xüsusi çəkisi 60 %, Rusiyada – 60 %-ə yaxın, Avstraliyada – 50 %-dir.

XX əsrin ikinci yarısından kömür çıxarılması 2,6 dəfə artmışdır. 1970-ci illərdə dünya energetika böhranı zamanı neftin qiyməti kəskin artdığına görə kömürə olan diqqət yüksəlmişdir. Sonra neft yenidən ucuzlaşmış, kömürə olan diqqət azalmış və kömürün artması da zəifləmişdir. Beləliklə kömür çıxarılması 1950-ci ildə – 1820, 1970-ci ildə – 2860, 1990-cı ildə – 4620, 2000-ci ildə – 4950 mln. ton təşkil etmişdir.

Proqnoza görə 2010-cu ilə kömür çıxarılmasının həcmi 5900 mln. ton olacaqdır. Onu da qeyd etməliyik ki, çıxarılan kömürün 80 %-i daş kömür, 20 %-i isə boz kömürdür.

Dünya üzrə kömür çıxarılmasının bölgüsündə neft və qazda olan nisbətdən fərqli olaraq keçid iqtisadiyyatı ölkələri

daha çox xüsusi çəkiyə malikdirlər – 48 %. İnkişaf etmiş ölkələr 42 %, inkişaf etməkdə olan ölkələr isə 10 % təşkil edirlər.

Kömür çıxarılmasında daha qabaqcıl ölkələr (2002-ci il)

	Ölkələr	Kömür ehtiyatı, mln. ton	Kömür çıxarılır, mln. ton
	Şimali Amerika	257783	1072,2
1	o cümlədən ABŞ	249994	992,3
2	Kanada	6578	67,9
	Mərkəzi Amerika	21752	53,8
3	o cümlədən Kolumbiya	6648	39,5
	Avropa və MDB ölkələri	355370	1161,0
4	o cümlədən Rusiya	157010	253,4
5	Almaniya	66000	207,9
6	Ukrayna	34153	82,9
7	Qazaxıstan	34000	73,2
8	Polşa	22160	161,0
9	Çexiya	5678	63,4
10	Türkiyə	3689	54,4
11	Yunanıstan	2874	71,7
	Afrika	57077	230,4
12	o cümlədən CAR	49520	224,5
	Asiya, Avstraliya, okeaniya	292471	2314,7
13	o cümlədən Çin	114500	1393,4
14	Hindistan	84396	358,9
15	Avstraliya	82090	337,9
16	İndoneziya	5370	102,9
	Dünya üzrə	984453	4832,7

Dünya üzrə kömür satışı (2002-ci il)

	Ölkələr	İxrac	Ölkələr	İdxal
1	Avstraliya	198	Yaponiya	159

2	Çin	86	Koreya	70
3	İndoneziya	73	Tayvan	52
4	CAR	69	Almaniya	31
5	Rusiya	45	Böyük Britaniya	29
6	ABŞ	35	Hindistan	25
7	Kolumbiya	34	İspaniya	25
8	Kanada	27	Niderland	22
9	Polşa	23	Rusiya	21
10	Qazaxıstan	14	Kanada	19
11	Sair ölkələr	36	Sair ölkələr	20
	Dünya üzrə	640	Dünya üzrə	659

Lakin, neftdən fərqli olaraq burada (əsasən) istehsalın həcmi ilə istehlakın həcmi arasında kəskin fərq müşahidə edilmir. Belə şəraitdə bu enerji daşıyıcısı üzrə beynəlxalq ticarətin həcmi coğrafiyası o qədər də geniş olmur. 1990-cı illərin axırlarına cəmi təbii qaz satışı 550 mlrd. m^3 olmuşdur ki, bu da cəmi istehsalın 20 %-nə bərabərdir. Beləliklə qazın ixrac kvotası neftə nisbətən daha azdır.

Aşağıdakı cədvəldə ayrı-ayrı ölkələrdə təbii qazın istehlakı (2003-cü il) barədə məlumat verilmişdir.

	Ölkələr	Qazın istehlakı, mlrd. m^3
1	2	3
	Şimali Amerika ölkələri	816,4
1	o cümlədən ABŞ	692,6
2	Kanada	78,6
3	Meksika	45,2
	Mərkəzi və Latın Amerikası ölkələri	98,1
4	o cümlədən Argentina	29,4
5	Venesuela	25,5
	Avropa və MDB ölkələri	1064,5
6	o cümlədən Rusiya	404,1

7	Böyük Britaniya	92,7
8	Almaniya	82,3
9	Ukrayna	68,7
10	İtaliya	63,5
11	Özbəkistan	53,7
12	Fransa	43,7
13	Niderland	39,5
	Yaxın Şərq ölkələri	210,7
14	o cümlədən İran	70,8
15	Səudiyyə Ərəbistanı	59,1
16	BƏƏ	40,5
	Afrika ölkələri	69,5
17	o cümlədən Əlcəzair	26,7
	Asiya, Avstraliya və Okeaniya	345,5
18	O cümlədən Yaponiya	75,8
19	İndoneziya	36,0
20	Çin	32,4
21	Hindistan	29,2
22	Malayziya	28,2
23	Cənubi Koreya	29,3
24	Tailand	29,3
	Dünya üzrə	2604,7

Cədvəldəki materiallardan aydın olur ki, bir çox ölkələrdə qazın istehsalı ilə istehlakının artım sürəti arasında çox az fərq vardır. Dünya üzrə qaz istehlakı 1980-ci ildəki 1452,0 mlrd. m^3-ə qarşı 2003-cü ildə 2604,7 mlrd. m^3 olmuşdur – 80 %-ə qədər artmışdır.

Şimali Amerikadan, Rusiya, Türkmənistan və Qazaxıstandan Qərbi Avropaya və eləcə də Kanadadan ABŞ-a olan qaz ixracı istiqaməti daha çox üstünlük təşkil edir.

7. Dünya üzrə elektrik enerjisi istehsalı

Hər bir ölkədə və eləcə də dünya miqyasında energetika iqtisadi inkişafın əsasını təşkil edir. Məhz enerji istehsalı səna-

yenin, kənd təsərrüfatının, nəqliyyatın, kommunal təsərrüfatı və sairənin fasiləsiz işləməsini təmin edir. Digər tərəfdən isə energetika sahəsi istilik enerji kompleksinin zəruri tərkib hissəsi olan yanacaq sənayesi ilə də bağlıdır.

Beləliklə, çox vaxt elektroenergetika sahəsini **«yuxarı mərtəbə»** adlandırırlar. Elektroenergetikanın rolu insan fəaliyyəti dairəsinin elektrikləşdirilmə səviyyəsi ilə müəyyən edilir. Ona görə də dünya üzrə yanacaq-energetika balansının elektrikləşdirilmə səviyyəsi ardıcıl olaraq artırılır.

Dünya üzrə elektrik enerji istehsalının quruluşu – istilik elektrik stansiyaları (İES), su elektrik stansiyaları (SES) və atom elektrik stansiyalarından (AES) ibarətdir. Cəmi elektrik enerjisinin 63 %-i İES-lərin, 20 %-i SES-lərin və 17 %-i AES-lərin payına düşür. Aydındır ki, ayrı-ayrı ərazi və ölkələrdə elektrik enerjisinin quruluşu fərqlənir.

Bir çox ölkələrdə (o cümlədən ABŞ-da, Rusiyada, Avropanın əksər ölkələrində) istilik elektrik stansiyalarında elektrik enerjisi alınması daha çoxdur.

Norveçdə SES-in, Fransada AES-in xüsusi çəkisi daha artıqdır – 70 %.

İES-də elektrik enerjisi alınmasında yanacaq kimi kömürdən daha çox istifadə edilir. Daha doğrusu elektrik enerjisi **alınmasının 60 %-i kömürə, 28 %-i qaza, 12 %-i neftə əsaslanır**.

Su elektrik stansiyalarında elektrik enerjisi daha ucuz başa gəlir. Lakin, belə stansiyaların, qurğuların yaradılması daha çox ilkin kapital tələb edir.

İEOÖ-lərdə su elektrik stansiyalarının yaradılması üçün daha çox imkan vardır. Lakin, bu ölkələrdə mövcud imkanlardan səmərəli istifadə edilmir (Afrikada – 5 %, Cənubi Amerikada – 10 %). Su elektrik stansiyalarının yaradılması ehtiyatlarından ABŞ və Rusiya daha səmərəli istifadə edir.

Əgər şərti olaraq istilik elektrik stansiyalarının üstünlük təşkil etdiyi ölkələri birinci, SES-lərin üstünlük təşkil etdikləri ölkələri ikinci və AES-rə əsaslanan ölkələri üçüncü qrup adlandırsaq, onda aşağıdakı mənzərəni görmək olar.

Birinci qrup ölkələrdə elektrik enerjisi alınmasında kömür, mazut və təbii qaz yandırılır. Bu qrupa ABŞ, Avropanın bir çox ölkəsi, MDB ölkələri, Yaponiya, Çin, Hindistan, Avstraliya və digər ölkələr daxildir. Burada bəzi ölkəlrdə cəmi elektrik enerjisinin 95 -100 %-i İES-rə əsaslanır. Bura öz kömürü olan Polşa, CAR və yaxud neft və qaza əsaslanan Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt, Bəhreyn, Oman, İraq, Liviya, Əlcəzair, Trinidad və Tobaqo, Türkmənistan və eləcə də idxala əsaslanan Danimarka, İrlandiya, Belorusiya, Moldova, İsrail, İordaniya, Kipr, Sinqapur, Somali, Kuba və s. kimi ölkələr daxildirlər.

Bunlardan əlavə təqribən 40 kiçik ada ölkələri də həmin qrupa daxildirlər. Bu ölkələrin hamısı öz elektrik stansiyalarını kənardan gətirmə yanacaq-neft hesabına işlətməyi əsas götürürlər. Onu da qeyd etmək lazımdır ki, hazırki böyük İES-lər 4-5 mln. kvt.saat gücünə malik olub adətən kömür çıxarılan yerlərə yaxın və yaxud nəqliyyata münasib yerlərdə qurulur. Neft yanacağını nəzərdə tutan ölkələr adətən neft emalı zavodlarına yaxın, qazı nəzərdə tutan ölkələr isə magistral qaz xətlərini nəzərdə tutur.

Ümumiyyətlə SES-lər üstünlük təşkil edən ölkələrin sayı 50-dən artıqdır. Avropada (Norveç -99,5 %, Albaniya, Xorvatiya, Bosniya və Herseqovina, İsveçrə, Latviya) və Asiyada (Butan, Vyetnam, Laos, Şri-Lanka, Əfqanıstan və s.), Afrikada belə ölkələrin sayı 20-dən artıqdır. Zimbabve, Konqo, Konqo Demokratik Respublikası, Uqanda, Ruanda, Malavi kimi ölkələrdə faktiki olaraq su elektrik stansiyaları fəaliyyət göstərirlər.

Kuba, Argentina və Meksikadan başqa Latın Amerikası ölkələrində su elektrik stansiyaları daha həlledici rola malikdirlər.

Şimali Amerikadan Kanada, Okeaniyadan Yeni Zelandiya, MDB ölkələrindən Tacikistan, Qırğızıstan və Gürcüstan ikinci qrup ölkələrə daxildirlər.

Nəhayət 3-cü qrup dövlətlər AES-rə əsaslanan ölkələr hesab edilir. Bura ilk növbədə Fransa, Belçika, Slovakiya, Sloveniya və Litva daxildirlər.

AES-lərin əsas üstün cəhətləri ondan ibarətdir ki, onlar hər hansı xammal mənbəyinə yaxın olmağı nəzərdə tutmurlar, praktiki olaraq hər bir yerdə qurula bilərlər. Bununla yanaşı AES-lərin gücündən istifadə əmsalı daha yüksəkdir (80 %). Lakin AES-lərin təhlükəli cəhətlərini də nəzərdən qaçırmaq olmaz.

Bütün başqa məhsullar kimi elektrik enerjisi də alqı-satqı predmetidir. Hazırda cəmi elektrik enerjisi ticarəti ildə 350 mlrd. kvt.saat təşkil edir. Bu cəmi istehsalın 2,3 %-ni təşkil edir. Daha çox ixrac Fransa, Kanada, Paraqvay, Almaniya tərəfindən, idxal isə ABŞ, Almaniya, İtaliya, Braziliya və İsveçrə tərəfindən həyata keçirilir.

Ən çox elektrik enerjisi istehsal edən ölələr (2000-ci il)

Ölkələr	İstehsal, mlrd. kvt.saat	Ölkələr	İstehsal, mlrd. kvt.saat
ABŞ	3980	Braziliya	340
Çin	1325	İtaliya	260
Yaponiya	1080	Koreya Respublikası	260
Rusiya	875	CAR	205
Kanada	585	İspaniya	200
Almaniya	565	Avstraliya	195
Hindistan	550	Meksika	185
Fransa	540	Ukrayna	170
Böyük Britaniya	350	İsveç	160

Elektrik enerjisi ticarəti (qabaqcıl ölkələr, 2002-ci il)

Ölkələr	İxrac, mlrd. kvt.saat	Ölkələr	İdxal, mlrd.kvt.saat
Fransa	73	İtaliya	49
Almaniya	42	Almaniya	46
Kanada	39	ABŞ	38

Paraqvay	39	Braziliya	38
İsveçrə	35	İsveçrə	24
Rusiya	26	Niderland	21
Çexiya	19	Kanada	16
İsveç	18	Belçika	16
ABŞ	18	Avstriya	14
Avstriya	14	Finlandiya	12
Sair	164	Sair	221
Dünya üzrə cəmi	487	Dünya üzrə cəmi	495

8. Kimya sənayesinin inkişafı

Maşınqayırma sənayesi ilə yanaşı kimya sənayesi də hər bir inkişaf etmiş ölkənin və eləcə də dünya iqtisadiyyatının əsas aparıcı sahələrindən biridir. Demək olar ki, kimya sənayesi elmi-texniki inqlabdan xeyli əvvəl təşəkkül tapmışdır. Hər halda kimya sənayesini yeni istehsal sahələrinə aid etmək olar. Lakin XX əsrin ortalarından bu sahədə elə köklü dəyişikliklər baş vermişdir ki, onu ən yeni sahələrə belə aid edirlər. Kimya sənayesi həcminə görə qida məhsulları bazarından və avtomaşınqayırmadan sonra **üçüncü yeri tutur**.

Kimya sənayesi öz mürəkkəbliyi ilə fərqlənir. Belə ki, 200-dən artıq yarımsahə və istehsal növünə malik olan bu sahədə bir milyona qədər müxtəlif çeşiddə məhsul istehsal olunur. Kimya sənayesi öz təsnifatına görə aşağıdakı bölmələrdən ibarətdir:

1. Dağ-kimya sənayesi (dağ-kimya xammalı olan fosforitlər, natrium və kalium duzları, kükürd və s. kimi xammalların çıxarılması və təmizlənməsi).

2. Əsas xammal sənaye sahəsi – burada mineral gübrələr, turşular, duzlar, qələvilər və s. istehsalı nəzərdə tutulur.

3. Polimer materiallar sənayesi. Burada üzvi sintez, sintetik qətran və plastmaslar, kimyəvi liflər, sintetik kauçuk, sintetik boyalar və s. istehsalı nəzərdə tutulur.

Bu kimi sintetik kimyəvi məhsullardan geniş istifadə edilməsi nəticəsində 1960-2000-ci illər ərzində ictimai istehsalda köklü dəyişikliklər edilmişdir. Həmin dövrdə plastmas materiallardan istifadə edilməsi 40 dəfə artmışdır. Nəticədə emal sənayesində kimya sahəsinin xüsusi çəkisi 12-15 % yüksəlmişdir.

Kimya sənayesində (inkişaf etmiş ölkələrin timsalında) ETTKI- nə ayrılan vəsait bütövlükdə sənaye sahəsinə ayrılan analoji xərclərdən 2 dəfə artıqdır. Məsələn, ABŞ-ın kimya şirkətləri bu sahədə elmi-tədqiqat işlərinə ildə 13 mlrd. dollar məbləğində vəsait ayırmışlar.

Müasir şəraitdə kimya sənayesində əsas problemlərdən biri də quruluş dəyişikliyi edilməsidir. Bu sahədə ABŞ, Yaponiya və Almaniya daha çox fərqlənirlər.

Kimya sənayesinə ayrılan cəmi birbaşa xarici investisiya ümumi birbaşa investisiyanın 8 %-ni təşkil edir ki, bu da 230 mlrd. dollara bərabərdir.

ABŞ-ın təkcə Almaniya, Böyük Britaniya və Fransanın kimya sənayesinə ayırdığı birbaşa kapital 7-8 mlrd. dollar təşkil edir. Qərbi Avropa və Yaponiyadan ABŞ-ın kimya sənayesinə ayrılan xarici vəsait isə ildə 13-15 mlrd. dollara bərabər olmuşdur.

Dövlət bu sahədəki innovasiya fəaliyyətinə bir çox güzəştlər edir: vergilərdən azad edir, kadr hazırlığına kömək edir və s.

Başqa sahələrdə olduğu kimi burada da əsas yeri Şimali Amerika və Qərbi Avropa tutur. Belə ki, son illərin məlumatına görə həmin sahədə istehsal olunan cəmi məhsulun 30 %-i Qərbi Avropanın, 30 %-i Şimali Amerikanın, 18 %-i isə Yaponiyanın payına düşür.

Qərbi Avropada Almaniya və İtaliya inkişaf etməkdə olan ölkələrdə isə Çin və Cənubi Koreya fərqlənirlər.

Eləcə də son dövrlərdə Səudiyyə Ərəbistanı, Oman, Küveyt, Tayvan, Sinqapur, İndoneziya, Malayziya, Latın Amerikasında isə Venesuela və Argentinada neft-kimya sənayesi sürətlə artır. 2000-ci ilin məlumatına görə dünya üzrə kimya sənayesi məhsulu ixracı 345,0 mlrd. dollar olmuşdur.

X FƏSİL
DÜNYA TƏSƏRRÜFATI VƏ ƏHALİ PROBLEMİ

1. Dünyanın demoqrafik[1] inkişafı.
2. Əhali artımı və iqtisadi artım.
3. Demoqrafiya siyasəti.
4. Dünya əmək ehtiyatları, onların kəmiyyət və keyfiyyət tərəfləri.
5. İşçi qüvvəsindən istifadə edilməsi.

1. Dünyanın demoqrafik inkişafı

Demoqrafiya – əhalinin təkrar istehsalı və bu prosesi şərtləndirən ictimai-tarixi vəziyyət haqqında bir elm sahəsidir.

Deməli demoqrafiya dedikdə əhalinin təkrar istehsalı, sayı, tərkibi, yerləşməsi, bütün bunlara təsir edən sosial-iqtisadi amillərin məcmusu nəzərdə tutulur.

Bütövlükdə əhali problemi və işçi qüvvəsinin təkrar istehsalı məsələləri mütəxəssislərin, siyasətçilərin, bütün ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Çünki ayrı-ayrı ölkələrdə və regionlarda demoqrafiya vəziyyəti və işçi qüvvəsinin istifadə edilməsi onların iqtisadi və sosial inkişafına və dünya miqyasında iqtisadi və siyasi qüvvələrin yerləşdirilməsinə əsaslı surətdə təsir edir.

Deməli əhali artımı sosial, mədəni və iqtisadi amillərdən asılı olmaqla özü də bu amillərə təsir edir.

Ümumi əhali artımı həmişə yüksələn istiqamətdə mövcuddur. 1950-1995-ci illərdə (45 ildə) dünya əhalisi iki dəfədən çox artaraq - 2,5 mlrd. nəfərdən 5,7 mlrd. nəfərə, 2006-cı ildə isə 6,5 mlrd. nəfərə çatmışdır. İqtisadi hesablamalar göstərir ki, əhalinin iki dəfə artması üçün lazım olan müddət son vaxtlar əsaslı surətdə azalmışdır - qısalmışdır. Belə ki, ilk dəfə dünya əhalisinin iki dəfə artması, 1500 ilə (yeni eranın başlanmasından 1500-cü ilədək), ikinci dəfə 300 ilə (1500-1800-cü illər), üçüncü dəfə 120 ilə

[1] Demoqrafiya – yunanca «demos» - xalq deməkdir.

(1800-1920-ci illər), dördüncü dəfə 50 ilə (1920-1970-ci illər) baş vermişdir. Bununla yanaşı göstərməliyik ki, hansı dövrlərdə dünya əhalisi mlrd. nəfər həddində dəyişmişdir.

Dünya əhalisinin artımı

İllər	Əhalinin sayı, mlrd. nəfər	Lazım olan müddət, il
1820	1	Bütün keçmiş illər
1927	2	107
1960	3	33
1974	4	14
1987	5	13
1999	6	12

Cədvəldə görünür ki, 1820-ci ilədək olan bütün dövr üçün əhalinin sayı 1 mlrd. nəfər olduğu halda, təkcə XX əsrdə 5 dəfə mlrd. göstəricisi dəyişmişdir.

Əhalinin sayı uzun müddət mövcud olan bioloji, ekoloji şəraitdən və eləcə də adət-ənənədən xeyli asılıdır. Ona görə də dünya miqyasında əhali artımı məsələsi heç də həmişə problemsiz baş verməmişdir. Belə ki, 1348-1377 illərdə Avropada taun xəstəliyi əhalinin ən azı 40 % azalmasına səbəb olmuşdur. Əhalinin demoqrafik bərpası isə yüz ildən artıq çəkmişdir.

Demoqrafik inkişaf əsasən uzun müddətli təkamül inkişaf dövrünü və nisbətən qısa müddətə keyfiyyət dəyişikliyini özündə əks etdirir. Məhz həmin dövrlər demoqrafik inqilab və yaxud demoqrafik keçid adlanır.

Demoqrafik inqilab (və yaxud demoqrafik partlayış) anlayışı əhalinin yüksək sürətlə artmasını ifadə edir.

Qeyd etməliyik ki, demoqrafik inqilab anlayışı ilk dəfə 1934-cü ildə Fransa demoqrafı Landri Adolf tərəfindən iqtisadi ədəbiyyata daxil edilmişdir.

Demoqrafik keçid anlayışı isə ilk dəfə 1950-cü ildə Amerika demoqrafı Frenk Nautstayn tərəfindən işlənmişdir. Bir çox alimlər isə hər iki anlayışa eyni mənada baxırlar.

Demoqrafik keçid dedikdə əhalinin təkrar istehsalı tipi nəzərdə tutulur. Yəni məhsuldar qüvvələrin inkişafı və sənaye sisteminə keçməsi nəzərdə tutulur.

Bu mənada qeyd etməliyik ki, insan cəmiyyəti əsasən üç böyük inkişaf mərhələsi keçmişdir:

- iqtisadiyyatın mənimsənilməsi mərhələsi;
- aqrar iqtisadiyyatın hakim olduğu mərhələ;
- sənaye iqtisadiyyatı mərhələsi.

Demoqrafiya problemində də bu üç mərhələyə uyğun olaraq tarixən əhalinin təkrar istehsalının üç növü ayrılmışdır:

1. Qədim dövrə xas olan növ (arxetip).
2. Ənənəvi təkrar istehsal növü.
3. Müasir növ.

1. **Qədim dövrə xas olan təkrar istehsal cəmiyyətin inkişafının ilk mərhələlərinə təsadüf etmişdir**. Bu dövrdə insanlar təbiətdən asılı idilər – ovçuluq, balıqçılıq və s. kimi məşğuliyyət növləri mövcud idi. Belə şəraitdə çox aşağı artım xarakterik olmuşdur.

Sonra, tədricən istehsal edən iqtisadiyyata (əkinçilik, heyvandarlıq və s.) keçilmişdir (bu dövr daş dövrü inqilabı adlanır). Bu dövr əhalinin təkrar istehsalının yeni növünə – ənənəvi növünə keçidə zəmin yaratmışdır.

2. **Əhalinin təkrar istehsalının ənənəvi növü bir neçə min illər davam** etmiş və aqrar iqtisadiyyatın hakim olduğu dövrə uyğun gəlmişdir. Bu növ təkrar istehsalın əsas fərqləndirici cəhəti ondan ibarətdir ki, həmin dövrdə doğum faizi çox yüksək olmuşdur (40-50 %), lakin ölüm faizi də yüksək olmuşdur.

Məhsuldar qüvvələrin inkişafında əsas köklü dəyişiklik aqrar iqtisadiyyatdan sənaye iqtisadiyatına keçidlə baş vermişdir.

Sənaye çevrilmiş XVIII-XIX əsrlərdə Avropada, XX əsrdə isə bütün dünyada özünü göstərmişdir. Məhz elə bu dövrdən də **əhalinin təkrar istehsalının müasir dövrü başlanmışdır**.

3. Əhalinin təkrar istehsalının müasir dövrü tamamilə fərqli demoqrafik şəraitlə səciyyələnir.

İnsanların təbiətdən asılı olmasının azalması, tibbin və səhiyyənin nailiyyətlərinin artması, ümumi həyat səviyyəsinin

yaxşılaşması ölüm halları göstəricilərinin azalmasına və orta ömür müddətinin artmasına səbəb olmuşdur. Bu növ təkrar istehsalın digər fərqləndirici cəhəti ondan ibarətdir ki, **demoqrafik münasibətlərdə fəallıq, çeviklik**, sərbəstlik daha geniş rol oynayır. Təkrar istehsal prosesinin idarə edilməsi güclənmişdir. Ona görə də bu növ daha səmərəli təkrar istehsal növü adlanır. Bütün bu proseslərin tədqiq edilməsilə **demoqrafik inqilab və demoqrafik çevriliş anlayışları yaranmışdır**.

Beləliklə, demoqrafik keçid nəzəriyyəsi də meydana gəlmişdir. Bu nəzəriyyənin əsas vəzifəsi əhalinin təbii artımı (doğum, ölüm) barədə olan dəyişikliklərin xarakterini və uzunmüddətli istiqamət meylini müəyyən etməkdən ibarətdir.

Demoqrafik keçiddə (əvəzlənmədə) əhalinin təkrar istehsalını dörd mərhələyə ayırmaq olar. **Birinci dövrdə** ölüm faizinin azalması doğum faizinin azalmasını üstələyir. Nəticədə əhalinin artımı yüksəlir. Sənayecə inkişaf etmiş ölkələrdə bu dövr 1950-ci illərdə başa çatmış, inkişaf etməkdə olan ölkələr üçün isə başlanmışdır.

İkinci dövrdə ölüm faizi azalır. Nəticədə əhalinin artım sürəti də azalır, yavaşıyır. Demoqrafik keçidin belə bir dövrü inkişaf etməkdə olan ölkələr üçün 1970-ci illərdə başlamışdır. Ölüm faizinin azalması ilə yanaşı doğum faizi də nisbətən azalmışdır.

Üçüncü dövrdə qocaların sayının artması ilə bağlı olaraq ölüm faizi artır, doğum faizinin azalması yavaşayır. Bu dövrün axırlarında doğum faizi sadə təkrar istehsal səviyyəsində olur.

Sənayecə inkişaf etmiş ölkələr üçün 1990-cı illərdə belə bir dövr xarakterik olmuşdur.

Dördüncü dövr üçün doğum və ölüm faizlərinin yaxınlaşması xarakterikdir.

Əhalinin təkrar istehsalı dövrləri əhəmiyyətli dərəcədə cəmiyyətin sosial-iqtisadi cəhətdən təşkil edilməsi ilə şərtlənir. Təkrar istehsal tiplərinin yenidən qurulması ancaq ölüm faizinin azalmasından deyil, sosial-iqtisadi dəyişikliklərdən də asılıdır. Doğum məsələləri bir çox hallarda ailə və ailəçilik növü və bu ailəçiliyə qarşı iqtisadi münasibətlərin təbiəti ilə müəyyən edilir.

Geridə qalmış aqrar iqtisadiyyatın hakim olduğu ölkələrdə böyük ailələr mövcuddur. Bu ailələrdə-qohumlar arasında ümumi iqtisadi fəaliyyət və məqsəd birliyi vardır. Belə ailələrdə kiçik yaşlılara gəlir mənbəyi kimi baxırlar. Məhz elə bu cür münasibət, doğumun artmasını məqsədəuyğun hesab edir.

Sənaye cəmiyyətlərində ailə öz iqtisadi funksiyasını itirir. Gəlir gətirilməsinin istiqaməti dəyişir. Bu isə uşaqların az olmasını şərtləndirir. Ona görə də inkişaf etməkdə olan ölkələrdə sağlamlığın və rifah halının yaxşılaşması ümumi artıma zəmin yaradır.

Bir çox inkişaf etməkdə olan ölkələrdə sağlamlığın və rifahın yaxşılaşdırılması ömrün uzanmasına və uşaq ölümünün azalmasına səbəb ola bilər ki, bu da bütövlükdə insan artımı sürətinin azalmasının qarşısını ala bilər.

Bir çox yüksək həyat standartına xas olan ölkələrdə əhali artımı birbaşa olaraq əhalinin təkrar istehsalından asılıdır.

Müəyyən hesablamalara görə əhalinin illik orta artım sürəti 2 % və çox olduqda bu yüksək artım sayılır. Belə şəraitdə əhalinin iki dəfə artması 35 il çəkir. Əhalinin iki dəfə artması 50 ilə baş verdikdə bu orta, 200 ilə baş verdikdə ləng hesab olur. Demoqrafik inkişafın xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, doğumun və ölümün hər ikisinin yüksək faizə malik olması əhalinin demoqrafik müvazinətliyinə zəmin yaradır. belə olduqda əhali orta hesabla az yaşayır və nəsl tez əvəzlənir. Təbii təkrar istehsalın başqa tipə çevrilməsi (keçməsi) ölümün azalması ilə başlanır.

XX əsrin ortalarından kütləvi xəstəliklərlə mübarizə aparmaq üçün daha effektivli və ucuz imkanlar yaranmışdır. Bu isə, ölümün kəskin azalmasına səbəb olmuşdur.

Ölümün azalması prosesi inkişaf etməkdə olan ölkələrdə də güclənmişdir. Müharibədən sonrakı dövrdə ölüm faizi həmin ölkələrdə 2,6 dəfə azalmışdır. 1950-1955-ci illərdəki 23,3 faizdən 1990-1995-ci illərdə 9,1 faizə enmişdir. Son vaxtlar Asiya, Afrika və Latın Amerikası ölkələrində əhali artımı yüksək xarakter almışdır. Bu isə bütövlükdə dünya əhalisinin çoxalmasına səbəb olmuşdur.

Bununla yanaşı ayrı-ayrı yarım sistemlərdə artım sürəti köklü sürətdə biri-birindən fərqlənir. Belə ki, 1990-2000-ci illərdə dünya üzrə orta illik artım 1,57 % təşkil etdiyi halda, bu göstərici inkişaf etmiş ölkələrdə 0,40; inkişaf etməkdə olan ölkələrdə 1,88; Afrika ölkələrində 2,81; Asiyada 1,70; Avropada 0,27; Latın Amerikası ölkələrində 1,84; Şimali Amerikada 1,06 % olmuşdur. Beləliklə, 90-cı illərdə inkişaf etməkdə olan ölkələrdə əhali artımı inkişaf etmiş ölkələrə nisbətən beş dəfə artıq olmuşdur (1,9 və 0,4). Bu cür demoqrafik partlayış tarixdə heç də təzə hadisə deyildir. Belə ki, Qərb ölkələrində əhalinin ən yüksək artımı 1760-1820-ci illərdə təsadüf edilmişdir. O vaxt ABŞ-ın əhalisi 6 dəfə; Böyük Britaniyanın əhalisi 1,8; Fransada – 1.2; Almaniyada – 1,4; İtaliyada -1,1 dəfə artmışdır. 1820-1860-cı illərdə isə yenə də artım olmuşdur. həmin dövrdə əhali ABŞ-da 3 dəfə; Böyük Britaniyada 1,4; Almaniyada 1.5 dəfə çoxalmışdır. İnkişaf etmiş ölkələrdə bu cür demoqrafik keçid 1950-ci illərdə demək olar ki, başa çatmışdır. Həyat şəraitinin yaxşılaşması həmin ölkələrdə ömür müddətinin artmasına, doğumun azalmasına, yaşlı adamların xüsusi çəkisinin yüksəlməsinə səbəb olmuşdur. XXI əsrdə həmin yarım sistemə daxil olan ölkələrdə doğum və ölüm faizinin bərabərləşməsi gözlənilir.

Hər halda əhalinin artım sürətinin və təkrar istehsal əmsalının azalmasına baxmayaraq insanların sayı hər il təqribən 86 mln. nəfər artır. Bu artım 1955-ci ildə 47 mln., 1985-1990-cı illərdə orta hesabla 88 mln. nəfər olmuşdur. Beləliklə cari yüz illiyin axırlarına əhalinin sayı xeyli artacaqdır. Əhalinin sayının 2015-ci ildə 7,3-7,9 mlrd. nəfər olması gözlənilir.

Əhalinin yerləşməsi. Əhali artımının əsasını inkişaf etməkdə olan ölkələr təşkil edir. Belə ki, 50-ci illərin ortalarında dünya üzrə əhali artımının 79 %-i, 90-cı illərin birinci yarısında isə 95 %-i həmin ölkələr tərəfindən təmin edilmişdir. Bu kimi proseslər dünya təsərrüfatının ayrı-ayrı yarım sistemlərində əhalinin yenidən bölüşdürülməsinə səbəb olmuşdur. Əgər 50-ci illərdə əhalinin 60-65%-i inkişaf etməkdə olan ölkələrdə yaşayırdısa, 1990-cı ildə bu 77% təşkil etmişdir. 2025-ci ildə həmin

göstəricinin 84 % olması gözlənilir. Əhalidə inkişaf etməkdə olan ölkələrin payının bu cür artması əsasən Afrikanın və Hindistanın hesabına baş vermişdir. Qərbin inkişaf etmiş ölkələrinin isə xüsusi çəkisi azalmışdır. Bu cür dəyişiklik əhalinin yerləşdirilməsi ilə məhsuldar qüvvələr arasındakı differensiallaşmanı artırmışdır. Belə ki, dünya əhalisinin 80 %-i, DÜÜM-in isə 20 %-i həmin inkişaf etməkdə olan ölkələrin payına düşür. Qeyd etmək lazımdır ki, daha çox əhalisi olan Çin 1306,0, Hindistan 1080, İndoneziya 242,0, Braziliya 186,0, Pakistan 162,4, Banqladeş 144,0, Nigeriya 129,0 mln. nəfər (2004-cü il), ölkələri də bu yarım sistemə daxildirlər.

Cədvəl

Ayrı-ayrı yarımsistemlər və regionlarda əhalinin bölgüsü

Region və ölkələr	**1950**	**1990**	**2025**
Dünya üzrə mln. nəfər	2516,2	5295,0	8472,0
%	100	100	100
İnkişaf etmiş ölkələr	33,1	22,9	16,6
İnkişaf etməkdə olan ölkələr	66,9	77,1	83,4
Afrika	8,8	12,1	18,7
Asiya	54,7	58,9	57,8
Çin	22,1	21,8	18,2
Hindistan	14,2	16,0	16,5
Latın Amerikası	6,6	8,3	8,3
Şimali Amerika	6,6	5,2	4,3
Avropa	15,8	9,6	6,4
SSRİ[6]	6,9	5,3	4,1
Okeanlar	0,5	0,5	0,5

Cədvəldə gətirilən rəqəmlər bir daha göstərir ki, gələcəkdə inkişaf etməkdə olan ölkələrdə əhali daha çox artacaqdır.

[6] Pribaltika Avropaya aid edilmişdir.

2. Əhali artımı və iqtisadi artım

Araşdırmalardan aydın olur ki, dünya təsərrüfatının ayrı-ayrı yarımsistemlərində əhali artımı biri-birindən fərqlənir. Hadisənin bu cür axını əvvəllər yaranmış optimal əhali artımı və optimal iqtisadi artım barədəki ideyanın müəyyən əsasa malik olduğunu sübut edir. Məhz bu ideyalar elə bəzi ölkələrin və regionların əhali artımı ilə, son onilliklərdə isə dünya əhalisinin artımı ilə bağlıdır. Bütün bunlar əhali artımı ilə iqtisadi artım (inkişaf) arasında əlaqəni təhlil etməyə zərurət yaradır. Bu sahədə bəzi mülahizələri qeyd etmək olar:

1. Bəzi mülahizələrə görə demoqrafik dəyişikliklər əsaslı sürətdə sosial-iqtisadi inkişafa əks təsir edir. Bu mülahizə belə izah edilir ki, əhalinin sürətlə artması əmanətləri və yığımı azaldır, işçi qüvvəsini artırır, işlə təmin olunmanı çətinləşdirir. Təhsil və səhiyyə xərcləri azalır ki, bu da əmək ehtiyatlarının keyfiyyətini aşağı salır. Beləliklə texniki yeniləşmə zəifləyir, hər nəfərə düşən ehtiyatların həcmi azalır. Nəticədə hər nəfərə düşən ÜDM-in artımı azalır.

Tarixi baxımdan bu cür yanaşma ingilis keşişi və iqtisadçısı T.Maltusun (1766-1834) fikirləri ilə bağlıdır. O, belə bir fərziyyə irəli sürürdü ki, cəmiyyət inkişaf etdikcə həm insanlar, həm də sərvət-maddi nemətlər artır. Lakin insanlar daha sürətlə artır. Daha doğrusu insanlar həndəsi silsilə ilə, nemətlər isə ədədi silsilə artır. Odur ki, Maltus izah etməyə çalışırdı ki, əhali artımının qarşısını almaq üçün müharibələr, xəstəliklər, aclıq və s. qanunauyğunluq təşkil edir. Eləcə də sosial amil olan çox uşaqlıqdan qaçmaq və s. kimi halları əsaslandırmağa çalışırdı. Buradan belə çıxırdı ki, əhali artımı insanlar üçün problemlər yaradır. Lakin Maltus o dövrdə öz ölkəsinin - İngiltərənin göstəricilərinə əsaslanırdı. O vaxt İngiltərədə kənd təsərrüfatı məhsulları doğrudan da azlıq edirdi.

2. **Digər yanaşmanın mahiyyəti ondan ibarətdir ki,** demoqrafik amillər sosial və iqtisadi inkişafın əsasını təşkil edir, ona zəmin yaradır. Demoqrafiya probleminə bu cür yanaşma 1974-

cü ildə əhali artımına həsr olunmuş beynəlxalq (dünya) Konfransında da öz əksini tapmışdır.[1]

Qeyd etmək lazımdır ki, həmin fikirlər təqribən 240 il əvvəl tanınmış İngilis iqtisadçısı Adam Smitin (1723-1790) yaratdığı müddəalara çox uyğun gəlir. O, göstərirdiki, əhalinin çoxalması və texniki yeniliklər əldə etməsi iqtisadi inkişafı artıra bilər. Sərvətin artması isə uşaqların sayını çoxaldır, onların əməyindən istifadə edilməsi ilə onlara çəkilən xərclər ödənilə bilər. Digər tərəfdən isə aydındır ki, imkanlı ailələrdə uşaqların azalması meyli vardır. Kasıbçılıq yalnız çox uşaqlıqla deyil, ölüm faizinin artıq olması ilə də müşahidə olunur. Əhali artımı heç də həyat normalarını, həyat standartlarını azaltmır. A.Smit göstərirdi ki, vaxt keçdikcə məhsuldar qüvvələrin inkişafı ilə ərzaq məhsullarının dəyəri aşağı düşür.

Bu kimi iqtisadi görüşlərə uyğun müasir kompleks yanaşma fikri yaranmışdı. **Bu cür yanaşma 1986-cı ildə ABŞ-ın Milli Elmlər Akademiyasının ikinci məruzəsində müdafiə edilmişdir.** Bu məruzədə etiraf edilmişdir ki, əhali artımının iqtisadi artıma təsiri kompleks xarakterə malikdir. İşsizlik, yarı aclıq kimi problemlər bir çox amillərlə əlaqədardır. Milli Elmlər Akademiyasının işçi qrupu sübut edir ki, əhali artımının azalması doğrudan da iqtisadi inkişafa təsir edir, hər halda müəyyən qədər ehtiyatların mövcudluğu zəminində bir çox ölkələrdə əhalinin zəif artımı belə, iqtisadi və sosial inkişafa zəmin yarada bilər. Həmin işçi qrupu bu məsələ üzrə doqquz suallı geniş araşdırmış və belə nəticəyə gəlmişlər ki, **ehtiyatların, əmanətlərin azalmasına - tükənməsinə mənfi təsir edən amillər, urbanizasiya[1], işsizlik və s. bir çox hallarda şişirdilir.** Əhali və ehtiyatlar hər ikisi zəruri dəyişən həddolub biri-biri ilə nisbi mütənasiblikdədir, daimi hərəkətdə-

[1] Bu cür həmrəylik konfransı ilk dəfə 1957-ci ildə Misirdə - Asiya və Afrika xalqlarının həmrəyliyi təşkilatını yaratmışdır. Sonralar 1960-cı ildə Qvineyada, 1963-cü ildə Tanzaniyada, 1965-ci ildə Qanada, 1967, 1968, 1972-ci illərdə Misirdə Konfrans keçirilmişdir

[1] Urbanizasiya (frans.) – sənaye və əhalinin şəhərlərdə cəmlənməsi prosesi.

dir və elastikidir. Ona görə də bu barədə əldə edilən nəticə müxtəlif ola bilər. Ola bilər ki, qısa və orta müddətə əhalinin sayının dəyişilməsi iqtisadi artıma təsir edən daha vacib şərt olsun. Daha uzun müddətdə isə başqa şərt əsas ola bilər.

Dünyada demoqrafik vəziyyəti təhlil etdikdə bu və ya digər ölkədə əhali artımının iqtisadi vəziyyətə təsirini ancaq əhalinin ümumi sayı və artımı baxımından deyil, onun yaş quruluşu - əmək qabiliyyətli olması, uşaqlar, yaşlılar və s. baxımından da araşdırmaq tələb olunur. Belə ki, XX əsrin ikinci yarısında əhalinin qurluşunu müşahidə etdikdə məlum olur ki, 65 yaşdan yuxarı olanların sayının artması və kiçik yaşlıların (15 yaşdan az) sayının azalması meyli, pensiya yaşlıların artması meylindən geniş olmuşdur. İnkişaf etmiş ölkələrdə və xüsusi ilə Avropada (50-ci illərdə) gənc yaşlıların xüsusi çəkisi və ümumiyyətlə əhali artımı çox az olmuşdur. Ona görə də yaşlıların xüsusi çəkisinin artması ilə onlar iş yerlərində azalmış gəncləri əvəz etməli olurlar.

Demoqrafik qurluşda olan dəyişikliklərdən biri də qoca yaşlıların (80 yaşdan yuxarı) sayının artmasıdır. Bu yaşda olanların xüsusi çəkisi 1955-ci ildə 0,6%, 1990-cı ildə isə 1% təşkil etmişdir. İnkişaf etmiş sənaye ölkələrində isə bu göstərici daha yüksək - 2,5 % olmuşdur. Dünya miqyasında əhalinin yaş quruluşu iqtisadi cəhətdən fəal əhalinin sayına və xüsusi çəkisinə əks təsir edir. Burada iki əsas cəhət özünü biruzə verir. Birinci cəhətdə uşaqların xüsusi çəkisi artıq, yaşlıların (65 yaş və yuxarı) xüsusi çəkisi isə nisbətən aşağı olur. Bu cəhət inkişaf etməkdə olan ölkələrin əksəriyyəti üçün xarakterikdir (buna əhalinin demoqrafiya cavanlanması deyilir).

İkinci cəhətdə isə əksinə uşaq yaşlıların payının aşağı və yaşlıların xüsusi çəkisinin artıq olması xarakterikdir. Bu xüsusiyyət inkişaf etmiş ölkələr və keçid iqtisadiyyatı ölkələri üçün səciyyəvidir (buna demoqrafiya qocalması deyilir). Hər iki halda müəyyən çatışmazlıqlar yaranır. Belə ki, uşaqların və yeniyetmələrin payı çox olduqda əmək qabiliyyətlilərin payı azalır. Məsələn Nigeriyada əmək qabiliyyətlilərin xüsusi çəkisi 48,8 %, 15 yaşdan aşağı olanların payı isə 47,0 % təşkil edir (1991).

Hindistanda 1995-ci ildə uşaqlar 35,2 % olmuşdur. Bu 130 min yeni məktəb və yeni iş yeri yaratmaq tələb edir.

Əhalinin tərkibində 60 və ondan yuxarı yaşlıların xüsusi çəkisi 12 %-dən artıq olduqda bu demoqrafik qocalma hesab edilir. Bu xüsusi çəki İsveçrədə - 22,1 %; Almaniyada - 20,1 %, Yaponiyada - 19,9 %; Rusiyada - 16,6 %-dir Beləliklə bir çox ölkələrdə əmək qabiliyyətli əhalinin sayı pensiya alanların sayından az fərqlənir. Bu isə cəmiyyətin iqtisadi yükünü çətinləşdirir.

Əhalinin yaş quruluşunda olan dəyişiklik asılılıq əmsalı və yaxud demoqrafik yük əmsalında öz əksini tapır.

Demoqrafik yük əmsalı dedikdə uşaqların (15 yaşadək) və yaşlıların (65 yaşdan yuxarı) cəmi əmək qabiliyyətli əhaliyə olan nisbəti nəzərdə tutulur. 1975-ci ildən bu nisbət azalmağa doğru meyl edir.

Bu göstərici 1958-ci ildə rəsmləşdirilmişdir. 1995-ci illərdə hər 100 nəfər əmək qabiliyyətlilərin 63 nəfəri uşaqlardan və yaşlı adamlardan (əmək qabiliyyəti olmayanlardan) ibarət olmuşdur.

Dünya üzrə əhalinin demoqrafik quruluşunda - demoqrafik yük əmsalında olan dəyişikliyi aşağıdakı cədvəldən müşahidə etmək olar.

Cədvəl

Regionlar və yaş qrupu	1950	1995	2015
Dünya üzrə	65,6	62,4	53,9
0 - 14	57,2	51,8	41,8
65 +	8,4	10,6	12,1
İnkişaf etmiş ölkələr	54,8	51,2	53,8
0 –14	43,0	31,6	30,0
65 +	11,8	19,6	23,8
İnkişaf etməkdə olan ölkələr	71,5	65,8	53,9
0 –14	65,0	57,9	44,4
65 +	6,5	7,9	9,5
Afrika	84,3	91,8	76,5
0 – 14	78,5	85,9	70,6
65 +	5,8	5,9	5,9

Cədvəldəki göstəricilərdən aydın olur ki, demoqrafik yük əmsalında ümumiyyətlə azalmaya meyl vardır. Yük əmsalının tərkibində isə uşaqların sayının azalması, yaşlıların xüsusi çəkisinin çoxalması meyli müşahidə olunur.

Dünyada demoqrafik vəziyyətin təhlili göstərir ki, əhali artımının yüksəlməsi bir çox hallarda ölüm faizinin azalması ilə də bağlıdır.

Adətən əhali artımının iqtisadi artıma olan təsirini araşdırmaq üçün əhali artımının sürəti ilə hər nəfərə düşən ÜDM-in artım sürəti müqayisə edilir. Son 10 illiklərin göstəricilərinin təhlilindən aydın olur ki, (bəzi istisna hallarını nəzərə almasaq) iqtisadi inkişafın artması ilə yanaşı əhalinin təkrar istehsalı əmsalının azalması və ömür müddətinin yüksəlməsi baş verir. Qeyd etmək lazımdır ki, bu iki göstərici arasında o qədər də dinamik qanunauyğunluq duyulmur. Bu iki göstəricinin müqayisə edilməsinə bir çox amillər və eləcə də iqtisadi vəziyyət də təsir edir.

Məsələn, urbanizasiya prosesinin artması sosial vəziyyətin çətinləşməsinə səbəb olmaya bilməz. 1950-2000-ci illərdə inkişaf etmiş sənaye ölkələrində şəhər əhalisi iki dəfə artaraq 900 mln. nəfərə çatmışdır. Üçüncü dünya ölkələrinin bir çox şəhərləri acliq, düşgünlük mərkəzlərinə çevrilmişlər.

Statistik məlumatlara görə dünya əhalisinin təqribən 23 %-i (1,6 mlrd.), şəhər əhalisinin isə 60 %-i fanerdən, plastika və s.-dən düzəldilmiş komalarda-daxmalarda yaşayırlar. Hər halda heç də demək olmaz ki, əhali çox artmasa iqtisadi inkişaf yüksək ola bilərdi. Bu daxili əlaqəyə borc böhranı da az təsir etmir. Belə ki, Meksikada 1810-1982-ci illərdə hər nəfər hesabı ilə iqtisadi artım əhali artımına nisbətən yüksək olmuşdur (xarici borcun köməkliyi ilə 1995-ci ilin məlumatına görə Meksika ən çox xarici borcu olan ölkədir – 165,7 mlrd.dollar), 2003-cü ilə 141,2 mlrd. dollar.

Belə bir nəticəyə gəlmək olur ki, dünya əhalisinin artması ilə yanaşı iqtisadi inkişaf da yüksəlir. Əgər iqtisadi və sosial dəyişikliklər tez baş verirsə, texniki tərəqqi təmin edilirsə əhali artımı heç bir problem yarada bilməz.

3. Demoqrafiya siyasəti

Demoqrafiya siyasəti (hər bir ölkədə və eləcə də dünya miqyasında) sosial-iqtisadi siyasətin tərkib hissəsi olub əhalinin təkrar istehsalının tənzimlənməsini həyata keçirir. Daha doğrusu burada əhalinin artıb azalması ilə bağlı olan bütün amillərin tənzimlənməsi nəzərdə tutulur. Müəyyən tədbirlər sistemi hazırlanır. Bu tədbirlər sistemi –iqtisadi, inzibati-hüquqi, tərbiyəvi, təbliğat xarakterli olması ilə səciyyələnir.

İnkişaf etməkdə olan ölkələrin bir çoxunda əhali artımı, onların yerləşdirilməsi, sağlamlığının qorunması, maddi tələbatın ödənilməsi imkanları və s. kimi problemlər ictimai-iqtisadi inkişafa əks təsir edirdi. Odur ki, üçüncü dünya ölkələrinin sosial-iqtisadi çətinlikləri demoqrafik siyasətə üstünlük verilməsinə zəmin yaratmışdır. Daha doğrusu demoqrafik proseslərin tənzimlənməsində məqsədyönlü fəaliyyət tələb olunurdu. Qeyd etmək lazımdır ki, hər şeydən əvvəl Qərbin inkişaf etmiş ölkələrinin mövqeyi belə bir fəaliyyət göstərilməsini tələb edirdi. Həmin ölkələr belə hesab edir ki, əhali artımı üzərində nəzarət məhz sosial-iqtisadi inkişafın zəruri şərtidir. 1990-cı ildə ABŞ-ın Texas ştatında - Xyuston şəhərində qabaqcıl Qərb ölkələrinin dövlət və hökumət başçıları birgə rəsmi sənəd qəbul etmişlər. Orada göstərilir ki, bəzi ölkələrdə olan sabit inkişaf tələb edir ki, əhali artımı iqtisadi ehtiyatlarla qanunauyğun balans təşkil etsin. Ona görə də müəyyən demoqrafik siyasət həyata keçirilməlidir. Aydındır ki, bu demoqrafik siyasət hər bir ölkə və yarım sistem ölkələr üçün eyni cür əhəmiyyətli ola bilməz. Belə ki, dünya əhalisinin 26 %-i yaşayan bəzi ölkələr belə hesab edir ki, əhalinin çoxalması və eləcə də təbii artım ölkələrin inkişafına o qədər də təsir etmir, ona görə də bu sahədə elə bir xüsusi tədbir görməyə ehtiyac yoxdur. Demoqrafik siyasət sosial-iqtisadi siyasətin bir hissəsi olmaqla heç də həmişə tam dəqiq, daha aşkar təzahür edə bilmir. **Demoqrafik siyasətdə bir tərəfdə uşağa olan tələbat, digər tərəfdə isə cəmiyyətin mənafeyinə uyğun gələ bilən qədər uşağa olan tələbat əks olunur.** Bu isə iqtisadi, inzibati-hüquqi və

sosial-psixoloji tədbirlər vasitəsi ilə həyata keçirilir. Bu iki tədbirlər demoqrafik proseslərə birbaşa təsir etməsə də, insanların davranışı, hərəkət tərzi vasitəsi ilə təsir edə bilir.

İnkişaf etməkdə olan ölkələrdə demoqrafiya siyasəti daha parlaq təzahür edir. Belə ki, 1970-ci illərdə həmin ölkələrə qarşı biganə-laqeyid münasibət mövcud olduğu halda, hazırda burada demoqrafik proseslərin və hər şeydən əvvəl əhali artımının daha effektli idarə edilməsi problemi gündəlik məsələ olmuşdur.

Qeyd etməliyik ki, BMT də bu problemə çox diqqət yetirir. Belə ki, onun himayəsi ilə ardıcıl olaraq bir neçə dəfə əhali artımına dair ümumdünya konfransı keçirilmişdir.

Bunlardan – 1954-cü ildə (Roma); 1965-ci ildə Belqrad, 1974-cü ildə Buxarest; 1984-cü ildə Mexiko, 1994-cü ildə Qahirədə keçirilən konfransları göstərmək olar.

1967-ci ildə əhali artımı sahəsində BMT-nin həvəsləndirmə fəaliyyəti üzrə fond yaradılmışdır.

1960-cı ildən BMT ardıcıl olaraq hökümətlərdən əhali artımının vəziyyətinə dair sorğu tələb edir və BMT-nin Baş məclisində onu müzakirə edirlər.

Əhali artımının məhdudlaşdırılması siyasəti hər şeydən əvvəl **"ailənin planlaşdırılması"** çərçivəsində həyata keçirilir.

Belə ki, inkişaf etməkdə olan ölkələrdən ilk dəfə Hindistan 1951-ci ildə Xalq təsərrüfatının inkişafına dair beşillik plana doğum faizinin azalması barədə qarşıda duran vəzifələri də əlavə etmişdir. İki uşaqlı ailə modelinin yayılması həyata keçirilir. Bu kimi siyasətlər məcburi xarakter daşıdığı üçün ilk əvvəllər o qədər də nəticə verə bilmədi. Hindistanın əhalisi 1947-ci ildə 343 mln. nəfərdən artaraq 1995-ci ildə 900 mln. nəfərə çatmışdır.

Əhalinin sayına görə ən böyük dövlət olan Çində bu problemə çox ciddi bir siyasət kimi baxırlar. **1981-ci ildən doğumun planlaşdırılması üzrə dövlət komitəsi fəaliyyət göstərir.** Burada nigah yaşlarının gecikdirilməsi, uşaqların doğulması arasındakı müddətin artırılması, tək uşaqlıların həvəsləndirilməsi və s. kimi tədbirlər həyata keçirilir. Çox uşaqlı və sonralar isə iki uşaqlı ailələrə qarşı müəyyən inzibati və iqtisadi tədbirlər də

mövcuddur. Kənd əhalisi çox olan (700 mln. nəfərədək) Çin və Hindistanda bu demoqrafik siyasətin müəyyən ziddiyyətləri vardır. Buna baxmayaraq hazırda əhali artımı göstricisinə görə Çin inkişaf etməkdə olan ölkələrə deyil, inkişaf etmiş ölkələrə daha yaxındır. Çinin bu siyasəti dünyada demoqrafiya prosesinin dəyişilməsinə güclü təsir etmişdir. Çinin siyasətində olan müsbət cəhətlərlə yanaşı müəyyən problemlər də meydana gəlir. Əhalidə yaş artımı da baş verir. Belə ki, 70-ci illərin ortalarına əhalinin yaşına görə Çin ən gənc ölkələrdən biri idi. Orta yaş həddi 30 ildən artıq deyildi. Hazırda isə Çində 100 mln. nəfərdən artıq adam 60 yaşından yuxarıdır.

Bütünlükdə ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, ailənin planlaşdırılması proqramı inkişaf etməkdə olan ölkələrdə həyat səviyyəsinin yaxşılaşmasına müəyyən köməklik edə bilər. Özlüyündə isə həmin ölkələr kasıbçılıqdan-yoxsulluqdan azad olmaqda acizdirlər.

İnkişaf etmiş ölkələrin demoqrafiya siyasəti

Qərb ölkələrində demoqrafiya probleminə olan münasibətdə müəyyən bir bərabərçilik əsas götürülür. Daha doğrusu demoqrafiyanın prinsiplərinə, sosial ədalət və insan hüququna riayət edilir. Onlar hər hansı bir cəza xarakterli tədbirləri məqbul hesab etmir və bu məsələyə hər bir dövlət fərdi yanaşır. İnkişaf etmiş ölkələrin çoxu doğumun az olmasına o qədər də məhəl qoymurlar.

Lakin bu heç də o demək deyildir ki, Qərb dövlətlərinin demoqrafik məqsədi yoxdur. Görünür bu ölkələr sadəcə olaraq öz fikirlərini aşkar şəkildə ifadə etmək istəmirlər. Fransa, Yunanıstan və Lüksemburqda doğumun artması siyasəti yeridilir.

4. Dünya əmək ehtiyatları, onların kəmiyyət və keyfiyyət tərəfləri

Hazırda dünya əhalisi təqribən 6,5 mlrd. nəfər təşkil edir. Bunun da təqribən 50 %-ə qədəri əmək ehtiyatlarından ibarətdir.

Əmək ehtiyatları dedikdə ictimai istehsalda məşğul olan əmək qabiliyyətli insanlar nəzərdə tutulur (16 yaşdan yuxarı şagirdlər, tələbər, hərbiçilər, müvəqqəti işsizlər də bura daxildir).

Bu əmək ehtiyatlarının əsasını (bəlkə də 90 %-dən artığı) iqtisadi fəal əhali təşkil edir. 2000-ci ilin məlumatına görə bu göstərici dünya əhalisinin 47,8 %-nə bərabər olmuşdur. Ayrı-ayrı ölkələrdə bu göstərici fərqlənir. Məsələn, 2000-ci ildə bu göstərici Cibutidə – 67,3 %, Arubada – 65,7 %, Myanmada – 60,8 %, Tailandda - 60,5 %, Çində – 59,9 %, Ermənistanda – 57,7 %, Anqolada – 57,3 %, BƏƏ-də – 56,6%, Rusiyada – 50,0 % (2002), Azərbaycanda – 46, 3 % olmuşdur (2004).

Əlbəttə iqtisadi fəal əhalinin sayının çox olması tam keyfiyyət göstəricisi ola bilməz. Əsas keyfiyyət göstəricisi ixtisaslı əməyin artıq olması, işçilərin öz peşəkarlığı üzrə məşğulluğu və s. kimi cəhətlərdir.

Məsələn, 2000-ci ildə dünya üzrə cəmi işçilərin 41-49 %-i öz peşəkarlığı üzrə işlə təmin olunmuşlar.

Nisbətən daha məhsuldar əhalinin xüsusi çəkisi 60 %-dən yuxarı olduqda bü yüksək, 50 %-dən az olduqda bu aşağı hesab edilir. Bu göstəriciyə görə Yaponiya birinci yeri tutur – 66 %, İraq isə axırıncı yeri tutur - 45 %.

İşçi qüvvəsinin keyfiyyəti

Keyfiyyət anlayışı. Hər bir ölkənin iqtisadiyyatı və eləcə də dünya iqtisadiyyatının inkişafı əsaslı sürətdə əmək ehtiyatlarından asılıdır. Bu əmək ehtiyatlarının keyfiyyəti tarixən konkret xarakterə malik olub, hər bir fərdin müəyyən inkişaf xassəsi kimi təzahür edir. Konkret fəaliyyət sahəsində onun hazırlığını, qabiliyyətini əks etdirir. İnsanın bu keyfiyyətləri fəaliyyət kimi, məhsuldar iş kimi əşyalaşır.

İnsanın məhsuldar ehtiyatı dedikdə onun psixoloji, fiziki sağlamlığı, ümumi və xüsusi təhsil səviyyəsi, istehsal təcrübəsi, ümumi mədəni inkişaf səviyyəsinin məcmusu nəzərdə tutulur.

Bütün bunların əsasında insanın əmək qabiliyyətini müəyyən edən fiziki keyfiyyəti dayanır. Bu keyfiyyətlərin bir çoxu dünya təsərrüfatının yarımsistemlərinin, ayrı-ayrı ölkələrin sosial-iqtisadi səviyyəsi ilə müəyyən edilir. Deməli, bəzi ölkələrdə əhalinin təkrar istehsalı prosesinə və işçilərin keyfiyyətinə ərzaqla təmin olunma dərəcəsi və eləcə də kütləvi keçici xəstəliklər güclü təsir edir. Məsələn Ümumdünya səhiyyə təşkilatı ekspertlərinin məlumatına (hesablamalarına) görə bu XX əsrin axırına Afrika işçilərinin 20-25 %-nin müxtəlif xəstəliklərə yoluxma qorxusu gözlənilir. Bu isə, əmək qabiliyyəti olanların gücündən tam istifadə edilməsini çətinləşdirir. Onu da qeyd etmək lazımdır ki, bu kimi xəstələrin özlərinə xidmət etməsi tələb olunur. Beləliklə, işçinin keyfiyyəti məhsuldar qüvvələrin obyektiv ünsürlərinin hərəkətə gətirilə bilmək qabiliyyəti ilə xaraktezə olunur. Burada K.Marksın belə bir ideyası özünün həqiqi, daha inandırıcı olduğunu sübut edir ki, **iqtisadi artımın hərəkətverici qüvvəsi maşınlar deyil, insanlardır.** Bunu statistika da təsdiq edir. Belə ki, 1948-1982-ci illərdə ABŞ-ın ümumi Daxili Məhsulu orta hesabla ildə 3,2 % artmışdır. Amerika iqtisadçısı **E.Denisonun hesablamalarına görə bu artımın 16%-i işçilərin təhsil səviyyəsinin artması hesabına, 34%-i texniki yeniliklər və "Nou-Xau" və eləcə də savad hesabına, ancaq 12%-i avadanlıqlara** çəkilən xərclərin artması hesabına olmuşdur.

İşçilərin keyfiyyətini xarakterizə edən əsas cəhətlərdən biri də insanın ümumi inkişafı və xüsusi təhsil almasıdır.

Qeyd etməliyik ki, bir qrup iqtisadçılar iqtisadi baxımdan insanı kapital adlandırırlar. **Göstərirlər ki, ancaq pul, istehsal vasitələri, avadanlıq və s. kapital deyil, istehsal və xidmət sahəsində istifadə edilən insan enerjisi, yenilik, bilik, vaxt da kapitaldır.** Ona görə də insandan ibarət kapitalı gəlirin mənbəyi kimi şərh etmişlər. İnsanın təhsilinə yönəldilən xərci insandan ibarət kapitala investisiya adlandırmışlar. Ona görə də R.Lukas və P.Romer iqtisadi artımla təhsil arasında daxili asılılıq olduğunu iddia edirlər.

Təhsil əmək məhsuldarlığının və gəlirin artmasına səbəb olur. Amerika iqtisadçısı - Nobel mükafatı laureatı Vasili Le-

ontyev 1947-ci ilin materialları əsasında iqtisadi təhlil apararaq belə nəticəyə gəlmişdir ki, ABŞ-da istehsal olunan və ixrac edilən məhsullar daha çox kapital tutumlu və əməktutumuna malikdirlər. Amerikada yüksək əmək məhsuldarlığı yüksək ixtisaslı əməklə bağlıdır. 1980-ci illərin ortalarında aparılmış tədqiqatlar göstərir ki, işçilərin təhsil almasının bir il artırılması ÜDM-i 3 % çoxalda bilər. Əlbəttə, bu qanunauyğunluq bütün regionlarda eyni səviyyədə təzahür etməyə də bilər.

Ümumi təhsil səviyyəsi. Ümumi təhsil və eləcə də ixtisas səviyyəsinin artmasında əmək qabiliyyətli yaşında olanların orta təhsil müddəti əsas götürülür. 1950-ci illərdə işçilərin orta təhsil müddəti (15 yaş və ondan yuxarı olanlar üçün) Asiya ölkələrində inkişaf etmiş ölkələrdəkinin 25 %-i, Latın Amerikası ölkələrində isə 30 %-i qədər olmuşdur. 1980-ci illərdə isə bu fərq bir qədər azalmışdır (Cənubi Koreya və Tayvanda isə demək olar ki, bərabər səviyyə müşahidə olunur). Beynəlxalq yenidənqurma və inkişaf bankının tədqiqatçılarının təhlilinə görə 80-ci illərin ortalarına orta oxuma müddəti Qərbi Afrikada 1,8, Cənubi Asiyada 2,5, Şərqi Afrikada 3,7 ilə bərabər olmuşdur. Bu isə ibtidai təhsil müddətindən də azdır.

Savad dərəcəsi. Müəyyən sahələrdə xüsusi təhsil almaq üçün az-çox savad verilməsi ilə eyni zamanda inkişaf vəzifələri və ona nail olmaq vasitələri əlaqələndirilir. Daha doğrusu sağlamlığın təmin edilməsi, əmək məhsuldarlığının artırılması, ÜDM-in artım sürətinin güclənməsi, mədəni və siyasi həyatı da əks etdirən sosial inteqrasiya və s. kimi vəzifələr əlaqələndirilir. Məsələn daha savadlı təhsil almış fermerlər daha çox yeni texnika tətbiq edirlər, daha yaxşı hazırlaşırlar, yüksək mənfəət götürürlər. Afrikada aparılmış bir tədqiqat göstərir ki, tam dördillik təhsili olan fermerlər təhsili olmayan fermerlərə nisbətən, orta hesabla 8 % artıq məhsul istehsal etmişlər. Son vaxtlar bütün dünyada ilk növbədə uşaqların iqtisadi təhsilə cəlb edilməsi xeyli yüksəlmişdir. Belə ki, iqtisadi təhsilə cəlb edilmiş uşaqlar 1975-ci ildə 70,8 % təşkil etdiyi halda 1991-ci ildə bu göstərici 79,2 % olmuşdur. İnkişaf etməkdə olan ölkələrdə isə müvafiq

olaraq bu göstəricilər 65,8-76,8 % təşkil etmişdir. Afrika ölkələrində isə bu göstəricilər hələ də azdır - 48,7; 50,5 %. Aşağı gəlir səviyyəsinə malik olan bir çox ölkələrdə ibtidai məktəbə daxil olan uşaqların 40 %-dən çoxu məktəbdən çıxırlar. Beləliklə, nəticədə dünya miqyasında savadsızlıq (1995-ci ildə 22,6 %) geniş yayılmış bir hadisə kimi davam edir.

1990-cı ilin məlumatına görə dünyada 948 mln. savadsız olmuşdur ki, bunun da 917 mln. nəfəri üçüncü dünya ölkələrinin, o cümlədən 55%-i Hindistan ilə Çinin payına düşür.

Orta təhsil. İstehsalın yeni modeli işçilərin ixtisasının artırılmasına kəskin zərurət yaradır. İnsanlarda ardıcıl olaraq peşəkar biliyin, yeniliyin yaradılması "maşın işləyir, insan fikirləşir" prinsipinin həyata keçirilməsini mənimsəməyə imkan verə bilər. Orta təhsil savadlanmanın orta mərhələsi hesab olur. Hazırda dünyada yeniyetmələrin yalnız 55,1 %-i orta məktəbdə təhsil alır (1970-ci ildə bu göstərici 33 % olmuşdur). 1980-ci illərdə inkişaf etmiş ölkələrdə yeniyetmələrin 88 %-i orta məktəbdə təhsil alırdı. Bunların da 55%-i texniki məktəblərin payına düşmüşdür. Nəticədə həmin ölkələrin yaşlı əhalisinin (25 yaşdan yuxarı) 36 %-i orta təhsilə malik olmuşdur.

İnkişaf etməkdə olan ölkələrdə yeniyetmələrin təqribən 50%-i (1980-ci ildə 43 %-i) orta məktəbdə oxuyur. Bəzi ölkələrdə isə bu göstərici daha yüksəkdir (Cənubi Koreyada – 90 %, Kubada – 88 %, Misirdə – 80 %, Argentinada - 71%).

Ali təhsil. Müasir dövrün ETT-si işçilərin ali təhsili (ixtisaslı) olmasına daha kəskin tələbat yaradır. Artıq həyatda çox hallarda təsadüf olunur ki, kəşf etmək daha asandır, nəinki onun praktiki əhəmiyyətini başa düşmək və onu tətbiq etmək imkanına malik olmaq. Ona görə də yüksək keyfiyyətli ümumi, texniki və iqtisadi təhsilə malik olmaq zərurəti yaranır. Odur ki, dünya miqyasında ali təhsilin genişlənməsində kəskin dəyişiklik baş vermişdir. Bu və ya digər formada ali təhsillə məşğul olan gənclərin (20-24 yaşda) sayı 1970-ci ildəki 9 %-dən 1990-cı ildə 17 %-ə çatmışdır. Ali təhsilin yayılması səviyyəsi Kanada, ABŞ, Fransa, Almaniya, Avstraliya, Belçika, Yeni Zellandiyada daha çox özünü biruzə verir.

Üçüncü dünya ölkələrində də ali ixtisaslı mütəxəsislər hazırlanmasında müsbət dəyişikliklər edilmişdir. Mühəndis, aqronom, həkim və s. kimi ali təhsilli mütəxəssis hazırlanması artmışdır. İnstitut yaşlı-gənclərin içərisində institutlarda oxuyanların xüsusi çəkisi qərb ölkələrinin 60-cı illərdəki səviyyəsinə çatmışdır. Həmin nisbət Küveyt, Qatar, Misir, Suriya, Livan, İordaniya, Tailand və Filippində 15-58 %, Argentinada 43,4, Cənubi Koreyada isə 39,9 % olmuşdur.

İnkişaf etməkdə olan ölkələrdə tələbələrin təqribən 90 %-i inkişaf etmiş ölkələrdə isə 75 %-i hümanitar və sosial elm sahələrində oxuyurlar. Bu ixtisaslar Asiya ölkələrinin institutlarında daha çoxdur. Texniki və hüquq təhsili aşağı səviyyədədir.

5. İşçi qüvvəsindən istifadə edilməsi

İşçi qüvvəsi üzrə bazarın vəziyyəti, sosial-iqtisadi inkişaf, istehsalın texnoloji bazası, demoqrafiya şəraiti və bu kimi bir çox amillərdən asılı olaraq dünya təsərrüfatının ayrı-ayrı yarımsistemlərində işçi qüvvəsinin təkrar istehsalı və dəyişən şəraitə onların uyğunlaşması müəyyən xüsusiyyətlər kəsb edir.

İşçi qüvvəsinin işlə təmin olunmasına dair bir çox problemlər, məlumatlar, araşdırmalar Beynəlxalq Əmək təşkilatı (BƏT) tərəfindən həyata keçirilir. Bu təşkilat 1919-cu ildə Versal müqaviləsinə əsasən yaradılıbdır, iqamətgahı Cenevrədədir (İsveçrə). 170-dən çox ölkəni özündə birləşdirir. Xüsusi bir təşkilat olmaqla BMT-yə daxildir. BƏT-in əsas məqsədi:

- əhalinin tam məşğulluğunu və həyat səviyyəsinin artmasını təmin etmək;
- iqtisadi və sosial proqramları artırmaq;
- insanların əsas hüququnu müdafiə etmək;
- zəhmətkeşlərin həyat və sağlamlığını qorumaq;
- sahibkarlarla zəhmətkeşlər arasında əməkdaşlığı genişləndirmək və s.-dən ibarətdir.

İşlə təmin olunma və işçilərdən səmərəli istifadə edilməsi anlayışları öz sosial-iqtisadi məzmununa görə bir-birindən fərqlənirlər.

Əlbəttə hər iki halda işçilərin ixtisas dərəcəsi, ağır əmək – yüngül əmək, sadə və mürəkkəb əmək, daha maraqlı və yaxud maraqsız əmək I, II, III və s. dərəcəli iş yerləri və bu kimi digər cəhətlər nəzərə alınmalıdır. Öz elmi-texniki potensialından səmərəli istifadə edilməsində onlara lazımi şərait yaradılması, iş həftəsinin və iş saatlarının həddi böyük rol oynayır.

Bu mənada göstərməliyik ki, iqtisadi əməkdaşlıq və inkişaf təşkilatına daxil olan 29 ölkədə 2003-cü ilin məlumatına görə hər işçiyə düşən orta illik iş saatı – 1337 (Norveç) ilə 1972 (Çex Respublikası) arasında tərəddüd edir. Deməli həftəlik iş saatı Norveçdə -26; Çex Respublikasında isə 38 saata bərabərdir.

Bu göstərici inkişaf etməkdə olan ölkələrdə və hətta bəzi yeni sənaye ölkələrində daha artıqdır – Cənubi Koreyada 2547, Çilidə 2400 saatdır.

Azərbaycanda bütün özəl müəssisələrdə və xüsusilə inşaat sahəsində çalışanların illik iş saatları 2500 saatdan, həftəlik iş saatları isə 45 saatdan artıqdır. Belə vəziyyət işçilərdən səmərəli istifadə edilməsinə deyil, onların daha tez əmək qabiliyyətini itirməsinə səbəb olur. Bu isə bütövlükdə pensiya dövrü ömrünün azalması deməkdir (C.K.).

Başqa ölkələrdə olduğu kimi respublikada da həmkarlar təşkilatları iş həftəsinin və həftəlik iş saatlarının artırılmasına qarşı müəyyən tədbirlər görməlidirlər.

İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı (İƏ və İT) ölkələrində işçilərin orta illik və həftəlik iş saatları (2003)

		İllik	Həftəlik
1	Avstraliya	1814	35,0
2	Avstriya	1550	30,0
3	Belçika	1542	29,7
4	Kanada	1718	35,0
5	Çex Respublikası	1972	38,0
6	Danimarka	1475	28,4
7	Finlandiya	1669	32,1

8	Fransa	1453	28,0
9	Almaniya	1443	27,8
10	Yunanıstan	1938	37,3
11	İslandiya	1812	34,9
12	İrlandiya	1613	31,0
13	İtaliya	1591	30,6
14	Yaponiya	1801	34,6
15	Meksika	1857	35,7
16	Niderland	1354	26,0
17	Yeni Zelandiya	1813	34,9
18	Norveç	1337	25,7
19	Polşa	1956	37,6
20	Portuqaliya	1676	32,2
21	Slovakiya	1814	34,9
22	İspaniya	1800	34,6
23	İsveç	1564	30,1
24	İsveçrə	1510	29,0
25	Böyük Britaniya	1673	32,2
26	ABŞ	1792	34,5

Qərb ölkələrində məşğulluq

1970-1980-ci illərdə işçi qüvvəsi bazarında müəyyən ziddiyyətli meyllər mövcud idi. Məşğulluq 1950-1960-cı illərdəki sürətlə arta bilirdi (0,8-2,5 %). Məşğulluğun artımında qeyri-fiziki əmək üstünlük təşkil edirdi. 70-80-ci illərdə bu əməyin xüsusi çəkisi 10 %-dən çox artmışdır. Emal sənayesində istehsalın texnologiyasının yeniləşməsi ilə bu sahədə də - sənət, texniki, inzibati, idarəçilik və s. üzrə məşğulluqda dəyişikliklər baş vermişdir. Lakin yeni texnologiya işçi qüvvəsinə olan tələbin dəyişməsinə qismən təsir edirdi. Müasir şəraitdə inkişaf etmiş ölkələrdə bu dəyişiklik əsasən qeyri-istehsal dairəsi hesabına təmin edilir. Məşğulluğun dinamikası istehlak sahəsi üzrə olan xərclərin artması hesabına təmin edilirdi. Həmin ölkələrdə məşğulluğun

artmasının 80-100 %-i xidmət sahəsinin payına düşürdü. Sənayedə işləyənlərin xüsusi çəkisi 70-80-ci illərdəki 36 %-dən 31%-ə enmişdir. Bu isə öz növbəsində **ÜDM-in quruluşunda və əmək məhsuldarlığının daha sürətli artımında öz əksini tapmışdır.**

Bu iki amil 1973-cü ildən sonra məşğulluğun azalmasında demək olar ki, bərabər rola malik olmuşdur. Beləliklə həmin ölkələrdə qismən də olsa, mütləq və nisbi işsizlik artımı mövcud idi.

Son vaxtlar işsizliyin artması işçi qüvvəsi təklifinin (əmək qabiliyyətli əhalinin çoxalması nəticəsində) və xüsusilə işləyən qadınların sayının artması ilə xarakterizə edilirdi. Belə ki, iqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏ və İT)[1] ölkələrində qadınlardan ibarət işçilər 1960-cı ildə cəmi işçilərin 25 %-ni təşkil etdiyi halda 2000-ci ildə onların xüsusi çəkisi 43,0 %-ə bərabər olmuşdur. İşsizlik səviyyəsi 50-60-cı illərdəki 2-4 %-dən son onilliklərdə 6-12 %-ə qədər artmışdır. Bəzi inkişaf etmiş sənaye ölkələrində işsizlik dərəcəsi 2003-cü ildə belə olmuşdur: ABŞ-da - 6 %; Yaponiyada – 5,4 %; Böyük Britaniyada - 6,2 %; Almaniyada - 10,0 %; Fransada - 11,8 %; İtaliyada – 8,7 %; İspaniyada – 11,4 %. Qeyri-ənənəvi sayılan müvəqqəti, saat hesabı ilə işləyənlərdən istifadə səviyyəsi artmışdır. ABŞ, Kanada, Yaponiyada və eləcə də Qərbi Avropa ölkələrində bu cür qismən işləyənlərin sayı 15-20 % artmışdır. Bu ölkələrin çoxunda yüksək əmək haqqı alanların xüsusi çəkisi çoxalmışdır. Bu isə əhalinin ayrı-ayrı qruplarının gəliri arasındakı qeyri-bərabərliyin artmasına səbəb olmuşdur. Aydındır ki, əmək haqqının artması yüksək ixtisaslı işçilərə olan tələbi də artırmışdır. Bir çox ölkələrdə işsizliyə görə müəyyən təminat verilməsi sistemi azaldılmış və yaxud ləğv edilmişdir. Onu da qeyd etmək lazımdır ki, son illərdə həmin inkişaf etmiş ölkələrin özündə belə, eyni iş üçün kişilərlə qadınlar arasındakı əmək haqqı fərqi artmışdır. Bütünlükdə həmin ölkələrdə qadınların aldığı əmək haqqı kişilərin əmək haqqının 66-90%-nə bərabərdir.

[1] İƏ və İT - 1961-ci ildə Amerikanın təşəbbüsü ilə yaradılıb. Avropa iqtisadi əməkdaşlığını əvəz edir. 29 ölkə daxildir. İqamətgahı Fransada - Parisdədir.

İnkişaf etməkdə olan ölkələrdə əmək ehtiyatlarının istifadə edilməsi

1990-cı illərin əvvəllərində inkişaf etməkdə olan ölkələrdə işsizlərin sayı 500 mln: nəfər olmuşdur. Həmin ölkələrdə işçi qüvvəsindən istifadə edilməsinin səciyyələndirilməsi sənaye ölkələrindəkinə nisbətən daha çox mürəkkəbdir. Bu ölkələrdə işçi qüvvəsinin 60 %-i kənd təsərrüfatında cəmləşdirilir. Burada əsasən şəhərdə olan işsizləri açıq şəkildə göstərirlər. Kənd təsərrüfatında isə az da olsa əhalinin bir qismi təsərrüfatlarda işləyirlər. Bu cür qismən işləyən və az əmək haqqı alan az məhsuldar kənd təsərrüfatı işçiləri Latın Amerikası ölkələrində cəmi işçilərin 20 %-ni, Afrikada 40 %-ni, Asiyada isə 26 %-ni təşkil etmişdir. Həmin ölkələrdə şəhər əhalisinin məşğulluğunu təhlil etdikdə **qeyri-formal** bölmə adlanan bir anlayış işlədilir. Özü məşğul olan, özü üçün işləyən adamlar bu bölmənin işçiləri hesab olurlar. Bu işçilərin çoxu müntəzəm sistemdə əmək haqqı ala bilmirlər, çox vaxt əmək haqqı əvəzinə yemək, ərzaq, sığınacaq və s. alırlar. BƏT-in məlumatına görə şəhər işçilərinin 25-50 %-i bu cür qeyri-formal bölmədə (Afrika ölkələrində 61 %-i, Latın Amerikasında isə 30 %-i) çalışırlar. Lakin etiraf etmək lazımdır ki, bu **qeyri-formal bölməni xəlbəti iqtisadiyyatla eyniləşdirmək olmaz. Onlar qeydiyyatdan gizlənməyə, maliyyə, əmək intizamını pozmağa o qədər də səy göstərmirlər.**

Son onilliklərdə inkişaf etməkdə olan ölkələrdə məşğulluq nisbətən yaxşılaşmışdır. Bununla yanaşı əhalinin sayının və işçi qüvvəsinin artması da baş vermişdir. Odur ki, işsizlik norması göstəricisi də yaxşılığa doğru dəyişə bilməmişdir. Hətta bəzi ölkələrdə - xüsusilə yeni sənaye ölkələrində müəyyən irəliləyişlər nəzərə çarpır. Tropik Afrika ölkələrində işsizlik 15-20 %, Nigeriyada və Mərkəzi Amerikada 50 % təşkil edir. Təkcə Hindistanda olan işsizlərin sayı 2003-cü ildə 36 mln. nəfərə bərabər olmuşdur ki, bu da bütövlükdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏ və İT) ölkələrindən çoxdur. Bir çox ölkədə qeydə alınmayan işsizlik də vardır. Məsələn Filippində 2003-cü ildə rəsmi

işsizlik səviyyəsi 9 % olduğu halda, natamam məşğulluq 20-41 % təşkil etmişdir. Bir çox ölkələrdə (Kot-d'İvuar, Mərakeş, Əlcəzair, Uruqvay və s.) savadlılar arasında işsizlik faizi daha artıqdır. 32 ölkədə texnik, inzibati idarəçilik və s. işlərdə işləyən 3,2 mln. ali təhsilli adam, 2000-ci illərin axırlarına tam işsiz olmuşlar (bunlar da cəmi işsizlərin 6 %-ni təşkil edir).

Uşaq əməyindən istifadə edilməsi də yaşlılar arasında olan işsizliyin artmasına səbəb olur. İnkişaf etməkdə olan ölkələrdə 120 milyona qədər 10-14 yaşlı uşaqlar işləyirlər. Aydındır ki, həmin uşaqların aldığı əmək haqqının səviyyəsi yaşlılara nisbətən xeyli aşağıdır.

XI FƏSİL
ƏRZAQ MƏHSULLARI İSTEHSALI VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ PROBLEMİ

1. *Ərzaq məhsulları istehsalının dinamikası.*
2. *Ərzaq məhsullarının beynəlxalq ticarəti və onun xüsusiyyətləri.*
3. *Dünya üzrə və milli miqyasda ərzaq təhlükəsizliyi problemi.*
4. *Ərzaq təhlükəsizliyinin təmin edilməsində bəzi ictimai-nəzəri və əməli problemlər.*
5. *Ərzaq köməkliyi problemi.*

1. Ərzaq məhsulları istehsalının dinamikası

Ərzaq məhsulları dedikdə bitkiçilik, heyvandarlıq, meşə təsərrüfatı, balıqçılıq və dənizdən olan müəyyən ovçuluq məhsullarının ərzaqa daxil olması və onların emalı nəticəsində hazırlanan məhsulları nəzərdə tutulur.

Kənd təsərrüfatı məhsullarının emalı demək olar ki, yeyinti sənayesini təşkil edir. 2002-ci ildə ərzaq və kənd təsərrüfatı məhsullarının ixracı 441 mlrd. dollar, idxal – 464 mlrd. dollar təşkil etmişdir (lakin qiymətlər hesabına şişirtmə də var).

Deməli, ərzaq məhsulları – kənd təsərrüfatı məhsulları istehsalı ilə yeyinti sənayesinin vəhdəd halında qovuşmasının nəticəsində formalaşır.

Beləliklə, ərzaq problemi bir çox iqtisadi, sosial, texnoloji, bioloji, tarixi, etnik, çoğrafi, siyasi və mənəvi kökə malik olan amillərin təsiri altında formalaşır.

Ona görə də ərzaq probleminin tam hərtərəfli öyrənilməsi bir neçə elm sahəsinin öhdəsinə düşür. Nəzəri iqtisad baxımından daha geniş mənada ərzaq problemi cəmiyyət miqyasında ərzaq istehsalı, onun daşınması, emalı, bölgüsü və istehlakını özündə əks etdirir. Bu problemdə ərzaqın həcmi ilə əhalinin sayı arasındakı nisbət, hər nəfər hesabı ilə ərzaq məhsulları

istehlakının orta normaları, hər bir ərzaqın tərkibi, yeyinti məhsulu kimi qiymətləndirilməsi, kasıbçılığın həddi ərzaqla təmin olunmanın gözlənilə bilən sosial-iqtisadi, tibbi və siyasi nəticələri və s.-də şərtləndirilir.

Dünya üzrə ərzaq problemi cəmiyyətin bir çox sosial-iqtisadi problemləri ilə bağlıdır. Burada istehsalın hərəkəti, gəlirlərin dinamikası və bölgüsü, differensiallaşması, sənayeləşmə və şəhərləşmə prosesi, şəhərin real tələbindən artıq kəndlərdən olan axın və digər amilləri qeyd etmək olar.

Dünya ərzaq probleminin təkamülündə təbii ehtiyatların mövcudluğu, iqtisadi inkişaf səviyyəsi, yığımın artım sürəti, kənd təsərrüfatının texniki silahlanma səviyyəsi, qabaqcıl istehsal metodlarından istifadə edilməsi, əhalinin məşğulluq və təhsil səviyyəsi, iqtisadiyyatda dövlətin rolu, siyasi dairələrin inkişaf səviyyəsi, demokratik idarəçilik formalarının mövcudluğu və s. kimi amillər həlledici rola malikdirlər.

Ərzaq probleminin bu cür sosial-iqtisadi təbiətə malik olması onu göstərir ki, ərzaq problemi kənd təsərrüfatı istehsalına nisbətən daha geniş məna daşıyır.

Ərzaqın istehsalı, bölgüsü, mübadilə və istehlakı dünya təsərrüfatı sisteminin mövcudluğunun tərkib hissəsini təşkil edir. Məhz ərzaq istehsalı dünya təsərrüfatının yaranmasında əsas obyekt və subyekt olan insanların, işçi qüvvəsinin həyat fəaliyyətilə bağlıdır.

İnsanların ərzaqla təmin edilməsi isə kənd təsərrüfatının inkişafından daha çox asılıdır. Hələ iki min ildən artıq bundan əvvəl Yunan filosofu Ksenofont (b.e.ə. 430-354) kənd təsərrüfatını bütün digər sahələrin anası adlandırırdı. Beləliklə, kənd təsərrüfatının inkişafına diqqətin artırılmasına maraq yaratmağa çalışırdı.

Ümumiyyətlə, bütün cəmiyyətlərdə kənd təsərrüfatı sənaye üçün xammal və insanlar üçün ərzaq mənbəyi hesab edilibdir. Hazırki dünyada da kənd təsərrüfatı gəlirin, məşğulluğun və xarici ticarətin ən zəruri mənbəyi hesab edilir. ÜDM-in tərkibində onun xüsusi çəkisi az olan ölkələrdə də kənd təsərrüfatı iqtisadiyyatın çox zəruri bir sahəsi kimi diqqət mərkəzindədir.

Burada biz kənd təsərrüfatını istehsal sahəsi kimi deyil, ASK kimi deyil (bu barədə əvvəlki mövzularda deyilmişdir), ərzaq məhsulları istehsalının mənbəyi kimi tədqiq edirik.

Cədvəl

Dünya üzrə əsas ərzaq məhsulları istehsalının həcmi və dinamikası (mln. ton)

	Əsas ərzaq məhsulları	İllər	
		2000	2003
1	Taxıl	2061	2067
2	Kökümeyvəlilər	702	692
3	Tərəvəz və bostan bitkiləri	803	798
4	Meyvə	471	476
5	Ət	246	250
6	Süd	598	601
7	Balıq tutulması		110-120

Bunlardan əlavə 2003-cü ildə ərzaq məhsulu kimi 150-160 mln. ton soya; 30 mln. ton günəbaxan yağı; 2-5 mln. ton kətan yağı və palma ləpəsi; 13-14 mln. ton zeytun yağı; 30-35 mln. ton yer fıstığı və çiyid yağı; 135 mln. ton şəkər; 6,5 mln. ton kofe; 3,0 mln. ton çay və kakao; 60,0 mln. ton üzüm istehsal edilmiş və istehlaka daxil olmuşdur.

Ümumiyyətlə əhalinin ərzaq məhsulları ilə təmin olunmasının 84%-i bitkiçilik, 16 %-i isə heyvandarlıq məhsulları hesabına formalaşır. Ərzaq məhsulları ilə təmin olunmada taxıl daha həlledici rola malikdir.

Daha konkret desək, insanların tələbatının ödənilməsinin 1995-ci ildə 56 %-i taxıl; 7%-i kökümeyvəlilər; 10 %-i meyvə və tərəvəz; 7 %-i şəkər; 9 %-i piy və yağ; 11 %-i heyvandarlıq məhsulları hesabına həyata keçirilmişdir.

Kənd təsərrüfatının quruluşunda və eləcə də insanların qida məhsulları ilə təmin olunma dərəcələrində müəyyən dəyişiklik yarandıqda həmin məhsulların nisbəti də dəyişir.

Məsələn, 2003-cü ilin məlumatına görə bu nisbət ayrı cür olmuşdur: taxıl – 48 % (Azərbaycanda – 66 %); ət və balıq – 9 %; piy və yağ – 10 %; tərəvəz və meyvə – 8 %; şəkər – 9%; kökümeyvəlilər – 5 %; süd – 4 % təşkil etmişdir.

Hər bir ərazi və ölkənin iqlim şəraitindən, peşəkarlıq ənənələrindən, hansı qurşaqda yerləşməsi və s.-dən asılı olaraq insanların normal yaşaması üçün hansı məhsullardan nə qədər qəbul etməsi normalaşdırılır. Bu normalar əsasında insanlar hər gün müəyyən qədər zülallar, yağ-piy, karbohidratlar şəklində enerji qəbul etməlidirlər. Bu göstərici gündəlik enerji – k.kalori adlanır.

Bu göstəriciyə görə ayrı-ayrı ölkələr və ərazilər arasında kəskin fərq vardır. Beləki, 1990-1992-ci illərdə dünya üzrə hər nəfər orta hesabla, 2710 kkalori istehlak etdiyi halda, bu göstərici inkişaf etmiş sənaye ölkələrində 3330 kkalori, inkişaf etməkdə olan ölkəərdə isə 2520 kkalori olmuşdur (1960-cı illərdə bu fərq daha artıq idi).

Afrika ölkəəlrində və cənubi Asiyada həmin göstərici daha çox fərqlənir (bax cədvəl 2-yə).

Cədvəl

Hər nəfər hesabı ilə gündəlik kkalori istehlakı

Ərazilər	İllər		
	1961-1963	1990-1992	2010
İnkişaf etməkdə olan ölkələr	1900	2520	2730
Afrika (Saxaranın cənubu)	2100	2040	2170
Şərqi Asiya	1750	2670	3040
Cənubi Asiya	2030	2300	2450
İnkişaf etmiş sənaye ölkələri	3020	3330	3470
Dünya üzrə	2300	2710	2860

Bu normalar hər bir ölkə, ərazi tərəfindən, eləcə də beynəlxalq təşkilatlar tərəfindən hazırlanır. Burada hər bir insanın fiziki fəallığına, çəkisinə, boyuna və bu kimi cəhətlərə zəmin yarada bilən mineral maddələrin olması, məhsulun müəyyən maddələrlə zənginliyi, insanların alıcılıq qabiliyyəti öz əksini tapır.

Az kalori istehlak edilməsi yoxsulluğun, aclığın bariz nümunəsidir.

Ərzaq və Kənd təsərrüfatı Təşkilatının (FAO, 1945) hesablamalarına görə (ərazidən asılı olaraq) bu göstəricinin 1760-1836 kkalori arasında olması kifayət qədər qida maddələri qəbul edə bilməməyi, aclığı göstərir.

Azərbaycanda bu göstərici 2000-ci ildə 2242 kkaloriyə bərabər olmuşdur.

Nəzərdə tutulan qədər kkalori istehlak etmək üçün aşağıda cədvəldə göstərilən miqdarda ərzaq məhsulların qəbul edilməsi normalaşdırılmışdır (müəyyən məhsullar yazılmamışdır).

Cədvəl

Əsas növ ərzaq məhsulları üzrə istehlak norması, kq

Məhsul növləri	Təhlükəsizliyin real həddi	Minimal fizioloji norma	Azərbaycanda istehlak edilibdir (2001)
Ət və ət məhsulları	82	42	21
Süd və süd məhsulları	405	184,3	178
Balıq və balıq məhsulları	18,5	-	4,5
Yumurta, ədəd	292	183	117
Qənd və qənd məhsulları	40	24,8	28,7
Bitki yağı	9	10	5,8
Təzə meyvə	113	11	37
Tərəvəz və bostan məhsulu	146	40	63
Kartof	97	146	36
Çörək və çörək məhsulları	110	178,7	141

Son dövrlərin məlumatına görə dünya üzrə tam keyfiyyətli ərzaqla təmin olunan əhali 35 %; kifayət qədər istehlak edə bilməyənlər 15-20 %; müəyyən maddəlirn çatışmadığı ərzaqı istehlak edənlər təqribən 20 %; qalan 30 % əhalinin istehlak etdiyi ərzaqın isə tam aşağı keyfiyyətdə olması müşahidə edilir.

Müharibədən sonrakı onilliklərdə ərzaqla təmin olunma səviyyəsinə görə ayrı-ayrı ərazilər və ölkələr demək olar ki, dəqiq müəyyənləşmişdir. Bura **ilk növbədə sənayecə inkişaf etmiş ölkələr**, eləcə də Qərbi və Şimali Avropa, Şimali Amerika, Avstraliya və Yaponiya daxildir. Lakin bu ölkələr də bir çox hallarda özlərinin TMK-nın inkişaf etməkdə olan ölkələrin aqrar bölməsindəki vəziyyətindən asılıdırlar (çünki bu ölkələrin bazarının vəziyyəti məhz onlardan asılıdır).

2. Avropanın Qərbi və Orta Asiya, eləcə də Latın Amerikası ölkələri, Ərəb qərbi ölkələri və Asiya ölkələri birliyi (ASEAN) – İndoneziya, Malayziya, Sinqapur, Tailand, Filippin və s. Bu ölkələr hər nəfər üçün müəyyən edilmiş normaya yaxın səviyyədə ərzaq istehlak edirlər.

3. Şərqi Avropada, MDB, Baltikyanı ölkələr, Hindistan, Misir və s. ölkələrdə də istehlakın həcmini normaya uyğun hesab etmək olar.

4. Ərzaq çatışmazlığı ilə rastlaşan bir çox digər ölkələr.

«Ərzaq və kənd təsərrüfatı məhsulları təşkilatı»nın (FAO) məlumatına görə gündəlik 1700-1800 kkalori səviyyəsinə endikdə insanları hər cürə təhlükə gözləyə bilər. Belə vəziyyətdə insanlar lazımi mikroelementlər, vitaminlər istehlak edə bilmirlər. **Məsələn, hazırda, təqribən 656 mln. nəfər insanda yod, 2150 mln. nəfər insanda dəmir, 3 mln. nəfərdən çox insanda A vitamini çatışmır**. Bütün bunlar isə bir çox xəstəliklərin, eləcə də əqli inkişafın zəif olmasının əsas mənbəyi hesab edilir. Hazırda 6 mln. nəfərdən çox insan açıq-aşkar «kretinizm» (ağıldan kəm) xəstəliyinə məruz qalmışdır.

İnkişaf etməkdə olan ölkələrin bir çoxu aclıq içində yaşayır. Belə ki, Braziliya əhalisinin 25 %-ə qədərinin, Nigeriya əhalisinin 30-33 %-nin, Hindistan əhalisinin 50 %-nin istehlak etdiyi əmtəə

və xidmətlərin gündəlik həcmi 1 dollardan azdır (belə ölkələrin sayı çoxdur). Bu cür ölkələrdə savadsızların sayı daha çoxdur.

İnkişaf etməkdə olan ölkələrdə sosial gərginliyin artması ayrı-ayrı qrup insanlar arasında daxili və xarici səbəbkarlar axtarmağa və bununla da irqi, dini, ərazi üzrə münaqişələrə gətirib çıxarır.

İstehsalın az olmasının və aclığın əsas səbəbləri

Burada əsasən aşağıdakı cəhətləri qeyd etmək olar:

1. Üçüncü dünya ölkələrində hələ də köhnə, geridə qalmış aqrotexniki üsullardan istifadə edilir: hər hektara verilən mineral gübrənin qədərinə görə inkişaf etmiş ölkələrdən 1,5-2,0 dəfə geri qalırlar. Ona görə də, yüksək məhsuldarlığa nail ola bilmirlər. Həmin ölkələrdə kənd təsərrüfatında çalışan hər bir işçi özünü və öz ailəsini ancaq yedirdə bilir. Müqayisə üçün qeyd edək ki, ABŞ-da bir fermer 59, Qərbi Avropada 19, Yaponiyada isə 14 nəfər adamı təmin edə biləcək qədər məhsul istehsal edir.

2. Bir çox ölkələrdə torpaqdan istifadə edilməsi köhnə münasibətlərə əsaslanır: natural, yarım natural, fərdi təsərrüfatçılıqdır. Sələmçilik, töycü vermək hələ də qalır. Kiçik torpaq sahibkarlığı müasir əmək alətlərindən, mineral gübrələrdən, kredit müəssisələrinin xidmətindən istifadə edə bilmir. Məsələn, Hindistanda 60 milyondan çox təsərrüfatın hər birinin 1 hektardan az torpaq sahəsi vardır.

3. Hər bir ölkənin aqrar siyasəti də böyük əhəmiyyətə malikdir. İnkişaf etmiş Qərb dövlətləri hər vasitə ilə kənd təsərrüfatına olan kapital qoyuluşunun miqyasını artırırlar (birbaşa ödəmələrə, ucuz borc verilməsi, təminatlı qiymətlər və s. həyata keçirilir). İnkişaf etməkdə olan ölkələrdə isə bu cür ardıcıl tədbirlər keçirilmir.

Bütün bunlara baxmayaraq hər halda qeyd etməliyik ki, ayrı-ayrı dövrlərdə ərzaq məhsulları istehsalının artım sürəti əhalinin artım sürətini qabaqlayır. Məsələn, 1980-1995-ci illərdə ərzaq məhsulları istehsalı 35 % artaraq əhalinin artım sürətindən

üstün olmuşdur. Həmin dövrdə inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatının ümumi məhsulu 75 % artmışdır. Çində və Hindistanda bu artım müavifq olaraq 76 və 71 % olmuşdur.

1970-2000-ci illərdə dünya üzrə ÜDM-də kənd təsərrüfatının xüsusi çəkisi 7,4 %-dən təqribən 5 %-ə enmişdir. Lakin mütləq göstərici baxımından kənd təsərrüfatının ümumi məhsulu 1970-ci ildəki 225 mlrd. dollara qarşı 2000-ci ildə 1346 mlrd. dollar olmuşdur.

Onu da qeyd etməliyik ki, son onilliklərdə bioloji – gibridləşdirilmiş, sortlaşdırılmış, genetikcəhətdən yeniləşdirilmiş (kimyəvi üsullara əsaslanan) məhsullar da artmışdır. Beləliklə, son 50 ildə ərzaq məhsulları istehsalı xeyli çoxalmışdır.

Nəticədə tam təmin oluna bilməyən, ac qalan insanların sayı demək olar ki, 2 dəfə azalmışdır. Belə əhalinin sayı 1970-ci ildəki 36 %-dən 1990-cı illərdə 20 %-ə enmiş, 918 mln. nəfərdən 840 mln. nəfərədək azalmışdır.

2. Ərzaq məhsullarının beynəlxalq ticarəti və onun bəzi xüsusiyyətləri

Dünya təsərrüfatının qloballaşması və beynəlxalq əmək bölgüsünün dərinləşməsi ümumilikdə beynəlxalq ticarətin inkişafını artırır. Lakin etiraf etməliyik ki, kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının beynəlxalq ticarətinin artım sürəti hazır sənaye məhsullarına nisbətən geri qalır.

Ona görə də dünya ticarət dövriyyəsində aqrar sahədən olan məhsulların xüsusi çəkisi azalaraq cəmi ixracın 12 %-ni təşkil etmişdir.

Bu vəziyyət aqrar sahədən olan ixracın zəif artdığını göstərir.

Real gerçəklikdə isə idxal və ixrac istər fiziki və istərsə də dəyər baxımından ardıcıl olaraq artır.

Bütövlükdə kənd təsərrüfatı məhsulları istehsalının həcminə və eləcə də ərzaqla təminolunma dərəcəsinə görə ayrı-ayrı ərazi və ölkələr bir-birindən kəskin fərqlənirlər. Lakin beynəlxalq ticarətin inkişafı nəticəsində dünya miqyasında bir ölkədə olan qıtlıq digər

ölkələrdə olan artıq məhsullarla əvəz edilə bilir. Beləliklə, dövlətlər arasında ərzaq məhsullarının satışı həyata keçirilir.

Ərzaq məhsullarının beynəlxalq ticarəti dedikdə bitkiçilik, heyvandarlıq, meşə təsərrüfatı, balıqçılıq məhsulları, onların emalı nəticəsində alınan yarım fabrikat və hazır məhsulların satışı nəzərdə tutulur.

Ərzaq məhsulları üzrə dünya bazarında taxıl və onun emalı, zeytun yağı, bitki yağları, piylər, şrot (cecə), tərəvəz və meyvə, ət və ət məhsulları, süd məhsulları, qəhvə, kakao, çay, şəkər, balıq, dəniz məhsulları və s. daha çox xüsusi çəkiyə malikdirlər.

Bir çox ərzaq məhsullarının ticarəti dünya bazarında birjalar vasitəsilə həyata keçirilir. Belə əmtəələrin birjalardan kənar qiymətləri (xüsusilə buğda, qarğıdalı, qəhvə, şəkər və s. üzrə) birja qiymətləri ilə müəyyən edilir.

Balıq, çay, tərəvəz, meyvə və bəzi digər məhsullar hərraclar (auksionlar) yolu ilə satılır (hərraclarda dünya qiymətləri müəyyənləşdirilir).

Bəzi ərzaq məhsullarının dünya qiymətləri əsas idxal və ixrac ölkələrinin qiymətlərilə müəyyənləşdirilir.

Məsələn, qoz, quru meyvə, bal üzrə qiymətlər London bazarında, tərəvəz və meyvələrin qiymətləri Paris topdansatış bazar qiymətləri və yaxud Almaniyanın idxal qiymətlərilə müəyyənləşdirilir.

Hava şəraiti, tələb və təklifin mövsümi xüsusiyyəti, müxtəlif növ məhsulların, ticarət mərkəzlərinin çoxluğu, birja əməliyyatlarında bəzi alverçilik imkanları və s. kimi amillərin təsiri altında bəzi ərzaq məhsullarının qiymətləri o qədər də sabit olmur.

Qiymətlərə daha çox təsir edən amillərdən biri də süni və sintetik əvəzedici məhsullarla olan rəqabətdir (bu daha çox kənd təsərrüfatı xammallarına aiddir).

Bu rəqabət nəticəsində təbii məhsullarla sintetik məhsulların qiymətlərində yaxınlaşma baş verir. Hətta bəzən sintetik məhsulların qiymətləri təbii məhsullar üçün müəyyənedici olurlar. Əlbəttə, taarif və qeyri-taarif tənzimləmələri, maliyyə subsidiyaları kimi xarici ticarət siyasəti də qiymətlərə təsir edir.

Başqa məhsullarda olduğu kimi ərzaq məhsullarının qiymətlərində yaranan bu kimi qeyri-sabitliyin aradan qaldırılması üçün Beynəlxalq əmtəə razılaşmaları, idxal-ixrac kvotaları, bufer ehtiyatları və digər mexanizmlər vasitəsilə (qəhvə, kakao, şəkər, buğda və s. üzrə) təsir göstərirlər.

1970-2002-ci illərdə ərzaq və kənd təsərrüfatı məhsulları ixracı 52 mlrd. dollardan 441 mlrd. dollaradək, icxal isə 57 mlrd. dollardan 464 mlrd. dollaradək artmışdır. Amma etiraf etməliyi ki, burada real qiymət fərqi daha çox olmuşdur.

Ərzaq məhsullarının ixracı və idxalı (2001)

Cəmi ixrac			Cəmi idxal		
Ölkələr	mlrd.dol.	%-lə	Ölkələr	mlrd. dol.	%-lə
ABŞ	39,7	14,0	Yaponiya	24,3	8,1
Fransa	20,2	7,5	Almaniya	23,6	7,9
Niderland	17,1	6,0	İngiltərə	18,3	6,1
Almaniya	16,7	5,9	Fransa	15,4	5,2
Kanada	14,1	5,0	İtaliya	13,4	4,5
İspaniya	11,7	4,1	Çin	10,2	3,4
Braziliya	11,0	3,9	Kanada	8,7	2,9
İtaliya	10,9	3,8	Meksika	8,7	2,9
Avstraliya	10,8	3,8	İspaniya	7,0	2,3
Çin	9,1	3,2	Rusiya	6,2	2,1

Cədvəldən göründüyü kimi, cəmi ərzaq ixracı və idxalının 50%-dən artığını nümayiş etdirilən 10 ölkə həyata keçirir.

Onu da qeyd etməliyik ki, bu ölkələr (Yaponiya, Braziliya, Meksika, Avstraliya və Rusiyadan başqa) eyni zamanda ərzaq məhsullarının həm ixrac və həm də idxalı üzrə qabaqcıldırlar.

Bu da onu göstərir ki, həmin ölkələrdə ərzaq növləri istehlakı daha genişdir (bu inkişaf etmiş ölkələrə xas olan əsas cəhətlərdən biridir).

Ərzaq məhsulları içərisində taxıl (buğda, arpa, vələmir, qarğıdalı və s.) ən kütləvi ərzaq hesab edilir. 2002-ci ilin məlumatına görə cəmi taxıl ixracı 279,6 mln.ton (38,6 mlrd.dollar), idxalı isə 276,9 mln.ton (40,7 mlrd.dollar) olmuşdur.

Bütövlükdə taxılın 55%-i ərzaq kimi, 45%-i isə müəyyən fondlara və mal-qaranın, quşların yemlənməsinə sərf edilir. Hər bir ölkənin inkişaf səviyyəsindən asılı olaraq onlarda taxılın istehlakı həcmi də fərqlənir.

Belə ki, inkişaf etmiş sənaye ölkələrində cəmi taxılın 25%-i ərzağa ayrıldığı halda (başqa ərzaq məhsulları çoxdur), inkişaf etməkdə olan ölkələrdə bu göstərici 90%-ə qədərdir.

Onu da göstərməliyik ki, taxıl üzrə dünya qiymətləri əsasən ABŞ bazarında formalaşır (ABŞ daha çox taxıl ixrac etməklə birja ticarətinin mərkəzi sayılır).

Çin daha çox buğda ixrac etməklə yanaşı, həm də idxal ölkəsi kimi fərqlənir.

Daha çox buğda idxal edən ölkələr-Yaponiya, Braziliya, Misir, Əlcəzair, İran, İndoneziyadır. Buğda ixracında ABŞ-la yanaşı Aİ ölkələri (ilk növbədə Fransa)-Hindistan, Rusiya, Kanada, Avstraliya, Argentina, Pakistan, Türkiyə və Qazaxıstan fərqlənirlər.

Aydındır ki, taxıldan əlavə dünya bazarına çörək məhsulları (çörək, makaron, vafli, suxari və s.) və unüyütmə sənaye məhsulları olan un, düyü, kraxmal, maya da daxil olur.

Mal əti ixracı üzrə –Avstraliya, Braziliya, ABŞ, Aİ, Yeni Zellandiya, Argentina, Kanada, Uruqvay.

Donuz əti ixracı üzrə- Aİ, ABŞ, Kanada, Şərqi Avropa ölkələri.

Qoyun əti üzrə - Yeni Zelandiya və Avstraliya.

Quş əti üzrə – Aİ ölkələri və ABŞ fərqlənirlər.

Süd məhsullarından – pendir, kərə yağı, quru süd ticarəti daha genişdir.

Bu məhsulların ixracında əsasən Aİ ölkələri, Yeni Zelandiya və Avstraliya fərqlənirlər.

1999-cu ildə şəkər ixracı 34730 min ton, idxalı isə təqribən 35800 min ton olmuşdur.

Şəkər ixracının təqribən 80%-i Braziliya, Aİ, Avstraliya, Tailand, Kuba, Qvatemala və CAR ölkələrinin payına düşür.

İdxalın isə 50%-ə qədəri Rusiya, ABŞ, Aİ, Yaponiya, Cənubi Koreya, Kanada, Malayziya, Çin, İran, İndoneziya, Əlcəzair və Misirin payına düşür.

Cəmi idxalın təqribən 10%-ə qədəri Rusiya tərəfindən həyata keçirilir.

3. Dünya üzrə və milli miqyasda ərzaq təhlükəsizliyi problemi

Qeyd etməliyik ki, «təhlükə» və «təhlükəsizlik» anlayışları məzmun baxımından biri digərinin əksidir.

İnsan cəmiyyətinin varlığından hazırki dövrədək ayrı-ayrı xalqlar, dövlətlər arasında (müəyyən münasibətlərlə yanaşı) mübarizə, düşmənçilik, torpaqlar zəbt etmək, var-dövlət və sərvəti artırmaq və s. kimi təhlükə elementləri olmuşdur.

Belə təhlükələr:

-beynəlxalq (regional) miqyasda;

-milli (lokal) miqyasda;

-xüsusi (firmalar, şəxslər) miqyasda hazırda da mövcuddurlar.

Məişə baxımından: 1) təbii; 2) texnogen; 3) sosial təhlükə növləri də fərqləndirilir.

Belə ki, **təbii təhlükə** dedikdə burada daşqınlar, zəlzələlər, quraqlıqlar təhlükəsi və s. nəzərdə tutulur.

Texnogen anlayışda hər bir insanın genində (xasiyyətində) tamahkarlığın olması, ədaləti, başqasının haqqını tapdalamaq, düşmənçiliyə meylli olmaq cəhətləri üstün olur.

Sosial mənşəli təhlükə əsasən əhalinin sosial vəziyyətinin pisləşməsi ilə bağlıdır.

Beləliklə bütövlükdə hər hansı bir təhlükə-qorxu prosesinin qarşısının alınması üçün yaranan, həyata keçirilən irimiqyaslı –qabaqlıyıcı tədbirlər sistemi təhlükəsizlik adlanır.

Belə qabaqcıl tədbirlər olmadıqda hər hansı bir təhlükə daha dağıdıcı ola bilər. Məsələn respublikamızın ərazisindən axan Kür çayının 20-30-cu illərdən təmizlənməməsi, bəndlər

qurulmaması üzündən daşqınlar nəticəsində ayrı-ayrı rayonlara güclü zərər dəymişdir.

Eləcə də daxili bazarın qorunması təhlükəsizliyi.

Təhlükəsizliyə belə bir tərif də verilir: «cəmiyyətin və onun strukturlarının daxili və xarici qorxudan qorunması meylinə və vəziyyətinə təhlükəsizlik deyilir»[1].

«Təhlükəsizlik» problemi ilə əlaqədar olaraq bir nəzəri müddəanı etiraf etməliyik ki, hər bir elmin formalaşması müəyyən mənada tarixi zərurətdən irəli gəlir. Məsələn «ekologiya» elmi ən gənc elmlərdən biridir. Cəmiyyətin inkişafının müasir mərhələsində təbiətlə cəmiyyət arasında qarşılıqlı əlaqələrin gərginləşməsi «Ekologiya» elminin yaranmasına səbəb olmuşdur.

Bu gün qloballaşma prosesinin artması, dövlətlər arasında hərtərəfli əlaqələrin genişlənməsi, istehsal amillərinin beynəlxalq hərəkəti, açıq iqtis adiyyatın geniş vüsət alması və çox ciddi müsbət və mənfi hallar yarada bilir.

Beynəlxalq iqtisadi əlaqələrdə və daxili sahibkarlığın inkişafında ayrı-ayrı şəxslərin fəallığı da kökündən dəyişmişdir.

Bir çox hallarda şəxsi mənafe milli mənafedən üstün tutulur. Belə şəraitdə ölkənin milli sərvətinin talanması, tükənməsi, əhalinin tələbatının tam ödənilə bilməməsi təhlükəsi özünü göstərir.

Məhz elə bu zərurətdən də «ölkənin iqtisadi təhlükəsizliyi» elmi yaranmışdır.

Təhlükəsizlik anlayışı cəmiyyətin bütün tərəflərini özündə etiva edə bilər. Cəmiyyətin, dövlətin, ayrı-ayrı müəssisələrin, şəxslərin təhlükəsizliyinin təmin edilməsi. Eləcə də sifasi, hərbi, informasiya, elmi-texniki sahələrin təhlükəsizliyinin təmin edilməsi və s.

«İqtisadi təhlükəsizlik» anlayışı nəzəri iqtisad ilə politologiya elminin qovuşmuş kateqoriyasıdır. Bu anlayış özündə iqtisadi asılılıq, sabitlik, iqtisadi təzyiq, iqtisadi təxribat, iqtisadi suverenlik və digər kateqoriyaları əks etdirir.

İqtisadi təhlükəsizlik – milli dövlət təhlükəsizliyinin tərkib hissəsi olduğu kimi ərzaq təhlükəsizliyi də özlüyündə iqtisadi təhlükəsizliyin tərkib hissəsidir.

Ərzaq təhlükəsizliyi – ərzaq çatışmazlığı təhlükəsi ilə bağlıdır. Hələ 200 ildən artıq bundan əvvəl ingilis iqtisadçısı Tomas Robert Maltus (1766-1834) 1798-ci ildə «Əhali qanunu haqqında təcrübə» adlı əsər yazaraq anonim ad ilə nəşr etdirmişdir. O, göstərirdi ki, hər 25 ildən bir əhalinin sayı 2 dəfə (həndəsi silsiilə üzrə) artdığı halda əhali üçün yaşayış vasitələri ədədi silsilədə olduğundan tez arta bilməz. Beləliklə o, ərzaq məhsullarının çatışmazlığını təbii hal hesab edirdi. Maltus əhali artımı və ərzaq çatışmazlığı ilə bağlı olaraq xəstəlikləri, müəyyən nöqsanları, müharibələri qanunauyğun hesab edirdi.

Maltusun fikirləri özünü tam doğrultmasa da, hər halda təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, kənd təsərrüfatının quruluşunda dəyişiklik aparılması, islahatlar keçirilməsi, bəzi ölkələrdə əhali artımı barədə yeni siyasət yeridilməsi və bu kimi problemlərə olan məsuliyyəti artırmışdır.

4. Ərzaq təhlükəsizliyinin təmin edilməsində bəzi ictimai-nəzəri və əməli problemlər

Ərzaq probleminin vəziyyəti həmişə dünya alimlərinin, beynəlxalq təşkilatların və dövlət orqanlarının diqqət mərkəzində olmuşdur. Ayrı-ayrı dövrlərdə bu sahədə müzakirələr, təhlillər, geniş araşdırmalar aparılmışdır.

Demək olar ki, bütün mütərəqqi bəşəriyyət cəmiyyətin ərzaq təhlükəsizliyinin təmin edilməsinə dair öz qüvvələrini birləşdirmişlər. 1966-cı ildə Vaşinqtonda «Dünyanın gələcəyini öyrənən cəmiyyət» yaradılmışdır. Həmin illərdən ABŞ-ın 15 institut və təşkilatında minlərlə alim bəşəriyyətin cağdaş və gələcək inkişaf meyllərini tədqiq edir.

Belə tədqiqatlar Avropada da geniş yayılmışdır.

Vyanada (Avstriya) «Gələcəyin problemləri institutu», Niderlandda «Bəşəriyyət 2000-ci ildə» beynəlxalq fondu yaradılmışdır.

1968-ci ildə «Ümumdünya sisteminin inkişafını modelləşdirən və proqnozlaşdıran «Roma klubu» Beynəlxalq təşkilatı yaradılmışdır.

Roma klubunda «Artım həddi» barədə 1972-ci ildə geniş müzakirələr olmuşdur. Burada müəlliflər gələcək 130 il cəmiyyətin inkişaf meylini proqnozlaşdırmışlar.

Bunun üçün 5 qlobal problemi nəzərdə tutmuşlar:

1. Sürətli sənayeləşmə;
2. Əhalinin sürətli artımı;
3. Ajlıq və ərzaq çatışmazlığının geniş yayılması;
4. Təbii ehtiyatların tükənməsi;
5. Məskunlaşma mühitinin pisləşməsi.

Bu problemlərin tədqiq edilməsi üçün müəlliflər 4 ümumiləşdirilmiş göstərijiyə əsaslanmışlar:

1. Dünyanın potensial əkin sahəsi (3,2 mlrd. hektardır);
2. 1970-ci ilə nisbətən məhsuldarlığın 3 dəfə artırılması mümkünlüyü;
3. 1970-ci illə müqayisədə əldə edilə bilən ehtiyatların 200 dəfə artırılması mümkünlüyü;
4. Yer üzündəki müxtəlif çirklənmələrin qarşısının alınması (əks halda bu 1970-ci ildəkindən 25 dəfə çox ola bilər).

Beləliklə, müəlliflər əhalinin sayının təqribən 33 ilə, sənaye istehsalının isə 10-15 ilə iki dəfə artması ehtimalını qəbul etmişlər.

Ərzaq təhlükəsizliyi ilə bağlı olaraq 1974-cü ildə Romada BMT «Ümumdünya ərzaq konfransı» keçirmişdir. Bu konfransda ərzaq qıtlığına və aclığa qarşı birgə mübarizə üçün ümumbəşəri bəyannamə qəbul edilmişdir. Bəyannamədə belə halların yaranma səbəblərinin öyrənilməsi, xəbərdarlıq edilməsi, tədbirlər görülməsi məsələlərinə diqqətin artırılması tövsiyə edilmişdir.

Elə bu məqsədlə də 1974-cü ildə «Ümumdünya ərzaq şurası» yaradılıbdır. Bu Şura ümumdünya ərzaq proqramı təşkilatı kimi fəaliyyət göstərir.Təməli 1963-cü ildən qoyulmuşdur.

Belə beynəlxalq tədbirlərdən biri də 1992-ci ildə keçirilmişdir. Dünyanın ən qabaqcıl 1600 alimi (o cümlədən, 102 Nobel mükafatı laureatı) beynəlxalq yığıncaqlar keçirərək elmi təhlillər, hesablamalar aparmış, ərzaq probleminin güclü sosial-siyasi mahiyyətə malik olmasını göstərmişlər.

Beləliklə, bu alimlərin hazırladıqları sənədlərdə aşağıdakı problemlərə diqqətin artırılması ön plana çəkilmişdir.

1. Əsas ərzaq növü olan taxılçılığın əkin sahəsinin azalması məsələsi. 1980-ci illərdə taxıl əkini sahələri 735 mln. hektar olduğu halda, 2003-cü ildə 666 mln. hektar təşkil etmişdir (69 mln. hektar azalaraq 1960-cı illərin səviyyəsinə enmişdir).

Bu vəziyyəti üç əsas səbəblə əlaqələndirmək olar:

- torpağın böyük bir qismi əkin dövriyyəsindən çıxarılaraq sənaye məqsədlərinə, infrastrukturanın inkişafına cəlb edilir;
- 60-80-ci illərdə kənd təsərrüfatının intensiv inkişafının nəticəsi olaraq torpaqların eroziyası artmışdır. Ona görə də bir çox ərazilərdə yeni meşə salınması və çəmənliklər yaradılması zərurəti meydana çıxmışdır;
- dünya üzrə əhalinin sayının artması şəhərlərin, qəsəbələrin, bağ təsərrüfatlarının, müvafiq infrastrukturanın genişlənməsini tələb edir.

2. İçməli su qıtlığı problemi. Etiraf etməliyik ki, hazırda dünya əhalisinin 50%-ə qədəri içməli su ilə qeyri qənaətbəxş təmin olunur.

Bir çox hallarda sudan qənaətlə istifadə edilmir. Sənaye məqsədləri üçün sudan istifadə artır, bu isə şu tutumlarını çirkləndirir.

Bəzi regionlarda suvarılan torpaqların artması da içməli suların azalmasına səbəb olur. Məsələn, XX əsrin əvvəllərində süni suvarılan əkin sahələri 40 mln. hektar olduğu halda 50-60-cı illərdə bu göstərici 99 mln. hektar, 2003-cü ildə 273 mln. hektar təşkil etmişdir.

Aydındır ki, suvarma sisteminin yaxşılaşdırılması məhsuldarlığı xeyli artırmışdır. Lakin müəyyən nöqsanlar üzündən su kanallarından suyun torpağa çökməsi və böyük çaylarda dərinləşmə işləri aparılmadığına görə dayazlaşma baş vermişdir (Qaraqum kanalı çəkildikdən sonra Aral dənizinin vəziyyəti buna əyani misal ola bilər).

3. Dünya okeanının qlobal problemi də ərzaq problemini çətinləşdirir. Okeanlarda (Atlantik və Sakit okeanda) balıqçılıq hövzələrindən həddindən artıq balıq tutulması, dəniz məhsul-

larının mənimsənilməsi bir çox balıq növlərinin yox olmasına gətirib çıxarmışdır.

Balıq ehtiyatlarının belə vəziyyətə düşməsi üzündən Avropa İttifaqı 2003-2004-cü illərdən balıq tutulmasına 40% qadağa qoymuşdur. Bu hal on minlərlə balıqçı ailəsinin maddi vəziyyətini pisləşdirmişdir.

Balıq tutulması və dəniz məhsulları əldə edilməsi 90-cı illərdə 100 mln ton, 2003-cü ildə isə 110-120 mln. ton təşkil edir.

Eləcə də çaylarda və dənizlərdə də balıq tutulması problemləri eynidir. Beləki, çayların, dənizlərin dayazlaşması və çirklənməsi balıq tutulmasını azaltmışdır. Müəyyən tullantıların artması sənaye müəssisələrindən axan suların təmizlənməməsi üzündən çay və dənizlər çirklənmiş və bir çox balıq növləri məhv olmuşdur.

Kanada, ABŞ və Skandinaviyada on minlərlə dəniz ölü sututarına çevrilmişdir.

4. Ətraf mühitin çirklənməsi problemi də kənd təsərrüfatına, ərzaq təminatına böyük zərər vurur.

Bir çox tullantıların qaz və digər maddələrin ətraf mühitə atılması iqlimin istiləşməsinə səbəb olmuşdur. Eyni zamanda qasırğa və tufanlar, quraqlıqlar, daşqınlar və digər fəlakətlər də artmışdır. Bütün bunlar ərzaq məhsullarının mənbəyi olan aqrar bölməyə zərər vurur.

İqlimin gələcəkdə də istiləşməsi, buzlaqların əriməsi Dünya okeanının 6-7 metr qalxmasına səbəb ola bilər ki, bu da yüzlərlə şəhər və kəndlərin, torpaqların su altında qalması deməkdir.

5. Məhsuldarlıq səviyyəsinin aşağı düşməsi problemi.

Hazırda dünya üzrə taxılın məhsuldarlığı 31 sentnerdir (Fransa və İngiltərədə buğdanın məhsuldarlığı 70 sentnerdir).

Geridə qalmış aqrar ölkələrdə bu göstərici Afrikada –13, Rusiyada – 20 sentner təşkil edir.

Məhsuldarlığın artırılması üçün çoxlu kapital qoyuluşu tələb olunur.

6. Biçənəklərdə otarılan mal-qaranın qədəri. Biçənəklərdə, çəmənliklərdə mal-qaranın otarılması heyvandarlıq məhsullarının artmasına zəmin yaradır. Lakin nəzərə almaq lazımdır ki, bunun da müəyyən həddi var. Mal-qaranın və qoyunların sayının çoxalması həmin çətinliklərin üst qatının korlanmasına səbəb olur. Ona görə də gələcəkdə mal əti və qoyun ətinin artırılması ehtimalı daha azdır.

Bütün bu və ya digər problemlər bütövlükdə cəmiyyətin və insanların ərzaq təminatı üçün təhlükə mənbəyi hesab edilir. Odur ki, təhlükəsizlik tədbirləri də artırılır.

Bu təhlükəsizlik tədbirləri dünya miqyasında, regional, milli və hətta ev təsərrüfatı səviyyəsində müəyyən edilir.

«Ərzaq və kənd təsərrüfatı məhsulları təşkilatı» (1945) (FAO) belə hesab edir ki, cəmiyyətin tələbatının minimum ödənilməsi üçün dünya miqyasında müəyyən ehtiyat yaradılır. Bu məqsədlə, keçənilki məhsulun 17%-i ehtiyat kimi saxlanılır. Bu ehtiyat dünya əhalisinin iki aylıq tələbatına kifayət edə bilir. İqtisadi vəziyyət ilə bağlı olaraq bu ehtiyat fondu da dəyişkən olur: məsələn 1995-ci ildə taxıl ehtiyatı 17%-dən 14%-dək azaldılmışdır.

Milli səviyyədə ərzaq təhlükəsizliyi konsepsiyasında ancaq ölkənin ərzaqla təmin edilməsi nəzərdə tutulmur. Burada həmçinin nəzərdə tutulur ki, əgər müqayisəli üstünlük yoxdursa, deməli hər hansı bir məhsul növünün xaricdən alınması zəruridir.

Milli səviyyələrdə ərzaq təhlükəsizliyinin müəyyən edilməsində müxtəlif göstəricilərdən istifadə edilir. Hər nəfər hesabı ilə mövcud ərzaq istehlakı, özünü təmin edə bilmək əmsalı və s. kimi göstəricilər də əsas götürülür.

Son illərin məlumatına görə inkişaf etməkdə olan 113 ölkənin 24-ü daha aşağı səviyyədə ərzaq təhlükəsizliyinə nail olmuşdur ki, bunun da 22-si Afrika ölkələridir.

Qeyd etməliyik ki, bu kimi ictimai-dünyəvi tədbirlər ardıcıl olaraq davam etdirilir. Belə ki, 1994-cü ildə Dünya Bankı tərəfindən «Ümumdünya ərzaq təhlükəsizliyi proqramı» yaradılıbdır. Bu proqramda ərzaq təhlükəsizliyi barədə insanların ərzaqla təmin edilməsi barədə də əsas prinsiplər müəyyən edilibdir. Bu proqrama uyğun olaraq bir sıra bölgələrdə, o cümlədən Avropada ərzaq təhlükəsizliyi proqramı yaradılıbdır.

1996-cı ildə Romada 130 dövlətin nümayəndələrinin **iştirakı ilə – «Ümümdünya ərzaq forumu»** keçirmişdir. Burada, «Yer kürəsi əhalini necə yedizdirməli məsələsi hərtərəfli tədqiq edilmiş, problemin həllinə dövlət orqanlarının, geniş ictimaiyyətin cəlb edilməsinə diqqət artırılmışdır.

1997-ci ildə Roma Klubunun sifarişilə Norveçdə müxtəlif sahələrin müəllifləri birlikdə «Bizim gələcəyimiz» adlı əsər yazmışlar. Yekdil fikir ondan ibarət olmuşdur ki, bütün sərvətlərdən səmərəli istifadə edilməsi təhlükəsizliyin əsas amili hesab olunmalıdır.

2000-ci ilin iyun ayında Azərbaycan hökuməti Avropa komissiyasının ərzaq təhlükəsizliyi proqramına qoşulmaq üçün memorandum imzalamışdır. Beləliklə, ölkədə Ərzaq Təhlükəsizliyi Proqramı hazırlanmış və ölkə prezidenti tərəfindən 2001-ci il 2 mart tarixli sərəncamla təsdiq edilmişdir.

Bütün qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olur ki, gələcəkdə ərzaq məhsullarının sürətlə artırılması o qədər də real deyildir. Lakin əhalinin ərzaq məhsulları ilə təmin edilməsi imkanları da tükənməmişdir.

Nəzəri baxımdan tam əsaslandırılmışdır ki, gələcəkdə də ərzaq problemi digər qlobal problem olan – demoqrafiya problemi ilə qarşılıqlı sürətdə inkişaf etdirilməlidir.

Əgər son 40 ildə (1950-1990) dünya əhalisi 2,8 mlrd. nəfər artmışdırsa, gözlənilən 40 ildə (2030-cü ilədək) ildə 90 mln. nəfər artaraq, 9 mlrd. nəfər olacaqdır. Aydındır ki, əsas artım Asiya və Afrikada olacaqdır. Bu regionlarda isə kənd təsərrüfatının inkişafı güclü investisiya tələb edir (investisiya olsa da boş torpaqlar o qədər də kifayət deyildir).

FAO-nun hesablamalarına görə əhalini ərzaq məhsulları ilə təmin etmək üçün (müvafiq normalarla) 2025-ci ilə istehsalın həcmi 2 dəfə artmalıdır.

Bu isə o qədər də real deyildir. Müəyyən iqtisadi hesablamalara görə 2030-cu ilədək ərzaq məhsulları istehsalı zəif də olsa artan istiqamətdə dəyişəcəkdir.

Lakin hazırki qida normaları və əhalinin artımı müqabilində dünya bazarında 500 mln.ton taxıl, 40 mln. ton ət, 70 mln. ton balıq və balıq məhsulları və bir sıra digər məhsullar çatışmayacaqdır.

Beləliklə, ərzaq probleminin həllində üç cəhətə fikir yönəldilir:

1. İstehsalın 2 dəfə artırılması;
2. Təbii artımın məhdudlaşdırılması;
3. Əsas ərzaq növləri üzrə qida normalarının azaldılması mümkünlüyü.

5. Ərzaq köməkliyi problemi

1970-ci illərdə inkişaf etməkdə olan ölkələrin bir çoxunda ərzaq probleminin pisləşməsi zəruri təcili tədbirlər görülməsini tələb edirdi. Bu tədbirlərdən biri də ərzaq köməkliyi idi. Ərzaq köməkliyi dedikdə ərzaq ehtiyatlarının güzəştli şərtlərlə və yaxud əvəzsiz verilməsi nəzərdə tutulur.

1970-ci illərin ortalarından 1995-ci ilədək edilən taxıl yardımı, ildə 8 mln. tondan 13 mln. tona çatdırılmışdır. Həmin müddətdə digər ərzaq məhsulu olan quru süd və bitki yağı köməkliyi 330 min tondan 1,2 mln. tona çatdırılmışdır. Ərzaq köməkliyinin çoxu Afrikanın Saxara boyu ölkələrinin payına düşür. Son onilliklərdə daha çox köməklik edilən ölkələrdən Misir, İordaniya, Mərakeş və Tunis, Asiyada – Hindistan, Pakistan, Şri-Lanka, Latın Amerikasında – Salvador, Qvatemala, Yamayka, Perunu göstərmək olar. Aydındır ki, bütün bu kimi köməkliklər, həmin ölkələrdə ərzaq çatışmazlığına əsaslı surətdə yardım edir. Bununla yanaşı, bu ölkələrin gələcək sosial-iqtisadi inkişafına zəmin yarada biləcək texnologiya və sair istehsal vasitələri verilməsi də həyata keçirilir.

Ərzaq köməkliyi edən əsas təşkilatlar

Dünyada ərzaq və kənd təsərrüfatı məhsulları məsələsi ilə məşğul olan ən böyük beynəlxalq təşkilat – FAO (ərzaq və kənd təsərrüfatı təşkilatı) hesab edilir. Bu təşkilat 1945-ci ildə

yaradılmışdır (mərkəzi Romadadır). Bu təşkilata 174 ölkə və Aİ dövlətləri daxildir. Beş ərazi şöbəsi vardır: Afrika üzrə; Asiya-Sakit okean ərazisi üzrə; Avropa; Latın Amerikası: Karib hövzəsi və Yaxın Şərq üzrə. Bu təşkilat əsasən öz üzvlərinin üzvlük haqqı hesabına maliyyələşdirmə həyata keçirir.

BMT-nin xüsusi təşkilatı olmaqla FAO, əhalinin təmin olunması barədə məlumat toplayır, inkişaf etməkdə olan ölkələrə ərzaq köməkliyi edilməsini və kənd təsərrüfatının inkişafına yardım göstərilməsini həyata keçirir və müxtəlif texniki yardım layihələri hazırlayır.

1967-ci ildən FAO sistemində sənayenin əlaqələndirilməsi proqramı fəaliyyət göstərir. Bu proqramda yüzdən artıq kənd təsərrüfatı biznesi birlyii iştirak edir.

Ərzaq məsələsinin işlənilib hazırlanmasında başqa beynəlxalq təşkilatların də böyük rolu vardır. **1974-cü ildə Ümumdünya Ərzaq Şurası yaradılmışdır**. Bu şura dünya miqyasında ərzaqın vəziyyətini izləyir və ehtiyacı olan ölkələrə köməklik göstərilməsini təşkil edir. Təməli 1963-cü ildən qoyulan bu təşkilat (qərargahı Romadadır - İtaliya) ümümdünya ərzaq proqramı təşkilatı kimi fəaliyyət göstərir. Fəaliyyətə başladığı vaxtdan 1000-dən artıq inkişaf layihəsinə yardım etmiş, 1200-dən çox fövqəladə əməliyyatlarda ərzaq yardımı vasitəsi ilə iştirak etmişdir.

Bu təşkilat 1993-cü ilin axırlarından Azərbaycana fövqəladə ərzaq yardımı proqramına başlamışdır. Son 10 ildə respublikaya 65 mln. dollar həcmində müxtəlif çeşidli 90 min ton ərzaq məhsulları gətirilmişdir. Yardımın davam etdirilməsi barədə ardıcıl layihələr qəbul edilir. Belə ki, 200 min qaçqın və köçkünə yardım edilməsi barədə 1999-cu ildə, 2002-ci ildə yardım barədə 2003-2005-ci illərdə 145500 nəfəri əhatə edən yeni layihə qəbul edilmişdir.

1977-ci ildən kənd təsərrüfatının inkişafı üzrə Beynəlxalq Fond (İFAD) inkişaf etməkdə olan ölkələrin ərzaq vəziyyətinin yaxşılaşdırılmasına köməklik göstərir (1976-cı ildə yaradılıbdır). Bu təşkilat 1978-ci ildən kreditləşdirmə həyata keçirir. Bu fonda 160 ölkə daxildir. Bundan:

- 22 inkişaf etmiş donor ölkəsi;
- 12 inkişaf etməkdə olan donor ölkəsi (Əlcəzair, Venesuela, qabon, İndoneziya, İraq, İran, Qatar, Küveyt, Liviya, Nigeriya, BƏƏ, Səüdiyyə Ərəbistanı);
- 126 digər inkişaf etməkdə olan ölkələr.

Bu məsələ ilə digər beynəlxalq təşkilat və birliklər də yaxından məşğul olur. Bunlardan 1960-cı ildə təşkil olunmuş iqtisadi əməkdaşlıq və inkişaf təşkilatı, yenə də 1960-cı ildə yaradılmış neft ixrac edən ölkələr təşkilatı OPEK, 1949-cu ildə yaradılmış Avropa Şurası və s. qeyd etmək olar.

Bu ərzaq köməkliyi problemində ABŞ-da böyük rol oynayır. 1960-cı illərin ortalarında cəmi ərzaq köməkliyinin 96 %-i ABŞ-ın payına düşürdü. 1990-cı illərin əvvəllərinə isə ABŞ-ın payı 40 %-ə enmişdir. 1960-cı illərdə ABŞ tərəfindən daha çox köməklik Tunis, Filippin, Cənubi Vyetnam, Hindistan, Pakistan və Cənubi Koreyaya göstərilmişdir. 1970-ci illərdə isə Misir və Çinə daha çox yardım verilmişdir. 1980-ci illərdə isə ərzaq köməkliyi məsələsində Qərbi Avropa dövlətlərinin rolu artmışdır.

XII FƏSİL
DÜNYA ÜZRƏ İQTİSADİ ARTIM PROBLEMİ

1. *İqtisadi artımın mahiyyəti və dinamikası.*
2. *İqtisadi artımın modelləri.*
3. *İqtisadi artım və iqtisadiyyatda quruluş dəyişikliyi.*
4. *Elmi-texniki tərəqqi və iqtisadi artım.*
5. *İqtisadi artımın keyfiyyəti:*
   a) İstehsalın ətraf mühitə tə'siri.
   b) İstehlak və ətraf mühit.
   v) Təbiətdən istifadənin tənzimlənməsi və ətraf mühitin mühafizəsi.
   q) İqtisadiyyatın hərbiləşdirilməsi.
6. *İqtisadi artım və sosial tərəqqi.*

1. İqtisadi artımın mahiyyəti və dinamikası

Həyat hərəkət deməkdir, cəmiyyətin iqtisadi həyatı da canlı aləm kimi daimi dəyişilməkdə, hərəkətdə və inkişafdadır. Bu dəyişikliklər ancaq məhsuldar qüvvələrlə istehsal münasibətlərinə xas olmayıb, iqtisadiyyatın bütün digər tərəflərini də əhatə edir. Bu dəyişikliklər cəmiyyət üçün daha artıq maddi və mənəvi nemətlər istehsal edə bilən əmək məhsuldarlığının yüksəldilməsində də öz əksini tapmış olur, sabit artım baş verir. Bu mənada iqtisadi artım iqtisadiyyatın hərəkətini, onun tərəqqisi və inkişafını şərtləndirmiş olur. İqtisadi artım probleminin araşdırılması metodoloji və məntiqi baxımdan məhz əhali problemi ilə ərzaq probleminin müəyyən tələblərindən irəli gəlir.

İqtisadi artım dedikdə müəyyən dövr ərzində istər milli və istərsə də dünya miqyasında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin nəticəsi kimi məhsul istehsalı və xidmətlərin həcminin artması nəzərdə tutulur.

Bir çox iqtisadi ədəbiyyatlarda "iqtisadi artım", "iqtisadi inkişaf", "iqtisadi tərəqqi", "iqtisadi yüksəliş" və bu kimi müxtəlif anlayışlar işlədilir. Bu anlayışlar daxili məzmun baxımından o qədər də fərqlənmirlər. Bütün hallarda kəmiyyət dəyişiklikləri ilə yanaşı keyfiyyət dəyişiklikləri də əks olunur.

Qeyd etmək lazımdır ki, iqtisadi artım anlayışının kəsb etdiyi məzmun barədə iqtisadçılar arasında fikir müxtəlifliyi mövcuddur. Belə ki, bir çox Amerika iqtisadçıları iddia edirlərki, iqtisadi artım ardıcıl olaraq əhalinin **gəlirlərinin artması deməkdir**. Bir qismi göstərir ki, iqtisadi artım **istehsalın genişləndirilməsi sürətini təmin edir**. Məsələn, Amerika iqtisadçısı K.Landauer göstərirdi ki, iqtisadi artımın məzmunu ya **istehsalın artması və yaxud istehsalın genişlənməsinə zəmin yaratmaqla əks oluna bilər.** Amerika iqtisadçısı Kuzneüin fikrincə - iqtisadi artım dedikdə insanların tələbatının ödənilməsi üçün istehsalın həcminin ardıcıl olaraq artması nəzərdə tutulur.

Bəzi ədəbiyyatlarda iqtisadi artımı **şərtləndirən cəhətlər və nəticələr** də biri-birindən fərqləndirilir. Belə ki, məsələn hər bir ölkədə maddi-texniki bazanın vəziyyəti, ixtisaslı işçi qüvvəsinin mövcud olması, elmi-texniki tərəqqi, istehsal aparatının ardıcıl olaraq təzələnməsi, istehsalın optimal quruluşu, infrastrukturanın inkişafı, kooperasiya və ixtisaslaşmanın səviyyəsi, təbii ehtiyatlar və müəssisələrin təmin edilməsi, müəssisələrin müstəqillik səviyyəsi və bazarın inkişafı, dövlətin iqtisadi siyasəti və s. iqtisadi artıma şərait yaradan cəhətlər kimi vurğulanır.

İqtisadi artımın nəticəsi isə əsasən öz əksini əmək məhsuldarlığının səviyyəsində, milli məhsulun artım sürətində, əhalinin tələbatının ödənilməsi dərəcəsi və həyat səviyyəsində tapır. İstehsala təsiri baxımından iqtisadi artım istehsal amillərinin və istehsal münasibətlərinin təkmilləşdirilməsində, yeni texnologiyanın tətbiqində öz əksini tapmış olur ki, bu da son nəticədə ölkənin iqtisadi inkişaf səviyyəsini və iqtisadi qüdrətini xarakterizə edir. Buradan da aydın olur ki, ölkənin iqtisadi potensialı, iqtisadi gücü (qüdrəti) və iqtisadi inkişaf səviyyəsi iqtisadi artımın əsas göstəriciləri hesab edilir. Öz növbəsində iqtisadi artım da iqtisadi inkişafın daxili tərkib hissəsi olmaqla onun hərəkətverici qüvvəsidir. Hər halda iqtisadi artımın həcmi həm natural və həm də dəyər ifadəsilə hesablanır. Bunun

üçün cari ilin ÜDM-i ilə keçən ilin ÜDM-i vahid qiymətlərlə müqayisə edilir. Həmin göstərici əhalinin sayına bölünməklə hər nəfərə düşən artım da hesablanır.

Məsələn, dünya üzrə ÜDM-in həcmi 2004-cü ildə – 40887,8 mlrd.dollar, 2005-ci ildə isə 44454,8 mlrd.dollar təşkil etmişdir. Deməli illik artım 44454,8-40887,8=3567 mlrd.dollar və yaxud 8,7 % olmuşdur.

1995-ci ildə dünya üzrə əhalinin sayı 5,7 mlrd. nəfər, cəmi ÜDM-in həcmi isə təqribən 30 trln. dollar olmuşdur. Hər nəfərə düşən ÜDM 5263 dollar təşkil etmişdir. 2005-ci ildə göründüyü kimi cəmi – ÜDM 14454,8 mlrd. dollar artaraq 44454,8 mlrd. dollar olmuşdur. Hər nəfərə düşən ÜDM 6877 dollar təşkil etmişdir.

Beləliklə, cəmi ÜDM 1995-ci ilə nisbətən 48 %, əhalinin sayı isə 13,4 % artmışdır. Bununla yanaşı ÜDM-in necə istifadə edilməsi də böyük əhəmiyyət kəsb edir.

Bu iqtisadi anlayışın kəsb etdiyi daxili məzmuna səthi yanaşdıqda məhsul və xidmətlərin fiziki həcminin artması nəzərdə tutula bilər. Belə artım hətta bir istehsal prosesində də baş verə bilər. Lakin iqtisadi inkişaf, iqtisadi tərəqqi, iqtisadi yüksəliş kateqoriyaları bir istehsal prosesi ilə izah edilə bilməz. Lakin qeyd etdiyimiz kimi bu anlayışlar daxilən biri-biri ilə qovuşmuş şəkildə mövcuddurlar. Bir məsələni də qeyd etmək lazımdır ki, **"İqtisadi artım" anlayışı əsasən ikinci dünya müharibəsindən sonra iqtisadi ədəbiyyatlarda işlədilməyə başlamışdır.**

Həmin dövrdən inkişaf etmiş sənaye ölkələrinin ekstensiv inkişafından intensiv inkişaf növünə üstünlük verilməsinə, yeni, xarici texnologiyanın tətbiqinin genişlənməsinə, emal sənayesinin xüsusi çəkisinin artmasına, xarici kapital axınına, beynəlxalq iqtisadi əlaqələrin genişlənməsinə real zəmin yaranmışdır. Bütün bunlar isə iqtisadi inkişafda sabit-ardıcıl artım olmasına imkan vermişdir. Buradan da "**iqtisadi artım**" anlayışı işlədilməsi ideyası meydana gəlmişdir. Deməli yuxarıda qeyd etdiyimiz anlayışlar ancaq ifadə baxımından biri-birindən fərqlənirlər (Ekonomika və Ekonomiks anlayışları kimi. C.K.).

İqtisadi inkişafın mərhələlərinin şərhində K.Marks (1818-1883) beş ictimai-iqtisadi formasiya nəzəriyyəsi ilə çıxış etmişdir:

- ibtidai icma;
- quldarlıq;
- feodalizm;
- kapitalizm;
- kommunizm.

Amerika iqtisadçısı U.Rostou (1916 təv.) isə tarixin inkişafında üç ümumi cəhəti əsas götürmüşdür:

- texniki inkişaf səviyyəsi;
- yığım norması;
- istehlakın səviyyəsi.

Rostou bu üç keyfiyyət göstəricisi əsasında iqtisadi inkişafı beş mərhələyə bölmüşdür:

1. Ənənəvi cəmiyyət.
2. İstehsalın effektli aparılması üçün müəyyən şərait yaradılması mərhələsi.
3. Yüksəliş cəmiyyəti.
4. Yetgin və yaxud sənaye cəmiyyətinə yol açılması mərhələsi.
5. Yüksək kütləvi istehlak cəmiyyəti.

Burada U.Rostou K.Marksın cəmiyyətin tarixi inkişafı barədəki formasiya təlimini dəyişdirməyə səy göstərir (ümumiyyətlə iqtisadi artım barədə nəzəri müddəalar "iqtisadi nəzəriyyə" elmində daha geniş verilmişdir).

Bütün cəmiyyətlərdə istehsalın əsas məqsədi insanların tələbatının ödənilməsinə tabe edilmişdir. Bu mənada iqtisadi artımın zəruriliyi ondan irəli gəlir ki, əvvəlan əhalinin sayı yüksələn xətt üzrə ardıcıl olaraq çoxalır. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda dünya əhalisi ildə orta hesabla 80 milyon nəfərdən artıq çoxalır. İkinci - insanların tələbatının quruluşu (tərkibi) dəyişir. Bugünkü insan ancaq yemək, içmək, geyim, mənzil və s. ilə kifayətlənmir. İnkişaf etmiş ölkələrdə insanların daha müasir ünsiyyət vasitələrinə, xidmət növlərinə, sağlamlıq vasitələrinə, təhsilə, peşə hazırlığı və sairəyə olan ehtiyacı artmışdır. Bir sözlə "tələbatın artması qanunu" fəaliyyət göstərir.

Hər bir iqtisadi proses özünəməxsus ölçü xarakterinə malikdir. Cəmiyyət miqyasında **iqtisadi artım ümumi milli məhsulun və yaxud ümumi daxili məhsulun həcmi ilə,** eləcə də hər nəfərə düşən **ÜDM**-in həcmi ilə müəyyən edilir. İqtisadi artım hər şeydən əvvəl:

- əmək ehtiyatlarının kəmiyyəti və keyfiyyətindən;
- əsas kapitalın həcmindən və tərkibinin yaxşılaşmasından;
- istehsalın təşkilinin və texnologiyanın təkmilləşdirilməsindən;
- təbii ehtiyatların kəmiyyət və keyfiyyətindən;
- cəmiyyətdə sahibkarlıq fəaliyyətinin həcmi və sairədən asılıdır.

Dünya üzrə bütün sosial-iqtisadi ehtiyatlardan necə istifadə edilməsi istər kəmiyyət və istərsə də keyfiyyət baxımından öz əksini iqtisadi artımda daha parlaq tapa bilir.

Məhz iqtisadi artım iqtisadi, siyasi, sosial amillərin qarşılıqlı əlaqələrinin nəticəsi kimi çıxış edir. Ayrı-ayrı dövrlərdə iqtisadi artımın müəyyən ünsürləri bu prosesə müxtəlif istiqamətdə təsir edirlər. Son onilliklərdə dünya iqtisadiyyatının inkişafında ciddi dəyişikliklər baş vermişdir. Belə ki, 50-60-cı illərdə iqtisadi artım yüksələn xətt üzrə baş verdiyi halda, 70-ci illərdə azalma meyli mövcud olmuşdur. Xüsusilə inkişaf etmiş ölkələrdə təkrar istehsalın ritmi pozulmuş, mənfəət, kapital qoyuluşu azalmışdır. Ticarət və tədiyyə balansında kəsir alınmış, inflyasiya baş vermişdir.

İqtisadi artımdakı bu kimi yavaşımalar bütün yarımsistemləri əhatə etmişdir. Dünya üzrə son onilliklərdə ÜMM-in artım sürəti 1970-ci ildəkindən 2,6, 60-cı ildəkindən isə 3,5 dəfə az olmuşdur. Sənaye məhsulunun artımı da həmin nisbətdə azalmışdır. İqtisadi artımın surətinin azalması bir çox səbəblərdən irəli gəlmişdir. Əvvəla iqtisadiyyatda dövrü (tsikli) inkişaf baş vermişdir. Son illərdə ardıcıl olaraq üç ən böyük dövrü (böhranlı) inkişaf özünü göstərmişdir.

1974-1975-ci illərdə sənaye istehsalının ümumi həcmi 5%-dən 12%-dək azalmışdır. Həmin illərdə qiymətlər sürətlə artmış, nominal gəlir azalmışdır.

Azacıq fasilədən sonra **1976-1979-cu illərdə** dünya təsərrüfatında daha uzun müddətli ləngimə müşahidə olunmuşdur. Bu azalmanı tarixdə məlum olan 1929-1933-cü illərin böhranı ilə müqayisə etmək olar. **1982-ci ildə** sənaye məhsulu istehsalı 1979-cu ilə nisbətən 6% azalmışdır (inkişaf etmiş sənaye ölkələrində 4 %; inkişaf etməkdə olan ölkələrdə isə 13 %). Xarici ticarətin həcmi 2 % aşağı düşmüşdür. Yenə də müəyyən canlanmadan sonra **1990-1991-ci illərdə** Avropanın bir çox ölkələrində və Yaponiyada yenidən istehsalın həcmi azalmışdır. İkinci dünya müharibəsindən sonra ilk dəfə idi ki, **1991-ci ildə dünya üzrə ÜDM-in həcmi** artmamışdır. Bunun da əsas səbəbi Şərqi Avropa ölkələrində istehsalın həcminin kəskin azalması ilə izah edilir. Son onilliklərdə iqtisadi artımın xüsusiyyətlərindən biri də **inkişaf etməkdə olan ölkələrdə də onun kəskin azalmasından** ibarətdir. Müharibədən sonrakı ilk onilliklərdə inkişaf etmiş ölkələr əsasən bərpa işləri ilə məşğul olduğu üçün inkişaf etməkdə olan ölkələrdə ümumi məhsulun nisbi artımı müşahidə olunmuşdu.

50-60-cı illərdə həmin ölkələrdə ÜDM-in həcmi 2,7; 70-80-ci illərdə isə 2,4 dəfə artmışdır. 80-ci illərdən isə artım sürəti azalmışdır. Həmin ölkələrin xarici iqtisadi əlaqələrində yeni cəhətlər meydana çıxırdı. Daha doğrusu istehlakın həcmi və eləcə də onların ixrac etdiyi xammalın qiymətləri azalmışdır. İxracın artımı əsasən emal sənayesi məhsulu hesabına həyata keçirilirdi. Ticarət və tədiyyə balansları pisləşmişdi. Bütün bu kimi vəziyyət sənaye ölkələrinə də təsir edirdi. 1970-1995-ci illərdə ABŞ-ın xarici ticarətinin artım sürəti aşağı düşmüşdür.

Dünya üzrə 1974-1987-ci illərdə çuğun və polad istehsalı 110 mln.ton azalmışdır. 80-ci illərdə öz miqyasına görə işsizlik ən yüksək həddə çatmışdır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə işsizlik ilə inflyasiyanın biri-birinə qarışması iqtisadi artım üçün problem yaradırdı. Təkrar istehsal prosesinin dinamikasına neft və digər mineral xammal növləri qiymətinin artması da güclü təsir edirdi. 70-ci illərin əvvəllərində sənaye ölkələrində enerji istehlakının 50 %-ə qədəri neftlə təmin olunurdu. Sənaye ölkələri ilə inkişaf etməkdə olan (xüsusilə neft

ixrac edən) ölkələr arasındakı sosial-iqtisadi ziddiyyətlər mineral xammalın qiymətinin kəskin artmasına səbəb olmuşdur. Məhz qiymətlərin artması mineral xammal ixrac edən ölkələrdə iqtisadi artımın surətlənməsinə zəmin yaratmışdır. Buna baxmayaraq neftin qiymətinin artması sənayeləşdirmə prosesini ləngidirdi. Az inkişaf etmiş ölkələr isə daha pis vəziyyətə düşürdü. Ona görə də bu ölkələr idxalın və istehlakın həcmini azaltmağa məcbur olurdular.

Aydındır ki, iqtisadi böhranlar valyuta böhranlarına da səbəb olmuşdur. Beynəlxalq miqyasda ABŞ dollarının istifadə edilməsində onun mövqeyi zəifləmişdi. 1970-ci ildə BVF valyuta sistemində "Xüsusi əvəzetmə hüququ" valyuta sistemi müəyyən etmişdi. Dəyişilən valyuta kursuna keçilməsinə icazə verilmişdi.

80-90-cı illərdə Avropa sosialist ölkələrinin sosial-iqtisadi quruluşundakı böhran da DÜMM-in artmasına mənfi təsir etmişdir. Beləliklə üçüncü dünya ölkələrində (Latın Amerikası, Afrika, Qərbi Asiya) və eləcə də keçmiş sosialist ölkələrində hər nəfərə düşən ÜDM-in həcmi azalmış, əhalinin artım sürəti istehsalın artımını qabaqlamışdır.

2. İqtisadi artımın modelləri

Bütün qeyd etdiklərimizdən aydın olur ki, iqtisadi artım uzun bir dövrün məhsuludur. Lakin insan cəmiyyətinin mövcud olduğu min illiklərdə 100 illərlə demək olar ki, durğunluq vəziyyəti xarakterik olmuşdur. Ancaq XVIII əsrin ortalarından İngiltərədə baş verən sənaye inqilabı ümumi inkişafa yol açmışdır. Uzun müddət iqtisadi artım ilə iqtisadi inkişaf anlayışları eyniləşdirilmişdir. Lakin 1930-cu illərdən iqtisadi artım anlayışının şərhi barədə bir çox modellər yaranmışdır. Buradan da iqtisadi artımın modelləri deyilən fikirlərin şərhi zərurət təşkil edir.

1.**Çox amillərə əsaslanan model.** Burada iqtisadi artıma təsir edən əmək, torpaq, kapital və bu amillərin özünə daxil olan ikinci pilləli amillər məcmu halında götürülür (məsələn, kapital amilində binalar, qurğular, avadanlıqlar, xammal, ya-

nacaq və sairənin vəziyyəti, istifadə dərəcəsi və s.). Bu modeldə həmçinin kənar amil kimi cəmiyyətin məcmu tələbi də əsas götürülür. Bu amildən başqa bütün digər amillər təklif amilinə daxildirlər. Bu ehtiyatların hər biri digər ehtiyatlardan və cəmiyyətin sosial-iqtisadi inkişafından asılı olaraq daimi dəyişməkdədir. Öz növbəsində bu amillərin hər biri iqtisadi artıma müxtəlif istiqamətlərdə təsir göstərirlər.

Bu ehtiyatlardan (amillərdən) necə istifadə edilməsi də öz növbəsində müəyyən göstəricilərlə ifadə edilir.

Beləki:

1. Təbii ehtiyatlar – materialtutumu göstəricisi ilə;
2. Əmək ehtiyatları – əmək məhsuldarlığı ilə;
3. Sahibkarlıq qabiliyyəti – yüksək mənfəət əldə edilməsi ilə;
4. Əsas kapital – fond verimi və məhsulun keyfiyyəti ilə;
5. ETT və yeni nailiyyətlərdən istifadə edilməsi – mənfəətin artırılması, yeni əmtəə və xidmətlər istehsalı, ətraf mühitin mühafizəsinin yaxşılaşdırılması ilə;
6. Məcmu tələb amili – gəlirlərin bölgüsü ilə qiymətləndirilir.

Bu amilləri iqtisadi artıma birbaşa təsir edən amillər adlandırmaq olar.

2. **İki amilə əsaslanan iqtisadi artım modeli.** Burada əsasən əmək və kapital amillərinin təsiri araşdırılır. Bu hesablamalarda ilk variantda ETT-nin rolu nəzərə alınmır. Aydındır ki, belə şəraitdə maliyyə vəziyyətinin yaxşılaşdırmaq qeyri-mümkündür.

İkinci halda isə – yəni ETT-nin nailiyyətlərindən istifadə edilməsi şəraitində əmək və kapital daha məhsuldar olur. Beləliklə, kapital veriminin artmasına səbəb ola bilən investisiya hətta nəzəriyyədə və əməli işdə mənfəətin azalmağa doğru meyli qanununu da inkar edir.

V.Leontyevin Milli iqtisadiyyatın sahələrarası balans modeli (iqtisadi artımı universal modelləri)

İqtisadi artımın hərtərəfli tədqiqi ilə iqtisadiyyatın idarə edilməsi üçün əsas olan universal modellərin yaradılması yolun-

da bir çox addımlar atılmışdır. Burada dəyər və natural (fiziki) göstəricilər sistemindən istifadə edilməsi ön plana çəkilmişdir.

Bu sahədə tanınmış fransız iqtisadçısı (Fransada demokratiya məktəbinin banisi) Fransua Kenenin (1694-1774) 1758-ci ildə nəşr etdirdiyi «İqtisadi cədvəl»i böyük əhəmiyyət kəsb edir.

Kene ilk dəfə olaraq iqtisad elmində milli iqtisadiyyatı sistem halında götürmüş, kənd təsərrüfatına daha məhsuldar sahə kimi yanaşmışdır.

Sonralar akademik Vasili Sergeyeviç Nemçinov (bu əsərin 200 illiyində, 1958) özünün «İqtisadi metodlar və modellər» əsərində yazırdı: «XVIII əsrdə iqtisad elminin...inkişafının sübh çağında Fransua Kene...bəşər fikrinin dahiyanə yüksəlişi olan «İqtisadi cədvəl»i yaratmışdır... Burada verilmiş ideyalar nəinki sönməmişdir, eyni zamanda daha böyük əhəmiyyət qazanmışdır. Bu cədvəli makroiqtisadi təhlil sahəsində birinci təcrübə hesab etmək olar. Burada da mərkəzi yeri məcmu ictimai məhsul... haqqında anlayış tutur. Kenenin «İqtisadi cədvəl»i maddi sərvətlərin natura və pul axınlarının siyasi iqtisad tarixində ilk makroiqtisadi cədvəlidir. Bu cədvəldəki ideyalar gələcək iqtisadi modellərin rüşeymidir».

Bir sözlə Fransua Kene makroiqtisadi təhlildə – ictimai məhsulu, milli gəliri, kapital qoyuluşlarını, millətin artmasını və bunlarla bağlı olan iqtisadi problemləri əsas götürmüşdür.

Sonra Karl Marks «Kapital» əsərinin II cildində təkrar istehsalı və iqtisadi artımı tədqiq etmişdir. O göstərmişdir ki, ictimai məhsul iki bölmədən ibarətdir – istehsal vasitələri və istehlak malları. Marks bu iki bölmə arasında natural və dəyər cəhətcə axını və reallaşdırılma şərtlərini hərtərəfli təhlil etmişdir. K.Marks burada iqtisadi sistemi daha vahid-bütöv-böyük şəkildə təsvir etmişdir. Əslində real iqtisadiyyatda yüzlərlə sahələr fəaliyyət göstərir.

Odur ki, ilk dəfə xalq təsərrüfatı, o cümlədən iqtisadi artım barədə model 1923-1924-cü illərdə (Sovet hakimiyyətinin ilk illərində) Dövlət Plan Komitəsi işçiləri tərəfindən hazırlanmışdır. Lakin o dövrdə bu ideyalar o qədər də genişlənə bilməmişdir.

Beləliklə, Amerika iqtisadçısı Vasili Leontyev (1925-ci ildə Rusiyadan Amerikaya getmiş) bütün buk imi modellərdən istifadə edərək «Xərclər-istehsal» modeli yaratmışdır. V.Leontyev riyazi və iqtisadi hesablamalarla milli iqtisadiyyatın əsas maddi və dəyər göstəricilər axınını şaxmat cədvəli formasında təsvir etmişdir. Bu modeldə ayrı-ayrı amillər, məhsullar, informasiya həcmi məhdudlaşdırılmır.

Ümumi-ictimai məhsulun istehsalı və bölgüsü barədə olan sahələrarası balans yüzlərlə sahəni özündə əks etdirir və bir çox ölkələrdə həyata keçirilir. Bu sahələrarası balansın işlənib hazırlanmasına görə müəllif 1973-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatı almış, Lomonosov adına Moskva Dövlət Universitetinin fəxri doktoru və bir çox digər mükafatlara layiq görülmüşdür.

Sahələrarası balans 4 kvadrantdan (dairənin □ hissəsi) ibarətdir.

I hissədə – istehsala sərf olunan maddi xərclər;

II hissədə – qeyri-məhsuldar istehlaka, yığıma və ixraca ayrılan son məhsul göstəriciləri;

III hissədə – xalis məhsul göstəriciləri (əmək haqqı, mənfəət, vergilər və s.);

IV hissədə – xalis məhsulun yenidən bölgüsü təsvir edilmişdir.

Riyazi hesablamalar yolu ilə cəmi məhsula çəkilən xərclərin formalaşdırılması və həmin məhsulun bölgüsü öz əksini tapmışdır. bu göstəricilərdən istifadə edərək hər bir xərc növünün həcmi müəyyən edilmişdir.

Bütün bunlarla yanaşı müasir iqtisadi artım modelləri də yaranmışdır. Bunlar:

1. Keynsin iqtisadi artım modeli.
2. Yeni klassik model.
3.Tarixi-sosioloji model.

Tanınmış ingilis iqtisadçısı Con Meynard Keyns (1883-1946) modelinin məzmunu ondan ibarətdir ki, tələb amilinin rolu ilə makroiqtisadi tarazlıq yaratmaq olar. Daha doğrusu tələbin həlledici elementi olan investisiya –multiplikator vasitəsilə mənfəəti artırır.

Keyns multiplikator nəzəriyyəsində investisiyanın artırılmasının milli gəlirin və məşğulluğun artmasına təsirini tədqiq edir. O, qeyd edir ki, investisiyanın artması nəticəsində istehsala yeni işçiləri cəlb edilir (məşğulluq artır), aydındır ki, gəlir və istehlak da artır. Yenidən investisiyanın artırılması əlavə olaraq məşğulluğu və gəliri artırır.

Multiplikator göstərir ki, əlavə gəlir əlavə investisiyaya nisbətən daha sürətlə artır.

Domar modeli. Amerika iqtisadçısı Evsey Domar (1914 təv.) Keynsin ilk modelindən fərqli olaraq göstərmişdir ki, investisiya yalnız gəlirin artırılmasının deyil, digər yeni elementlərin artırılması amili kimi də çıxış edir. Ardıcıl dinamik olaraq kapital qoyuluşunun artırılması, dinamik olaraq tələb və təklifi balanslaşdırır. Burada E.Domar üç bərabərlikdən istifadə edir:

Təklif bərabərliyi.

Tələb bərabərliyi.

Birgə tələb və təklif bərabərliyi.

Xarrod modeli. İngilis iqtisadçısı Robert Xarrod (1890-1978) Domarın modelini inkişaf etdirərək tarazlı artım üçün gəlirlərin nisbəti ilə kapital qoyuluşunun nisbətini əsas götürdü. Ona görə də bu modeli Xarrod-Domar modeli adlandırırlar. lakin Domar modelində multiplikatordan[1] istifadə əsas götürüldüyü halda, Xarrod Akselerator[2] nəzəriyyəsinə əsaslanmışdır.

İqtisadi artım probleminin şərhində bu kimi digər modellər də mövcuddur.

İqtisadiyyatın dövrü (tsikli) inkişafı

İstər milli və istərsə də dünya miqyasında iqtisadi inkişaf dinamikası iqtisadi artım nəzəriyyəsi ilə yanaşı, iqtisadiyyatın dövrü inkişafı nəzəriyyəsini də özündə əks etdirir. Belə ki, hər

[1] Multiplikator (lat. «çoxaltma, artırılma») –investisiyanın artımının milli gəlirin artımına təsiri.

[2] Akselerator (lat. «sürətləndirmə») – əksinə milli gəlirin artımının investisiyanın artımına təsiri.

iki nəzəriyyə bütövlükdə iqtisadi inkişafın hərəkətinin real vəziyyətini göstərir.

Artım nəzəriyyəsi uzun müddətə tərəqqinin amillərini və şəraitini tədqiq etdiyi halda dövrü inkişaf (tsikl) nəzəriyyəsi iqtisadi fəallığın dəyişilməsi səbəblərini tədqiq edir.

Beləliklə, müəyyən müddət iqtisadiyyatda dinamik inkişaf müşahidə olunduğu kimi, bu dinamik inkişafın müəyyən elementləri arasında əlaqələrin pozulduğu hallar da yarana bilir. Buradan da iqtisadiyyatın inkişafındakı sabitlik, dinamiklik dəyişir – artıb-azalır. **Buna dövrü inkişaf deyilir**.

Deməli, **dövrü inkişaf milli və yaxud dünya iqtisadiyyatının** ümumi hərəkət formasıdır.

Dövrü inkişaf iqtisadi dinamikanın ən zəruri bir amilidir. Makroiqtisadi tarazlığın qanunauyğun səbəblərindən biridir.

Dövrü inkişaf dairəvi (müəyyən çərçivədə) deyil, böyüyən-genişlənən şəkildə baş verir. Bu mənada o mütərəqqi inkişaf formasıdır.

Beləliklə, dövrü inkişaf bir makroiqtisadi tarazlıqdan digər tarazlığa doğru olan hərəkəti göstərir. Faktiki olaraq dövrü inkişaf bazar iqtisadiyyatının özünü tənzimləmə üsullarından biri olub onun sahəvi quruluşunu da dəyişir.

Bəzi iqtisadçılar iqtisadiyyatın dövrü inkişafını və onun iqtisadi artıma təsirini inkar etsələr də bu problemin tədqiqi günün reallığına çevrilmişdir.

İqtisadi inkişafın dövrü xarakteri baxımından da müxtəlif fikirlər mövcuddur.

Məsələn, hələ 1847-ci ildə ingilis iqtisadçısı X.Klark 1793-1847-ci illərdə dünya iqtisadiyyatında uzun müddətə tarazlığın pozulması meylini tədqiq etmişdir. onun həmyerlisi V.Cevons statistika göstəricilərinin təhlili əsasında, qiymətlərin dəyişilməsini təhlil etmişdir.

Bu sahədə K.Marks da hərtərəfli təhlil aparmışdır. Lakin o, əsaslandırırdı ki, iqtisadiyyatda dövrü inkişaf 40-50-100 il deyil, hər 8-10-12 ildən bir baş verir. Marks göstərmişdir ki, hər bir dövrü inkişaf 4 mərhələdən ibarətdir: böhran, durğunluq, canlan-

ma, yüksəliş. Son mərhələ olan yüksəlişdə inkişaf o dərəcəyə çatır ki, yenidən tarazlığın pozulmasına maddi zəmin hazırlanır.

Sonralar N.D.Kondratyev (Peterburq Universitetinin hüquq fakultəsini bitirmişdir) 1920-ci illərdə bu sahədə geniş araşdırmalar apararaq göstərmişdir ki, iqtisadiyyatda tarazlığın pozulması və bərpası uzun dövrü əhatə edir. O, Avropanın iqtisadi inkişafında 100-150 ildəki dəyişiklikləri təhlil etmişdir. Qiymət indeksi, xarici ticarət dövriyyəsi, kömür, qızıl çıxarılması, çuğun əridilməsi və digər bir çox statistika materiallarını təhlil edərək 1928-ci ildə uzun müddətli dövrü inkişaf nəzəriyyəsi yaratmışdır. Kondratyev iqtisadiyyatın enib-qalxmasında aşağıdakı dövrləri ayırmışdır.

yüksəliş	azalma
1789-1814	1814-1849
1849-1873	1873-1896
1896-1920	

Aydındır ki, həmin illərdə iqtisadiyyatın inkişafına təsir edən amillər, ictimai-tarixi hadisələr geniş tədqiq edilmişdir.

Məsələn, ilk dəfələr 1825-ci ildə İngiltərədə sənaye böhranı, 1836-cı ildə metallurgiya, maşınqayırma sahəsində, 1847-1848-ci illərdə ABŞ-da və Avropanın bəzi ölkələrində sənaye böhranı olmuşdur. Sonralar yenə həmin ölkələrdə 1857-1866-cı illərdə, 1873-cü ildə, 1882-1890, 1900, 1907-ci illərdə sənayenin inkişafında dövrü olaraq enib-qalxmalar olmuşdur. 1929-1933-cü illərdə güclü böhranlar qeydə alınmışdır.

1974-1975, 1975-1979-cu illərdə sənaye ölkələrində və eləcə də dünya iqtisadiyyatında dövrü olaraq dəyişiklik özünü göstərmişdir. 1982-ci ildə müəyyən canlanma, 1986-cı ildə isə yenə azalma halları müşahidə edilmişdir. 1990-1991 və 1993-cü illərdə Yaponiyada və Avropanın bəzi ölkələrində istehsalın həcmi aşağı düşmüşdür. Bütün bunlara baxmayaraq dünya üzrə 1970-2000-ci illərdə ÜDM və sənaye məhsulu 2 dəfədən artıq, beynəlxalq ticarət isə 3 dəfəyədək artmışdır.

3. İqtisadi artım və iqtisadiyyatın quruluşunun dəyişilməsi

Aydındır ki, dünya üzrə ümumi məhsulun artımı həm dəyər formasında və həm də maddi-əşya formasında baş verir. Ayrı-ayrı sahələr arasındakı nisbətlər dünya təsərrüfatının quruluşunda əsas rol oynayır. Burada təkrar istehsala cəlb edilmiş bütün ehtiyatlar, texnologiya, müxtəlif sahələrə qoyulan investisiyanın həcmi, əmək ehtiyatları və s.-in bölgüsü, təsərrüfatçılığın təşkili formaları iqtisadiyyatın quruluşunun əsas ünsürlərini təşkil edir.

Dünya təsərrüfatındakı mütənasibliyin (tarazlığın) dəyişməsinin əsas səbəbi dünya üzrə və milli miqyasda olan tələbatın dəyişilməsi ilə izah olunur. Hər bir milli təsərrüfatda və yarımsistemdə istehsal amillərinin nisbəti müxtəlifdir. Bu isə istehsal şərtlərinin müəyyən edilməsində, iqtisadi artımın və istehsalın effektivliyinin yüksəldilməsində böyük rol oynayır. Keçmiş sosialist ölkələri yeni ictimai-iqtisadi sistemə keçdiyinə görə və inkişaf etməkdə olan ölkələrdə az-çox dirçəliş baş verdiyinə görə dünya üzrə ümumi məhsulun quruluşunda dəyişiklik yaranmışdır. Belə ki, DÜÜM-də inkişaf etmiş sənaye ölkələrinin xüsusi çəkisi 1970-ci ildəki 67,7 %-dən 1996-cı ildə 77 %-ə qədər artdığı halda, sosialist ölkələrinin payı 17 %-dən 2,4 %-ə enmişdir. İnkişaf etməkdə olan ölkələrin payı isə həmin illərdə müvafiq olaraq 15,5 % və 20,6 % təşkil etmişlər.

Dünya miqyasında 1970-ci illərdən iqtisadi quruluş dəyişikliklərində yenidənqurma meylləri artmışdır.

1. Bu istiqamətdə aparılan irəliləyişlərdən ən çox gözə çarpanı xidmət dairəsinin genişləndirilməsidir.

Xidmət dairəsi əşya formasında məhsul istehsal etməyən bir çox sahələr kompleksini əhatə edir. Ən geniş mənada bu anlayış altında aşağıdakı sahələri nəzərdə tutmaq olar: **nəqliyyat, rabitə, topdan satış və pərakəndə ticarət xidmət (məişət, işgüzarlıq xidməti, mehmanxana təsərrüfatı), təhsil, səhiyyə, dövlət aparatı, maliyyə-kredit müəssisələrinin işi** və s.

1995-ci ilin məlumatına görə DÜÜM-in 63 %-i xidmət sahələrinin payına düşmüşdür.

Xidmət dairəsində olan bu irəliləyiş inkişaf etmiş sənaye ölkələrində daha çox xarakterikdir. Belə ki, həmin ölkələrdə xidmət dairəsinin xüsusi çəkisi 1970-ci ildə 58 % təşkil etdiyi halda, 1995-ci ildə 66 %, 2005-ci ildə 70 %-ə bərabər olmuşdur. Xidmət dairəsinin xüsusi çəkisinin bu cür artmasına elə belə miqdar baxımından yapışmaq olmaz. Aydındır ki, ilk növbədə həmin sahənin inkişafına, genişlənməsinə investisiya artırılır. İnsanların tələbatlarının, istehlakının quruluşu dəyişir, təkmilləşir. **Maddi tələbatdan daha yüksək tələbat olan mənəvi tələbata,** insanların peşəkarlığına, fiziki inkişafına üstünlük verilir. İstehsal sahələrinin özünə müxtəlif formalarda xidmət göstərilməsi genişləndirilir və s.

2. İqtisadiyyatın quruluşunda dəyişikliyin baş verməsi maddi istehsal sahəsində yaranan dəyişikliklərlə də izah olunur. Burada sənaye sahəsi daha çox üstünlüyə malikdir. 2005-ci ilin məlumatına görə ÜDM-in 30 %-i sənayenin payına düşür. Sənayedə emal sənayesi daha çox üstünlük təşkil edir (sənayenin 77 %-i bu sahənin payına düşür). Məhz emal sənayesi digər sahələrin texniki inkişafını təmin edir. Hasilat sənayesinin xüsusi çəkisi bütün yarımsistemlərdə azalmışdır. İnkişaf etmiş ölkələrdə sənaye məhsulunun 8 %-i, inkişaf etməkdə olan ölkələrdə isə 36 %-i hasilat sənayesinin payına düşür.

70-80-ci illərdə (keçmiş illərdə olduğu kimi) bütün yarımsistemlərdə kənd təsərrüfatının xüsusi çəkisi azalmışdır (ÜDM-in 5 %-i kənd təsərrüfatının payına düşür). Lakin buna baxmayaraq dünyanın bir çox regionlarında kənd təsərrüfatının effektivliyi yüksəlmişdir.

3. Son on illiklərdə xarici ticarətin quruluşu da dəyişmişdir. Burada emal sənayesi məhsulunun xüsusi çəkisi artmışdır. 2004-cü ildə cəmi ixracın 79 %-i, inkişaf etməkdə olan ölkələrdə isə 68 %-i həmin sahənin payına düşmüşdür. Həmçinin qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələr elmtutumlu məhsulların idxalını da artırmışlar.

4. Kapital qoyuluşunun quruluşunda dəyişiklik. Hərtərəfli tədqiqat işlərinin aparılması göstərir ki, məhz iqtisadi artımın səviyyəsi, dinamikası və istiqaməti ETT-nin təkmilləşdirilməsini müəyyən edir. Müharibədən sonrakı dövrlərdə sənaye ölkələrində istehsalın artımının 50-70 %-i texnoloji proseslərdə və yeni əmək alətlərində öz əksini tapan ETT-nin sayəsində baş vermişdir. Texniki tərəqqidə də əsas aparıcı qüvvə istehsal vasitələrinə qoyulan kapital olmuşdur. Texniki tərəqqinin təsiri altında emal sənayesində kapital qoyuluşunun texniki quruluşunda da dəyişikliklər baş vermişdir. Maşın və avadanlıqlara olan kapital qoyuluşu artmışdır. Köhnəlmiş avadanlıqların təzələnməsinə olan yeni kapital qoyuluşu çoxalmışdır. Ekoloci cəhətdən çirkli olan (kimya, metallurgiya, energetika, sellüloz-kağız, sement sənayesi və s.) sahələrin yeniləşdirilməsinə kapital qoyuluşu artırılmışdır.

Beləliklə 70-80-ci illərdə vəsaitin bir qismi bilavasitə öz məqsədinə sərf edilə bilməmişdir. Bəzi ölkələrdə ayrı-ayrı təsərrüfat bölmələrində təbiətin qorunmasına çəkilən xərclər cəmi investisiyanın 16 %-nə bərabər olmuşdur.

İqtisadi təhlilə görə 1975-ci ildə ABŞ-da maddi sahələrə deyil, ətraf mühitə, səhiyyəyə və təhlükəsizlik texnikasına olan vəsaitin artması ümumi əmək məhsuldarlığının artım sürətinin 0,5 % azalmasına səbəb olmuşdur.

Kapital qoyuluşunun quruluşunda ən gözə çarpan əlamətlərdən biri də texnoloji dəyişiklikdir. İnkişaf etmiş sənaye ölkələrində ümumi nəqliyyat və maşınqayırma sahəsinə nisbətən elektrotexnika və elektron maşınqayırma sahəsinə daha çox üstünlük verilirdi.

Kapital qoyuluşunun texnoloji quruluşunda baş verən dəyişikliklər yığımın effektivliyinin artmasına - əmək və maddi məsrəflərin qənaətinə zəmin yaratmış olurdu.

4. Elmi-texniki tərəqqi və iqtisadi artım

Təsərrüfatçılığın yüksəlməsinə və dünya iqtisadiyyatının quruluşuna elmi-texniki tərəqqinin təsiri daha böyükdür. Məhz ETT texnoloji sistemdə dəyişiklik yaradılmasına səbəb

olur. Texniki tərəqqidə baş verən yeniləşmə prosesi bir tərəfdən məhsul istehsalında sərf olunan ehtiyatları azaldır. Digər tərəfdən isə yeni növ məhsul istehsalına və köhnə məhsulun keyfiyyətinin yaxşılaşmasına zəmin yaradır. **Beləliklə ETT-yə texniki və idarəçilikdəki biliyin məcmusu kimi baxsaq, bu biliyin bir hissəsi maşınlarda, bir hissəsi isə insanın bacarığında, idarəçilik metodlarında, təşkilatçılıq qurumlarında öz əksini tapmış olur.** Texniki tərəqqi isə istehsal amili kimi ayrılıqda araşdırılır. Texniki tərəqqi əməktutumlu sahələrdə əməktutumunu, kapitaltutumlu sahələrdə kapitaltutumunu azaldır.

Elmi-texniki tərəqqi və texniki üstünlüklər ilk növbədə "Elmi Tədqiqat təcrübə konstruksiya (ETTKİ) işləri"nə ayrılan vəsaitin həcmindən asılıdır. Dünya miqyasında və xüsusilə inkişaf etmiş sənaye ölkələrində həmin sahəyə ayrılan vəsaitin artım sürəti ümumi məhsulun və bütünlükdə kapital qoyuluşunun artım sürətini qabaqlayır. Deməli yeni texnikaya ayrılan kapital qoyuluşunun artırılma meyli müasir dünya iqtisadiyyatının aparıcı qüvvəsi kimi çıxış edir. ETTKİ üzrə olan xərclər 1980-ci ildəki 208371 mln. dollardan 1990-cı ildə 452590 mln. dollara çatdığı halda, inkişaf etməkdə olan ölkələr üzrə həmin göstəricilər 12571 və 18325 mln. dollar təşkil etmişdir. Dünya miqyasında ETTKİ-üzrə olan xərclərin 94-96 %-i inkişaf etmiş sənaye ölkələrinin payına düşür. Hazırda bu ölkələr həmin sahəyə ayrılan vəsaitin artmasına daha ciddi yanaşırlar. **Hətta ayrı-ayrı ölkələrin müəyyən birliklərə qəbul edilməsində bu göstəricinin xüsusi çəkisi də nəzərə alınır.**

Tarixən uzun müddət elm ilə istehsalın qarşılıqlı əlaqəsi zəif olmuşdur. Hətta XVIII əsrdə istehsalçıların çoxu praktiki yeniliklərə, təcrübəyə, ənənəyə daha çox istinad edirdilər. XIX əsrdə tədqiqatçılar, labaratoriya işlərini artırmağa başlamış, kommersiya xarakterli tədqiqat işləri çoxalmışdır. Belə bir meylin əsası 1878-ci ildə "Bell Telefon Kompaniyası"nın ABŞ-da ilk sənaye labaratoriyası yaratması ilə başlanmışdır.

Bu kimi yeni ideyalar irəli sürən, tədqiqat işləri ilə məşğul olanların bir çoxu fərdi qaydada məşğul olurdu. Məsələn, ABŞ-da 1901-ci ildə cəmi ixtiraların 82 %-i bu cür fərdi ixtira-

çılar tərəfindən həyata keçirilmişdir. Hazırda böyük labaratoriyalarda, mərkəzlərdə, xüsusiləşmiş sahələrdə bu işlərə xüsusi fikir verildiyinə görə bu cür fərdi kəşflər 17 % (1987) təşkil etmişdir. Belə fərdi kəşflərin xüsusi çəkisinin azalmasına baxmayaraq, onların əhəmiyyəti azalmamışdır.

İnkişaf etmiş Qərb ölkələrində ETTKİ-də çalışan hər nəfər tədqiqatçı və mühəndisə düşən vəsaitin həcmi inkişaf etməkdə olan ölkələrdəkindən 4 dəfə artıqdır. Bu cür kəskin fərq başqa ölkələr arasında da mövcuddur. Onu qeyd etmək kifayətdir ki, "iqtisadi əməkdaşlıq və inkişaf təşkilatı" ölkələri üzrə elmi tədqiqat işlərinə cəlb edilən cəmi xərclərin 90 %-i ən böyük "yeddilik" təşkil edən ölkələrin payına düşür (tək ABŞ-43 %). ETTKİ elmi biliklərin vəziyyəti və hərəkəti ilə sıx bağlıdır. Odur ki, ali təhsilin inkişafı ilə ixtisaslı işçilərin hazırlanması arasında da qarşılıqlı əlaqə mövcuddur. Bu baxımdan əlbəttə inkişaf etməkdə olan ölkələr geri qalmaqda davam edirlər.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin yayılması. Nəzəri baxımdan ETT-nin yayılması ümumi xarakterə malikdir. O, xarici ticarət vasitəsilə hazır məhsul kimi, patent və lisenziya alınması, kapitalın birbaşa hərəkəti kimi həyata keçirilir. Yeni texnologiya kəşf edən hər bir istehsalçı onun istifadə edilməsində inhisarçı hüquqa malikdir. Belə ki, dünyanın 700 ən böyük kompaniyası qabaqcıl elmi-texniki yeniliklərin çox hissəsinə nəzarət edir. Məsələn ABŞ-ın elmi-texniki proqramlarının reallaşması üzrə dörd böyük kompaniyası xüsusi bölmə üzrə elmi-tədqiqat təcrübə konstruksiya sahəsinin maliyyələşməsində böyük rol oynayırlar. Ona görə də bu sahədə olan satışın 7-8 %-nə sahiblik imkanına malik olmuşlar.

ETTKİ-in nəticələrini öz əllərində cəmləşdirməyin əsas alətlərindən biri patent sistemidir (bu sənaye mülkiyyətinin tərkib hissəsidir). Belə ki, 80-ci illərdə dünya üzrə hər il qeydə alınmış patentlərin çoxu TMK-ların payına düşürdü. ABŞ-da 1938, 1948, 1952-ci illərdə patentlərin 50-60 %-i kommersiya məqsədlərilə istifadə edilirdi. Britaniyada 1970-ci illərdə patentlərin cəmisi 30 %-i kommersiya məqsədlərinə tətbiq edilmişdir.

5. İqtisadi artımın keyfiyyəti

Müasir şəraitdə dünya iqtisadiyyatında iqtisadi artımın "yeni keyfiyyəti" anlayışı yaranmışdır. İqtisadi artımda bu yeni keyfiyyət aşağıdakı şərtlər zəminində mövcud ola bilər:

- elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsalın keyfiyyətcə yeni maddi bazasının yaradılması;
- iqtisadiyyatın quruluşunun yenidən qurulması, elmtutumlu sahələrə üstünlük verilməsi;
- ehtiyatlara qənaət edə bilən yeni texnologiyanın tətbiqi;
- yüksək inkişaf etmiş infrastrukturanın yaradılması;
- təhsil sistemində islahat aparılması, keyfiyyətcə yeni işçi qüvvəsi hazırlanması.

Demək lazımdır ki, tam şəkildə bu cür yeni keyfiyyətdə iqtisadi artım ancaq inkişaf etmiş ölkələr üçün xarakterikdir. Bu ölkələrdə iqtisadi artımın yeni keyfiyyəti aşağıdakı sosial-iqtisadi proseslərdə təzahür edir:

- iqtisadiyyatın sosial inkişaf meyli güjclənir, istehsalın istehlaka tabe edilməsi genişlənir, xidmət dairəsi artır, səhiyyə və təhsil sistemi daha sürətlə inkişaf etdirilir. Əhalinin həyat səviyyəsinin yüksəlməsinin təmin edilməsi ön plana çəkilir;
- iqtisadi artımın təmin edilməsində elmi-texniki tərəqqiyə daha çox üstünlük verilir;
- iqtisadi artımın son nəticəsi sadəcə olaraq məhsulun həcmi ilə deyil, tələbatın ödənilmə səviyyəsi ilə müəyyən edilir;
- təkrar istehsalda kapitaltutumlu formadan kapitalaqənaət sisteminə keçilməsi baş verir;
- əmək fəaliyyətinin xarakterində köklü dəyişiklik edilir;
- elmin rolu artır, dövlət elmi-tədqiqat mərkəzləri genişlənir. Təhsil sahələrinin istehsalatla əlaqəsi artır, elm sahəsinə çəkilən xərclər artır. Məhz elmin inkişafı iqtisadi artımın yeni keyfiyyətini müəyyən edir.

İqtisadi artımın "yeni keyfiyyəti" anlayışı bir çox hallarda sosial istiqaməti daha çox nəzərdə tutur. Burada:

- əhalinin maddi vəziyyətinin yaxşılaşması;

- şəxsiyyətin inkişafında böyük rola malik olan asudə vaxtın artırılması;
- sosial infrastruktura sahələrinin inkişafına üstünlük verilməsi;
- insanın inkişafına ayrılan investisiyanın artması;
- əmək şəraitinin və insanların həyatının təhlükəsizliyinin təmin edilməsi;
- işləməyənlərin sosial müdafiəsi;
- tam məşğulluğun təmin edilməsi və bu kimi problemlər nəzərdə tutulur.

a) İstehsalın ətraf mühitə təsiri

İqtisadi artım - hər bir ölkənin əsas məqsədidir. Onların ideologiyasından, inkişaf səviyyəsindən asılı olmayaraq əsas məqsəd iqtisadiyyatın inkişafı və əhalinin həyat səviyyəsini yüksəltməkdir. Aydındır ki, bu iqtisadi inkişafda ayrı-ayrı ölkələrin müvəffəqiyyəti müxtəlifdir. Lakin dünya miqyasında çox əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Onu qeyd etmək kifayətdir ki, 1950-1990-cı illərdə dünya əhalisinin sayı 2,1 dəfə artdığı halda, əmtəə və xidmət istehsalının həcmi 5 dəfə yüksəlmişdir. **1990-cı illərdəki dünya təsərrüfatının bir illik istehsal və istehlakının həcmi hazırda 15 günə baş verir.** Lakin məhsuldar qüvvələrin inkişafı, ETT-nin genişlənməsi, sənayeləşmə təbiətin işinə qarışmaq prosesini də gücləndirir.

Hazırda təbii ehtiyatların mənimsənilə bilən hissəsi demək olar ki, tamamı ilə istehlak edilir. Müəyyən hesablamalara görə kənd təsərrüfatına yararlı bütün torpaqların 70 %-i, meşələrin artımının 50 %-i, içməli çay sularının 10 %-i, əsas balıq vətəkələrindəki artımın (hamı üçün münasib olan) 70 %-i istehlak edilir.

Məlum məsələdir ki, torpaqla bağlı olan bütün bu ehtiyatlar məhdud xarakterə malikdir, tükənməz, sonsuz deyildir. Əhali artımı müəyyən dövrlərdə 2 dəfə baş verdiyi halda torpaq sahələri nəinki artmır, əksinə bir qismi dövriyyədən çıxır və yenidən dövriyyəyə qaytarılması üçün əlavə xərc tələb edir. Bəzən torpaqlardan daha **intensiv istifadə edilməsinə ehtiyac**

yaranır, qayalıqlar, erroziyaya uğramış torpaqlar, quru-çatlamış torpaqlar istifadə edilir. Bunların isə məhsuldarlığı çox aşağı olur. Bir çox ölkələrdə və xüsusilə Cənubi Afrikanın 9 ölkəsində yerli biçənəklərin məhsuldarlığı, yem istehsalının həcmi, heyvandarlığın mövcud tələbatından 50-100 % geri qalır.

Ona görə də bir çox hallarda meşələr, əkin yerləri otlaq kimi istifadə edilir. Növbəli əkinçilik həyata keçirilmir. Beləliklə torpağın yaxşılaşdırılması prosesi pozulur. **Bəzi hesablamalara görə dünya üzrə hər il 26 mlrd. ton torpağın üst qatı yuyulur və yaxud külək aparır.**

Torpaqdan düzgün istifadə edilmədiyinə görə hər il 6 mln. hektar torpaq korlanır. Belə vəziyyət ən çoxu Qərbi Afrikanın 7 ölkəsində Saxel (sahil) zonasında (Saxara səhrası) müşahidə olunur. Bu ölkələrdəki meşəsizləşdirmə inkişaf etməkdə olan ölkələrin orta səviyyəsindən 7 dəfə artıqdır.

Torpaq zəmilərinin 16 %-i daha çox pisləşmişdir. Dünya üzrə quru sahənin 25 %-i pisləşmək üzrədir (bu sahə Avropanın cəmi sahəsindən 3 dəfə artıqdır). Beləliklə torpaqların pisləşməsi demək olar ki, 1 mlrd. nəfər adamın (xüsusilə inkişaf etməkdə olan ölkələr üçün) yaşayışı üçün təhlükə yarada bilər. **Müasir şəraitdəki ekoloji sistemdə dünya iqtisadiyyatında balıq təsərrüfatının da böyük rolu vardır.** Hazırda dənizlərdən hər nəfər hesabı ilə təqribən 16 kq diri çəkidə balıq tutulur. Bu heyvandarlıq məhsulları şəklində istehlak edilən zülalların 23 %-ni təşkil edir.

1950-1960-cı illərdə daha çox balıq tutulması nəticəsində 80-ci illərin əvvəllərinə bu cür dəniz məhsulları hazırlanan 17 yer son həddə qədər istifadə edilmiş, 9 sənaye zonası isə tamam gücdən düşmüşdür. Bunlardan biri də ildə 9 mln. ton siyənəyə oxşar xırda balıq hazırlamağa qadir olan Peru balıq vətəkəsidir. Beləliklə balıqçılıq təsərrüfatının düzgün qurulmaması üzündən ildə 9 mln. ton az məhsul əldə edilir.

Ətraf mühit problemində, sənayenin xammalla təmin edilməsində, torpaqların, suların saxlanılmasında, heyvandarlıq və bitkiçilik aləmi üçün sağlam atmosfera və bioloji şərait yaradılmasında meşələrin rolu misilsizdir. Hazırda meşə örtüyünün 60 %-ə

qədəri kəsilibdir. Bu vəziyyət Avropada daha çox gözə çarpır, çünki orada metal əridilməsində meşələrdən istifadə edilmişdir.

Meşələrin hesabına kənd təsərrüfatına yararlı torpaqların, biçənəklərin artırılması həyata keçirilir. 1980-1990-cı illərdə inkişaf etməkdə olan ölkələrdə təbii meşə sahələri 8 % azalmışdır. Beləliklə, insan fəaliyyətinin daha çox artması ilə bioloji enerjinin də çox hissəsi tələbatın ödənilməsinə yönəldilir. Bu isə təbiətin sistem halında bütövlüyünə zərər gətirmiş olur. Ətraf mühitə təsir edilməsi, insanla təbiət arasındakı tarazlığın pozulmasının təzahürlərindən biri hesab olur. Maddi istehsalın təbiətə təsiri o dərəcədə güclüdür ki, onu əvəz etmək üçün bir çox qüvvələrin birləşməsi lazım gəlir. İldə mln. tonlarla müxtəlif tullantılar təbiəti korlayır.

İnkişaf etməkdə olan ölkələrdə bütün xəstəliklərin 80 %-i, ölüm hallarının isə 40 %-dən çoxu çirkli su içilməsindən irəli gəlir. **Çirklənmənin nəticəsidir ki, 1600-cü ildən bəri 100 növdən artıq quş, 45 növdən artıq balıq, 150 növdən artıq bitki sıradan çıxıbdır.** Müharibələr də ətraf mühitə güclü zərər vurur.

b) İstehlak və ətraf mühit

Əvvəlki paraqrafda istehsalın ətraf mühitə təsiri şərh edilmişdir. Bu sualda isə təkrar istehsalın zəruri bir mərhələsi olan istehlak ilə ətraf mühitin əlaqəsi araşdırılır. Həmçinin onu da qeyd etməliyik ki, burada həm məhsuldar istehlak (istehsal istehlakı) həm də şəxsi istehlak nəzərdə tutulur. Burada istehlak dedikdə istehsal sahələrinin hərəkətə gətirilməsi üçün istifadə edilən ehtiyatlar, xammal, avadanlıqlar, enerji, torpaq sahəsi və s.-nin məcmusu, eləcə də şəxsi istifadənin məcmusu nəzərdə tutulur.

Ətraf mühitin pisləşməsinin əsas səbəblərindən biri də istehlakın quruluşudur. Hazırkı sənayeləşmiş iqtisadiyyat yüksək miqdarda materialların, enerjinin istifadə edilməsinə əsaslanır. Ayrı-ayrı ölkələrin iqtisadi vəziyyətinə görə qruplaşdırılmasında da məhz xammal və mineral ehtiyatlardan istifadə edə bilmək qabiliyyəti əsas götürülür.

XIX əsrdə sənayenin inkişafında xammal istehlakı o qədər də yüksək hesab olmurdu (indiki ölçü ilə). Hazırda xammal isteh-

lakına görə ayrı-ayrı ölkələr arasında köklü fərqlər müşahidə olunur. Məsələn, bu gün **hər nəfər yaponiyalı bir nəfər çinlidən 9 dəfə çox polad istehlak edir. Amerikalı öz qonşusu olan meksikalıdan 4 dəfə artıq polad, 23 dəfə çox alüminium istifadə edir. ABŞ-da hər nəfər hesabı ilə kağız istehlakı Latın Amerikasına nisbətən 12 dəfə artıq olmuşdur. İqtisadi hesablamalara görə təkjə ABŞ 1940-cı ildən 1976-cı ilədək (36 il müddətində) istifadə etdiyi (işlətdiyi) mineral xammalın həcmi 1940-cı ilədək** bütün insan cəmiyyətinin istifadə etdiyi mineral xammalın həcmindən çox olmuşdur.

Son yüz illiyin ortalarında Fransa, Almaniya, Böyük Britaniya hər nəfər hesabı ilə istifadə edilən poladı, sement və aliminiumu iki dəfə, kağızı üç dəfə artırmışlar. **Bütünlükdə istehlak edilən poladın 66 %-i, enerjinin isə 75 %-i inkişaf etmiş sənaye ölkələrinin payına düşür. İnkişaf etməkdə olan ölkələrdə hər nəfər hesabı ilə istehlak edilən enerji qərb ölkələrdəkindən 20 dəfə azdır. Afrika ölkələrində hər nəfər hesabı ilə istehlak edilən enerji 1994-cü ildə neft ekvivalenti ilə 305 kq olduğu halda, ABŞ-da 26,2 dəfə artıq - 8000 kq təşkil etmişdir.**

Bütün bunların nəticəsidir ki, atmosferə olan tullantıların yarısından çoxu qərbin sənaye ölkələri tərəfindən həyata keçirilir. **ABŞ-da hər nəfərə 730 kq, Yaponiyada 410 kq məişət tullantısı düşür.** Deməli inkişaf etmiş sənaye ölkələrində daha çox kimyəvi tullantılar yaranır.

Şəxsi istehlak

Aydındır ki, inkişaf etmiş ölkələrdə texnologiyanın vaxtaşırı təkmilləşdirilməsində əsas məqsəd təbiət üzərində hökmranlığa sahib olmaq, vaxt qazanmaq, mənfəəti artırmaq və s.-dən ibarətdir. Bütün bunlar şəxsi istehlakın həcminin və quruluşunun artırılmasına, yaxşılaşdırılmasına zəmin yaratmış olur. İnsanların şəxsi istehlakının artmasına onların sosial nüfuzu, kütləvi şüuru, reklama, ticarət təcrübəsi, evdarlıq işlərinin mexanikləşdirilməsi də təsir edir. Xammala olan tələbin

artmasına ikinci dünya müharibəsindən sonra tələbatın ictimai qaydada ödənilməsi də təsir etmişdir.

Əhalinin çox hissəsi köhnə şeyləri atıb, təzəsini almağa üstünlük verirlər. Bu isə hər il yeni modellər (nümunələr) yaratmağı tələb edir. Çox sadə bir misal çəkək: dünya üzrə hər bir şagird və tələbə bir ədəd qələm yazıb atsa, yeni istehsal üçün 10-15 gündə bəlkə də 1000 tonlarla yeni xammal lazım gələcəkdir. Odur ki, elə bilirik ki, bir çox birdəfəlik istifadə üçün nəzərdə tutulmuş istehlak mallarının istifadə müddətinin artırılması mexanizmi dəyişdirilməlidir. Buradan da təbii ehtiyatlardan istifadə və ətraf mühitin çirklənməsi sürətlənmiş olur.

Şəxsi istehlakın artmasına sosial təzyiq də təsir edir. Bir çox ənənəvi dəyərlər vahid göstərici olan **pul ilə əvəz edilir.**

İstehlaka reklam da az təsir etmir. Hər bir amerikalı yeniyetmə həftədə 3-4 saat televiziya reklamına məruz qalmalı olur. İnkişaf etmiş ölkələrdə ÜDM-in 0,6-0,7 %-i reklam xərclərindən ibarətdir. Fransada bu rəqəm 1,4, ABŞ-da isə 1,5 % təşkil edir.

v) Təbiətdən istifadənin tənzimlənməsi və ətraf mühitin mühafizəsi

İqtisadi hadisə və proseslərin təhlili göstərir ki, hər vasitə ilə iqtisadi mənfəət əldə etməyə cəhd göstərilməsi bir çox hallarda ekoloji sistemə böyük zərər gətirir. Bu isə öz növbəsində milli məhsulun gələcəkdə azalmasına zəmin hazırlamış olur. Hazırda təsərrüfatçılıq nəticəsində Avropa ölkələrində ətraf mühitə dəyən zərər ÜDM-in 3-5 %-nə bərabər götürülür. ABŞ-da həmin zərər ÜDM-in 2,2-2,9 %-nə bərabər olmuşdur.

Bu kimi zərərin artması prosesinin qarşısını iki yolla almaq olar. **1. İqtisadi inkişafın sürətini azaltmaq; 2. İstehsalatın ekologiyaya təsirini azaltmaq tədbirləri.** Aydındır ki, iqtisadi inkişafın sürətini azaltmaq heç bir region üçün sərfəli ola bilməz. Ona görə də ancaq təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, ETT-də təmiz texnologiyanın tətbiqi, tullantıların yenidən işlənməsi və s. cəhətlərə əsaslanmaq tələb olunur.

Ekoloji siyasətin elementləri. Dünyanın bir çox ölkəsində ətraf mühitin qorunmasına dair kompleks proqramlar qəbul edilmişdir. Ekologiya problemi iqtisadi artımın bir ünsürünə çevrilmişdir. 200-dən çox böyük kompaniya öz iqtisadi inkişaf proqramında ekologiyaya daha çox üstünlük verirlər. Ətraf mühitin qorunması məqsədi ilə 80-90-cı illərdə müxtəlif ictimai hərəkatlar yaranmış və genişlənmişdir. Bu hərəkatlardan şəhər **enviroimental** hərəkatı deyilən hərəkat geniş yayılmışdır (enviroimental - ingilis sözündən götürülmüşdür - ətraf mühit deməkdir). Bu anlayış ətraf mühit anlayışından daha genişdir.

Ətraf mühitin qorunması sahəsindəki siyasətin əsas tərkib hissələrindən biri də ekoloji reqlamentləşdirməkdir. Burada hər şeydən əvvəl təbii ehtiyatların istifadəyə verilməsində nizam yaratmaq, bəzi məhsulların istehsalının məhdudlaşdırılması və yaxud dayandırılması, təbiətin mühafizəsinin pozulmasında inzibati tədbirlər və s. nəzərdə tutulur. Ətraf mühitin qorunmasında, tənzimlənməsində ən böyük problemlərdən (tədbirlərdən) biri "tərksilah iqtisadiyyatı" yaradılmasıdır. Qeyd etmək zəruridir ki, dünyanın ən böyük dövlətlərindən biri olan ABŞ, keçmiş SSRİ və bir sıra digər ölkələr kütləvi qaydada hərbi texnika, sursat istehsal edərək qonşularına, müttəfiqlərinə satmaqla özlərinə sabit milli iqtisadiyyat yaratmışlar. Məsələn, SSRİ hər il 12 milyard dollar dəyərində silah ixrac edirdi. Bu mənada yada salmaq lazımdır ki, bəzi ölkələr xüsusilə Skandinaviya ölkələri (Danimarka, İsveç, Norveç, Finlandiya), Yaponiya və s. ölkələr hərbi xərclərin azaldılması yolu ilə çox yüksək iqtisadi artıma nail ola bilmişlər.

Sabit artım konsepsiyası

Ətraf mühit və onun inkişafı barədə yaranmış BMT-nin Baş Assambleyasının Beynəlxalq Komissiyası 1987-ci ildə öz məruzəsini "Bizim ümumi gələcəyimiz" adlandırmışdır. O, iqtisadi siyasətə inteqrasiya əsasında yanaşılmasına daha çox üstünlük verirdi. O, ekoloci cəhətdən təmiz iqtisadiyyat yaradılmasını

sabit inkişaf konsepsiyasının əsası hesab edirdi. Sonrakı illər bu konsepsiyanın məzmunu daha da genişlənmişdi. Bu konsepsiya yalnız ətraf mühiti deyil, maliyyə, sosial, demoqrafiya problemlərini də əhatə edir. Ümid etmək olar ki, sabit inkişaf gələcək nəslə zərər vurmadan, borcları artırmadan cəmiyyətin tələblərini ödəməyə imkan verəcəkdir. Aydındır ki, sabit inkişafa keçilməsi bir çox qarşılıqlı problemlərin həllindən asılıdır.

Sabit inkişaf ancaq siyasi və iqtisadi vasitələrlə təmin oluna bilər. Hər şeydən əvvəl torpaqların eroziyalaşmasının qarşısının alınması, enerjidən istifadənin artırılması, iqlim şəraitinin istiləşməsinə qarşı tədbirlər sisteminə olan kapital qoyuluşu tədbirləri artırılmalıdır. Bütün bunlar beynəlxalq və milli səviyyələrdə islahatlar keçirilməsini tələb edir.

Hazırda daha yeni konsepsiyalar barədə fikirlər irəli sürülür. 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində BMT-nin ətraf mühit probleminə dair konfransı olmuşdur. Konfransda bəyannamə qəbul olunmuş və həmin problemin həlli barədə 27 prinsip müəyyən edilmişdir.

q) İqtisadiyyatın hərbiləşdirilməsi

Dünya üzrə iqtisadi inkişaf son vaxtlaradək təsərrüfatların hərbiləşməsini də xeyli artırmışdır. Belə ki, dünya üzrə hərbi xərclər 80-ci illərdə 2 dəfə artaraq 1 trilyon dollardan çox olmuşdur.

Hərbi-silahlı qüvvələrin sayı 29[1] mln. nəfər (11 mln. inkişaf etmiş ölkələr, 18 mln. inkişaf etməkdə olan ölkələr) təşkil edirdi. Müdafiə ilə bağlı hərbi sahədə işləyənlərin sayı 60-80 mln. nəfərə çatırdı. Hərbi xərclər cəmi xərclərin orta hesabla 5 %-nə bərabər idi.

1990-cı illərdə dünyadakı geosiyasi dəyişiklik və Varşava müqaviləsinin dağılması ilə hərbi xərclər xeyli azalmışdır. ÜDM-2,8 %-inə bərabər olmuşdur, hərbi istehsalda işləyənlər isə 17,5 mln. nəfərdən 11,1 mln. nəfərə enmişdir (1995). Aydındır ki, hərbi xərclərin artması iqtisadi inkişafa təsir edir. Bir çox maddələrə görə hərbi xərclər digər xərcləri qabaqlayır, iqti-

[1] В.К.Ломакин. Мировая экономика. Москва, 1998, ст.294.

sadiyyatın hərbiləşdirilməsinə zəmin yaradır. Son vaxtlar hərbi sahədəki tədqiqat işlərinə çəkilən xərclər bütünlükdə tədqiqat məqsədinə olan xərclərin 26 %-nə, cəmi hərbi xərclərin isə 10 %-nə bərabər olmuşdur. Bütün dünya üzrə olan mühəndis və alimlərin 25 %-ə qədəri bu sahədə cəmlənibdir. Aydındır ki, böyük sənaye ölkələri öz hərbi xərclərinin bir qismini müxtəlif növ silah satmaqla ödəməyə nail olurlar.

6. İqtisadi artım və sosial tərəqqi

İqtisadi artım istər kəmiyyət və istərsə də keyfiyyət baxımından sosial tərəqqi ilə qarşılıqlı əlaqədə olub, onun əsasını təşkil edir. Məhz iqtisadi artım məhsuldar qüvvələrin artırılması yolu ilə insan cəmiyyətinin hərtərəfli inkişafına təsir edir.

Hər bir cəmiyyətdə maddi nemətlərin artırılması ilə yanaşı cəmiyyətin sosial inkişafına da maddi zəmin yaradılır. İngilis iqtisadçısı A.Smit hələ XVIII əsrdə yazırdı ki, əhalisinin böyük bir qismi aclıq şəraitində yaşayan heç bir ölkə özünü çiçəklənmiş və bəxtəvər hesab edə bilməz. Beləliklə, iqtisadi artımda əsas məqsəd elə belə təsərrüfatçılıq nailiyyətləri olmayıb, son nəticədə insanın inkişafına zəmin yaratmaqdan ibarətdir. hər bir cəmiyyətdə istehsalın son məqsədi insanla bağlıdır. Beləliklə, insan məhsuldar qüvvələrin inkişaf amili olmaqla yanaşı, həm də istehsala münasibətlərinin və bütün digər ictimai münasibətlərin əsas subyektidir. Odur ki, bütövlükdə cəmiyyətin və iqtisadi artım probleminin də əsas məqsədi insanın hərtərəfli inkişafını təmin etməkdən ibarətdir.

Beləliklə, iqtisadi artım problemini tədqiq edən bir çox iqtisadçılar burada sosial, iqtisadi və siyasi amillərin qarşılıqlı götürülməsinə üstünlük vermişlər. Məsələn, **BMT-nin «Sosial inkişaf tədqiqat institutu»** 1970-ci ildə «Sosial inkişafın kompleks indeksi» təklifini vermişdir. İndeks 16 göstəricini özündə birləşdirirdi (9 sosial, 7 iqtisadi göstərici). Bunlar:

- gözlənilən ömür müddəti;
- şəhər əhalisinin xüsusi çəkisi;

- gündəlik istehlak olunan zülallar (heyvan mənşəli);
- ibtidai və orta təhsilli əhalinin xüsusi çəkisi;
- öz ixtisası üzrə işləyənlərin məşğulluq səviyyəsi;
- bir otaqda yaşayanların orta sayı;
- hər min nəfərə düşən qəzetlərin sayı;
- iqtisadi fəal əhalinin xüsusi çəkisi;
- elektrik enerjisi qaz və təmiz sudan istifadə edə bilmək səviyəsi;
- bir nəfər (kişi qisminə) hesabı ilə istehsal edilən kənd təsərrüfatı məhsulunun həcmi;
- kənd təsərrüfatında işləyənlərin tərkibində kişilərin xüsusi çəkisi;
- ÜDM-də emal sənayesinin xüsusi çəkisi;
- hər nəfər hesabı ilə xarici ticarətin həcmi;
- muzdla işləyənlərin xüsusi çəkisi və s.

1987-ci ildə Vaşinqton Komitəsi əhali artımı böhranı problemi barədə «Beynəlxalq uğursuzluq indeksi» dərc etdirmişdir. Burada da bir çox göstəricilər əsasında ayrı-ayrı ölkələrdə əhalinin həyat şəraiti təsvir edilmişdir. Bunlardan:

- gəlirlərin səviyyəsi;
- inflyasiya səviyyəsi;
- yeni iş yerlərinə olan tələb;
- şəhərlərə axın dərəcəsi;
- uşaq ölümü faizi;
- qidalanmanın xarakteri;
- təmiz içməli su ilə təmin olunma;
- elektrik enerjisindən istifadə dərəcəsi;
- yaşlı əhalinin savadlılıq dərəcəsi;
- şəxsiyyət azadlığı səviyyəsi və s.

Həmin dövrdə bu göstəricilərə görə ən qeyri-qənaətbəxş vəziyyət Mozambik, Anqola və Əfqanıstanda, daha qənaətbəxş vəziyyət isə İsveçrə, Almaniya və Lüksemburqda qeydə alınmışdır. Aydındır ki, vaxt keçdikcə vəziyyət dəyişir və dövlətlərin yeri də dəyişir. Bütün bu göstəricilər bilavasitə əhalinin həyat şəraitini göstərməklə onlarda sosial proseslərin meydana gəlməsinə səbəb olur.

İnsanların yemək, geyim, mənzil və s. kimi zəruri tələbatlarının ilk növbədə ödənilməsi ilə iqtisadi artım cəmiyyətin real imkanlarını genişləndirir ki, bu da ümumi rifaha səbəb olur. Zəruri tələbat ödənilməkdən sonra tələbat sadədən mürəkkəbə doğru dəyişir. Sadə həyat nemətlərindən nisbətən mürəkkəb, müasir nemətlərə olan tələbat yaranır. Bu da insanların fizioloji və mənəvi təkmilləşdirilməsi ilə bağlıdır.

İnsanların ictimai rifahının müəyyən edilməsi üçün «Ümumi rifahın iqtisadi indeksi»ndən istifadə edilir. Bu indeks xalis şəxsi istehlak elementlərinə əsaslanır. Ümumi bölməyə aid olan səhiyyə və təhsil sistemindən fərqli olaraq investisiya, hərbi xərclər, yanğın mühafizəsi, milis sistemi və s. bu indeksə daxil edilmir.

Yunan iqtisadçısı K.Zolotas 1950-1977-ci illərin materialları əsasında ABŞ-da «Ümumi rifahın iqtisadi indeksi»ni hesablamışdır. O, belə nəticəyə gəlmişdir ki, həmin dövrdə ÜDM üzrə illik orta artım 3,4 %, indeks artımı isə 2,2 % olmuşdur.

Bu problemin şərhində gəlirlərin bölgüsü, əmlak qeyri-bərabərliyi, ölkələr arasında kəskin fərqin olması və s. kimi xüsusiyyətlər müşahidə olunur.

İqtisadi artım ilə sosial tərəqqinin qarşılıqlı götürülməsi nəticə etibarilə insan inkişafına geniş yol açmış olur.

BMT-nin inkişaf proqrammı (BMTİP) insan inkişafı haqqında

BMT yarandığı vaxtdan hər bir insanın inkişafına zəmin yarada biləcək yüzlərlə tədbirlər sistemi həyata keçirmişdir. Nəhayət 1990-cı ildə BMT-nin inkişaf proqrammı (BMTİP) çərçivəsində «İnsan inkişafı haqqında məruzə» dərc edilmişdir. Həmin vaxtdan etibarən insana həsr olunan hər bir beynəlxalq tədqiqat ilbəil nəşr edilir. Bu ilk məruzədə əsas məqsəd ondan ibarət olmuşdur ki, bütövlükdə ictimaiyyətin və xüsusilə bu sahənin tədqiqi ilə məşğul olan mütəxəssislərin insan inkişafına dair diqqətini daha da artırsın. Burada yalnız hər nəfərə düşən gəlirin həcmi deyil, bir çox digər amillər əsas götürülür.

«İnsan inkişafı barədə məruzə»də göstərilmişdir ki, «insan inkişafı onun seçim imkanlarının genişlənməsi prosesi deməkdir». Deməli insan seçiminin genişlənməsi onun imkanlarının genişlənməsi əsasında baş verə bilər. Hər bir seçimin də müəyyən həddi olmalıdır. Aydındır ki, vaxt dəyişdikcə seçimin ölçüsü-həddi də dəyişir.

Cəmiyyətin bütün inkişaf mərhələlərində «insan inkişafı» və yaxud «insan potensialının inkişafı» sahəsində üç əsas seçim imkanı ön plana çəkilir:

- uzun ömür yaşamaq;
- sağlam həyat tərzinə və ləyaqətli yaşayışa malik olmaq;
- mövcud ehtiyatlardan istifadə və bilik əldə etmək imkanına nail ola bilmək.

Bu əsas tələbatlar ödənilmədən bütün digər imkanlar demək olar ki, əlçatmaz olur.

Lakin «insan potensialı inkişafı» daha geniş anlayışdır. Burada cəmiyyətin siyasi, iqtisadi, sosial həyatında insanların yaradıcılığı, məhsuldar iştirakı, hər cürə qabiliyyətlərinin reallaşdırılması, şəxsi ləyaqəti, cəmiyyət qarşısında ictimai borcunun ödənilməsi və digər bir çox cəhətlər əks olunur.

Bütövlükdə insan potensialı inkişafı prosesi öz növbəsində müəyyən qlobal problemlərin həlli ilə həyata keçirilə bilər.

Bunlardan:

1. **İnsan hüququnun gözlənilməsi**. İnsan potensialının inkişafı prosesi ancaq onların sosial, mədəni, etnik, siyasi və vətəndaşlıq hüquqlarının reallaşdırılması yolu ilə həyata keçirilə bilər. insan bir çox bacarıqlarını ancaq vətəndaşlıq və siyasi hüquqları çərçivəsində reallaşdıra bilər.

Onu da qeyd etməliyik ki, BMT-nin Baş assambleyası **1948-ci ildə** (dekabr ayının 10-da) insan hüququ barədə Ümumi Bəyannamə qəbul etmişdir. Orada göstərilmişdir ki, **«hər bir insan özünün və ailəsinin sağlam yaşayışı üçün yemək, geyim, mənzil hüququna, tibbi və sosial xidmətlərdən istifadə hüququna malik olmalıdır. hər bir insanın təhsil almaq, sosial təminat və əmək hüququ vardır»**. Sonrakı beynəlxalq tədqiqatlarda da bu

kimi müddəalarla yanaşı insanın təhlükəsizliyi hüququ, müəyyən proseslərdə iştirakı hüququ, ayrı seçkilik hüququna məruz qalmaması məsələləri göstərilmişdir.

2. İctimai rifahın gözlənilməsi. Şəxsi rifah ilə ictimai rifah qarşılıqlı vəhdəd halında götürülməlidir. Bu isə ümumi tərəqqi naminə nemətlərin ədalətli bölgüsünə əsaslanır.

3. Bərabərlik prinsipinin gözlənilməsi. Burada yalnız maddi nemətlərin bərabər bölgüsü nəzərdə tutulmur. Bütün digər hüquqlarda da – təhsil, səhiyyə xidməti sahəsi, siyasi hüquq, qadın və kişi hüququ bərabərlikləri və s. nəzərdə tutulur.

4. Dözümlülük prinsipi. Müxtəlif dini baxışlara, mədəniyyətə, dilə malik olan insanlar biri-birinə hörmətlə yanaşmalıdırlar.

5. Təbiətə hörmət və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi də insan inkişafında böyük rola malikdir.

Onu da qeyd etməliyik ki, «İnsan inkişafı barədə məruzə»də insan potensialının inkişaf səviyyəsini **müəyyən etmək üçün insan potensialı inkişafı indeksi (İPİİ) və yaxud insan inkişafı indeksi (İİİ)** göstəricisindən istifadə edilməsi də qərarlaşdırılmışdır.

Bu göstərici heç də insan potensialı inkişafını tam əhatə edə bilmir. Buna baxmayaraq hər halda insan potensialının perspektiv inkişafı barədə və eləcə də ayrı-ayrı ölkələrdəki vəziyyət barədə müəyyən təsəvvür yaradılmasına imkan verə bilir.

Burada əsasən ümumi şəkildə üç göstərici istifadə edilir:

1. Ömür müddəti.
2. Təhsil səviyyəsi.
3. Həyat səviyyəsi.

Bir çox ölkələr üzrə həmin göstəricilərin təhlilindən aydın olur ki, hər nəfərə düşən ÜDM-in həcmi artıq olan ölkələrdə bir qayda olaraq ömür müddəti yüksək, orta oxumaq müddəti də artıqdır.

Bu qanunauyğunluğu aşağıdakı cədvəldən də aydın görmək olar.

İnsan inkişafının əsas göstəricilərinin dinamikası[1]

	Adambaşına düşən ÜDM-in həcmi az olan ölkələr	Adambaşına düşən ÜDM-in həcmi orta səviyyədə olan ölkələr	Adambaşına düşən ÜDM-in həcmi yüksək olan ölkələr
Gözlənilən ömür müddəti: 1995	63	68	77
Gündəlik istehlak olunan k.kalori: 1995	2331	2834	3398
Yaşlı əhalinin savadlılıq %: 1995	66	72	89

Hər nəfərə düşən ÜDM-in həcmi ilə orta ömür müddəti arasındakı qanunauyğunluğu ayrı-ayrı ölkələrin misalında da görmək olar.

Cədvəl

Hər nəfərə düşən ÜDM-in həcmi və ömür müddəti yüksək olan bəzi ölkələr (2004)

	Ölkələr	ÜDM, dollar	Ömür müddəti, il
1	Norveç	54391	78,7
2	Niderland	54391	78,3
3	İsveçrə	47866	79,6
4	İrlandiya	45750	76,8
5	Danimarka	45000	76,0
6	ABŞ	39045	77,1
7	İsveç	38834	79,6
8	Yaponiya	36290	80,7
9	Böyük Britaniya	35447	77,7
10	Avstraliya	35380	79,8

[1] Ломакин В.К. Мировая экономика. Учебник. Москва, 1998, səh. 321.

Hər nəfərə düşən ÜDM-in həcmi və ömür müddəti az olan bəzi ölkələr

	Ölkələr	ÜDM, dollar	Ömür müddəti, il
1	Syerra-Leone	160	37,5
2	Uqanda	295	41,4
3	Çad	371	47,7
4	Qvineya	514	46,5
5	Ruanda	200	42,1
6	Burundi	233	47,2
7	Toqo	450	50,1
8	Mozambik	253	46,9
9	Zambiya	430	43,0
10	Burkina-Faso	382	46,0

Hər iki cədvəldəki göstəricilərdən aydın olur ki, hər nəfərə düşən ÜDM-in həcmi ilə ömür müddəti arasında birbaşa qanunauyğunluq vardır. Aydındır ki, qabaqcıl ölkələrdə istehlakın (xüsusilə ərzaq mallarının) quruluşunda da köklü fərq vardır.

Bütün bunlarla yanaşı qeyd etməliyik ki, hər nəfərə düşən ÜDM insan potensialının inkişafına təsir edən yeganə amil deyildir. insanın tələbatının ödənilməsi bir çox amillərdən asılıdır. Maddi tələbat mənəvi tələbat, sosial tələbat və s.

Deməli, xalis iqtisadi-maddi tələbatdan əlavə hər bir insanın aşağıdakı tələbatları da ödənilməlidir:

1) asudə-sərbəst vaxta olan tələbatın ödənilməsi;

2) sərbəst fəaliyyət, intellektual və mənəvi inkişafa zəmin yaradılması;

3) hər cürə təhsilin genişləndirilməsi;

4) insanın fiziki qabiliyyətlərinin təkmilləşdirilməsi;

5) ictimai vəzifələrin yerinə yetirilməsi üzrə ictimai tələbatın ödənilməsi;

6) fəal istirahət etmək və insanlarla ünsiyyət saxlamaq imkanlarına zəmin yaradılması və s.

Bütün bu kimi maddi, mənəvi, sosial və digər tələbatların ödənilməsi insan şəxsiyyətinin formalaşmasına zəmin yaradır.

Beləliklə, insanın hərtərəfli inkişafına, yaradıcılıq qabiliyyətlərinin təkmilləşdirilməsinə, təhsilinə, ixtisas dərəcəsinin artırılması və s. çəkilən xərclər **«insandan ibarət kapital»** yaradır.

Adətən kapital dedikdə avadanlıqlar, binalar, qurğular, dəzgahlar, fabrika, zavod, traktor və s. nəzərdə tutulur. **«İnsandan ibarət kapital»** dedikdə insanın inkişafına qoyulan investisiya nəzərdə tutulur.

Onu da qeyd etməliyik ki, insanın intellektual potensialının qiymətləndirilməsi və ölçülməsi problemi «nəzəri iqtisad» elminin formalaşdırılması dövründə alimlərin diqqətini cəlb etmişdir. Hələ XVII əsrdə ingilis iqtisadçısı Ü.Petti (1623-1687) İngiltərənin milli sərvətini 217 mln. funt sterlinq, əhalinin özünü isə 417 mln. f.st. qiymətləndirmişdir. İngilis iqtisadçısı A.Smit (1723-1790) bu ideyanı inkişaf etdirərək bilik və ixtisası da maşın və torpaq kimi cəmiyyətin əsas kapitalı hesab edirdi. Karl Marks da yazırdı ki, əhali sərvətdir.

Beləliklə, müasir **«nəzəri iqtisad»** elmində də **«insan kapitalı»** anlayışı çox geniş istifadə edilir. Demək olar ki, inkişaf etmiş ölkələrdə elmi-texniki proseslərin təsiri altında yaranmış insan kapitalı ideyasının formalaşması elə özlüyündə elmi-texniki inqilab Adı almışdır.

1960-cı illərdə Amerika iqtisadçısı T.Şults bu problemi hərtərəfli tədqiq etmişdir. 1992-ci ildə isə Amerika iqtisadçısı Q.Bekker «insan kapitalı» nəzəriyyəsi barədə tədqiqat işinə görə Nobel mükafatı almışdır. Bu sahədə irəli sürülən nəzəri müddəaların əksəriyyətində fikir birliyi ondan ibarətdir ki, insanın inkişafına sərf edilən investisiya daha çox gəlir gətirir. Buradan da **K.Marksın «Kapital öz-özünə artan dəyərdir» və yaxud «Kapital - dəyər gətirən dəyərdir» ifadəsini insandan ibarət kapitala daha çox aid etmək olar**.

Odur ki, son dövrlərdə insandan ibarət kapitalın maliyyələşməsinə olan diqqət daha çox artmışdır. Son on illiklərdə xüsusilə inkişaf etmiş qabaqcıl ölkələrdə insan kapitalının əsası olan təhsil (xüsusilə ali təhsil) sahəsinin inkişafına daha çox maliyyə vəsaiti ayrılmışdır.

Cədvəl

Ali təhsilə ayrılan vəsait
(ÜDM-ə nisbətən %-lə, 2000)

		Dövlət xərci	Xüsusi bölmə üzrə	Cəmi
1	ABŞ	4,8	2,2	7,0
2	Fransa	5,7	0,3	6,0
3	Avstraliya	4,6	1,3	5,0
4	Almaniya	4,2	1,1	5,3
5	Böyük Britaniya	4,5	0,6	5,1
6	Yaponiya	3,6	1,2	4,8

Onu da qeyd etməliyik ki, son illərdə bir çox ölkələrdə əmək qabiliyyəti yaşı 16-18 yaş deyil, 22-25 yaş hesab edilir. Bu yaşda insanlar ali təhsil də ala bilirlər.

Hazırda bəzi ölkələrdə «ömür boyu oxumaq» sistemi daha çox yayılmışdır. Amerika iqtisadçıları belə hesab edir ki, hər bir işçi orta ixtisas dərəcəsi almaq üçün ən azı 13-14 il oxumalıdır. Bu kimi işçilərə çəkilən təhsil haqqı ən azı 350 min dollar təşkil edir.

Bu mənada heç bir mütəxəssisin xaricə getməsi öz ölkəsi üçün sərfəli deyildir.

Hesablamalara görə xaricə işləməyə gedən hər bir mütəxəssisin müqabilində onun ölkəsi 300-400 min dollar zərər çəkmiş olur.

Odur ki, hər bir ölkənin milli sərvətində insandan ibarət kapital da ayrıca tədqiq edilir. Savadlıların, mütəxəssislərin, alimlərin sayı çox olan ölkələrdə insan kapitalının xüsusi çəkisi də artıqdır.

Bütövlükdə daha ümumiləşdirilmiş formada milli sərvətin tərkibi aşağıdakı kimi təsvir edilir.

Cədvəl

Dünya üzrə milli sərvətin həcmi (XXI əsrin əvvəlinə)

Qrupp dövlətlər	Milli sərvət	O cümlədən, kapitalın növləri, trln. doll.			
		cəmi, trln. dol.	hər nəfərə düşən min dol.	İnsan Kapitalı	təbiətdən hasil olan kapital	təkrar bərpa olunan kapital
Dünya üzrə	550	90	365	90	95
«Yeddilər» və Aİ	275	360	215	10	50
OPEK ölkələri	95	195	45	35	15
MDB ölkələri	80	275	40	30	10
O cümlədən, Rusiya	60	400	30	24	6
Sair ölkələr	100	30	65	15	20

Cədvəl

Bəzi ölkələrdə insan kapitalının qiymətləndirilməsi
(XXI əsrin əvvəli)

	İnsan kapitalı	
	Cəmi, trln. doll.	Milli sərvətə nisbətən, %-lə
Dünya üzrə	365	66
«Yeddilər» və Aİ	215	78
ondan: ABŞ	95	77
OPEK ölkələri	45	47
MDB ölkələri	40	50
O cümlədən, Rusiya	30	50
Sair ölkələr	65	65
O cümlədən, Çin	25	77
Braziliya	9	74
İndoneziya	9	75
Meksika	8	77
Hindistan	7	58
Pakistan	4	80

Cədvəldəki göstəricilərdən aydın olur ki, demək olar ki, bütün ölkələrdə insan kapitalı milli sərvətin əsasını təşkil edir. MDB ölkələrində və Rusiyada insan kapitalının xüsusi çəkisinin az olması onların intellektual səviyyəsinin aşağı olmasını deyil, təbii ehtiyatların (təbiət kapitalının) zənginliyini göstərir.

XIII FƏSİL
BEYNƏLXALQ TEXNOLOGİYA MÜBADİLƏSİNİN İNKİŞAFI

1. *Beynəlxalq elmi-texniki mübadilə – BİM-in bir formasıdır.*
2. *Beynəlxalq texnologiya mübadiləsinin əsas formaları (kanalları).*
3. *Dünya texnologiya bazarı: onun quruluşu və müasir vəziyyəti.*
4. *Beynəlxalq texnologiya mübadiləsi və hüquq normaları.*

1. Beynəlxalq elmi-texniki mübadilə BİM-in bir formasıdır

Müasir dövrün BİM-ri sistemində texnologiyanın beynəlxalq mübadiləsi iqtisadi münasibətlərin spesifik bir forması kimi çıxış edir.

Texnologiyanın beynəlxalq mübadiləsi dedikdə – müəyyən elmi-praktiki əhəmiyyətə malik olan elmi-texniki fəaliyyətin istifadə edilməsi üzrə yaranan iqtisadi münasibətlərin məcmusu nəzərdə tutulur.

Ümumiyyətlə, «texnologiya» anlayışının məzmununda üç əsas qarşılıqlı cəhət öz əksini tapır: **istehsalın** fiziki və kimyəvi xassələri ilə bağlı olan biliklər; **müvafiq əmək** alətləri ilə əmək cisimlərinə təsir etmək üsulu barədə olan biliklər; **əmək prosesinin** texniki-iqtisadi təşkili və onun idarə edilməsi sahəsində olan biliklərin məcmusu. Deməli texnologiya – praktiki məqsədə çatmağın elmi metodudur.

Bütün bu kimi bilikləri özündə əks etdirməklə «texnologiya» anlayışı özünəməxsus bir funksional rola malikdir. O, elmlə istehsalın qarşılıqlı əlaqəsində ara həlqə təşkil edir.

Beləliklə, texnologiyanın beynəlxalq mübadiləsi vasitəsi ilə elmi-texniki nailiyyətlərin dünya miqyasında yayılması prosesi baş

verə bilir. Deməli, elmi-texniki tərəqqinin ümumdünya xarakteri almasında texnologiya mübadiləsi ən zəruri bir amil rolu oynayır. BMT-nin beynəlxalq sənədlərində «texnologiya» anlayışı daha yığcam-ymumi şəkildə aşağıdakı iki cəhəti özümdə əks etdilir:

1. Əmtəə istehsalı və xidmətlər göstərilməsində konstruktor qərarlarının, metod və proseslərinin yığımı (toplanması).

2. Avadanlıq, maşınlar və s. şəklində maddiləşmiş, əşyalaşmış əmək.

Texnologiya anlayışında adətən 3 qrup texnologiya nəzərdə tutulur: məhsulların texnologiyası, istehsal proseslərinin texnologiyası və idarəçilik texnologiyası.

Beləliklə, beynəlxalq iqtisadi münasibətlərin obyekti olmaqla texnologiya digər obyektlərdən fərqlənir. Onun yaradıcısı bazarda daha üstün mövqeyə malikdir. Bu üstünlük özünü istər istehlak dəyərində və istərsə də dəyərdə göstərə bilər.

İstehlak dəyəri baxımından yeni texnologiyanın istehlakı prosesində yeni daha mütərəqqi məhsul yaradılır. İkinci halda isə – yəni dəyərin əsas götürülməsində məhsulun istehsal xərclərinə qənaət etmək imkanı əldə edilir. Hər iki halda texnologiyanın sahibi (onu yaradan) əlavə gəlir əldə edə bilir. Həmçinin texnologiyanın sərbəst yayılmasına maneəçilik edir. Bununla da təşkilatı formasına görə texnologiya mübadiləsi digər əmtəələrin mübadiləsindən fərqlənir.

İqtisadi münasibətlərin obyekti olan texnologiyanın ilkin daşıyıcısı insandır – işçi qüvvəsidir. Tarixən məhz insanlar öz istehsal fəaliyyətləri ilə müəyyən bilik, təcrübə, yenilik əldə etmişlər. Bu yeniliklər zənginləşmiş formada bir nəsldən digərinə verilmişdir. Aydındır ki, bu yeniliklər (texnologiya) o vaxt əmtəə forması **almamışdır**. Maşınlı texnikanın tətbiqindən sonra əmək prosesi dəyişmişdir.

İşçilərə peşəkarlıq öyrədilir, ixtisasları artırılır, yeni istehsal metodları verilir, bütün bunlara əlavə xərc çəkilir və s. Bütün bunlar texnologiyanın əmtəə kimi mübadiləsinin başlanğıcını qoymuş olur.

Lakin aydındır ki, işçi qüvvəsi hələ əşya – cism forması almamışdır. Hazırda da texnologiyanın belə mübadiləsi (əşya halı almaması) qalır. Bu da əsasən iki xarakterik cəhətlə səciyyələnir:

1. Müasir dövrdə «texnologiya» anlayışının məzmunu dəyişmişdir. Onun daşıyıcısı hər cür işçi qüvvəsi deyil, ancaq yüksək ixtisasa malik olan hissəsidir.

2. İşçi qüvvəsində öz əksini tapan texnologiyanın verilməsi forması daha geniş xarakter almışdır. Ənənəvi öyrətmədən başqa birgə tədqiqat işləri aparılır, elmi konfranslar keçirilir, müasir elektron kommunikasiya sistemindən istifadə edilir və s.

Texnologiya mübadiləsinin digər daşıyıcıları başqa istehsal amilləridir. Məsələn, beynəlxalq ticarətdə yüksək texnoloji əmtəələr: kapital kimi – təbii ehtiyatların satışı, torpaqda müəyyən axtarış, qazıntı və s. aparılmasında yüksək texnologiyadan istifadə edilməsi zərurəti və s.

Müasir dövrdəki texnologiya mübadiləsi və eləcə də bu sahədə yaranan iqtisadi münasibətlər uzun bir inkişaf dövründən sonra formalaşmışdır. Elm, texnika və istehsalat müəyyən inkişaf mərhələlərindən keçmiş, inqilabi dəyişikliklər baş vermişdir.

Uzun müddət elm və iqtisadiyyat (istehsal) qarşılıqlı sürətdə deyil, biri-birindən ayrı vəziyyətdə inkişaf etdirilmişdir. Hətta XVIII əsrdə belə istehsalçılar elmi biliklərə deyil, praktiki təcrübəyə, ənənəyə əsaslanmağa üstünlük verirdilər.

O vaxtlar bir çox kəşflərin olmasına baxmayaraq təbii hadisələrə maraq daha üstün idi. XVIII-XIX əsrin əvvəllərində yeni texnologiyanın sahibləri yaranmış maliyyə çətinlikləri üzündən eləcə də istehsalın və bazarın vəziyyəti ilə bağlı olaraq öz kəşflərini satırdılar. Ancaq XIX əsrin ikinci yarısından elmlə istehsalatın qarşılıqlı inkişafına real baza yaranırdı.

Kommersiya məqsədi ilə tədqiqatçılar laboratoriyalar yaradaraq məqsədyönlü işləri və araşdırmaları artırırdılar. Belə bir meyl mlk əvvəllər – 1878-ci ildə «Bell Telefon Kompaniyası» ABŞ-da sənaye laboratoriyasının əsasını qoymuşdur.

Fərdi laboratoriyaların sayı sürətlə artırdı.

Hətta hazırda da fərdi laboratoriyaların rolu azalmamışdır.

Lakin onların sayı azalmışdır. Belə ki, məsələn ABŞ-da 1901-ci ildə cəmi təqdim edilmiş patentlərin 82 %-i fərdi ixtiraçıların payına düşdüyü halda, bu göstərici 1987-ci ildə 17 % olmuşdur.

Hazırda tədqiqatların və müəyyən təkmilləşdirilmə işlərinin əsas hissəsi müəssisə laboratoriyalarında, dövlət təşkilatlarında, universitetlərdə həyata keçirilir.

Beləliklə, texnoloji inkişaf iqtisadiyyatın inkişafının əsas amillərindən birinə çevrilmişdir.

XX əsrin ortalarından isə texnologiyanın müəssisələr arasında deyil, ayrı-ayrı dövlətlər arasında satışı artmağa başlanmışdır.

XX əsrin 50-ci illərindən ETT-nin inkişafında yeni mərhələ başlanmışdır. **Bu prosesin nəticəsi olaraq BƏB-in quruluşunda köklü dəyişiklik baş vermiş və BİM-in yeni forması olan beynəlxalq elmi-texniki mübadilə (BETM) yaranmışdır.**

BMT-nin məlumatına görə dünya miqyasında hazırda 60 mindən çox texniki və elmi curnal çıxır ki, bu jurnallarda nəşr olunan elmi məqalələrin sayı 1,3 milyondan artıqdır. Bu məqalələrin cüzi bir hissəsi belə yeni fikir yaradıcılarını əks etdirsə, yenə də texnoloji inkişafa zəmin yaranır.

Beləliklə, fundamental elmlər üzrə biliklərin həcmi 8-10 ilə, tətbiqi elmlərdə isə 5 ilə iki dəfə artır- yeniləşir.

Aydındır ki, bütün bunlar böyük maliyyə vəsaiti hesabına baş verir. Elmi biliklərin həcmində olduğu kimi elmi-tədqiqat təcrübə konstruksiya işlərinə (ETTKİ) ayrılan vəsaitin həcmi də 7-10 ilə iki dəfə artırılır. Bu göstərici dünya miqyasında və eləcə də hər bir ölkənin iqtisadi inkişafını xarakterizə edən əsas keyfiyyət göstəricilərindən biridir. Dünya miqyasında bu vəsaitin həcmi 1980-ci ildəki 208370 mln. dollara qarşı 1990-cı ildə 452590 mln. dollar təşkil etmişdir. Hazırda bu vəsait 600,0 mlrd. dollardan artıqdır.

1996-cı ildə təkcə ABŞ, Yaponiya, Almaniya, Fransa, Böyük Britaniya və İtaliya üzrə bu vəsaitin həcmi 365 mlrd. dollara bərabər olmuşdur. Həmin ölkələrdə bu vəsaitin artım sürəti ÜDM-in artım sürətini qabaqlayır.

Digər mütərəqqi sahələrdə olduğu kimi burada da inkişaf etmiş sənaye ölkələrinin xüsusi çəkimi daha artıqdır. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

Cədvəl

Dünya üzrə ETTKİ-nə olan xərcin cəmi

	Elmi işçilər və mühəndislər, min nəfər	ETTKİ üzrə cəmi xərclər, mln. dol.	ÜDM-də xüsusi çəkisi, %-lə
Dünya üzrə			
1980	3920,8	208370	1,85
1990	5223,6	452590	2,55
İnkişaf etmiş sənaye ölkələri			
1980	3452,2	195798	2,22
1990	4463,8	434265	2,92
İnkişaf etməkdə olan ölkələr			
1980	468,6	12571	0,52
1990	759,8	18325	0,64

Cədvəldə gətirilən materiallardan aydın olur ki, bu sahədə xərclənən vəsaitin əsas hissəsi 94-96 %-i inkişaf etmiş sənaye ölkələrinin payına düşür.

ETTKİ-nin inkişafı elmi biliklərin vəziyyəti və hərəkəti ilə, ali təhsilin inkişafı ilə, yüksək ixtisaslı işçilərin mövcud olması ilə qarşılıqlı əlaqədədir.

BİM-in obyekti kimi texnologiyanın beynəlxalq mübadiləsinin zəruriliyi və inkişafı bir çox şərtlərlə izah olunur.

Məsələn, ölkə səviyyəsində yanaşdıqda qeyd etməliyik ki, dünya təsərrüfatında ayrı-ayrı dövlətlər də elmi-texniki sahədə qeyri-bərabər inkişaf mövcuddur. Bir çox ölkə ETTKİ-nə kifayət qədər vəsait ayıra bilmir. İnkişaf etmiş sənaye ölkələri

yeni texnologiya ilə öz istehsal aparatını modernləşdirdikləri halda, inkişaf etməkdə olan ölkələrdə texnoloji geriliyin aradan qaldırılması öz sənayelərinin yaradılması, öz daxili tələbatlarının ödənilməsi nəzərdə tutulur.

2. Beynəlxalq texnologiya mübadiləsinin əsas formaları

Ümumiyyətlə, texnologiyanın beynəlxalq hərəkəti və yaxud verilməsi dedikdə, elmi-texniki nailiyyətlərin dövlətlərarası hərəkəti nəzərdə tutulur. İqtisadi münasibətlərin obyekti kimi bu elmi-texniki yeniliklər bir neçə formada və müxtəlif kanallarla dövlətlər arasında yayılır.

Ümumi şəkildə bu yayılma iki formada həyata keçirilir:

1. Kommersiya əsasında.
2. Qeyri-kommersiya yolu ilə.

Kommersiya yolu dedikdə texnologiyanın hansı şəkildə olmasından asılı olmayaraq onu alan razılaşdırılmış qiymətlərlə müəyyən məbləğ pul ödəyir.

Qeyri-kommersiya yolu dedikdə dövlətlərarasında pul ödəmələri (öhdəlikləri) nəzərdə tutulmur. Burada:

- elmi-texniki yazışmalar, nəşrlər, elmi-texniki ədəbiyyatlar, müəyyən məlumatlar barədə kompüter yaddaşı, sorğu kitabları, təlimatlar və s.;
- beynəlxalq konfranslarda, sərgilərdə, seminarlarda alimlərin, mütəxəssislərin şəxsi görüşü, xaricə ezam edilmə, stajirovka və s.;
- «beyin axını» adlanan formada alimlərin və mütəxəssislərin xaricə getməsi və s.

Hazırda elmi-texniki biliklərin və yaxud texnologiyanın mübadiləsinin ən çox yayılmış forması **beynəlxalq lisenziya satışıdır**. Buna patent[1] – lisenziya[2] razılaşmaları da deyilir.

[1] Patent (lat.) - kəşf, ixtira üçün verilmiş hüquqi sənəd.

[2] Lisenziya (lat.)- icazə, ixtira, kəşflərdən texnologiyadan istifadə edilməsi barədə icazə.

Hər hansı bir dövlət, müəssisə öz kəşfi barədə olan məlumatı digər ölkəyə, taşkilata satır. O dövlətə bu kəşfi-texnologiyanı istifadə etmək hüququ verir. bu da bir neçə formada həyata keçirilə bilər: müəyyən müddətə onu alan başqasına verə bilməmək şərti, srəbəst istifadə etmək, tam vermək və s.

Son onilliklərdə lisenziya formasında olan beynəlxalq ticarət (xüsusilə inkişaf etmiş ölkələr arasında) əmtəə satışına nisbətən daha sürətlə artmışdır. Belə ki, 1960-1980-ci illərdə lisenziya satışının həcmi 12 dəfə, 2000-ci ilə isə 10 dəfə çoxalmışdır. Dünya lisenziya ixracının 99 %-i, idxalın isə 85 %-i inkişaf etmiş ölkələrin payına düşür.

İnvestisiya üzrə əməkdaşlıq şəraitində, yeni texnika və texnologiya formasında lisenziya satışı daha sürətlə artır.

Lisenziya razılaşmalarının 80 %-ə qədəri xüsusilə sənaye firmaları arasında həyata keçirilir. İri kompaniyalar öz rəqabət qabiliyyətini saxlamaq üçün lisenziya almağa üstünlük verirlər. Hər bir ixtira üçün verilən patent hüququnun müddəti adətən 15-20 ilə nəzərdə tutulur. Lakin son dövrlər ETT-nin təsiri artdığına görə belə müddət azalaraq 5-7 ilə çatdırılmışdır.

Texnologiyanın beynəlxalq mübadiləsinin lisenziya formasında həyata keçirilməsinə çox üstünlük verilir. İqtisadi hesablamalara görə ETT-nin inkişafı üçün xaricdən lisenziya almaq yolu ilə ETTKİ-nə ayrılan xərcləri 4-5 dəfə azaltmaq mümkündür.

Həmin lisenziyaların tətbiqi nəticəsində əldə edilən iqtisadi fayda isə onun alınmasına çəkilən xərclərdən 10 dəfədən də artıq olur.

1970-ci illərin ortalarında dünya miqyasında lisenziya ödəmələri – yəni lisenziyanın istifadəsi üçün onun sahibinə olan ödənişlər 7 mlrd. dollar olduğu halda, 1990-cı illərin ortalarına 60 mlrd. dollar təşkil etmişdir. Hazırda bu göstərici 100 mlrd. dollardan artıqdır.

Lisenziya ödəmələri bir neçə formada həyata keçirilə bilər:

- **Royalti**[1] **– müqavilə müddətində** ardıcıl olaraq lisenziyanın istifadəsindən əldə edilən mənfəətdən ödəniş nəzərdə tutulur (müqavilənin şərtinə əsasən illik, rüblük, aylıq və s.). Adətən məhsul satışından 3-5 % ayrılır. İxrac üçün məhsul istehsal etdikdə bu faiz dərəcəsi yüksək olur.
- **Pauşal**[2] **ödənişi** – müqaviləyə əsasən istifadə vaxtından asılı olmayaraq lisenziyanı aldığı vaxtdan razılaşdırılmış məbləğ bir dəfəlik ödənilir. Bu cür ödəmə kompleks halında avadanlıq göndərilməsinə tətbiq edilir. Avadanlıqların dəyəri də texnologiyaya əlavə edilir. xaricdən ödəmələrin müəyyən çətinliyi olduğu üçün birdəfəlik ödəniş tələb olunur.
- **Birləşdirilmiş – uyğunlaşdırılmış ödəniş**. Bəzən razılığa əsasən lisenziya qiymətinin 10-15 %-i birdəfəlik Pauşal qaydada, qalanı isə dövrü olaraq royalti qaydasında ödənir.
- **Mənfəətdə iştirak etmək qaydasında**. Razılığa əsasən lisenziyanı satan onu alana bəzi kommersiya hüququ verir. O da kommersiyadan əldə etdiyi mənfəətin müəyyən hissəsini lisenziya satana ödəməli olur - bu mənfəətin 10-30 %-i çərçivəsində ola bilər.
- **Mülkiyyətdə iştirakına görə**. Lisenziyanı alan öz müəssisəsinin səhmlərinin bir qismni lisenziya verənə ödəniş kimi verir. O da istər-istəməz mülkiyyətçi kimi çıxış edir. bu növ ödənişi TMK-lar təklif edir, bu yol ilə lisenziya verdikləri müəssisələrə nəzarət edə bilirlər.

Texnologiya mübadiləsi problemində intellektual fəaliyyətin məhsulu olan «nou-xau»nun verilməsi-ötürülməsi də xüsusi əhəmiyyət əksb edir.

Nou-xau – anlayışının ingiliscə hərfi mənası – «**bilirəm necə etməli**» deməkdir. Bu anlayış ilk dəfə ABŞ-da 1916-cı ildə məhkəmə prosesində işlədilmişdir. BİM-də (lisenziya müqaviləsi kimi) texniki-iqtisadi sahədə, istehsalat təcrübəsi, texnologiyanın mənimsənilməsi sahəsində olan bütün biliklərin məcmusudur.

[1] Royalti (ing.)- müqavilə müddətində ardıcıl olaraq ödənmə.
[2] Pauşal (alman) – topdan (toplu).

Nou-xau qeyri-maddi formada da mövcud ola bilər. Məsələn, hər hansı bir müəssisənin mütəxəssislərinin biliyi, təcrübəsi, istehsal prosesinin mənimsənilməsi imkanlarının başqalarına çatdırılması.

Nou-xau patentlə mühafizə edilmir. Nou-xau elmi-texniki və iqtisadi dəyər kimi qiymətləndirilir.

Nou-xau-sxem, təlimat, istehsalın təşkili sxemi, texnoloji proseslərin səciyyələnməsi və s. kimi sənədləşmə formasında həyata keçirilir. Bütün lisenziya müqavilələrinin 50 %-ə qədəri nou-xau müqaviləsinin payına düşür.

Texnologiya mübadiləsində «Françayzik»[1] deyilən qaydada tətbiq edilir. bu qaydada böyük firmalar özünəməxsus olan «əmtəə nişanələrini» digər kiçik firmalara istifadə etmək icazəsi verirlər.

- **Lizinq adlanan formada maşın və avadanlıqların** uzun müddətə icarəyə verilməsi nəzərdə tutulur.

İcarənin 1 illiyə verilməsi rentiq, 1 ildən 3-5 iləd*ək verilməsi* xayrinq adlanır.

- **İnjiniring**[2] alınmış və ya icarə edilmiş maşın, avadanlıq və s. istifadəni asanlaşdırmaq üçün müəyyən texniki biliklərin (məlumatların) verilməsidir.

Bütün qeyd etdiklərimizlə yanaşı, əlbəttə digər mübadilə formaları da mövcuddur.

Eləcə də beynəlxalq mübadilənin müxtəlif kanallarla həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Hazırda hər hansı bir yeniliyin, eləcə də texnologiyanın yayılmasında əsas kanallardan biri birbaşa xarici investisiya hesab edilir. Birbaşa investisiya yolu ilə xarici ölkələrdə istehsal prosesləri həyata keçirilir. bu prosesdə sahibkar kapitalı çox vaxt pul formasında deyil, daha məhsuldar texnologiya formasında ixrac edilir. Bununla yanaşı yüksək ixtisaslı işçi qüvvəsinin gətirilməsi də həyata keçirilir. Bu işçi heyəti yerli işçilərin öyrədilməsinə köməklik göstərirlər. Həmçinin investisiya edilən ölkəyə zəruri sənədlər də gətirilir. Bütün bu elementlər texnologiyanın daşıyıcısı hesab edilir. Bu proses TMK-larla onların filialları arasındada geniş aparılır. Onu qeyd etmək kifayətdir ki, 1985-2000-ci illərdə TMK-da ancaq texnologiyanın firmadaxili hərəkətindən əldə edilən ödəmələrin həcmi, cəmi texnologiyadan olan ödəmələrin Almaniyada 73-85; ABŞ-da 70-74; Yaponiyada – 65-85 %-ni təşkil etmişdir. Texnologiyanın yayılmasında bu birbaşa investisiya adlanan kanalın müəyyən özünəməxsus cəhətləri də mövcuddur. Beləki, sahibkarlıq kapitalının təqribən 80 %-ə qədəri inkişaf etmiş sənaye ölkələri arasında hərəkət edir. Ona görə də beynəlxalq texnologiya mübadiləsinin çox hissəsi də həmin ölkələrin özləri arasında həyata keçirilir. Bununla yanaşı BİM sistemində inkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatı ölkələrinin mövqelərinin xeyli yaxşılaşmasına baxmayaraq xarici kapital qoyuluşunun və texnologiyanın cəlb edilməsində inkişaf etmiş sənaye ölkələri ilə rəqabətə girə bilmirlər. Bu yarımsistem ölkələr xarici kapitalın cəlb edilməsinə görə çox məhdud vəziyyətdədirlər. Onu qeyd etmək kifayətdirki həmin yarım sistemə daxil olan ölkələrə. Birbaşa xarici kapital axınının 70 %-ə qədəri ancaq on ölkəyə ayrılmışdır – Argentina, Braziliya, Venesuela, Hindistan, İndoneziya, Çin, Malayziya, Meksika, Polşa və Çili. Məhz elə ona görə də bu ölkələrin iqtisadi inkişafında da müəyyən irəliləyişlər özünü göstərir. Qalan ölkələr isə birbaşa xarici investisiya yolu ilə beynəlxalq texnologiya mübadiləsinə o qədər də qoşulmamışlar.

Bu sahədə yaranan BİM-lər bir çox hallarda hər bir ölkənin xarici ticarət və investisiya siyasətindən asılı olur. Belə ki, onlar daxili bazarın qorunması məqsədi ilə himayədarlıq siyasəti yeritdikdə, yüksək gömrük dərəcələri müəyyən etdikdə, xaricdən nisbətən köhnə və yüksək effektivliyə malik olmayan texnologiya almalı olurlar. Sərbəst açıq iqtisadiyyatın inkişafı üçün xarici ticarət və investisiya siyasətində isə müasir texnologiyaya əsaslanan ixrac məhsulları istehsalına üstünlük verilir.

[1] Françayzik (ing.)- hüquq, icazə.

[2] İnjiniriq (lat.) kommersiya əsasında müqavilə ilə mühəndis-məsləhət xarakterli kompleks xidmət göstərmək, tədqiqat işləri aparmaq, texniki-iqtisadi hesablamalar hazırlamaq və s.

Beynəlxalq Strateji İttifaq (Birlik). Beynəlxalq texnologiya mübadiləsinin həyata keçirilməsində əsas kanallardan biri də TMK-rın birlikdə fəaliyyətidir. Aydındır ki, son on illiklərdə dünya təsərrüfatında TMK-lar daha geniş yayılmışdır. Bir çox hallarda birgə istehsala dair, elmi-texniki kooperasiya və eləcə də məhsul satışına dair firmalararası strateji razılaşmalar həyata keçirilir. Bu prosesdə öz müstəqilliyini saxlamaq şərti ilə müxtəlif ölkələrin kompaniyaları öz elmi və istehsal potensiallarını birləşdirmək imkanı əldə edirlər. Bu cür ittifaq yaratmaqla, firmalararası kooperasiya yolu ilə onlar yeni məhsul növləri istehsal etmək və eləcə də elmtutumlu məhsulların istehsal xərclərini azaltmağa nail ola bilirlər. Beynəlxalq strateji ittifaq (alyans) yaradılmasının əsas iştirakçıları inkişaf etmiş sənaye ölkələrinin TMK-rı hesab edilir.

Burada yeni nəsl qaz turbinləri istehsal etmək məqsədi ilə Amerikanın «Ceneral Elektrik» və Yaponiyanın «Toşiba» şirkətləri arasında, avtomobil istehsalı sahəsində Almaniyanın «Daymler-Bens» və Yaponiyanın «Nisan-Motor» şirkətləri arasında, yeni mikrosxem sahəsində tədqiqat işləri aparılmasında ABŞ-ın «İBM», Yaponiyanın «Toşiba», Fransanın «Tomson» və Almaniyanın «Simens» şirkətləri arasındakı birgə razılaşmaları misal çəkmək olar. İnkişaf etməkdə olan ölkələrin firmaları ilə bu cür strateji ittifaqlar yaradılması hələ o qədər də geniş yayılmayıbdır. Məsələn, kompüter texnologiyası sahəsində elmi-texniki kooperasiya yaradılmasında Amerikanın «İBM», Cənubi Koreyanın «Samsunq» və «San» şirkətləri arasında strateji ittifaq mövcuddur.

Beynəlxalq ticarət. Burada beynəlxalq ticarət barədə geniş fikir söyləmək məqsədimiz yoxdur, çünki bu barədə başqa bölmələrdə daha geniş məlumat verilmişdir. Son illərin məlumatına görə texnologiya satışı təqribən ildə 2,0-2,5 trln. dollar təşkil edir. 1990-2003-cü illərdə qabaqcıl texnologiyanın həcmi Yaponiyada – 5- %, Almaniyada – 2 dəfə artmışdır. ABŞ-ın qabaqcıl TMK-larının texnologiya ötürmələri nəticəsində əldə etdikləri gəlir 1981-ci ildə – 7,3; 2003-cü ildə – 50; 2005-ci ildə 70 mlrd. dollara bərabər olmuşdur.

Bütünlükdə BİM-in inkişafında beynəlxalq ticarətin rolu böyük olduğu kimi, yeni texnologiyanın ötürülməsində də Beynəlxalq Ticarət daha ənənəvi kanal hesab edilir. Məhz idxal və ixrac vasitəsilə insanlar yeni istehsal metodlarını öyrənir, yeni biliklər əldə edirlər. **Müasir məhsul növlərinin idxalı maddiləşmiş, əşyalaşmış texnologiyadan başqa bir şey deyildir.** Eləcə də ixrac üçün məhsul istehsal edilməsində bir çox beynəlxalq standartlara əməl edilməsi kimi tələblər istər-istəməz yeni istehsal metodları barədə müəyyən biliklərə yiyələnməyə zərurət yaradır.

Beləliklə, son onilliklərdə beynəlxalq ticarətdə müasir texnologiyaya daha geniş yol açılması sabit artımla müşahidə edilir.

Əvvəla, **dünya üzrə əmtəə** ticarətinin quruluşunda köklü dəyişiklik baş vermişdir. Belə ki, 1970-ci illərdə cəmi əmtəə ixracında yüksək texnoloji məhsulların xüsusi çəkisi 11 % olduğu halda, son 10 ildə bu göstərici 2 dəfə artaraq 1990-cı ilin ortalarına 22 % təşkil etmişdir. Bəzi inkişaf etmiş sənaye ölkələrində isə bu daha artıq olmuşdur. Məsələn, 1997-ci ildə həmin göstərici Yaponiyada 36 %, Böyük Britaniyada 34 %, Niderland və ABŞ-da 31 %, İsveçdə 27 %, İsveçrədə isə 26 % olmuşdur.

2005-ci ildə ABŞ-ın cəmi ixracı 2 trln. dollara yaxındır. Odur ki, onun 31 %-i də yüksək çəkiyə malikdir. Dünya miqyasında texnologiya satışında ABŞ liderlik edir. Cəmi texnologiya satışının 65-70 %-i onun payına düşür. Bu mənada ABŞ – Böyük Britaniya, İtaliya, Almaniya, Fransa və Yaponiyanı 10-20 dəfə qabaqlayır. ABŞ-ın texnologiyası əsasında xaricdə istehsal olunan cəmi sənaye məhsulu onun əmtəə ixracından 2,5 dəfə artıqdır. Qabaqcıl ölkə olmalarına baxmayaraq Yaponiya, İtaliya, Argentina, Tailand daha çox idxalçı kimi çıxış edirlər. Yaponiyada xarici lisenziya əsasında olan istehsalın həcmi 30,7 %, Almaniyada isə 10 % təşkil edir.

İşçi qüvvəsinin beynəlxalq hərəkəti də texnologiya mübadiləsinin beynəlxalq kanallarından biri kimi çıxış edir. Burada beynəlxalq işçi qüvvəsinin miqrasiyası yolu ilə müasir istehsal metodlarına yiyələnə bilmək işçi qüvvəsinin mənsub olduğu

ölkə üçün və eləcə də işçi qüvvəsini qəbul edən ölkələr üçün əhəmiyyət kəsb edir.

Bir qayda olaraq milli kadrlar qabaqcıl texnologiya ilə tanış olmaq üçün xaricə müvəqqəti ezam edilir. Məsələn, İkinci Dünya müharibəsindən sonra Marşal planına əsasən Qərbi Avropadan 20 min nəfərədək adam ABŞ-a göndərilmişdir. Onlar ABŞ-ın qabaqcıl kompaniiyalarında müasir istehsal və idarəçilik metodları ilə tanış olmaq imkanı əldə etmişlir. hazırda da belə bir proses inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatı ölkələri üçün xarakterikdir.

İnkişaf etməkdə olan ölkələrdən 1 mln. nəfərdən artıq adam inkişaf etmiş sənaye ölkələrinin universitetlərində tam kurslar və eləcə də ixtisasartırma kursları keçmişlər. Bütün bunlarla yanaşı ABŞ, Kanada və Qərbi Avropanın bir çox ölkələrində daimi işləmək üçün yüksək ixtisaslı işçilər də gedirlər. İnkişaf etmiş sənaye ölkələrindən isə digər yarımsistem ölkələrə daimi işləməyə gedən mütəxəssislər demək olar ki, yoxdur. Ancaq Yaxın Şərqin neft çıxaran ölkələri XX əsrin axırlarından özünə yüksək ixtisaslı mütəxəssislər cəlb edir ki, bunlar da əsasən yenə də inkişaf etməkdə olan ölkələrdəndir. İnkişaf etmiş sənaye ölkələrindən gələnlər çox az müddətdən sonra qayıdırlar. Hər halda Yaxın Şərqin neft çıxaran ölkələrinə gələn cəmi yüksək ixtisaslı işçilər dünya miqyasında həmin kateqoriyadan olan işçilərin miqrasiyasının az bir hissəsini təşkil edir. 1990-cı illərdən sonra SSRİ-nin dağılması ilə əlaqədar olaraq keçid iqtisadiyyatı ölkələrindən də miqrantların və o cümlədən, yüksək ixtisaslı işçilərin miqrasiyası artmışdır. Rusiyadan xaricə gedən elm və təhsil adamlarının sayı orta hesabla ildə 2 min nəfər təşkil edir. Bütünlükdə Rusiya özünün dünya standartları səviyyəsində olan mütəxəssislərinin 40 %-ni itiribdir. YUNESKO-nun məlumatına görə Rusiyadan olan «beyin axını» ölkəyə ən azı **30 mlrd. dollar** zərər vurubdur.

Azərbaycandan da xaricə və, xüsusilə, Türkiyəyə gedən elm adamlarının, Rusiyanın neft çıxarılan rayonlarında çalışan neft mütəxəssislərinin sayı az deyildir.

Beynəlxalq texniki yardım. Bütünlükdə BİM-lər sistemində 1961-ci ildə yaradılmış İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının (İƏvəİT) böyük rolu vardır. Bu təşkilatın qarşısında duran əsas problemlərdən biri də ayrı-ayrı sahələr üzrə mövcud olan komitələr (qurumlar) vasitəsi ilə bu təşkilatın üzvü olan 29 ölkənin inkişaf etməkdə olan ölkələrə texniki yardımının vəziyyətini öyrənib təhlil etməkdir.

Texniki yardım dedikdə adından göründüyü kimi heç də texnika verilməsi nəzərdə tutulmur. Bu bir neçə səpkidə həyata keçirilir. Burada əsasən yardım edilən ölkənin əhalisinin təhsil səviyyəsinin artması, istehsal yeniliklərinin, müasir metodların mənimsənilməsi sahəsində edilən köməkliklər nəzərdə tutulur. Peşəkar kadrların hazırlanması, onlara texniki biliklər verilməsi, bu biliklərin əməli işdə tətbiqi bacarığının artırılması və s. sahələrdə edilən yardım nəzərdə tutulur.

Bu qeyd etdiklərimizdən aydın olur ki, beynəlxalq **texniki** yardım da texnologiyanın daşıyıcısı olan ixtisaslaşdırılmış **işçi** qüvvəsinin formalaşdırılmasına xidmət edir. **Beləliklə, beynəlxalq texniki yardım beynəlxalq texnologiya mübadiləsinin bir forması kimi istifadə edilir.**

Beynəlxalq texniki yardım ikitərəfli və çoxtərəfli əsaslarla həyata keçirilir.

İkitərəfli texniki yardım dövlət tərəfindən kapital ixrac edilməsinə əsaslanır. Bu proses köməklik edən ölkə ilə köməklik göstərilən ölkələr arasında olan dövlətlərarası razılığa əsaslanır. Bu yardım inkişaf etməkdə olan ölkələrə olan ümumi «inkişafa yardımı»nın tərkib hissəsidir (bu ümumi «inkişafa yardım»da texniki yardımla yanaşı iqtisadi, ərzaq, humanitar və s. yardımlar da mövcuddur). İnkişaf etmiş sənaye ölkələrinin bu ikitərəfli razılıq əsasında göstərdiyi texniki yardım son 20 ildə cəmi «inkişafa yardım»ın 30 %-nə qədərdir. Adətən belə yardım investisiya fəaliyyətindən əvvəl göstərilir. Bu isə kömək göstərilən ölkələrdə sahibkarlıq kapitalının genişlənməsi imkanını artırır. Deməli, beynəlxalq texniki yardımdan sonra birbaşa xarici investisiya fəaliyyəti başlanır. Belə bir

mexanizm müasir texnologiya verilməsi baxımından xarici investisiyanın effektivliyini daha da yüksəldir.

Praktiki olaraq ikitərəfli texniki yardım konkret layihələr üçün verilir. Belə layihələr 1-3 və 4-5 illiyə nəzərdə tutulur. Bu layihələrdə nəzərdə tutulan komponentlər aşağıdakılardan ibarətdir: əsas heyət; kadr hazırlığı komponenti; götürə iş komponenti; avadanlıq və köməkçi xərclər komponenti. Eləcə də təşkilati komponentlər üzrə də xərclər mövcuddur. Bunlar: köməklik göstərilən ölkələrə mütəxəssislərin ezam edilməsi; tədqiqat işləri aparılmasına yardım edilməsi; köməklik göstərən ölkələrin tədris müəssisələrində (həmin ölkələrdən gələn) ixtisaslı mütəxəssislər hazırlanması; bu ölkələrə avadanlıqlar və müəyyən ədəbiyyatlar göndərilməsi.

Onu da qeyd etməliyik ki, bütün bü köməkliklər «iqtisadi əməkdaşlıq və inkişaf təşkilatı» tərəfindən, «inkişafa yardım Komitəsi – 21» və inkişaf etmiş sənaye dövlətləri tərəfindən həyata keiçrilir.

Çoxtərəfli texniki yardım isə öz vəzifə çərçivələri dairəsində beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir. Bu yardımda maliyyə vəsaitlərinin formalaşdırılmasında inkişaf etmiş sənaye ölkələrinin də böyük rolu vardır. Bütün bunlarla yanaşı bu yardım üçün inkişaf etməkdə olan ölkələrin və eləcə də keçid iqtisadiyyatı ölkələrinin üzvlük haqqları da bura daxildir.

Beynəlxalq texniki yardımın həyata keçirilməsində BMT sistemi təşkilatlarının və regional beynəlxalq təşkilatların və beynəlxalq fondların da payı az deyildir.

Yardımın planlaşdırılması, vəsait toplanması və yardım proqramının həyata keçirilməsi üçün xüsusi təşkilatlar və idarələr yaradılır.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və BMT-nin inkişaf Proqrammı (PrOON) çoxtərəfli texniki yardım göstərilməsinə daha geniş cəlb edilmişlər. Texniki yardımın xeyli hissəsi də Aİ-nin texniki köməklik üzrə xüsusi proqrammı çərçivəsində həyata keçirilir.

3. Dünya texnologiya bazarı. Onun quruluşu və müasir vəziyyəti

Bütün qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olur ki, son dövrlərdə başqa istehsal amilləri kimi texnologiya sahəsində də idxal və ixracın həcmi genişlənir. Bu isə istər-istəməz dünya texnologiya bazarının yaranmasını şərtləndirir. **Bu bazarın əsas subyektləri – dövlətlər, şirkətlər, universitetlər, müəyyən fondlar, alimlər və mütəxəssislərdən** ibarət fiziki şəxslərin məcmusunu əks etdirir. **Dünya texnologiya bazarının** obyektləri isə intellektual mülkiyyət hesab edilir. Daha doğrusu intellekt, insanın əşyalaşmış əmək məhsulları olan müxtəlif avadanlıqlar, alətlər, texnoloji xətlər, qurğular, hissələr və eləcə də (əşyalaşmamış müxtəlif cür texniki sənədlər, bilik, təcrübə və s.) dünya texnologiya bazarının obyektləridir.

Dünya texnologiya bazarını öz quruluşuna görə aşağıdakı kimi xarakterizə etmək olar:

1. **Patent və lisenziyalar verilməsi**. 1990-cı illərdə bu formada həyata keçirilən satışın həcmi 30 mlrd. dollara bərabər olmuşdur.
2. **Elmtutumlu və texnoloji** tutumlu məhsullar bazarı.
3. **Yüksək texnoloji** kapital bazarı.
4. **Elmi-texniki mütəxəssislər** bazarı.

Dünya texnologiya bazarının bütün bu seqmentlərində son on illiklərdə **ABŞ, Yaponiya, Böyük Britaniya, Almaniya və Fransa daha aparıcı rola malikdirlər**. Beynəlxalq texnologiya mübadiləsinin **60 %-i** həmin ölkələrin payına düşür.

Bütünlükdə isə dünya texnologiya bazarının **90 %-i inkişaf etmiş sənaye ölkələrinə** məxsusdur.

Dünya texnologiya bazarının sahəvi quruluşunda isə dünya üzrə lisenziya satışının (kommersiya əməliyyatlarının) **19 %-ni elektrotexniki və elektron sənayesi, 18 %-ni ümumi maşınqayırma sənayesi, 17,4 %-ni kimya sənayesi, 10,2 %-ni nəqliyyat maşınqayırma sənayesi təşkil edir**.

Onu da qeyd etməliyik ki, hazırda bəzi sahələrin inkişafı yeni texnologiyadan daha çox asılıdır. Məsələn, beynəlxalq texnologiya mübadiləsinin emal sənayesinin inkişafına olan təsiri bütünlükdə iqtisadiyyata nisbətən **3 dəfə artıqdır**.

Müasir şəraitdə formalaşmış dünya texnologiya bazarı bir çox cəhətləri ilə səciyyələnir:

1. **Dünya texnologiya bazarı bütünlükdə** dünya iqtisadiyyatının intellektuallaşma səviyyəsini artırır.

2. **Dünya texnologiya bazarında TMK-lar** aparıcı sübyekt kimi çıxış edirlər. Burada ETKTİ-nin nəticələrindən TMK-rın əsas və qız cəmiyyətləri (filialları) birlikdə istifadə edirlər. Odur ki, dünya texnologiya bazarı milli bazara nisbətən daha yaxşı genişlənir – tərəqqi tapır.

3. **Böyük TMK-lar** (məsələn «Kodak istmen», «Boinq», «Ford Motor» və s.) bir çox tədqiqat işlərini öz əllərində cəmləşdirir və bununla da beynəlxalq texnologiya bazarının inhisarlaşmasına zəmin yaradırlar. Belə ki, texnologiya sahəsindəki, inhisarçı nəzarətin səviyyəsi 80-90 % təşkil edir. **1997-ci ildə dünyanın 300 aparıcı TMK-sında ETTKİ-yə çəkilən xərclər 216 mlrd. dollar olmuşdur**.

4. **TMK-rın dünya texnologiya bazarı** strategiyası davranışı müəyyən dövrü xarakter kəsb edir:

1-ci mərhələdə özündə yeni ideyanı əks etdirən hazır məhsul satışına üstünlük verilir.

2-ci mərhələdə texnologiya mübadiləsi birbaşa xarici investisiya şəklində həyata keçirilir.

3-cü mərhələ – xalis lisenziya verilməsidir. Burada texnologiya üzərindəki mülkiyyət hüququ güzəştə gedilir.

Beləliklə texnologiya əvvəlcə öz məxsus olduğu ölkədə istifadə edilir. Bir müddətdən sonra filiallara verilir. Sonra isə lisenziya kimi xaricə satılır (bütün bunlar TMK-rın texnologiya bazarından olan mənfəətinin 15 %-ni təşkil edir).

5. **80-ci illərdən başlayaraq dünya texnologiya mübadiləsinin 60 %-dən artığı TMK-rın firmaları daxilində həyata keçirilir**.

İnkişaf etmiş sənaye ölkələrində lisenziyalardan olan daxilolmaların 60 %-i koprorasiyadaxili əməliyyatlarda baş verir.

6. **Daha yüksək – mütərəqqi texnologiya** mübadiləsi inkişaf etmiş sənaye ölkələri arasında həyata keçirilir. Burada da ABŞ daha qabaqcıl mövqeyə malikdir. Onu qeyd etmək kifayətdir ki, təkcə ABŞ-da ETTKİ-yə ayrılan vəsaitin həcmi 97 mlrd. dollara bərabərdir (1997). Bu birlikdə Almaniya, Fransa, İngiltərə, İtaliya və Yaponiyadakından artıqdır.

İnkişaf etmiş sənaye ölkələri üçün orta və aşağı hesab edilən texnologiya növləri inkişaf etməkdə olan ölkələr və keçmiş sosialist ölkələri üçün yeni hesab edilir.

4. Beynəlxalq texnologiya mübadiləsi və hüquq normaları

Beynəlxalq texnologiya mübadiləsi işində əsas problemlərdən biri intellektual mülkiyyət hüququnun qorunmasıdır.

Hər bir ölkədə mülkiyyət hüququnun milli qorunma (mühafizə) sistemi nə qədər güclü olsa (istər birbaşa investisiya və istərsə də lisenziya əməliyyatları şəklində), bir o qədər həmin ölkəyə müasir texnologiya axını artıq olar.

Aydındır ki, hər bir ölkədə mülkiyyət hüququ milli qanunvericilik yolu ilə müəyyən edilir. Beynəlxalq münasibətlərdə isə bu hüququn saxlanılması, qorunması və istifadə edilməsi beynəlxalq razılaşmalara, beynəlxalq kodeksə (qanunlar külliyatına) əsaslanır.

Son 100 ildə kifayət qədər belə razılaşmalar əldə edilmişdir. **1883-cü ildə «sənaye mülkiyyətinin qorunması üzrə»** Paris razılaşması, **1970-ci ildə «patent kooperasiyası üzrə» müqavilə, 1971-ci ildə beynəlxalq patent təsnifatı İttifaqı** yaradılmışdır. Bu razılaşmaların əksəriyyəti intellektual mülkiyyət hüququ istiqamətini nəzərdə tuturlar.

Ümumdünya intellektual mülkiyyət hüququ təşkilatı 1967-ci ildə yaradılmışdır. İqamətgahı Cenevrədədir (İsveçrə). 1974-cü ildən BMT-nin ixtisaslaşdırılmış təşkilatı hesab edilir, 156 üzvü var.

Eləcə də 1994-cü ildə Ümumdünya ticarət təşkilatı çərçivəsində intellektual mülkiyyət hüququ üzrə çoxtərəfli razılaşma əldə edilmişdir. **1996-cı ildən qüvvədə olan «intellektual mülkiyyətin ticarəti hüququ»** (İMTH-TRİPS) üzrə çoxtərəfli razılaşma fəaliyyət göstərir. Burada inkişaf etməkdə olan ölkələr üçün 2005-2006-cı illərədək bəzi istisnalar nəzərdə tutulmuşdur.

BMT-nin ticarət və inkişaf üzrə konfransı (YUNKTAD) çərçivəsində **«texnologiya verilməsi komitəsi»**; **ixraca nəzarət üzrə koordinasiya komitəsi**; **təhlükəsizlik və texnologiya üzrə mütəxəssislərin müşavirəsi** və digər qurumlar intellektual mülkiyyətin qorunmasına zəmin yaradırlar.

XIV FƏSİL
DÜNYA TƏSƏRRÜFATI VƏ İNKİŞAF ETMİŞ SƏNAYE ÖLKƏLƏRİ (İEÖ)

1. İnkişaf etmiş sənaye ölkələrinin ümumi xarakteristikası.
2. İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi inkişaf səviyyələrinin bərabərləşməsi.
3. İnkişaf etmiş sənaye ölkələrinin əsas inkişaf modelləri.
4. İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi siyasətinin əsas istiqamətləri.
5. Daxili bazarın həcmi problemi.

1. İnkişaf etmiş sənaye ölkələrinin ümumi xarakteristikası

Qeyd etmək lazımdır ki, ayrı-ayrı ölkələrin təsnifatında, iqtisadi ədəbiyyatlarda bir çox hallarda "İnkişaf etmiş sənaye ölkələri", "Qabaqcıl ölkələr", "Birinci dünya ölkələri", "İnkişaf etmiş bazar iqtisadiyyatı" ölkələri və bu kimi anlayışlar işlədilir. Bura 40-a qədər ölkə daxildir. Bunlar hər şeydən əvvəl Avropa dövlətləridir.

Daha doğrusu bura Avropa İttifaqına daxil olan 27 ölkə, Qərbi Avropanın digər 3 ölkəsi (İsveçrə, Norveç, İslandiya), ABŞ, Kanada, Yaponiya, Avstraliya və Yeni Zelandiya daxildirlər. 1997-ci ildən Cənubi Koreya, Sinqapur, Honkonq, İsrail və Cənubi Afrika respublikası da inkişaf etmiş sənaye ölkələri sırasına aid edilir. Türkiyə və Meksika iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının (İƏ və İT) üzvü olduqları üçün həmin təşkilat bu ölkələrin də inkişaf etmiş sənaye ölkələrinə aid edilməsini təklif edir (bu ölkələrin inkişaf etməkdə olan ölkələr olmasına baxmayaraq ərazi əlamətinə görə Türkiyə Avropanın bir hissəsidir, Meksika isə azad ticarət barədə Şimali Amerika Azad ticarət zonasının üzvüdür).

Polşa, Macarıstan, Çexiya, Kipr, Malta, Sloveniya, Latviya, Litva və Estoniya 2004-cü ilin may ayından, Rumıniya və

Bolqarıstan isə 2007-ci ilin yanvar ayından rəsmən Avropa İttifaqına daxil olmuşlar. Odur ki, Aİ dedikdə artıq əvvəlki kimi 15 deyil, 27 ölkə nəzərdə tutulur. Digər tərəfdən oxucunun nəzərinə çatdırmaq istərdik ki, Aİ-yə daxil olan ölkələrə müəyyən güzəştlər edilsə də, hər halda bura daxil olmaq üçün qoyulmuş şərtlər də az deyildir. Yəni bu ölkələrin bəziləri yüksək inkişaf etmiş ölkə kimi görünməsə də, müəyyən fərqli göstəricilərə malikdirlər. Beləliklə, bir çox iqtisadi ədəbiyyatlarda göstərildiyi kimi inkişaf etmiş ölkələr 30 deyil, 40-a qədərdir (C.K.). Deməli bu dövlətlərin əksəriyyəti Avropa dövlətləri və yaxud ondan törəmə dövlətlərdirlər. Onu da qeyd etməliyik ki, məlum 7-liklər adlanan qabaqcıl ölkələr bu yarımsistemin əsasını təşkil edir. 2005-ci ilin məlumatına görə bu yarımsistem ölkələr dünya ölkələri ərazisinin 28,5 %-nə, əhlinin 18,4 %-nə, dünya üzrə ÜDM-in isə 77,5 %-nə malikdirlər.

Burada qeyd etdiyimiz 7-liklər həmin yarımsistem ölkələr üzrə cəmi ərazinin 54,6; əhalinin 60,4; ÜDM-in isə 78,5 %-nə sahibdirlər.

Hər nəfərə düşən ÜDM-in həcmi dünya üzrə 6976; yarımsistem ölkələr üzrə 28919; 7-liklərdə isə 37580 dollara bərabərdir (2005).

Lakin həmin ölkələr dünyanın iqtisadi və elmi-texniki potensialının əsas hissəsini öz əllərində cəmləşdiriblər. Məhz onların arasındakı daxili-iqtisadi və xarici-iqtisadi siyasət, onların ümumi iqtisadi inkişaf xətti dünya iqtisadiyyatının vəziyyətini, elmi-texniki yenilikləri, yenidənqurmanın quruluşunu, dünya bazarının vəziyyəti və s. müəyyən etmiş olurlar. İqtisadi inkişafın bütün cəhətlərinə görə inkişaf etmiş sənaye ölkələri qabaqcıl rola malikdirlər. Son on illiklər bu ölkələrdə sabit iqtisadi artımla xarakterizə olunur. Onlar dünya üzrə ehtiyatların əsas hissəsini istifadə etməklə ümumi milli məhsulun 1980-ci ildə 68,0; 1990-cı ildə 72,3; 1996-cı ildə 77,0; 2005-ci ildə isə 77,5 %-ni istehsal etmişlər.

Beynəlxalq iqtisadi münasibətlərdəki yeri baxımından həmin ölkələr hər şeydən əvvəl iqtisadiyyatın **açıqlığı, sahibkar kapitalının hərəkətinin genişliyi, geridə qalmış ölkələrə köməklik göstərməsində fəal iştirakı, kənardan çoxlu işçi qüvvəsi qəbul etməsi, beynəlxalq valyuta hesablaşmalarındakı üstünlüklərinə görə xarakterizə olunurlar.** Dünya təsərrüfatının iqtisadi və elmi-texniki potensialının çoxu, əsas maliyyə mərkəzləri və kommunikasiya qovuşaqları bu yarımsistemdə cəmlənibdir.

Onu qeyd etmək kifayətdir ki, həmin ölkələrin iqtisadi və sosial inkişaf problemlərinin həlli üçün "iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının" (İƏ və İT) 150-dən çox işçi qrupu və ekspert komissiyası fəaliyyət göstərir. Bu yarımsistemdə "yeddilər"[9] adlanan ABŞ, Yaponiya, Almaniya, Fransa, İtaliya, Böyük Britaniya və Kanada daha böyük xüsusi çəkiyə malikdirlər. Bu "yeddilər" təkcə bütün sənaye ölkələrinin deyil, bütün dünyanın iqtisadi inkişaf istiqamətini müəyyən edir. Onu qeyd etmək kifayətdir ki, dünya üzrə elmtutumlu məhsul bazarının 39 %-i ABŞ-a, 30 %-i Yaponiyaya, 16 %-i Almaniyaya məxsusdur. Bu sahədə elmi-tədqiqat təcrübə-konstruksiya işlərinə (ETTKİ) çəkilən xərclərin nümayiş etdirilməsi böyük əhəmiyyətə malikdir.

ÜDM-də ETTKİ-yə çəkilən xərclərin xüsusi çəkisi, %-lə (2002)

	Ölkələr	Xərclərin xüsusi çəkisi	ETTKİ-nin maliyyələşdirilməsində sənayenin payı
1	İsveç	4,27	71,9
2	Finlandiya	3,46	69,5
3	Yaponiya	3,12	73,9
4	ABŞ (2003)	2,80	68,9
5	Almaniya (2003)	2,55	69,8
6	Fransa	2,20	54,2
7	Niderland	1,89	51,8
8	Böyük Britaniya	1,88	46,7
9	Çin	1,22	61,3
10	İtaliya	1,11	-
	Aİ-15	1,93	56,0

[9] "Yeddilər" 1975-ci ildə yaranıb.

2002-ci ildə Aİ dövlətlərinin başçıları 2014-cü ilədək həmin xərclərin 3 %-dək çatdırılması məqsədini əsas götürmüşlər (2007-2013-cü illərdə həmin sahəyə 73,27 mlrd. avro ayırmağı nəzərdə tutmuşlar).

1970-2000-ci illərdə bu ölkələrdə istehsalın həcmi 2 dəfədən çox artmışdır. İqtisadi artımın əsas amilləri kapital yığımı, işçi qüvvəsindən istifadə və elmi-texniki tərəqqi olmuşdur.

Həmin ölkələrdə istehsal olunan ÜDM-in demək olar ki, 20 %-i xaricdə reallaşdırılır. Elə bir o qədər də idxal hesabına təmin edilir. İqtisadiyyatın açıqlığı əmsalı (xarici ticarət dövriyyəsinin ÜDM-ə olan nisbəti) əsrin əvvəlinə nisbətən azalmışdır. Britaniyada 42 %, Yaponiyada 14 %, Fransada 35 % təşkil edir.

Həmin yarımsistemin cəmi maliyyə ehtiyatlarının **20 %-i iqtisadi yardım** kimi inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatı ölkələrinə verilir. Bütünlükdə və eləcə də Qərbin inkişaf etmiş ölkələri bir çox xüsusi cəhətlərlə səciyyələnir.

1. **Əvvəlan ictimai-iqtisadi inkişaf planı baxımından** onların təsərrüfatları kapitalist istehsal üsuluna əsaslanmışlar. Xüsusi mülkiyyətçilik hakim olmuşdur. Hazırda da həmin ölkələrin ictimai qurluşunun əsas konsepsiyası mülkiyyət münasibətləri və onunla bağlı istehsal olunan məhsulun bölgüsü, mübadiləsi və istehlakı formalarının müəyyən edilməsindən ibarətdir. Daha doğrusu cəmiyyətə baxışda, yanaşmada mülkiyyət əsas çıxış nöqtəsi kimi, bazis kimi götürülür.

Kapitalist münasibətlərinin inkişafı əmtəə istehsalının genişlənməsi və yayılması ilə şərtlənir. Əmtəə və xidmətlər mübadilə üçün istehsal olunur. İş qüvvəsi də əmtəə münasibətlərinə daxil edilir. Burada inkişaf baxımından ayrı-ayrı dövrlərin fərqləndirilməsi və bu sənaye ölkələri inkişafının hansı dövrə aid edilməsi də maraq doğurur. Bu problem üzrə fikir müxtəlifliyi mövcuddur.

Belə ki, K.Marksın müddəalarına görə cəmiyyətin inkişafı ictimai-iqtisadi formasiya baxımından ibtidai-icma, quldarlıq, feodalizm, kapitalizm və sosializm mərhələlərini əhatə edir. Bu mərhələlər də inkişaf baxımından biri-birindən fərqlənirlər.

Bundan əlavə Amerika iqtisadçısı Uolt Rostou (1916-cı ildə anadan olub) iqtisadi inkişafda sosial nəzəriyyə yaratmışdı. O, tarixi mərhələləri ictimai-iqtisadi formasiya baxımından deyil, elmi-texniki tərəqqi baxımından fərqləndirirdi. Burada üç cəhəti əsas götürürdü: texnikanın inkişaf səviyyəsi; iqtisadi artımda yığım norması; istehlakın səviyyəsi. Bununla bağlı iqtisadi inkişafın beş tarixi mərhələsini fərqləndirirdi:

a) **Ənənəvi və yaxud sinfli cəmiyyət**. Bu mərhələdə kənd təsərrüfatı əsas rol oynayır. Sinif dedikdə o, təsərrüfatın qapalılığını, ayrı-ayrı qruplara, təbəqələrə (imtiyazlı və ya xud imtiyazsız) tsikllərə bölünməni nəzərdə tuturdu. Burada elmi-texniki tərəqqini qəbul etməmək, əhalinin nisbətən sürətli artımı, hər nəfərə düşən gəlirin az olması xarakterik idi.

b) **İstehsalın effektivli aparılması üçün** az-çox dəyişikliklər edilməsi, şərait yaradılması mərhələsi. Keçid mərhələsi.

v) **Yüksəliş cəmiyyəti**. Bu mərhələdə milli gəlirdə yığım norması artır, ETT-nin üstünlüklərindən istifadə etmək imkanı yaranır, köhnə adət-ənənələrin, hakimiyyət institutlarının maneçilikləri qismən rədd edilir.

q) **Yetkin və yaxud sənaye cəmiyyətinə** yol açılması mərhələsi. Bu mərhələdə iqtisadi inkişafın sürəti artır, istehsal genişlənir, həyat şəraiti yaxşılaşır.

d) **Yüksək kütləvi istehlak cəmiyyəti mərhələsidir**. Bu mərhələdə istehsalın artırılması üçün ehtiyatların məhdudluğu qayğısı olmur, uzun müddət istifadə üçün malların və xidmətlərin əhəmiyyəti artır.

U.Rostounun görüşlərinə əsasən ayrı-ayrı mərhələlərin biri-birini əvəz etməsi inqilabi yolla deyil, təkamül yolu ilə baş verir. Hər bir ölkə bu təkamül yolunu müxtəlif inkişaf sürəti ilə keçir. Bu gün isə tam inamla demək olar ki, inkişaf etmiş sənaye ölkələri yetkin, sənaye cəmiyyəti, kütləvi istehlak mərhələsindədirlər. Milli gəlirdə yığım və əmanət norması 5 %-dən 10 %-dək arta bilər. Yeni sahələr daha sürətlə inkişaf etdirilir, mənfəətin çox hissəsi investisiya olunur. Bazar münasibətləri, kapitalist münasibətləri müvəffəqiyyətlə kənd təsərrüfatına da yayılır.

Yetgin cəmiyyətlərdə məhsul artımının sürəti əhali artımı sürətini qabaqlayır. Bu mərhələnin bir xarakterik cəhəti də ondan ibarətdir ki, həmin mərhələdə uzun müddət istifadə üçün istehsal olunan istehlak şeyləri və xidmətlər daha üstün rol oynamağa başlamışdır.

Yetginlik mərhələsi Böyük Britaniyada XIX əsrin ortalarından, Fransa, ABŞ, Almaniyada XX əsrin əvvəllərindən, İsveçrədə 30-cu illərdən, Yaponiyada 30-40-cı illərdən, keçmiş SSRİ-də isə 40-50-ci illərdən başlanmışdır. Kütləvi məhsul istehsalına keçid 20-30-cu illərdə ən əvvəl ABŞ, Kanada, Böyük Britaniyada, Avstraliyada baş vermişdir.

2. **Qərbin inkişaf etmiş sənaye ölkələri** dünya təsərrüfatının digər yarımsistemlərinə nisbətən daha yüksək iqtisadi inkişaf səviyyəsinə malikdirlər. Həmin ölkələr hər nəfərə düşən ÜDM-in həcminə görə orta ümumdünya səviyyəsindən beş dəfə irəlidədir. Bu uzun sosial-iqtisadi və tarixi inkişafın nəticəsində baş vermişdir. İstehsalda yüksək mənfəət götürmək məqsədi, əmək məhsuldarlığını artırmağa, yeni texnika tətbiq etməyə güclü maraq oyadır. Maşınlı sənaye isə ardıcıl olaraq məhsulun ucuzlaşmasına zəmin yaradırdı. Belə ki, 1788-ci ildə Böyük Britaniyada bir funt[1] pambıq parça əyirmək 35 şillinqə,[10] 1800-cü ildə 9,0; 1833-cü ildə 3 şillinqə başa gəlirdi. Deməli, 45 ildə hər funtun qiyməti 12 dəfə aşağı düşmüşdür. XIX əsrin ortalarında bir nəfər işçi iri mexanikləşdirilmiş əyirmə dəzgahında 100 il əvvəl 180 nəfərin gördüyü işi yerinə yetirirdi. Bu cür məhsul istehsalının ucuzlaşması, satış bazarının genişlənməsi (ucuz məhsullar) başqa ölkələrdən gələn baha malları sıxışdırırdı. Rəqabət mübarizəsində kimin müəssisəsi daha aşağı fərdi xərclə çox məhsul istehsal edirsə, o da qalib gəlirdi.

Sosial-iqtisadi üstünlükdən əlavə Qərb ölkələri müharibələr, müstəmləkə işğalçılığı, qul ticarəti, dəniz quldurluğu və s. yollarla da tarixən öz iqtisadi mövqelərini, vəziyyətlərini möhkəmlətmişlər.

[1] Funt - latın. çəki. 1f=1girvənkə (təqribən 409 qr.)

[10] 1 funt=20şillinq=240pens.

3. **Burjuaziya inqilabları Qərb ölkələri həyatının** bütün dairələrini dəyişdirirdi. Cəmiyyətin sosial quruluşunda kəskin dəyişikliklər baş vermişdir. Cəmiyyətin quruluşunda sinfi münasibətlər özünü daha açıq biruzə verirdi.

Qərb ölkələrinin sinfi qurluşu dəyişirdi. XIX əsrin ortalarında fəhlələr, kapitalistlər, iri torpaq sahibləri ayrılırdı. Sonralar torpağın bir çox hissəsi ticarət-sənaye burjuaziyasının əlinə keçirdi. İri torpaq sahibləri səhmdar cəmiyyətlərinə çevrilirdilər. Beləliklə XX əsrdə burjuaziya, xırda burjuaziya və fəhlələr ayrılmışlar.

İri və orta mülkiyyətçilər burjuaziya sinfini, şəhərdə və kənddə öz əmələri ilə yaşayan xırda mülkiyyətçilər xırda burjuaziyanı təşkil edirdi. Fəhlə sinfi isə inkişaf etmiş sənaye ölkələrində əsasən iki təbəqədən ibarət idi - sənaye fəhlələri və ticarət-idarə işçiləri.

Hər bir cəmiyyətdə siniflərdən əlavə başqa ictimai qruplar, təbəqələr də mövcuddur - ziyalılar, kəndlilər, sənətkarlar, texniki mütəxəssislər və s.

4. **XVI-XVIII əsrlərdə ictimai-tarixi inkişafın gedişi** ilə Qərb ölkələrində vətəndaşlıq cəmiyyəti formalaşmışdı. Vətəndaşlıq cəmiyyətinin yaranması qohumluq, qonşuluq, adət-ənənə kimi icma tipli qarşılıqlı münasibətlərinə deyil, əşya münasibətlərinə əsaslanırdı. Burada hər bir fərd cəmiyyətdə xüsusiləşir, ümumi normalara tabe olurdu.

2. İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi inkişaf səviyyələrinin bərabərləşməsi

Əmtəə-pul münasibətlərinin dərinləşməsi, kapitalın gücünün artması məhsuldar qüvvələrin inkişafına, tələbatların genişlənməsinə, istehsalın ixtisaslaşmasının və mübadilənin hərəkətinin daha çox artmasına zəmin yaratmışdır.

Artımın sürəti və amilləri. Fransa dövlət xadimi və sərkərdəsi Napoleon Bonapartın (1769-1821) uzun sürən müharibələrindən sonra hazırkı sənaye ölkələrinin demək olar ki, hamısı (Yaponiya istisna olmaqla) sabit iqtisadi inkişaf yolu keçməyin

həsrətində olmuşlar. 1820-1950-ci (130 il) illərdə həmin ölkələrdə ÜDM-in orta illik artım sürəti 2,3 %, hər nəfərə düşən ÜDM-in artımı isə 1,25 % olmuşdur. Bu rəqəm sənayeləşmədən əvvəlki dövrdəkindən 3,5 dəfə artıqdır. Bunu aşağıdakı cədvəldən də görmək olar.

Cədvəl

Orta illik artım sürəti, %-lə

İllər	*Əhali*	*Hər nəfərə düşən ÜDM*	*Cəmi ÜDM*
1700-1820	0,4	0,2	0,6
1820-1980	0,9	1,6	2,5

Cədvəldən aydın görünür ki, sonrakı dövrlərdə nümayiş etdirilən iqtisadi göstəricilər kəskin artmışdır. Belə ki, 1700-1820-ci illərə nisbətən 1820-1980-ci illərdə orta illik əhali artımı 2,2 dəfə, hər nəfərə düşən ÜDM 8 dəfə, cəmi ÜDM isə 4 dəfə artıq olmuşdur. Qərb ölkələrinin iqtisadi inkişafının əsasını o vaxtlar canlı əmək-muzdlu əmək təşkil edirdi. Kapitalizmin inkişafının birinci mərhələsi işçi qüvvəsindən geniş istifadə etmək (ekstensiv yolu) yoluna əsaslanırdı. XIX əsrin axırlarında Britaniyada maksimum iş günü (bir çox sahədə) 14-16 saata bərabər idi. Sonralar isə iqtisadi inkişaf məhsuldar kapitalın artması hesabına təmin edilirdi.

Məhsuldar qüvvələrin inkişafı xarici ticarətin artmasına zəmin yaratmışdı. 1720-1820-ci illərdə xarici ticarətin həcmi 2,4 dəfə artdığı halda, 1820-1913-cü illərdə 30,9 dəfə artmışdır. Xarici ticarətin artım sürəti ÜDM-in artım sürətini qabaqlayırdı.

Müstəmləkəçiliyin genişlənməsi və xarici ticarətin artması ilə qərb ölkələrinin iqtisadiyyatı daha açıq xarakter alırdı. Britaniya açıq ticarət siyasətinə keçmişdir. Almaniya dövlətlərinin gömrük ittifaqı yaranmışdır[1].

Dövrü inkişaf. XIX əsrin əvvəllərindən kapitalist ölkələrinin inkişafında dövrü xarakter, artıq istehsal böhranları müşahidə olunmağa başlayırdı. Daha doğrusu istehsalın fasiləsiz inkişafında müəyyən həddə çatmaqla yanaşı istehsalın ritminin pozulması və yenidən hərəkətə gətirilməsi prosesi özünü göstərirdi. İstehsal prosesinin bu cür dövrü xarakteri ilk dəfə 1825-ci ildə Britaniyada özünü göstərmiş, 1857-ci ildən isə bu kimi böhranlar bir çox ölkəni bürümüşdü. Bütünlükdə bir çox kapitalist ölkələri üzrə istehsalın artım sürətinin azalması 1930-1932-ci illərdə, 1945-1946-cı illərdə özünü açıq biruzə vermişdir.

İqtisadçıların hesablamalarına görə 16 ölkə üzrə ÜDM 1930-cu ildə 5,7 %, 1931-ci ildə 6,4 %, 1932-ci ildə 6,6 %, 1945-ci ildə 8,1 %, 1946-cı ildə 11,1 % azalmışdır. Beləliklə, mənfəəti artırmağa cəhd göstərilməsilə artıq istehsal baş verir, bu isə böhrana səbəb olurdu. İstehsalın həcmi azalır, böhrandan çıxmaq üçün əsas kapital kütləvi surətdə təzələnirdi. Bu isə məhsuldar qüvvələrin inkişafına yeni zəmin yaradırdı.

Qeyri-bərabər inkişaf. Aydındır ki, hər bir ölkənin, eləcə də yarımsistemin öz istehsal imkanları, iqtisadi siyasəti, yeni istehsal sahələri yarada bilməsi və s. mövcuddur. Odur ki, istər əvvəllər və istərsə də müasir şəraitdə ayrı-ayrı ölkələrin iqtisadi inkişafında qeyri-bərabərlik özünü göstərir. Bu isə dünya təsərrüfatı sistemində hər hansı bir ölkənin mövqeyinin dəyişməsinə səbəb olur.

Məsələn 1580-ci illərdən XIX əsrin əvvəllərinədək bir çox göstəricilərə görə Hollandiya irəlidə idi. Hollandiyaya çatmaq və onu ötmək üçün İngiltərəyə 100-150 il vaxt lazım gəlmişdir. 1653-1797-ci illərdə İngiltərə 66 il dəniz müharibəsi aparmışdır (XVII əsrdə Hollandiya ilə, XVIII əsrdə isə Fransa ilə). Beləliklə, Britaniya Şimali Amerikada, Hindistanda, Braziliyada özünün ticarət inhisarını yarada bilmişdir.

1870-ci illərdə İngiltərə sənaye məhsulunun həcminə görə ABŞ və Almaniyadan irəlidə idi. Belə ki, 1870-ci ildə polad əridilməsi İngiltərədə 215, Almaniyada 170,0, ABŞ-da isə 69 min ton təşkil edirdi. 1913-cü ildə isə ABŞ irəli çıxmışdır. Daha doğrusu polad əridilməsi ABŞ-da 31,3, Almaniyada 18,3, İngiltərədə isə 7,7 mln. tona bərabər olmuşdur. Beləliklə 1890-cı il-

[1] 15-16-cı əsrlərdə Avstriya, Niderland, Çexiya, Macarıstan, İtaliya və s. bir çox torpaqları Almaniya knyazlığına daxil idi.

lərdən Britaniya birinciliyi əldən vermişdir. Lakin 1950-ci illərədək Qərbi Avropada aparıcı mövqedə olmuşdur.

ABŞ liderliyi ələ almışdır, 1880-ci illərdə məhsuldar kapital qoyuluşu ABŞ-da İngiltərədən iki dəfə artıq olmuşdur. 1890-1913-cü illərdə hər nəfər işçiyə düşən kapital qoyuluşunun həcmi İngiltərədəkindən 3 dəfə sürətlə artmışdır.

ABŞ-da istehsalın ixtisaslaşması, sahibkarlığa geniş yol açılması, idarəçilik informasiyasının yayılması və tətbiq edilməsi, tədqiqat işlərinin artırılması, daxili bazarın genişləndirilməsi və s. Amerika sahibkarlarına böyük müvəffəqiyyətlər gətirmişdir. Amerika liderliyi dövründə ənənəvi istehlakın qurluşu dəyişilmişdir. Bununla da mənşəət texnikası əmtəələrinin artmasına, bazarın, reklamın, kommersiya krediti və s. məsələlərin öyrənilməsinə tələbat artmışdır.

İqtisadi liderliyin İngiltərədən daha dinamik inkişaf edən ABŞ-a keçməsi bütün Qərb ölkələrinin eyni vaxtda bərabər sürətlə inkişafına zəmin yaratmışdı. XIX əsrin sonu XX əsrin əvvəllərində Almaniya və Fransanın iqtisadi mövqeləri xeyli möhkəmlənmişdi. Almaniya o vaxt əhalisi 40 mln. nəfərdən çox olan sahələri özündə birləşdirmiş, Elzası[1] və Lotaringiyanı[2] zəbt etmişdir.

Fransa üzərində hərbi cəhətdən qalib çıxaraq vahid daxili bazar yaratmışdır. Zəbt etdiyi torpaqların xalqlarından 5 mlrd. frank pul almışdır. Alman mühəndislərinin layihə - tədqiqat işləri öz kəmiyyət və keyfiyyətinə görə ancaq amerikalıların işindən geri qalırdı. XIX əsrin 60-70-ci illərində Almaniya sənaye məhsulu istehsalına görə Fransanı keçmişdir. XX əsrin birinci onilliyində Britaniyanı da arxada qoyaraq ABŞ-dan sonra dünyanın ikinci sənaye ölkəsinə çevrilmişdir.

XIX əsrin 60-cı illərinin axırlarında Yaponiyada baş verən vətəndaş müharibəsindən sonra, orada sənayenin inkişafı sürətlənmişdir. Buradakı sənayeləşmənin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, fabrik sənayesinin, ağır sənayenin yaradılmasında dövlətin iştirakı güclü olmuşdur. Buna baxmayaraq XX əsrin əvvəlinə Yaponiya aqrar ölkə kimi mövcud idi. Onun daxili bazarı dar idi. Öz daxili bazarını genişləndirmək üçün yeni ərazilər tutmağa can atırdı. XIX əsrin axırları və XX əsrin başlanğıcında sənayenin inkişafı **Rusiyada da baş verirdi**. Beləki, 1860-1913-cü illərdə Rusiya imperiyasında sənaye məhsulu 12 dəfə artmışdır (orta illik artım 5,8 % olmuşdur). Rusiya Almaniya, Fransa və İngiltərədən daha sürətlə inkişaf edirdi. ABŞ-dan isə xeyli geri idi. Cəmi məhsulun həcmi ABŞ-da Rusiya imperiyasından bütövlükdə 8 dəfə, hər nəfərə düşən məhsul isə 13 dəfə artıq idi.

Beləliklə, vaxt keçdikcə sənaye ölkələrinin iqtisadi inkişafında ciddi dəyişikliklər baş verirdi. 1820-1989-cu illərdə hər nəfərə düşən ÜDM 14 dəfə (Böyük Britaniyada 8, Yaponiyada 26 dəfə) artmışdır.

İqtisadi inkişafdakı qeyri bərabərliyin əsas səbəblərindən biri iki dünya müharibəsi hesab edilir.

İqtisadi inkişafın bərabərləşməsi meyli. Müharibədən sonrakı dövrlərdə qeyri-bərabərlik mexanizmində yeni cəhətlər özünü göstərirdi. Belə ki, XX əsrin ikinci yarısından qabaqcıl ölkələrdə əmək məhsuldarlığının səviyyəsi baxımından xeyli yaxınlaşma baş verirdi. 1950-1960-cı illərdə əmək məhsuldarlığının daha sürətli artımı Avstraliya, Almaniya, İtaliya, Finlandiya və Yaponiyada, nisbətən zəif artımı isə Avstraliya, Kanada, Norveç, İsveçrə və ABŞ-da müşahidə olunurdu.

Hazırda ayrı-ayrı ölkələr arasındakı dinamik inkişafda "ikinci iqtisadiyyat" adlanan Transmilli Kompaniyaların müəssisələr kompleksi böyük rol oynayır. Qeyd etmək maraqlıdır ki, hazırda Amerikanın "ikinci iqtisadiyyatının" həcmi Almaniyanın, Fransanın, İtaliyanın cəmi məhsulundan artıqdır.

Beləliklə iqtisadi fəallığın mərkəzi sayılan ölkələr kapitalın hərəkəti, xarici ticarət, valyuta münasibətləri və s. vasitəsilə bütün dünyaya təsir edə bilirlər.

[1] Elzas - sahəsi 8,3 m.kv.km. 10-cu əsr. Roma imp. 1697 frans. tərkib 1871. Elzasın böyük hissəsi zorla ələ keçirilib, 1940-cı ildə Elzas zəbt edilib. Strasburq şəhəri oradadır. 1994-də azad edilib.

[2] Lotarikiya Fransa əyaləti olub. 1871 Almaniya zəb edib. 1919-da qayıdıb Fransaya. 1940-da yenidən zəbt edilib, 1944-də azad edilib.

3. İnkişaf etmiş sənaye ölkələrinin əsas inkişaf modelləri[1]

İqtisadi inkişafın tarixi əlamətləri, eləcə də ayrı-ayrı amillər yığımı, onların əlaqələndirilməsi nəticə etibarilə qərb ölkələrinin inkişaf tipini müəyyən etməyə imkan verir. Bu, keçmiş müstəmləkə imperiyalarının **müstəmləkə kapitalizmidir, Avstraliya və Kanadanın renta kapitalizmidir (torpaqları icarəyə verməklə renta götürürdülər), şimal ölkələrində öz daxili mənşəələri baxımından yaranan, təsərrüfatçılıq edilən kapitalizmdir** və s. Beləliklə, müxtəlif tipdə olan təsərrüfatçılıqlarda müxtəlif siyasi və sosial-iqtisadi qüvvələrin təsiri, qarşılıqlı münasibətləri zəminində istehsal amillərindən istifadə edilir. Bura daxil etmək olar: dövlətlə sahibkarlıq arasındakı münasibətləri (istehsalın struktur, sənaye, elmi-texniki siyasəti, rəqabət qabiliyyətinin təmin edilməsi strategiyası, iqtisadi təhlükəsizlik və s.) bazar fəaliyyətinin təşkili, təsərrüfat fəaliyyətinin milli əlamətləri, müəssisədaxili idarəçilik sistemi, əmək münasibətləri, kadro hazırlığı və s. Bütün bu kimi sosial-iqtisadi qüvvələr-cəhətlər biri-biri ilə əlaqədardır və biri digərinə təsir edir.

Milli iqtisadiyyatda mövcud olan müxtəlif institutların, özəklərin, birliklərin, vəzifə bölgüsünün, nəzarətin, iqtisadi proseslərin təşkili və sairə həmin iqtisadiyyata müəyyən xüsusi cəhətlər vermiş olur. Bütün bu cəhətlərdən asılı olaraq təsərrüfat sistemi formalaşır və iqtisadi inkişaf modeli yaranır. Bunlardan aşağıdakıları qeyd etmək olar:

Liberal model - ABŞ öz təsərrüfatçılığı praktikasında son onilliklərdə tənzim olunan bazar şəraitinə üstünlük verir. Xüsusi mülkiyyət daha çox üstünlük təşkil edir. İnvestisiyada, satışda işçi qüvvəsindən istifadə və s.-də xüsusiçiliyin rolu artırılır, tək-tək hallarda hökumət müəyyən iqtisadi proseslərə qarışır. Milli və yerli orqanlar qanunvericilik və inzibati tədbirlərlə xüsusi bölməni tənzim edir.

İşçi qüvvəsindən istifadə edilməsində Amerikanın öz xüsusiyyəti vardır. Belə ki, orada iri fəhlə partiyaları, müəssisələr səviyyəsində əmək müqavilələri bağlanılması, mərkəzləşmiş həmkarlar hərəkatı yoxdur.

Kollektiv müqavilələr üç illiyə bağlanır, əmək haqqının dəyişməsi müqavilədə göstərilir. Amerika əmək bazarında nominal əmək haqqı dəqiq göstərilir. Əmək haqqı səviyyələrində kəskin fərq mövcuddur. Əmək haqqının səviyyəsi təhsilin səviyyəsi ilə uzlaşdırılır. Qabaqcıl kapitalist ölkələri içərisində ABŞ yeganə dövlətdir ki, işçi qəbul edənlər öz mülahizələrinə görə işçi götürür və işdən azad edə bilirlər. 1946-cı ildə ABŞ-da əmək müqavilələrini tənzim etmək üçün qanun[1] qəbul edilmişdir. Bu qanuna əsasən həmkarların bəzi hüquqları məhdudlaşdırılır Bu sistem - model Kanada, Belçika, Fransa, İrlandiya, İtaliya, Britaniya üçün də xarakterikdir. Lakin onlarda əmək haqqı və məşğulluqda böyük sabitlik mövcuddur.

Korporativ model[2]. Bu model tənzim olunan bazarı nəzərdə tutur. Bu da dövlətin yaxından iştirakı ilə baş verir. Həmin model iki yarımtipdə olur: demokratik və ya sosial-islahat forması və iyerarxiya formasında[3].

Demokratik korporativçilik modeli. Hakimiyyətdə sosial demokratlar olan ölkələrdə həmin model daha çox üstünlük təşkil edir. Bu modeldə dövlət sahibkarlığı yüksəkdir. İsveçdə, az da olsa Şimal ölkələrində, Avstraliyada bu model xarakterikdir.

Bu modeldə sosial razılaşma (həmfikirlik) yolları axtarılır. Burada həmkarlar geniş fəaliyyət göstərirlər, işsizlərə yüksək təminat verilir, məşğulluq barədə geniş siyasət aparılır. Bu modelin təzahür formalarından biri iyerarxiya korporativizmidir. Yaponiyada xarakterik olan bu modeldə işgüzar fəallığa dövlət

[1] Ayrı-ayrı ölkələrin iqtisadiyyatı barədə müstəqil mövzu olduğu üçün bu mövzuda ümumi hallara daha geniş yer verilir.

[1] Tafta-Xartli qanunu. Senator Tafta və Konqresmen Xartli müəllif olduğu üçün belə adlanır. İşçilərin tətil etmək hüququ məhdudlaşdırılır.

[2] Korporasiya - lat. cəmiyyət, birlik, ittifaq.

[3] İyerarxiya – aşağıdan yuxarı tabeçilik.

köməklik göstərir. Əmək müqaviləsi müəssisə səviyyəsində də bağlana bilir. Müqaviləyə əsasən işçinin alacağı əmək haqqının 30 %-ə qədəri ildə iki dəfə əmək haqqına əlavə kimi verilir.

Sosial-bazar modeli. Bu model korporativ modelə daha yaxındır. Həmin modeldən Almaniyada daha geniş istifadə edilir. Burada sosial çətinlikdə olan gənclərə, fermerlərə, az təmin olunan ailələrə, kiçik və orta müəssisələrə ardıcıl köməklik göstərilməsi nəzərdə tutulur. Əhalinin rifah halının təmin edilməsində dövlətin vəzifələri genişləndirilir. Əlbəttə bu modellər müəyyən mənada nisbi xarakter kəsb edir və daimi hərəkətdə dəyişilmədədirlər.

4. İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi siyasətinin əsas istiqamətləri

Hər bir ölkədə və eləcə də dünya miqyasında iqtisadi siyasət daxili və xarici siyasətin tərkib hissəsi olmaqla, təsərrüfat sisteminin inkişaf qanunauyğunluğunu əks etdirir. Məhz bu siyasət müəyyən mənada iqtisadiyyatın tələbindən irəli gəlirsə, digər mənada iqtisadi inkişafa güclü təsir edir.

İqtisadi ədəbiyyatlarda iqtisadi siyasət anlayışının izahına müxtəlif səpgidə yanaşırlar. **Hər halda dövlətin iqtisadi siyasəti dedikdə, iqtisadi proseslərin gedişinin tənzimlənməsindəki iqtisadi tədbirlərin məcmusu nəzərdə tutulur.** Lakin qeyd etmək lazımdır ki, hər hansı bir dövlətin iqtisadi inkişaf siyasəti ilə onun iqtisadi inkişafı tənzim etməsi (və yaxud iqtisadi inkişafa qarışması) anlayışlarını eyniləşdirmək olmaz. Hər bir siyasətdə əsas, strateji və cari, konyuktur məqsədləri mövcud ola bilər. İqtisadi strategiya və siyasət daxili və xarici amillərin təsiri altında formalaşır. Məhsuldar qüvvələrdə, beynəlxalq əmək bölgüsünün səviyyəsində, istehsalın və kapitalın ictimailəşməsində baş verən dəyişikliklərlə şərtlənir. Ona görə də, qanunauyğun olaraq hər bir dövlətin, yarım sistemlərin müxtəlif dövrlərdə iqtisadi siyasətləri də müxtəlif olur.

50-60-cı illərdə qərb ölkələrinin iqtisadi strategiya və siyasəti

İkinci dünya müharibəsindən sonra dünyada sosial və siyasi vəziyyətin və təkrar istehsal şəraitinin dəyişilməsi inkişaf etmiş ölkələrin iqtisadi siyasətinə və strategiyasına güclü təsir etmişdir. Müharibədən sonrakı bərpa və nailiyyətlər dövlətin fəal rola malik olduğunu bir daha təsdiq etmişdir. Qarışıq iqtisadiyyat yaradılması ideyası xeyli dərəcədə möhkəmlənmişdir.

İqtisadi strategiyada biri-biri ilə bağlı olan sabit iqtisadi artım, yüksək məşğulluq, qiymətlərin möhkəmliyi və tədiyyə balansının müvazinətliyi əsas götürülürdü. Bu mənada 50-60-cı illərdə özündən əvvəlki dövrlərə nisbətən iqtisadi artım xeyli sabit olmuşdur.

Həmin dövrdə daxili tələbin iqtisadiyyata təsiri güclü olmuşdur. 60-cı illərdə bir çox iqtisadçılar daha iqtisadi böhranların olmasından ehtiyat etmirdilər. Həmin illərdə iqtisadi siyasətdə əsas məqsəd iqtisadi artımın yüksək sürətinə nail olmaqla yanaşı, "ümumi rifah" dövləti yaratmaqdan ibarət idi: məhz bu siyasətdə hər bir fərdin rifahının yaxşılaşması, gəlirlərin ədalətli bölgüsü, minimum əmək haqqı barədə qanun qəbul edilməsi, mənfəətdən vergi tutulması dərəcəsi müəyyənləşdirilirdi.

Sosial məqsədlərə ayrılan dövlət xərcləri xeyli artırılmışdır. Təqaüd, tibbi xidmət, sığorta təminatı artmışdır.

60-cı illərdə əhalinin gəlirlərinin tərkibində əmək haqqı və digər ödəmələrin xüsusi çəkisi çoxalmışdır. 1970-ci ildə həmin ölkələrdə bu kimi gəlirlər orta hesabla 60 % olmuşdur. Dövlətin rifah halı barədə olan strategiyası "tam məşğulluq" siyasəti ilə qarşılıqlı əlaqədə inkişaf etdirilmişdir. Məşğulluq siyasətində işçilərin keyfiyyətinin yaxşılaşdırılması - ümumi təhsil və peşəkarlıq hazırlığının artırılması - tədris müəssisələrinin çoxaldılması, ayrı-ayrı şəxslərin ixtisaslarının artırılması qarşıya qoyulurdu. İşsizlik norması müəyyən edilirdi. ABŞ-da bu norma 3-4 %, Britaniyada 1-1,5 % təşkil edirdi.

Aydındır ki, iqtisadi siyasətin həyata keçirilməsi müəyyən **vasitələrlə** baş verir. Bu mənada iqtisadi inkişafa nail olmaq **üçün** iqtisadi planlaşdırmadan geniş istifadə edilirdi. Sovet İttifaqında beşillik planların nailiyyətləri qərb dövlətlərinə də təsir etmişdir. Qərb ölkələrində və Yaponiyada planlaşdırma praktikasından istifadə genişlənmişdir. Bu siyasətdə iqtisadi artımın əsas amili kimi elmi-texniki tərəqqiyə daha çox üstünlük verilirdi. 60-70-ci illərdə bütün xərclərin yarıdan çoxu elmi tədqiqat konstruksiya yeniləşmələrinə ayrılırdı.

Planlaşdırmanın inkişafı ilə qiymət və gəlirlər siyasəti də formalaşırdı. Buradan da milli gəlirin ümumi həcminin mərkəzləşdirilmiş qaydada tənzimlənməsi və bölgüsünə imkan yaranmışdır.

80-90-cı illərdə iqtisadi strategiya və siyasət

1970-ci illərin ortalarında sənaye dövlətləri kəskin böhranlarla qarşılaşmışlar. Ona görə də istər-istəməz həmin ölkələrin iqtisadi siyasətində müəyyən dəyişikliklər baş vermişdir. Bazar "fəlsəfəsi" geniş vüsət almışdır. Ekstensiv amillərdən intensiv amillər hesabına inkişafa üstünlük verilirdi. Həmin dövrdə monetarizm[1] cərəyanı - fikri daha çox yayılmışdır. Daha doğrusu pul ilə bağlı olan amillər hesabına iqtisadiyyatın sabitləşməsi nəzərdə tutulurdu. Yəni pul kütləsi, yeni pul buraxılması, tədavüldə olan pulun həcmi üzərində dövlətin nəzarəti, dövlət büdcəsində balanslaşma yaradılması, yüksək faiz norması müəyyən edilməsi və s. amillərə əsas verilməsi nəzərdə tutulurdu. Beləliklə 70-ci illərdə qərb ölkələrində baş verən inflyasiyanın aradan qaldırılması üçün bazar münasibətlərinə geniş yol açmaq, pul təklifi artımında müəyyən həddi gözləmək, valyuta məzənnəsində kəskin dəyişikliyə yol verməmək nəzərdə tutulurdu.

[1] Yeni monetarist məktəbin başçısı - Nobel mükafatı laureatı Amerika iqtisadçı alimi Milton Fridmen (1912-ji ildə anadan olub).

Həmin dövrdə dünya iqtisadiyyatında müəyyən struktur (quruluş) dəyişikliklərinə də əsas verilirdi. 80-ci illərdə əsas qərb ölkələrinin hamısında struktur siyasətinə üstünlük verilirdi - sosial, elmi-texniki, regional cəhətlərə çox yer verilirdi. Büdcə-vergi tənzimləmə mexanizmi əvəzinə kredit-pul sisteminin rolu artırılırdı.

Həmin dövrlərdəki iqtisadi siyasətdə iqtisadiyyatın liberallaşdırılmasına, təsərrüfatçılıq edən subyektlərin azadlığının artırılmasına geniş yer verilirdi. Burada şirkətlərdən və fiziki şəxslərdən vergi tutulması, mənfəətdən vergilər azaldılırdı.

80-ci illərdəki iqtisadi siyasətdə olan dəyişikliklərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi və dövlətin rolunun məhdudlaşması prosesi genişlənmişdir. Bu proses Britaniyada daha böyük miqyas almışdır. Bütün sənaye ölkələrində ÜDM-da dövlət müəssisələrinin xüsusi çəkisi 1982-ci ildəki 9 %-dən 1988-ci ildə 7 %-ə enmişdir.

Elmi-tədqiqat konstruksiya işlərinə dövlətin köməkliyi artırdı. Əhalinin (ailənin) cəmi gəlirində əmək haqqının xüsusi çəkisi azalırdı. Daha doğrusu ABŞ-da ailənin cəmi gəlirində əmək haqqı 1970-ci ildə 61 %, 1980-ci ildə 56 %, 1990-cı ildə 52 % təşkil etmişdir. Kapitala görə olan gəlirin xüsusi çəkisi artmışdır. Əmək bazarı üzrə də müəyyən siyasət yeridilirdi. 90-ci illərdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında az məhsuldar işçilərin işdən kənarlaşdırılmasının müəyyən rolu olmuşdur. Əmək bazarının sərbəstləşməsi bir çox hökumətlərin diqqət mərkəzində olmuşdur. Sabit iqtisadi artımın təmin edilə bilməməsi bir çox hallarda əmək bazarının qeyri çevikliyi ilə əlaqələndirilirdi. Bu sahədə olan siyasətin dəyişilməsi əmək bazarında olan təklifi artırmışdır. Bu isə əmək məhsuldarlığının yüksəldilməsinə zəmin yaratmışdır. 1975-1990-cı illərdə Kanadada əmək məhsuldarlığının artımı sənaye ölkələrindəki real əmək haqqının artım sürətindən 1,5-10 dəfə artıq olmuşdur. Lakin bununla yanaşı son onilliklərin təcrübəsi göstərmişdir ki, insan amilindən istifadə edilməsində münaqişəli, əksdurma metodu tətbiq etmək fayda verməz. İnsanların bir çox sosial

mənafelərini nəzərə alan ölkələrdə yeni inkişaf modellərinin tədbiqi daha geniş vüsət ala bilmişdir. Ona görə də inkişaf etmiş sənaye ölkələri məşğulluq və işsizlik məsələlərinə olan diqqəti artırmışlar. Belə ki, məşğulluq üzrə siyasətin aparılması üzrə 1990-1994-cü illərdə xərclərin xüsusi çəkisi Britaniyada 1,6-dan 2,2 %-ə, Danimarkada 5,7-dən 7,0 %-ə, Almaniyada 2,1-dən 3,8 %-ə, İsveçdə - 2,6-dan 5,4 %-ə çatmışdır. Həmçinin iqtisadi siyasətin həyata keçirilməsində belə bir qənaətə gəlmişlər ki, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsini həddindən artıq az azaltmaq olmaz.

Xarici iqtisadi siyasətin əsas istiqamətləri

50-60-cı illərdə dünya təsərrüfatı əlaqələrinin sürətlə artması xarici iqtisadi amilin rolunu da artırırdı. Bu ölkələrdə daxili sabitliyin olması onlarda bir çox beynəlxalq öhtəçiliklər həyata keçirməyə imkan verirdi.

Həmin illərdə beynəlxalq iqtisadi münasibətlərdə 3 cəhət əsas götürülürdü:

- dollara və müəyyənləşmiş valyuta məzənnəsinə əsaslanan valyuta sisteminə keçilməsi;
- tarif dərəcələrinə əsaslanan ticarət sistemi;
- köməklik barədə razılıqlar şəbəkəsi yaratmaq.

70-90-cı illərdə müəyyən böhranlar müşahidə olunduğuna görə daxili bazar himayə edilirdi. Əvvəllər azaldılmış tarif dərəcələri bir çox texniki, ekoloji maneələr və normalarla məhdudlaşdırılırdı. Bu tədbirlər digər qərb dövlətlərindən olan idxalın 17 %-ni, inkişaf etməkdə olan ölkələr üzrə idxalın 20 %-ni, Şərqi Avropa ölkələri üzrə olan idxalın 30,4 %-ni əhatə edirdi.

80-90-cı illərdə ticarət sistemində olan maneəçiliklər daha da artmışdı. Kredit sistemində isə bir çox məhdudiyyətlər aradan qaldırılmış və kapital ixracı çoxalmışdır. Sənaye məhsullarına olan ticarət rüsumları (idxal üzrə) 1947-ci ildəki 40 %-dən 1990-cı ildə 3,9 %-dək endirilmişdir. Bütün qərb ölkələri kapitalın sərbəst hərəkətini təklif edirdilər. Kapital ixracını tənzimləmək üçün TMK-ların fəaliyətindən istifadə edilməsi üçün inzibati tədbirlər həyata keçirilirdi. **Qabaqcıl ölkələrin iqtisadi siyasətində** valyuta münasibətlərinin genişlənməsinə də çox üstünlük verilirdi. BİM-də Amerika dollarının rolu artmışdır. Qərb dövlətləri Amerikanın valyuta siyasətinə razılıqla qoşulurdular.

Sosialist sistemi ilə iqtisadi siyasətdə iqtisadi təzyiqə üstünlük verilirdi. ABŞ 1947-ci ildən sosialist sistemində ki, üstünlükləri dayandırmaq, qabağını almaq siyasəti yeridirdi. İlk növbədə Marşal planının köməkliyi ilə Qərb dövlətlərini hərtərəfli gücləndirmək, Sovet İttifaqının inkişafına olan inamı zəiflətmək istəyirdi. Bununla da Qərbi Avropa ABŞ-ın təsir dairəsinə keçməli olmuşdur.

İnkişaf etmiş ölkələrin sosialist ölkələrinə qarşı iqtisadi siyasətində ümumiləşdirilmiş şəkildə 4 mərhələyə ayırmaq olar. 40-cı illərin axırlarından 60-cı illərin ortalarınadək olan dövr: 60-cı illərin ortalarından 70-ci illərədək olan dövr; 70-ci illərin axırlarından 80-cı illərin axırlarınadək və 90-cı illərdən sonrakı dövr.

Qeyd etdiyimiz kimi **birinci mərhələdə** müxtəlif yollarla inkişafın qarşısını almaq, böykot etmək, Şərqlə Qərb arasında iqtisadi əlaqələrdən imtina etmək siyasəti hakim idi.

İkinci mərhələdə ayrı-ayrı ölkələrlə iqtisadi əlaqələr fərqləndirilirdi, bəzi qadağalar nisbətən zəiflədilirdi.

Üçüncü mərhələdə iqtisadi siyasətdə müəyyən fasilələrdən – aravermələrdən ayrı-ayrı məhsullara, texnologiyalara nəzarətə, konkret xarici siyasi məqsədə keçilmişdir. 80-ci illərin axırlarında başlanan siyasi proseslərin təmin edilməsinə hərtərəfli köməklik göstərilməsinə üstünlük verilmişdir.

Dördüncü – son dövrlərin iqtisadi siyasəti 80-ci illərin axırlarına olan siyasətin məntiqi davamı olmuşdur. 1993-cü ildə «dünya birliyi üzrə bazar demokratiyasının genişlənməsi strategiyası» irəli sürülmüşdür. Sovet İttifaqının dağılmasından sonra bu siyasət bütün inkişaf etməkdə olan ölkələrə də şamil edilir.

Qərb ölkələrinin inkişaf etməkdə olan ölkələrə qarşı iqtisadi siyasəti

Müstəmləkə sisteminin dağılması və gənc müstəqil dövlətlərin yaranması ilə inkişaf etmiş dövlətlərin onlara qarşı olan siyasəti də dəyişmiş və yeni vəzifələr doğurmuşdur.

Bu sənaye ölkələri mərkəz ilə İEOÖ arasındakı ziddiyyətlərin yumşalması, balanslaşdırılmış siyasət yeridilməsi və ənənəvi əlaqələrin genişlənməsinə üstünlük vermişlər.

Burada ilk növbədə əsas məqsəd həmin ölkələri kapitalizm sistemində saxlamaq, onların iqtisadi inkişafına köməklik etmək, xammal və satış bazarı mənbəyi kimi özlərinə bağlamaqdan ibarət olmuşdur.

70-ci illərdə Birinci dünya ölkələri həmin ölkələrə qarşı əvvəlki beynəlxalq əmək bölgüsünü saxlamaqdan çəkinmişlər. Müstəmləkə şəraitindəki vəziyyəti saxlamaq deyil, iqtisadiyyatın modernləşməsinə, yeniləşdirilməsinə üstünlük vermişlər.

Bu ölkələr öz müstəqil milli iqtisadiyyatlarını qurmaq üçün daha sərfəli iqtisadi əməkdaşlıq etməyə səy göstərirdilər.

Qərb dövlətləri qeyri-iqtisadi təzyiqdən əl çəkdikdən sonra yeni münasibət formalarından istifadə etməyə başlamışlar. Həmin dövlətlərə qarşı müəyyən güzəştlər-imtiyazlar tətbiq etməklə onların ixrac üçün istehsal edən sahələrini öz bazarlarına cəlb edirdilər.

«Rəsmi iqtisadi yardım» göstərmək barədə qərar qəbul etmişlər.

Bu cür ilk qərar 1950-ci ildə Şri-Lankanın paytaxtı Kolomboda qəbul edilmişdir. Bu qərar «Kolombo planı» adlanır.

Böyük Britaniyanın «həmrəylik» ölkələri səviyyəsində keçirilən konfransda qəbul edilmiş proqrama əsasən Asiya və Sakit okean ölkələrinin birgə iqtisadi və sosial inkişafı nəzərdə tutulmuşdur. Həmçinin qərb dövlətlərinin mövqelərinin möhkəmlənməsi, cənub və cənub-şərqi Asiyada milli azadlıq hərəkatının zəiflədilməsi məsələləri də planda nəzərdə tutulmuşdur.

1985-ci ildə ABŞ, Yaponiya, Böyük Britaniya, Kanada, Avstraliya və Yeni Zelandiyadan ibarət 6 ölkə kreditor kimi bu planda iştirak etmişlər. **İqtisadi köməkliyin ilk mərhələsində** siyasi və hərbi strateji prinsipə üstünlük verilirdi.

1970-ci illərdən isə kasıb ölkələrin əsas tələbatlarının ödənilməsi nəzərdə tutulurdu.

80-ci illərdən beynəlxalq borcun tənzimlənməsi, qurluş dəyişikliyi, xüsusi bölmənin və bazar münasibətlərinin inkişafına diqqət artırdı.

Son illərdə həmin ölkələrə köməklik göstərməklə kasıb adamların maddi vəziyyəti nisbətən yaxşılaşdırılır.

Beləki, nisbətən inkişaf etmiş ölkələrdə hər nəfər hesabı ilə edilən yardım 250 dollar təşkil etdiyi halda, yoxsul ölkələr üçün bu yardım orta hesabla 1 dollar həcmində müəyyən edilmişdir. Bu cür hər nəfər hesabı ilə ən çox köməklik göstərilən ölkə İsraildir (1988-ci ildə 280 dollar olmuşdur – milli təhlükəsizliyin təmin edilməsi nəzərdə tutulur). Bu barədə ABŞ-ın keçmiş prezidenti C.Kennedi 1961-ci ildə açıq bəyan etmişdir ki, ABŞ köməklik metodu ilə dünyada öz təsirini və nəzarətini saxlaya bilir. Əslində ABŞ iqtisadi məqsədlərə nisbətən siyasi və hərbi məqsədlərə daha çox vəsait ayırır.

İnkişaf etmiş ölkələr Şərqi Avropa və keçmiş Sovet İttifaqı respublikalarına da bu və ya digər formada köməklik göstərirlər.

5. Daxili bazarın həcmi problemi

Hər bir ölkənin daxili bazarı ictimai əmək bölgüsünün xarakterindən asılı olaraq inkişaf edir. Məhz daxili bazarın fəaliyyət şəraiti hər bir istehsalın faydalılığına və bütünlükdə iqtisadi sistemə təsir edir.

Daxili bazar dedikdə, hər bir milli təsərrüfat daxilindəki mübadilə sistemi nəzərdə tutulur. Burada idxal və ixrac nəzərə alınmır. Lakin təsərrüfat daxili bütün əlaqələr, qarşılıqlı asılılıq

formaları fəaliyyət göstərir. Xarici əlaqələr milli təsərrüfatların dünya iqtisadiyyatındakı iştirakına xidmət edir.

Hər bir ölkənin daxili bazarının həcmi **ilk növbədə** ÜDM-in həcminə görə müəyyən edilir. Bu mənada dünyada 50 ən aparıcı daxili bazar mövcuddur. Lakin ÜDM - alıcılıq qabiliyyəti əsasında hesablandıqda (burada əmtəəlik olmayan məhsullar da nəzərdə tutulur). Qərb ölkələrinin mövqeyi o qədər də güclü görünmür. Belə olduqda ən güclü iqtisadiyyatı olan ölkələr sırasına, ancaq 6 Qərb dövləti daxil ola bilir.

Hər bir ölkənin təsərrüfat fəaliyyətinin beynəlmiləlləşmə səviyyəsi, onun idxal və ixrac kvotası ÜDM-də idxal və ixracın xüsusi çəkisi ilə müəyyən edilir. Bu mənada bəzi kiçik ölkələrin ixrac kvotası (Belçikada 70 %; İrlandiyada 67 %; Niderlandda 52 %; Avstriyada 10 %; İsveçrə və Danimarkada 37 %) yüksək olduğuna görə bu ölkələrdə daxili bazar da kiçikdir və onlar dünya bazarından daha çox asılıdırlar. İnkişaf etmiş böyük dövlərlərdə isə ÜDM-in istehsalı və satışında xarici seqment cəmisi 20-30 %, ABŞ və Yaponiyada 10-15 % təşkil edir.

2. Daxili bazarın həcmi və inkişaf səviyyəsi hər nəfərə düşən gəlirin miqdarı ilə də xarakterizə olunur. Bütünlükdə inkişaf etmiş ölkələrdə bu göstərici orta ümumdünya səviyyəsindən beş dəfə yüksəkdir. Bu yarımsistemə daxil olan ölkələr həmin göstəriciyə görə 30 qabaqcıl ölkə sırasındadırlar. Bu göstəriciyə görə İsveçrə, Lüksemburq, Yaponiya, İsveç, Norveç, Danimarka daha irəlidədirlər.

3. Daxili bazarın həcmi və səviyyəsi istehlakçılara xidmət edənlərin sayından asılıdır. Cəmiyyətin tələbatının ödənilməsi nə qədər daxili istehsala əsaslanarsa, onun inkişaf imkanları bir o qədər artıq olur. Burada istehlakçıların bir qismi də istehsalçı kimi çıxış edir. Ona görə də, bəzən əhalinin sayı cəmiyyətin istehlak və istehsal potensialının istiqamətini müəyyən etmiş olur (baxmayaraq ki, əhalinin sayı ilə daxili bazarın həcmi arasında birbaşa əlaqə yoxdur). İstehlakçıların sayının rolu o qədər də əhəmiyyət kəsb etmir. Məsələn, inkişaf etmiş sənaye

ölkələrindən ancaq ABŞ və Yaponiyanın əhalisi 100 mln. nəfərdən, dörd ölkədə isə 50 mln. nəfərdən artıqdır.

4. Bu ölkələrin daxili bazarının xarakterik cəhətlərindən biri də bütün əhalinin əmtəəlik məhsullarla təmin edilməsidir. Bunlarda muzdlu əmək daha çox istifadə edilir (təqribən məşğul olan əhalinin 85 %-i, o cümlədən Britaniya və ABŞ-da 90 %-i muzdlu əmək hesab olur). İstehsal ilə istehlak arasında qarşılıqlı əlaqə daha sıxdır.

5. Daxili bazarın həcminin iqtisadiyyatın ayrı-ayrı bölmələri, sahələri ilə qarşılıqlı əlaqədə olması.

6. Daxili bazarın inkişafının zəruri göstəricilərindən biri də bazarın pul münasibətlərinin inkişaf səviyyəsidir (kredit münasibətləridir).

7. Daxili bazarın xarakterizə edilməsində istehlakın quruluşu və xarakteri də böyük rol oynayır. Burada istehlak və istehsal tələbinin quruluşu və həcmi, xüsusi və dövlət bölməsinin nisbəti bazara təsir edir.

1920-ci illərdə ÜDM-də şəxsi istehlak təqribən 85 %, 1990-cı illərdə isə 61 % təşkil etmişdir. 1995-ci illərdə həmin yarımsistemdə ÜDM-də dövlət istehlakı 15%, şəxsi istehlak 63 %, yığım 21 % olmuşdur.

İstehlak tələbi

Hər bir ölkənin iqtisadi inkişafında istehlak tələbi bir amil kimi çıxış edir. Daxili bazarın inkişafı məhdud olan ölkələrdə bu tələbin təsiri daha böyükdür. Fəal istehlak tələbi məşğulluğun artmasını tələb edir.

İstehlak tələbinin əsasını şəxsi tələb təşkil edir - 63-64 %. Əvvəllər uzun müddət əhalinin istehlak xərclərinin ən çox hissəsini ərzaq məhsulları və geyim şeyləri alınması təşkil edirdi. Məsələn, İngiltərədə XVIII əsrin axırlarına bu xərclər 93 %, XX əsrin əvvəllərinə 91 %, 1930-cu illərdə isə 35 % olmuşdur. Son onilliklərdə şəxsi istehlakın quruluşunda gözə çarpacaq dərəcədə dəyişiklik baş vermişdir. Belə ki, ilkin (gündəlik) istehlakın xüsusi çəkisi azalmış, uzun müddətə istifadə edilən istehlak mal-

larının **xüsusi çəkisi** isə artmışdır. Bir çox ölkələrdə şəxsi istehlakda **şəxsi EHM**, kompyuterlər, avtomaşın, məişət texnikası **daha çoxdur. Bunu** aşağıdakı cədvəldən də görmək olar.

Cədvəl

Şəxsi istehlakın quruluşu, %-lə (1995)

	ABŞ	Britaniya	Yaponiya
Ərzaq və içki	15,1	19,5	17,8
Geyim, ayaqqabı	5,2	5,8	5,8
Komunal xidməti	14,1	19,3	21,7
Nəqliyyat, rabitə	8,9	5,1	11,1
Mebel, məişət texnikası	14,5	1,8	5,0
Digər əmtəə və xidmətlər	42,2	49,6	37,9

Aydındır ki, istehlakın həcmi və quruluşu hər şeydən əvvəl əhalinin gəlirinin miqdarından, məşğulluq səviyyəsindən, varlılıq səviyyəsindən asılıdır. Eləcə də uzun dövr üçün götürdükdə əhalinin və işçilərin quruluşu, ev təsərrüfatının quruluşu, miqrasiya və s.-də istehlak bazarına təsir edir.

İnkişaf etmiş sənaye ölkələrində ixtisaslı əmək daha çoxdur, odur ki, onların əmək haqqı da yüksəkdir. Məsələn, 1995-ci ilin məlumatına görə emal sənayesində işləyənlər üçün **bir saatlıq əmək haqqı Almaniyada - 28; İsveçrədə - 25; Yaponiyada 22; ABŞ-da və Fransada - 18; İtaliyada - 17 dollara bərabər olmuşdur.**

İstehlak bazarının formalaşmasında istehlak kreditinin də böyük rolu vardır. Kreditlə olan satış ümumiyyətlə istehsala və bazara çox müsbət təsir edir. 90-cı illərdə ABŞ-da ailə gəlirlərinin təqribən 20 %-ə qədəri istehlak kreditindən ibarətdir.

İstehsal (məhsuldar) tələbi

Məhsuldar qüvvələrin inkişafında və təkmilləşdirilməsi işində istehsal tələbi daha böyük əhəmiyyət kəsb edir. Burada əsasən əmək alətləri və əmək cisimləri nəzərdə tutulur. Bu da ETT-də öz əksini tapır. **İstehsal tələbinin həcmi istehsal təyinatlı kapital qoyuluşunun miqdarı ilə müəyyən olunur.** 1990-1993-cü

illərdə bu sahəyə sərf edilən kapital qoyuluşu (ABŞ-da) ÜDM-in 14 %-nə bərabər olmuşdur.

İstehsal təyinatlı kapital qoyuluşunun daha çox hissəsi infrastrukturanın və xidmət dairəsinin maddi bazasının möhkəmlənməsinə sərf edilir. Nəqliyyat və rabitə sahəsində istifadə edilən investisiya istehsal dairəsinin və eləcə də istehlak dairəsinin daha effektivli fəaliyyətinə zəmin yaradır.

1970-1980-ci illərdə maliyyə sisteminin yeniləşməsinə olan kapital qoyuluşu iki dəfə artmışdır. Beləliklə, maşın və avadanlıqların, elektron və elektrotexnikanın artması bu sahədə olan bazarı da genişləndirir.

Qərb ölkələrinin maddi istehsal sahələrində müxtəlif köməkçi materiallar, komplektləşdirmə məmulatları və s. kimi ara-köməkçi məhsulların bazarı da mövcuddur. Həmin adi məhsulların ən çox istehlakçısı emal sənayesi ilə inşaat sahəsi hesab olur. İnkişaf etmiş sənaye ölkələrində bu ara məhsullar maddi istehsal sahəsi məhsulunun 60 %-ə qədərini təşkil edir.

Təklifin quruluşu

Daxili bazarın vəziyyəti və inkişafı tələb və təklif ilə, eləcə də yerli istehsalın dinamikası və quruluşu ilə də müəyyən olunur. Tələb ilə təklif arasında çox qarşılıqlı əlaqə və asılılıq mövcuddur. Bu da bir çox hallarda iqtisadiyyatın sahəvi quruluşundan asılıdır. Son vaxtlar xidmət dairəsinin xüsusi çəkisi daha çox artmışdır. 90-cı illərdə cəmi işçilərin 60 %-i, ÜDM-in isə 65 %-i həmin sahənin payına düşürdü. Burada istehsala və əhaliyə xidmət daha yüksəkdir - 27,1 % (bunun tərkibində emal sənayesi 75 %-dir).

50-60-cı illərdə ənənəvi sahələr - dəzgahqayırma, sənaye avadanlıqları, avtomaşınqayırma, gəmiqayırma və s. daha yüksək xüsusi çəkiyə malik idilər. Son vaxtlar isə elektron texnikası, rabitə vasitələri, nəzarət - ölçü cihazları və s. kimi elmtutumlu sahələr üstünlük təşkil edir. Təklifin quruluşunda (təklif bazarında) inşaat məhsullarının və kənd təsərrüfatı məhsullarının da böyük rolu vardır.

Daxili bazarın fəaliyyəti, ancaq tələb-təklif və onun quruluşu ilə deyil, onun institutsional quruluşundan da asılıdır. Daha doğrusu ayrı-ayrı təsərrüfat subyektlərinin məcmusu (hər bir subyektin həcmi, sahəvi, sosial cəhəti) ilə də müəyyən olunur.

İqtisadiyyatın təşkili quruluşu dedikdə, ayrı-ayrı kompaniyalar arasındakı inteqrasiya səviyyəsi, müxtəlif sahələrin məhsulunun dəyərinin hesablanması forması, kompaniyalarda işləyənlərin xüsusi çəkisi və s. məcmusu əks olunur. Böyük dövlətlərin bazarlarında 500-1000 nəfərdən artıq işçisi olan iri kompaniyalar daha həlledici rol oynayırlar. Bu kompaniyaların yüksəlməsi həmin sahələrdə kapitalın təmərgüzləşməsi və mərkəzləşməsinə əsaslanır. Bu kompaniyaların artması gedişində sahələrdaxili inteqrasiya və sahələr üzrə inhisarlar da yaranmışdır.

50-60-cı illərdə inteqrasiya prosesləri mikroiqtisadi səviyyədə üfüqi istiqamətdə genişlənmişdi. 70-80-ci illərdə konqlomerat birlikləri yaranırdı.

Milli səviyyədə inteqrasiya prosesləri 70-ci illərdə başa çatmışdı, artıq dünya miqyasında, qlobal səviyyədə birliklər yaranması genişlənmişdir. Sənaye məhsullarının rabitə xidməti, nəqliyyat, ticarət və kredit müəssisələrinin əməliyyatlarının 40-70 %-dən çoxu iri-daha böyük kompaniyaların əlində cəmləşmişdir.

Çox sahəli böyük konsernlərin yaranması və kütləvi istehsal xırda və orta istehsalında yaranmasına zəmin hazırlamışdır. Hazırda bir çox ölkədə cəmi müəssisələrin (firmaların) 90 %-dən çoxu; cəmi işləyənlərin, eləcə də istehsalın və satışın yarısından çoxu xırda və orta müəssisələrin payına düşür. Bir çox ölkələrdə həmin orta və xırda kompaniyalar (40-50 %-ə qədəri) ancaq daxili bazara xidmət edirlər. İxracda da onların rolu çox deyildir. Məsələn, Fransa, İtaliya, Niderland və Norveçdə bu orta və xırda firmalar cəmi ixracın 30 %-dən artığına, Yaponiyada isə 13,3 %-nə (1990) malikdirlər.

XIX əsrin ortalarından İngiltərədə fəhlələrə mənsub olan fabriklər - kooperativlər də yaranmağa başlanmışdır. Kooperativ sahibkarlıq formasında əsas şəxslər – payçı üzvlərdən ibarətdir. Hazırda inkişaf etdiyi ölkələrin daxili bazarında bu kooperativlərin rolu çox azdır.

Cədvəl

İnkişaf etmiş ölkələrin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min kv.km	Əhalisi, mln. nəfər	ÜDM, mlrd. dollar
1	2	3	4	5
1	Avstriya	84,0	8,2	305,3
2	Almaniya	357,0	82,4	2791,7
3	Böyük Britaniya	245,0	60,4	2229,5
4	Belçika	30,5	10,4	371,8
5	Macarıstan	93,0	10,0	109,2
6	Danimarka	43,0	5,4	259,6
7	İrlandiya	70,4	4,0	200,8
8	İspaniya	506,0	40,3	1126,6
9	İtaliya	301,0	58,2	1765,5
10	Latviya	64,5	2,3	15,8
11	Litva	65,2	3,6	25,5
12	Estoniya	45,0	1,3	13,1
13	Malta	0,316	0,400	5,4
14	Lüksemburq	2,6	0,470	36,5
15	Niderland	41,8	16,4	629,9
16	Polşa	323,0	39,0	303,2
17	Portuqaliya	92,0	10,6	183,6
18	Slovakiya	49,0	5,4	47,5
19	Sloveniya	20,0	2,0	34,0
20	Finlandiya	338,0	5,2	196,0
21	Fransa	552,0	60,7	2126,6
22	Çexiya	79,0	10,2	124,3
23	İsveç	450,0	9,0	358,7
24	Kipr	9,3	0,780	16,7

25	Yunanıstan	132,0	107,0	225,6
26	Runıniya	238,0	22,3	98,6
27	Bolqarıstan	111,0	8,0	26,7
28	İsveçrə	41,0	7,3	367,6
29	Norveç	324,0	4,6	35,8
30	İslandiya	103,0	0,300	15,8
31	ABŞ	9363,0	298,2	12455,8
32	Kanada	9971,0	32,3	1132,4
33	Yaponiya	378,0	128,1	4567,4
34	Avstraliya	7741,0	20,2	708,5
35	Yeni Zelandiya	271,0	4,03	108,5
36	Cənubi Koreya	99,8	47,8	787,6
37	Sinqapur	0,640	4,3	116,8
38	Honkonq	1,1	7,0	177,7
39	İsrail	21,0	6,7	129,8
40	Cənubi Afrika Respub.	1121,0	47,4	239,4
	Cəmi:	38748,1	1192,2	34471

XV FƏSİL
DÜNYA İQTİSADİYYATI VƏ ABŞ

1. ABŞ-ın iqtisadi inkişafının xarakterik xüsusiyyətləri
2. Dünya təsərrüfatında ABŞ-ın mövqeyi.
3. ABŞ-ın dünya iqtisadiyyatına təsiri amilləri.
4. Müasir dövrdə ABŞ-ın makroiqtisadi siyasəti.

1. ABŞ-ın iqtisadi inkişafının xarakterik xüsusiyyətləri

Şimali Amerika məkanının 85%-i ABŞ, Kanada və Meksikanın payına düşür.

ABŞ ərazi bölgüsünə görə 50 ştatdan ibarətdir. Bu ştatlar: Aydaxo, Ayova, Alabama, Alyaska, Arizona, Arkanzas, Vayominq, Vaşinqton, Vermont, Virciniya, Viskonsin, Havayi, Delaver, Corciya, Qərbi Virciniya, İllinoys, İndiana, Kaliforniya, Kanzas, Kentukki, Kolorado, Konnektikut, Luiziana, Massaçusets, Minnesota, Missisipi, Missuri, Miçiqan, Montana, Men, Merilend, Nebraska, Nevada, Nyu-Qempşir, Nyu-Cersi, Nyu-York, Nyu-Meksiko, Ohayo, Oklaxoma, Oreqon, Pensilvaniya, Rod-Aylend, Şimali Dakota, Şimali Karolina, Tennessi, Texas, Florida, Cənubi Dakota, Cənubi Karolina, Yuta.

Bir çox dövlət quruculuğunda, sosial-iqtisadi tənzimləmərdə bu ştatların müstəqilliyi olsa da federasiyadan çıxmaq, bir-biri ilə müəyyən razılığa girmək, beynəlxalq müqavilələrə qoşulmaq hüququ yoxdur.

Amerika milləti kütləvi mühacirlik, boş torpaqların özünə işçi qüvvəsi cəlb etməsi, yüksək əmək haqqının olması, siyasi sərbəstlik və s. sayəsində yaranmışdır. XX əsrin axırına ABŞ-ın əhalisini irqi baxımdan dörd böyük qrupa bölmək olar: ağlar, afrikalılar, Latın Amerikasından və Asiyadan olanlar. Əhalinin təqribən 84 %-ni ağlar təşkil edir. Bunlar əsasən İngiltərədən, İrlandiyadan, Şotlandiyadan, Almaniyadan, İtaliyadan gələnlərdir. Afrika mənşəli olan (vaxtı ilə qul kimi gətirilmişlər) amerikalılar təq-

ribən 12 %-dir. Latın Amerikası ölkələrindən (Argentina, Braziliya, Meksika, Kolumbiya, Kuba, Peru, Çili və s. 24-dən çox ölkədir) olanlar üçüncü yeri tutur. Son dövrlərdə ağların xüsusi çəkisi azalır, Asiya mənşəli əhalinin sayı artır.

1991-2001-ci illərdə kənardan bura gələn əhalinin sayı 8,1 mln. nəfər təşkil etmişdir.

ABŞ dövlət quruluşuna görə prezidentli federativ respublikadır. Qanunvericilik orqan iki palatalı konqresdən ibarətdir. dövlət başçısı prezidentdir – 4 ilə seçilir.

ABŞ ərazisinə və əhalinin sayına görə ən böyük dövlətlərdən biri olub, dünya təsərrüfatında xüsusi mövqeyə malikdir. **2005-ci ilin məlumatına görə 9363 min kv.km. əraziyə, 298,2 mln. nəfər əhaliyə malikdir. 2050-ci ildə ABŞ-ın əhalisi 402,4 mln. nəfər olacaqdır.**

ABŞ-ın ərazisi 3 hissədən ibarətdir:

a) əsas ərazi sahəsi – 7830 min kv. km. Şimaldan Kanada, cənubdan Meksika ilə (Meksika körfəzi ilə), şərqdən Atlantik okean, qərbdən Sakit okean ilə həmsərhəddir.

b) Alyaska – 1530 min kv. km. Şimali Amerikanın şimal-qərbində yerləşir, cənubdan Kanada, qərbdən və cənubdan Sakit okean, şimaldan Şimal Buzlu okeanı ilə həmsərhəddir.

v) Havay adaları – Sakit okeanda 24 adadan ibarət 16,8 min kv. km ərazini əhatə edir. Bunlardan əlavə ABŞ bir çox digər ərazilərə də sahibdir: Karib dənizində Puerto-Riko və Virgin adaları (8,9 min kv. km və 352 kv. km); Sakit okeanda – Quam (549 kv. km), Şərqi Samoa və Mikroneziya (1,8 min kv. km) – Karolin, Marian, Marşal adaları da bura daxildir.

ABŞ öz təsərrüfatının (iqtisadiyyatının) həcminə görə hər hansı bir inkişaf etmiş ölkədən irəlidədir. Ərazisinə görə Rusiya, Kanada və Çindən sonra 4-cü, əhalinin sayına görə isə Çin və Hindistandan sonra 3-cü yerdədir. 2005-ci ilin məlumatına görə ABŞ-ın ÜDM-i[illegible]mi 12455,8 mlrd. dollardır. Bu, Yaponiyadakından 2,7, [illegible]niyadan 4,4 , Fransadan 5,8, Britaniyadan 5,6, Çindən təqribən 5,7 dəfə artıqdır.

Hər nəfərə düşən ÜDM-in həcminə görə - 42081 dol. ABŞ, Lüksemburq, İsveçrə, Norveç, Danimarka, İrlandiya və s.-dən sonra 9-cu yerdədir (2005).

ABŞ-ın iqtisadi inkişafının hazırkı səviyyəsi uzun bir tarixi dövrün məhsuludur. Ölkənin zəngin neft, təbii qaz, daş kömür, əlvan və qiymətli metal ehtiyatları mövcuddur. Ölkənin əsas kənd təsərrüfatı rayonlarında əlverişli iqlim şəraitinin və münbit torpaqların olması məhsuldar kənd təsərrüfatı yaradılmasına imkan vermişdir. Məhz elə bunun sayəsində də ölkədə demək olar ki, bütün növ kənd təsərrüfatı məhsulları istehsal olunur.

XX əsrin ortalarından ABŞ-ın dünya iqtisadiyyatında liderlik etməsi ilk növbədə dünya təsərrüfatındakı qüvvələrin dəyişməsindən irəli gəlmişdir. Belə ki, birinci və ikinci dünya müharibələrinə Amerika birbaşa qoşulmadığı halda, Avropa dövlətlərinin iqtisadiyyatı müharibələrə məruz qalmış, liderlik uğrundakı rəqabət qabiliyyətini itirmişlər. ABŞ isə azad bazar münasibətləri və lazımi səviyyədə dövlətin iqtisadiyyata qarışması ilə öz mövqeyini möhkəmlətmişdir.

2000-ci ildə ölkədə 25 mln. firma fəaliyyət göstərmişdir. Bunun 5 milyonu korporasiya, 2 milyonu tərəfdaşlıq, 17,9 milyonu fərdi müəssisə kimi mövcud olmuşdur. Cəmi məhsul satışının 86 %-i korporasiyaların payına düşmüşdür.

Nəqliyyat. ABŞ-da yüksək nəqliyyat kompleksi formalaşmışdır. Bu sahədə 4,2 mln. nəfər adam çalışır. Dəmir yolu şəbəkəsi 586 min km, boru kəmərləri 263 min km, avtomobil yolları 7,3 mln. km təşkil edir. Dəniz ticarəti limanında 5,3 min gəmi mövcuddur. Amerika bayrağı altında 31 min gəmi üzür.

İqtisadi inkişafın dövrləri. Hər hansı bir sahədə və eləcə də iqtisadi inkişaf sahəsində qanunauyğun olaraq müəyyən cəhətlər, xüsusiyyətlər əsasında ayrı-ayrı dövrlər araşdırılır. Bu dövrlər nisbi mənada biri-birindən fərqlənirlər. XX əsrin əvvəllərindən ABŞ-ın dünya təsərrüfatındakı mövqeyi, tətbiq olunan texnologiyanın xarakteri, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsindəki məqsədi və s. baxımından bir neçə dövrü fərqləndirmək olar.

Birinci dövr - 1929-1933-cü illərin dünya iqtisadi böhranından sonrakı illərdir. XX əsrin əvvəllərində ABŞ qabaqcıl dünya ölkələri sırasında idi. Amerikanın iqtisadiyyatı birinci dünya müharibəsindən (1914-1918) sonra demək olar ki, sabit inkişaf gedirdi. Hətta "firavan", "daimi inkişaf" nəzəriyyəsi yaranmışdır. Lakin 1929-1933-cü illərdəki, iqtisadi böhranlar bütün bu ümidləri pozdu. Böhran Nyu-Yorkdan fond birjasından başlayaraq, bütün bank sistemini, sənayeni, kənd təsərrüfatını əhatə edirdi. 1932-ci ildə ABŞ-ın sənaye məhsulunun həcmi 46 % (çuğun istehsalı – 79 %, polad – 76 %, avtomobil sənayesi – 80 %) azalmışdır. 279 domna peçindən ancaq 44-ü işləyirdi. Həmin illərdə 135 min ticarət, sənaye, maliyyə müəssisəsi iflasa uğramış, 5760 bank dağılmışdı. Tək 1932-ci ildə Korporasiyalara dəyən zərər 3,2 mlrd. dollar olmuşdur.

1 mln. fermer təsərrüfatı dağılmışdır. Ölkə 1911-ci ilin səviyyəsinə düşmüşdür. İşsizlərin sayı sürətlə artırdı, işsizlər şəhərdən kənara yaşik taxtalarından düzəldilmiş evlərə (Quver şəhərciyinə) köçürülürdü. Həmin dövrdə ABŞ-da dövlətin iqtisadiyyata, xüsusi biznesin işinə qarışmaması (birinci dünya müharibəsi dövründə isə belə deyildi), "Amerika fərdiyyəçilik" fəlsəfəsi höküm sürürdü.

O vaxt Amerikanın prezidenti Herbert Quver (1874-1964) ilk növbədə ticarət himayədarlığı ilə kifayətlənərək belə hesab edirdi ki, böhran 60 günə avtomotik olaraq ötüşəcəkdir (aydındır ki, onun ümidləri özünü doğrultmadı).

Kütləvi mitinqlər, tətillər artırdı. 1930-cu ildə ümummilli mitinq keçirilmişdi. 1933-cü ildə tətil iştirakçılarının sayı 1 mln nəfərdən artıq idi. Müflisləşmənin qarşısını almaq üçün 1931-ci ildə bankların, sənaye və nəqliyyat müəssisələrinin dövlət tərəfindən kreditləşdirilməsinə kömək edilirdi. Bu məqsədlə 3,5 mlrd. dollar kapitala malik Milli Kredit Korporasiyası yaradılmışdır.

Aydındır ki, Amerika kimi böyük bir dövlətin böhrandan çıxması üçün bu kimi tədbirlər kifayət edə bilməzdi. Sosial ziddiyyətlər daha da kəskinləşirdi. 1933-cü ilin mart ayına işsizlərin sayı 17 mln. nəfərə çatmışdı.

Belə bir çətin dövrdə 1933-cü ildə Franklin Delano Ruzvelt (1882-1945) ABŞ-ın prezidenti seçilmişdir. Belə bir iqtisadi çətinlikdən çıxmaq üçün daha ciddi, köklü tədbirlər, islahatlar tələb olunurdu. Odur ki, Ruzvelt hökuməti çox geniş miqyaslı islahatlar həyata keçirilməsini planlaşdırmışdır. Bu da tarixdə **"Ruzveltin yeni kursu"** adı ilə məşhurlaşmışdır. Artıq mart ayının 9-da Konqressin xüsusi sessiyasında "Yeni kursun" əsas siyasəti müəyyənləşdirildi. Ruzvelt, Quverin "Kobud fərdiyyəçilik" siyasətini inkar edərək böhrandan çıxmaqda iqtisadiyyatın planlaşdırılması, daxildə barışıq - sülh, başqa ölkələrlə xeyirxah qonşuluq siyasətini əsas götürürdü.

"Yeni kursun" nəzəri əsasını məşhur ingilis iqtisadçısı Con Meynard Keynsin (1883-1946) təlimi təşkil edirdi. Həmin təlimə əsasən Ruzveltin islahatında dövlətin ictimai təkrar istehsalı prosesinə qarışmasına üstünlük verilirdi.

1933-1935-ci illərdə ilk növbədə bank və maliyyə sisteminin sağlamlaşdırılması üçün xaricə qızıl aparılması, bank biletlərinin qızıla dəyişdirilməsi qadağan edilirdi. Bütün banklar bağlanmışdı (hətta bir çox ictimai xadimlər və siyasətçilər bankların milliləşdirilməsini də təklif edirdilər (əlbəttə, Ruzvelt bu təklifi məqbul hesab etmədi). **Federal ehtiyat sistemi yaradılmışdır.**

Bank sisteminin təmərgüzləşməsi nəticəsində bankların sayı 25 mindən 15 minə endirilmişdir. **1933-cü ildə "Milli sənayenin bərpa edilməsi barədə" qanun qəbul edilmişdir**. Bu qanunun həyata keçirilməsi üçün müəyyən səviyyədə işçi qrupu yaradılmış (iri maliyyə oliqarxiyalarının nümayəndələri, iqtisadçılar, Amerika Əmək Federasiyasının nümayəndələri və s.) və onlar da dövlət tənzimləmə sistemindən geniş istifadə etmişlər. Burada **"düzgün rəqabət kodeksi"** əsas götürülürdü (rəqabət, məşğulluq və muzdla işləmək qaydaları müəyyən edilirdi).

Bütün sənaye müəssisələri birlikləri **17 qrupa** bölünürdü. Bunların haamısı da belə bir kodeks hazırlamalı idi. Hər bir müəssisənin kodeksində istehsalın həcmi, əmək haqqının səviyyəsi, iş həftəsinin davamiyyəti, məhsulun satış bazarı, vahid

qiymət siyasəti, iş şəraiti göstərilirdi. Beləliklə Amerika sənayesi və ticarətinin **99 %-ni əhatə edən 746 kodeks təsdiq edilmişdir.**

Həmin qanunun 2-ci və 3-cü bölmələrində isə vergiyə cəlb etmə formaları, ictimai işlə təmin olunma fondu, işsizliklə mübarizə (əmək düşərgələrinin yaradılması) və s. əks olunurdu. Bu qanuna əsasən iri inhisarların mövqeyi xeyli möhkəmləndirilirdi. Həmin vaxtlar ikinci qanun **"kənd təsərrüfatının tənzim edilməsi haqqında qanun" (1933) idi**. Bu qanuna əsasən:

1. Kənd təsərrüfatı məhsullarının qiymətləri nisbətən artırıldı.

2. Fermerlərin borcu maliyyələşdirilirdi (1933-cü ilin əvvəlinə 12 mlrd. dollar idi).

3. İnflyasiya tədbirləri həyata keçirilirdi (fermerlərə 2 mlrd. dollar kredit verilmişdi).

Bütün bunlarla yanaşı 1935-ci ildə "Yeni kurs" çətinliklərlə rastlaşmalı oldu. 1933-1939-cu illərdə 8 mln. nəfərdən çox tətil etmişdilər. 1936-cı ildə Amerika fəhlələrinin cəmiyyətini yarada bildilər. Beləliklə 1935-ci il iyul ayının 5-də Ruzvelt "Əmək münasibətləri barədə milli akta" imza atdı (senator R.Vaqnerin adı ilə bağlı olaraq bu Vaqner qanunu adlanır).

Bir müddətdən sonra sosial təminat barədə qanun qəbul edilmişdi. **1938-ci ildə "Ədalətli əmək şəraiti haqqında qanun" qəbul edilmişdir.** Bu qanuna əsasən uşaq əməyindən istifadə qadağan edilmişdir. Vahid əmək haqqı norması, əmək haqqının minimum və maksimum həddi müəyyənləşdirilmiş və iş həftəsinin həddi 44 saat müəyyən edilmişdir. Ruzveltin "Yeni kursunda" əhalinin bütün təbəqələrinin mənafeyinə diqqət verilirdi.

Ruzvelt siyasətində Dövlət İnhisarçı Kapitalizmin Liberal İslahatçı inkişafının xüsusiyyətləri də əks olunurdu. "Yeni kursun" ətrafında geniş liberal-demokratik qüvvələr birləşirdi. Odur ki, 1936-cı ildə Ruzvelt ikinci dəfə prezident seçilə bilmişdir. 1937-ci ildə Ali məhkəmədə də islahat aparılmışdır.

İkinci dövr - ikinci dünya müharibəsinin qurtardığı vaxtdan 50-ci illərin axırlarınadək olan müddəti əhatə edir. Bu dövrün əsas xarakterik cəhəti ondan ibarətdir ki, həmin müddətdə ABŞ iqtisadiyyatının əsas istiqaməti xalqın tələbatının ödənilməsinə yönəldilmişdir. İstehlak tələbinin rolunun artması və iqtisadi artımın hərəkətverici qüvvəsinə çevrilməsi genişlənirdi.

Beynəlxalq planda isə həmin dövrü ABŞ-ın üstünlüyü dövrü adlandırmaq olar (1953-cü ildə ABŞ-dünya üzrə emal sənayesinin 55,3 %-ni öz əlində cəmləşdirirdi). ABŞ həmin dövrdə Marşal planı əsasında Qərbi Avropanın bərpasına və bu ölkələrə borc və məhsuldar kapitalı göndərilməsinə də fəal köməklik edirdi.

Üçüncü dövr - 1957-1958-ci illərin böhranı ilə başlayıb 1973-1975-ci illərin böhranınadək davam edir. Həmin dövrdə ABŞ-da konveyer üsulu ilə istehsal daha da genişlənirdi və kütləvi istehlak üçün standart məhsul istehsalı artırılırdı. ABŞ-da dövlət tənzimlənməsində Keyns nəzəriyyəsinə daha üstünlük verilirdi. Bu dövrdə dünya iqtisadiyyatında ABŞ-ın xüsusi çəkisi də dəyişmişdir. Belə ki, dünya üzrə ümumi milli məhsulda ABŞ-ın payı 1960-cı ildəki 26 %-dən 1970-ci ildə 23 %-ə enmişdir. Emal sənayesi məhsulunun istehsalı isə 1963-cü ildəki 30,2 %-dən 1970-1973-cü illərdə 24,5 %-ədək azalmışdır. Həmin dövrdə ABŞ üçün kiçik tərəfdaş hesab edilən Qərbi Avropa dövlətləri və Yaponiya dünya bazarında və daxili bazarda onun fəal rəqibinə çevrilirdilər. Həmçinin bu dövrdə dollar ilə yanaşı, Almaniya markası, Yaponiya və digər valyutalar da beynəlxalq hesablaşmalar hüququ (statusu) almışdırlar.

Dördüncü dövr - 70-ci illərin axırlarından başlanır. Bu dövrdə bir çox xammalların dünya qiymətləri artmışdır. Ona görə də, yeni texnologiyaya keçməyə zərurət yaranmışdır. İqtisadiyyatın tənzimlənməsində pul siyasətinin rolu əsaslı surətdə genişlənmişdir.

Beşinci dövrdəki onilliklərdə dünya təsərrüfatında ABŞ-ın mövqeyi bir çox amillərlə səciyyələnir. Bu amillərdə biri ondan ibarətdir ki, yeni sənaye sahələri, texnologiya yaradılması sahəsinidə ABŞ ilə qərb ölkələri və Şərqi Asiya ölkələri (Yaponiya, Çin, İndoneziya, Tayvan, C.Koreya, Malayziya, Sinqapur və s.) arasındakı kəskin fərqlər müəyyən qədər azalmışdır. Hərbi xərclərin artması, vergilərin azalması büdcə kəsərini artırmışdır. Büdcə qıtlığı 1980-ci ildəki 74 mlrd. dollardan 1992-ci ildə 290 mlrd. dollara çatmış, 1995-ci ildə 164 mlrd. dollara bərabər

olmuşdur. Bununla yanaşı ABŞ-ın daxili borcu da artmışdır. Bu daxili borcları ödəmək üçün dövlət yeni istiqrazlar buraxmalı olmuşdur ki, bununla da investisiya üçün zəruri olan pul vəsaitinin artırılmasına imkan yaranmışdır. Bu məbləğ 4 trln. dollardan artıq idi. Həmin dövrdə ABŞ-ın dövlət borcu ÜDM-in yarısından çoxu qədər olmuşdur (1980-ci ildə 27,2 %, 1995-ci ildə 68 % təşkil etmişdir). Qeyd etmək maraqlıdır ki, həmin borcun faizi ABŞ-ın təhsil, elm, nəqliyyat, mənzil tikintisi, xüsusi növdən olan yardım və s. üzrə federal xərclərinin cəmindən artıq idi. Belə bir şəraitdə iqtisadiyyatın tənzimlənməsi sistemində sabitlik yaratmaq elementi kimi kredit və pul siyasətinin rolu genişləndirilməli olurdu.

1980-ci illərin əvvəllərindən ölkədə pul ehtiyatının az olması üzündən büdcə kəsirinin ödənilməsi, şirkətlərin investisiya həyata keçirməsi, əhalinin istehlak krediti götürməsi və s. çətinləşirdi. Nəticədə faiz dərəcələri yüksəlmişdir. Bu isə xarici pul kapitalının ABŞ-a axmasına səbəb olmuşdur. 1980-1994-cü illərdə ÜDM-in tərkibində kapital qoyuluşunun xüsusi çəkisi qərb ölkələrindən geri qalırdı. Hər nəfər işçiyə düşən kapital qoyuluşunun həcmi də azalmışdır. Ona görə də, ABŞ ilə digər qabaqcıl ölkələr arasındakı fərq də azalmışdır. Belə ki, hər nəfər işçi hesabı ilə emal sənayesinə qoyulan investisiyanın həcminə görə Yaponiya 1970-ci ildə ABŞ-ın 39 %-ni təşkil etdiyi halda, 1988-ci ildə bu göstərici 69 % olmuşdur. Almaniya isə müvafiq olaraq 55 %-dən 82 %-ə çatmışdır. 1960-cı illərdən əmək məhsuldarlığının artım surətinin azalması qərb ölkələrindəkindən artıq olmuşdur. Nəticədə sənaye ölkələri əmək məhsuldarlığına görə ABŞ-a yaxınlaşmışlar (buna baxmayaraq hələki, ABŞ Yaponiya və qərb ölkələri rəqiblərini 20 % qabaqlayırdı). Bütün bunlardan belə nəticə çıxarmaq olur ki, hər bir cəhətdən çox qüdrətli olan ABŞ-ın özündə də müəyyən iqtisadi çətinliklər baş verə bilirdi. Bunlara baxmayaraq Amerika iqtisadiyyatı çox məhsuldar və rəqabət qabiliyyətli bir iqtisadiyyat olaraq qalır. Real əmək haqqı faktiki olaraq dəyişməmişdir. Gəlirlərin qeyri-bərabərliyi artmışdır, məşğulluq yüksəlmişdir.

Beləliklə XX əsrdə ABŞ-ın iqtisadiyyatında köklü dəyişiklik baş vermişdir. 1947-ci ildən 2001-ci ilədək olan müddətdə iqtisadiyyatın baza sahələrinin xüsusi çəkisi azalsa da, ümumi qüdrəti yüksəlməkdə davam edir. Belə ki, həmin müddətdə emal sənayesinin xüsusi çəkisi 28,9 %-dən 14 %-ə enmişdir. ÜDM isə 232 mlrd. dollardan 10,1 trln. dollara (2005-ci ildə isə 12456 mlrd. dollara) çatmışdır. Kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi 8,9 %-dən 1,3 %-ə ensə də həcmi xeyli artmışdır.

Amerika iqtisadiyyatında 5 emal sənaye sahəsi daha həlledici rol oynayır:

- yeyinti sənayesi – ümumi sənayenin 12,5 %;
- kimya sənayesi – 12,4 %;
- kompüter və elektronika – 10,4 %;
- avtomobil sənayesi – 8,8 %;
- metal emalı – 8,3 %;
- dəzgahqayırma, təyyarəqayırma, nəqliyyat avadanlığı və digər sahələr – 47,6 %.

Cəmi işçilərin 21,7 % maddi istehsal sahələrində işləyir.

2003-cü ilin məlumatına görə ÜDM-in 12,7 %-i emal sənayesində, 20,3 %-i isə maliyyə bölməsində yaradılmışdır. Maliyyə sahəsində çalışan hər bir işçi emal sənaye sahəsində çalışan hər bir işçidən 3 dəfə artıq məhsul yaradır.

2. Dünya təsərrüfatında ABŞ-ın mövqeyi

ABŞ bazarın miqyası və zənginliyinə, elmi-texniki potensialın səviyyəsinə, dünya təsərrüfatı sistemindəki əlaqələrinə (ticarət, investisiya, bank kapitalı və s.) görə başqa ölkələrə nisbətən daha çox üstünlük təşkil edir. Belə ki:

1. **Daxili bazarın daha yüksək həcmdə olması ABŞ-ın** dünya iqtisadiyyatında xüsusi mövqeyə malik olmasına imkan verir. ABŞ-ın dünyada ən çox ÜDM-ə malik olması onu göstərir ki, o, hər bir ölkədən daha çox cari istehlaka və investisiyaya vəsait xərcləyir. ABŞ-da 90-cı illərin əvvəlinə sabit-möhkəm təsərrüfat quruluşu bərqərar olmuşdur. Burada xidmət sahəsinin xüsusi çəkisi daha da artmışdır. Hazırda ABŞ-da ÜDM-də

xidmətin xüsusi çəkisi 77,5 %, maddi istehsal sahəsi 22,5 % (kənd təsərrüfatı 2 %) təşkil edir, məşğulluğun təmin edilməsində də xidmətin böyük rolu vardır.

ABŞ-da daha aparıcı sahələr sırasına avtomobilqayırma, avtokosmik, telekommunikasiya, kimya, elektrotexnika, elektronika və s. aid etmək olar. Bütün bu sahələr dünyada böyük mövqeyə malikdir. İnkişaf etmiş ölkələrdə maşınqayırma sahəsi məhsullarının satışının 40 %-i ABŞ-ın payına düşür. 150-dən çox sənaye şirkəti dünyanın ən böyük 500 şirkətinin tərkibinə daxildir. Dünyada 27 qabaqcıl sənaye sahəsinin on dördündə Amerika, dördündə Yaponiya, ikisində Almaniya şirkətləri aparıcı rola malikdir. Elektron hesablama maşınları istehsal edən 25 qabaqcıl şirkətin 9-u, əczaçılıqla məşğul olan şirkətin 10-u ABŞ-a məxsusdur. ABŞ qabaqcıl kənd təsərrüfatı məhsulları istehsal edən ölkədir. Dünya üzrə buğda istehsalının 12 %-i, qarğıdalının 46 %-i, paxlalıların 52 %-i, pambığın 21 %-i, yağ alınan toxum - dənənin (o cümlədən zeytun), 18 %-i, ətin 17 %-i ABŞ-ın payına düşür.

2. ABŞ dünyada ən böyük elmi-texniki potensiala malikdir. Məhz elə bu cəhətcə də müasir dövrdə dünyada iqtisadi inkişafın və rəqabət qabiliyyətinin həlledici amili kimi çıxış edir. ABŞ-da elmi-tədqiqat və təcrübə konstruktor işlərinə (ET və TKİ) buraxılan pul vəsaiti Britaniya, Almaniya, Fransa və Yaponiyanın birlikdə həmin sahəyə ayırdığı vəsaitdən artıqdır. 1992-ci ildə ABŞ-ın həmin sahəyə ayırdığı vəsait 160 mlrd. dollara bərabər olmuşdur. Amerika şirkətləri dünyada ETT istiqamətində də birinci yerdə dayanırlar - **təyyarə və kosmik aparatlar, güclü kompüterlər istehsalı və onların proqramla təmin edilməsi, yarımkeçiricilər istehsalı, lazer texnikası istehsalı, rabitə vasitələri, biotexnologiya istehsalı** və s. istehsalında yüksək göstəricilərə malikdir.

3. ABŞ dünyada yüksək texnologiyaya əsaslanan məhsul istehsalçısı kimi də məşhurdur. Bu cür məhsullar elmtutumlu məhsul adlanırlar. 90-cı illərin əvvəllərinə bu cür məhsullarda ABŞ-ın xüsusi çəkisi 36 %, Yaponiyanınkı 20 %, Almaniyanınkı 9 % təşkil edirdi. 2004-cü ildə yüksək texnoloji məhsul ixracı cəmi sənaye məhsulu ixracının 34 %-nə bərabər olmuşdur.

2001-ci ilin məlumatına görə ABŞ-da emal sənayesi ÜDM-in 16,1 %-nə bərabər olmuşdur. Cəmi işçilərin 15 %-i həmin sahələrdə çalışır.

Emal sənayesi məhsulları istehsalına görə ABŞ dünyada 1-ci yeri tutur, dünya istehsalının 30 %-nə malikdir.

Dünya üzrə həmin sahədən olan məhsul ixracının 14 %-i ABŞ-a məxsusdur (1-ci yeri tutur). O cümlədən maşınqayırma məhsulları ixracının 17 %-i, kimya sənyaesi məhsulları ixracının 14,5 %-i ABŞ-a məxsusdur. Emal sənayesi inkişafının əsas istiqaməti baza sahələri olan kapital – material və enerjitutumlu sahələrdən elmtutumlu sahələrə keçiddən ibarətdir. Burada ilk növbədə əczaçılıq, elektron, aviakosmik sənayesi və s. nəzərdə tutulur.

Əlavə dəyər yaradılmasında emal sənayesinin daha qabaqcıl sahələri olan elektron sənayesi – 143,2 mlrd. dol.; kimya sənayesi – 163,1 mlrd. dol.; ümumi maşınqayırma – 148,6 mlrd. dol.; yeyinti sənayesi – 123,0 mlrd. dol.; avtomobilqayırma – 111,4 mlrd. dol.; metal emalı – 100 mlrd. dol. (2001) təşkil etmişdir.

ABŞ dövlətlərarası rəqabət qabiliyyəti, firmaların rəqabət qabiliyyəti, texnoloji inkişafın səviyyəsi kimi çox zəruri göstəricilərə görə 1-ci yeri tutur (Böyük Britaniya – 11-ci, Yaponiya – 13-cü, Almaniya – 14-cü yerdədirlər (2002)).

4. ABŞ-da bilik yığımının - toplanmasının hazırlanması, araşdırılması, məlumat barədə xidmət göstərilməsi sahəsi də yüksək səviyyədədir. Hazırda inkişaf etmiş ölkələrdə olan bankların 75 %-nin məlumatları ABŞ-da cəmlənibdir.

5. ABŞ-ın elmi-texniki potensialının əsas özəyini yüksək ixtisaslı alimlər və mühəndislər təşkil edir. 90-cı illərin əvvəllərinə ABŞ-da cəmi elmi işçilərin sayı 6 mln. 950 min nəfər təşkil etmişdir. ABŞ bütün fəhlələrin tərkibində alimlərin və mühəndislərin xüsusi çəkisi ən çox olan ölkə kimi də fərqlənir. Hər 10000 nəfər işçinin ABŞ-da 298, Yaponiya və Britaniyada 328, Almaniyada 210, Fransada 165 nəfəri alim və mühəndisdir. ABŞ-da bütün işçilər heyəti yüksək təhsil səviyyəli olmaları ilə fərqlənirlər. Belə ki, 2001-ci ilin ortalarına 25 yaşdan yuxarı olan əhalinin 38,7 %-i orta məktəb təhsilli, 25 %-i ali təhsilli,

14,7 %-i bakalavr dərəcəli, 7 %-i magistr təhsilli idilər. Yaşlıların ancaq 11,6 %-i natamam orta (8 illik və s.) təhsillidir. 2002-ci ildən ali təhsilə çəkilən xərclər – 291,0 mlrd. dollar, məktəb təhsilinə çəkilən xərclər – 454 mlrd. dollar, yaşlıların peşəkarlığı hazırlığına çəkilən xərclər isə 150 mlrd. dollar olmuşdur.

Səhiyyə xidməti xərcləri 1,5 trln. dollar təşkil etmişdir.

ABŞ-ın ümumi işçilərinin sayı 138 mln. nəfərdir. Bunun təqribən 60 %-i əsasən zehni əməklə məşğul olanlar - (ağ vorotniklər) mühəndis, texniklər, alimlər, qulluqçular və s. 25 %-i fəhlələr, 15 %-i aşağı təbəqəli işçilərdir. 1970-1995-ci illərdə fəhlələr içərisində orta təhsil alanların xüsusi çəkisi 52 %-dən 74 %-ə dək artmışdır.

Bütün bunlar - yüksək elmi-texniki potensial, yüksək təhsil səviyyəsi, peşəkarlıq hazırlığı və s. Amerika şirkətlərinə imkan verir ki, daxili bazarda və dünya bazarında rəqabət apara bilsinlər. Beləliklə, dünya təsərrüfat sistemi - kompleksinin fəaliyyət göstərməsində (xüsusilə XX əsrin ikinji yarısından) ABŞ-ın xüsusi rolu vardır. Əvvəllər bir çox sahələrdə ABŞ-ın mütləq üstünlüyü mövcud idisə, hazırda Qərbi Avropa, Yaponiya, "yeni sənaye ölkəri" onunla rəqabət apara bilirlər.

3. ABŞ-ın dünya iqtisadiyyatına təsiri amilləri

Dünya təsərrüfatı inkişafının müasir mərhələsində təsir amili kimi milli bazarın həcmi və səviyyəsi böyük rola malikdir. ABŞ-da hər cürə ehtiyatların zənginliyi ona imkan verir ki, xarici mənbələrdən asılı olmasın və öz makroiqtisadi siyasətində daha sərbəst hərəkət etsin. Bir çox ölkələrin öz məhsullarının satış və xidmətinin həcmi Amerikanın milli bazarının tələbindən asılıdır. Çünki, Amerikada bir çox məmulatlar xaricdən alınan xammal hesabına hazırlanır. Amerika iqtisadiyyatında olan dəyişikliklər və Amerika bazarına gəlmək şərtlərinin dəyişməsi idxal və ixrac edən kompaniyaların vəziyyətinə əsaslı surətdə təsir edə bilir. Belə ki, məsələn ABŞ inkişaf etmiş maşınqayırma sənayesinə malik olduğu halda, həm də bu sahədə güclü idxalçı kimi çıxış edir. Dünya üzrə ixrac olunan maşın və avadanlıqların təqribən

20 %-ni, eləcə də yanacağın 20 %-ni idxal edir. Beləliklə başqa ölkələrin Amerika bazarına olan marağını artırır.

Başqa ölkələrlə müqayisədə ABŞ-ın milli iqtisadiyyatında ixracın xüsusi çəkisi o qədər də çox deyildir. Belə ki, ABŞ-ın bütün ixrajı ÜDM-in 7-8 %-ni təşkil edir (2005). Lakin bəzi sahələrdə ixracın həcmi çoxdur. Məsələn, ABŞ kənd təsərrüfatı məhsulunun 25 %-ni, bəzi məhsulların isə 50 %-ə qədərini ixrac edir. Buradan da aydın olur ki, ayrı-ayrı sahələr beynəlmiləlləşmə dərəcəsinə görə fərqlənirlər, beynəlxalq əmək bölgüsündə eyni səviyyədə iştirak edə bilmirlər.

ABŞ mütləq mənada idxalın və ixracın həcminə görə dünyada birinci yeri tutur. 2005-ci ildə dünya üzrə cəmi ixracın 9,3 % (907,2 mlrd. dol.), idxalın isə 17,5 %-i (1732,3 mlrd. dol.) ABŞ-ın payına düşmüşdür. ABŞ çoxlu kənd təsərrüfatı məhsulları ixrac edən ölkədir. Belə ki, dünya üzrə cəmi buğda ixracının 35 %-ni, qarğıdalı və paxlalıların 69 %-ni, pambığın 25 %-ni, düyünün 18 %-ni, tütünün 12 %-ni ABŞ həyata keçirir. Özünün kənd təsərrüfatı məhsulunun 25 %-ni ixrac edir.

ABŞ-ın cəmi daxili tələbinin 12 %-i idxal hesabına ödənilir. Bəzi məhsullarda isə bu göstərici nisbətən artıqdır. Məsələn, parça, polad və bir çox digər məhsullar üzrə tələbatın 20 %-i idxal hesabına ödənilir. Eləcə də ABŞ-ın satdığı avtomobilin 30 %-i idxal hesabına (bunun 19 %-i Yaponiyadan, 4 %-i Qərbi Avropadan, 4 %-i Koreyadan idxal edilmişdir) həyata keçirilir.

Son illərdə dəzgah və avadanlıq satışının 50 %-i, məişət elektrotexnikası, ayaqqabı və bir çox digər məhsul satışının 80 %-i idxal hesabına olmuşdur. Yaponiya öz ixracının 27-29 %-ni; Almaniya - 8-10 %-ni ABŞ-ilə həyata keçirir. Son illərdə ABŞ bir çox digər ölkələrin də ixrac məhsullarının istehlakçısına çevrilmişdir. Belə ki, 90-cı illərdə Meksika cəmi ixracının 91,1 %-ni, Tayvan 46,2 %-ni, Filippin 40,4 %-ni, C.Koreya-38,1 %-ni, Braziliya-32,0 %-ni, Sinqapur-21,6 %-ni ABŞ ilə həyata keçirmişdir. ABŞ bazarına çıxış Yaponiya və Qərb ölkələrinin iqtisadi inkişaf amilinə çevrilmişdir.

100 min avtomobil buraxmaq imkanı əldə edəcəkdir ki, bunun da 70 %-ni ixrac edəcəkdir. **ABŞ-ın TMK-larının mövqeyi inkişaf** etməkdə olan ölkələrin elektron sənayesində də çox genişdir. Beləki, 2002-ci ilin əvvəlinə bu şirkətlər Cənub-Şərqi Asiya ölkələri Birliyində (ASEAN) 50 zavod tikib istifadəyə veribdirlər. Bunlar əsasən EVM üçün yarımkeçiricilər, informasiya sistemi və komplektləşdirmə yığımı üzrə ixtisaslaşmışlar. Burada da həmin məhsulların əsasən ixracı nəzərdə tutulmuşdur.

1990-cı illərdə ABŞ TMK-larının cəmi birbaşa kapitalının 76 %-i inkişaf etmiş ölkələrin payına düşdüyü halda 2002-ci ildə bu göstərici 68,9 % olmuşdur.

Hazırda ABŞ tərəfindən ən çox investisiya qoyulan ölkələr Böyük Britaniya 255,4 mlrd. dollar; Kanada – 152,5 mlrd. dollar; Niderland – 145,5 mlrd. dollar; İsveçrə – 70,1 mlrd. dollar və Yaponiyadır – 65,7 mlrd. dollar.

Aİ 15 ölkələrinin xüsusi çəkisi 700 mlrd. dollar və yaxud ABŞ-ın cəmi birbaşa xarici investisiyasının 46 %-ni təşkil edir.

İnkişaf etməkdə olan 130 ölkənin iqtisadiyyatına qoyulan birbaşa investisiyanın həcmi isə 456,4 mlrd. dollar və yaxud 30 %-dir (2002).

ABŞ-ın dünya iqtisadiyyatına təsiri Beynəlxalq təşkilatlardakı mövqeyi vasitəsi ilə də həyata keçirilir. Məsələn, BVF-də ABŞ-ın 472 səsi var, bu 17,14 %-ə bərabərdir. Bu Yaponiya (4), Almaniya (4), Fransa (4) və Böyük Britaniyanın (4) birlikdə malik olduğu səsdən artıqdır. Odur ki, ABŞ-ın razılığı olmadan BVF-in icra şurası hər hansı bir qərar qəbul edə bilmir.

Bütün bu transmilli şirkətlərin investisiyalarından əldə edilən gəlir ABŞ-ın xarici fəaliyyətinin maliyyələşdirilməsinin və beynəlxalq əməkdaşlığın inkişafının ən zəruri mənbəi hesab edilir. Öz növbəsində ABŞ da, hazırda birbaşa xarici kapital qoyuluşunu özünə cəlb edən (həzm edən) ən böyük xüsusi çəkiyə malikdir - 21%. Bunun da 65%-i Qərbi Avropa ölkələrinin payına düşür.

2000-ci ildə Amerika iqtisadiyyatına yönəldilən xarici investisiyanın 23,6 %-i İngiltərənin kompaniyaları, 19,4 %-i Yaponiya tərəfindən həyata keçirilmişdir. Birbaşa investisiyanın 37 %-i emal sənayesinə, 15 %-i isə ticarət dairəsinə sərf edilmişdir.

ABŞ-ın borc kapitalındakı mövqeyi də güclüdür. Amerika təsərrüfatı güclü daxili bazara əsaslanır. Ölkənin kompaniyaları yalnız güclü kreditor kimi çıxış etmir. Başqa ölkələrin borc kapitalından da geniş istifadə edirlər. ABŞ-ın daxili maliyyə bazarı o qədər təkmildir ki, o, ildə xaricdən 100-150 mlrd. dollar vəsait qəbul edib yerləşdirmək imkanına malikdir. ABŞ-ın daxili kredit bazarının miqyası dünya üzrə pul vəsaitinin hərəkətinə güclü bir amil kimi təsir edir.

ABŞ-ın TMK-rı və onların müəssisələrinin gücü ilə xaricdə **3 trl. dollar** həcmində əmtəə və xidmətlər istehsal edilir. Bu isə həmin ölkələrin iqtisadi inkişafına güclü təsir edir. Dünya üzrə elmi-tədqiqat təcrübə konstruksiya işlərinə (ETTKİ) çəkilən xərcin 40 %-i ABŞ-ın payına düşür.

4. Müasir dövrdə ABŞ-ın makroiqtisadi siyasəti

ABŞ XX əsrin ikinci yarısından dünya iqtisadiyyatında liderlik edir. O vaxtdan da öz daxili siyasətinin taktika və strategiyasında xarici iqtisadi amildən geniş istifadə edir.

XXI əsrin ilk illərindən amerika biznesi dünya bazarında öz mövqeyini daha da genişləndirmişdir.

Bütövlükdə ABŞ-da ixrac ÜDM-in 20 %-dən artıq deyildir (Aİ ölkələrindən aşağıdır). İdxal ixracdan yüksəkdir. Kənd təsərrüfatında isə əksinə ixrac idxalı üstələyir.

Daha perspektivli sahələrdə işləmək üçün onların hazırlanmasına 10 illiyə 12 mlrd. dollar vəsait ayrılmışdır.

Eləcə də amerika şirkətlərinin xarici ölkələrin bazarlarında möhkəmlənməsi siyasəti aparılır.

ABŞ-ın iqtisadi inkişafında dövlət tənzimlənməsi praktikası geniş vüsət almışdır. Belə ki, 1929-1933-cü illərdəki iqtisadi böhran dövründən başlayaraq 70-ci illərin ortalarınadək hətta inzibati qaydada belə, dövlətin iqtisadiyyata qarışması mövcud idi.

70-ci illərdən aydın hiss olunurdu ki, ABŞ-dakı tənzimləmə sistemi iqtisadi artımı ləngidir, dövlət aparatı genişlənir, Amerika məhsullarının rəqabət qabiliyyəti azalır.

100 min avtomobil buraxmaq imkanı əldə edəcəkdir ki, bunun da 70 %-ni ixrac edəcəkdir. **ABŞ-ın TMK-larının mövqeyi inkişaf** etməkdə olan ölkələrin elektron sənayesində də çox genişdir. Beləki, 2002-ci ilin əvvəlinə bu şirkətlər Cənub-Şərqi Asiya ölkələri Birliyində (ASEAN) 50 zavod tikib istifadəyə veribdirlər. Bunlar əsasən EVM üçün yarımkeçiricilər, informasiya sistemi və komplektləşdirmə yığımı üzrə ixtisaslaşmışlar. Burada da həmin məhsulların əsasən ixracı nəzərdə tutulmuşdur.

1990-cı illərdə ABŞ TMK-larının cəmi birbaşa kapitalının 76 %-i inkişaf etmiş ölkələrin payına düşdüyü halda 2002-ci ildə bu göstərici 68,9 % olmuşdur.

Hazırda ABŞ tərəfindən ən çox investisiya qoyulan ölkələr Böyük Britaniya 255,4 mlrd. dollar; Kanada – 152,5 mlrd. dollar; Niderland – 145,5 mlrd. dollar; İsveçrə – 70,1 mlrd. dollar və Yaponiyadır – 65,7 mlrd. dollar.

Aİ 15 ölkələrinin xüsusi çəkisi 700 mlrd. dollar və yaxud ABŞ-ın cəmi birbaşa xarici investisiyasının 46 %-ni təşkil edir.

İnkişaf etməkdə olan 130 ölkənin iqtisadiyyatına qoyulan birbaşa investisiyanın həcmi isə 456,4 mlrd. dollar və yaxud 30 %-dir (2002).

ABŞ-ın dünya iqtisadiyyatına təsiri Beynəlxalq təşkilatlardakı mövqeyi vasitəsi ilə də həyata keçirilir. Məsələn, BVF-də ABŞ-ın 472 səsi var, bu 17,14 %-ə bərabərdir. Bu Yaponiya (4), Almaniya (4), Fransa (4) və Böyük Britaniyanın (4) birlikdə malik olduğu səsdən artıqdır. Odur ki, ABŞ-ın razılığı olmadan BVF-in icra şurası hər hansı bir qərar qəbul edə bilmir.

Bütün bu transmilli şirkətlərin investisiyalarından əldə edilən gəlir ABŞ-ın xarici fəaliyyətinin maliyyələşdirilməsinin və beynəlxalq əməkdaşlığın inkişafının ən zəruri mənbəi hesab edilir. Öz növbəsində ABŞ da, hazırda birbaşa xarici kapital qoyuluşunu özünə cəlb edən (həzm edən) ən böyük xüsusi çəkiyə malikdir - 21%. Bunun da 65%-i Qərbi Avropa ölkələrinin payına düşür.

2000-ci ildə Amerika iqtisadiyyatına yönəldilən xarici investisiyanın 23,6 %-i İngiltərənin kompaniyaları, 19,4 %-i Yaponiya tərəfindən həyata keçirilmişdir. Birbaşa investisiyanın 37 %-i emal sənayesinə, 15 %-i isə ticarət dairəsinə sərf edilmişdir.

ABŞ-ın borc kapitalındakı mövqeyi də güclüdür. Amerika təsərrüfatı güclü daxili bazara əsaslanır. Ölkənin kompaniyaları yalnız güclü kreditor kimi çıxış etmir. Başqa ölkələrin borc kapitalından da geniş istifadə edirlər. ABŞ-ın daxili maliyyə bazarı o qədər təkmildir ki, o, ildə xaricdən 100-150 mlrd. dollar vəsait qəbul edib yerləşdirmək imkanına malikdir. ABŞ-ın daxili kredit bazarının miqyası dünya üzrə pul vəsaitinin hərəkətinə güclü bir amil kimi təsir edir.

ABŞ-ın TMK-rı və onların müəssisələrinin gücü ilə xaricdə **3 trl. dollar** həcmində əmtəə və xidmətlər istehsal edilir. Bu isə həmin ölkələrin iqtisadi inkişafına güclü təsir edir. Dünya üzrə elmi-tədqiqat təcrübə konstruksiya işlərinə (ETTKİ) çəkilən xərcin 40 %-i ABŞ-ın payına düşür.

4. Müasir dövrdə ABŞ-ın makroiqtisadi siyasəti

ABŞ XX əsrin ikinci yarısından dünya iqtisadiyyatında liderlik edir. O vaxtdan da öz daxili siyasətinin taktika və strategiyasında xarici iqtisadi amildən geniş istifadə edir.

XXI əsrin ilk illərindən amerika biznesi dünya bazarında öz mövqeyini daha da genişləndirmişdir.

Bütövlükdə ABŞ-da ixrac ÜDM-in 20 %-dən artıq deyildir (Aİ ölkələrindən aşağıdır). İdxal ixracdan yüksəkdir. Kənd təsərrüfatında isə əksinə ixrac idxalı üstələyir.

Daha perspektivli sahələrdə işləmək üçün onların hazırlanmasına 10 illiyə 12 mlrd. dollar vəsait ayrılmışdır.

Eləcə də amerika şirkətlərinin xarici ölkələrin bazarlarında möhkəmlənməsi siyasəti aparılır.

ABŞ-ın iqtisadi inkişafında dövlət tənzimlənməsi praktikası geniş vüsət almışdır. Belə ki, 1929-1933-cü illərdəki iqtisadi böhran dövründən başlayaraq 70-ci illərin ortalarınadək hətta inzibati qaydada belə, dövlətin iqtisadiyyata qarışması mövcud idi.

70-ci illərdən aydın hiss olunurdu ki, ABŞ-dakı tənzimləmə sistemi iqtisadi artımı ləngidir, dövlət aparatı genişlənir, Amerika məhsullarının rəqabət qabiliyyəti azalır.

Nəticədə Keynsçilik öz yerini monetarist baxışlara vermişdir. Monetarizm - pul amilinin köməkliyi ilə (ölkədə pul buraxılması, pulun kütləsi üzərində nəzarət, balanslaşdırılmış büdcəyə nail olmaq, bank kreditinin faizinin müəyyən edilməsi və s.) ölkənin iqtisadiyyatını sabitləşdirmək tədbirlərini nəzərdə tutur.

Amerika iqtisadçısı Milton Fridmen (1912-ci il təv.) "yeni monetarist məktəbinin" başçısı kimi öz nəzəri araşdırmaları ilə məşhurdur (1976-cı ildə Nobel mük.laur.). O vaxt Amerikanın prezidenti R.Reyqan (1911-ci il təv.) öz iqtisadi proqramında onun fikirlərindən geniş istifadə etmişdir. R.Reyqan göstərirdi ki, kim Amerikanın gələcəyi ilə maraqlanırsa M.Fridmeni oxusun. Beləliklə "Reyqanomika" adı almış Reyqan proqramı (1970-ci illərin sonu 1980-ci illərin başlanğıcı) ABŞ-ın iqtisadi siyasətində aşağıdakı vəzifələrin həllini nəzərdə tuturdu:

- hökumətin federal xərclərinin azaldılması;
- vergi dərəcəsini azaltmaq, kapital qoyuluşu və iqtisadi artıma maraq oyatmaq üçün istehsalçılara müəyyən güzəştlər etmək;
- dövlətin sahibkarlıq fəaliyyəti payını məhdudlaşdırmaq (dövlətin bəzi hüquqlarını, bazar fəaliyyəti, ətraf mühitin qorunması, texniki təhlükəsizlik və s. barədəki tələblərini azaltmaq);
- inflyasiyanın zəiflədilməsi üçün kredit-pul siyasəti həyata keçirmək.

Reyqanın iqtisadi proqramı "Amerika üçün yeni başlanğıc, iqtisadi dirçəliş proqramı" adlanırdı. Bu proqrama əsasən gəlir vergisi dərəcəsi 23 % azaldılmışdır. Amortizasiya müddəti 40 % aşağı salınmışdır. Pul kütləsinin artımının və kommersiya banklarının faiz normalarının da azaldılması nəzərdə tutulurdu.

Pul kütləsinin artım sürəti ÜDM-in artım sürəti ilə eyniləşdirilirdi. Bu proqramın həyata keçirilməsi ABŞ iqtisadiyyatının (hətta sonrakı dövrlərdə belə) sıçrayışlı inkişafına real zəmin yaratmış oldu. Belə ki, ÜDM-in artımı 1983-cü ildə 4 %, 1987-ci ildə – 7 %, 1990-1991-ci illərdə isə 3,5 % təşkil etmişdir. Bütünlükdə 1959-2002-ci illərdə orta artım 3,5 təşkil etmişdir. Yığım norması 2000-ci ildə 20 % olmuşdur. İnflyasiya azalaraq 3 %-ə bərabər olmuş, 12 mln. nəfər adam üçün yeni iş yerləri

(90-cı illərin əvvəllərinə) açılmışdır. Nəticə etibarilə 1980-1990-cı illərdə ABŞ-ın dünya iqtisadiyyatındakı mövqeyi əsaslı sürətdə möhkəmlənmişdir. Həmin dövrdə Qərb və Şərq arasındakı hərbi qarşıdurmanın başa çatmasının da əsası qoyulmuşdur.

Aydındır ki, bütünlükdə cəmiyyətin ictimai-iqtisadi və siyasi həyatı daimi hərəkətdə, dəyişilmələrdədir. Odur ki, Reyqanın proqramı da həmişəlik və mütləq deyildir. Hazırda ABŞ-da dövlətlə iqtisadiyyat arasında optimal nisbət mövcuddur. Bu sistemdə dövlətin iqtisadiyyatdan tamam kənarlaşmasını və yaxud iqtisadiyyata qarışmamasını təsəvvür etmək olmaz.

Amerikanın federal hökuməti dünyada ən güclü təşkilat hesab olur. Ölkənin federal büdcəsi Çin, Yaponiya və Almaniyadan başqa, istənilən hər bir ölkənin ÜDM-dən artıqdır. 1997-ci ildə ABŞ-ın büdcəsinin gəlir hissəsi 1579 mlrd. dol. (o cümlədən gəlir vergisi 738 mlr. doll.) olmuşdur. Elmi-tədqiqat təcrübə konstruksiya işlərinin aparılmasına sərf edilən cəmi xərclərin 46,6 %-i dövlət tərəfindən həyata keçirilir. Əsaslı tədqiqatların 50 %-dən artığını, səhiyyə xərclərinin 13,4 %-ni dövlət öz üzərinə götürmüşdür.

Amerikanın prezidenti (1993-2000-ci illər) B.Klintonun iqtisadi proqramına əsasən fərdi gəlir vergisi 31 %-dən 36,9 %-dək, korporasiyaların mənfəətindən tutulan vergi isə 34 %-dən 36 %-dək artırılmışdır. 1992-ci ildə dövlət büdcəsinin kəsiri 290,4 mlrd. dollara bərabər idisə, 1998-ci ildə bu kəsir ləğv edilmiş, 1999-cu ildə isə 80 mlrd. dollar müsbət saldo yaranmışdır.

Beləliklə Amerikanın ictimai-iqtisadi həyatındakı roluna görə "Reyqanomika" anlayışı kimi "Klintonomika" anlayışı da yaranmışdı. Hazırda Amerikanın iqtisadi inkişafındakı yeni model sahibkarlıq fəaliyyətinin qloballaşması və informasiya inqilabı ilə daha çox xarakterizə edilir. Bu yeni model və yaxud "yeni iqtisadiyyat" Amerikada əmək bazarının çevikliyi ilə də səciyyələnir. Hər bir amerikalı orta hesabla 5 ildən bir öz iş yerini dəyişir. Amerikada menecmentlər çox tez qərar qəbul etməyi bacarırlar, öz fərdi qabiliyyətlərini daimi artırırlar.

XVI FƏSİL
KANADANIN İQTİSADİYYATI

1. Kanada iqtisadiyyatının ümumi xarakteristikası.
2. Kanadanın makroiqtisadi inkişaf modeli.
3. Kanada iqtisadiyyatının müasir vəziyyəti.

1. Kanada iqtisadiyyatının ümumi xarakteristikası

Kanada Şimali Amerikanın şimal hissəsində yerləşir. Ərazisi 9971 min kv km., əhalisi 33,1 min. nəfərdir (2005). Paytaxtı - Ottavadır. Böyük şəhərləri - Toronto, Monreal (bura yeni Fransa adlanır), Vankuverdir. Əhalinin çoxu əslən Avropadan və Şimali Amerikadan köçənlərdən ibarətdir. Son illərdə Asiyadan gələnlərin sayı da artır. Hazırda Britaniya mənşəli kanadalı 11 %, Fransa mənşəli kanadalı 9 %, Avropanın digər ölkələrindən olanlar 13 %, 35,8 % qarışıq mənşəlilər, 18,6 % kanada mənşəlilir, Asiyadan olanlar 4,5 %, köklü hindular, eskimoslar da 1 mln. nəfərə qədərdir. Əhalinin daha çox hissəsi (67 %-i) ingilis dilində danışırlar. Dövlət dili - ingilis və fransız dilləridir.

Beləliklə Kanada - emiqrantlar ölkəsi hesab edilir. Əvvəllər Fransadan, İngiltərədən, Şotlandiya və İrlandiyadan. İkinci dünya müharibəsindən sonra mərkəzi və şərqi Avropadan, hazırda cənubi-şərqi Asiyadan (xüsusilə Çindən) buraya gələnlər əmək ehtiyatlarının əsasını təşkil edir. Milli münasibətlərdə Kanadada üç əsas problemi qeyd etmək olar:

1. Fransız-Kanada millətçiliyi.

2. Kanadanın köklü əhalisi problemi. Köklü əhalilər az da olsalar öz hüquqları barədə mübarizə aparırlar.

3. Xarici mühacirlər problemi.

Son illərdə Kanadaya gələnlərin 57 %-i Asiyadan, 13 %-i Amerikadan, 19 %-i Avropadan, 7 %-i Afrikadan, qalanları isə ABŞ-dandır.

Kanadalılar arasında belə bir ifadə çox işlədilir ki, - **Kanadanın tarixi o qədər də geniş olmadığı halda, çoğrafiyası daha genişdir.**

Kanada Şimali Amerika materikinin, demək olar ki, bütün şimal hissəsini və bir çox adaları əhatə edir. Avropalılar ilk dəfə 1497-ci ildə Kanadaya gəliblər. 1535-ci ildə Fransalı Cak Kartye bu ərazini tədqiq etmişdir. Sonra ilk dəfə 1605-ci ildə fransalılar, 1623-cü ildə ingilislər buraya köçmüşlər. Elə o vaxtdan da bu iki ölkə arasında müstəmləkəçilik uğrunda çəkişmələr başlanmışdır. 1756-1763-cü illərdəki (7 illik) müharibədən sonra Kanada Böyük Britaniyanın müstəmləkəçiliyinə keçmişdir.

1931-ci ildən Kanada müstəqildir. Konstitusiyalı parlamentli Federasiya quruluşuna malik olan Kanada inzibati ərazi bölgüsünə görə 10 əyalət (Ontario, Kvebek, Yeni Şotlandiya, Nyu-Bransuik, Manitoba, Britaniya Kolumbiyası, şahzadə Eduard adası, Saskaçevan, Alberta, Nyufaundlend) və iki ərazidən (Şimal-qərb və Yukon) ibarətdir.

Bu əyalətlər bir çox geniş hüquqa malik olsalar da, özünüidarəçilik hüquqları azdır. İdarəçilik federasiya tərəfindən həyata keçirilir. Dövlət başçısı formal olaraq Böyük Britaniya şahzadəsi hesab edilir. Baş nazirin təqdimi ilə monarx general-qubernator – dövlət başçısı təyin edir. Qanunvericilik orqan parlamentə, icraedici hakimiyyət hökumətə (baş nazirə) məxsusdur. Kanada dünyanın ən yüksək inkişaf etmiş dövlətlərindən biridir (7-lər qrupuna daxildir).

Kanadanın ərazisinin xeyli hissəsini tundra və tayqa tutur. Buna baxmayaraq, ABŞ ilə həmsərhəd olan əyalətlərdə kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait vardır.

Kanada zəngin təbii sərvətə malikdir. Ərazisinin üçdə bir hissəsi (3,5 mln.kv.km) meşə örtüyüdür. Ağac ehtiyatına görə Rusiya və Braziliyadan sonra 3-cü yeri tutur. Hər nəfərə düşən ağacın sayına görə dünyada birinci yeri tutur. İynəyarpaqlı ağajclar daha böyük əhəmiyyət kəsb edirlər. Zəngin faydalı qazıntılar ehtiyatına malikdir (polimetallar, nikel, uran, neft, təbii qaz, mis, qızıl, platin, qurğuşun, sink, aluminium, azbest, daş kömür, kalium duzları və s.). Məhsulun həcminə görə daha qabaqcıl istehsal sahələri olan neft, qaz, meşə sellüloz - kağız sənayesi, əlvan metalurgiya, avtomaşınqayırma məhsullarının xüsusi

çəkisi daha çoxdur. İldə 20 mln.ton kağız, 72,7 mln.ton kömür, 129,1 mln.ton neft, 171 mlrd. m^3 təbii qaz, 590,0 mlrd kvt. saat elektrik enercisi, 2,5 mln. ədəd avtomaşın, 164,7 t qızıl, 691 min ton miss, 37 mln. ton dəmir filizi istehsal edilmişdir (2003).

Bir çox əsas kənd təsərrüfatı məhsullarının ixracına görə Kanada daha qabaqcıl ölkələr sırasına daxildir.

Kənd təsərrüfatından əldə edilən gəlirin 60 %-i heyvandarlığın payına düşür (3950 min baş iri buynuzlu malqarası, 12 mln. baş donuzu vardır (2000). İldə 850 min ton ət, 7,5 mln. ton süd istehsal edilir. Ölkədə 280 min fermer (orta ölçüsü – 246 ha) fəaliyyət göstərir. İldə orta hesabla 50 mln. ton taxıl istehsal edilir.

Kanada çox geniş nəqliyyat şəbəkəsinə malikdir. ÜDM-in 4 %-i həmin sahənin payına düşür. Beynəlxalq sərnişin daşımalarının 90 %-ə qədəri və yükdaşımaların 75 %-ə qədəri avtomobil nəqliyyatı ilə həyata keçirilir.

ÜDM-in 7 %-i rabitə və kommunal xidməti sahəsində yaradılır.

Kanada dünyanın ən yüksək inkişaf etmiş dövlətlərindən biridir. O, 7-lər qrupuna daxildir.

2005-ci ilin məlumatına görə ÜDM-in həcmi 1132,4 mlrd. dollar, hər nəfərə düşən məhsul isə 35060 dollara barəbərdir.

ÜDM-in həcminə görə Kanada 8-ci yerdə dayanır. ÜDM-in 3 %-i kənd təsərrüfatının, 31 %-i sənaye və inşaatın, 66 %-i isə xidmət sahələrinin payına düşür.

İxrac kvotası 32 %, idxal isə 28,6 %-ə bərabərdir. İxracın əsasını avtomaşin və ehtiyat hissələri – 23,2 %, maşın və avadanlıqlar – 22,4 %, sənaye məhsulları – 18,4 % təşkil edir. İxracın daha çox hissəsini ABŞ – 83,8 %, Aİ ölkələri – 5,5 % və Yaponiya ilə – 2,5 % həyata keçirir.

İdxalın da əsası ABŞ-ın – 71,5 % və Aİ ölkələrinin – 10,1 % payına düşür.

Kanada BMT-nin (1945), İƏ və İT-in (1960), 1994-cü ildən Şimali Amerika azad ticarət birliyinin (ŞaATB) və digər iqtisadi təşkilatların, birliklərin üzvüdür.

Kanada dünya əlaqələri inteqrasiyasında geniş iştirak edir. Dünya ixracının təqribən 4 %-i onun payına düşür. Kanadanın cəmi birbaşa investisiyasının 25 %-dən çoxu (39 mlrd. dollar) ABŞ-da yerləşdirilmişdir. Öz növbəsində Kanadada avtomaşınqayırmanın, neftkimya sənayesinin və bir çox digər sahələrin inkişafında Amerika kapitalının böyük rolu vardır.

Sosial bölmə sahəsində qeyd etməliyik ki, cəmi işçilərin sayı 14,7 mln. nəfər təşkil edir (2002). Bunların da hamısı işsizlik sığortası ilə təmin ediliblər.

Bütün işçilərin 71 %-i həmkarların üzvüdür. Güclü sosial təminat sistemi fəaliyyət göstərir. İşsizlik 7,7 %-dir.

Kanadada natamam orta təhsil məcburi və pulsuzdur. Belə təhsil 5-7 yaşından 14-16 yaşınadək olan uşaqlar üçündür. Cəmi məktəblərin 4 %-i xüsusi - özəl məktəblərdir.

2. Kanadanın makroiqtisadi inkişaf modeli

Kanada yarandığı vaxtdan demək olar ki, öz simasına, inkişaf tərzinə görə böyük, güclü dövlət kimi məşhurdur. **Kanadanın iqtisadi inkişaf yolu əsasən üç amilin təsiri** altında olmuşdur. **Bunlardan birinci ondan ibarətdir ki**, ölkənin zəngin təbii ehtiyatları vardır. Geniş səhraya və əlverişli iqlim şəraitinə malik olması yüksək məhsuldar kənd təsərrüfatının inkişafına zəmin yaratmışdı. Zəngin neft və qaz ehtiyatlarının, dəmir və mis filizi və mineral ehtiyatlarının, kömür yataqlarının, meşə örtüyünün olması öz daxili tələbatlarından daha artıq istehsal imkanı yaratmışdır.

İkinci - Kanada burjuaziyasının demoqrafik və sosial-psixoloji xüsusiyyətləri. Uzun müddət Kanada Britaniya müstəmləkəçiliyində olmuşdur. Onların daha yüksək təsərrüfatçılıq cəhətlərini mənimsəyə bilmişlər. XX yüzilliyin 20-30-cu illərində ABŞ-ın inhisarçı kapitalından geniş istifadə etmişlər.

Maliyyə cəhətdən zəif olan Kanada burjuaziyası gəlir götürmək məqsədi ilə öz sənayesini digər ölkələrin istifadəsinə verməyə meyl göstərirdi. Bank sahəsində, kommunal təsərrüfatı, ticarət, xidmət sahələrindəki mənafeləri məhdud idi.

Üçüncü - xarici və xüsusilə Amerikanın kapitalından geniş istifadə edilməsi. Bu amil istər İkinci Dünya müharibəsindən əvvəl və istərsə də sonra Kanadanın iqtisadi inkişafına güclü təsir etmiş və beynəlxalq əmək bölgüsündə onun mövqeyini müəyyən etmişdir.

Müharibədən əvvəlki illərdə Amerikanın işgüzar dairələri Kanadanın iqtisadiyyatına güclü maliyyə vəsaiti qoymaqla Böyük Britaniyanı sıxışdırmış, öz mövqeyini möhkəmlətmiş, Kanada bazarını ələ keçirmiş və özü üçün xammal bazarı yaratmışdır (hətta 1854-cü ildə Kanada ilə Amerika qarşılıqlı ticarət barədə müqavilə də bağlamışlar).

Həmçinin qeyd etməliyik ki, Amerika bütün dünya üçün və eləcə də Kanada üçün də texnologiya mənbəyi hesab olur. Kanada və Amerikanın sahibkarlarının mənafelərinin üst-üstə düşməsi, biri-birini tamamlaması nəticəsində hər iki ölkənin sənayesi hələ XIX əsrdən əməkdaşlıq münasibəti vəziyyətindədirlər. Kanadada yerli sərmayədarlarla xarici sərmayədarlara eyni münasibət mövcud olmuşdur.

Bundan əlavə Kanadanın inkişaf modelində Böyük Britaniya və Fransanın da böyük rolu olmuşdur (cabit ticarət - iqtisadi münasibətlərə riayət etmişlər). **Kanadanın inkişafında onun müharibəyə cəlb edilməməsinin də rolu vardır.** Lakin Hitler Almaniyasına qarşı olan ölkələr birliyinə silah və ərzaq göndərirdi.

Kanadanın inkişaf xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, orada iqtisadiyyatın inkişafında, yalnız xariji amil deyil, dərininə inkişaf - öz ərazilərinin mənimsənilməsi də güjlü idi. 1950-ji illərdən başlayaraq iqtisadi artım, anjaq Kanada məhsullarına olan xariji tələblə deyil, daxili tələblə də xarakterizə edilirdi. Xaricdən çoxlu mühacirələrin Kanadaya axını daxili tələbatı artırırdı.

Yüksək ixtisaslı mütəxəssislərin Kanadaya həmişəlik gəlməsi, yüksək gəlirə malik olmaları əmək ehtiyatları problemini həll etməklə yanaşı, tələbin artmasına da zəmin yaratmışdır.

Kanadanın inkişaf modelinə Amerikanın təsir probleminin şərhində 1980-ci illərin əvvəllərinə ABŞ-da aparılmış islahatların rolunu da qeyd etmək olar. Həmin vaxtlar - 1984-cü

illərdə Kanada mühafizəkarlar hökumətinin lideri Brayana Malruni iqtisadiyyatda geniş dəyişikliklər etmiş, bir çox kompleks tədbirlər həyata keçirməklə sərbəst sahibkarlığın inkişafına üstünlük vermişdir.

Dövlət tənzimlənməsində, vergi qoyulmasında, kapital qoyuluşunun stimullaşmasında, iqtisadiyyatın özəlləşdirilməsində islahatlar aparılmışdır. **Kanadanın iqtisadiyyatını** səciyyələndirən cəhətlərdən biri də iqtisadiyyatda dövlətin rolunun artıq olmasıdır. Praktiki olaraq demək olar ki, bütün həlledici sahələr (o cümlədən emal sənayesi, infrastruktura) dövlətin nəzarəti altında olmuşdur. 1945-1984-cü illərdə dövlətin mövqeyi daha da artmışdır. Dövlət əmtəə və xidmətlərin əsas istehsalçısına çevrilmişdir. Elektroenergetika, nəqliyyat, rabitə dövlətin əlində idi. 1960-1970-ci illərdə böhran əleyhinə bir çox tənzimləmə tədbirləri həyata keçirilmişdir. Dövlət emal sənayesi sahələrini inkişaf etdirməklə iqtisadiyyatda quruluş dəyişiklikləri aparmışdır.

Kanada ilə ABŞ arasında sərbəst ticarətə dair 1989-cu ildə yeni müqavilə bağlanmışdır. 1990-cı illərdə iqtisadiyyatda dövlət tənzimləməsinin köhnə mexanizmində köklü dəyişiklik edilməsi başlanmışdır. Özəlləşdirmə daha geniş vüsət almışdır. Böyük emal və neft-qaz sənayesi müəssisələri, hava və dəmir yolu nəqliyyatı, rabitə xüsusi sahibkarlara verilmişdir.

Limanların, liman ətrafı qurğuların, təyyarə limanlarının kütləvi özəlləşdirilməsi başlanmışdır. Ayrı-ayrı əyalətlərin hökumətləri telekommunikasiya kompaniyalarını, elektroenergetika müəssisələrini satmışlar. Nəqliyyat və kənd təsərrüfatına verilən maliyyə yardımı faktiki olaraq ləğv edilmişdir. Beləliklə 1990-2000-ci illərdə Kanada iqtisadiyyatında köklü dəyişikliklər baş vermişdir.

Məlum olduğu kimi Kanadanın iqtisadiyyatı açıq tipli iqtisadiyyatdır. Odur ki, xarici bazara daha çox ehtiyacı vardır (istər ixrac və istərsə də idxal baxımından). Dünya iqtisadiyyatının qloballaşması prosesi, xüsusilə Şimali Amerika ərazisində inteqrasiyanın əmələ gəlməsi Kanada iqtisadiyyatına öz təsirini göstərmişdir.

Kanada ilə ABŞ arasında olan azad ticarət barədəki müqaviləyə **1994-cü ildə** Meksika da qoşulmuşdur. Beləliklə, «Şimali Amerika Azad Ticarət Zonası» (ŞAATZ) yaradılmışdır. **Bununla da** Kanada qarşısında yeni şərtlər qoyulmuşdur: 1. **ABŞ və** Meksikanın xarici istehsalçıları üçün bütün maneələr **aradan götürülmüş** və rəqabətə şərait yaradılmışdır.

2. ABŞ və Meksika bazarlarına çıxmaq üçün Kanada istehsalçılarına geniş yol açılmışdır. 1993 və 1997-ci illərdə mühafizəkarlar hökumətini liberallar əvəz etmişdir. Onların həyata keçirdiyi müəyyən dəyişikliklər nəticəsində iqtisadiyyatda yüksəliş və maliyyə sabitliyi yaranmışdır. Lakin dövlət büdcəsinin kəsiri ÜDM-in 6 %-i həddində qalırdıki, bu da 7-lər klubunda ən yüksək həddi idi. Federal dövlət borcu isə ÜDM-in 70 %-i qədər (500 mlrd.dol.) olmuşdur. 1994-cü ildən başlayaraq liberal hökumət büdcə kəsirinin ləğv edilməsi üçün uzunmüddətli proqram həyata keçirməyə başlamışdır. Bu məqsədlə dövlət xərclərinin azaldılması, 1988-ci ildə müəyyən edilmiş vergi dərəcəsinin saxlanılması nəzərdə tutulurdu. Bir ildən sonra büdcə kəsiri azalmış və son 20 ildə ilk dəfə olaraq bu kəsir 1998-ci ildə ləğv edilmişdir. 2003-cü ildə dövlət borcu ÜDM-in 53 %-nə bərabər olmuşdur. Dövlət büdcəsinin gəlirləri xərclərdən 6,3 mlrd. dollar artıqdır. Federal büdcənin 60 %-ni gəlir vergisi təşkil edir. Eyni zamanda əyalətlərdə də maliyyə sağlamlaşmışdı. Maliyyənin sağlamlaşdırılmasında vergi sisteminin də böyük rolu vardır. Odur ki, Kanada da maliyyə siyasəti həmişə diqqət mərkəzində olur. Hazırda Kanada da vergi ÜDM-in 36 %-ni, İƏ və İT-də isə 38 % təşkil edir. Kanadada vergi şəraiti o qədər də yaxşı deyil.

Müstəqil vergilər orta əmək haqqının 46 %-ni, ABŞ-da isə 30 %-ni təşkil edir. Odur ki, yüksək əmək haqqı alan mütəxəssislər Kanadaya gəlməyə o qədər də səy göstərmirlər. Kanadalılar özləri isə ABŞ-a, Avstraliyaya, Yeni Zellandiyaya və digər ölkələrə getməyə üstünlük verirlər. Buna baxmayaraq əhali pulsuz səhiyyə yardımı alır, ali təhsil xərclərinin 50 %-i dövlət tərəfindən ödənilir. Xəstəxanalarda müalicə tam pulsuzdur, həkimlərin resepti əsasında verilən dərmanlar da pulsuzdur.

Kanadada yaranan problemlərdən biri də qocaların sayının artmasıdır. Bu isə öz növbəsində dövlətin pensiya və tibbi xərclərinin artmasını tələb edir.

3. Kanada iqtisadiyyatının müasir vəziyyəti

Müasir şəraitdə Kanada hökuməti daha "açıq tipli" iqtisadiyyat yaratmağa, dünya təsərrüfatında onun iştirakını genişləndirməyə çalışır. Son vaxtlar dünya bazarında Kanadanın ənənəvi məhsullarının qiymətinin aşağı düşməsi üzündən həmin sahələrin müəssisələrində gəlirlərin və kapital qoyuluşunun artım sürəti azalıbdır.

Eyni zamanda elektron, elektrotexnika, ağır maşınqayırma, telekommunikasiya vasitələri, kimya və əczaçılıq sənayesi, avtomaşınqayırma, konstruksiya materialları istehsalı və bu kimi elmtutumlu sahələrə investisiya qoyuluşu artırılmışdır.

Kanada sənayesinin əsas cəhətlərindən biri də ondan ibarətdir ki, ölkənin sənayesinə qoyulan cəmi aktivlərin 40 %-dən çoxu xarici kompaniyalara məxsusdur. Bunun da 70 %-dən çoxu ABŞ-ın korporasiyalarının payına düşür. O cümlədən, Kanadanın elektroenergetika sahəsindəki aktivlərinin 63 %-i, kimya sənayesində 68 %-i, avtomaşınqayırma sahəsində 92 %-i xarici kompaniyalara məxsusdur. Hazırda Kanadanın emal sənayesinin sürətli inkişafı daxili tələbatın artmasına zəmin yaradır. ÜDM-in 18-20 %-i emal sənayesinin payına düşür. Emal sənayesində nəqliyyat avadanlıqları, kimya məhsulları, elektrotexnika və elektron sahəsi, ağac emalı sənayesi üstünlük təşkil edir. Yüksək texnoloji istehsal daha sürətlə artır, təkcə «Ottava vadisində» 500 böyük kompaniya biotexnologiya və telekommunikasiya sahəsində iş aparırlar. ÜDM-in 5,4 %-i inşaat sahəsində yaradılır. Burada kreditin ucuzlaşdırılması da (aşağı faizlə verilməsi) böyük rol oynayır. Onu qeyd etmək kifayətdir ki, 1997-ci ildə son 14 ildəki dövrə nisbətən ən yüksək xüsusi kapital qoyuluşu artımı qeyd edilmişdir (14 %). Maşın və avadanlıqlar istehsalına qoyulan investisiya 20 % artmışdır. Cə-

mi investisiyanın 40 %-i kompüter sahəsinə yönəldilmişdir. 2000-ci ilə Kanadanın xaricdə olan kapitalı 194 mlrd. dollar, Kanadada olan xarici kapital isə 201 mlrd. dollar təşkil edir.

Kanadanın emal sənayesində yenə də neftqaz sənayesi, ağac emalı, sellüloz-kağız sənayesi böyük əhəmiyyət kəsb edir.

Kanada kənd təsərrüfatının inkişafına görə də fərqlənir: kənd təsərrüfatı məhsulları ixrac edən əsas ölkələrdən biridir. Fermer təsərrüfatçılığı geniş yayılmışdır. Kənd təsərrüfatında əməyin təşkili, ərazi və sahələr üzrə ixtisaslaşmaya əsaslanır. Fermerlərin 90 %-ə qədəri bitkiçiliyin və heyvandarlığın müəyyən sahələrində ixtisaslaşıbdırlar.

Kənd təsərrüfatına yararlı torpaq sahəsinin 75 %-ə qədəri iri təsərrüfatların (hər biri 40 hektardan yuxarı olan) əlində cəmləşdirilmişdir.

Kanada fermerləri 100 mln. nəfərdən çox adam üçün məhsul istehsal etmək imkanına malikdirlər. Kənd təsərrüfatının inkişafı kontinental zona hesab edilən Saskaçevan, Manitoba, Ontario əyalətlərində daha çox üstünlüyə malikdir. Kənd təsərrüfatının əsasını taxılçılıq təşkil edir.

Britaniya Kolumbiyası, Yeni Şotlandiya, Nyufaundlend əyalətlərində balıqçılıq və dəniz məhsulları istehsalı böyük xalq təsərrüfatı əhəmiyyətinə malikdir. Bütün qabaqcıl ölkələrdə olduğu kimi Kanada da üçüncü bölmə adlanan xidmət sahələrinin inkişafına xüsusi fikir verilir. Bu qeyri-maddi bölmədə aşağıdakı sahələrin inkişafına daha çox üstünlük verilir:

- topdan satış ticarət;
- sahibkarlıq bölməsi üçün biznes xidməti;
- mehmanxana təsərrüfatı;
- ictimai iaşə;
- telekommunikasiya dairəsi.

Son vaxtlar istehsal və xidmətdə dövlətin birbaşa iştirakı azaldığına görə, xüsusi xidmət sənayesinin inkişafına zəmin yaranmışdır.

Əmək bazarı. Nəzəri baxımdan əmək bazarının vəziyyəti Kanadada qənaətbəxş olmalıdır. Böyük əraziyə malik, inkişaf etmiş 33 mln. nəfərlik bir ölkədə işsizlikdən söhbət getməməlidir. Lakin islahatlar nəticəsində, dövlət bölməsinin ixtisar edilməsi əmək bazarının vəziyyətinə də təsir göstərmişdir. Bir çox dövlət qulluqçularının ixtisar edilməsi və onların xüsusi bölmədə işə düzəldilməsi çətinliklər törətmişdir. Hazırda Kanadada işsizlik 7,7 % (2002) təşkil edir ki, bu da ABŞ-dakından iki dəfə artıqdır.

Cavan əmək qabiliyyətlilər (15-24 yaş) içində isə işsizlik 25 %-dir. Əmək bazarında fərdi məşğulluğun artması da müşahidə olunur ki, bu da müsbət hal kimi qiymətləndirilir. Belə ki, 1990-2000-ci illərdə ABŞ-da əmək bazarının ümumi həcmi 10,4 %, əhalinin fərdi məşğulluğu isə 12% artdığı halda, bu göstəricilər Kanadada müvafiq olaraq 6,5 % və 80% təşkil etmişdir. Kanadada fərdi məşğulluğun bu cür sürətlə artmasının əsas səbəbi vergilərin yüksək olması ilə izah edilir. Böyük sahibkarların yanında işləmək əvəzinə fərdi fəaliyyətdə müəyyən güzəştlər vardır.

İqtisadiyyatda xarici amilin rolu qismən verilmişdir. Qeyd etmişik ki, Kanada "açıq iqtisadiyyat" şəraitində inkişaf edir. Son illərdə ixracın artması Kanadanın aktiv fəallığının əsas hərəkətverici qüvvəsi olmuşdur. Belə ki, ÜDM-də ixracın payı 1980-ci ildəki 18 %-dən artaraq 1992-ci ildə 26 %-ə, 2005-ci ildə isə 32 %-ə çatmışdır. İxracın 70 %-i iqtisadiyyatın beş sahəsinin üzərinə düşür. Bunlar: meşə kompleksi, dağmədən və metallurgiya sənayesi, yeyinti və kənd təsərrüfatı sahələri, enerci daşıyıjıları və avtomaşınqayırmadır. Bu sahələrin bir çoxu demək olar ki, ənənəvi olaraq bütün XX əsr boyu xaric üçün məhsul istehsal edirlər. Beləliklə, Kanada qəzet kağızı, nikel, sink, aliminium, dəmir filizi, azbest, uran, qızıl, xam neft, taxta-şalban, buğda və s. ixrac edən ən qabaqcıl ölkələrdən biridir.

Onu da qeyd etmək lazımdır ki, Kanadanın cəmi ixracının 84 %-ə qədəri ABŞ-ın payına düşür. Daha doğrusu Kanada:

- avtomaşın istehsalının 80 %-ni;
- yüngül sənaye məhsulunun 65 %-ni;
- rezin istehsalının 55 %-ni;
- elektrik avadanlıqlarının 50 %-ni;
- polad və sənaye avadanlıqlarının 50 %-ni;

- sellüloz-kağız sənayesi məhsullarının – 50 %-ni ABŞ-a ixrac edir.

Eləcə də, Kanadanın neft və qazının da 50 %-ə qədəri ABŞ-a ixrac edilir. Ümumdünya ticarət təşkilatının məlumatına görə 2005-ci ildə Kanada ixrac və idxalın həcminə görə 7-ci yerdə olmuşdur (dünya üzrə əmtə ixracının 4 %-ni, idxalın isə 3,7 %-ni) Kanadanın ticarət balansında müsbət saldo 32,0 mlrd.dollardır.

Kanadanın ixracının quruluşu:
- maşın və avadanlıqlar - 23,2 %;
- avtomaşınlar – 24 %;
- sənaye məhsulları – 18 %;
- ağaj, sellüloz-kağız sənaye məhsulu - 14 %;
- energetika məhsulları - 8 %;
- kənd təsərrüfatı və balıqçılıq məhsuları - 8 %;
- istehlak təyinatlı əmtəələr - 3%;

Kanadanın idxalının quruluşu isə aşağıdakı kimi olmuşdur:
- maşın və avadanlıqlar – 34 %;
- avtomaşınlar – 22 %;
- sənaye məhsulları – 20 %;
- istehlak malları – 11 %;
- kənd təsər. məhsulları və balıq – 6 %;
- energetika məhsulları – 3 %.

2004-cü ildə Kanadanın Azərbaycan ilə olan ixracı 15387 min dollar, idxalı isə 238 min dollar olmuşdur. Bütün bunlar, bir tərəfdən Kanadanın beynəlxalq əmək bölgüsündəki yerini göstərirsə, digər tərəfdən onun xarici bazardan asılılığını göstərir.

Kanadanın inkişaf modelinə xas olan bir cəhəti də qeyd etməliyik ki, o, ABŞ-ın müvəffəqiyyətlərindən çox asılıdır.

XVII FƏSİL
YAPONİYANIN İQTİSADİYYATI

1. Yaponiyanın iqtisadi inkişafının ümumi xarakteristikası.
2. Yaponiya iqtisadiyyatının inkişaf mərhələləri.
3. Yaponiyanın iqtisadi inkişaf modeli.
4. Beynəlxalq iqtisadi münasibətlərdə Yaponiyanın yeri.

1. Yaponiyanın iqtisadi inkişafının ümumi xarakteristikası

Yaponiya Şərqi Asiyada, Sakit okeanın qərb hissəsində yerləşir. Sahəsi 372,2 min kv.km, əhalisi 127 mln. nəfərdir (2005). Əhalisinin 99,4 %-i yaponlardır. Paytaxtı Tokiodur (26 mln. nəf.). 800 min yaponiyalı xaricdə yaşayır. Yaponiyada yaşayan xaricilərin sayı isə 1,5 mln. nəfərdir. Böyük şəhərləri: İokohama, Osaka, Kobe, Noqaya, Kioto, Sapporo, Xirosima, Fukuoka, Kavasaki, Kitayusa və s.

Yaponiya Konstitusiyalı parlamentli monarxiyadır. Dövlət işləri imperator tərəfindən həyata keçirilir (Nazirlər Kabinetinin məsləhətləri ilə). Nazirlər Kabineti və onun baş naziri icraedici orqanıdır.

Coğrafi yerləşməsinə görə Yaponiya müəyyən mənada təcrid olunmuş (xüsusilə Avropadan) vəziyyətdədir. Ərazisi 4 böyük adanı (Xokkaydo, Xonsyu, Sikoku və Kyüsyu) və 7 mindən artıq xırda adaları (vulkan mənşəli) əhatə edir. Sakit okeanın sahilində olan bu dörd ada sualtı tunnellərlə birləşdirilibdir. Dünyada ən böyük sualtı tunel olan Seykan – 53,85 km Xokkaydo və Xonsyu adalarını birləşdirir. Adalar arasında yerləşən Yapon dənizi böyük nəqliyyat – iqtisadi əhəmiyyətə malikdir.

XII əsrin axırlarından XIX əsrin ortalarınadək Yaponiyada hərbi-feodal hakimiyyətçiliyi mövcud olmuşdur. Bu isə onun xarici aləmdən qapalı olmasına zəmin yaradırdı. Amerika gəmilərinin bəzi limanlara gəlməsi barədə 1853-cü ildə

Amerika ilə bağlanmış müqavilədən sonra Yaponiya özünütəcrid vəziyyətindən çıxa bilmişdir. 1853-cü ildə Amerika Kommadoru Perrinin rəhbərliyi ilə Amerika gəmiləri Tokio körfəzinə daxil olaraq o vaxtki hökuməti ticarət müqaviləsi bağlamağa məcbur etmişlər.

Bu kimi müqavilələr digər ölkələrlə də (Rusiya ilə də) bağlanmışdır. Beləliklə, Yaponiyanın yeni tarixində - həyatında uzun müddət feodalizmə xas olan cəhətlər qalırdı. Ancaq 1868-1912-ci illərdəki Meydzi inqilabları hərbi-feodal kapitalizmin inkişafına zəmin yaratmışdır. Yaponiya Asiya, Sakit okean rayonunda öz hərbi-siyasi vəziyyətini möhkəmlətməyə çalışmış, bir neçə dəfə hərbi güc işlətməyə girişmiş və demək olar ki, hamısında da məğlub olmuşdur.

Nəticədə bütün müstəmləkələrini və milli sərvətinin böyük bir hissəsini itirmişdir. Yaponiyada özünə qarşı "natamam kompleks" psixologiyası yaranmışdır. Yaponiyaya qədim Şərq sivilizasiyası olan Çin və Koreyanın da güclü təsiri olmuşdur. Əhalisinin də özünə məxsus mentaliteti vardır. Cəmiyyətdə yaşlıların başçılığı, sosial vəziyyətə görə nüfuz, hörmət, mübahisələrdə onların hörməti və s. əsas rol oynayır.

Yaponiya yüksək inkişaf etmiş sənaye ölkəsidir. İqtisadi gücünə görə Amerikadan sonra ikinci yeri tutur. Dünya üzrə ÜDM-in 10 %-i orada istehsal olunur – 4567,4 mlrd. dol.(2005). Hər nəfərə düşən məhsulun həcminə görə 8-ci yerdədir - 35964 dol. ÜDM-in 2 %-i kənd təsərrüfatının, 36 %-i sənayenin, 62 %-i xidmət sahələrinin payına düşür.

Əhalinin iqtisadi fəallığında muzdlu əmək daha çox xarakterikdir - 44,5 mln.nəfərdir. Sərbəst təsərrüfatçılar 9,1 mln.nəfər (15,4%), köməkçi ailə üzvləri 5,5mln.nəfər (9,3%) təşkil edir.

Şərqi Asiya ölkələri üzrə cəmi ÜDM-in 70 %-i Yaponiyanın payına düşür. Çindən 2 dəfə artıq məhsul istehsal edir.

İkinci dünya müharibəsindən sonrakı dövrdə istehsalın artım sürətinə və əmək məhsuldarlığına görə inkişaf etmiş sənaye ölkələri içərisində Yaponiya daha çox üstünlüyə malik olmuşdur. Belə ki, 50-80-ci illərdə (30 ildə) Yaponiya həmin ölkələri iki dəfə

qabaqlayırdı. Adam başına düşən ÜDM 19,5 dəfə artmışdı. Həmin dövrdə istehsalın orta illik artım sürəti 7,7 % olmuşdur. Bu ABŞ-dan 4 dəfə, Böyük Britaniyadan 7,7 dəfə artıq idi.

Hazırda Yaponiya dünya sənaye məhsulunun 12 %-ni, televizor istehsalının 60 %-ni, polad əridilməsinin 14,3 %-ni, süni lifin 12,3 %-ni istehsal edir. Balıq tutulmasına görə dünyada 1-ci (12 mln. ton), dəniz ticarəti yükünün həcminə görə 2-ci yeri tutur.

2. Yaponiya iqtisadiyyatının inkişaf mərhələləri

Yaponiyanın iqtisadi inkişafında şərti olaraq 3 mərhələ ayırmaq olar: **birinci mərhələ – ikinci dünya müharibəsindən sonrakı bərpa illərini və 1960-cı illəri əhatə edir.**

Yaponiya ikinci dünya müharibəsindən sonra demək olar ki, çox ağır vəziyyətdə idi. Müharibə iki milyon adamın həyatına son qoymuşdu. Yüngül sənayesini demək olar ki, yenidən yaratmaq lazım gəlirdi. 1945-ci ildəki sənaye məhsulunun həcmi 1935-1937-ci illərin 28,5 %-nə bərabər idi. Bərpa işləri çox ləng gedirdi. Bir çox məğlub olmuş ölkələrdə 1948-ci ildə istehsalın həcmi müharibədən əvvəlki səviyyəyə yaxınlaşdığı halda, Yaponiyada bu həddə 52 % təşkil edirdi.

Qərbi Avropa dövlətlərindən fərqli olaraq (Corc Ketlett Marşal planına uyğun olaraq onlara yardım edilmirdi) Yaponiya öz xüsusi gücü hesabına iqtisadiyyatını bərpa edirdi. Qərb ancaq 2,2 milyard dollar humanitar yardım etməklə kifayətlənmişdir. Bundan əlavə müharibədə onun üzərinə qoyulan təzminat da azaldılmışdı.

Yaponiyada müəssisələrin özəlləşdirilməsi keçirilməmişdi. 1939-1941-ci illərdə xüsusi müəssisələr üzərində hərbi nəzarət qoyulmuşdu və onların azadlığı - sərbəstliyi müəyyən qədər məhdudlaşdırılmışdı. Xəlvəti (qara) bazar və inflyasiya mövcud idi. 1952-ci ildə inflyasiyanın səviyyəsi müharibədən sonrakı illərə nisbətən 1500 % təşkil edirdi. 1946-cı ildəki pul islahatı da bu prosesə kömək edə bilməmişdi.

Amerika Yaponiyanın hərbiləşmə siyasətinin əksinə olaraq bir çox sahələrdə islahatlar keçirilməsi üzrə proqram hazırlamışdı (Amerika inhisarçı kapitalının nümayəndələri olan Doc və K.Şoup tərəfindən). 1946-1952-ci illərdə keçirilən islahatlara da Amerika generalı D.C.Makartur (1880-1946) rəhbərlik etmişdir. Sahibkarlıq qruplarının və bazar iqtisadiyyatının yaradılması üzərində nəzarət artırdı. 1947-1948-ci illərdə xəlvəti konsernlərin səhimlərinin buraxılması həyata keçirilmişdi. İqtisadiyyatda inhisarlaşma məhdudlaşırdı. Sənaye və ticarət kompaniyaları kiçikləşdirilirdi. İqtisadiyyatda əks inhisarlaşma həyata keçirilirdi. İri xoldinqlərin nəzarətindən bir çox firmalar (müəssisələr) çıxırdı, yeni firmalar yaranırdı.

1947-ci ildə yeni konstitutsiya qəbul edilmişdir. Konstitusiyaya görə beynəlxalq münaqişələrin həllində müharibələrə əl atmamaq, xaricə silahlı qüvvələr göndərməmək xüsusi bənd kimi əks olunurdu. Çoxpartiyalılığa, həmkarların fəaliyyətinə, söz azadlığına geniş yer verilirdi, geniş islahatlar keçirilirdi. 1947-ci ildə inhisar əleyhinə qanun qəbul edilmişdi. Kartel müqavilələri bağlanır, ticarət əməliyyatlarına azadlıq verilirdi. Bütün bu kimi tədbirlər rəqabətə əsaslanan iqtisadiyyat yaradırdı. 1947-1950-ci illərdə torpaq islahatı keçirilmişdi. Mülkədar torpaqları dövlət tərəfindən satın alınır, icarədar kəndlilərə satılırdı. Hər bir torpaq sahəsi 1 hektaradək azaldılırdı. 1950-ci ildə icarəyə verilən bütün torpaq sahələrinin 80 %-i kəndlilərin əlinə keçmişdi.

Beləliklə, Yaponiyada torpaq mülkiyyəti yenidən bölüşdürülmüş və azad xırda fermer təbəqəsi formalaşmışdı. Onlar torpağı çox ucuz qiymətə (demək olarki müftə) alırdı. Mülkədarlıq bir sinif kimi aradan çıxırdı. Bu vaxtdan etibarən Yaponiyada xüsusi kəndli təsərrüfatı bərqərar olmuşdu. Torpaq islahatı daxili bazarın həcminin artmasına və bir çox işçi qüvvəsinin azad olmasına zəmin yaradırdı.

1950-ci ildə Detroyt bankının müdiri Docun zəmanətinə əsasən radikal büdcə islahatı həyata keçirilmişdi. Bu islahata uyğun olaraq büdcənin ayrı-ayrı maddələrinin balanslaşdırılması və büdcə qıtlığı prinsipləri üzərində ciddi iş aparılırdı.

Həmçinin islahatda hərbi zavodlarda istehsalın istiqamətinin dəyişməsinə vəsait verilmirdi. Zərərlə işləyən müəssisələrə daha maliyyə yardımı edilmirdi. Pul emissiyası üzərində nəzarət qoyulurdu. Yaponiyada vahid valyuta kursu müəyyən edilirdi. Müəssisə və banklara xarici bazarlarla əməliyyat aparmaq icazəsi verilirdi. Bu kimi islahatlar inflyasiyanın qarşısını ala bilmiş və qiymətlər üzərindəki nəzarətin götürülməsinə imkan yaratmışdı. Beləliklə, Yaponiya iqtisadiyyatında tamamilə bazar iqtisadiyyatı bərqərar olurdu.

Yaponiya mineral ehtiyatlarından məhrum idi, bununla yanaşı çoxlu əmək ehtiyatları vardı, dünya iqtisadiyyatından təcrid idi. Ona görə də müasir emal sahələrinin çox sahəli kompleksini yaratmaq, istehsalın artım sürətini yüksəltmək, ixracata zəmin yaratmaq, xaricdən alınacaq məhsulları əvəz etmək tələb olunurdu.

Beləliklə, Amerika mütəxəssislərinin hərtərəfli islahatları demək olar ki, başa çatmışdır. Bütün idarəçilik yapon hökümətinə verilmişdir. ABŞ artıq Yaponiyaya maliyyə yardımını və müəyyən məsləhət xarakterli köməklik göstərilməsini dayandırmışdır. İslahatlara rəhbərlik edən D.C.Markarturdan tələb edirdilər ki, Yaponiyanı ABŞ-ın himayəsindən çıxarsın.

Beləliklə, 1940-cı illərdə Yaponiya iqtisadiyyatında həyata keçirilən islahatlar XX əsrin ən münasib islahatlarından biri olmuşdur.

Yaponiya iqtisadiyyatının yenidən qurulmasında müharibə dövründə birbaşa nəzarət tətbiq edilirdi, sənaye strukturlarının formalaşdırılmasında hökumətin rolundan fəal istifadə edilirdi. Bazar təsərrüfatı mexanizmi ilə xüsusi sahibkarlığa dövlətin köməkliyi əlaqələndirilirdi.

Vergi və kredit sistemində müəyyən güzəştlər tətbiq edilirdi, rəqabət üzərində nəzarət həyata keçirilirdi. Struktura dəyişiklikləri edilirdi. Belə ki, 50-ci illərdə əsas diqqət metallurgiya, kimya, hidroenergetika, gəmiqayırma, ticarət limanları və s. kimi sahələrə verilirdisə, 60-cı illərin əvvəllərində avtomaşın sənayesi, neftemalı və neftkimya, 60-cı illərin axırlarında elektronika sahələrinin inkişafı daha ön plana çəkilirdi.

Yaponiyada struktur dəyişiklikləri çox yüksək sürətlə aparılırdı. 1955-1970-ci illərdə ümumi milli məhsulun orta illik artımı 11 %-i keçmişdi. Yığım norması 35 %-ə bərabər idi ki, bu da qabaqcıl kapitalist ölkələrində ən yüksək göstərici idi.

Corcun islahatı çərçivəsindəki struktur siyasətində bütün xarici-iqtisadi əlaqələr sistemi üzərində dövlət nəzarəti nəzərdə tutulurdu. Xaricdən gələn malların qiymətləndirilməsi vəsaiti üzərində nəzarət, xarici kapital qoyuluşunun məhdudlaşdırılması, xaricdən texnologiya gətirilməsinin həvəsləndirilməsi, sənayenin xarici rəqabətdən qorunması, ölkənin valyuta qıtlığından və pul sisteminin pozulmasından qorunması və s. üzərində ciddi dövlət nəzarəti vardı. Bu cür nəzarət 22 il davam etdi. Sonra 40-60-cı illərdə müttəfiq ölkələrin hərbi qüvvələrinin baş qərargahının müəyyən etdiyi kurs əsasında iqtisadi islahat həyata keçirilmişdir.

Bu islahat kursu Amerika hökumətinin iqtisadi məsləhətçisi C.Dodcun proqramı əsasında həyata keçirilirdi. Beləliklə, Yaponiyanın 50-60-cı illərdəki iqtisadi inkişafı xarici ölkələrin elmi kəşflərinə əsaslanan yeniləşmə siyasəti ilə həyata keçirilirdi.

Emal sənayesinin inkişafına daha çox üstünlük verilirdi. Qara və əlvan metallurgiya, neft emalı, neft-kimya, maşınqayırma, gəmiçilik sahələri sürətlə artırılırdı. **O vaxt deyirdilər ki, Yaponiya xarici xammalın emalı fabrikinə çevrilibdir**. Xarici xammalı emal edərək xaricə hazır məhsul ixrac edirdi Bu mərhələdə ekstensiv inkişaf daha xarakterik idi.

70-80-ci və 90-cı illərdən sonrakı dövr iqtisadi inkişafın ikinci və üçüncü dövrü kimi səciyyələnir. Müharibədən sonrakı 30 ildə bir çox digər islahatlar keçirilmişdir. Əmək haqqı barədə qanun qəbul edilmişdir, həmkarlar ittifaqlarının sərbəst fəaliyyəti, məktəb islahatı, müasir orta məktəbin formalaşması ixtisaslı işçi qüvvəsi hazırlanmasına şərait yaratmışdı. Sərbəst sahibkarlar, menecerlər, mühəndis - texniki ziyalılar yetişirdi. Kütləvi tələbat üçün istehsalın inkişafına zəmin yaranırdı. 1965-ci ildən kasıbçılığın aradan qadırılması, gəlirlərin bərabərləşdirilməsi, sosial fərqin azaldılması prosesi gedirdi. Beləliklə, 70-ci illərdə Yaponiyanın iqtisadi inkişafında yeni mərhələ başlanmışdır. Sənayenin qurluşunun geridə qalması üzündən Yaponiya az enerji və material sərfinə əsaslanan texnologiyaya keçirdi, elmtutumlu sahələrə üstünlük verirdi. Dünya bazarında xammalın və enerji ehtiyatlarının qiyməti kəskin artdığına görə bu cür çox vəsait tələb edən sahələr üçün problem yaranırdı. 60-cı illərin ortalarından real əmək haqqının artırılması əməktutumlu sahələrin rəqabət qabiliyyətinə təsir edirdi. Qeyd etmək lazımdır ki, 70-ci illərədək inkişaf etmiş ölkələr içərisində **Yaponiyada işçi qüvvəsi ən ucuz idi.** Həmin vaxtlar Yaponiyada xidmətin rolu da artırdı. Bütün bunlar təkrar istehsalın yeni tipinə keçilməsini tələb edirdi. ÜDM-də emal sənayesinin xüsusi çəkisi 70-ci illərin əvvəllərinə 36,8 faiz təşkil edirdi. 2000-ci ildə bu göstərici 23,5 %-ə enmişdir.

1980-ci illərdə qeyri-istehsal dairəsinin inkişafı genişlənirdi. İstehsalın elektronlaşması, kompleks avtomatlaşdırılması, elm, maliyyə, servis fəaliyyəti artırdı. **Sənayedə elmtutumlu 14 sahəyə daha çox üstünlük verilirdi. Bunlardan – aviasiya texnikası, kosmos texnikası inteqral sxemlər, istehsal robotları, tibb elektronikası, kompüter, informasiya sistemi, dərman istehsalı, yeni metal növləri istehsalı və s.**

80-ci illərdə polad əridilməsinə görə Yaponiya 2-ci yerə, 1996-cı ildə 1-ci yerə çıxmışdır (sonra Çin 1-ci yerə çıxmışdır). Hazırda ildə orta hesabla 100 mln. ton polad istehsal edilir.

Yaponiya bir çox maşınqayırma məhsulları istehsalına görə dünyada birinci, avtomobil istehsalına görə isə ikinci yeri tutur (ildə 10-14 mln. ədəd).

1999-cu ildə yapon gəmi tərsanələrində istehsal edilən gəmilər dünya üzrə istehsalın 43,4 %-nə bərabər olmuşdur.

Emal sənayesi çərçivəsində də ciddi dəyişiklik baş verirdi. Belə ki, maşınqayırma sənayesinin xüsusi çəkisi 1960-cı ildəki 30,7 %-dən artaraq 1990-cı ildə 45 %-ə, 1993-cü ildə isə 56,5 %-ə bərabər olmuşdu. Bu əsasən elektrotexnika istehsalının hesabına baş vermişdir. Bununla yanaşı toxuculuq və ağac emalı sənaye sahəsinin xüsusi çəkisi xeyli azalmışdır.

Son onilliklərdə yeni təkrar istehsal tipinə keçilməsi prosesində elmi-tədqiqat işləri, atom enercisi, kosmik fəzanın mənimsənilməsi, informasiya sisteminin işlənilməsi və s. kimi sahələrə dövlətin, ayrı-ayrı kompaniyaların diqqəti artmışdır. Elmi-tədqiqat konstruksiya işlərinə qoyulan vəsait 1975-ci ildə cəmi milli məhsulun 2,1%-ni təşkil etdiyi halda, 1985-ci ildə 3,1%-nə, 1994-cü ildə 2,8 %-nə bərabər olmuşdur. Dəqiq cihaz quraşdırma və elektron sənayesinin inkişafına daha çox üstünlük verilirdi. Elmi-tədqiqat sahəsi və konstruksiya işlərinə qoyulan xərcə görə Yaponiya 1980-ci ildə Amerikanın 33 %-ni təşkil etdiyi halda, 1994-cü ildə 80 faizinə çatmışdır.

Məhsuldar qüvvələrin bu cür inkişafı nəticəsində Yaponiya robot (dünya istehsalının 50 %-nə sahibdir), yarım keçiricilər (dünya istehsalının 40 %-dən çoxuna sahibdir), minik maşınları, gəmi, dəzgahlar, polad, soyuducu, paltar yuyan maşınlar və s. istehsalına görə dünyanın ən qabaqcıl ölkələrindən birinə çevrilibdir. Elmtutumlu məhsullar istehsalına görə ancaq ABŞ-dan geri qalır.

Hər bir ölkənin iqtisadiyyatını nəqliyyatsız təsəvvür etmək olmaz.

Yaponiyada 23654 km dəmir yolu mövcuddur (bunun 15895 km-ri elektrikləşdirilmişdir). Cəmisi 6,4 mlrd. ton yük daşınmışdır.

Kənd təsərrüfatında əmək məhsuldarlığı aşağıdır. Burada xırda kəndli əmtəə təsərrüfatları mövcuddur.

2003-cü ildə 11 mln. ton düyü, 4,2 mln. ton kartof, 13,6 mln. ton tərəvəz, 8,5 mln. ton süd məhsulları, 6,0 mln. ton balıq və dəniz məhsulları istehsal edilmişdir (1988-ci ildə bu 12,8 mln. ton olmuşdur).

3. Yaponiyanın iqtisadi inkişaf modeli

Yaponiya iqtisadiyyatının yüksək sürətlə inkişafı onun özünəməxsus təsərrüfatçılıq mexanizminə malik olması ilə xarakterizə edilir.

Xüsusi sahibkarlıq quruluşunun əlamətləri. Başqa ölkələrdən fərqli olaraq Yaponiyanın sosial quruluşu müasir sənayenin ikili xarakteri ilə səciyyələnir.

Emal sənayesində əsas yeri xırda və orta sahibkarlar tutur. Kiçik kompaniyaların əsasında kapitalın təmərküzləşməsi və iri birliklərin yaranması baş verir.

İqtisadi quruluşun əsas cəhəti - firmaların üfüqi qruplaşmaları ilə xarakterizə edilir. Belə qruplaşmalar işgüzar münasibətlərin bütün sistemində öz əksini tapa bilir. Bu qruplaşmalar iki növ və yaxud səviyyədə baş verir:

Birinci - kapitalların və şəxsi nüfuzun qovuşması - çulğaşlaşmasına əsaslanır. Bu bir çox qərb ölkələri üçün də ənənəvidir. Yaponiya təsərrüfat sisteminin fərqləndirici cəhəti bir də onunla səciyyələnir ki, burada böyük kompaniyalar kiçik və orta kompaniyalarla da birləşir və böyük qruplar (keyres) yaradırlar. Bunlar da istehsalda həlledici - baş firma hesab edilirlər. Hazırda praktiki olaraq heç bir vahid iri sənaye kompaniyası fərdi şəkildə hüquqi şəxs kimi fəaliyyət göstərmir. Başqa qərb ölkələrindəki iki təbəqəli (bazar-müəssisə) quruluşundan fərqli olaraq Yaponiya iqtisadi sistemində üç təbəqə (bazar-qrupmüəssisələr-müəssisə) mövcuddur.

Kompaniyalar və müəssisələr arasındakı ən çox yayılmış əlaqə şaquli deyil, üfüqi əlaqələrdir. İri, orta və kiçik kompaniyalarda əmək haqqının səviyyəsində kəskin fərq mövcuddur. Daha doğrusu orta və kiçik kompaniyalarda əmək haqqının həcmi orta hesabla böyük kompaniyalardakının 60 %-ni təşkil edir.

İri kompaniyalar birliyinin (keyres) üfüqi inteqrasiyası maliyyə qrupları yaradılmasına səbəb olur. Onlar da iri banklar, ticarət və sənaye kompaniyaları tərəfindən idarə edilirlər. Maliyyə qruplaşmaları üçün həmin iştirakçılar bir-birindən kəskin fərqlənməyən miqdarda səhmə sahib olurlar. Hər bir kompaniya öz müəssisəsinin səhmlərini özündə saxlaya bilməz. Anjaq fəaliyyətdə olan kapitalın 1%-nin səhminə sahib ola bilərlər. Nəticə etibarilə açıq-aydın fiziki şəxslərin hüquqi

şəxslərə nəzarəti ilə kompaniyalar fəaliyyət göstərir. **Beləliklə, Yaponiyada iqtisadi özünüidarəçilik modeli formalaşmışdır.**

Hüquqi şəxslər bu və ya digər firma ilə əlaqə saxlamaq məqsədilə onun səhmlərini alır. Kredit vasitəsilə də banklar və kompaniyalar arasında qarşılıqlı əlaqələr müəyyənləşir. Yaponiya sahibkarları qərb ölkələrindəkinə nisbətən daha çox sərbəstdirlər. Verilən kreditlər maliyyə nazirliyinin təminatı ilə - nəzarəti ilə həyata keçirilir.

Əmək münasibətləri. İqtisadi inkişafın Yaponiya modelində xarakterik cəhətlərdən biri də ondan ibarətdir ki, milli ənənələrdən istifadə edilir. Ölkədə uzun müddət ömürlük muzdçuluq təbliğ olunubdur (uzun müddət eyni müəssisədə işləmək adəti aşılanır). Kiçik və orta kompaniyalara nisbətən böyük kompaniyalarda bu prinsipə daha yaxşı əməl edilir. Lakin buna baxmayaraq, 1981-ci ilin məlumatına görə bir ildə işdən çıxanlar 16 % təşkil etmişdir. Deməli, üç ildə işçilərin 50 %-i işdən çıxır. Bu əsasən cavanlara daha çox xasdır. Daimi işçilər cəmi işçilərin 20-30 %-ni təşkil edirlər.

İş stajından asılı olaraq əmək haqqı səviyyəsi müəyyən edilir. Əmək münasibətləri **"firma bizim evimizdir"** fəlsəfəsinə əsaslanır. İşçi qüvvəsinin istifadə edilməsi "insan ehtiyatı" konsepsiyasına əsaslanır. 60-70-ci illərdə Yaponiya kompaniyalarının bəzilərində artıq belə bir nəticəyə gəlmişlər ki, müəyyən məqsədyönlü işdən, müxtəlifliyi ilə fərqlənən işlərdən qulluqçular daha çox həzz alırlar, xoşhal olurlar. Konveyer xətlərinə nisbətən hərlənən (fırlanan) stolda bütün əməliyyatları tək yerinə yetirməyə üstünlük verirdilər. Bu cür texnoloji əməliyyatların bir işçiyə həvalə edilməsi nəticəsində zay məhsul 6 %-dən 0,3%-ə enmiş, əmək məhsuldarlığı 20 % artmış, maya dəyəri 30 % azalmışdır.

Əmək münasibətlərində qadınların vəziyyətinin özünəməxsusluğu vardır. Bir çox kompaniyaların rəhbərləri qadın heyətinə o qədər də perspektivli baxmırlar. Onların bir çoxu gündəlik, saat hesabı ilə işləyirlər. Qadınlar daha tez ixtisara məruz qalırlar. Yaponiya statistikasında qadınlar evdar hesab edilirlər. Ona görə də onlar iş yerlərini itirdikdə işsizlər ordusuna daxil edilmirlər. Qadınların orta əmək haqqı səviyyəsi kişilərdən **2 dəfə azdır.**

Yaponiya üçün uzun iş müddəti xarakterikdir. Kişilər həftədə orta hesabla 57,7 saat işləyirlər. Bu, Amerika və Qərbi Avropadakından 10 saat artıqdır. Əmək haqqı sistemində - baza (əsas) dərəcəsi, bu bazadan artıq və mükafatlı dərəcələr də mövcuddur. Ayrı-ayrı kompaniyalarda əmək haqqı kəskin fərqlənir. Vergi tutulduqdan sonra sərəncam verən direktorun gəliri aşağı əmək haqqı alandan təqribən 10 dəfə artıqdır. Bu fərq ABŞ-da 100 dəfədir.

Dövlətin rolu. Yaponiya iqtisadi modelinin xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, ümumi problemlərin həllində dövlət aparatı ilə iri kompaniyaların mövqeyi eyni olur, üst-üstə düşür. Hazırda da sənaye, ticarət, bank kompaniyaları ilə hökumətin qarşılıqlı-əlaqəli işləmələri mövcuddur. Müharibədən sonrakı dövrlərdə ümumdövlət sahibkarlığı nəzərə çarpacaq dərəcədə üstün yer tutmuşdur. **Ölkədə ümumdövlət, regional, sahəvi, firmadaxili planlaşdırma sistemindən geniş istifadə edilir.** Dövlət bölməsi çox olmadığına görə ümumdövlət planlaşdırılması əsasən xüsusi firmaların fəaliyyətinin tənzimlənməsinə yönəldilir. Ümumdövlət proqramının hazırlanmasında iri birliklərlə məsləhətləşmə mexanizmindən istifadə edilir.

Ümumdövlət planı sistemi beş qrupdan (bölmədən) ibarətdir: iqtisadi və sosial inkişaf planı; torpağın inkişafı və istifadə edilməsi planı; məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi; sahə planları; ümumdövlət mənafeyi bölməsi; regional planlar.

Ümumdövlət iqtisadi planı həqiqi mənada dövlətin investisiya proqramı hesab edilir və bütövlükdə dövlətin sosial-iqtisadi ehtiyatlarının vəziyyətini əks etdirir. Kənd təsərrüfatının inkişafı dövlətin tənzimləməsi şəraitində və yaxından köməkliyi ilə baş vermişdir. Kənd təsərrüfatının əsasını xırda fermerlər təşkil edir. Muzdlu əmək və icarə münasibətləri o qədər də yayılmayıbdır. Bütün təsərrüfatların ancaq 7 %-i hər biri 2 hektardan artıq torpağa malikdir. Təsərrüfatların 70 %-dən artığı əsas gəliri öz sahələrindən deyil, sənaye və xidmətdən alırlar.

Dövlət bir çox kənd təsərrüfatı məhsullarının alınmasında **inhisarçı mövqedə** dayanır (məhsulu dünya qiymətindən **yuxarı qiymətə alır**). Bu isə həmin sahələrin inkişafına zəmin **yaradır. Yaponiya** modelində yuxarı vəzifəli şəxslərin rolu da **əhəmiyyət kəsb** edir. Adət-ənənəyə görə onların göstərişləri **mütləq firmalar** tərəfindən həyata keçirilməlidir. Son vaxtlara**dək bazar** münasibətləri məhdud idi. Hazırda bu model dəyişi**lir. Bazar** prinsiplərinə əsaslanan açıq iqtisadiyyata keçilir.

4. Beynəlxalq iqtisadi münasibətlərdə Yaponiyanın yeri

Sürətli iqtisadi inkişafın nəticəsi olaraq Yaponiya beynəl**xalq** iqtisadi münasibətlərdə aparıcı yerlərdən birini tutmuş**dur.** 90-cı illərin əvvəllərinə xarici birbaşa kapital qoyuluşunun həcminə görə Yaponiya dünyada ikinci yerə çıxmışdır (dünya üzrə xaricə cəmi kapital qoyuluşunun 15 %-nə sahib idi). 2000-ci ilə Yaponiyada toplanmış cəmi birbaşa xarici investisiya 54,3 mlrd. dollara bərabər olmuşdur. 90-cı illərdən bu cür xarici investisiya qoyuluşunun artması genişlənmişdir. Təkcə 2000-ci ildə Yaponiya iqtisadiyyatına cəlb edilən birbaşa xarici investisiya 28 mlrd. dollar olmuşdur.

Keçən onilliklərdə beynəlxalq münasibətlərin əsas forması kimi xarici ticarət aparıcı rol oynayırdı. Xarici ticarətin həcminə görə Yaponiya ABŞ və AFR-dən geri qalır. 2004-ci ildə cəmi xarici ticarətin 6 %-i Yaponiyanın payına düşmüşdür. Xarici ticarətin normasına görə Yaponiya açıq deyil, yarıaçıq iqtisadiyyat sırasına daxil ola bilər. Sənayenin bəzi müəssisələri demək olar ki, xaric üçün işləyirlər. Belə ki, saat və maqnitafon istehsalının 90 %-i, surətçıxarma maşınlarının 77 %-i, kassa aparatlarının 83 %-i ixrac edilir. ÜDM-in 10-13 %-i xaricdə reallaşdırılır.

Xarici ticarətin inkişafı və quruluşu

Son 50 ildə Yaponiyanın ixracının fiziki həcmi 70 dəfə artmışdı. Yaponiyada xarici ticarətin artım sürəti dünya üzrə olan xarici ticarətin artım sürətindən 2 dəfə artıqdır. Yüksək

keyfiyyət, yeni texnologiya, kadr siyasəti, firmaların nüfuzu və s. əsasında formalaşan məhsulların rəqabət qabiliyyəti dünya bazarında Yaponiya kompaniyalarına müvəffəqiyyət gətirir.

Yaponiya firmaları rəqabət mübarizəsi forması kimi modellərin tez-tez dəyişilməsini həyata keçirirlər. Yeni məhsul işlənib hazırlanması dövrü Yaponiyada ABŞ-dan qısadır. Hər bir vahid məhsula düşən iş qüvvəsi dəyəri də orada ABŞ və bəzi inkişaf etmiş ölkələrdəkindən aşağıdır.

Yaponiya əmək məhsuldarlığının həcminə görə ABŞ-dan təqribən 30 % geri qalır (1975-ci ildə 50 % idi). Qara və əlvan metallurgiya, kimya sənayesi sahələrində isə Amerika göstəricilərindən irəlidədir. Müharibədən (1941-1945) sonrakı illərdə Yaponiyanın ixracının quruluşunda ciddi dəyişikliklər olmuşdur. Belə ki, 60-cı illərədək ixracatda əsas yeri istehlak malları: radioqəbuledicilər, televizorlar, toxuculuq məmulatları və s. tuturdu. Sonralar qara metallurgiya məhsulları, gəmi, avtomobillər ixracı artmışdı. 80-ci illərdə yeni irəliləyiş olmuşdu. Ümumimaşınqayırma, elektromaşınqayırma, elmi avadanlıq, optika, yarımkeçiricilər, minik maşınları, telekommunikasiya avadanlığı və s. artmışdır.

İdxalın quruluşu. Yaponiya inkişaf etmiş ölkələr sırasında xammal və yanacaqla özünü ən az təmin edən ölkədir. Bir çox mineral xammal növlərinə görə Yaponiya güclü alıcı kimi çıxış edir. Dünya üzrə dəmir filizi idxalının 30 %-i, əlvan metal filizinin, daş kömürün, pambıq və yunun 19 %-dən çoxu Yaponiyanın payına düşür. İqtisadi inkişafın ilk mərhələlərində istehsalın quruluşunun müəyyən edilməsində Yaponiya inkişaf etməkdə olan ölkələrdən asılı idi (ixracın 50 %-ə qədəri, idxalın 40 %-i), cənub-şərqi Asiya və İran körfəzi ölkələri hazırda da əsas satış ölkələri sırasındadır.

Yaponiyanın xarici iqtisadi əlaqələrinin əsas cəhətlərindən biri ondan ibarətdir ki, onun idxal və ixracı əsasən ABŞ-da mərkəzləşir. Hazırda da Yaponiya ixracının 20 %-i, idxalın isə 22 %-i Amerika bazarında reallaşır, öz növbəsində Amerika ixracının 11 %-i Yaponiya ilə həyata keçirilir.

Yaponiya bəzi Şərqi və Qərbi-Şərqi Asiya ölkələrinin əsas ticarət əməkdaşı kimi geniş çıxış edir. Daha doğrusu İndoneziya ilə olan ixracın 37 %-i, Malayziya ilə ixracın 16 %-i; Sinqapur ilə ixracın 17 %-i, Yaponiya ilə təmin edilir. Yaponiya Çinin də ixrac və idxalının (15-16 %) xeyli hissəsini həyata keçirir. Öz növbəsində Yaponiyanın idxalının formalaşmasında həmin ölkələr böyük rol oynayırlar.

Ticarət balansı müsbət saldo ilə xarakterizə edilir. 1981-1995-ci illərdə həmin müsbət salda 6 dəfə artaraq 130 mlrd.dollar təşkil etmişdir. Bunun 40 %-i ABŞ-la olan ticarətdən yaranmışdır.

Texnologiya mübadiləsi. 80-ci illərdən başlayaraq Yaponiya elm və texnika sahəsində ikitərəfli və üçtərəfli əməkdaşlığı genişləndirməyə səy göstərir. Çoxtərəfli elmi-texniki əlaqələr beynəlxalq tədqiqat xarakterli layihələrə əsaslanır. 1986-cı ildə yaponlar **"insan sərhəddi"** deyilən geniş miqyaslı proqram irəli sürmüşlər. Bu proqramı onlar Amerikanın "Soi" və Avropanın "Evrika" proqramları ilə müqayisə edirlər. Burada əsas məqsəd ölkənin nüfuzunu artırmaq, geriliyi aradan qaldırmaqdır. ETT-ni yüksəltmək, yeni materiallar yaratmaq, mexanizm və texnologiyanı dəyişmək, enerji, təbii ehtiyatlar, insanla yeni texnoloci vasitələrin düzgün əlaqələndirilməsi və bu kimi problemləri həll etmək qarşıya qoyulur.

Proqram 20 ilə nəzərdə tutulmuşdur. Bunun üçün 6-7 mlrd. dollar xərc tələb olunmuşdur. Dünya miqyasında **texnologiyanın hərəkətinə görə də Yaponiya özünəməxsus yer tutur.** O sənaye ölkələrindən bütün yeni texnologiyanı alır. Öz texnologiyasını demək olar bərabər şəkildə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə ixrac edir. İxrac olunan texnologiyanın 40 %-i Asiya ölkələrinə göndərilir. Yaponiyanın cəmi ixracının 28 %-i yüksək texnoloji məhsullardan ibarətdir.

ABŞ ilə texnologiya mübadiləsi münasibətləri **əməkdaşlıq və münaqişə** ilə xarakterizə olunur. Hələ də Yaponiyanın Amerikadan texnologiya almaq asılılığı vardır. Yaponiya texnologiya idxalının 69 %-ni ABŞ-dan alır. 90-cı illərin əvvəllərinə

texnologiya idxal və ixracı ABŞ-ın xeyrinə 2:1 idi. Elektronika üzrə bu nisbət 5:1, dəzgahqayırma üzrə isə 7:1-dir.

Ümumiyyətlə, Yaponiya xarici lisenziyalardan istifadə etməyə çox üstünlük verir. 1950-ci illərdə Yaponiya öz texniki səviyyəsinə görə ABŞ-dan 20-30 dəfə geri qalırdı. 1950-1960-cı illərdə 2000-dən artıq xarici lisenziya almışdır. Bu əlbəttə istehsalın sürətli inkişafına zəmin yaratmışdır. Hazırda da Yaponiya ən çox xarici texnologiya idxalçısı kimi çıxış edir. Cəmi ÜDM-in 30,7 %-i xarici lisenziyaların bazasına əsaslanır (Almaniyada bu göstərici 10 %-dir).

Yaponiyanın beynəlxalq fəaliyyətinin idarə edilməsi sistemi vasitəçi firmaların çox olması ilə fərqlənir. Bank institutları, sənaye kompaniyaları, dövlət aparatı ilə yanaşı bir çox müəssisələr də vasitəçi kimi çıxış edirlər. Bu firmalar oliqapoliya[1] idarəçilik sistemi yaradırlar. Bunlardan "Misubisi", "Misui", "İtotyu", "Marubeni", "Sumitomo", "Nisse ivan", "Toyo menka", "Kanenasu qose", "Nitimen" və s. ticarət evlərini göstərmək olar. Həmin firmaların payına Yaponiya ixracının 45 %-i, idxalın isə 77 %-i düşür.

Kapital ixracı və idxalı. 80-ci illərdə Yaponiya əmtəə ixracından kapital ixracına daha çox istiqamət götürmüşdür. 90-cı illərdə Yaponiya birbaşa kapital ixracına görə birinci yeri tuturdu. Orta illik kapital ixracının həcmi 1981-1985-ci illərdə 5,0, 1986-1990-cı illərdə 32,0, 1991-1993-cü illərdə 20,0 mlrd. dollar təşkil etmişdir. Hazırda (2000-ci ildə) Yaponiyanın cəmi xarici aktiv vəsaiti 346, 1 mlrd. iyen təşkil edir.

Yaponiyada gömrük rüsumları ən aşağıdır. Qeyri-tarif maneəcilikləri yox dərəcəsindədir.

Yaponiyanın 8 kompaniyası ("Xitaçi", "Masuşita", "Toyota", "Soni", "Nisso ivan" və s.). Xarici aktivlərin həcminə görə dünyanın ən böyük 50 investorunun tərkibinə daxildir. 60-70-ci illərdə birbaşa investisiya formasında kapital ixracı əsasən satışa xidmət etmək üçün və xaricdə emal müəssisələri

[1] Oliqapoliya - istehsal və satışın inhisarlaşması.

yaradılmasına yönəldilmişdir. ABŞ-da istehsal olunan avtomaşının təqribən 15 %-ə qədəri Yaponiya kapitalı ilə işləyən kompaniyalar tərəfindən həyata keçirilir. Hazırkı vaxtadək kapital qoyuluşunun çoxu kredit dairəsinə (42,4 %), ticarətə (11,3 %), daşınmaz əmlaka (11,1 %) sərf edilirdi. ABŞ sənaye istehsalının 30 %-ni, Almaniya 20 %-ni öz ölkəsinin hüdudlarından kənarda istehsal etdiyi halda, Yaponiya ancaq 11% istehsal etmişdir. Yaponiyanın kapital qoyuluşunun əsas bazarı Şimali Amerikadır. Məhz bununla da yaponlar Amerika ilə müştərək müəssisələr yaradır, EHM, mobil rabitə, kompüter qrafikası və s. sahələrdə öz geriliklərini aradan qaldırmağa çalışırlar. Sonralar bu sahədə Yaponiya Qərbi Avropa kompaniyaları ilə öz kapitalını Britaniya və Niderlandda cəmləşdirmişlər. Asiyada Yaponiya kapitalı əsasən İndoneziyada (24 %), Çində (20 %), Cənubi Amerikada - Panamada - (40%) cəmləşdirilmişdir.

Yaponiyanın xaricə kapital qoyuluşu 1992-ci ildə aşağıdakı kimi olmuşdur:

Cədvəl

Yaponiyanın xaricə kapital qoyuluşu (mln.dol.)

	1987	**1992**
Şimali Amerika	46,0	42,6
Avropa	19,7	20,7
Asiya	14,6	18,8
Lat.Amerikası	14,4	7,9
Okean ölkələri	4,2	7,0
Orta Şərq	0,2	2,1
Afrika	0,8	0,7
Cəmisi mln.dol.	**33364**	**34138**

Son vaxtlar Yaponiyanın kapital qoyuluşunun coğrafiyası dəyişmişdir. Belə ki, 80-ci illərin ortalarından qabaqcıl qərb ölkələri ilə "Plaza" valyuta müqaviləsi bağladıqdan sonra Şərqi və Cənub-şərqi Asiya ölkələrinə Yaponiya kapitalının tətbiqi kütləvi xarakter almışdır. Həmin ölkələrə olan kapital qoyuluşunun həcmi 4 dəfə artaraq 9,3 mlrd.dollara çatmışdı (1994).

Həmin Şərqi və Cənub Şərqi Asiyada olan Yaponiya müəssisələri də öz növbəsində ixracın çoxunu (40 %) Yaponiyaya göndərirlər. 2000-ci ilin məlumatına görə Yaponiyada olan cəmi birbaşa xarici kapital 54,3 mlrd. dollar təşkil etmişdir. İldə orta hesabla 28 mlrd. dollar birbaşa xarici kapital qəbul edir.

Yaponiyaya xarici kapital qoyuluşu o qədər də çox deyildir. Yaponiyanın özünün xaricə kapital qoyuluşundan 10-20 dəfə azdır. Lakin əvvəllər bu cür xarici kapitaldan kredit və borc şəklində geniş istifadə edilirdi. 1950-1975-ci illərdə cəmi 32 mlrd.dollar xarici kapitaldan istifadə edilmişdir.

Yaponiya çoxlu dövlət köməkliyi edən ölkələrdən biridir. Ən çox köməkliyi də Asiya ölkələrinə edir (Çin, Hindistan, İndoneziya, Tailand, Filippin, Banqladeş və s.). 70-ci illərdə ən çox köməklik alan ölkələr Cənubi Koreya, Pakistan və Hindistan hesab edilirdi. 80-ci illərdə isə Yaponiya Afrika və Latın Amerikası ölkələrinə olan iqtisadi köməkliyi artırmışdır.

Yaponiyanın Asiya ölkələrinə olan köməkliyinin həcmi Qərbin həmin ölkələrə olan köməkliyinin 50 %-ni, Latın Amerikasına edilən köməkliyin isə 18 %-ni təşkil edir. Bütün köməkliyin 12 %-i texniki əməkdaşlığa ayrılır. BMT-nin qaçqınların işi üzrə olan cəmi vəsaitinin 10 %-ə qədərini Yaponiya ödəyir. Yaponiya özü isə cəmisi 9 min nəfər qaçqın qəbul etmişdir.

Bütünlükdə Yaponiyanın bank sistemi dövlət və xüsusi maliyyə təşkilatlarından (səhmdar cəmiyyətləri, kooperativlər və s.) ibarətdir. Ölkədə **9 kommersiya bankı, 129 regional bank, 33 trest-bank və 3 uzun müddətli kredit bankı** - sənaye bankı, uzun müddətli kredit bankı və Yaponiya kredit bankı mövcuddur. 13 bank dövlətə məxsusdur: ixrac-idxal bankı, Yaponiya inkişaf bankı, mənzil tikintisi üçün maliyyə korporasiyası, xırda və orta sahibkarların maliyyələşdirilməsi üçün bir çox xüsusi banklar vardır.

Bu xüsusi maliyyə təşkilatlarının tərkibində 450 kredit birlikləri, 400-ə qədər kredit ittifaqları, eləcə də 47 əmək bankı, şəxsi sığorta üzrə 30 sığorta kompaniyası, əmlak sığortası üzrə 24 kompaniya, qiymətli kağızlarla əməliyyat aparılması üzrə

270 kompaniya fəaliyyət göstərir. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində fəaliyyət göstərən maliyyə təşkilatları 380 kənd təsərrüfatı və 1700 balıqçılıq kooperativinə xidmət göstərirlər. Yaponiyanın maliyyə sistemi banklararası telekommunikasiya informasiya sistemini özündə birləşdirir. Burada 5300 maliyyə təşkilatı şəbəkəsi və 42000 filial kompüter vasitəsilə bir-biri ilə əlaqələndirilir. Bu hər hansı bir yerdən göndərilən vəsaitin eyni gündə alınmasına imkan verir.

Tokio - dünya maliyyə-mərkəzidir. Yaponiyanın xarici iqtisadi fəaliyyəti Şərqi Asiyada güclü maliyyə mərkəzinin yaranmasına səbəb olmuşdur. Tokio valyuta-birja əməliyyatlarının həcminə görə heç də Nyu-York və Londondan geri qalmır. Lakin Tokioda cəmisi 100 xarici bank mövcuddur. Bu da Nyu-York və Londondakından dörd dəfə azdır.

Yaponiyanın pul vahidi olan "yenin" beynəlxalq ödənişdə mövqeyi hələki zəifdir. Beynəlxalq valyuta ehtiyatı kimi Almaniya markasından iki, Amerika dollarından 8 dəfə geri qalır. Buna baxmayaraq Yaponiyanın pul vahidi xarici ticarət hesablaşmalarında geniş istifadə edilir. 1970 –ci ildə Yaponiyanın ixracı üzrə olan hesablaşmalarının 1%-i "yen" ilə aparıldığı halda 1995-ci ildə 38 %-i "yen" ilə aparılmışdır.

İdxal əməliyyatlarının da 24 %-i "Yen" ilə aparılmışdır. Təkcə Asiya ölkələri ilə aparılan ixracın 1986-cı ildə 34 %-i, 1994-cü ildə isə 48 %-i; idxalın isə müvafiq olaraq 9,2 və 34 %-i "yen" ilə həyata keçirilmişdir.

Dolların və digər valyutaların təsiri altında "yenin" kursu artır. Belə ki, 1970-1993-cü illərdə "yenin" dollara olan nisbəti 3,6 dəfə artmışdır. Bu isə xarici malların Yaponiya bazarına axmasını 16 % artırmışdır.

90-cı illərdə Yaponiya iqtisadiyyatında böhran baş vermişdir. Ona görə də bir çox ciddi problemlər yaranmışdı. Yaponiyanın təşkilatçılıq modelləri aradan çıxmağa başlamışdı. Uzun müddət iqtisadi artım fəhlələrin və istehlakçıların hesabına qala bilmişdir. Fəhlələrlə sahibkarlar arasında olan razılıqlar iqtisadiyyatın sürətlə artmasına əsaslanmışdır. Baş vermiş

narazılıqlar müəyyən güzəştlərlə aradan qaldırılır, kənd təsərrüfatına himayədarlıq da edilir. Odur ki, nisbi də olsa sərvətin bərabər bölgüsünə zəmin yaranır. Lakin buna baxmayaraq son onillikdə iqtisadi artım xeyli ləng gedir. Bu isə həyat səviyyəsinin artmasına əks təsir etmişdir. 80-ci illərdə daşınmaz əmlakın qiymətinin artması nəticəsində ölkədə əmlak sahibi və əmlakdan məhrum olanlar açıq-aşkar seçilməyə başlamışdı.

Beynəlxalq bazarda Yaponiya sahibkarlarının rəqabət aparmaq vəziyyəti dəyişmişdi. Ticarət balansında müsbət saldo azalmışdı. Yaponiya malları qiymət üzrə olan rəqabətdə zəifləmişdi, sosial infrastruktura üzrə olan gerilik aradan qaldırıla bilməmişdi. Yaponiyada hər min nəfərə düşən mənzilin sayı qərb ölkələrindəkindən azdır.

Bu yüz illiyin axırına 65 yaşından yuxarı pensiyaçılar cəmi əhalinin 16 %-ni təşkil edir. ABŞ-da bu göstərici 13 %, Britaniyada 15 %-dir. Bu mənzərə əmanətin azalmasına və istehlakın artmasına səbəb olur ki, bu da iqtisadi artıma mənfi təsir edir.

Yaponiya kompaniyalarının bir çox nailiyyətlərinə baxmayaraq hələ də Amerika texnologiyasından asılılığı mövcuddur. Kompüterləşmə sahəsində də Yaponiya bir çox ölkədən geri qalır. 1993-cü ilin məlumatına görə hər 100 nəfərə Yaponiyada 10, ABŞ-da 29, Avstraliyada 19, Kanadada 18, Böyük Britaniyada 17, AFR və Fransada 14 kompüter düşürdü.

XVIII FƏSİL
QƏRBİ AVROPA DÖVLƏTLƏRİNİN İQTİSADİYYATI
(Burada əsasən böyük dövlətlər nəzərdə tutulur)

1. *Qərbi Avropa ölkələrinin ümumi xarakteristikası.*
2. *Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf mərhələləri: birinci mərhələ (1945-1950-ci illər).*
3. *İkinci mərhələ - 1950-1974-cü illər.*
4. *Üçüncü mərhələ - 1974-1984-cü illər.*
5. *Dördüncü mərhələ - 1985-1990-cı illər.*
6. *Beşinci mərhələ - 1991-ci ildən sonrakı dövr.*

1. Qərbi Avropa ölkələrinin ümumi xarakteristikası

Bu gün artıq Qərbi Avropa ilə Mərkəzi və Şərqi Avropa arasındakı sərhəd və kəskin fərq aradan götürülmüşdür. Odur ki, Avropaya vahid məkan kimi baxılır. Bununla yanaşı qeyd etməliyik ki, Aİ-nin yaranması və inkişafı barədə və eləcə də Qərbi Avropanın bəzi ölkələrinin iqtisadiyyatı barədə ayrılıqda mövzular vardır. Ona görə də bu mövzuda Qərbi Avropa dövlətlərinin iqtisadi inkişafı barədəki ümumi mülahizələri, istiqamətləri verməklə kifayətlənirik (burada əsasən böyük dövlətlər nəzərdə tutulur). İstər fiziki və siyasi xəritəsinə və istərsə də iqtisadi inkişafına görə Avropanın özünəməxsus müxtəlif cəhətləri vardır.

Avropa dövlətlərinin sayı 40-dan artıqdır, başqa tabeçilikdə olan ərazi və kiçik dövlətlərlə birlikdə təqribən 50-yə qədərdir.

1980-ci illərin ortalarına burada 32 müstəqil dövlət vardır (Andorra, San-Marino, Monako, Vatikan, Lixtenşteyn və bu kimi kiçik dövlətlərlə birlikdə) 1990-cı illərdə SSRİ-nin dağılması ilə buradan ayrılmış Baltikyanı dövlətlər, Yuqoslaviya Federativ Sosialist Respublikasının parçalanması, Çexoslovakiyanın iki yerə ayrılması nəticəsində Avropa dövlətlərinin sayı da artmışdır.

Avropa dövlətlərinin əksəriyyəti kiçik dövlətlərdir. Belə ki, 9 dövlətin – Belçika, Niderland, Danimarka, İsveçrə, Slovakiya, Sloveniya, Makedoniya, Albaniya və Estoniyanın (hər birinin) ərazisi 50 min kv. km-dən artıq deyildir.

50 mindən 100 min kv. km əraziyə malik olan 10 dövlət (İslandiya, İrlandiya, Avstriya, Macarıstan, Çexiya, Latviya, Litva, Xorvatiya, Bosniya və Hersoqovina, Portuqaliya) vardır.

100 mindən 500 min kv. km əraziyə malik olan 11 dövlət vardır – Norveç, İsveç, Finlandiya, Böyük Britaniya, Almaniya, İtaliya, Polşa, Rumıniya, Bolqarıstan, Serbiya və Çernoqoriya, Yunanıstan.

Ancaq iki ölkənin – Fransa və İspaniyanın ərazisi 500 min kv. km-dən artıqdır.

Hər bir ölkənin miqyasının müəyyən edilməsində onların sərhəd xəttinin uzunluğu da böyük əhəmiyyətə malikdir. Bu mənada Norveç daha uzun sərhəddə malikdir – 1750 km; İsveç – 1600; Finlandiya – 1160; Fransa – 1000; Böyük Britaniya – 965; Almaniya – 865 km. Bütün bunlarla yanaşı **Avropa dövlətlərinin əksəriyyətinin dəniz sahilinə yaxın olmaları, ada və yarımadalardan ibarət** olmaları da böyük əhəmiyyət kəsb edir.

Avropa daha çox parçalanması ilə də səciyyələnir. Min illərdir ki, Avropa bütün dünyanın siyasi, iqtisadi və mədəni həyatında həlledici rol oynayır. Bütün bu min illər boyu Avropanın siyasi-iqtisadi xəritəsində iki daha mühüm cəhəti qeyd etmək olar.

1. Birinci – dəyişkənlik hallarının çox olması.

Bu proses ayrı-ayrı xalqların hücumları, basqınları ilə bağlı olmuşdur. Ərəblərin, tatar-monqolların, osmanlı türklərin işğalçılığı, XIX əsrin əvvəllərində Napoleonun uzunmüddətli işğalçılıq müharibələri, XVIII əsrdə Avstriya, Polşa, İspaniya sülalələri arasında vərəsəlik müharibələri, Rusiya-Türkiyə müharibəsi, Birinci və İkinci Dünya müharibələri Avropanın siyasi-iqtisadi həyatında ciddi dəyişikliklər yaratmaya bilməzdi.

2. İkinci əsas cəhət qeyd etdiyimiz kimi parçalanmaqdır.

XX əsrdə Birinci və İkinci Dünya müharibələri və Dünya Sosialist sisteminin yaranması və dağılması Avropanın ictimai həyatına güclü təsir etmişdir. Birinci Dünya müharibəsi (1914-1918) nəticəsində Avstriya, Macarıstan, Çexoslovakiya, Yuqoslaviya müstəqil dövlət kimi fəaliyyət göstərməyə başlamışlar.

1917-ci ildə Rusiyadakı inqilabdan sonra Polşa, Finlandiya, Latviya, Litva və Estoniya müstəqillik əldə etmişlər.

İkinci Dünya müharibəsindən sonra da Avropada güclü kəmiyyət və keyfiyyət dəyişikliyi özünü göstərmişdir. Avropa dövlətlərinin böyük bir qismində əvvəlcə xalq-demokratik, sonra isə sosialist inqilabı nəticəsində sosialist dövlətləri yaranmışdır.

Nəhayət 1990-cı illərdə SSRİ-nin və onunla yanaşı sosialist sisteminin dağılması Avropanın siyasi və iqtisadi həyatında həlledici dəyişikliyə səbəb olmuşdur.

Birinci – iki Alman dövləti birləşdirilmiş vahid alman dövləti yaranmışdır.

İkinci – Çexoslovakiya və Yuqoslaviya Federasiya dövlətləri əsasında bir neçə müstəqil dövlət yaranmışdır.

Üçüncü – bu dövlətlər əsasən «məxmər inqilabı» ilə siyasi, iqtisadi, hərbi dəyişikliklər etmişlər.

Beləliklə, Avropa məkanı 38 müstəqil dövləti (kiçik dövlətlərsiz) və Böyük Britaniyanın idarəçiliyində olan Cəbrailtariqi özündə birləşdirir.

İdarəçilik baxımından bu dövlətlərin **27**-də respublika, **12**-də isə monarxiya quruluşu mövcuddur.

Respublika idarəçilik formasında parlamentli respublika üstünlük təşkil edir (burada demokratiya ənənələri daha güclüdür -məs., Almaniya, İtaliya). Prezident respublikasına Fransanı misal çəkmək olar.

Monarxiya idarəçiliyində – krallıq, knyazlıq, böyük hersoqluq, mütləq monarxiyada – teokratiya (Vatikan) və bu kimi idarəçiliklər mövcuddur.

İnzibati-ərazi quruluşuna görə unitar dövlət quruluşu üstünlük təşkil edir. Bununla yanaşı 5 federativ dövlət də vardır.

İlk növbədə Avropa-Qərbi və Şərqi Avropa kimi təsvir olunurdu. 1990-cı ildən sonra bu cür bölgü öz mahiyyətini demək olar ki, itirmişdir.

Hazırda Avropa şimalı və Avropa cənubu anlayışları da istifadə edilir.

İqtisadi baxımdan cənuba nisbətən şimal daha yüksək inkişafa malikdir, şəhərləşmə yüksəkdir. Şimalda əsasən alman dili və protestantlıq üstünlük təşkil etdiyi halda, cənubda roman dili və katolik təriqəti daha üstündür. Şimal ölkələrinin demək olar ki, əksəriyyəti monarxiya idarəçiliyinə əsaslanır. Bütün bunlarla yanaşı BMT-nin təsnifatına görə Avropa dövlətləri dörd yarımqrupa bölünür: şimal, cənub, şərq və qərb (cəd. № ....). Avropanın kiçik dövlətlərinin iqtisadi təhlilində isə yenidən başqa qruplaşdırılma aparılır.

Onu da qeyd etməliyik ki, bu mövzuda Şərqi Avropa yarımqrupunda sadalanan ölkələrin iqtisadi göstəriciləri hələki, Avropa məkanı kimi adlanan sistemdə öz ifadəsini tapmamışdır. Odur ki, burada müqayisə edilən göstəricilər bütün Avropanı deyil, ancaq Qərbi Avropanı (xüsusilə böyük ölkələri) əks etdirir.

Cədvəl

Avropanın ayrı-ayrı yarımqrup dövlətləri (2005)

	Şimali Avropa 10 ölkə	Ərazisi, min kv. km	Əhalisi, mln. nəfər	Cənubi Avropa 11 ölkə	Ərazisi, min kv. km	Əhalisi, mln. nəfər
1	Böyük Britaniya	245	60,4	İtaliya	301	58,2
2	Danimarka	43,0	5,4	İspaniya	506	40,3
3	İrlandiya	70,4	4,0	Portuqaliya	92	10,6
4	İslandiya	103,0	0,300	Yunanıstan	132	10,7
5	Norveç	324,0	4,6	Yuqoslaviya	102,0	11,0
6	İsveç	450,0	9,0	Xorvatiya	56,6	4,5
7	Finlandiya	338	5,2	Bosniya və Hersoqovina	51,0	4,4
8	Latviya	64,5	2,3	Makedoniya	26,0	2,0
9	Litva	65,2	3,6	Albaniya	28,7	3,1
10	Estoniya	45,0	1,3	Malta	0,316	0,400
11				Sloveniya	20,0	2,0
	Cəmi	1748,1	96,1	**Cəmi**	1315,6	147,2

	Şərqi Avropa 10 ölkə			Qərbi Avropa 7 ölkə		
1	Rusiya	17098	143,2	Avstriya	84	8,2
2	Ukrayna	604,0	46,5	Almaniya	357,0	82,4
3	Belorusiya	207,6	9,8	Fransa	552,0	60,7
4	Moldova	34,0	4,2	Belçika	30,5	10,4
5	Polşa	323,0	39,0	Lüksemburq	2,6	0,5
6	Çexiya	79,0	10,2	İsveçrə	41,0	7,5
7	Slovakiya	49,0	5,4	Niderland	41,8	16,4
8	Macarıstan	93,0	10,0			
9	Rumıniya	238,0	22,3			
10	Bolqarıstan	111,0	8,0			
	Cəmi	18836,6	298,6	**Cəmi**	1108,9	185,6
	Yekunu				23009,3	727,5

Həmin regionun dövlətləri öz iqtisadi potensialına görə təqribən birlikdə ABŞ ilə Yaponiyaya bərabər tutula bilərlər. ÜDM-in həcminə görə də təqribən bərabərdirlər. Hazırda Qərbi Avropa dünya üzrə cəmi sənaye məhsulunun və elmi-texniki potensialın 30-33 %-nə malikdir. Dünya üzrə cəmi ixracın 50 %-i, qızıl valyuta ehtiyatının 40 %-i həmin regionun payına düşür. Məlumdur ki, 1951-ci ildə Almaniya və Fransa arasında Avropa kömür və polad birliyi barədə müqavilə imzalanmışdır. Belçika, Niderland, Lüksemburq və İtaliya da bu müqaviləyə qoşulmuşlar.

Beləliklə, ardıcıl olaraq iqtisadi inteqrasiya əsasında vahid Avropa quruculuğu başlanmışdır. Qərbi Avropanın dirçəldilməsinin və inkişafının əsas hərəkətverici qüvvəsi azad xüsusi sahibkarlıq, rəqabət azadlığı, ağıllı inteqrasiya prosesinin aparılması olmuşdur.

Digər tərəfdən isə demokratiyanın və hüquqi dövlətin inkişafı, şəxsiyyət azadlığı və müstəqilliyin təmin edilməsi, müharibəyədək (İkinci Dünya Müharibəsi) faşist diktaturasının və müharibənin taptaladığı insani dəyərlərin qorunması kimi amillər həmin regionun çiçəklənməsinə zəmin yaratmışdır. Qeyd etmək lazımdır ki, XIX əsrin ortalarından Avropa bir

çox sahələrdə uzun müddət liderlik etmişdir, hakim mövqedə idi. Lakin sonralar, xüsusilə İkinci Dünya Müharibəsindən sonra Avropa öz mövqeyini ABŞ-a vermişdir. Hətta hazırda da əmək məhsuldarlığı göstəricisinə görə Qərbi Avropa ABŞ-dan və Yaponiyadan geri qalır.

Bütün bunlar hər şeydən əvvəl Qərbi Avropanın ETTKİ (elmi-tədqiqat təcrübə konstruksiya işləri) sahəsində ABŞ və Yaponiyadan geri qalması ilə xarakterizə edilir. Lakin həmin region ənənəvi baza sahələri olan **metallurgiya, maşınqayırma, metal emalı** və s. sahələrin inkişafına görə hətta üstünlüyə malikdir. Qərbi Avropa bir çox problemlərin həllində ölkələr arasında yaxından əməkdaşlığa, inteqrasiya əlaqələrinə üstünlük verərək öz iqtisadi qüdrətini dirçəltməyə nail ola bilmişdir.

Qərbi Avropa əsas istehsal amillərinə görə müxtəlif dərəcədə təmin edilmişdir. Təbii ehtiyatlarla təmin olunma səviyyəsi aşağıdır. Onu qeyd etmək kifayətdir ki, kəşf olunmuş mineral ehtiyatlarının həcmi hazırda Rusiyada **30-40** trln. dollar qiymətləndirildiyi halda, həmin ehtiyatlar **ABŞ-da 8-8,5; Çində 6-6,5; Qərbi Avropada cəmisi 0,5** trln. dollara bərabər tutulur.

Xüsusi mineral-xammal bazasının məhdud olması isə Qərbi Avropanın xarici aləmdən asılılığını artırır. Qərbi Avropa istehlak etdiyi enerji daşıyıcılarının 50 %-dən artığını, digər xammal növlərinin isə 75 %-ə qədərini idxal edir.

Bütün Avropanın əsasını təşkil edən Aİ son dövrlərdə **elmi-texniki inkişafa** daha çox üstünlük verir. 1981-1995-ci illərdə həmin sahəyə ayrılan vəsait 1,4 (ABŞ-da -1,6) dəfə artmışdır.

2002-ci ildə **elmi-texniki inkişaf** barədə yeni plan qəbul edilmişdir. **2010-cu ilə dünya** üzrə Avropada ən yaxşı iqtisadiyyat yaradılması (elmə əsaslanan) inkişaf səviyyəsinə görə ABŞ-ı və Yaponiyanı ötmək nəzərdə tutulmuşdur. Avropa Komissiyasının mülahizələrinə görə Aİ-nin **«elmi iqtisadiyyatı»** dünyada ən dinamik və rəqabətqabiliyyətli olacaqdır.

Aİ-nin inkişafının tərkib hissəsi kimi **2002-2006-cı illərdə elmi-texniki inkişafın maliyyələşdirilməsi** planı ardıcıl həyata

keçirilmişdir. Həmin illər üçün büdcə 17,5 mlrd. avro olmuşdur.

Bu 2006-cı il çərçivə planında aşağıdakı sahələrin inkişafına üstünlük verilmişdir:

- genetika;
- səhiyyə üçün biotexnologiya;
- əsas ağır xəstəliklərə qarşı mübarizə metodları;
- nanotexnologiya;
- «intellektual» çoxfunksional materialların işlənib hazırlanması;
- aeronavtika və kosmos;
- ekosistemlər;
- informasiya texnologiyası və s.

Beləliklə, 2010-cu ilə Aİ üzrə elmə ayrılan vəsait 3 % (hazırda 1,94 %-dir, ABŞ-da – 2,7 %, Yaponiyada isə 2,98 %-dir) təşkil etməlidir.

Kömpüterləşmə və elektron ticarəti də sürətlə genişlənir. Elektron ticarətinin həcmi 1997-ci ildəki 20 mlrd. drllara qarşı 2000-ci ildə 200 mlrd. dollar olmuşdur.

Avropada biotexnologiya ETT-nin vacib sahəsi kimi sürətlə inkişaf etdirilir. Dünya üzrə gibridləşdirilmiş bitki əkini sahəsi 50 mln. hektardır. Burada ABŞ liderlik edir. Soya və pambıq əkininin 70 %-i, taxılın isə 30 %-i onun payına düşür.

Bir müddət Avropa bü cür məhsullardan imtina etmişdir. 2002-ci ildən isə bu sahənin inkişafına razılıq vermişdir.

Qərbi Avropa kifayət qədər digər istehsal amilləri olan ixtisaslı işçi qüvvəsi və pul kapitalına malikdir. Əmək bazarında işçi qüvvəsinin artıq olması açıq-aşkar gözə çarpır. Odur ki, həmin ölkələrin bəzilərində işsizlik səviyyəsi 10-12 %-də təşkil edə bilir ki, bu da müəyyən sosial gərginliyin yaranmasına səbəb olur.

Bütün bunlarla yanaşı göstərməliyik ki, Qərbi Avropa ölkələrinin iqtisadiyyatının araşdırılmasına başqa mövzularda da qismən toxunulmuşdur. Bu mövzuda isə əsasən İkinci Dünya Müharibəsindən sonrakı dövr müəyyən mərhələlər üzrə şərh edilir.

2. Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf mərhələləri: birinci mərhələ 1945- 1950-ci illər

Bu mərhələ regionun iqtisadiyyatının bərpası dövrü hesab edilir. 1949-cu ildə həmin regionda bir çox göstəricilərin həcminə görə müharibədən əvvəlki - 1936-cı il səviyyəsi bərpa edilmişdir. Məlumdur ki, müharibədən sonra Qərbi Avropa ölkələri ABŞ-dan asılı vəziyyətə düşmüşlər. Ona görə də müvəffəqiyyətlə bərpa işləri aparsalar da 1937-ci ildə kapitalizm dünyası ölkələrinin sənaye məhsulunun 38 %-ni istehsal etdikləri halda, 1948-ci ildə 31 %-ni istehsal edirdilər. Əmtəə ixracının həcminə görə də 35 %-dən 28 %-ə enmişlər. Qızıl valyuta ehtiyatları 1939-cu ildəki 9 mlrd. dollardan 1948-ci ildə 4 mlrd. dollaradək azalmışdır (ABŞ-dan 6 dəfə az idi).

Lakin ABŞ - Qərbi Avropanın iqtisadiyyatının bərpasına kömək etməyi qərara almış və 7 iyun 1947-ci ildə qəbul edilmiş "Marşal planını" təklif etmişdir. Həmin plana əsasən edilmiş dövlət köməkliyi 17 mlrd. dollar (indiki qiymətlərlə 90 mlrd. dollar) təşkil edirdi. Həmin məbləğin yarıdan çoxunu Böyük Britaniya, Fransa, Qərbi Almaniya almışdı. Bundan əlavə Amerikanın xüsusi sahibkarları da birbaşa investisiya və kredit şəklində Qərbi Avropaya kömək etmişlər. "Marşal planı" üzrə köməklik Sovet İttifaqına, Mərkəzi və Şərqi Avropa ölkələrinə də təklif edilmişdir. Lakin SSRİ Amerikanın bu təklifini digər ölkələrin daxili işinə qarışmaq və özündən asılı vəziyyətə salmaq kimi qiymətləndirmiş və ondan imtina etmişdir.

Həmin dövrdə bu ölkələrdə bir çox islahatlar həyata keçirilmişdir. **Bu islahatların bir qismi Almaniyada Lüdviq Erxardın[1] adı ilə bağlıdır.** Erxard iqtisadiyyatın dirçəlməsinin əsas yolunu - sərbəst xüsusi təşəbbüsdə, rəqabətdə, təsərrüfat həyatına dövlətin az qarışmasında görürdü. Erxardın islahatında

[1] L.Erxard (1897-1977) Qərb zonası üzrə işğal olmuş təsərrüfatların birləşmiş direktoru - 1948. AFR-in xalq təsərrüfatı naziri - (1949-1963), 1963-1966-cı illərdə hökumət başçısı, professor. 1957-ci ildə dərc edilmiş "Hamının rifahı üçün" kitabının müəllifi.

keçmiş faşizm idarəçilik üsulundan uzaqlaşmaq əsas yeri tuturdu. Bu islahat sərbəst qiymətləri və sahibkarlıq fəaliyyətini nəzərdə tutan pul islahatına əsaslanırdı. Pul islahatından üç gün sonra qiymət islahatı keçirilmişdir. Qiymətlər sərbəst buraxılmışdır. Valyutanın sabitliyini saxlamaq və inflyasiyadan qaçmaq üçün qiymətlərin artırılmasına qarşı qanun qəbul edilmişdir. Erxardın sözləri ilə desək alıcı bazarın əsl üzünü müəyyən edən "şah" hesab olur. Düzgün kredit və vergi siyasəti yeridilirdi. Erxard öz ölkəsi üçün sosial bazar təsərrüfatı yaradırdı.

Belə bir müvəffəqiyyətə nail olmaqda ABŞ-ın köməkliyindən və alman iqtisadçılarının, siyasətçilərinin peşəkarlığından əlavə aşağıdakı cəhətlər əsas rol oynamışdır:

1. Geniş xalq kütləsinin köməkliyi.

2. Faşist rejimi qalıqlarının ləğv edilməsi, siyasi həyatın demokratikləşdirilməsi, alman xalqının həyat səviyyəsinin yaxşılaşdırılması.

3. Bütün alman xalqının vətənpərvərliyi, işgüzarlığı, məsuliyyət, nizam-intizam ənənələrinin güclü olması. Beləliklə, 50-ci illərin ortalarına AFR qızıl ehtiyatının həcminə görə dünyada ABŞ-dan sonra ikinci yerə çıxmışdır.

3. İkinci mərhələ (1950-1974-cü illər)

Bu mərhələ demək olar ki, 25 il çəkmişdir. Həmin mərhələdə Qərbi Avropa ölkələrinin iqtisadiyyatında ardıcıl-fasiləsiz yüksəlişlər olmuşdur. Həmin mərhələdə region üzrə ÜMM dörd dəfə artmışdır. Qərbi Avropa iki mərkəzin - SSRİ ilə ABŞ-ın arasında qalmışdı. Ona görə də bu vəziyyətdən daha tez çıxmağa can atırdılar. Digər tərəfdən qərb ölkələri öz müstəmləkələrinin milli-azadlıq hərəkatları çağırışlarına da cavab verməli idilər. Ona görə də qərb ölkələri ciddi iqtisadi, elmi-texniki və siyasi nailiyyətlər edərək birləşmək, hərtərəfli əməkdaşlıq həyata keçirmək barədəki arzularına çatırdılar.

Həmin mərhələdə Qərbi Avropa dövlətlərinin iqtisadi inkişafı ekstensiv amillərə əsaslanırdı, çoxlu kapital və əmək ehtiyatları tələb edilirdi. Artıq həmin region ÜMM-in artım sürətinə görə ABŞ-ı qabaqlayırdı. 1960-1973-cü illərdə əsas kapitala olan vəsait qoyuluşu ABŞ-da hər il 4,8 % artdığı halda, qərb ölkələrində 5,3 % yüksəlmişdir.

Bu mərhələdə Qərbi Avropanın iqtisadiyyatı ucuz xammal idxalına və xarici işçi qüvvəsinə əsaslanırdı. O vaxt Türkiyədən və Yuqoslaviyadan çoxlu ucuz işçi qüvvəsi gəlirdi. Çox sürətlə yeni müəssisələr işə salınır, ixrac artırdı. Qərb ölkələrinin valyutaları möhkəmlənir, milli valyutaları dönərli valyutalara çevrilirdi. Lakin Qərbi Avropa iqtisadi artımın kəmiyyət göstəricilərinə əsaslanaraq ABŞ-dan fərqli olaraq ETT, yüksək texnoloji sahələr, elm ilə istehsalın əlaqəsinin möhkəmlənməsi və s. kimi proseslərə az diqqət verirdi. Elmi-tədqiqat təcrübə konstruktor işlərinin inkişafına az vəsait ayrılırdı.

Qərbi Avropa ölkələrinin iqtisadi inkişafı həmin mərhələdə inteqrasiya proseslərinin genişlənməsilə də xarakterizə olunur (bu barədə başqa fəsillərdə də verilmişdir). Belə ki, 1951-ci ildə Avropa Kömür Polad Birliyi təşkilatı, 1957-ci ildə tarixi Roma müqaviləsinə əsasən Avropa İqtisadi Birliyi (hazırda bura 27 ölkə daxildir və bir çoxları da daxil olmaq arzusundadırlar).

1950-1958-ci illərdə Avropa Tədiyyə Birliyi yaranmışdır. Bu birlik bura daxil olan altı ölkə arasında bir çox gömrük dərəcələrini dəyişdirmişdir. Avropa İqtisadi Birliyinin - Avropa parlamenti, Komissiyası, Avropa Şurası, Avropa məhkəməsi və bu kimi orqanları yaranıbdır. Bu mərhələdə ardıcıl olaraq - mərhələlərlə qarşılıqlı ticarətdə gömrük dərəcələri azaldılmışdır. Gömrük dərəcəsi 1959-cu ildə 10 %; 1960-cı ildə 20 % aşağı salınmışdır (bundan əlavə hər il 10 % azaldılması nəzərdə tutulmuşdur). 1968-ci ildən isə daxili gömrük dərəcələri ləğv edilmişdir. 1968-ci ildən AİB - inteqrasiyanın yeni mərhələsinə keçmişdir.

Burada əsas vəzifələrdən biri də 1970-ci ilin əvvəllərinə gömrük ittifaqından ümumi bazara keçid idi. Bu məqsədlə dolayı vergiqoymada müəyyən eynilik yaradılmışdır. 1973-cü ildə AİB ölkələri üçün Əlavə Dəyər Vergisi sistemi müəyyən edilmişdir. Pul-kredit sistemində və valyuta dairəsində də inteqrasi-

ya həyata keçirilirdi. Belə ki, həmin mərhələdə Avropa investisiya bankı, Avropa valyuta əməkdaşlığı fondu yaradılmışdır. 1971-ci ildə Lüksemburqun baş naziri Pyer Verner AİB ölkələrinin iqtisadi və valyuta ittifaqına keçmələrini və **«ekyu»**-dan ibarət Avropa pul vahidinin yaradılmasını təklif etmişdir. Verner planına əsasən 1980-ci ilə iqtisadi və valyuta ittifaqı yaradılması nəzərdə tutulmuşdur. İqtisadi artım baxımından bu mərhələdə Avropada bir çox iqtisadi göstəricilər ABŞ-dan üstün olmuşdur.

4. Üçüncü mərhələ (1974-1984-cü illər)

Bu mərhələ iqtisadi artımın surətinin və inteqrasiya proseslərinin azalması ilə səciyyələnir. ÜMM-in orta illik artım sürəti 1,7 % (ABŞ-da 2,3 %, Yaponiyada 4,2 %), sənaye məhsulu istehsalı - 0,8 % (ABŞ-da 1,3; Yaponiyada 2,1 %) azalmışdır. Bu vəziyyətin əsas səbəbini mütəxəssislər neft ixrac edən ölkələrdə - neft ixracının pisləşməsində (1973-1974 və 1978-1979-cu illərdə) görürdülər. Həmin illərdə Qərbi Avropa ölkələrinə olan neft ixracında müəyyən çətinliklər yaranmışdır. Eyni zamanda iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi artırdı. Avropa ölkələri üzən (dəyişən) valyuta kursuna keçmişdilər, sosial xərclər artırılırdı - hətta əmək məhsuldarlığının artımını qabaqlayırdı.

Bütün bunlara baxmayaraq həmin mərhələdə iqtisadiyyatın **ekstensiv yolundan intensiv yoluna** keçid başlanmışdır. Mənfəət normasının aşağı düşməsinə baxmayaraq əsas kapitalın təzələnməsi və modernləşməsi prosesi güclənmişdir. Cəmi investisiyada sənayenin xüsusi çəkisi sürətlə artırdı. Kapital qoyuluşunun texnoloji quruluşunda da müsbət dəyişiklik baş verirdi, avadanlıqların xüsusi çəkisi yüksəlmişdir.

Belə ki, 1973-1985-ci illərdə cəmi investisiyada avadanlıqların xüsusi çəkisi AFR-də 37 %-dən 48 %-ə, Böyük Britaniyada 41 %-dən 47 %-ə, Fransada 44 %-dən 54 %-ə qədər artmışdı. Həmin dövrdə xammal sahələrinə və ETİ-lə (elektrotexnika sənayesi, EHM, yeni materiallar və s.) bağlı olan sahələrə kapital qoyuluşunun xüsusi çəkisi artırdı.

Elə bu vaxtlar AİB ərazi cəhətdən xeyli genişlənmişdir. 1973-cü ildə İngiltərə, İrlandiya, Danimarka, 1981-ci ildə isə Yunanıstan bura daxil oldu. Beləliklə, AİB (ümumi bazar) on ölkədən ibarət oldu. Eləcə də 1979-cu ildə Avropa valyuta sistemi və regional pul vahidi olan «ekyu» yaradılmışdır.

Həmin mərhələni səciyyələndirən əsas cəhətlərdən biri də ondan ibarətdir ki, 1971-1973-cü illərdə **Bretton-Vuds[1] valyuta sistemi dağılmışdır.** Bu ölkələrdə inflyasiya artmışdır. Pərakəndə qiymətlərin orta illik həcmi (1974-1983-cü illərdə) ABŞ-da 7,5, Yaponiyada 5,5, Qərbi Avropa ölkələrində isə 11,7 % artmışdır. Beləliklə, pul kütləsinin həcmi, istehsal xərcləri, dövlət büdcəsinin çatışmazlığı artmışdır.

Ona görə də vəziyyətdən çıxmaq üçün Böyük Britaniya, AFR, Norveç, İsveçrə və s. ölkələrin iqtisadi siyasətində liberallaşma ideyası artırdı. Fransa, Avstriya, İspaniya, Portuqaliya, İsveç, Yunanıstan, Finlandiya isə dövlətin iqtisadi tənzimlənməsinə üstünlük verirdilər. Məlumdur ki, müharibədən sonrakı 1945-1948-ci illərdə Böyük Britaniyada bir çox banklar, kömür şaxtaları, xaricə xidmət edən radio və teleqraf rabitəsi, elektrik stansiyaları, 1967-ci ildə qara metallurgiya və nəqliyyatın bir çox müəssisələri dövlət mülkiyyətinə keçərək milliləşdirilmişdir. 70-ci illərdə bir çox iri şirkətlərin səhminin çoxunu dövlət alaraq qarışıq dövlət - xüsusi şirkətləri yaratmışlar.

1970-ci illərin əvvəllərindən isə istehsalın artım sürətinin azalması qeyd etdiyimiz kimi yeni iqtisadi siyasətə keçilməsini zəruri edirdi. **1979-cu ildə İngiltərədə hakimiyyətə gəlmiş M.Tetçer hökuməti iqtisadiyyata dövlətin qarışmasını məhdudlaşdırmaq, bazar mexanizmini, iqtisadiyyatın liberallaşmasını gücləndirmək ideyasına üstünlük verirdilər.** Pul kütləsinin artması üzərində nəzarət qoyulur, vergi dərəcələri azaldılır, bazara vergi nəzarəti zəiflədilir, qiymətlər və əmək haqqı üzərində nəzarət ləğv edilirdi.

[1] Bretton-Vuds Amerikada şəhərdir. Bu sistem 1944-cü ildə yaradılmışdır.

Eyni zamanda inflyasiya əleyhinə tədbirlər tətbiq edilirdi. Xüsusi bölməyə dövlət krediti azaldılırdı, ümumiyyətlə dövlət xərcləri məhdudlaşdırılırdı. Təkcə sənaye, kommunal və yol təsərrüfatı, mədəniyyət və maarifin inkişafına ayrılan dövlət **xərci 4 mlrd.** sterlinq azaldılmışdır.

Bir çox sahələr - Şimal dənizində zəngin neft yataqları, kömür şaxtaları, radioaktiv izotopları istehsal edən zavodlar, yük daşıma üzrə milli kompaniyalar və s. xüsusi firmalara satılmışdır. Bütün bunlarla yanaşı İngiltərədə ən yüksək ixtisaslı kadrlar sənaye sahələrində yerləşdirilirdi. Elmi-tədqiqat və təcrübə konstruktor işlərinə olan dövlət xərcləri artırılırdı. 1980-ci illərdə avadanlıqların modernləşdirilməsinə, yeni texnologiyaya, maşın və avadanlıqlara qoyulan investisiya ölkənin bütün emal sənayesinə qoyulan vəsaitin 76 %-ni təşkil edirdi. Bütün bunlar qısa bir müddətdə İngiltərənin iqtisadi inkişafının sürətlənməsinə təkan vermiş olmuşdu.

5. Dördüncü mərhələ (1985-1990-cı illər)

Bu mərhələdə Qərbi Avropada iqtisadi inkişaf yenidən sürətlənmiş və dünya iqtisadiyyatında onun mövqeyi xeyli möhkəmlənmişdir. İqtisadi inkişafın intensiv yoluna keçid başa çatmışdır. Qərbi Avropa elmi-tədqiqat və təcrübə konstruktor işləri (ETTKİ) üzrə öz mövqeyini möhkəmlətmiş, geniş miqyasda özünün elmtutumlu və yüksək texnoloji məhsullarını buraxmağa başlamışdır. İnteqrasiya prosesləri də əsaslı surətdə genişlənmiş və möhkəmlənmişdir. Praktiki olaraq Avropa daxili bazarının (ADB) yaradılması başa çatmışdır. Beləliklə, 80-90-cı illərdə bir çox makroiqtisadi irəliləyişlər olmuşdur: ÜDM və sənaye məhsulunun daha sürətli artımı, işsizliyin azalması, inflyasiyanın artım sürətinin azalması, milli valyutanın kursunun sabitliyi artmışdı.

TMK-lər öz istehsalat bazalarını elmtutumlu məhsul istehsalına doğru yönəltmişdilər. Yeni məhsullar, biotexnologiya məhsulları istehsalına üstünlük verilirdi. Xidmət sahəsi genişlənmişdir. İqtisadi siyasətdə regional siyasət keçirilirdi. 1975-ci ildə regional inkişaf fondu yaradılmışdır. 1977-ci ildə Qərbi Avropada sənaye malları üzrə ümumi bazar formalaşmışdır. 1984-cü ildə kənd təsərrüfatı siyasətində islahat keçirilmiş və elmi-texniki inkişaf proqramı qəbul edilmişdir.

Eyni zamanda ixracın rolu gücləndirilmiş, sahibkarların mənfəəti və əhalinin real gəlirləri artmış, vergi dərəcələri yüngülləşmiş, büdcə kəsiri azalmışdır. 1984-1990-cı illərdə region üzrə ÜDM 22 %, şəxsi istehlak fondu 23 %, kapital qoyuluşu 34 %, sənaye məhsulu 23 % artmışdır. Tədiyyə balansının müsbət saldosu 200 mlrd. dollara çatmışdır. Həmin mərhələnin axırlarında Qərbi Avropanın iqtisadi inkişafına təsir edən bir çox amillərlə yanaşı Almaniyanın birləşməsi (1990-cı ilin oktyabr ayı), Şərqi Avropa dövlətlərində sosializm sisteminin dağılması da böyük rol oynamışdır.

Almaniyanın birləşməsi ilk əvvəllər bir çox iqtisadi çətinliklər yaratdısa da, əslində yeni Almaniyanı daha da gücləndirirdi. Avropa İttifaqı və bütün Qərbi Avropa üçün yeni satış bazarı yaranmışdır. Şərqi Avropa dövlətlərində sosializmin dağılması və SSRİ-nin parçalanması üzündən Qərb dövlətləri öz vəsaitlərinin bir hissəsini həmin ölkələrə yönəltməli olmuşlar.

6. Beşinci mərhələ (1991-ci ildən sonrakı dövr)

Keçmiş dövrlərdə - mərhələlərdə Qərbi Avropa dövlətlərinin iqtisadi inkişafının artmasına baxmayaraq beşinci mərhələ böhranlarla başlanmışdır. Sənaye istehsalı 1991-ci ildə 0,2 %, 1992-ci ildə 0,9 %, 1993-cü ildə 2,6 % azalmışdır. Bu proses Qərbi Almaniyada daha açıq özünü göstərirdi. Belə ki, 1991-ci ildən ÜMM-də kapital qoyuluşunun xüsusi çəkisi azalmışdır. Region üzrə bu azalma 1991-1993-cü illərdə 6,4 % təşkil etmişdir. Beləliklə, Qərbi Avropada ÜDM mütləq mənada azalmışdır. Bu azalma 1993-cü ildə region üzrə 0,1 %, o cümlədən Almaniya, Fransa və İtaliyada isə 1,1-1,3 % təşkil etmişdir. Böyük Britaniya, Finlandiya və İsveçrədə isə bu azalma 1990-cı

ildən başlanmış və böhran illəri dövründə həmin ölkələr üzrə müvafiq olaraq 3,0; 13,0; 5,0 % olmuşdur.

1994-cü ildən Qərbi Avropanın iqtisadiyyatında canlanma və yüksəliş mərhələsi başlanmışdır. Belə ki, həmin ildə ÜDM 2,5 % artaraq böhran illərində olan azalmanın qarşısını almışdır. Qərbi Avropada 1994-cü ildə olan iqtisadi inkişafın əsas amillərindən biri kimi xarici ticarətin artmasını da qeyd etmək olar. Həmin dövrdə xarici ticarətin artım sürəti ÜDM-in artım sürətini qabaqlayır. ÜMM-də xalq istehlakı malları daha sürətlə artaraq daxili tələbatın ödənilməsini xeyli yaxşılaşdırmışdır.

Həmin mərhələdə inteqrasiya prosesləri keçmiş dövrlərdəki kimi davam etdirilmiş və Mərkəzi-Şərqi Avropa dövlətləri ilə münasibətlər yaxşılaşmışdır. Bu mərhələdə Avropa valyuta sisteminin yaranması məsələsi də həmişə diqqət mərkəzində olmuşdur. Bu məqsədlə 1991-ci ilin dekabr ayında Hollandiyanın Maastrix şəhərində Avropa İqtisadi Birliyi dövlətləri başçılarının görüşü olmuşdur. Maastrix müqaviləsinə əsasən vahid Avropa sisteminə keçilməsi qərara alınmışdır.

1992-ci ilin fevral ayında yenə də Maastrix şəhərində Avropa İttifaqı[1] yaradılması barədə müqavilə bağlanmışdır. 1992-ci ilin may ayında isə iki inteqrasiya qruplaşması olan Aİ və Avropa Azad Ticarət Birliyi (AATB) Qərbi Avropanın 19 ölkəsinin ərazisində vahid iqtisadi məkan yaradılması barədə razılığa gəlmişlər. 1991-ci ildə Aİ-nin təşəbbüsü ilə Avropa yenidənqurma və inkişaf bankı (AY və İB) yaradıldı. Onun 10 mlrd. ekyu nizamnamə fondu vardı. Bankın əsas vəzifəsi Mərkəzi Avropa dövlətləri və Sovet İttifaqı respublikalarının islahatlar keçirməsinə maliyyə köməkliyi etməkdən ibarət idi.

Beləliklə, beynəlxalq maliyyə təşkilatı olan BVF və BY və İB-də iştirak etməkdə və yaxud onlara daxil olmaqda Şərqi Avropa dövlətlərinə köməklik göstərilmişdir. Avropa investisiya bankından həmin ölkələrə kreditlər verilməyə başlanmışdır.

[1] 1 noyabr 1993-cü ildən Avropa İqtisadi Birliyi (AİB) Avropa İttifaqı (Aİ) adlanır.

Parisin və Londonun rəsmi (dövlət) və xüsusi kredit birliyi klubu Polşa və Bolqarıstanın keçmiş rejimdən qalmış xarici borcunun yarısını silmişlər. İnkişaf etməkdə olan ölkələrlə yanaşı mərkəzi Avropa ölkələrinə də bir çox məhsul növləri üzrə gömrük (güzəştləri) üstünlükləri tətbiq edilmişdir. Hazırda Avropada inteqrasiya prosesi daha "dərininə" genişlənir. Belə ki, Vahid Avropada **Avropa vətəndaşlığı yaranır, sərbəst hərəkət mövcuddur, ümumi xarici siyasət və təhlükəsizlik, daxili siyasətdə və hüquqi məsələlərdə vahidlik mövcuddur. 1995-ci ilin yanvar** ayından Avstriya, Finlandiya və İsveç də Aİ-yə qəbul edilmişdir. 2004-cü ildə Macarıstan, Polşa, Çexiya, Slovakiya, Estoniya, Kipr, Latviya, Litvya, Slovakiya, və Malta, 2007-ci ildə isə Rumıniya və Bolqarıstan Aİ-yə qəbul edilmişlər.

Aİ-ölkələri iqtisadi-valyuta ittifaqına keçməklə Avropa Mərkəzi Bankının yaradılmasına və vahid **"avro"** - Avropa valyutasının tətbiqinə real zəmin hazırlamışdır. Bu isə həmin ölkələrin maliyyə ehtiyatlarının birləşməsinə, vahid valyuta maliyyə siyasəti yeritmələrinə imkan verir.

Beləliklə, Aİ üzvlərinin çoxalması müəyyən mənada Aİ ilə bütövlükdə Avropa arasında olan fərqin aradan qaldırılması prosesi kimi özünü göstərir. Bu isə vahid Avropa məkanı anlayışının reallaşmasından başqa bir şey deyildir.

XIX FƏSİL
AFR-in İQTİSADİYYATI

1. *AFR-in iqtisadi inkişafının ümumi xarakteristikası.*
2. *20-30-cu illərdə Almaniyanın iqtisadi siyasəti.*
3. *İkinci Dünya Müharibəsindən sonra Almaniyanın iqtisadi siyasəti.*
4. *Təsərrüfat mexanizminin əsas cəhətləri. Sosial bazar iqtisadiyyatı modeli.*

1. AFR-in iqtisadi inkişafının ümumi xarakteristikası

Almaniya Mərkəzi Avropada yerləşir. Sahəsi 356,96 min kv.km, əhalisi 82,7 mln. nəfərdir (2005). Almaniya Federativ respublikadır. Dövlət başçısı federal prezidentdir (5 illiyə seçilir). İcra edici orqan federal kansler hesab edilir. Nazirləri kansler təqdim edir, prezident təsdiq edir. Qanunvericilik 2 palatalı parlamentə məxsusdur.

İnzibati ərazi bölgüsünə görə Almaniya 16 federal ərazidən ibarətdir. Paytaxtı Berlindir (3,6 mln. nəfər). Digər böyük şəhərləri – Hamburq (1,7 mln. nəfər), Münxen – 1,2 mln. nəfər, Köln (1 mln. nəfər).

Almaniya iqtisadi inkişaf səviyyəsinə, iqtisadi potensialın həcminə, dünya iqtisadiyyatındakı mövqeyinə, beynəlxalq əmək bölgüsünə qoşulmaq dərəcəsinə və bir çox göstəricilərə görə dünyanın inkişaf etmiş ölkələri sırasına daxildir. 2005-ci ilin məlumatına görə dünya üzrə ÜDM-in 6 %-ni istehsal etmişdir, sənaye məhsulunun həcminə görə (ABŞ, Çin və Yaponiyadan sonra) 4-cü yeri tutur. Hər nəfərə düşən məhsulun həcminə görə qabaqcıl ölkələr sırasındadır. Xarici ticarətin dövriyyəsinə görə də aparıcı yerlərdən birini (2-ci yeri) tutur. İqtisadi artım sürəti 1990-2000-ci illərdə 2,2 %, 2003-cü ildə isə – 0,1 % olmuşdur. Yeni federal torpaqların yenidən qurulmasına çəkilən xərclərin artması ÜDM-in artım sürətinə əks təsir etmişdir.

Milli iqtisadiyyatın keyfiyyət xarakteristikası baxımından da (əmək məhsuldarlığının səviyyəsi, istehsalın kapitalla təchiz olunması, əməktutumu və s.). Almaniya qabaqcıl mövqeyə malikdir. **2005-ci ildə ÜDM-in həcmi 2791,7 mlrd. dollar, hər nəfərə düşən məhsul isə 33639 dollara bərabər olmuşdur.** Almaniya böyük sənaye – kənd təsərrüfatı ölkəsidir. Lakin burada faydalı qazıntılar o qədər də zəngin deyildir (ancaq daş kömür və boz kömür, kalium duzları zəngindir). İldə 265 mln. ton daş və boz kömür (Rur və Saar mədənləri, Köln və Sileziya mədənləri dünyada 1-ci yeri tutur) istehsal edir.

Qaz sənayesi (21 mlrd. kub m) 30 % tələbatı ödəyə bilir. Cəmisi 3 mln. ton neft istehsal edilir.

Elektrik enerjisi istehsalı 565 mlrd. kvt. s. təşkil edir. Əsasən istilik və atom elektrik stansiyaları (istehsalın 31 %-i) hesabına ödənilir.

İqtisadiyyatın quruluşunda kənd təsərrüfatı -1,1 %; emal sənayesi (energetika ilə) -24,4 %; dağmədən sənayesi – 5,3 %; ticarət, mehmanxana təsərrüfatı, nəqliyyat – 18 %; inşaat – 4,2 %; maliyyə və vasitəçilik xidməti – 25,3 %; digər sahələr 21 % təşkil edir.

Əlverişli kənd təsərrüfatına malikdir. Belə ki, ərazisinin 55%-i kənd təsərrüfatına yararlıdır, 30 %-i meşəlikdir. Əmək haqqının yüksək olması və əlverişli əmək şəraiti xarici ölkələrdən, xüsusilə İtaliyadan, Yuqoslaviyadan, Yunanıstandan, Türkiyədən çoxlu işçi qüvvəsi gəlməsinə zəmin yaratmışdır. Almaniya yüksək keyfiyyətli **"insandan ibarət kapitala"** malikdir. Belə ki, işçilərin təhsil səviyyəsi, peşəkarlıq quruluşu, sosial tərkibi, sağlamlığı, yeniliyi dərk etmək qabiliyyətləri və s. daha qənaətbəxşdir. Hazırkı ETT şəraitində əməyin intellektuallaşması və ixtisaslaşma səviyyəsinin artması daha çox zərurət təşkil edir.

Almaniya fəhlələrinin 50 %-dən çoxu ixtisaslıdır. Almaniyanın iqtisadi inkişaf amillərinindən biri də elmi-texniki tərəqqidir. Almaniya yüksək elmi-texniki bilik bazasına malikdir. Bu bazanın əsası XIX əsrdə qoyulmuşdur. Hələ o vaxtlar Almaniyanın ənənəvi sahələri olan kimya, optik fizika, metallurgiya, tibbi sahələrdə dünya standartlarına uyğun tədqiqat işləri

həyata keçirilirdi. Bu isə rəqabətdə üstünlük əldə edilməsinə zəmin yaradırdı.

Almaniya - metallurgiya, kimya, elektrotexnika, maşınqayırma sahəsi, inşaat, neft emalı, toxuculuq, yeyinti sənayesi və bu kimi sahələrin yüksək inkişafına görə fərqlənir. Əsas enerji daşıyıcıları daş-kömür, neft və qazdır. **1998-ci ilə qızıl valyuta ehtiyatı 130 mlrd. marka təşkil etmişdir.** Alman markası mövqeyinə görə dünya valyuta ehtiyatında 2-ci yeri tutur (dünya valyuta ehtiyatının 14,2 %-ni təşkil edir). Avropa valyuta sistemində ən böyük xüsusi çəkiyə malikdir - 30,0 %.

Almaniyanın iqtisadiyyatının dirçəldilməsi uzun bir tarixi yol keçmişdir. Birinci Dünya Müharibəsi qurtardıqdan sonra qərb dünyasında bir sıra müqavilələr həyata keçirilmiş və yeni münasibətlər yaranmışdır. **Bu müqavilədən biri də Versal[1] sülh müqaviləsidir**. Bu müqavilə Versal-Vaşinqton sistemində mərkəzi yerlərdən birini tutur. Həmin müqavilə qalib gələn ölkələr ilə (ABŞ, Britaniya imperiyası, Fransa, İtaliya, Yaponiya, Belçika və s.) məğlub olmuş Almaniya və s. arasında **28 iyun 1919-cu ildə bağlanmışdır**. Müqavilənin əsas şərtləri ərazi, hərbi və cərimə təzminatı problemləri idi.

Versal sülh müqaviləsinə əsasən Almaniyanın ərazisi 1914-cü ildəkinə nisbətən təqribən 13 %, əhalisi isə 10 % azaldılmışdır. Müqavilənin şərtinə görə Elzas və Lotarankiya Fransaya (1870-1871-ci illərdəki Fransa-Prussiya müharibəsinədək olan sərhəddə), Malmedi və Eypen - Belçikaya, Poznani, Pomoryanın və Prussiyanın bir hissəsi Polşaya qaytarılır, Qdansk azad şəhər elan edilir, Memel (Klaypeda) 1923-cü ildə Litvaya birləşdirilir. Şlezviq, Şərqi Prussiyanın cənub hissəsi, Yuxarı Sileziyanın da hansı dövlətə məxsusluğu barədə əhali arasında sorğu keçirilmişdi. 1920-ci ildə Şlezviqin şimal hissəsi Danimarkaya, 1922-ci ildə Sileziyanın yuxarı hissəsi Polşaya verilir, digər mübahisəli torpaqlar Almaniyada qalır.

[1] Versal. Fransada - Parisin ətrafı.

Versal sülh müqaviləsinə əsasən Almaniya bir çox müstəmləkələrindən (Z mln. km² ərazisi və 13 mln. nəfər əhalisi) imtina etməli olur. Böyük Britaniya Almaniyanın Şərqi və Cənub-Qərbi Afrikadakı müstəmləkələrini, Fransa Kamerunun çox hissəsini, Afrikada Toqonun yarısını tuturlar. Bu kimi sahələrin itirilməsi istər-istəməz Almaniyanın istehsal və xammal imkanlarını azaltmış, müəyyən problemlər yaratmışdır. Hərbi sahədə də ABŞ, İngiltərə və Fransa Almaniyanı hərbi-dəniz flotundan məhrum etmişdilər (digər bir çox tələblər də həyata keçirilmişdir). Bir çox hərbi silahlar, sursatlar istehsalı qadağan edilir, bəzi hərbi qurğular uçurdulur. Versal sülh müqaviləsinə əsasən Almaniya müharibədə zərər çəkən ölkələrə 132 mlrd. qızıl marka cərimə təzminatı ödəməli olur.

Almaniya iqtisadiyyatının dirçəldilməsi. Ç.Daus və O.Yunqun planı

Almaniyanın hərbi cəhətdən məğlub olması xeyli miqdar insan və maddi tələfata səbəb olmuşdur. Müharibə vaxtı cəbhədə 2 mln. alman tələf olmuş, 1,5 mln. nəfər yaralanmış və şikəst olmuşdur. 1 milyonadək adam xəstəlikdən və aclıqdan ölmüşdür. Digər tərəfdən də Versal sülh müqaviləsinin ağır şərtləri Almaniyanı pis vəziyyətə salmışdır. Ölkə çox pis iqtisadi vəziyyətə düşmüşdür. 150 mlrd. markaya bərabər olan hərbi xərc iqtisadiyyatı pozmaya bilməzdi. Maddi ehtiyatlar vaxtından əvvəl köhnəlmişdir. Versal müqaviləsinə əsasən Almaniyanın ərazisində olan dəyişiklik onu 25 %-dək daş-kömür çıxarılmasından, 75 % dəmir filizindən, 35 % polad istehsalından məhrum etmişdir. Sənaye istehsalının ümumi həcmi 1913-cü ilə nisbətən 43 % azalmışdır.

Sənaye məhsulu istehsalının azalması, daxili bazarın daralması, qiymətlərin artması, əmək haqqının təqribən 25 % azalması kütləvi işsizliyə səbəb olmuşdur. Maliyyə sistemi pozulmuşdur. İnflyasiya əsl qəzaya çevrilmişdir. Almaniya üzərinə qoyulan 132 mlrd. marka həcmində olan təzminat da vəziyyəti ağırlaşdırmışdır.

Almaniyanın təsərrüfatının dirçəldilməsi, Versal müqaviləsinin şərtlərinin yerinə yetirilməsi zəruriliyi ölkənin iqtisadiyyatında güclü islahat tələb edirdi. Həm daxili və həm də beynəlxalq tədbirlər lazım gəlirdi. Bu tədbirlərdən biri pul islahatının keçirilməsi (1923) idi. Bu əsasda sahibkarlara xidmət edən Emissiya bankı yaradılmışdır. Lakin bu bank kənd təsərrüfatı ilə məşğul olanların mənafeinə daha çox xidmət etdiyi üçün sənaye qruplarının rəhbərlərinin kəskin narazılığına səbəb olmuşdu. Beləliklə, **1923-cü ilin oktyabr ayında "Renta bankı"** deyilən bank yaradılmışdır. Burada nəzərdə tutulurdu ki, bu yeni Emissiya bankının kapitalı qızıldan deyil, onun təsisçiləri olan kənd təsərrüfatı torpaqlarının sahibi, sənayeçilər, ticarətçilər və bankirlərin öhdəçiliyindən ibarət olmalıdır. Bankın kapitalı **3,2 mlrd. marka** təşkil edirdi. 1923-cü ilin noyabrında renta markaları buraxılırdı. 1 renta markası 1 trln. kağız markaya bərabər götürülürdü. Valyutanın sabitləşdirilməsi tezliklə büdcənin nizamlanmasına zəmin yaradırdı.

Həmin dövrdə 2 renta bankı və Reyxsbank paralel fəaliyyət göstərirdi. 1924-cü ildə pul islahatının başa çatması ilə renta bankının fəaliyyəti dayandırılmış və yenidən qurulmuş Reyxsbankın fəaliyyəti genişlənmişdir. Pul islahatından sonra, avadanlıqların modernləşdirilməsi, alman inhisarlarının mövqeyinin gücləndirilməsi, az əmək haqqı ilə əməyin intensivliyinin artması genişlənirdi (fəhlələrin əmək haqqı fransız fəhlələrindəkindən 20 %, İngiltərədəkindən 40 % az idi). İş gününün həddi 10-12 saata çatırdı.

1924-cü ilin avqustunda qalib gələn ölkələrin Londonda konfransı keçirilmiş və orada Almaniyanın üzərinə qoyulan təzminatın şərti yünkülləşdirilmişdi. Bununla yanaşı Almaniyanın hərbi-iqtisadi qüdrətinin tezliklə bərpa olunmasını istəyən qüvvələr də yaranırdı. Ona görə də **1925-ci ildə Lokarn**[1]

[1] Lokarno-İsveçrədə şəhər. Britaniya, Fransa, Almaniya, İtaliya, Belçika, Çexiya, Polşa arasında müqav. hərbi toxunulmazlıq və sovet hökuməti əleyhinə blok yaratmaq.

müqaviləsinə əsasən Versal müqaviləsinin şərtinə yenidən baxılması, bəzi məhdudiyyətlərin qismən yüngülləşdirilməsi tədbirləri həyata keçirilirdi. Bu plan Çikaqonun bir bankının direktoru Ç.Dauesin sədrliyi ilə hazırlanmışdır.

Plana əsasən həmin təzminatın ödənilməsi əsasən üç mənbədən olmalı idi:

1. Müəyyən töycü və dolayı vergilər (əsasən istehlak şeylərinə olan vergilər). Xüsusi istiqrazlar buraxılması.
2. Almaniya dəmir yolundan olan gəlirlər.
3. Sənayenin vergiyə cəlb edilməsi.

Plan üzərində ciddi xarici nəzarət vardı. Daues planının tətbiqindən sonra Amerika kreditorları Almaniyaya **800 mln. marka** borc vermişdilər **(1932-ci ildə təzminatın ödənilməsi dayandırılmışdır)**. Daues planının həyata keçirilməsi nəticəsində Almaniyanın xarici aləm ilə olan münasibətləri də yaxşılaşırdı. Qərb ölkələri və ABŞ Almaniyaya 21 mlrd. marka (borc, birbaşa investisiya, səhm almaq şəklində) kredit vermişlər.

20-ci illərin ikinci yarısında ölkənin sənayesi canlanmağa başlamışdır. 1930-cu illərdə sənaye istehsalının həcminə görə müharibədən əvvəlki səviyyəyə çatmışdır. Daş kömür istehsalı və polad əridilməsi 30 %, çuğun əridilməsi 40 %-dən çox, boz kömür çıxarılması 75 % artmışdır.

Yeni texnikaya əsaslanan istehsalın genişlənməsi, elektrotexnika və maşınqayırma sənayesinin inkişafına zəmin yaratmışdı. Benzin və süni ipək istehsalı əldə edilirdi. İstehsalın təşkilində Ford və Teylor yeniliklərinin tətbiqi əmək məhsuldarlığının 40 % artmasına zəmin yaratmışdır. Belə ki, sənaye məhsulunun ümumi həcminə görə Almaniya **Avropada birinci, dünyada ikinci yerə çıxmışdır** (ABŞ-dan sonra). 20-ci illərin axırlarına alman maqnatları itirilmiş beynəlxalq mövqelərini qaytara bilirdilər. 300 beynəlxalq inhisarçı birliyinin iki yüzündə Almaniyanın maliyyə kapitalı iştirak edirdi. Almaniyanın təşəbbüsü ilə yaradılan (1926) **Avropa polad tresti** Avropa polad istehsalının 60 %-nə sahib idi.

Alman sənaye məmulatları müvəffəqiyyətlə xarici bazara çıxırdı. Maşın və avadanlıqlar ixracına görə Almaniya Böyük

Britaniyanı **keçmişdi.** İxracın ümumi həcmi 17 %, idxal isə 30 % artmışdı. **Dünya** iqtisadi böhranı ilə bağlı olaraq 1929-cu ilin iyun ayında Daues planı yeni hərbi təzminat planı – **Yunq planı ilə əvəz olundu.** 1929-cü ilin avqustında və **1930-cu ilin yanvarında təzminat konfransı keçirilmişdir**. Qərb dövlətləri Yunq planı ilə Almaniyaya müəyyən güzəştlər nəzərdə tuturdular. O.Yunq Morqanın elektrotexnika trestinin prezidenti (Daues planının iştirakçısı idi). Təzminat işlərinə baxan ekspertlər komitəsinin sədri idi. Daues planından fərqli olaraq Yunq planı təzminatın ümumi həcmini **132 mlrd. deyil, 113,9 mlrd. marka** müəyyən etmişdir. **Ödəmə müddəti 37 il** (ildə təqribən 2 mlrd. marka) müəyyən edilmişdir.

İqtisadi problemlərin kəskinləşməsi ilə əlaqədar olaraq 30-cu illərin əvvəllərində təzminata dair bəzi qərarlar həyata keçirilirdi. **1931-ci ilin** ortalarında **Amerika prezidenti Q.Quver** təzminat ödənişini bir illiyə dayandırılmağı təklif etmişdi. Başqa ölkələr kimi Almaniya iqtisadiyyatı da 1929-1933-cü illərin böhranlarına məruz qalmışdır.

2. 20-30-cu illərdə Almaniyanın iqtisadi siyəsəti

1929-1933-cü illərin iqtisadi böhranı bir çox kapitalist ölkələrinə, o cümlədən Almaniyanın iqtisadiyyatına güclü zərər vurmuşdu. Bu həm də onunla izah edilir ki, Almaniyanın iqtisadiyyatı xarici kapitaldan asılı idi. Almaniyanın sənaye istehsalı 1929-cu ilə nisbtən 1932-ci ildə 40 % azalmışdı. 68000 müəssisə iflasa uğramışdı. Ağır sənaye sahəsi daha çox zərər çəkmişdi. On millərlə kəndli təsərrüfatı satılmışdı. Xarici ticarət 60 % azalmışdır. Valyuta qiymətdən düşürdü, bir neçə bank iflasa uğramışdı. 1932-ci ildə ölkədə 8 mln. nəfər işsiz mövcud idi.

Almaniyanın iri maliyyə qrupları burjuaziya demokratiyası ilə öz hökmranlıqlarını saxlaya bilməcəyini başa düşüb ölkədə faşist diktaturası yaradılmasına üstünlük verirdilər.

Almaniya sənayeçiləri böhrandan çıxmaqda hərbi silahlanmaya daha çox üstünlük verirdilər. Ona görə də faşist partiyasına hər cürə köməklik edirdilər. **"Tissen AQ" konsernin başçısı artıq 1923-cü ildə Hitleri** (1889-1945) maliyyələşdirirdi. 20-ci illərin axırlarından Hitler kömür şaxtalarının sahibkarı, polad kralı Rura ilə əməkdaşlıq edirdi. 1931-ci ildə Reyxsbankın direktoru Y.Şaxtda nasist partiyası ilə əlaqə yaratmışdı. Məhz elə onun vasitəsilə nasistlər digər sənayeçilərlə əlaqə yaradırdılar. Onlardan **Flik adlı biri nasistlərə 100 min marka** maliyyə köməkliyi etmişdir. Onun imzası ilə bir qrup sənayeçi Almaniyanın prezidenti **Fon Qindenburqa (1847-1934) məktub yazaraq Hitleri Almaniyanın baş naziri təyin etməyi xahiş etmişlər.**

1933-cü ilin yanvarında maliyyə işbazlarının ciddi tələbi ilə prezident Qindenburq hakimiyyəti real olaraq Hitlerə vermişdir (onu reyxs kansler təyin etmişdir).

Həmin böhran illərində Almaniyada vəziyyət kökündən dəyişirdi: işsizlik artırdı, əmək haqqı azalırdı, kəndli təsərrüfatları hər şeyi satırdılar, xırda ticarətçilərin və sənətkarların əmtəə dövriyyəsi azalırdı. **Hitler müharibə üçün iqtisadi hazırlıq tələb edirdi (18 ay müddət müəyyən etmişdir).** Həmin müddətdə kütləvi sintetik kauçuk istehsalına keçmək, dəmir istehsalını artırmaq, güclü iqtisadiyyat yaratmaq nəzərdə tutulurdu. **1934-cü ilin 27 fevralında** Almaniya təsərrüfatının quruluşunu yaratmaq - hazırlamaq barədə qanun qəbul edildi. 7 imperiya qrupu yaradılmışdı: sənayeçilər, energetiklər, sənətkarlar, ticarətçilər, bank və sığorta işi, nəqliyyat və s. Bir çox xammal növünü ABŞ, Böyük Britaniya və Fransadan alırdılar.

Müharibəyə iqtisadi cəhətdən hazırlaşmağa 1936-cı ildə Q.Qerinq başçılıq edirdi (bu məqsədlə 4 illik plan da hazırlanıb təsdiq edilmişdir). Ağır və hərbi sənaye daha üstünlük təşkil edirdi. Bütün investisiyanın 60 %-i bu sahəyə yönəldilirdi. **1939-cu ildə ağır sənaye 1934-cü** ilə nisbətən 50 % artmışdır. Maşınqayırma sahəsi bütün sənaye məhsulunun 25 %-ni verirdi. İkinci Dünya Müharibəsi ərəfəsində Almaniya dünya sənaye məhsulunun 13 %-ni istehsal edirdi (lakin hərbi təmayüllü idi). Hər cür xəstəlik artırdı, intihar halları çoxalırdı. **Hitler özünü alman xalqının xilaskarı kimi qələmə verirdi**. Beləliklə Almaniyada faşist, terrorçu, şovinist rejimi yaranırdı.

Nasist partiyasının tərəfdarları Amerikada da vardı: Rokfeller, Morqan, Lamont, Kun Leba və s. maliyyəçilər. 1930-cu ildə ABŞ Almaniyanın milli gəlirinin 5 %-i qədər onların iqtisadiyyatına kapital qoymuşdur. 1931-ci ildə ABŞ-ın prezidenti Quverin təkidilə Almaniyanın hərbi təzminat verməsi müvəqqəti dayandırılmışdı.

1933-cü ilin yanvarına faşizm açıq-aşkar müəyyənləşmişdir. Özlərinin hərəkət proqramını müəyyənləşdirmişlər: bolşevizmə qarşı mübarizəni gücləndirmək; xırda və orta sahibkarları iri kapitala tabe etdirmək; iqtisadiyyatda dövlət sifarişlərini artırmaq; versal müqaviləsini pozmaq-dağıtmaq; Almaniyanın hərbi gücünü artırmaq.

Faşizmin iqtisadi siyasətinin əsas məzmunu ümumi hərbiləşmədən ibarət idi. **1933-1939-cu illərdə Almaniyanın hərbi xərcləri 10 dəfə artmışdır**.

Hərbi məqsədə, nəqliyyat, ictimai idarəetmə və mənzil tikintisinə yönəldilən investisiya ictimai investisiya adlanırdı. Bu dörd sahə üzrə ayrılan investisiyanın xüsusi çəkisi cəmi hərbi məqsəd üçün olan investisiyanın 1932-ci ildəki 26 %-dən, 1938-ci ildə 76 %-nə çatmışdır. Həmin hərbi investisiyanın məbləği 25 dəfə artmışdır.

Bu illərdə dövlət sahibkarlığı, iqtisadiyyatda dövlət bölməsinin payı genişlənirdi. Belə ki, 1932-ci ildə dövlətin səhmdar kapitalı 13,2 mlrd, 1939-cu ildə isə 17,0 mlrd. reyxsmarka təşkil etmişdir.

Statistika məlumatına görə 1936-cı ildə Almaniyada 1085 ictimai müəssisə vardı. Həmin dövrün aqrar siyasətində də əsas məqsəd müharibə üçün ərzaq ehtiyatı yaratmaqdan ibarət idi. Müharibəyə hazırlıq üçün kənd təsərrüfatının dövlət- inhisarçı tənzimlənməsi həyata keçirilirdi. Kənd təsərrüfatı məhsullarının müəyyən hissəsinin dövlətə verilməsi məcburi xarakter daşıyırdı. Hər bir kəndli cəbhəyə ərzaq göndərməyə məcbur idi. İşçi qüvvəsi bazarı da dövlətin nəzarəti altında idi. İşçilər və sahibkarlar vahid **"Alman əmək cəbhəsi"nə cəlb edilmişdilər**. 1934-cü ilin yanvarında **"Milli əməyin təşkili haqqında"** qanun qəbul edilmişdir. Burada sinfi mübarizənin dayandırılması,

fəhlələrin **"Əmək əsgərinə"** çevrilməsi bəyan edilirdi. Əmək haqqı **"Alman əmək cəbhəsi"** tərəfindən tənzim edilirdi.

1935-ci ildən 18-25 yaşlı oğlan və qızlar əməyə cəlb edilirdilər. İşçilərin hesaba alınması və səfərbər edilməsi məqsədi ilə 1935-ci ilin fevralından xüsusi fəhlə biletləri istifadə edilirdi. 1934-cü ildən metallurgiya sahəsində işləyənlərə (sonralar bu qayda digər sahələrə də aid edilridi) öz iş yerlərini dəyişməyə icazə verilmirdi. İş gününün həddi 10-14 saata çatırdı.

Dövlət fəal sürətdə iqtisadi həyatın bütün sahələrinə qarışırdı. Beləliklə, Almaniya heç bir məsuliyyət hiss etmədən öz hərbi sənayesini yaradaraq İkinci Dünya Müharibəsini başlamışdı. Odur ki, ABŞ-da dövlət-inhisarçı kapitalizmin liberal-islahatçı inkişaf variantı vüsət tapdığı halda Almaniyada Dövlət inhisarçı kapitalizmin təsərrüfat mexanizmi tamam başqa idi.

Burada artıq sərbəst bazar, iqtisadi prosesin tənzimləyicisi rolunu oynaya bilmirdi. Mərkəzləşmiş təsərrüfat mexanizminə malik olan, inzibati-amirlik (totalitar), dövlət inhisarçı kapitalizm modeli yaranmışdır.

3. İkinci Dünya Müharibəsindən sonra Almaniyanın iqtisadi siyasəti

İkinci Dünya Müharibəsindən (1941-1945) sonra Almaniyanın iqtisadiyyatı on dəfələrlə geri düşmüşdü. Ölkənin cəmi məhsulu, 1936-cı ilin 50 %-i həcmində ancaq olardı. Hitler hökumətinin dövlət borcu 1938-ci ildəki 27,2 mlrd. markadan artaraq müharibədən sonra (ölkənin ilhaq edildiyi vaxt) 377,2 mlrd. markaya çatmışdı (14 dəfə artmışdı). Tədavüldə olan pulun kütləsi beş dəfə çoxalmışdır. İnflyasiya 600 % təşkil edirdi. Ona görə də pula maraq azalırdı. Dolayı yolla "natural təsərrüfat" müdafiə edilirdi. Natura ilə əmək haqqı verlməsi tətbiq edilirdi.

Qərb işğalçıları hər il **1 mlrd. dollar dəyərində** Almaniyaya ərzaq məhsulları gətirirdilər. Acından ölmək təhlükəsindən qurtarmaq üçün 20 mln. almanı çıxarıb aparmağı təklif edirdilər. ABŞ Marşal planına əsasən Almaniyaya xeyli kömək etməli olmuşdur.

Üç böyük dövlətin - (SSRİ, ABŞ və Böyük Britaniya) 1945-ci ildə (iyul-avqust) Berlində keçirilən konfransında Almaniyanın tam tərksilah edilməsi və hərbisizləşdirilməsi məsələsinə baxılmışdır. Bununla yanaşı Almaniyanın **20 mlrd. dollar həcmində** hərbi təzminat ödəməsi (o cümlədən avadanlıq şəklində də) qərara alınmışdı. Almaniya iqtisadiyyatının dirçəldilməsi üçün həlledici tədbirlər tələb olunurdu. Həmin dövrdə təsərrüfatçılıqda planlaşdırmanın təmin edilməsi, iqtisadi böhrandan çıxmaq imkanı, inhisarçılığın azaldılması, demokratik xüsusiyyətlərə əsaslanmaq, sosial bazar iqtisadiyyatı yaratmaq ideyasına üstünlük verilirdi.

Belə bir şəraitdə yüksək nəzəri biliyə və təsərrüfatçılıq təcrübəsinə malik olan Lyudviq Erxardın ideyaları böyük əhəmiyyət kəsb etmişdir. L.Erxard - (1897-1977) 1948-ci ildə «işğal olunmuş qərb zonası üzrə idarə»nin direktoru, 1949-1963-cü illərdə Almaniyanın xalq təsərrüfatı naziri, 1963-1966-cı illərdə kansler (hökumət başçısı) olmuşdur.

L.Erxard 1957-ci ildə "Hamının rifahı üçün" adlı kitab nəşr etdirmişdir. O iqtisadi islahat keçirilməsində əsas **"sosial bazar təsərrüfatı"** yaratmağı nəzərdə tuturdu. Burada əhalinin bütün təbəqələrinin alıcılıq qabiliyyətinin yüksəldilməsi, xalq təsərrüfatı gəlirlərinin artırılması, xüsusi təşəbbüsə və rəqabətə sərbəstlik verilməsi, təsərrüfat həyatında dövlətin fəal rolu qarşılıqlı əlaqədə götürülürdü.

L.Erxardın planı pul islahatına, sərbəst qiymətlərə və sahibkarlığa əsaslanırdı.

1948-ci il iyun ayının 21-də səhər reyxsmarka[1] doyçmarka ilə əvəz edilmişdir. Hər reyxsmarkaya 40 doyçmarka (sonralar 20 artırılmışdır) verilirdi. Pensiya və əmək haqqı təzə marka ilə 1:1 nisbətində ödənilirdi. Nəğd pulun yarısı və əmanətlər əvvəlcə 1:10-a, sonralar isə 1:20-yə nisbətində dəyişdirilirdi.

Reyxsbankının bank və təşkilatlarla olan öhdəçilikləri ləğv edilmişdi, yeni emissiya bankı yaradılmışdı. Demək olar ki, bir

[1] ReyxsmarkA - Almaniyada 1924-1948-ji illərdə pul vahidi.

gündə **"hərbi diktaturadan"** istifadə etməklə Qərbi Almaniya böyük məbləğdə qiymətdən düşmüş pul kütləsindən azad ola bilmişdi. Bundan 3 gün sonra qiymət islahatı keçirilmişdi. Qiymətlər sərbəst buraxılırdı. Ehtiyatların inzibati qaydada bölgüsü və qiymətlər üzərində nəzarət aradan götürülürdü.

İnsanların gözü qarşısında **"qara bazar"** yox olurdu. Dükanlarda satışda əmtəə bolluğu yaranırdı. İnflyasiya vəziyyəti yaxşılaşırdı. Qiymətlərin süni artırımasına qarşı qanun qəbul edilmişdi. İstehlakçıların hüququnu azaltmadan sahibkarlığa sərbəstlik vermək məqsədilə kredit və vergi siyasəti həyata keçirilirdi.

L.Erxard göstərirdi ki, bazarın əsas sifətini alıcı müəyyən etməlidir. Azad rəqabətə maneçilik edən inhisarçılıq qadağan olunmuş, "hamının rifahı üçün" prinsipinin əsasını xırda və orta sahibkarlıq təşkil etmişdir.

Beləliklə, 1953-1954-cü illərdə üçlük əlaqə - əmək məhsuldarlığının, cəmi məhsulun və əmək haqqının artırılması özünü açıq-aşkar göstərmiş və qiymətlər sabitləşmişdir. 1954-cü ildə istehsalın həcmi 1936-cı ildəkindən iki dəfə artıq olmuşdur.

Beləliklə, Almaniya Qərbi Avropanın ən qabaqcıl ölkələrindən birinə çevrilirdi. 1960-cı illərin əvvəllərinə Avropa İqtisadi Birliyi (ümumi bazar) üzrə kömür çıxarılmasının 60 %-i, polad istehsalının 50 %-i, ixracın 40 %-i, idxalın 35 %-i Almaniyanın payına düşürdü.

4. Təsərrüfat mexanizminin əsas cəhətləri. Almaniyada sosial bazar iqtisadiyyatı modeli

Almaniya iqtisadiyyatının bir çox sahələri kapitalın yüksək səviyyədə təmərküzləşməsi və mərkəzləşməsi baxımından fərqlənir. Belə ki, emal sənayesində 100 böyük müəssisə cəmi dövriyyə vəsaitinin 60 %-ni, cəmi işçilərin isə 50 %-ni öz əllərində cəmləşdirmişdir.

Almaniyanın böyük şirkətləri (Almaniyada ana şirkətlərin sayı 7569-dur - 1996) dünyanın ən güclü 500 sənaye birliyində təmsil olunur. Dünyanın 50 iri sənaye şirkətinin 7-si

(1970-ci ildə 2-si) Almaniyanındır. Dünya üzrə beş istehsal sahəsində dünyanın ən böyük on şirkətləri sırasına Almaniya şirkətləri də daxildir və həmin sahələrin məhsulunun xeyli hissəsini istehsal edirlər. Bunlar: kimya sənayesində üç konsern - **"Basf", "Xexst", "Bayer"** bu sahədə olan on kompaniyanın məhsul satışının -33 %-ni; elektrotexnika sənayesində -**"Simens" və "Robert Boş"**-20 %-ni; avtomobil sənayesində - **"Draymler-Bens" və "Folksfaqen"**-15 %-ni; qara metallurgiyada -**"Tessen" və "Mannesman"**-24 %-ni təmin edirlər. Yüngül sənaye üzrə olan 10 ən böyük kompaniya sırasında **"Adidas"** da vardır. Kredit sahəsində yüksək dərəcədə mərkəzləşmə mövcuddur. Dünyanın ən böyük 50 bankından 8-i Almaniya, 6-sı Fransa, 2-si İtaliya və 2-si Britaniya bankıdır.

Almaniyanın iqtisadi inkişafında xarici iqtisadi əlaqələr böyük hərəkətverici qüvvə kimi çıxış edir. Bu xarici əlaqələr əsasən Aİ ölkələri arasında həyata keçirilir.

Belə ki, dünya idxalı və ixracında Almaniyanın xüsusi çəkisi 9-11 % (dünyada ikinci yer) təşkil edir. 2005-ci ildə əmtəə və xidmətlər idxalı 777,6 mlrd dollar, ixrac isə 977,8 mlrd dollar olmuşdur. İxracda hazır məhsullar – 86 %, ərzaq – 5 %, yarımfabrikatlar – 4 %, xammal – 0,7 %; idxalda isə hazır məhsullar – 71 %, ərzaq – 9 %, yarımfabrikatlar – 8 %, xammal – 4 % təşkil edir.

Beynəlxalq iqtisadi əlaqələrin genişlənməsində kapitalın beynəlxalq hərəkəti daha böyük əhəmiyyət kəsb edir.

Bu proses iki cəhətdən səciyyələnir: bir tərəfdən birbaşa və portfel investisiyası formasında xarici bazarlara daxil olmaq. Digər tərəfdən isə xarici kompaniyaların investisiyasını cəlb etmək.

2001-ci ilə Almaniyada olan xarici investisiyanın həcmi 461 mlrd. dollar (dünya üzrə 4-cü yer), Almaniyanın birbaşa xarici investisiyası isə 505,3 mlrd. dollar olmuşdur. İnvestisiya fəaliyyətində əsas tərəfdaşlar ABŞ, Niderland, İsveçrə, Fransa, Böyük Britaniya hesab edilir.

Kompaniyalarda idarəçilikdə əsas cəhət ondan ibarətdir ki, bütün təsərrüfat iştirakçıları- səhmdarlar, idarə rəhbərləri,

muzdlu işçilər, icarədarlar, mal göndərənlər, istehlakçılar birlikdə nəzarət və istehsalat şurası kimi orqanlar vasitəsi ilə kompaniyaların işinə kömək edir, müəyyən qərar çıxarırlar. **Deməli Almaniyanın sosial-bazar iqtisadiyyatı modelinin əsas mərkəzində birgə qərar qəbul edilməsi sistemi dayanır.** Müəssisələrdə istehsalat şuraları fəaliyyət göstərir. Bu şuralar birbaşa səsvermə yolu ilə seçilirlər. Onlar iş yerinin, istehsal prosesinin, ümumi vəziyyətin təşkilində, işə qəbul edilməsində iştirak edirlər. İki min nəfərdən çox işçisi olan iri müəssisələrdə isə bu şuraların hüququ daha genişdir. Ona görə də hətta əmək haqqının səviyyəsi və əmək şəraitinin müəyyən edilməsində muzdlu işçilər iştirak edirlər.

İqtisadiyyatda dövlətin rolu nisbətən azalmışdır. Əvvəllər ağır maliyyə vəziyyətinə düşən müəsissələrin səhmlərinin alınması ilə dövlət özünün sahibkarlıq fəaliyyətini həyata keçirirdi. 80-ci illərin axırlarına dövlət müəssisələrində işləyənlər cəmi fəhlə və qulluqçuların 8,7 %-ni təşkil edirdi.

Sənayedə bir çox sahələrə – əlvan metal istehsalına, kömür çıxarılmasına, eləcə də energetika müəssisələrinə, atom energetikasına, nəqliyyata, rabitə vasitələrinə, kredit müəssisələrinə dövlət nəzarəti yüksəkdir.

90-cı illərdə Almaniya Demokratik Respublikasının Federativ Almaniyaya birləşməsi Avropada onun iqtisadi və geosiyasi vəziyyətini, mövqeyini xeyli dəyişdirmişdir. Qərbin başqa dövlətlərində olduğu kimi son on illiklərdə Almaniyada da iqtisadi inkişafın artım sürəti azalmışdır. 1960-cı illərdə iqtisadi artım sürəti 4,4 % olduğu halda 1980-ci ildə bu artım 2,0 %-ə bərabər olmuşdur. 1991-1996-cı illərdə isə orta illik iqtisadi artım 1,5 % təşkil etmişdir.

İqtisadi inkişafa maraq yaratmaq üçün 90-cı illərdə vergiyə cəlb edilməsində müəyyən dəyişikliklər həyata keçirilmişdir. Ayrı-ayrı böyük şirkətlərdən vergi dərəcələri azaldılmış, fərdi şəxslərdən isə gəlir vergisi 57 %-dək artırılmışdır.

Ən zəruri və mütərəqqi vergi gəlir vergisi hesab edilir. Bu vergi növü 19-53 % dərəcəsi arasında tətbiq edilir. Göstərməliyik ki, Qərbi Avropada və xüsusilə Almaniyada ictimai-iqtisadi sis-

temdə sosial cəhətlərə çox üstünlük verilir. Burada sosial siyasətin əsası hələ XIX əsrin axırlarında birinci reyxs-kansler Otto Bismark (1815-1898) tərəfindən qoyulmuşdur. Belə ki, 1883-cü ildə məcburi tibbi sığorta, 1884-cü ildə müəssisədə baş verən bədbəxt hadisə üçün sahibkarın məsuliyyət daşıması, 1889-cu ildə fəhlələr üçün təqaüd müəyyən edilməsi barədə, 1911-ci ildə qulluqçulara təqaüd müəyyən edilməsi barədə qanunlar qəbul edilmişdir.

İkinci Dünya müharibəsindən sonra da L.Erdxardın islahatları daha müvəffəqiyyətlə həyata keçirilmişdir. Ölkədə 1200 xəstəxana, 1200 bərpa mərkəzi fəaliyyət göstərir.

Güclü təhsil sistemi mövcuddur. 350 ali təhsil müəssisəsi vardır. Mənzil probleminə dövlət yaxından köməklik edir.

ÜDM-in 30 %-ə qədəri sosial ehtiyaclara xərclənir. Bu xərclərin 33 %-ə qədəri təqaüdlərə və işsizlərin müvəqqəti müavinətlərinə ayrılır. İş həftəsinin uzunluğu 39-43 saatdır (2004).

Almaniyada olan sosial-təminat sistemi bir çox hallarda iqtisadiyyatın inkişafı üçün problemlər yaradır. Belə ki, iri kompaniyaların xalis mənfəətinin 40 %-i əmək haqqına ayrılır, elə təqribən bir o qədər də sosial fonduna ayrılır. Beləliklə, Almaniyada iş qüvvəsinin dəyəri (dünyada ən yüksək hesab olur) saatda 20,5 markaya bərabərdir, sənaye fəhlələrinin aylıq əmək haqqı 5121 markadır. İşsizlərə verilən müavinət də yüksəkdir (2005-ci ilin məlumatına görə işsizlər 10,0 % və yaxud 4,6 mln. nəfər olmuşdur).

Sosial-təminat sistemini saxlamaq üçün əhali və şirkətlərdə güclü fiskal siyasətindən istifadə edilir. 1990-cı illərin axırlarına vergiyə cəlb edilmə kəskin sürətdə artmışdır. Belə ki, bölünməyən mənfəətin ABŞ-da 32 %-i, Böyük Britaniyada 45 %-i, Almaniyada isə 65 %-i vergiyə ayrılır. Vergi dərəcəsinin bu cür yüksək olması üzündən bir çox alman kompaniyaları xaricdə işləməyə üstünlük verirlər[1]. Almaniyada vergilərin yüksək olması və xarici investisiya üçün stimul yaradılmasına dair heç bir proqram olmadığına və fəhlələrin əmək haqqı yüksək

[1] Elə bu səbəbdən məşhur sahibkar Fon Flik Avstraliyaya və tanınmış tennisçi Boris Bekker isə ABŞ-a getmişlər.

olduğuna görə ora xarici kapital da çox az gəlir. Məsələn: Niderlandda iqtisadiyyata qoyulan investisiyanın 35 %-i, Böyük Britaniyada -25 %-i, Fransada -12 %-i xarici kapitaldan ibarət olduğu halda Almaniyada bu göstərici cəmi 7,5 %-dir. Nəticə etibarilə xarici sərmayədarlar yüksək texnoloji istehsal yaradılmasında o qədər də maraqlı olmurlar. Bu isə Almaniya ixracının rəqabət qabiliyyətini azaldır.

1998-ci ilin sentyabrında Q.Şreder Almaniyanın federal kansleri seçilməsi ilə yeni islahat proqramı bəyan etmişdir. Şreder almanlara söz vermişdir ki, biznesə və yaxud kapitalizmə öz ürəyi ilə səmimi olan sosializm (yeni mərkəz) yaratsın. İqtisadi liberallaşmada aşağıdakıların təmin edilməsi nəzərdə tutulmuşdur:

- şirkətlərdən vergilərin azaldılması;
- əmək bazarında çeviklik, elastiklik və iş günü həddinin dəyişilməsi;
- əmək haqqına olan xərclərin azaldılması;
- iqtisadiyyatın ictimai bölməsinin modernləşdirilməsi.

Beləliklə, 2001-ci ilə şirkətlərin mənfəətindən vergi dərəcəsi 45 %-dən 35 %-ə endirilmişdir. 2001-ci ildə federal büdcədən olan xərclər 16,7 mlrd. dollar azaldılmışdır. Təqaüd xərclərinin azaldılması və xüsusi təqaüd əmanətlərinə vergi güzəştləri edilməsi nəzərdə tutulmuşdur. Almaniyanın müasir sənaye sahələrindən daha rəqabət qabiliyyətli sahələr aşağıdakılardır:

- avtomobilqayırma;
- nəqliyyat maşınqayırması;
- ümumi maşınqayırma;
- elektrotexnika sənayesi;
- dəqiq mexanika və optika;
- kimya, əczaçılıq və ətriyyat-kosmetika sənayesi;
- qara metallurgiya.

Almaniya dünya iqtisadiyyatı ilə geniş inteqrasiya edir. O, daha çox Fransa, Böyük Britaniya, Niderland, İtaliya, ABŞ, Belçika və Lüksemburq ilə xarici ticarət əməkdaşlığı edir. Son vaxtlar dövlətin sahibkarlıq funksiyası azalmışdır. Kredit pul siyasəti inflyasiyanın artmasına qarşı və iqtisadi artıma kö-

məklik göstərilməsinə yönəldilmişdir. Son illərin iqtisadi siyasətində işçi qüvvəsinə və onun sosial təminatına çəkilən xərclər dəyişməz qalırdı. İşçi qüvvəsinə çəkilən xərcin həcminə (hər saata düşən əmək haqqı və əlavə verilən haqq) görə Almaniya dünyanın 15 qabaqcıl dövləti arasında birinci yeri tutur.

Almaniya əmək məhsuldarlığının səviyyəsinə görə ABŞ və Yaponiyadan başqa bütün inkişaf etmiş ölkələrdən irəlidədir (hər saatlıq əmək haqqı 20,5 markaya bərabərdir). Elmi-texniki siyasətə yanaşmada da dəyişiklik edilmişdir. Elmi-tədqiqat təcrübə konstruktor işlərinin (ETTKİ) maliyyələşdirilməsinə dövlət xərci artmışdır. Dövlət qurumlarında və xüsusi müəssisələrdə 200 elmi mərkəz fəaliyyət göstərir. Elmi-texniki işlərlə məşğul olan kiçik və orta müəssisələrin işçilərinə əmək haqqı verilməsinə də dövlət vəsaiti artırılmışdır.

Buna baxmayaraq ETTKİ-yə ayrılan xərcin mütləq həcmi Almaniyada Yaponiyadan iki dəfə, ABŞ-dan isə dörd dəfə az omuşdur. Almaniyada ETTKİ-nin 70 %-ə qədəri iri şirkətlər tərəfindən həyata keçirilir. İldə 3,4 mln. nəfər adam müəssisələrdə ixtisasın artırılması sistemindən keçirlər.

Struktur dəyişiklikləri. ETT-nin müasir mərhələsində dünya təsərrüfatındakı böhranlar müəyyən struktur dəyişikliklərinə səbəb olmuşdur. ÜDM-in təkrar istehsalında maddi istehsalın və hər şeydən əvvəl kənd təsərrüfatının və sənayenin xüsusi çəkisi azalmış, xidmətin xüsusi çəkisi isə artmışdır.

Ənənəvi sahələr olan qara metallurgiya, ümumi maşınqayırma, gəmiqayırma, parça və tikiş sənayesi xeyli azalmışdır. Eyni vaxtda aviakosmik sənayesi, idarə avadanlığı və məlumatların işlənib hazırlanması apparatları, elektrotexniki avadanlıqlar, avtomaşın istehsalı sürətlə artmışdır. Qara metallurgiyanın xüsusi çəkisinin azalmasına baxmayaraq, Almaniya qara metal istehsalına görə ancaq ABŞ və Yaponiyadan geri qalır. Qərbi Avropadakı cəmi qara metal istehsalının 28 %-i Almaniyanın payına düşür.

İldə orta hesabla 40 mln. ton polad prokat və boru istehsal edilir. Polad tamamilə prokat və boru halında ixrac edilir. İlkin alüminium istehsalına görə Avropada birinci yeri

tutur (ildə 500 min ton). İldə 4,5 mln. ədəd avtomaşın istehsal edilir. Metal tullantılarının emalı ilə ayrı-ayrı illərdə həmin sahənin 50 %-ədək tələbatı təmin edilir. Əlvan metallurgiya tamamilə xammal idxalı və əlvan metallar tullantısı hesabına işləyir. Bu sahədə olan ən böyük müəssisələr Rur və Hamburq sənaye rayonlarında yerləşmişdir.

Maşınqayırma və metalemalı cəmi ixracın 50 %-ə qədərini təmin edir. Dərman istehsalına görə Almaniya dünyada ikinci yeri tutur. Yüngül sənayedən dəri-ayaqqabı və toxuculuq sahələrinin inkişafına görə Qərbi Avropada ikinci yeri tutur.

Almaniya inkişaf etmiş yeyinti sənaye sahələrinə malikdir. Pivə və tütün istehsalına görə Avropada birinci yeri tutur (ildə 107,5 mln. hektolitr pivə və 204 mln. ədəd tütün məmulatı istehsal edilir).

Kənd təsərrüfatı. Sənayedən fərqli olaraq kənd təsərrüfatının inkişafına görə Almaniya ancaq Fransa və İtaliyadan geri qalır. Kənd təsərrüfatının intensivləşməsinə və məhsuldarlığa görə Aİ ölkələrinin orta səviyyəsindən yüksəkdədir. Lakin Niderland, Belçika, Fransa, Danimarkadan geridə qalır. Almaniya kənd təsərrüfatının texnika ilə (maşın parkı ilə) təchiz olunması və kimyadan istifadə səviyyəsinə görə qabaqcıl yerlərdən birini tutur.

ÜDM-in 14 %-i kənd təsərrüfatının payına düşür (emal ilə birlikdə). Əhalinin ərzaq məhsullarına olan tələbinin 93 %-i yerli məhsul hesabına ödənilir. Kənd təsərrüfatında 500 min kəndli təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatlarda 1,3 mln. nəfər adam çalışır. Kənd təsərrüfatı məhsullarının 60 %-dən artığı heyvandarlığın payına düşür. 15 mln. baş iri buynuzlu mal-qara və 26 mln. baş donuz vardır (bu iki göstəriciyə görə Avropada birinci yeri tutur).

Əkin yerinin 60 %-dən artığı taxılçılıqdır (buğda, arpa və s.). Dənli bitkilərin orta məhsuldarlığı 64,7 sentner, cəmi taxıl istehsalı 45 mln. tondur (2003). Həmin ildə 11 mln. ton kartof, 27 mln. ton şəkər çuğunduru istehsal edilmişdir.

Almaniya ət, süd, taxıl ixrac edir. 1980-ci illərdən Almaniyanın kənd təsərrüfatı intensiv amillər hesabına inkişaf etdi-

rilir. Kübrə verilməsi artırılır, bitkiçiliyin mühafizəsində kimyəvi vəsaitlərdən istifadə artır. Xırda təsərrüfatların sayı azaldılır, kapitalın və istehsalın təmərküzləşməsi yüksəlir.

Hazırda Almaniya xidmət sahəsinin inkişafına görə bəzi inkişaf etmiş ölkələrdən geri qalır. Buna baxmayaraq Almaniya bank işi və maliyyə xidməti, turizmin inkişafı sahəsində ixtisaslaşır.

Almaniya inkişaf etmiş infrastrukturaya malikdir. Əla avtomaşın və dəmir yolu şəbəkəsi, təyyarə limanı, dəniz limanı vardır.

Yük və sərnişin daşımalarda əsas yeri avtomobil yolları tutur. Ümumi avtomobillərin sayı 50 mln., o cümlədən minik maşınları 42 mln. ədəddir. Avtomobil yollarının uzunluğu 231 min km-dir. Nəqliyyat sistemində ikinci yeri dəmir yolu nəqliyyatı tutur. Dəmir yollarının uzunluğu 84 min km təşkil edir.

Təyyarə parkında 1400 ədəd təyyarə vardır ki, bunun da 377 ədədi laynerdir.

Rabitə və poçt sistemində 600 min adam işləyir.

Turizm sahəsi üçün geniş imkanlar vardır. İldə 18 mln. xarici turist qəbul edir.

Bütün qeyd etdiklərimizlə yanaşı, Almaniya «gizli iqtisadiyyat»dan da kənar deyil. «Gizli iqtisadiyyat» ÜDM-in 16,5 %-ni təşkil edir (illik dövriyyə – 350 mlrd. avro).

XX FƏSİL
BÖYÜK BRİTANİYANIN İQTİSADİYYATI

1. *Böyük Britaniya iqtisadiyyatının ümumi xarakteristikası.*
2. *Böyük Britaniyanın makroiqtisadi inkişaf modeli.*
3. *Böyük Britaniyanın iqtisadiyyatının quruluşu.*

1. Böyük Britaniya iqtisadiyyatının ümumi xarkteristikası

Böyük Britaniya ən "qocaman" bazar iqtisadiyyatı ölkəsidir. Məhz əvvəlcə elə bu ölkədə xüsusi sahibkarlığa əsaslanan iqtisadi münasibətlər, ilk beynəlxalq kompaniyalar yaranmışdır.

Böyük Britaniya ilk dəniz və ticarət dövləti kimi 100 illərlə dünyanın dəniz limanına malik olmuşdur.

Böyük Britaniya Avropanın şimal-qərbində Britaniya adalarında yerləşir. **2005-ci ilə ərazisi 244,7 min kv.km, əhalisi 60,4 mln. nəfərdir**.

Böyük Britaniya 4 tarixi-coğrafi vilayəti birləşdirir – İngiltərə (39 qraflıq və 6 metropoliyadan ibarətdir); Uels (8 qraflıq) –1264-cü ildə istila edilibdir; Şotlandiya (9 rayon və adalardan ibarətdir) -1707-ci ildə birləşib; Şimali İrlandiya (26 diyar, Men və Normand adalarından ibarətdir) – 1921-ci ildə İrlandiya dominion hesab edilmişdir.

Əhalisinin 80 %-i ingilislərdən, 15 %-i şotlandlardan ibarətdir.

1997-ci ildə Honkonqun Çinin müstəqilliyinə verilməsindən sonra Böyük Britaniyanın nəzarəti altında 13 asılı ərazi qalmışdır. Bunlar əsasən çox da böyük olmayan (cəmi əhalisi 200 min nəfərdən az olar) adalardan ibarətdir -Cəbraltar, Anqliya, Bermud adası, Britan və Virqin adaları, Kaymanov adası, Montserrat, Terks və Kaykos, Folklend və s.

Dövlət quruluşu parlamentli monarxiyadır. Ölkədə əsas qanun kimi konstitusiya yoxdur (parlamentin qəbul etdiyi

qanunlar konstitusiya əhəmiyyətinə malikdirlər). Dövlət başçısı monarx-şahzadə hesab olur. Formal olaraq rəmzi dövlət başçısı vəzifəsini yerinə yetirir.

İcraedici orqan hökumətdir. Bu da partiya liderlərindən ibarət formalaşır.

XÜII əsrdə Burjuaziya inqilabı İngiltərədə kapitalizmin inkişafına zəmin yaratmışdır. Britaniyanın güclü dəniz ölkəsinə çevrilməsi onun geniş müstəmləkə ərazisi tutmasına kəmək etmişdir.

1931-ci ildə Böyük Britaniyanı və onun keçmiş müstəmləkələrini əhatə edən Milli Birlik (həmrəylik) yaranmışdır (1947-ci ildən sadəcə olaraq Həmrəylik adlanır). Bura hazırda 54 ölkə daxildir (Kanada, Hindistan, Avstraliya, Yeni Zelandiya, Malayziya, Nigeriya, Sinqapur, CAR, Kipr, Zambiya, və s.) Britaniya bu birliyə rəhbərlik edir.

Böyük Britaniya yüksək inkişaf etmiş sənaye ölkəsidir.

ÜDM-in həcminə görə dünyada 4-cü yeri tutur. 2005-ci ildə ÜDM-in həcmi 2229,5 mlrd. dollara, hər nəfər hesabı ilə isə 36912 dollara bərabər olmuşdur. İqtisadi artım sürəti 80-ci illərdə 2,3 %, 90-cı illərdə 2.1 %, 2000-2004-cü illərdə 2,3 % olmuşdur.

Əsas faydalı qazıntılar neft və qazdır. Bundan əlavə kömür və əhəng daşı ehtiyatlarına da malikdir. Özünün xüsusi enerji ehtiyatlarının olması ilə yanaşı faydalı qazıntıları o qədər də kifayət deyildir, onları idxal etməli olur. Ərazisinin 77 %-i kənd təsərrüfatı üçün yararlıdır. Böyük Britaniya ixtisaslı işçi qüvvəsi, görkəmli mütəffəkkir və alimlərdən ibarət kifayət qədər əmək ehtiyatlarına malikdir.

Böyük Britaniyanın yaşlı əhalisinin 99 %-i savadlıdır. Bunların da 25 %-i ali, 65 %-i orta təhsillidir. Ölkədə 89 universitet fəaliyyət göstərir (özünüidarəçilik əsasında işləyirlər).

Səhiyyə əsasən dövlətə məxsusdur. Səhiyyəyə ayrılan vəsait ÜDM-in 5,9 %-i qədərdir (inkişaf etmiş digər ölkələrdə 6,2 %-dir).

Bir saatlıq əmək haqqı orta hesabla 12,3 f.st. təşkil edir (2003). Gəlirlər arasında yüksək fərq mövcuddur. İnsan inkişafı indeksi yüksəkdir – 0,936 (2002).

Böyük Britaniyanın iqtisadi inkişafı da uzun bir tarixi yol keçmişdir.

1929-1933-cü illərdəki iqtisadi böhranlar Böyük Britaniyanın iqtisadiyyatına da güclü zərər vurmuşdur. Sənaye istehsalının həcmi 15 %-azalmışdır. Metallurgiya və kömür sənayesi kimi ənənəvi sahələr daha çox zərər çəkmişdir. Xarici ticarət 2 dəfə azalmış, 1932-ci ildə işsizlik artaraq 30-35 % təşkil etmişdir.

Həmin illərdə büdcə kəlirini düzəltmək üçün birbaşa və dolayı vergilərin həcmi də artırılırdı. Beləliklə, 1931-ci ildə ölkənin maliyyə vəziyyəti əsaslı surətdə pisləşmişdir. Funt-sterlinqin sabitliyi pozulduğuna görə ölkədə qızıl ehtiyatı azalmışdır.Ölkədəki iqtisadi vəziyyəti daha hərtərəfli öyrənmək və müəyyən təkliflər işləyib hazırlamaq üçün 1931-ci ilin mart ayında Milli iqtisadiyyat üzrə komissiya yaradılmışdır. Həmin ilin iyul ayında komissiyanın sədri tanınmış maliyyəçi və bankir Con Meyin məruzəsi nəşr edilmişdir.

Komissiyanın təklifinə əsasən büdcə kəsirindəki vəziyyətdən çıxmaq üçün (büdcə kəsiri 120 mln. funt sterlinq idi) bir çox sahələrə olan dövlət xərclərinin azaldılması (hətta məktəblilərə olan xərcin də), az əhəmiyyətli sahələrə olan xərclərin istiqamətinin dəyişdirilməsi nəzərdə tutulurdu. Birbaşa və dolayı vergilərin həcminin 24 mln. funt sterlinq artırılması, dövlət xərclərinin 96 mln. funt sterlinq azaldılması (bunun təqribən 60 %-i işsizlərə verilən müavinətin azaldılması hesabına idi) təklif edilirdi.

Beləliklə, C.Meyin Komissiyasının məruzəsi müəyyən mənada siyasi xarakter alaraq Leyboristlər partiyasından olan bir nazir Makdonaldın (1866-1937) hökumətinə (o cümlədən 1931-ci ildə qəbul etdiyi sosial proqrama) zərər gətirirdi.

1931-ci ilin avqust ayında milli iqtisadiyyat komissiyasının məruzəsi edilmişdir. Baş nazir Makdonald və iki nazir komissiyanın təklifinin lehinə, kabinetin digər üzvləri isə əleyhinə səs vermişlər. Beləliklə, hökumətdə parçalanma baş vermişdir.

1931-ci ilin avqustunda (24 avqust) Makdonald yeni hökumət formalaşdırmışdır. Əsas həlledici vəzifələri mühafizəkarlar tutmuşlar (bu milli hökumət adlanırdı).

Milli iqtisadiyyat barədəki komissiyanın məruzəsi milli və xarici bankirlər tərəfindən çox müsbət hal kimi qarşılanırdı. Odur ki, onlar yeni hökumətə borc verməyi (əvvəlki hökumət imtina edirdi) təklif etdilər. **1931-ci ilin sentyabr ayında Amerikanın və Fransanın yüzdən çox bankı Böyük Britaniyaya 80 mln. funt sterlinq borc vermişdilər**.

1931-ci il sentyabr ayının 10-da büdcə dəyişdirilmiş və daha ciddi büdcə qəbul edilmişdir.

Yeni hökumət büdcə vəsaitlərinin xərclənməsində ciddi dəyişikliklər nəzərdə tuturdu. Belə ki, birbaşa və dolayı vergilər artırılmış, dövlət müəssisələrində işləyənlərin və müəllimlərin əmək haqqı azaldılmış, ictimai işlər xeyli ixtisar edilmişdir. Əhalinin sosial sığortaya olan ayırmaları da artırılmışdır. İşsizliyə görə olan müavinət 10 % azaldılmış, ehtiyacın yoxlanılması barədə qanun qəbul edilmişdir. Həmin qanuna əsasən öz ailəsinin himayəsində olan, lakin işləməyənlərə müavinət verilməsi də qadağan edilirdi.

Beləliklə, böhran illərindəki dövlət xərclərinin tənzimlənmsi ilə iqtisadiyyatın sabitləşdirilməsinə göməklik göstərilirdi.

1931-ci ildə ümumi milli məhsulda dövlət xərclərinin xüsusi çəkisi 1929-cu ildəki 24 %-dən 29 %-dək artdığı halda, 1934-cü ildə yenidən azalaraq 1929-cu ilin səviyyəsinə endirilmişdir. Büdcədə tarazlaşma yaxşılaşmış və hökumətə qarşı ehtiqad artırılmışdır.

Eləcə də digər tədbirlər də həyata keçirilmişdir. Belə ki, 1931-ci ilin sentyabrında funt sterlinqin qızıl bərabərliyi dəyişdirilmiş, kağız pulların qiymətləri 30 % azaldılmışdır.

Daxili bazarda pərakəndə satış qiymətləri artmışdır.

1931-ci ildə yaradılmış funt sterlinq blokuna daxil olan və eləcə də daxil olmayan bir çox dövlətlər Böyük Britaniya ilə yanaşı qızıl standartını dəyişdirmişlər (onlar ingilis funtuna müvafiq olaraq öz valyutalarının kursunu müəyyən etmiş və öz

valyuta ehtiyatlarını ingilis banklarında saxlamağa üstünlük vermişlər).

Həmçinin qeyd etmək lazımdır ki, açıq iqtisadiyyıtın ilkin tərəfdarı olan **İngiltərə həmin dövrdə himayədarlıq siyasətinə daha çox üstünlük verirdi**. Gömrük vergisi barədə müəyyən qanunlar qəbul edilmişdir. Böyük Britaniyaya xaricdən gətirilən bütün məhsullar üçün gömrük dərəcəsi onun dəyərinin 10 %-dən az olmamalı idi.

Beləliklə, funta olan inam yüksəlmiş və ingilis banklarına əmanət qoyuluşu artmışdır. **1932-ci ilin aprelinə funt sabitləşmiş, büdcə balanslaşdırılmış, daha faydalı himayədarlıq siyasəti yeridilmiş və maliyyə böhranı ötüşmüşdür**. Bank faizi ardıcıl olaraq azalaraq 2 % təşkil etmişdir. Himayədarlıq siyasətinin həyata keçirilməsi nəticəsində 1932-ci ildən sonra büdcə problemləri əsasən gəlir vergisinin artması, işsizliyə görə müavinətin azaldılması və yeni dövlət gəlirlərinin yaranması hesabına həll edilirdi.

1933-cü ildən başlayaraq başqa dövlətlərin, xüsusilə ABŞ və İsveçin təcrübəsi göstərmişdir ki, büdcə qıtlığı problemi heç də fəlakət, qarşısı alınmaz deyildir.

Nəticədə 1934-cü ildə qənaət siyasəti nisbətən dəyişdirilmiş, işsizliyə görə verilən müavinətin azaldılması bərpa edilmiş, gəlir vergisi dərəcəsi azaldılmışdır. **1934-cü ildə Böyük Britaniya böhrandan tamamilə çıxa bilmişdir**. Həmin ildə sənaye məhsulunun həcmi 1929-cu ilin səviyyəsinə çatmışdır.

İkinci Dünya müharibəsi başqa ölkələrə olduğu kimi İngiltərənin iqtisadiyyatına da güclü zərər vurmuşdur.

Odur ki, Böyük Britaniya ABŞ-dan asılı vəziyyətə düşmüşdür. Nəticədə İngiltərə bir çox sahələrə ABŞ-dan kapital gəlməsini dayandırmalı olmuşdu. Həmin illərdə Böyük Britaniya Ərəb şərqində, Cənub-şərqi Asiyada öz bazarını itirmişdi. Eləcə də Çin, Polşa, Çexoslovakiya, Rumıniya, Yuqoslaviya, Bolqarıstan və digər ölkələrin kapitalizm dünyasından ayrılması İngiltərənin bazarına güclü təsir etmişdir. Onun dünya ixracındakı xüsusi çəkisi 1937-ci ildəki 11,3 %-dən 1947-ci ildə 7,8 %-ə enmişdir.

Müharibə xərcləri 25 mlrd. funt sterlinq, dövlət borcu 1939-cu ildə 7,2; 1946-cı ildə 23,7 mlrd. funt sterlinq (bunun da 3 mlrd. funt sterlinqi xarici borc idi) təşkil edirdi. İkinci Dünya müharibəsi dövründə bütünlükdə Böyük Britaniya öz milli sərvətinin 25 %-ni itirmişdir.

1946-cı ildə sənaye məhsulunun ümumi həcmi 1937-ci ilin 90 %-i səviyyəsinə düşmüşdür. İxrac azalmış, tədiyyə balansının kəsiri 4 mlrd. funt sterlinq təşkil etmişdir.

1945-ci ilin dekabr ayında ABŞ-dan maliyyə yardımı almaq üçün müqavilə bağlamışlar. ABŞ İngiltərəyə **4,4 mlrd. dollar** borc vermişdir. Bunun müqabilində İngiltərə funtun sərbəst olaraq dollara dəyişilməsi barədə öhdəçilik götürmüşdür. Nəticədə ölkədə pul kəskin sürətdə azalmışdır. Odur ki, 1947-ci ilin avqust ayından sərbəst dəyişilmədən imtina edilmişdir. Ölkədə ciddi maliyyə böhranı yaranmışdır. Bununla əlaqədar olaraq xaricdən alınan ərzaq mallarının həcmi azaldılmışdır. Bu isə həmin məhsulların qiymətlərinin artmasına səbəb olmuşdur. Böhrandan çıxmaq üçün hökumət **"Marşal planına" qoşulmağa məcbur olmuşdur**. Beləliklə, 1948-ci ildə iki tərəfili müqavilə bağlanmış və bu müqaviləyə əsasən ABŞ İngiltərəyə 2351 mln. dollar dəyərində müəyyən məhsullar və 337 mln. dollar borc vermişdir.

1950-ci ildə İngiltərənin iqtisadiyyatında müəyyən canlanma müşahidə olunurdu. Bu da bir çox hallarda Koreyadakı müharibə ilə də bağlı idi. ABŞ-ın sifarişi ilə İngiltərənin zavodları da işləyirdi. Nəticədə İngiltərə müəyyən qədər qızıl və valyuta ehtiyatı toplayaraq 1950-ci ildə ABŞ-ın "Marşal planı" köməkliyindən imtina etmişdir.

Beləliklə, **1957-ci ildə** İngiltərənin iqtisadi göstəriciləri 1937-ci il səviyyəsini xeyli ötmüşdür.

60-70-ci illərdə bank və sənaye kapitalının təmərküzləşməsi prosesi artmışdır. Bank kapitalı ilə sənaye kapitalının qarşılıqlı əlaqəsi və qovuşması nəticəsində sənaye, kredit, nəqliyyat, ticarət və xidmətin bir çox sahələrinə nəzarət edə biləcək böyük konsorsiumlar əmələ gələ bilmişdir.

Lakin İngiltərə öz müstəmləkələrini itirdiyinə görə istehsalın genişləndirilməsi xammal idxalının və kapital qoyuluşunun artmasını tələb edirdi.

2. Böyük Britaniyanın makroiqtisadi inkişaf modeli

Yuxarıda qeyd edilənlərdən aydın olur ki, Böyük Britaniyanın iqtisadi inkişafı Almaniya və Fransada olduğu kimi o qədər də sosial bazar təsərrüfatı prinsiplərinə əsaslanmır. Əsasən yeni liberal inkilis inkişaf modelindən istifadəyə üstünlük verilir. Odur ki, Britaniyanın iqtisadi modeli ABŞ-ın iqtisadi modelinə yaxın olub bir çox Avropa dövlətlərinkindən fərqlənir.

Məlumdur ki, müharibədən sonrakı ilk illərdə iqtisadiyyatın bərpa edilməsi problemi qarşıda dayanırdı. Etiraf etmək lazımdır ki, iqtisadi inkişafa nail olmaq üçün bir çox dövlətlər **iqtisadi planlaşdırmaya (sovet ittifaqının təcrübəsindən istifadə edirdilər)** üstünlük verirdilər. Belə bir inkişaf 40-cı illərdən başlayaraq 50-60-cı illərdə daha geniş yayılmışdır. Planlaşdırma və proqnozlaşdırma praktikası sosial-iqtisadi prosesin əsasını təşkil edirdi. Bu isə iqtisadiyyatda dövlətin rolunu artırırdı.

1945-1948-ci illərdə sənayenin bir çox sahələrində milliləşdirmə əsasında – dövlət mülkiyyəti genişlənirdi. Məsələn, müharibədən sonrakı ilk illərdə bir çox kömür şaxtaları, nəqliyyat və elektrik stansiyaları sahələri milliləşdirilmiş və sahibkarlara 2,5 mlrd. funt sterlinq vəsait verilmişdir.

Həmin illərdə İngiltərənin bankları, kömür sənayesinin bir çox müəssisələri, xaricə xidmət edən radio və teleqraf rabitəsi, elektroenergetika, 1967-ci ildə qara metallurgiya və nəqliyyat dövlət mülkiyyətinə verilmişdir.

Göstərilən dövrlərdə nəzəri və praktiki baxımdan iki cəhətdən dövlət müəssisələrinin yaranması zərurət təşkil edirdi.

Birinci - milli iqtisadiyyatda zəif, zərərlə işləyən sahələri ləğv etmək. Bu zəif sahələr çoxlu kapital tələb edirdi. Xüsusi

sahibkarlar isə kapital qoymağa ehtiyat edirlər. Tez dövr edən sahələrə daha çox meyl edirdilər.

İkinci - elmi-texniki tərəqqini yüksəltməkdə xüsusi sahibkarlara nisbətən dövlətin daha çox maraqlı olması. Yeni maşın növləri, texnologiya və s. yaratmağa xüsusi sahibkarlar o qədər də maraqlı olmurlar. Odur ki, elmi təcrübə bazaları yaratmaq, elmi-texniki tərəqqini yüksəltmək və bu kimi daha uzun müddətli və çox xərc tələb edən sahələri dövlət öz üzərinə götürür. Atom sənayesinin inkişafı ABŞ-da, Fransada, Böyük Britaniyada məhz belə olmuşdur.

1970-ci illərdə böyük "Britiş motor leylend korporeyşn" avtomaşın kompaniyası səhmlərinin 91,5 %-i, "Ferranti" elektrotexnika kompaniyası səhmlərinin 62,5 %-i dövlətin əlində idi. Poladın 93,5 %-i dövlətə məxsus olan polad korporasiyalarında istehsal edilirdi. Həmin illərdə birgə dövlət -xüsusi müəssisələri yaradılması da geniş xarakter almışdı.

1960-70-ci illərdə hakimiyyətdə olan leyboristlər hökuməti milliləşdirilmiş sahələrin məhsullarına daha aşağı qiymətlər tətbiq edilməsi siyasəti yeridirdilər.

Dövlət iqtisadi və inzibati tənzimləmənin müxtəlif formalarından geniş istifadə edirdi.

İqtisadi tədbirlərdən - **büdcə və maliyyə siyasətini** (kapital yığımı, faiz dərəcəsinin artması və ya azalmasını, mənfəətə differensiallaşmış dərəcə tətbiq etmək və s.) qeyd etmək olar. **Xüsusi yerlərdə, rayonlarda müəssisələr tikilməsi inzibati qaydada qadağan edilirdi. Dövlət kapital ilə əmək arasındakı münasibətlərə fəal müdaxilə edirdi**. Əmək haqqının tənzimlənməsi siyasəti yeridirdi. Əmək haqqının artırılmasına müəyyən həddə qoymağa çalışırdı (əvvəlcə ildə 2,5 %, sonra 3,5 %). 1960-cı illərin ortalarından isə leyboristlər ümumiyyətlə əmək haqqının artırılmasını qadağan etməyə çalışırdılar.

Həmçinin göstərmək lazımdır ki, leyboristlər hökuməti iqtisadiyyatı planlaşdırmağa çalışırdı, **"Milli plan"** yaratmaq istəyirdilər. Lakin onlar öz fikirlərini həyata keçirə bilmədilər.

İqtisadi inkişafın bir çox göstəriciləri pisləşirdi.

70-ci illərin axırlarına inflyasiyanın illik artım sürəti 15 %-ə çatmışdır. İstehlak malllarının və xidmətlərin qiymətləri xeyli artmışdı. İstehsalın artım sürəti azalırdı. Sənaye məhsulunun həcmi 1970-ci illərin ortalarında həmin illərin əvvəllərinə nisbətən 10,6 % azalmışdır. 80-ci illərdə işsizlik yüksəlmişdir. Ticarət balansı pisləşmiş, ölkənin xarici borcu artmışdır.

Leyboristlər hökuməti 1973-1975-ci illərdəki böhrandan çıxmaq üçün dövlət-inhisarçı tənzimlənməsindən istifadəni artırsalar da ümumi vəziyyəti dəyişdirə bilmədilər.

1979-cu ilin may ayında mühafizəkarlar partiyasından Marqaret Tetçer (1929-cu ildə anadan olub) ölkənin baş naziri seçildikdən dərhal sonra iqtisadi liberalizm prinsipləri əsasında islahatlar keçirməyə başlamışdır.

İslahatlar demək olar ki, təsərrüfat həyatının bütün sahələrini əhatə edirdi. Böyük Britaniyada **"Tetçerizm"**, ABŞ-da isə **"Reyqanomika"** (Reyqanın adı ilə bağlı) iqtisadi inkişafda yeni mühafizəkarlığa əsaslanan islahatlar keçirməsinə (dövlətin iqtisadi rolunun azaldılması) üstünlük vermişlər.

Böyük Britaniyanın iqtisadi siyasətində aşağıdakı proqram nəzərdə tutulurdu: «Bazar mexanizminə və sahibkarlığa köməklik göstərilməsi». Burada:

- özəlləşdirmə proqramının həyata keçirilməsi sistemi geniş yer tutur. Çox böyük istehsal sahələri özəlləşdirilmişdir. 1979-1994-cü illərdə özəlləşdirilmədən dövlət büdcəsinə **55 mlrd. funt sterlinq** vəsait daxil olmuşdur. Bir çox sahələrdə dövlət sahibkarlığı ləğv edilirdi, xüsusi sahibkarlıq genişləndirilirdi.

1980-ci illərin əvvəllərindən dövlət müəssisələrinin fəaliyyətinə çəkilən xərclər azaldılırdı. Belə ki, 1983-1984-cü illərdə milliləşdirilmiş müəssisələrin fəaliyyəti üçün ayrılan vəsait 6,1 mlrd. funt sterlinq olduğu halda 1984-1985-ci illərdə 5,6 mlrd. funt sterlinq təşkil etmişdir.

Əvvəllər milliləşdirilmiş müəssisələrə ayrılan cəmi kapital qoyuluşunun 50 %-i dövlət orqanları tərəfindən olduğu halda 1980-ci ilin əvvəlinə bu 25 % təşkil etmişdir. Sənayenin, kom-

munal və yol təsərrüfatının, mədəniyyətin, təhsilin inkişafına yönəldilən dövlət xərcləri 4 mlrd. funt sterlinq azaldılmışdır.

1980-ci ilin əvvəllərində Tetçer hökuməti geniş miqyaslı özəlləşdirmə aparmağa başlamışdır. Şimal dənizində zəngin neft yataqları, radioaktiv izotoplar zavodu, yükdaşınması üzrə milli kompaniya, kömür şaxtaları və s. xüsusi firmalara satılmışdır.

Neft sənayesi, poladtökmə, aviakosmik, hava nəqliyyatı kimi sahələrin özəlləşdirilməsinə daha ciddi fikir verilirdi. **Böyük Britaniyada əlverişli vergi sistemi yaradılmışdır**. Aydındır ki, inflyasiyaya qarşı mübarizədə dövlət büdcəsi mexanizmindən geniş istifadə edilir. 70-ci illərin sonu 80-ci illərin əvvəllərində İngiltərənin büdcəsinin 90 %-i vergilər hesabına formalaşırdı. 80-81-ci illərdə ancaq gəlir vergisi büdcənin 34 %-ni təşkil etmişdir.

Kapital qoyuluşuna maraq yaratmaq məqsədi ilə birbaşa vergilər 3,5 mlrd. funt sterlinq azaldılmışdır. Bunun müqabilində dolayı vergilər artırılmışdır. Məsələn, dolayı vergilər 1979-cu ildə cəmi büdcə gəlirlərinin 34 %-ni təşkil etdiyi halda 1981-ci ildə 39 %-nə bərabər olmuşdur. Əlavə dəyər vergisi 8 %-dən 15 %-dək artırılmışdır. İri müəssisələrdən olan vergi dərəcələri 50 %-dən 21%-ə endirilmişdir. Hazırda isə böyük korporasiyaların mənfəətindən **vergi dərəcəsi 25 %**-dir. Fərdi gəlir vergisini isə **25%-dən 10%** həddinədək azaltmaq üçün iş aparılır.

Bütün bunlarla yanaşı sənaye kompaniyalarına kredit verilməsi artırılmış, onların sosial sığorta fonduna olan ayırmaları dəyişdirilmişdir. Sahibkarların fəaliyyətinə daha geniş sərbəstlik verilmişdir. İşə götürülməkdə həmkarlar ittifaqı üzvlərinə üstünlük verilməsi qaydası da 1982-ci ildə ləğv edilmişdir.

Ayrı-ayrı müssisələrdə həmkarlar ittifaqlarının rolu xeyli azaldılmış və bütün **növ həmrəylik tətillərinin keçirilməsi qeyri-qanuni hesab edilmişdir.**

Xüsusi sahibkarlığa şərait yaradılması Böyük Britaniya iqtisadiyyatının ümumi gedişinə güclü zəmin yaratmışdır.

M.Tetçer hökumətinin apardığı islahatlar nəticəsində İngiltərə iqtisadiyyatının xarici iqtisadi dairələri də genişlənmiş-

dir. Kapital ixracı barədəki bütün məhdudiyyətlər ləğv edilmişdir. Odur ki, Böyük Britaniyadan xaricə kapital ixracı 1960-cı illərdəkinə nisbətən daha sürətlə artmışdır.

Təkcə 1979-1981-ci illərdə kapital ixracının həcmi 11,3 mlrd. funt sterlinq, orta illik xüsusi kapital ixracı isə 3,5 mlrd. funt sterlinq olmuşdur. Kapital ixracının 80 %-ə qədəri inkişaf etmiş ölkələrə -ilk növbədə ABŞ, Kanada, Avropa iqtisadi Birliyi ölkələrinə yönəldilirdi.

1982-ci ildə İngiltərə Niderlandı qabaqlayaraq Amerika iqtisadiyyatına ən çox kapital qoyan ölkə olmuşdur. Birbaşa kapital ixracının ancaq 18 %-i inkişaf etməkdə olan ölkələrin payına düşürdü. Böyük Britaniya öz ölkəsinin iqtisadiyyatına da kapital qoyuluşuna həvəs yaradırdı. 80-ci illərdə Amerika kompaniyaları və eləcə də Braziliya, Meksika, Hindistan, Sinqapur, Filippin, Böyük Britaniya iqtisadiyyatına daha çox kapital qoymuşlar.

Hazırda Böyük Britaniyada 13 mindən çox xarici kompaniya fəaliyyət göstərir. Böyük Britaniyanın 1085 ana cəmiyyət adlanan iri TMŞ-si vardır (bunun 27-si bank fəaliyyəti ilə məşğuldur - 1996). Aİ ölkələrinin cəmi xarici investisiyasının 30-35 %-i, Amerikanın isə Aİ ölkələrinə ayırdığı xarici investisiyanın 40 %-i Böyük Britaniya iqtisadiyyatına yönəldilir. Xarici kapitalın çoxu kompüter və avtomobil sənayesinə ayrılır.

Bütün yuxarda qeyd edilənlər Böyük Britaniyanın sürətli iqtisadi inkişafına zəmin yaratmışdır. Əmək məhsuldarlığı 1980-1990-cı illərdə orta hesabla 5 % artmışdır.

1996-cı ildə büdcə kəsiri ÜDM-in 4,8 %-i dövlət borcu isə 56,1 %-i qədər olduğu halda, 1997-ci ildə müvafiq olaraq 1,9 və 53,4 % təşkil etmişdir. 1997-1999-cu illərdə ölkə valyutasının sabitliyi daha da artmış, funt sterlinqin dollara olan nisbəti yüksəlmişdir (1 funt sterlinq=1,6-1,7 dol). 1979-1999-cu illərdə Böyük Britaniyanın iqtisadi inkişafı haqqında ümumi təsəvvür yaratmaq üçün aşağıdakı cədvələ baxmaq məsləhətdir.

Cədvəl

1979-1999-cu illərdə Böyük Britaniyanın iqtisadi inkişafına dair bəzi göstəricilər

	May 1979	*May 1989*	*May 1999*
Hökumət	mühafizə-karlar	mühafizək arlar	leyboristlər
	M.Tetçer	*M.Tetçer*	*T.Bleyer*
İnflyasiya səviyyəsi (%)	13,4	7,8	3,4
Faiz dərəcəsi (%)	12,0	13,75	5,5
İşsizlik səviyyəsi: nəfər və fəal əhalinin faizi	1,9 mln. (4,1%)	1,81 (6,1%)	1,31 (4,6%)
Əmək bazarında qadınlar xüs.ç.	44	49	51
Orta gəlir (f.str)	5000	11.700	19000
Menecerin orta gəliri (f.st.)	9000	25.700	36.400
Ölkə əhalisinin neçə faizinin varıdır: Avtomobil	60	68	70
Mənzil	52	66	68
telefon	74	95	98
rəngli televizor	75	88	98
evdə şəxsi kompyüter	-	19	27

3. Böyük Britaniyanın iqtisadiyyatının quruluşu

Böyük Britaniyanın iqtisadi inkişaf quruluşu inkişaf etmiş digər sənaye ölkələrindən o qədər də fərqlənmir. Belə ki, hazırda (2005-ci il) ÜDM-in 1,0 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın payına düşür, cəmi işçilərin 2,0 %-i həmin sahədə çalışır. Cəmi işçilərin sayı 30 mln. nəfərdir.

Sənaye və tikinti müvafiq olaraq 24,0 və 25,0 %; xidmət bölməsi isə 75,0 və 73,0 % təşkil edir.

Kənd təsərrüfatı. Böyük Britaniyada kənd təsərrüfatı özünün yüksək effektivliyi və məhsuldarlığı ilə fərqlənir, mexanikləşmə səviyyəsi daha yüksəkdir.

2004-cü ildə kənd təsərrüfatının cəmi məhsulu 8000 mln.f.st. olmuşdur. Cəmi kənd təsərrüfatına yararlı torpaq sahəsi 18,3 mln. hektar (cəmi torpaq sahəsinin 76 %-i) təşkil edir. Buğda, arpa, vələmir və donuz ətinə görə daxili tələbatdan artıq, kartof, mal və qoyun əti, yun, qənd, yumurta və s. kimi məhsullar isə daxili tələbatdan az istehsal olunur.

Kənd təsərrüfatından olan gəlirin 66 %-ə qədəri heyvandarlığın payına düşür. Kənd təsərrüfatı istehsalı əsasən 100 hektardan artıq sahəsi olan iri təsərrüfatlar tərəfindən həyata keçirilir. Aİ ölkələri içərisində burada balıqçılıq daha çox inkişaf etdirilir (balıq məhsullarına olan tələbin 40 %-i təmin edilir). Meşə təsərrüfatı 10 % tələbatı ödəyir.

Böyük Britaniya inkişaf etmiş sənaye ölkəsi kimi daha məşhurdur. 2005-ci ildə 150 mln. ton neft, 106 mlrd. m^3 qaz hasil edilmişdir. 396 mlrd. kvts. elektrik enerjisi istehsal edilmişdir.

İqtisadiyyatın ən böyük bölmələrindən biri kimi inşaat kompaniyalarının cəmi məhsulu 55 mlrd. f.st. təşkil etmişdir. İnşaatda işləyənlərin sayı 165 min nəfərdir.

Böyük Britaniya ən qabaqcıl texnologiya növlərindən istifadə edir. ÜDM-in 18,8 %-i emal sənayesinin payına düşür.

Ölkənin emal sənayesində aşağıdakı sahələr daha çox üstünlüyə malikdir:

– nəqliyyat maşınqayırması (cəmi sənaye istehsalının 12,4 %-ni təşkil edir). Burada da avtomobilqayırma, gəmiqayırma, aerokosmik sənayesi (hərbi və mülki təyyarə istehsalına görə ABŞ və Fransadan sonra 3-cü yeri tutur) daha üstündür;

– ümumi maşınqayırma (kənd təsərrüfatı texnikası, dəzgahlar, toxuculuq-tikiş avadanlıqları və s.);

– elektronika və elektrotexnika (kompyuter, proqramlaşma təminatı, telekommunikasiya vasitələri);

- tibbi avadanlıqlar, məişət texnikası;
- kimya sənayesi;
- metal istehsalı və s.

Böyük Britaniya istehsalın **elmtutumlu olması** ilə də fərqlənir. Belə ki, ETT-də o, dünya üzrə liderlik edən ölkələr-

dən biri kimi Avropada ən yüksək elmi-texniki potensiala malikdir. Onu da qeyd etmək kifəyətdir ki, Böyük Britaniya **Nobel mükafatı** alanların sayına görə ABŞ-dan sonra 2-ci yeri tutur (**70 nəfər**). Böyük Britaniyada elmi-tədqiqat təcrübə konstruksiya (ETTKİ) işlərinə ayrılan vəsait ÜDM-in **2 %-nə** bərabərdir (bunun 35 %-dən çoxunu dövlət maliyyələşdirir).

İqtisadiyyatın əsas sahələrindən biri turizm və maliyyədir (burada maliyyə xidməti nəzərdə tutulur).

Əmək qabiliyyətli əhalinin 7 %-i turizm sahəsində işləyir. Turizmdən olan illik gəlir 8 mlrd. dollardan artıqdır. London dünyanın ən böyük turist mərkəzlərindən biri hesab olur.

Böyük Britaniyada ÜDM-in **25 %-i maliyyə xidməti** nəticəsində yaranır. Bu sahədə 4 mln. nəfər (cəmi işçilərin 12 %-i) çalışır.

London dünya maliyyəsinin mərkəzi şəhəri hesab olur. Burada bank fəaliyyəti çox geniş yayılmışdır. Londondan başqa Mançester, Kardiff, Liverpul, Edinburq da böyük maliyyə mərkəzləri hesab olurlar. Böyük Britaniyada infrastrukturu xarakterizə etdikdə qeyd etmək olar ki, burada da digər sənaye ölkələri kimi inkişaf etmiş nəqliyyat infrastrukturu mövcuddur. Yüksək mülki aviasiya vardır.

Energetikada xüsusi şirkətlərin rolu daha böyükdür.

Böyük Britaniyanın iqtisadiyyatı Almaniya və Fransaya nisbətən daha yüksək dərəcədə açıq iqtisadiyyat hesab olur. Ölkənin ÜDM-in 28 %-i ixrac ilə əlaqədardır. 2005-ci ildə ixracın həcminə görə dünyada 5-ci yeri tutmuşdur (cəmi dünya üzrə ixracın 5,1 %-i 483,1 mlrd. doll.). İdxal üzrə isə 3-cü yeri tutmuşdur (dünya üzrə idxalın 5,9 %-i 371,1 mlrd. doll.).

Dünya üzrə əmtəə ixracında müxtəlif motorlar – 21,8 %, təyyarə – 8,1 %, hesablama texnikası – 7,7 %; telekommunikasiya avadanlığı – 8,0 % Böyük Britaniyanın payına düşür (2000).

Yenə dünya üzrə tibbi dərmanlar ixracının 10,6 %-i Britaniya şirkətləri tərəfindən həyata keçirilir. Neft ixracının 4,2 %-i Böyük Britaniyanın payına düşür.

Hazır məhsul ixracında yüksək texnoloji məhsullar 32 %-ə bərabərdir.

Xarici ticarət dövriyyəsinin 55,8 %-i (2005) Aİ ölkələri ilə həyata keçirilmişdir. Böyük Britaniyanın Azərbaycana olan ixracı 421,8 mln. dollar, idxalı isə 6,6 mln. dollara bərabərdir (2004). Beynəlxalq iqtisadi münasibətlərin inkişafında kapitalın beynəlxalq hərəkəti böyük rola malikdir. Bu sahədə Böyük Britaniya (borc və sahibkar kapitalının ixracı və idxalı) əsas yerlərdən birini tutur.

Belə ki, Böyük Britaniya birbaşa kapital ixracına görə dünyada 2-ci yeri tutur – 15,1 % (2004). Bu kapital qoyuluşu əsasən Şimali Amerika və Aİ ölkələrində həyata keçirilir. ABŞ-ın iqtisadiyyatına qoyulan bütün xarici kapitalın 18 %-i Böyük Britaniyanın payına düşür.

Bununla yanaşı Çin, Braziliya və Bermud adalarına da güclü kapital ixracı həyata keçirilir.

Böyük Britaniyanın iqtisadiyyatına yönəldilən birbaşa xarici kapital isə dünya üzrə cəmi birbaşa investisiyanın 7,3 %-nə bərabər olmuşdur.

XXI FƏSİL
FRANSANIN İQTİSADİYYATI

1. *Fransa iqtisadiyyatının ümumi xarakteristikası.*
2. *Fransanın makroiqtisadi inkişaf modeli.*
3. *Müasir şəraitdə Fransanın sosial-bazar iqtisadiyyatının vəziyyəti.*

1. Fransa iqtisadiyyatının ümumi xarakteristikası

Fransa Qərbi Avropanın ən böyük ölkələrindən biridir. 550 min kv. km ərazisi, 61,0 mln. nəfər (2005) əhalisi vardır. Paytaxtı Paris, böyük şəhərləri -Marsel, Lill, Lion, Tuluza, Nissadır. Əhalisinin 90 % fransızlardır.

Fransa prezident respublikasıdır. Dövlət başçısı və icraedici hakimiyyət prezidentə məxsusdur. O, baş naziri təyin edir.

Ali qanunverici orqan 2 palatalı parlamentdən ibarətdir. İnzibati ərazi bölgüsünə görə Fransa 96 inzibati vahiddən (departamentdən) ibarətdir. Eləcə də Amerika, Afrika və Okeaniyada 127 min kv. km həcmində ərazisi vardır.

Fransa Avropa inteqrasiyasının əsasını qoymuşdur. Onu qeyd etmək kifayətdir ki, Avropa Şurası kimi böyük birliyin iqamətgahı onun ərazisində -Strasburqdadır. Bir çox beynəlxalq təşkilatlar (o cümlədən iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının qərargahı) Parisdə yerləşir.

Fransa dünya siyasətində də böyük rola malikdir. O, ABŞ-dan fərqli olaraq yaxın Şərqə qarşı özünəməxsus mövqedə olub Ərəb dünyasının mənafeini müdafiə edir.

Fransa dünyanın inkişaf etmiş yeddi dövləti sırasına daxildir. ÜDM-in, sənaye məhsulunun və dünya ticarətinin həcminə görə ABŞ, Yaponiya, Almaniya və Böyük Britaniyadan sonra 5-cü yeri tutur, bank fəaliyyətinin miqyasına görə isə 3-cü yeri tutur (2004).

Qərbi Avropa ölkələri üzrə sənaye istehsalının 17 %-i, kənd təsərrüfatı istehsalının isə 20 %-i Fransanın payına düşür.

Ölkənin iqtisadiyyatında elmi-tədqiqat və məlumat xidməti böyük rola malikdir. Atom enerjisi, aviasiya texnikası, rabitə vasitələri avadanlıqları, sənaye təyinatlı elektronika növləri və bu kimi sahələrdə geniş tədqiqat işləri aparılır. İƏ və İT ölkələri içərisində elmi-tədqiqat təcrübə konstruksiya işlərinə (ETTKİ) çəkilən xərclərə görə (ABŞ, Yaponiya və Almaniyadan sonra) 4-cü yeri tutur. 2003-cü ildə bu xərclər ÜDM-in 2,4 %-nə bərabər olmuşdur. Sənaye üzrə ETTKİ çəkilən xərclərin 75 %-i elektronika, aviaraketqayırma və kosmik sənayesinə, avtomaşınqayırma, kimya, əczaçılıq və energetikaya, 19 %-i hərbi-sənaye kompleksinə sərf edilir.

Fransa dünyada üçüncü, Qərbi Avropada isə birinci nüvə dövlətidir.

Fransa iqtisadiyyatının müasir inkişafı əsasən aşağıdakı amillərlə şərtlənir: elmi-texniki tərəqqinin təsiri, xarici iqtisadi əlaqələrin artması və Aİ çərçivəsində iqtisadi və valyuta ittifaqının (İVİ) formalaşmasının başa çatması hazırlığı.

Fransanın əsas təbii ehtiyatları -dəmir filizi, daş gömür, boksidlər, təbii qaz, uran, volfram, talk, qalay, qurğuşun, gümüş və sairədən ibarətdir. Bu cəhətdən Fransa Almaniyadan üstündür.

Fransa yüksək inkişaf etmiş sənaye-aqrar ölkəsidir.

ÜDM-in həcmi 2126,7 mlrd. dollar, hər nəfərə düşən ÜDM isə 34864 dollardır (2005). 2005-ci ildə ÜDM-in 3,0 %-i kənd təsərrüfatının, 25,0 %-i sənayenin, 72,0 %-i isə üçüncü bölmə adlanan xidmət sahəsinin payına düşür. Cəmi işçilərin 33 %-ə qədəri sanaye sahələrində çalışır. İnvestisiyanın 40 %-i sənaye sahələrinə yönəldilir, ixrâcın 81 %-ni sənaye təmin edir. Sənayenin əsas sahələri:

– maşınqayırma (570 min işçisi var), məhsulun 40 %-i ixrac edilir;

– kimya sənayesi (250 min işçisi var), dünya üzrə ixracda 4-cü yeri tutur;

– aviakosmik (100 min işçini birləşdirir). Bu sahədə qərb ölkələri içərisində ixracda 2-ci yeri tutur;

– avtomobilqayırma - ildə 3,9 mln. minik avtomobili buraxa bilir (bunun 1,5 mln. ədədi ixrac edilir). Buraxılan avtomobilin sayına görə dünyada 3-cü yeri tutur. Hazırda avtomobil parkında 24 mln. minik, 3,2 mln. yük maşını vardır;

– yeyinti sənayesi - (400 min nəfər adam çalışır. İxracın həcminə görə ancaq ABŞ-dan geri qalır).

Radioelektron, informatika, gəmiqayırma, elektrotexnika, metallurgiya, atom enerjisi (ölkənin cəmi enerjisinin 84 %-ni AES verir), dağmədən sənayesi, nəqliyyat maşınqayırması, əczaçılıq və ətriyyat, hərbi sənaye və bu kimi sahələr dünya bazarında böyük çəkiyə malikdirlər.

2003-cü ildə cəmi 540 mlrd. kvt. s. elektrik enerjisi istehsal edilmişdir. Bunun 394 mlrd. kvt. s. AES-də istehsal edilmişdir. Bu göstəricinin həcminə görə Fransa Amerikadan sonra ikinci, lakin cəmi elektrik enerjisindəki xüsusi çəkisinə görə birinci yeri tutur.

Elektrotexnika sahəsi yüksək səviyyədədir. Elektrik kabeli istehsalına görə dünyada birinci yeri tutur. Elektrik stansiyaları üçün avadanlıq istehsalı və ixracına görə fərqlənir. Dünyada məlum Fransa parfümeriyasını, kosmetikasını, əczaçılıq, rezin sənayesi və s. xüsusi qeyd etmək olar.

Fransanın iqtisadiyyatında dəmir yolunun və avtomaşın yolunun da böyük rolu vardır. Avtomaşın yolunun uzunluğuna görə ABŞ-dan sonra 2-ci yeri tutur (1,1 mln. km). Rabitə və turizm sahələri sürətlə genişlənir. 2002-ci ilin məlumatına görə ildə 77 mln. nəfər turist qəbul etmişdir. Fransa turistlərin sayına və bu sahədən olan gəlirə görə dünyada 1-ci yeri tutur.

Fransa sənaye məhsulları istehsalında **elmtutumuna** daha çox zəmin yaradır. Sürətli qatar, raket, təyyarə istehsalına görə dünyada birinci, atom enerjisi istehsalına görə ikinci yeri tutur.

Beynəlxalq iqtisadi əlaqələrin əsasını təşkil edən xarici ticarət sahəsində Fransa yüksək mövqeyə malikdir. Cəmi ixrac ÜDM-in 20,6 %-ni təşkil edir. İxracın həcminə görə dünyada

4-cü yeri tutur. Əmtəə ixracının həcmi 440,0 mlrd. dollar, idxal isə 483,0 mlrd. dollardır.

Fransanın Azərbaycana olan ixracı 2004-cü ildə 120 mln. dollar, idxalı isə 66,9 mln. dollar olmuşdur.

Fransa çox sahəli və yüksək məhsuldar kənd təsərrüfatına malikdir. 20-100 hektardan ibarət iri təsərrüfatların xüsusi çəkisi daha çoxdur. Kənd təsərrüfatında çalışanlar 1 mln. nəfərdir. Kənd təsərrüfatı məhsullarının həcminə görə Fransa Qərbi Avropada birinci yeri tutur. Əsas kənd təsərrüfatı məhsulları ilə özünü tam təmin edə bilir. Avropada ən çox - 60 mln. ton (hər hektardan 60 sentner) taxıl istehsal edir. Bunun da 35 mln. tonu buğdadır. Üzümçülük və şərabçılığa görə dünyada İtaliya ilə birinci və ikinci yerləri bölüşürlər. Mal-qaranın sayına görə Qərbi Avropada birinci, kərə yağı istehsalına görə isə dünyada ikinci yeri tutur.

Kənd təsərrüfatı məhsulunun 49 %-i bitkiçiliyin payına düşür.

Kənd təsərrüfatı məhsulunun təqribən 30 %-i ixrac edilir. Demək olar ki, kənd təsərrüfatı məhsullarına olan əsas tələbat tam ödənilir. **Fransanın kənd təsərrüfatı dünya aqrar sənaye kompleksinin ikinci hissəsi hesab edilir**.

2. Fransanın makroiqtisadi inkişaf modeli

İkinci Düyna müharibəsindən sonra Fransa iqtisadiyyatı 50-ci illərin əvvəllərinə xeyli miqdarda bərpa edilə bilmişdir. Marşal planına əsasən 4 ildə (1948-1951) Avropa dövlətlərinə ediləcək köməklik 17 mlrd. dollar təşkil etmişdir. Təkcə 1948-ci ildə Fransaya edilən köməklik 1,13 mlrd. dollara bərabər olmuşdur. 1949-1953-cü illərdə iqtisadiyyatda müəyyən canlanma özünü göstərirdi. 1954-ci ildən isə ölkənin iqtisadiyyatında yüksəliş dövrü başlamışdır. 1954-1958-ci illərdə sənayenin inkişaf sürətinə görə Fransa bir çox kapitalist ölkəsini ötüb keçmişdir. Qabaqcıl ölkələrlə rəqabətə girmək üçün əsas kapitalın təzələnməsi prosesi baş vermişdir. **Həmçinin müstəmləkəçilik**

metodu və sələmçiliklə varlanmanın qeyri perspektiv olması məsələsi təsərrüfat və hökumət dairələri tərəfindən dərk edilməyə başlanmışdır. Yeni şəraitdə istifadə edilən investisiya vəsaiti əsasında nüvə enerjisi, elektrotexnika və avtomatika, kimya və s. sahələrdəki kəşflərə əsaslanan texniki tərəqqi sürətlənirdi. Ağır sənaye və yeni sahələrə ayrılan kapital qoyuluşu artırdı. 1950-ci illərin ortalarına əsas kapitala ayrılan illik investisiya müharibədən əvvəlki illərə nisbətən 2,5 dəfə artmışdır. Sənaye məhsulu istehsalı isə 1958-ci ildə iki dəfə artmışdır. Hökumət tədbirləri nəticəsində istehsalın və bank işinin mərkəzləşməsi və təmərküzləşməsi prosesi genişlənmişdir.

Qeyd etdiyimiz kimi, Fransanın iqtisadi həyatında dövlətin iştirakı daha geniş olmuşdur.

Belə ki, 1958-ci illərdə kömür sənayesinin 97 %-i, qaz hasilatının 95 %-i, aviasiya sənayesi və elektrik enerjisi hasilatının 80 %-i, avtomaşın sənayesinin 40 %-dən çoxu dövlətin əlində (mülkiyyətində) olmuşdur.

Dövlət atom enerjisi sahəsindəki tədqiqat işlərinə investisiyanı artırmış, neft kompaniyalarında iştirak etmiş, dəmir yollarına, iri hərbi müəssisələrə, eləcə də iri aviasiya və dəniz nəqliyyatı kompaniyalarının səhimlərinə malik olmuşdur.

1957-ci ildə cəmi milli əmlakın 36 %-i dövlətə məxsus olmuşdur.

İngiltərədə olduğu kimi Fransada da planlaşdırılma və proqnozlaşdırma sistemindən geniş istifadə edilmişdir.

1946-cı ildə dövlətin iqtisadiyyata təsiri metodu kimi xüsusi orqan olan "planlaşdırma üzrə baş komissarlıq orqanı" yaradılmışdır:

– birinci çoxillik planın (1947-1953) əsas vəzifəsi iqtisadiyyatın modernləşməsi və bərpa edilməsi;

– ikinci planda (1954-1957) əsas məqsəd xüsusi firmaların rəqabət qabiliyyətini möhkəmlətmək;

– üçüncü planda (1958-1961) əsas məqsəd himayədarlıqdan "açıq iqtisadiyyata" keçmək olmuşdur. 60-cı illərdə Avropa tipli iri firmalar yaradılması kursu götürülmüşdür.

1971-1975-ci illəri əhatə edən 6-cı planda beynəlxalq miqyaslı milli kompaniyalar yaradılması və yığım normasının artırılması əsas götürülürdü.

1976-1980-ci (yeddinci plan) illərdə sənayenin yeni istiqamət götürməsi siyasəti elan edilmişdir.

Səkkizinci çoxillik (1981-1984) planda iqtisadiyyatda hərtərəfli quruluş dəyişikliyi, **9-cu (1985-1988)** planlaşmada xarici fəaliyyətin, ETTKİ üzrə proqramın genişlənməsi əsas götürülmüşdür.

10-cu (1989-1993) planlaşmada kiçik sahibkarlığa köməklik, 1994-1997 və 1998-2003-cü illəri əhatə edən **11-ci və 12-ci çoxillik** planlaşdırmada iqtisadiyyatın liberallaşdırılmasının genişləndirilməsi ön plana çəkilmişdir.

1986-cı ildə birinci, 1994-cü ildə ikinci özəlləşdirilmə, 2003-cü ildə isə üçüncü özəlləşdirmə **proqramı** qəbul edilmişdir.

2004-2005-ci illərdə energetika müəssisələrində qismən özəlləşdirilmə, dəmir yolu idarəçiliyində islahat aparılmışdır.

Bununla yanaşı Fransanın ictimai-iqtisadi həyatında dövlətin rolu hələ də böyükdür.

Fransada planlaşdırılmanın qeyri-məcburi xarakter daşımasına baxmayaraq dövlət müəssisələri üçün planlaşdırma orqanlarının amiranə hüquqları vardı.

Fransada həyata keçirilən iqtisadi siyasətin ("dirijizm" adı almışdı) əsas fərqləndirici cəhətləri ondan ibarət idi ki, burada qiymətlər üzərində, qiymətli kağızlar buraxılmasında, kredit fəaliyyətində və s. ciddi nəzarət vardır, iqtisadiyyatın milliləşdirilmiş bölməsində və kapital qoyuluşunun birbaşa maliyyələşdirilməsində, planlaşdırmada dövlət ciddi sahibkarlıq fəaliyyəti həyata keçirirdi.

Beləliklə, Fransanın milli iqtisadiyyatında dövlət bölməsinin xüsusi çəkisinin artıq olması ən xarakterik cəhət təşkil edir.

Milliləşdirilmiş firmalar səhmdar cəmiyyətləri kimi fəaliyyət göstərirlər. Məhz onların səhmləri də bilavasitə və yaxud

milliləşdirilmiş banklar vasitəsilə dövlətin sərəncamına keçir. Hazırda avtomaşınqayırma, aviakosmik, elektron, kiyma, neftqaz sənayesi, qara metallurgiya və s. sahələrdə dövlət kompaniyaları üstünlük təşkil edir.

Sənayedə 446 dövlət kompaniyası fəaliyyət göstərir Nəqliyyat və rabitə bölməsində 194; energetikada 32; maliyyə dairəsində isə 280 kompaniya dövlətə məxsusdur (cəmi ana şirkətlərin sayı – 2078-dir).

Fransanın maliyyə kredit sistemi

Fransanın maliyyə-kredit sisteminin quruluşunda kredit müəssisələrini 6 kateqoriyaya ayırmaq olar: banklar, qarşılıqlı kooperativ kredit bankları, maliyyə cəmiyyətləri və xüsusi maliyyə institutları. Bütün bu kredit müəssisələri vahid şəkildə xüsusi peşəkar təşkilat olan **"Kredit təşkilatlarının Fransa birliyi"**ndə birləşiblər. Fransanın bu kredit sistemində bank bölməsi aparıcı rol oynayır. Kredit müəssisələrinin cəmi balansının 70 %-i bankların payına düşür.

Fransanın bank sistemində 412 komersiya bankı, 140 kooperativ və qarşılıqlı kreditləşdirmə bankı fəaliyyət göstərir Mərkəzi bank əlaqələndirmə funksiyası yerinə yetirir. Bundan əlavə burada xarici bankların filialları da vardır. Fransanın 5 bankı dünyanın 50 böyük bankına daxildir.

Fransanın iqtisadi sistemi Almaniya modelinə çox yaxındır. Burada da iqtisadiyyatın sosial təmayüllü modeli xarakterikdir. Əsas mərkəzdə **"rifah dövləti"** dayanır. **İqtisadiyyatda dövlətin rolu yüksək olduğuna görə çox vaxt bu sistemi Etatistik model adlandırırlar**[1]. Təsadüfi deyil ki, Fransanın keçmiş baş nazirlərindən biri olan Eduard Baladyur öz ölkəsinin iqtisadiyyatının planlı xarakter daşıdığını qeyd edirdi. Bu barədə göstərmək olar ki, hazırda Fransada ÜDM-in 54 %-inin yenidən

[1] Etatistik (frans.)-dövlət cəmiyyətin inkişafında dövlətə ən yüksək məqsəd və nəticə kimi baxmaq meyli.

bölküsü dövlət tərəfindən həyata keçirilir. Bütün işçilərin 24 %-i dövlət bölməsində fəaliyyət göstərir. Neft çıxarılması və emalı, avtomobilqayırma, elektronika, "Aerobus" təyyarəsi və "Arian" raketləri kimi çox böyük TMK-rı dövlətin müştərəkliyi əsasında fəaliyyət göstərirlər.

Fransada sosial bazar təsərrüfatı kapitalizmə xas bir çox cəhətləri aradan qaldırır, dövlət zəhmətkeşlərin mənafeyi müdafiəsində dayanır. Bu sistem müharibədən sonrakı dövrlərdə daha da artmışdır. Dövlət bölməsində işləyənlərin əmək haqqı xüsusi sahibkarlıqda işləyənlərinkindən artıq olmuşdur. Dövlət müəssisələrində işləyən qulluqçular yüksək əmək haqqından başqa, yüksək pensiya və müxtəlif müavinət də alırlar. İşsizlərə verilən müavinət də yüksəkdir.

Həmkarlar ittifaqının rolu genişdir, lakin müasir Fransanın iqtisadiyyatı başqa yeni şəraitdə inkişaf edir.

Dövlət maliyyəsində sosial-təminat sistemi böyük bir çəkiyə malikdir. 1968-ci ildə **general de Qoll hökuməti** istefaya getdikdən sonra fransızlar sosial sahədə müəyyən nailiyyətlər (güzəştlər) əldə etmişlər.

Beləki, məsələn dövlət müəssisələrində işləyənlər ixtisar edilmirlər. İşsizlərə verilən müavinət ölkədə orta aylıq əmək haqqı səviyyəsindən yüksəkdir. Hazırda **ÜDM-in 30 %-ə qədəri (600 mlrd. dollar) sosial** tələbata xərclənir. Fransa bu kimi sosial təminat sistemi ilə fəxr etsə də, bu sistem digər sahələrdə problemlər yaradır. Əhalidə qocalma prosesi və işsizlik artır. İşsizlik səviyyəsi ölkə üzrə iqtisadi fəal əhalinin **12-13 %-ini** təşkil edir.

Hazırda Fransada təqribən 11 mln. nəfər təqaüdçü var. Kişilər 60, qadınlar 55 yaşından təqaüdə çıxırlar. Təqaüd almaq hüququ dövlət bölməsində 1981-ci ildən, xüsusi bölmə üçün 1983-cü ildən müəyyən edilmişdir. 37 il fasiləsiz iş stajı tələb olunur. Hazırda Fransada 170 növdə baza və 400 növdə əlavə təqaüd növləri mövcuddur.

1991-ci ildə baza və əlavə təqaüdün orta həddi 6400 franka (ayda) bərabər olmuşdur (məmurların təqaüdü isə 10000 frankdan artıq idi).

1939-cu ildən ailə üzrə təqaüd də mövcuddur:

1) uşaq anadan olana qədər (3 aylığından);

2) birdəfəlik (anadan olan uşağa) yardım;

3) uşağın tərbiyəsi və 18-19 yaşadək böyüməsinədək verilən yardım.

Sosial-təminat ilk növbədə vergi ödəyənlər hesabına həyata keçrilir. Ona görə də vergilər artırılmalıdır. Qeyd etməliyik ki, burada yalnız dolayı vergilər deyil, fərdi gəlir vergiləri, müəssisələrin sosial ayırmaları da az deyildir. Məsələn: ABŞ-da cəmi sosial ayırmaları ÜDM-in 10,4 %-ni, İsveçdə-14,5 %-ni, Böyük Britaniyada 6,3 %-ni, Fransada isə 19,3 %-ni təşkil edir.

Odur ki, bütün pensiya və müavinətin ağırlığı işləyənlərin üzərinə düşmüş olur. Hətta bəzi müəssisələr üzrə yanaşdıqda bir nəfər işləyənə öz ailəsindən başqa 2 pensiyaçı düşür. Məsələn: hazırda Fransa dəmir yollarında işləyənlərin sayı 190 min nəfər təşkil etdiyi halda, həmin sahədən olan pensiyaçıların sayı 350 min nəfərdir. Deməli, hər nəfər vergi ödəyənə 2 nəfər pensiyaçı düşür. Onu da qeyd etmək lazımdır ki, belə sosial təminat ancaq dövlət bölməsindədir. Xüsusi bölmələrdə isə sosial təminat yox dərəcəsindədir.

Dövlət bölməsi ilə xüsusi bölmə arasındakı fərq ancaq əmək haqqı və təminatın səviyyəsi sahəsində deyildir. Əvvəllər ölkənin iqtisadi ideologiyasında dövlət müəssisələrində işləməyə daha çox üstünlük verilmişdir. Hazırda da dövlət müəssisələrində işləməyə üstünlük verilir.

Ali təhsil ocaqları da dövlət qulluqçuları hazırlanmasına istiqamətlənmişdi. Xüsusi sahibkarlıq isə vergiyə məruz qalır. Hətta elmi tədqiqat təcrübə konstruksiya bölməsində də ijctimai bölməni dövlət maliyyələşdirir. Risqə gedən xüsusi sahibkarlığa isə az fikir verilir. Beləliklə, demək olar ki, Fransa menecment modeli öz qeyri-effektivliyi ilə köhnəlmiş olur.

Beyin axını problemi Fransada da müşahidə olunur (bu problem hər yerdə vardır, lakin bir çox azərbaycanlı "vətənpərvərlər" dünyadan xəbərsiz olduqlarına görə bəzi mütəxəssislərin xaricə işləməyə getməsinə faciə kimi baxırlar). Belə ki,

Fransanın ali məktəblərində biznesin, xüsusi sahibkarlığın inkişafı problemləri o qədər də geniş öyrənilmir. Odur ki, institutları bitirən gənclər iqtisadiyyatın xüsusi bölməsinə uyğunlaşmağa çətinlik çəkirlər və dövlət bölməsində iş tapa bilmədikdə xaricə getməyə üstünlük verirlər. Məsələn, 1997-ci ilin məlumatına görə ali məktəbləri qurtaranların 20 %-ə qədəri (yüksək əmək haqqı və az vergi səviyyəsi olan) ABŞ və Böyük Britaniyaya getmişlər.

Fransada dövlət maliyyəsi problemi hələ ki o qədər də kəskin deyildir. Ölkənin maliyyə göstəriciləri Maastrixdə nəzərdə tutulmuş meyarlara uyğun gəlir (büdcə kəsiri ÜDM-in 3 %-i, dövlət borcu 60 %-i qədərdir). Belə ki, son vaxtlar məşğulluğun azalması, iqtisadi artım sürətinin zəifləməsi, təqaüdçülərin sayının və əhalinin sosial gəlirləri səviyyəsinin artması məsələləri belə bir qənaət yarada bilir ki, Fransanın "sosial-bazar" sistemi müəyyən problemlərlə rastlaşa bilər[1]. Almaniyada olduğu kimi Fransada da xüsusi bölmənin inkişafına o qədər də stimul yaradılmır. Milli kapital daha münasib vergi səviyyəsi və dəyişgən elastiki əmək bazarı olan ölkələrə axıdılmağa üstünlük verir.

3. Müasir şəraitdə Fransanın "Sosial-bazar iqtisadiyyatı"nın vəziyyəti

Dünya miqyasında müasir iqtisadiyyatın qlobal xarakter alması və Avropanın birləşməsi hər bir milli iqtisadiyyata təsir göstərir. İndi qlobal miqyasda inkişaf tapmaq üçün iqtisadiyyatın liberallaşdırılması, daxili tənzimlənmənin ləğv edilməsi zərurəti yaranmışdır. İqtisadiyyatda olan struktur dəyişiklikləri dünya miqyasındakı ETT-yə əsaslanmalıdır.

Almaniyada olduğu kimi Fransada da sosial təminat, dövlət müəssisələri ilə xüsusi bölmə arasında olan fərq, beyin

[1] Sosial fondları olan ayırmaları da daxil etməkdə Fransada 1 saatlıq əmək haqqı 16,91 dollar təşkil edir. Bu göstəriji İspaniyada 11,64 dollar.

axını və dövlət maliyyəsi problemləri ölkənin iqtisadi inkişafına maneçilik törədir.

Ona görə də 1990-cı illərdə Fransanın iqtisadiyyatı müəyyən islahatlarla rastlaşmalı olmuşdur. Bu islahatlardan birincisi **1995-ci ildə Jak Şiragın prezident seçilməsi** ilə eyni vaxtda baş nazir olmuş Allen Jyüpenin adı ilə bağlıdır. İqtisadi islahatdakı ikinci dalğa hazırki baş nazir Lionnell Jospen tərəfindən həyata keçirilir.

Keçmiş baş nazir A.Jyüpe ciddi sürətdə liberal iqtisadi siyəsətin tərəfdarları idi. O mühafizəkar islahat aparmaq istəyirdi. Aşağıdakı problemləri həll etməyə çalışırdı:

– Fransa iqtisadiyyatının sosial sistemindəki böhranı aradan qaldırmaq, bəzi sosial təminatları azaltmaq;

– dövlət maliyyəsinin vəziyyətini Maastrix müqaviləsindəki meyarlara uyğunlaşdırmaq; Bu məqsədlə sosial proqramlar üzrə dövlət büdcəsindən olan vəsaitin azalması həcmi büdcə kəsirinin və ölkənin dövlət borcunun ləğv edilməsini təmin etməlidir;

– iqtisadi artıma stimul yarada biləcək vergi islahatı keçirilməsi;

– əmək bazarının dəyişkənliyini – elastikliyini gücləndirməklə işsizliklə mübarizə aparmaq;

– geniş miqyasda özəlləşdirilmə aparmaq.

Göstərilən iqtisadi islahat proqramını həyata keçirməyə çalışan gənc və çox qabiliyyətli iqtisadçı Jyüpe bütünlükdə zəhmətkeşlərin sosial hüququnu qorumaq məqsədi ilə dövlət müəssisələrində işləyənlərin imtiyazlarının dəyişdirilməsini tələb edirdi. Bu məsələ bütün ölkədə ciddi etiraza səbəb olmuşdu. 1995-ci ilin noyabr-dekabr aylarında nəqliyyat və poçt işçiləri tətil edərək ölkənin bütün infrastruktura bölməsini demək olar ki, iflic vəziyyətinə salmışdılar (xüsusi bölmə isə Jyupeni müdafiə edirdi). Beləliklə islahat aparılması dayandırılmışdır. Yeni mühafizəkar Ronald Reyqan və Marqaret Tetçerdən fərqli olaraq Jyupe öz ideyalarını inandıra bilməmişdir.

Bu proqramlardan ancaq özəlləşdirilmə, vergi islahatı və immiqrasiyanın (mühacirətin) yeni qaydası həyata keçirilə bilmişdir. Şirkətlərdən alınan vergilər 33,3 %-ə endirilmişdi. Lakin bununla yanaşı büdcəyə dəyən zərəri ödəmək üçün əlavə dəyər vergisi artırılmışdı.

1997-ci ildə L.Jospen yeni baş nazir oldu. Solların çoxu və eləcə də Jospen özü belə hesab edirlər ki, uzun müddət sosial ənənə ilə yaşayan-nəfəs olan Fransa üçün Amerika və yaxud Britaniyanın mühafizəkar resepti məqbul ola bilməz. Fransanın öz inkişaf yolu var və köhnə mexanizmi qırmaq fikrində deyildir. Lakin qeyd etməliyik ki, Fransa iqtisadiyyatında hazırda islahatlar aparılır və L.Jospenin müasir dəyişikliklərini **"Sakit inqilab"** adlandırırlar.

İqtisadi həyatın aşağıdakı sahələrində həmin dəyişikliklər artıq hiss olunur:

- sahibkarlıq artır (bu sahəyə olan baxış-fəlsəfə, psixologiya dəyişibdir), iqtisaliyyatda dövlətin rolu azaldılır;

- mənafedə quruluş dəyişikliyi özünü göstərir. Səhmdarların mənafei ilk plana çəkilir. Əmək haqqı isə tədricən əmək fəaliyyətinin nəticələri ilə müəyyən edilməyə başlayır;

- əmək bazarı, əmək münaqişələri tədricən tənzimlənə bilir. Bazarın tənzimlənməsində həmkarlar ittifaqının rolu tədricən azaldılır.

Əmək haqqının dəyişilməsində müəyyən elastiklik, çeviklik özünü göstərir[1]:

- valyuta ittifaqı fransız sənayesinin strukturunun yenidən dəyişməsi və rəqabət qabiliyyətinin artması ilə milli frankın möhkəmlənməsi vahid Avropa valyutasının da möhkəmlənməsinə zəmin yaratmış olur;

[1] 1998-ji ildə Fransada futbol üzrə dünya çempionatı vaxtı böyük bir aviakompaniyanın təyyarəçilərinin əmək haqqının artırılması barədə tətili oldu. 7 il əmək haqqının səviyyəsinin dondurulması barədə razılığa gəlmişdilər və yaxud aviakompaniyanın səhimlərinin bir hissəsini pilotlara verməklə əmək haqqı 15% azaldılırdı.

- yüksək texnologiya - dövlət xüsusi sahədə elmi-tədqiqat təcrübə konstruksiya işlərinə vəsaiti artırmaqla bu sahədə olan əvvəlki mövqeyini dəyişmişdir.

Bütün bunlarla yanaşı fransız ictimaiyyəti bir çox dəyişikliklərə etiraz edirlər. 2000-ci ildən 39 saatdan 35 saatlıq iş həftəsinə keçilməsinə dair Qanun qəbul edilmişdir. Artıq işləməklə əldə edilmiş gəlir daha yüksək vergiyə cəlb edilir. Bütün bu kimi problemlər iqtisadiyyata öz əks təsirini göstərir.

Belə ki, 1998-ci ildə iqtisadi artım 3,1 % olduğu halda, 1999-cu ildə 2-2,5 %, 1990-2003-cü illərdə orta illik artım sürəti 1,8 %, 2000-ci ildə yığım norması 19 % olmuşdur. İnvestisiyaların maliyyələşdirilməsində dövlətin rolu böyükdür. Fransanın iqtisadi siyasətində onun beynəlxalq miqyasda siyasi və iqtisadi təsirinin güclənməsi əsas götürülür. Elmi-tədqiqat təcrübə konstruksiya işlərinə çəkilən xərclər ÜDM-in 2,4 %-nə bərabərdir (2002).

Bu sahədə Fransada əsaslı tədqiqat işləri aparmaq üçün dünya əhəmiyyətli elmi mərkəzlər fəaliyyət göstərir (məsələn, Paster institutu).

Fransada insan inkişafı indeksi 0,925-dir (17-ci yerdədir).

Cini əmsalı 32,7-dir.

XXII FƏSİL
İTALİYANIN İQTİSADİYYATI

1. *İtaliyanın iqtisadiyyatının ümumi xarakteristikası.*
2. *İtaliyanın iqtisadi inkişaf modeli.*
3. *İtaliya iqtisadiyyatının quruluşu.*
4. *1990-cı illərdə İtaliyanın iqtisadi siyasəti.*

1. İtaliyanın iqtisadiyyatının ümumi xarakteristikası

İtaliya Cənubi Avropada Apennin yarımadasında yerləşir. Ərazisi 301,2 min kv. km, əhalisi 58,0 mln. nəfərdir (2005). Əhalisinin 98 %-i italyandır. 2015-ci ilə əhalinin sayının 55 mln. nəfər olması gözlənilir. Böyük şəhərləri -Milan (1,6 mln. nəfər), Neapol (1,2 mln.), Turin (1,1 mln.), Genuya (0,7 mln.) və s.

Vatikan və San-Marino da İtaliya ərazisinə daxildir.

1946-cı ildən İtaliya parlament respublikasıdır. Konstitusiyası vardır, dövlət başçısı prezidentdir. Qanunverici orqan 2 palatalı parlamentə, icra hakimiyyəti nazirlər sovetinə – onun sədrinə məxsusdur.

İtaliya ərazi bölgüsünə görə 20 vilayətdən ibarətdir. Bura 94 əyalət və 8101 kommuna daxildir. Burada üç coğrafi rayon fərqləndirilir – şimal, mərkəz və cənub.

Eləcə də beş vilayət (Siciliya, Sardiniya, Valle-d'Aosta, Trentino-Alto-Adidce və Friuli-Venesiya-Cumiya) müəyyən status üstünlüyünə malik olmaları ilə fərqlənirlər.

İtaliya yüksək sənaye-aqrar ölkəsidir.

2005-ci ilin məlumatına görə ÜDM-in həcmi 1765,5 mlrd. dolar, hər nəfərə düşən ÜDM isə 30440 dollara bərabər olmuşdur. Beləliklə, İtaliya ÜDM-in həcminə görə ən qabaqcıl 6 ölkə sırasına daxildir. 2003-cü ildə ÜDM-in artım surəti 0,4 % təşkil etmişdir. Yığım norması 21,0 %-dir.

Aİ-yə daxil olan ölkələr üçün tələb olunan Maastrix müqaviləsinin əsas parametlərindən biri olan büdcə kəsiri (ÜDM-in 2,7 %-i qədər olmuşdur) və işsizlik xeyli azalmışdır. Dövlət borcu ÜDM-in 106,2 %-i qədərdir (Aİ-də 60 % nəzərdə tutulur).

İtaliyada faydalı qazıntılar çox azdır (kasıbdır). Belə ki, burada ancaq boz kömür, boz kolçedan, civə, mərmər, boksidlər, sink, kükürd, qurğuşun ehtiyatları vardır.

2005-ci ildə hasilat sənayesi ÜDM-in ancaq 0,4 %-ni təşkil edə bilmişdir. Ölkədə istehlak edilən mineral ehtiyatların 70 %-dən artığı enerji daşıyıcılarının isə 84 % idxal edilir (neft –95 %, daş kömür – 97 %, təbii qaz – 77 %). Bununla yanaşı ilkin enerji daşıyıcıları istehlakı artaraq 2003-cü ildə 187 mln. ton neft ekvivalentinə bərabər olmuşdur (48 % neft, 31 % təbii qaz, 7 % bərk yanacaq, 14 % elektrik enerjisi istehlakı artmışdır).

2003-cü ildə 260 mlrd. kv. saat elektrik enerjisi istehsal edilmişdir.

İtaliya kənd təsərrüfatının və turizmin inkişafına görə çox əlverişli iqlim şəraitinə malikdir (burada kifayət qədər mədəni irslər-arxitektura abidələri, məşhur teatrlar, dəniz və dağ xizək kurortları vardır).

İtaliyada təsərrüfatçılıq üçün əhəmiyyətli dərəcədə faydalı qazıntıların olmaması, zəif istehsalat bazası, Qərbin qabaqcıl ölkələrindən və Şimali Amerikadan geri qalması, kapital yığımının ləng aparılması bütövlükdə dünya təsərrüfatında milli iqtisadiyyatın mövqeyini müəyyən etmiş olur.

Son vaxtlaradək iqtisadiyyatın 50 %-i və bank sisteminin 70 %-i dövlətin nəzarəti altında olmuşdur.

İnkişaf etmiş sənaye ölkələri arasında ÜDM-də dövlət bölməsinin xüsusi çəkisi İtaliyada daha yüksəkdir.

Beləliklə, İtaliya iqtisadiyyatının ən əsas xüsusiyyəti ondan ibarətdir ki, XIX əsrin ortalarından başlayaraq ölkənin milli iqtisadiyyatında dövlət mülkiyyətinin və dövlətin rolunun artması müşahidə olunur. Dövlət mülkiyyətinin bu cür genişlənməsi nəticə etibarilə büdcə qıtlığına, dövlət borcunun artmasına, inflyasiya və işsizliyin çoxalmasına, şişirdilmiş dövlət bölməsində korrupsiya elementlərinin artmasına səbəb olmuşdur.

2. İtaliyanın iqtisadi inkişaf modeli

Müəyyən vaxtlar İtaliya öz iqtisadi inkişaf səviyyəsinə görə Fransa, Almaniya və Böyük Britaniyadan geri qalırdı. Lakin son 10 illiklərdə İtaliya öz inkişafında yüksək nailiyyətlər əldə etmişdir. Belə ki, inflyasiya səviyyəsi və işsizlik azalmış, yeni müəssisələr yaradılması artmış, gənclərin məşğulluğu və investisiya yüksəlmişdir. **1986-cı ildə** gənclər üçün müəssisələr yaradılması barədə qanun qəbul edilmişdir. Bu qanunun tətbiqi sonralar bütün ölkəyə yayılmışdır. Nəticə etibarilə **1998-ci ildə 12 min kiçik və orta müəssisə yaradılmışdır**. Bu müəssisələr ölkə üzrə cəmi iş yerlərinin 30 %-ə qədərini təmin edir.

İtaliyada cəmiyyətdə sosial razılıqlar da əldə edilmişdir. İş yerlərinin artırılması ilə yanaşı əmək haqqı da qismən artırılmışdır. **"Qara əmək bazarı" qismən ləğv edilir**, qeyri-leqal işlərin xüsusi çəkisi azalır (hazırda iqtisadiyyatda mövcud olan cəmi iş yerlərinin təqribən 30 %-ə qədəri qeyri-leqal əmək bazarına daxildir). Buna baxmayaraq xüsusi sahibkarlar bu sahəyə daha çox üstünlük verirlər.

İtaliyanın iqtisadi inkişaf modeli kiçik, orta və böyük sahibkarlığın qarşılıqlı əlaqəsi baxımından daha çox xarakterikdir. Bu baxımdan 1950-1970-ci illərdə böyük kompaniyaların kütləvi istehsalı iqtisadi artımın əsasını təşkil etmişdir. Demək olar ki, ölkənin şimal-qərbi bu cür böyük kompaniyaların bazasına əsaslanır. Belə müəssisələrin çoxu **Turin-Milan-Genuya "Sənaye üçbucağı"** adlanan çərçivədə fəaliyyət göstərirlər. Lakin 1970-ci illərdəki iqtisadi böhranlar nəticəsində böyük kompaniyaların İtaliyanın iqtisadiyyatındakı mövqeyi azalmışdır. 1970-1990-cı illərdə kiçik və orta müəssisələrin inkişafı artmışdır. Bununla da demək olar ki, böhran nəticəsində iqtisadiyyata dəymiş zərərin bərpa edilməsinə zəmin hazırlanmışdır.

Hazırda ölkənin mərkəzi və şərq hissəsində daha çox bu cür müəssisələr yaradılmışdır. Hətta bu kimi müəssisələrin iqtisadiyyatını bir çox hallarda **"üçüncü İtaliya" adlandırırlar**.

Parça, paltar (geyim), ayaqqabı, mebel, keramika və bu kimi bir çox məhsulların müəssisələri həmin ərazilərdə cəmləşdirilmişdir. Burada mexanika və maşınqayırma kimi yüksək effektivliyə malik olan müasir sahələr də vardır.

Beləliklə, başqa ölkələrlə müqayisədə İtaliyanın ayrı-ayrı əraziləri inkişaf baxımından biri-birindən daha çox fərqlənirlər. Məsələn: ÜDM-in 40 %-i üç vilayətdə -**Lombardin, Pemonte və Venesiyada** istehsal edilir. Təkcə Lombardin ölkənin ixracının 30 %-ni öz əlində cəmləşdirmişdir. Lombardində hər nəfərə düşən ÜDM 22000 dollar təşkil etdiyi halda, Sardiniya, Kolabrin və Siçiliyada 14 min dollardan az olmuşdur.

Şəhərləşdirilmiş rayonlarda xırda və orta müəssisələrin mərkəzləşməsi ilə yünkül sənaye, maşınqayırma və eləcə də bir çox sahələr üzrə **"xüsusi istehsal zonaları" (klasterlər) yaradılır**. Beləliklə, hazırda ölkənin mərkəzi və şimal-şərq hissəsinin iqtisadi artımını kiçik və orta sahibkarlıq təmin edir. İtaliyanın bu ərazisinin inkişafına Venesiya başçılıq edir. **Sənayeləşmiş şimal və aqrar qərb isə iqtisadi gerilikdədirlər**.

Beləliklə, İtaliya iqtisadiyyatı orta və xırda sahibkarlıqla səciyyələnir. Cəmi işçilərin 70 %-i 50 nəfərdən az işçisi olan müəssisələrdə çalışır. O cümlədən fərdi sahibkarlar, ailə üzrə, soy adı üzrə birləşib işləyənlərdən ibarətdir.

Kiçik kompaniyalar vasitəsi ilə gənclərin əməyə cəlb edilməsi ən əlverişli metodlardan biri hesab olur. Bu kimi kiçik müəssisələrin qanuniləşdirilib qeydiyyatdan keçməsi də böyük müəssisələrdən asan başa gəlir. Onu da qeyd etmək maraqlıdır ki, katolik **İtaliyada biznes yaratmağın özünəməxsus fəlsəfəsi, mədəniyyəti vardır.** Belə ki, məsələn Fransada xüsusi sahibkarlıq ictimaiyyət tərəfindən o qədər də yaxşı qarşılanmadığı halda, İtaliyada xüsusi firma yaradanlara çox hörmətlə baxırlar. Bir çox sahibkarların fəaliyyəti gələcək nəsl üçün nümunə məktəbinə çevrilir.Kiçik və orta sahibkarlığın inamlı inkişafı

nəticəsində İtaliya dövlət böhranına və iri kampaniyaların kütləvi istehsal böhranlarına dözə bilmişdir.

İtaliya iqtisadiyyatı üçün inhisarçı kapitalın hökmranlığı xarakterikdir. Xarici kapital daha çox üstünlüyə malikdir.

2003-cü ilə cəmi toplanmış xarici birbaşa investisiya 116 mlrd. avro təşkil edir. Xarici kapitalın nəzarəti altında olan müəssisələrdə işləyənlər cəmi işçilərin 20 %-nə bərabərdir.

Xüsusilə elektron, kimya, telekommunikasiya kimi elmtutumlu sənaye sahələrində xarici kapitalın mövqeyi daha güclüdür. Xarici ölkələrdə – xüsusilə Aİ ölkələrində İtaliyanın cəmi toplanmış birbaşa investisiyasının həcmi **163 mlrd. dollara** bərabərdir.

Ölkənin pul-kredit sistemi xırda bankların çox olması və burada dövlətin iştirakının artıq olması ilə xarakterizə edilir. Lakin 1990-2003-cü illərdə İtaliyada bankların sayı 1156-dan 814-dək azalmışdır. 2003-cü ilin əvvəlinə İtaliyada 78 bank qrupu mövcud olmuşdur. Həmin ilin məlumatına görə büdcə kəsiri o qədər də çox deyil – 2,4 %. Lakin dövlət borcu 106,2 %-ə bərabərdir.

Birbaşa (müstəqim) vergilərdən əsasən fiziki şəxslərdən olan gəlir vergisi (18-45 %) və hüquqi şəxslərdən olan vergi – 36 % üstünlük təşkil edir.

Dolayı vergilərdən – əlavə dəyər vergisi 20 % (ərzaq, dərman preparatları, tibbi avadanlıqlar, kitab, qəzet və s. üçün – 4 %), bəzi kənd təsərrüfatı məhsulları, ictimai sərnişin nəqliyyatı, bəzi xidmətlər üçün isə 10 % müəyyən edilibdir. Vergidən yayınma halları çoxdur. Bu cəhətdən dövlət xəzinəsinə dəyən zərər ildə təqribən ÜDM-in 12-13 %-ni təşkil edir.

2000-ci ilin axırlarına ölkənin iqtisadiyyatının canlanması, Avropada inteqrasiya prosesinin güclənməsi avronun (əvvəlcə ekyu) tədavülə buraxılması İtaliyada kiçik və orta sahibkarlığın gələcək inkişafına daha da təkan vermişdir.

Bütün bunlarla yanaşı İtaliyanın ictimai-iqtisadi həyatında problemlər də az deyildir. Hazırda ölkənin şimalı ilə mərkəzi və cənubu arasında kəskin fərq vardır. Cinayət, korrupsiya, infrastrukturanın qeyri-bərabər inkişafı mövcuddur. Aİ-də siyasi və iqtisadi ittifaq yaradılmasında İtaliyanın mövqeyi Böyük

Britaniyadan daha sabitdir. Hazırda İtaliya üçün ən çətin vəzifə ondan ibarətdir ki, dövlət borcunun azalmasına nail ola bilsin.

3. İtaliya iqtisadiyyatının quruluşu

Qeyd etdiyimiz kimi İtaliyanın iqtisadiyyatının xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, sənayecə inkişaf etmiş Şimal və Mərkəz ilə aqrar və zəif inkişaf etmiş Qərb arasında müəyyən əksiliklər vardır. Bu kimi əksiliklər zəngin mədəniyyətə, sahibkarlıq ənənəsinə malik olan Avropa İtaliyası ilə, qohumbazlıq, cinayətkarlıq kimi hallarla səciyələnən aralıq dənizi İtaliyası - (Siciliya, Neapol mafiyası kimi məşhur olan) arasında öz əksini tapmışdır. Odur ki, İtaliyanın ayrı-ayrı ərazilərində iqtisadiyyatın quruluşunda kəskin fərq vardır. Hazırda (2005) İtaliyada ÜDM-in 3,0 %-i, əmək ehtiyatlarının isə 6,0 %-i kənd təsərrüfatının, müvafiq olaraq 27,0 %-i və 29 %-i sənayenin, 70,0 %-i və 65 %-i isə xidmət sahəsinin payına düşür.

İtaliyanın kənd təsərrüfatında da kifayət qədər kiçik və orta fermer təsərrüfatlarının olmasına baxmayaraq kənd təsərrüfatı öz effektivliyi baxımından inkişaf etmiş Qərb dövlətlərindən geridir. Aİ ölkələrində hər təsərrüfat vahidinə düşən torpaq sahəsi 18,5 hektar olduğu halda, İtaliyada bu 6 hektar təşkil edir.

Bitkiçilik məhsulları istehsalında sitrus bitkiləri, üzüm, meyvə, erkən tərəvəz, göyərti-pencər üstünlük təşkil edir. Kənd təsərrüfatından olan gəlirin 60 %-i bitkiçiliyin, 40 %-i isə heyvandarlığın payına düşür. Ona görə də ölkə xaricdən çoxlu miqdarda heyvandarlıq məhsulları və yem almalı olur.

Əkin yerlərinin yarısından çoxunda dənli bitkilər əkilir - buğda (hər hektardan 29,4 sentner), qarğıdalı, düyü (ildə 1 mln. tondan artıq, Avropada 1-ci yeri tutur), kartof, şəkər çuğunduru, arpa, tərəvəz, meyvə (ildə təqribən 6 mln. ton müxtəlif növ meyvə istehsal edilir ki, bunun da 60 %-ə qədəri ölkənin şimalında ixtisaslaşdırılmış fermer təsərrüfatlarının payına düşür). İldə 10 mln. ton üzüm istehsal edilir.

İtaliyanın kənd təsərrüfatında heyvandarlıq (yemçiliyin olmaması və Aİ-nin müəyyən məhdudiyyətlər qoyması üzündən) ikinci dərəcəli rola malikdir.

Sənayenin inkişafında dövlət inhisar birlikləri fəaliyyət göstərir. Məsələn, "Sənayenin yenidən qurulması institutu". İtaliyanın ən böyük dövlət birliklərindən biri olub dünyanın 10 böyük sənaye qrupuna daxildir. 150-dən çox müxtəlif sənaye müəssisələrini özündə birləşdirir. Sənayenin yenidən qurulması institutunun müəssisələrində 327 min nəfər adam işləyir. İllik dövriyyəsi 50 mlrd. dollardır.

"Neftqaz birliyi" -160-dan çox kompaniyaya nəzarət edir. **"Neftqaz və kimya sənayesi"** fəaliyyət göstərir. Əsasən inkişaf etməkdə olan ölkələrdə neft və qaz çıxarılmasını həyata keçirir. Bu birliyin müəssisələrində 90 min nəfər adam çalışır. İllik dövriyyəsinin həcmi 30 mlrd. dollara bərabərdir.

1975-ci ilin axırlarında həmin birliyin özəlləşdirilməsi başlanmışdır. Səhmlərin ancaq 20 %-i birjalara buraxılmışdır. 1998-ci ildə bu birlik "Qazprom" (qazsənayesi) ilə strateji saziş bağlamışdır.

Ən böyük xüsusi kompaniyalardan biri də «Fiat»dır (290 min işçisi var), 100-dən çox kompaniyaya nəzarət edir. Minik maşınlarının 80 %-dən çoxunun istehsalını öz əlində cəmləmişdir. (ildə 2,3 mln. ədəd maşın buraxa bilir, xalis mənfəəti 2,37 trl. lirə təşkil edir). Avropa avtomaşın bazarının 13 %-nə nəzarət edir.

"Fininvest" -illik dövriyyənin həcminə görə 3-cü xüsusi birlikdir (7 mlrd.dollar), 26 min işçisi var. Əsas fəaliyyəti - televiziya verilişləri, mətbuat işi, reklam biznesi, kinofilmlər çəkmək və yaymaq, sığorta işi və s. ibarətdir.

Yuxarıda qeyd etdiyimiz kimi mineral ehtiyatların az olması üzündən 2003-cü ildə hasilat sənayesi ÜDM-in cəmisi 0,4 %-ni təşkil edə bilmişdir.

ÜDM-də emal sənayesinin xüsusi çəkisi isə 20 %-ə bərabər olmuşdur. Burada maşınqayırma daha çox üstünlüyə malikdir.

İtaliyada kənd təsərrüfatı texnikası, metal emalı avadanlıqları (istehsalın həcminə görə dünyada 4-cü yeri, ixraca görə 3-cü yeri tutur, 2000), ağac emalı, elektrik məişət avadanlığı,

yeyinti məhsulları avadanlıqları və s. çox yüksək rəqabət qabiliyyətinə malikdirlər.

İldə 1,4 mln. ədəd avtomobil istehsal edilir. Bunun da təqribən 450 min ədədi ixrac edilir. Eləcə də emal sənayesində ənənəvi sahələr olan parça, toxuculuq, gön-dəri, ayaqqabı istehsalı da böyük əhəmiyyətə malikdir. Emal sənayesi məhsulunun 15-16 %-i bu sahələrin payına düşür. 2005-ci ildə ÜDM-in 7,3 %-i nəqliyyat və rabitə sahəsində yaradılmışdır.

Burada nəqliyyatın bütün növlərindən geniş istifadə edilir. Yük daşımalarda avtomaşın nəqliyyatının payı 2001-ci ildə 69 %-ə, dəmir yolunun payı 11 %-ə bərabər olmuşdur.

İtaliyada 144 dəniz limanı fəaliyyət göstərir.

Xidmət dairəsində bütün digər sahələrlə yanaşı xarici turizm xüsusi rola malikdir. 2002-ci ildə İtaliyaya gələnlərin sayı 36 mln. nəfər olmuşdur. Həmin ildə turizmdən olan gəlir 27 mlrd. dollar təşkil etmişdir.

Beləliklə, İtaliyada sənayenin bir çox sahələri əhəmiyyətli dərəcədə inkişaf edə bilmişdir.

Sənayedə emal sənayesi daha böyük əhəmiyyət kəsb edir. İtaliyada sənayenin aşağıdakı ixtisaslaşmış sahələrini göstərmək olar:

– maşınqayırma məhsulları və nəqliyyat avadanlığı;

o cümlədən:

– toxuculuq-tikiş avadanlığı (İtaliya bu sahədə dünyada Almaniya və İsveçrədən sonra 3-cü yeri tutur);

– kənd təsərrüfatı maşınları- nəqliyyat-inşaat avadanlığı;

– avtomaşınlar;

– elektronika və elektrotexnika (bu sahənin məhsulunun 40 %-i ixrac edilir);

– kimya məhsulları (əczaçılıq da bura daxildir, İtaliya dərman preparatları istehsalına görə 5-ci yeri tutur);

- polad əridilmə sənayesi və s.

4. 90-cı illərdə İtaliyanın iqtisadi siyasəti

1990-cı illərədək İtaliyanın iqtisadi modelində dövlət daha böyük rola malik idi. O dövrdə İtaliyanın dövlət sistemini "sabit qeyri-sabitlik" adlandırırdılar. Daha doğrusu qeyri-sabitliyin yol yoldaşı adlandırırdılar. Çox tez-tez hökumət dəyişiklikləri baş verirdi. Buna baxmayaraq hökumətin ümumi kursu dəyişilməmişdir.

İtaliya Qərbi Avropada özünü ən tənzim olunan ölkə kimi göstərə bilirdi. 150 minədək müxtəlif qanunlar fəaliyyət göstərirdi.

Məşhur sahibkar-telemaqnat, azad bazar tərəfdarı **Silvio Berluskoni (baş nazir) 1992-ci ildə hakimiyyətə gəlmişdir**. O bir çox köklü islahatlar aparmağa və iqtisadiyyatı dirçəltməyə, dövlət bölməsini nisbətən azaltmağa, liberallaşmanı, özəlləşdirməni artırmağa səy göstərirdi. Burada:

– büdcə kəsirinin və dövlət borcunun azaldılması vasitəsilə maliyyənin sağlamlaşdırılması;

– inflyasiyanın azaldılması;

– özəlləşdirmənin sürətləndirilməsi;

– investisiyaya şərait yaradılması;

– vergi islahatı keçirilməsi - işsizliklə mübarizə aparılması (xüsusilə gənclər arasındakı işsizliklə) ön plana çəkilirdi.

Berluskoninin siyasəti "möhkəm iqtisadiyyat siyəsəti" adlanırdı. Bu məqsədlə aşağıdakı tədbirlər nəzərdə tutulurdu:

– möhkəm dövlət büdcəsi yaratmaq, özəlləşdirmə və vergi hesabına büdcə gəlirlərini artırmaq;

– əmək haqqının artırılmasını məhdudlaşdırmaq;

– əmək haqqı ilə inflyasiyanın indeksləşməsini ləğv etmək;

– əmək haqqı ilə əmək məhsuldarlığının əlaqəsini əsas götürmək;

– dövlət bölməsində əmək haqqının artması üzərində nəzarəti artırmaq;

– pensiya sistemini dəyişdirmək və pensiya yaşını artırmaq;

– səhiyyə sistemini dəyişdirmək;

– pulsuz tibbi xidmətləri azaltmaq və s.

İtaliyada iqtisadi islahat aparılması taktikası ABŞ və yaxud Böyük Britaniyyadakından fərqlənirdi. Daha köklü, ciddi tədbirlərə ehtiyatla yanaşırdılar. İslahatlar aparılması mərhələ-mərhələ, tədricən həyata keçirilmişdir. İslahatlar aparılması nəticəsində İtaliyada dövlət bölməsinin xüsusi çəkisi azalmağa başlamışdır.

Yeni iş yerləri yaranması artmışdır. Dövlət maliyyəsində tədrici sağlamlaşma özünü göstərirdi. Artıq 1996-cı ildə büdcə kəsiri ÜDM-in 6,7 %-ni təşkil edirdi. İnflyasiya hətta Böyük Britaniyadan da aşağı (2,2%) olmuşdur. Lakin dövlət borcu artıq idi (ÜDM-in 124,2 %-i qədər), işsizlik –12 %, dövlət bölməsi -53,4 % təşkil edirdi. Müəyyən sosial problemlərin həll edilə bilməməsi üzündən Berluskoni hökuməti istefa verməli olmuşdur. Romano Prudi baş nazir vəzifəsinə gəldikdən sonra o, **"İtaliya sizin üçündür"** şüarını irəli sürmüşdür. Onun siyasətində əsas cəhət AİB-də İtaliyanın mövqeyini artırmaq, avroya keçməkdə valyuta meyarlarına uyğunlaşmağa əməl etməkdən ibarət idi. İnflyasiyaya qarşı mübarizəyə, faiz dərəcələrinin azaldılmasına, bazar islahatlarının və cəmiyyətin demokratikləşdirilməsnin davam etdirilməsinə üstünlük verilirdi. Ona görə də inflyasiya üzərində, dövlət xərclərinin məhdudlaşdırılması üzərində nəzarət proqramı həyata keçirilirdi. **Bank sistemində də özəlləşdirmə aparılmağa başlanmışdır**. Təkcə bir dövlət bankının səhmlərinin 36,5 %-nin satışından dövlət büdcəsinə 1 mlrd. dollar gəlir daxil olmuşdur.

Son illərin iqtisadi siyasətində sabit iqtisadi artıma, şimal ilə cənub arasındakı kəskin fərqin azalmasına, işsizliyin azaldılmasına nail olmaq ön planda götürülür. Eləcə də ixracın genişləndirilməsi və ölkə daxilində inteqrasiyanın gücləndirilməsinə diqqət artırılmışdır.

Vergi qoyulması işində daha ciddi dəyişikliklər edilmişdir. Belə ki, kompaniyaların mənfəətindən vergi dərəcəsi 53,2 %-dən 37 %-ə endirilmiş, lakin əlavə dəyər vergisi artırılmışdır. Bütünlükdə İtaliyada vergi həddi o qədər də yüksək deyildi. ÜDM-də vergilərin xüsusi çəkisi cəmi 41% təşkil edir. Bu Avropa üçün o qədər də çox deyildir. Onu da qeyd etmək lazımdır ki, İtaliyada **ÜDM-in 15 %-ə** qədəri vergidən gizlədilir.

Hazırda İtaliya siyasətçiləri Almaniya və Fransada olduğu kimi orada da sosial bazar iqtisadiyyatı təmayülünün tərəfdarı kimi çıxış edirlər.

Sosial baxımdan son illərdə İtaliyada məşğulluq xeyli artmışdır (müvəqqəti, qismən işləmək formaları genişlinmişdir). 2003-cü ildə işsizlik 8,7 %-ə bərabərdir.

Burada **cənub rayonlarında** 18,3 %, **mərkəzi rayonlarında** 6,6 %, **şimal rayonlarında** isə 4 % səviyyəsində işsizlik mövcuddur.

Aİ-nin digər qabaqcıl ölkələrinə nisbətən burada əmlak bərabərsizliyi (təbəqələşməsi) **azdır. Cini əmsalı** 27,3-dür.

2005-ci ildə xarici **ticarətin həcmi 760,0 mlrd.** dollar, o cümlədən ixrac – 374,0, idxal isə **386,0 mlrd. dollar olmuşdur.**

İtaliya ixracının 88 %-i **sənaye məhsullarından ibarətdir.**

İxracın 70 %-ni **inkişaf etmiş ölkələrlə, 20 %-ni inkişaf** etməkdə olan ölkələrlə, 10 %-ni isə **keçid iqtisadiyyatı ölkələri** ilə həyata keçirmişdir.

Xarici ixracın 96,4 %-i emal sənayesi **məhsullarından** ibarətdir. Burada maşınqayırma məhsulları – 40,1 %, toxuculuq və tikiş sənayesi məhsulları –10,2 %, gön və ayaqqabı məmulatları 5,0 %, kimyəvi məhsullar və kimyəvi lif –10,0 %, metal və metal məmulatları –8,0 % təşkil etmişdir.

İtaliyanın Azərbaycana olan ixracı 1614,9; idxalı isə 106,7 mln. dollar təşkil edir (2004).

XXIII FƏSİL
MƏRKƏZİ AVROPA ÖLKƏLƏRİNİN İQTİSADİYYATI

Qərbi Avropanın kiçik ölkələri:

Qərbi Avropanın böyük yeddilər sırasına daxil olmayan ölkələri nisbətən kiçik ölkələr adlanırlar. Oxucuların nəzərinə çatdırırıq ki, bu ölkələr 7-lərə daxil olan ölkələrə nisbətən kiçik adlanırlar. Real gerçəklikdə ÜDM-in həcmi 1 trln. dollardan artıq olan İspaniya, 600 mlrd. dollardan artıq olan Avstriya və bu kimi ölkələrin iqtisadi inkişaf modellərinin öyrənilməsi çox faydalıdır. Coğrafi yerləşməsinə görə həmin ölkələr aşağıdakı formada qruplaşdırılır:

*– **Mərkəzi Avropa ölkələri:** Avstriya, Belçika, Niderland, İsveçrə və İrlandiya;*

*– **Şimali Avropa ölkələri:** Danimarka, İslandiya, Norveç, Finlandiya və İsveç;*

*– **Cənubi Avropa ölkələri:** Yunanıstan, İspaniya və Portuqaliya.*

Bundan əlavə, Qərbi Avropada nisbətən daha kiçik Andorra, Lixtenşteyn, Lyuksemburq, Malta, Monako və San-Marino kimi ölkələr də mövcuddur.

Bu ölkələr coğrafi vəziyyətindən başqa, isqtisadi inkişaf sürətinə görə də bir-birindən fərqlənirlər. Belə ki, Mərkəzi və Şimali Avropa ölkələri daha yüksək sosial iqtisadi göstəricilərə malikdir. Bütün bu ölkələr böyük yeddiliyə daxil olan Avropa ölkələri ilə birlikdə vahid Avropa iqtisadi məkanını təşkil edirlər.

Mərkəzi Avropa ölkələri Avstriya, Belçika, Niderland, İsveçrə və İrlandiyadan ibarətdir. Burada bir neçə makroiqtisadi göstəricilərə görə Niderland və Belçika nisbətən yüksək, İsveçrə ilə Avstriya orta, İrlandiya isə zəif (lakin Qərbi Avropada daha yüksək iqtisadi artım sürətinə malikdir) hesab edilirlər.

Avstriya

Avstriya 83,9 min kv.km əraziyə, 8,2 mln. nəfər əhaliyə malikdir (2005). Paytaxtı Vyana, böyük şəhərləri Qras, Lins, Zalsburqdur. Rəsmi dili alman dilidir (əhalisi alman dilli

avstriyalılar, slovenlər, xorvatlar, macarlar, çexlərdən ibarətdir). Parlamentli demokratik və federativ respublikadır. Ölkə başçısı federal prezidentdir.

Avstriya 8 federal torpaqdan (subyektdən) ibarətdir. Hər federal torpağın konstitusiyası və parlamenti vardır.

Avstriya birinci min illiyin axırlarından müxtəlif dövlətlərin tərkibində (Avstriya-Macarıstan imperiyasında) mövcud olmuşdur. İkinci Dünya müharibəsindən sonra neytral (bitərəf) dövlət kimi fəaliyyət göstərir.

1995-ci ildən Aİ-nin üzvüdür.

Avstriya inkişaf etmiş sənaye ölkələri sırasına daxildir.

Faydalı qazıntılardan maqnezit (maqnezium-karbonat mineralı), az miqdarda neft, təbii qaz, boz kömür, dəmir filizi, mis, qurğuşun, sink və volfram filizləri, boksidlər, qrafit, xörək duzu və s. vardır.

Qabaqcıl sənaye sahələrindən maşınqayırma, metallurgiya, kimya, sellüloz-kağız, dağmədən, toxuculuq, yeyinti sahələrinə malikdir. İqtisadiyyatın 30 %-ə qədəri dövlət bölməsinə məxsusdur.

2005-ci ildə ÜDM-in həcmi 305,3 mlrd. dollar, hər nəfərə düşən məhsul isə 37232 dollar olmuşdur.

ÜDM-in 2 %-i kənd təsərrüfatı, meşəçilik və balıqçılığın, 29 %-i sənaye sahələrinin, 69 %-i isə xidmət sahələrinin payına düşmüşdür. Avstriya o qədər də zəngin faydalı qazıntılara malik olmadığı halda güclü iqtisadiyyatı vardır.

Emal sənayesindən – metallurgiya üstünlük təşkil edir. İldə 4 mln. ton polad, 3,5 mln. ton prokat istehsal edir. Avstriya metallurgiya avadanlıqları istehsalı üzrə ixtisaslaşmışdır.

Az miqdarda yüngül minik maşınları və yük maşınları buraxır.

Avstriyadan tranzit nəqliyyat yolu keçir (şimaldan cənuba və şərqdən qərbə). Yük daşımalarına görə dəmiryolu birinci, avtomobil yolu isə ikinci yeri tutur.

Ölkədə 3,5 mln. ədəd avtomaşın var. 6 ədəd beynəlxalq təyyarə limanı fəaliyyət göstərir.

Xidmət sahəsində ən gəlirli sahələrdən biri turizmdir. Avstriya dağlıq ölkədir. Hər il ölkəyə 18-20 mln. nəfər turist gəlir. Xarici turistlərdən ildə 12 mlrd. dollar gəlir əldə edilir (2003).

Elmi-tədqiqat təcrübə layihə işlərinin inkişafına ayrılan vəsait ÜDM-in 1 %-nə bərabər olmuşdur.

Avstriya məhsuldar kənd təsərrüfatı və meşə təsərrüfatına malikdir. Bütün növ kənd təsərrüfatı məhsulları istehsal edilir. Heyvandarlıq sahəsi daha çox üstünlüyə malikdir. Kənd təsərrüfatından olan gəlirin 62 %-i heyvandarlığın payına düşür (2003).

İri buynuzlu mal-qara ekstensiv yolla artırılır. Alp dağlarının çəmənliklərində daha keyfiyyətli otlaqlar olduğuna görə Avstriyada mal-qara, ət və ət məhsulları, süd məhsulları beynəlxalq miqyasda tanınırlar.

Bitkiçilikdə taxılçılıq, şəkər çuğunduru, üzümçülük inkişaf etdirilir.

İqtisadi münasibətlər baxımından qeyd etməliyik ki, Avstriya Aİ ölkələri ilə daha yaxından əməkdaşlıq edir. Belə ki, xarici ticarətin 70 %-dən artığı həmin ölkələrlə həyata keçirilir. Avstriya dünyanın 150-dən artıq ölkəsi ilə ticarət əlaqəsi saxlayır.

Azərbaycan ilə olan ticarət dövriyyəsi 18296 min dollar, o cümlədən Avstriyanın Azərbaycana olan ixracı 17175,2 min dollar, idxalı isə 1121,1 min dollar olmuşdur (2004).

2005-ci ildə Avstriyanın cəmi ixracı 117,7 mlrd. dollar, idxalı isə 120 mlrd. dollara bərabər olmuşdur.

Cəmi ixracın 83 %-i sənaye məhsullarından ibarətdir.

Xarici ticarətdə maşınqayırma məhsulları, kağız, ayaqqabı, ərzaq və yeyinti məhsulları daha çox üstünlük təşkil edir. Avstriyaya yönəldilmiş cəmi birbaşa xarici investisiyanın həcmi 27 mlrd. dollar, Avstriyanın xarici ölkələrdə toplanmış bir-başa investisiyasının həcmi isə 21 mlrd. dollardır (2003). 1996-cı ilin məlumatına görə Avstriyanın 897 transmilli şirkəti və 2362 xarici filialı vardır.

2003-cü ildə dövlət xərcləri ÜDM-in 33 %-inə bərabər olmuşdur.

Vergi növlərindən əlavə dəyər vergisi büdcə gəlirlərinin 34 %-ni və gəlir vergisi – 27-ni təşkil edir.

Son illər vergi dərəcələrinin azaldılması siyasəti yeridilir.

Sosial siyasət sosial-bazar iqtisadiyyatı ideyasına yönəldilibdir. ÜDM-in 30 %-i sosial təlabatın ödənilməsinə sərf edilir. İşsizlik 6 %-dir (2003), insan inkişafı indeksi 0,9-dur (2003).

Avstriyanın qızıl ehtiyatı 218 mlrd. şillinqdir.

Avstriyada təhsil almaq pulsuzdur (18 institut, o cümlədən 12 universitet fəaliyyət göstərir).

Belçika[1]

Belçika Avropanın qərbində Şimal dənizinin sahilində yerləşir. 2005-ci ilə 30,5 min kv.km əraziyə malikdir. Paytaxtı Brüsseldir. Böyük şəhərləri - Antverpen, Qent, Şarlerua, Lyejdir.

Ərazisinin çox hissəsi düzənlikdir. Meşə örtüyü 18 % təşkil edir. Əhalisi 10,44 mln. nəfərdir. İllik təbii artım 0,3 %-dir. Əhalinin əksəriyyəti flamandlar və vallonlardır.

Rəsmi dili fransız, niderland və alman dilləridir (ölkənin şimalında Flandriya rayonunda 5,8 mln. nəfərədək -təqribən 58 % niderland dili, Valloniyada -3,3 mln. nəfər -32,2 % fransız dili, Valloniyanın şərqində isə təqribən 70,0 min nəfər alman dilində danışırlar). Belçikada 1 mln. xarici vətəndaş yaşayır.

Belçika federativ dövlət olub parlamentli monarxiyadır. Dövlət başçısı kraldır. Qanunvericilik krala və iki palatalı parlamentə məxsusdur.

Belçika inzibati-ərazi bölgüsünə görə 10 əyalətdən ibarətdir. Hər bir əyalət qubernator tərəfindən idarə edilir (qubernatoru kral təyin edir). Belçika 1830-cu ildən müstəqil dövlətdir.

Həyat səviyyəsinə görə Belçika qabaqcıl ölkələr sırasına daxildir. İnsan inkişafı indeksi 0,937. Cini əmsalı o qədər də yüksək deyil – 28,7.

2005-ci ildə ÜDM-in həcmi 372,0 mlrd. dollar, hər nəfərə düşən məhsul isə 30673 dollar təşkil etmişdir.

ÜDM-in 1,0 %-i kənd təsərrüfatının, 27,0 %-i sənayenin, 72 %-i isə xidmət sahələrinin payına düşür. Belçikanın sənayesi

[1] Ölkənin adı qədimdə orada yaşamış belqlər tayfasının adı ilə bağlıdır.

yüksək texniki səviyyədə olması ilə səciyyələnir. Burada yeni texnologiyanın tətbiqinə, ixracata marağın artmasına, kiçik və orta sahibkarlıra köməklik göstərilməsinə, xarici investisiyanın cəlb edilməsinə üstünlük verilir. **Metal emalı, maşınqayırma, kimya, elektrotexnika, elektron, tikinti materialları istehsalı, toxuculuq, yeyinti, ağac emalı, zərgərlik və bu kimi qabaqcıl sahələrə malikdir. İldə 14 mln. ton polad istehsal edilir.**

Niderland və İrlandiya kimi Belçika da böyük limanlara, geniş avtomaşın və dəmir yoluna, beynəlxalq əhəmiyyətli hava limanına malikdir.

Yüz illərdir ki, Belçika yol ayrıcı – yol qovşağı hesab edilir. Əlverişli coğrafi vəziyyəti, dünya siyasətində və beynəlxalq iqtisadi münasibətlərdə fəal iştirak etməsi, onu beynəlxalq təşkilatların mərkəzinə çevirmişdir. Aİ-nin institutları olan Avropa Şurası, Nazirlər Soveti, Avropa Komissiyası Brüsseldə yerləşir, bu qurumların sessiyaları da orada keçirilir. Belçika Aİ-nin paytaxtına çevrilibdir.

Belçika limanı olan Antverpen vasitəsilə Avropanın bir çox dövlətləri Asiya və Amerika ilə ticarət edir. Hazırda bu ölkənin ÜDM-inin 8-9 %-i nəqliyyatın payına düşür (bu kənd təsərrüfatından xeyli artıqdır).

Burada dəniz nəqliyyatının rolu daha çoxdur. Antverpen limanının illik yük dövriyyəsi 100 mln. tondan artıqdır. Bu, ölkənin dəniz ilə olan yük daşımalarının 70 %-ni təşkil edir.

Belçika 4,3 min km dəmir yoluna, 10,5 min km avtomobil yoluna malikdir. Burada digər xidmət sahəsi olan bank-maliyyə sistemi də böyük rola malikdir. ÜDM-in 5,1 %-i bu sahənin payına düşür.

Kapitalın hərəkəti məsələsində qeyd etməliyik ki, Belçika kapital ixracının həcminə görə dünyada 5-ci yeri tutur. Belçikanın toplanmış cəmi birbaşa xarici kapitalı (2000-ci ilə) 372 mlrd. dollara bərabərdir (Fransa, Almaniya, Böyük Britaniya, Niderland, ABŞ və s. ölkələrdə yerləşdirilib). Belçikada olan cəmi birbaşa investisiya isə 340 mlrd. dollar təşkil edir.

Belçika Aİ-də valyuta – iqtisadi ittifaqına daxildir. Ekyünun istehlak səbətinin 7,8 %-ni təşkil edir.

Belçika üçün ən mühüm problemlərdən biri xarici borcun çox olmasıdır. Xarici borcu ÜDM-dən artıqdır (139 %). Avropada ən yüksək göstəricidir.

İqtisadi hesablamalar göstərir ki, ÜDM-in illik artım sürəti əgər 5 % olsa, Belçika 2013-cü ildə ancaq tələb olunan norma həddinə çata bilər (Aİ-yə üzv olmaq üçün tələb olunan norma 60 %-dir).

Qeyd etdiyimiz kimi ÜDM-in 1,0 %-i kənd təsrrüfatının payına düşür. **Kənd təsərrüfatının əsasını orta fermer** təsərrüfatları təşkil edir. Kənd təsərrüfatının cəmi məhsulunun 63 %-i heyvandarlıq sahəsindəndir. Bir çox məhsulların istehsalı daxili tələbatdan 1,5-2,0 dəfə artıqdır.

2005-ci ildə cəmi ixrac 336,9 mlrd. dollar, idxal isə 318,8 mlrd. dollar olmuşdur. İxracın 36-37 %-i maşınqayırma məhsullarından, 14-15 %-i isə kimya sənayesi məhsullarından ibarətdir.

İstehlak etdiyi neft və neft məhsullarının, əlvan metallar filizinin 90 %-dən artığını idxal edir. Maşın və avadanlıqların idxalı da az deyildir. İdxalın 20 %-ə qədərini ərzaq məhsulları təşkil edir. Taxıl və meyvə idxalının xüsusi çəkisi daha artıqdır.

Azərbaycan ilə olan xarici ticarət dövriyyəsi 31538,0 min dollardır.

Belçikanın xarici ticarətdən olan gəliri ÜDM-in 17,5 %-inə bərabərdir.

Burada büdcə kəsirinin azaldılması, sosial xərclərə qənaət edilməsi siyasəti də həyata keçirilir.

18 yaşınadək olanlar üçün təhsil məcburi və pulsuzdur.

Niderland Krallığı (Hollandiya)

Niderland Qərbi Avropanın şimal sahilində yerləşir. 2005-ci ilə ərazisi 41,8 min kv. km, əhalisi 16,3 mln. nəfərdir. Paytaxtı Amsterdamdır. Böyük şəhərləri - Haaqa, Rotterdam, Utrext, Xarlemdir. Əhalisinin çoxu hollandlardır. Rəsmi dövlət dili ni-

derland dilidir. Konstitusiyalı monarxiyadır. Dövlət başçısı kraldır. Qanunverici orqanı 2 palatalı parlamentdir. İcraedici hakimiyyət monarxa və nazirlər kabinetinə – baş nazirə məxsusdur. İnzibati- ərazi bölgüsü - 12 əyalətdən ibarətdir.

Niderland IX əsrdən başlamış 1800-cü illərədək Fransanın, İtaliyanın, Almaniyanın, İspaniyanın tərkibində olmuşdur. XVII əsrdə ispanların ağalığından azad olaraq burjuaziya respublikası yaratmışdır. Afrikada, Cənub-şərqi Asiyada müstəmləkə torpaqları tutaraq güclü ticarət limanı yaratmışdır. 1795-ci ildə fransızlar tərəfindən işğal edilmiş, 1815-ci ildə yenidən azad olaraq Belçika ilə birləşmiş və Niderland krallığı yaranmışdır. 1830-cu ildə Belçika ondan ayrılmışdır.

Bəzən ölkədə olan cənub və şimali Hollandiya əyalətlərinin adı ilə bağlı olaraq Niderlandı Hollandiya da adlandırırlar.

Şimal dənizi sahilində yerləşmiş bu ölkə 56 metr hündürlüyündə bəndlərlə dənizdən qorunur.

Ona görə də xalq arasında belə bir söz də vardır ki, «Allah dəniz yaradıbdır, hollandlar isə sahil».

Ölkənin ümumi iqtisadi vəziyyəti çox yaxşıdır. Belə ki, sabit iqtisadi artım saxlanılır. 90-cı illərdə bütünlükdə istehsalın dövrü xarakteri o qədər də gözə çarpacaq dərəcədə olmamışdır. Tədiyyə balansı müsbət saldo təşkil etmiş, küclü milli valyuta (qulden) mövcud olmuş, işsizlik səviyyəsi aşağı olmuşdur. Niderland yüksək sənaye-aqrar ölkəsidir.

2005-ci ildə ÜDM-in həcmi 629,9 mlrd. dollar, hər nəfərə düşən məhsul isə 39369 dollar olmuşdur.

Həmin ildə ÜDM-in 3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın, 26 %-i sənaye və inşaatın, 71 %-i isə xidmət sahələrinin payına düşür.

Hasilat və emal sənayesi sahələrindən daş kömür yataqları, neft yataqları, zəngin təbii qaz ehtiyatı (əsasən Şimal dənizi sahilində), gəmiqayırma, qara və əlvan metallurgiya, maşınqayırma, metal emalı, kimya, elektrotexnika, yeyinti sənayesi, toxuculuq, təyyarəqayırma və digər sahələri vardır. Almaz yonma ənənəvi sahələrdən biridir.

Qaz çıxarılmasına görə dünyada 6-cı yeri tutur – **84 mlrd.** kub m (2000). Neftemalı sənayesinin inkişafına görə dünyada 7-ci yeri tutur, kimya sənayesinin inkişafına görə 7-ci yeri tutur.

İqtisadi siyasət baxımından bütövlükdə ölkədə və onun ayrı-ayrı sahələrində güclü inhisarçılıq mövcuddur.

Dünyada çox məşhur olan «Royal Dat Şell» TMK-sı (Britaniya kapitalı ilə birlikdə), «Yunilevr» TMK-sı (ingilis-holland qrupu), «Filips», «AKZO», «Foker» TMK-ları iqtisadiyyatda böyük rola malikdirlər.

Qərbi Avropanın 500 ən böyük TMŞ-nin (illik dövriyyəsi 1 mlrd. dollardan artıq olan) 14-ü Hollandiyaya məxsusdur.

Niderlandın «ABN AMRO», «ING Bank» və «Rabbank» kimi böyük bankları dünyanın ən böyük **30 bankı** sırasına daxildir.

Niderlandın ən böyük milli fəxr hesab etdiyi amillərdən biri sabit bank-kredit sisteminə malik olmasıdır.

Hollandiyanın hər hansı bir bankının müflisləşməsi sonuncu dəfə 200 il bundan əvvəl olmuşdur.

Ölkədə sənaye müəssisələrinin 15 %-ə qədəri dövlət mülkiyyətindədir.

Ümummilli iqtisadi proqramlaşdırma sistemi fəaliyyət göstərir.

Niderland çox qabaqcıl kənd təsərrüfatına malikdir. Kənd təsərrüfatı yüksək məhsuldarlığı ilə fərqlənir. Belə ki, orada kənd təsərrüfatında işləyən hər bir işçi ABŞ-ın kənd təsərrüfatında işləyən işçidən 1,5 dəfə artıq məhsul istehsal edir. Hər nəfərə 0,14 hektar kənd təsərrüfatına yararlı sahə düşür.

Kənd təsərrüfatı məhsulları ilə özünü təmin etmə səviyyəsi:

- mal əti üzrə – 140 %;
- donuz əti üzrə – 240 %;
- quş əti üzrə – 230 %;
- yumurta üzrə – 340 %;
- yağ üzrə – 250%;
- qənd üzrə – 160 %;
- tərəvəz üzrə – 200 % olmuşdur.

Kənd təsərrüfatından əldə edilən cəmi məhsulun 55 %-dən çoxunu heyvandarlıq təşkil edir. **Niderlandı kiçik nəhəng kənd təsərrüfatı ölkəsi adlandırırlar.**

Niderlandın iqtisadiyyatında gəlirli sahələrdən biri də gülçülükdür. Şüşəbəndlərdə – istixanalarda becərilən gülçülük sahəsinə görə Niderland dünyada 1-ci yeri tutur. Dünya üzrə satılan gülün 60 %-i, dibçəklərdə satılan güllərin isə 50 %-i bu ölkədə becərilir.

Kapitalın beynəlxalq hərəkəti problemində qeyd etməliyik ki, Niderlandın xaricdə olan birbaşa investisiyası 326 mlrd. dollara bərabərdir (2000). Bu göstəriciyə görə o, altıncı yerdədir. ABŞ-ın iqtisadiyyatına qoyulan investisiyanın həcminə görə Niderland (Böyük Britaniya və Yaponiyadan sonra) üçüncü yeri tutur.

Xarici ölkələrin Niderlandın iqtisadiyyatına qoyduğu birbaşa investisiyasının həcmi isə 248 mlrd. dollar təşkil edir (2000). Niderlandın iqtisadiyyatında xidmət dairəsində mövcud olan əsas sahələrdən biri kimi nəqliyyatın da böyük rolu vardır.

Belə ki, **Aİ çərçivəsində Niderland Avropa üçün bir qapı roluna malikdir.** Neft və neft məhsulları, qaz, metallar, kakao-paxlalılar və bir çox digər əmtəələr üçün yükboşaltma nöqtəsi kimi şöhrət tapmışdır.

Burada nəqliyyat sistemi inkişafının əsasını dəniz limanları təşkil edir. Dünyanın ən böyük limanlarından biri olan **Rotterdam** (illik yük dövriyyəsi 350 mln. ton təşkil edir) və **Amsterdam** da buradadır. **Rotterdam limanı** kompleksində 50-yədək hövzənin olması eyni vaxtda 375 gəminin dövr etməsinə imkan verir. İldə 30 min dəniz gəmisi, 250 min çay gəmisi dövr edir. **Rotterdam - Niderland arxitekturası ilə modernləşdirilmiş Manxettendir**[1].

Amsterdamda 365 kanal, 500 körpü var, gənclərin Avropa şənlik mərkəzi hesab edilir.

Haaqa – velosipedlər şəhəridir.

[1] Manxetten – Nyu-York mərkəzi.

Utrext – incəsənət şəhəridir. Burada da kanal çoxdur. Bu kimi böyük mərkəzi şəhərlərin mövcudluğu əlbəttə nəqliyyatın inkişafına da zərurət yaratmışdır.

Avropada ən sürətlə inkişaf etməkdə olan **«Skipxol»** beynəlxalq təyyarə limanı da buradadır.

Yük dövriyyəsinə görə su və avtomobil nəqliyyatı daha çox üstünlük təşkil edir. Daxili gəmiçilik yolları 5 min km-dir. Burada 6 min holland gəmisi xidmət edir.

Avtomobil yolları 114 min km-dir. Avtomobil parkında 6 mln. ədəd maşınları vardır ki, bunun da 5,4 mln. ədədi yüngül – minik maşınlarıdır.

2,8 min km uzunluğunda dəmir yolu vardır.

Xarici iqtisadi münasibətlər sistemində hərtərəfli iştirak edir.

Dünya əhalisinin təqribən 0,3 %-i yaşayan bu ölkə qabaqcıl ticarət edən millətlər baxımından dünyada 6-7-ci yerləri tutur.

2005-ci ilin məlumatına görə dünya üzrə cəmi ticarət dövriyyəsinin 3 %-dən artığı Niderlandın payına düşür. İxracın həcmi 346,0 mlrd. dollar, idxal isə 309,4 mlrd. dollar təşkil edir. Cəmi məhsulun 60 %-ə qədərini ixrac edir. İxracda hazır məmulatlar 58 %-ə, hazır kənd təsərrüfatı məhsulları isə 24 %-ə, enerji daşıyıcıları 10 %-ə bərabərdir.

İxracın 78 %-i Aİ ölkələrinə, 4,3 %-i ABŞ-a göndərilir. İdxalın isə 59,5 %-i Aİ ölkələrinin, 9,3 %-i ABŞ-ın payına düşür.

Azərbaycan ilə olan cəmi ticarət dövriyyəsi 167,0 mln. dollara bərabərdir (2004). Burada ixrac – 152,7 m ln. dollar, idxal isə 14,3 mln. dollardır.

Niderland ən çox TMK-ya malik olan ölkələrdən biridir – 1608 ana cəmiyyəti və 2259 filialı vardır (1993).

Sosial siyasət baxımından Niderlandda yüksək həyat səviyyəsi mövcuddur.

İnsan inkişafı indeksi – 0,938-dir (2003). İnflyasiya və işsizlik səviyyəsi aşağıdır.

Cini əmsalı – 32,6-dır.

Məktəblərin çoxunda təhsil pulsuzdur.

Burada sosial bazar təsərrüfatı modeli xarakterikdir. Əhalinin yüksək sosial-müdafiə sistemi yaradılmışdır.

Təqaüd və işsizlərə verilən təminatlar yüksəkdir. Pulsuz tibbi xidmətlər mövcuddur.

Niderlandda ÜDM-in 10 %-i səhiyyə sahəsinə sərf edilir (elə cəmi işçilərin də 10 %-i həmin sahədə çalışır).

Niderland dünyada yeganə ölkədir ki, zəif narkotiklərdən istifadə edilməsinə rəsmi icazə verib. Bu maddə xüsusi dükanlarda polisin nəzarəti altında satılır. İldə 400 mln. dollar gəlir verir. Bununla da gizli satışla mübarizə aparırlar.

Niderlandda əmək qabiliyyətinin itirilməsi barədə xüsusi qanun mövcuddur. Bu qanuna əsasən hər bir kəs sağlamlığı ilə bağlı tam tibbi müayinədən keçə bilər. Ömürlük şikəstlik müəyyən edildikdə son əmək haqqının 70 %-i qədər pensiya almaq hüququ vardır.

Bütün müsbət tərəfləri ilə yanaşı bu qanun müəyyən mənada başqasının hesabına yaşamaq psixologiyası yaradır. Məsələn, 1996-cı ilin məlumatına görə işləyən əhalinin hər 8 nəfərdən biri şikəstlik almışdır (bu təqribən 1 mln. nəfərdir). Bu isə hollandların müəyyən hissəsinin əsassız olaraq şikəstlik almalarına səbəb ola bilər.

Sosial təminatda olan belə sistemə kömək etmək üçün burada Avropa dövlətləri arasında ən yüksək olan fərdi gəlir vergisi tətbiq edilir (60 %). Sosial xərclərin bir çox hissəsi də dövlət büdcəsinin üzərinə düşür. Bu da Avropada iqtisadi valyuta ittifaqının bərqərar olduğu bir dövrdə dövlət maliyyəsinin balanslaşdırılmasında çətinliklər törədə bilər.

Beləliklə görünür ki, Almaniya və Fransada olduğu kimi Niderlandın sosial-bazar təsərrüfatı sistemində də müəyyən dəyişikliklər edilməsi, sosial proqramlara olan xərclərin azaldılması lazım gələcəkdir. İqtisadiyyatda quruluş dəyişiklikləri edilməsi, xarici investisiyanın artmasına stimul yaradılması baş verəcəkdir.

Bütün bunlara baxmayaraq Niderlandın iqtisadiyyatı Avropada ən effektivli iqtisadiyyatlardan biri hesab olur. İşsizliyin ləğv edilməsi sahəsində hollandların təcrübəsi çox diqqətə

layiqdir. Avropada ən aşağı işsizlik dərəcəsi (3 %) Hollandiya əmək bazarının vəziyyətinin yaxşı olmasına sübutdur.

Bu sahədə onlar ABŞ-dakı məşğulluq səviyyəsinə çatmışlar. İşçilərin, xüsusilə qadınların iş gününün müəyyən hissəsini istifadə etməklə işsizliyin səviyyəsini azalda bilirlər. Niderland 1949-cu ildən Avropa Şurasının, 1960-cı ildən İƏ və İT-nin, 1957-ci ildən AİB-in, 1952-ci ildən Avropa kömür polad birliyinin üzvüdür.

Hollandiya iqtisadiyyatında müəyyən problemlər də vardır ki, bunlardan aşağıdakıları qeyd etmək olar:

– sənayenin köhnə ixtisaslaşdırılması (sənaye istehsalında elmtutumu səviyyəsinin aşağı olması);

– iqtisadiyyatın xarici amillərdən asılılığının yüksək olması (ixrac norması 54 %-dir);

– əmək məsrəflərinin yüksək olması (əhalinin sosial müdafiəsi güclüdür). Bu isə yerli kompaniyaların daha ucuz iş qüvvəsi olan ərazilərdə iş aparmasına səbəb olur;

- sənayenin xüsusi çəkisinin azalması və xidmət dairəsinin artması. Bu da ənənəvi ixracat meyilli iqtisadiyyatda yeni problemlər yaradır.

İsveçrə (İsveçrə Konfederasiyası)

Mərkəzi Avropa dövlətlərindən biri də İsveçrədir. Ərazisi 41,3 min kv.km, əhalisi 7,5 mln. nəfərdir (2005). Əhalisinin 85 %-i şəhər və şəhər tipli qəsəbələrdə yaşayır. Əhalisinin təqribən 19 %-i (1,3 mln. nəfəri) xaricilərdən ibarətdir. Paytaxtı - Berndir. Federal şəhər hesab olur. Böyük şəhərləri - Sürix (935 min), Cenevrə (440 min), Bazel (410 min), Lozannadır (295 min nəfər). Rəsmi dövlət dili alman - 65%, fransız - 19%, italyan - 8% dillərdir.

İsveçrə Konfederasiyası federativ parlamentli respublikadır. Dövlətin kollektiv başçısı və icra hakimiyyətinin ali hakimiyyət orqanı federal şura hesab olur (bura federal məsləhətçi daxildir, bunlar konstitusiyaya görə 4 ilə seçilirlər). Bunların hər biri 7 federal departamentdən (nazirlikdən) birinə rəhbərlik

edirlər. Bu federal məsləhətçilərdən biri bir il müddətinə hökumət başçısı - prezident seçilir.

İsveçrə inzibati ərazi bölgüsünə görə 23 kantondan (3 yarım kantondan) ibarətdir. Hər bir kantonun özünün parlamenti, hökuməti (federal şura) var.

Ölkənin tarixi 1291-ci ildən başlanır. Ölkənin adı Şvis ərazisinin (kantonun) adından götürülübdür. 1499-cu ildən faktiki olaraq müstəqildir.

İsveçrə bir çox hallarda neytral qalmağa üstünlük verir. Hətta iqtisadi birlik olan Avropa ittifaqına da daxil olmağa tələsmir. 1992-ci ildə Avropa iqtisadi məkanında iştirak etmək üçün ümummilli referendum keçirmişlər və buna nail ola bilməmişlər.

İsveçrə yüksək sənaye ölkəsidir. Kənd təsərrüfatı da intensiv inkişaf etdirilir. Əhalinin həyat səviyyəsinə və hər nəfərə düşən məhsula görə ən qabaqcıl dövlətdən biri hesab olur. 2005-ci ildə ÜDM-in həcmi 367,6 mlrd. dol., hər nəfərə düşən məhsul isə 50350 dollar olmuşdur. ÜDM-in 3 %-i kənd təsərrüfatı və meşəçilik təsərrüfatında, 33,5 %-i sənaye və inşaat sahələrində, 63,5 %-i isə xidmət sahələrində yaradılmışdır. Cəmi əmək qabiliyyətli əhalinin sayı təqribən 4 mln. nəfərdir. Bunun da 60,5 %-i xidmət, ticarət, təhsil, idarəçilik və digər sahələrdə, 24,3 %-i sənayedə, 5,6 %-i isə kənd təsərrüfatında çalışır.

Ərazisinin 25 %-i meşə örtüyüdür.

Əsasən yüksək keyfiyyətli, bahalı və elmtutumlu məhsullar istehsalı üzrə ixtisaslaşmışdır. **Biokimya, dəqiq dəzgahqayırma, kompüterləşmə sahəsində qabaqcıl mövqeyə** malikdir.

Elmi-texniki siyasətinin əsas istiqamətlərindən biri yüksək texnologiyanın inkişafını və milli sənayenin xarici bazarda rəqabət qabiliyyətini artırmaqdır. **Elmi-texniki potensialın əsas beş sahəsinin gələcək inkişafına daha çox üstünlük verilməsi ön plana çəkilmişdir. Bunlardan: informasiya və kommunikasiya texnologiyası, ölçü texnikası və idarəçiliyin təşkili, yeni materiallar, həyat prosesi və sağlam insanlar, ətraf mühitin mühafizəsi.**

İsveçrə iqtisadiyyatının inkişafında federal büdcənin də böyük rolu vardır. ÜDM-in 50 %-dən çox hissəsi büdcə vasitəsilə yenidən bölüşdürülür. Təhsil, kənd təsərrüfatı, sosial təminat sistemi, ETTKİ kimi sahələrin inkişafı əsasən büdcə vəsaitləri hesabına həyata keçirilir.

ÜDM-in 2,6-2,8 %-i ETTKİ-nin inkişafına ayrılır. Elm sahəsinə ayrılan vəsaitin 68 %-i xüsusi kompaniyalar tərəfindən maliyyələşdirilir.

Kənd təsərrüfatı məhsullarına olan tələbin 60 %-i yerli məhsullar hesabına ödənilir. Kənd təsərrüfatından əldə edilən gəlirin 75 %-i heyvandarlıq sahəsinin payına düşür. Sənayenin əsas xarakterik cəhəti ondan ibarətdir ki, xarici xammal mənbələrindən daha çox asılıdır. Hazır məhsul istehsalı da ixraca istiqamətlənir. Əsas sənaye sahələri olan metal emalı, maşındəzgah və cihazqayırma sahələri məhsullarının 70-80 %-i ixrac edilir. Dəzgah ixracı dünya üzrə ixracın 10 %-ni, toxuculuq avadanlığı isə dünya üzrə ixracın 18 %-ni təşkil edir. **Nəqliyyat vasitələri, kompüter texnikası, kimya, toxuculuq (toxuculuq məhsullarının 50%-dən çoxu ixrac edilir), yeyinti sənayesi, poliqrafiya, biokimya, əczaçılıq, saat istehsalı üstünlük təşkil edir.** Saat və əczaçılıq məhsullarının 90 %-i ixrac üçün nəzərdə tutulur (Avropa ölkələri üzrə olan dərman preparatlarının 15 %-i, saat ixracının isə 50 %-i bu ölkədən həyata keçirilir).

Bütövlükdə 2005-ci ildə cəmi ixrac 126,1 mlrd. dollar, idxal isə 119,8 mlrd. dollar olmuşdur.

İsveçrə neft, neft məhsulları, xammal, ərzaq, avadanlıq idxal edir. İldə orta hesabla 620 mln. m^3 təbii qaz alır.

Hər il 60 mlrd. kvt. saat elektrik enerjisi istehsal edilir.

İsveçrə dünyanın ən mühüm maliyyə və bank mərkəzlərindən biridir. Valyuta ticarətinə görə Nyu-York və Londondan sonra dünyada 3-cü yeri tutur. İsveçrə bankları dünya üzrə əmlak satışının idarə edilməsinin 40 %-nə nəzarət edə bilirlər. Ölkənin bank bölməsi ÜDM-in 10 %-ni istehsal etməklə dövlət büdcəsinə daxil olmaların 11 %-ni təşkil edir. İsveçrənin milli valyutası (isveçrə frankı) ən sabit valyutalardan biri olmaqla beynəlxalq hesablaşmalarda ehtiyat valyutası hesab edilir.

İsveçrə bankının qızıl ehtiyatı 11,9 mlrd. frankdır. İsveçrə 10 inkişaf etmiş sənaye ölkəsi içərisində kapital ixracına görə (ABŞ, Yaponiya və Almaniyadan sonra) 4-cü yerdədir. İsveçrənin xaricdə olan birbaşa investisiyası **236 mlrd. dollar** (2002), İsveçrədə olan birbaşa xarici investisiya isə **87 mlrd. dollar** təşkil edir. Başqa ölkələrdə İsveçrə kapitalının nəzarəti altında olan müəssisələrdə 3,5 mln. nəfər işləyir. Xaricə investisiya qoyulması və ölkə daxilində xarici kapitalla bağlı bank əməliyyatları aparmaq **üçün 600 bank** fəaliyyət göstərir. Bütün bunlar xarici ticarət balansının müsbət saldo ilə başa gəlməsinə zəmin yaradır.

İsveçrədə xarici turizm də geniş yayılmışdır.

Sosial sahədə həyata keçirilən qanunlar çox ləng təkmilləşdirilir. Ölkədə həyat səviyyəsi yüksəkdir. Bununla yanaşı kişi və qadınların əmək haqqı arasında 30 % fərq mövcuddur.

Vahid təhsil sistemi yoxdur. Hər bir kantonun öz təhsil qanunu və idarəçiliyi fəaliyyət göstərir.

Buna baxmayaraq yaşlı əhalinin 99 %-i savadlıdır. Hələ XV əsrdən məcburi ibtidai təhsil həyata keçirilir.

1983-cü ildən İsveçrədə üç həftəlik məzuniyyət verilməsi tətbiq edilir.

İsveçrədə ən uzun iş günü (həftəsi) mövcuddur. İşsizlik 4,3 %-dir (2002).

İsveçrə ilə Azərbaycanın xarici ticarət dövriyyəsi 29200 min dollardır (2004).

İsveçrənin 4500 TMŞ-si (5774 filialı) fəaliyyət göstərir (1995). Xarici aktivin xüsusi çəkisi çox olan 50 ən qabaqcıl TMŞ-nin dördü İsveçrəyə məxsusdur. Bunlar: ərzaq məhsulları üzrə **«Nestle SA»**; elektrik avadanlıqları üzrə **«Asea Brown Boveri»**; farmakologiya üzrə **«Boche Holding AG»**; əczaçılıq və kimya üzrə **«Novartis»** şirkətləridir.

İrlandiya Respublikası

Sahəsi 70,4 min kv. km, əhalisi 4,0 mln. nəfərdir (2005). Paytaxtı - Dublindir. Böyük şəhərləri Kork, Limerik, Qolluey,

Uoterforddur. Rəsmi dili irland və ingilis dilidir. Parlamentli respublikadır. Dövlət başçısı prezidentdir. İrlandiya 700 il Böyük Britaniyanın müstəmləkəsi olubdur. 1921-ci ildə müəyyən hissəsi dominion statusu ala bilmişdir. 1949-cu ildə respublika elan edilmişdir. İnzibati-ərazi bölgüsünə görə İrlandiya 26 qraflıq və 5 şəhər qraflığından ibarətdir.

İrlandiya aqrar-sənaye ölkəsidir. Gözə çarpacaq dərəcədə torf (ildə 8 mln. ton) çıxarılır, dünyada birinci yerlərdən birini tutur. Qurğuşun, sink, mis, gümüş, təbii qaz ehtiyatına, az da olsa daş-kömür, dəmir filizi ehtiyatlarına malikdir. **İrlandiyanın iqtisadiyyatında 2 bölmə mövcuddur - qabaqcıl texnologiyaya əsaslanan elektronika, maşınqayırma, kimya sənaye sahələrini əhatə edən iri xarici bölmə və yeyinti, meşə, yüngül sənaye kimi ənənəvi sahələri əhatə edən milli bölmə.** 90-cı illərdə sənaye sahələrinin inkişafı əsasən həmin xarici kompaniyaların hesabına baş vermişdir.

Odur ki, hökumət xarici investisiyanın cəlb edilməsi siyasətinə çox üstünlük verir. Hazırda İrlandiya iqtisadi artımın sürətinə görə Qərbi Avropada liderlik edir (1995-ci ildə ÜDM-in artım sürəti 10 % olmuş, hazırda isə (2001-2004) 4,6 %-dir). 90-cı illərdə İrlandiyanın iqtisadiyyatı əsasən üç amil hesabına tərəqqi tapmışdır:

1. Birbaşa xarici investisiyanın olması;
2. İxtisaslaşdırılmış işçi qüvvəsinin olması;
3. Əmək haqqının müəyyən edilməsi siyasətində sosial razılaşmalar əldə edilməsi.

Həmin illərdə İrlandiyanın iqtisadiyyatına yönəldilən birbaşa xarici investisiya milli təsərrüfatın ən mütərəqqi sahələrinə - yüksək texnologiyaya, məlumat bölməsinə, yarımkeçiricilər istehsalına qoyulurdu. O dövrdə investisiyanın artım sürəti 45 % təşkil edirdi. Xaricdən cəlb edilən illik kapital 7 mlrd. dollar olmaqla ÜDM-in 12 %-nə bərabər idi. Xarici investorlar arasında ABŞ birinci yeri tutur. Belə ki, xarici kapitala məxsus olan 1000-dən çox müəssisənin 40 %-i ABŞ-ın, 20 %-i Almaniyanın payına düşür. İstehsal sahələrində işləyənlərin 50 %-ə qədəri xarici kapital ilə müştərək müəssisələrdə çalışır. Cəmi

ixrac olunan məhsulun da 70 %-i həmin müəssisələrdə yaradılır. 2003-cü ilə İrlandiyada toplanmış birbaşa xarici investisiya 193,4 mlrd. dollar təşkil edir. Məhz elə Amerikanın investisiyası bazasında İrlandiyada kompyüterlər və prosessorlar, yarımkeçiricilər, əczaçılıq sənayesi məhsulları, elektrotexnika, elektronika istehsalı və s. yaradıla bilmişdir. Beləliklə, iqtisadiyyatda yüksək texnoloji milli bölmə yaranmışdır. Hazırda İrlandiya prosessor istehsalında dünyada ən qabaqcıl texnologiyaya malik olan ölkələrdən biridir. 2005-ci ildə cəmi ÜDM 201 mlrd. dollar, hər nəfərə düşən ÜDM 50250 dollardır.

ÜDM-də sənayenin xüsusi çəkisi 37 %, kənd təsərrüfatı 3 %, xidmət sahələri isə 60 % təşkil edir. Turizm sahələrindən də yüksək gəlir əldə edilir. İrlandiya hökuməti xarici investisiyanın cəlb edilməsinə çox əlverişli şərait yaradaraq güzəştli vergi dərəcələri tətbiq etmiş, xüsusi sənaye zonaları yaradılmasına nail olmuşdur (mənfəətdən vergi cəmisi 10 % idi). Belə zonalardan biri də **Şennon beynəlxalq** təyyarə limanındadır. Burada 300-ə qədər sənaye müəssisəsi yaradılıbdır. Onlar əsasən ixrac üçün məhsul buraxırlar. Dublində olan beynəlxalq maliyyə xidməti mərkəzində isə 400-ə qədər xarici bank qeydə alınıbdır. Bunlar əsasən offşor[1] əməliyyatları aparırlar. Burada xarici kapital ilə fəaliyyət göstərən kompaniyalar həmin zonadakı emal sənayesi istehsalının 60 %-ni təmin edirlər. İrlandiyanın ixracat kvotası 70 % təşkil edir (2004). Burada – hesablama texnikası, idarə avadanlıqları – 18 %, əczaçılıq – 6,9 %, ərzaq və kənd təsərrüfatı məhsulları – 8,5 % təşkil edir.

İrlandiya iqtisadiyyatının sürətlə inkişaf etməsinə zəmin yaradan amillərdən biri də **ixtisaslı işçi qüvvəsi** olmuşdur. Əhalisinin az olmasına baxmayaraq İrlandiya öz işçilərinin ixtisas səviyyəsinə görə Avropada ikinci yeri tutur. Ən qiymətli cəhət ondan ibarətdir ki, ölkədəki məktəb və universitetlərdəki təhsil biznesin - sahibkarlığın bütün tələblərinə cavab verir. İrlandi-

[1] Offşor – ing. Ölkədən kənarda, maliyyə-kredit əməliyyatlarına güzəştli rejim.

yanın ali məktəblərində hazırlanmış mühəndislər müasir şəraitə daha tez uyğunlaşmaq qabiliyyətinə malikdirlər.

Maraqlıdır ki, İrlandiya ən çox mühacirət edən (buradan gedən) ölkədir. Xaricdə yaşayan irlandiyalılar İrlandiyada yaşayanlardan artıqdır.

Əhalinin çoxu xidmət sahəsində çalışır. Yaşlı əhalinin 99 %-i savadlıdır. Bunun da 12,3 %-i - ali, 29 %-i - orta təhsillidir. İbtidai (6 illik) təhsil dövlət hesabına həyata keçirilir. Orta təhsil isə xüsusi məktəblərdə həyata keçirilir.

Əmək haqqı siyasətindəki razılıqlar problemində onu qeyd etmək maraqlıdır ki, sosial təminatda himayədarlığa meyilli olan fransalılar və hollandiyalılardan fərqli olaraq irlandiyalılar o qədər də **"ərköyün" deyildirlər**. Odur ki, irlandiyalılar **əmək haqqının artırılması uğrunda mübarizə aparmırlar**, bu sahədə həmkarların çıxışlarına ehtiyac yoxdur. Bütün bunlar yüksək nəticələr yaradır. Dövlət maliyyəsi balanslaşdırılıbdır. 1993-2000-ci illərdə əhalinin real gəlirləri 12 % artmışdır. Bu isə daxili bazarda daşınmaz əmlak, uzun müddət üçün lazım olan istehlak şeylərinə, turizm xidmətinə olan tələbi yüksəltmişdir. Bu da öz növbəsində iqtisadi artıma zəmin yaradır.

Bütün bu kimi amillər iqtisadiyyatda struktur dəyişiklikləri edilməsinə imkan vermişdir. ÜDM-in 3 %-i hasilat sənayesində (güclü qurğuşun-sink yataqları var), 33 %-i emal sənayesində yaradılmışdır. Burada – idarə avadanlığı və kompüterlər -19 %, kimyəvi mallar, tibbi ləvazimatlar – 5 %, ərzaq və içkilər – 17 % təşkil edir. Hazırda yüksək texnologiyaya əsaslanan sahələr İrlandiya ixracının 62 %-ni təşkil edir. Həmin yüksək texnologiya sahələrində əmək məhsuldarlığı ildə 10 % artır. Ənənəvi sahələr olan kənd təsərrüfatı, dağ-mədən sənayesi öz köhnə əhəmiyyətini itirir. İrlandiyada ABŞ və Böyük Britaniya ilə bir çox ümumi cəhətlərə malik olan **sərbəst - bazar iqtisadi modeli** xarakterikdir.

Beləliklə, ölkədəki siyasi sabitlik, əlverişli investisiya şəraitinin olması, yüksək ixtisaslı işçilərin mövcudluğu, coğrafi əlverişli vəziyyət, ingilis dilli olmaq (əsas investorları olan ABŞ və Böyük Britaniya ilə dil sahəsində heç bir çətinlik olmur),

vergiqoymada güzəştli şərtlərin olması və bu kimi cəhətlər İrlandiyanın gələcək iqtisadi inkişafına zəmin yaradır.

1980-1990-cı illərdən iqtisadiyyatın açıqlığı daha da artmışdır. Həmin illərdə inflyasiya səviyyəsi 7,1 %, 1991-2000-ci illərdə 3,3 %, 2001-2004-cü illərdə isə 4,0 % olmuşdur.

2000-ci illərdən vergiqoymada dəyişikliklər edilmişdir. Gəlir vergisinin yuxarı həddi 46 %, korporasiyalardan olan vergi isə 32 % müəyyən edilmişdir.

ETTKİ-ə ayrılan vəsait 0,8-0,9 %-dən artıq deyil. Texnologiyanı əsasən xaricdən alır.

Cədvəl

Mərkəzi Avropa ölkələri üzrə bəzi göstəricilər (2005)

	Dövlətlər	Ərazisi, min kv.km	Əhalisi, mln. nəfər	ÜDM, Mlrd. dollar
1	Avstriya	84,0	8,2	305,3
2	Belçika	30,5	10,4	371,7
3	Niderland	41,8	16,4	629,9
4	İsveçrə	41,0	7,3	367,6
5	İrlandiya	70,4	4,0	200,8

XXIV FƏSİL
ŞİMALİ AVROPA ÖLKƏLƏRİNİN İQTİSADİYYATI

Şimali Avropa ölkələrinə Skandinaviya dövlətləri **adlanan İsveç, Danimarka, Norveç, İslandiya və eləcə də Finlandiya daxildir.** Həmin ölkələrin əhalisinin sayı az olsa da, əhəmiyyətli dərəcədə təbii ehtiyatlara malikdirlər. Bu ölkələrdə əsasən iqtisadiyyatın **Skandinaviya inkişaf modeli - sosial-bazar iqtisadiyyatı xarakterikdir.** İqtisadiyyatda dövlətin rolu genişdir, əhalinin sosial müdafiəsi güclüdür. Bir çox hallarda bu cür inkişaf modeli Şimali Avropa ölkələrinin çox saylı müharibələrdən və inqilablardan kənar olması ilə də xarakterizə edilir.

Belə ki, burada Avropanın digər ölkələrinə nisbətən prinsip etibarı ilə daha fərqli inkişaf yolu mövcud olmuşdur. **Daha doğrusu Skandinaviya dövlətlərinin iqtisadi inkişafı cəmiyyətdə həmrəylik, hakimiyyətlə, zadəganlıqla, burjuaziya və kəndlilərlə müəyyən qarşılıqlı güzəşt olmasını nəzərdə tutmuşdur**. «İqtisadiyyatın Skandinaviya modeli» anlayışı Skandinaviya yarımadasında yerləşən dövlətlərin siyasi, iqtisadi, sosial inkişafındakı ümumi cəhətlərin məcmusunu özündə əks etdirir. Bu ümumi cəhətlər oxşar təbii coğrafi şəraitin, ənənəvi tarixi əlaqələrin, bir çox qeyri-iqtisadi amillərin (hakimiyyətdə sosial-demokratların fəal iştirakı, həmkarlar hərəkatının yüksək səviyyədə olması, qadınların siyasi və iqtisadi fəallığı, xüsusi ekoloji mentalitetin olması, xüsusi əmək mədəniyyəti və etikanın olması və s.) təsiri altında formalaşmışdır.

Sosial-iqtisadi inkişaf demək olar ki, zorakılığa rast gəlməmiş, cəmiyyətdə balans saxlamaq mümkün olmuşdur. Şimali Avropada kapital yığımı üçün əlverişli şərait yaranmışdır (XIX əsrin ortalarından Skandinaviya dövlətləri özlərini neytral ölkə elan etmişlər).

1930-cu illərdən Skandinaviyada sosial-demokratlar hakimiyyətə gəlmişdir. Onlar milli təsərrüfatların inkişafında bazar iqtisadiyyatı istiqamətinə üstünlük verməklə əhalinin yük-

sək dərəcədə sosial müdafiəsini düzgün əlaqələndirmişlər. **Sosial-demokratların əsas məqsədi yeni tipli, yüksək ideala malik sosialist cəmiyyəti yaratmaq olmuşdur.**

Skandinaviya sosial-demokratlarının sosial istiqamətli iqtisadiyyat yaratmaq barədəki ideyaları zorakılığa, inqilaba, kəskin sosial çevrilişə deyil, uzunmüddətli tədricən islahatlar aparılmasına, ayrı-ayrı siyasi qüvvələr, qruplar və mənafelər arasındakı razılaşmalara əsaslanmışdır.

Skandinaviya sosializmi dedikdə qarışıq mülkiyyətdən ibarət bazar iqtisadiyyatı, xüsusi mülkiyyətə üstünlük verilməsi, siyasətdə parlamentçilik (plüralizm və demokratiya), yetkin sosial infrastruktura nəzərdə tutulur.

Mahiyyət etibarilə iqtisadiyyatdakı bu model kapitalizmin və sosializmin ən yaxşı inkişaf yollarını özündə əks etdirir. Deməli, Skandinaviya iqtisadiyyatının əsasını **fərdi sahibkarlığa əsaslanan xüsusi mülkiyyət təşkil edir**. Bütünlükdə onların iqtisadiyyatında təqribən 85 % xüsusi bölmənin, 15 % isə dövlət bölməsinin payına düşür. Bu modeldə dövlətin əsas vəzifəsi xüsusi kapitalın millileşdirilməsi deyildir. Dövlət birbaşa iqtisadiyyata qarışmır. Güclü və effektivli xüsusi bölmənin yaratdığı ümumi məhsulun yenidən bölgüsünü təmin edir. Burada xüsusi, dövlət, kommunal, kooperativ və bu kimi müxtəlif mülkiyyət formalarının saxlanılması əsas götürülür. Deməli, **dövlət əsasən vergi sistemi vasitəsilə gəlirin yenidən bölüşdürülməsində iştirak edir**. Xüsusi sahibkarlıq üzərində ciddi qanunvericilik nəzarəti həyata keçirir və bütün cəmiyyətin mənafeyini ifadə edir.

Skandinaviya sosial-demokratiyasının maliyyə əsasını dövlət büdcəsi təşkil edir. Dövlət xərclərinin çoxu büdcə vasitəsilə həyata keçirilir. Burada çox yüksək vergi dərəcələri mövcuddur. Belə ki, məsələn İsveç, Norveç və Danimarkada ÜDM-in 52-63 %-i, Finlandiya və İslandiyada isə 33-36 %-i vergilərdən ibarətdir.

Yaxın vaxtlaradək İsveçdə vergi dərəcəsi daha yüksək – 90 % idi. Hazırda fərdi gəlir vergisinin dərəcəsi 55 %-dir. Bu Qərbi Avropada ən yüksək hədlərdən biri hesab olur. **Skandinaviya iqtisadiyyatında dövlətin əsas iqtisadi vəzifəsi uzunmüddətə iqtisadi inkişaf strategiyası hazırlamaq (milli təsərrüfatın inkişaf üstünlüklərini hazırlamaq, investisiya siyasətində Elmi Tədqiqat Təcrübə Konstruksiya İşlərinin (ETTKİ) genişlənməsinə stimul yaratmaq, xarici iqtisadi strategiyanı həyata keçirmək və sahibkarlığın qanunvericiliklə tənzim edilməsindən ibarətdir).**

Göstərmək lazımdır ki, həmin ETTKİ-yə sərf edilən vəsait ÜDM-in İsveçdə 4 %-i, Finlandiyada 3 %-i qədər təşkil etmişdir. Bu göstəricilər Yaponiya, ABŞ və Almaniyadakından yüksəkdirlər. Skandinaviya modelinin sosial istiqamətində aşağıdakı cəhətlər nəzərdə tutulur:

- İqtisadiyyatda ÜDM-in yenidən bölgüsündə dövlətin rolu: vergiqoyma mexanizmi vasitəsilə iqtisadiyyata təsir göstərmək, sahibkarların gəlirinin bir hissəsinin muzdlu işçilərə verilməsi mexanizmi ilə "gəlirlərin bərabərləşdirilməsi" prinsipini saxlamaq, əhalinin sosial müdafiəsinə zəmin yaratmaq. Skandinaviya ölkələrində Almaniya və Fransadan fərqli olaraq. Mahiyyət etibarilə bir çox hallarda **işin məzmunu az əhəmiyyət kəsb edir**, əmək haqqının yüksək qiymətləndirilməsi əsas götürülür;

- **İsveçdə minimum təminatlı əmək haqqı 1600 dollar (vergi tutulmamış), mənzil xərci və s. isə əmək haqqının 20 %-i səviyyəsindən yüksək olmamalıdır;**

- sosial-iqtisadi proseslərdə ictimaiyyətin fəal iştirakı mövcuddur. Praktiki olaraq zəhmətkeşlərlə həmkarların və sahibkarların sosial əməkdaşlığı prinsipi xarakterikdir;

- hökumətin iqtisadi siyasətində ilk növbədə sosial problemin həlli, işsizliyin azaldılması nəzərdə tutulur;

- yüksək əmək etikası, sahibkarlıq mədəniyyəti, mənəvi-etik davranış qaydaları vardır.

Şimali Avropa ölkələrinin iqtisadiyyatının əsas fərqləndirici cəhətləri aşağıdakılardır:

1. Onlar çox yüksək dərəcədə dünya təsərrüfatı əlaqələri sistemində inteqrasiyaya malikdirlər. Bu ölkələr yüksək texnologiyanı tez mənimsəməklə, elmtutumlu sahələrin (elektronika, kommunikasiya vasitələri, tibbi cihazlar istehsalı, sənaye robotları, avtomobilqayırma, aerokosmik sənayesi, yüksək tex-

noloji gəmiqayırma, əczaçılıq, biotexnologiya və s.) inkişafını ön plana çəkmişlər. Burada yeni texnologiya ənənəvi istehsal ilə düzgün əlaqələndirilir.

İstehsal edilmiş cəmi ÜDM-in yarısından çoxu ixrac edilir. Xarici iqtisadi əlaqələrin geniş olması yeni xammala qənaət texnologiyasına, qabaqcıl idarəçilik texnologiyasına, yeni istiqamətdə ixtisaslaşmaya keçilməsinə zəmin yaradır.

2. İqtisadiyyatda dövlətin iştirakı payı artıqdır. Bu ÜDM-in yenidən bölgüsü mexanizmi vasitəsilə həyata keçirilir. Həmin ölkələrdə orta hesabla ÜDM-in 30 %-i vergiqoyma vasitəsilə və sahibkarların sosial sığortaya ayırmaları ilə yenidən bölüşdürülür. Bundan əlavə Dövlət Elmi Tədqiqat Təcrübə Konstruksiya işlərinin maliyyələşdirilməsinin demək olar ki, 80 %-ni öz üzərinə götürməklə elmi-texniki tərəqqiyə zəmin yaradır.

3. Güclü maliyyə-sənaye qrupları və inkişaf etmiş kooperativ hərəkatının olması. Şimali Avropada bir çox dünya şöhrətli TMŞ-lər mövcuddur. Kooperativ bölməyə gəldikdə isə demək olar ki, bütün kənd təsərrüfatı müəssisələrinin 90 %-i kooperativ formasında yaradılıbdır.

4. Yüksək ixtisaslı işçi qüvvəsinə malikdirlər. Həmin ölkələrdə yüksək standartlara malik olan orta və ali məktəblər, təlim və hazırlıq proqramları ilə təmin olunma işləri ixtisaslı işçi qüvvəsi yetişdirilməsinə zəmin yaradır.

5. Hökumətin iqtisadi siyasətinin sosial istiqamətdə olması. Şimali Avropa ölkələrində dövlət əhalinin tam məşğulluğunu təmin edir, əmək şəraitinin yaxşılaşdırılmasına, ətraf mühitin qorunmasına, sosial sistemin inkişafına çalışır.

6. **Dünya təsərrüfatındakı dəyişikliyə uyğun olaraq** iqtisadi quruluşun dəyişilməsində, uyğunlaşdırılmasında fəallıq göstərilir. İqtisadiyyatın Aİ ölkələri bazarına və Şimali Amerikaya yönəldilməsində çeviklik nümayiş etdirilir. Bu ölkələrdə istehsal olunan yüksək keyfiyyətli və elmtutumlu sənaye məhsulları xarici bazarda yaxşı satıla bilirlər. Sənaye müəssisələrinin əksəriyyəti optimal çərçivədə ixtisaslaşdırılmışdır. Odur ki, xarici bazara geniş deyil, konkret nomenklaturada məhsullar göndərirlər. Bu dövlətlərin bəziləri güclü enerji ehtiyatlarına malikdirlər. Məsələn, **Norveç** hər nəfərə düşən elektrik enerjisi istehsalına görə dünyada qabaqcıl yerlərdən birini tutur (təq. 22000 kvt.s., cəmi 100mlrd.kvt.s.). O, çoxlu neft-qaz enerji ehtiyatına, hidroenerji ehtiyatına malikdir. Şimali Avropa ölkələri yüksək nəqliyyat infrastrukturuna malikdirlər. Bu ölkələrin hamısı dəniz dövləti hesab edilir. **Norveç və Danimarka dünyada ən böyük ticarət limanına malik olan ölkələr sırasına daxildirlər.**

Maliyyə və turizm sahəsi də yüksək səviyyədədir. Bir çox sosial xidmətlər və xüsusilə səhiyyə, təhsil dövlət tərəfindən təmin edilir. Hər halda Şimali Avropa dövlətlərinin gələcək inkişafı ümumavropa inteqrasiya prosesləri ilə bağlı olacaqdır. Bütün bu ümumi cəhətlərlə yanaşı həmin ölkələrin iqtisadiyyatı haqqında qısa da olsa ayrılıqda şərh verməklə oxuculara daha dolğun məlumat çatdırmaq olar.

İsveç (İsveç Krallığı)

İsveç Skandinaviya yarımadasının şərq və cənub hissəsində yerləşibdir. Sahəsi 450 min kv. km, əhalisi 9,0 mln. nəfərdir (2005). Paytaxtı Stokholmdur. Ən böyük şəhərləri - Heteborğ və Malmedir. Əhalisinin 87 %-i isveçlərdir, rəsmi dili isveç dilidir (alman dili qrupuna daxildir). İsveç Konstitusiyalı monarxiyadır. Dövlət başçısı kraldır. Qanunverici orqan bir palatalı parlamentə, icra hakimiyyəti isə hökumətə – baş nazirə məxsusdur. İnzibati-ərazi bölgüsü 26 lena və 288 kommunadan ibarətdir.

İsveç krallığı XI əsrdən yaranıb – 1814-cü ildən müharibələrdə iştirak etmir. Xarici siyasətdə neftrallığa üstünlük verir.

İsveç dünyanın ən çox inkişaf etmiş 20 dövləti sırasına daxildir. 1995-ci ildən Aİ-nin, 1960-cı ildən İƏ və İT-in,BVF-in, ÜDTT-in və digər təşkilatların üzvüdür.

İsveçin iqtisadiyyatı istehsalın və kapitalın yüksək dərəcədə təmərküzləşməsi dərəcəsi ilə xarakterizə edilir. Onu qeyd etmək kifayətdir ki, sənaye fəhlə və qulluqçularının 35 %-i 20 ən böyük müəssisədə cəmləşibdir. İqtisadiyyatda xüsusi bölmənin

mövqeyi daha böyükdür (sənayenin 90 %-i xüsusi bölmədədir). **2005-ci ildə ÜDM-in həcmi 359 mlrd. dollar** olmuşdur. ÜDM-in artım sürəti 0,9 %-dir. İsveçin iqtisadiyyatının əsasını sənaye təşkil edir. ÜDM-də sənayenin xüsusi çəkisi 29,0; kənd təsərrüfatı – 2,0; xidmət sahələri isə 69,0 %-dir.

Hasilat sənayesindən – dəmir filizi dünya hasilatının 2 %-ni, mis – 1,2 %-ni, qurğuşun -3,8 %-ni, sink -3,7 %-ni təşkil edir. Sulfid filizi çıxarılır. Eləcə də uran və dəmir kolçedanı da (pirit) çıxarılır. Əsas sənaye sahələri - maşınqayırma, metallurgiya, gəmiqayırma, elektron və elektrotexnika, ağac emalı, sellüloz-kağız, inşaat materialları istehsalı, telekommunikasiya və s. hesab olur.

Maşınqayırmanın tərkibində – avtomobilqayırma, elektron sahəsi, rabitə vasitələri və elektrotexnika fərqləndirilir.

ETTKİ-nə ayrılan vəsait yüksəkdir – ÜDM-in 3,7-4.3 %-i qədərdir (2003). Tədqiqat-araşdırma işləri universitetlərdə, xüsusi firmaların müəyyən bölmələrində və eləcə də «Evrika» proqramına uyğun olaraq beynəlxalq əməkdaşlıq xətti ilə aparılır.

İsveçdə dövlət və sahibkarlar tərəfindən yaradılmış elmi park sistemi fəaliyyət göstərir.

Ölkənin ərazisinin 50 %-dən çoxu meşəlikdir.

İsveçdə yüksək məhsuldar kənd təsərrüfatı vardır. Kənd təsərrüfatı məhsullarına olan tələbin 90 %-ni öz məhsulları hesabına ödəyə bilir (2003).

Ətçilik-südçülük üzrə olan maldarlıq və donuzçuluq daha qabaqcıl sahə hesab edilir. **Bitkiçilik - əkinçilik və bağçılıqdan ibarətdir.** Buğda, çovdar, vələmir, arpa, tərəvəz, kartof becərilir.

Hər bir ölkənin iqtisadiyyatında olduğu kimi **nəqliyyat kompleksi** də böyük rol oynayır.

İsveçdə 10 min km dəmir yolu (bunun 8 min km-ri elektrikləşdirilibdir), **210,7 min km avtomobil yolu** (bunun 162,7 min km-ri bərk örtüklüdür), daxili **su yolları 2 min km, boru kəmərləri 84 km-dir.**

Dəniz nəqliyyatında 167 gəmisi, 255 hava limanı vardır.

Pul-kredit sistemi pul kütləsinin tənzimlənməsinə yönəldilibdir. Mərkəzi bank, kommersiya, əmanət, kooperativ bankları fəaliyyət göstərir.

Vergilər ÜDM-in 56,5 %-ni təşkil edir. 2003-cü ildə büdcə kəsiri 5,6 mlrd. dollardır. İsveç digər ölkələrlə hərtərəfli iqtisadi əlaqələr saxlayır. Belə ki, **İsveçin xaricdə olan cəmi toplanmış birbaşa investisiyası** 115,6 mlrd. dollar, portfel investisiyası -113,5 mlrd. dollar təşkil etmişdir.

İsveçdə olan xarici birbaşa investisiya isə 77,0 mlrd. dollar portfel kapitalı isə 225 mlrd. dollara bərabərdir.

İsveçin xarici borcu ÜDM-in 51 %-i qədərdir (2003). İsveç öz sənaye məhsulunun 45 %-ni ixrac edir. Ümumiyyətlə isə cəmi ixracın 85 %-i sənaye məhsudur. Burada yüksək texnoloji məhsullar 22 %-dir.

2005-ci ildə cəmi ixrac 130,2 mlrd. dollar, idxal isə 111,3 mlrd. dollardır.

İxracda maşınqayırma – 44,5 %, sellüloz-kağız və ağac emalı sənayesi 18 %, nəqliyyat vasitələri – 15 %, kimya məhsulları 12 % təşkil etmişdir. İdxalda isə maşınqayırma məhsullarının xüsusi çəkisi daha çoxdur – 27 %. İsveçin Azərbaycana olan ixracı 66,6 mln. dollara bərabərdir (2004).

Ölkədə xüsusi kapitalist mülkiyyəti forması əsas yeri tutur. Bütün gəmiçilik, hasilat sənayesinin əsas hissəsi, iri kommersiya bankları xüsusi mülkiyyətdədir. Bütün işçilərin 90 %-i xüsusi şirkətlərdə çalışır. Emal sənayesinin 90 %-i, topdan satış ticarətin 90 %-i xüsusi şirkətlərə məxsusdur. Bir sözlə əsas təsərrüfat sahələrinin inhisarlaşma səviyyəsi bir çox inkişaf etmiş ölkələrdən üstündür. **5183** TMŞ-si fəaliyyət göstərir (1998).

Avtomobil sənayesi üzrə «Volvo»; elektrotexnika və elektronika üzrə «Ericsson», «ABB Acca Brown», «Boveri» və «Electrolux »; metallurgiya üzrə «Sandwik»; ağac emalı üzrə «Stoura», «Svenska» və maşınqayırma üzrə «SKF» kimi böyük TMŞ-ri fəaliyyət göstərir.

İsveç əhalinin həyat səviyyəsi yüksək olan ölkələr sırasına daxildir. İsveçdə geniş sosial müdafiə sistemi mövcuddur. 16

yaşınadək olan uşaqlara müavinət verilir. Mənzil almağa kredit buraxılır. İsveç hər nəfərə düşən mənzilin sayına görə dünyada 1-ci yeri tutur (hər 1000 nəfər adama 445 mənzil düşür).

İsveçdə qadın və kişilər üçün vahid təqaüd yaşı - 65 yaşdır. Qocalığa görə təqaüdün həcmi hamı üçün eynidir (burada ilk növbədə əmək fəaliyyəti nəzərə alınmır). Bundan əlavə iş stajı və əmək haqqından asılı olaraq dövlət pensiyaya əlavə də hesablayır. 5 həftəlik məzuniyyət tətbiq olunur. Xəstəlik vaxtı əmək haqqının 65-90 %-i qədər müavinət alırlar. Orta ömür müddəti kişilərdə 75, qadınlarda isə 80 ildir. İşsizlik 5,4 %-dir. Əhalinin gəlirləri arasındakı fərq azdır. Cini əmsalı 25,0-dir.

Təhsil sistemində məcburi təhsil 9-illikdir (uşaqlar 7 yaşından oxumağa başlayırlar). Gimnaziya sistemi mövcuddur. Uşaqların 95 %-dən çoxu gimnaziyalarda öz təhsillərini davam etdirir və orada nəzəri və ya peşə-praktiki təhsil istiqaməti seçə bilirlər. Təhsil bakalavr və magistr mərhələlərindən ibarətdir.

Norveç (Norveç Krallığı)

Norveç Skandinaviya yarımadasının qərb və şimal hissəsini əhatə edir. Avropanın şimalında yerləşir. Şimal-şərqdən Finlandiya və Rusiya ilə, şərqdə İsveçlə həmsərhəddir. Ərazisinin 25 %-dən çoxu Skandinaviya dağları və meşəlikdir.

Ərazisi 324,2 min kv.km (adalarla birlikdə 387 min kv. km). Paytaxtı Oslodur. Nisbətən böyük şəhərləri - Berqen, Tronxeym, Stavanqerdir.

Əhalisi 4,6 mln. nəfərdir (2005). Əhalisinin 95 %-i norveçlərdir. Rəsmi dövlət dili - norveç dilidir. **Norveç Konstitusiyalı monarxiyadır. Dövlət başçısı kraldır**. Qanunverici orqan 2 palatalı parlamentə (stortinqə), icra hakimiyyəti – dövlət şurasına (hökumətə) məxsusdur.

İnzibati-ərazi bölgüsünə görə 19 əyalətdən (fyulks) ibarətdir. Bu əyalətlər də özündə 47 şəhər və 407 kənd bələdiyyəsini birləşdirir. **Norveç 1814-cü ildə Konstitusiya qəbul edibdir**. Lakin 1905-ci ildə tam müstəqillik alıbdır. Birinci Dünya müharibəsi vaxtı və

İkinci Dünya müharibəsinin başlanğıcından Norveç neytral olmaq siyasəti saxlamışdır. 1949-cu ildən NATO-nun üzvüdür.

Norveç inkişaf etmiş sənaye-aqrar ölkəsidir. 2005-ci ildə ÜDM-in həcmi 298 mlrd. dollar, artım sürəti 0,6 % təşkil etmişdir. Norveç hər nəfərə düşən ÜDM-in həcminə görə də ən qabaqcıl ölkələr sırasındadır. ÜDM-in 2 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın, 30,8 %-i sənayenin, 67,2 %-i isə xidmət sahələrinin payına düşür.

Norveçdə hasilat sənayesi sahələrindən neft və qaz (neft ehtiyatı 1,9 mlrd. tona, qaz ehtiyatı isə 1,7 mlrd. kub metrə qədərdir), mərmər, dəmir filizi, polimetallar, mis, titan, nikel və s. əsas yeri tutur.

2003-cü ildə 162 mln. tondan artıq neft, 54 mlrd. kub metrdən artıq qaz hasil edilmişdir.

Emal sənayesi sahələrindən – neft-kimya, elektrometallurgiya, sellüloz-kağız, gəmiqayırma, radioelektron və digər qabaqcıl sahələri vardır. İldə 10 mln. m^3-rə qədər ağac emal edilir. Sənayedə istifadə etmək üçün xüsusi ağac növləri becərilir.

Norveç hər nəfər hesabı ilə elektrik enrejisi istehsalına görə də ən qabaqcıl yerlərdən birini tutur – 22000 kv. saat. Elmtutumlu sahələrin inkişafına çox üstünlük verilir. ETTK-inin inkişafına ayrılan vəsait ÜDM-in 1,5 %-i qədərdir. Bütünlükdə elmə ayrılan vəsaitin 60 %-i dövlət hesabına həyata keçirilir.

Norveçin kənd təsərrüfatında xırda fermer təsərrüfatları (hər biri 10 hektaradək) üstünlük təşkil edir. İstehsal-satış kooperasiyaları daha geniş yayılıbdır.

Becərilmə üçün yararlı olan sahə çox azdır – cəmi sahənin 3 %-i qədərdir. Bitkiçilik sahələrindən taxılçılıq (buğda, çovdar, arpa, vələmir və digər sahələr mövcuddur) az-çox inkişaf etdirilmişdir.

Heyvandarlıq sahələri intensiv inkişaf etdirilir. Bu sahənin məhsulları əhalinin tələbatını tam ödəyə bilir. Norveçdə qoyunçuluq (2 mln. baş), şimal maralçılığı, donuzçuluq, quşçuluq, xəzlik heyvandarlıq sahələri vardır.

Balıqçılığın inkişafı üstünlük təşkil edir. Balıq tutulması və ixracına görə Norveç dünyada birinci yerlərdən birini tutur (ildə 2,2 mln. ton).

Hər bir ölkənin iqtisadiyyatını nəqliyyatsız təsəvvür etmək olmaz. Bu mənada Norveç də çox yüksək göstəricilərə malikdir. Belə ki, Norveçdə 4 min km dəmir yolu (bunun 63 %-i elektrikləşdirilibdir), 91 min km avtomobil yolu (74,4 %-i bərk örtüklüdür) vardır. Daxili su yollarının uzunluğu – 1, 5 min km-dir. Ticarət limanlarında olan gəmilərin sayı **764** ədəddir (dünyada ən yaxşı göstəricilərdən biridir). **101 təyyarə limanı** vardır ki, bunun da 65-i bərk örtüklüdür.

Norveç xarici iqtisadi əlaqələrin genişlənməsinə və xarici ticarətin artmasına çox üstünlük verir.

2005-ci ildə xarici ticarət dövriyyəsi 350,4 mlrd. dollar olmuşdur.

İxracda xam neft və qaz – 62 %, maşın və avadanlıqlar – 10 %, müxtəlif metallar – 7 %, kimyəvi məhsullar – 6 %, balıq məhsulları - 6 % təşkil edir.

İdxal sahəsində isə maşın və avadanlıqlar 38,4 %-ə, müəyyən növ xammal və yarımfabrikatlar – 24 %-ə, ayaqqabı, paltar və digər hazır məmulatlar 18 %-ə bərabər olmuşdur.

2003-cü ilə Norveçin xaricdə olan toplanmış birbaşa investisiyası 44,1 mlrd. dollar, Norveçdə olan bu cür xarici investisiya isə 38,2 mlrd. dollardır.

Ölkənin tədiyyə balansı gəlirin artıqlığı ilə səciyyələnir (25,2 mln. dollar). Demək olar ki, yeganə ölkələrdən biridir ki, xarici borcu yoxdur.

Norveçdə iş həftəsi 37,5 saat, məzuniyyət müddəti 4 həftədir. Qocalığa görə təqaüd yaşı - 67 yaşdır. Tibbi xidmət pulludur. Lakin həkim yardımı, bəzi dərman növlərinin alınması xərclərinin 80 %-ə qədəri sosial sığorta fondu hesabına ödənilir. İnflyasiya səviyyəsi – 2 %, işsizlik təqribən 5 %-dir.

Danimarka (Danimarka Krallığı)

Danimarka Yutlandiya yarımadasının böyük bir hissəsini tutur. Sahəsi - 43 min kv.km, əhalisi 5,4 mln. nəfərdir (2005). Paytaxtı - Kopenhagendir. Rəsmi dövlət dili - dat dilidir.

Danimarka - konstitusiyalı monarxiyadır. Dövlət başçısı kraldır. Qanunvericilik bir palatalı parlamentə, icraedici həkimiyyət isə baş nazirin rəhbərliyi ilə hökumətə məxsusdur.

İnzibati-ərazi bölgüsünə görə 14 vilayətdən və 273 kommunadan ibarətdir. Farer adaları və Qrenlandiya adası da Danimarkanın tabeçiliyindədir.

Uzun müddət Danimarka, Norveç və İsveç bir ittifaqda mövcud olublar. Burada Danimarka əsas rol oynayıbdır. Əvvəllər İslandiya da onun tabeçiliyində olub. 1944-cü ildən ayrılıbdır. 1949-cu ildən Konstitusiyalı monarxiyadır.

Danimarka - yüksək inkişaf etmiş sənaye-aqrar ölkəsidir. 2005-ci ildə ÜDM-in həcmi **260** mlrd. dollar, hər nəfərə düşən məhsul isə **48148** dollar olmuşdur.

Danimarka kiçik biznes və güclü inhisarçı ölkə hesab edilir. Danimarka iqtisadiyyatı yüksək inhisarlaşması ilə səciyyələnir.

Daxili bazarın dar olması bir tərəfdən iri şirkətlərin inkişafını asanlaşdırır. Digər tərəfdən isə xarici bazara çıxılması zərurəti başqa ölkələrin iri firmalarının kapitalına uyğun TMŞ-lər yaradılmasına zəmini artırır.

Belə TMŞ-rə –yeyinti sənayesində «Karlsberq» və «Danisko»; maşınqayırma üzrə «Danfoss»; bank bölməsində «Den Dansks Bank» şirkətlərini misal çəkmək olar.

Danimarka iqtisadiyyatının digər səciyyəvi cəhəti qeyd etdiyimiz kimi kiçik və orta sahibkarlığın üstün olmasıdır. Cəmi müəssisələrin 95 %-i kiçik müəssisə adlanır. Orta və kiçik şirkətlərin istehsal dövriyyəsi 30-35 % təşkil edir.

2005-ci ildə ÜDM-in 3 %-i kənd təsərrüfatının, 26 %-i sənayenin, 71 %-i isə xidmət sahələrinin payına düşmüşdür.

İqtisadiyyatda xüsusi kapitalın rolu daha böyükdür. ÜDM-in 30 %-ə qədəri dövlət bölməsinin payına düşür. Sənayedə xırda

və orta müəssisələr daha çox üstünlük təşkil edirlər. 1998-ci ilin əvvəlinə 10000-dən çox TMŞ qeydiyyatdan keçmişdir. Bu şirkətlərdə işləyən fəhlə, mühəndis və qulluqçuların sayı 500 min nəfərədəkdir (bu cəmi əmək qabiliyyətli əhalinin 20 %-nə bərabərdir).

Qabaqcıl istehsal sahələrindən - metal emalı, maşınqayırma, yeyinti sənayesi, kimya və toxuculuq sahələri cəmi sənaye məhsulunun 80 %-ni təşkil edir. Sənaye məhsulunun 40 %-dən çoxu ixrac edilir. 2003-cü ildə 21,5 mln. ton neft və 10,8 mlrd. m^3 qaz çıxarılmışdır. Enerji alınması yerli mənbələrə əsaslanır. Daha doğrusu enerji balansının 45 %-i yerli neft istehlakına, 15 %-i qaz istehlakına, 30 %-i kömür və koksa, 4 %-i su elektrik enerjisinə və 6 %-i külək ilə alınan enerjiyə əsaslanır.

Danimarkanın kənd təsərrüfatı ən məhsuldar sahələrindən biridir. Orada 70,8 min fermer təsərrüfatı mövcuddur. Bitkiçilik və heyvandarlıq məhsullarının həcmi cəmi əhalinin tələbatından üç dəfə artıqdır. Hər hektardan olan buğda məhsuldarlığı 60-70 sentnerdir. Bir inəkdən sağılan süd 6,2 min kq-dır. 1997-ci ildə cəmi taxıl istehsalı 10490 min ton olmuşdur (hər nəfərə düşən taxılın həcminə görə Kanadadan sonra 2-ci yeri tutur).

2000-ci ilin əvvəlinə mövcud olan iri buynuzlu mal-qaranın sayı - 3000 min baş, mal əti istehsalı - 1000, donuz əti - 1300, süd - 6000 min ton olmuşdur. Dünya üzrə ixrac olunan norka dərisinin 33 %-i Danimarkanın payına düşür.

Minik avtomaşını parkı 1,8 mln. ədəd (hər 1000 nəfərə 311 ədəd düşür), yük avtomaşını parkı isə 285 min ədəddir. Avtomobil yollarının uzunluğu 71,5 min km-rə bərabərdir (bütün yollar bərk örtüklüdür). Dəmir yolunun uzunluğu isə 2,9 min km-dir. Ticarət limanlarında 1783 gəmisi vardır. 23 təyyarə limanı fəaliyyət göstərir.

Xarici ticarət dövriyyəsi ÜMM-ün 70 %-nə qədərdir. Cəmi ixracın 70 %-ə qədəri sənaye məhsulunun, 25 %-ə qədəri isə kənd təsərrüfatı məhsullarının payına düşür. İdxalın isə 51,2 %-i xammal və yarımfabrikatlardan, 20 %-i isə maşın, avadanlıq və nəqliyyat vasitələrindən ibarətdir.

2003-cü ilə Danimarkanın xaricdə olan cəmi birbaşa kapitalı 45 mlrd. dollar; portfel investisiyası isə 92,1 mlrd. dollar təşkil etmişdir. Danimarkada olan xarici birbaşa kapital 47,1, portfel investisiyası isə 103,5 mlrd. dollar olmuşdur.

Danimarkada ETTKİ-nə çəkilən xərclər ÜDM-in 2 %-nə bərabərdir.

ÜDM-dən humanitar yardıma ayrılan faizə görə də Danimarka ön sıradadır (1%). Danimarka iqtisadiyyatı xarici borcu olan iqtisadiyyata aid edilir (ÜDM-in 25,4 %); dövlət borcu ÜDM-in 67 %-i qədərdir. Buna baxmayaraq Danimarka iqtisadiyyatı Aİ-də ən sağlam iqtisadiyyatlardan biri hesab olur. Cini əmsalı – 24,7, insan inkişafı indeksi – 0,921-dir.

Finlandiya (Finlandiya Respublikası)

Finlandiya Baltik dənizi sahilində yerləşir. Finlandiyanın ərazisi 338 min km^2, əhalisi 5,2 mln. nəfərdir (2005). Paytaxtı Helsingidir. Böyük şəhərləri - Espoo, Tampere, Vantaa və Turkudur. Rəsmi dili - finlandiya və isveç dilidir.

XII-XIII-cü əsrlərdən Finlandiya torpaqları isveçlər tərəfindən işğal edilmişdir – 600 il isveçin tərkibində mövcud olubdur. 1809-1917-ci illərdə Böyük Knyazlıq kimi Rusiyanın tərkibində olmuşdur. 1917-ci ildə müstəqillik qazanmış və 1919-cu ildə respublika elan edilmişdir.

Finlandiya parlamentli respublikadır. Dövlət başçısı prezidentdir. Finlandiya inkişaf etmiş sənaye ölkəsidir. Hər nəfərə düşən ÜDM-in həcminə görə (37692 dollar) qabaqcıl yerlərdən birini tutur. **ÜDM-in həcmi 196,0 mlrd. dollar təşkil edir (2005)**. Burada təbii ehtiyatlar çox azdır. Ancaq meşə ehtiyatları zəngindir (ərazinin 65 %-i meşədir).

Faydalı qazıntılardan dəmir, mis, sink filizləri, titan-maqnetitlər (maqnitli dəmir daşı), xrom, nikel, qranit, mərmər və s. vardır. Lakin xammalın daha çox hissəsi xaricdən gətirilir. Enerjidaşıyıcılarına olan tələbatın 72 %-i idxal hesabına ödənilir. Burada maye yanacaq 29 %, nüvə yanacağı – 17 %, kömür –

15 %, təbii qaz – 10 %, elektrik enerjisi - 1% təşkil edir. Daxili tələbatın qalan 28 %-i isə yerli mənbələr hesabına ödənilir (4 %-hidroenerji, 7 %-torf, 17 %-isə digər mənbələrdir).

ÜDM-in quruluşunda kənd təsərrüfatı – 3,5 %, sənaye 29,0 %, xidmət sahələri isə – 67,5 % təşkil edir (2005).

Finlandiya iqtisadiyyatında beynəlmiləlləşmə prosesinin artması ilə əlaqədar olaraq, yüksək texnologiyanın inkişafına və tətbiqinə zəmin yaranır ki, bu da sənayenin quruluşunun təkmilləşdirilməsinə imkan verir. Son vaxtlar sənayenin quruluşunda ağac emalı və sellüloz - kağız sahələrinin xüsusi çəkisinin azalması (20 %), maşınqayırma, elektrotexnika, rabitə vasitələrinin xüsusi çəkisinin (12 %) artması müşahidə olunur. Metallurgiya – 10 %, kimya sənayesi - 11%, poliqrafiya – 5 % təşkil edir.

Göstərmək lazımdır ki, tarixi baxımdan Finlandiyada həmkarlar təşkilatı (1907-ci il) fəal olmuşdur. Texniki işçilərin, ali və akademik təhsilli olanların birliyini yaratmışlar (1946-1950). Nəticədə 1993-cü ildə Finlandiyada sənayeçilərin və sahibkarların mərkəzləşmiş ittifaqı yaranmışdır. Bu ittifaq kiçik və orta biznesin mənafeyini müdafiə edir. Finlandiyada kooperativ hərəkatı geniş yayılmışdır. Kənd təsərrüfatında kredit kooperativ birlikləri, ət-süd məhsullarının emalı üzrə kooperativlər mövcuddur.

İqtisadiyyatda kənd təsərrüfatının xüsusi çəkisi ardıcıl olaraq azalır. Daha doğrusu 1960-cı ildəki 9,7 %-dən, 2005-ci ildə 3,5 %-ədək azalmışdır (orada işləyənlər isə 29,5 %-dən 5 %-ə enmişdir).

Əmək ehtiyatlarının bölgüsü də qanunauyğun olaraq dəyişir - kənd təsərrüfatı və meşə təsərrüfatı – 7 %, sənaye, inşaat – 27 %, xidmət sahələri 65 %-dir. 2005-ci ilin məlumatına görə kənd təsərrüfatı ölkənin ərzaq məhsullarına olan tələbatını 80 % ödəyə bilir. Kənd təsərrüfatından olan gəlirin 75 %-i heyvandarlığın (əsasən südçülük) payına düşür. 2003-cü ildə Finlandiyada 94 min fermer təsərrüfatı mövcud olmuşdur (bunun 56 %-nin hər birinin əkin sahəsi 20 hektardan azdır). 322 min ton ət (quş əti ilə birlikdə), 2301 min ton süd, 2468 min ton buğda və arpa, 1243 min ton vələmir, 754 min ton kartof istehsal edilmişdir.

Finlandiyanın xarici ticarət dövriyyəsi 2005-ci ildə 113,4 mlrd. dollara bərabər olmuşdur (idxal 58,2; ixrac isə 65,3 mlrd. dollardır). 1997-ci ildə ölkənin qızıl valyuta ehtiyatı 10 mlrd. dollar olmuşdur.

Finlandiyanın iqtisadi siyasətində quruluş dəyişiklikləri, milli ehtiyatlardan və bilikdən səmərəli istifadə edilməsi, qloballaşma prosesinin və istehsalın rəqabət qabiliyyətinin artırılması əsas götürülür.

Pul-kredit sistemində pul kütləsinin tənzimlənməsi, inflyasiyanın aşağı salınması (2003 - 1,7 %), vergi-büdcə sistemində vergilərin azaldılması dövlət xərclərinin və dövlət borcunun (ÜDM-də) xüsusi çəkisinin azaldılması problemləri ön plana çəkilmişdir.

2003-cü ildə büdcədə tam balanslaşma müşahidə olunur (gəlirlər – 36,1 mlrd. doll., xərclər – 36,1 mlrd. doll.). Həmin ildə dövlət borcu 1997-ci ildəki 67 %-ə qarşı 44,5 % olmuşdur.

2002-ci ilin məlumatına görə Finlandiyada olan birbaşa xarici investisiya 23,0, portfel investisiyası isə 254 mlrd. dollar təşkil edir. Finlandiyanın xarici birbaşa investisiyası isə 52,5, portfel investisiyası – 50 mlrd. dollardır.

Finlandiya Skandinaviyanın digər ölkələri ilə müqayisədə **dövlət mülkiyyətinin çox olması ilə fərqlənir**. Cəmi kapital qoyuluşunun 20 %-i, işçilərin 12 %-i, ixracın 20 %-i dövlət mülkiyyətindəki müəssisələrin payına düşür. Hazırda torpaq fondunun 30 %-i, meşənin 20 %-i dövlətə məxsusdur. ÜDM-in 20-21 %-i dövlət müəssisələrində yaradılır.

Finlandiyada 1963 TMŞ vardır. Bəzi dövlət şirkətləri ölkənin iqtisadiyyatında «lokomotiv» (hərəkətverici qüvvə) rolu oynayırlar.

Qərbi Avropanın digər ölkələrində olduğu kimi Finlandiyada da iqtisadi proqramlaşdırma və proqnozlaşdırma sistemi genişdir.

Finlandiya iqtisadiyyatı rəqabətqabiliyyətli iqtisadiyyat hesab edilir. 2004-cü ilin məlumatına görə Qərbi Avropa dövlətlərinin rəqabətqabiliyyətli reytinqində 1-ci yerə çıxmışdır. Burada əsasən ETTKİ-nə və təhsilə sərf edilən investisiyanın

həcmi, elmtutumlu məhsul istehsalın genişlənməsi, iqtisadiyyatın ümumi vəziyyəti və digər amillər nəzərdə tutulmuşdur.

Ümumdünya iqtisadi forumunun 2003-2004-cü illərdə «Qlobal rəqabətqabiliyyətlilik hesabatı»nda Finlandiya iqtisadiyyatı dünya üzrə ən rəqabətqabiliyyətli hesab edilmişdir.

Finlandiya iqtisadiyyatındakı bu kimi nailiyyətlər aşağıdakı üç klassik amil ilə şərtlənir:

1. Yüksək təhsilin olması;

2. Elmin inkişafına ayrılan vəsaitin həcminin müəyyən edilməsində rəqabət prinsipinin əsas götürülməsi;

3. İnnovasiya infrastrukturunun inkişafı.

Finlandiyada innovasiya sistemi – elm bölməsində müəyyən universitetləri və onların tədqiqat institutlarını; Akademiya sistemini; idarəçilik və maliyyə işində – sənaye və ticarət nazirliyinin nəzdində «TEKES» milli texnoloji agentliyini; biznes sahəsində «SITRAP» dövlət fondunun texnoloji yeniliyə köməkliyi və s. özündə birləşdirir.

Finlandiya innovasiya sahəsinin inkişafında da xarici şirkətlərlə çox geniş əməkdaşlıq edir.

Finlandiya iqtisadiyyatının inkişafında əsas amillərdən biri də yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır.

Finlandiya beynəlxalq bazara hazır hesablamalar və «nou-hau» ilə yanaşı, müxtəlif texnologiyaları və müəyyən hesablamaların ayrı-ayrı elementlərinin (komponentlərinin) öyrənilməsi üçün mütəxəssislər də göndərir. Ölkədə intellektual və təhsil ehtiyatlarından səmərəli istifadə edilməsinə çox fikir verilir. Finlandiyada ÜDM-in 30 %-ə qədəri sosial ehtiyaclara yönəldilir.

2003-cü ilə işsizlik – 9,1 %; Cini əmsalı – 25,6 olmuşdur.

İslandiya (İslandiya Respublikası)

İslandiya Atlantik okeanının şimal hissəsində yerləşir. Sahəsi 103 min km^2, əhalisi 300 min nəfərdir (2005). Paytaxtı Reykyavikdir. Digər böyük şəhərləri Koxpavoqur, Akureyridir. İslandiya konstitusiyalı parlament respublikasıdır. Dövlət başçısı prezidentdir.

IX əsrdə Norveçdən buraya köçürülənlər olubdur. XII-XIV əsrlərdə Norveçin tərkibində, sonra isə Norveçlə birlikdə 1380-ci ildən (5 əsr) Danimarkanın hökmranlığı altında olub. İslandiyalılar 930-cu ildə özlərinin parlamentini yaratmışlar, bu günə qədər də həmin parlamentçilik davam edir. Bu baxımdan dünyada ən qocaman parlament hesab olur. Ölkənin adı **«buzlar ölkəsi»** deməkdir. **Ərazisinin çoxu buzluq və eləcə də vulkan püskürməsi yaylasıdır. 200-ə qədər vulkan vardır.** Bunlardan 30-u daha aktivdir. 1963-cü ildə yeni vulkan püskürməsi nəticəsində yeni – **Surtsey adası yaranmışdır.**

Bunlarla yanaşı çoxlu isti su püskürmələri də vardır. Deməli, buzluq, vulkanlar və isti su püskürmələri baxımından çox qaribə – nadir bir mənzərəyə malikdir.

1918-ci ildən müstəqillik əldə edib, 1944-cü ildən müstəqil respublika elan edilibdir. 1946-cı ildən BMT-nin, 1949-cu ildən NATO-nun, 1950-ci ildən Avropa Şurasının, 1961-ci ildən İƏ və İT-in üzvüdür.

İslandiyanın ÜDM-i 16,0 mlrd. dollar, hər nəfərə düşən məhsulun həcmi isə 53300 dollar təşkil edir (2005). Ölkənin iqtisadiyyatında balıqçılığın, balıq emalının rolu daha artıqdır. İşçi qüvvəsinin 12 %-i, ÜMM-in isə 20 %-i həmin sahənin payına düşür. Xarici valyutanın 80 %-i bu sahə hesabına əldə edilir. İldə orta hesabla 1,5 mln. ton balıq tuturlar. Balıqçılıq limanlarında **1000** ədəddən artıq gəmi mövcuddur.

İslandiya faydalı qazıntılar və xammal ehtiyatlarına görə çox kasıbdır. Bir neçə nisbətən böyük sənaye müəssisələri vardır. İldə 90 min ton alüminium, 70 min ton ferrasilisiy, 30 min ton diatomit, 130 min ton sement istehsal edilir. İslandiya güclü enerji ehtiyatlarına malikdir (50 mlrd. kvt. saat qiymətləndirilir). İldə 4,5 mlrd. kvt. saat elektrik enerjisi istehsal edilir. Hər nəfər hesabı ilə istehlak edilən elektroenerjinin miqdarına görə dünyada birinci yerlərdən birini tutur (ildə 20 min.kvt. saat).

Son vaxtlar beynəlxalq turizm və əlvan metal (xüsusilə alüminium) istehsalı daha perspektivli sahə kimi özünü göstərir. Kənd təsərrüfatı iqtisadiyyatı çox zəifdir. Cəmi ərazisinin 24

%-i kənd təsərrüfatına yararlıdır. Bunun da 1 %-i becərilir. Kənd təsərrüfatının əsas sahəsi heyvandarlıqdan (qoyunçuluq və südçülük) ibarətdir. Cəmi əmək qabiliyyətli işçilərin 5%-i bu sahədə çalışır. Bitkiçilikdə kartof və yemçilik üstünlük təşkil edir. Şüşəbəndlərdə örtülü şəraitdə təsərrüfatçılıq genişdir. ÜDM-in 50 %-ə qədəri ixrac edilir. Cəmi ixracın 75 %-i balıq və balıq məhsullarından ibarətdir. İdxalın əsasını istehlak şeyləri və istehsal təyinatlı məhsullar təşkil edir.

Uzun müddətdir ki, İslandiyanın xarici borcu ÜDM-də 47 %-dən artıq olaraq qalır. Son vaxtlar ÜMM-in artım sürəti yüksəlmişdir (4,5%). Odur ki, 1997-1998-ci illərdə xarici borcların ödənilməsinə başlamağa imkan yaranmışdır. İnflyasiya və işsizlik azalmışdır. 2004-cü ildə işsizlik 2,9 %, inflyasiya 3,7 % olmuşdur.

Belə bir təcrid vəziyyətdə olmasına baxmayaraq İslandiyada həyat səviyyəsi yüksəkdir. **Çox əməksevərliyi, sakitliyi, təmkinliyi ilə səciyyələnirlər**.

Kommunal xidmətlərə çox az xərc çəkirlər. Yeraltı isti sular hesabına evlərinin 85 %-i istiliklə təmin edilir. Yenə həmin sular hesabına şüşəbəndlərin qızdırılması ilə bütün il boyu təzə tərəvəz və gülçülük inkişaf etdirilir.

Təhsil sistemində 5 universitet və kolleclər fəaliyyət göstərir. 7-15 yaşlı uşaqlar üçün təhsil məcburi və pulsuzdur. İnternat tipli məktəb sistemi geniş yayılıbdır.

Tədqiqat işləri üzrə Elmi Şura fəaliyyət göstərir.

Cədvəl

Şimali Avropa ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min kv. km	Əhalisi, mln. nəfər	ÜDM, mlrd. dollar
1	İsveç	450,0	9,0	358,8
2	Danimarka	43,0	5,4	259,6
3	Norveç	324,0	4,6	295,7
4	İslandiya	103,0	0,300	15,8
5	Finlandiya	338,0	5,2	196,1

XXV FƏSİL
CƏNUBİ AVROPA ÖLKƏLƏRİNİN İQTİSADİYYATI

Cənubi Avropa ölkələri sırasına **İspaniya, Portuqaliya və Yunanıstan** aid edilir. Qərbi Avropanın inkişaf etmiş ölkələri ilə müqayisədə bu ölkələr nisbətən az inkişaf etmiş hesab edilirlər. Bu ölkələrin nisbətən geridə qalmalarının səbəbi əsasən onların tarixi inkişaf xüsusiyyətləri ilə səciyyələnir. Belə ki, onlar uzun müddət Avropanın digər ölkələrindəki kapitalizmin mütərəqqi inkişaf yolunu seçməmişdilər. Məsələn, **Yunanıstan** uzun müddət başqa ölkələrin təsiri altında olmuş və 1830-cu ildə müstəqillik əldə etmişdir.

İspaniya və Portuqaliya böyük dəniz ölkəsi olmuşlar, çoxlu müstəmləkə ölkələri ələ keçirmişlər. Avropanın digər ölkələrindən fərqli olaraq bu ölkələrdə ekstensiv inkişafa daha çox üstünlük verilmişdir. Məhz elə bu ölkələrdə ilk əvvəllər pula sitayiş, praktiki olaraq sərvətin mənbəənin puldan, ticarətdən ibarət olması fərziyyələri özünü göstərirdi. Rəqabət qabiliyyətli əmtəə istehsalına fikir vermirdilər. **Fransa və Böyük Britaniya sənaye istehsalının** inkişafına can atdıqları halda, **İspaniya və Portuqaliya** öz müstəmləkələrindən talançılıqla qızıl və xammal əldə etməklə kifayətlənirdilər.

Bu ölkələrdə həmçinin dini xüsusiyyətlər, hakimiyyətdə şaquli tabeçilik sisteminin hakim olması da müəyyən rol oynamışdır. Belə ki, burada cəmiyyətin inkişafında kilsələrə (dini inamlara), ordu və dövlətə daha böyük qüvvə kimi baxılmışdır. **İspaniyada və Portuqaliyada katolizm, Yunanıstanda pravoslaviya** insanlarda bərabərçilik psixologiyası yaratmışdır. Bu cəhət bir çox adamlarda sahibkarlıq qabiliyyətinin yaranmasına maneə olmuşdur.

Sözün əsl mənasında **fərd-cəmiyyət - dövlətdən ibarət vahid sistem yaranmışdır.** Belə bir xüsusi mentalitet və təfəkkür mütərəqqi iqtisadi inkişafa mənfi təsir etmişdir. Bu kimi sosial-dini cəhətlər Cənubi Avropa ölkələrində insanların (qeyri-ira-

di) gücünə arxalanan diktatorların yaranmasına səbəb olmuşdur. İspaniyada 1939-cu ildən 1975-ci ilədək Franko Baamonde (Fransisko) (1892-1975) dövlət başçısı olmuş və faşist rejimi ilə ölkəni idarə etmişdir.

Cənubi Avropa ölkələrində faydalı qazıntıların azlığı (olmaması) və əlverişli iqlim şəraitinin olmaması üzündən həmin ölkələr çox əvvəllərdən belə kənd təsərrüfatı istehsalı üzrə ixtisaslaşmışlar.

Sənayenin inkişafı isə Qərbi Avropanın digər ölkələrindən geri qalır. Bu prosesə hakimiyyətdə diktatorların olması və dünya əlaqələrindən təcrid edilməsi də təsir göstərmişdir. Kənd təsərrüfatına yararlı torpaqların olması (təqribən bütün torpaq sahəsinin 33 %-i) kənd təsərrüfatının meşə və balıq təsərrüfatının inkişafına zəmin yaradır. Əlverişli şərait və çox saylı mədəni varisliyin olması həmin regiona - Aralıq dənizi kurortlarına və öz qonaqpərvərliyi ilə şöhrət tapmış şəhərlərə turistlərin gəlməsinə də maraq genişdir.

İspaniya, Portuqaliya və Yunanıstan öz iqtisadi inkişaf səviyyələrinə görə qabaqcıl dövlətlərdən əhəmiyyətli dərəcədə geri qaldıqlarını dərk edərək İkinci Dünya müharibəsindən sonra Avropa iqtisadi inteqrasiyasında çox fəal iştirak etməyə qoşulmuşlar. Ona görə də hazırda həmin regionda əldə edilən bir çox nailiyyətlər məhz AİB-Aİ-nin üzvlüyü ilə və digər Avropa ölkələrindən alınan maliyyə yardımı ilə bağlıdır.

Cənubi Avropa ölkələri Aİ-yə daxil olmaqla aşağıdakı strateji məqsədləri nəzərdə tutmuşdur:

1. Milli iqtisadiyyatda quruluş dəyişikliyinin aparılması, sənayenin modernləşdirilməsi, iqtisadiyyatda yeni yüksək effektivli bölmənin yaradılması zəruriliyi.

2. Kənd təsərrüfatı istehsalına köməklik göstərilməsi üçün Aİ-nin büdcəsindən yardım alınması.

3. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına zəmin yaradılması.

Cənubi Avropa ölkələri Aİ-yə daxil olmaqla özlərinin elmi-texniki bazarlarını inkişaf etdirmək imkanı əldə etmişlər. Həmin ölkələr Avropa elmi-texniki tərəqqisində, "Evrika", "Esprit" və bu kimi bir çox elmi proqramlarda iştirak etməklə qabaqcıl texnologiya və elmi nailiyyətlərə çıxış əldə edə bilmişlər. Bu isə onlarda yerli məhsulların rəqabət qabiliyyətini artırmağa imkan vermişdir. Bütün bunlarla yanaşı Aİ-yə daxil olan bu ölkələr üçün müəyyən çətinliklər - mənfi hallar da yaranmışdır.

İspaniyanın iqtisadiyyatı

Cənubi Avropa ölkələri içərisində İspaniya nisbətən daha güclü iqtisadi potensiala malikdir. İspaniyanın sahəsi 505,9 min km^2, əhalisi 40,3 mln. nəfərdir (2005). Paytaxtı Madriddir. Digər böyük şəhərləri - Barselona, Valensiya, Sevilya, Saraqosa, Bilbao və Malaqadır. Rəsmi dövlət dili - ispan dilidir.

İspaniya inzibati-ərazi bölgüsünə görə 17 muxtar birlik və 2 muxtar şəhərdən (Seuta və Melilya) ibarətdir (bunlar da 52 əyaləti təmsil edirlər). Hər birliyin özünün parlamenti, hökuməti, mədəniyyət, səhiyyə, təhsil sahəsində səlahiyyətləri vardır. İqtisadiyyat sahəsində də hüquqları genişlənməkdədir.

İspaniya vahid millətli dövlət adlanır. Lakin çoxlu etnik qruplar mövcuddur.

Xarici ölkələrdə 2,5 mln. nəfər ispan yaşayır. Burada isə 850 min xarici mühacir vardır.

İspaniya parlamentli monarxiyadır. Dövlət başçısı kraldır, qanunvericilik və hökumətin fəaliyyətinə nəzarət iki palatalı parlamentə (kartes) məxsusdur.

İspaniya 1479-cu ildə Kastiliya, Araqon və s. krallıqlarının birləşməsi ilə yaranmışdır. İspaniya XVI-XVIII əsrlərdə Amerika, Afrika, Asiya və Avropada çox geniş ərazi tutmuşdur. 1812-ci ildə İspaniyada və Avropada birinci burjua-demokratik konstitusiyası qəbul edilmişdir. XIX əsrin əvvəllərindən İspaniyada 5 dəfə burjuaziya-demokratik inqilabı başlamış və demək olar ki, heç biri tam başa çatmamışdır.

Eləcə də 1923-1930-cu illərdə hərbi monarxiya diktaturası olmuş, 1931-ci ildə monarxiya devrilmişdir. 1936-1939-cu il-

də faşizm əleyhinə milli-inqilabi xarakter almış vətəndaş müharibəsi olmuşdur. 1939-cu ildə general F.Frankonun hərbi diktaturası yaranmışdır.

1947-ci ildə İspaniyada krallıq elan edilmişdir. 1975-ci ildə Frankonun ölümündən sonra Konstitusiya monarxiyası demək olar ki, bərpa edilmişdir. 1979-cu ildə (apreldə) konstitusiyalı dövlət olması sənədləşdirilmişdir.

İspaniya inkişaf etmiş sənaye ölkəsidir. Belə ki, o sənaye məhsulunun həcminə görə Qərbi Avropada 5-ci, dünya üzrə isə 8-ci yeri tutur. Sənayenin əsas sahələrindən avtomaşınqayırma və gəmiqayırma, aviasiya, elektrotexnika, kimya və toxuculuq sahələri daha mütərəqqi inkişaf etmişdir. Son vaxtlar elektron sənayesinin inkişafına daha çox üstünlük verilir. 1960-cı ildən İƏ və İT-in, 1977-ci ildən Avropa Şurasının, 1986-cı ildən Aİ-nin üzvüdür.

2005-ci ilin məlumatına görə ÜDM-in həcmi 1126,6 mlrd. dollar olmuşdur (dünyada 8-ci yeri tutur). Hər nəfərə düşən ÜDM (28000 dollar) 3,7 % artmışdır.

ÜDM-in 3,4 %-i kənd təsərrüfatı, meşəçilik və balıqçılığın, 30,1 %-i sənaye və inşaatın, 66,5 %-i isə xidmət sahələrinin payına düşür.

Hazırda iqtisadiyyatda dövlət bölməsinin xüsusi çəkisi 30 %-dir. Son vaxtlar iri dövlət müəssisələrinin özəlləşdirilməsi proqramı həyata keçirilir və iqtisadiyyatın modernləşdirilməsi, ərazi üzrə disproporsiyaların aradan qaldırılması xətti yeridilir.

İspaniyada zəngin faydalı qazıntı yataqları mövcuddur. Belə ki, tərkibində zəngin metal olan xammala görə dünyada 9-cu, Aİ-ölkələrində isə 1-ci yeri tutur. 100-dən artıq faydalı qazıntılardan ancaq 16-da kəşfiyyat işləri aparılır. Bunlar: dəmir filizi, mis, qalay, civə, gümüş, volfram, qızıl, kvars, uran, kömür və sairədən ibarətdir.

Emal sənaye sahələrindən – avtomobil, gəmi, dəzgahlar, telekommunikasiya avadanlıqları, neft-kimya məhsulları, yüngül və yeyinti sənaye məhsulları istehsalına görə İspaniya birinci 10 ölkə sırasındadır. Sənayenin aparıcı sahələri olan telekommunikasiya və informasiya texnologiyası (ÜDM-in 8 %), avtomobilqayırma (ildə təqribən 3 mln. maşın) ÜDM-in 6 %-nə bərabər məhsul verir.

İspaniyanın iqtisadiyyat nazirliyinin hesablamalarına görə orada istehsal olunan məhsulların xarici bazardakı rəqabət qabiliyyəti 4,0 %-ə dək artmışdır.

Enerji daşıyıcıları ehtiyatlarına görə İspaniya dünyada 40-cı yeri tutur. Odur ki, ölkənin iqtisadiyyatının enerji daşıyıcılarına olan tələbatının ödənilməsi 95 % (2003) idxaldan asılıdır. 2003-cü ildə 222,5 mlrd. kvt. saat elektrik enerjisi, 516 mln. m^3 qaz istehsal edilmişdir. Yerli neft istehsalı (ildə 30 mln. ton) daxili tələbatın ancaq 10 %-ni ödəyə bilir. Beləliklə, İspaniyada energetikanın inkişafı enerji daşıyıcılarından asılıdır. Ona görə də, onlar alternativ enerji mənbələri axtarmalı olurlar. Odur ki, günəş və geotermal stansiyalarının genişlənməsinə çalışırlar.

İspaniya yüksək məhsuldar kənd təsərrüfatına malikdir. Belə ki, o, İtaliya və Fransadan sonra dünyada ən çox şərab istehsal edir. Əkin sahəsinin 20 %-ə qədəri sitrus bitkiləri və buğda əkinindən ibarətdir. Düyünün məhsuldarlığına görə dünyada 1-ci yeri tutur (60-70 sentner) Zeytun yağı istehsalına görə də dünyada 1-ci yeri tutur. Balıq tutulması və emalına görə dünyanın qabaqcıl on ölkəsi sırasına daxildir. Kənd təsərrüfatından olan gəlirin 40 %-i heyvandarlığın və quşçuluğun payına düşür. İldə 1 mln. ton quş əti istehsal edilir. Balıqçılıq və üzümçülük 35 %, taxılçılıq isə 25 % təşkil edir.

Hər bir ölkədə olduğu kimi İspaniyada da iqtisadiyyatın inkişafını nəqliyyatsız təsəvvür etmək olmaz. Belə ki, burada avtomaşın yollarının uzunluğu 664 min km, dəmir yolları isə 14378 km-dir. Dəniz nəqliyyatında 502 gəmi işləyir. Gəmi vasitəsilə ispan bayrağı altında hər il 30-50 mln. ton xarici ticarət yükü daşınır. Cəmi idxalın **80 %-i**, ixracın isə **70 %-i** dəniz nəqliyyatı ilə daşınır. **İspaniyada 152 (şəxsi limanlarla birlikdə) hava limanı vardır**. Bu limanların 34-ü müntəzəm olaraq işləyir. İldə 80,0 mln. nəfər sərnişin daşınır.

Kapitalın hərəkəti baxımından da İspaniya fəal, mütərəqqi rola malik olması ilə fərqlənir. Belə ki, son illərin məlumatına görə İspaniya dünya miqyasında ən qabaqcıl xalis (netto) investisiya cəlb edən ölkələrdən biri hesab edilir.

Təkcə 2003-cü ildə İspaniyaya daxil olan birbaşa xarici investisiyanın həcmi 21 mlrd. dollar, cəmi toplanmış birbaşa xarici investisiya isə 162 mlrd. dollara bərabərdir.

İspaniyanın birbaşa xarici investisiyasının həcmi isə 160 mlrd. dollar təşkil edir. İspaniyanın iqtisadiyyatına daxil olan investisiyanın çoxu Aİ ölkələrindən (70 %-ə qədəri) və ABŞ-dan (17 %-i) olduğu halda, onun xaricə yönəltdiyi vəsaitin çoxu (60 %-ə qədəri) Latın Amerikası ölkələrinin, 35 %-i Aİ ölkələrinin payına düşür.

İspaniyanın pul-kredit siyasətində maliyyə sabitliyi mövcuddur.

İnflyasiya səviyyəsi 1991-ci ildəki 11 %-dən 2003-cü ildə 3,0 %-ə enmişdir.

1991-2003-cü illərdə büdcə kəsiri 7,1 %-dən 1,6 %-ədək azaldılmışdır.

2003-cü ildə büdcə gəlirləri 10,5 mlrd. dollar təşkil etmişdir. Regional və yerli səviyyələrdə vergi sistemində güclü islahatlar aparılması siyasəti davam etdirilir.

Uzun müddətli borc faizi 1993-cü ildəki 10 %-dən 2003-cü ildə 4,2 %-dək azaldılmışdır.

İspaniya sosial siyasətində – təhsil sistemində, səhiyyədə, təqaüd sistemində, əmək qanunçuluğunda, sosial dialoqun inkişafında islahatlar aparması ilə fərqlənir.

İspaniyada xarici ticarət coğrafiyası da genişdir. 2005-ci ildə cəmi ixracın həcmi 191,0 mlrd. dollar, idxal isə 187,6 mlrd. dollar olmuşdur. İxracda xammal 20 %, hazır sənaye məhsulları – 78 %, elmtutumlu məhsullar isə 8 % təşkil etmişdir.

İdxalın isə 80 %-ni yanacaq enerjisi ehtiyatları və maşınqayırma məhsulları təşkil edir.

İspaniyanın Azərbaycan ilə olan xarici ticarəti 16,6 mln. dollar olmuşdur (2004).

İspaniyada xarici turizm geniş yayılmışdır. İldə orta hesabla 60 mln. nəfər turist bu ölkəni səyahət edir. Bu turistlərin 95 %-i Aİ ölkələrindəndir. 2003-cü ildə bu sahədən olan gəlir ÜDM-in 11 %-nə bərabərdir.

İspaniya əhalisi qeyd etdiyimiz kimi əsasən ispanlardan ibarətdir. Lakin onu da göstərməliyik ki, əhali bir çox hallarda kənardan gələnlərin hesabına formalaşır. Son illərdə dünyada olan iqtisadi və siyasi vəziyyətlə bağlı öz vətənlərinə qayıdan ispanların sayı artmışdır. Eləcə də son 10-15 ildə Şimali Afrikanın (Əlcəzair, Misir, Liviya, Mərakeş, Sudan, Tunis və s.) ərəb ölkələrindən buraya gələnlərin sayı artmışdır.

Cəmi əhalinin təqribən 49 %-i əmək qabiliyyətlidir. Bunun da 2 mln. nəfərə qədəri kənd təsərrüfatında, 4,5 mln. nəfəri sənaye sahələrində, 11,0 mln. nəfəri isə xidmət dairəsində və turizmdə məşğuldurlar.

İspaniyanın iqtisadi siyasətində əsas strateji vəzifə liberallaşmanın, özəlləşdirmənin, kiçik və orta sahibkarlığın, ETTKİ-nin, daha da genişləndirilməsi (bu sahəyə çəkilən xərc ÜDM-in 1 %-nə bərabərdir), idarəçilik qurumlarının yeniləşdirilməsi və təkmilləşdirilməsindən ibarətdir.

İspaniyada təhsil dövlət büdcəsi və şəxsi fondlar hesabına həyata keçirilir. Hər il bu məqsədlə ayrılan vəsait büdcəsinin 7-8 %-ni təşkil edir. Başqa mənbələrlə birlikdə bu vəsait ÜDM-in təqribən 4-5 %-i qədər olmuşdur.

İspaniyada 35 universitet və 4 katolik universitet fəaliyyət göstərir.

Bütün qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olur ki, son 25-30 ildə İspaniyanın ictimai-iqtisadi həyatında baş verən ciddi dəyişikliklərlə o, Cənubi Avropada **«iqtisadi möcüzə»** yaratmışdır (bir çox makroiqtisadi göstəricilər 5-6 dəfə artmışdır).

Burada – daxili amil kimi iqtisadiyyatın dövlət bölməsinin sağlamlaşdırılması, bir çox müəssisələrin modernləşdirilməsi (köhnə sexlərin bağlanması, xaricdən yeni avadanlıq gətirilməsi), elmtutumlu sahələrin inkişafı, kiçik və orta sahibkarlığa yardım edilməsi, İspaniyanın beynəlxalq ixtisaslaşmaya qoşulması və digər cəhətlər əsas götürülür.

Xarici amil baxımından əlbəttə ilk növbədə İspaniyanın Avropa inteqrasiyasına qoşulması ön plana çəkilir. Avropa ölkələri içərisində İspaniya daha fəal özünə investisiya cəlb

edən ölkə kimi fərqlənir. İnformatika, robot texnikası, biotexnologiya, elektrotexnika, kimya sənayesi kimi müasir sahələrə ayrılan vəsait artırılmışdır.

Vergi dərəcələrinin aşağı salınması ilə ancaq 2002-ci ildə xarici korporasiyalar İspaniya iqtisadiyyatına 20,6 mlrd. dollar (1998-ci ildə 560, 2 mln. dollara qarşı) vəsait qoymuşlar.

İspaniyada yaradılan beynəlxalq xoldinqlərin sərf etdiyi investisiya bütün xarici xoldinqlərin investisiyasının 63 %-ni təşkil etmişdir.

İspaniyada iqtisadi inkişafın sürətli artımında kapitalın mərkəzləşməsi və təmərküzləşməsi səviyyəsinin dəyişməsi də böyük rol oynamışdır.

Məsələn, məlumdur ki, İspaniyanın elektrotexnika sənayesinin lideri olan «Telefonika de Espana» şirkəti Amerikanın Latın Amerikasında işləyən «Bells onth» mobil telefon rabitə şirkətinin səhmlərini almaqla öz alıcılarının sayı 10,5 mln. nəfər artmışdır.

İspaniyanın **«iqtisadi möcüzə»sinə** aid bir problemi də qeyd etmək maraqlıdır. İspaniya enerji daşıyıcıları ilə zəif təmin edilibdir. Ona görə də, elektroenergetika sürətlə inkişaf etdirilir. Burada 1968-ci ildə ilk atom elektrik stansiyası istifadəyə verilmişdir. Ölkədə 9 atom reaktoru işləyir. 1983-cü ildə yeni AES tikilməsinə qadağa qoyulmuşdur.

Odur ki, alternativ mənbələrin mənimsənilməsinə zəmin yaradılırdı. «Mibel» şirkətinin bazası əsasında vahid energetika bazarı yaradılması qərara alınmışdır. «Mibel», «Endesa», «Iberdrola», «Union Frenosa», «Gas Natural»-dan ibarət İspaniya şirkətlərini, Portuqaliyanın «Edp» və İtaliyanın «ENELViesqo» şirkətlərini özündə birləşdirirdi (53 mln. nəfər işçisi vardır). «Mibel» Avropada 2-ci yeri tutur (birinci yerdə isə Danimarka, Norveç, İsveç və Finlandiyanın daxil olduğu «Nord Pooth» dayanır).

İspaniyanın özündə olan böyük ana şirkətlərin sayı 857-dir (1996).

Portuqaliya (Portuqaliya Respublikası)

Portuqaliya Avropanın cənub-qərbində, Piriney yarımadasının qərb hissəsində yerləşir. Atlantik okeanında Azor və Madeyra adaları da bura daxildirlər.

İnzibati-ərazi bölgüsünə görə 18 mahaldan və Azor ilə Madeyra adalarında 2 muxtar ərazidən ibarətdir.

Portuqaliyanın ərazisi **92,3 min km², əhalisi 10,6 mln. nəfərdir**. Paytaxtı Lissabondur. Böyük şəhərləri Portu, Braqa, Setubal, Koimbra və Evoradır. Yarı prezidentlik üsuluna əsaslanan parlamentli respublikadır. **Dövlət başçısı rəsmi olaraq prezidentdir** - lakin səlahiyyətləri məhduddur (səlahiyyətləri prezident, hökumət və parlament bölüşdürür). Vaxtı ilə ərəblər tərəfindən zəbt edilmiş Portuqaliyanın torpaqları XII əsrin əvvəllərində ispanlar tərəfindən azad edilmişdir. Elə həmin vaxtlarda 1143-cü ildə Portuqaliya İspaniya krallıqlarından ayrılmışdır. XV əsrin axırlarına Portuqaliya böyük müstəmləkə ölkəsinə çevrilmişdir. XVII əsrdə müstəmləkə ölkələri içində öz aparıcı mövqeyini itirmişdir. XVIII əsrin əvvəllərindən İngiltərənin iqtisadi və siyasi təsiri altında olmuşdur. **1910-cu ildə ölkədə monarxiya devrilmiş və respublika elan edilmişdir.**

Portuqaliya 1960-cı ildən İƏ və İT-nin, 1976-cı ildən Avropa Şurasının, 1986-cı ildən AİB-in üzvüdür. 1999-cu ildə vahid Avropa valyutası olan "avro" hesablaşmasına keçən ölkələr sırasındadır.

Portuqaliya sənaye-aqrar ölkəsidir. 2005-ci ildə ÜDM-in həcmi 183,6 mlrd. dollara bərabər olmuşdur (hər nəfərə düşən ÜDM isə 17321 dollardır).

ÜDM-in 3,6 %-i kənd təsərrüfatı və balıqçılığın, 28,7 %-i sənaye ilə inşaatın, 67,7 %-i isə xidmət dairəsinin payına düşür (2005).

Əmək qabiliyyətli əhalinin sayı 4,6 mln. nəfərdir. Bunun da 62 %-i muzdlu işçilərdən ibarətdir.

İqtisadi fəal əhalinin 32 %-i sənaye sahələrində, 11,5 %-i kənd təsərrüfatında, 55,7 %-i xidmət sahələrində işləyir.

Ənənəvi istehsal sahələri - toxuculuq, tikiş, ayaqqabı, keramika, gəmiqayırma hesab olunur.

Faydalı qazıntılardan volfram (dəmir kolçedanı), qalay, uran, qurğuşun, mis istehsal edilir.

Yeni istehsal sahələrindən avtomaşınqayırma, nəqliyyat vasitələri, elektron, kimya sənayesi, kənd təsərrüfatı avadanlıqları, dəzgahlar, metal emalı və digər sahələri vardır.

44,3 mlrd. kvt. saat elektrik enerjisi istehsal edilir. Portuqaliya demək olar ki, tamamilə xarici enerji daşıyıcılarından asılıdır.

Kənd təsərrüfatı məhsullarından üzüm, sitrus bitkiləri, meyvə, tərəvəz, zeytun, taxıl istehsal edilir.

Heyvandarlıq (iri buynuzlu mal-qara) sahəsi də vardır.

Nəqliyyat sistemində gəmiçilik daha aparıcı rola malikdir. 160 gəmi işlək halda mövcuddur. Xarici ticarət dövriyyəsinin 65 %-i gəmiçilik vasitəsilə daşınır.

2850 km dəmir yoluna, 69 min km avtomobil yoluna malikdir. 66 təyyarə limanı vardır.

İspaniyada olduğu kimi Portuqaliyada da xarici turizm geniş yayılmışdır. 2003-cü ildə xarici turistlərin sayı 13,2 mln. nəfər olmuşdur. Turizmdən olan gəlir 5 mlrd. dollar təşkil edir.

1986-1990-cı illərdə Aİ ölkələri içərisində ən yüksək artım sürəti Portuqaliyada olmuşdur – 4,8 %. 1990-2003-cü illərdə isə 2,1 % təşkil etmişdir. BƏB çərçivəsində Portuqaliya parça, ayaqqabı, paltar, ağac emalı sənayesi məhsulları ixrac edir. İdxalda isə enerjidaşıyıcıları, sənaye üçün xammal növləri, ərzaq və s. əsas yeri tutur (istehlak edilən ərzağın 60 %-i xaricdən alınır). 2003-cü ildə cəmi ixrac 32,1 mlrd. dollar, idxal isə 53,4 mlrd. dollar olmuşdur.

Ticarəti əsasən Aİ ölkələri ilə (80 %), OPEK-in üzvləri ilə (7 %), ABŞ-la (4 %) və Yaponiya ilə (3 %) aparır.

Xarici iqtisadi siyasətin əsasını xarici ticarətdə müsbət saldo əldə etmək, ixrac məhsulları sahələrinin inkişafına üstünlük vermək təşkil edir.

Kapitalın sərbəst hərəkətinə zəmin yaradılması da üstünlük təşkil edir.

2002-ci ilin məlumatına görə Portuqaliyada olan cəmi birbaşa investisiya 33 mlrd. dollara, Portuqaliyanın xaricdə olan birbaşa investisiyası isə 17 mlrd. dollara bərabərdir. Bu vəsait əsasən Aİ ölkələrində və portuqal dilli dövlətlər birliyinə (PALOP) daxil olan ölkələrdə yerləşdirilibdir.

2002-ci ilə ölkənin xarici borcu 15 mlrd. dollardır. Həmin ilə tədiyyə balansı 10 mlrd. dollar kəsir ilə səciyyələnir.

Portuqaliya öz iqtisadi siyasətində iqtisadiyyatın liberallaşdırılması və modernləşdirilməsinə, dövlət kompaniyalarının özəlləşdirilməsinə üstünlük verməyi nəzərdə tutur.

Eləcə də bank və telekommunikasiya bölməsində quruluş dəyişikliyi edilməsi ön plana çəkilmişdir.

Vergi-büdcə sistemində ardıcıl olaraq islahatlar aparılır. Nəticədə 1996-2003-cü illərdə büdcə kəlirləri artmış və kəsir azalmışdır. Həmin illərdə büdcə kəsiri (ÜDM-də) 5 %-dən 2,4 %-ə enmişdir.

Pul-kredit sistemində büdcə-maliyyə sabitliyinə köməklik edən tədbirlər həyata keçirilir.

2003-cü ildə büdcə gəlirləri 45 mlrd. dollar, xərcləri isə 48 mlrd. dollar təşkil etmişdir.

1996-2003-cü illərdə illik inflyasiya həddi 7,8 %-dən 3,1 %-ə enmişdir.

2002-ci ildə işsizlik 4,7 %, insan inkişafı indeksi **0,925** olmuşdur.

Sənaye və xidmət sahələrində minimum əmək haqqı orta hesabla **330** dollar, kənd təsərrüfatında isə **222** dollardır. Orta aylıq əmək haqqı isə təqribən **560** dollara bərabərdir.

1990-cı illərin axırlarına ölkənin qızıl-valyuta ehtiyatı – 18,4 mlrd. dollar olmuşdur.

Portuqaliyada məcburi və pulsuz təhsil 7-13 yaşlı uşaqlar üçün nəzərdə tutulur.

Dövlət məktəbləri ilə yanaşı xüsusi məktəbləri də vardır. Ölkədə 5 universitet fəaliyyət göstərir.

Yunanıstan (Yunanıstan Respublikası)

Yunanıstan Avropanın cənub-şərqində, Balkan yarımadasının cənubunda yerləşir. Şimaldan Makedoniya və Bolqarıstanla, şimal-şərqdə Egey dənizi boyunca Türkiyə ilə, şimal-qərbdə Albaniya ilə sərhəddir.

Ərazisi 132,0 min km², əhalisi 10,7 mln. nəfərdir (2005). Paytaxtı Afina, böyük şəhərləri: Saloniki, Patrı, İraklion və Volosdur. Rəsmi dili yunan dilidir. Yunanıstan parlamentli respublikadır - prezident idarəçiliyinə əsaslanır. Dövlət başçısı prezidentdir. Qanunvericilik tək partiyalı parlamentə məxsusdur. Yunanıstan 15-ci əsrdən 1830-cu ilədək Trükiyənin hakimiyyəti altında olubdur. 1830-cu ildə müstəqillik əldə edibdir.

İnzibati-ərazi bölgüsünə görə Yunanıstan 51 vilayətdən (264 dima-rayondan) ibarətdir. Müqəddəs Afon dağı da inzibati vahid (rayon) hesab edilir.

Yunanıstan sənaye-aqrar ölkəsidir. 2005-ci ildə cəmi ÜDM-in həcmi 225,6 mlrd. dollar (hər nəfərə düşən ÜDM isə 21283 dollar) olmuşdur.

İqtisadiyyatın sahəvi quruluşunda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 5 %, sənaye sahələri – 25 %, xidmət sahələri isə 70 % təşkil etmişdir.

Hasilat sənayesindən – boksidlər, xrom, nikel, sink, qurğuşun, dəmir filizi, marqans, boz kömür, neft, qaz, tikinti materiallarından – mərmər, tuf və s. çıxarılır. Naksos adasında dünyada ən böyük najdak yatağı, Egey dənizində neft və təbii qaz yatağı tapılmışdır.

Emal sənayesinin aparıcı sahələrindən – gəmiqayırma, metallurgiya, yüngül və yeyinti sənaye sahələri, kimya sənaye sahəsi, eləcə də elektrotexnika və elektroenergetika sahələri inkişaf etdirilir.

Maye yanacağa olan tələbatın 95 %-i idxal hesabına ödənilir.

Sənayedə yerli və xarici inhisarların hökmranlığı genişdir. Əsasən ABŞ, Almaniya, Fransa və İsveçrənin inhisarçı birlikləri burada iş aparırlar.

Belə ki, 200 iri kompaniyalar cəmi mənfəətin 50 %-ni öz əllərində cəmləşdirmişdir. Bununla yanaşı kiçik müəssisələrin də sayı az deyildir.

Ölkənin ərazisinin 30 %-i kənd təsərrüfatına yararlı sahə kimi istifadə edilir (əkin yeri 4 mln. hektardır). Əsasən kiçik təsərrüfatlar formasında (3,5 hektaradək) təsərrüfatçılıq xarakterikdir.

Kənd təsərrüfatında bitkiçilik (əkinçilik) daha çox üstünlük təşkil edir. Taxılçılıqdan – buğda, vələmir, arpa, qarğıdalı; texniki bitkilərdən – pambıq, tütün, şəkər çuğunduru; eləcə də sitrus, giləmeyvələr, kartof becərilir. Kənd təsərrüfatından olan gəlirin 67 %-i bitkiçiliyin payına düşür. Ölkənin taxıla, tərəvəz və meyvəyə olan tələbi yerli istehsal hesabına tam ödənilir.

Əkilən sahə 2,3 min hektar, o cümlədən suvarılan sahə 0,8 mln. hektardır. 1,2 mln. hektar üzümlük və zeytun sahəsi vardır.

Heyvandarlığın inkişafı zəifdir. Ətə olan tələbatın 75 %-ni, yağa olan tələbatın isə 70 %-ni ödəyə bilirlər.

İqtisadiyyatda körpü rolu oynayan nəqliyyatın inkişafını səciyyələndirdikdə qeyd etməliyik ki, Yunanıstanda dəmir yolunun inkişafı zəifdir (ümumiyyətlə burada dəmir yolu dövlətə məxsusdur). Dəmir yolunun uzunluğu cəmisi 25 min km-dir. Bunun da cəmisi 100 km-ri elektrikləşdirilibdir.

Avtomobil yollarının uzunluğu 117 min km-dir. O cümlədən möhkəm örtüklü yol 107,5 min km-rə bərabərdir.

Daxili yük daşımaların 60 %-i avtomobil nəqliyyatı ilə həyata keçirilir. Ölkənin iqtisadiyyatında ticarət limanlarının rolu daha böyükdür.

2003-cü ilə cəmi ticarət limanlarında olan gəmilərin sayı **3360-dan** artıqdır. Bu, dünya üzrə limanlarda olan cəmi gəmilərin 9 %-dən artıqdır.

Yunanıstan gəmilərinin 70 %-ə qədəri başqa ölkələrin bayraqları altında üzürlər.

Pirey, Saloniki, Patrı, Volos kimi böyük ticarət limanları vardır. Daxili su yolları 80 km, boru kəmərləri 573 km-dir.

81 təyyarə limanı fəaliyyət göstərir. Bunun 30-a qədəri beynəlxalq limandır.

Yunanıstan öz xarici iqtisadi siyasəti baxımından 1970-ci illərin əvvəllərinə kimi avtarkiya (qapalı, öz iqtisadiyyatını özü təmin edən) siyasəti yeridirdi. Lakin 1962-ci ildən Aİ ilə birlik yaratmaq barədə Afina sazişindən sonra vəziyyət kökündən dəyişmişdir.

İnteqrasiya əlaqələri artmış, açıq iqtisadiyyat qaydaları genişlənmişdir.

2005-ci ildə xarici ticarət dövriyyəsi 71 mlrd. dollara bərabər olmuşdur.

İxrac 17,0 mlrd. dollar, idxal isə 54,0 mlrd. dollar təşkil edir. İxracda sənaye məhsullarının xüsusi çəkisi (dağmədən sənayesi, boksidlər, nikel, marqans) – 50 %; ərzaq və içkilər, tütün, zeytun, zeytun yağı, pambıq, sitrus meyvələri – 28 %; neft məhsulları – 10 % təşkil etmişdir.

İdxalda isə sənaye məhsulları – 76 %, ərzaq məhsulları – 18 %, yanacaq – 6 % olmuşdur. 2003-cü ilin vəziyyətinə Yunanıstanın iqtisadiyyatına yönəldilmiş cəmi birbaşa investisiya **25,6 mlrd. dollar** təşkil edir. Bu vəsait 1990-cı illərin ikinci yarısında iqtisadiyyatı təmin edə biləcək cəmi kapital qoyuluşunun 2-5 %-nə bərabərdir.

Avropanın bir çox digər ölkələrində olduğu kimi Yunanıstanda da **turizm geniş inkişaf etmişdir**. İldə orta hesabla 10 mln. nəfər turist qəbul edir ki, bu da təqribən 4 mlrd. dollar gəlir gətirir.

Ölkənin pul-kredit sistemində mərkəzi bank, kommersiya bankları, əmanət bankları, kooperativ bankları fəaliyyət göstərir. 49 maliyyə qurumu kreditləşmə əməliyyatı aparır.

Büdcənin gəlir hissəsi (ÜDM-in 49,1 %-i) əsasən vergilər hesabına formalaşır. 2003-cü ildə büdcənin gəlir hissəsi 42,2 mlrd dollar, xərcləri isə 48,4 mlrd. dollar olmuşdur.

Sosial siyasətdə işsizliyin azaldılması (2003-cü ildə 8,9 %), gəlirlərin bərabərləşdirilməsi (cini əmsalı – 32,7-dir) problemlərinə üstünlük verilir.

1964-cü ildən 9-illik təhsil məcburi hesab edilir və pulsuz həyata keçirilir. Orta məktəbdə oxumaq 12 ildir.

Ölkədə 17 ali məktəb (6 universitet) fəaliyyət göstərir.

Yunanıstan 1949-cu ildən Avropa Şurasının, 1960-cı ildən İƏ və İT-in, 1989-cu ildən Aİ-nin üzvüdür.

Cədvəl

Cənubi Avropa dövlətlərinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min kv. km	Əhalisi, mln. nəfər	ÜDM, mlrd. dollar
1	İspaniya	506	40,3	1126,6
2	Portuqaliya	92	10,6	183,6
3	Yunanıstan	132	10,7	225,6

XXVI FƏSİL
MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİNİN (M VƏ ŞAÖ) İQTİSADİYYATI

1. M və ŞAÖ-nin iqtisadi inkişafının ümumi xarakteristikası.
2. M və ŞAÖ-nin iqtisadiyyatında yeni dəyişikliklər.
3. M və ŞAÖ-nin iqtisadiyyatının müasir vəziyyəti.

1. M və ŞAÖ-nin iqtisadi inkişafının ümumi xarakteristikası

Müəyyən təsnifata görə Mərkəzi və Şərqi Avropa regionuna keçmiş Şərqi Avropa sosialist ölkələri - Albaniya, Bolqarıstan, Macarıstan, Polşa, Slovakiya, Rumıniya, Çexiya, Yuqoslaviya və eləcə də Baltikyanı ölkələr - Latviya, Litva və Estoniya daxildirlər. İqtisadi inkişaf səviyyəsinə görə həmin ölkələri dörd yarımqrupa bölmək olar:

1. Nisbətən inkişaf etmiş ölkələr - Macarıstan, Polşa, Slovakiya, Sloveniya və Çexiya;
2. Baltikyanı ölkələr - Latviya, Litva, Estoniya;
3. Bolqarıstan, Rumıniya, Xorvatiya;
4. Nisbətən daha aşağı iqtisadi səviyyədə olan ölkələr - Albaniya, Bosniya və Hersoqovina, Makedoniya, Yuqoslaviya.

Bu ölkələrin bəzi iqtisadi göstəriciləri də elə həmin ardıcıllıqla cədvəldə verilmişdir.

Hazırda bu ölkələrin çoxu Aİ-yə daxil edilmişdir. Ona görə də dünya iqtisadiyyatında və iqtisadi münasibətlər sistemində onların mövqeyi, siması dəyişmişdir. Bu ölkələr elə bir güclü mövqeyə malik olmasalar da, hər-halda dünya iqtisadiyyatının subyektləridirlər. Ona görə də həmin ölkələrin iqtisadi inkişafı barədə qısa məlumat verməyi zəruri hesab edirik.

Cədvəl

M və ŞAÖ-nin bə`zi makroiqtisadi göstəriciləri (2005)

	Dövlətlər	*Ərazisi, min kv. km*	*Əhalisi, mln. nəf.*	*ÜDM, mlrd.dol.*
1.	Macarıstan	93,0	10,3	109,0
2.	Polşa	323,0	39,0	303,0
3.	Slovakiya	49,8	5,4	47,5
4.	Sloveniya	20,3	2,0	34,0
5.	Çexiya	79,0	10,2	124,0
6.	Latviya	63,7	2,3	15,8
7.	Litva	65,2	3,8	25,5
8.	Estoniya	45,1	1,3	13,1
9.	Bolqarıstan	110,9	8,0	26,7
10.	Rumıniya	237,5	23,1	98,6
11.	Xorvatiya	56,6	4,5	38,5
12.	Albaniya	28,7	3,3	8,4
13.	Bosniya və Hersoqovina	51,0	4,4	9,0
14.	Makedoniya	25,7	2,0	5,7
15.	Yuqoslaviya	102,2	11,0	24,1

Nümayiş etdirilən göstəricilərdən aydın görünür ki, həmin məkanda 130 mln. nəfərdən çox əhali yaşayır. Ərazisi təqribən 1341 min kv. km-dir. Məlumdur ki, İkinci Dünya müharibəsindən sonra SSRİ-nin təsiri altında Mərkəzi və Şərqi Avropa ölkələrində Kommunist partiyası hakimiyyət başına gəlmişdir. Odur ki, həmin ölkələrin iqtisadiyyatı da mərkəzləşdirilmiş sovet sisteminə uyğun qurulmağa başlamışdır.

Beləliklə:

- xüsusi mülkiyyət ləğv edilmiş və yaxud məhdudlaşdırılmış;
- demək olar ki, bütün istehsal vasitələri dövlət mülkiyyətinə keçmiş;
- təsərrüfatçılıqda mərkəzləşdirilmiş planlaşdırılma əsas götürülmüş;

- iqtisadiyyatda sosialist müəssisələri inhisarçı vəziyyəti almışlar.

Deməli, Mərkəzi və Şərqi Avropa ölkələrinin iqtisadiyyatı ciddi dövlət nəzarətinə əsaslanırdı.

Bu sistemdə əmək, əmtəə, kapital bazarları mövcud olmamışdır. Sistemdə əsas məqsəd dövlətin və partiyanın planını yerinə yetirməkdən ibarət olmuşdur. Sahibkarlığa olan maraq, məhsulun keyfiyyətinin artırılması, əmək məhsuldarlığının yüksəldilməsi prinsipləri yaddan çıxmışdır. Bu ölkələrdə iqtisadi artım ekstensiv amillərə əsaslanırdı. Hansı sahələrə investisiya qoyulması dövlət tərəfindən müəyyən edilirdi. Ağır sənaye sahələri olan metallurgiya, kimya sənayesi və maşınqayırmanın inkişafına üstünlük verilmişdir.

Vahid ideologiya əsasında "dünya sosialist təsərrüfatı sistemi" yaranmışdır. 1949-cu ildə Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) yaradılmışdır. Bura daxil olan ölkələr çərçivəsində özünəməxsus "bazar" mövcud idi. Qərb ölkələrinin rəqabətindən istifadə edə bilmirdilər. İnkişaf etmiş Qərb ölkələri ekstensiv inkişafdan intensiv inkişaf yoluna keçdiyi halda bu ölkələrdə iqtisadi artımın sürəti azalmaqda davam edirdi. İqtisadiyyatın böyük bir hissəsi hərbiləşdirilmə sahəsinə xidmət edirdi.

Ayrı-ayrı vaxtlarda sosialist inkişaf yolunda islahatlar aparılmasına cəhdlər də göstərilirdi (1956-cı illərdə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada, 1950-ci illərin ortalarından Yuqoslaviyada, 1980-ci illərin əvvəllərində Polşada).

2. M və ŞAÖ-nin iqtisadiyyatında yeni dəyişikliklər

Dünya sosializm sistemində baş verən ictimai-iqtisadi və siyasi dəyişikliklər Mərkəzi və Şərqi Avropa ölkələrinin inkişaf istiqamətini dəyişdirmişdir. 1989-1991-ci illərdən Mərkəzi və Şərqi Avropa ölkələrinin iqtisadiyyatında hərtərəfli islahatlar keçirilməyə başlanmışdır. Həmin ölkələrin ictimai-iqtisadi həyatında yeni problemlər yaranmışdır. Aşağıdakı sahələrdə islahatlar keçirilməsi ön plana çəkilmişdir:

1. İqtisadiyyatda makroiqtisadi sabitlik və nəzarətin artması. Bu məqsədlə sabitləşdirilmə proqramı hazırlanmışdır. İnflyasiyaya qarşı tədbirlər sistemində monetarizm nəzəriyyəsinə (pul kütləsi üzərində nəzarət artmışdır) üstünlük verilirdi. Yeni vergi siyasəti, xarici hesablaşmaların tənzimlənməsi ön plana çəkilmişdir.

2. Qiymət islahatı və bazar mexanizminin tətbiqi. Burada rəqabətli bazar münasibətlərinə keçirilməsi nəzərdə tutulur. Odur ki, qiymətlərin və ticarətin liberallaşması, xarici iqtisadi fəaliyyətin liberallaşdırılması, inzibati-amirlik bölgü sistemindən imtina edilməsi, işçi qüvvəsi bazarının liberallaşdırılması, maliyyə sistemində islahat aparılması ön plana çəkilmişdir.

3. Xüsusi bölmənin inkişafı, özəlləşdirilmə və istehsalın quruluşunda islahat aparılması.

4. İqtisadiyyatda dövlətin roluna yenidən baxılması. İqtisadiyyatda dövlətin aparıcı rolu aradan qaldırılmış, qanunvericilikdə müəyyən dəyişikliklər edilmişdir. Lakin qeyd etməliyik ki, bütün bu kimi islahatlar ilk əvvəllər müsbət nəticələr verə bilməmişdir, istehsalın həcmi gözlənildiyindən də çox azalmışdır (sənayenin həcmi ildə 20 % azalırdı). Ancaq Polşada 93-94-cü illərdə istehsalın həcmi islahatdan əvvəlki illərin səviyyəsinə çata bilmişdir.

QİYŞ - çərçivəsində olan əvvəlki əlaqələr qırılmışdır. Qərbi Avropa ölkələri ilə satış bazarı əlaqələri yaradılmasına zərurət meydana gəlmişdir. Quruluş işsizliyi, sabit inflyasiya yaranmışdır, özəlləşdirilmiş müəssisələr yeni bazar mexanizminə uyğunlaşa bilməmişlər. Bank sahəsində də böhranlar özünü göstərirdi. Xaricdən kapital axını bir çox hallarda qazanc götürmək və alver xarakteri daşıyırdı. Faktiki olaraq əhalinin həyat səviyyəsi kəskin sürətdə pisləşmişdir. Odur ki, insanların bir çoxunda sosialist sistemi ideyası həsrəti yenidən güclənirdi. Hətta bəzi hallarda dövlətin sosial funksiyaları da artırılırdı.

Beləliklə, bu ölkələrdəki islahatlardan yaranan nöqsanlar daha düşünülmüş dəyişikliklər edilməsi məsuliyyətini artırmışdır. Burada: əmtəə və xidmətlərin qıtlığı ləğv edilmiş, sahibkarlıq fəaliyyətinin təşkili yaxşılaşdırılmış, iqtisadiyyatda xüsusi bölmə bərpa edilmiş, biznes fəaliyyətinə dövlətin qarışması

prosesi dəyişdirilmiş, yeni iqtisadi inteqrasiya sistemi yaradılmasının başlanğıcı qoyulmuşdur.

1994-cü illərdən həmin ölkələrdə müəyyən müsbət nəticələr əldə edilməyə başlamışdır. Bu ölkələrdə bazar iqtisadiyyatının inkişafında müstəqil bazar subyektləri formalaşa bilmişdir, azad əmtəə istehsalçıları, müxtəlif mülkiyyət formaları artmışdır. Dövlət, kooperativ, xüsusi, qarışıq mülkiyyətlərin inkişafı üçün bərabər şərait yaranmışdır.

M və ŞAÖ-də özəlləşdirilmə prosesi üç mərhələdə həyata keçirilmişdir. **İlk növbədə ticarət, xidmət sahəsinin** müəssisələri və eləcə də xırda sənaye özəlləşdirilmişdir. Bu proses nəğd pul ilə həyata keçirilmişdir. 1992-ci ildə Çexiya və Slovakiyada "xırda və orta sahibkarlığa kömək" barədə qanun da qəbul edilmişdir. Qanuna əsasən vergi qoyulmasında, kredit verilməsində (güzəştli kredit verilməsi) dəyişiklik aparılmışdır.

İkinci mərhələ "böyük" özəlləşdirilmə adlanır. Bu özəlləşdirilmədə dövlət müəssisələri vətəndaşlara pulsuz verilmişdir. Çexiya, Rumıniya, Polşa və Bolqarıstanda vətəndaşlara özəlləşdirilmə kuponları (vauçerləri) (Azərbaycanda olduğu kimi) verilmişdir. Bu cür "böyük" özəlləşdirilmənin 1-ci mərhələsi Çexiya və Slovakiyada 1992-ci ildə, 2-ci mərhələsi - 1994-cü ildə, 3-cü mərhələsi isə 1996-cı ildə başa çatmışdır. Odur ki, ÜDM-də xüsusi bölmənin payı artaraq sənayedə 60 %-ə; kən təsərrüfatında 90 %-ə; inşaatda 90 %-ə; ticarətdə 87 %-ə çatmışdır.

Milli sərvətin özəlləşdirilməsindən daxil olan fond 21 mlrd. dollara bərabər olmuşdur. Macarıstanda müharibədən sonrakı illərdə milliləşdirilmədən zərər çəkənlər də kompensasiya almışlar (1991-ci ilin aprel qanununa əsasən). Belə qanun Çexoslovakiya, Polşa və Rumıniyada da olmuşdur.

3. M və ŞAÖ-nin iqtisadiyyatının müasir vəziyyəti

Qeyd etdiklərimizdən belə qənaətə gəlmək olur ki, M və ŞAÖ bazar iqtisadiyyatı yolunda həyata keçirdikləri islahatlar, nəticəsində iqtisadi dəyişikliklər əldə edə bilmişlər. Burada Macarıstan, Polşa, Slovakiya, Sloveniya və Çexiya daha qabaqcıl yarımqrup ölkələr hesab edilirlər. Bu ölkələr birliyinin yeni iqtisadi inteqrasiya prosesi də yaranıbdır. 1990-cı ildə Çexiya, Slovakiya, Macarıstan və Polşa arasında **Vişeqrad** dördlüyü adlanan inteqrasiya qruplaşması yaradılmışdır. 1993-cü ilin mart ayından bu qruplaşma çərçivəsində gömrük dərəcəsinin qarşılıqlı azaldılmasını nəzərdə tutan azad ticarət razılığı da imzalamışlar. Eləcə də burada birgə müdafiə, istehsalat kooperasiyası prosesi də həyata keçirilir. Vişeqrad qruppası ölkələri Aİ üzvlüyünə tam hüquqlu olmaq istiqaməti götürmüşlər. Hazırda onlar Avropa İttifaqının xüsusiləşmiş üzvü hesab olurlar. Bu qrup NATO-nun üzvlüyünə də qoşulmuşlar.

M və ŞAÖ-nün müasir vəziyyətinin təhlilindən aydın olur ki, bu ölkələrin demkə olar ki, hamısında özəlləşdirmə prosesi əsasən başa çatmışdır. Bu ölkələrdə iqtisadi islahatların və açıq iqtisadiyyatın genişlənməsinin nəticəsidir ki, iqtisadiyyatın quruluşunda ciddi dəyişikliklər baş verir. Kənd təsərrüfatının xüsusi çəkisi azalır. Sənaye və xidmət bölməsinin xüsusi çəkisi artır.

Bu ölkələrin sırasından 8 ölkə 2004-cü ildə Aİ kimi böyük, məsuliyyətli bir quruma daxil olmuşlar. Bunlar Macarıstan, Polşa, Latviya, Litva, Estoniya, Sloveniya, Slovakiya və Çexiya ölkələridir. Aydındır ki, həmin ölkələrə müəyyən güzəştlər edilsə də, hər halda bir çox iqtisadi göstəriciləri Aİ-nin daxili tələblərinə uyğun gəlir.

2003-cü ilin məlumatına görə Macarıstanın ÜDM-in 80 %-i xüsusi bölmənin payına düşür, ölkənin iqtisadiyyatına cəlb olunan birbaşa xarici kapital 20 mlrd. dollardan artıqdır.

Polşada ETKKİ-in inkişafına ayrılan vəsait ÜDM-in 1,5 %-i qədərdir ki, bu da bir çox inkişaf etmiş ölkələrin göstəricilərinə uyğun gəlir. Ölkənin iqtisadiyyatına qoyulan xarici birbaşa investisiya 73,2 mlrd. dollardır.

Slovakiyada 2003-cü ildə ÜDM-in artım sürəti 2,3 % olmuşdur.

Sloveniyada isə 3,5 % artım olmuşdur.

Litvada xarici ölkələrlə müştərək müəssisələr yaradılması daha çoxdur.

Rumıniyada iqtisadi artım 4,9 % təşkil edir ki, bu da sabit inkişafa zəmin yaradır (Rumıniya və Bolqarıstan 2007-ci ildə Aİ-yə daxil olmuşlar).

Öz iqtisadi inkişaf səviyyəsinə görə Sloveniya da Vişeqrad qrupuna yaxındır. Sloveniya Yuqoslaviyadan ayrılmış ən zəngin respublikalardan biridir. İqtisadiyyatın quruluşuna görə bu ya-rımqrupu sənaye dövlətləri sırasına aid etmək olar. Belə ki, həmin ölkələrin iqtisadiyyatında sənaye ölkələrində olduğu kimi xidmət və sənaye sahələrinin xüsusi çəkisi daha çox üstünlüyə malikdir. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

Cədvəl

M və ŞAÖ-nin (qabaqcıl ölkələrinin) iqtisadiyyatının quruluşu (ÜDM-də xüsusi çəkisi, %-lə)

		Kənd təsərrüfatı		Sənaye		Xidmət sahələri	
		1997	2005	1997	2005	1997	2005
1	Macarıstan	6,7	4,0	30,9	34,0	62,0	62,0
2	Polşa	6,9	3,0	37,7	31,0	66,5	66,0
3	Slovakiya	6,0	4,0	32,7	30,0	61,3	66,0
4	Sloveniya	4,3	3,0	37,6	37,0	58,1	60,0
5	Çexiya	4,6	4,0	41,7	40,0	53,7	56,0
6	Latviya	7,4	5,0	30,7	24,0	61,9	71,0
7	Litva	12,7	7,0	31,3	34,0	56,0	59,0
8	Estoniya	7,0	5,0	29,0	30,0	63,1	65,0
9	Bolqarıstan	26,2	14,0	29,5	28,0	44,4	58,0
10	Rumıniya	20,1	12,0	43,7	37,0	36,2	51,0
11	Xorvatiya		9,0		33,0		58,0
12	Albaniya		49,0		27,0		24,0
13	Bosniya və Hersoqovina		17,0		35,0		49,0
14	Makedoniya		11,0		31,0		58,0
15	Yuqoslaviya		26,0		36,0		38,0

Cədvəldə gətirilən göstəricilərdən bir daha aydın olur ki, 1997-ci illərə nisbətən 2004-2005-ci illərdə gözə çarpacaq dərəcədə quruluş dəyişiklikləri baş vermişdir. Aydındır ki, xidmət sahələrinin xüsusi çəkisinin artması, sənaye və kənd təsərrüfatının xüsusi çəkisinin isə nisbətən azalması heç də həmin sahələrdə mütləq mənada azalmanı göstərmir.

Sadəcə olaraq həmin ölkələrdə yeni iqtisadi siyasətlə bağlı olaraq sənayeləşmənin, onun yeni sahələrinin xidmət növlərinin artmasını göstərir.

Bu ölkələrdə hələ sosializm dövründən emal sənayesi sahələrindən metallurgiya, maşınqayırma, kimya, neft emalı, əczaçılıq sənayesi və s. inkişaf etdirilmişdir. Bazar iqtisadiyyatına müvafiq olaraq dəyişikliklərlə bağlı milli iqtisadiyyatın quruluşunda da xeyli dəyişiklik baş vermişdir. Məsələn, Slovakiyada cəmi sənayenin 70 %-ə qədəri hərbi-sənaye kompleksindən ibarət idi. Hazırda isə Macarıstanda və Çexiyada elektron, elektrotexnika kimi elmtutumlu sahələr daha çox üstünlüyə malikdir. Macarıstan, Çexiya və Polşada nəqliyyat maşınqayırması və avtomaşınqayırma sənayesi, yüngül sənaye daha sürətlə inkişaf etdirilir. Qeyri-maddi istehsal sahələrindən turizm və maliyyə xidməti daha yüksək gəlir gətirir. Turizm beynəlxalq ixtisaslaşmanın bir növü kimi Çexiya və Macarıstan üçün daha böyük əhəmiyyət kəsb edir. Ümumdünya turizm səyahətlərində Praqa, Karlova Vara, Budapeşt, Balaton gölü, eləcə də, Polşada Mazur dənizi, Krakov şəhəri böyük gəlir mənbəi hesab edilirlər. Sloveniyada ÜDM-in 4 %-i maliyyə xidmətlərindən əldə edilir.

Baltikyanı (Latviya, Litva, Estoniya) ölkələrinin iqtisadiyyatı

Bazar münasibətlərinə keçilməsindəki müvəffəqiyyətlərinə görə Vişeqrad dördlüyü və Sloveniyadan sonra Baltikyanı ölkələr ikinci yerdə dayanır. Bu ölkələrdə də yüksək siyasi sabitlik mövcuddur. SSRİ-nin parçalanmasından sonrakı ilk illərdə bu ölkələr öz dəniz limanları vasitəsilə Rusiyadan xammalın qərbə ixrac

edilməsini həyata keçirirdi. Məsələn, 1990-cı ilin əvvəllərində Estoniya və Litvanın cəmi ixracının 30-45 %-i Rusiyadan alınan neft və metaldan ibarət idi. Latviya hazırda da Rusiya sahibkarlarına offşor xidməti göstərir. Ölkədə olan cəmi bank depozitlərinin 50 %-ə qədəri Rusiya nümayəndəliklərinə məxsusdur.

Bu ölkələrdəki müasir şəraitdəki iqtisadi yüksəliş yalnız xarici amillərlə şərtlənmir. Daxili tələbin və investisiyanın artması - sənaye avadanlıqlarının təzələnməsi, rəqabət qabiliyyətinin yüksəldilməsi, mülkiyyət formalarının dəyişdirilməsi böyük rol oynamışdır.

Litvada kütləvi özəlləşdirilmə proqramında 1997-ci ilin axırlarına (İqnalin AES-dən başqa, bu stansiya ölkənin cəmi elektrik-enerjisinin 60 %-ni istehsal edir) bütün keçmiş dövlət inhisarında olan mülkiyyətin xüsusi bölməyə verilməsi, 2000-ci ilə Litvada (bəzi zəruri sahələrdən başqa) praktiki olaraq dövlət müəssisəsinin qalmaması nəzərdə tutulmuşdur.

Estoniyada da özəlləşdirilmə müvəffəqiyyətlə həyata keçirilmişdir. 1990-cı illərin ortalarına sənaye, maliyyə və xidmət bölməsində demək olar ki, özəlləşdirilmə başa çatmışdır. Hazırda bu ölkədə ÜDM-də dövlət bölməsinin xüsusi çəkisi 70 % təşkil edir. Dövlət mülkiyyətində olan iri sənaye müəssisələrindən ancaq iki energetika şirkəti özəlləşdirilməmişdir.

2005-ci ildə Estoniyanın iqtisadiyyatı yaxşılaşmış, ÜDM 6-7 % artmışdır. Burada əsas liberallaşdırılma və xarici investisiya müsbət rol oynamışdır. Baltikyanı ölkələrdə iqtisadiyyatın quruluşu elə bütövlükdə region üzrə olan göstəricilərə uyğun gəlir.

İnsan inkişafı indeksinə görə Estoniya 42-ci yeri tutur (keçmiş sosialist ölkələrini qabaqlayır).

Bütün regionda olduğu kimi bu ölkələrdə də ənənəvi olaraq kənd təsərrüfatının xüsusi çəkisi inkişaf etmiş sənaye ölkələrindən artıqdır. Burada əsasən ətçilik, südçülük istiqamətində heyvandarlıq və eləcə də balıqçılıq böyük xalq təsərrüfatı əhəmiyyətinə malikdir. Estoniyada hasilat sənayesi də xüsusi çəkiyə malikdir.

Latviyada dəmiryolu şəbəkəsi, Litvada gəmiqayırma, neftemalı zavodları vardır. Neft-kimya sənayesi, elektrik avadanlıqları və elektronika, yeyinti və yüngül sənaye sahələri də xeyli tərəqqi tapmışdır. Qeyri-maddi istehsal sahələrindən bank işi fəaliyyəti (Latviyada), turizm (Yurmala, Palanqa kurortları) geniş yayılmışdır. 1998-ci ildə Estoniyada turizmdən əldə edilən gəlir 8,5 mlrd. alman markası təşkil etmişdir. İldə bu ölkəni təqribən 3 mln. nəfər turist səyahət edir. Estoniyada uzun müddətə qalan qonaqların sayı 900 min nəfərə bərabərdir. Bu Avropada turizm üzrə ən yüksək göstəricilərdən biridir.

Estoniya iqtisadiyyatı əsasən tranzit yolu, maliyyə daxil olmalarına xidmət və turizm sahələri hesabına güclənə bilir. Gələcəkdə Tallin və Helsinki arasında sürətli avtomobil yolu və dəmiryolu çəkilişi üçün tunel tikintisi, limanların və təyyarə limanlarının yenidən qurulması kimi böyük işlər aparılması da planlaşdırılmışdır.

Bu ölkələrin xarici ticarətində əsas yeri Aİ ölkələri, eləcə də Rusiya və Ukrayna tutur.

Son illərdə iqtisadiyyatda sabitləşmə yüksəlmiş və bir çox göstəricilər daha da yaxşılaşmışdır. Məsələn, 1999-cu ildə Estoniyada inflyasiya səviyyəsi 6 % olmuşdur. Dövlət büdcəsinin kəsiri ÜDM-in 2 %-i qədər təşkil etmişdir. 1987-1998-ci illəri əhatə edən islahat dövründə Estoniyanın iqtisadiyyatına daxil olan xarici investisiyanın həcmi 1,5 mlrd. dollar (1998-ci ildə 0,5; 1999-cu ildə isə 0,6 mlrd. dollar) olmuşdur. 2005-ci ilə cəmi toplanmış birbaşa xarici kapital 5 mlrd. dollardır.

XXVII FƏSİL
AVSTRALİYA VƏ YENİ ZELANDİYANIN İQTİSADİYYATI

1. *Avstraliya və Yeni Zelandiya haqqında ümumi məlumat.*
2. *Avstraliya və Yeni Zelandiyanın iqtisadiyyatının ümumi xarakteristikası.*
3. *Avstraliya və Yeni Zelandiyanın iqtisadiyyatının quruluşu.*

1. Avstraliya və Yeni Zelandiya haqqında ümumi məlumat

Avstraliya və Okeaniya 9 mln. kv. km-dən ibarət əraziyə malikdir (Avstraliya – 7,7 mln. kv. km). Okeaniya 3 hissədən ibarətdir:

1. **Melaneziya** – okeanın cənub-qərb hissəsidir. 4 müstəqil dövləti (Papua-Yeni Qvineya, Solomon adaları, Vanuatu və Fidci) birləşdirir.

2.**Mikroneziya** – şimal-qərb hissəsidir. 3 müstəqil dövləti (Mikroneziya Federativ Ştatları, Marşall adaları və Palau) birləşdirir.

3. **Polineziya** – okeanın mərkəzi hissəsinə tərəf uzanır. 6 dövləti (Yeni Zelandiya, Samoa, Kiribati, Nauru, Tonqa və Tuvalu) birləşdirir.

Burada Avstraliya və Yeni Zelandiya ölkələrinin iqtisadiyyatı barədə nisbətən daha geniş məlumat veririk.

Avstraliya və Yeni Zelandiya - hər ikisi Hollandiya dənizçiləri tərəfindən kəşf edilibdirlər. Belə ki, 1605-ci ildə gəmi kapitanı V.Yanszon Avstraliyanı, 1642-ci ildə isə A.Tasman Yeni Zelandiyanı kəşf etmişlər. Hər iki ölkə – 1769-cu ildə Avstraliya, 1770-ci ildə isə Yeni Zelandiya məşhur ingilis dənizçisi C.Kuk tərəfindən tədqiq edilmişdir. Beləliklə, hər iki ölkə Britaniyanın hakim dairəsinə tabe edilmişdir. 1788-ci ildə İngiltərənin gəmi kapitanı A.Filipp 11 gəmi ilə Sidney buxtasına daxil olmuş və oraya çoxlu məhbus gətirmişdir.

Deməli ilk əvvəllər Avstraliya məhbusların, sürgün olunanların, cinayətkarların, çartistlərin (1830-1850-ci illərdə Britaniyada xalq hərəkatı), İrlandiya inqilabçılarının sürgün yeri və eləcə də torpaqları əllərindən çıxmış ingilis kəndlilərinin iş axtarmaq yeri olmuşdur. 1839-cu ildən Yeni Zelandiyaya da kütləvi qaydada ingilislər gəlməyə başlamışlar. Beləliklə, Avstraliya hələ 150 il bundan əvvəl ora gətirilmiş hər cürə **avantürist cəsusu tərbiyə edən böyük bir ölkədir.**

1827-ci ildə İngiltərə bütün qitə üzərində özünün hakim olduğunu bəyan etmişdir.

XIX əsrin birinci yarısında burada iki ən böyük coşqunluq-canlanma vəziyyəti yaranmışdır.

1. **Böyük çəmənliklərin olmasının müəyyən edilməsi**. Müstəmləkəçilər hər cür özbaşınalıqla torpaqları zəbt edir, qoyunçuluq təsərrüfatları yaradırdılar. Bu isə İngiltərədən, Uelsdən, Şotlandiya və İrlandiiyadan gələnlərin artmasına səbəb olurdu.

2. **«Qızıl-hay-küyü-coşğunluğu»** 1850-ci illərdə – əvvəlcə Viktoriya ştatında, sonra Qərbi Avstraliya ştatında zəngin qızıl yataqlarının olması müəyyənləşmişdir. O vaxt Avstraliya dünya qızıl istehsalının 40 %-ni verirdi. Beləliklə, qızılın kəşfi bura gələnlərin sayını sürətlə artırmışdır. Əhalinin sayı 1861-ci ildə 1,1 mln., 1881-ci ildə 2,2 mln., 1901-ci ildə isə 3,8 mln. nəfər olmuşdur.

Avstraliyanın ərazisi 7,7 mln. kv. km, əhalisi 20,2 mln. nəfərdir (2005). Paytaxtı Kanberradır. Böyük şəhərləri - Sidney (4 mln.), Melburn (3,04 mln.), Brisben, Pert, Adelaida və s. Əhalisinin əsasını mənşəcə Böyük Britaniya və İrlandiyadan köçənlər, eləcə də digər ölkələrdən olan mühacirlər təşkil edir. Yerli əhalisi aborigenlərdir – təqribən 228 min nəfər. 230 min nəfər də keçmiş SSRİ-dəndir.

Rəsmi dövlət dili ingilis dilidir. Avstraliya parlamentli monarxiyadır. Avstraliya Böyük Britaniyanın həmrəyliyi[1] daxilində

[1] Böyük Britaniya həmrəyliyi – 1931-ji ildə yaranıb. Britaniyanın keçmiş müstəmləkələrini əhatə edir. 1947-ji ilədək Britaniya millətlərinin həmrəyliyi adlanırdı.

Federal dövlətdir. 1901-ci ildən konstitusiya fəaliyyət göstərir. İnzibati-ərazi bölgüsünə görə 6 ştatdan və 2 ərazidən ibarətdir. Bu inzibati vahidlərin özünün parlamenti və icraedici orqanları vardı. Avstraliya BMT-nin (1945), İƏ və İT-in (1977), Asiya-Sakit okean iqtisadi əməkdaşlığının və digər təşkilatların üzvüdür.

Yeni Zelandiya Sakit okeanın cənub-qərb hissəsində yerləşir. Ərazisi 270,5 min kv.km, əhalisi 4,1 mln. (2005) nəfərdir. Paytaxtı Vellinqtondur. Böyük şəhərləri - Oklend, Kraystçerç, Danidin, Hamiltondur. Rəsmi dövlət dili ingilis dilidir.

Yeni Zelandiya da Böyük Britaniyanın həmrəyliyi daxilində parlamentli konstitusiyalı monarxiyadır. İnzibati-ərazi bölgüsünə görə 10 əyalətdən ibarətdir.

Hər iki dövlət 1931-ci ildən müstəqillik əldə etmişdir, lakin Britaniya ilə öz tarixi əlaqələrini saxlayırlar. Hər iki ölkədə urbanizasiya prosesi gedir. Əhalinin 85%-i şəhərlərdə yaşayır.

2. Avstraliya və Yeni Zelandiyanın iqtisadiyyatının ümumi xarakteristikası

Avstraliya və Yeni Zelandiya hər ikisi inkişaf etmiş sənaye-aqrar ölkəsidir. Zəngin faydalı qazıntılar ehtiyatına malikdirlər. Avstraliyada dəmir filizi, kömür, boksidlər, mis, qurğuşun, sink, nikel, titan, qalay, qızıl, almaz kimi minerallar, təbii qaz, uran, neft kimi enerji ehtiyatları mövcuddur.

Yeni Zelandiyada da kömür, neft, təbii qaz, dəmir, qızıl yataqları mövcuddur. Bir çox iqtisadi göstəricilərə görə İƏ və İT ölkələri içərisində Avstraliya 13-cü yeri tutur.

2005-ci ildə ÜDM-in həcmi 708,5 mlrd. dollar olmuşdur. ÜDM-in 16 %-i emal sənayesinin payına düşür. Kimya, elektrotexnika, metallurgiya sənayesi, avtomaşınqayırma sahələri daha yüksək inkişaf etdirilmişdir. Hər nəfər hesabı ilə istehsal edilən elektrik enerjisinə görə birinci yerlərdən birini tutur.

Avstraliyanın iqtisadiyyatı digər inkişaf etmiş ölkələrdən onunla fərqlənir ki, burada dağmədən sənayesinin xüsusi çəkisi artıqdır (ÜDM-in 5 %-i). Bu ölkə dünyanın mineral bazarlarından biri hesab edilir. Avstraliya – boksidlər, sink və almaz istehsalına görə dünyada birinci, dəmir filizi, uran və qurğuşun istehsalına görə ikinci, nikel və qızıl istehsalına görə – üçüncü yeri tutur. Kömür, marqans və gümüş istehsalına görə birinci beş dövlət, mis və qalay istehsalında isə ilk 10 dövlətlər sırasındadır.

Cədvəl

Avstraliyanın dağmədən sənayesi (2000)

	Məhsullar	İstehsal	İxrac
1	Daş kömür, mln. ton	235	195
2	Neft, mln. ton	40	-
3	Təbii qaz, mlrd. m^3	30	5
4	Uran konsentratı, min ton	8,9	8,9
5	Dəmir filizi, mln. ton	170	165
6	Marqans filizi, mln. ton	2,1	2,0
7	Mis filizi, min ton	420	100
8	Sink konsentratı, min ton	1260	700
9	Qurğuşun konsentratı, min ton	700	250
10	Boksitlər, mln. ton	55	5
11	Qlinozem (gil torpaq), mln. ton	15,5	15
12	Nikel, min ton	70	60

Yeni Zelandiyada isə ÜDM-in həcmi 2005-ci ildə 108,5 mlrd. dollara, hər nəfərə düşən məhsul isə 27125 dollara bərabər olmuşdur. Daha qabaqcıl sənaye sahələri - yeyinti, meşə, sellüloz-kağız, maşınqayırma, kimya, parça sənayesi hesab olur. Son illər balıq sənayesi də yüksək sürətlə inkişaf etdirilir.

Hər iki ölkədə 1980-1990-cı illərdə iqtisadiyyatın inkişafı üçün bir çox islahatlar və tədbirlər həyata keçirilmişdir. Bunlardan aşağıdakıları qeyd etmək olar:

- iqtisadiyyatda quruluş dəyişikliyi edilməsi: elmtutumlu istehsalın inkişafı, ənənəvi sahələrdə daha effektivli texnologiyanın tətbiqi;

- özəlləşdirmə keçirilməsi və tənzimlənmənin azaldılması, dövlət bölməsinin ixtisar edilməsi;

- xarici iqtisadi inkişaf strategiyasına yenidən baxılmasını həyata keçirmək.

Böyük Britaniya və Avropa bazarlarına ölan istiqaməti Asiya-Sakit okean ərazisindəki inteqrasiya birliklərinin (ASEAN)[1] və ABŞ-ın bazarlarına yönəltməyi, xarici kapitalın milli iqtisadiyyata axmasına zəmin yaratmağı, xarici mallara olan tarif dərəcələrini azaltmağı nəzərdə tuturdular:

- vergi islahatı aparılması və maliyyənin sağlamlaşdırılması. Burada sahibkarlıq fəaliyyətinin artması məqsədilə vergi dərəcələrinin azaldılması və ÜDM-də dövlət xərclərinin aşağı salınması nəzərdə tutulurdu;

- ciddi kredit-pul siyasəti həyata keçirilməsi nəticəsində inflyasiyanın qarşısının alınması, əmək haqqı üzərində və faiz dərəcələri üzərində nəzarət ön plana çəkilirdi.

Beləliklə, nəzərdə tutulmuş islahatlar Avstraliya və Yeni Zelandiyada bazar münasibətlərinin və rəqabətin genişlənməsinə zəmin yaratmışdır.

Bu isə milli istehsalın keyfiyyətinin və bütövlükdə makroiqtisadi göstəricilərin yaxşılaşmasına kömək etmişdir.

Yeni mühafizəkar xarakterli islahatlar Yeni Zelandiyada daha ciddi olmuşdur. Daha doğrusu demək olar ki, dünyanın ən tənzim olunan, qapalı iqtisadiyyatından, ən sərbəst, vergi dərəcəsi aşağı olan, biznesin və xarici ticarətin inkişafına zəmin yaradan iqtisadiyyata keçid baş vermişdir. Hərtərəfli özəlləşdirmə həyata keçirilmişdir ki, bu da nəticə etibarilə nəqliyyat və rabitə sahəsində bütün infrastrukturun və eləcə də emal sənayesinin bir çox müəssisələrinin xüsusi mülkiyyətə keçməsinə səbəb olmuşdur. Bu kimi islahatların keçirilməsi ilə dövlətin milli məhsulun - yenidən bölküdəki rolunu da azaltmışdır ki, bu da cəmiyyətdə təbəqələşmənin artmasına səbəb olmuşdur. Xüsusi sahibkarlar artmışdır. 1990-cı illərin ortalarından Avropada sosial istiqamətli partiya və hərəkatlar artdığı halda, Avstraliya və Yeni Zelandiyada yeni mühafizəkarlar güclənmişdir. Hər iki ölkənin immiqrasiya siyasətində köklü dəyişiklik edilmişdir. Avropa ölkələrindən daha yüksək ixtisaslı kadrlar cəlb edilməsi kursu götürülmüşdür. Keçmiş SSRİ respublikalarından, mərkəzi və şərqi Avropadan gələnlərə də üstünlük verirlər.

[1] ASEAN-Asiya-Sakit okean regionunda inteqrasiya birliyi. 1967-ci ildə yaradılıb. İndoneziya, Malayziya, Sinqapur, Tailand, Filippin, Myanma, Bruney, Laos, Vyetnam və s. ölkələr daxildir.

Bütün bunlara baxmayaraq hər iki ölkədə iqtisadiyyatın ixraca istiqamətlənməsi hələ də qalmaqdadır. Daha doğrusu iqtisadiyyatın inkişafında xarici amilin rolu yüksəkdir. İxracda kənd təsərrüfatının xüsusi çəkisi daha artıqdır. Ancaq son vaxtlar maşınqayırma məhsulları da nisbətən artır. Ümumdünya ticarət təşkilatının (ÜTT) məlumatına görə 2005-ci ildə Avstraliyanın ticarət balansında mənfi saldo 20,0 mlrd. dollar, xidmət balansında isə mənfi saldo 0,9 mlrd. dollar təşkil etmişdir.

3. Avstraliya və Yeni Zelandiyanın iqtisadiyyatının quruluşu

Son illərin məlumatına görə Avstraliya və Yeni Zelandiyada iqtisadiyyatın quruluşu aşağıdakı kimi olmuşdur (2005):

Cədvəl

	Avstraliya		Yeni Zellandiya	
	ÜDM-də xüsusi çəkisi, %	işçilərin xüsusi çəkisi, %	ÜDM-də xüsusi çəkisi, %	işçilərin xüsusi çəkisi, %
Kənd təsərrüfatı, meşə və balıq sənayesi	3,0	5,2	8,0	10,5
Sənaye	26,0	23,8	23,0	23,5
Qeyri-maddi istehsal	71,0	71	69,0	66

Cədvəldən göründüyü kimi digər sənaye ölkələrində olduğu kimi, bu ölkələrdə də xidmət sahələrinin xüsusi çəkisi artıqdır. Bununla yanaşı qeyd etmək lazımdır ki, hər iki ölkədə kənd təsərrüfatı iqtisadiyyatın aparıcı sahəsi hesab edilir. Avstraliyada ixracın 40 %-i, Yeni Zelandiyada isə 52 %-i kənd təsərrüfatının payına düşür.

Avstraliya və Yeni Zelandiya dünyada ən qabaqcıl yun, ət, süd məhsulları ixrac edən ölkələrdən biridir. Avstraliyada 20 mln. baş iri buynuzlu malqara, 170 mln. baş qoyun vardır. Avstraliya dünyada ən çox yun istehsal edən və ixrac edən ölkələrdən biridir. İldə 700 min ton yun, 3 mln. ton ət istehsal edilir.

Aydındır ki, kənd təsərrüfatının əsasını torpaq fondu təşkil edir, adını çəkdiyimiz hər iki ölkə geniş torpaq sahəsinə malikdir. Belə ki, kənd təsərrüfatında çalışan hər nəfər işçiyə düşən torpaq fondu Avstraliyada 671, Şimali Amerikada 155, Yeni Zelandiyada 69 hektar təşkil edir.

Qərbi Avropada bu göstərici 12 hektardır. Bütünlükdə inkişaf etməkdə olan ölkələrdə bu göstərici orta hesabla 2,2; dünya üzrə isə 3,7 hektardır.

Avstraliyada ildə 26 mln. ton taxıl istehsal edilmişdir (2000) Yeni Zelandiya dünya üzrə süd məhsulları bazarının 25 %-nə nəzarət edir. Yun ixracına görə ancaq Avstraliyadan geri qalır. 8 mln. baş iri buynuzlu malqarası, 70 mln. baş qoyunları vardır. İldə 1 mln. ton ət, 200 min ton yun istehsal edilir.

Bunlardan əlavə hər iki ölkədən taxıl, tərəvəz, meyvə ixracı da xüsusi rola malikdir. Yeni Zelandiyada son vaxtlar gülçülük də inkişaf etdirilir.

Avstraliya və Yeni Zelandiyada dəniz məhsullarının emalı və təyyarə ilə Yaponiyaya və Cənubi-Şərqi Asiyanın digər ölkələrinə göndərilməsi də artmışdır.

Yeni Zelandiyada meşə sənayesi də yüksək inkişaf tapmışdır. Ağac emalının 60 %-i süni salınmış meşələrdən hazırlanır. Hər iki ölkə ekoloji mədəniyəti baxımından çox fərqlənirlər. Ətraf mühitin təmizliyi çox yüksək səviyyədə gözlənilir. Məhsulların ekoloji cəhətdən təmizliyinə ciddi fikir verilir. Tullantıların ətraf mühitə təsiri ciddi nəzarətdə olur.

Sənayenin inkişafında Avstraliyada emal sənayesi daha çox xarakterikdir. Eləcə də metallurgiya və metal emalı, maşınqayırma (o cümlədən gəmiqayırma, təyyarəqayırma, avtomaşınqayırma), energetika avadanlığı; kimya sənayesi, toxuculuq sənayesi, paltar, ayaqqabı istehsalı, yeyinti sənayesi (Yeni Zelandiya da daxil olmaqla), hər iki ölkədə sellüloz-kağız və ağac emalı sənayesi daha çox inkişaf tapmışdır. Kompüter və telekommunikasiya kimi elmtutumlu sahələr də sürətlə inkişaf etdirilir.

Avstraliya alüminium və plastikdən hazırlanmış yüngül kəmi istehsalı və ixracına görə qabaqcıl yerlərdən birini tutur. Lakin bütünlükdə istər texnologiyanın inkişafına görə və istərsə də **istehsalın elmtutumlu səviyyəsinə görə hər iki ölkənin heç birisi liderlər cərgəsinə daxil deyildir**. Avstraliyada inşaat sənayesi də yüksək beynəlxalq nüfuza malikdir. Onu qeyd etmək kifayətdir ki, Hindiçin adasında ən böyük çay olan Mekonq çayı üzərində körpü və Cənubi-Şərqi Asiyada bir çox elektrik stansiyaları da avstraliyalılar tərəfindən inşa edilmişdir.

Yükdaşımalarının 90 %-ə qədəri dəniz nəqliyyatı ilə həyata keçirilir. Hər iki ölkədə xidmət dairəsi çox dinamik inkişaf etdirilir.Turizm və maliyyə xidməti sürətlə genişlənir (Avstraliya ildə 3-5 mln. turist qəbul edir). Avstraliya Sidneyi əsas maliyyə mərkəzlərindən birinə çevrilibdir. Xarici ticarətin xarakterizə edilməsində onu göstərmək olar ki, hər iki ölkədə xarici ticarət xammal və kənd təsərrüfatı istiqamətlidir. Əsas xarici ticarət tərəfdaşları ABŞ, Yaponiya, Cənubi-Şərqi Asiya ölkələri və Avropa İttifaqı ölkələridir.

Avstraliyada 2005-ci ildə ixrac 106 mlrd. dollar, idxal isə 125,3 mlrd. dollar olmuşdur. İxracın 38 %-i mineral xammal və yanacaq, 20 %-i ərzaq məhsulları, 12 %-i maşınqayırma məhsulları hesabına formalaşır. Dünya üzrə yun ixracının 50 %-i, kömürün – 32 %-i, dəmir filizinin – 28,6 %-i, əsas metalların – 21 %-i, ətin – 6,5 %-i Avstraliyanın payına düşür. İdxalda avtomobil, xam neft, elektron-hesablama texnikası, tibbi preparatlar üstünlük təşkil edir.

Yeni Zelandiyada xarici ticarətin həcmi 48 mlrd. dollar təşkil etmişdir (2005). İxrac kvotası – 27 %-dir. İxracda quru süd, yağ, pendir – 17 %, ət – 14 %, parça – 7 %, ağac və ağac məmulatı – 8 % təşkil edir.

Dünya üzrə yağ ixracının - 18,2 %-i, yunun 12,6 %-i, südün – 8,3 %-i, pendirin – 5 %-i bu ölkənin payına düşür.

Avstraliya kapitalın beynəlxalq hərəkətində fəal iştirak edir. Son illərdə Avstraliya təsərrüfatına qoyulan cəmi birbaşa xarici kapital – 174,2 mlrd. dollar təşkil etmişdir.

ÜDM-in 20 %-ə qədəri xarici kapitalın nəzarəti ilə yaradılmışdır. Avstraliyanın xaricdə olan birbaşa və portfel kapitalı – 117,1 mlrd. dollara bərabərdir. Xarici borcu ÜDM-in 33,5 %-i qədərdir.

Yeni Zelandiyanın iqtisadiyyatına qoyulan cəmi xarici kapital – 38 mlrd. dollar, xaricə yönəldilmiş kapital isə 37,3 mlrd. dollardır. Bu ölkənin xarici borcu -35,1 mlrd. dollardır.

Hər iki ölkədə məktəblərdə 6 yaşdan 15 yaşınadək təhsil məcburi və pulsuzdur.

XXVIII FƏSİL
İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN (İEOÖ) İQTİSADİYYATI

1. *İnkişaf etməkdə olan ölkələrin əsas əlamətləri.*
2. *İnkişaf etməkdə olan ölkələrdə sosial-iqtisadi dəyişikliklər.*
3. *İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafının differensiallaşması.*
4. *İnkişaf etməkdə olan ölkələrin daxili bazarı.*

1. İnkişaf etməkdə olan ölkələrin ümumi xarakteristikası

Əvvəllər bu yarımsistem ölkələrə "İqtisadi cəhətdən geridə qalmış ölkələr", "azad olmuş ölkələr", "zəif inkişaf etmiş ölkələr", "üçüncü dünya ölkələri" və bu kimi adlar verirdilər. Son onilliklərdə isə "inkişaf etməkdə olan ölkələr" anlayışı daha çox işlədilir.

Onu qeyd etmək kifayətdir ki, BVF-nin üzvü olan təqribən 185 ölkənin 130-u bu yarımsistemə daxildir.

Bu yarımsistemə daxil olan 48 ölkə daha kasıb şəraitdədir. Bunlardan 33 ölkə Tropik Afrikada, 10 ölkə Asiyada, 4 ölkə Okeaniyada, 1 ölkə Latın Amerikasındadır (Haiti), dünya əhalisinin təqribən 2,5%-i bu ölkələrdə yaşayır, ÜDM-in isə 0,1 %-ni istehsal edirlər.

Bu ölkələrin əsas əlamətlərindən biri onların zəif inkişafıdır. Bu anlayışa aşağıdakı ümumi cəhətləri daxil etmək olar: aşağı həyat səviyyəsi; mütləq yoxsullaşma; iqtisadi artımın aşağı olması; səhiyyə xidmətinin qeyri-qənaətbəxş olması; ölüm və doğum faizinin yüksək olması; xarici ölkələrdən asılılıq; öz ehtiyatlarından sərbəst istifadə manevrinin məhdudlaşması və s. Bütün bunları hər nəfərə düşən ÜDM-in həcmi ilə xarakterizə etsək aşağıdakı mənzərə alınar.

Beləki, 2005-ci ilin məlumatına görə inkişaf etmiş sənaye ölkələrində bu göstərici orta hesabla 28919, Avropa İttifaqına

daxil olan ölkələrdə -23569, 7-lər qrupuna daxil olan ölkələrdə isə – 37580 dollara bərabər olduğu halda, həmin yarımsistem ölkələrdə bu göstərici orta hesabla – 4000-5000 dollar təşkil etmişdir. 1997-ci ildə bu göstərici 1314 dollar olmuşdur. Onu da qeyd etmək lazımdır ki, neft ixrac edən ölkələr bu orta göstəricinin nisbətən artmasına zəmin yaratmışlar.

Həmin göstəriciyə görə ən yoxsul ölkələr Həbəşistan, Zambiya, Qvineya-Bisau, Ruanda, Nepal, Nigeriya, Uqanda, Hindistan, Geniya, Nikaraqua, Qonduras, Seneqal, Peru və sairə hesab edilir. Zambiya və Qvineya-Bisauda əhalinin 85 %-nin hər gününə 2 dollardan az düşür.

Bütünlüklə bu yarımsistem ölkələrdə 1,3 mlrd. nəfər (inkişaf etmiş ölkələrdə isə təqribən 100 mln. nəfər) kasıb halında yaşayır. Bəzi məlumatlara görə əhalinin 30 %-i mütləq mənada dilənçi vəziyyətindədir. Cənubi Asiya və Afrikada isə bu göstərici müvafiq olaraq 43 və 39 %-dir.

Hər il 14 mln. uşaq (beş yaşa çatmamış) acından ölür. 1,5 mlrd. adam səhiyyə xidmətindən istifadə edə bilmir. Yaşlı adamlar arasında savadlılıq 65 %-ə bərabərdir. 130 mln. uşaq məktəbə getmir. Bu ölkələri bir çox cəhətdən fərqləndirmək olar:

- bazar münasibətlərinin inkişaf səviyyəsinə görə;
- dünya iqtisadi əlaqələrinə qovuşması formalarına görə;
- hər nəfərə düşən ÜDM-in həcminə görə.

Şərti olaraq bu ölkələri üç qrupa bölmək olar:

Birinci - yüksək səviyyəli ölkələr. Burada da bir neçə cəhəti qeyd etmək lazımdır:

- bəzi ölkələrdə dövlətin, xarici və yerli kapitalın gücü ilə inteqrasiya əlaqələri yaranıb, onlar dövlət təsərrüfatına qovuşa bilibdir. Bura Argentina, Uruqvay və Çili aiddir. Eləcə də neft ixrac edən ölkələr də bura daxildir;
- yüksək iqtisadi və demoqrafik potensiala, texnologiyaya, iqtisadi yetginliyə malik olan ölkələr. Bura Braziliya və Meksikanı aid etmək olar. Onlar Yeni sənaye ölkələri sırasına daxildilər. Meksika İƏ və İT-in üzvüdür. Eləcə də ABŞ və Kanada ilə yanaşı Şimali Amerika azad ticarət birliyinin (NAFTA-1994-cü il) üzvüdür;

- Cənubi-Şərqi Asiyanın yeni sənaye ölkələri - Honkonq, C.Koreya, Sinqapur və Tayvan. Bu ölkələrdə dinamik inkişaf və beynəlxalq əmək bölküsündə fəal iştirak etmək artıq formalaşmışdır. Bazar iqtisadiyyatı münasibətləri hakim rol oynayır;
- lüksək iqtisadi inkişaf əldə etmiş digər bəzi ölkələr - Baham adaları, Kipr, Aomın (Makao).

İkinci - orta səviyyəli ölkələr. Bura Türkiyə, Tailand, Misir və s. ölkələri daxil etmək olar. Bu ölkələr kütləvi ənənəvi təsərrüfatçılıqdan cəsarətlə müasir inkişaf xəttinə keçə bilirlər. Türkiyə NATO-nun, İƏ və İT-in üzvüdür:

- son vaxtlar müasir inkişafa keçmiş, xammal satmaqla dünya təsərrrüfatına qoşula bilən bəzi ölkələr;
- yüksək iqtisadi və demoqrafik potensiala malik, lakin hər nəfərə düşən ÜDM-in həcmi az olan ölkələr-Hindistan, Pakistan, İndoneziya.

Üçüncü - daha az inkişaf etmiş ölkələr və s.

Vahid Dünya Təsərrüfatının yarımsistemlərindən biri olan inkişaf etməkdə olan ölkələr dünya ölkələrinin 80 %-ə qədərini əhatə edir. Elə dünya əhalisinin bir o qədəri də həmin ölkələrdə yaşayır. Deməli, bu ölkələrin ümumi iqtisadi, siyasi, sosial vəziyyəti və digər hər cürə problemləri dünya əhalisinin daha çox hissəsinin həyatı ilə bağlıdır.

Bu yarımsistemə (Yaponiya, Cənubi Koreya və İsraildən başqa) bütün Asiya ölkələri, bütün Afrika ölkələri (CAR-dan başqa), eləcə də Latın Amerikası ölkələri daxildirlər.

Bu ölkələrin hamısına xas olan əsas cəhətlər ondan ibarətdir ki, onlarda mənəvi sima, həyat tərzi, qeyri-bərabər iqtisadi, sosial inkişaf səviyyəsi və şəraiti eyniliyi mövcuddur.

Bütün bu ümumi əlamətlərin də sosial, iqtisadi və tarixi kökləri vardır. Bu da ilk növbədə ondan ibarətdir ki, həmin ölkələrin tarixi inkişafında onların müstəmləkə və yarımmüstəmləkə şəraitində yaşamaları dərin iz salmışdır. Bu ölkələrin çoxu uzun illərdən (yüz illərlə) sonra xalqların milli azadlıq mübari-

zəsi nəticəsində, 1950-1960-cı illərdə imperializmin müstəmləkə sisteminin dağılması ilə yarana bilmişdir. Latın Amerikasının bəzi ölkələrində isə (Braziliya-1822, Meksika-1821, Argentina-1816, Çili-1810 və s.) formal olsa da XIX əsrin birinci yarısında müstəqillik əldə edilmişdir.Uzun tarixi bir dövrdə Asiya, Afrika, və Latın Amerikası ölkələrinin məhsuldar qüvvələri demək olar ki, dəyişməmişdir. Tərəqqi, inkişaf, təkmilləşdirilmə prosesi özünü çox ləng göstərmişdir.

İctimai-iqtisadi inkişafın xarakteri çətin dəyişərək sosial-iqtisadi strukturlar ancaq müəyyən təbəqələr arasında yaranırdı, bir təbəqədən digərinə keçirdi. Məhsuldar qüvvələrdəki bu cür müxtəliflik həmin ölkələrdə çox ukladlılıq yaratmışdır.

Lakin vaxt keçdikcə bu ölkələrdə Qərbin kapital axını onlarda olan ənənəvi təkrar istehsal prosesini qıra bilmişdir. Az-çox əmtəə təsərrüfatı ukladı yaranmışdır. Lakin çox ukladlı təsərrüfatçılıq, onların arasındakı qarşılıqlı sistemin məhdudluğu, kapital qoyuluşundakı mənfəət götürmək məqsədi və bu kimi cəhətlər onlarda xüsusi növ həyat tərzi yaratmışdır.

Müstəmləkəçiliyin nəticəsidir ki, 1950-ci illərdə bu ölkələrdə həyat səviyyəsi hətta 1800-ci illərin səviyyəsindən aşağı idi.

2. İnkişaf etməkdə olan ölkələrdə sosial-iqtisadi dəyişikliklər

Bütünlükdə geriliyin və asılılığın aradan qaldırılması məsələləri istər-istəməz ilk növbədə həmin ölkələr arasında daxili əlaqələrin möhkəmlənməsini və onların sosial-iqtisadi siyasətinin inkişafında ümumi istiqamət yaradılmasını tələb edirdi.

Həmin ölkələrdə ənənəvi təsərrüfatçılıq strukturları tədricən təsərrüfatçılığın müasir formaları ilə əvəz edilmişdir. Dünya təsərrüfatının təsiri altında inteqrasiya əlaqələri, elmi-texniki yeniliklər haqqında məlumat əldə edilməsi, əmtəə-pul münasibətlərinin genişlənməsi, yeni texnologiyanın istifadəsinə və s. zəmin yaranmışdır.

Dərin kök salmış ənənəvi təsərrüfatçılıq iqtisadi cəhətdən faydalı olmasa da, məşğulluğa az-çox kömək edir, yeni təsərrüfatçılıqlarda, sahibkarlıqda mənfəəti artırmağa, muzdlu əməkdən istifadə də köhnəliyi saxlamağa çalışırlar. Bu cür əhval-ruhiyyə ilə də həmin ölkələrin çoxu müasir iqtisadiyyata qoşulmuşlar. Odur ki, həmin ölkələrdə iqtisadi, sosial-mədəni, məişət və s. proseslərin təkrar istehsalı ənənəvi kökə əsaslanır və yeni ictimai sistemin yaranması bir çox ziddiyyətlərlə rastlaşırdı. Ona görə də həmin ölkələrdə təsərrüfatçılığın yeniləşməsi, müasir strukturların yaranması biri-birindən xeyli fərqlənir. Belə ki, 1960-cı ilə nisbətən 1980-ci illərdə natural təsərrüfatın xüsusi çəkisi (ÜDM-də) Latın Amerikası ölkələrində 7 %-dən 5 %-ə, Asiya ölkələrində 40 %-dən 23 %-ə, Afrika ölkələrində isə 33 %-dən 25 %-ə enmişdir. Deməli, **Latın Amerikası** ölkələrində iqtisadiyyatda müasir bölmə daha çox üstünlüyə malik olmuşdur. **Asiya və Afrika** ölkələrində əhalinin çoxu ənənəvi təsərrüfat strukturlarında çalışırlar. Latın Amerikası ölkələrində 1980-ci illərdə kənd təsərrüfatının ənənəvi bölmələrində işləyənlər cəmi işçilərin 19 %-ni təşkil etdiyi halda, Hindistanda bu göstərici 90 %-ə bərabər olmuşdur (burada demoqrafik artımın da rolu vardır). Beləliklə, həmin yarımsistemdə hələ də milyonlarla adamın tələbatının ödənilməsi ənənəvi istehsal üsulundan asılı olaraq qalır.

Sosial-iqtisadi inkişafda dövlətin rolu. Hər bir iqtisadi sistemdə bu sistemin inkişafının dinamikasını və məzmununu müəyyən etmək üçün iqtisadi sistemlər (ünsürlər) mövcud olmalıdır. Müstəmləkə asılılığı dövründə də bəzi iqtisadi və qeyri-iqtisadi tənzimləmə metodlarından istifadə edilirdi. Müstəqillik əldə etdikdən sonra həmin ölkələrdə təkrar istehsal prosesinin hərəkətverici qüvvəsi (milli xüsusi kapital zəif olduğu üçün) ya milli dövlət kapitalından və yaxud da xarici kapitaldan ibarət olmuşdur.

Dövlət ayrı-ayrı bölmələrdə təkrar istehsal prosesinə zəmin yaratmaqla, müəyyən sahələrə maneçilik də göstərə bilər. Hər halda həmin regionlarda yerli-milli dövlət geniş planlaşdırma sistemi tətbiq edirdi. İqtisadiyyatda dövlət mülkiyyəti yaranmışdır. 80-ci illərin ortalarına həmin ölkələrdə dövlət

bölməsinin mövqeyi xeyli güclənmişdir. Dövlət demək olar ki, bütün infrastruktura tikintisini öz üzərinə götürmüşdü. Dövlət bölməsində neft istehsalı, metallurgiya, maşınqayırma, kimya sənayesi kimi perspektivli sahələr yaranmışdır. Həmin yarımsistemdə ÜDM-də dövlət bölməsinin xüsusi çəkisi 70-ci ildəki 7 %-dən artaraq 80-ci ildə 12 %-ə bərabər olmuşdur. Dövlət bölməsinin xüsusi çəkisi sosialist sisteminə meyilli olan ölkələrdə daha yüksək olmuşdur. Belə ki, Əlcəzairdə və Misirdə sənaye məhsulunun 80 %-i, kənd təsərrüfatı məhsulunun 60 %-i Anqola və Həbəşistanda bir çox zəruri məhsulların 50-100 %-i dövlət bölməsində istehsal edilmişdir. Digər ölkələrdə də ÜDM-də dövlət bölməsinin xüsusi çəkisi kifayət qədər olmuşdur - Boliviyada 40 %, Pakistan və Qanada 25 %, Hindistanda 12 %, Cənubi Koreyada 11% təşkil etmişdir.

Beləliklə, dövlət sahibkarlığının miqyası artmış və iqtisadi inkişafda əsas qüvvəyə çevrilmişdir. Bununla yanaşı dövlət mülkiyyətinin yaranması və bərqərar olması prosesində müəyyən ziddiyyətlər də vardır. Çünki o, başqa mülkiyyət formaları hesabına yaradılırdı. Buradan da dövlət mülkiyyəti onların təkrar istehsal miqyasını məhdudlaşdırırdı. Hər halda dövlət bu ölkələrin yüksək iqtisadi və sosial bazaya malik olmasına və sabitlik yaradılmasına nail ola bilmişdir. Müasir şəraitdə bazar münasibətlərinin inkişafı ilə iqtisadiyyatdakı dövlət bölməsi öz hakim rolunu itirir və daha yetgin olan sahibkarlıq bölməsi ilə qovuşur.

Xarici kapital və sosial-iqtisadi inkişaf

Bütün qeyd edilənlərdən aydın olur ki, Asiya, Afrika və Latın Amerikası regionlarının ölkələri istismar ağalığının obyektinə çevrildiyi vaxtdan bu ölkələrdə daxili mənbələrə əsaslanmış tarixi inkişaf prosesi pozulmuşdur. Bu ərazilərin iqtisadiyyatı metropoliyaların təsərrüfat dairəsinə çevrilmişdir. Ona görə də bu ölkələr müstəqillik əldə etsələr də onların ictimai-iqtisadi həyatında köklü dəyişikliklər ləng gedir. Odur ki, bu ölkələr xarici iqtisadi əlaqələrin genişlənməsinə çox üsütünlük verməli olurlar. Bu xarici əlaqələr əsasən:

- xarici ticarət;
- xarici kapital;
- xarici köməklik;
- xarici texnologiya;
- milli kadrlar hazırlanmasına kömək formasında həyata keçirilir.

Bu "üçüncü dünya" ölkələrinin sosial-iqtisadi inkişafında xarici kapitalın da (TMŞ) böyük rolu olmuşdur. Hələ 50-ci illərin əvvəllərində ABŞ, Böyük Britaniya və Fransanın kapitalı həmin ölkələrin neft və təbii qaz ehtiyatının 70 %-nə, mineral ehtiyatlarının 70-100 %-nə nəzarət edirdi. Qərb ölkələrinin iri şirkətləri Cənub-Şərqi Asiyada, Afrika və Latın Amerikasında çay, kauçuk, banan və bu kimi sahələrdə böyük plantasiyalar yaratmaqla çoxlu kənd təsərrüfatı sahəsinə sahib olmuşdular.

1960-cı ilin axırlarına inkişaf etməkdə olan ölkələrin cəmi məhsulunun 25 %-i xarici kapitala mənsub olan müəssisələrdə yaradılmışdır. Aydındır ki, vaxt keçdikcə xarici kapitalın rolu nisbətən azalmışdır. 1990-cı ildə isə həmin xarici şirkətlərin müəssisələrinin xüsusi çəkisi (ÜDM-də) 7 %-ə enmişdir.

Bir çox bəzi ölkələr isə xarici kapitaldan – TMŞ-in fəaliyyətindən daha geniş istifadəyə üstünlük verirlər. 50-60-cı illərdə həmin ölkələrdə TMK-ın filialları yaranırdısa, 70-ci illərdə qarışıq müəssisələrin təşkili genişlənmişdir. Hazırda da mürəkkəb texnologiyaya əsaslanan istehsalda TMŞ-nin müəssisələrinin nəzarəti hakim rola malikdir. İqtisadiyyatın inkişafında daha vacib sahə olan emal (maşınqayırma, neft kimya və s.) sənayesinə qoyulan kapitalın həcmi ardıcıl olaraq artmaqdadır. Hətta bəzi ölkələrdə xarici kapital milli kapitalın mövqelərini sıxışdırmışdır.

Məsələn, Sinqapurda emal sənayesinə qoyulmuş cəmi kapitalın 1859-cu ildə 79 %-i milli kapitalın hesabına olduğu halda, 1977-ci ildə bu 9,4 %-ə enmişdir. Orada milli xüsusi kapital xidmət sahələrinə daha çox yönəldilir. İqtisadi hesablamalara görə həmin ölkələrdə ixrac olunan sənaye məhsulunun 30 %-ə

qədəri TMŞ-rin xətti ilə həyata keçirilir. Azad iqtisadi zonalarda TMŞ-rin fəaliyyəti daha genişdir.

3. İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafının differensiallaşması

Bu "üçüncü" dünya ölkələri nə qədər sabit, ümumi cəhətlərə malik olsalar da, hər halda onlar təbii ehtiyatlarla təmin olunma səviyyəsinə görə, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafına görə, demoqrafik və sosial göstəricilər və s. görə fərqlənirlər.

Beləliklə, tarixən başqa ölkələrə də xas olan sosial-iqtisadi inkişaf baxımından qeyri-bərabərlik bu ölkələrdə də artıq müşahidə olunur.

80-90-cı illərdə bu ölkələrdə iqtisadi differensiallaşma prosesi güclənmişdir. İqtisadi inkişaf səviyyəsinə, xalq təsərrüfatının quruluşuna, dünya təsərrüfatındakı mövqeyinə və s. görə bu ölkələr arasında müəyyən qruplaşma-ayrılma özünü göstərir. Bu kimi qeyri-bərabərlik demək olar ki, müstəmləkə dövründən miras qalmışdır. Belə ki, vaxtı ilə müstəmləkəçi dövlətlərin bəzilərinin özündə mineral ehtiyatları az olduğu üçün onlar öz müstəmləkə ölkələrində emal sənayesinə diqqəti artırmışlar (yerlərdə emal edilirdi). Məsələn, Yaponiya İkinci Dünya müharibəsinədək Koreyada böyük metallurgiya və kimya sənayesi yaratmışdır, məhsulunu da özü aparırdı. Ona görə də İginci Dünya müharibəsi ərəfəsində Koreya kimya və qara metallurgiya məhsulu istehsalının həcminə görə bütünlükdə **Asiya ölkələrindən irəlidə idi.**

1938-ci ildə bütün inkişaf etməkdə olan ölkələrin emal sənayesi məhsulunun 73,3 %-i 13 asılı ölkənin (Argentina, Braziliya, Honkonq. Misir, Hindistan, Kolumbiya, Malayziya, Meksika, Sinqapur, Tailand, Filippin, Koreya) payına düşürdü.

50-60-cı illərdə yeni 10 ölkə seçilməyə başlamışdır. Bunlar Venesuela, İndoneziya, İran, Mərakeş, Nigeriya, Pakistan, Peru, Puerto Riko, Səudiyyə Ərəbistanı, Çili. 1973-cü ilin məlumatına görə "üçüncü dünya" ölkələrinin cəmi sənaye məhsulunun 17,2 %-i həmin 10 ölkənin payına düşmüşdür.

70-ci illərdə Latın Amerikası ölkələrinin xüsusi çəkisi artırdı. Burada Braziliya və Meksika daha çox üstünlük təşkil edirdilər. 60-70-ci illərdə ÜDM-in orta illik artım sürəti Meksikada 6,2 %, Braziliyada 7,1 % olmuşdur. 80-ci illərin əvvəllərinə həmin regionda yaranan ÜDM-in 60 %-i bu ölkələrin payına düşürdü. Həmin regionda bu iki ölkənin rolu bu gün də çox yüksəkdir.

Həmin dövrdə Yaxın və Orta Şərq ölkələrində də canlanma meyli özünü göstərirdi. "Üçüncü dünya" ölkələri üzrə ÜDM-də həmin regionun xüsusi çəkisi 15 %-dən 19 %-ə çatmışdır. Bu proses 70-ci illərdəki neftin inkişafı ilə xarakterizə edilir.

Yeni sənaye ölkələrinin yaranması

İnkişaf etməkdə olan ölkələrdə sənayenin inkişafı artdıqca onların arasında differensiallaşma da özünü göstərirdi. Belə ki, XX əsrin 60-80-ci illərində bu yarımsistemin quruluşunda daha qlobal dəyişikliklər baş verirdi. Onların cərgəsindən öz iqtisadi artım sürətinə, emal sənayesinin üstünlüyünə, sosial-iqtisadi quruluşuna, kapitalın və istehsalın təmərküzləşməsi prosesinə, maliyyə kapitalının formalaşması və sair kimi cəhətlərə görə fərqlənən bəzi dövlətlər irəli çıxırdı. Bu ölkələr iqtisadi ədəbiyyatlarda Yeni Sənaye ölkələri (YSÖ) adlanırlar. Həmin YSÖ tarixən aşağıdakı kimi qruplaşdırılmışdır:

Birinci nəsl Asiyada "dörd əjdaha" adlanan Cənubi Goreya, Tayvan, Sinqapur, Honkonq; Latın Amerikasında - Argentina, Braziliya, Meksikadır.

İkinci nəsl -Malayziya, Tailand, Hindistan, Çili;

Üçüncü nəsl -Kipr, Tunis, Türkiyə və İndoneziya.

Dördüncü nəsl - Filippin və Çinin cənub əyalətləridir.

Bu ölkələrdə olan güclü sosial-iqtisadi dəyişikliklər nəticə ilə "yeni cənayeçilik" zonalarının, iqtisadi artım qütbünün yaranmasına səbəb olur. Digər regionlara təsir edə bilən yeni qüvvələr meydana gəlir.

Qeyd etdiyimiz kimi, ayrı-ayrı dövlətlərin bu kimi YSÖ adlandırılmasının əsasında həlledici iqtisadi göstəricilər dayanır.

Burada BMT-nin metodikası əsasında aşağıdakı göstəricilər müqayisə edilir:

- hər nəfərə düşən ümumi daxili məhsulun (ÜDM) həcmi;
- ÜDM-in orta illik artım sürəti;
- ÜDM-də emal sənayesinin xüsusi çəkisi. Bu göstərici 20 %-dən artıq olmalıdır;
- ixrac edilmiş ümumi məhsulun həcmi və xüsusi çəkisi;
- xaricə birbaşa investisiyanın həcmi.

Bütün bü göstəricilər üzrə YSÖ öz yarımsistem ölkələrindən fərqlənməklə yanaşı hətta bəzi inkişaf etmiş sənaye ölkələrini də qabaqlaya bilirlər.

4. İnkişaf etməkdə olan ölkələrin daxili bazarı

Bazarın həcmi və inkişaf səviyyəsi. Hər bir regionda iqtisadiyyatın inkişafı daxili bazarın vəziyyəti ilə əlaqədardır. Məhz bazar münasibətlərinin inkişafı sosial-iqtisadi irəliləyişin göstəricisi kimi çıxış edir.

İnkişaf etməkdə olan ölkələrin müstəmləkə və yarımmüstəmləkə kimi dünya təsərrüfatına qovuşması ilə onlarda daxili bazarın və təsərrüfatdaxili əlaqələrin yaranması prosesi də başlanmışdır.

Qeyd etmək lazımdır ki, bütün inkişaf etməkdə olan ölkələrdə yaradılan ÜDM-in həcmi tək Yaponiyadakından bir az (29 %) artıqdır. ABŞ-dan isə 1,3 dəfə azdır. Həmin məhsulun isə az bir hissəsi onların sərəncamında qalır. Deməli, daxili bazarın həcmi o qədər də geniş ola bilməz. Eləcə də Cənubi və Şərqi Asiya ölkələrinin hamısı həmin göstərici üzrə qabaqcıl Qərb ölkələrinin ancaq birinə bərabər səviyyədədir.

ÜDM-in həcminə görə 50 qabaqcıl ölkədən 16-sı inkişaf etməkdə olan ölkələrdir (Çin, Hindistan, Braziliya, Meksika, İndoneziya, İran, C.Koreya, Tailand, Türkiyə və s.)

Bazarın miqyasının inkişafını xarakterizə edən digər ümumiləşdirici göstərici hər nəfərə düşən gəlirin həcmidir. Bu göstəriciyə görə həmin ölkələr Qərbin inkişaf etmiş ölkələrindən orta hesabla 10 dəfə geridir (bəzi ölkələr hətta 50 dəfə). Bu göstəriciyə görə 50 qabaqcıl ölkənin ancaq 13-ü inkişaf etməkdə olan ölkələrdəndir. Bunlar da əsasən neft çıxaran ölkələrdir.

Daxili bazarın həcmi və alıcılıq qabiliyyəti müəyyən dərəcədə əhalinin sayından da asılıdır. Belə ki, "üçüncü" dünya ölkələrinin ancaq 13-də əhalinin sayı 50 mln. nəfərdən artıqdır, qalanlarında 13-20 mln. nəfərdir. Əhalinin sayının az olması şəraitində isə istehsalın həcminin məhdudluğu və beynəlxalq əmək bölküsünün zəifliyi ilə kifayətlənməli olurlar.

Bu ölkələrin daxili bazarını xarakterizə edən cəhətlərdən biri də ondan ibarətdir ki, onlarda natural gəlirlərin xüsusi çəkisi hələ də az deyildir (Latın Amerikasında -5 %, Asiya ölkələrində -23 %, Afrikada -25 %-dir). Ona görə də hətta böyük ölkələrdə belə tədiyyə qabiliyyətli tələb məhduddur.

Daxili bazarın həcminin müəyyən edilməsində muzdlu əməyin genişlənməsinin və onun keyfiyyət xarakterinin də rolu vardır. Həmin yarımsistem ölkələrində orta hesabla cəmi işçilərin 40 %-i muzdlu əməklə məşğul olanlardır.

Asiya ölkələrində bu muzdlu işçilərin 49 %-i kənd təsərrüfatında cəmlənmişdir. Onların da xeyli hissəsi natural təsərrüfatlarla məşğuldur. Bazarla onların əlaqəsi çox zəifdir. Bu kimi natural təsərrüfatçılıq nə geniş təkrar istehsalı, nə də işçinin şəxsi müstəqilliyini təmin edə bilmir.

Daxili bazar problemində pul bazarının inkişafı da zəruri göstərici kimi istifadə edilir. Bu göstərici ölkə daxilində kredit öhdəçilikləri məbləğinin ÜDM-ə olan nisbəti kimi hesablanır.

80-ci illərin ortalarında bu ölkələrin aldığı kredit ÜDM-in 49-59 %-i arasında olmuşdur. Bu göstərici inkişaf etmiş ölkələrin 50-ci illərdəki göstəricisindən də aşağıdır. Bir çox hallarda bu ölkələr kreditləri qaytara bilmirlər və yaxud qaytarmaqdan imtina edirlər. Odur ki, kredit münasibətləri o qədər də inkişaf tapmamışdır.

İqtisadiyyatın inkişafı və eləcə də daxili bazarın vəziyəti şəxsi və məhsuldar tələbdən də xeyli asılıdır. Bu ölkələrdə şəxsi tələb iqtisadi artımın əsas amili kimi çıxış edir. İstehsal təyinatlı əmtəələrin daxili bazarı məhduddur. Hətta çox vaxt gündəlik tələbat malları da xarici bazara istiqamətlənir. Məcmu tələbdə ənənəvi məhsulların artması böyük rol oynayır. Bura ərzaq malları, toxuculuq sənayesi məhsulları daxildir. Eləcə də imkan yarandıqca məişət elektronikası, şəxsi avtonəqliyyat kimi şəxsi istehlak şeylərinin satışı artmışdır.

İnkişaf etməkdə olan ölkələr ancaq əmək haqqının aşağı olması ilə deyil, gəlirlər üzrə əhalinin differensiallaşmasına görə də səciyələnir.

Məsələn, 1990-cı ildə Braziliyada 10 % varlı əhali milli gəlirin 48,7 %-nə, 10 % kasıb əhali -cəmisi 0,8 %-nə, daha varlı olan 1% -isə 12 %-nə sahibdirlər.

Mərkəzi Amerika respublikalarında da bu kimi fərq xarakterikdir. İndoneziya, Malayziya, Tailandda gəlirlərin bu cür qeyri-bərabər bölgüsü fərqi son vaxtlar azalmışdır. Bir çox ölkələrdə istehlakın quruluşunda köklü dəyişikliklər özünü göstərir. Belə ki, uzun müddət üçün istehlak mallarının xüsusi çəkisi artır. Məsələn, Cənubi Koreyada ev təsərrüfatında istifadə olunan uzun müddətli məhsulların xüsusi çəkisi 1,9 %-dən 8 %-dək artmışdır, istehlak şeyləri isə 54,8 %-dən 35,6 %-ə, Hindistanda isə 62,7 %-dən 51,2 %-ədək azalmışdır.

İstehsal istehlakı. Bu tələbat əsasən istehsal alət və vasitələrinə olan tələbatı nəzərdə tutur. Burada yığımın həcmi, yığım norması əsas kötürülür. Həmin ölkələrdə ÜDM-in yığıma ayrılan hissəsi 90-cı illərin birinci yarısında 26,2 % təşkil etmişdir.

Lakin həmin fond heç də tam reallaşa bilmir. Bir çox alət və vasitələr bitkiçilikdə, xırda sənətkarlıqda, natural qaydada reallaşdırılır. Bir çox avadanlıqlar istehsalçıların özləri tərəfindən hazırlanır.

Aşağı səviyyədə olan ölkələrdə yığım norması ÜDM-in 19 %-ndən artıq deyildir. Kapital qoyuluşunun həcmi azdır, bu isə iqtisadiyyatda köklü dəyişikliklər edilməsinə imkan vermir.

Mexanikləşdirmə səviyyəsinə görə Afrika ölkələri geridə qalmaqda davam edirlər. Burada əməyin mexanikləşmə səviyyəsi istehsal xərclərində cəmisi 5 % təşkil edir. Latın Amerikasında kənd təsərrüfatının çox hissəsi maşınsız becərilir. Təsərrüfatların cəmisi 10 %-i texnikanın köməkliyi ilə fəaliyyət göstərir.

Bütün bunlar həmin ölkələrdə daxili bazarın həcminə təsir etməyə bilməz.

Aydındır ki, daxili bazarın həcmi ancaq ev təsərrüfatının, firmaların, kəndlilərin, sənətkarların tələbatı ilə müəyyən edilə bilməz.

Son illər ÜDM-də dövlətin tələbatının xüsusi çəkisi də artır. Dövlətin cari xərcləri 50-60-cı illərdəki 11 %-dən 80-90-cı illərdə 18 %-ə çatmışdır.

XXIX FƏSİL
ASİYA ÖLKƏLƏRİNİN İQTİSADİYYATI

1. *Asiya ölkələrinin ümumi xarakteristikası.*
2. *Cənubi-qərbi Asiyanın əsas sosial-iqtisadi inkişaf modeli və onların təkamül inkişafı.*
3. *Cənubi Asiya ölkələrinin iqtisadiyyatı.*
4. *Şərqi və Cənubi-şərqi Asiya dövlətlərinin iqtisadiyyatının ümumi xarakteristikası.*
5. *Şərqi və Cənubi-şərqi Asiya ölkələrində dövlətin iqtisadi siyasəti.*

1. Asiya ölkələrinin ümumi xarakteristikası

Asiya qitəsi üzrə bütün ölkələrin ərazisi 44,4 mln. km²-dir. Lakin MDB ölkələrini daxil etmədikdə xarici Asiya özündə 27,7 mln. km² ərazini, təqribən 4,0 mlrd.-a qədər əhalini birləşdirir.

Asiyanın siyasi xəritəsinin formalaşması üçün bir çox yüzilliklər lazım gəlmişdir. Uzaq keçmişdə arası kəsilməyən işğalçılıq müharibələrinin olması, sonralar – XV əsrin axırlarından müstəmləkə işğalçılığı, uzun müddət başqa ölkələrin təsir dairələrində qalmaları bu ölkələrin tarixində qara ləkə kimi iz qoymuşdur.

Hazırda – XXI əsrin əvvəllərinə xarici Asiya özündə 38 müstəqil ölkəni birləşdirir. Bütövlükdə Asiya və bura daxil olan ölkələr özünə məxsus bir çox cəhətləri ilə səciyyələnir.

Hər şeydən əvvəl bu ölkələr ərazisinin həcminə görə kəskin fərqlənirlər. Burada **iki ölkə – Çin və Hindistan** daha böyük (nəhəng) ölkə hesab edilirlər. **Dörd ölkə – Səüdiyyə Ərəbistanı, İndoneziya, İran və Monqolustan** da böyük ərazi̇yə malikdirlər. **Türkiyə, Əfqanıstan, Myanma (Birma), Yəmən və Tailand** 500 min km²-dən 1 mln. km²-rədək ərazi̇yə malik olduğu üçün bunlar da böyük ölkə hesab edilə bilər. Sonra nisbətən kiçik ərazisi olan ölkələr qruplaşdırılır. Hətta 1000 km²-dən az ərazisi olan Bəhreyn, Maldiv Repsublikası, Sinqapur da bu ərazidə yerləşirlər.

Əhalinin sayına görə də bu ölkələr arasında kəskin fərq vardır. İlk növbədə yenə də Çin və Hindistan fərqlənirlər. Hər iki ölkədə əhalinin sayı 1 mlrd. nəfərdən artıqdır.

Dörd ölkə – İndoneziya, Pakistan, Banqladeş və Yaponiya dünya üzrə 100 mln. nəfərdən artıq əhalisi olan 10 ölkə sırasına daxildirlər. **Beş ölkə –Vyetnam, Filippin, İran, Türkiyə və Tailand** 50-100 mln. nəfər əhalisi olan ölkələr sırasına daxildir. **Bir qrup ölkələr** 20-50 mln. nəfər əhaliyə, qalanları isə 20 mln. nəfərdən az əhaliyə malikdirlər.

Coğrafi vəziyyətinə görə də Asiya ölkələri arasında fərq vardır. Belə ki, **38** ölkənin əksəriyyətinin dənizə çıxışı vardır. Bunlardan **24** ölkəni sahilyanı ölkə adlandırmaq olar.

Dörd ölkə – Kipr, Bəhreyn, Şri-Lanka və Sinqapur ada ölkələri, İndoneziya, Filippin, Yaponiya, Maldiv Respublikası arxipelaq ölkələri adlanırlar.

Bunlarla yanaşı Monqolustan (1567 min km²), Əfqanıstan, İordaniya, Nepal, Butan, Laos daxili kontinental ölkə olmaqla dənizə çıxışları yoxdur.

Xarici Asiya ölkələri sosial-iqtisadi inkişaf səviyyələrinə görə də fərqlənirlər.

Qeyd etmək kifayətdir ki, bu 38 ölkədən ancaq Yaponiya inikşaf etmiş ölkələr sırasına daxil olmuşdur. Bu yaxın vaxtlarda İsrail, Cənubi Koreya və Sinqapuru da həmin ölkələrə aid etmişlər. Bunlarla yanaşı Çin, Hindistan, Pakistan və Türkiyə də kifayət qədər yüksək göstəricilər əldə edirlər.

Bu ərazidə neftçıxaran və ixracedən ölkələr və eləcə də yeni sənaye ölkələri də müvəffəqiyyətlə irəliləyirlər. Bu ölkələr hər nəfərə düşən ÜDM-in həcmi baxımından inkişaf etmiş sənaye ölkələrinə daha yaxındırlar. Bunlarla yanaşı həmin göstərici Nepal, Kağboca, laos, Yəmən və bu kimi bir çox ölkələrdə daha aşağıdır. Bu ölkələrin siyasi-iqtisadi mənzərəsinin səciyyələndirilməsində onlarda olan idarəçilik formalarının və **inzibati-ərazi quruluşunun şərhi də zərurət** təşkil edir.

Belə ki, qeyd etdiyimiz **38 ölkənin 24-də** Respublika idarəçilik üsulu mövcuddur. Bunların da çoxu prezident ida-

rəçiliyinə əsaslanır. **14 ölkədə** isə monarxiya idarəçiliyi həyata keçirilir.

Məsələn, Çin, Hindistan, Pakistan, İndoneziya, Cənubi Koreya, Suriya, İsrail və digər ölkələrdə respublika idarəçiliyi mövcuddur.

9 ölkədə Konstitusiya monarxiyası idarəçiliyi əsas götürülür. Yaponiyada bu parlament monarxiyası, imperatorluq; Butan, İordaniya, Nepal, Komboca və Tailandda krallıq; Küveyt və Bəhreyndə – əmirlik; Malayziyada sultanlıq formalarında həyata keçirilir.

Beş ölkədə isə – Bruney, Qatar, BƏƏ, Oman və Səüdiyyə Ərəbistanında mütləq monarxiya idarəçiliyi mövcuddur.

İnzibati-ərazi quruculuğu baxımından xarici Asiya dövlətləri əsasən eyni tipli olmaları ilə səciyyələnirlər. Belə ki, **38 ölkədən 33**-də unitar, ancaq **5-də** (Hindistan, Pakistan, Malayziya, Myanma və BƏƏ-də) federativ dövlət quruluşu mövcuddur.

Asiya ölkələrinin sosial-iqtisadi inkişaf xüsusiyyətlərini kifayət qədər açıqlamaq üçün onları aşağıdakı çoğrafi ərazi bölgüsü əsasında qruplaşdırmaq zərurət təşkil edir.

Bu baxımdan Asiya ölkələrində **Cənubi-qərbi Asiya, Cənubi Asiya, Şərqi və Cənubi-şərqi** (və yaxud mərkəzi-şərqi) Asiya əraziləri fərqləndirilir.

Cənubi-qərbi Asiya ölkələrinin sosial-iqtisadi inkişaf modeli (bu yarım qrupda Yaxın və Orta Şərq birlikdə araşdırılır).

Bu ərazi özündə **16 müstəqil dövləti** birləşdirir (mədəni irs baxımından qeyd etməliyik ki, dünyanın ən qədim mədəni irsə malik ölkələrdən olan İran və İraq da bu ərazidə yerləşir). Onların ərazisi 6,8 mln. km², əhalisi 290 mln. nəfərdir (2005, cədvəl).

Cənubi-qərbi Asiya ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Dövlətlər	Ərazisi, min km²	Əhalisi, mln. nəfər	ÜDM-in həcmi, mlrd. dol.
1	Əfqanıstan	655	30,0	5,8
2	Bəhreyn	0,695	0,700	9,6
3	İsrail	20,8	6,3	117,5
4	İordaniya	89,4	5,8	11,2
5	İraq	438,3	26,1	60,0
6	İran	1648	68,0	162,7
7	Yəmən	528	21	12,8
8	Qatar	11,4	0,620	16,0
9	Küveyt	18,0	2,3	41,7
10	Livan	10,5	3,8	21,8
11	BƏƏ	84,0	2,6	71,0
12	Oman	212	3,0	21,7
13	Fələstin	6,3	3,3	5,1
14	Səüdiyyə Ərəbistanı	2150	26,4	250,6
15	Süriyə	185	18,4	23,1
16	Türkiyə	779,4	70,0	302,0
	Cəmi	**6836,0**	**288,3**	**1119,8**

Cədvəldə nümayiş etdirilən göstəricilərdən də aydın olur ki, bu ərazidə Fələstin, Qatar, Bəhreyn kimi kiçik ölkələrlə yanaşı Səüdiyyə Ərəbistanı, Türkiyə, İran kimi geniş dünya iqtisadi əlaqələrinə malik olan ölkələr də vardır.

Dünya iqtisadiyyatında Qərbi Asiyanın rolu ondan ibarətdir ki, bura kifayət qədər karbohidratlar xammalına malikdir, zəngin neft və qaz yataqları vardır.

Bu ərazidə olan neft ehtiyatları (proqnoza görə 141 mlrd ton) dünya neft ehtiyatının təqribən 65 %-ni təşkil edir. Proqnoza görə daha zəngin və ucuz neft ehtiyatı fars körfəzində – o cümlədən İraqda, Küveytdə, BƏƏ-də hər birində 100 mlrd tondan artıq, Səüdiyyə Ərəbistanda – 79,5 mlrd. ton, İranda – 69 mlrd. ton mövcuddur.

Hazırda Qərbi Asiya ölkələrində təqribən 1076 mln. ton neft çıxarılır ki, bu da dünya üzrə neft istehsalının 30 %-dən artıqdır. Bu ölkələr cəmi neft ixracının 50 %-ə qədərini, neft məhsullarının isə 25 %-ə qədərini təmin edirlər.

Qərbi Asiya ölkələri dünya qaz sənayesinin inkişafında da böyük rol oynayırlar. Belə ki, hazırda dünya üzrə kəşfi məlum olan 144 trln. m^3 qaz ehtiyatının 46 trln. m^3-ri həmin ərazinin payına düşür. Burada da Səudiyyə Ərəbistanı, İran və BƏƏ fərqlənirlər. Qaz ehtiyatına görə bu ərazi ancaq MDB-dən geri qalır.

Lakin qaz çıxarılmasına görə (dünya istehsalının 6 %-i qədər) və satışına görə (dünya üzrə durulaşdırılmış qaz ixracının 7 %-i) o qədər də fərqlənmirlər.

Qərbi Asiya ölkələrində iqtisadiyyatın sahəvi quruluşunu araşdırmaq üçün həmin ölkələri dörd qrupa ayırmaq olar:

1. Fars körfəzinin ərəb ölkələrində (İraqdan başqa) hasilat sənayesinin xüsusi çəkisi daha artıqdır. Kənd təsərrüfatı – 1-3 % təşkil edir.

2. Əfqanıstan, Yəmən, İraq, İran, Türkiyədə kənd təsərrüfatı və emal sənayesinin xüsusi çəkisi artıqdır (16-46 %).

3. Üçüncü qrup ölkələrə İsrail, İordaniya və Livan aid edilir. Bu ölkələrdə üçüncü bölmə – xidmət sahəsi üstünlük təşkil edir – 65 %.

4. Bir qrup ölkələrdə sənaye və xidmət sahələri fərqlənirlər. Burada Kipr müvafiq olaraq 40-52 %; Küveyt – 53-46 %; BƏƏ -57-40 %-dir.

İqtisadi inkişafda xarici amilin rolu artıqdır. Belə ki, əgər İkinci Dünya müharibəsinə qədər bu ölkələrin iqtisadiyyatında kənd təsərrüfatı və primitiv kustar sənaye əsas rol oynayırdısa, Fars körfəzinin ərəb ölkələrində iri neft-qaz yataqlarının kəşfi ilə neft və qaz sənayesi daha həlledici rol oynamağa başlamışdı.

Bu isə az-çox xarici kapitalın bu əraziyə axmasına zəmin yaratmışdır.

Hazırda Ümumdünya Bankının məlumatına görə Qərbi Asiya ölkələrinə cəlb edilən xarici xüsusi kapital inkişaf etməkdə olan ölkələrə ayrılan cəmi xüsusi kapitalın 1 %-ndən artıq deyildir.

Bəhreyn, Qatar, Küveyt, BƏƏ, Kipr, Türkiyə və Səüdiyyə Ərəbistanında xarici kapitalın fəaliyyəti az deyildir. Öz növbəsində Fars körfəzinin ərəb ölkəlri neftdən əldə edilən gəlirin

bir qismini (350 mlrd. dollardan artıq) borc formasında xarici ölkələrdə yerləşdiriblər.

Səüdiyyə Ərəbistanı ancaq dövlət xətti ilə Qərbin maliyyə müəssisələrinə 100-120 mlrd. dollar; Küveyt – 70-80 mlrd dollar; BƏƏ – 45-55 mlrd. dollar vəsait qoyublar.

Hər il Səüdiyyə Ərəbistanı 8-10 mlrd dollar, Küveyt – 5-6 mlrd. dollar, BƏƏ – 3,5-4,5 mlrd. dollar mənfəət götürürlər (illik 8 % hesabı ilə).

Bu ərazi əhalinin yüksək artımına görə də fərqlənir. Belə ki, əhalinin artım sürəti – 2,8 %-dir. Odur ki, 2025-ci ildə burada əhalinin 460-465 mln. nəfər olması gözlənilir.

Qərbi Asiyada daxili və xarici miqrasiya geniş vüsət alıbdır. Hazırda Avropada – xüsusilə Almaniyada 3,5 mln. nəfərdən artıq türkiyəli çalışır. Fars körfəzinin ərəb ölkələrində xaricdən gələn işçilər cəmi işçilərin 70 %-ni, Küveyt və Qatarda 80 %-ni, BƏB-də – 90 %-ni təşkil edir.

2. Cənubi-qərbi Asiyanın əsas sosial iqtisadi inkişaf modeli və onların təkamül inkişafı

Aydındır ki, inteqrasiya prosesləri hələ ki, o qədər də geniş vüsət almamışdır. Odur ki, öz ənənəvi kökü üzərində müəyyən inancların əsas götürüldüyü bu ərazidə vahid mütərəqqi-iqtisadi inkişaf modeli yarana bilməzdi.

Hazırda da bu ərazidəki ölkələr inkişaf səviyyəsinə və iqtisadiyyatın modernləşmə sürətinə görə bir-birindən kəskin fərqlənirlər.

Qərbi Asiya 1950-ci illərədək dünyanın ən geridə qalmış ərazilərindən biri kimi tanınırdı. Bu ölkələrin əksəriyyəti Britaniyanın tabeçiliyində idi. 1960-cı illərdən müstəqillik əldə etdikdən sonra bu ölkələrin iqtisadiyyatında az-çox dirçəlmə başlamışdır.

Qərbi Asiyanın iqtisadi inkişaf modelində ən gözə çarpan cəhət iqtisadiyyatda **dövlətin rolunun üstün olmasıdır**.

Müstəqilliyin ilk vaxtlarından dövlət neft-qaz çıxarılmasını, bütün infrastrukturanı (limanları, neft kəmərlərini, rabi-

təni, telekommunikasiya və digər dövlətəhəmiyyətli sahələri) ciddi nəzarətə götürmüşdür. Bu ölkələr neft istehsalı və ixracı üzrə birgə iqtisadi siyasət yeritmək, öz məhsullarının sahibi kimi qiymətləri müəyyən etmək, müəyyən şərtlər irəli sürmək məqsədi ilə 1960-cı ildə «Neft ixrac edən ölkələr təşkilatı» - OPEK yaratmışdılar.

Hazırda bu təşkilata Qərbi Asiya dövlətlərindən başqa digər dövlətlər də daxil olmuşdur.

OPEK-in üzvləri:

1. İran
2. İraq
3. Qatar
4. Küveyt
5. BƏƏ
6. Səüdiyyə Ərəbistanı
7. Əlcəzair
8. Venesuela
9. Qabon
10. İndoneziya
11. Liviya
12. Nigeriya

Göründüyü kimi 6 ölkə – İran, İraq, Qatar, Küveyt, BƏƏ və Səüdiyyə Ərəbistanı - Qərbi Asiya, İndoneziya – Şərqi Asiya, Əlcəzair, Qabon, Liviya və Nigeriya – Afrika, Venesuela – Amerika ölkələridir.

Bu təşkilatın iqamətgahı Vyanadadır (Avstriya). Dünya neft və qaz istehsalının **40 %-i** və dünya neft ehtiyatının **80 %-i** bu təşkilatın payına düşür.

Hazırda Qərbi Asiyada iqtisadiyyatın neft amilindən asılı olmasını azaltmaq üçün Qərbi Asiya ardıcıl olaraq sənayenin quruluşunu təkmilləşdirir, neft-kimya sənayesinin, metallurgiyanın (enerji tutumlu sahələr) inkişafına üstünlük verir. Elektronika, toxuculuq sənayesi, xidmət sahələri, xüsusilə turizm, reixrac, maliyyə və nəqliyyat xidmətləri sahələri genişləndirilir. Nisbətən varlı ölkələr tədricən elmtutumlu istehsal sahələrinə keçirlər.

1990-cı illərin ortalarından Qərbi Asiyanın bəzi ölkələrində dövlət bölməsinin xüsusi çəkisinin qismən azaldılması, xüsusi bölmənin inkişafına zəmin yaradılması prosesi başlanmışdır. Yeni sahələrə kapital qoyuluşu artırılmış Ərəb yarımadasına xarici kapitalın cəlb edilməsi imkanları genişlənmişdir.

Müxtəlif ölkələrdə iqtisadi inkişafın gedişi barədə müəyyən təsəvvür yaratmaq üçün onlardan bəzilərini ayrılıqda şərh edək.

Türkiyənin iqtisadiyyatı. İqtisadiyyatın, siyasətin və sosial sahələrin modernləşməsi işində Türkiyə nisbətən fərqlənir. Türkiyənin dünya iqtisadiyyatına inteqrasiyası da çox yüksək səviyyədədir.

Türkiyə 779,4 min km² əraziyə və 70 mln. nəfər əhaliyə malikdir. 1923-cü ildə Respublika elan edilmişdir. Parlament və Prezident respublikasıdır. İnzibati-ərazi bölgüsünə görə 81 vilayətdən ibarətdir.

Türkiyə respublika elan edildikdən sonra ölkənin modernləşməsində Qərb yönümünə üstünlük vermişdir. Belə ki, **1920-ci illərdə** iqtisadiyyatda liberallaşma həyata keçirilirdi. **30-40-cı illərdə** iqtisadiyyatda dövlətin rolunun artması (iqtisadiyyatın dövlət tərəfindən ciddi tənzimlənməsi – «statizm») siyasəti həyata keçirilmişdir. **1950-ci illərdə** isə liberal «statizm» güclənmişdir.

Türkiyədə bir çox sosial-iqtisadi problemləri həll etmək üçün 1960-1970-ci illərdə beşillik proqramlar hazırlanmışdır. Bu proqramlara əsasən dövlət bölməsi ilə xüsusi bölmənin qarşılıqlı inkişafı nəzərdə tutulurdu. Nəticə etibarı ilə bir çox tərəqqi əldə edilə bilmişdir. Bütün bunlara baxmayaraq 1970-1980-ci illərdə nəzərdə tutulmuş quruluş dəyişiklikləri tam həyata keçirilə bilməmişdir. 1980-ci ildə siyasi qeyri-sabitlik (hakimiyyət ordunun əlinə keçmişdir). 1983-cü ildə yenidən yaxşılaşmış və 80-90-cı illərdə iqtisadi inkişafın Türkiyə modeli **yenidən liberal xüsusiyyətlər** almışdır.

Bir çox dövlət müəssisələrinin özəlləşdirilməsi üçün uzunmüddətli proqram hazırlanmışdır.

Türkiyə bu proqrama əsasən 1980-ci ildən iqtisadiyyatın inkişafında xalis bazar münasibətlərinin əsas götürür. İxraca istiqamətləndirilmiş modelə üstünlük verilir. Ənənəvi sahələrin modernləşdirilməsi və müasir sahələrin inkişafı sürətlənir. Elektron və avtomobilqayırma sahəsi inkişaf etdirilir.

Özəlləşdirmə proqramının ardıcıl həyata keçirilməsinə baxmayaraq bir çox sahələrdə dövlət mülkiyyətinin üstünlüyü sax-

lanılır. Hazırda sənayedə dövlət mülkiyyəti – 38 % (o cümlədən hasilat sənayesində 72 %) təşkil edir. Nəqliyyat və energetika sahəsində də dövlət mülkiyyəti həlledici çəkiyə malikdir.

Bütün bank vəsaitlərinin 34 %-i dövlət kommersiya banklarına məxsusdur. Bütün investisiyaların 34 %-i dövlət tərəfindən təmin edilir.

Türkiyənin pul-kredit sistemində 75 bank fəaliyyət göstərir. Bunların 7-si – dövlət bankı, 21-i xarici bankdır. Bütün bankların cəmi aktiv vəsaiti ÜDM-in 70 %-dən artıq deyildir. Bank kreditləri ÜDM-in təqribən 35 %-ni təşkil edir.

Vergi-büdcə sahəsində o qədər də sabitlik duyulmur. 2002-2003-cü illərdə büdcə kəsiri 20 % olmuşdur. Türkiyənin daxili borcü ÜDM-in 76,7 %-nə, xarici borcu isə 77 %-nə bərabərdir.

2004-cü ilə Türkiyənin ÜDM-i 302 mlrd. dollar olmuşdur. ÜDM-in 13 %-i kənd təsərrüfatının, 22 %-i sənayenin, 65 %-i isə xidmət sahələrinin payına düşür.

Türkiyə elə bir zəngin faydalı qazıntılara, yeraltı sərvətlərə malik deyildir. Sadəcə olaraq böyük nizam-intizama malik olması, ənənəvi tarixi inkişaf yolu keçməsi, əlverişli geosiyasi vəziyyətdə olması, düzgün diplomatik və iqtisadi siyasət və digər amillərin sayəsində öz nüfuzunu saxlayır. Türkiyənin hasilat sənayesi ÜDM-in 1 %-nə bərabərdir. İldə 60 mln. ton gömür, 1,4 mln. ton xrom filizi, 4 mln. ton neft çıxarılır, 12 mln. ton polad əridilir, 117 mlrd. kvt.saat elektrik enerjisi istehsal edilir.

Emal sənayesindən toxuculuq, parça sənayesi, yeyinti sənayesi, elektroenergetika, avtomobilqayırma, kimya, əczaçılıq və digər sahələr fərqləndirilir.

Cəmi ixracın 93,2 %-i emal sənayesinin hesabına formalaşır.

Kənd təsərrüfatı məhsulları ilə ölkənin əhalisini tam təmin edə bilir. 21 mln. ton buğda, 8-10 mln. ton arpa, 2 mln. ton pambıq, 500 min ton fındıq, 250 min ton tütün istehsal edilir.

İri buynuzlu mal-qaranın sayı 20 mln. baş, qoyun və keçilərin sayı 70 mln. başdır.

Türkiyənin iqtisadiyyatında inşaat sənayesinin ixracı da xüsusi rol oynayır. Bu sahə MDB məkanında, xüsusilə Rusiya bazarında geniş yer tutur. ÜDM-in 5 %-i inşaat sahəsinin payına düşür. Türkiyədə turizm sahəsi də geniş inkişaf etdirilir. İldə 13 mln. nəfər turist qəbul edir ki, bu da 8-9 mlrd. dollar gəlir deməkdir.

Xarici kapitalın cəlb edilməsi üçün Türkiyədə tam əlverişli şərait yaradılmışdır. 2002-ci ilə toplanmış cəmi xarici kapital 34 mlrd. dollardır.

Türkiyənin xarici kapitalın isə cəmisi 2,5 mlrd. dollardır. 1987-ci ildən Azad İqtisadi zonaların yaradılması genişlənir. Hazırda 9 azad iqtisadi zona fəaliyyət göstərir (Mersin, Antalya, İzmir, Trabzon, Adana, Ərzrum, Mardin, İstambul). Bu zonalar vergiyə cəlb edilməsində tam sərbəstdirlər. Burada istehsal edilmiş və yaxud onların vasitəsilə idxal edilmiş məhsulların bir qismi daxili bazarda satılır (AİZ-də istehsal olunan cəmi əmtəə dövriyyəsinin 33 №-ə qədəri Türkiyə bazarının payına düşür). Bu zonaların cəmi əmtəə dövriyyəsi 2 mlrd. dollardır.

İranın iqtisad inkişaf modeli. Qərbi Asiyada ən böyük ölkələrdən biri də İran İslam Respublikasıdır. İran 1648 min km^2 ərazisi və 68 mln. nəfər əhaliyə malikdir (2004). Fars körfəzi ilə Xəzər dənizi arasında yerləşir. Dövlət quruluşu teokratik İslam Respublikasıdır. Dövlət başçısı prezidentdir. 24 vilayətdən ibarətdir.

İran 1979-cu il inqilabına qədər monarxiya dövləti kimi tanınırdı. Lakin inqilabın gedişində Rza şah Pəhləvi hakimiyyəti devrilmiş və respublika yaradılmışdır.

İranın iqtisadi inkişaf modeli Qərb modelinə yaxın deyildir. İranın iqtisadi inkişafı müəyyən mənada əsaslı dərəcədə əhalinin dini, mədəni, məişət xüsusiyyətlərindən də asılıdır.

1920-ci illərdə İranda sosial-iqtisadi inkişafda dövlət kapitalizmi və millətçilik əsas götürülürdü. Xarici aləmlə əlaqə ancaq xarici ticarət vasitəsi ilə həyata keçirilirdi.

1960-1970-ci illərdə Şahın təşəbbüsü ilə ölkənin sürətli sənayeləşdirilməsi modelindən geniş istifadə edilmişdir. Burada Avropa iqtisadi modelinə xas islahatlar həyata keçirilmişdir. Bütün bunlar «ağ inqilab» adlanırdı. Aqrar islahatlar mülkədar torpaq sahibliyini məhdudlaşdırmaqla icarədarlığı ləğv

etmişdir. Xarici kapitalın köməkliyindən geniş istifadə edilmişdir. Sənayeləşdirilmə əsasən xarici kapitala və dövlət maliyyələşdirilməsinə əsaslanmışdır. 1970-ci illərdə ÜDM-də dövlət bölməsinin payı 46-48 % təşkil edirdi. 1979-cu ildən sonra bir çox banklar, sığorta cəmiyyətləri milliləşdirilmişdir.

1990-cı illərdən iqtisadiyyatın liberallaşdırılması sistemi genişlənmişdir. Dövlətin qiymətlərə qarışması məhdudlaşdırılmışdır. Xarici ticarətin liberallaşdırılması güclənmiş və özəlləşdirilmə proqramı qəbul edilmişdir.

2002-ci ildə xarici investisiyanın cəlb edilməsi və müdafiəsi barədə yeni qanun qəbul edilmişdir.

İranın iqtisadi siyasətində 80-ci illərdə həyata keçirilmiş əsas istiqamətlərdən biri kiçik sahibkarlığa köməklik edilməsidir. Hər cür kooperasiya formaları genişləndirilir. Faktiki olaraq bütün kənd əhalisi bu və ya digər formada kooperasiya halında işləyir. Sənaye sahələrində 1700 kooperativ fəaliyyət göstərir.

İranın pul-kredit sistemi özünəməxsus xüsusiyyətə malikdir. Belə ki, məsələn bütün banklar dövlətə məxsusdur. 1983-cü ildə qəbul edilmiş qanuna əsasən onlar faizsiz fəaliyyət göstərirlər.

Bununla yanaşı 1999-cu ildə azad zonalarda xüsusi və xarici banklar yaradılmasına dair qanun qəbul edilmişdir. 2001-ci ildə ilk qeyri-dövlət bankının yaradılması məclis tərəfindən bəyənilmişdir. Hazırda Tehran Fond Birjası fəaliyyət göstərir. 2004-cü ildə İranın ÜDM-i 163 mlrd. dollar olmuşdur. **İranın iqtisadiyyatının sahəvi quruluşunda sənaye 37 %** (o cümlədən neft sahəsi – 15,0%), **kənd təsərrüfatı – 10 %, xidmət sahəsi – 53 % təşkil edir.**

İran neft ixrac edən ölkələr təşkilatının (OPEK) üzvü kimi də böyük mövqeyə malikdir. Hasilat sənayesinin əsasını neft sənayesi təşkil edir – 185 mln. ton, ixracın həcmi – 130 mln. tondur. Büdcə gəlirlərinin 30 %-i neftdən olan gəlir hesabına formalaşır. Hasilat sənayesində ikinci yeri qaz istehsalı tutur – 54 mlrd. m^3.

Emal sənayesinin əsasını neft-kimya, qara metallurgiya, toxuculuq, maşınqayırma və yeyinti sənayesi təşkil edir. 1990-cı illərdən ixrac istiqamətli sahələrin inkişafına üstünlük verilir.

Qara metallurgiya, neft-kimya, avtomobilqayırma sahələri ixrac sahələri hesab edilirlər. İldə 7 mln. ton polad istehsal edilir.

«İran-xodro» və «Saypa» avtomobil şirkətləri ixracın artmasına üstünlük verirlər. İranın emal sənayesində xalça istehsalının da böyük rolu vardır.

Qeyri-neft məhsulları ixracının 70 %-ə qədəri xalçaçılığın payına düşür. İran ildə 10-11 mln. ton buğda istehsal edir. Xaricə quru meyvə, balıq məhsulları, kürü ixrac edir.

Elmi-tədqiqat təcrübə konstruksiya işlərinə sərf edilən vəsait ÜDM-in 0,5 %-i qədərdir.

İranın xarici-iqtisadi əlaqələri o qədər də geniş deyildir. 2000-ci ilə olan məlumata görə İran iqtisadiyyatına qoyulan birbaşa cəmi xarici kapital 2,1 mln. dollardır.

Lakin Fars körfəzi adasında və limanlarında yaradılan Azad iqtisadi zonalarda xarici kapitalın artmasına, yeni xüsusi banklar yaradılmasına hər cür imkanlar verilir.

Səüdiyyə Ərəbistanı krallığı. Səüdiyyə Ərəbistanı Cənubi-qərbi Asiyada Ərəb yarımadasında yerləşir. Ərazisi 2240 min km^2, əhalisi 26,4 mln. nəfərdir, paytaxtı –Er-riyaddır. Böyük şəhərləri – Cidda, Məkkə və Mədinədir.

İnzibati ərazi bölgüsünə görə 14 əmirlikdən ibarətdir. Dövlət quruluşu mütləq monarxiyadır. Dövlət başçısı kraldır. İordaniya, İraq, Küveyt, Bəhreyn, Qatar, BƏƏ və digər ölkələrlə həmsərhəddir.

Tarixi baxımdan VII əsrdə bu ərazinin qərbində Xidcədə teokratik dövlət olan xəlifəlik yaranmışdır. XIII-XVI əsrlərdə bütün bu ərazi Misirin tabeçiliyində olmuşdur. XVI əsrdə hakimiyyət Osman imperiyasının əlinə keçmişdir. XVIII əsrdə Nedc (paytaxtı Er-riyad) dövləti ayrılmış, XIX əsrin əvvəllərində bu ərazilərin böyük bir hissəsi feodal dövləti olan Saudidlərə birləşmişdir.

1902-ci ildə xəlifəliyin əmiri İbn Səüd bu ərazilərin birləşdirilməsi uğrunda mübarizə apararaq 1932-ci ildə Səüdiyyə Ərəbistanı krallığını yaratmışdır.

Səüdiyyə Ərəbistanının iqtisadiyyatının əsasını **neft və qaz sənayesi** təşkil edir. Bu iki sahə hasilat sənayesinin əsasını təşkil edir.

Neft ehtiyatına görə dünyada birinci yeri tutur – 37,8 mlrd. ton. İllik neft istehsalı orta hesabla 400 mln. ton təşkil edir. 2001-ci ildə istehsal 423 mln. ton olmuşdur. Bu ölkənin nefti ən yüksək keyfiyyətə malikdir. **2004-cü ildə ÜDM-in həcmi 251 mlrd. dollar olmuşdur.** ÜDM-in 5 %-i kənd təsərrüfatının, 51 %-i sənayenin, 44 %-i isə xidmət sahələrinin payına düşür. ÜDM-in 62 %-i neftin hesabına formalaşır. İxracın 95 %-ni neft və neft məhsulları təşkil edir. **Öz əhəmiyyətinə görə ikinci yeri təbii qaz tutur**. Beş böyük qaz yatağı kəşf edilmişdir. Onların qaz ehtiyatı 6,4 trln. m^3-ə bərabərdir. Bu dünya qaz ehtiyatının 6 %-ni təşkil edir. İldə orta hesabla 40 mlrd. m^3 qaz çıxarılır. Enerji istehlakında qazın xüsusi çəkisi 40 %-dir. Beş böyük qaz emalı zavodu sutkada 122 mln. m^3 qaz emal edir. Oradan ayrılan kükürdün bir hissəsi ixrac edilir, bir hissəsi isə rezin sənayesinə daxil olur.

Neft və qazla yanaşı ölkədə kömür, sink, mis, boksidlər, qurğuşun, qızıl, gümüş, fosfatlar, uran, daş duzu, bariy metalı ehtiyatları da az deyildir.

İldə orta hesabla 3 ton qızıl istehsal edilir.

İnşaat sənayesinin inkişafı üçün zəngin gips, mərmər, gil, əhəng daşı kimi xammal ehtiyatları vardır.

Dağlarda kifayət qədər badam, dərman bitkiləri yığılır.

Beləliklə, burada dağ-mədən sənayesi, ximikatlar istehsalı, inşaat materialları, metal məmulatları, plastmaslar istehsalı, parça, kağız, ərzaq məhsulları istehsalı sürətlə inkişaf etdirilir. Bu kimi sahələrin çoxu xarici kapitalın şərikliyinə (51/49) əsaslanır.

Emal sənayesi və energetika. ÜDM-in cəmisi 7 %-i emal sənayesinin payına düşür. Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsində emal sənayesinin xüsusi çəkisi böyük əhəmiyyət kəsb edir. Neft və qaz sənayesinin inkişafı energetikanın inkişafına zəmin yaratmaqla, özlüyündə energetika da həmin sahələrin inkişafına xidmət edir.

Bu ölkədə energetikanın əsasını istislik stansiyaları təşkil edir. Burada enerji istehsalı daha ucuz başa gəlir. İldə 120 mlrd. kvt.saat elektrik enerjisi istehsal edilir. Günəş batareyalarından geniş istifadə edilir.

Hazırda neftlə bağlı olmayan digər sahələr orta hesabla ÜDM-in 38 %-nə bərabərdir. Bəzi sahələrdə isə bu göstərici 63 %-dir.

Səüdiyyə Ərəbistanında sənayenin sürətli inkişafı beşillik planlar əsasında həyata keçirilir. Planlaşdırılma işlərinin hazırlanmasına ABŞ-ın aparıcı sənaye və mühəndis məsləhətverici şirkəti köməklik göstərir. Hazırda 7-ci beşillik plan həyata keçirilir.

Üç mindən artıq sənaye müəssisəsi fəaliyyət göstərir. On minlərlə adda məhsul istehsal edilir.

Ölkənin bütün sənayesi dünya neftinin 10 %-ni istehsal edən ARMAKO şirkəti ətrafında formalaşmağa başlamışdır.

1976-cı ildə ölkənin əsas sənaye sahələrini özündə cəmləşdirən SABİK şirkəti yaranmışdır. Bura polad, ximikatlar, plastmaslar, gübrə, məişət təyinatlı məmulatlar və s. istehsalı ilə fəaliyyət göstərən 15 müəssisə daxildir.

3 böyük metallurgiya müəssisəsi fəaliyyət göstərir. Bunların birlikdə məhsuldarlıq gücü 2 mln. ton polad əridilməsinə, 1 mln. ton polad armatur və böyük diametrli boru buraxılmasına bərabərdir.

Səüdiyyə Ərəbistanı dünyada içməli su hazırlayan qurğuların çoxluğuna görə də fərqlənir. Bu qurğular içməli suya olan tələbatın 70 %-ni təmin edə bilirlər. Ölkədə bərk örtüklü avtomaşın yollarının uzunluğu 50 min km, dəmiryolu 1390 km, boru kəmərləri 8800 km-dir. 5 dəniz limanı, 23 beynəlxalq səviyyəli təyyarə limanı fəaliyyət göstərir.
Ticarət limanlarında 70 gəmisi vardır.

İxracın həcmi 88,5, idxal isə 34,0 mlrd. dollara bərabərdir. İxracın 90 %-i xam neft və neft məhsullarından ibarətdir. 6 % kimya məhsullarıdır. Cəmi ixracın 18 %-i Yaponiya, 16 %-i ABŞ, 10 %-i Koreya ilə həyata keçirilmişdir.

İdxalın 35 %-i maşın və avadanlıqlardan, 20 %-i ərzaqdan, 11 %-i ximikatlardan ibarətdir.

2001-ci ilə cəmi toplanmış xarici kapital 29,0 mlrd. dollardır. Bura ən çox xarici kapital ABŞ tərəfindən qoyulur.

Səudiyyə Ərəbistanı da öz növbəsində ən böyük investorlardan birinə çevrilibdir. Başqa ölkələrə maliyyə yardımı edilməsinin ümumi həcminə görə bu ölkə ancaq ABŞ-dan geri qalır.

Səudiyyə Ərəbistanında kapital ixracının artması hər şeydən əvvəl neftdən gələn dolların daxildə həzm edilə bilməməsi və eləcə də daxili bazarın dar olması ilə izah edilir.

Ölkənin kənd təsərrüfatı əhalini 90 % ərzaqla təmin edə bilir. Kənd təsərrüfatının inkişafına gömək məqsədi ilə fermerlərə faizsiz ssuda verilir.

Becərilməyə verilən torpaq sahələri 200 hektardan az olduqda bu pulsuz həyata keçirilir. Taxıl və xurma üzrə sabit satınalma qiymətləri saxlanılır.

Burada kənd təsərrüfatına yararlı torpaq sahəsinin həcmi 53 mln. hektar təşkil edir. Buğdanın məhsuldarlığı 45 sentnerdir.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyatı. BƏƏ Ərəb yarımadasının şərq hissəsində Fars və Oman körfəzi sahilində yerləşir. BƏƏ özündə 7 əmirliyi birləşdirir. Bunlar – Abu-Dabi, Dubay, Şərdcə, Ras-Əl-Xayma, Əcmən, Əl-Fudcayra, Umm-al-Kayvayn-dır. BƏƏ-nin ərazisi 84 mln. km², əhalisi 4,0 mln. nəfərdir (2005). Paytaxtı Abu-Dabidir.

Dövlət quruluşu Federasiya olub 7 əmirlikdən ibarətdir. Abu-Dabinin əmiri prezidentdir. Qanunvericilik hakimiyyəti bir palatalı federal milli məclisə məxsusdur.

Asiyanın digər ölkələri kimi BƏƏ-də xarici ölkələrin işğalçılıq niyətlərindən kənarda qalmamışdır. Belə ki, artıq XVI əsrdə şərq istilaçılığı dövrü qərb müstəmləkəçiliyi ilə əvəz olunurdu. Bir tərəfdən Portuqaliyalılar, digər tərəfdən Türkiyə, İran, Oman Fars körfəzində öz mövqelərini möhkəmlətməyə çalışırdılar. XVIII əsrdə İngilis Ost-Hind şirkəti körfəzdə olan bütün ticarəti öz inhisarına almış və 1820-ci ildə öz hərbi gücündən istifadə edərək 7 ərəb knyazlığı ilə müqavilə bağlamışlar. Beləliklə, BƏƏ torpağı İngiltərənin hökmranlığına keçmişdir. 1853-cü ildən bu günkü BƏƏ - müqavilə Oman adlanırdı. Lakin 1920-ci illərdən azadlıq mübarizələri artmış, Ərəb Federasiyası knyazlığı yaranmışdır. 1952-ci ildə 6 əmirlik idtifaq halında birləşmişdir. 1958-ci ildə Abu-Dabi əmirliyində ilk neft kəşf olunmuşdur.

1962-ci ildə satış üçün neft çıxarılmasına başlanmışdır.

1966-cı ildə Dubay əmirliyində də neft kəşf edilmişdir.

1971-ci ildə britaniya qoşunları bu ərazidən çıxarılmış və həmin vaxtdan da BƏƏ dövləti yaranmışdır.

BƏƏ-də ilk elektrik enerjisi 1966-cı ildə, əl telefonu isə 1974-cü ildə istifadə edilməyə başlanmışdır.

Qeyd etməliyik ki, neftdən daha səmərli, ağıllı istifadə edilməsi işində BƏƏ-yə həsədlə baxan ölkələr çoxdur. **Neft və monarxların müdrikliyi** nəticəsində ölkənin orta əsrlərdən sənayeləşmə səviyəsinədək inkişafı baş vermişdir.

1970-80-ci illərdə neft gəliri infrastrukturanın inkişafına, mənzil tikintisi, güclü təhsil və səhiyyə sisteminə, nəqliyyat kommunikasiyası yaradılmasına sərf edilirdi. Hazırda çoxsahəli iqtisadiyyat yaradılmışdır. Neftin xüsusi çəkisi nisbətən azalmışdır. Bu gün OPEK-in digər ölkələrinə nisbətən BƏƏ-nin neftdən asılılığı daha azdır.

ÜDM-in həcmi 71 mlrd. dollardır (2004). ÜDM-in 4 %-i kənd təsərrüfatının, 51 %-i sənayenin, 45 %-i xidmət sahələrinin payına düşür. BƏƏ-də 2002-ci ildə 113 mln. ton neft çıxarılmışdır. «Alüminium Dubay» ildə 536 min ton alüminium istehsal edir. İstilik elektrik stansiyalarında 20 mlrd. kvt. saat elektrik enerjisi istehsal edilir. Bu ölkənin tələbatını tam ödəyir.

Bütün əmirliklərdə kustar sənətkarlıq, qiymətli metallara naxış vurmaq, xalçaçılıq inkişaf etdirilir.

Kənd təsərrüfatında heyvandarlıq, balıqçılıq, mirvari yığılması ilə məşğuldurlar.

Dubay dünyada ən böyük qızıl idxal edən ölkələrdən biridir – ildə 600-700 ton.

BƏƏ-nin cəmi ixracının 36 %-i Yaponiya ilə, 9 %-i Koreya ilə həyata keçirilir. İdxalın isə 10 %-i ABŞ-ın, 9 %-i Yaponiyanın payına düşür.

Dubayda olan Cebel-Əli azad ticarət zonasında 72 ölkədən 800 şirkət fəaliyyət göstərir.

Hazırda Dubayda dünyada ilk kompüter şəbəkəsi – internet azad iqtisadi zonası yaradılır. Abu-Dabidə Saadiyat adasında maliyyə və ticarət offşor müəssisələri yaradılır. Bunların ambarlarında 9,3 mln. ton məhsul yerləşdirilə biləcəkdir.

BƏƏ-də 21 yerli bank, 28 xarici kommersiya bankları fəaliyyət göstərir.

3. Cənubi Asiya ölkələrinin iqtisadiyyatı (CAÖ)

Cənubi asiyada 7 dövlət vardır. Onların hamısı da inkişaf etməkdə olan ölkələr sırasına daxildir. Bunlar: Hindistan, Pakistan, Banqladeş, Nepal, Şri-Lanka, Butan, Maldivdən ibarətdir. Başqa regionlarda olduğu kimi Cənubi Asiya dövlətlərinin də ümumi cəhətləri vardır.

Cənubi Asiya ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Sahəsi, min km²	Əhalisi, min nəfər	ÜDM	
				cəmi, mlrd dol.	hər nəfərə düşən dollar
1	Hindistan	3288	1080	692,-	640
2	Pakistan	796	162,4	96,02	591
3	Banqladeş	144	144,0	57,0	394
4	Nepal	147	28,0	6,7	241
5	Şri-Lanka	65,6	20,0	22,0	1100
6	Butan	47,0	0,830	0,800	-
7	Maldiv	0,300	0,360	0,700	-
	Cəmi	**4500,0**	**1436**	**875,2**	**609,3**

Bu dövlətlərin demək olar hamısında iqtisadi islahatlar 90-cı illərdə başlanmışdır. Ölkə daxilində olduğu kimi xarici iqtisadi liberallaşdırmada olan islahatlar da həmin dövrdə başlamışdır. Bu ölkələrin dünya bazarına çıxara biləcək rəqabət qabiliyyətli ənənəvi məhsulları əsasən tikiş və toxuculuq sənayesi məhsulları və ərzaq məhsullarından ibarət olmuşdur.

Bu ərazinin bütün ölkələri Cənubi Asiya regional əməkdaşlıq birliyinin (SAARK) üzvüdürlər. Lakin bu birlik dünya iqtisadiyyatında elə bir rola malik deyildir. Son dövrlərin məlumatına görə bu əraziyə illik daxil olan birbaşa xarici investisiya 4,5 mlrd. dollar təşkil edir. Bu ərazidə olan ölkələrdən Hindistan və Pakistan daha həlledici rola malikdirlər.

Lakin onların da geosiyasi baxışları müxtəlifdir. Belə ki, Hindistan öz geosiyasi istiqamətində cənubi-şərqi istiqaməti əsas götürdüyü halda, Asiya– Sakit okean iqtisadi əməkdaşlığında (ATES).

İştirak etməyə səy göstərdiyi halda, Pakistan Qərbi Asiya ölkələri ilə daha çox bağlıdır. O, həmçinin Avroasiyaya doğru meyillidir.

Hindistanın iqtisadiyyatının şərhi ayrı mövzuda verilmişdir. Odur ki, bu ərazidə Pakistanın iqtisadi inkişafı barədə az-çox açıqlama veririk.

Pakistanın iqtisadiyyatı. Pakistan Asiyanın cənubunda yerləşir. 804 min km² əraziyə və 162 mln. nəfər əhaliyə malikdir (2004). Paytaxtı İslamabaddır. Pakistan Federativ parlament Respublikasıdır. Dövlət başçısı prezidentdir. Qanunvericilik iki palatalı parlamentə məxsusdur.

Pakistan İslam Respublikası çoxmillətli dövlətdir, 20-dən çox dildə danışırlar. Əhalinin artım sürəti yüksəkdir – 2,9 %. Savadlılıq səviyyəsi aşağıdır – 34 %. Deməli, əhalinin xeyli hissəsi ümumiyyətlə savadsızdır. Əhalinin 98 %-i müsəlmanlardan ibarətdir.

Pakistan 1947-ci ilədək Hindistanın tərkibində Britaniyanın müstəmləkəsi olubdur. 1947-ci ildə Hindistanın müsəlmanlardan ibarət olan hissəsi – Pakistan özünüidarəçilik hüququ qazanaraq müstəqil dövlət yaratmışlar. Banqladeş də 1971-ci ilədək onun ərazisinə daxil idi.

1947-ci il – 14 avqust müstəqillik günü, 1956-cı il 23 mart isə Pakistan günü kimi bayram edilir.

Pakistan aqrar-sənaye ölkəsidir. Çoxukladlı təsərrüfatçılıq xarakterikdir. 2004-cü ildə ÜDM-in həcmi 96 mlrd. dollar olmuşdur. ÜDM-in 28 %-i sənayedə, 46 %-i xidmət sahələrində yaradılır.

ÜDM-in 26 %-ə qədəri isə kənd təsərrüfatının payına düşür. Aktiv əhalinin 50 %-i kənd təsərrüfatında çalışır.

Kənd təsərrüfatının əsasını buğda, düyü, şəkər qamışı, pambıqçılıq təşkil edir.

Pakistan bütövlükdə özünü ərzaq məhsulları ilə təmin edə bilir. İldə 15,5 mln. ton buğda, 4 mln. ton düyü, 35 mln. ton şəkər qamışı, 1,5 mln. ton pambıq istehsal edir.

Torpaq sahəsi əsasən feodalların və fermerlərin əlində cəmləşdirilibdir. Kəndli təsərrüfatları kapital qoyuluşunun aşağı olması və geridə qalmış yarıfeodal torpaq münasibətləri ilə xarakterizə edilir.

Lakin son on illiklərdə kənd təsərrüfatı az-çox yeni texnologiya ilə təmin edilir. Texnoloji modernləşdirmə həyata keçirilir. ÜDM-in 10 %-ə qədərini təkcə toxuculuq sənayesi verir. Sənaye işçilərinin 40 %-i toxuculuq sənayesinin payına düşür. Bu sahə əsasən ixraca istiqamətlənmişdir.

Eləcə də təbii qaz, neft, daş duzu, kömür, mis, mərmər, uran filizi ehtiyatları vardır.

Sənayenin əsas aşağıdakı sahələri üstünlük təşkil edir: toxuculuq, yeyinti sənayesi, kimya, sement, poladəritmə, qaz, neft emalı və s. Orta illik neft istehsalı 3 mln. tondur. Cəmi neft ehtiyatı 27 mln. ton qiymətləndirilir.

Sənaye məhsulunun 50 %-ə qədəri dövlət bölməsinə məxsusdur (bura elektrik enerjisi, polad, kömür, neft və neft məhsulları, gübrə və s. daxildir). Hazırda iqtisadiyyatda dövlət bölməsinin özəlləşdirilməsi prosesi gedir və xüsusi inhisar birliklərinin rolu artır.

Ölkənin iqtisadiyyatında xarici ticarətin böyük rolu vardır. Əsasən pambıq, düyü, balıq və balıq məhsulları, pambıq parça, idman malları, xalça, dəri, hazır geyim və s. kimi məhsullar ixrac edilir. Geniş miqyasda (xüsusən Yaxın Şərq ölkələrinə) işçi qüvvəsi ixracı da mövcuddur. Bununla yanaşı neft və neft məhsulları, sənaye məhsulları xammalı və avadanlıq, bitki yağı, çay, kimya məhsulları, gübrə və s. kimi məhsullar idxal edilir.

Yaponiya, Səudiyyə Ərəbistanı, ABŞ, İran, AFR, Böyük Britaniya, BƏƏ ilə daha çox ticarət əlaqələri saxlayır.

Pakistan emal sənayesi sahəsində ilk növbədə kənd təsərrüfatının emalı ilə bağlı olan sahələrə üstünlük vermişdir. Bu isə əsasən toxuculuq, dəri, yeyinti sahələrini əhatə etmişdir. Ticarət balansında olan çatışmazlığı aradan qaldırmaq üçün idaxalı azaltmış, istehlak malları ixracına (əyaqqabı, paltar) üstünlük vermişdir.

1970-80-ci illərdə kimya və maşınqayırma müəssisələri, poladəritmə zavodu tikilmişdir.

İqtisadiyyatda köklü dəyişiklik aparılması üçün 1997-ci ildə islahat proqramı hazırlanmışdır. Burada ixracın genişləndirilməsi, idxalın nisbətən məhdudlaşdırılması, xarici məhsulları əvəz edən sahələrin genişləndirilməsi (o cümlədən bitki yağları üzrə) nəzərdə tutulurdu.

Eləcə də ixracın əsasını təşkil edən ənənəvi Pakistan məhsulları olan parça, idman malları, dəri məmulatları, xalça və s. kimi məhsullar istehsalına dövlət himayədarlığının aratırılması nəzərdə tutulmuşdur. Xaricdən gətirilən maşın və avadanlıqlara gömrük rüsumları 10 % azaldılmışdır.

İslahat proqramına əsasən dövlət xərclərinin azaldılması işində və telekommunikasiya rabitəsi sahəsində, iri təyyarə limanlarında, dəniz limanlarında, dövlət bankı sistemində köklü islahatlar aparılmışdır.

Dövlət müəssisələrinin yerli və xarici sahibkarlara satılmasında xarici bölməyə investisiyanın artırılması, ilk növbədə maşınqayırma və energetikanın inkişafı nəzərdə tutulmuşdur.

Kapitalın beynəlxalq hərəkəti problemində qeyd etməliyik ki, Pakistan ən çox kapital idxal edən ölkələrdən biridir. Bu əsasən xarici kredit, borc, birbaşa xüsusi investisiyalar, xüsusi (şəxsi) pul köçürmələri formalarında həyata keçirilir. 2002-ci ilə cəmi toplanmış xarici kapital 6,4 mlrd. dollar təşkil etmişdir. Cəmi xarici borcu 32,1 mlrd. dollardır.

4. Şərqi və Cənub-şərqi Asiya (Ş və CŞA) dövlətlərinin iqtisadiyyatının ümumi xarakteristikası

Hazırda BMT-nin təsnifatına görə bu ərazidə 10-dan artıq ölkə vardır. Bunlar: Cənub-şərqi Asiya – Bruney, Vyetnam, Kamboca. Laos, İndoneziya, Myanma (Birma), Malayziya, Tailand, Sinqapur, Filippin, Mikroneziya; Şərqi Asiyada isə – Koreya və Tayvandır.

Şərqi və Cənub-şərqi Asiya ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min km²	Əhalisi, mln. nəfər	Cəmi ÜDM, mlrd. dol.
1	İndoneziya	1905	242	257
2	Malayziya	330	25	118
3	Filippin	300	88	87
4	Sinqapur	0,640	4,5	107
5	Cənubi Koreya	99	49	680
6	Tailand	513	64	163
7	Tayvan	36	23	
8	Vyetnam	132	84	45
9	Birma	678	47	
10	Kamboca	181	14	5,0
11	Laos	237	6,2	2,4
	Cəmi	**4412**	**6457**	

Bu ölkələrin hamısıda inkişaf etməkdə olan ölkələr sırasına daxildirlər. Lakin son illərin məlumatına görə Sinqapur, Cənubi Koreya inkişaf etmiş ölkələr sırasına da aid edilirlər. Lakin bu mövzuda bu ölkələrin iqtisadi təhlili ərazi baxımından verilir. Odur ki, onların hansı yarımqrup ölkələrə daxil olmasının dəxli yoxdur.

Onu da qeyd etməliyik ki, bu ərazidəki ölkələrdən Sinqapur, Tayvan, Koreya Respublikası, Malayziya, İndoneziya,

Tailand və Filippin yeni sənaye ölkələri hesab edilirlər. Odur ki, bu ərazidəki ölkələrin iqtisadi inkişafının səciyyələndirilməsi də əsasən həmin ölkələrin üzərində qurulacaqdır.

Bu ölkələrinin bir çoxunun inkişafında Yaponiyanın təcrübəsi, onun «iqtisadi möcüzəsi» böyük rol oynamışdır. Yaponiyanın islahat yolu onlar üçün həyat məktəbi olmuşdur. Bu yolda 1960-cı illərdən ilk tərəqqi tapan ölkələr – Hon-qonq, Sinqapur, Tayvan və Koreya Respublikası olmuşdur. Bu ölkələr xarici ədəbiyyatlarda «Əjdaha» və eyni zamanda «Yeni sənaye ölkələri» adlanırlar. Təqribən 20-30 ildən sonra həmin ərazidən 4 ölkə – Malayziya, İndoneziya, Tailand, Filippin ardıcıl olaraq öz iqtisadi göstəricilərini yaxşılaşdıra bilmişlər və beləliklə 2-ci nəsl **«yeni sənaye ölkələri»**ni təşkil etmişlər (iqtisadi ədəbiyyatlarda bu ölkələr «pələng» adlanırlar).

Birinci nəsl adlanan ölkələrin bəziləri bir çox göstəricilərə görə inkişaf etmiş sənaye ölkələri sırasına daxil olmaq səviyyəsinədək yüksəlmişlər.

Beləliklə Ş və CŞA ölkələrində quruluş dəyişiklikləri, iqtisadi islahatlar aparılması nəticəsində ənənəvi sahələr olan kənd təsərrüfatının xüsusi çəkisi azalmış, yeni sahələr meydana gəlmişdir. İstehsalın elm və kapital tutumluğu artmışdır.

Sənaye istehsalının və xüsusilə emal sənayesinin inkişafına üstünlük verilməsi, açıq iqtisadiyyata keçilməsi, idxal məhsullarının əvəzlənməsi, yerli kadrlar hazırlanması kimi problemlər ön plana çəkilmişdir.

Bütün bunlar Asiya ölkələrində dinamik inkişafa zəmin yaratmışlar. Bu ölkələrin iqtisadi inkişaf modelinin səciyyələndirilməsində Şərqi Asiya xalqlarına xas olan mədəni cəhətlər, şərq mentaliteti də böyük rol oynayır. Bunlardan bəzi cəhətləri qeyd etmək olar:

- hakim orqanlara hörmət etmək və sözsüz tabeçilik göstərmək;
- yüksək təhsil standartlarının mövcud olması (beynəlxalq təşkilatların mülumatına görə Sinqapur, Hon-

qonq, Cənubi Koreya və Yaponiyada kənclərin intellektual səviyyəsi daha yüksəkdir);
- böyük əzmkarlıq və əməksevərlik;
- amirlik ruhunun mövcud olması və çiyin-çiyinə olmaq hissi;
- yaxın ailəçilik və qohumluq əlaqələrinin olması və s.

5. Ş və CŞA ölkələrində dövlətin iqtisadi siyasəti

CŞA ölkələri uzun illər öz iqtisadiyyatlarını qurmaqda və formalaşdırmaqda dövlətin iqtisadi siyasətindən geniş istifadə etmişlər. Aydındır ki, iqtisadi inkişafın ayrı-ayrı dövrlərində yeni iqtisadi siyasət aparılmışdır.

1950-ci illərdə bu regionun ölkələrində çox geridə qalmış kənd təsərrüfatı mövcud olmuşdur. Sənaye yox dərəcəsində idi. İqtisadi ehtiyatlardan demək olar ki, ancaq ucuz işçi qüvvəsi vardı.

Kənd təsərrüfatında islahat aparılması ön plana çəkilmişdir. İri torpaq sahibliyi müsadirə edilirdi, torpaqlar bölünürdü.

Sənayeləşdirmənin özü də müəyyən mərhələlərdə tez-tez dəyişdirilirdi və aşağıdakı sahələrə üstünlük verilirdi:
- 1950-ci illərdə toxuculuq və şüşə istehsalı;
- 1960-cı illərdə sement, mineral gübrələri, neft emalı, poladtökmə sənayesi, sintetik parçalar istehsalı;
- 1970-ci illərdə gəmiqayırma, investisiya tələb edən məhsullar, uzun müddət istifadə edilən məhsullar (avadanlıq, avtomaşın və s.) istehsalı;
- 1980-ci illərdə elektrotexnika sənayesi, telekommunikasiya, informatika sənayesi;
- 1990-cı illərdə yeni materiallar və texnologiya istehsalı, aerokosmik sənayesi əsas götürülmüşdür.

Daha həlledici sahələrə aşağı faizlə kredit verilirdi. Bu yolla kapital çatışmazlığı aradan qaldırılırdı. Xarici kreditlərə hökumətin təminatı artırılırdı.

Ş və CŞA-nın inkişaf strategiyasında quruluş dəyişikliyi siyasəti böyük rola malik olmuşdu. Bu siyasət çərçivəsində aşağıdakı vəzifələr yerinə yetirilmişdir:
- ayrı-ayrı sahələrin məqsədəuyğunluğunun müəyyən edilməsi;
- quruluş dəyişikliyinin ardıcıllığının gözlənilməsi;
- xərclərin nəticələrinin həcmi üzərində nəzarət;
- quruluş dəyişikliyi üzrə strategiyanın formalaşdırılması və s.

1. Beləliklə, quruluş dəyişikliyi siyasətinin təntənəsi ilə 60-cı illərə nisbətən 70-ci illərdə sənayeləşmənin əhəmiyyəti xeyli artmış və üçüncü bölmənin miqyası dəyişilmişdir.

Odur ki, özü-özünə zəmin yarada bilən sənayeləşmə meydana gəlmişdir. Maşın texnikasına keçilməsi keyfiyyətcə yeni inkişaf səviyyəsi əldə edilməsi, kənd təsərrüfatının modernləşdirilməsi, müasir infrastruktura yaradılması işləri həyata keçirilmişdir.

Bu regionun bir çox ölkəsində 60-70-ci illərdə quruluş siyasətinin həyata keçirilməsi üçün mərkəzlər, institutlar yaradılırdı. Məsələn, Malayziyada **dövlət korporasiyaları** ölkənin ayrı-ayrı ərazilərində kənd təsərrüfatının, şəhərlərin inkişafı ilə məşğul olurdu. Malayziyanın hər bir ştatında «Dövlət iqtisadi inkişaf korporasiyası»nın filialı yaradılırdı. Malayziyada kənd təsərrüfatının intensiv inkişafı dövlət krediti ilə həyata keçirilirdi.

Biznes ilə dövlətin qarşılıqlı əlaqəsi planlaşdırılma mexanizminə əsaslanmışdır. Tədricən xarici ekspertləri yerli kadrlar əvəz edirdi. Məsələn, Koreyada 4-cü beşillik planın hazırlanmasında əsasən Koreya inkişaf institutunun alimləri iştirak etmişdilər. Koreya özünün biznesə təsir etmək vasitələrini hazırlamışdı. Bu – vergi, kredit, pul, ticarət, valyuta barədə dövlət tənzimlənməsi metodunun məcmusunu əks etdirirdi. Tayvanda da «iqtisadi planlaşdırma inkişaf Şurası» zəruri sənaye və infrastruktura obyektlərinin yaradılması və tənzimlənməsində bu kimi makroiqtisadi modellərdən istifadə edilmişdir.

2. Sənayenin inkişafının genişləndirilməsində idxalın əvəzlənməsi və ixraca istiqamətlənmə əsas götürülürdü. Asiya

ölkələrində idxalın əvəzlənməsi zəruriliyi çox vaxt xüsusi biznesə **köməklik göstərilməsi** kimi qiymətləndirilirdi. Asiya **ölkələrinin çoxunda** bu proses eyni sxema ilə aparılırdı.

Əvvəlcə istehlak mallarının (ərzaq, əyaqqabı, toxuculuq və **s.) idxalının** əvəzlənməsi həyata keçirilirdi. Sonra sənayeləşmə **artdıqca** idxalın əvəzlənməsi kimya, neft-kimya məhsulları, qara metal, maşın və avadanlıqların müəyyən komponentləri üzrə həyata keçirilmişdir. Bu regionda idxalın əvəzlənməsi strategiyası müəyyən yenidən bölgü prosesi ilə reallaşdırılırdı. Emal sənayesi əsasən kənd təsərrüfatı və hasilat sahələrindən olan vəsait hesabına maliyyələşdirilirdi. Ticarətdə müəyyən dəyişiklik edilməklə sənaye sahələrinə xarici kapital axını daha da artırdı.

Nəzarət əsasən iki formada tətbiq edilirdi: **valyuta və ticarət nəzarəti**. Məsələn, idxal olunan malların qiymətlərinin artırılması üçün milli valyuta kursu süni olaraq artırılırdı. Müxtəlif qrup idxal məhsullarının alınmasında fərqli valyuta kursları tətbiq edilirdi. Məsələn, Tayvanda dövlət bölməsi – avadanlıq, zəruri xammal materialları və sair məhsulları aşağı rəsmi kurs ilə alırdı. Digər məhsullar isə yuxarı valyuta kursu ilə alınırdı (əlavə vergi tətbiq edilirdi).

50-ci illərin axırlarına Tayvanda, Koreya Respublikasında, 70-ci illərdə Malayziya, Tailand və Filippində idxalın əvəzlənməsinin effektivliyi kəskin azalmışdır. Çünki quruluş dəyişikliyi əsasən daxili bazara istiqamətlənmişdir, əlbəttə belə strategiya məhdud idi.

Ona görə də 70-ci illərin əvvəllərindən dövlət planları və proqramlarında sosial istiqamətlərin gücləndirilməsi ön plana çəkilmişdir. Bunlar: **İndoneziyada «Yeni nizam»; Filippində – «Yeni cəmiyyət»; Malayziyada – «Yeni iqtisadi siyasət»** adı daşıyırdılar.

Bu kimi strateji proqramlarda məşğulluğun artmasının zəruriliyi, gəlirlər arasındakı fərqin azaldılması, iqtisadi siyasətlərin hazırlanması və həyata keçirilməsində xalq kütləsinin iştirakının təmin edilməsi problemlərinin həlli ön plana çəkilirdi.

3. İnkişaf strategiyasında ikinci əsas cəhət ixraca istiqamətlənmə olmuşdur. Bu istiqamətdə Asiya dövlətlərinin əksəriyyəti əməktutumlu istehsaldan kapitaltutumlu və nəticədə elmtutumlu istehsala keçməyi nəzərdə tuturdular. Bu isə 80-ci illərdə emal sənayesinin inkişafına az-çox təkan verə biləcək avadanlıqlara olan tələbatın artması və neft məhsullarının qiymətlərinin yüksəlməsi kimi obyektiv amillərlə şərtlənirdi.

4. 80-ci illərdə həmin regionun dövlətlərinin sənayeləşdirilməsi strategiyasında «elmi-tədqiqat təcrübə konstruksiya işləri»nin (ETTKİ) təkmilləşdirilməsi də böyük rol oynamışdı. Qısa bir müddətdə Elmi-tədqiqat institutları şəbəkəsi, institutlar, laboratoriyalar yaradılmışdır. Bir çox hallarda yarımkeçiricilər, Atom Elektrik stansiyaları üçün avadanlıqlar və kompüter istehsalına dair milli layihələr hazırlanırdı. ETTKİ-nin inkişafına çəkilən xərclər ilbə-il artırdı. Hətta bəzən ÜDM-də bu xərclərin xüsusi çəkisi ABŞ-ın göstəricilərini üstələyirdi.

5. Asiya ölkələrinin sosial-iqtisadi inkişaf proqramının tərkib hissələrindən biri də aqrar islahatı keçirilməsidir. Kənd təsərrüfatında ənənəvi torpaq münasibətlərinin dəyişilməsi, geniş miqyasda irriqasiya işləri aparılmasına, torpaqların yaxşılaşdırılmasına, kənd təsərrüfatı infrastrukturası yaradılmasına yol açmışdır.

1949-1953-cü illərdə Tayvanda, 1949-1952-ci illərdə Koreya Respublikasında, 1972-ci ildə Filippində, 1975-ci ildə Tailandda aqrar islahatları keçirilməsi yüksək nəticələr verirdi. Aqrar islahatı keçirilməsi nəticəsində dövlət büdcəsinin təmin edilməsi, torpaq mülkiyyəti formalarının təkmilləşdirilməsi, kənd təsərrüfatının sənayeləşdirilməsi, kənd təsərrüfatı istehsalı istiqamətinin dəyişdirilməsi, tək tarlaçılığın aradan qaldırılması, kənd təsərrüfatının həddindən artıq yüklənməsinə və çox iri təsərrüfatlar yaradılmasına imkan verilməməsi ön plana çəkilirdi.

Regionda sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsində ən mürəkkəb problemlərdən biri də iqtisadi inkişafın daxili ehtiyatlar hesabına tam maliyyələşdirilə bilməməsi olmuşdur. Odur ki, xarici kapitaldan geniş istifadə edilmişdir. Xarici kapitaldan istifadə edilməsi hazırda da böyük əhəmiyyət kəsb edir. Çünki, bu kapital əsasən iqtisadiyyatın daha müasir

sahələrinə sərf edilir. 70-ci illərdən başlayaraq **«İnvestisiya edilməsinin yeni forması»** deyilən forma geniş yayılmışdır. Burada: **qarışıq sahibkarlıq və maliyyələşmənin müxtəlif formaları, xidmət göstərilməsi və texnologiya verilməsi, mülkiyyətdən istifadə edilməsi hüququ, idarəçilik və məsləhət xidməti göstərilməsi, inşaat işində avadanlıq alınması və quraşdırılmasında texniki köməklik göstərilməsi və s. kimi işlər nəzərdə tutulurdu.**

Həmin illərdən xarici bankların kreditlərindən də istifadə edilir. Borc alınması və xarici investisiyadan istifadə edilməsi bütün müsbət tərəfləri ilə yanaşı tədiyyə balansında müəyyən kəsr yaranmasına da səbəb olmuşdur. İndoneziya, Tailand və Filippində qızıl valyuta ehtiyatı azalmışdır. Valyuta qənaəttinə kəskin ehtiyac yaranmışdır.

80-ci illərdən Tayvanın vəziyyəti yaxşılaşmışdır. Hazırda Tayvanın qızıl valyuta ehtiyatı 80-100 mlrd. dollar təşkil edir.

Dinamik inkişaf edən Ş və CŞA ölkələri iqtisadi, maliyyə və hətta siyasi böhranlardan da kənar deyildir. 1997-1998-ci illərdə İndoneziya, Malayziya, Tailand böhranla rastlaşmışlar. 1998-ci ildə Böyük Britaniya, Sinqapur, Yaponiya, ABŞ və Malayziyadan İndoneziyaya olan xarici investisiya 60 % azalmışdır. Hazırda İndoneziyanın xarici borcu 125 mlrd. dollar təşkil edir. Həmin illərdə 70 milyondan çox adam çox kasıb həddə düşmüşdür. Hər nəfərə düşən ÜDM və yerli valyutanın dollara olan kursu 3 dəfə aşağı düşmüşdür.

BVF Tailanda 17 mlrd. dollar, 1999-cu ildə isə 3 mlrd. dollar maliyyə yardımı etmişdir. Bundan əlavə bura xarici ölkələrdən 12 mlrd. dollar daxil olmuşdur. Tailandın 1997-2000-ci illərdə xaricdən maliyyə köməyi almaqla böhrandan çıxmaq siyasəti öz mənfi cəhətlərini də göstərməyə bilməzdi. Belə birtərəfli istiqamət yerli orta, hətta iri milli kapitalların mənafeinə toxunurdu. Odur ki, hazırda Tailandın ABŞ və BVF ilə əlaqələrinə nisbətən Yaponiya, Çin və digər Asiya ölkələri ilə əlaqələrinin artırılmasına daha çox üstünlük verilir. Bütün qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olur ki, Ş və CŞA ölkələrinin bir çoxu müəyyən sosial-iqtisadi inkişafa nail

olsalar da hələ də kifayət qədər sənayeləşmiş iqtisadiyyat yaradıb formalaşdıra bilməmişlər. Qeyd etdiyimiz bütün bu ümumi mülahizələrlə yanaşı nisbətən böyük ölkələr haqqında bəzi iqtisadi göstəriciləri nümayiş etdirməklə ümumidən xüsusiyə doğru və yaxud mücərrəddən konkretə doğru hərəkət etməklə daha müfəssəl məlumat əldə etmiş oluruq.

Şərqi və Cənubi-şərqi Asiya ölkələrində ÜDM-in quruluşu, %-lə (2005)

	Dövlətlərin adı	Kənd təsər-tı	Sənaye	Xidmət sahələri
1	İndoneziya	17	43	40
2	Malayziya	9	49	42
3	Filippin	14	32	53
4	Sinqapur	0,1	35	64,9
5	Cənubi Koreya	4,0	42	54,0
6	Tailand	9,0	41	50,0
7	Tayvan	3,0	33	64
8	Vyetnam	23,0	39	38,0
9	Birma	57	11	32
10	Kamboca	36	28	36
11	Laos	51	23	26
	Cəmi			

Cədvəldəki göstəricilərdən məlum olur ki, adı sadalanan ölkələrdə hələ də kənd təsərrüfatı üstünlük təşkil edir. Burada ancaq Sinqapur, Tayvan, Cənubi Koreya və nisbətən Malayziya və Tailand fərqlənirlər. Bu isə həmin ölkələrdə müasir sənaye sahələrinin zəif inkişaf etdiyini göstərir.

İndoneziya. Malay adaları ilə Yeni Qvineya adasında yerləşir. Prezident Respublikasıdır. Dövlət başçısı prezidentdir. 1945-ci ilə qədər Niderlandın müstəmləkəsi olubdur. 1945-ci ildə müstəqillik əldə edib, 1950-ci ildən Respublika elan edilibdir. 30 əyaləti və 3 xüsusi ərazini birləşdirir. Ərazisi 1905 min km^2, əhalisi – 242 mln. nəfərdir. 2004-cü ilə ÜDM-in həcmi 258 mlrd.

dollar olmuşdur. ÜDM-in 17 %-i kənd təsərrüfatının, 43 %-i sənayenin, 40 %-i xidmət sahələrinin payına düşür.

CŞA ölkələrində neft və qaz ehtiyatı və çıxarılmasına görə birinci yeri tutur. 2004-cü ilə neft ehtiyatı 603 mln. ton, qaz ehtiyatı isə 850 mlrd. m^3 qiymətləndirilir.

2004-cü ildə 57,5 mln. ton neft, 72,6 mlrd. m^3 qaz çıxarılmışdır. Eləcə də 48 min ton qalay, 3,3 mln. ton mis konsentratı, 3,6 mln. ton nikel misi, 1,1 mln. ton boksidlər, 90 mln. ton kömür və eləcə də gümüş və qızıl istehsal edilir. Ölkədə 8 neftemalı zavodu vardır ki, bunların istehsal gücü 49,4 mln. tondur. Çıxarılan neftin 60 %-dən artığı ixrac edilir.

Elektron, elektrotexnika, mebel, avtomobilqayırma, parça, toxuculuq, ayaqqabı, yeyinti sənayesi sahələri üstünlük təşkil edirlər.

İndoneziyanın bütün adalarında kənd təsərrüfatı inkişaf etdirilir. Əsas ərzaq bitkisi olan düyü istehsalı – 51,6 mln. ton təşkil etmişdir. 2003-cü ildə 9 mln. ton qarğıdalı, 9 mln. ton kassava, 1 mln. ton paxlalı bitkilər, 10 mln. ton yağlı bitkilər, 0,7 mln. ton fıstıq, 1,6 mln. ton kauçuqlu bitki, 0,4 mln. ton qəhvə, 160 min ton çay, eləcə də tütün, şəkər qamışı istehsal edilmişdir.

İqtisadiyyatın inkişafında turizmin rolu tədricən artır. Belə ki, İndoneziya ildə orta hesabla 5 mln. nəfər turist qəbul edir. Bu sahədən olan gəlir 5,3 mlrd. dollara bərabərdir. Ölkəyə xarici kapitalın axmasına hər cür şərait yaradılır.

2002-ci ilə xarici borcu 132,2 mlrd. dollara bərabərdir. Elə həmin ilə toplanmış cəmi xarici kapital 57, 2 mlrd. dollar olmuşdur. Ölkədə bank sistemində güclü islahat aparılmış və bankların sayı azaldılmışdır. Hazırda 155 bank fəaliyyət göstərir. Bunun 5-i dövlət bankı, 85-i yerli xüsusi bank, 26-sı ərazi üzrə bank, 39-u xarici banklardır. Bütün bank sisteminin cəmi aktiv vəsaitinin 49 %-i dövlət bankının, 36 %-i yerli xüsusi bankların, 3 %-i ərazi banklarının və 12 %-i xarici bankların payına düşür.

İndoneziyada 77 dövlət institutu fəaliyyət göstərir. Orta məktəbdə oxuyanların sayı 38,0 mln., institutlarda oxuyanların isə 3,1 mln. nəfərdir.

Malayziya. Malayziya konstitusiyalı monarxiya olub, 13 ştatı və 2 federal ərazini birləşdirir. Böyük Britaniyanın başçılıq etdiyi «həmrəylik» birliyinə daxildir. Dövlət başçısı monarx –soltan- Soltanlar Şurasıdır. 1957-ci ilədək İngiltərənin müstəmləkəsi olubdur. Həmin ildən də müstəqillik əldə etmişdir.

Ərazisi 330 min km^2, əhalisi 25 mln. nəfərdir (2004). ÜDM-in həcmi 118 mlrd. dollar təşkil edir. ÜDM-in 9 %-i kənd təsərrüfatının, 49 %-i sənayenin, 42 %-i isə xidmət sahələrinin payına düşür. İqtisadi artım sürəti – 4,3 %-dir. Malayziya yeni sənaye ölkələri sırasına daxildir. Sənayenin və xidmət sahələrinin inkişafına üstünlük verilir.

Hasilat sənayesindən 2003-cü ildə 38,8 iln. Ton neft, 34,1 mlrd. m^3 təbii qaz, 4 min ton qalay konsentratı, 404 min ton dəmir filizi, 40 min ton boksidlər, 400 min ton kömür istehsal edilmişdir. Neft ehtiyatı – 548 mln. ton, qaz ehtiyatı 2560 mlrd. m^3 –dir.

6 neftemalı zavodu – 25,6 mln. ton gücündə fəaliyyət göstərir. Şin istehsalı, sement, ağac emalı, toxuculuq sahələri inkişaf etdirilir.

Kənd təsərrüfatından – 1,4 mln. ton düyü, paxlalılar, yağlı bitkilər, qəhvə, çay, kakao, tərəvəzçilik, bağçılıq inkişaf etdirilir.

Cəmi xarici borcu 49 mlrd. dollar təşkil edir. Cəmi toplanmış xarici kapital 59 mlrd. dollar olmuşdur (2003). 262 azad sənaye zonası, 17 azad ixrac sənaye zonası, 2 texniki parkı fəaliyyət göstərir.

1990-cı ildən ofşor maliyyə mərkəzi fəaliyyət göstərir. 2003-cü ildə ölkədə 2 min ofşor və köməkçi şirkət, 60 ofşor bank, 80 sığorta şirkəti fəaliyyət göstərmişdir.

Yaşlı əhalinin 87 %-i savadlıdır. Vahid dövlət təhsil sistemi fəaliyyət göstərir. Orta təhsil (6-18 yaş) məcburidir. 8 universitet və 9 institutda 100 min tələbə təhsil alır. Tələbələrin əksəriyyəti təqaüdlə təmin edilirlər. Peşə-texniki təhsil sistemi yaxşı inkişaf etdirilir.

XXX FƏSİL
LATIN AMERİKASI ÖLKƏLƏRİNİN İQTİSADİ İNKİŞAFI

1. *Latın Amerikası (LA) ölkələrinin iqtisadi inkişafının ümumi xarakteristikası.*
2. *LA ölkələrində iqtisadi inkişaf dinamikası və iqtisadi siyasətin əsas istiqamətləri.*
3. *LA ölkələri arasında iqtisadi inteqrasiya birliyinin yaradılması zəruriliyi.*
4. *Braziliyanın iqtisadi inkişafının ümumi xarakteristikası.*
5. *Meksikanın iqtisadi inkişaf modeli.*
6. *Argentinanın iqtisadiyyatı.*
7. *Kolumbiyanın iqtisadiyyatı.*
8. *Venesuelanın iqtisadiyyatı.*
9. *Çilinin iqtisadiyyatı.*

1. Latın Amerikası ölkələrinin iqtisadi inkişafının ümumi xarakteristikası

Latın Amerikası (LA) ABŞ-ın cənubunda qərb yarımkürəsində XIX əsrin birinci yarısında meydana gələn ölkələrin ümumi adıdır. Bu ölkələrin adlarının bir qisminin hindu sözləri ilə, bir qisminin isə Avropa istilaçılarının (xüsusilə ispan) adları ilə bağlı olması iddia edilir.

Bu ərazi özündə 34 müstəqil və təqribən 12-13 başqa tabeçilikdə olan dövlət və əraziləri birləşdirir.

Bu ölkələr əsasən Mərkəzi və Cənubi Amerikada İspaniya və Portuqaliyanın müstəmləkəsi olmuşlar. İkinci Dünya müharibəsindən sonra Karib hövzəsinin bir çox müstəqil dövlətləri də bura aid edilmişdirlər. Ona görə də çox vaxt bu əraziyə Latın Amerikası və Karib hövzəsi ölkələri də deyirlər (LKA).

Cəmi ərazisi 21 mln. km^2, əhalisi təqribən 560 mln. nəfərdir (2005).

İdarəçilik formalarına görə bu ərazi Avropa və Asiyadan fərqlənir. Belə ki, bu dövlətlərin hamısı respublika quruluşuna malik olub prezident idarəçiliyinə əsaslanırlar. Böyük Britaniya «həmrəyliyi» birliyinə daxil olan – Qayana, Dominika, Trinidad və Tobaqo da prezident respublikasıdırlar. Yalnız Kuba sosialist dövləti kimi fərqlənir.

İnzibati-ərazi quruluşuna görə isə bu dövlətlərin əksəriyyəti unitar dövlətlərdir. Burada ən böyük dövlətlər olan Braziliya, Meksika, Argentina və Venesuela federativ dövlət quruluşuna malikdirlər. Kiçik bir dövlət olan Sent-Kits və Nevis də iki kiçik adadan ibarət olub federativ hesab edilir.

Latın Amerikası ölkələri öz sosial-iqtisadi inkişaflarında uzun bir yol keçmişlər. Müstəmləkə vəziyyətindən dünya iqtisadi əlaqələrinin genişlənməsi səviyyəsinədək yüksəlmişlər. Hazırda bu ərazi və hər şeydən əvvəl burada daha böyük dövlətlər hesab edilən – Braziliya, Meksika və Argentina şimalın inkişaf etmiş dövlətləri ilə cənubun inkişaf etməkdə olan dövlətləri arasında bağlayıcı rolu oynayırlar. Belə ki, bu ərazi üzrə cəmi ÜDM-in 66 %-i həmin üç ölkənin, o cümlədən 31 %-i təkcə Braziliyanın payına düşür.

Bu ərazi dünya üzrə ÜDM-in təqribən 7-8 %-ni və eləcə də emal sənayesi məhsulunun 6-7 %-ni istehsal edir. Sənaye avadanlıqları və nəqliyyat vasitələrinin təqribən 4-5 %-i bu ərazinin payına düşür.

Latın Amerikası ölkələri kifayət qədər enerji, mineral və ərzaq məhsulları ehtiyatlarına da malikdirlər.

Təbii ehtiyatları iki səpkidə vermək olar: 1. Bərpa olunmayan ehtiyatlar və 2. Bərpa olunan ehtiyatlar.

1. **Bərpa olunmayan** (yəni tükənə bilən) ehtiyatlar dedikdə hər şeydən əvvəl faydalı qazıntılar nəzərdə tutulur. Latın Amerikasında kifayət qədər niobium, litium, berillium, molibden, mis filizi, kükürd, sürmə filizi, gümüş, dəmir və qalay filizi, boksidlər, neft ehtiyatları mövcuddur.

2. **Bərpa olunan** (təzələnən) təbii ehtiyatlar dedikdə burada ilk növbədə torpaq, su, meşə ehtiyatları, aqroiqlim ehtiyatları, təbiətdən istifadə və s. nəzərdə tutulur.

Burada çox geniş torpaq sahələri vardır. Hər nəfərə düşən torpaq fonduna görə Latın Amerikası ancaq Avstraliya və MDB-dən geri qalır.

Su ehtiyatlarına görə bu ərazi ancaq xarici Asiyadan geri qalır. Hər nəfər hesabı ilə çay axını baxımından bu ərazi Avropanı, xarici Asiyanı və Afrikanı 5-8 dəfə qabaqlayır. Burada güclü hidroenerji ehtiyatı mövcuddur. Bu ərazidə 280 böyük su ambarı vardır ki, onların su tutumu 900 m^3-dir.

Meşə ehtiyatları baxımından Latın Amerikası əlverişli imkanlara malikdir. Cəmi meşə örtüyü 1260 mln. hektar təşkil edir. Bu baxımdan bu ərazi dünyada birinci yeri tutur.

Vaxtı ilə SSRİ kosmonavtı Valentina Tereşkova deyirdi ki, kosmosdan müşahidə etdikdə hər materik öz rənginə görə fərqlənir. Belə ki, Afrika –sarı, Asiya – tünd-qəhvəyi, Cənubi Amerika isə yaşıl görünür. Dünya üzrə hər nəfərə düşən meşə örtüyü orta hesabla 0,6 hektar olduğu halda Latın Amerikasında bu göstərici 2,2 hektardır. Burada daha rütubətli meşəliklər vardır.

Aqroiqlim şəraitinin yaxşı olması da bir çox istilik sevən birillik və çoxillik bitkilərin yetişdirilməsinə zəmin yaradır.

Bütün bu kimi ehtiyatların zənginliyinin nəticəsidir ki, 2000-ci ilin əvvəllərinə dünya neft ixracının 12 %-i LA ölkələrinin payına düşmüşdür. Burada yeni yataqların işlənilməsi daha sürətlə genişlənir. Son vaxtlar quruda və dənizdə neft buruqları qazılmasının sayına görə iri ərazilər içərisində LA birinci yerə çıxmışdır. Qaz yataqlarının mənimsənilməsi də sürətlə genişlənir. 2000-ci illərdə cəmi qaz istehsalının 15 %-i bu ərazinin payına düşmüşdür.

Qeyd etməliyik ki, LA ölkələri dünya bazarında metal filizi və konsentratları ixrac edən ən böyük ərazilərdən biri kimi çıxış edir. Dünya üzrə boksidlər və dəmir filizi ixracının 32-36 %-i, mis, qalay, qurğuşun, sink filizləri və konsentratlarının 20-29 %-i bu ərazinin payına düşür. Bu regionun bəzi

ölkələri – xüsusilə Peru və Braziliya zəngin **qızıl istehsalçısı kimi** LA-nın rolunu bərpa edirlər. Hazırda dünya üzrə **20 ən böyük qızıl** yataqlarından **9-u** LA-da yerləşir.

LA ölkələri geniş çeşidli ənənəvi kənd təsərrüfatı məhsulları istehsalçısı və ixrac edəni kimi də çıxış edirlər.

Belə ki, bu ölkələr dünya üzrə banan bazarının 80 %-ni, kofenin 60 %-ni, şəkər xammalı və soya yağının 50 %-ni təmin edə bilirlər. Pambıq (çiyid) yağı ixracının 30 %-i, soyanın – 30 %-i, kakao məmulatlarının 20 %-i, kakao – paxlalılarının 12 %-i bu ərazinin payına düşür.

Dünya ixracatında mal əti və ət məhsulları ixracının 10 %-i, quş ətinin 13 %-i, balıq ununun 70-80 %-i, balıq və dəniz məhsullarının 11-12 %-i yenə də həmin ölkələrin payına düşür.

Bütün bunlarla yanaşı bu ərazi əlbəttə ancaq xammal və zəif emal edilmiş məhsullar ixrac etməklə məhdudlaşmır. LA ölkələri neftemalı, metallurgiya, kimya, metal emalı və maşınqayırma məhsulları istehsalçısı və ixrac edəni kimi də xüsusi rola malikdirlər.

Yüngül sənaye məhsulları istehsalı və ixracına görə hələ 1970-ci illərdə rəqabətqabiliyyətli ərazi səviyyəsinə qalxmışdı. 2000-ci illərin əvvəllərinə avtomobil, gəmi, aviatexnika, radioelektron aparatları, avtomat dəzgahlar avadanlıqları istehsalı əsaslı dərəcədə genişlənmişdir.

2. LA ölkələrində iqtisadi inkişaf dinamikası və iqtisadi siyasətin əsas istiqamətləri

Başqa ərazilərdə olduğu kimi LA dövlətləri də öz sosial-iqtisadi inkişaf modellərində **idxal məhsullarının əvəzlənməsi və ixraca istiqamətlənmək** prinsiplərindən geniş istifadə etmişlər.

Bu ölkələrin bir çoxu hələ 1930-cu illərdə ağır sənayenin əsaslarını yaratmağa çalışırdı. Həmin dövrdə emal sənayesinin inkişafı və işlənməsi üçün iqtisadiyyatın mühəndis kadrlarla, texniklərlə, ixtisaslı fəhlələrlə təmin olunması ön plana çəkilirdi. Xarici ölkələrdən yeni texnika və texnologiyanın alınması

məhdudlaşdırılırdı. İdxal üzərində ciddi nəzarət və himayədarlıq mexanizmi genişlənirdi. Beləliklə 70-ci illərin əvvəllərinə ərazidaxili inteqrasiya və zona üzrə himayədarlıq yerli istehsalın rəqabətqabiliyyətli olmasını daha da azaldırdı.

Milli yerli sahibkarlıq zəif olduğu üçün 90-cı illərədək dövlət özü həm sahibkar kimi, həm də tənzimləyici orqan kimi çıxış edirdi. Beləliklə iqtisadi inkişafda daxili amillərin roluna daha çox üstünlük verilmişdir. Hər halda xarici mənbələr hesabına maliyyələşdirməyə də ehtiyac artmışdı.

Bütün bunlara baxmayaraq LA ölkələri 1970-80-ci illərdə güclü iqtisadi baza yarada bilmişlər. LA-nın nisbətən kiçik ölkələri isə ixrac yönümlü inkişaf modelini əsas götürərək dar ixtisaslaşmaya üstünlük vermişlər.

Hər halda bir çox iqtisadi göstəricilərə görə və xüsusi ilə ÜDM-in inkişaf sürətinə görə 1990-2000-ci illərdə bu ərazi ancaq Asiyanın böyük dövlətlərindən geri qalırdı. 1991-2000-ci illərdə orta illik artım sürəti Çilidə – 7 %, Argentinada – 5,5 %, Peruda – 5,4 % olmuşdur.

İqtisadi inkişafı əsasən daxili mənbələr hesabına olduğu üçün yığım norması çox aşağı idi. Belə ki, yığım norması böyük ölkələrdə cəmisi 15-18 %, kiçik və orta səviyyəli ölkələrdə isə 10-12 % təşkil edirdi. Odur ki, istər-istəməz xarici investisiyanın artırılmasına zərurət yaranmışdır. 1991-2000-ci illərdə bu ölkələrə cəlb edilən xarici kapital 4 dəfə artmışdır. Lakin bu ölkələrdə siyasi sabitlik o qədər də etibarlı olmadığına görə xarici investisiyalar əsasən qısa müddətli olur. Məsələn, 1990-cı illərdə Cənubi-şərqi Asiya ölkələrində baş verən böhranların təsiri altında 1998-ci ildə Braziliya bazarından 30 mlrd. dollar xarici kapital getmişdir. Bu isə bir çox problemlərin yarımçıq qalmasına səbəb olmuşdur.

Nəhayət 80-ci illərin axırları, 90-cı illərin əvvəllərinə LA ölkələrinin əksəriyyətində iqtisadi inkişafın xarakteri dəyişməyə başlanmışdır. Hərtərəfli islahatlar keçirilməyə üstünlük verilirdi. **Liberal bazar sistemi yaranırdı və iqtisadiyyata dövlətin** qarışmasının mexanizmi dəyişirdi. Hazırda da iqtisadiyyatda dövlət bölməsinin xüsusi çəkisi azalmış, iqtisadiyyatın açıqlıq dərəcəsi artmışdır.

Dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi bir çox ölkələrdə başa çatmış, Argentina və Meksikada demək olar ki, son mərhələ qurtarmaq üzrədir.

Bütün ərazidə maliyyə sahəsində, xarici iqtisadi əlaqələrdə, valyuta rejimi sahəsində, əmək münasibətləri sahəsində islahat aparılmışdır. Vergi dərəcələri dəyişdirilmiş, gömrük rüsumları azaldılmış, xarici ticarətin liberallaşdırılması, xarici kapital axını artmışdır.

İş həftəsinin uzunluğu qanunla müəyyən edilmişdir (Argentina, Boliviya, Çili, Uruqvayda 48 saat, Barziliyada – 44 saat, Meksika, Ekvador, Barbadosda – 40 saat).

3. LA ölkələri arasında iqtisadi inteqrasiya birliyinin yaradılması zəruriliyi[1]

Cənubi Amerika dövlətlərinin geosiyasi vəziyyəti – ABŞ kimi böyük dövlətə yaxın olmaları, tarixi bağlılıq, xammal ehtiyatları sırasına daxil olmaları bu ölkələr arasında iqtisadi inteqrasiya əlaqələrinin yaradılmasına obyektiv zəmini artırmışdır.

Qeyd etməliyik ki, hələ İkinci Dünya müharibəsindən əvvəl Argentina ilə Braziliya arasında ticarət-iqtisadi əlaqələrinin yaradılması barədə müəyyən məsləhətləşmələr gedirdi. Həmin vaxtlar bu iki ölkə arasında 30-dan artıq müxtəlif razılaşmalar əldə edilmişdir. Bununla da nəqliyyat xərcləri və bir çox digər xərclərin azaldılması hesabına ərazi daxilində ixrac məhsullarının rəqabətqabiliyyəti nisbətən artmışdı. Müharibədən sonra Uruqvay və Paraqvay da onlara qoşulmağa yaxınlaşmışdır.

Hətta 1950-ci illərin əvvəllərində **ümumi Latın Amerikası** bazarı yaradılması ideyası irəli sürülürdü.

[1] İnteqrasiya birliyi barədə ayrıca mövzu olduğu üçün həmin m: burada səthi verilir.

Həmçinin 1950-ci illərin əvvəllərində Qərbi Avropa dövlətləri arasında yaranan inteqrasiya birliklərinin təcrübəsi və əhəmiyyəti bütün digər ərazilərə də təsir etmişdir.

Beləliklə 1960-cı ildə LA-nın bir neçə dövləti – Argentina, Braziliya, Meksika, Paraqvay, Peru, Uruqvay və Çili (sonralar Kolumbiya, Ekvador, Venesuela və Boliviya da bura qoşulmuşdular) Uruqvayın paytaxtı Montevideoda Latın Amerikası azad ticarət birliyi (LAATB) yaratmaq barədə müqavilə imzalamışdılar (iqamətgahı Montevideodadır). Burada ilk növbədə taxıl və neft satışının liberallaşdırılması üzərində fikir müxtəlifliyi yaranmışdır. Buna baxmayaraq inteqrasiya öz müsbət nəticələrini vermişdir.

Qarşılıqlı ticarətdə sənaye məmulatlarının xüsusi çəkisi 17 %-dən 50 %-dək artmışdır. İqtisadi birgə fəaliyyətin təntənəsi o qədər sürətlə artırdı ki, bəzi sahəvi ittifaqlar da yaranırdı. Belə ki, 1963-cü ildə **«Latın Amerikası üzrə gəmi sahiblərinin birliyi»** yaradılmışdır. Burada əsas məqsəd üzv olan ölkələr arasında dəniz və çay daşımalarının artırılması, liman təsərrüfatının yaxşılaşdırılması, informasiya mübadiləsinin artırılmasından ibarət olmuşdur.

Eləcə də inteqrasiya əlaqələrinin genişləndirilməsi ilə **1965-ci ildə «Latın Amerikası dəmiryolu birliyi»** yaradılmışdır. Bu ərazidə dəmiryolu əlaqələrinin tənzimlənməsi üçün həmin sahə üzrə dövlət kompaniyaları bura daxil olmuşlar. Bu birliyin iqamətgahı Argentinanın paytaxtı Buenos-Ayres (böyük dəmiryolu mərkəzi) seçilmişdir.

Qarşılıqlı maliyyə-kredit əlaqələrinin daha da möhkəmləndirilməsi məqsədi ilə həmin ildə **«Latın Amerikası banklar federasiyası»** yaradılmışdır.

1959-cu ildə **«Latın Amerikası dəmir və polad institutu»** yaradılmışdır (iqamətgahı Santyaqodadır (Çili)).

Nəhayət **1980-ci ildə LAATB-i «Latın Amerikası inteqrasiyası birliyi»nə** (LAİB) çevrilmişdir. Beləliklə LAİB çərçivəsində iki ərazi birliyi qruplaşması formalaşmışdır.

Müasir dövrdə LA ölkələrində əsas problemlərdən biri də **şəhərləşmənin** sürətlənməsidir. Bu ərazidə şəhər əhalisi 1960-cı

ildə 49 % təşkil etdiyi halda, bu göstərici 1980-ci ildə 65 %, 2000-ci ildə 75 % olmuşdur. BMT-nin məlumatına görə 2025-ci ildə burada şəhər əhalisi 700 mln. nəfərə çatacaqdır. Hazırda Argentina, Uruqvay, Venesuela, Çili və Braziliyada cəmi əhalinin 80-90 %-ə qədəri şəhərləşmiş əhali hesab edilir.

Aydındır ki, belə vəziyyət şəhərlərdə işsizlərin sayının artmasına səbəb olmaya bilməz.

Bütün qeyd etdiklərimizdən aydın olur ki, LA-da Braziliya, Argentina, Kolumbiya, Venesuela, Peru, Çili və s. daha həlledici rola malikdirlər. Məhz bu ölkələrin iqtisadi inkişafı elə həmin ərazinin iqtisadi inkişafının əsas istiqamətini müəyyən edə bilir.

Ona görə də həmin ölkələrin iqtisadi inkişafının əsas cəhətləri barədə qısa da olsa ayrılıqda açıqlama veririk.

4. Braziliyanın iqtisadi inkişafının ümumi xarakteristikası

Braziliya Cənubi Amerikada ən böyük Latın Amerikası ölkəsidir. Cənubi Amerikanın şərq və mərkəzi hissəsində yerləşir. Ərazisi 8,5 mln. km², əhalisi 186,1 mln. nəfərdir (2005). Paytaxtı Braziliyadır. Digər böyük şəhərləri-San-Paulu (10,1 mln), Rio-de-Janeyro (5,6 mln), Belu-Orizonti (2,1 mln), Salvador (1,8 mln), Fortaleza (1,5 mln) və s. Braziliya ərazisinə görə Rusiya, ABŞ, Çin və Kanadadan geri qalır.

İnzibati-ərazi bölgüsünə görə 26 ştatdan və 1 federal dairədən ibarətdir. Mənşə etibarilə braziliyalılar Portuqaliya, İspaniya və Avropanın digər ölkələrindən gələnlərin, hindulardan, qismən Afrikadan gətirilən qulların qarışıb-qovuşmasından yaranıblar.

Hazırda da Braziliyada çoxlu (3 mln. nəfərdən çox) yaponiyalı, italiyalı, alman, ərəb, fransız, ispaniyalı, portuqaliyalı yaşayır. Dövlət dili portuqaliya dilidir (**Braziliya portuqaliya dilində qiymətli qırmızı ağac növü deməkdir**).

Braziliya 1500-cü ildən 1822-ci ilədək Portuqaliyanın müstəmələkəsi olubdur. **1822-ci ildə müstəqillik əldə edibdir. 1889-cu ildə**

respublika elan edilibdir. Braziliya prezidentli ferarativ respublikadır. 1988-ci ildə yeni Konstitusiya qəbul edilmişdir. Dövlət başçısı prezidentdir. Ali qanunvericilik orqanı milli konqressdir.

Braziliya bir çox sosial-iqtisadi göstəricilərə görə inkişaf etməkdə olan ölkələr sırasına daxildir. Lakin böyük iqtisadi potensiala və yüksək iqtisadi inkişaf səviyyəsinə malik olmaqla "yeni sənaye ölkələri" cərgəsinə daxil edilmişdir.

Braziliya BMT-nin (1945); Amerika dövlətləri təşkilatının (ADT) (1948); Latın Amerikası iqtisadi sisteminin-LAİS (1975); Latın Amerikası inteqrasiya birliyinin -LAİB (1981), Cənubi Amerika ümumi bazarı -CAÜB (1991)və bu kimi birliklərin üzvüdür.

İqtisadi inkişafın mərhələləri. Məlum olduğu kimi müstəqillik əldə etmiş Braziliyanın tarixi 1822-ci ildən başlanır. Odur ki, müstəmləkə olmaq baxımından Braziliya Qərb ölkələrinin xammal mənbəyinə çevrilmişdi.

Ancaq 1930-1940-cı illərdən iqtisadiyyatda müəyyən quruluş dəyişiklikləri həyata keçirilməyə başlanmışdı. 1940-cı ildə ümumi gəlirdə emal sənayesinin xüsusi çəkisi 10 %-ə çatmışdır. Bu, o dövrlər üçün yaxşı hal hesab edilə bilərdi.

Lakin maşın istehsalı hələ tam kifayət deyildi. İstehsalın texniki səviyyəsi çox aşağı idi. İqtisadi inkişafdakı sənayeləşmədə xarici məhsulun əvəzlənməsi siyasəti əsas götürülmüşdür. Dövlət sənaye sahələrində, xidmət dairəsində sahibkar kimi çıxış edirdi. Bu isə xarici kapitalın mövqeyinin azalmasına səbəb olurdu. Belə ki, 1929-cu ildə ölkədə tətbiq edilən kapitılın 23%-i xarici kapitalın nəzarəti altında olduğu halda, 1950-ci ildə bu göstərici 7,5% təşkil etmişdir. 1950-ci illərdən Braziliya iqtisadiyyatının inkişafında yeni mərhələ başlanmışdır.

Həmin vaxtdan məqsədyönlü şəkildə sənayeləşdirilmə siyasəti yeridilməyə başlamışdır. Kofe ixracından gəlir azaldığına görə xarici malların rolu da azalmışdır. Xarici ticarətə bir çox məhdüdiyyətlər tətbiq edilirdi. Yerli bazarı və yerli malları qorumaq üçün onların qiymətləri Amerikadan gətirilən mallara nisbətən xeyli aşağı idi. Yeni tarif dərəcələri daxili bazarı qorumaqla yanaşı dövlət gəlirlərini də artırırdı. 1949-1964-cü illər

ərzində daxili tələbatda idxaldan olan emal sənayesi məhsullarının xüsusi çəkisi 19 %-dən 4,2%-ə enmişdir.

Sənayeləşmənin ikinci mərhələsində uzun müddətə istifadə edilən istehlak şeyləri nəzərdə tutulurdu. İri maşınlı istehsal metoduna daha çox üstünlük verilirdi. Əmtəə-pul münasibətləri möhkəmlənirdi. Daxili bazarın inkişafı xaricdən məhsul gəlməsini və bütünlükdə xarici bölməni azaldırdı. 1947-1963-cü illərdə ixracın orta illik artımı cəmisi 1,2 % təşkil etmişdi. Xarici iqtisadi tənzimləmədə dövlətin rolu da artmışdı. Neft çıxarılması və emalı, eləcə də neft və neft məhsullarının nəqli üzərində dövlət inhisarı yaranmışdır.

Xarici ticarətin bu cür durğunluq vəziyyətində olması xaricdən avadanlıq gətirilməsinə maneçilik edirdi.

1950-ci illərin ikinci yarısına iqtisadiyyatda aparılan quruluş dəyişiklikləri qismən başa çatmışdır. Qərbi Avropa və Yaponiya ikinci dünya müharibəsindən sonra geniş bərpa işlərinə başlamışdır.

Amerika kompaniyaları Braziliya iqtisadiyyatında öz filiallarını yaradırdılar. Uzun müddət üçün istifadə ediləcək istehlak şeyləri istehsalına üstünlük verirdilər. Dövlət tərəfindən daxili ehtiyatların səfərbər edilməsi və xarici kapitılın köməkliyi ilə infrastruktura və bir çox köklü sahələrin inkişafına zəmin yaranırdı. Xarici kreditdən də geniş istifadə edilmişdir. Odur ki, iqtisadiyyatın orta illik artım sürəti 1947-1957-ci illərdə 6,4 %-ə; 1957-1961-ci illərdə 8,3 %-ə bərabər olmuşdu. Aydındır ki, nəticədə Braziliyanın xarici borcu artmışdır.

1964-cü ildə Braziliyada hərbi çevriliş baş vermişdir.

Bu vaxtdan da Braziliyanın iqtisadi inkişafında yeni mərhələ başlanmışdı. Braziliyanın iqtisadi inkişaf strategiyasının əsasını "Milli təhlükəsizlik və inkişaf" komissiyası təşkil edirdi. 2000-ci ildək Braziliyanın güclü sənaye ölkəsinə çevrilməsi məqsədi qarşıya qoyulmuşdur.

Yüksək iqtisadi artıma nail olmaq üçün milli gəlirin yenidən bölgüsü, yığım normasının artırılması, milli və xarici kapitılın yaxından əməkdaşlıq etməsi nəzərdə tutulmuşdur.

İdeoloji baxışlar əsasən millətin birliyinə və yüksək nəticə əldə edilməsi mənafeyinə yönəldilmişdir.

İqtisadi artımın təmin edilməsində dövlətin roluna da üstünlük verilirdi. O vaxt kapital qoyuluşunun 50 %-dən artığı dövlətin payına düşürdü. İnfrastrukturanı, emal sənayesi və bir çox əsas sahələri dövlət öz əlində cəmləşdirmişdi. Ənənəvi sahələr milli kapitalın, müasir və daha mənfəətli sahələr isə xarici kapitalın əlində idi. Hərbi çevrilişdən sonra xarici iqtisadi siyasətdə ixraca şərait yaradılması və idxalın liberallaşdırılması nəzərdə tutulurdu. Nəticədə 1970-ci illərdə cəmi ixrac 22 %-ə və emal sənayesi məhsullarının ixracı 38 %-ə çatmışdı.İxrac iqtisadi artımın hərəkətverici qüvvəsinə çevrilmişdi.

1968-1978-ci illərdə ÜDM-in orta illik artımı 9 % olmuşdur.

Həmin dövrün təsərrüfat həyatının əsas elementlərindən biri də ondan ibarət olmuşdur ki, istehsal vəsaitləri istehsalı sahəsində daha müasir sahə yaranmışdı. Kapitalist modernləşməsi kənd təsərrüfatı və xidməti də əhatə edirdi.

Braziliyada xarici borc böhranının başlaması da bir mərhələ hesab edilir. Ümumi iqtisadi və borc böhranı təkrar istehsal şəraitini və Braziliyanın BƏB-dəki vəziyyətini və xarakterini dəyişmişdi. Borc böhranı Braziliyanın inkişaf etmiş ölkələrdən asılılığını daha da artırmışdı. Beləliklə 80-ci illər iqtisadiyyatın qeyri-sabit inkişafı, artım sürətinin azalması, inflyasiyanın artması ilə xarakterizə edilir. Bu illər itirilmiş onilliklər adlanır. Ardıcıl olaraq 7 il adam başına düşən gəlir azalmışdır.

90-cı illərdə iqtisadi inkişaf modeli yenidən dəyişilmişdir. Sahibkar olmaq baxımından dövlətin rolu azadılmışdır. Eləcə də açıq xarici iqtisadi əlaqələr həyata keçirilirdi.

İnfrastruktura sahəsinə və dağmədən sənayesi sahələrinə xüsusi kapitala yol açılmasına imkan verilirdi.

Xarici iqtisadi dairədə liberallaşma artırdı. Orta taarif dərəcələri 1986-cı ildə 100 % idisə, 1990-cı ildə 52 %, 1994-cü ildə-14 % olmuşdur. 60-70-ci illərdə iqtisadi inkişafın əsasını təşkil edən dövlət kompaniyalarına indi iqtisadi inkişaf yolunda bir maneə kimi baxırdılar. Bir çox nəhəng dövlət kompaniyaları özəlləşdirilmişdi. Dövlət bölməsinin özəlləşdirilməsi xeyirinə olaraq ABŞ və beynəlxalq maliyyə təşkilatları təsirli təzyiq göstərmişdilər. 1991-2000-ci illərdəki özəlləşdirmədə yeni liberallaşdırılma modeli mövcud idi. Həmin illərdə özəlləşdirmədən dövlət büdcəsinə 101 mlrd. dollar vəsait daxil olmuşdur.

Mə'lum olduğu kimi Latın Amerikası ölkələri çox mürəkkəb, çətin bir yol keçmişlər. Bu ölkələr sosial-iqtisadi inkişaf səviyyəsinə, dünya təsərrüfatı əlaqələrindəki iştirakının səviyyəsinə və xarakterinə görə biri-birindən kəskin fərqlənirlər. Hazırda həmin ərazi və ilk növbədə burada ən böyük ölkə olan Braziliya, Meksika və Argentina Şimalın inkişaf etmiş ölkələri ilə Cənubun inkişaf etməkdə olan ölkələri arasında bir ara nöqtəsi təşkil edirlər. Bu region üzrə olan ÜDM-in 60-70%-i həmin ölkələrin, 31%-i isə tək Braziliyanın payına düşür. 2005-ci ildə Braziliyada ÜDM-in həcmi 795,7 mlrd. dollar olmuşdur ki, bunun da 6 %-i kənd təsərrüfatında, 31 %-i sənaye sahələrində, 63 %-i isə xidmət sahələrində yaradılmışdır.

Məhz həmin ölkələr bu region üzrə olan makroiqtisadi göstəricilərin inkişaf dinamikasına həlledici təsir göstərirlər. Son 50 ildə Braziliya demək olar ki, orta inkişaf səviyyəsinə çatmışdır. 1950-1995-ci illərdə ÜDM 11,4 dəfə çoxalmışdır (orta illik artım 6 %-ə bərabərdir). Bu çox yüksək göstəricilərdir. Bu göstəriciyə görə Braziliya İEOÖ-də ən yüksək artım sürəti olan 13 ölkə sırasında olmuşdur. Bu artım, əhali artımını qabaqlayır. Odur ki, hər nəfərə düşən məhsulun həcmi də 2,5 dəfə yüksəlmişdir. Lakin hər nəfərə düşən məhsulun həcminə görə Braziliya inkişaf etmiş ölkələrdən 7-8 dəfə geri qalır, bütünlükdə inkişaf etməkdə olan ölkələrdən isə 2,3 dəfə artıqdır. Əhalinin sürətlə çoxalması da iqtisadi artımın yüksəlməsini şərtləndirirdi. Belə ki, Braziliyada əhalinin sayı 1950-ci ildə 52 mln. nəfər olduğu halda, 1970-ci ildə 83,1, 1990-cı ildə 150,4, 2005-ci ildə isə 186,1 mln. nəfər olmuşdur. Bu Latın Amerikası ölkələrində (Meksika, Peru və Venesueladan başqa) ən yüksək artımdır.

İqtisadiyyatın inkişafında kifayət qədər əmək ehtiyatlarının olması da böyük rol oynamışdır. Burada iqtisadi fəal

əhalinin artım sürəti cəmi əhalinin artım sürətini qabaqlayır. Gənclər daha tez əmək fəaliyyəti ilə məşğul olurlar. Odur ki, iqtisadiyyatda hər hansı bir ləngimə əmək bazarının dolmasına səbəb ola bilər. Deməli aktiv əhalinin artması yeni iş yerlərinin yaradılmasını daha zəruri edir.

LA ölkələri sırasında və eləcə də dünyada Braziliyanın müəyyən üstünlüklərə malik olması əsasən aşağıdakı amillərlə səciyyələndirilir:

1.Zəngin və müxtəlif növ təbii ehtiyatlara malik olması.

2.Ucuz işçi qüvvəsindən geniş istifadə edilməsi.

3.Dövlətin iqtisadi həyata fəal qarışması.

4.İqtisadi siyasətin dəyişdirilməsində çeviklik göstərilməsi.

Braziliyada ÜDM-in 31 %-i sənaye sahələrində yaradılır. Bu dünya üzrə sənaye məhsulunun 2 %-nə bərabərdir. Bu göstəriciyə görə Braziliya ancaq Avropanın 7-lərə daxil olan ölkələrindən və Çindən geri qalır.

Hasilat sənayesindəki mövqeyinə görə Braziliya dəmir filizi çıxarılmasına görə (200 mln. ton) dünyada ikinci, ixraca görə isə birinci yeri tutur. Qızıl istehsalına görə 3-cü yeri tutur. Boksidlər çıxarılmasına görə (12 mln. ton) 3-cü yerdə, qalay və ağac emalına görə birinci 5 ölkə sırasındadır. 66 mln. ton neft, 4,5 mln. ton daş kömür, 2,1 mln. ton marqans, 240 mlrd. kv.s. elektrik enerjisi istehsal edilir. Emal sənayesi sahəsində də Braziliyanın mövqeyi möhkəmlənmişdir. **Belə ki o, nisbətən «aşağı səviyyə» adlanan çuğun, polad (32 mln. ton)**, alüminium (2 mln. ton), sement və s. istehsalına görə ilk 10 ölkə sırasına daxildir.

Daha «yuxarı mərtəbə» hesab edilən dəniz gəmiləri, traktorlar (ildə 30 min ədəd), televizorlar, pambıq parça istehsalına görə ilk 5 ölkə sırasına, avtomobil (ildə 2 mln. ədəd), metal emalı dəzgahları və eləcə də elektroenergetika istehsalına görə ilk 10 ölkə sırasına daxildir. İldə 5 mln. ədəd soyuducu, 8 mln. televizor, 2,5 mln. ədəd videomaqnitofon, 1 mln. ədəd paltaryuyan maşın, 3 mln. ədəd musiqi mərkəzi buraxır. Braziliyanın təkcə avtomobilqayırma sənayesində işləyənlərin sayı 300 min nəfərdən artıqdır. Bu sahənin inkişafı üçün Qərbin qabaqcıl

ölkələrinin aparıcı koprorasiyalarının böyük rolu olmuşdur. «Ceneral motors», «Ford», «Daymler Kraysler», «Folksvaqen», «Fiat», «Reno», «Toyota» kimi korporasiyalar həmin sahəyə 20 mlrd. dollar vəsait qoymuşlar. 2003-cü ilə cəmi birbaşa xarici investisiya 243 mlrd. dollar, Braziliyanın xarici kapitalı isə 15,2 mlrd. dollar olmuşdur.

Braziliya təyyarəqayırma (25 modeldə), hesablama və kommunikasiya texnikası, sintetik kimya sahəsində də yüksək göstəricilər əldə etmişdir.

Ölkənin iqtisadiyyatında kənd təsərrüfatının da özünəməxsus rolu vardır. Əhalinin məşğulluğu məsələsində aqrar bölmə böyük əhəmiyyətə malikdir. Belə ki, cəmi işçilərin 30 %-i (təqribən 25 mln.) bu sahədə çalışır.

2003-cü ildə 55 mln. ton taxıl, 12 mln. ton düyü, 3,2 mln. ton qəhvə, 334,5 mln. ton şəkər qamışı, 2835 mln. ton kartof, 115,2 mlrd. ədəd portağal, 549 mln. salxım banan istehsal edilmişdir. Ölkədə 163 mln. baş iri buynuzlu qaramal, 30,2 mln. donuz, 23,1 mln. baş qoyun və keçi vardır. Kənd təsərrüfatı məhsulları ixracına görə Braziliya ancaq ABŞ və Fransadan geri qalır.

Soya, sitrus bitkiləri, quşçuluq, gülçülük sahəsində daha çiddi irəlilləyişlər əldə edilmişdir. Braziliya beynəlxalq ərzaq köməkliyi almaqdan imtina edə bilmişdir. Qarğadalı istehsalına görə ancaq Amerikadan, soya istehsalına görə isə Amerika və Çindən geri qalır. **Bir əsrdən artıqdır ki, Braziliya ən çox kofe istehsalçısı kimi çıxış edir. Hindistandan sonra ən çox şəkər qamışı istehsal edir**.

Tarlaçılıq təsərrüfatları əsasən ixrac istiqamətində aparılır.

Torpaqların icarə haqqı çox yüksəkdir. Bəzən icarə haqqı natural qaydada da verilir. Uzaq rayonlarda "işləyib ödəmə" forması da qalır. Ən yaxşı torpaqlar hələ müstəmləkə vaxtından iri torpaq sahiblərinin əlində cəmləşdirilibdir. Bu mənada torpağın təmərküzləşməsi göstəricisi Braziliyada ən yüksəkdir. Belə ki, becərilən torpaqların 45 %-i 1% torpaq mülkiyyətçilərinin əlində cəmləşibdir. Bununla yanaşı iri torpaq sahibləri öz sərəncamında olan torpaqların 40 %-ni istifadə etmirlər. Tor-

pağın bu cür ədalətsiz bölgüsü nəticə etibarilə çox vaxt silahlı toqquşmalara gətirib çıxarır. Beləliklə kənd təsərrüfatında ikili sosial quruluş özünü biruzə verir. Bazar münasibətləri çətinliklə özünə yol açа bilir.

Braziliyanın təsərrüfat həyatının əsas cəhətlərindən biri də ondan ibarətdir ki, burada ayrı-ayrı ərazilərin (regionların) iqtisadi inkişaf səviyyələrində köklü fərqlər müşahidə olunur (xüsusilə şimali-şərqlə cənub arasında). Məsələn: cənubi-şərq emal sənayesinin 70%-ni öz əlində cəmləşdiribdir. Təkcə San-Paulu ştatı sənayenin 59%-nə sahibdir. 90-cı illərin əvvəllərinə şimali-şərqdə əmək haqqının səviyyəsi cənuba nisbətən iki dəfə aşağı idi. Həmin ərazidə orta ömür müddəti 10 il qısa və savadsızların sayı 2 dəfə artıqdır. Həmin rayonda cəmi əhalinin 30 %-i yaşadığı halda, ÜDM-in 15 %-i istehsal edilir.

Son dövrlərdə iqtisadiyyatda baş verən iqtisadi artım və modernləşdirmə də şəxsi gəlirlərdəki qeyri-bərabərliyi aradan qaldıra bilməmişdir. Ümumiyyətlə, kəlirlərin artması bu fərqi daha da çoxaltmışdır. Əhalinin 10 % təşkil edən ən varlı təbəqəsi gəlirlərin 50 %-ni öz əllərində cəmləşdirmişdir. 20 %-in ən yoxsul hissəsi isə gəlirlərin 2 %-nə malikdir. Ayda 50 dollardan az gəlirə malik daha kasıb olanlar cəmi əhalinin 13 %-ni təşkil edir.Hesablanmışdır ki, əhalinin 60 %-ə qədəri müasir təsərrüfatçılıqdan kənardırlar. Braziliyanın daxili bazarı dardır.

Braziliyada əsas fərqləndirici cəhətlərdən biri də urbanizasiyadır. Bir çox ölkələrdə olduğu kimi Braziliyada da şəhərə axın çoxalmışdır. Belə ki, 1950-1995-ci illərdə şəhər əhalisinin sayı 7 dəfə artmışdır. 1950-ci ildə cəmi əhalinin 36 %-i şəhərlərdə yaşadığı halda, 1995-ci ildə bu 80 %-olmuşdur. Aydındır ki, bu artım əsasən kənd yerlərindən gələnlərin hesabınadır. Bu isə şəhərlərdə məşğulluğu və digər sosial problemləri çətinləşdirir.

Rio-de-Janeyro və San-Paulo kimi böyük şəhərlərdə daha çox neqativ hallar baş verir.

Sosial-iqtisadi quruluşun əsas cəhətləri. Braziliyada təsərrüfat mexanizminin və onun tərkib hissəsi olan təsərrüfatın sosial quruluşunun bir çox cəhətləri Latın Amerikasının digər ölkələri ilə eynilik təşkil edir. Bu da onun inkişafının Latın Amerikası modeli olmasını müəyyən etmiş olur. Əmtəə-pul münasibətlərinin inikşaf prosesinə və təsərrüfatçılıq dövrlərinə görə Braziliya Qərbi Avropanın klassik modelindən fərqlənir.

Braziliya uzun müddət Portuqaliyanın müstəmləkəsi olduğuna görə Portuqaliya feodalizmin təsiri altında inkişaf etmişdir. İqtisadiyyatın formalaşması müstəmləkəçilik quldarlığından başlamış kapitılın ilkin yığımı amilinin əsas olmasınadək davam etmişdir.

İri tarla təsərrüfatlarının yaranması təmamilə ixraca istiqamətlənirdi. Belə təsərrüfatların xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, bunlar tək bitkiçilik idilər, dünya bazarından asılı idilər.

Xüsusi bölmənin də müəyyən cəhətləri vardır. Burada bir qrup xüsusi sahibkarlar dövlətlə yaxın, qarşılıqlı əlaqədə olduğu halda, digər qrupları isə xarici kapitaldan ibarət olub, ancaq xarici kapitalı təmsil edir.

İstehsalın həcminə görə 100 nəfərədək işçisi olan kiçik və daha böyük müəssisələr həlledici mövqeyə malikdirlər. Onlar cəmi müəssisələrin müvafiq olaraq 24,4 və 32,2 %-ni təşkil edirlər. 200-499 nəfər işçisi olan orta müəssisələr isə 21 %-dir.

Braziliya iqtisadiyyatında qeyri-formal bölmə də 70-ci illərdən artmışdır. 90-cı illərin məlumatına görə əmək qabiliyyətli əhalinin 30 %-ə qədəri həmin bölmədə çalışırdı. Təsərrüfatın sosial quruluşundakı bu müxtəliflik dövlətin rolunun artmasını tələb edirdi. Braziliya dövləti sənayeləşmə problemini həll edərkən məhsuldar qüvvələrin inkişaf tələbi ilə, xüsusi kapital yığımının az olması arasındakı ziddiyyəti də aradan qaldırmağa çalışmışdır. Məhz bu cəhət sosial-iqtisadi inkişafda əsas sistem yaradan bir amildir. Dövlət iqtisadiyyatın maliyyələşdirilməsinə çox yaxından köməklik göstərərək planlaşdırmadan istifadə etmişdir. 90-cı illərdə baza sahələri olan neftkimya, dağmədən sənayesində dövlət böyük üstünlüyə malik idi (dövlətin payı kommunal təsərrüfatında -90 %, faydalı qazıntılar çıxarılmasında -70 %, metallurgiyada – 65 %, xidmət bölməsində

-65 %, kimya əczaçılıq sənayesində –54 % təşkil edirdi). Kütləvi özəlləşdirmədən sonra vəziyyət kökündən dəyişmişdir.

Sənayeləşmənin və quruluş dəyişikliyinin təsiri altında ixracın quruluşunda da müəyyən irəliləyişlər baş vermişdir. Satılan məhsulların 75 %-dən artığı sənaye məhsullarından ibarətdir. Metal və nəqliyyat vasitələrinin xüsusi çəkisi daha artıqdır. Hər birisi ümumi ixracın 10 %-ni təşkil edir. Soya-paxlalılar -7,9 %, kofe isə 3,3 %-ə bərabərdir.

Xarici ticarətin 56 %-i inkişaf etmiş ölkələrlə həyata keçirilir. Burada Amerika 20 % təşkil edir.

Braziliyanın xarici ticarət dövriyyəsində Latın Amerikası ölkələrinin, xüsusilə 1981-ci ildə yaradılmış Latın Amerikası İnteqrasiya Birliyi (LAİB) ölkələrinin xüsusi çəkisi də (17 %) az deyildir.

Xarici kapitaldan istifadə edilməsi. Son yüz ildə Braziliya ən çox borc və sahibkar kapitalı cəlb edən ölkələrdən biridir. Vaxtı ilə Şərqi Asiya ölkələrinə və Türkiyəyə iqtisadi köməklik göstərildikdən sonra və 1958-ci ildə Kuba inqilabından sonra Braziliyaya daha kütləvi kapital axını baş vermişdir (o vaxt Amerika "Tərəqqi naminə ittifaq" proqramı qəbul etmişdir). Güclü kapital axını əsasən 60-cı illərin sonu, 80-ci illərin əvvəllərinə təsadüf edir. Həmin vaxtlardan da Braziliyanın xarici borcu artmışdır. Bu məbləğ 1964-cü ildə 3 mlrd. dollardan 1975-i ildə 22 mlrd. dollara çatmışdır. 2002-ci ildə Braziliyanın xarici borcu 228 mlrd. dollar təşkil etmişdir.

Son bir neçə on illiklərdə Braziliya xarici kapitalı mənimsəyə bilən ən böyük 10 ölkə sırasına daxildir.

Ümumdünya üzrə birbaşa xarici kapitalda Braziliyanın payı 1,9%-ə; üçüncü dünya ölkələrində 7,1 %-ə, Latın Amerikasında -22 %-ə bərabər olmuşdur. Braziliyaya birbaşa xarici kapital qoyuluşunun 30 %-i Amerikanın TMŞ-na, 14,7 %-i Almaniyaya, 10 %-i Yaponiyaya, 8 %-i İsveçə məxsusdur. 2003-cü ildə Braziliyada toplanmış cəmi birbaşa xarici kapital 243 mlrd. dollardır. Bu inkişaf etməkdə olan ölkələrdə ən yüksək həddir.

Bununla yanaşı son illərdə Braziliya kompaniyalarının xaricə qoyduğu birbaşa kapital ixracı artmışdır. 2003-cü ilə bu göstərici

15,2 mlrd. dollar olmuşdur ki, bu da Latın Amerikası ölkələri kompaniyalarının xaricə kapital qoyuluşunun 26 %-nə bərabərdir.

İnteqrasiya proseslərinin genişlənməsində də Braziliya fəal iştirak edir. Qeyd etdiyimiz kimi o, LAİB-in üzvüdür. 1991-ci ildə Argentina, Braziliya, Paraqvay və Uruqvaydan ibarət Cənub konusu (merkosur) ümumi bazarı yaratmaq barədə müqavilə imzalanmışdır. 1995-ci ilin yanvarında onlar vahid xarici ticarət dərəcələrinə keçmiş və kömrük ittifaqına çevrilmişlər. Bu ölkələr arasında razılaşmalar yalnız iqtisadiyyatı deyil, humanitar sahəni də əhatə edir. Beləliklə, Cənub Konusu bazarı buraya Latın Amerikasının digər ölkələrinin də qoşulmasına maraq yaradır. 1996-cı ildə azad ticarət zonası yaradılması barədə Çili və Boliviya ilə də müqavilə bağlanmışdır. Cənub Konusu ümumi bazarı Braziliyanın xarici iqtisadi siyasətinin ən zəruri elementi kimi böyük əhəmiyyət kəsb edir. Bu birlik bütün Latın Amerikası əhalisinin 45 %-ni, sənaye potensialının isə 50 %-ni özündə birləşdirir. Beləliklə, Cənubi Amerikada azad ticarət zonası yaratmağa və daha regional ərazi inteqrasiyasına keçməyə zəmin hazırlanır. Cənub Konusu ümumi bazarı "açıq regionçuluq" siyasəti yeridir.

Ölkədə Azad iqtisadi zona təcrübəsi də həyata keçirilir. 1957-ci ildə **Manaus zonası** yaradılmışdır. 90-cı illərdə bura cəlb edilən xarici investisiyanın həcmi 50 mlrd. dollara bərabər olmuşdur. Hazırda ölkənin şimalında Makapa və Santana azad ticarət zonası inkişaf etdirilir.

5. Meksikanın iqtisadi inkişaf modeli

Meksika Şimali Amerikanın cənubi-qərb hissəsində yerləşir (həmçinin Sakit okean və Kaliforniya körfəzində bəzi adalar da Meksikaya məxsusdur).

Sahəsi 1958,2 min kv.km, əhalisi 106,2 mln. nəfərdir (2005). Paytaxtı Mexikodur (20 mln.nəfər). Böyük şəhərləri - Qvadalaxara, Monterrey, Puebla, Leon, Syudad-Xuares və s. Əhalisi əsasən - hindularla ispanların qarışığı nəticəsində yaranıbdır.

Deməli ispan-hindulardan ibarət metislər – 60 %; hindular 30 %, avropalılar - 10 % təşkil edir. Rəsmi dili - ispan dilidir.

Müasir Meksika ərazisində qədimdən hindular məskunlaşmışdı (asteki, mayya, tolteki, olmeki və s. tayfalar).

Meksika 1522-ci ildən 3 yüz il İspaniyanın müstəmləkəsi olmuşdur.

1810-cu ildə öz müstəqilliyi uğrunda mübarizəyə qalxmış, 1821-ci ildə buna nail ola bilmişdir. 1824-cü ildə respublika elan edilmişdir. Lakin daxili siyasi çəkişmələr onu zəiflətmişdir. Bundan istifadə edən ABŞ 1846-1848-ci illərdə Meksikaya qarşı müharibə etmiş və onun ərazisinin demək olar ki, yarısını zəbt etmişdir. Bağlanmış müqaviləyə əsasən Texas, Yeni Meksika, Yuxarı Kaliforniya, Arizonanın bir hissəsi Amerikaya birləşdirilmişdi.

1910-1917-ci illərdə Meksikada burjuaziya-demokratik inqilabı baş vermiş və 1917-ci ildə konstitusiya qəbul edilmişdir. Meksika Federativ respublikadır. O, 29 ştatdan, federal dairədən və iki ətraf ərazidən ibarətdir (Meksika birləşmiş ştatları). Meksika – sənaye-aqrar ölkəsidir. İnkişaf etməkdə olan ölkələr arasında qabaqcıl yerlərdən birini tutur və Latın Amerikasının inkişaf etmiş ölkələrindən biri hesab edilir.

İqtisadi inkişaf baxımından Meksika da Braziliya kimi Latın Amerikasının digər ölkələrini qabaqlayır.

Bununla yanaşı Meksika Braziliya və Argentina ilə birlikdə Latın Amerikası sənayesinin liderləri sayılan "böyük üçlük" təşkil edir. Həmin ərazi üzrə olan ÜDM-in 23 %-i, sənaye məhsulunun isə 25 %-i Meksikanın payına düşür. 2005-ci ilin məlumatına görə ÜDM-in həcmi 768,4 mlrd. dollar olmuşdur. ÜDM-in 4 %-i kənd təsərrüfatının, 26 %-i sənyae sahələrinin, 70 %-i xidmət sahələrinin payına düşür.

Meksikanın sosial-iqtisadi inkişaf modeli. Meksika müxtəlif təsərrüfat strukturuna malikdir. O, neft çıxaran və ixrac edən əsas ölkələrdən biridir. Neft ehtiyatına görə o dünyada 4-cü yeri tutur. Meksika zəngin enerji ehtiyatlarına (qaz), faydalı qazıntılara (gümüş, qurğuşun, sink, mis, marqans filizləri, kükürd) malikdir.

Neft, təbii qaz çıxarılması, polimetallar istehsalı sənayenin ənənəvi sahələri hesab edilir. Məhz elə həmin sahələr valyuta daxil olmalarının ənənəvi mənbəini təşkil edirlər. Emal sənayesi, maşınqayarma, metallurgiya, neft-kimiya sürətlə inkişaf etdirilir. Onu da qeyd etmək lazımdır ki, ölkənin neft-kimya və metallurgiya sənayesi çox yüksək dərəcədə təmərküzləşməsi ilə fərqlənir. Dövlət neft korporasiyası çərçivəsində neft emalı üzrə 200-dən çox zavod fəaliyyət göstərir. Cəmi çuğun və polad əridilməsinin 90 %-dən çoxu 4 kompaniyanın payına düşür. Kifayət qədər toxuculuq maşınları, neft avadanlıqları, dəmiryolu vaqonları, avtomaşınlar, motorlar, transformatorlar, polad boru istehsal edilir. Sənaye daxili bazardakı istehlak tələbinin 85 %-ni təmin edir. Emal sənayesinin 26 %-i kimya sahələrinin, 32 %-i metallurgiya və maşınqayırma sahələrinin, 25 %-i yeyinti sahələrinin, 10 %-i toxuculuq və ağac emalı sahələrinin payına düşür.

2003-cü ildə 177 mln. ton neft, 200 mlrd. kvt. saat elektrik enerjisi, 51,0 mln. ton sement (dünyada 4-cü yer), 13 mln. ton polad, 1,3 mln. ədəd avtomaşın, 2,1 mln. ədəd mühərrik (dünyada 5-ci yer), 14 mln. ədəd televizor, 12,0 mln. ədəd telefon aparatları, 1,0 mln. ədəd televizor istehsal edilmişdir.

Milli inhisarçı qruplaşmalar əsasən sənayenin ənənəvi sahələri olan inşaat, nəqliyyat və rabitədə ixtisaslaşıbdırlar. Bu yaxın vaxtlaradək xarici firmaların bu sahələrə gəlməsinə imkan verməmişlər. Emal sənayesinin bir çox sahələrində isə xarici kompaniyaların rolu böyükdür. Məsələn: ölkədə buraxılan avtomaşınların 90 %-i Amerikanın böyük avtomaşın kompaniyalarının buradakı filialları tərəfindən həyata keçirilir.

ÜDM-in 4 %-i kənd təsərrüfatının payına düşür. İqtisadi aktiv əhalinin 30 %-i bu sahədə çalışır. Kənd təsərrüfatı o qədər də məhsuldar, effektivli deyildir. Bu hər şeydən əvvəl kənd təsərrüfatı sahəsindəki siyasətlə, torpağın istifadəsində ki, mühafizəkarlıqla əlaqələndirilir. 1910-1917-ci illərdəki inqilabdan sonra kənd təsərrüfatındakı islahata əsasən dövlət mülkədarlardan və xarici sahibkarlardan torpaqları alıb kənd icmalarına (exidos) vermişdir. Kənd təsərrüfatının inkişaf mədəniyyəti

aşağı olduğu üçün əmək məhsuldarlığı aşağıdır. 90-cı illərin ikinci yarısından kənd təsərrüfatında yeni siyasət həyata keçirilməyə başlamışdır. Burada torpaqların özəlləşdirilməsi və dövlətin tənzimləmə rolunun azaldılması ön plana çəkilmişdir.

Məlum olduğu kimi 80-ci illərin əvvəllərində Meksika xarici borca çox istiqamətlənirdi.

Həmin vaxtlar dünya maliyyə bazarında kredit üçün faiz dərəcələri artmışdı. Odur ki, 1982-ci ildə Meksika xarici borcların ödənilməsi iqtidarında olmadığını bildirmişdir. Ölkədə daxili tələbin azaldılması və ciddi qənaət rejiminə keçilməsi siyasəti yeridilirdi. Bütün xüsusi banklar millileşdirilirdi. Həmin vaxtlar xarici investorlarına Meksika banklarının səhmdar kapitallarında iştirak etməyə icazə verilmirdi. Demək olar ki, bütün iqtisadiyyat xarici borcun ödənilməsinə işləyirdi. Bütünlükdə xalq təsərrüfatına vəsait qoymaq üçün yeni borc almağa zərurət yaranırdı. Nəticədə 90-cı illərin ortalarına **Meksikanın xarici borcu 80-ci illərə nisbətən təqribən 3 dəfə artaraq 1996-ci ildə 160 mlrd. dollara çatmışdır** (bu ÜDM-in 44 %-nə bərabərdir). 1990-1992-ci illərədə Meksika iqtisadiyyatında özəlləşdirmə prosesi daha yüksək həddə çatmışdır. Özəlləşdirmə proqramına əsasən iri emal sənayesi müəssisələri, qara metallurgiya. hava nəqliyyatı, rabitə, iri banklar özəlləşdirilirdi. Dövlət müəssisələri səhmlərinin hərracında milli maliyyə-sənaye qrupları ilə yanaşı xarici kompaniya və banklar da iştirak etmişdir. Həmin vaxtlar Meksika hökuməti özəlləşdirmədən 22 mlrd. dollar vəsait əldə etmişdir. Odur ki, ölkənin valyuta-maliyyə vəziyyətinin sabitləşdirilməsində özəlləşdirilmədən olan vəsaitin böyük rolu olmuşdur. Geniş miqyaslı özəlləşdirilmə aparılması Meksikanın fond bazarının (qiymətli kağızlar bazarının) inkişafına da zəmin yaratmışdır.

Ölkədə maliyyə sabitliyi siyasəti xaricdən birbaşa kapital axınına da səbəb olmuşdur. Ölkəyə xarici investorların gəlməsinə geniş yol açılmışdır. Neftkimya, dağ filiz sənayesi, balıqçılıq və bu kimi 36 sahədə xarici investorların xüsusi çəkisi artmışdır. Bütün bu tədbirlərin həyata keçirilməsi nəticəsində 1990-1997-ci illərdə Meksikaya olan birbaşa xarici investisiya 3 dəfə artaraq 87 mlrd.

dollara çatmışdır. Həmin dövrdə Meksika Latın Amerikası ərazisində birbaşa xarici kapitalın cəlb edilməsinə görə birinci yeri tuturdu (ildə orta hesabla 12 mlrd. dollar).

1994-1995-ci illərdə Meksika iqtisadiyyatında müəyyən səviyyədə böhran baş vermişdir. Nəticədə bəzi xarici investorlar Meksikanı tərk etmişlər.

Lakin BVF ABŞ ilə birlikdə Meksikaya 51 mlrd. dollar yardım göstərmişlər.

Beləliklə Meksika 1996-cı ildə böhrandan çıxaraq ÜDM-i 5,2 % artırmış, xarici borcun 160 mlrd. dollardan 156 mlrd. dollara düşməsinə nail olmuşdur. 2003-cü ilə cəmi toplanmış birbaşa xarici kapital 54,4 mlrd. dollar təşkil edir. 2003-cü ilə ölkənin xarici borcu 141,2 mlrd. dollardır.

Burada hələ 1930-cu illərdən azad iqtisadi zonalar yayılmağa başlamışdır.

1960-cı illərin ortalarından ABŞ-la sərhəd rayonlarda xaric üçün istehsal ilə ixtisaslaşan «Makiladoras» zonaları yaradılmışdır. Bunların cəmi kapitalının 70 %-i TMŞ-rın (əsasən ABŞ-ın) payına düşür.

Bu zonanın məhsulunun azı 50 %-nin ixrac edilməsi şərtləndirilmişdir. Meksikanın ictimai-iqtisadi və siyasi həyatında ən böyük dəyişikliklərdən biri də 1994-cü ildə ABŞ, Kanada və Meksika arasında «Şimali Amerika Azad ticarət zonası» yaradılması barədə razılıq əldə edilməsidir. Üç ölkə arasında olan bu ticarət-iqtisadi münasibətləri Şimali Amerika təsərrüfat kompleksinin formalaşdırılmasında çox həlledici bir amil kimi çıxış edir.

Ümumiyyətlə hər bir ölkənin ictimai-iqtisadi inkişafında onun xarici iqtisadi əlaqələrinin geniş olması böyük əhəmiyyət kəsb edir. Bu mənada Meksikanın da iqtisadi inkişafı üçün onun xarici əlaqələrinin rolu artıqdır. Meksika çox fəal xarici siyasət və eləcə də xarici iqtisadi siyasət yeridir. Meksika BMT-nin (1945); İƏ və İT-in (1994); Amerika Dövlətləri təşkilatının (1948); Latın Amerikası inteqrasiyası birliyinin-LAİB (1981); Şimali Amerika azad ticarəti birliyinin ŞAATB (NAFTA) -1994; Latın Amerikası iqtisadi sisteminin -LAİS (1975) üzvüdür. Bu-

radan da aydın olur ki, həmin iqtisadi təşkilatlar, birliklər çərçivəsində Meksika iqtisadiyyatının açıqlığı daha da artır.

6. Argentinanın iqtisadiyyatı

Argentina Cənubi Amerikanın cənubi-şərq hissəsində yerləşir. Ərazisi 2780 min km², əhalisi isə 39,5 mln. nəfərdir. Paytaxtı – Buenos-Ayres, böyük şəhərləri – Rossario, Kordova, Mendosa, La-Platadır. İnzibati ərazi bölgüsünə görə 22 əyaləti, Buenos-Ayres paytaxt dairəsini və 1 milli ərazini (odlar yurdu) özündə birləşdirir.

Argentina Federativ Respublikadır. Dövlət başçısı prezidentdir. Qanunvericilik Milli Konqressə məxsusdur. Tarixi baxımdan bu ərazidəki digər ölkələr kimi Argentina da XVI əsrin birinci yarısından ispanlar tərəfindən işğal edilmiş və müstəmləkəyə çevrilmişdir. Müstəqillik uğrunda gedən mübarizə nəticəsində 1816-cı ildə müstəqillik elan edilmiş və birləşmiş La-Plata əyaləti bazasında 1826-cı ildə Argentina Federativ Respublikası yaranmışdır.

Argentina LA-nın ictimai-iqtisadi həyatında Braziliya və Meksika ilə yanaşı həlledici rola malikdir. ÜDM-in həcminə görə hər iki ölkədən sonra üçüncü yeri tutur. Ərazisinə görə Braziliyadan sonra 2-ci, əhalinin sayına görə isə üçüncü yeri tutur.

Argentinada 2005-ci ildə ÜDM-in həcmi 181,5 mlrd. dollar təşkil etmişdir. ÜDM-in quruluşunda kənd təsərrüfatının xüsusi çəkisi 11 %, sənaye sahələri 35 %, xidmət sahələri isə 64 % təşkil etmişdir.

Hasilat sənayesi ÜDM-in 2,3 %-ni təşkil edir. Ölkədə 0,7 mln. ton kömür, 0,7 mln. ton dəmir filizi, 45 min ton sink, 200 min ton mis filizi, 300 ton uran konsentratı, polimetal filizləri, 20 ton qızıl, kükürd, qaz və s. çıxarılır. Emal sənayesi bölməsində – nisbətən metallurgiya (5 mln. ton polad, 200 min ton alüminium), maşınqayırma (nəqliyyat vasitələri istehsalı, elektrotexnika, traktor, avtomobil – ildə 600 min ədəd), metal mexanikası, sement (ildə 8 mln. ton), kimya sənayesi, neft emalı,

ağac emalı sahələri üstünlük təşkil edirlər. Son dövrlərdə informatika, biotexnologiya, telefon rabitələri, atom energetikası kimi müasir, mütərəqqi sahələr inkişaf etdirilir.

Argentinanın kənd təsərrüfatı öz üstünlükləri ilə fərqlənir. 2003-cü ildə ölkədə 70 mln. ton taxıl istehsal edilmişdir. Ət istehsalına görə 5-ci yeri tutur. Belə ki, 49 mln. baş qaramal, 15,7 mln. baş qoyun, 5,5 mln. baş donuz saxlanılır. Argentina kənd təsərrüfatı məhsulları ilə özünü demək olar ki, tam təmin edir. Taxıl, ət, şəkər, bitki yağı, dəri, yun, pambıq və s. kimi məhsulların ixracına görə dünyada ən qabaqcıl yerlərdən birini tutur.

Ölkədə turizmin inkişafı üçün də şərait vardır. İldə orta hesabla 3-4 mln. turist qəbul edir. Turizmdən əldə edilən cəmi vəsait 3,0 mlrd. dollar olmuşdur.

2003-cü ilə Argentinada toplanmış cəmi birbaşa kapital, 147 mlrd. dollara, ölkənin həmin ilə xarici borcu 140,4 mlrd. dollara bərabərdir.

Əhalinin 39 %-i mütləq kasıbçılıq şəraitində yaşayır.

7. Kolumbiyanın iqtisadiyyatı

Kolumbiya Cənubi Amerikanın şimal-qərb hissəsində yerləşir. Ərazisi – 1141,7 min km², əhalisi – 43 mln. nəfərdir (2005). Böyük şəhərləri – Medelin, Kali, Kartaxen və s.

İnzibati ərazi bölgüsünə görə 32 departament və paytaxt dairədən ibarətdir. Kolumbiya Prezident Respublikasıdır. Dövlət başçısı prezidentdir. Ali qanunverici orqan konqressdir.

Kolumbiyanın tarixi barədə qısa məlumatı ondan ibarətdir ki, bu ölkə 1498-1501 illərdə ispanlar tərəfindən kəşf edilmişdir. XVI əsrdə ispanlar tərəfindən işğal edilmiş və Yeni Qranada adı almışdır.

1819-cu ildə Kolumbiya müstəmləkəçilikdən azad olub Böyük Kolumbiya Respublikasının tərkibinə daxil olmuşdur.

1830-cu ildən sonra Böyük Kolumbiyanın dağılmasından sonra yeni Qranada Respublikası yaranmışdır. Beləliklə bu ölkə 1886-cı ildən Kolumbiya Respublikası adlanır. XIX əsrdən ABŞ-

ın inhisarçı qrupları Kolumbiyanın iqtisadiyyatına güclü müdaxilə edirdilər. XX əsrin əvvəllərində ABŞ-ın yaxından köməkliyi ilə Panama Kolumbiyadan ayrılmışdır.

Bu gün Kolumbiya inkişaf etməkdə olan ölkə kimi LA ölkələri sırasında ərazisinə görə 5-ci, əhalinin sayına görə 3-cü və ÜDM-in həcminə görə 5-ci yeri tutur.

Kolumbiya aqrar-sənaye ölkəsidir. 2005-ci ildə cəmi ÜDM 122,3 mlrd. dollar olmuşdur. Bunun 14 %-i kənd təsərrüfatının, 31 %-i sənayenin və 55 % xidmət sahələrinin payına düşür.

Hasilat sənayesi ÜDM-in 8 %-ni təşkil edir. İldə 40 mln. ton neft, 7 mlrd. m^3 qaz, 40 mln. ton kömür istehsal edilir. Bununla yanaşı dəmir, mis, nikel, sink, qurğuşun filizləri, boksidlər, qızıl, gümüş, platin, zümrüd (dünya istehsalının 90 %-i), uran, digər az tapılan metallar, azbest, gips, fosfatlar, daş duz və bu kimi faydalı mineral ehtiyatları vardır. 2003-cü ildə 43 mlrd. kv. saat elektrik enerjisi istehsal edilmişdir. ÜDM-in 12 %-i emal sənayesi sahələrində yaradılır. Bu bölmədə metal emalı, metallurgiya, kimya, neftemalı, ağac emalı, sellüloz-kağız, inşaat materialları, sement, toxuculuq, dəri və yeyinti sənayesi kimi sahələr daha aparıcı sahələr hesab edilirlər.

Kənd təsərrüfatında kapitalizmə qədərki istehsal münasibətlərinin elementləri də qalmaqdadır.

Kənd təsərrüfatında bitkiçiliyin xüsusi çəkisi daha artıqdır – 58 %. Ölkədə 2,6 mln. ton banan, yüksək keyfiyyətli qəhvə – 0,7 mln. ton (dünyada 2-ci yeri tutur), kakao-paxlalılar, şəkər qamışı (dünya istehsalının – 2 %-i), pambıq, taxıl – 3 mln. ton, kartof – 2,5 mln. ton istehsal edilir. ÜDM-in 34 %-i heyvandarlığın payına düşür. 28 mln. baş iri buynuzlu malqarası, 3 mln. baş donuzu, 3 mln. baş qoyunları vardır. ÜDM-in cəmisi 8 %-i meşə və balıqçılıq təsərrüfatlarında yaradılmışdır.

Kolumbiya xarici kapitaldan da kifayət qədər istifadə edir. Bu vəsait 2003-cü ildə 21 mlrd. dollar təşkil etmişdir.

Kolumbiyada bir neçə azad iqtisadi zona fəaliyyət göstərir. Bunlar əsasən istehsal təyinatlı və xidmət sahələri üzrə olan zonalardır.

8. Venesuelanın iqtisadi inkişafının ümumi xarakteristikası

Venesuela Cənubi Amerikanın şimal hissəsində yerləşir. Ərazisi 912,05 min km^2, əhalisi 25,4 mln. nəfərdir. Paytaxtı – Karakasdır. Böyük şəhərləri – Marakaybo, Barkisimeto, Valensiya, Marakay və s.-dir.

Venesuela prezidentli federativ respublikasıdır. Dövlət başçısı prezidentdir.

İnzibati ərazi bölgüsünə görə 23 ştat və 1 federal dairədən (Karakas) ibarətdir. İlk dəfə X.Kolumb 1498-ci ildə Venesuelanın sahilinə düşmüşdür, oranı kəşf etmişdir. «Venesuela» - «kiçik Venesiya» deməkdir.

XVI əsrdən İspaniyanın müstəmləkəsi olmuşdur. XVIII əsrin axırları XIX əsrin əvvəllərində müstəqillik uğrunda mübarizə güclənmişdir (bu xalq hərəkatına F. De Miranda və S.Bolivar rəhbərlik edirdilər). Nəhayət 1811-ci ildə müstəqillik qazanmışdır. 1830-cu ildə respublika yaradılmışdır.

LA-da Venesuela ÜDM-in həcminə görə Braziliya, Meksika və Argentinadan sonra 4-cü yeri tutur – 132,8 mlrd. dollar. ÜDM-in 3 %-i kənd təsərrüfatında, 43 %-i sənaye və inşaat sahələrində, 54 %-i xidmət sahələrində yaradılmışdır.

Hasilat sənayesi ÜDM-in 24 %-ni təşkil edir. 176 mln. ton neft, 32 mlrd. m^3 təbii qaz, 21 mln. ton dəmir filizi, 0,3 mln. ton mis filizi, 83,2 mlrd. kvt.saat elektrik enerjisi istehsal olunur. Bunlarla yanaşı boksidlər, nikel, daş kömür, almaz, qızıl və gümüş də çıxarılır. Bütün ərazi üzrə neft ehtiyatlarının 50 %-ə qədəri (xüsusi ilə And dağlarının ətəklərində) Venesuelanın payına düşür (bunun da 80 %-i Marakaybo hövzəsindədir).

Emal sənayesi hələki, o qədər də böyük xüsusi çəkiyə malik deyildir. Belə ki, ÜDM-in 16 %-i həmin sahənin payına düşür. Bu bölmədə neftemalı, kimya, metallurgiya, avtomobil, ağac emalı, toxuculuq və yeyinti sənaye sahələri nisbətən fərqlənirlər.

Kənd təsərrüfatında 2003-cü ildə 34 min ton lobya (paxla), 1300 min ton qarğıdalı, 690 min ton düyü, 460 min ton

darı, 308 min ton buğda, 1461 min ton banan, 65 min ton yaşıd qəhvə, 6147 min ton şəkər qamışı, 1455 min ton limon və portağal, 200 min ton ananas istehsal edilmişdir.

Heyvandarlıqda iribuynuzlu malqaranın sayı – 15,4 mln. baş, donuzların sayı – 4,7 mln. baş, qoyunlar 4 mln. baş təşkil edir. İldə 500 min ton balıq tutulur.

Ölkədə toplanmış cəmi birbaşa kapital – 28,7 mlrd. dollardır. Ölkənin xarici borcu 32 mlrd. dollar təşkil edir.

Venesuelada bir neçə azad ticarət zonaları fəaliyyət göstərir.

9. Çilinin iqtisadiyyatı

Çili Cənubi Amerikanın cənub-qərb hissəsində Sakit okeanın sahilində yerləşir. Ərazisi 756,9 min km², əhalisi 16 mln. nəfərdir. Paytaxtı – Santyaqo, böyük şəhərləri – Vinya-del-Mar, Valparanso, Talka, Konsepsiondur. İnzibati-ərazi quruluşuna görə 12 ərazidən və paytaxt dairədən ibarətdir.

Çili prezident respublikasıdır, dövlət başçısı prezidentdir.

Çilinin ərazisi 1520-ci ildə F. Maqellanın ekspedisiyası tərəfindən öyrənilmişdir. İspaniyanın müstəmləkəsi kimi Peru krallığının tərkibinə daxil olmuşdur. XIX əsrin əvvəllərindən azadlıq mübarizələri güclənmiş və nəhayət 1818-ci ildə müstəqillik əldə edilmişdir.

1879-1884-cü illərdə Sakit okean müharibəsində Çili Peru və Boliviya üzərində qələbə çalaraq, onların bir çox faydalı qazıntılar yataqlarını ələ keçirmişdir. Bununla da özünün iqtisadi inkişafını və kapitalizmin inkişafını sürətləndirmişdir. Beləliklə **1930-cu illərdən Dövlət kapitalizmin inkişafı** modelinin əsasını qoymuşdur.

1970-ci illərdə sosialistcəsinə inkişaf istiqaməti xarakterik olsa da bu proses uzun çəkməmişdir. Belə ki, 1970-ci ildə Salvador Alyende prezident seçilmişdir. O, kommunist ideyaları ilə rəhbərlik etməyə çalışırdı. Sosial bərabərlik, varlıların tutulması, iqtisadiyyatın milliləşdirilməsi, planlı təsərrüfat və s. Nəticə etibarı ilə o, iqtisadiyyatda dəyişiklik yarada bilmədi. 1973-cü

ildə o, devrilmiş və hakimiyyət hərbiçilərin əlinə keçmişdir. Hərbi nazir general Auqusto Pinoçet ölkə başçısı olmuşdur.

O, iqtisadiyyatın liberallaşdırılması, hərtərəfli islahatlar keçirilməsi, düzgün iqtisadi siyasətlə ölkəni iqtisadi böhrandan çıxara bilmişdir. Məlumat üçün qeyd etməliyik ki, ölkənin böhran vəziyyətindən çıxarılmasında burada tanınmış, güclü sahibkar Xaver Vialın böyük rolu olmuşdur (liberalizmin tərəfdarı).

X.Vial görkəmli Amerika iqtisadçısı, Nobel mükafatı laureatı Milton Fridmenlə tanış idi. Ona görə də onun Çiliyə gətirilməsinə səy göstərmişdir. Əvvəlcə Çikaqo Universitetində biznes məktəbinin dekanı A.Xarberqeri (1974-cü ildə) Çiliyə dəvət edir, sonra onun köməkliyi ilə M.Fridmeni 1975-ci ildə Çiliyə dəvət etmişdir. Fridmen Santyaqoda dövlət rəhbərləri qarşısında çıxış edir. Pinoçet onun çıxışını, ideyalarını əvəzolunmaz bir düha kimi qiymətləndirmişdir. Beləliklə qısa bir müddətdə:

- inflyasiya əleyhinə siyasət sahəsində;
- xarici ticarət sahəsində;
- vergi sistemində;
- maliyyə sahəsinin liberallaşdırılmasında;
- özəlləşdirilmədə;
- pensiya sistemində;
- işçi qüvvəsi bazarı sistemində güclü islahatlar keçirilmişdir.

1999-cu ildən ölkədə demokratik proseslər genişlənmişdir.

Çilinin 2005-ci ilə ÜDM-i 115,3 mlrd. dollar təşkil etmişdir. ÜDM-in 9 %-i kənd təsərrüfatının, 34 %-i sənaye sahələrinin, 57 %-i isə xidmət sahələrinin payına düşür.

Çilinin iqtisadiyyatında hasilat sənayesi daha həlledici rol oynayır və ixrac yönümlüyü ilə fərqlənir. Ölkə üzrə ÜDM-in 10 %-i bu bölmənin payına düşür. 2003-cü ildə burada 5,3 mln. ton dəmir filizi, 4,7 mln. ton mis filizi, 33,1 mln. ton molibden, 990 mln. ton silitr, 31 mln. ton sink, 53 ton qızıl, 1238 ton gümüş çıxarılmışdır.

Çili mis filizi istehsalına görə dünyada birinci, molibden çıxarılmasına görə isə ikinci yeri tutur. Kəşf edilmiş mis ehtiyatı 88 mln. ton, molibden isə 1,1 mln. tondur. Litium ehtiyatı isə dünya üzrə olan ehtiyatın 36 %-inə bərabərdir.

Emal sənayesi ÜDM-in 20 %-ni özündə birləşdirir. Bu bölmədə əlvan və qara metallurgiya (1,1 mln. ton polad), neft kimya, sement (2,5 mln. ton), avtomaşın yığma (14 min avtomobil), ağac emalı, sellüloz-kağız, toxuculuq, yeyinti sənayesi və digər sahələr fərqləndirilir. Balıq emal edən sahə daha qabaqcıl sahə olub ildə 400-600 min ton balıq unu istehsal edir.

Kənd təsərrüfatı çox güclü olmasa da ixrac yönümlüdür. İntensiv kənd təsərrüfatı mövcuddur. Son illərin məlumatına görə ildə 5,5-8 mln. ton balıq tutulur (un hazırlamaq üçün). İldə 3 mln. ton taxıl, 1 mln. ton kartof, 300 min ton meyvə istehsal edilir, üzümçülük təsərrüfatları fəaliyyət göstərir.

Çilinin iqtisadi inkişaf modelində xarici kapitalın cəlb edilməsinə də yer verilir. Ölkədə toplanmış cəmi birbaşa kapital 46,8 mlrd. dollar təşkil edir. Çilinin xaricdə olan kapitalı isə 18,3 mlrd. dollardır. Bu vəsait əsasən Argentina, Peru və Braziliya iqtisadiyyatında yerləşdirilibdir.

Çilinin cəmi xarici borcu 42,4 mlrd. dollardır. İqtisadiyyatın inkişafında azad iqtisadi zonaların fəaliyyətindən də istifadə edilir. Burada hər 6 aydan bir əmək haqqının səviyyəsi təhlil edilir. Aylıq əmək haqqı orta hesabla 130-142 dollara bərabərdir.

Latın Amerikası ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Dövlətlərin adı	Ərazisi, min km	Əhalisi, mln.nəfər
1	Braziliya	8547,0	186
2	Meksika	1958	106
3	Argentina	2780	40
4	Kolumbiya	1139	43
5	Venesuela	912,0	25,4
6	Peru	1285	28
7	Çili	757	16
8	Kuba	110,9	11,3
9	Ekvador	283,6	14,0
10	Dominikan Resp.	49	9,0

11	Boliviya	1100	9
12	Salvador	21	6,7
13	Paraqvay	407	6,3
14	Nikaraqua	131,8	5,5
15	Panama	77,4	3,1
16	Uruqvay	177	3,4
17	Haiti	27,8	7,5
18	Honduras	112	7,2
19	Qvatemala	0,109	14,0
20	Yamayka	11,5	2,8
21	Kosta-Rika	51,1	4,0
22	Trinidad və Tobaqo	5,1	1,1
23	Qayana	215,0	0,700
24	Qvadelupa	1,780	0,440
25	Qrenada	344,0	0,090
26	Barbados	0,430	0,300
27	Beliz	23,0	0,300
28	Antiqua və Barbuda	0,443	0,300
29	Puerto-Riko	9,1	4,0
30	Sent-Lyusiya	0,616	0,161
31	Suripan	163,3	0,435
32	Dominika	0,750	0,075
33	Sent-Vinsent və Qrenadin	0,389	0,116
34	Sent-Kits və Nevis	0,261	0,047
	Cəmi	**21000,0**	**560,0**

XXXI FƏSİL
AFRİKANIN İQTİSADİYYATI

1. *Afrika dövlətləri iqtisadiyyatının ümumi xarakteristikası.*
2. *Afrika ölkələrinin əsas sosial-iqtisadi inkişaf modelləri.*
3. *İqtisadiyyatın sahəvi quruluşu.*
4. *Xarici iqtisadi əlaqələrin vəziyyəti.*
5. *Afrika ölkələrində demoqrafiya problemi.*

1. Afrika dövlətləri iqtisadiyyatının ümumi xarakteristikası

Afrika 55-ə qədər müstəqil dövləti özündə birləşdirir. Bu ölkələrin əksəriyyəti 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində müstəqillik əldə edə bilmişlər. Həmin dövrədək Afrika müstəmləkə materiki adlanırdı. Demək olar ki, bütün Afrika dövlətləri Böyük Britaniya, Fransa, Portuqaliya, İtaliya, İspaniya və Belçikanın müstəmləkəsi kimi mövcud idilər. XXI əsrin əvvəllərinə yalnız Qərbi Saxara tam müstəqillik statusu ala bilməmişdir. 1976-cı ildə İspaniya həmin ölkədən öz qoşunlarını çıxardıqdan sonra xalq cəbhəsinin mübarizəsi nəticəsində Saxara Ərəb Demokratik Respublikası yaradılmışdır (bu respublika bir neçə ölkə tərəfindən tanınmışdır). Deməli, onlar müasir dünyaya müstəmləkə yükü, zəif milli iqtisadiyyat, dünya bazarına çıxışda aqrar-xammal ixtisaslaşması ilə daxil olmuşlar. Ona görə də dünya təsərrüfatı ilə inteqrasiyada o qədər də sadə olmayan vəzifələr yerinə yetirməli olurlar. Afrika dünyanın böyük regionları içərisində ərazisinə və əhalinin sayına görə (754 mln. nəfər) ikinci yeri tutduğu halda, ÜDM-in həcminə görə axırıncı yerlərdən birini tutur.

Afrikanın bütün ölkələri, CAR-dən başqa inkişaf etməkdə olan ölkələr sırasına daxildirlər. Bunların da 33-ü daha az inkişaf etmiş ölkə hesab edilirlər.

Müəyyən təsnifata görə Afrika dövlətlərinin 48-i tropik Afrika adlanır. Bu ölkələr Saxara səhrasının cənubunda yerləşirlər.

İdarəçilik formalarına görə Afrika dövlətlərinin əksəriyyəti (46) prezident respublikası idarəçiliyinə aiddirlər. Burada parlament respublikası çox azdır. **Monarxiya** idarəçiliyi ancaq **Mərakeş, Lesoto və Svazilenddə** mövcuddur. Bu ölkələrdə dövlət başçısı kraldır.

İnzibati-ərazi quruluşuna görə Afrika dövlətlərinin çoxu unitar dövlət hesab edilirlər. Burada cəmisi dörd federativ dövlət mövcuddur : CAR – 9 əyaləti, Nigeriya – 30 ştatı, Komor adaları 4 ada qrupunu özündə birləşdirir (Komor adaları Federativ İslam Respublikası).

Eləcə də **1994-cü ildən Həbəşistan** da (9 ştatı birləşdirir) Federativ dövlət adlanır. Onu da qeyd etmək lazımdır ki, burada respublika idarəçiliyi başqa ölkələrdə olduğu kimi heç də müavifq prinsiplərə tam cavab vermir. Bir çox səbəblər üzündən (iqtisadi gerilik, feodalizmin və kapitalizmin qalıqları, əhalinin mədəni səviyyəsinin aşağı olması, iki sistemin mövcud olması və bu ölkələrin bir çoxunda sosialist istehsal üsulunun istiqamət götürməsi və s.) bu ölkələrdə diktatorluq, avtoritar rejim psixologiyası özünü göstərir.

Afrika dövlətləri bir çox ümumi cəhətləri ilə yanaşı kəskin təbii, tarixi, etnik, sosial-iqtisadi fərqləndirici cəhətlərə də malikdirlər.

Ən ümumi şəkildə ilk növbədə **Şimali və Tropik Afrika** kimi bölgü aparılır. Burada Tropik Afrika daha geridə qalmış ölkələri əks etdirir. İnkişaf etməkdə olan ölkələrdən 47-48 ölkə daha kasıb hesab edilir. Bunların da 28-i Tropik Afrikanın payına düşür. 15 ölkənin dənizə çıxışı yoxdur (əlbəttə bu da müəyyən çatışmazlıqlar yaradır).

Bunlarla yanaşı ərazi baxımından Afrika 5 bölgəyə ayrılır: **Şimali, Cənubi, Qərbi, Mərkəzi və Şərqi Afrika**.

1. Şimali Afrikanın Atlantik okeanına, Aralıq dənizi və Qırmızı dənizə çıxışı vardır. Odur ki, bu ərazinin Avropa və Asiya ilə əlaqələri genişdir.

Bu ölkələrin kənd təsərrüfatı pambıq, zeytun, sitrus bitkiləri, üzümçülük üzrə ixtisaslaşmışdır. Sənayedə mineral xammalların çıxarılması və emalı əsas götürülür. Çox əvvəllərdən duz çıxarılır. **Daş kömür, dəmir** filizi, mis, sink, volfram, nadir metallar, uran, **fosforitlər çıxarılması** üzrə kəşfiyyat işləri genişlənmişdir.

Neft-qaz mədənləri bu bölgənin simasını dəyişmişdir.

Geoloji işlər Əlcəzairdə, Misirdə və Sudanda çox geniş aparılır. Livan və Əlcazair beynəlxalq əmək bölgüsündə neft istehsalına görə, Əlcəzair qaz üzrə, Mərakeş və Tunis fosforitlər üzrə fərqlənirlər. Bu bölgə demək olar ki, quraqlıq ərazidir. Nil çayı şimali Afrika xalqları üçün böyük əhəmiyyət kəsb edir. Ekvatorial Afrikadan başlamış Sudan və Misirdən keçərək Aralıq dənizinə töküldüyü yerdə delta əmələ gətirmişdir. Saxara səhrasında zəngin yeraltı sulardan da istifadə edilir.

Ərazidaxili əlaqələr o qədər də geniş inkişaf etdirilməmişdir. Daxili əmtəə dövriyyəsi cəmi ticarət dövriyyəsinin 10 %-dən artıq deyildir. Əlcəzair, Tunis, Mərakeş və Livan arasındakı Maqrib (qərb) və Misir ilə Suriya arasındakı birlikdə müsbət nəticə verə bilməmişdir.

Əksər dövlətlər çoxukladlı təsərrüfata malikdirlər. Şimali Afrika xalqları əsasən ərəbdillidirlər. Zəngin mədəni irsə, sənətkarlıq ənənələrinə, suvarma torpaqlara, köçəri heyvandarlığa malikdirlər. Bəzən Şimali Afrikanı Maqrib adlandırırlar[1]. Şimali Afrika 8,5 mln. kv. km ərazini və 200,0 mln. nəfər əhalini birləşdirir.

Şimali Afrika ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min. km²	Əhalisi, mln. nəfər	Cəmi ÜDM, mlrd. dol.
1	Əlcəzair (ƏlXDR)	2382	32,5	102,0
2	Misir	1002	77,5	89,5
3	Qərbi Saxara	266	0,256	-
4	Liviya	1760	5,8	38,7
5	Mərakeş	447	32,8	51,6
6	Sudan	2506	40,2	27,5
7	Tunis	164	10,1	28,7
	Cəmi	**8527**	**199,0**	**338,0**

[1] Maqrib – ərəbcə «qərb» deməkdir. Bura Mərakeşi, Əlcəzairi, Tunisi, Liviyanı, Mavritaniyanı və Qərb Saxaranı aid edirlər.

2. Cənubi Afrika – bu qitənin cənub hissəsini tutur. Avropa, Amerika və Asiyadan daha aralıdadır. 5 ölkəni özündə birləşdirir. Ərazi 2574,4 min kv. km, əhalisi təqribən 51 mln. nəfərdir.

Bu yarımqrupda da kənd təsərrüfatı və hasilat sənayesi üstünlük təşkil edir. Əsas faydalı qazıntıları – almaz, qızıl, platin, xromitlər, dəmir filizi və marqansdan ibarətdir. Əsas ixrac hasilat sənayesi məhsulları ilə kənd təsərrüfatı məhsullarından ibarətdir. Bu bölgəyə olan cəmi xarici kapital 28 mlrd. dollar təşkil edir.

Bu ərazinin əsasını CAR təşkil edir. Bu qitədə CAR yeganə dövlətdir ki, yeni sənaye ölkəsi kimi inkişaf edərək inkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş ölkələr sırasına daxil olmuşdur.

Cənubi Afrika ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min. km²	Əhalisi, mln. nəfər	Cəmi ÜDM, mlrd. dol.
1	Botsvana	582	1,6	10,2
2	Lesoto	30	2,0	1,5
3	Namibiya	824	2,0	6,1
4	Svazilend	17,4	1,1	2,4
5	CAR	1121	44,0	239,4
	Cəmi	**2574,4**	**50,7**	**259,6**

3. Qərbi Afrika – Tropik səhra zonasını əhatə edir. Rütubətli ekvatorial meşələri vardır. Qərbi Afrika ən böyük əraziyə və əhalinin çox hissəsinə malikdir. Bu yarımqrup ərazidə

kənd təsərrüfatında tarlaçılıq və istehlak bitkiləri istehsalı, sənayedə isə dağmədən sənayesi inkişaf etdirilir. Bu əraziyə 16 dövlət daxildir. Təqribən 6050 min kv. km əraziyə malikdir, 255 mln. nəfər əhalisi vardır.

Bu bölgənin əsas faydalı qazıntıları – neft, boksidlər, dəmir filizi, marqans, qızıl, almaz, fosfatlar və sairədən ibarətdir. Burada 7 dövlət –Benin, Burkina –Faso, Kot-d'İvuar, Mali, Niger, Seneqal, Toqo. Vahid pul vahidi olan Frank KFA VSELO-dan istifadə edirlər. Bu bölgənin dövlətləri xalis kapital idxalçısı kimi çıxış edirlər. Cəmi xarici kapital 70 mlrd. dollar təşkil edir.

Qərbi Afrika ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min. km²	Əhalisi, mln. nəfər	Cəmi ÜDM, mlrd. dol.
1	Benin	113	7,6	4,4
2	Burkina-Faso	274	13,5	5,6
3	Qambiya	11	1,6	0,5
4	Qana	239	21,9	11,0
5	Qvineya	246	9,5	0,8
6	Qvineya-Bisau	36	1,4	0,3
7	Kabo-Verde	4,0	0,42	0,9
8	Kot-d'İvuar	322	17,3	16,4
9	Liberiya	11	3,0	0,4
10	Mavritaniya	1026	3,1	1,9
11	Mali	1240	11,4	5,4
12	Niger	1267	12,2	3,4
13	Nigeriya	924	129,0	99,1
14	Seneqal	200	11,7	8,7
15	Syerra-Leone	72,0	5,9	1,1
16	Toqo	57,0	5,4	2,1
	Cəmi	**6042**	**255**	**162,0**

4. Mərkəzi Afrika – rütubətli ekvatoril meşə zonasında yerləşir. Etnik cəhətdən qohum xalqların birliyindən ibarətdir. Burada təqribən 9 dövlət təmsil olunur. Ərazisi 6613 min kv. km, əhalisi 111 mln. nəfərdir.

Respublika dövlət quruluşu daha geniş yer tutur. Burada da iqtisadiyyatda kənd təsərrüfatı ilə hasilat sənayesinin rolu böyükdür. Zəngin mineral ehtiyatları vardır. Faydalı qazıntılardan – kobalt, mis, marqans, qızıl, almaz, neft və təbii qaz istehsal edilir.

Qərbi Afrikada olduğu kimi burada da 6 dövlət – Qabon, Kamerun, Konqo, MAR, Çad və Ekvatorial Qvineya vahid pul vahidi olan Frank KFA-VEAS-dan istifadə edirlər. Afrikanın Mərkəzi Bankının emissiyası əsasında bu ölkələrə cəlb edilən cəmi xarici kapital 47 mlrd. dollardır.

Mərkəzi Afrika ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min. km²	Əhalisi, mln. nəfər	Cəmi ÜDM, mlrd. dol.
1	Anqola	1247	14,0	32,8
2	Qabon	268	1,4	8,7
3	Konqo DR (Zair)	2345	61	30,0
4	San-Tome və Prinsipi	1,0	0,200	0,200
5	MAR	623,0	4,0	4,0
6	Çad	1284,0	10,0	6,0
7	Ekvatorial Qvineya	28,1	0,500	3,0
8	Kamerun	475	16,0	30,0
9	Konqo	342	4,0	3,0
	Cəmi	**6613**	**111,0**	**118,0**

5. Şərqi Afrika. Bu bölgə özündə 17 dövləti birləşdirir, 2005-ci ilə ərazisi 6863,0 min kv. km, əhalisi 277 mln. nəfərdir. Bu ölkələrin əksəriyyəti ingilislərin və fransızların müstəm-

ləkəsi olmuşdur. Onların hamısı inkişaf etməkdə olan dövlətlər sırasına daxildir. Bu yarımqrupda ÜDM-in yaradılmasında kənd təsərrüfatı və hasilat sənayesi üstünlük təşkil edir.

Faydalı qazıntılardan – mis, sink, kobalt, xromitlər, qızıl, almaz, qiymətli daşlar, dəmir filizi, fosfat ehtiyatları vardır.

İxracda əsas yeri xammal tutur. Burada hasilat sənayesi məhsulları və kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir.

Şərqi Afrika dövlətləri xarici kapitaldan istifadəyə meyillidirlər. 2003-cü ilə cəmi xarici kapital 50 mlrd. dollar olmuşdur.

Şərqi Afrika ölkələrinin bəzi iqtisadi göstəriciləri (2005)

	Ölkələr	Ərazisi, min. km²	Əhalisi, mln. nəfər	Cəmi ÜDM, mlrd. dol.
1	Burundi	28	7,8	0,7
2	Cibuti	22	0,705	0,7
3	Zambiya	753	11,3	7,2
4	Zimbabve	391	12,2	4,5
5	Keniya	580	33,8	18,7
6	Komor adaları	2,2	0,6	0,4
7	Mavrikiy	2,0	1,2	6,2
8	Madaqaskar	587	18,0	5,0
9	Mayotta	-	-	-
10	Malavi	118	12,7	2,1
11	Mozambik	802	19,4	6,5
12	Renyuon	2,5	0,665	-
13	Ruanda	26,4	8,0	2,1
14	Seyşel adaları	500	0,084	0,7
15	Somali	638	8,6	-
16	Tanzaniya	945	36,8	12,6
17	Uqanda	241	27,3	8,7
18	Eriteriya	125	4,7	1,0
19	Həbəşistan	1100	73,1	11,1
	Cəmi	6863	277	88,2

Afrika zəngin xammal ehtiyatlarına malikdir. Burada mineral yanacaq ehtiyatlarından: kəşf edilmiş neft ehtiyatı (9 mlrd. ton) dünya ehtiyatının 3 %-i qədər; qaz müvafiq olaraq 9 trln. m^3 – 5%; uran -500 min ton – 30-33 % təşkil edir.

Şimali və Qərbi Afrikada Liviya, Əlcəzair, Nigeriya zəngin neft və qaz yataqlarına, Cənubi və Qərbi Afrikada – CAR, Namibiya və Niger zəngin uran yataqlarına malikdirlər.

Afrikada dağmədən kimya xammalı – fosforitlər (Mərakeş, Əlcəzair, Tunis) ehtiyatları 60 mlrd. ton təşkil edir ki, bu da dünya üzrə olan ehtiyatların 70 %-ndən də artıqdır. Dağmədən xammalından dəmir filizi ehtiyatları (CAR, Əlcəzair, Liviya, Mavritaniya və Liberiyadan başqa) çox geniş yayılmışdır. Bu ehtiyatlar təqribən 60 mlrd. ton qiymətləndirilir ki, bu da dünya ehtiyatının 10 %-ni təşkil edir. Proqnoza görə əlvan metallar xammalı: boksidlər (Qvineya, Kamerun); mis filizi (Zair, Zambiya və CAR) 20 mlrd. ton həcmində qiymətləndirilir.

Qiymətli metallar və almaz ehtiyatına görə də Afrika birinci yerlərdən birini tutur. Burada kəşf olunmuş qızıl ehtiyatının (43 min ton) 42 min tonu CAR-ın payına düşür ki, bu da dünya üzrə olan müvafiq göstəricinin 55 %-ni təşkil edir.

Beləliklə, Afrika marqans, xrom filizi, boksidlər, qızıl, kobalt və fosfat ehtiyatına görə dünyada birinci, mis və asbest yataqlarına görə ikinci, neft, qaz və dəmir filizi ehtiyatlarına görə üçüncü yeri tutur. Aydındır ki, bütün bu ehtiyatlar ayrı-ayrı ölkələrdə bərabər həcmdə deyildir.

Əsas neft ehtiyatları Nigeriyanın ərazisində, uran ehtiyatının 98 %-i Namibiya, Nigeriya və Qabonda, mis ehtiyatının 92 %-i Zambiya və Konqo Demokratik Respublikası ərazisindədir.

Bir çox ölkələrin böyük ərazisi malik olmalarına baxmayaraq əhalisi hətta 10 mln. nəfərdən azdır.

Bu regionda CAR daha yüksək göstəricilərə malikdir. Odur ki, bəzən bu ölkəni inkişaf etmiş ölkələr sırasına aid edirlər. CAR daha çox qızıl ehtiyatına malik olması baxımından bütün dünyaya məlumdur. Dünya üzrə qızıl çıxarılmasının 25 %-i onun payına düşür. Qeyd etməliyik ki, CAR-ın ərazisində

qızıl çıxarılması 1886-cı ildən başlanmışdır. XIX əsrin axırlarınadək ildə 20-50 ton, XX əsrin əvvəllərində ildə 200-300 ton, XX əsrin ortalarında isə ildə 600-800 ton qızıl çıxarılmışdır. 2000-ci ildə isə qızıl çıxarılması xeyli azalmış və 440 ton təşkil etmişdir. Qeyd etməliyik ki, CAR ancaq qızıl deyil, **uran** çıxarılmasına görə də qabaqcıl yerlərdən birini tutur. Kəşfi məlum olan uran ehtiyatı 150 min tondur. Bu sahədə Avstraliya, Qazaxıstan və Kanadadan sonra Braziliya, Nigeriya və Özbəkistanla eyni səviyyədədirlər. Burada uran konsentratları çıxarılması 1952-ci ildə başlanmışdır. O vaxtlar istehsalın həcmi ildə 6000 ton təşkil etmiş, sonralar azalaraq 1990-cı illərdə 3,5 min tona bərabər olmuşdur.

CAR almaz çıxarılmasına görə də böyük inkişaf tapmışdır. Burada ilk almaz tapılması 1867-ci ilə təsadüf edir. Bəzi mülahizələrə görə almaza çay sahilində çoban (uşaq), digər mülahizələrə görə isə yerli fermerlərin (Yakobs və Nekirk) uşaqları tapmışlar.

Hazırda dünya üzrə cəmi almaz ehtiyatının (155 mln. karat) həcminə görə CAR, Botsvana və Avstraliyadan geri qalır (Konqo Demokratik Respublikası və Kanada ilə eyni səviyyədə dayanır). CAR-ın cəmi almazının 50 %-ə qədəri (9-10 mln. karat) zərgərlik üçün istifadə edilir. Həmin regionda ikinci yerdə Nigeriya dayanır (baxmayaraq ki, hər nəfərə düşən ÜDM-in həcmi azdır).

CAR daha çox qızıl ehtiyatına malik olduğu halda, Nigeriya həmin ərazidə neft ehtiyatının əsas hissəsinə malikdir. Həmin ərazinin əhalisinin 21 %-i, ÜDM-in isə 17 %-i Nigeriyanın payına düşür. Bütün bunlarla yanaşı həmin ərazinin ölkələrinin əksəriyyəti (44 ölkə) ərzaq çatışmazlığı şəraitində yaşayırlar.

2. Afrika ölkələrinin əsas sosial-iqtisadi inkişaf modelləri

Yuxarıda qeyd etdiklərimizdən aydın olur ki, Afrikada kifayət qədər iqtisadi ehtiyat mövcuddur. Lakin yaxın vaxtlarda bu ehtiyatlardan nə dərəcədə istifadə edilməsi problemləri hələki qalır.

Afrika investorlar tərəfindən daha az mənimsənilmiş ərazi hesab edilir. Hazırki Afrikanın inkişafını Cənubi-Şərqi Asiyanın 40-50-ci illəri ilə, Mərkəzi Asiyanın 15 il bundan əvvəlki dövrü ilə və 10 il bundan əvvəlki Latın Amerikasının inkişafı ilə müqayisə etmək olar.

Hər iki modeldə kəmiyyət göstəricilərinə – artım sürətinə üstünlük verilirdi. Bu modellərin həyata keçirilməsində investisiyanın artırılması, xarici ticarətin genişləndirilməsi problemləri ön plana çəkilirdi.

«Quruluş dəyişikliyi modeli». 80-ci illərdə BVF Afrika dövlətlərinin inkişafı üçün «quruluş dəyişikliyi modeli» deyilən model təklif etmişdir. Bu modeldə əsasən iqtisadiyyatda islahat aparılması nəzərdə tutulurdu. Təsərrüfat fəaliyyətinin liberallaşdırılması, dövlətin iqtisadiyyata qarışmasını məhdudlaşdırmaq, maliyyə sisteminin sabitləşdirilməsi, bazar təsərrüfatının hərtərəfli inkişafı məsələləri əsas götürülürdü.

İdarəçilik aparatının təkmilləşdirilməsi, istehsalın effektivliyinin yüksəldilməsi, bazar münasibətlərinin təkmilləşdirilməsi ön plana çəkilirdi.

Beləliklə, 90-cı illərdə Afrikada bu model inkişaf xətti kimi formalaşırdı. Afrika dövlətlərinin əksəriyyətində 90-cı illərin ortalarından dövlət müəssisələrinin bankların özəlləşdirilməsi genişləndirilmişdir.

Belə ki, 1990-cı ildə Kamerunda 80 dövlət müəssisəsindən 12-si özəlləşdirilmiş və 5-i ləğv edilmişdir. 1995-ci ildə isə 27 müəssisə özəlləşdirilmişdir.

Keniyada həmin illərdə özəlləşdirilən müəssisələr 20-dən 40-a çatmışdır. **Qanada** 1995-ci ildə **260** dövlət şirkətindən 64-ü, **Nigeriyada 500** şirkətdən 73-ü özəlləşdirilmişdir.

Nəticədə 90-cı illərin ortalarına Afrika regionunda gözə çarpacaq dərəcədə irəliləyiş baş vermişdir. Belə ki, BMT-nin İqtisadi Komissiyasının məlumatına görə 1995-2000-ci illərdə bu regionda ÜDM 2,3 %, 33 ölkədə isə 2-4 % artmışdır.

BVF-in məlumatına görə Afrikada iqtisadi artım 1998-2000-ci illərdə 3,2 %-dən artıq olmuşdur. Daha müsbət hallar-

dan biri ondan ibarətdir ki, hazırda 27 ölkədə iqtisadi artım sürəti əhalinin artım sürətini qabaqlayır.

Bütün bunlara baxmayaraq hələ də dövlət bölməsində olan bədxərclik, geridə qalmış iqtisadi infrastruktura, daxili siyasi qeyri-sabitlik, dövlətlərarası münaqişələr, xarici investisiyanın həcminin azalması, xarici bazara çıxış, xarici borcların çoxalması və digər problemlər «quruluş dəyişikliyi problemi»nin həyata keçirilməsində müəyyən çətinliklər yaradır.

3. İqtisadiyyatın sahəvi quruluşu

Afrika ölkələrinin inkişafı və eləcə də bir çox problemlər hər şeydən əvvəl iqtisadiyyatın çoxukladlı olması ilə xarakterizə edilir. Məhz hansı təsərrüfat formasının üstün olması bir çox hallarda iqtisadiyyatın quruluşunu müəyyən etmiş olur.

Afrikada və xüsusilə tropik Afrikada hazırda da **patriarxal icma və feodal təsərrüfat** forması mövcuddur. Eləcə də kənd təsərrüfatında, sənayedə xidmət dairəsində **xırda əmtəə təsərrüfatı** da fəaliyyət göstərir.

Kapitalist təsərrüfat forması – dövlət sahibkarlığında və eləcə də xarici kapital qoyuluşu sahələrində daha çox xarakterikdir. Böyük dövlətlərin TMK-rı Afrika dövlətlərinin bir çoxunda özlərinin qız cəmiyyətlərini yaratmışlar.

Bu şirkətlər hasilat və emal sənayesi sahələrində maliyyə, mehmanxana biznesi, xarici ticarət sahələrində daha geniş fəaliyyət göstərirlər. Keniya, Konqo, Zimbabve, Liberiya, KDR (Zair), Qvineya, Burundi, Qabon ölkələrində xarici kapitalın mövqeyi daha güclüdür.

60-70-ci illərdə Afrika dövlətlərinin iqtisadiyyatında dövlət bölməsinin (ukladın) xüsusi çəkisi yüksək idi. Lakin **«quruluş dəyişikliyi»** proqramının həyata keçirilməsi prosesində beynəlxalq maliyyə təşkilatlarının maliyyə köməkliyi ilə dövlət bölməsinin xüsusi çəkisi azalmışdır.

Aydındır ki, təsərrüfat formalarının müxtəlifliyi iqtisadiyyatın quruluşuna da güclü təsir edir.

Afrikada iqtisadiyyatın quruluşu baxımından ən ümumi cəhət ondan ibarətdir ki, aqrar bölmənin xüsusi çəkisi yüksəkdir. Lakin buna baxmayaraq dövlətlər arasında o qədər də eynilik yoxdur. Son 10-15 ildə iqtisadiyyatın quruluşunda nəzərə çarpacaq dərəcədə dəyişiklik baş vermişdir.

ÜDM-in formalaşması üzrə ayrı-ayrı təsərrüfat sahələrinin təhlili nəticəsində Afrika dövlətlərini beş qrupa bölmək olar:

Birinci – sənayenin və xidmət sahəsinin üstünlük təşkil etdiyi dövlətlər. Bura əsasən şimal və cənub dövlətlərini aid etmək olar. Bu arazidə kənd təsərrüfatının xüsusi çəkisi 20 %-dən azdır.

Afrika şəraitində bu qrup dövlətlərin iqtisadi göstəriciləri, hər nəfərə düşən ÜDM-in həcmi nisbətən yüksəkdir (neft, qaz, fosforitlər və digər xammal məhsulları ixrac edirlər).

İkinci – kənd təsərrüfatının və sənayenin üstün olduğu dövlətlər. Bura Afrikanın şərq dövlətlərinin iqtisadiyyatı uyğun gəlir.

Bu dövlətlərin bəzilərində xidmət sahəsi ilə kənd təsərrüfatı üstünlük təşkil edir ki, bu da **üçüncü** qrup adlandırılır.

Hər iki qrup dövlətlər hər nəfərə düşən ÜDM-in həcminə görə ən axırıncı yerlərdə dayanırlar.

Dördüncü qrupa daxil olan dövlətlərdə üçüncü bölmənin xüsusi çəkisi yüksəkdir. Kənd təsərrüfatı və sənaye isə təqribən bərabər səviyyədədirlər. **Üçüncü və dördüncü** qrupa aid edilən dövlətlər Qərbi Afrika dövlətləri hesab edilirlər. Burada da xidmət dairəsinin inkişafına baxmayaraq kənd təsərrüfatı iqtisadiyyatın sürətli inkişafına zəmin yarada bilmir.

Bəzi dövlətlərdə hər üç sahə təqribən bərabər səviyyədədirlər. **Bu da beşinci qrup** dövlətlər hesab edilirlər.

Mərkəzi Afrika dövlətləri üçün də I və III qrup təsərrüfatçılığı xasdır. Daha doğrusu sənaye ilə xidmət dairəsinin və bəzi ölkələrdə isə xidmət ilə kənd təsərrüfatının üstünlüyü mövcuddur. Onu da qeyd etməliyik ki, burada sənayenin üstünlüyünün də özünəməxsus xüsusiyyəti vardır. Belə ki, mineral xammalın çıxarılması prosesinə nisbətən onun emalı daha geri qalmaqdadır. Eləcə də sənaye infrastrukturu da zəif inkişaf etmişdir.

Belə ümumi mülahizələrdən başqa müəyyən xüsusi cəhətləri də qeyd etmək olar.

Kənd təsərrüfatı

«Ərzaq və kənd təsərrüfatı təşkilatı»nın məlumatına görə Afrikada 200 mln. hektar torpaq becərilir, 900 mln. hektar isə daimi otlaq kimi istifadə edilir. Becərilən torpaqların xüsusi çəkisi çox aşağıdır.

Afrika və xüsusilə tropik Afrika dünyanın ən aqrar ərazisi hesab edilir. 2000-ci ilin məlumatına görə bu bölmə təqribən 20 % təşkil edir. Həmin ərazinin aktiv əhalisinin 68 %-i kənd təsərrüfatı ilə məşğuldur. Bəzi ölkələrdə isə – Mozambik, Həbəşistan, Tanzaniya, Çad, Keniya, Qambiya, MAR və Qvineyada bu göstərici 80 %, Burundi, Malavi, Ruanda, Nigeriya, Burkina-Faso, Uqanda, Malidə 90 % təşkil etmişdir. Onu da qeyd etməliyik ki, rəsmi statistika bir qayda olaraq ÜDM-in hesablanmasında natural təsərrüfatı nəzərə almır. Hətta belə olduqda da 2000-di ildə kənd təsərrüfatının xüsusi çəkisi KDR-da 58 %, Həbəşistanda 55 %, Tanzaniyada 47 %, Burundidə 53 %, Malavidə 42 %, MAR-da 54 %, Syerra-Leonedə 50 %, Qvineya-Bisauda 54 %, Uqandada 44 % olmuşdur.

Kənd təsərrüfatı istehsalının artım sürəti çox aşağıdır – 80-ci illərdə 1,9 %, 2000-ci illərdə 1,5 % təşkil etmişdir. Bu isə əhalinin artım sürətindən xeyli aşağıdır. Ona görə də burada ərzaq çatışmazlığı problemi daha aydın gözə çarpır. BMT-nin məlumatına görə həmin ərazidə yaxın 15 ildə taxıl çatışmazlığı 50 mln. tondan artıq olacaqdır.

Afrikanın kənd təsərrüfatı patriarxal icma, feodal və xırda əmtəə təsərrüfatına əsaslanır. İstifadə edilən torpaq sahəsinin 90 %-ə qədəri əl alətləri ilə becərilir. Əkinçilik primitiv aqrotexniki metodlara əsaslanır. Demək olar ki, suvarılan sahə yoxdur. Hazırda becərilən torpaqların cəmisi 5 %-i irriqasiya sistemindən istifadə edir.

Beləliklə, kənd təsərrüfatı demək olar ki, təbiətdən asılı vəziyyətdə qalır.

Kimyəvi gübrələrdən çox zəif istifadə edilir. Bu isə məhsuldarlığın az olması ilə şərtlənir. Məsələn, son illərin məlumatına görə **Afrikada orta hesabla hər hektara 11 kq gübrə verildiyi halda, Latın Amerikasında bu göstərici 67 kq, Asiyada 129 kq olmuşdur**.

Əkinçiliyin bəzi sahələrində xarici mülkiyyət – xarici kapital mövcud olduğu üçün ixracat üçün məhsul istehsalı nəzərdə tutulur. Belə sahələrdə nisbətən az-çox inkişaf müşahidə olunur. Bunlar texniki lif, kauçuk, yun, dəri, pambıq, texniki yağlar, kopra və sairədən ibarətdir.

Emal sənayesi həddindən artıq geridə qaldığına görə bu məhsullar xammal kimi ixrac edilirlər. Az-çox **Zimbabve, Nigeriya, Keniya** və bəzi digər ölkələrdə yerli xammal toxuculuq və ayaqqabı sənayesində istifadə edilir.

Bunlardan əlavə kakao-paxlalılar, kofe, tropik meyvələr, bitki yağları, şəkər-xammal və digər bir çox məhsullar da ixrac bölməsinə daxildirlər.

Heyvandarlıq daha sərfəli olub kapital yığımı dairəsi hesab edilir. Aydındır ki, mal-qaranın sayı onun sahibinin varidatı sayılır. **Keniya, Zambiya, Botsvana, Tanzaniya, Nigeriya, Zimbabve, Kamerunda** heyvandarlıq əmtəəlik hesab edilir və məhsulun bir qismi ixrac edilir.

Sənaye

Afrika ölkələri müstəqillik əldə etdikdən sonra sənayenin inkişafı o qədər də nəzərə çarpmırdı. Nisbətən iri və orta müəssisələr az-çox dağmədən sənayesində yarana bilirdi. Onlar da xarici kapitala məxsus olduğu üçün, milli iqtisadiyyatın inkişafına o qədər də zəmin yarada bilmirdi.

Ümumi şəkildə bu regionun sənayesi aşağıdakı cəhətləri özündə əks etdirir:

- milli iqtisadiyyatın özündə sənaye müəssisələri arasında inteqrasiya proseslərinin zəif olması;
- istehsal həcminin az olması üzündən effektivliyin aşağı olması;

- regionda biri-birini tamamlaya bilən istehsal strukturlarının olmaması;
- istehsal xərclərinin tərkibində idxal olunan komponentlərin (elementlərin) çox olması;
- istehsal infrastrukturasının həddindən artıq geridə qalması;
- texnoloji gerilik və s.

Afrikada və eləcə də tropik Afrrikada faydalı qazıntıların çox olması hasilat sənayesinin böyük rol oynamasına üstünlük vermişdir. Bu isə onların dünya bazarında xammal üzrə ixtisaslaşdırılmasını genişləndirmişdir.

60-cı illərin əvvəllərinə bu regionda Zambiya, KDR və Zimbabve güclü mineral xammal istehsalçısı kimi məlum idilərsə, 70-ci ilin axırlarına onların sırasına daha 8 ölkə; Anqola, Qvineya, Liberiya, Mavritaniya, Niger, Nigeriya, Svazilend, Syerra-Leone qoşulmuşlar.

Bütünlükdə bu ərazi üzrə ÜDM-in 34 %-i (2000 il) sənayenin payına düşür. Bunun da yarısı hasilat sənayesinin hesabına formalaşır. Aydındır ki, bu sahədə ayrı-ayrı ölkələr arasında kəskin fərq vardır. Belə ki, həmin göstərici Nigeriya, Anqola, Botsvana və Qabonda 90 % təşkil etmiş, Toqo, Qana, Qvineya-Bisau, Mavritaniya, Namibiya, Qvineyada isə 50-85 %-ə bərabər olmuşdur.

Mineral ehtiyatlardan neft, təbii qaz, boksidlər, almaz, fosfatlar, çoxlu filiz növləri (dəmir, uran, marqans, xrom, mis, kobalt, qurğuşun, sink və s.) hasil edilir.

Emal sənayesinin xüsusi çəkisi (ÜDM-də) 1980-ci ildə 12 %, 2000-ci ildə isə 15 % olmuşdur. Bu dünya üzrə emal sənayesinin 1 %-ni təşkil edir. Bəzi ölkəlrdə isə bu göstərici yüksəkdir, belə ki, Zambiya və Zimbabvedə ÜDM-in 30 %-i, Mavrikiyada – 23 %-i emal sənayesinin payına düşür.

Lesoto, Malavi, Çad, Burkina-Faso, Keniya, Mavritaniya, Seneqal, Kamerun, Kot-d'İvuarda həmin göstərici 10-20 % arasındadır. **Bu regionda yüngül sənayenin** inkişafına daha çox üstünlük verilir.

Ağır sənaye sahələrindən kimya sənayesi aparıcı rola malikdir. Maşınqayırma müəssisələrinin əksəriyyəti (avtomobil, traktor, elektrotexnika məmulatları istehsalı və s.) texniki-təmir üzrə fəaliyyət göstərirlər. Eləcə də **Zimbabve, Zambiya və Nigeriyada** maşınqayırma müəssisələri də mövcuddur.

Bunlarla yanaşı Şimali Afrikada – **Misir, Mərakeş və Tunisdə** emal sənayesi xeyli inkişaf etdirilmişdir. **Əlcəzairdə** neft-qaz kompleksi, kimya sənayesi tərəqqi tapmışdır. Bu ölkələrdə dövlət bölməsinin xüsusi çəkisi artıqdır.

Xidmət dairəsi. Afrika ölkələrinin çoxunda xidmət dairəsi nisbətən dinamik inkişaf yolundadır. 2000-ci ilin məlumatına görə həmin sahənin xüsusi çəkisi 50 %-ə qədər olmuşdur.

ÜDM-in Seneqalda 59 %-i, Mozambikdə – 45 %-i, Madaqaskarda – 55 %-i, Mavrikiyada – 58 %-i, Qambiyada – 55 %-i xidmət bölməsinin payına düşür.

Nəqliyyat, ticarət, inşaat, maliyyə xidməti az-çox inkişaf tapmışdır.

Misir, Mərakeş, Tunis, Keniya, Qambiya, Seneqal, Mavrikiya, Seyşel adalarında turizm daha geniş yayılmışdır. Tunisdə turizmdən olan gəlir ÜDM-in 5 %-ni təşkil edir.

Bütünlükdə sosial sahə və sosial xidmət çox geridir.

4. Xarici iqtisadi əlaqələr

Hazırda demək olar ki, heç bir ölkəni dünyadan təcrid halında təsəvvür etmək olmaz. Bu mənada Afrika ərazisi də ən böyük ərazilərdən biri kimi dünya iqtisadiyyatına inteqrasiya olunur.

Lakin Afrika ölkələrinin xarici ticarəti dünya ticarətində o qədər də çox deyildir (dünya üzrə ixracın 2,5 %-ni, idxalın isə 3,8 %-ni təşkil edir). Buna baxmayaraq regionun özünün iqtisadi inkişafında xarici ticarətin böyük rolu vardır. Bəzi məhsul növləri üzrə isə dünya bazarı üçün böyük əhəmiyyət kəsb edir. Məsələn, İƏvəİT ölkələrinin kakao idxalının 70 %-i, sink idxalının 45 %-i, marqans filizinin – 33 %-i, tropik Afrikanın payına düşür (2000-ci illər).

Afrika dövlətlərinin ixracının əsası xammal şəklində həyata keçirilir. Burada da kənd təsərrüfatı və hasilat sənayesi məhsulları üstünlük təşkil edir.

Məsələn, Uqandada xarici ticarətin 95 %-i ancaq kofenin, Nigeriyada 94 %-i neftin, Zambiyada – 93 %-i misin, Əlcəzairdə 97 %-i enerji daşıyıcılarının hesabına formalaşır.

Bəzi ölkələr hətta dünya miqyasında müəyyən xammal növlərinin istehsalı və ixracı üzrə aparıcı rola malikdirlər.

Belə ki, **Kot-d'İvuar və Qana dünya üzrə** kakao və paxlalıların ixracında birinci-üçüncü yerləri tuturlar (müvafiq olaraq 30 və 14 % təşkil edirlər). Dünya üzrə boksidlər ixracının 40 %-i ancaq Qananın payına düşür.

Regionda cəmi ixracın 1960-cı ildə 92 %-i, 2000-ci illərdə isə 86 %-i xammallardan ibarət olmuşdur. Sənaye məhsullarında bu müvafiq olaraq 7 və 14 %-dir. Bütövlükdə inkişaf etməkdə olan ölkələr üzrə isə bu göstəricilər 60-cı ildəki 33 %-dən 2000-ci illərdə 66 %-ə çatmışdır. Bu göstəricilərdən də aydın görünür ki, Afrika ərazisi üçüncü dünya ölkələri içərisində də geridə qalmaları ilə fərqlənirlər.

Sənaye məhsulları iracındakı üstünlüyə görə **Mavrikiya** daha çox fərqlənir. Burada ümumi ixracda sənayenin payı 1970-ci ildəki 1,8 %-dən artaraq 2000-ci ildə 68 % olmuşdur. Bu sahədə Kot-d'İvuar, Mali, Qana, Madaqaskar, Tanzaniya müəyyən nailiyyətlər əldə etmişlər. Bununla yanaşı 30-dan artıq ölkə emal olunmamış xammal ixrac edirlər.

Yerli istehsalın xarici təxribatdan qorunması üzündən eyni növ əmtəə ixracı daha da artır. Belə ki, 60-cı illərdə 6 növ əmtəə (kakao, kofe, pambıq, şəkər, çay, tütün) cəmi kənd təsərrüfatı üzrə olan ixracın 55 %-ni təşkil etdiyi halda 70-ci illərdə bu göstərici 66 %, 2000-ci illərdə 70 % olmuşdur.

Hazırda da 40-dan artıq ölkə ixracdan olan gəlirin 50 %-dən çoxunu bir-iki məhsul hesabına əldə edirlər. Bu isə həmin ölkələr üçün ciddi çətinliklər yaradır.

Əvvəla ixrac edilən xammalların, xüsusilə kənd təsərrüfatı məhsullarının qiymətləri uzun müddət aşağı səviyyədə olur.

İkincisi isə qiymətlər müəyyən dəyişkənliyə uğrayırlar. Bu isə ÜDM-in daha çox hissəsini ixracdan formalaşdıran ölkələrdə iqtisadiyyatın sabitliyini pozur.

Afrika ölkələri xarici ticarəti əsasən Aİ, ABŞ və Yaponiya ilə aparırlar. 2000-ci illərdə həmin ölkələrin payı ixracda və eləcə də idxalda 70 % təşkil etmişdir. Asiya regionunun xüsusi çəkisi ixracda 7 %, idxalda isə 9,5 % olmuşdur.

Ümumiyyətlə Afrikanın və xüsusilə tropik Afrikanın xarici ticarətinin həcmi son on illiklərdə azalmışdır. Tropik Afrikanın kakao-paxlalılar üzrə dünya bazarındakı xüsusi çəkisi 1970-ci ildəki 80,3 %-dən 2000-ci illərdə 67,2 %-ə; kofe üzrə 26 %-dən 15 %-ə; pambıq üzrə 30 %-dən 16 %-ə; ağac (mebel və s.) üzrə 13,4 %-dən 7,2 %-ə; dəmir filizi üzrə 12,5 %-dən 2,5 %-dək azalmışdır.

Bütünlükdə region üzrə əmtəə və xidmətlərin ixracı ÜDM-in təqribən 20-25 %-nə (2000) bərabərdir (1980-ci ildə 31 % olmuşdur).

İxracdan olan gəlirin 60 %-ə qədəri neft və neft məhsullarının payına düşür. Qeyd etdiyimiz kimi kofe, kakao, paxlalılar, pambıq, ədviyyat, tropik meyvələrdən hazırlanmış içkilər, yağ, piy və digər bir çox məhsullar ixrac edilirlər.

«Ticarət və Tarif Dərəcəsi üzrə Baş Razılaşma»nın tələblərinə uyğun olaraq ticarətin liberallaşdırılması və tarif dərəcələrinin dəyişdirilməsi Afrikanın iqtisadiyyatına güclü zərər vurmuş olur. Tarif dərəcələrində müəyyən yerdəyişmələr tətbiq edilir. Belə ki, Afrikadan alınan xammalın emalı bahalandıqca, onların idxal məhsullarının qiymətləri də artır. Məsələn, bu ölkələrdən Yaponiyaya kakao-paxlalılar tarif tətbiq edilmədən gətirilir. Lakin həmin ölkələrə şokolad gətirilməsində rüsumlar 12,5 %-ə bərabərdir. ABŞ-a gətirilən təzə tropik meyvələr üçün rüsum 8,7 % olduğu halda, həmin ölkələrə gətirilən meyvə şirələri üçün rüsum 46,7 %-dir.

Bir çox hallarda bu regionun iqtisadiyyatı inkişaf etmiş sənaye ölkələrinin konyukturasından da çox asılıdır. 70-ci illərdə əlverişli konyukturanın olması regiona xaricdən olan

gəlirin artmasına, sosial-iqtisadi inkişafa zəmin yaradırdı. 80-ci illərdə isə sosial-siyasi vəziyyət pisləşmişdir.

Hazırda regionun qarşısında daha ciddi problemlər dayanır. Daxili ehtiyatların səfərbər edilməsi, investisiya şəraitinin yaxşılaşdırılması, xüsusi sahibkarlığın inkişafına köməklik göstərilməsi, xarici kapitalın cəlb edilməsi ön plana çəkilmişdir. Bu regionda BVF-un və Dünya Bankının sabitləşmə və quruluş dəyişikliyinə dair proqramı əsasında 80-ci illərdən islahatlar həyata keçirilir. İqtisadiyyata dövlətin qarışması azaldılmış, milli iqtisadiyyatda bazar tənzimlənməsi genişlənmişdir. Bununla yanaşı nisbətən zəif inkişaf etmiş ölkələrdə isə dövlət tənzimlənməsinin məhdudlaşdırılması o qədər də fayda vermir.

Son dövrlərdə – 1995-2000-ci illərdə bəzi metal və mineralların qiymətləri artdığına görə istehsalın inkişafına stimul da artmışdır.

İxracı nəzərdə tutan qeyri-ənənəvi yeni sahələr də yaranmışdır. Belə ki, **Keniya və Malavi ixrac üçün** gül becərirlər, **Madaqaskar və Mavrikiya** ixrac zonasında sənaye məhsulları istehsal edirlər, **Botsvanada** avtomobil yığılması həyata keçirilir. **CAR-da siyasi sistemdə** mülayimlik yaranması ilə yaxın ölkələrin CAR ilə əlaqələri genişlənmişdir. CAR sənayenin inkişafı üçün Anqola, Botsvana, Lesoto, Mozambik, Namibiyaya investisiya qoyur. Qonşu ölkələr öz ixrac sənayesində CAR-ın bazarını nəzərdə tuturlar və beləliklə regional inteqrasiya əlaqələri yaradırlar. Birgə fəaliyyət əsasında regionda infrastruktura inkişaf etdirilir.

CAR-ın Durban və Keyptaun limanları çox yükləndiyinə görə Mozambikdə Maputu və Beyra yeni limanları yaradılmışdır. Bu limanlar həmin region üzrə olan yük daşımaların böyük bir hissəsini öz üzərinə götürmüşdür. Cənubi Afrika ölkələri arasında gömrük və ticarət ittifaqları yaradılır.

5. Demoqrafiya problemi

Afrikanın sosial-iqtisadi inkişafı bir çox hallarda mürəkkəb demoqrafiya vəziyyəti ilə də müəyyən edilir.

1960-cı ildə həmin regionda olan əhalinin sayı 275 mln. nəfər olduğu halda, 1980-ci ildə onların sayı 475 mln. nəfər, 2000-ci ildə 750 mln. nəfər təşkil etmişdir. Artım sürətinin hazırki səviyyəsi ilə 2025-ci ildə əhalinin sayı 1,5 mlrd. nəfərdən artıq olacaqdır. Onu da nəzərə almaq lazımdır ki, bu regionda dünya üzrə ən yüksək artım sürəti mövcuddur (1980-1994-cü illərdə orta illik artım 3 % olmuş, 1995-2015-ci illərdə isə 2,3-2,7 % olması qeyd edilir). Orta hesabla hər qadının 6 uşağı (Şimali Afrikada – 4, Latın Amerikasında -3) vardır.

Odur ki, qanunauyğun olaraq bu barədə zəruri tədbirlərin görülməsi lazım gəlir. Artıq 90-cı illərin ortalarından 30-dan artıq ölkədə doğumun tənzim edilməsi barədə proqramlar qəbul edilmişdir. 12 ölkə bu proqramı daha yaxın vaxtlarda həyata keçirməyi planlaşdırırlar.

Həmin regionda insandan ibarət kapitala daha az investisiya sərf edilir. Ona görə də qanunauyğun olaraq işçi qüvvəsinin keyfiyyəti də aşağıdır.

Yaşlı əhali içərisində savadsızlar 60-70 % təşkil edir. Ancaq Botsvana, Qabon, Mavrikiya, Seyşel adaları, CAR və s. insanın inkişafı üzrə orta səviyyəli hesab edilirlər. Bu sahədə inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq üçün Mozambik, Nigeriya kimi ölkəyə azı 200 il lazım gələcəkdir.

Hazırda Afrikada urbanizasiya (şəhərlərə axın) prosesi geniş vüsət almışdır. Əgər 1960-cı illərdə Afrikada 1 mln. nəfər əhalisi olan 1-2 şəhər vardısa, hazırda belə şəhərlərin sayı 30-a qədərdir. 2000-ci ilin məlumatına görə əhalinin 31 %-i şəhərlərdə yaşayır. 20 yaşa qədər olan cavanların hamısı şəhərlərə getməyə can atır. Bu isə şəhərlərdə işsizliyin artmasına səbəb olur.

Afrika ölkələrində daxili və xarici miqrasiya da geniş yayılmışdır. Bu regiondan xüsusilə Əlcazair, Mərakeş və Misirdən Qərbi Avropaya çoxlu işçi qüvvəsi gedir. 70-ci illərin əvvələrindən Afrikadan (yeni varlı mərkəz sayılan) Fars körfəzi ölkələrinə işçi qüvvəsi axını çoxalmışdır. 2000-ci illərdə Qərbi Asiyanın bu hissəsində fəhlələrin 70 %-ni kənardan gələnlər təşkil etmişdir.

Bütün qeyd etdiklərimizlə yanaşı göstərməliyik ki, Afrikanın sosial-iqtisadi inkişafına əks təsir edən bir çox cəhətlər hələ də qalmaqdadır:

- cəmiyyətdə sosial bərabərsizlik;
- əhalinin çox hissəsinin gəlirlərinin az olması;
- vətəndaş müharibələri;
- siyasi böhranlar və s.

Onu qeyd etmək kifayətdir ki, xarici və daxili mühacirlərin çoxu son on illiklərdə bir çox münaqişələrin səbəbkarı olmuşlar. Bu münaqişələrin çoxu irqi zəmində baş verir. Son vaxtlar 30-dan çox silahlı toqquşma olmuş və 10 milyon nəfərdən çox adam ölmüşdür. Bu hadisələrin nəticəsi olaraq yenidən 20 milyon nəfərdən çox adam mühacirliyə məruz qalmışlar.

XXXII FƏSİL
ÇİNİN İQTİSADİYYATI

1. Çinin sosial-iqtisadi inkişaf modelinin ümumi xarakteristikası.
2. Çinin iqtisadiyyatının sahəvi quruluşu.
3. Çinin dünya iqtisadi əlaqələri.

1. Çinin sosial-iqtisadi inkişaf modelinin ümumi xarakteristikası

Çin dünyanın ən böyük və qədim ölkələrindən biridir. Çin qədim sivilizasiyanın beşiyindən biri hesab olur. Onun tarixi 4500 il hesab edilir. O, Mərkəzi və Şərqi Asiyada yerləşir. Sahəsi 9,6 mln. kv. km, əhalisi 1315,8 mln. nəfərdir.

Əslində "Böyük Çin" üç hissədən ibarətdir: ÇXR, Honkonq və Tayvan. Bu fəsildə ÇXR-ın iqtisadiyyatı şərh edilir (1982-ci ilin Konstitusiyasına əsasən Çin Xalq Respublikası - sosialist dövləti olub, demokratik xalq diktaturasına və fəhlələrlə kəndlilərin ittifaqı zəminində fəhlə sinfinin rəhbərliyinə əsaslanır). Dünya əhalisinin 21 %-i Çində yaşayır. Paytaxtı Pekindir (17,0 mln. nəfər).

Dünya bankının məlumatına əsasən 2005-ci ildə ÜDM-in həcmi 2234,1 mlrd. dollara bərabər olmuşdur (4-cü yeri tutur). Hər nəfərə düşən məhsul isə 1698 dollar təşkil edir. Bu göstəriciyə görə Çin az inkişaf etmiş ölkələr sırasındadır. Lakin Çinin iqtisadi inkişafına görə ayrı-ayrı əraziləri biri-birindən kəskin fərqlənir. Müəyyən rayonlarında kasıbçılıq mövcud olduğu halda, başqa rayonlarda əhalinin gəlirləri yüksəkdir. Son 20 ildə Çin daha sabit və yüksək inkişaf sürəti ilə xarakterizə edilir. Belə ki, 1990-cı ildən 2000-ci ilədək ÜDM-in orta illik artımı 10 %-ə bərabər olmuşdur. Belə bir artımın əsasını əmək ehtiyatları, təbii ehtiyatlar, yüksək yığım və investisiya normasının artıq olması təşkil edir. ÜDM-də investisiyanın xüsusi çəkisi 30-33 %-ə bərabərdir ki, bu da ABŞ-dan 2 dəfə artıqdır.

Çinin iqtisadi artımına milli iqtisadiyyatın açıqlığı da güclü təsir edir.

2000-ci ilədək istehsal və xidmətin həcminin 4 dəfə artırılması barədəki 1980-ci ildə qəbul edilmiş qərar vaxtından əvvəl (1995-ci ildə) yerinə yetirilmişdir. 1978-1997-ci (20 ildə) illərdə ÜDM-in həcmi 5,7 dəfə, hər nəfərə düşən məhsulun həcmi 4,4 dəfə artmışdır.

Kömür, toxuculuq sənayesi, soyuducu, maşınlar, velosiped və bu kimi məhsulların istehsalı üzrə **Çin dünyada birinci, elektrik enerjisi istehsalına görə isə ikinci yeri tutur. 26 növ məhsul istehsalına görə Çin dünyanın 10 ən böyük istehsalçısı ölkəsi sırasına daxildir.** Ənənəvi istehsal ilə yanaşı elektron sənayesi, aerokosmik, avtomaşınqayırma və s. kimi sahələr də sürətlə inkişaf etdirilir.

2003-cü ildə 1325 mlrd. kvt.s. elektrik enerjisi; 107,6 mln. ton polad; 165 mln.ton neft; 1600 mln. ton kömür; 492 mln. ton taxıl istehsal edilmişdir. Çin hələ qədim vaxtlardan elm və texnikanın inkişaf səviyyəsinə görə ən qabaqcıl ölkələrdən biri idi. Bir çox ilk kəşflərin vətənidir.

Kompas kəşfi *(y.e.ə I əsr)*
Kağız *(y.e.I əsr)*
Dəmir istehsalı *(IV əsr)*
Kağız pullar *(X əsr)*

1800-cü ildə dünya sənayesi məhsulunun 33 %-i Çinin, 28 %-i Avropanın, 0,8 %-i ABŞ-ın payına düşürdü. 1900-cü ildə Çinin xüsusi çəkisi 6,2 %, Avropanınki 62 %, ABŞ-ın payı isə 23,6 % təşkil etmişdir.

2005-ci ildə dünya üzrə ÜDM-in 5,0 %-i Çinin payına düşür.

İqtisadi siyəsətin əsas istiqamətləri

1970-ci illərdə Çinin iqtisadi inkişafında islahatlar keçirilməsi və açıq iqtisadiyyatın inkişafı siyəsəti götürülmüşdür. 1978-ci ildə ölkənin iqtisadiyyatının modernləşdirilməsi barədə qərar qəbul edilmişdir. Bu qərarda Çinin varlı, demokratik bir sosialist dövlətinə çevrilməsi yolları araşdırılmışdır. Burada təsərrüfatçılığın hər iki forması olan - planlaşdırılmış bölgü və bazar iqtisadiyyatının elementlərindən qarşılıqlı istifadə olunması, mərkəzləşdirilmiş bölkünün ixtisar edilməsi, dövlət bölməsinin xüsusi çəkisinin azaldılması, digər mülkiyyət formalarının artırılması, tənzim olunan dövlət qiymətlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu kimi dəyişikliklər uzun müddətə nəzərdə tutulmuşdur. 1997-ci ildə Çin Kommunist Partiyasının XV qurultayında da göstərilmişdir ki, **20-30 ilə bir çox çətinliklərin aradan qaldırılması ilə Çində sosialist bazar iqtisadiyyatı** yaratmaq mümkün olacaqdır.

Tam qətiyyətlə qeyd etmək olar ki, sosialist sisteminə daxil olan bütün ölkələrin, o cümlədən Azərbaycanın da ən düzgün iqtisadi inkişaf yolu Çin modeli ola bilərdi.

İlk əvvəllər – yəni 1970-ci illərin axırında Çin iqtisadiyyatında həyata keçirilən islahatlarda **"planlı iqtisadiyyat əsas, bazar tənzimlənməsi isə köməkçi, ikinci dərəcəli" siyasəti əsas götürülmüşdü. Bu siyasətdə planlı idarəçilik təkmilləşdirilir, qiymətlər sərbəst buraxılır, müqavilə qiymətləri tətbiq olunur, fərdi bölmənin inkişafına zəmin yaradılırdı.** Bununla yanaşı müştərək müəssisələrə nəzərət edilir, plandan artıq məhsulun satılmasında dövlət müəssisələrinə icazə verilir, ailə icarədarlığı həyata keçirilirdi.

1984-1990-cı illərdə bu kimi təsərrüfatçılığı sosialist əmtəə təsərrüfatı sistemi modeli kimi əsaslandırmışlar. Rəsmi sənədlərdə planlı təsərrüfatçılıqla əmtəə təsərrüfatını biri-birinə qarşı qoymamaq barədə müddəalar əsas götürülmüşdür.

Bir neçə mərhələdə qiymət islahatı keçirilmişdir. Mərkəzləşdirilmiş dövlət qiymətləri azaldılmışdır. Kənd təsərrüfatı məhsullarının qiymətləri aşağı salınmış, istehsal vasitələrinin qiymətləri isə artırılmışdır. Qiymətlərin müəyyən edilməsi tədricən mərkəzi orqanlardan yerli orqanlara keçirilmişdir.

Sonrakı mərhələdə investisiya sistemində, vergiqoymada, kredit sistemində, xarici ticarət, xarici kapital qoyuluşu sahələrində islahatlar aparılmışdır. 1990-cı illərin əvvəlinə islahatın bazar istiqaməti daha da genişlənmiş, **"Sosialist bazar iqtisadiyyatı" anlayışı bir model kimi özünü göstərmiş və formalaşmışdır.**

Elə həmin vaxtdan da ictimai mülkiyyət ancaq dövlət mülkiyyətini deyil, kollektiv və qarışıq mülkiyyət formalarını da əhatə edir.

Hazırda dövlət müəssisələrində islahat aparılması əsas problemlərdən biri hesab olur. Son vaxtlaradək dövlət müəssisələrində islahat aparılması təsərrüfatçılıqda həmin müəssisələrin hüququnun nisbətən artırılmasına yönəldilirdi, dövlət mülkiyyəti isə qalırdı.

Təsərrüfatçılığın əsas forması - götürə-iş formasıdır. Səhmdar forma da sahibkar-təsərrüfatçılıq forması kimi istifadə edilir. Yeni texnologiyaya əsaslanan müdafiə (hərbi) sənayesi, nadir metallar və s. kimi dövlət inhisarı olan sahələrdə səhmdar cəmiyyətlərinin yaranmasına icazə verilmir. Səhmdarlığın subyekti kimi dövlət, hüquqi və fiziki şəxslər, xarici tərəfdaşlar çıxış edirlər. Lakin bütün hallarda dövlət mənafeinə üstünlük verilir.

1996-cı ilin axırlarına Çində iri və orta dövlət müəssisələrinin 18 %-i səhmdarlıq sisteminə keçmişdir.

Bir çox səhmdar cəmiyyətləri və qarışıq müəssisələrində dövlət payçı kimi iştirak edir.

Ümumiyyətlə, Çində aşağıdakı əsas təsərüfatçılıq formaları fəaliyyət göstərir: **fərdi təsərrüfatçılıq.**

Bu, götürə və icarə formasında ictimai mülkiyyətin istifadəsi və eləcə də istehsal vasitələri üzərində şəxsi mülkiyyət əsasında həyata keçirilir. Burada fərdi sahibkarın özünün və ailəsinin əməyi istifadə edilir.

Çinin müvafiq qanunlarına əsasən 8 nəfərdən artıq muzdlu işçisi olan müəssisələr xüsusi müəssisə adlanır -hesab olur. Beləliklə xüsusi bölmə fərdi təsərüfatçılıq əsasında yaranmışdır.

Kollektiv bölmə daha çox müstəqil təsərrüfatçılıq forması almışdır. Hazırda təsərrüfatçılığın bu forması demək olar ki, bütün kənd yerlərini və şəhərlərin bir qismini əhatə edir. Ailə götürəçiliyi geniş yayılıbdır.

Ayrı-ayrı bölmələrin mövqeyinə gəldikdə göstərmək lazımdır ki, dövlət bölməsinin xüsusi çəkisi uzun müddət üstün olmuşdur. Lakin son illər bu üstünlük nisbətən azalmışdır.

Məsələn, 1974-cü ildə dövlət bölməsinin sənaye müəssisələri cəmi müəssisələrin 24 %-ni təşkil etdiyi halda, 1994-cü ildə 18,3 %-nə bərabər olmuşdur.

1990-cı ildə sənaye məhsulunun 55 %-i, 1996-cı ildə isə 40 %-i dövlət bölməsinin payına düşmüşdür.

Kollektiv bölmə cəmi sənaye məhsulunun 1979-cu ildə 19 %-ni, 1996-cı ildə isə 39,2 %-ni istehsal etmişdir.

Xüsusi bölmə isə 1996-cı ildə sənaye məhsulunun 10 %-ni istehsal etmişdir. Gələcəkdə həmin xüsusi bölmənin tək sənayedə deyil, digər sahələr də daxil olmaqla ÜDM-in 30 %-nə çatdırılması planlaşdırılmışdır. Büdcə gəlirlərinin 66 %-i, ixracın isə 60 %-i qeyri-dövlət bölməsinin payına düşür.

2. Xalq təsərüfatının sahəvi quruluşu

İslahatda əsas problemlərdən biri çoxukladlı iqtisadiyyatın bərpa edilməsindən ibarət olmuşdur.

Odur ki, iqtisadi siyasətin əsas istiqamətlərindən biri xalq təsərrüfatında optimal balanslaşdırma yaratmaqdan ibarətdir. 1970-ci illərin axırlarına Çinin iqtisadiyyatında ÜDM-in 33,7 %-i kənd təsərrüfatının, 46, 3 %-i sənaye və tikintinin, 20 %-i isə üçüncü sahə adlanan xidmətin payına düşürdü (sənayecə inkişaf etmiş ölkələrdə belə sahəvi quruluş XIX əsrin sonu - XX əsrin əvvəllərinə təsadüf edilirdi).

80-ci illərin əvvəllərinə iqtisadiyyatın sahəvi quruluşuna dair yeni, uzun müddətli siyasət hazırlanmışdır. Burada aşağıdakı vəzifələr nəzərdə tutulurdu:

- sənaye ilə kənd təsərrüfatının inkişafını balanslaşdırmaq;
- yünkül sənayenin inkişafını sürətləndirmək və ağır sənayenin istiqamətini əhali üçün istehlak malları istehsalına yönəltmək;
- ağır sənaye daxilində olan mütənasibsizliyi aradan qaldırmaq (dağmədən sənayesi ilə xammal və emal kompleksləri arasındakı mütənasibsizlik nəzərdə tutulur), enerji və nəqliyyat problemini həll etmək;

- iqtisadiyyatın intensivləşdirilməsi məqsədi ilə daha mütərəqqi istehsal sahələrinin inkişafına stimul yaratmaq və onun texniki səviyyəsini artırmaq.

Nəticədə xarici kapitala olan münasibət kökündən dəyişmişdir. 1982-ci ilə Çində - 6 "xüsusi zona" mövcud idi. Müəssisələr tikilməsində, kapital axınında, işçi qüvvəsindən istifadədə xarici kapitala güzəştlər edilirdi. Çin ABŞ, Yaponiya, Almaniya ilə əməkdaşlığa daha çox üstünlük verir. İqtisadiyyatın inkişafının bazar istiqaməti genişlənir.

Altı ildə (1979-1984) illik taxıl istehsalı 300 mln. tondan 400 mln. tona çatmışdır. Əmtəəlik taxıl 1978-ci ildəki 20 %-dən 1984-cü ildə 30 %-ə bərabər olmuşdur. Bütünlükdə kənd təsərrüfatının əmtəəlik səviyyəsi 1978-ci ildəki 33 %-dən 1984-cü ildə 53,3 %-ə çatmışdır.

Sənayedə yügül sənayenin rolu xeyli artmışdır. 1983-1993-cü illərdə sənaye məhsulunun ümumi artımının 37-39 %-i yünkül sənaye hesabına olmuşdur.

2005-ci ilə Çinin iqtisadiyyatının sahəvi quruluşunda: kənd təsərrüfatı, meşəçilik və balıqçılıq – 14 %, sənaye – 53 %, xidmət sahəsi isə 33 % təşkil edir. Kənd təsərrüfatının xüsusi çəkisinin nisbətən aşağı olmasına baxmayaraq işçilərin 70 %-ə qədəri (2000) həmin sahədə cəmləşdirilibdir. Bu isə kənd təsərrüfatında əl əməyinin üstün olmasını göstərir. Lakin islahatlardan sonra, açıq iqtisadiyyat siyasətinin təsiri ilə bu xüsusi çəki 47 %-ə enmişdir (2005). Eyni zamanda sənayedə işləyənlər – 25 %, xidmət sahəsində işləyənlər isə 28 % olmuşdur.

Çin iqtisadiyyatı üçün enerji və nəqliyyatın zəifliyi xarakterik haldır. Elektrik enerjisinin çatışmaması üzündən 90-cı illərin əvvəllərinə bütün istehsal güclərinin 20 %-i boş keçmə halları ilə müşahidə edilmişdir. Bu vəziyyətdən çıxmaq üçün 1989-1993-cü illərdə dövlət tərəfindən olan kapital qoyuluşunun 45,3 %-i istilik enerji kompleksinin və nəqliyyatın inkişafına yönəldilmişdir.

Hasilat sənayesinin inkişafında Çin zəngin mineral-xammal ehtiyatlarına malik olması ilə fərqlənir. Kömür ehtiyatına görə dünya üzrə olan yataqların 30 %-nə malikdir. Çox zəngin

volfram, qalay, sürmə, sink, molibden, qurğuşun, civə, boksidlər ehtiyatına malikdir.

Eyni zamanda Çin 2000-ci ilə enerji bazasının inkişafı barədə proqram qəbul etmişdir. Bu proqramın yerinə yetirilməsi atom enerjisinin və kontinental şelfdə neft yataqlarının inkişafına əsaslanır. Bununla yanaşı qeyd etmək lazımdır ki, bu sahə daha çox kapitaltutumludur. Ona görə də neft yataqlarının mənimsənilməsi üçün iri TMŞ-lər cəlb edilmişdir.

Neft yataqlarının mənimsənilməsində xarici kompaniyaların marağının artması onunla izah edilir ki, həmin şelfdə neft ehtiyatı çoxdur (15-20 mlrd. tondur). Hazırda neft çıxarılmasına görə Çin dünyada 7-ci yeri tutur - 169 mln. ton (2003). Bununla yanaşı ildə 70 mln. ton neft idxal edir.

İstilik enerji balansında neft, təbii qaz, hidroenerjinin xüsusi çəkisi daha artıqdır.

Emal sənayesi sahələrində geniş islahatlar aparılmışdır. Metallurgiya, neftemalı, maşınqayırma, elektronika, nəqliyyat və energetika avadanlıqlarının inkişafı sürətlənmişdir. Cəmi sənaye məhsulunun 27 %-i maşınqayırmanın payına düşür. Burada – radioenergetika, saat sənayesi, uzun müddət işlənən istehlak şeyləri, avtomaşınqayırma daha üstün mövqeyə malikdirlər.

Çinin maşınqayırma sənayesi çox geniş növdə məhsullar buraxır. Həmin sahə elektrogeneratora olan tələbatın 80 %-ni, daxili mühərriklərə olan tələbatın 90 %-ni ödəyir.

Lakin qeyd etmək lazımdır ki, maşınqayırma məhsulunun cəmisi 10 %-i dünya standartlarına uyğun gəlir (keçmiş 10 illikdə isə bu göstərici yox idi). 50 min sənaye məhsulu növünün 70 %-i 50-60-cı illərin tələbatı səviyyəsinə uyğun idi.

Çin televizor, kimyəvi gübrələr, pambıq parça istehsalına görə dünyada birinci yeri tutur. Gəmi və sintetik parçalara görə isə üçüncü yeri tutur.

Polad əridilməsinə görə Çin çox qədim ənənəyə malikdir. 2002-ci ildə 126 mln. ton polad əridilmişdir. Bu dünya istehsalının 16 %-nə bərabərdir.

Çin əlvan metallar istehsalına görə ABŞ-dan sonra ikinci yeri tutur- dünya istehsalının 9 %-i. 10 növ əsas əlvan metallar üzrə ortaillik artım – 15 % təşkil edir.

Çin volfram ixracına görə də qabaqcıl mövqeyə malikdir.

İstehsalın həcminə görə ikinci yeri toxuculuq sənayesi tutur (sənaye məhsulunun 15,5 %-ni təşkil edir). İldə 19,3 mlrd. metr parça istehsal edilmişdir.

Çin sənayesində ən dinamik sahələrdən biri elektron sənayesidir. 80-ci illərin əvvəllərinə bu sahə çox geridə qalmışdır, ancaq hərbi sahəyə xidmət edirdi. 1993-cü ildə elektron sənayesi məmulatları 1962-ci ilə nisbətən 7,8 dəfə artmışdır.

Çin çox geniş çeşiddə elektronika məhsulları istehsal edir. İdarəetmə cihazları, təyyarə üçün elektron avadanlığı, təyyarələr, rabitə avadanlıqları, EHM, kiçik kompüterlər, hesablama maşınları, informasiya vasitələri mərkəzləri və s. buna misal çəkmək olar.

Kimya. Çində kimya sənayesi də sürətlə inkişaf etdirilir. Onun xüsusi çəkisi ümumi sənaye istehsalında 11,5 %-ə bərabərdir.

Kənd təsərrüfatı. Sənayenin yüksək inkişafına nail olmaq əsaslı dərəcədə kənd təsərrüfatı problemlərindən asılıdır. Hazırda Çinin aqrar bölməsində intensiv inkişaf xəttinə üstünlük verilir. Taxıl sahələri nisbətən azaldılır, texniki bitkilərin sahəsi artırılır, torpaqdan və texnikadan istifadə şəraitinin səmərəliliyi yüksəlir.

Düyü, soya, taxıl, pambıq istehsalına görə Çin dünyada birinci yeri tutur. İldə orta hesabla 450 mln. ton taxıl, o cümlədən 189 mln. ton düyü, 100-102 mln. ton buğda, 114 mln. ton yemlik taxıl, 105 mln. ton qarğıdalı istehsal edilir. Kənd təsərrüfatında bitgiçilik 47 %, heyvandarlıq 17,4 %, yardımçı təsərrüfatlar 29,8 %, balıq təsərrüfatı 3,1 %, meşə təsərrüfatı 2,5 % təşkil edir.

Heyvandarlıqda – iribuynuzlu mal-qara, qoyunçuluq, dovşan yetişdirilməsi, donuzçuluq, quşçuluq üstünlük təşkil edir. Balıq vətəgələrinin həcminə görə Yaponiya və Rusiyadan sonra 3-cü yeri tutur.

Cədvəl

Bəzi məhsulların istehsalında Çinin dünya üzrə tutduğu yer

Məhsulun növü	Yeri	Məhsulun növü	Yeri
Kömür	1	Meyvələr	1
Dəmir filizi	1	Tərəvəz	1
Çuğun	1	Yağlı bitkilər dənəsi	1
Polad	1	Ət	1
Volfram	1	Yumurta	1
Sink	1	Balıq və dəniz məhsullar	1
Qalay	1	Papirus	1
Mineral gübrə	1	Pambıq	1
Sement	1	Qurğuşun	2
Radioqəbuledici	1	Maqnit	2
Televizorlar	1	Molibden	2
Paltaryuyan maşınlar	1	Eletkroenerji	2
Velosipedlər	1	Soyuducular	2
Ayaqqabı	1	Kimyəvi lif	2
Taxıl	1	Qarğıdalı	2
Kartof	1	Çay	2
Yer fındığı	1	Xam yun	2

Bir çox digər sahələrdə də Çin qabaqcıl yerlərdən birini tutur. Belə ki, məsələn, dəmir yolunun yük dövriyyəsinə görə Çin ABŞ-dan sonra ikinci, qızıl valyuta ehtiyatına görə Yaponiyadan sonra ikinci yeri tutur. Sənaye məhsulunun ümumi həcminə görə ancaq ABŞ-dan geri qalır.

Nəqliyyatın bütün növlərindən geniş istifadə edilir. Lakin o qədər də müasirləşdirilməmişdirlər. 2005-ci ilə cəmi dəmir yolu 71,5 min km, avtomobil yolları 1,76 mln. km (bundan -26,2 min km-ri sürətli yoldur), gəmilərin dövr etməsi üçün çay xətləri – 110 min km, neft boru kəmərləri – 12,4 min km, qaz kəmərləri – 10,8 min km-dir.

2002-ci ildə «Qərb-Şərq» qaz kəmərinin çəkilişi başlanmışdır. Bu layihə «Petro Çayna», OAO «Qazprom», «Ekson Mobil» və «Şell» beynəlxalq konsorsiumlarının iştirakı ilə həyata keçirilir.

Elmin inkişafı ETTKİ-nə olan xərclərin maliyyələşdirmələrin ardıcıl artırılması ilə səciyyələnir. Bu sahəyə ayrılan xərclər hər il orta hesabla 18 % artırılmışdır.

Çin atom energetikası, səhiyyə, kosmosun tədqiqi, rabitə vasitələri, yüksək enerji, kənd təsərrüfatı və digər sahələrin inkişafında əsaslı dəyişikliklər yaratmışdır. Çin ETTKİ-nə ayrılan vəsaitin həcminə görə (0,7 %) 20-ci yeri tutur. Lakin həmin sahədə çalışan mütəxəssislərin sayına **görə ilk beş ölkə sırasındadır**. 2010-cu ilə ÜDM-də elmtutumlu məhsulun 1,5 %-ə çatdırılmasını planlaşdırmışdır.

Başqa sənaye ölkələrində olduğu kimi burada da ETTKİ-in maliyyələşdirilməsində qeyri-dövlət qurumlarının roluna üstünlük verilir.

Sosial sahədə – hələ 90-cı illərdən bazar iqtisadiyyatı ölkələrinə xas olan bir çox cəhətlər – əmlak və sosial baxımdan təbəqələşmə, aşağı gəlirin olması, sosial təminat, şəhər və kənd əhalisinin gəlirləri arasında kəskin fərqin olması özünü göstərir. Gəlirlərin arasındakı qeyri-bərabərlik – Cini əmsalı 40 %-dir.

Qeydə alınan işsizlərin sayı 25 mln. nəfərdir (real gerçəklikdə isə işsizlərin sayı çoxdur). Kənd yerlərində isə artıq işçilərin sayı 100-110 mln. nəfər təşkil edir.

Son illər sığorta işində hərtərəfli islahat aparılır, pensiya fondları yaradılır. Ən kasıb təbəqəyə sosial yardım verilir.

3. Çinin dünya iqtisadi əlaqələri

Çinin islahat siyasətində **"açıq" xarici iqtisadi siyasət** ölkənin iqtisadi inkişafının əsas cəhəti kimi ön planda nəzərdə tutulmuşdur. Xarici iqtisadi əlaqələrdə açıq siyasətə keçirilməsi **"öz gücünün hesabına"** konsepsiyasında düzəlişlər aparılmasını tələb edir. Xarici texnika, texnologiya, idarəçilik təcrübəsi və xarici maliyyə vəsaitindən istifadə etmək üçün ancaq "açıq" siyasət yeridilməlidir.

Bütün bunlar xarici ticarətin artırılması, ölkəyə sahibkar və borc kapitalının cəlb edilməsi, xüsusi iqtisadi zonalar və texniki-iqtisadi inkişaf rayonları yaradılması vasitəsilə reallaşdırıla bilər.

Xarici ticarət. Çinin xarici iqtisadi əlaqələrində xarici ticarət daha üstün yer tutur. Son 20 ildəki islahatlar nəticəsində 1978-ci ildən 2005-ci ilədək Çinin xarici ticarət dövriyyəsi 20,1 mlrd. dollardan artaraq 1422,3 mlrd. (70,8 dəfə) dollara çatmışdır. İxrac daha sürətlə artmışdır. Həmin müddətdə ÜDM-də ixracın xüsusi çəkisi 4 %-dən 34 %-ə çatmışdır. Bütün valyuta daxil olmalarının 75-80 %-i əmtəə ixracının payına düşür. Hazırda Çin ixracın həcminə görə 3-cü yeri tutur. İdxalın həcminə görə də 3-cü yeri tutur (ixrac 762,1; idxal isə 660,2 mlrd. dollardır). Çin iqtisadiyyatının idxaldan asılılığı 1978-ci ildə 5 %, 1996-cı ildə isə 10 % hesab edilmişdir. Dünya ticarətində Çinin xüsusi çəkisi 1978-ci ildə 0,75 %-ə, 2005-ci ildə isə 6,2 %-ə bərabər olmuşdur. Aşağıdakı cədvəldə cəmi xarici ticarət dövriyyəsi verilmişdir.

Cədvəl

Çinin xarici ticarət dövriyyəsi, mlrd.dollar

illər	*ixrac*	*İdxal*	*xarici ticarət dövriyyəsi*
1990	62,1	53,4	115,5
1995	148,0	132,1	280,9
2005	762,1	660,2	1422,3

70-ci illərdə Çinin xarici ticarətində xammal sahələri üstünlük təşkil edirdisə, 90-cı illərdən emal sənayesinin xüsusi çəkisi artmışdı. 1995-ci ildən xarici ticarətdə maşınqayırma və elektronika məhsullarının xüsusi çəkisi birinci yerə çıxmışdır (1995-ci ildə 29,4 %, 1997-ci ildə isə 32,5 % olmuşdur).

Çin 1996-cı ildən Ümumdünya ticarət təşkilatının (ÜDTT) üzvü olmağa çalışır, lakin hələki müəyyən çətinliklər vardır.

Çinin xarici ticarətində texnika və texnologiya əldə edilməsi əsas yeri tutur. 1990-cı illərdən xaricdən alınan texnika və texno-

logiya əsasında yeni rekonstruksiya aparılmış, iqtisadiyyatın texniki səviyyəsi xeyli artmışdır. Məsələn, 1985-1995-ci illərdə özündən əvvəlki on ilə nisbətən xaricdən avadanlıq alınması 25 dəfə artmışdı. Ona görə bəzi sahələrin idxaldan asılılığı yüksəlmişdir. Avtomaşınqayırma, neft və neftemalı sənayesi, təyyarəqayırma, qara metallurgiya və digər sahələr idxaldan daha çox asılıdırlar.

Sənaye məhsulu artımının 60 %-i idxaldan olan texnika və texnologiyanın hesabına baş vermişdir (idxalın 20 %-i bu məhsulların payına düşür). 8 mindən çox yeni adda məhsul daxili bazara cəlb olunmuşdur.

Maşın və avadanlıqlar alınması ilə yerlərdə onların tətbiqi, yeni təsərrüfatçılıq formalarının həyata keçirilməsi, xaricdən müəyyən xammal və yarımfabrikat alınmasının azaldılmasına imkan yaratmışdır. Çin xaricdən taxıl alınmasını xeyli azaltmış, pambıq, soya alınmasını dayandırmışdır. Hazırda meşə materialları, metal, kauçuk, sellüloza, kimya məhsulları sahələrinin inkişafı idxaldan daha çox asılıdır.

İxracın quruluşunda da ciddi dəyişiklik baş vermişdir. Burada hazır məhsulun xüsusi çəkisi (toxuculuq məhsulları, elektronika, maşınqayırma sənayesi və s.) artmışdır. Çin ixracının 60 %-dən çoxunu hazır məhsul təşkil elir. Bunun da 50 %-ə qədəri xalq istehlakı mallarından ibarətdir (pambıq parça, paltar, ayaqqabı, oyuncaqlar və s.). Çin pambıq parça və təbii ipək ixracına görə birinci yeri tutur. Xarici valyuta daxil olunmasında toxuculuq sənayesinin rolu böyükdür. Bununla yanaşı inkişaf etmiş ölkələr, xüsusilə ABŞ çox tez-tez toxuculuq sənayesi məhsullarının azaldılmasını tələb edir. Odur ki, Çin həmin məhsulların yeni növlərini, keyfiyyətini artırmağa çalışır.

İxracın 20 %-ə qədəri maşınqayırma və elektrotexnika sahəsinin payına düşür. Buraya metal e'mal edən dəzgahlar, gəmiqayırma texnikası, velosiped, məişət elektrocihazları və s. aid etmək olar.

Xammal və yarımfabrikatların ixracı cəmi ixracın 1980-ci ildə 49 %-nə, 1993-cü ildə 25-34%-nə,2003-cü ildə 16-18 %-nə bərabər olmuşdur.

Pambıq parça sənayesinin 52 %-i, ipək sənayesinin 65%-i, yüngül sənayenin 45 %-i ixrac üçün işləyir.

1996-cı ildə Çinin xarici ticarət dövriyyəsinin 58 %-i Qərbin inkişaf etmiş ölkələri ilə həyata keçirilmişdir. Burada Yaponiya, ABŞ və Qərbi Avropa ölkələrinin xüsusi çəkisi daha böyükdür. Çin ilə qabaqcıl əməkdaşlıq edən ölkələrdə Honkonqun xüsusi yeri vardır. Hazırda Honkonq Çin məhsullarını alıb xaricə satmaqda böyük bir bazara çevrilibdir.

Kapital idxalı. Hər bir ölkənin və eləcə də Çinin iqtisadi inkişafında xarici kapitalın cəlb edilməsi böyük əhəmiyyət kəsb edir. 1979-2002-ci illərdə Çinə gələn xarici kapitalın ümumi həcmi 560 mlrd. dollar, o cümlədən birbaşa investisiya – 360 mlrd. dollar, borc formasında isə 200 mlrd. dollar olmuşdur.

Həmin vəsaitin 50 %-ə qədəri kredit və borc şəklində verilmişdir. Xarici hökumətlərin və beynəlxalq maliyyə təşkilatlarının krediti əsasında 300-dən çox obyektin qurulması-tikilməsi maliyyələşdirilmişdir. Bunların 65 %-dən çoxu energetika, nəqliyyat, rabitə sahələridir.

1980-ci ildə Çin Dünya Bankının və Beynəlxalq valyuta fondunun üzvlüyünə daxil edilmişdir. Bu maliyyə institutları ilə əməkdaşlıqda aşağıdakı əsas proqramlar nəzərdə tutulmuşdur: istilik-enerji kompleksinin inkişafı (cəmi kreditin 25%-i), elm və təhsilin inkişafı (kreditin 20 %-i), nəqliyyatın inkişafı (kreditin 20 %-i), xırda və orta sənaye müəssisələrinin inkişafı (kreditin 8 %-i), eləcə də bank-kredit sahəsinin inkişafı.

Çin üçün ən sərfəli kredit Dünya Bankının Beynəlxalq inkişaf birliyi bölməsinin verdiyi kreditdir.

Həmin birlik faizsiz (ancaq illik 0,75 üzvülük faizi tutulur) kredit verir. Bu kredit (10 il güzəştlə) 50 ilə verilir. Bu birlikdən Çinin aldığı kredit Dünya Bankından aldığı cəmi kreditin 40 %-nə bərabərdir.

Bütünlükdə Çinin borclu olmaq vəziyyəti qorxulu deyildir. Belə ki, cəmi borcu 2000-ci ilə 149,4 mlrd. dollar olmuşdur. Ölkənin valyuta ehtiyatı isə 168,3 mlrd. dollardır.

Birbaşa xarici investisiya – açıq iqtisadi siyasətin parlaq ünsürlərindən biri hesab olur. Birbaşa investisiyanın məzmununa Çin başqa cür baxır. Belə ki, xarici kapital ilə Çinin birlikdə yaratdığı müştərək müəssisələr (payçı kimi və yaxud müqavilə əsasında), birlikdə təbii ehtiyatların çıxarılması, sənaye kooperasiyasının müxtəlif formalarının yaradılması xalis xarici müəssisələr və s. hamısı birbaşa xarici investisiya hesab edilirlər. 2002-ci ilin əvvəlinə xarici kapitalın iştirakı ilə yaradılan cəmi müəssisələrin sayı 350 min ədəd olmuşdur. Təkcə emal sənayesinin inkişafına qoyulan illik xarici kapital 36-44 mlrd. dollar təşkil edir. Hazırda ölkədə xarici kapitalın fəaliyyətinin tənzimlənməsi üçün 300-dən artıq normativ sənədlər mövcuddur. Xarici kapital ilə işləyən müştərək müəssisələrdə əmək məhsuldarlığı daha yüksək olur. Müştərək müəssisələrin köməkliyi-təsiri ilə əməyin təşkilinin yaxşılaşdırılması əmək məhsuldarlığını 5-6 dəfə artırmağa imkan verir, bu isə dünya göstəricilərinə yaxınlaşmağa zəmin yaradır.

90-cı illərin ortalarına Çin dünyada ABŞ-dan sonra ikinci (inkişaf etməkdə olan ölkələr içərisində) ən çox birbaşa xarici investisiya alan (cəlb edən) ölkə idi. Burada xarici ölkələrdə yaşayan çinli iş sahiblərinin də böyük rolu olmuşdur. Belə ki, 90-cı illərdə Çinin iqtisadiyyatına cəlb edilmiş cəmi birbaşa investisiyanın 60 %-i xaricdə yaşayan çinlilərin və Honkonq, Makao və Tayvanın payına düşürdü.

Çinin iqtisadiyyatını müştərək sahibkarlıq əsasında yaradılmış azad zonalarsız təsəvvür etmək olmaz. Çində bunların bir çox növü mövcuddur.

80-ci illərdə Çinin cənub-şərq sahilində Şençjen, Çjuxay, Şantou, Syamendə xüsusi iqtisadi zonalar, 1988-ci ildə Xaynan adasında 5-ci zona yaradılmışdır. 1984-1992-ci illərdə 14 açıq iqtisadi zona yaradılmışdır.

Hazırda Çində 52-dən çox iqtisadi zona vardır.

İqtisadi islahatların ardıcıl aparılması nəticəsində sosialist modernləşdirilməsi üç mərhələdə həyata keçiriləcəkdir:

- 2000-ci ilə ölkənin sənaye və kənd təsərrüfatı məhsulunun həcmi 4 dəfə artırılması;

- 2021-ci ilə (ÇKP-nin 100 illiyinə) Çini orta inkişaf səviyyəli ölkələr sırasına çatdırmaq;

- 2049-cu ilə (ÇXR yaradılmasının 100 illiyinə) Çini inkişaf etmiş müasir bir ölkəyə çevirmək nəzərdə tutulmuşdur.

Çinin Azərbaycan ilə olan xarici ticarət dövriyyəsi 177204 min dollar, o cümlədən ixrac 145486 min, idxal isə 31718 min dollar təşkil edir (2004).

XXXIII FƏSİL
HİNDİSTANIN İQTİSADİYYATI

1. *Hindistanın iqtisadi inkişafının əsas cəhətləri.*
2. *Hindistanın iqtisadi inkişaf mərhələləri.*
3. *Hindistanın təsərrüfat mexanizminin xarakterik cəhətləri.*
4. *Hindistanın xarici iqtisadi əlaqələri.*

1. Hindistanın iqtisadi inkişafının əsas cəhətləri

Hindistan ən qədim və böyük dövlətlərdən biridir. Hindistan Asiyanın qərbində Hindistan yarımadasında yerləşir. Sahəsi -3287,6 min kv.km, əhalisi -1103,4 min nəfərdir (2005-ci il). Paytaxtı-Dehlidir (10 mln. nəfər). Böyük şəhərləri - Kalkutta (15 mln. nəfər); Mumbai-Bombey (14 mln. nəfər); Çennai (6 mln. nəfər); Banqalor (4,5 mln. nəfər); Heydərabad (4 mln.nəfər) və s.

Hindistan Federativ Respublikadır. 25 ştatdan və 7 muxtar ərazidən ibarətdir. 1950-ci ildən konstitusiya fəaliyyət göstərir. Dövlət başçısı prezidentdir. Rəsmi dövlət dili Konstitusiyaya görə hindi dilidir. Lakin ingilis dili də geniş istifadə edilir. Hindistan qədim, tarixi, mədəni keçmişə, ənənələrə malik olan bir ölkədir.

İlk dövlət kimi bizim eradan əvvəl 1-ci min illiyin ikinci yarısında yaranmışdır. İlk dəfə hindlilər düyü, pambıq, şəkər qamışı becərməyi, ev quşları saxlamağı öyrənmişlər.

Qədim və orta əsrlər Hindistanın elm, ədəbiyyat, incəsənət sahəsindəki nailiyyətləri, müxtəlif dini və fəlsəfi sistemləri Şərqin bir çox sivilizasiyalarına müsbət təsir göstərmişdir.

XVI əsrin əvvəllərindən Avropa müstəmləkəçiləri tərəfindən tədricən Hindistan müstəmləkəyə çevrilmiş və iki yüz il Böyük Britaniyanın tabeliyində olmuşdur. 1857-1859-cu illərdən Milli Azadlıq Hərəkatları, 1918-22; 1928-33-cü illərdə tabe olmamaq, 1946-cı illərdə hərbi-dənizçilərin tətili, üsyanı nəticəsində 1947-ci ildə Hindistan dominion statusu almış, 1950-ci ildə

isə respublika elan edilmişdir. Tarixən müstəmləkəçilikdə olması ölkənin sosial-iqtisadi inkişafına güclü təsir etmiş, uzun müddət köhnə, ənənəvi sosial-iqtisadi quruluşun qalmasına səbəb olmuşdur. Ölkə Britaniyanın kənd təsərrüfatı əlavəsinə çevrilmişdir. İqtisadiyyatda britaniya kapitalı əsas rol oynamışdır. Natural təsərrüfat ukladı üstünlük təşkil edirdi. Təsərrüfatın müasir quruluşu ilə ancaq işçilərin 5 %-i məşğul olurdu ki, onlar da milli gəlirlərin ancaq 10-15 %-ni istehsal edə bilirdilər.

İkinci Dünya Müharibəsinin əvvəllərinə Hindistan hər nəfər hesabilə Britaniyadan 36 dəfə, Yaponiyadan isə 7 dəfə az çuğun istehsal edirdi. Sənaye birtərəfli aparılırdı. Yünkül sənaye daha üstün idi, maşınqayırma yox idi, kənd təsərrüfatı tənəzzülə uğramışdı.

Savadlıların xüsusi çəkisi 18 %, orta ömür müddəti 32 il təşkil edirdi. 1947-ci ildə ölkə iki hissəyə bölünmüşdür -Hindistan və Pakistan. Hindistan siyasi müstəqillik əldə etdikdən sonra ölkənin iqtisadiyyatını sənaye əsasları üzərində qurmağa imkan yaranmışdır.

Lakin 1957, 1972, 1985-ci illərdə istehsalın artmasında ləngimələr mövcud olmuşdur.

İqtisadiyyatın ləng artımı bir çox hallarda milli kapitalın zəifliyi ilə də izah edilir.

İqtisadiyyatın sahəvi quruluşu. 2005-ci ildə Hindistanın ÜDM-i 772,0 mlrd. dollar, hər nəfərə düşən məhsul isə 700 dollara bərabər olmuşdur (müqayisə üçün qeyd etməliyik ki, bu göstəricilər 1995-ci ildə müvafiq olaraq 340 mlrd. dollar və 387 dollar təşkil etmişdir).

ÜDM-in ortaillik artım sürəti ilk 35-40 ildə 3.5 %-dən artıq olmamışdır. lakin son illər bu göstərici artaraq 1999-2000-ci illərdə 6,2 %, 2003-2005-ci illərdə isə 8,4 % təşkil etmişdir.

ÜDM-in 25 %-i kənd təsərrüfatının, 27 %-i sənayenin, 47 %-i xidmət sahələrinin payına düşür. Cəmi işçilərin isə 67 %-i kənd təsərrüfatında çalışırlar.

Hindistan aqrar-sənaye ölkəsi hesab edilir.

Kənd təəsrrüfatı nisbətən sabit və dinamik inkişaf edir. Kənd təsərrüfatının əsasını əkinçilik təşkil edir. Kənd təsərrüfatından əldə olan gəlirin 75 %-i bitkiçiliyin payına düşür.

Becərilən torpaq sahəsi 141 mln. hektardır. Bunun da 15 mln. hektarı ildə 2 dəfə əkilir. 84 mln. hektar süni suvarma ilə becərilir.

Hindistan çay, yer fındığı, şəkər qamışı istehsalına görə birinci, düyü və pambıq istehsalına görə ikinci, tütün istehsalına görə üçüncü yeri tutur.

2003-cü ildə əsas kənd təsərrüfatı məhsulları istehsalı -taxıl 225 mln. ton (o cümlədən buğda 76 mln. ton, düyü 132 mln. ton), çay 770 min. ton, qəhvə 200 min. ton, pambıq 2,1 mln. ton, şəkər qamışı 272 mln. ton, tütün 660 min. ton, kartof 21 mln. ton olmuşdur.

Yer fındığı və küncüd istehsalına görə dünya üzrə məhsulun 30 %-nə malikdir. Kətan toxumu və gənəgərçək yağı istehsalına görə birinci yeri tutur.

Ədviyyat məhsulları istehsalı çox yayılmışdır – bibər, darçın, raps (toxumundan yağ çıxarılan bitkidir), zəncəfil, sarıkök, hil və s. Bütün tərəvəz və meyvə növləri vardır (dünya məhsulunun 10 %-i).

İribuynuzlu mal-qaranın sayına görə də Hindistan dünyada birinci yeri tutur. Dünya üzrə cəmi camışların 57 %-i (84 mln. baş), inəklərin 16 %-i (205 mln. baş) Hindistanın payına düşür. 75 mln. ton süd istehsal edilir. 13 mln. donuzları vardır.

Ərazisinin 19,3 %-i meşəlikdir (hər nəfərə görə çox azdır).

Hindistan dənizdən tutulan balığa görə 6-cı, içməli sudan tutulan balığa görə 2-ci yeri tutur. Cəmi tutulan balığın həcmi – 5,3 mln. tondur. Bu sahə məşğulluğun artmasında və xarici ticarətdə böyük rol oynayır. **400 min ton dəniz məhsulu ixrac edilir (1 mlrd. dollar)**.

Hasilat sənayesi baxımından Hindistan iqtisadiyyatın inkişafı üçün kifayət qədər mineral ehtiyatlara malikdir. Belə ki, dünya dəmir filizi ehtiyatının 25 %-ə qədəri, marqans filizi çıxarılmasının 15 %-i, slyudanın (mika) 60 %-i bu ölkənin

payına düşür. 2003-cü ildə ölkədə 315 mln. ton kömür, 33 mln. ton neft, 448 mlrd. kvt. saat elektrik enerjisi istehsal edilmişdir. Kömür ehtiyatı -148 mlrd. ton, qaz ehtiyatı – 500 mlrd. m^3, uran ehtiyatı – 70 min ton qiymətləndirilir. 7,3 mln. ton dəmir filizi, 6,8 mln. ton boksidlər, 3,1 mln. ton mis filizi, 1,7 mln. ton marqans filizi, 2,4 min ton qızıl, 53 min ton gümüş, 40,6 min karat almaz, 1273 ton slyuda, 360 min ton sink filizi, 63 min ton qurğuşun filizi istehsal edilmişdir.

Bu sahənin cəmi məhsulu 10,3 mlrd. dollara bərabərdir. Ölkə üzrə cəmi ixracın 16 %-i bu sahənin payına düşür.

ÜDM-in 18 %-i emal sənayesinin payına düşür. Parça sənayesi daha böyük üstünlüyə malikdir – 90 mln. nəfər adam işləyir. İstehsalın 19 %-i xırda əl işlərinə əsaslanır. İxracdan olan gəlirin 30-33 %-i toxuculuq sənayesi məhsullarındandır. Hind kəndiri istehsalına görə dünyada birinci, bu sahədən olan hazır məmulatlar ixracına görə ikinci yeri tutur.

Ölkədə 144 mln. ton kübrə (dünyada 3-cü yer) istehsal edilir. Tələbatı 70 % ödəyir.

Əczaçılıq sənayesi çox yüksək səviyyədə inkişaf etdirilibdir. Bu sahədə 250 min böyük müəssisə işləyir.

Hazırda cəmi sənayenin 17,2 %-i parça sənayesinin, 16,5 %-i neft və kömür sənayesinin, 14 %-i qara və əlvan metallurgiya sənayesinin, 12 %-i maşınqayırmanın, 11,4 %-i yeyinti sənayesinin, 7 %-i sellüloz-kağız sənayesinin, 5 %-i elektrotexnika sənayesinin payına düşür.

1950-2005-ci illərdə sənaye istehsalı 15 dəfə artmışdır. ÜDM-də emal sənayesinin xüsusi çəkisi 1950-ci ildəki 11,4 %-dən 20 %-ə çatmışdır. Emal sənayesi məhsulunun ümumi həcmində ağır sənaye 32 %-dən 64 %-dək artmışdır.

İstehsalın quruluşunda dəyişiklik yaranmışdır. Uzun müddət üçün nəzərdə tutulan istehlak şeylərinin xüsusi çəkisi çoxalmışdır.

Emal sənayesinin sahəvi quruluşunda da dəyişiklik yaranmışdır. Ərzaq malları, pambıq parça, hind kəndiri və toxuculuq məmulatları istehsalının xüsusi çəkisi 1,5-2 dəfə azaldılmışdır.

1950-ci illərdə sənaye məhsullarının 60 %-i yeyinti və toxuculuq mallarından ibarət olduğu halda, 2005-ci ildə bu 25 %-dən az olmuşdur. Neft məhsullarının və maşınqayırmanın xüsusi çəkisi 2-3 dəfə artmışdır.

Ölkədə sənayeləşmənin inkişafı çox sahəli təsərrüfat kompleksinin yaranmasına imkan vermişdir.

Milli təsərrüfatın öz-özünə inkişaf edən -bərqərar ola bilən bir sistemə çevrilməsi özünü göstərir. Müəyyən mənada iqtisadiyyatda ikili bazar mövcuddur. Bir tərəfdən əhalinin çox hissəsi üçün zəruri istehlak şeylərinə olan tədiyyə qabiliyyətli tələbdə durğunluq yaranır, digər tərəfdən isə uzun müddətə istifadə edilən istehlak şeylərinə olan tədiyyə qabiliyyətli tələb artır.

Bütünlükdə milli iqtisadiyyatın inkişaf etdirilməsində xüsusi bölmənin daha böyük rolu vardır. Belə ki, ÜDM-in 75 %-i xususi bölmədə formalaşır. Kənd təsərrüfatı, yüngül maşınqayırma, yüngül yeyinti və tibb sənayesi, inşaat, ticarət, avtomaşın nəqliyyatı və digər sahələrdə xüsusi bölmə daha geniş yayılmışdır.

ÜDM-in təqribən 25 %-i dövlət bölməsində yaradılır. Ölkənin müdafiə sənayesində, energetika, dəmiryolu, aviasiya, nəqliyyat, rabitə, metallurgiya və s. kimi baza sahələrində dövlət bölməsinin xüsusi çəkisi artıqdır.

Bir çox sahələrdə dövlət bölməsinin xüsusi çəkisi daha çoxdur. Bunlardan neft çıxarılması və emalı, kömür, mis, qurğuşun, sink istehsalı, polad əridilməsinin 60 %-dən çoxu, ağır maşınqayırma məhsulları, gəmiqayırma, təyyarə və dəzgah qayırma və s. göstərmək olar. 200-dən çox elmi-tədqiqat institutu və laboratoriya dövlət bölməsində mərkəzləşdirilibdir. ETTKİ-nə ayrılan xərclər 0,73 % təşkil edir. Hazırda **Hindistan yüksək elektron texnologiyasına və kosmik sənayesinə malik olan ölkələr sırasına daxildir. Hindistan dünya bazarına telekommunikasiya və meterologiya, rabitə vasitələri göndərir. Müvəffəqiyyətlə özünün milli atom enerjisi üzrə inkişaf proqramını həyata keçirir.**

Hindistanda elektron sənayesi və informasiya texnologiyası (xüsusilə proqram təminatı) sahəsində 250 min nəfər adam işləyir. Bu sahənin məhsulunun həcmi 13 mlrd. dollar, ixrac isə

8 mlrd. dollara bərabərdir. Bu göstəricilərə görə Hindistan 2-ci yeri tutur (2002).

Hindistanda avtomobil sənayesi ildə 642 min müxtəlif növdə avtomobil buraxır. Qara metallurgiyada 7 böyük zavod tam gücü ilə işləyir. İldə 10,1 mln. ton polad istehsal edilir.

Hindistanda nəqliyyat sistemi də geniş vüsət tapmışdır. Belə ki, dəmir yolunun ümumi uzunluğu 107 min km-rə bərabərdir. Bunun da 29 %-i elektrikləşdirilmişdir. Hindistan İEOÖ-də ən böyük ticarət donanmasına malikdir (bu göstəriciyə görə dünyada 17-ci yeri tutur). Donanmada 490 dəniz gəmisi vardır. Ölkədə 11 böyük və 139 kiçik liman fəaliyyət göstərir. Hindistan dünyada qabaqcıl avtomobil yolları şəbəkəsinə malikdir – 3,3 mln. km.

Hindistanda poçt şəbəkəsi sistemi də yüksək səviyyədədir. Cəmisi – 154 min poçt şəbəkəsi fəaliyyət göstərir.

260-300 mln. nəfər kasıbçılıq şəraitində yaşayır.

2. Hindistanın iqtisadi inkişaf mərhələləri

Hindistanın iqtisadi inkişafı ayrı-ayrı dövrlərdə müəyyən xüsusiyyətləri ilə bir-birindən fərqlənir. Belə ki, Hindistanın müstəqillik əldə etdiyi ilk (1947) 10 illik sabitləşmə dövrü adlanır. Bu mərhələdə ölkədə təsərrüfat mexanizminin əsasları formalaşırdı. Müstəqillik əldə edilməsilə qeyri-iqtisadi məcburiyyət və ticarət vasitəsilə, ayrı-ayrı sahələrə qoyulan kapital vasitəsilə Britaniyanın siyasi nüfuz dairəsinin genişlənməsinə son qoyulmuşdur. Bu mərhələdə mərkəzləşdirilmiş planlaşdırma ilə bazar əlaqələrinin genişləndirilməsi siyasəti əsas götürülmüşdür. Milli iqtisadiyyatın inkişafının ilkin şərtlərindən biri kimi sənayeyə qoyulmuş iri kapitala maraq yaratmaq, idxalda himayədarlıq siyəsəti və valyuta nəzarəti həyata keçirmək nəzərdə tutulurdu.

İkinci dövr 50-ci illərin ortalarından 60-cı illərin ortalarınadək olan vaxtı əhatə edir. Bu dövr intensiv sənayeləşdirilmə dövrü kimi səciyyələnir. Burada mövcud istehsal münasibətlərinin yenidən qurulması, sərbəst bazar münasibətlərinin və xa-

rici kapitalın məhdudlaşdırılması sahəsində müəyyən tədbirlər sistemi nəzərdə tutulurdu. İdeoloji cəhətdən bütün bunlar **"Sosialist cəmiyyəti"** qurulması şüarı altında həyata keçirilirdi.

Dövlət mülkiyyəti yaradılması aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: müstəmləkəçilərin hakim dairəsində olan mülkiyyətin milli dövlətin ixtiyarına keçməsi; milli kapitala məxsus olan bəzi xüsusi şirkətlərin milliləşdirilməsi; dövlət vəsaiti hesabına yeni müəssisələr yaradılması.

Sənayeləşdirilmə idxalın əvəzlənməsi formasında həyata keçirilirdi. "Öz güçünə arxalanmaq", "özü-özünü təmin etmək" kursunun əsas götürülməsinə, xarici borcların rolunun azaldılması və yerli məhsulların çeşidinin genişləndirilməsinə üstünlük verilirdi. Həmin dövrdə metallurgiya, maşınqayırma və kimya sənayesinin xüsusi çəkisi xeyli artmışdı. Sənaye sahələrinə ayrılan xalis kapital qoyuluşu 50-ci illərdəki 26,4 %-dən 60-cı illərdə 41,1 %-ə çatmışdır.

Ağır sənayenin inkişafı kursunun həyata keçirilməsində bir çox vətənpərvər qüvvələr müstəqilliyin möhkəmlənməsi xatirinə şəhər burjuaziyasına köməklik göstərirdilər.

Sahibkarlıq fəaliyyəti sahəsində dövlətin rolu xeyli genişlənmişdir. Bütün bunların nəticəsində çoxsahəli kompleks yaradılması üçün zəmin formalaşırdı. Eyni zamanda sənaye ilə kənd təsərrüfatı arasında qeyri-mütənasiblik də artırdı.

Üçüncü mərhələ 60-cı illərin ortalarından başlanmışdır. Bu mərhələdə ağır sənaye ilə kənd təsərrüfatı və xırda istehsal arasındakı qeyri-mütənasibliyin ləğv edilməsi də problem kimi qarşıda qoyulmuşdur. Həmin illərdə **"yaşıl inqilab"** strategiyasının başlanğıcı qoyulmuşdur. Yoxsul kəndə - kənd təsərrüfatına, xırda istehsala köməklik edilməsi barədə proqram qəbul edilmişdir. Bu mərhələdəki iqtisadi siyasətdə əsas məsələlərdən biri də 1969-cu ildə kommersiya banklarının milliləşdirilməsi olmuşdur. Beləliklə, sənayenin və xırda sahibkarlığın müdafiə edilməsi siyasəti və dövlət kömək liyi sahibkarlıq bölməsində sabitliyin təmin edilməsinə səbəb olmuşdur.

Dördüncü mərhələ. 70-ci illərin ortalarından 80-ci illərin axırlarınadək olan dövrü əhatə edir. Bu mərhələni balanslaşdırılmış artım dövrü adlandırmaq olar (lakin, bu artım daxili tələblə məhdudlaşırdı). Bu mərhələnin əsas xarakterik cəhəti ondan ibarətdir ki, tələbin zəif olması, yalnız iri sənayenin ayrı-ayrı sahələrinin deyil, bütün xüsusi bölmənin inkişafına mane olurdu. 80-ci illərin ortalarında iri sənayenin modernləşdirilməsi üçün dövlət hesabına kapital qoyuluşu xeyli artırılmış və bazar əlaqələri genişləndirilmişdir. Zəif müəssisələrin müflisləşməməsi və işsizlik yaranmaması üçün bəzi müəssisələr milliləşdirilmiş və yaxud dövlət idarəçiliyinə verilmişdir.

80-ci illərin ikinci yarısında dövlət büdcəsinin kəsiri ildə ÜDM-in 7-9 %-i qədər olmuş, dövlət borcu 51 %-dən artaraq 66 %-ə çatmış, xarici borc isə 16 %-dən 29 %-dək çoxalmışdır.

Beşinci dövr 90-cı illəri əhatə edir və iqtisadiyyatın liberallaşması ilə səciyyələnir. Nisbətən güclü inhisarçı qruplar xarici iqtisadi əlaqələrin formalaşmasına, TMŞ-lərlə əməkdaşlığa üstünlük verirdilər. Xarici iqtisadi əlaqələrin tənzimlənməsi azaldılmışdır. Orta tarif dərəcəsi 1990-cı ildəki 87 %-dən azaldılaraq, 1995-ci ildə 27 % təşkil etmişdir. 34 qabaqcıl sahədə xarici kapitala səhmlərin 51 %-ni almaq imkanı verilmişdir. Dövlət bölməsinin müəssisələri azaldılmış, müştərək müəssisələr yaradılmasına icazə verilmişdir. Büdcə problemlərinin həll edilməsi üçün dövlət təhsilə və səhiyyəyə ayrılan xərcləri nisbətən azaltmışdır.

3. Hindistanın təsərrüfat mexanizminin xarakterik cəhətləri

Hindistanın ictimai-iqtisadi həyatında baş verən çoxillik dəyişikliklər nəticəsində xüsusi növ istehsal tipi, təsərrüfat mexanizmi yaranmışdır. **Bu mexanizm dövlət sahibkarlığını, böyük xüsusi birlikləri, xırda kapitalist təsərrüfatı və ənənəvi bölməni özündə birləşdirmişdir.** Çoxukladlı təsərüfatçılığın qalması hər tərəfi əhatə edə bilən təsərrüfatçılıq mexanizmi yaradılmasına maneəçilik edirdi. Hazırda xüsusilə kənd təsərrüfatında bazar

münasibətləri yarımfeodal münasibətləri ilə yanaşı fəaliyyət göstərir. Belə şəraitdə **mənfəət təsərrüfatçılığın inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edə bilmir.** Ölkədə kiçik sahibkarlıq iki formada mövcuddur – ənənəvi və müasir.

1. **Hindistanda ənənəvi istehsal** – qədim icma sənayesi kimi əl əməyinə əsaslanır. Kəndlərdə, qəsəbələrdə və xırda şəhərlərdə sadə dəzgah və alətlərlə parça istehsalı, xalçaçılıq, müəyyən bəzək işləri yerli ehtiyatlar hesabına həyata keçirilir. Bu ənənəvi ustaların, talant sahiblərinin məhsulları geniş tələbatı ödəməklə ixracda böyük rol oynayır.

2. **Bununla yanaşı müasir xırda istehsal da inkişaf etdirilir.** Ölkənin sənaye sahəsinin əsas kapitalının 5 %-i və sənayedə işləyənlərin 30 %-i bu kiçik istehsal sahələrinin payına düşür. Bu müəssisələrdə əsasən elektronika məhsulları, kompüterlər, alətlər, dəzgah və avadanlıqlar buraxılır.

Bu cür kiçik sahibkarlıqdan olan məhsulların ixracının həcmi cəmi ixracın 35 %-nə bərabərdir.

Hindistan iqtisadiyyatında ictimai xarakter almış, formalaşmış bölmə milli gəlirin 50 %-ni, məşğulluğun isə 30 %-ni özündə əks etdirirdi. Sənayedə bu bölmə daha sürətlə artırılırdı.

1950-ci illərdə qeyri-formal bölmə formalaşmış bölməni qabaqlayırdı, 90-cı illərdə isə həmin qeyri-formal bölmə ictimai bölmədən 1,6 dəfə geri qalırdı.

İri xüsusi sahibkarlıq bölməsi

Hindistanda sahibkarlıqda nəzərə çarpacaq dərəcədə qütbləşmə mövcuddur. Belə ki, daha çox aktiv vəsaitə malik olanlar həlledici mövqedədirlər. Bu vəziyyətin mənşəi hələ müstəmləkə dövründən başlanmışdır. O vaxtlar az da olsa yeni sənaye sahələrində yüksək təmərküzləşmə özünü göstərirdi. 1948-ci ildə 1000 nəfərdən çox işçisi olan müəssisələr cəmi müəssisələrin 7 %-ni təşkil etdiyi halda, bütün işçilərin 70 %-i, yaranmış yeni dəyərin də 70 %-i bu müəssisələrin payına düşürdü. Odur ki, hazırda da kapitalın çox hissəsi iri sənaye-maliyyə qruplarının əlində cəmləşdirilmişdir. 20 böyük ticarət-sənaye qrupu xüsusi səhmdar bölməyə məxsus olan cəmi aktiv vəsaitin 30 %-nə sahibdirlər. Bu qruplar artıq sənaye birlikləri kimi çıxış edirlər. Orta və xırda müəssisələr o qədər də inkişaf edə bilmirlər.

Dövlətin rolu. Hindistanın özünün dövlətçiliyi yarandıqdan sonra dövlətin təsərrüfatçılıq rolu da artmışdır. İri sənayedə dövlət sahibkarlığı genişlənmişdir.

Əsas kapitalın 60 %-i, işçilərin isə 50 %-ə qədəri həmin sahələrin payına düşür (bu sahələr - qara metallurgiya, maşınqayırma, kimya, neftemalı və s. ibarətdir).

Bütünlükdə iqtisadiyyatda dövlət bölməsinin payı 1950-ci ildə 3 %, 1986-cı ildə 12 % olmuşdur. Həmin illərdə dəmir yolu və təyyarə nəqliyyatı -100 %; dəniz nəqliyyatı -53 %; elektroenergetika -96 %; neft sənayesi -100 %; kömür sənayesi - 98 %; bank işi və sığorta -93 % dövlətin əlində idi.

Bank işində də ciddi dəyişikliklər edilmişdir. Belə ki, 1969-cu ildə 14, 1980-ci ildə 6 kommersiya bankı milliləşdirilmişdir.

1980-ci illərdə bank kreditinin 90 %-i dövlət bölməsinin payına duşürdü. Lakin 1991-ci illərdə bank işində müəyyən liberallaşdırma həyata keçirilmişdir. 1993-cü ildə yeni xüsusi banklar yaradılmasına icazə verilmişdir. Demək olar ki, 30 ölkədə Hindistanın 150 bank filialı fəaliyyət göstərir.

Bank işindəki liberallaşdırmaya baxmayaraq, bu sahədə yenə də dövlət hakim rol oynayır. Bank əməliyyatlarının 90 %-ə qədəri dövlətin 28 bankı tərəfindən həyata keçirilir. Xüsusi bölmədə 15 böyük xüsusi bank mövcuddur. Ölkədə 25 xarici bank (bunların da 146 şöbəsi) vardır.

4. Hindistanın xarici iqtisadi əlaqələri

Hindistanın iqtisadiyyatı yarıaçıq iqtisadiyyat hesab edilir. Belə ki, ixrac və idxalın həcmi ÜDM-in 30 %-i qədərdir. Hindistan beynəlxalq əmək bölgüsü prosesində o qədər də geniş iştirak edə bilmir. Ancaq 35 iri xarici bazarda iştirak edə bilir. Bu baxımdan İrlandiya,C.Koreya, Tailand kimi ölkələrdən geri qalır.

Xarici ticarət çox ləng artır. Orta illik artım 60-70-ci illərdə 3-4 %; 80-ci illərdə 7,4 %; 90-cı illərdə 13 %, 2000-ci illərdə isə 18 % olmuşdur.

Hindistanın xarici ticarətinin arta bilməməsinin əsas səbəblərindən biri də ondan ibarətdir ki, bəzi məhsullar (çay, tütün, ədviyyat, pambıq parça və s.) başqa ölkələrin məhsulları ilə rəqabətə girə bilmir.

Hindistanın təsərrüfatlarının az-çox sənayeləşdirilməsi xarici ticarətin quruluşunun dəyişilməsinə səbəb olmuşdur.

İxracın əsasını hazır məhsullar təşkil edir – 80,8 % (geyim şeyləri, pambıq parça toxumaları, parça, elektronika, zərgərlik məmulatları, maşınlar və alətlər, nəqliyyat avadanlıqları, metal məmulatlar, əczaçılıq, dəri məmulatlar, incəsənət sənəti məhsulları və s.).

Dünya üzrə ixracda olan yeri baxımından cəmi düyü ixracının 18,6 %-i, çayın – 14,3 %-i, ədviyyatın -9,5 %-i, heyvndarlıq üçün yemin – 3.4 %-i, qiymətli və yarı qiymətli daşlar və mirvarinin – 12 %-i Hindistanın payına düşür.

İdxalın quruluşunda – enerji ehtiyatları (ilk növbədə neft) – 22,5 %, kapital avadanlıqları – 17,4 %, kimya məhsulları – 8,8 %, qiymətli daşlar, mirvari və s. – 9 %, qızıl və gümüş – 12,1 %, ərzaq məhsulları (əsasən bitki yağı) – 5 % təşkil etmişdir.

Bütünlükdə ixracın həcmi 2005-ci ildə 95 mlrd. dollar, idxal isə 134,6 mlrd. dollar olmuşdur.

Xarici ticarətin çox hissəsi ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya, neft ixrac edən ölkələr, Rusiya və digər ölkələrlə həyata keçirilir. Azərbaycan ilə olan ixracı 47,0 mln. dollar, idxalı isə 5,4 mln. dollar təşkil etmişdir (2005).

Hindistanın ixracdan olan ən gəlirli sahələrindən biri yüksək keyfiyyətli kompüter proqramlarıdır (3,0 mlrd. dollar). Hindistana olan turizmdən ildə 1 mlrd. dollar vəsait əldə edilir. **İxtisaslı elmi-texniki heyətin sayına görə dünyada 3-cü, kompüter proqramlaşdırılmasının peşəkarlarının sayına görə 2-ci yeri tutur.**

Hazırda Hindistan xarici kapitalın qəbul edilməsində fəal mövqedə dayanır. 80-ci illərdə birbaşa xarici kapital məhdudlaşdırılırdısa, bu gün dövlət xarici kapitaldan istifadə etməklə kapital tutumlu və texnoloji cəhətdən çətin olan sahələri tənzimləyir. Praktiki olaraq ticarət, kredit, tarlaçılıq, ənənəvi sahələrə xarici investisiya cəlb edilməsinə o qədər də imkan verilmir.

Xarici kapitaldan istifadə edilməsinin forması da dəyişmişdir. Xarici kapital ilə birgə kompaniyalar yaradılmasına üstünlük verilir.

Xarici kapitalın coğrafiyasında da dəyişiklik baş vermişdir. 70-ci illərədək olan Britaniya şirkətlərinin mütləq üstünlüyü aradan götürülmüş, xalis xarici kapital qoyuluşunun həcmi 72 %-dən 35 %-dək azalmış, ABŞ-ın payı 6 %-dən 27 %-dək, Almaniyanın payı isə 9,3 %-dək artmışdır.

Hindistanın iqtisadiyyatına yönəldilən orta illik xarici kapital 1991-ci illərdəki 154 mln. dollardan artaraq 1994-cü ildə 946 mln. dollara bərabər olmuşdur. 1998-ci ildə xarici investisiyanın həcmi 3 mlrd. dollara çatmışdır. 2003-cü ildə 19 mlrd. dollardır. Odur ki, Hindistan son vaxtlar xarici borca nisbətən xarici kapitalın cəlb edilməsinə daha çox üstünlük verir. Hazırda ölkənin xarici borcu 102 mlrd. dollardır (2003). Qızıl valyuta ehtiyatı 30 mlrd. dollar təşkil edir (1998).

XXXIV FƏSİL
CƏNUBİ KOREYA DÜNYA İQTİSADİYYATINDA

1. *Cənubi Koreyanın iqtisadi inkişaf xüsusiyyətləri.*
2. *Təsərrüfat mexanizminin əsas cəhətləri.*
3. *C.Koreyanın dünya təsərrüfat əlaqələri.*

1. C.Koreyanın iqtisadi inkişaf xüsusiyyətləri

Koreya qədim tarixə malik dövlətlərdən biridir. Bizim eranın 668-ci illərində orada vahid dövlət yaradılması prosesi baş vermişdir. 1904-1905-ci illərdəki Rus-Yapon müharibəsində Koreya Yaponiya tərəfindən işğal edilmişdir. 1945-ci ildə Sovet qoşunları tərəfindən Yaponiyanın müstəmləkəçiliyindən azad edilmişdir.

1946-1947-ci illərdə C.Koreya ilə Ş. Koreya arasında ciddi parçalanma prosesi nəticəsində 1948-ci ildə avqust ayının 15-də Cənubi Koreya respublikası elan edilmişdir. 1988-ci ildə yeni Konstitusiyanın qüvvəyə minməsi ilə bu ölkə tam demokratik inkişaf yoluna keçmişdir.

Koreya Respublikası prezident idarəçiliyinə əsaslanır, dövlət başçısı prezidentdir. Qanunverici hakimiyyət parlamentə məxsusdur.

İnzibati ərazi bölgüsünə görə 9 əyalətdən və 5 şəhərdən ibarətdir. 2005-ci ilə sahəsi 98,5 min.kv.km, əhalisi 47,8 mln. nəfərdir . Paytaxtı Seuldur (11 mln. nəfər).

Koreya respublikası sənaye-aqrar ölkəsidir. İnkişaf etməkdə olan ölkələr içərisində daha dinamik inkişaf edən ölkələrdən biridir. Ona görə də C.Koreya artıq **Yeni Sənaye ölkəsi** adlanır. Son 20 ildə iqtisadiyyatın illik artım sürəti 8 %-dən çox olmuşdur. O qədər zəngin ehtiyatlara malik olmasa da, yüksək artım sürətini saxlaya bilmişdir.

2005-ci ilə ÜDM-in həcmi 787,6 mlrd. dollar, hər nəfərə düşən məhsul isə 16477 dollar olmuşdur.

ÜDM-in 4 %-i kənd təsərrüfatının, 42 %-i sənaye sahələrinin, 54 %-i isə xidmət sahələrinin payına düşür.

C.Koreya öz təsərrüfatçılığında sənayeləşdirməyə üstünlük vermişdir.

Cənubi Koreyanın iqtisadi inkişaf tarixini bir neçə mərhələyə ayırmaq olar: 1948-1961-ci illər, 1961-1970-ci illər, 1970-1990-cı illər və s.

Birinci mərhələdə C.Koreyanın iqtisadiyyatında kənd təsərrüfatı daha üstünlük təşkil edirdi. 1953-cü illərdə ÜDM-in 68 %-i, 1960-cı illərdə isə 56 %-i kənd təəsrrüfatının payına düşürdü (1950-ci illərin ortalarına hər nəfərə düşən ÜDM-in həcmi 100 dollardan artıq deyildi, ən geridə qalmış ölkələr sırasında idi). İqtisadiyyatın quruluşunda ikinci yeri ticarət tuturdu.

Həmin dövrdə emal sənayesinin vəziyyətində az-çox dəyişiklik hiss olunurdu. ÜDM-də onun xüsusi çəkisi 1,5 dəfə artaraq 14,6 %-ə bərabər olmuşdur. **Lakin burada (üç ağ istehsal adlanan) un üyüdülməsi, şəkər istehsalı və pambıq emalından ibarət istehlak mallarına üstünlük verilirdi**. Deməli, həmin mərhələ aqrar-xammal istiqaməti ilə, aşağı inkişaf səviyyəsi ilə xarakterizə edilirdi.

Hasilat və emal sənayesinin əsas ehtiyatları Şimali Koreyada mərkəzləşmişdir.

Daxili bazarın tələbatı əsasən istehlak mallarına istiqamətlənirdi. Bu və qismən də sonrakı mərhələdə iqtisadi inkişaf əsasən yerli sənayenin artırılmasına və idxalın azaldılmasına əsaslanırdı. Xarici malların əvəz edilməsi siyasətində həlledici sahələrin inkişafı nəzərdə tutulurdu. Bu istiqamət 1962-ci ildəki hərbi çevrilişdən sonra daha geniş vüsət almışdır.

Həmin vaxtlar ölkədə şəxsi təşəbbüs əsasında bazar iqtisadiyyatı prinsipləri ilə müstəqil iqtisadiyyat yaradılması vəzifəsi qarşıda qoyulmuşdur. Dövlət aparatının köməkliyi də istisna edilmirdi. Belə bir ideya və ya nəzəriyyədə **"iqtisadi yarışda kommunizmə qalib kəlmək"** əsas götürülmüşdür. Xaricdən çoxlu gəlir əldə etmək üçün C.Koreyanın kifayət qədər xammalı yox idi.

Yeganə çıxış yolu emal sənayesinin inkişaf etdirilməsində idi. Ölkənin sənayeləşdirilməsi üçün mövcud sahələrin yenidən qurulması (rekonstruksiyası), yeni kapitaltutumlu istehsalın əsa-

sının qoyulması, sənayenin infrastrukturasının genişləndirilməsi nəzərdə tutulurdu. Ona görə də **60-cı illərin ortalarından sənayeləşdirilmə prosesində iqtisadi inkişafda ixrac modeli əsas götürülürdü**. İxrac modelində xarici bazara çıxış toxuculuq (parça) və ayaqqabı sənayesindən başlanmışdır (lakin burada da çətinlik ondan ibarət idi ki, xaricə rəqabət qabiliyyətli istehlak malları göndərilməsi üçün xaricdən yüksək texnologiya alınması tələb olunurdu). C.Koreyada bu cür ixraca istiqamətlənmiş istehsal yaradılmasında daxili bazarda himayədarlıq da saxlanılırdı. **Beləliklə, C.Koreya xaricə əməktutumlu mallar ixrac etməklə öz iqtisadiyyatını canlandırırdı**. C.Koreya üçün belə bir nailiyyət əldə edilməsində siyasi səbəb də olmuşdur. O, ABŞ-ın sosializmə qarşı dayanmasında körpü rolunu oynayırdı. Ona görə də ABŞ və Yaponiya **C.Koreya bazarına kömək edirdilər**.

Beləliklə, Cənubi Koreyanın iqtisadi inkişafının bütün mərhələlərində yüksək artım sürəti müşahidə olunmağa başlamışdır. ÜDM-in orta illik artım sürəti 60-cı illərdə – 8,7 %, 70-ci illərdə -10 %, 80-ci illərdə 10,4 %, 90-cı illərdə – 7,6 %, 2003-cü ildə - 4,5 % olmuşdur.

Bu cür yüksək artımın nəticəsində hər nəfərə düşən real gəlir hər 10-12 ildən bir 2 dəfə yüksəlmişdir. İqtisadiyyatın quruluşunda göklü dəyişikliklər baş vermiş, 1950-1994-cü illərdə kənd təsərrüfatının xüsusi çəkisi 40 %-dən 7 %-dək azalmış, sənayenin xüsusi çəkisi isə 30 %-dən 43 %-dək artmışdır.

Sonrakı mərhələdə isə **ixraca olan istiqamətlə əlaqədar olaraq metallurgiya, gəmiqayırma, neftkimya kimi material və enerji tutumlu sahələrin inkişafı sürətlənmişdir**. Bu proses 1970-ci illərdə ÜDM-də kapital tutumunu artırmışdır.

1970-ci illərin axırlarından C.Koreyada - elektrotexnika, kommunikasiya vasitələri, avtomaşınqayırma kimi elmtutumlu sahələrin inkişafı üstünlük təşkil etmişdir. Bəzi sahələr artıq dünya miqyasında nəzərə çarpırdı. Məsələn, dünya üzrə gəmiqayırmanın **30** %-i, poladın **5,3** %-i C.Koreyanın payına düşürdü. Parça, paltar, ayaqqabı, televizor, avtomaşın, yarımkeçiricilər və s. məhsulları artıq dünya miqyasında məşhur idi.

İqtisadi artımın mənbələri. İstehsalın təzələnməsi və genişlənməsi kapital yığımının artmasını tələb edirdi. Ölkənin 50-60-cı illərdəki vəziyyəti isə buna zəmin yarada bilmirdi.

Kapitalizm ilə sosializm arasında "körpü" rolu oynaması silahlanmanın və hərbi xərclərin artmasını tələb edirdi. Odur ki, C.Koreyanın hərbiləşməsində ABŞ-ın böyük rolu olmuşdur. 80-ci illərin əvvəllərinə ABŞ ona **1 milyard dollar hərbi köməklik etmişdir**. Məzh bu göməkliyin nəticəsində C.Koreyada aviaraket sənayesi yaradılmışdır.

50-60-cı illərdə kapital qoyuluşu daxili yığımdan çox xarici köməkliyə əsaslanırdı. Bütünlükdə cəmi kapitl qoyuluşunun 1961-1965-ci illərdə 59,6 %-i, 1966-1970-ci illərdə 38,8 %-i, 1971-1975-ci illərdə 30,2 %-i, 1976-1980-ci illərdə 14,2 %-i, 1981-1984-cü illərdə isə 15,2 %-i xarici kapitlın hesabına həyata keçirilmişdir. Onu da qeyd etməliyik ki, həmin illərdə C.Koreyada yığım norması da artıq idi – 30 %. Odur ki, son dövrlərdə artıq daxili imkanlara üstünlük verilmişdir.

C.Koreyanın iqtisadi inkişafında və ETT-nin nailiyyətlərinə qovuşmasında xarici texnologiyanın mənimsənilməsinin böyük rolu olmuşdur. Məlum olduğu kimi, xaricdən hər hansı bir avadanlığın alınması həmin ölkəyə texnoloji proseslərdən istifadə edilməsinin mənimsənilməsi hüququ verir. Deməli, C.Koreya da xaricdən qabaqcıl texnologiya gətirməklə yeni, daha keyfiyyətli istehsal sahələri yarada bilmişdir. Məzh elə elm və texnika sahəsində olan fəal mübadilənin nəticəsində orada **atom elektroenergetikasının əsası qoyulmuşdur. Hazırda bu ölkədə 12 atom reaktoru faliyyət göstərir**. 2006-cı ildə yenidən 9 reaktor işə salınmışdır. Onlar cəmi istehsal olunan elektrik enerjisinin yarıdan çoxunu təmin edirlər.

Hər bir ölkənin ictimai-iqtisadi inkişafında onun elmi-tədqiqat təcrübə konstruksiya işlərinə (ETTKİ) ayırdığı vəsaitin həcminin böyük rolu vardır.

Bu mənada C.Koreyada sənayeləşmənin səviyyəsinin artması ETTKİ-nin inkişafına zəmin yaratmışdır. 1960-1980-ci illərdə burada həmin sahəyə ayrılan vəsait ÜDM-in 0,25 %-dən artaraq 0,58 %-nə, 1993-cü ildə 2,7 %-ə, 2003-cü ildə 2,5 %-ə

bərabər olmuşdur. Yaxın illərdə 5 %-ə çatdırılması planlaşdırılmışdır. Bu göstərici qabaqcıl ölkələrdəkindən artıqdır.

Ancaq 80-ci illərdə bu ölkədə elmi-istehsalat parkları, elmi-tədqiqat institutları, risk firmaları yaradılmışdır. Bu parklarda elmi təcrübələr keçirilir və yeni kütləvi məhsul növləri buraxılması təşkil edilir. 1987-ci ildə Elm və texnologiya nazirliyi dövlətin elmi-texniki siyasətinin əsas istiqamətini müəyyən edən **15 illik plan hazırlamışdır**. Bu planda mikroelektronika, zərif kimya, informatika və istehsalın avtomatlaşdırılması sahəsinin inkişafına xüsusi yer ayrılmışdır. 2001-ci ilə bu sahələr üzrə C.Koreya dünya üzrə qabaqcıl mövqeyə çıxmışdır.

Bəzi sənaye məhsulları istehsalında Koreya Respublikasının yeri

Məhsul növləri	Tutduğu yer
Dəniz gəmiləri	1
Televizorlar	2
Plastmaslar	4
Sintetik liflər	4
Avtomaşınlar	5
Polad	5
AES-də istehsal edilən elektrik enerjisi	6
Dəzgahlar	9

Bütün bunlarla yanaşı son illərdə məişət məhsulları istehsalından sənaye elektronikası, telekommunikasiya avadanlıqları, sürətçıxarma aparatları, faks və digər müasir rabitə vasitələri, istehsal robotları buraxılmasına keçid sürətlənmişdir.

Həmin planda kosmik texnologiya sahəsində də tədqiqat işlərinin genişlənməsi nəzərdə tutulur.

Texniki inkişafın ümumi səviyyəsinə görə C.Koreya qərbin sənaye ölkələrinin orta səviyyəsinin 40 %-ni təşkil edir. Məsələn, hər on min nəfərə görə elmi-texniki işçilərin və tədqiqatçıların sayı ABŞ-da -39, Yaponiyada -37 nəfər təşkil etdiyi halda, C.Koreyada 16 nəfər olmuşdur (1990).

Hər bir ölkədə istehsalın sürətlə genişləndirilməsi və onun texniki səviyyəsinin artmasında işçi qüvvəsinin kəmiyyət və keyfiyyəti xüsusi rola malikdir.

Uzun müddətdir ki, orada əhalinin nisbi artıqlığı (xüsusilə kənd yerlərində) özünü göstərir. Əhalinin ümumi təhsil hazırlığı kökündən dəyişilmişdir, 60-cı illərin əvvəllərində məcburi ibtidai təhsilə keçilmişdir, 90-cı illərin əvvəllərinə bütün uşaqlar ibtidai təhsilə cəlb olunmuşlar, artıq 90 %-i orta təhsilə yiyələnir. 20-24-yaşlı gənclərin 39 %-i bu və ya digər tədris müəssisəsində təhsil alır. 1996-cı ildə C.Koreya iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının (İƏ və İT)[1] varlılar klubuna daxil olmuşdur.

2. Təsərrüfat mexanizminin əsas cəhətləri

C.Koreyanın təsərrüfat mexanizminin inkişafının ən xarakterik cəhəti iqtisadiyyatda dövlətin hərtərəfli rolunun olmasından ibarətdir. Təsərüfatçılığın inkişafında hökumətin nəzarəti ölkənin əsas qanununda təsbit edilmişdir. Bütün sosial-iqtisadi vəzifələrin həlli dövlətin mərkəzləşdirilmiş nəzarəti-təsiri ilə həyata keçirilir. İri birliklərin meydana gəlməsinə, bank kapitalı ilə sənaye kapitalının qovuşmasına, dövlət bölməsinin artırılmasına stimul yaradılmışdır. **İşsizlər ordusunun əmələ gəlməməsi üçün xırda sahibkarlara köməklik göstərilmişdir.**

Kapitalın təmərküzləşməsi və mərkəzləşməsi iri maliyyə-sənaye qruplarının yaranmasına səbəb olmuşdur. Hazırda Koreya Respublikasında 4488 iri şirkət vardır. Orada fəaliyyət göstərən filialların sayı isə 5137-dir.

Çebol və yaxud Çiptan adlanan bu qruplar əsasən ticarət firmalarının bazasında formalaşmış və digər sahələrin kompaniyalarını da özlərinə daxil etməklə konqlomerata[2] çevrilmişlər. Təqribən 50 böyük qrup ölkənin iqtisadiyyatında həlledici rol oynayır.

---

[1] İƏ və İT-1961-ci ildə yaradılmışdır. 29 ölkəni birləşdirir. İqaməgahı Parisdədir.

[2] Konqlomerat - lat.iqtisadi birlik.

Bunlardan "Xende", "Samsunq", "Devu", "Lakki-Qoldstar", "Teu" və s. göstərmək olar. Bu iri birliklərin xüsusi cəhətləri ondan ibarətdir ki, onlar qısa müddətə mənfəət götürməyi nəzərdə tutmamışlar, uzun müddətə bazarda öz mövqelərini saxlamağa çalışır, istehsalın bir bölməsindən daha yüksək texnoloji sahəsinə keçirlər.

1980-ci ilin əvvəllərinə 10 daha böyük birlik emal sənayesinin 20 %-ni, 80-ci illərin axırlarına artıq 23 %-ni öz əllərində cəmləşdirmişlər. 1983-cü ildə 50 qabaqcıl Çebol ÜDM-in 25 %-ni, 100 Çebol isə 47 %-ni istehsal etmişdir. Kredit sahəsində üç bank hakim rol oynayır.

İri birliklər yaradılmasında hökumət **"küclü dövlət yaratmaq"** prinsipi ilə hərəkət etmişdir. Çebol qrupunun inkişafına güzəştli maliyyləşdirmə ilə yardım edilir. Onu qeyd etmək kifayətdir ki, xüsusi bölmənin inkişafına verilən bank kreditinin 75%-i Çebol qrupunun payına düşürdü. Bundan əlavə dövlət özü də həmin qrupun inkişafına kapital qoyurdu.

Sənaye qruplarına nəzarət ailə kapitalı vasitəsilə həyata keçirilir. İri korporasiyalar əsasən qabaqcıl səahələri inkişaf etdirirlər. Kapitaltutumlu və elmtutumlu məhsullar istehsalına üstünlük verirlər. Hazırda xırda və orta müəssisələrin sayı 900 mindən artıqdır. Xırda və orta həcmli müəssisələr isə istehlak malları istehsalı ilə məşğul olurlar. Cəmi işçi qüvvəsinin 57 %-i, sənaye məhsulunun isə 30 %-i həmin orta və xırda müəssisələrin payına düşür.

Xırda və iri kapital arasındakı kooperasiya münasəibətləri Yaponiyadakına nisbətən zəif, Hindistana nisbətən isə daha genişdir.

Dövlət bölməsi. Məlumdur ki, Cənubi Koreyada Yaponiyanın müstəmləkəçi mülkiyyəti mövcud olmuşdur. Məhz elə həmin mülkiyyətçiliyin əsasında da güclü dövlət mülkiyyəti yaranmışdır.

Bu mülkiyyətin əsas hissəsi 60-70-ci illərdə yaranmışdır. Bunun da hüquqi əsası **"Sənayenin İnkişafı və İxracını Nəzərdə Tutan İqtisadiyyatın Təşəkkül Tapması"** barədəki xüsusi qanun olmuşdur. Dövlət mülkiyyəti elektroenergetika, şosse yollarının çəkilməsi, qara metallurgiya istehsalı, kimyəvi gübrələr,

hidroehtiyatların istifadə edilməsi, dəniz mədənləri, kənd təsərrüfatında meliorasiya işləri və s. əhatə edir. 1981-ci ildə dövlətin 24 korporasiyası ÜDM-in 10 %-ə qədərini istehsal edirdi.

1962-ci ildən Cənubi Koreyada təsərrüfatçılıq mexanizmi iqtisadi fəaliyyətin planlaşdırılması ilə həyata keçirilir. Beşillik sosial-iqtisadi planlaşdırılma həyata keçirilir. 1962-1996-cı illərdə 7 beşillik plan həyata keçirilmişdir. **1990-cı illərdə Koreya artıq inkişaf etmiş sənaye ölkəsi kimi formalaşmışdır**. Son illərdə isə 10-15 illik planlar qəbul edilir. **1963-cü ildən ölkədə iqtisadi planlaşdırılma idarəsi mövcuddur. 1994-cü ildən bu idarənin vəzifələri sənaye nazirliyinə verilmişdir**. Yaponiyada olduğu kimi C.Koreyda da bəzi sənaye sahələrində **kartellər** yaradılır. Belə birliklər elektron sənayesində, mineral gübrələri istehsalında, gəmiqayırma sahəsində yaradılmışdır. Böhrandan çıxmış, zəif düşmüş kartellər hökumətin təminatı ilə kommersiya bankları tərəfindən maliyyləşdirilir.

Koreyada nəqliyyat təsərrüfatı da sürətlə müasirləşdirilmişdir.

Dəmir yolunun uzunluğu 7 min km-dir ki, bunun da çox hissəsi elektrikləşdirilmişdir. Seul ilə Pusan arasında yüksək sürətli dəmir yolu xətti mövcuddur – 412 km. Bunun 139 km-ri tunnellərdir, 112 km-ri körpülər, 111 km-ri isə tökmə torpaqdır. Bu nəqliyyat dəhlizi beynəlxalq xarakterə malikdir.

Çox xətli avtomobil yolu 2000 km-dir. 15 təyyarə liamnı (4-ü beynəlxalq limandır) fəaliyyət göstərir.

Dövlətin yaxından köməkliyi ilə kənd təsərrüfatında kapitalizmin inkişafına (əmtəə pul münasəbətlərinə) zəmin yaradılmışdır. 1948-ci ildə torpaq islahatı barədə qanun qəbul edilmişdir.

Aqrar sahənin inkişafında kooperativləşdirməyə üstünlük verilmişdir. 60-cı illərdə təchizat, satış-kredit kooperativləri həyata keçirilmiş, 70-ci illərdə "torpağın birgə becərilməsi kollektivləri" formalaşmışdır. 1972-ci ildən başlayaraq kənd yollarının, meliorasiyanın, mexanikləşmənin yaxşılaşdırılması, iş yerlərinin yaradılması ilə yeni kənd formalaşmışdır. Kredit sistemi dövlətin ciddi nəzarəti altında idi. **60-cı illərdə banklar milliləşdirilmişdir**.

Sonrakı illərdə isə yenidən özəlləşdirilmişlər. Kreditlər uzun müddətə çox güzəştli şərtlərlə verilmişdir. Böyük şirkətlərin rəqabət qabiliyyətli olmalarına hər cürə köməklik göstərilirdi. Hökumət birbaşa və yaxud dolayısı ilə kapital qoyuluşunun 60 %-nədək nəzarət edirdi. 60-cı illərdə kapital qoyuluşunun 20 %-i, 1972-1975-ci illərdə 14,5 %-i, 1976-1980-ci ilərdə 20 %-i, 1981-1984-cü illərdə 24,4 %-i hökumət tərəfindən həyata keçirilmişdir. Dövlət 2025-ci ilə elm sahəsindəki rəqabət qabiliyyətinə görə qabaqcıl 7-lərə daxil olmağı planlaşdırmışdır.

Əmək münasibətləri. İstehsal amillərinin qarşılıqlı münasibətləri sistemində işçi qüvvəsi əsas yeri tutur. Həmin dövrdə iqtisadi artımın sürətlə yüksəldilməsi strategiyası kəskin sosial proseslərlə qarşılaşırdı. Gəlirlərin bölgüsündə qeyri-bərabərlik, ən zəruri istehlak şeylərinin çatışmaması, kasıbçılığın artması özünü daha qabarıq şəkildə göstərirdi. 4-cü beşillik plandan (1977-1981) etibarən doğum üzərində nəzarət, məşğulluğun yaxşılaşdırılması, təhsil, səhiyyə, istehsal münasəibətlərinin yaxşılaşdırılması və bu kimi problemlər planlaşdırmaya daxil edilmişdir.

70-ci illərdə işçilərin orta aylıq əmək haqqı çox aşağı idi. 80-ci illərin əvvəllərinə isə orta hesabla 250 dollara çatdırılmışdır (bu Sinqapurdakından 2 dəfə az idi).

Sonrakı illərdə isə muzdlu işçilərin əmək haqqı hətta qərb ölkələrindən də sürətlə artmışdır. Onu da qeyd etmək lazımdır ki, qadın əməyi ilə kişi əməyi arasında kəskin (iki dəfə) fərq müşahidə olunur.

Həmkarlar ittifaqının rolu məhdud olmuşdur. 1987-ci ildən isə həmkarlar birliyinin miqyası 3,5 dəfə artmışdır. Lakin bunlar cəmi fəhlə və qulluqçuların ancaq 15 %-ni əhatə edə bilir.

Kollektiv müqavilələr - razılaşmalar əsasən müəssisə səviyyəsində həyata keçirilir. Ancaq toxuculuq sənayesi və bank işində belə razılıqlar sahəvi səviyyədə, dağmə'dən və ayaqqabı istehsalı sahəsində isə ərazi üzrə həyata keçirilir. Əmək müqavilələrinin gedişinə hökumət də təsir edir. **İldə üç-dörd dəfə əlavə əmək haqqı verilməsi tətbiq edilir. İri müəssisələrdə ömürlük muzdlu işləmək sistemi mövcuddur.**

İşçilər ixtisara düşdükdə onların uşaqları iki il məktəbdə pul ilə təmin edilir, bir neçə il isə həmin işçiyə müavinat verilir. İş həftəsi 80-ci illərdəki 60 saatdan 44 saata endirilibdir. Real kerçəklikdə isə daha çoxdur.

İqtisadi inkişaf modeli Yaponiya modelinə daha yaxındır. Burada iqtisadiyyatda hökumətin rolu daha artıqdır. Rəhbərlikdə diktatorluq metodundan geniş istifadə edilmişdir.

1978-ci illərdə C.Koreyanın bir çox firmaları öz xarici borclarını ödəyə bilmədikdə prezident onları daxili borclar faizindən azad etmişdir.

1987-ci illərdən isə dövlət tənzimlənməsi nisbətən azalmış, xarici istehsalçılara şərait yaradılmış, xırda və orta sahibkarlara köməklik artırılmışdır.

3. C.Koreyanın dünya təsərrüfat əlaqələri

C.Koreyanın xarici iqtisadi əlaqələrində xarici ticarət əsas yeri tutur. 60-80-ci illərdə orada xarici ticarətin artım sürəti ÜDM-in artım sürətindən 1,5-4,0 dəfə artıq idi. 60-cı illərdə ixracın orta illik artımı 33,4 %, 70-ci illərdə 31,8 %, 80-ci illərdə 14,5 %, 1990-1994-cü illərdə isə 10 % təşkil etmişdir. 2005-ci ildə cəmi xarici ticarət dövriyyəsi 545,6 mlrd. dollar, o cümlədən idxal – 261,2; ixrac isə 284,4 mlrd. dollara bərabərdir. Bütün bunlar xarici ticarət siyasətinin nəticəsi idi.

Buna baxmayaraq C.Koreya heç də açıq ticarət rejiminə malik deyildir. Xarici iqtisadi əlaqələr dövlətin hərtərəfli nəzarəti altındadır. Hər halda xarici ticarət dövriyyəsinin artması dünya bazarında onun rolunu yüksəltmişdir. 2005-ci ildə ixrac kvotası (ixracın ÜDM-ə nisbəti) 1990-cı ildəki 1,0 %-dən artaraq 36 %-ə çatmışdır.

Xarici ticarətin quruluşunda da köklü dəyişikliklər olmuşdur. Material və elmtutumlu məhsulların xüsusi çəkisi artmış, əməktutumlu məhsullar azalmışdır. 70-ci illərdən ağır sənayenin sürətli artımı Cənubi Koreyanın xarici bazara maşın və avadanlıq çıxarmasına imkan vermişdir. Emal sənayesi

məhsulu olan elektron və elektrotexniki məmulatlar ixracı da çoxalmışdır. 1976-1990-cı illərdə televizor ixracı cəmi ixracın 1,3 %-dən 2,4 %-dək artmışdır. Bütünlükdə elektronika və elektrotexnika satışı cəmi ixracın 25 %-ni təşkil edir. Cəmi ixracın 95 %-i hazır sənaye məhsullarından, bunun da 70 %-i ağır sənaye məhsullarından ibarətdir. İdxalın əsasını sənaye avadanlığı, xammal və ərzaq məhsulları təşkil edir. Maşın və avadanlıq idxalının həcmi 1980-1995-ci illərdə 10 dəfə artaraq cəmi idxalın 37 %-nə bərabər olmuşdur. Sənaye avadanlığına olan tələbin 50 %-ə qədəri idxal hesabına ödənilir.

Cənubi Koreyanın sənayeləşdirilməsinin bütün mərhələlərində Yaponiya və ABŞ-la ticarət əməkdaşlığı geniş olmuşdur. Belə ki, C.Koreyanın ixracının 14,1%-i, idxalın isə 24,8 %-i Yaponiyanın, müvafiq olaraq 21,4 və 21,1 %-i isə ABŞ-ın payına düşür.

Son vaxtlar isə Cənubi-Şərqi Asiya ölkələri birliyi (ASEAN) ilə əlaqələri genişlənir.

C.Koreyanın iqtisadi inkişafında xarici köməklik də böyük rol oynamışdır.

1955-1960-cı illərdə C.Koreyaya edilən xarici köməklik onun idxalının 78 %-nə bərabər idi. Bu cür birbaşa köməklik 1980-ci ildə dayandırılmışdır. Sonra borc kapitalına üstünlük verilmişdir.

Xarici borcun həcmi 1972-ci ildə 3,5 mlrd. dollar, 1990-cı ildə 27,4 mlrd. dollar, 1997-ci ildə 200 mlrd. dollar, 2003-cü ildə isə 128,2 mlrd. dollar olmuşdur. Ölkənin valyuta ehtiyatı – 163,5 mlrd. dollardır.

Koreyada olan cəmi yığılmış xarici birbaşa kapital 62 mlrd. dollara bərabərdir (2003). Bunun 24 %-i Yaponiyanın, 33 %-i ABŞ-ın, 28,5 %-i Avropa ölkələrinin, 14,3 %-i isə digər ölkələrin payına düşür.

Koreyanın xaricdə olan birbaşa kapitalı isə 26 mlrd. dollardır.

Xarici kapitalın köməkliyi ilə Koreyada azad iqtisadi zonalar da yaradılmışdır. Bunlardan 2-si Massan və İridə ixrac üçün istehsala ixtisaslaşmışdır. 90-cı ilin ortalarından Kvançju və Çonane yüksək texnoloji 2 sənaye parkı fəaliyyət göstərir.

XXXV FƏSİL
AZƏRBAYCANIN İQTİSADİYYATI

Azərbaycan Zaqafqaziyanın cənub-şərq hissəsində yerləşir. Sahəsi 86,6 min kv. km; əhalisi 8,4 mln. nəfərdir (2005). Azərbaycan ərazi bölgüsünə görə Naxçıvan Muxtar Respublikasını (5,5 min kv.km) və Dağlıq Qarabağ Vilayətini də (4,4 min kv.km.) özündə birləşdirir.

Paytaxtı Bakıdır (3,2 mln. nəfər). Böyük şəhərləri - Gəncə - 274,2 min; Mingəçevir - 96,7 min; Naxçıvan - 62,5 min nəfər. Əhalisinin 90 %-i azərbaycanlılardan ibarətdir. Qalan hissəsi isə ruslar, ləzgilər, gürcülər, tatarlar, ukraynalılar, kürdlər, türklər, yəhudilər və s.-dən ibarətdir. Rəsmi dövlət dili - azərbaycan dilidir. Azərbaycan prezidentli - konstitusiyalı respublikadır. Dövlət başçısı prezidentdir. Ali qanunvericilik orqanı - Milli Məclisdir. İcraedici hakimiyyət nazirlər kabinetinə məxsusdur. Azərbaycan uzun əsrlər boyu İranın tərkibində olmuşdur. 1805-1813 və 1826-1828-ci illərdə Rusiya ilə İran arasında gedən müharibələr nəticəsində bugünkü Azərbaycanın ərazisinin böyük bir hissəsi Rusiyanın tərkibinə daxil olmuşdur (1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqaviləsinə əsasən). 1917-ci ilin noyabr ayından sovet hakimiyyəti yaranmışdır.

1918-ci il may ayının 28-də Azərbaycanda Demokratik Respublika yaradılmışdır. 1920-ci ilin aprel ayının 28-də isə bu hakimiyyət devrilmiş və sovet hakimiyyəti bərpa edilmişdir. Nəhayət, 1991-ci ilin avqust ayının 30-dan Azərbaycanın əvvəlki, demokratik müstəqil quruluşu bərpa edilmişdir.

SSRİ-də sosializm sisteminin dağılması və SSRİ-nin parçalanması ilə ayrı-ayrı respublikalar kimi Azərbaycan da 1991-ci ildən yeni sosial-iqtisadi sistem, yeni quruculuq əsasında inkişaf yoluna keçmişdir. Həmin vaxtdan da respublikada ardıcıl olaraq ictimai dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi aparılır, hərtərəfli islahatlar həyata keçirilir və xüsusi sahibkarlıq inkişaf etdirilir. Keçid iqtisadiyyatına xas olan bir çox qanunauyğun çətinliklər aradan qaldırılır. Açıq bazar iqtisadiyyatının tələblərinə uyğun iqtisadiyyat formalaşır.

Bütün bu kimi proseslər 1993-cü ilin yayından Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründən sonra daha dinamik və ardıcıl xarakter almışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra xarici aləmlə olan əlaqələri ardıcıl olaraq genişləndirilir. **"Öz gücünə inanmaq" siyasətinə yaddır.** Belə ki, 1991-ci ildən İslam Konfransı Təşkilatının, 1992-ci ildən İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO); 1993-cü ildən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının; 1993-cü ildən Ümumdünya Ticarət Təşkilatının (müşahidəçi statusunda); 1993-cü ildən Müstəqil Dövlətlər Birliyinin (MDB); 1992-ci illərdən Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının və bu kimi yüzlərlə təşkilat və birliklərin üzvüdür.

Azərbaycan sənaye-aqrar ölkəsidir. Neft, dəmir filizi, alünitlər (zəy daşı), boz kolçedan, kobalt, molibden, barit (ağır metallar), mışyak ehtiyatları, mərmər, tuf daşı və s. ehtiyatları vardır.

Cəmi torpaq sahəsinin (8,6 mln. hektar) 4 mln. hektarı kənd təsərrüfatına yararlıdır. Bunun da 32 %-i əkin yerindən, 52 %-i otlaqlardan, 9,3 %-i biçənəklərdən, 3,5 %-i həyətyanı sahələrdən ibarətdir. Göründüyü kimi əkin dövriyyəsinə cəlb edilən torpaqların xüsusi çəkisi azdır. Odur ki, yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi sahəsində də hər tərəfli iş aparılır.

Azərbaycanın iqtisadiyyatı demək olar ki, sürətlə inkişaf etdirilir.

2006-cı ilə ÜDM-in həcmi 19,9 mlrd. dollar, hər nəfərə düşən ÜDM 2369 dollar təşkil etmişdir. Bunun 16182,2 mln. dolları sənaye məhsulları və xidmətlərdən, 2122, 1 mln. dolları isə kənd təsərrüfatı məhsullarından ibarətdir.

1996-cı ildən ÜDM-in artım sürətində kəskin dəyişiklik müşahidə olunur. Belə ki, 2000-ci ildə ÜDM- 11,4 %, 2001-ci ildə –9,9 %, 2002-ci ildə – 10,6 2006-cı ildə isə 2005-ci ilə nisbətən 34,5 % artmışdır.

ÜDM-in 72,9 %-i maddi istehsal sahələrinin, 20,6 %-i isə xidmət sahələrinin payına düşür.

Burada qeyri-dövlət bölməsi 81,0 % təşkil edir.

2006-cı il Azərbaycan sənayesi üçün çox uğurlu olmuşdur. Burada Azərbaycan neftinin Ceyhan terminalına çatması və «Şahdəniz» yatağından ilk qazın hasilatı, eləcə də hər birinin illik gücü 87 meqavatt olan Naxçıvan, Astara, Xaçmaz və Şəkidə yeni modul tipli elektrik stansiyalarının, bir çox emal sənayesi müəssisələrinin tikilib istifadəyə verilməsi sənayenin sürətli inkişafına zəmin yaratmışdır.

Respublikanın iqtisadiyyatında həlledici rola malik olan **neft istehsalı 2005-ci ilə nisbətən 42,7 % artaraq 32,3 mln. tona çatdırılmışdır** (bu 2001-ci ilin səviyyəsindən 2 dəfədən də artıqdır).

Qaz hasilatı isə 2005-ci ildəki 5732 mln. kub metrə qarşı 2006-cı ildə 6763 mln. kub metr olmuşdur.

Hasil edilən neftin 23,3 mln. tonu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin, qalan hissəsi isə Dövlət Neft Şirkəti və müştərək məüssisələrin payına düşür.

2008-2010-cu illərdə neft istehsalının ildə 50 mln. tona, 2010-2020-ci illərdə Xəzər dənizinin Azərbaycan sektorunda neft hasilatının ildə 75-100 mln. tona çatdırılması planlaşdırılmışdır. 2006-2024-cü illərdə Azərbaycanın neft gəlirləri 150 mlrd. dollara çata bilər.

Qeyri-neft bölməsi sahələrindən olan **metallurgiya və hazır məmulatlar** istehsalı 9,1 % artmışdır. Çuğun, poladtökmə, armatura, alüminium oksidi və s. istehsalı çoxalmışdır.

Maşın və avadanlıqların istehsalı müəssisələrində istehsalın həcmi 56, 4 %, elektrik avadanlıqları, optik və elektron avadanlıqlarının istehsalı 20,6 % artmışdır.

Kimya sənayesi məhsullarından – kauçuk soda buraxılışı – 26,1 %, azot – 12 %, propilen – 31,9 %, etilen – 32,0 %, izopropil spirti – 2,1 %, xlorid turşusu – 23,0 % artmışdır.

Respublikanın kənd təsərrüfatı çoxsahəli təsərrüfatçılığa əsaslanır. Daha çoxçeşidli bitkiçilik növləri və heyvandarlığın bütün sahələri inkişaf etdirilir.

2006-cı ildə **783,6 min hektar** sahədə taxıl əkilmişdir. 2078,3 min ton taxıl istehsal edilmişdir (hər hektardan olan məhsuldarlıq – 26,5 sentner olmuşdur). Bu taxılın 72,4 %-i (1504,1 min tonu) buğdadır. Kartof istehsalı – 999,3 min ton, 169,3 min ton şəkər çuğunduru, 1185,8 min ton tərəvəz, 130,1 min ton pambıq, 48 min ton tütün yarpağı, 361,5 min ton bostan məhsulları istehsal edilmişdir.

Bununla yanaşı 661,4 min ton meyvə və giləmeyvə, 94,1 min ton üzüm, 655 ton yaşıl çay yarpağı istehsal edilmişdir.

Kənd təsərrüfatının digər əsas sahəsi olan heyvandarlıqda – 2430,2 min baş iribuynuzlu mal-qara, 7874,4 min baş qoyun və keçi mövcuddur. Diri çəkidə ət istehsalı 273,6 min ton, süd

istehsalı 1299,5 min ton, 760,9 milyon ədəd yumurta, 12,6 min ton yun istehsal edilmişdir.

Aydındır ki, iqtisadiyyatın bütün sahələri ancaq qarşılıqlı, vəhdəd halında inkişaf tapa bilər. Bu mənada iqtisadi inkişafı nəqliyyatsız təsəvvür etmək olmaz.

Nəqliyyat bölməsi ölkənin əsas infrastruktur sahələrindən biridir.

Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin fəaliyyəti də daxil olmaqla, nəqliyyat bölməsi subyektləri tərəfindən 2006-cı ildə 145, 1 milyon ton yük daşınmışdır və yük dövriyyəsinin həcmi 43,1 mlrd. ton-km olmuşdur. Bu yüklərin 51,3 %-i avtomobil, 20,5 %-i dəmir yolu, 18,9 %-i boru kəmərləri, 9,3 %-i isə dəniz nəqliyyatı ilə həyata keçirilmişdir.

Sərnişin daşınması sahəsində çox yüksək göstərici əldə edilmişdir. Belə ki, 2006-cı ildə nəqliyyat xidmətindən istifadə etmiş sərnişinlərin sayı 1063,3 mln. nəfər təşkil etmişdir. Bu isə 15,9 mlrd. sərnişin km-rə bərabərdir.

Yük və sərnişin daşımalarından 872,0 mln. manat gəlir əldə edilmişdir.

Avtomobil yollarının və yol qurğularının tikintisinə üstünlük verilir. Bakıda ümumi dəyəri **200 mln. manatdan** çox olan **9 körpü, 13 yeraltı və yerüstü piyada keçidlərinin** tikintisi başlanmış, artıq iki körpü istifadəyə verilmişdir.

Hər bir ölkənin beynəlxalq iqtisadi əlaqələrinin genişləndirilməsi onun, iqtisadi inkişafının həlledici amillərindən biri kimi çıxış edir. 2006-cı ildə Azərbaycan dünyanın **139** ölkəsi ilə ticarət əlaqəsi yaratmışdır.

Xarici ticarət dövriyəsinin ümumi həcmi **11636,6** mln. dollar, o cümlədən ixrac **6372,1** mln. dollar, idxal isə **5264,5** mln. dollar olmuşdur. Xarici ticarətin 74,0 %-i uzaq xarici ölkələrlə, 26,0 %-i MDB ölkələri ilə aparılmışdır. İdxalın 30,8 %-i, ixracın isə 57,2 %-i Avropa Birliyi ölkələrinin hesabına formalaşmışdır.

İdxalın 29,4 %-ni maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 16,7 %-ni nəqliyyat vasitələri, 14,8 %-ni müxtəlif xammallar, 11,6 %-ni azqiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 10,5 %-ni ərzaq malları, 4,7 %-ni kimya sənayesi məhsulları təşkil etmişdir.

İxracın 84,6 %-i mineral xammallardan, 5,1 %-i ərzaq mallarından, 3,0 %-i kimya sənayesi məhsullarından, 2,3 %-i azqiymətli metallar və onlardan hazırlanmış məmulatlardan, 1,3 %-i nəqliyyat vasitələrindən, 1,0 %-i toxuculuq məhsulları və məmulatlarından ibarət olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi respublika hələ ki, keçid iqtisadiyyatı şəraitindədir. Odur ki, hazırda da **özəlləşdirilmə** aparılması və **xüsusi sahibkarlığın** yaradılması prosesi davam etdirilir. Belə ki, özəlləşdirilmə üzrə təkcə son illərin göstəricilərinə nəzər salsaq bu prosesin necə dinamik davam etdirildiyini aydın müşahidə edərik.

Məsələn, **2003-cü** ildə - 1677, 2004-cü ildə – 1954, 2005-ci ildə –2463, 2006-cı ildə - 3063 kiçik müəssisə və obyekt özəlləşdirilmişdir.

Ümumiyyətlə ölkədə özəlləşdirilmə başlayan dövrdən 2007-ci ilin yanvar ayının 1-nədək ümumi dəyəri **155,9** mln. manat olan **46181** kiçik müəssisə və obyekt özəlləşdirilmişdir. Bu özəlləşdirilən müəssisələrdə – sənaye müəssisələrinin sayı – 890, kənd təsərrüfatı müəssisələri – 123, tikinti təşkilatları – 505, ticarət müəssisələri – 3701, ictimai iaşə müəssisəsi – 1053, məişət xidməti müəssisələri – 10034, yanacaqdoldurma məntəqələri – 648, nəqliyyat sahələri üzrə müəssisə və nəqliyyat vasitələri – 19584, kommunal təsərrüfatı obyekti – 180, digər obyekt və avadanlıqlar – 9308 ədəd olmuşdur.

Azərbaycanın iqtisadi inkişafında xarici kapitalın da böyük rolu vardır. Bu sahədə əsas prinsip xarici kapitalın cəlb edilməsinə şərait yaratmaqdan ibarətdir. Məhz elə bu məqsədlə də 1992-ci ildə «xarici investisiyanın qorunması» barədə qanun qəbul edilmişdir. Bu siyasətin əsas məqsədi Azərbaycan iqtisadiyyatına xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl texnika və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, xarici investorların hüquqlarının müdafiəsinin artırılmasına yönəldilmişdir. Xarici kapitalın cəlb edilməsində güzəştli şərtlər qoyulmuşdur. Odur ki, ölkənin iqtisadiyyatına qoyulmuş xarici kapitalın həcmi 1995-ci ildəkinə nisbətən 3,1 dəfə artaraq 1996-cı ildə 494,4 mln.dollar; 1997-ci ildə 916,2 mln.dollar; 1998-ci ildə 1082,5 mln. dollar; 1999-cu ildə 1198 mln.dollar, 2000-ci ildə 1200 mln. dollar olmuş, 2002-ci ilə cəmi yığılmış birbaşa xarici kapital 5.4 mlrd. dollar təşkil etmişdir.

2006-cı ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5985,7 mln. manat investisiya yönəldilmişdir.

Bu vəsaitin 3229,6 mln. manatı xarici investisiyadır. 2756,1 mln. manatı isə daxili mənbələr hesabınadır. Əsas kapitala yönəldilmiş bütün investisiyanın 69 %-i sənaye sahələrinin inkişafına sərf edilmişdir.

Mütəxəssislərin hesablamalarına görə gələcəkdə Azərbaycanın iqtisadi inkişafına qoyulan illik xarici investisiya 20-25 mlrd. dollaradək artırıla bilər. Aydındır ki, xarici investisiyanın daha çox hissəsi neft sahəsinin inkişafına sərf edilir. Son beş ildə karbohidrogen yataqlarının inkişafı, işlənməsi və istismarı üzrə 15 ölkənin 33 şirkətinin iştirakı ilə 20 beynəlxalq müqavilə imzalanmışdır. Bu müqavilələr üzrə neft bölməsinə 2,8 mlrd. dollar investisiya qoyulubdur. Bütövlükdə isə bu vəsaitin 60 mlrd. dollara çatdırılması nəzərdə tutulubdur.

2000-ci il yanvarın 1-nə olan məlumata görə Azərbaycanda xaricilər tərəfindən və onların iştirakı ilə yaradılmış 1289 şirkət, nümayəndəlik və yaxud filial fəaliyyət göstərir. Bunların 35 %-i müştərək, 44,2 %-i tam xarici investisiyaya əsaslanan müəssisələr, 22,3 %-i isə nümayəndəlik və filiallardır. Bu müəssisələrin 14,4 %-i sənayedə, 8,2 %-i tikintidə, 43,6 %-i ticarətdə, 8 %-i nəqliyyatda, qalanları isə digər sahələrdə yaradılıbdır.

Vaxt keçdikcə belə müəssisələrin sayı sürətlə artır. Bakıda böyük gəmiqayırma zavodu tikilməsi barədə Azərbaycan investisiya kompaniyası ilə Koreya Respublikasının STS xoldinqi arasında (24 aprel 2007-ci il tarixdə) razılıq əldə edilmişdir. Burada Azərbaycanın investisiya kompaniyasının payı 25 % təşkil edəcəkdir.

Turizmdən olan gəlirlərin artırılması üçün 2016-cı ilə 150000 yerlik mehmanxanalar tikilib istifadəyə veriləcəkdir (hazırda 25 min yerlik mehmanxana mövcuddur).

Azərbaycan 19 ölkə ilə turist müqaviləsi imzalayıbdır (Koreya Respublikası və Çin ilə də imzalanması gözlənilir).

Respublikanın strateji proqramları və layihələrinin yerinə yetirilməsində «Xüsusi iqtisadi zona»ların yaradılması da mühüm əhəmiyyət kəsb edir. Odur ki, «Azərbaycan Respublikasında

xüsusi iqtisadi zonaların yaradılması haqqında» 6 mart 2007-ci ildə Fərman imzalanmışdır.

Azərbaycanda güclü elmi kadrlar potensialı mövcuddur.

2005-ci ilə ölkədə olan cəmi əmək qabiliyyətli əhalinin sayı 5939,5 min nəfər olmuşdur. İqtisadi fəal əhali – 3865,0 min, iqtisadiyyatda məşğul olan əhali isə 3809,1 min nəfər təşkil etmişdir. Bunların 1959,5 min nəfəri maddi istehsal sahələrində, 1849,6 min nəfəri isə qeyri-maddi istehsal sahələrində çalışır. Sənaye müəssisələrində işləyənlərin sayı 165,5 min nəfərdir.

2006-cı ildə ölkədə çalışan işçilərin orta aylıq əmək haqqı 141,3 manat təşkil etmişdir. Muzdla işləyənlərin orta aylıq əmək haqqı isə 267,3 manat, o cümlədən mədənçıxarma bölməsində 648,0 manat, emal sənayesində 143,0 manat təşkil etmişdir. Neft bölməsində işləyənlərin orta aylıq əmək haqqı 399,0 manat olmuşdur.

Respublikada güclü pensiya sistemi mövcuddur. Belə ki, qocalığa görə, ailə başçısının itirilməsinə görə, sosial pensiyalar və xidmət illərinə görə pensiya növləri vardır. 2005-ci ildə cəmi pensiyaçılar 1373 min nəfər olmuşdur. 2006-cı ildən sosial pensiyalar sosial müavinətlə əvəz edildiyinə görə pensiyaçıların sayı azalmış və 1226 min nəfər təşkil etmişdir. 2007-ci ilin əvvəlinə aylıq pensiyanın orta məbləği 42 manatdır.

Əhaliyə pensiya və müavinətlərin maliyyələşdirilməsi üzrə ayrılan vəsait 529,4 mln. manat təşkil edir.

Ölkədə 1764 məktəbəqədər müəssisə, 4528 dövlət və 12 qeyri-dövlət gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərir. 1,5 mln. nəfər şagird təhsil alır.

Ölkədə 28 dövlət və 14 qeyri-dövlət ali məktəbi (129 min tələbə), 56 dövlət və 4 qeyri-dövlət orta ixtisas məktəbi (57 min tələbə) mövcuddur. Ali məktəblərdə oxuyan tələbələrin 44 %-i təqaüdlə təmin edilir. Daha yüksək göstəricilərə görə 102 nəfər tələbə Prezident təqaüdünə layiq görülmüşlər.

2007-ci ilin əvvəlinə respublikada müxtəlif elmi-texniki xidmətlərə malik 146 elmi təşkilat və müəssisə, 97 elmi-tədqiqat təşkilatı, 33 ali məktəb, 9 elm və elmi xidmət sahəsinin sair təşkilatları, 6 konstruktor təşkilatı və bir layihə təşkilatı fəaliyyət göstərir.

Dünya iqtisadiyyatı fənninin tədrisində ayrı-ayrı mövzular üzrə təqribi saat bölgsü

		Cəmi 80 s.		Cəmi 60 s.	
		O cümlədən		O cümlədən	
		Müh. 50	Məş. 30	Müh. 30	Məş. 30
1	Vahid dünya təsərrüfatı sistemi	2	2	2	2
2	Dünya təsərrüfatının yaranması və inkişafı	2			
3	Dünya iqtisadiyyatı və təbii ehtiyatlar	2	2	2	2
4	Azad iqtisadi zonalar ümumdünya təsərrüfatının elementidir	2			
5	Beynəlxalq şirkətlər dünya təsərrüfatı və beynəlxal iqtisadi münasibətlərin hərəkətverici qüvvəsidir	2	2	2	2
6	Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi inteqrasiya birliklərinin yaranması	2	2	2	2
7	Dünya iqtisadiyyatı və nəqliyyat sistemi	2	2	2	2
8	Aqrar sənaye kompleksi				
9	Dünya üzrə sənaye iqtiadiyyatının inkişafı və onun quruluşu	2	2	2	2
10	Dünya təsərrüfatı və əhali problemi	2	2	2	2
11	Ərzaq məhsulları istehsalı və ərzaq təhlükəsizliyi problemi	2			
12	Dünya üzrə iqtisadi artım problemi	2	2	2	2
13	Benyəlxalq texnologiya mübadiləsinin inkişafı	2			
14	Dünya təsərrüfatı və inkişaf etmiş sənaye ölkələri	2	2	2	2
15	Dünya iqtisadiyyatı və ABŞ	2	2	2	2
16	Kanadanın iqtisadiyyatı				
17	Yaponiyanın iqtisadiyyatı				
18	Qərbi Avropa dövlətlərinin iqtisadiyyatı	2	2	2	2
19	AFR-in iqtisadiyyatı				
20	Böyük Britaniyanın iqtisadiyyatı				
21	Fransanın iqtisadiyyatı				
22	İtaliyanın iqtisadiyyatı				
23	Mərkəzi Avropa ölkələrinin iqtisadiyyatı	2	2	2	2
24	Şimali Avropa ölkələrinin iqtisadiyyatı	2			
25	Cənubi Avropa ölkələrinin iqtisadiyyatı	2			
26	Mərkəzi və Şərqi Avropa ölkələrinin iqtisadiyyatı	2	2	2	2
27	Avstraliya və Yeni Zellandiyanın iqtisadiyyatı	2			
28	İnkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı	2	2	2	2
29	Asiya ölkələrinin iqtisadiyyatı	2			
30	Latın Amerikası ölkələrinin iqtisadiyyatı	2			
31	Afrikanın iqtisadiyyatı	2			
32	Çinin iqtisadiyyatı				
33	Hindistanın iqtisadiyyatı				
34	Cənubi Koreya Dünya iqtisadiyyatında				
35	Azərbaycanın iqtisadiyyatı	2	2	2	2

Bu bölgü təqribi saat bölgüsüdür. Hər hansı bir tədris ocağı bu fənnə ayrılan saatların həcminə görə müəyyən dəyişikliklər edə bilərlər.

ƏDƏBİYYAT

1. Ш.Г.Гаджиев. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев, Експресс-Об'ява, 2000.
2. S.Səfərov. Yeni Azərbaycan. İqtisadiyyat, siyasət, dinamizm. Bakı, 2003.
3. Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005.
4. G.Gənciyev. BİM: Müasir vəziyyət və inkişaf problemləri. Bakı, 2005.
5. Q.Süleymanov. Beynəlxalq əmək bazarının inkişaf problemləri. Dərslik, Bakı, 2006.
6. Q.Süleymanov. İnnovasiya prosesinin təşkili və idarə edilməsi Bakı, 2007.
7. Ə.Bayramov. Regional iqtisadi inteqrasiya. Bakı, 1997.
8. D.Vəliyev. Beynəlxalq iqtisadiyyat. Bakı, 1997.
9. A.Ş.Şəkərəliyev. Dünya iqtisadiyyatı və Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999.
10. А.С.Булатов. Мировая экономика. Учебник. М., 2004.
11. В.К.Ломакин. Мировая экономика. Учебник. М., 2004.
12. А.Н.Маркова (ред.). История Мировой экономики. Хозяйственные реформы 1920-1990 г.г. Учебное пособие. М., 1998.
13. А.Н.Маркова, Г.Б.Поляк. История мировой экономики. М., 1999.
14. Ред. И.С.Иванова. Страны мира. Справочник. М., 1999.
15. Red. T.S.Vəliyev, Ə.P.Babayev, M.X.Meybullayev. İqtisadi nəzəriyyə. Dərslik. B., 2001.
16. H.M.Rəcəbli, V.Ə.İbayev. Avropa Şurası. Bakı, Elm – 1999.
17. C.H.Kərimov, C.A.Hüseynov. Beynəlxalq iqtisadi münasibətlər (mühazirə toplusu). Bakı, Azərnəşr – 1998.
18. C.H.Kərimov. Dünya ölkələri. Makroiqtisadi göstərijilər (sorğu). Bakı, 2006.

19. Под. ред. В.П.Колесова и М.Н.Осьмовой. Мировая экономика. Экономика зарубежных стран. Учебник. М., 2000.
20. И.Н.Гречикова. Международные экономические организации. Регулирование мирохозяйственный деятельностей. Учебное пособие. М., 2001.
21. Х.А.Шреплер. Международные экономические организации. М., 1998.
22. А.И.Погорлецкий. Экономика зарубежных стран. Учебник. Санкт-Петербург, 2000.
23. И.С.Цыпин, В.Р.Веснин. Мировая экономика. Учебник. Москва, 2007.
24. В.А.Дадалко. Мировая экономика. Минск, «Ураджай». «Интерпрессервис», 2001.
24. Под общ.ред. В.В.Полякова и Р.К.Шенина. Мировая экономика и международный бизнес. Москва, 2005.
25. Под ред. А.С.Булатова. Страны и регионы мира. Экономико-политический справочник. Москва, 2005.
26. В.П.Максаковский. Географическая картина мира. В 2-х кн. М., 2005.
27. Под ред. И.Р.Хасбулатова. Мировая экономика и международные экономические отношения. Москва, 2006.
28. Ред В.П.Воронина. Мировое хозяйство и экономика стран мира. Москва, 2007.
29. Д.А.Шевчук. Мировая экономика. Конспект лекций. Ростов-на-Дону, Феникс, 2007.
30. П.Ф.Шимко. Международная экономика. Практикум. Ростов-на-Дону. Феникс, 2004.
31. İ.Ə.Feyzullabəyli, E.İ.İbişov, H.A.İsrafilov. Beynəlxalq ticarət işi. B., 2001.
32. Под ред. В.Е.Рыбалкина. Международные экономические отношения. Москва, 2006.
33. Г.П.Черников, Д.А.Черникова. Европа на рубеже XX-XXI веков. Москва, 2006.
34. İqtisadiyyat və həyat. Aylıq iqtisadi jurnal. № 1-2, 2007.

MÜNDƏRİCAT

Səh.

Ön söz..... 3

I FƏSİL. Vahid dünya təsərrüfatı sistemi

1. Vahid dünya təsərrüfatı anlayışı. Dünya təsərrüfatının subyektləri..... 4
2. Dünya iqtisadiyyatı fənninin predmeti və metodu..... 10
3. Dünya təsərrüfatının yarımsistemlərə ayrılması meyarı... 13
4. Dünya təsərrüfatı inkişafının əsas göstəriciləri..... 18

II FƏSİL. Dünya təsərrüfatının yaranması və inkişafı

1. Qədim dünya təsərrüfatçılığı..... 21
2. Qərbi Avropanın inkişafı və dünya bazarının yaranması..... 24
3. Dünya təsərrüfatının formalaşması və onun inkişaf dövrləri..... 31

III FƏSİL. Dünya iqtisadiyyatı və təbii ehtiyatlar

1. Dünya iqtisadiyyatı və təbii (mineral) ehtiyatlar..... 42
2. İstehsal və mineral ehtiyatlardan istifadə edilməsi..... 50
3. Mineral xammalın qiymətlərinin formalaşdırılması. Təbii ehtiyatlardan istifadənin sosial-iqtisadi cəhətləri..... 53

IV FƏSİL. Azad iqtisadi zonalar ümumdünya təsərrüfatının elementidir

1. Azad iqtisadi zonaların mahiyyəti və yaranma səbəbləri..... 58
2. Azad iqtisadi zonaların növləri..... 61
3. Müxtəlif ölkələrdə və regionlarda azad iqtisadi zonaların yaradılması..... 66
4. Azad iqtisadi zonaların ümumi cəhətləri..... 67

V FƏSİL. Beynəlxalq şirkətlər dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlərin hərəkətverici qüvvəsidir

1. Beynəlxalq şirkətlərin yaranması (tarixi və məntiqi baxış).. 71
2. Transmilli şirkətlərin iqtisadi məzmunu və onların təsnifatı..... 78

3. Transmilli şirkətlər beynəlxalq iqtisadiyyatın maddi əsasıdır..... 84
4. Bank kapitalının təmərküzləşməsi və Transmilli bankların yaranması..... 88
5. TMŞ-lər və kapital ixracı problemi..... 91
6. İnkişaf etmiş ölkələrdə transmilli maliyyə-sənaye qruplarının (MSQ) yaranması..... 92
7. Müasir şəraitdə TMŞ-lərin fəaliyyətinin xüsusiyyətləri..... 105
8. TMŞ-lər və innovasiya prosesinin inkişafı..... 107
9. Azərbaycanda transmilli şirkətlərin fəaliyyəti..... 112

VI FƏSİL. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi inteqrasiya birliklərinin yaranması

1. İqtisadi inteqrasiyanın mahiyyəti. Ərazi üzrə iqtisadi inteqrasiya yaradılmasının obyektiv əsasları..... 123
2. İnteqrasiya proseslərinin təkamülü. Regional inteqrasiyanın əsas formaları..... 127
3. Avropa dövlətləri arasında iqtisadi inteqrasiya birliyi yaradılmasının əsas tarixi, siyasi və iqtisadi tərəfləri..... 131
4. Avropa iqtisadi birliyi üzrə Roma müqaviləsi..... 138
5. Aİ-nin inkişaf mərhələləri..... 139
6. Aİ-nin təşkilati quruluşu..... 148
7. Aİ-nin maliyyə sistemi..... 151
8. Şimali Amerika azad ticarət zonası (NAFTA)..... 152
9. Cənubi Amerika ölkələrinin iqtisadi inteqrasiyası..... 159
10. Cənub-şərqi Asiya ölkələri Birliyi (ASEAN)..... 162
11. Asiya-Sakit okean iqtisadi əməkdaşlığı (ATES)..... 164
12. Afrikada inteqrasiya prosesinin inkişafı..... 167

VII FƏSİL. Dünya iqtisadiyyatı və nəqliyyat sistemi

1. İqtisadi inkişafda nəqliyyat amilinin rolu..... 170
2. Dünya dəmiryolu nəqliyyatı sistemi..... 176
3. Dünya avtomobil yollarının inkişafı..... 179
4. Dünya üzrə dəniz gəmiçiliyi nəqliyyatı..... 184
5. Dünya üzrə dəniz limanları və iqtisadi inkişafda onların rolu..... 186

6. Beynəlxalq dəniz kanalları və beynəlxalq Yükdaşımalarda onların rolu ... 193
7. Dünya boru kəmərləri nəqliyyatı və beynəlxalq yükdaşımalarda onların rolu ... 199
8. Dünya hava nəqliyyatı ... 203

VIII FƏSİL. Aqrar sənaye kompleksi

1. Kənd təsərrüfatı iqtisadiyyatının ümumi xarakteritikası ... 206
2. Aqrar-sənaye kompleksi ... 208
3. Kənd təsərrüfatının quruluşu ... 209
4. İEOÖ-rin kənd təsərrüfatının inkişaf xüsusiyyətləri («yaşıl inqilab») ... 214
5. Müasir şəraitdə kənd təsərrüfatının inkişafında yeni meyllər ... 217

IX FƏSİL. Dünya üzrə sənaye iqtisadiyyatının inkişafı və onun quruluşu

1. Sənaye iqtisadiyyatının ümumi xarakteristikası ... 221
2. Maşınqayırma sənayesinin inkişafı ... 225
3. Dünya üzrə metallurgiya kompleksi ... 234
4. Neft sənayesinin inkişafı ... 237
5. Dünya qaz sənayesinin inkişafı ... 241
6. Kömür sənayesinin inkişafı ... 244
7. Dünya üzrə elektrik enerjisi istehsalı ... 247
8. Kimya sənayesinin inkişafı ... 251

X FƏSİL. Dünya təsərrüfatı və əhali problemi

1. Dünyanın demoqrafik inkişafı ... 253
2. Əhali artımı və iqtisadi artım ... 260
3. Demoqrafiya siyasəti ... 265
4. Dünya əmək ehtiyatları, onların kəmiyyət və keyfiyyət tərəfləri ... 267
5. İşçi qüvvəsindən istifadə edilməsi ... 272

XI FƏSİL. Ərzaq məhsulları istehsalı və ərzaq təhlükəsizliyi problemi

1. Ərzaq məhsulları istehsalının dinamikası ... 278

2. Ərzaq məhsullarının beynəlxalq ticarəti və onun bəzi xüsusiyyətləri ... 285
3. Dünya üzrə və milli miqyasda ərzaq təhlükəsizliyi problemi ... 289
4. Ərzaq təhlükəsizliyinin təmin edilməsində bəzi ictimai-nəzəri və əməli problemlər ... 291
5. Ərzaq kömək liyi problemi ... 297

XII FƏSİL. Dünya üzrə iqtisadi artım problemi

1. İqtisadi artımın mahiyyəti və dinamikası ... 300
2. İqtisadi artımın modelləri ... 306
3. ...İqtisadi artım və iqtisadiyyatın quruluşunun dəyişilməsi ... 313
4. Elmi-texniki tərəqqi və iqtisadi artım ... 315
5. İqtisadi artımın keyfiyyəti: ... 318
a) İstehsalın ətraf mühitə təsiri ... 319
b) İstehlak və ətraf mühit ... 321
v) təbiətdən itsifadənin tənzimlənməsi və ətraf mühitin mühafizəsi ... 323
q) İqtisadiyyatın hərbiləşdirilməsi ... 325
6. İqtisadi artım və sosial tərəqqi ... 326

XIII FƏSİL. Beynəlxalq texnologiya mübadiləsinin inkişafı

1. Beynəlxalq elmi-texniki mübadilə – BİM-in bir formasıdır ... 336
2. Beynəlxalq texnologiya mübadiləsinin əsas formaları ... 341
3. Dünya texnologiya bazarı. Onun quruluşu və müasir vəziyyəti ... 351
4. Beynəlxalq texnologiya mübadiləsi və hüquq normaları ... 353

XIV FƏSİL. Dünya təsərrüfatı və inkişaf etmiş sənaye ölkələri (İEÖ)

1. İnkişaf etMiş sənaye ölkələrinin ümumi xarakteristikası ... 355
2. İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi inkişaf səviyyə lərinin bərabərləşməsi ... 361
3. İnkişaf etmiş sənaye ölkələrinin əsas inkişaf modelləri ... 366
4. İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi siyasətinin əsas istiqamətləri ... 368
5. Daxili bazarın həcmi problemi ... 375

XV FƏSİL. Dünya iqtisadiyyatı və ABŞ

1. ABŞ-ın iqtisadi inkişafının xarakterik xüsusiyyətləri... 383
2. Dünya təsərrüfatında ABŞ-ın mövqeyi... 391
3. ABŞ-ın dünya iqtisadiyyatına təsiri amilləri... 394
4. Müasir dövrdə ABŞ-ın makroiqtisadi siyasəti... 399

XVI FƏSİL. Kanadanın iqtisadiyyatı

1. Kanada iqtisadiyyatının ümumi xarakteristikası... 402
2. Kanadanın makroiqtisadi inkişaf modeli... 405
3. Kanada iqtisadiyyatının müasir vəziyyəti... 409

XVII FƏSİL. Yaponiyanın iqtisadiyyatı

1. Yaponiyanın iqtisadi inkişafının ümumi xarakteristikası... 413
2. Yaponiya iqtisadiyyatının inkişaf mərhələləri... 415
3. Yaponiyanın iqtisadi inkişaf modeli... 420
4. Beynəlxalq iqtisadi münasibətlərdə Yaponiyanın yeri... 424

XVIII FƏSİL. Qərbi Avropa dövlətlərinin iqtisadiyyatı

1. Qərbi Avropa ölkələrinin ümumi xarakteristikası... 432
2. Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf mərhələləri: birinci mərhələ (1945-1950-ci illər)... 439
3. İkinci mərhələ (1950-1974-cü illər)... 440
4. Üçüncü mərhələ (1974-1984-cü illər)... 442
5. Dördüncü mərhələ (1985-1990-cı illər)... 444
6. Beşinci mərhələ – (1991-ci ildən sonrakı dövr)... 445

XIX FƏSİL. AFR-in iqtisadiyyatı

1. AFR-in iqtisadi inkişafının ümumi xarakteristikası... 448
2. 20-30-cu illərdə Almaniyanın iqtisadi siyasəti... 454
3. İkinci Dünya Müharibəsindən sonra Almaniyanın iqtisadi siyasəti... 457
4. Təsərrüfat mexanizminin əsas cəhətləri. Almaniyada sosial bazar iqtisadiyyatı modeli... 459

XX FƏSİL. Böyük Britaniyanın iqtisadiyyatı

1. Böyük Britaniya iqtisadiyyatının ümumi xarakteristikası... 467

2. Böyük Britaniyanın makroiqtisadi inkişaf modeli... 473
3. Böyük Britaniyanın iqtisadiyyatının quruluşu... 478

XXI FƏSİL. Fransanın iqtisadiyyatı

1. FranSA iqtisadiyyatının ümumi xarakteristikası... 482
2. Fransanın makroiqtisadi inkişaf modeli... 485
3. Müasir şəraitdə Fransanın «sosial-bazar iqtisadiyyatı»nın vəziyyəti... 491

XXII FƏSİL. İtaliyanın iqtisadiyyatı

1. İtaliyanın iqtisadiyyatının ümumi xarakteristikası... 495
2. İtaliyanın iqtisadi inkişaf modeli... 497
3. İtaliya iqtisadiyyatının quruluşu... 500
4. 1990-cı illərdə İtaliyanın iqtisadi siyasəti... 503

XXIII FƏSİL. Mərkəzi Avropa ölkələrinin iqtisadiyyatı

Avstriya... 506
Belçika... 509
Niderland Krallığı (Hollandiya)... 511
İsveçrə... 517
İrlandiya Respublikası... 520

XXIV FƏSİL. Şimali Avropa ölkələrinin iqtisadiyyatı

1. İsveç (İsveç Krallığı)... 529
2. Norveç (Norveç Krallığı)... 532
3. Danimarka (Danimarka Krallığı)... 535
4. Finlandiya (Finlandiya Respublikası)... 537
5. İslandiya (İslandiya Respublikası)... 540

XXV FƏSİL. Cənubi Avropa ölkələrinin iqtisadiyyatı

İspaniyanın iqtisadiyyatı... 545
Portuqaliya (Portuqaliya Respublikası)... 551
Yunanıstan (Yunanıstan Respublikası)... 554

XXVI FƏSİL. Mərkəzi və Şərqi Avropa ölkələrinin iqtisadiyyatı (M və ŞAÖ)

1. M və ŞAÖ-nin iqtisadi inkişafının ümumi xarakteristikası... 558
2. M və ŞAÖ-nin iqtisadiyyatında yeni dəyişikliklər... 560

3. M və ŞAÖ-nin iqtisadiyyatının müasir vəziyyəti..... 562

XXVII FƏSİL. Avstraliya və Yeni Zelandiyanın iqtisadiyyatı

1. Avstraliya və Yeni Zelandiya haqqında ümumi məlumat.... 568
2. Avstraliya və Yeni Zelandiyanın iqtisadiyyatının ümumi xarakteristikası..... 570
3. Avstraliya və Yeni Zelandiyanın iqtisadiyyatının quruluşu.. 573

XXVIII FƏSİL. İnkişaf etməkdə olan ölkələrin (İEOÖ) iqtisadiyyatı

1. İnkişaf etməkdə olan ölkələrin ümumi xarakteristikası.... 577
2. İnkişaf etməkdə olan ölkələrdə sosial-iqtisadi dəyişikliklər.. 580
3. İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafının differensiallaşması..... 584
4. İnkişaf etməkdə olan ölkələrin daxili bazarı..... 586

XXIX FƏSİL. Asiya ölkələrinin iqtisadiyyatı

1. Asiya ölkələrinin ümumi xarakteristikası..... 590
2. Cənubi-qərbi Asiyanın əsas sosial-iqtisadi inkişaf modeli və onların təkamül inkişafı..... 595
3. Cənubi Asiya ölkələrinin iqtisadiyyatı..... 606
4. Şərqi və Cənubi-şərqi Asiya dövlətlərinin iqtisadiyyatının ümumi xarakteristikası..... 610
5. Şərqi və Cənubi-şərqi Asiya ölkələrində dövlətin iqtisadi siyasəti..... 612

XXX FƏSİL. Latın Amerikası ölkələrinin inkişafı

1. Latın Amerikası (LA) ölkələrinin iqtisadi inkişafının ümumi xarakteristikası..... 620
2. LA ölkələrində iqtisadi inkişaf dinamikası və iqtisadi siyasətin əsas istiqamətləri..... 623
3. LA ölkələri arasında iqtisadi inteqrasiya Birliyinin yaradılması zəruriliyi..... 625
4. Braziliyanın iqtisadi inkişafının ümumi xarakteristikası..... 627
5. Meksikanın iqtisadi inkişaf modeli..... 637

6. Argentinanın iqtisadiyyatı..... 642
7. Kolumbiyanın iqtisadiyyatı..... 643
8. Venesuelanın iqtisadi inkişafının ümumi xarakteristikası.... 645
9. Çilinin iqtisadiyyatı..... 646

XXXI FƏSİL. Afrikanın iqtisadiyyatı

1. Afrika dövlətləri iqtisadiyyatının ümumi xarakteristikası..... 650
2. Afrika ölkələrinin əsas sosial-iqtisadi inkişaf modelləri..... 658
3. İqtisadiyyatın sahəvi quruluşu..... 660
4. Xarici iqtisadi əlaqələr..... 665
5. Demoqrafiya problemi..... 668

XXXII FƏSİL. Çinin iqtisadiyyatı

1. Çinin sosial-iqtisadi inkişaf modelinin ümumi xarakteristikası..... 671
2. Çinin iqtisadiyyatının sahəvi quruluşu..... 675
3. Çinin dünya iqtisadi əlaqələri..... 680

XXXIII FƏSİL. Hindistanın iqtisadiyyatı

1. Hindistanın iqtisadi inkişafının əsas cəhətləri..... 686
2. Hindistanın iqtisadi inkişaf mərhələləri..... 691
3. Hindistanın təsərrüfat mexanizminin xarakterik cəhətləri..... 693
4. Hindistanın xarici iqtisadi əlaqələri..... 695

XXXIV FƏSİL. Cənubi Koreya dünya iqtisadiyyatında

1. Cənubi Koreyanın iqtisadi inkişaf xüsusiyyətləri..... 698
2. Təsərrüfat mexanizminin əsas cəhətləri..... 703
3. C.Koreyanın dünya təsərrüfat əlaqələri..... 707

XXXV FƏSİL. Azərbaycanın iqtisadiyyatı..... 709

Dünya iqtisadiyyatı fənninin tədrisində ayrı-ayrı mövzular üzrə təqribi saat bölgüsü..... 716

Ədəbiyyat..... 718

Kərimov Cəlil, i.e.n.; Orucov Ayaz, i.e.n.; İsrafilov Həsən, i.e.n.
(IV, V, VIII fəsillər – Kərimova Tahirə;
XXXV fəsil – Məhərrəmova V.T., i.e.n.) .
Dünya iqtisadiyyatı. Dərslik, Bakı, «Nurlan», 2009.

Nəşriyyatın direktoru:	***Nadir Məmmədli***
Nəşriyyat redaktoru:	***Tahir Orucov***
Kompüterdə yığdılar:	***Ruhəngiz Əlihüseynova***
	Aygün Balayeva
Korrektorları:	***Tacir Qurbanov***
Kompüter tərtibçisi və	
texniki redaktoru:	***Ramin Abdullayev***

Yığılmağa verilmiş: 24.02.2009.
Çapa imzalanmış: 14.03.2009.
Kağız formatı: 60/84 1/32.
Mətbəə kağızı: №1.
Həcmi: 45,5 ç/v.
Tirajı: 500.
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş
və "Nurlan" NPM-də hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.